Salman VİLAYƏTOĞLU

# Oğuz Elinin müqəddəs ocağı: GÖYÇƏ

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

Bakı - 2006

**Salman Vilayətoğlu.** Oğuz Elinin müqəddəs ocağı: GÖYÇƏ
Azərbaycan dilində. 512 səh. Bakı 2006

# İÇİMDƏN GÖYƏRƏN DƏRDİMDİ GÖYÇƏ...

Yaddaşım Göyçənin zirvəsi sayılan Çalmalı dağın sinəsindəki bir yaşantıdan başlayır... Zaman hansı zaman idi?!. Bilmirəm. İlin hansı fəsli, ayın hansı günüydü?!. O da yadımda deyil. Yadımda qalan odur ki, Göyçənin çox nadir hallarda müşahidə olunan dumansız - çənsiz günlərinin biriydi... Çalmalının sinəsində nazlanan, suyu diş göynədən "Qumlu" bulağın başında məclis qurulmuşdu. Kimin şərəfinə, nə məqsədlə?!. Bunu da bilmirəm. Öz xəyal dünyasını yaşayan bir çocuq üçün, təbii ki, bunun bir fərqi yox idi. Həmin an mənim üçün əhəmiyyətli olan bircə şey vardısa, o da təbiətin qoynunda olmağım idi: uca bir zirvədəydim - dünya ayaqlarımın altındaydı. Göyçənin əsl əzəmətini də, zənnimcə, yaddaşımın başlanğıcı olan o anda duymuşam...

...Hara baxırdımsa xalı kimi rəngbərəng dağlar görürdüm. Yaxını da belə, uzağı da; sağım da, solum da gül-çiçəklə bəzənmiş yamyaşıl dağlardı. Arxam da dağdı - Çalmalı dağı. Kürəyimi ona söykəyib, baxdıqca baxıram ağlıma sığışdıra bilmədiyim bu genişliyə, bu gözəlliyə. Uzandıqca uzanır bu dağlar. Sonra nələr var? Kəsdirə bilmirəm. Gözlərim dağların sonsuzluğundan yorulanda aşağı baxıram. Yenə sonsuzluğa qədər uzanan göylük görürəm. Yamyaşıl xalıya bənzəyən o sonsuzluğun ortasında gömgöy bir ayna alışıb yanır... Uşaq marağım güc gəlir:

-O yanan nədi, dədə?

-Göyçə gölüdü...

-O boyda göl olar?

-Göyçənin özü də böyükdü axı...

-Bəs o dağlar haradı?

-Göyçə dağlarıdı...

-Bəs bu yandakılar?

-Ora da Göyçədi...

Uşaq təxəyyülümü qane etmədi bu cavab. Necə yəni, söykəndiyim dağ da Göyçədi, qənşərimdəkilər də? Bu göy sulu bulaq da Göyçədi, ayna kimi parlayan o göl də? Tərs kimi göydə də səmanın göylüyünə xələl gətirəcək bircə əlçim bulud yoxdu. Bu nədi, bütün dünya Göyçədimi? Daha heç kimə sual vermədim, bəlkə də artıq böyüklərin məni dinləmək istəmədiyini anlayıb susdum və bir tərəfə çəkilib öz suallarıma özüm cavab tapdım, ilk və son kəşfimə imza atdım: **göy qübbəsi Göyçə dağlarının**

**çiynində dayanıb!** Və elə o gündən Dünya məfhumu mənim üçün Cöyçə kəlməsinin sinoniminə çevrildi.

...Zaman hansı zaman idi?!. Bilmirəm. Birinci sinfimi bitirmişdim, ikincinimi?!. Onu da bilmirəm. Bildiyim odur ki, yay tətili idi və mən Göyçənin özü qədər uca sandığım Abbasəli babama qoşulub, anamın İrəvan yaxınlığındakı dədə-baba yurduna qonaq gedirdim. Avtobus düz gölün sahilindəki bir yeməkxananın qarşısında dayandı... Gözlərimə inana bilmədim. Qarşımda gömgöy göl, o tayda gömgöy dağlar... Ətraf isə süd rəngindədi. Torpaq da, daşlar da ağappaqdır... Uşaq marağım yenə güc gəldi:

-Bura haradı, baba?

-"Göyçə gölü"dü də...

-Gölü soruşmuram, kəndi deyirəm...

-Ağqaladı...

-Bu camaat hansı dildə danışır belə?

-Erməni dilində. Ermənilərdi də...

-Göyçədə də erməni olar?

Uşaq marağından daha çox heyrətdən doğmuşdu bu sual. Amma görünür babamın dürlü nağıl danışmağa həvəsi qalmamışdı. Odur ki, hövsələsizliklə dedi:

-Qasım müəllimi tanıyırsan?

-Niyə tanımıram ki...

-Bax, bu kənd onların dədə-baba yurdudur. İndi burda ermənilər yaşayır.

-Bəs Qasım müəllimgil kəndlərini niyə veriblər ermənilərə?

-Verməyiblər. Ermənilər bu kəndi yandırıb, camaatını da qovublar burdan...

-Heç adamı da öz kəndindən qova bilərlər?

-Qovarlar, bala... Arxası- köməyi olmayanı hər yandan qovarlar, - üzü gölə tərəf dayanıb deyirdi bunları babam. Bəlkə də dərdini, nisgilini Göyçə gölünə danışır, cavab tapa bilmədiyi suallara Göyçə gölündən cavab istəyirdi babam...

...Zaman hansı zaman idi?!. Bilmirəm. Bütün kənd dəymişdi bir-birinə. Sanki səfərbərlik idi, kişilər döyüşə gedirmişlər kimi əllərinə keçənlərlə yaraqlanıb, idarəyə tərəf axışırdılar. Babam da yığnaq yerinə tələsirdi. Uşaq marağım yenə məni dinc qoymadı:

-Nə olub, ay baba?

-"Üçtəpələr"i bizdən almaq istəyirlər.

Ayağımın yer tutan vaxtlarıydı, "Üçtəpələr" deyilən yeri həmyaşıdla-

rımla gəzib-dolaşmağa macal tapmışdım. Düzü, qeyri-adi heç nə görməmişdim o ərazidə. Daş-kəsəkli, əkinə-biçinə yararsız, bozumtul təpələrdi. Odur ki, öz təəssüratlarıma söykənib, çoxbilmişlik etmək istədim:

-Nə var ki, o "Üçətəpələr"də?!. Kimə verirlər, qoy versinlər də...

Şillənin ağzımın üstündən açılması o qədər ani oldu ki, indi, o hadisədən 30-35 il ötəndən sonra belə o anı xatırlaya, babamın həmin məqamda hansı hisslər keçirdiyini təsəvvürümdə canlandıra bilmirəm. Bəli, o gün babam ömründə birinci və axırıncı dəfə əl qaldırdı mənə və bəlkə də məhz o usta şilləsi mənim torpağa münasibətimin bünövrəsi, içimdəki Vətən sevgisinin toxumu oldu...

...Şuşada yaşadığımız zamanlarıydı. Yay tətillərinin birində dədəm babamgili dilə tutub Şuşaya köçürmək sevdasına düşmüşdü. Nənəm "daş atıb başını tutdu": mən əzizlərimin qəbrini qoyub heç yana getməyəcəyəm, mən Göyçəsiz yaşaya bilmərəm! Nəhayətdə, Göycə nənəmin Göyçə sevgisi bizi kəndimizə qayıtmağa vadar etdi.

...Bakıda qaynar tələbəlik illərimi yaşayırdım. Yol uzaq, gediş-gəliş çətin idi. Kəndimizdən Bakıya gəlişimiz ən azı 15 saat, Bakıdan kəndimizə dönüşümüz isə ən azı 24 saat vaxt aparırdı. Bu azmış kimi 2-3 nəqliyyat dəyişmək məcburiyyətindəydik. Amma bütün bu əziyyətlərə baxmayaraq, üççə gün boş vaxt tapan kimi əksər göyçəli tələbələr kəndə üz tutardılar. Çox vaxt kəndi sadəcə seyr etməyə belə vaxt qalmazdı, günlərimiz elə yollarda keçərdi. Amma gedərdik, qanadlana-qanadlana gedərdik Göyçəmizə sarı... Bircə udumluq yurd havası üçün gedərdik Göyçəmizə...Ocaq istisinə bircə gecə qızınmaq üçün üz tutardıq Göyçəmizə... O bircə udumluq yurd havası daxilən, mənən təmizləyərdi sanki bizi; o bircə gecəlik ocaq istisi illərə, aylara yetəcək qədər güc verərdi bizlərə...

...Uzaq Uralda işləyəndə də, Şərqi Almaniyada olanda da şirin yuxularım Göyçəylə bağlı olub. Sinəmdə bir sevgi- Göyçə sevgisi, gözlərimdə bir həsrət- Göyçə həsrəti gəzdirmişəm; cənubundan şimalına, şərqindən qərbinə dolaşdığım sovetlər imperiyasının hansı diyarına ayaq basmışamsa, orada bir Göyçə bənzərliyi aramışam, amma... Göyçəyə bənzər bir yer görəmmədim ki, görəmmədim...

...Babamı son mənzilə yola salırdıq. Qohum-əqrəba, el-oba yığışmışdı. Cənazə namazı zamanı dədəmin arxasında dayanmışdım. Hiss edirdim ki, arxasından dağ uçub və mən o dağın əzəmətini əvəzləyəcək gücdə deyiləm. Pəhləvan cüssəli, heç kimin heç bir vasitəylə əyə, sındıra bilmədiyi dədəm bir andaca yüz yaş qocalmışdı sanki...

Hərdən dədəm min bir bəhanəylə yolunu qəbristanlıqdan salardı. Bilirdim niyə gedir. Hər xəlvəti gedişindən sonra açıq-aşkar qıvraqlaşırdı.

O soyuq başdaşını siləndən, babamın son mənzili olan torpağa sığal çəkəndən sonra güc gəlirdi qollarına, təpər yığılırdı dizlərinə sanki. Nə hikmət vardı o daşda, nə qüdrət vardı o bircə əlçim torpaqda, bax onu kəsdirə bilmirdim...Amma 1985-ci ilin o yay günlərində artıq ağlımın kəsdiyi bir mütləq həqiqət vardı: daha nə dədəmi, nə də nənəmi bu kənddən ayırmaq mümkün deyil...

Babamın itkisindən sonra dədəmə sanki ilahi bir güc gəlmişdi. Dayanmadan - durmadan, usanmadan - yorulmadan daş üstünə daş qoyur, hər daşında babamın əllərinin izi olan evimizi ocaqlaşdırır, yurdlaşdırırdı; kəndimizdə adnan deyilən bağımızdakı hər ağacın üstündə əsim-əsim əsir, yeni tinglər basırırdı. Söznən deməsə də, niyyəti aydın idi: bizi ocağa bağlayan telləri möhkəmlədirdi dədəm. Xüsusən də mənə aid idi bu əyani dərs. Bu dərsdən sonra mənim o ocaqdan uzaq düşməyə sadəcə mənəvi haqqım yox idi...

...İrəvanda, "Sovet Ermənistanı" qəzetinin redaksiyasında işlədiyim vaxtlar hər həftə 200 kilometrlik yolu basa-basa kəndə baş çəkərdim. Cəmi bir gecəlik bu ziyarətlərdən sonra sanki özümdə yeni güc hiss edirdim; yolun ağrı-acısı belə eynimə gəlməzdi. Bircə həftə getməyəndə içimdən hansı tellərinsə qırıldığını, nəyinsə çatmadığını açıq-aşkar duyurdum. O bircə gecəlik ziyarətlər əlavə enerji mənbəyi idi sanki mənim üçün, bircə ovuc Göyçə suyu mənən təmizləyirdi məni, həyat başqalaşırdı gözümdə. Nə sirr idi, nə hikmət idi, bilmirəm. Heç bu günün özündə də o hikməti izah etmək iqtidarında deyiləm. Bildiyim tək bircə şey var: **Göyçə dünyanın bir sirri-müamması idi və o sirri açmaq heç vaxt heç kimə nəsib olmadı...** Bundan sonrası da bəlli...

İrəvanda işlədiyim illər mənim üçün bir xoş tale fürsəti, ömür amanıydı. Göyçəni də, Ağbabanı da, Loru-Pəmbək ellərini də, Çuxur Sədd ovalığını da, Dərələyəzi də, Zəngəzuru da oba-oba, yaylaq-yaylaq gəzmək; qədim-qayım yurd yerlərimizin tarixçəsindən soraq tutmaq, qeyrətli, dizli-dirəkli müasirlərimlə tanış olmaq fürsətim vardı. Və o fürsətdən qədərincə istifadə etməyə çalışırdım. O yurd yerlərinin əzəmətini göz yaddaşıma, tarixini, folklorunu söz yaddaşıma hopdururdum zərrə-zərrə və beləcə, içimdəki yurd sevgim də boy atırdı qətrə-qətrə...Və o sevgi ilə yanaşı bir dərd də cücərirdi içimdə. Açıq-aşkar hiss olunurdu zamanın qara əsintiləri. Qeyrətli oğulların gözümçıxdıya salınması, düşünən beyinlərin yurddan perik salınması çəkilməsi mümkün olmayan bir dərd idi. Göyçəni gəzə-gəzə, hüsnünü, qeyrətli övladlarını vəsf edə-edə içimdəki yurd sevgisi nə qədər boy atırdısa; gördüklərim bu yurdun taleyi sarıdan nigarançılığımı bir o qədər artırırdı...

...1988-ci ilin qarlı fevralı idi. Artıq içimizdəki səksəkə gerçək yaşantılarla əvəz olunmuşdu. Qara niyyətlilərin qara nəfəsi yurd yerlərimizi açıq-açkar qarsalayırdı. "Durna köçü görən nə vaxt qayıdar?" adlı irihəcmli yazım dərc olundu. Almalı deyilən bir yurd yerinin timsalında Ermənistandakı cəmi türk obalarının qara taleyinin bəri başdan söylənmiş ağısı, vida şərqisi idi o qəzet yazısı. Bunun ardınca isə "Yurd itirmək qorxusu var ellərin..." adlı həyəcan siqnalı süzüləcəkdi qələmimdən. Və nakam taleli o yazı əzəli-əbədi türk şəhəri olan İrəvanda yazacağım son yazı olacaqdı. Gecəynən səhifədən çıxarılaraq, əlyazması və makina variantı Mərkəzi Komitəyə aparılmış o yazının taleyi qundaqda qanına qəltan edilmiş türk çocuqlarının taleyinə bənzəyəcəkdi. O yazıya görə redaktorumuz Zərbəli Qurbanovun başı çox ağrısa da, məni zərrəcə incitmədən İrəvandan sağ-salamat çıxmağıma şərait yaratdı və özü Bakıya köçəndə o nakam taleli yazının əlyazmasını da özüylə gətirdi. Amma... Zərbəli müəllimin bütün cidd-cəhdlərinə baxmayaraq, Azərbaycanın o zamankı dövrü mətbuat orqanlarının heç biri ermənilərin qəzəbinə səbəb olmuş o yazını dərc etmədi...

Göyçə adlı əsrarəngiz xalçaya xal düşdüyü, ilməsinin pozulub, çeşnisinin dağıldığı xəbərini İrəvanda aldım. İki saatlıq yolu keçib pərişan halını görmək isə mənə müyəssər olmadı. Yol-iz, bənd-bərə bağlanmışdı. Qayda-qanun yaratmaq adı ilə yollara düzülmüş rus əsgərləri, əslində Göyçənin qollarında qandala, ayağında buxova dönmüşdülər. Respublikanın müxtəlif bölgələrindən səfərbər edilərək Basarkeçərə göndərilən silahlı "Krunk"çular Göyçəyə heç bir sorğu-sual olmadan buraxılır; yurd-yuvasına, el-obasına, ata-anasına həyan durmağa tələsən silahsız türk oğullarının üzünə isə qapılar bağlanırdı. Axırıncı dəfə üççə gün əvvəl ziyarətində olduğum kəndimizdə artıq kimsənin qalmadığına özümü inandıra bilmirdim. Telefonlar inadkarcasına susur, Göyçəyə getmək üçün komendanta müraciətlərim cavabsız qalırdı. Amma mən o kəndə mütləq getməliydim; heç olmasa halallaşmaq üçün. Getdim də... Amma iki saatlıq doğma yollarla yox...

Düz iki həftə çəkdi mənim yolçuluğum. Dostum və həmkarım Səməd Rzaoğlu ilə birgə min bir zillətlə SSRİ-TÜRKİYƏ sərhəd zolağına keçərək, ehtiyat hərbi yolla Sədərəyə, oradan isə Naxçıvana gəldik. İki gün sonra güclü hərbi mühafizə altında Culfadan Zəngilana yola salınan qaçqın eşalonunun sərnişinləri arasında biz də vardıq. Zəngilandan Bakıya getmək cəhdimiz isə fayda vermədi. O zaman Moskvanın Azərbaycandakı canişini funksiyasını yerinə yetirən Ə.Vəzirov qaçqınların Bakıya buraxılmaması barədə göstəriş vermişdi. Gəncəyə üz tutdum. Yenə komen-

dant postları, yenə rus əsgəri formasında erməni gədələri...Nəhayət, üç gün soraqlaşandan sonra dədəmlə tapışdıq və sübh tezdən kəndimizə üz tutduq.

...Bütün Azərbaycanın yük maşınları Gədəbəydədir. Əbdürrəhman Vəzirov deyilən Qorbaçov əlaltısının növbəti "yanımcıllıq" aksiyasıdır. Ernəmilərin nizami hərbi hissələri ilə üz-üzə qalmış millətə kömək durmaq əvəzinə, "çıxarın o camaatı ordan",- deyibmiş. Vəzirov üçün "ordan" anlamına gələn o yerlər isə elə-belə yerlər deyildi. Min-min illər boyu qayalaşmış, torpağın təkinə kök atmış yurd yerləri idi. Və əzəli sahibləri o yerlərdən uzaqlaşa bilmirdilər; torpağın təkinə işləmiş min illik bağları qırmağa gücləri yetmirdi... Üzü Azərbaycana gedə-gedə gözlərini arxada qalmış yollardan yığa bilməyən binəvaların pərişan durumuna biganə qalmaq mümkün deyildi. Cəmi üç gün sonra özümüzün də bax belə pərişan görkəmdə geri dönəcəyimizi hələ ağlıma sığışdıra bilmirdim...Bu yolları üzü Göyçəyə tərəf son dəfə getdiyimdən də hələlik bixəbərdim...

Bu da kəndimiz. Yalqızlıqdan yazıqlaşıb, büzüşüb sanki... Lal sükutdan ürpəşir bədənim, üşənirəm. Elə bil dədə-baba yurduma yox, yad bir yerə gəlmişəm. Kəndimizdə ilk ermənini görəndə isə hansı hisslər keçirdiyimi sözlə ifadə etmək sadəcə mümkün deyil. Yox, qorxu deyildi; nifrətin, heyrətin, təəccübün qovuşuğundan qaynaqlanan qəribə bir hiss idi bu. Dədəm açıq-aşkar tələsir. Başa düşürəm, məndən nigarandır. Məni bu "qan çanağı"ndan mümkün qədər tez uzaqlaşdırmaq istəyir. Amma nə qədər tələssə də, hərəkətlərində bir ləngllik var, sanki zamanı saxlamaq, yurdla görüşünü əbədiyyətə qədər uzatmaq istəyir. Hər daşı qollarından, çiynindən keçmiş evimizin başına dörd dolanır. O gecə sinif yoldaşım Nuru Çobanov da gəlib çıxdı kəndə. Atasının artıq köçdüyünü bilib, bizə dönmüşdü. Əslində heç Nurunun həmin gecə kənddə gecələyə biləcəyi başqa bir yer də yox idi...O gecə bizim doğma ata-baba yurdumuzdakı son gecəmiz idi. Nə qədər ağrılı olsa da, bu gerçəkliyi hər birimiz tam aydınlığı ilə dərk edirdik. Amma hansı bir sövq-təbii hissləsə özümüzü müvəqqəti səfərə hazırlaşanlar kimi aparırdıq. Bəlkə də özümüzü sındırmamaq üçün, bəlkə də dərdin ağırlığından yayınmaq üçün edirdik bunu, bilmirəm... Fakt o idi ki, özümüz özümüzü aldadırdıq; müqəddəs bir yalanın istisiylə ovundururduq... Bəlkə də o gecə bizi ovudan o yalan qayıdış inamımızın ilk cücərtisi, özünəinam deyilən ilahi bir gücün ilk işartısı idi. Hər nə idisə, doğma yurdumuzda, doğma ocağımızda keçirdiyimiz son qərib gecənin gerçək yaşantısı idi bu...

...Vədə tamam idi. Dədəm qapıları bağlayıb, neçə ildən bəri həyətbacamızın sədaqətli gözətçisi olmuş iti zəncirdən açdı. Bizim yola hazır-

laşdığımız müddət ərzində lal-dinməz dayanmış zavallı heyvan müsibətin ağırlığını yalnız indicə hiss edibmiş kimi bir nalə qopardı ki, gəl görəsən... Üzünü dədəmin ayaqlarına sürtür, şırmanır, əllərini yalamaqdan doymurdu. Açıq-aşkar bizi bu yoldan saxlamağa çalışır, sanki dil açıb, “getməyin”,- deyə yalvarırdı...Dözüləsi deyildi... Dədəmin ağır-ağır uzaqlaşdığını görüncə, o da sakitcə həyətə doğru çevrildi və...Üzünü göylərə tutub elə uladı, elə nalə çəkdi ki, yer ayaqlarımın altından qaçdı...1988-ci il, dekabr ayının 7-si, saat təxminən 11 radələriydi... Gəncəyə dönüşümüzdə eşitdim ki, elə həmin anlarda Leninakanda dəhşətli zəlzələ olub. O zavallı itin ahımı tutdu onları?!.

...Dədəm itin naləsinə dözə bilmədi. Baxışlarını yerdən ayırmadan, bu mənzərə önündə heykəl kimi qurumuş bizlərə, Nuru müəllimlə mənə,- siz yola çıxın, mən də bir azdan gəlirəm,- dedi.

Anladım ki, qəbristana, babamın məzarıyla vidalaşmağa gedir. Mən də getməliydim, amma... Dədəmi tək buraxmaq məcburiyyətindəydim. Mən yanında olsam, ürəyini boşalda bilməyəcəkdi, babamın uzandığı torpağa iki gilə göz yaşı əmanətləyə bilməyəcəkdi dədəm. Amma əmanətlənməliydi o göz yaşları; heç omasa doğmalarının son nişanəsi, son əmanəti, son təsəllisi kimi qalmalıydı o göz yaşları o torpaqda...

...Bir təhər dözürdük. Evsizliyə, işsizliyə, vətənsizliyə - hər şeyə, hər şeyə bir təhər dözürdük. Daha doğrusu, ömrümüzü başabaş dözüm deyilən inadkarlığa xərcləyirdik. Dözümə söykənib ümidimizi ölməyə, inamımızı öləziməyə qoymurduq. Dözməyən təkcə nənəm idi. Gözdən yayındımı, üzü dağlara sarı dayanıb göz yaşlarına güc verər, babamın nahaqq dünyayla vidalaşdığı gün çərçivəyə salınmış əksi ilə üz-üzə dayanar, saatlarla dərdləşərdi; sonra yenə üzü dağlara dayanıb saatlarla yollara baxardı. Fəhmlə müəyyənləşdirmişdi Göyçənin yerini Göycə nənəm. Göyçə qibləsi olmuşdu Göycə nənəmin. Gözləri Göyçə yollarında, qolları Göyçəyə doğru uzanılı idi Göycə nənəmin. O yollardan gediş-gəlişin kəsilməsi, ayrılıq deyilən məchulluğun sonsuzluğa qədər uzanması səbrini tükədirdi Göycə nənəmin. Qoşa qardaşlarını, istəkli ömür-gün yoldaşını o torpaqlarda qoyub gəlmiş bu nurani insanın tale sınaqları isə tükənmirdi ki, tükənmirdi...Göyçə nisgili azmış kimi, tale ömrün ixtiyar çağında nəvə-nəticə itkisinin ağrısını da yaşatdı ona. Sanki ilahi bir qüvvə ciyərparalarını bu torpağa kömməklə onu bu yurda bağlamaq istəyirdi. Amma cəhdi əbəsiydi fələyin. Nənəm yovuşa bilmirdi bu yurda. Gözü yollardaydı Göycə nənəmin və səbirsizliklə durna köçünün Göyçəyə dönüşünü gözləyirdi. O dönüş ləngidikcə ləngiyir, ömür möhləti isə gödəldikcə gödəlirdi... Son vaxtlar lap kövrəkləşmişdi. Doğma eldən bircə

nəfər gördümü, göz yaşları leysana dönüb təravətini hələ itirməmiş yanaqları boyunca ələnərdi. Ümidini üzmürdü, müharibənin qurtaracağı günü səbirsizliklə gözləyirdi. İkinci dünya müharibəsində də babamın yolunu beləcə gözləmişdi. İndisə babamın tənha ruhu gözləyirdi onun yolunu. Babam onun gözünü yolda qoymamışdı. 1939-cu ildə Fin müharibəsindən başlayaraq Berlinə, oradan da Mancuriyaya qədər döyüş yolları keçsə də, nənəmin yanına dönmüşdü. Nənəm isə qayıda bilmirdi; onu gözləyən ruha doğru bircə addım da ata bilmirdi. Bu əlacsızlıq, bu mümkünsüzlük idi nənəmin səbrini tükəndirən, onu odsuz-alovsuz yandıran. Bununla belə, sanki fələklə ölüm-dirim savaşına qalxmışdı nənəm. Onun üçün qürbət olan bu vətəndə ölməyi ağlına belə gətirmirdi nənəm. Yurdsuzluğa dözməyib dünyasını dəyişən tay-tuşlarını, rəfiqələrini son mənzilə yola salandan sonra, bir qayda olaraq onların ruhunu qınayardı: "Hara tələsirdin, a günü qara, bu torpaqda rahat yata bilərsənmi, bu torpaqdan sənə gorgah olarmı?!."...Vaxt uzanır, nənəmin həsrətinin sonu isə görünmürdü ki, görünmürdü. Nəhayət, yurda uzanan yollar yolluqdan çıxanda, çığırları-izləri ot basıb çəmənə-çölə qarışdıranda, nənəmin yurda uzanan qolları da heydən düşdü. Ayrılığın yeddinci ilini yaşaya bilmədi nənəm. Elə bil zalım fələk də onun inadını görüb qovğa açmışdı. Qollarına qənim kəsildi ki, Göyçəyə doğru uzatmasın; dizlərini taqətdən saldı ki, çölə çıxıb üzü Göyçəyə dayanmasın. Ağrılar-əzablar içində qovrulurdu... Amma ruhu vəfasız dünyayla barışmırdı ki, barışmırdı Göycə nənəmin. Gün ərzində bircə saat da çimir etmirdi, onu ziyarət etməyə gələnlərin kimliyindən asılı olmayaraq, hamı ilə söhbətinin bir mövzusu vardı: GÖYÇƏ. Beş-on dəqiqə huşa gedəndə də o yurdda qəribsəyən ruhları haraylayırdı...Əcəllə oyun oynayırdı: dilində onu səsləsə də, daxilən əcəllə qovğadaydı nənəm. Əcəli heç vəchlə yaxına buraxmırdı, Əzrayıla can vermirdi, can vermək istəmirdi nənəm. Saysız - heabsız iynə - dərmanlardan cana doysa da, şiddətli ağrılardan zinhara gəlsə də, can vermək istəmirdi, bu torpaqda əbədiyyət tapmaq istəmirdi nənəm. Vəfasızlıq etmək istəmirdi nənəm. Özünə babamın yanında yer saxlatmışdı, qoşa başdaşı qoydurmuşdu sağlığında. “Bir adamın iki qəbri olmaz”, - deyirdi, onu gözləyən qəbrində uyumaq istəyirdi nənəm. O qəbir də, yəqin ki, həsrətlə gözləyirdi Göycə nənəmin yolunu, tilsim kimi çəkirdi onu, qoymurdu başqa torpağa qovuşmağa. Babamın tənha ruhu haraylayırdı onu. Nənəm də təbii ki, bütün ömrü boyu olduğu kimi çıxa bilmirdi onun sözündən. Beləcə, bu nahaqq dünyanın yaxasından iki əlli yapışmışdı, əcəllə əlbəyaxa döyüşə çıxmışdı, ölümlə cəngə girmişdi nənəm. İstədiyi nə idi? Halal qəbri, babamın yanında bir əlçim torpaq, anasının, qardaşlarının ruhu

dolaşan məzarlıqda bircə nəfərlik yer. Bu yeri də çox gördü ona zalım fələk...Daha qovğaya heyinin qalmadığını hiss etdiyi sonuncu gün radiodanmı, televiziyadanmı mənim səsimi eşitmək istəyib. İşin tərsliyindən həmin gün mən efirə çıxmamışdım. Bunu da dərdinin üstünə dərd eləyərək, köçüb bu dünyadan nənəm. Onu son mənzilə yola salmağa da tale mənə fürsət vermədi.

...Və beləcə, nənəm mənə vəsiyyət əvəzi üç dərd əmanətlədi: özünün Göyçə nisgilini, son dəfə səsimi eşidə bilməmək küsüsünü və bir də eşidə bilmədiyim son sözünü...Eşidə bilmədiyim o son söz mənim bundan sonrakı tale payım, içimdən göyərən Göyçə dərdimin əbədiyaşarlıq rəmzidi. Yəqin ki, elə belə də olmalıydı. Nənəmi çiynimdə son mənzilə aparmaq təsəllisini yaşamamalıydım ki, onun Göyçə nisgilini ömrüm boyu çiynimdə daşımaq məcburiyyətində olum. Bəli, bu yükü daşımaq mənim müqəddəs borcumdur. Ömür vəfa etsə nənəmin Göyçə dərdini aparıb yolunu gözləyən boş qəbrində, babamın yanında dəfn etməliyəm. Özümə qismət olmasa da, bu borcu ödəməyi özümdən sonrakılara əmanətləməliyəm...

...Nənəm məsum ruhu tənhalıqda qovrulan Ülvisinin yanında yatır. Qərib ruhlarla dolu bir qəbristandı bura. Bura hər dəfə yolum düşəndə qəlbim oyum-oyum oyulur. Digər məzarlıqlardan fərqli olaraq burada bir başdaşına belə etinasız baxmaq mümkün deyil. Əsasən Ermənistandan və Özbəkistandan didərgin düşüb, taleyin qaçqınlıq qismətini yaşamış binəsiblərin qəbirləri sıralanıb burada. Və o qəbirlərin necə abadlaşdırılmasından, necə sahmanlanmasından asılı olmayaraq, hamısının görkəmində bir yazıqlıq, bir küskünlük, bir kimsəsizlik duyulur. Burda insanın ağlına gələn ilk ifadə "Qəribin qəbri də kök atmaz, babam!!!" misrası olur və o qəbristandan min kilometrlərlə uzaqlaşsan belə, burada yaşanmış ilk təəssüratdan ayrılmaq, bu tək misranın üzüntülü sehrindən qopmaq olmur...

...O gün nənəmin ziyarətinə gəlmişdik: ilk dəfə onsuz qarşılayacağımız Bahar bayramı üçün halallıq almağa toplaşmışdıq. Bacılarım nənəli, bibilərim analı günlərinin həsrətini ağlayır, üzünü bibisinin qəbrinə sürtərək nalə çəkən Nübarsa atasının, əmisinin - Göycə nənəmin qoşa qanad sandığı qardaşları Şahmarla İbrahimin ruhlarını haraylayırdı. Və sanki o harayın doğmalığını, məhrəmliyini hiss edib bu yurddakı Göyçə həsrətli ruhların hamısı həmin gün Hacıməlik kənd qəbristanına toplaşmışdılar. El ağsaqqalı Aydın Məmmədovdan tutmuş Qaraqoyunlunun sonuncu şəhidi Məzahim Qəhrəmanova qədər; ayrılıq fərağına dözməyərək, didərginlik tariximizin lap əvvəllərindəcə bu nahaqq dünyadan üz döndərmiş Seyid Sənəmdən tutmuş ilk şəhid Daşdəmir İmanova qədər cəmi yurddaşlarımın Göyçə - Qaraqoyunlu həsrətli ruhları; Şəmkirdən Bakıya, Ba-

kıdan Rusiya ucqarlarına qədər səpələnmiş qərib ruhların hamısı uzaq yolları bir göz qırpımında yaxın edərək, o qəbristanlıqda cəm olmuşdular sanki. Bu dərd doğmalığı, qərib ruhların bu səssiz-səmirsiz üsyanı içimdəki Göyçə dərdimi təzələmişdi, dərdim bir boy da ucalmışdı. O ruhlar vəfasız dünyayla can sirdaşlığı edən soydaşlarının unutqanlığına, müqəddəs borclarını yaddan çıxarmalarına etiraz edirdilər sanki...Və bu qərib, məsum ruhların sirr-sehri zaman buxovlarını çığnamışdı: bu dünyanın gerçəkliyindən sıyrılıb yeddi ilin uzaqlığındakı yurdlu-yuvalı, elli-obalı günlərimə qayıtmışdım...Evimizi, bağımızı gəzmək, üzərində babamın, nənəmin əllərinin izi olan yurd daşlarına üz sürtmək, ocağımıza səcdə etmək şansım vardı. Ulularımdan üzü bəri bu torpaqda əbədiyyət tapmış, tanıdığım və tanımadığım hər kəslə - ömrü boyu gözləri yollardan yığılmayan, beş oğul dağı yaşamış Afayat qarı, nakam taleli həmyaşıdlarım İlqar Qaytaran oğlu, Lütfəli İmamqulu oğlu, İsfəndiyar Azadxan oğlu, Mehbalı Xıdır oğlu və dünyadan gözü doymamış onlarca digər yurddaşımla üz-üzə, göz-gözə dayanmaq, onların incik ruhlarından əfv diləmək fürsətim vardı o anda...O ruhlar mənə övladlıq, dostluq, yoldaşlıq borcumu bir daha xatırlatmağa yığışmışdılar sanki...

...Beləcə, o gün, 1996-cı ilin martında nənəmin qəbri önündə dayanıb doğma kəndimizin dünyadan köç etmiş bütün övladlarının o yurddakı nisgilli, bu yurddakı qərib ruhları ilə dərdləşir, onlara söz verirdim. Pərən düşmüş ruhları bir yerə yığa biləcək, Göyçə havasına kökləyə, Göyçə nəfəsinə isindirə biləcək bir yaddaş ağısı yazacağıma söz verirdim...

...Bu kitab da əslində elə həmin yaddaş ağısıdır. Burada oxuyacağınız hər söz, hər kəlmə bir nisgilli, bir qərib ruha ehtiramın; hər sətir, hər cümlə bir ocağa, bir yurd yerinə səcdənin ifadəsidir. Bu kitabda nə varsa mənim yox, o ruhlarındı - nisgilli, qərib, pərən düşmüş pərişan ruhların... Ziyarətinə gedə bilmədiyim, dərdini bölüşə bilmədiyim, hayına yetə bilmədiyim yurddaşlarıma mənəvi borcumun; Göyçədə əmanət qoyub gəldiyim babam Abbasəlinin, Gəncəbasarda uyuyan nənəm Göycənin, Bakıda torpağa əmanətlədiyim anam Ətlazın qərib, küskün ruhları qarşısındakı bitib-tükənməyəcək övladlıq borcumun əvəzidi ömrümün on ili bahasına başa gəlmiş bu yaddaş ağısı...

Salman VİLAYƏTOĞLU
21.XI.2005.

# DÜNYANIN SİNƏSİNƏ HƏKK OLUNMUŞ ƏBƏDİ İZLƏR

**"-Ey türk, Oğuz bəyləri! Eşidin! Başımız üstündə göy çökməzsə, ayağımız altında torpaq dəlinməzsə, sənin elini, sənin tirəni kimsə poza bilməz!.. Özünə qayıt, türk oğlu! Sən özünə qayıdanda böyük olursan! Özünə qayıt! Özünə qayıt! Özünə qayıt!".**

Qüdrətli sərkərdə, müdrik dövlət xadimi Bilgə Xaqanın ruh oyadan, yaddaş silkələyən bu hayqırtısına heyrətamiz türk tarixinin hər qatında, hər dolayında rast gəlinir. Özünəqayıdışın isə yalnız bir yolu var. Milləti kökə bağlayan tellərin, əcdadların irsinə calanan izlərin bütövlüyündən keçir bu yol. Elin-obanın göz yaddaşından, xalqın söz yaddaşından, yurdların daş yaddaşından keçir bu yol.

YURDu VƏTƏNLƏŞdirən, VƏTƏNi DÖVLƏTləşdirən mayadır millətin yaddaşı. O maya nə qədər saf, nə qədər təmiz olarsa, Vətən o tənasübdə əyilməz, Dövlət o tənasübdə əbədi olar. Xalqın yaddaşı tarixi gücün, qüdrətin saxlancıdır. Nəsillər qəlbinin odunu, duyğularının nurunu, qılınc və qələm tutan əllərin gücünü, qüdrətini əmanətləyib o saxlanca. Dastanlardan gələn nərələri eşidəndə, ulu şərqiləri dinləyəndə, bir bayatının sehrinə düşəndə qəlbin coşub, qanın qaynayırsa, deməli, xalqın yaddaş qapıları açılır üzünə; mənsub olduğun xalqın tarixi gücünə qovuşursan, o güclə silahlanırsan.

Öz yaddaş gücüylə silahlanan xalqın məğlubedilməzliyi tarixi təsdiqini tapmış həqiqətlərdəndir. Bu məğlubedilməzliyin başlıca şərti isə tarixin bütöv şəkildə- yozumlarsız, fanatikcəsinə uydurmalarsız öyrənilməsidir. Nədir tarix? Xalqın tale xalısı, keçmişdən bu günə, bu gündən gələcəyə uzanan yollardır, dünyanın sinəsinə həkk olan əbədi izlərdir tarix. İzləri seçilməyən, yolları görünməyən xalqın tarixi, bir növ, ilməsi dolaşan - çeşnisi pozulan xalıya bənzəyir. Yolunun bütövlüyünü qoruyan xalqlar ucadan-uca, izinin əbədiliyi qayğısına qalmayanlar isə məzlumdan-məzlum olurlar bu dünyada.

Keçmişi aramaq nə qədər vacibsə, bu günü yaddaşlara hopdurmaq ondan da zəruridir. Unutmuşuq ki, yaşadığımız dövrün tarixini bizdən yaxşı heç kim yaza bilməyəcək və əgər bizə gün kimi aydın görünən həqiqətlər elə bu gün tam aydınlığı ilə gələcəyə əmanətlənməsə, bunu bizə heç kim bağışlamayacaq. Bugünkü tarix barədə sabah yazılacaq əsərlər quru statistikadan, basmaqəlib xronologiya çərçivəsindən başqa bir şey olmayacaq və gələcək nəsillər quru rəqəmlər arasındakı boşluğu doldurmaq

üçün, bu gün biz çəkdiyimizdən qat-qat çox əziyyət çəkməli olacaqlar. Tarix əməllə sözün vəhdətindən dikəlir. Bu iki başlıca amildən biri olmayanda, digəri də itirir öz dəyərini. Tarixin hansı dönəmindəsə türk oğlu ulu əcdadlarının ona əmanətlədiyi bu hikmətdən uzaq düşmüşdü. Acı nəticəsi də göz qabağındadır. Qılınca qurşanan türk oğulları əməlləriylə tarix dikəldərkən, kilsə küncünə qısılan şərniyyətlilər sözə, qələmə güc vermişdilər. Ulu xaqanlarımızın yadigarı olan uludan ulu kitabələrimizdən öyrəndiklərini bizdəncə oğurladıqları əlifba ilə öz dillərinə köçürə-köçürə, min-min illik yolumuzun bəhrəsi olan hikmət xəzinələrimizi, məxəzlərimizi də məhv etməyi unutmurdular. "Özünə qayıt, türk oğlu! Sən özünə qayıdanda böyük olursan" hayqırtısının qarşısına keçilməz sədd çəkirdilər, dünənimizlə bu günümüz arasında keçilməz yarğanlar qazırdılar. O yarğanlarda itmiş izlər bu gün bizim yaddaşımızın bütövləşməsinə imkan vermir. Bugünkü nəslin diqqətindən yayınan ən adi məsələlər, sabahkı nəsillərin yaddaş bütövlüyü yolunda əngəl olacaq. Deməli, Ulu Yaradanın hökmüylə əcdadlarının "Özünə qayıt" harayı qulağına çatıb, ruhu oyanmış bugünkü nəslin çiyninə tarixi məsuliyyət düşür: həm oyanmış yaddaşımızın yaralarına məlhəm aramalı, həm də gələcəyimiz naminə sağlam, yenilməz, bütöv yaddaş abidəsi dikəltməliyik.

YADDAŞ QALAMIZın bərpasına ehtiyac duyulan bürclərindən biri də dünənə qədər bizim ola-ola qədrini bilmədiyimiz, bu gün isə doğma olduğu qədər də uzaq olan, əlimiz çatmayan, ünümüz yetməyən GÖYÇƏ - OĞUZ ŞAHƏNŞAHLIĞInın tarixidir. O tarix ki, heç vaxt heç kim tərəfindən öyrənilməyib; o tarix ki, hansı bir qəzavü-qədərləsə heç kimin diqqətini çəkməyib. Bəlkə də o yurdun özü gözdən iraq olduğu üçün, tarixi də diqqətdən uzaq düşüb. Bəlkə də tamam qeyri bir səbəbdən, o yurdun itirilmə qorxusu olmadığından xüsusi diqqətə ehtiyac duyulmayıb; necə deyərlər, yaranışından üzü bəri öz ilkinlik bəkarətini qoruyub saxlaya bilmiş bu Ulu Yurd sarıdan heç bir nigarançılıq olmadığı üçün, onun salnaməsini yazmağa tələsməyiblər, elə hesab ediblər ki, bu iş nə vaxt olsa görülə bilər. Bəlkə də... Hər halda, səbəbin vəsiləsindən, motivasiyasından asılı olmayaraq, eramızın ikinci minilliyinin sonlarına qədər türklərin əzəli-əbədi məskəni olmuş bu yurdun tarixinin öyrənilməsinə, bu yurdla bağlı toponimlərin incələnməsinə kimsə səy göstərməyib. Halbuki min illər boyunca sürən basqılara və məqsədli təhriflərə baxmayaraq, OĞUZ ELİnin tarixi minilliklərlə ölçülən əsatirlərinin, nağıl və əfsanələrinin izləri məhz o yurdda bəkarətinə əsla xələl gəlmədən yaşayıb. Bunlar faktdır, danılması, inkarı mümkünsüz olan fakt! Bu barədə təfərrüata hələ varacağıq. Hələliksə ilkinlikdən başlayaq, Göyçə kəlməsinin

bir toponim kimi dilimizə nə vaxt daxil olduğuna, özündə hansı mətləbləri ehtiva etdiyinə aydınlıq gətirək. Doğrudan da maraqlıdır:

**"GÖYÇƏ" kəlməsi özündə nəyi ehtiva edir?**

Mövcud "elmimiz" o qədər sərbəstlik verib ki, bu toponimin ən ucuz yozumları belə "fundamental əsas" kimi "sübutlanıb". Güya Göyçə adı o yurd yerinin füsünkar gözəlliyinə verilən "qiymətin", "göyçək mahal" tərifinin yerli dialektə uyğunlaşmış variantıymış. Başqa bir "elmi incələməyə" görə, yamyaşıl dağların əhatəsindəki gölün "göy" sularından götürübmüş bu mahal adını. Təbii ki, bu yozumların hər birinin öz "həqiqətləri", öz "arqumentləri" var. Amma bu "elmi sübutlar"ın heç birində tarixi faktlara istinad olmadığından, onların əsas kimi qəbul edilməsi də mümkünsüzdür. Ən azı ona görə ki, "göyçək yurd", "göyçək çəmən", "göyçək mahal" şəkilli söz birləşmələrinin oğuz ağzına, qədim türkcəyə heç bir aidiyyatı yoxdur. Heç eramızın əvvəllərinə və orta əsrlərə aid olan şifahi və yazılı ədəbi nümunələrdə də bu cür "ədəbi"ləşdirilmiş ifadələrə rast gəlinmir. Hətta eramızın birinci minilliyinin sonlarından ikinci minilliyinin ortalarına qədərki dövrə mənsub olan söz sərraflarının əbədiyaşar deyimlərində belə "göyçək" təsnifinə rast gəlmək mümkün deyil; o dövrün ulu söz xiridarlarının yaradıcılığında gözəllər "gül üzlü", "ay qabaqlı", "gün misallı" kimi vəsf olunur. Belə bir reallıqda hər hansı məkanın, düzənliyin, ovalığın, dağ-dərənin "göyçək" sifəti ilə təsniflənməsini iddia etmək ən azı absurddur; türk dilindən, Azərbaycan türkcəsinin təkamül prosesindən, ahəng qanunauyğunluğundan bixəbərlik nümunəsidir.

"Göyçə" sözünün kökünü "gəlişigözəl deyimlər"də, yaxud "sözgəlişi mətləblər"də axtarmağa nə lüzum, nə də əsas var. Ümumiyyətlə, toponimlərin incələnməsində söz və söz birləşmələrinin frazeoloji, morfoloji, yaxud da sintaksis təhlilini istinad nöqtəsi kimi qəbul etmək ən qüsurlu yanaşmadır. Çünki dilin inkişaf qanunauyğunluqları doqmatizmi, ehkamçılığı birmənalı şəkildə rədd edir. Yəni hər hansı bir dildə bütün sözlərin minilliklər boyunca həm forma, həm də məzmunca sabit qalmasını; tarixi şərait və ictimai-siyasi formasiyaların mahiyyətindən qaynaqlanan təsirlərdən asılı olmayaraq, heç bir ifadənin heç bir şəkildə deformasiyaya uğramamasını iddia etmək naşılıqdır. Bu baxımdan, "Göyçə" kəlməsinin məna tutumunu Azərbaycan türkcəsinin bugünkü reallığına istinadən incələmək cəhdi də məsələyə səthi yanaşmadır. Və nəinki təkcə "Göyçə" kəlməsinə, ümumiyyətlə bütün toponimlərə münasibətdə ilkin olaraq o ifadənin dilə daxil olma tarixi dəqiqləşdirilməli, ən azı bu və ya digər yer adına yazılı mənbələrdə ilk dəfə nə vaxt rast gəlinməsi və bu mənbənin özündə hansı tarixi məqamı əks etdirməsi müəyyənləşdirilməlidir;

yalnız bundan sonra mülahizələrə, yozumlara varmaq olar. Deməli, “Göyçə” kəlməsinin özündə nəyi ehtiva etdiyi barədə mülahizələrdən öncə bu kəlmənin dilimizə nə vaxt daxil olduğunu, ilk dəfə bu ada tarixin hansı dönəminə aid kitabələrdə rast gəlindiyini müəyyənləşdirməyə ehtiyac var. Doğrudan da, “Göyçə” kəliməsi dilimizə nə vaxtdan daxil olub və bu ad bir toponim olaraq, yəni coğrafi təyinat qismində ilk dəfə hansı mənbələrdə istifadə edilib?

Yazıqlar olsun ki, ermənilər bir yana, elə özümüzün başabəla alimcik və ziyalıcığazlarımız bir millət olaraq bizə qürur gətirə biləcək tarixi reallıqlara bir çox hallarda kölgə salır, Göyçə toponiminin yaxın keçmişin kef havasından, ovqat şuxluğundan doğan təsadüfi kəlmə kimi səciyyələndirilməsi üçün dəridən-qabıqdan çıxırlar. Bu nigarançılıq əsassız deyil və yeri gəlmişkən, mətləbə bilavasitə dəxli olmasa da, bir məsələyə də xüsusi diqqət yetirməyə ehtiyac var.

Son zamanlar, xüsusən də Oğuz türklərinin Ermənistandan son deportasiyasından, yəni 1988-ci ildən sonra “yurd həsrəti” mövzusu bir çox işbaz “tədqiqatçı-jurnalistlər”in çörək ağacı funksiyasını yerinə yetirir. Və məhz bu qəbildən olan “tədqiqatçı-jurnalistlər” özü, yaxud qohumlarından kimsə imkanlı olan didərginlərlə tele-radio müsahibələr təşkil edir, irihəcmli qəzet reportajları hazırlayırlar. Təbii ki, elə bu mövzunun davamı olaraq, Göyçə mahalının el ağsaqqalları barədə də məlumat veriləcək. O şəxslər barədə ki, adları bu yazıda çəkildiyi üçün yox, həqiqi mənada tarixi şəxsiyyət olduqları üçün el ağsaqqalı kimi qəbul ediliblər və yaddaşlarda da məhz bu cür yaşayıblar, yaşayırlar, yaşayacaqlar. O şəxslər barədə ki, heç vaxt özlərini el ağsaqqalı kimi təqdim etməyiblər, sadəcə el üçün yanıblar, eli yaşadıblar, həqiqi mənada tarix yaradıblar. Müasir “yazıçı-jurnalistlər”in sərmayəçi-himayədarları olan “el ağsaqqalları” isə əməlləri bir yana, danışıqları ilə də tarixə ləkə vurmaqdan qeyri-bir iş görmürlər. Necə? Üzdəniraq “yazıçı-jurnalistlər”in “qəhrəmanı” olan o üzdəniraq “el ağsaqqalları” Göyçədən söhbət düşən kimi Fərman Kərimzadənin tarixi romanından oxuduqları bir cümlədən yapışaraq, haray çəkirlər: “Göyçənin tarixi qədimdir, Qaraqoyunlu dövlətindən üzü bəri bu yerlər bizim olub”. Bəli! Göyçənin tarixi qədimdən qədimdir, amma o tarix Qaraqoyunlu dövləti ilə başlamır! Bu cür hökm vermək Göyçəyə başucalığı gətirmək deyil, Göyçənin müqəddəsliyinə təhqirdir. Bu yurdun qədimdən qədim tarixini Qaraqoyunlu dövlətinin süqutundan sonra təqiblərdən yaxa qurtarmaq üçün Göyçəyə yaxın strateji əhəmiyyətli bir dərədə sığınacaq tapmış Qaraqoyunlu sülaləsi nümayəndələrinin bu yerlərdə məskunlaşmasının 530 illik tarixi səviyyəsinə endirmək bağışlan-

maz günahdır. Təbii ki, mənsub olduğu nəslin tarixi ilə qürurlanmaq hər kəs üçün xoşdur. Nəsil şəcərəsi etibarı ilə Qaraqoyunlu hökmdarı Cahan Şahın varisliyinə iddialı bir şəxs kimi, bu yazının müəllifi də çox istərdi ki, Göyçənin tarixi Qaraqoyunlularla bağlı olsun, əgər...Əgər həqiqətən də Qaraqoyunlu dövlətinin mövcudluğu eramızdan əvvəlki minillikləri əhatə etsəydi. Amma tarix bizim istəklərimizin yox, reallığın inikasıdır. Gəlin, tarix üzərində möhtəkirliklə özümüzü tarixə pərçim etməyək. Bu cür cəhdlərin faydasızlığı tarixi təsdiqini tapmış həqiqətdir. Odur ki, "hansısa jurnalistin el ağsaqqalı" titulu naminə tarix biliciliyi cəhdlərindən əl çəkib, həqiqəti öyrənmək gərəkdir. Və həqiqəti öyrənəndə görəcəyik ki, bəşər övladının Göyçədə məskunluğu - oturaq həyat tərzinə keçidi Qaraqoyunluların tarix səhnəsində peyda olmalarından ən azı 3500 il əvvələ təsadüf edir. Bunun sübutu üçünsə çox da uzağa getmək lazım gəlmir, bir neçə fakta diqqət yetirmək kifayətdir.

...1951-ci ildə Göyçənin Zod kəndi ərazisində geoloji axtarışlara başlanır və zəngin qızıl yataqları aşkar edilir. Əvvəl açıq mədən üsulu ilə mənimsənilən bu sərvətin həvəsi ilə geoloqlar yavaş-yavaş yeni-yeni dərinlikləri fəth edirlər və nəhayət...1963-cü ildə təxminən 75-80 metr dərinlikdə sovet geologiya elmi həqiqi mənada "dəfinə" tapır. Geoloqlar divarları ardıc və palıd ağacları ilə bərkidilmiş hazır şaxtalarla rastlaşırlar. 1987-ci ildə "5 aprel - geoloq günü" münasibəti ilə reportaj hazırlayarkən Zod Geoloji Kəşfiyyat Ekspedisiyası əməkdaşlarından aldığım informasiyadan belə məlum olurdu ki, arxeoloqlar o şaxtaların təxminən 1500 il öncəyə, yəni eramızın V əsrinin ortalarına aid olduğu barədə ilkin rəy söyləyiblər. Amma XX əsrin 60-cı illərinin sonlarında Göyçə gölünün şimal-qərb və qərb sahillərində aparılan arxeoloji qazıntılar zamanı Ördəkli qalası ərazisindəki kurqanlardan tapılan zinət əşyalarının məhz ZOD qızılından hazırlanmasının sübuta yetirilməsi ZOD şaxtalarının tarixi barədə növbəti dəqiqləşmələrə əsas verib. Belə ki, türk sənətkarlığı üslubunda olan bu zinət əşyalarının və onların tapıldığı kurqanların eramızdan əvvəlki dövrün II minilliyinin sonlarına aid olması dünyanın ən ciddi elmi qurumları tərəfindən birmənalı şəkildə təsdiqlənib. Təbii ki, erməni arxeoloqları bu faktları kütləviləşdirməyiblər. Çünki tapılan əşyaların erməni sənətkarlığına heç bir aidiyyatının olmaması "böyük dövlət"in mifik ərazisi barədə erməni təbliğatının əsasında dayanan arqumentlərin əleyhinə işləyən fakt idi. Bəli, Göyçədə nəinki ibtidai insanın məskunluğunun, hətta mədənçilik kimi mürəkkəb bir fəaliyyət növünün təşəkkül tapmasının azı 3000-3500 illik tarixinə şəhadət verən maddi sübutlar mövcuddur. Amma bununla belə, bir daha təkrar edək ki, heç bu faktlar

da Göyçədə insan məskunluğunun başlanğıcı, yaxud da "Göyçə" kəlməsinin dilimizə daxil olma tarixi kimi dəyərləndirilə bilməz...

...Göyçə kəlməsinin bir coğrafi təyinat olaraq işləndiyi yazılı abidələrdən ən populyarı, geniş auditoriyaya bəlli olanı **"Kitabi Dədəm Qorqud ala lisani taifei oğuzan"**dır. Dastanın məhz Göyçə və Göyçəətrafı bölgələrdə cərəyan edən hadisələrin əksi olduğu aşkar hiss edilsə də, məhz Azərbaycan sovet "qorqudşünasları" "Kitabi Dədə Qorqud"u tarix etibarı ilə İslamdan sonrakı dövrə, məkan etibarı ilə Xəzər sahillərinə "calamağa" cəhd edirlər. Belə ki, Azərbaycan sovet "qorqudşünasları" və sovetlərdən sonrakı "yazıçı-jurnalistlər"in istisnasız olaraq hamısı dastandakı "Gökçə dəniz" ifadəsindəki ikinci kəlməyə və qədim türklərdə cəhətlərin rənglərlə ifadəsinə istinadən, hadisələrin güya Xəzər sahillərində cərəyan etdiyini iddia edirlər. Bəli, qədim türklərdə Şərqin-göy, Qərbin-ağ, Cənubun-qırmızı, Şimalın-qara kimi təsniflənməsi praktikasının mövcud olduğuna bir sıra tarixi sənədlər şəhadət verir. Amma bu heç də o demək deyil ki, cəhətlərin rənglərlə ifadəsi türk tarixinin bütün dövrləri, eləcə də həm coğrafi arealına, həm də məişət tərzlərinə görə bir-birindən xeyli dərəcədə fərqlənən bütün türk elləri üçün vahid mütləq normativ olub. Əsla! Şərqi Sibirdən Qərbi Avropaya qədər geniş bir ərazidə yayılmış türk ellərinin hamısının dünyanı məhz bu təsnifləmə üstündə qəbul etməsini düşünmək kökündən yanlış bir yanaşmadır. Belə bir metodologiya əsas kimi qəbul edilsə, onda birmənalı şəkildə deməliyik ki, türklər ümumiyyətlə Qara dənizin cənub sahilləri ilə Xəzərin qərb sahilləri arasındakı arealdan kənara bircə addım belə atmayıblar. Çünki əks halda Xəzər "göy"lüyünü, Qara dəniz isə "qara"lığını itirmiş olur. **Bəli, qədim türklərdə cəhətlərin rənglərlə təsnifi bir simvolika idi.** Amma bu reallığın, məsələn, altay-sibir türklərinə əsla bir dəxli yoxdur. Bu simvolika eramızdan əvvəlki dövrün IV minilliyinin sonlarından üzü bəri Van, Urmiya, Göyçə və Qara dənizlər arasında hakim dil və söz sahibi olmuş türk ellərində yaranmışdı və məhz bu koordinantlar çərçivəsindəki Oğuz Eli öz yaşadığı məkanın şərqindəki dənizi Gökcə dəniz, şimalındakı dənizi Qara dəniz adlandıra bilərdi. Bu simvolikanı Xəzər sahillərindəki türklər yaratmış olsaydılar onda Qara dəniz qərb anlamına gələrək Ağ sifəti ilə təsniflənməliydi. Göründüyü kimi, "Kitabi Dədə Qorqud" Oğuz Elinin məkanını olduqca dəqiq ifadə edir. Və elə bu ifadə İqrar Əliyevin rəhbərlik etdiyi "Azərbaycan sovet tarixşünaslığının mütləq elmi hipotezi"ni - türklərin Ön və Kiçik Asiyaya yalnız XI əsrdən sonra gəldiyi barədə sərsəm iddianı birmənalı şəkildə rədd edir. Həqiqətən də, öz yayıldığı arealda 5000 il öncə mükəmməl coğrafi təsnifat yaratmış bir etnosun

həmin məkana 1000 il əvvəl qayıtmasını "ciddi elmi arqument" kimi qəbul etmək elə İqrar Əliyev azərbaycanşünaslığını elm kimi qəbul etmək qədər təhqiramizdir. "Azərbaycan tarixşünaslığının İqrar Əliyev epoxası"nın yetirməsi olan "professorlar"dan qeyri heç kim, özünə hörmət qoyan heç bir alim türk tayfalarının Ön Asiyaya və Qafqaza yalnız eramızın X əsrindən sonra gəldiyini birmənalı şəkildə qəbul etmir. "Azərbaycan tarixşünaslığı"nın bu qəti mövqeyini əsas kimi qəbul etmək zərurəti ilə üz-üzə qaldıqda belə, həqiqi tarixçilər bu qənaətlə bağlı şübhələrini, dolayı yolla olsa da büruzə verirlər. Məsələn, moskvalı alim Xalıq Koroğlu deyir: **"...qərbi türkmənlər Orta Asiya türkmənlərinin birbaşa xələfləri olsalar da, Azərbaycan xalqının etnik qrupuna daxil idilər və müasir Azərbaycan xalqının mühüm hissəsini təşkil edirlər"** *(Х.Короглы. "Огузский героический эпос" Москва-1976. стр.-105.)* Elə həmin əsərində müəllif daha bir neçə maraqlı nəticəyə gəlir: **"...XI əsrin ilk onilliklərində Azərbaycana gəlmiş türk köçləri kifayət qədər kompakt yerli türkdilli əhali ilə qarşılaşdılar. Gəlmələrin artıq Azərbaycanın yerli əhalisi sayılan türklərlə etnik yaxınlıqları bir çox faktlarla təsdiqlənir..."** (*həmin əsər səh.15*). X. Koroğlu ərəb tarixçisi Məhəmməd Vahidiyə istinadən onu da bildirir ki, **"... oğuzlar Qafqazda və Şərqi Anadoluda səlcuqlardan çox-çox əvvəl meydana çıxmışlar."** (*həmin əsər, səh.60*). Türkün Qafqaza gəlişini XI əsrdən sonrakı dövrə, yəni yaxın 1000 ilə bağlamaq cəhdləri ölümə məhkumdur. Çünki konkret olaraq oğuz türkü adı ilə olmasa da, hər halda bunturklərin Qafqazda həlledici söz sahibi olması yazılı mənbələrdə öz əksini tapmış danılmaz faktdır. Məsələn, hədislərin birində Ulu Peyğəmbərimiz Allahın adından deyir: **"...Mənim bir tayfa əsgərim var, adlarına türk deyirlər. Onları Şərqdə yerləşdirmişəm. Bir xalqdan qəzəblənsəm, türkləri onlara qarşı göndərirəm."** (*Maxmud Koşğariy. "Devonu lüğot-it türk". I cild. Daşkənd,1960. səh.334*). Ulu Peyğəmbər zamanında söhbətin uyğur ellərindən, Sibir şamanlarından, yaxud Altay türklərindən getmədiyi bəllidir. Söhbətin Kərkük, Anadolu, Urmiya və Göyçə ellərində hakim mövqe sahibi olan döyüşkən türklərdən - BUNTÜRKlərdən getdiyinə də şübhə yoxdur. Başqa bir misal. **Ənvəri**nin XI əsrdə türkcə yazdığı **"Dəsturnamə"**də Xəlifə Ömər ibn əl Xəttabın dövründə (VI əsr) sərkərdə Səd Vəqqasın səfərindən söhbət açılır və onun oğuzlarla, bəli, məhz OĞUZlarla görüşü belə təsvir olunur: **"...Səd ol dağa tamaşaya çıxar, bir ulu şəhrə doğru baxar. Onda qonmuşdu oğuzlar biədəd, obalar başdan-başa, yox ona hədd. Qara evləri ilə yüz bin artıq ev, bu cahan köhnə sarayı sanma nev..."**. Eramızın VI-VII əsrlərində başdan-başa obalarla

sıralanmış cahan harada ola bilərdi ki, bir dağdan baxanda hamısını müşahidə etmək mümkün olsun?!. Bu məqama yenidən qayıdacağıq, hələliksə "Dədə Qorqudun Gökcə dənizi"nin özündə hansı məkanı ehtva etdiyini aydınlaşdırmağa çalışaq.

Günümüzün reallığında bir çoxlarının "Kitabi Dədə Qorqud"un yazıya alınmasının 1300 illik tarixi olduğuna belə şübhələri var və İqrar Əliyev azərbaycanşünaslığının az qala 50 illik hegemonluğu, yeganə elm kimi öyrənilməsi müqabilində burada təəccüblü heç nə yoxdur. Bu kütlənin təfəkküründə türkün Azərbaycanda peyda olmasının cəmi 1000 illik tarixi əbədiləşibsə, o zavallılar türkün Qafqazdakı bir neçə min illik real yaşamından soraq verən bir dastanın yazıya köçürülməsinin 1300 illik tarixinə necə inana bilərlər?!. (Baxmayaraq ki, əsərin 1300 il öncə qələmə alındığı barədə qənaətlərin özünün simvolik xarakter daşıması dastanın əldə olan nüsxələrinin ruhundan aşkarca hiss olunur). Və bu inamsızlıq bir sıra paradokslar doğurur ki, bunlara da o zavallı kütlənin düşüncəsinə hakim kəsilmiş qənaətlər baxımından aydınlıq gətirmək sadəcə müşküldür. Belə ki, iqrarşünaslığı Azərbaycan tarixi kimi qavramış o kütlənin "türklərin Azərbaycan ərazisində, ümumən Ön Asiya və Qafqazda XI əsrdən sonra peyda olması" barədə sərsəmləmələri əsas kimi qəbul edilsə, onda gərək "Kitabi Dədə Qorqud"da Xəzər dənizi "Gök" yox, "Ağ" dəniz kimi təsnifləndəydi. Ən azı ona görə ki, XI əsrdə "təzə yurdda" binələşmiş bir etnosun "təzə yurdun qədim yaşantıları" barədə dastan bağlamasını düşünmək absurddur. Məntiqlə bu etnos yalnız və yalnız öz yaşantılarını dastanlaşdıra bilərdi ki, bu halda da Altay və uyğur ellərindən baş qaldırıb Azərbaycana köç edənlər üçün Xəzər heç bir halda şərq anlamına, deməli həm də Göy anlamına gələ bilməzdi. Yox əgər təzə sakinlərin təzə yurdun köhnə tarixi barədə dastan bağlaması kimi qeyri-ciddi bir versiya əsas kimi qəbul edilirsə, onda istər-istəməz başqa bir sual doğur: cəlmə türklərin təzə yurdunda onlardan əvvəl yaşamış millət kimlərdən ibarət olub ki, adları da, adət- ənənələri də türklərin istəyincə təsvir edilib? Əgər əzəli sahiblər XI əsrdə bura gəlmiş türklərə yad olubsa, onda onları vəsf etmək kimə və nəyə lazımmış? Yox əgər yad deyilmişsə, onda təzələrlə köhnələri bir-birindən necə ayırırlarmış, XI əsrin sonlarında hansı "dahi" eyni bir etnosu prototiplərə ayırmaq kimi sərsəm bir işlə məşğul olurmuş? Bütün bu suallardan gəlinən yeganə nəticə belədir ki, əgər türklərin Ön Asiyada və Qafqazda peyda olması XI əsrə aiddirsə, onda "Kitabi Dədə Qorqud" un Azərbaycanda yazılmasından, hadisələrin Azərbaycan, yaxud Anadolu ərazisində cərəyan etməsindən də danışmaq yersizdir.

Göründüyü kimi "Azərbaycan sovet tarixşünaslığının İqrar Əliyev epoxası"nda quraşdırılmış Azərbaycan tarixi türklərin Qafqaza gəlmə olduqlarını sübut etməyə çalışdığı halda, Dədə Qorqud öz dili və ruhu ilə türklərin ta qədimdən Van, Urmiya, Göyçə, Qara dəniz sərhədləri çərçivəsindəki məkanda hakim mövqe tutmuş etnos olduğunu təsdiqləyir. Bu bir düyündürmü, yoxsa tarixin ironiyasımı?!. Nə ondandır, nə də bundan: bütün bu hoqqalar Van-Urmiya-Göyçə-Qara dənizlər arasındakı geniş bir arealda 5000 il əvvəl hakim söz və dil sahibi olmuş etnosun kimliyini gizlətmək, yüksək mədəniyyətə malik olmuş o etnosun mövcud tarixi üzərində digərlərinə- "Qafqazın ən qədim xalqları olan ermənilərə, talışlara, ləzgilərə" saxta tarix yaratmaq üçün düşünülmüş təhriflərdən savayı bir şey deyil ki, söhbətimizin gedişində bu məsələyə ən xırda detallara qədər aydınlıq gətirməyə çalışacağıq. Hələliksə, "Kitabi Dədə Qorqud"da əks olunmuş hadisələrin türklərin hansı tarixi məskənində cərəyan etdiyini dəqiqləşdirmək üçün məsələyə başqa bir yöndən diqqət yetirək. Dastanda hadisələrin "qarşı yatan Qara dağlarda" baş verdiyi, Oğuzun qara günlərində dağ döşündə yandırılan tonqalların haray rəmzi olduğu, ən əsası, o tonqalların, hansı obada yandırılmasından asılı olmayaraq, bütün yurdlardan seyr edilməsinin mümkünlüyü birmənalı şəkildə, açıq mətnlə təsvir olunur. Bu qəbil təqdimatla Xəzər dənizinin faktiki durumu nə dərəcədə səsləşə bilər?!. Xəzərə ən yaxın "qarşı yatan Qara dağlar"ın Dərbənd ellərindəki zirvələr, yaxud Şamaxı dağları olduğunu ən doğru ehtimal kimi qəbul etsək belə, bu dağların hər hansı birində yandırılmış tonqalın bütün ətraf kəndlərdən müşahidə edilməsini reallıq kimi qəbul etmək, yumşaq desək sadəlövhlükdür. Göyçə hövzəsinin təbii relyefi isə elədir ki, gölün hansı səmtindən baxmağından asılı olmayaraq öndə "qarşı yatan Qara dağları", yəni "böyük dağları" görəcəksən. Yəni ki, Göyçə gölü bütünlüklə dağlarla- şimaldan və şimal-şərqdən Şahdağ, şərqdən Gəmidağ (Ketidağ), cənub və cənub-şərqdən Basatkeçən (Basarkeçər), qərbdən Göyçə (Göyəm), şimal-qərbdən Pəmbək silsilələri ilə əhatələnib. Buludsuz-çənsiz havalarda Çalmalı dağın zirvəsindən, yaxud Şahdağdan, istərsə də Züldağ yüksəkliyindən bütün hövzədəki kəndləri seyr etmək mümkündür. Hətta... Şahdağda yandırılmış tonqalın tüstüsünün Gədəbəy ellərində, Züldağda yandırılmış tonqalın tüstüsünün Dərələyəz ellərində, Çalmalıda yandırılmış tonqalın tüstüsünün Kəlbəcər ellərində müşahidə edilməsi istisna deyil. İqrarologiya mərəzinə mübtəla olanlar dastanda dəfələrlə təkrarlanmış "Dərbənd elləri" ifadəsinə istinadən Göyçə hövzəsi ilə Dərbənd arasındakı məsafənin dastandakı hadisələrin sürəti ilə təzad təşkil etdiyini önə çəkir və özlərinin anlamında təkzibi-

mümkünsüz hesab etdikləri bu "arqument"ə söykənərək, "Kitabi Dədə Qorqud"un Göyçə ilə hər hansı şəkildə əlaqələndirilməsi cəhdlərini süngü ilə qarşılayırlar. Amma bu süngü həqiqət axtaran elm fədailərinin süngüsü yox; Azərbaycandan, Azərbaycan tarixindən, Göyçədən və Göyçənin Azərbaycan tarixindəki rolundan bixəbər fanatiklərə ermənilər tərəfindən verilmiş süngüdür və elə məhz bu səbəbdən də erməni tarixi kimi gücsüz- vecsizdir. Çünki bu zavallılar indiyə qədər də bilmirlər ki, dastanda haqqında söhbət açılan "Dəmir Qapu Dərbənd elləri" müasir anlamdakı Dərbənd şəhəri olsa da, "Qara Dərbənd" təsnifatı ilə təqdim olunan Dərbənd məhz Göyçədəki Qara Dərbənd qalasıdır. Və bu halda istifadə olunan "qara" təsnifi də "şimal" anlamına yox, "böyük" anlamına gəlir. Bəli, söhbət məhz Göyçədəki, XIX əsrin əvvəllərinə qədər yaşarı olmuş və yalnız ermənilərin İrəvan əyalətinə sahib durmasından sonra yer üzündən silinmiş Böyük Dərbənd qalasından gedir. Belə bir qalanın və eyni adlı kəndin mövcudluğuna şübhə edənlər isə əziyyət çəkib XVI-XVII əsrə dair rəsmi sənədlərə diqqət yetirsələr, Göyçədəki Dərbənd qalasının bir müəllifin uydurması yox, tarixi reallıq olmasına əminlik hasil edə bilərlər. Belə ki, 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş və Şah Əhməd Mehmet xan oğlu tərəfindən 24 ramazan 1140-cı ildə (12 aprel 1728-ci il) təsdiqlənərək tuğralanmış, hal-hazırda Türkiyə Başbakanlıq Arşivində saxlanan "İrəvan əyalətinin icmal dəftəri"nin 15-ci səhifəsində İrəvan əyalətinin Məzrəə nahiyəsindəki türk kəndləri barədə qeydlər aparılıb. Həmin siyahıda da ikinci yerdə məhz Dərbənd (Qara Dərbənd) kəndinin adı gəlir. Üstəlik yerləşdiyi yüksəkliyə uyğun olaraq onun Virs kəndi kimi tanındığı da qeyd olunur. Həmin tarixi sənəddən o da məlum olur ki, Dərbənd kəndi o dövrdə Məzrəə nahiyəsinin ən iri vergi ödəyicilərinin sırasında lider imiş. Müqayisə üçün deyək ki, həmin vaxt nahiyənin inzibati mərkəzi kimi səciyyələnən Məzrə kəndinin xas qismində, yəni birbaşa sultan xəzinəsinə ödənən illik vergisi 8795 ağça olduğu halda, Dərbəndin anoloji vergisi 10384 ağça həcmində müəyyənləşdirilibmiş. Bəli, XVIII əsrin əvvəllərində "Kitabi Dədə Qorqud"un izlərini yaşadan Dərbəndin özü də yaşarı idi və bu baxımdan diqqətə düşə biləcək yeganə yaşayış məskəni deyildi. Məzrəə nahiyəsində (əsasən indiki Basarkeçər rayonunun ərazisində) illik vergisi 8941 ağça olan QAZANLIQDƏRƏ (həmin sənəd, səh-15), illik vergisi 4996 ağça olan BÖYÜRƏK, illik vergisi 3813 ağça olan Yalaqlı, illik vergisi 6151 ağça olan XATUNKƏND (hər üçü haqqında məlumat adı çəkilən sənədin 16-cı səhifəsində); Göyçə nahiyəsində (indiki Kamo və Martuni rayonlarının ərazisini əhatən edən bu na-

hiyəyə dair məlumatlar adı çəkilən icmal dəftərinin 12 səhifəsində yer alıb) illik vergisi 9902 ağça olan DƏLİ BECAN (ermənilərin təbirincə Dəlican), illik vergisi 12312 ağça olan NƏRƏDÜZÜ, illik vergisi 1999 ağça olan ALP-ARUS (ermənilərin təbirincə, Alapars), illik gəliri 5210 ağça olan GÖRÜCÜƏRƏN (başqa adı Dədəli), ən nəhayət, CACAKLI adlı kəndlər XVIII əsrin əvvəllərində yaşarıydı və hər biri də Dədə Qorqudun Göyçədəki silinməz-pozulmaz izlərindən xəbər verirdi. Xüsusən də Cacaklı. Elə bir toponim ki, digər türk ellərinin heç birində rastlanmır. Bilirsinizmi Cacaklı kimdir, iqrarologiya mərəzinə tütülmüş binəvalar?!. Cacaqlı Qazan xanın anası olub. Əbülqazi özünün **"Şəcəreyi-tərakimə"**sində bu faktı da, Cacaklının oğuz-peçeneq davalarından birində əsir düşdüyünü də təsbitləyir. Amma...XI əsrə qədər Azərbaycanda bir nəfər belə türkün olmadığını təsdiqləmək üçün can qoymuş Azərbaycan tarixşünaslığı XIX əsrin əvvəllərinə qədər Göyçədə mövcud olmuş Cacaklı kəndinin adının haradan gəldiyinə nədənsə diqqət yetirmək istəməyib. Və təkcə Cacaklı toponiminəmi?!. İndiki Martuni-Kamo sərhəddinə yaxın bir cöğrafi mövqedə ATAXAN (bəzi mənbələrdə Atamxan) adlı kənd və Bədkal kəndi yaxınlığında Bitikçi qalası deyilən bir qala olub. Ermənilər inzibati bölgü aparanda Ataxan kəndi Martuni rayonunun, Bitikçi qalası isə Kamo rayonunun ərazisinə "düşüb" və Ataxanın adı dəyişdirilərək Vardadzor, Bitikçi qalasının və Bədkal kəndinin adları isə müvafiq olaraq "Badikyan kəndi" və "Badik qalası" qoyulub. Bu addəyişmələr 1968-ci ildə aparılsa da, Azərbaycan tarixşünaslığı o zamana qədər bu toponimlərə də diqqət yetirməyib. Azərbaycan tərəfinin bu "diqqətsizliyi"nin səbəbi tam bəlli olmasa da, ermənilər Ataxan və Bitikçi adlarını tarixdən niyə silmək istədiklərinin səbəbini lap yaxşı biliblər. Çünki onlar məxəzləri araşdıraraq yəqin etmişdilər ki, Ataxan və Bitikçi toponimləri Dədə Qorqudun Göyçədəki izlərindən soraq verən adlardır. Bəli, məhz real tarixi şəxsiyyət olmuş Dədə Qorqudun. Kimsə bunu da bir müəllifin hüdudsuz təxəyyülünün məhsulu kimi qavraya bilər. Amma...Tələsməyək. Əlahəzrət tarixin yaddaşında iz buraxmış real faktlara diqqət yetirək. Əslən oğuz olduğunu öz əsərlərində etiraf etmiş XIV əsr tarixçisi **Əbu Bəkir bən Abdullah bən Aybək əd-Dəvadari "Dürəri tican"** adlı kitabında **VI əsrdə yazıya alınmış "Ulu Ata xan bitikçi"** əsərindən söhbət açaraq qeyd edir ki, bu qədim yazılı abidənin məğzi Ata xanın Oğuz Elinin real tarixi salnaməçisi olduğunu söyləməyə əsas verir. Onu da nəzərə alsaq ki, "bitik" kəlməsi qədim türkcədə kitab, "bitikçi" isə kitab yazan anlamına gəlib, onda tam əminliklə demək olar ki, Ataxan kəndi və ona yaxın Bitikçi qalası məhz Oğuz Elinin salnaməçisinin adı ilə

bağlı olan məskənlərdir. Başqa bir fakt. Ataxan kəndinin inzibati ərazisində eramızdan əvvəlki II minilliyin sonlarına, birinci minilliyin əvvəllərinə aid edilən bir tarixi memarlıq abidəsi də var. Akademik B. B. Piotrovski bu xərabəliyin **Tuluxi** (Tulixu) şəhərinin qalıqları olduğunu göstərir. Ermənilər isə dərhal belə bir hipotez irəli sürüblər ki, Tuluxi qədim Van çarlığının əyalətlərindən biri imiş. ( *Б.Б.Пиотровский. "Ванскойе царство-Урарту". Москва-1959, стр.-31*). Bəli, hipotez irəli sürülüb, amma Tuluxi adının qədim ermənicədə nəyi ehtiva etdiyinə aydınlıq gətirilməyib. Gətirilə bilməzdi də. Çünki bu ad sırf türk adıdır və bu həqiqət də uyğur oğuznamələrində açıq mətnlə əks olunub. Belə ki, həmin mənbələrdə Oğuz Xanın vəzirləri- Oğuz Elinin tarixini qələmə alan salnaməçilər Uluq Turuq (Ulu Turux) kimi təqdim olunurlar. "Kitabi Dədə Qorqud"da əksini tapmış zoomorfik məqamların birində isə "Tulu quşu" ağıl-zəka simvolikası kimi təsniflənir və Salur Qazan xan "Tulu quşun yavrusu" kimi təqdim olunur. Bütün bu reallıqlar, "Ulu Ata xan Bitikçi", "Ulu Turux", "Tuluxi" ifadələrinin eyni anlama- "ağıllı salnaməçi", "ulu kitab yazan" anlamına gəlməsi, eyni zamanda Ataxan kəndi ilə Tuluxinin xərabələrinin eyni coğrafi koordinantda olması, 3000 illik tarixi heç kimdə şübhə doğurmayan bu qədim şəhərin bu gün bizim Dədə Qorqud adı ilə tanıdığımız müdrik bir salnaməçinin ata-baba yurdu, yaxud da Ulu Tuluxlar adı altında ümumiləşdirilən salnaməçilərin nəsilbənəsil yaşadığı bir oba olduğu barədə elmi mülahizələrə tam əsas verir. Amma bunca aşkar faktlar Azərbaycan tarixşünaslarının diqqətinə düşmür ki, düşmür. Xeyirdirmi, cənablar?!. Yəni doğrudanmı, "Kitabi Dədə Qorqud"un izlərinin Göyçədə olduğunu etiraf etmək bu qədər çətindir?!. Bu izlərin açıq-aşkar, hətta ciddi araşdırmalara ehtyac duyulmadan belə göründüyü bir reallıqda çətinlikdən danışmaq yersizdir. Səbəbi başqa mətləbdə, XX əsrin 50-90-cı illərində yazılmış və müəlliflərinə "alim", "professor" titulları qazandırmış cild-cild dissertasiyalardakı absurd mülahizələrdən imtina etməyin təbii sonluqlarının xofunda axtarmaq gərəkdir. Həqiqətin etirafı "özünə ölüm hökmü kəsmək" effekti doğura biləcək qədər dəhşətlidir bu insanlar üçün. Öz yazdıqlarının əsarətindədir bu zavallılar. Amma bunca əndişələnmələrinə əsla ehtiyac yoxdur; zaman onsuz da ən ədalətli hakimdir və hər şeyi öz yoluna qoyacaq. Bu gün öz "professor" titulunun aqibətindən xoflanan "iqrar əliyevçilər nəsli"nin yazdıqları yox, əsl tarix yaradan insanların qayalara həkk etdiyi həqiqətlər yaşayacaq qoca tarixin yaddaşında. O cümlədən Göyçə ilə bağlı həqiqətləri də dünya Göyçənin əzəli sahiblərinin elə o yurdun qayalarına həkk etdikləri mətnlərdən oxuyub öyrənəcək. O həqiqətlər isə var. Ermənilərin 200 illik qəsdinə,

Azərbaycan tarixşünaslığının 70 illik xəyanətinə rəğmən Göyçənin əsl tarixinə şəhadət verən kitabələrdən bir neçəsi 3000 illik səddi keçərək bu qədim yurd yerimizin Dədə Qorqudlu, Qazan xanlı günlərinə, qardaş qırğınlarından əziyyət çəkdiyi zamanlara, bu yurdun hələ 3000 il öncə dövlətçilik şüuru səviyyəsinə yüksəlmiş əzəli sahiblərinin istilaçılara qarşı apardığı şərəfli mübarizələrə şahidlik edir. Bu qənaətin də bir müəllifin hüdudsuz təxəyyülünün məhsulu yox, faktlara söykənən həqiqət olduğunu aydınlaşdırmaq üçün daha bir neçə vacib məqama diqqət yetirməyə ehtiyac duyulur.

"Kitabi Dədə Qorqud"da ilkin baxışda mifik təəssürat yaradan məqamlar olsa da, bu kitab, sözün tam mənasında, konkret qövmün konkret tarixi şəxsiyyətlərinin konkret tarixi yaşantılarının toplusudur. Mifik təəssürata səbəbsə müxtəlif tarixi qatlara məxsus olan boyların bir dastanda birləşdirilməsindən qaynaqlanan "zaman vakkumu" sindromu ilə bağlıdır. Daha doğrusu, biz Oğuz Ellərinin tarixini ümumiyyətlə bilmədiyimiz üçün dastanın boylarının əlaqəsini tapa bilmirik, keçidlərin sirrini görə bilmirik. Dədə Qorqud dastanlarının özündə "boy" kəliməsi "nəsil", "qövm" anlamında daha çox işlənir, eyni zamanda hər yeni süjet yeni boy kimi təqdim olunur. Və çox böyük ehtimalla, hər boy oğuzun bir qolunun, bir nəslinin tarixini əks etdirir. Belə olan təqdirdə boylar arası keçidlərin mifik təəssüratı qaçılmazdır. Bu məqamda digər bir incəliyə də xüsusi diqqət yetirilməlidir ki, dastanın Vatikan nüsxəsi ilə Drezden nüsxəsi arasında həm təsvir, həm də həcm baxımından xeyli fərq var. Deməli, başqa bir nüsxədə, orijinalda boyların sayının daha çox və daha mükəmməl olması ehtimalı da istisna deyil. Ümumilikdə isə Drezden nüsxəsindəki "24 sancaq bəyləri" ifadəsini heç bir halda təsadüfi bir söz kimi dəyərləndirmək olmaz. Bu, oğuzların məhz 24 boydan ibarət olduğuna işarədir və ehtimal ki, dastan da öz ilkinliyində məhz 24 hekayətdən ibarət olmaqla, o hekayətlərin hər biri özündə bir boyun gerçək yaşantılarını əks etdirib. "Kitabi Dədə Qorqud"da Oğuz Eli kimi təqdim olunan qövmün öz ilkinliyində məhz 24 boydan - özünümüdafiə şüuru səviyyəsinə yüksəlmiş 24 müstəqil tayfanın bir dövlətdə birləşməsindən təşəkkül tapdığı isə tam tarixi gerçəklikdir. Bəli, yanılmadıq! Dədə Qorqudun təqdim etdiiyi qövmün, Göyçə Oğuz ELİnin tarix səhnəsinə qüdrətli söz sahibi kimi çıxışının əsasında məhz eyni hövzədə yaşayan, eyni dildə danışan, eyni şüur səviyyəsinə yüksəlmiş 24 tayfanın bir bayraq altında- bir dövlətdə birləşməsi reallığı dayanıb və bu tarixi reallıq rəvayətlərlə yox, yazılı mətnlə təsbitlənib. Bu tarixi kitabəni bütün millətlərin alimləri tədqiq ediblər. Nə qədim türkcəni, nə müasir türkcələri bilməyən və bilmək istəməyən

o alimlərin hər biri bu qədim kitabədən öz mənafeləri naminə yararlanmağa çalışsalar da, ümumi hesabla ağlabatan bir nəticə hasil edilməyib; bu səbəbdən də o kitabədəki mətni hərə öz bildiyi kim yozmalayıb. Heç bir dilə yatmayan, amma qədim türkcə ilə tam səsləşən, eyni zamanda müasir Azərbaycan türkcəsində tam anlaqlı toponimlərlə zəngin olan o kitabəni təkcə Azərbaycan tarixşünasları oxumaq istəməyiblər. Niyə? Bu sualın ittihamedici cavabını vermək rəsmi elmi dairələrin işidir. Bizim məqsədimizsə, qeyri millətlərin təhriki, öz alimlərimizinsə təkidi ilə Azərbaycan ictimaiyyətinin, türk dünyasının diqqətindən kənarda qalmış o kitabənin məğzinə, onun "Kitabi Dədə Qorqud"la bağlılığına diqqət yetirməkdir.

Haqqında söhbət açacağımız o kitabə məhz Göyçədə, Göyçə gölünün cənub-şərq sahilindəki Kələqıran qalasında aşkarlanıb. Daha doğrusu, həmin qalada 3 belə kitabə olub. Amma akademik B. Piotrovskinin arxeloji ekspedisiyası XX əsrin 30-cu illərində Kələqıranda işləyərkən onlardan yalnız birinə rast gəlib. Digər iki kitabə, o cümlədən qalanın yaxınlığındakı kurqanlar isə o vaxta qədər artıq dağıdılıbmış və B. Piotrovski bu faktı da təsbitləyib. Bəs o kurqanları kim dağıdıb, o kitabələri kim kəsib çıxarıb? B. Piotrovski bu suala birmənalı cavab vermir. Amma məhz onun rəhbərliyi ilə hazırlanmış hesabatda deyilir: **"...1863-cü ildə Kələqıran qalasında Eçmiədzin yepiskopu Mesrop Smbatyans axtarışlar aparıb...qədim məzarlıqdan tapılan konusvari möhürlər 1915-ci ildə Erməni Etnoqrafiya Cəmiyyətinin Muzeyinə verilib"** (*Б.Б.Пиотровский. "Ванскойе царство". Москва, Изд. Восточной литературы- 1959. стр.11, 91.*) Bəs kitabələrin taleyi? Akademik B. Piotrovski bu barədə sussa da, başqa bir rus alimi bu məsələyə aydınlıq gətirir: **"... altmışıncı illərin əvvəllərində** (söhbət XIX əsrdən gedir - S. V.) **mxitaristlərin cızmaqaraları ilə tanış olan c. Mesrop ermənilərin yerləşdirildiyi yeni məkanlarda mixi yazıların olduğu barədə məlumat əldə etdikdən sonra ciddi şəkildə o kitabələrin axtarışı ilə məşğul oldu. Təbii ki, o həmin kitabələrin qədim erməni tarixinə yararlı ola biləcəyinə ümid bəsləyirdi. Cənab Mesropun bəxti gətirdi, amma arzuladığı yöndən yox. O 6-8 mixi kitabə tapdı və professor Patkanovun vasitəçiliyi ilə mixi yazıların oxunması üzrə ən məhşur mütəxəssislərə- Mortmana, Seysə və Müllerə göndərdi. Amma...nəticə etibarı ilə məlum oldu ki, bu kitabələr erməni dilinə əsla dəxli olmayan tamam başqa bir qrupdan olan dildə yazılıb..."** (*Николский М.В. "Клинообразныйе надписи ванских царей, открытыйе в пределах России. Древности восточныйе. С-П.1893. т.1.стр.-381*) Təbii ki, Mesrop Smbatyantsın tapdığı iki kitabədə erməni

tarixinə yararlı ola biləcək heç nə aşkarlanmadığı üçün onların hər ikisi yoxa çıxıb. Üçüncü kitabə isə bu günə qədər də yaşarıdır və məhz orada həkk olunmuş mətnin "Kitabi Dədə Qorqud"a bilavasitə və bilvasitə dəxli var. Nə deyilir o kitabədə? Həmin kitabənin Q.A.Kapantsyan, İ. İ. Meşşaninov və B. B. Piotrovski tərəfindən ekstampaj yolu ilə çıxarılmış surətlərinin kitabənin əslinə istinadən transkripsiyasından əldə olunan mətndə bir Sərdar oğlunun (ermənilərə görə Sarduri) digər "23 ölkənin" şahını yenməsindən və onları özünə tabe etdirməsindən söhbət gedir. Diqqət yetirək: "1+23", yəni 24 qalanın müdafiə gücünün birləşdirilməsi. Dədə Qorqudun 24 sancaq haqqında xatırlatması bu reallıqdan qaynaqlana bilməzdimi?!. Hökm verməyə tələsməyək, çünki indiyə qədər bu məsələ tamam başqa bir yöndən şərh edilib; bu kitabə "Urartu hökmdarı Sarduri"nin hakimiyyətinin son, oğlunun hakimiyyətinin ilk dövrlərinə, yəni eramızdan əvvəlki dövrün 730-cu illərinə aid edilib. Bu iddianın həqiqət yükü nə dərəcədədir? Ermənilərin istəyi ilə müxtəlif dövrlərdə Urartunun xeyrinə yazılmış və yazdırılmış elmi əsərlərin hamısının toplamından alınan nəticə əsasında tərtib olunmuş 3 xəritəyə ("Ванское царство". М.,-1959. стр.-59, 79, 105) diqqət yetirək. Birinci xəritədə Assuriya çarı III Salmanasarın Urartuya yürüşü əks olunub və o xəritədən aydınca görünür ki, eramızdan əvvəl 860, 834 və 830-cu illərdə reallaşmış (???) bu yürüşlər əsasən Van gölü hövzəsini və Urmiyanın qərb sahillərini əhatə edib. İkinci xəritə eramızdan əvvəlki dövrün VIII əsrinin ortalarına (e.ə.d. 760-740) aid edilir və oradan belə məlum olur ki, həmin vaxt Göyçə gölünün şimal-qərb, qərb və cənub-qərb sahilləri, o cümlədən haqqında söhbət açdığımız kitabənin aşkarlandığı Kələqıran qalası (erməni mənbələrində Teyşebı) Urartunun nəzarətində imiş. Sarqonun Urartu əleyhinə eramızdan əvvəlki dövrün 714-cü ilindəki yürüşünü əks etdirən 3-cü xəritədə isə yenə hadisələr Van gölü hövzəsini və qismən də Urmiya ətrafını əhatə edir. Yəni eramızdan əvvəl 760-740-cı illərdəki vəziyyəti əks etdirdiyi iddia olunan xəritədən başqa heç bir yerdə Göyçənin, o cümlədən Kələqıran qalasının Urartu ilə bağlı olduğuna işarə yoxdur. Eyni zamanda Kələqıran qalasında tapılmış kitabəni şərh edərkən erməni alimləri və onların havadarları qeyd edirlər ki, bu kitabə Sardurinin oğlu Rusaya aiddir. Digər tərəfdən, onların öz iddiasına görə Sardurinin oğlu Rusa hakimiyyətə məhz eramızdan əvvəlki dövrün 730-cu ilində gəlib. Belə olduqda məntiqi bir sual çıxır ortaya: eramızdan əvvəlki dövrün 730-cu ilində hakimiyyətə gəlmiş Rusa ondan hələ 20-30 il əvvəl Urartunun ərazisi kimi qeyd olunan Kələqıran qalasını və ona yaxın olan Tulixu və Xalda şəhərlərini nə üçün müharibə yolu ilə almalıydı?!. Ermə-










**Akademik B.B.Piotrovskinin tərtib etdiyi xəritələr:**

1. III Salmanasarın Urartuya hücumu;
2. Sarqonun e.ə. 714-cü ildəki yürüşü;
3. Urartu e.ə. VIII əsrdə

lərin Kələqıran kitabəsini Rusanın adı ilə bağlamaq cəhdinin absurdluğu göz önündədir. Bu iddianın cəfəngliyini təsdiqləyən başqa maddi dəlillər və tarixi faktlar da saysız-hesabsızdır. Onlardan daha birinə diqqət yetirək. Kələqıran qalasında daş kitabə tapılsa da, o Göyçə gölü hövzəsində yeganə qala deyil. Göyçədə Kələqırandan da möhtəşəm qalaların mövcud olduğunu erməni arxeoloqları da, elə B.Piotrovskinin özü də birmənalı şəkildə təsdiqləyirlər. Ən maraqlısı odur ki, digər qalaların Kələqırandan daha qədim olduğunu da elmi dairələr birmənalı olaraq qəbul edirlər. Belə ki, Kəvər nahiyəsindəki Ördəkli qalasının eramızdan əvvəlki dövrün II minilliyinin ortalarına, Ataxan, Bitikçi, Quləli, Kəvər və Qışlaq qalalarının eramızdan əvvəlki II minilliyin sonlarına, Başkənd mağara-qala kompleksinin eramızdan əvvəlki III minilliyə; Martuni nahiyəsindəki Əliqırıx və Ərgüş qalalarının eramızdan əvvəlki I minilliyin əvvəllərinə aid olduğu artıq elmi təsdiqini tapmış həqiqətlərdir. Başqa sözlə, urartoloqların özlərinin etirafına görə, bu qalaların "ən cavanı" Kələqıran qalasından azı 300 il "qoca"dır. O da artıq təsdiqlənmiş faktdır ki, eramızdan əvvəlki dövrün VIII əsrindən sonra Ördəkli- Qışlaq-Quləli-Atamxan-Kəvər-Başkənd qalalarını birləşdirən istehkam divarları tikilib. Yəni ki, Kələqıran kitabəsində həkk olunmuş mixi mətndə təsvir olunan hadisədən- bir şahın 23 şahı öz tabeçiliyinə almasından sonra Göyçə hövzəsindəki mövcud qalalar vahid müdafiə kompleksinə çevrilib. Göyçəni öz nəzarətinə almış Rusa hansı ağılla təzədən burada vahid müdafiə kompleksi yaradırdı; ümumiyyətlə "vahid Urartu dövləti"nin (???) sərhədləri daxilində ayrıca bir müdafiə kompleksi yaratmaq hansı məntiqə sığır?!. Daha geniş miqyasda götürdükdə bu sualı daha kəskin şəkildə qoymaq olar: 714-cü ildə Urmiya- Van aralığında öz hakimiyyətini saxlamağa qüdrəti çatmayan bir çarın eyni vaxtda Göyçə hövzəsində döyüşlər aparması nə dərəcədə ağlabatan bir məsələdir? Cavab elə sualın özündən aydındır: bu qəbil gülünc mülahizələri elmi fakt kimi dəyərləndirmək də sadəcə qeyri-ciddilik əlamətidir.

Göründüyü kimi, Kələqıran kitabəsinin Urartuya (ermənilərin təbirincə ermənilərin əcdadlarına) məxsusluğundan söhbət belə gedə bilməz. Belə olduğu təqdirdə isə başqa bir məntiqi suala cavab tapmaq lazım gəlir: 2700 illik tarixi heç kimdə şübhə doğurmayan Kələqıran kitabələrinin əsl müəllifi hansı etnosun nümayəndəsi ola bilərdi? Sualın ən doğru cavabını elə mətnin özündə axtarmaq ən optimal variantdır. Odur ki, mətnə diqqət yetirək. Kitabədə bir sərkərdənin 23 hakimi özünə tabe etdirməsi barədə məlumat olduğunu qeyd etmişdik. Bu öyüncək xəbərdən sonra həmin sərkərdə o 23 qalanın adını sadalayır: **"...Adaxuni, Uelikuxi, Ar-**

**kuniani... Adiamani, Qurkumeli...”** və s. Bir sıra adlar yarımçıq oxunsa da, hər halda B.Piotrovski adların tam siyahısını verməyə nail olub. Nə deyir bu adlar? Mixi yazılarının üslub prinsiplərinin hələ də tam müəyyənləşməməsini və Kələqıran mətnini oxuyanların qədim türkcə üzrə yox, məhz “urartologiya” üzrə mütəxəssis olduqlarını, həmçinin onların doğma dilləri üçün “Ə” və “H” səslərinin yad olması reallığını nəzərə aldıqda, tərcümədə bir sıra yanlışlıqlara yol verildiyini tam əsasla söyləmək mümkündür. Bununla belə, “ADAXUNİ”nin (orijinalda bəlkə də ADAHUNİ) məhz ADA HUN QALA- müasir anlamda Adaqala; “UELİXUNİ”nin (orijinalda bəlkə də ULUHUNİ) məhz ULUQUM- müasir Görücüörən; “ARKUNİANİ”nin (orijinalda bəlkə də ƏRGÜNİANİ) Ərgün; “ADİAMANİ”nin məhz müasir anlamdakı Adyaman qalası; “ATAZİANİNİ”nin məhz Ataxan; “QURKUMELİ”nin ilkinliyində “qur”-”qum”-”eli” (bəlkə də “qor”+ “qud”+”eli”), yəni “cəsur ərənlər”, “xoşbəxt insanlar”, “görücülər” anlamına gələn, sonradan isə müxtəlif dövrlərə aid mənbələrdə “Qumeli”- Qutəli”- kimi təsnifl ənən Quləli qalası olduğu ilk baxışdan belə aydınca görünən reallıqlardır. Təbii ki, B.Piotrovski qədim türkcədən xəbərdar olsaydı; “qur”-”qor” kəlməsinin igidlik, cəsurluq; “qum”-”qam” kəlməsinin uzaqgörənlik; “qut” kəlməsinin xoşbəxtlik; “elli” kəlməsinin dövləti olan xalq (*"Böyük Gültəkin abidəsi"nə görə - S. V.*) anlamına gəldiyini bilsəydi qənaətləri də ermənilərin istəklərinin əleyhinə olardı. Ən azı akademik B.Piotrovski öz əli ilə adını “Keleqıran” kim yazdığı bir qalanın adının “Kolyanlıqıryılyan”, yaxud da “Kolyaqiryan” şəklinə salınmasının məqsədli təhrif olduğunun fərqinə vara bilər; az qala yarıdan çox hissəsi gölün içində tikilmiş bu qalanın qədim türkcədə “kəl”+”ər”+”qur”+”an”, yəni kəl kimi güclü ərənlərin məskəni, yaxud müasir Azərbaycan türkcəsində “kələ”+”qıran”, yəni “hətta kəllərin belə güc gələ bilmədiyi” qala kimi tam anlaşıqlı bir ifadənin əvəzinə ermənilərin nə üçün “Tsovinar” sözü işlətdiyinin səbəbi ilə maraqlanardı. Və təkcə Kələqıran toponiminin taleyi ilə yox, ümumən bu qaladakı kitabədə aşkarlanmış toponimlərin nə üçün dəyişdirilməsini aydınlaşdırmağa çalışar, erməni tarixçilərinə məntiqi bir sual ünvanlayardı: əgər doğrudan da Urartu erməni çarlığı olubsa və Göyçə hövzəsindəki kitabələrin müəllifləri ermənilərdisə, onda bu kitabədəki və eləcə də ümumən Göyçə hövzəsindəki qədim adları dəyişməyə, məsələn, Ataxan qalasını “Vardadzor”, Qurkumeli - Quləli qalasını “Qarmirgyuğ”, Adyaman- Adiamani qalasını “Getaşen”, Ördəkli qalasını “Lcaşen” adlandırmağa nə ehtiyac var? Axı məntiqlə ermənilər öz qədim yurdlarındakı qədim adların qorunmasında maraqlı olmalıdırlar! Reallıqda isə tam əks

proses gedir: rus arxeoloqunun aşkarladığı 2700 illik adlar tələm-tələsik dəyişdirilir. Deməli, bu cür tələskənliyə səbəb olub. Və o səbəb aydındır, ermənilər urartoloqların nə vaxtsa qədim türkcəyə müraciət edəcəyindən ehtiyatlanıblar. Daha konkreti, Kələqıranın əldə olan son kitabəsi ermənilərin "Böyük Erməni imperiyası" barədə 1000 illik uydurmalarının ölüm hökmü ola bilərdi. Odur ki, erməni tarixşünasları "qədim Urartu kitabəsi" kimi təsniflənən maddi dəlildən kəskinliklə imtina yox, onu özününküləşdirib təhrif etmək yolu tutublar. Çünki Kələqıran kitabəsindən imtina, oxşar kitabələrdən- Van ərazisində, Urmiya ellərində tapılmış eyni dövrə dair, eyni üslüblü kitabələrin Urartuya məxsusluğunu da şübhə altına ala bilərdi. Kələqıran kitabəsindən xeyli- az qala bir əsr əvvəl Urartu kitabələri kimi təsbitlənmiş bu maddi dəlillər isə qondarma erməni tarixinin əsasını təşkil edir. Amma onların heç birində Kələqıran kitabəsində olduğu qədər aşkar mətn yoxdur, heç birində bu qədər toponim sadalanmayıb. Bu baxımdan Kələqıran kitabəsi ermənilərin tarix yaradıcılığına qənim kəsilən yeganə maddi dəlildir. Bu yerdə istər-istəməz bir sual çıxır ortaya: Mesrop Smbatyans Kələqıran qalasını goreşən kimi eşıb iki kitabəni və kurqanlardakı əşyaları götürdükdən sonra bu maddi dəlillərin onların əleyhinə işlədiyini bilərək, məhv etmiş erməni alimləri Kələqırandakı üçüncü kitabənin sağ-salamat qalmasına nə əcəb imkan vermişlər? Bu bir xoşbəxt təsadüfdür. Bütün tarix boyunca bəxtimizə düşmüş, bəlkə də, yeganə xoşbəxt təsadüf. Bunun belə olduğunu akademik B.Piotrovskinin hesabatında yer almış aşağıdakı məlumatdan aydınca görmək olar: **"...mən Kələqıran kitabəsini iki dəfə tədqiq etmişəm. Birinci dəfə 1932-ci ildə qayadakı yazının ekstampajı üçün ora qayıqla yaxınlaşmışam. İkinci dəfə 1934-cü ildə kanatla yuxarıdan enmişəm. İndi suyun səviyyəsi azaldığı üçün o yazılara elə-belə də yaxınlaşmaq mümkündür..."** (*Б.Пиотровский. "Ванскойе царство". М.,-1959. стр.90*). Məsələ aydındır: Kələqıranın dörd bir yanını göreşən kimi dağıtmış Mesrop Smbatyans burada kitabələr axtardığı dövrlərdə qalanın bir hissəsi gölün içində olduğu üçün, o, Kələqıran qalasının şimal divarlarına yaxınlaşa bilməyib və bəlkə heç ağlına da gəlməyib ki, 2700 il əvvəl bu kitabələri yazdıran insanlar "mesropsayaq tarix gəmiriciləri"nin varlığını nəzərə alaraq, kitabənin birini əlçatmaz yerə həkk ediblər. Və görünür bu cür tədbirli davranmaqda haqlı imişlər; bəşər tarixində cismən insankimilər, xislətən gəmiricilər fəsiləsinə mənsub olan hayk adlı millətin şərindən ehtiyatlanmağa həqiqətən də ehtiyac var! Bu mövzuya söhbətimizin gedişində təkrar-təkrar qayıtmalı olacağıq, odur ki, məqsəddən yayınmamaq üçün hər şeyə ardıcıllıqla nəzər yetirək. Göyçə toponiminin

özündə nəyi ehtiva etdiyini aydınlaşdırmaq üçün onun dilimizə tarixin hansı dönəmində daxil olduğu barədə araşdırmalarımızı davam etdirək.

Beləliklə, hələlik bizə o aydındır ki, Göyçə kəliməsi coğrafi təsnifat kimi yazılı mənbələrdə ilk dəfə "Kitabi Dədə Qorqud"da, yəni 1300 il əvvəl işlənib və buradakı elatın 24 sancaqdan ibarət olması məhz bu mənbədə əks olunub. Digər tərəfdən onu da aydınlaşdırdıq ki, Göyçənin "Kitabi Dədə Qorqud"dakı və müasir coğrafiya elmindəki təsnifatına uyğun olan ərazidəki Kələqıran qalasından tapılmış 2700 illik kitabədə də bu ərazidə 24 (23+1) qalanın olduğu açıq mətnlə ifadə olunub və o kitabədə sadalanan, eyni zamanda eramızın XX-əsrinin sonlarına qədər bu yerlərin sahibi olmuş oğuz türklərinin leksikonunda yaşayan qala adları qədim türkcədən başqa heç bir dildə anlaqlı deyil. Deməli, bəşər övladının Göyçədə məskunluğunun tarixini o daş kitabənin qayalara həkk olunmasından əvvəlki dövrlərdə axtarmaq gərəkdir. Ən azı ona görə ki, hər hansı etnosun hər hansı bir arealda binələşməsi, həmin ərazinin müdafiəsinə zərurət duyma həddinə qədər oturuşması, dövlətləşmə şüuru səviyyəsinə qədər inkişafı nə bir, nə də bir neçə əsrlik iş olmayıb, minilliklərlə vaxt tələb edən dinamik təkamül prosesidir. Göyçədə isə bu prosesin öz kluminasiyasına çatmasının - 24 qaladan birinin hökmdarının qalan 23-nü bir bayraq altında birləşdirməsinin 2700 illik tarixinə məhz Kələqıran kitabəsi şəhadət verir. Kələqıran kitabəsinin məhz bir neçə minillik təkamülün məntiqi sonluğu olması reallığını mixi yazılar üzrə mütəxəssislər də, arxeoloqlar da, "urartoloqlar" da, dolayısı ilə olsa belə, təsdiqləyirlər. Məsələn, qədim ovalvari qalaların neolit dövrünə aid olması barədə mülahizələrə şübhə ilə yanaşan akademik B.Piotrovski onların hamısının, o cümlədən Göyçə hövzəsindəki qalaların böyük əksəriyyətinin eramızdan əvvəlki dövrün II miniliyinə aid olmasını birmənalı şəkildə təsdiqləsə də, Əyrivəng- Ördəkli- Qışlaq- Quləli- Başkənd qalalarını birləşdirən istehkamları eramızdan əvvəlki I minilliyin VIII əsrinin sonlarına, VII əsrin əvvəllərinə aid tikililər kimi xarakterizə edir (*adı çəkilən əsər, səh.-21*). Bu isə o deməkdir ki, Göyçədəki 24 sancaq 2700 il əvvəl bir dövlət halında birləşsə də, onların hər birinin qalası hələ 3000-3500 il əvvəldən müstəqil şəkildə mövcud imiş. Bu qənaət də sərhədsiz təxəyyül məhsulu olmayıb, konkret maddi dəlillərlə təsdiqlənir. Məsələn, **"...Ermənistan Elmlər Akademiyasının Tarix Muzeyinin əməkdaşı A. Mnatsakanyan Əliqırıx qalasında** (indiki Martuni rayonunun Astxadzor kəndi) **axtarışlar zamanı qala müdafiəçilərindən birinin çanaq sümüyünə ilişib qalmış tunc ucluqlu ox aşkarlayıb ki, onun da ilk tunc dövrünə aid olması əsla şübhə doğurmur...Oxşar ucluqlu oxlar A. A. İvanov-**

**ski tərəfindən Azərbaycan SSR-in Gədəbəy rayonu ərazisində aşkarlanıb..."** (*adı çəkilən əsər, səh.-247*). Elə həmin Mnatsakanyan Ördəkli qalasında (indiki Sevan rayonunun Lcaşen kəndi) qazıntılar zamanı eramızdan əvvəlki ikinci minilliyin sonlarına aid, yəni azı 3000 il yaşı olan kurqanlar aşkarlayıb və o kurqanlardan çoxlu sayda tunc silahlar və məişət əşyaları, həmçinin qızıl məmulatları tapıb. Akademik B. Piotrovski Mnatsakanyanın bu tapıntılarını tədqiq edəndən sonra bildirib ki, **"...bu əşyalar burada yaşayanların yüksək mədəniyyətinə şahidlik edir. Onlar Urartunun Zaqafqaziyaya doğru hərəkəti zamanı onlara qarşı vuruşmuş yerli qəbilələrin başçılarına məxsusdur"** (*adı çəkilən əsər, səh.-24*). Nə nəticə hasil olur akademik B.Piotrovskinin bu rəyindən? Buradakı "Urartunun Zaqafqaziyaya doğru hərəkəti zamanı" ifadəsi, ömrünün 30 ilini Urartunun izlərinə həsr etmiş və ermənilərə istinadən "kəşf etdiyi həqiqətlər"in qeyri-ciddiliyini etiraf etmək istəməyən bir alimin özünüsığortasından savayı bir şey deyil və müəyyən mənada başadüşüləndir. Ən azı ona görə ki, B. Piotrovski kimi bir alimin özünün qənaətlərinə görə, "tarix səhnəsində eramızdan əvvəlki dövrün X əsrindən sonra peyda olmuş" və yenə də özünün dediyinə görə "eramızdan əvvəlki VIII əsrin sonlarında, təxminən 730-cu ildən sonra Zaqafqaziya ərazisinə keçmiş Urartu sərkərdələri"nin bu tarixi hadisələrdən 300-400 il qabaq, yəni eramızdan əvvəlki XII-XI əsrlərdə Göyçənin Ördəkli qalasının sahibləri ilə vuruşma etimalının sıfır olduğunu anlamamış deyildi. Amma o, öz dediklərindən birmənalı şəkildə imtina da edə bilməzdi, çünki onun bütün elmi karyerası məhz "Urartu"nun Qafqazdakı hegemon mövqeyinin "sübutu"na söykənirdi. Bununla belə, o konkret faktdan qaça bilməyib, bəlkə də alim vicdanı növbəti aşkar həqiqəti öz xeyrinə yozumlamağa, vaxtilə bilməyərəkdən buraxdığı səhvlər naminə təkrar saxtakarlıq etməyə imkan verməyib və dolayısı ilə olsa da, Göyçənin əzəli sahiblərinin Urartuya (oxu ermənilərə) heç bir dəxli olmadığını, ən əsası, Göyçənin əzəli sahiblərinin hələ eramızdan əvvəlki XII-XI əsrlərdə "yüksək mədəniyyət nümunələri yaratmaq səviyyəsinə qədər inkişaf etdiklərini" təsdiqləyib. Urartuya, ələlxüsus da ermənilərə dəxli olmayan o etnosun kimliyi barədə isə yuxarıda ətraflı danışmışdıq. Bu sırada geniş auditoriya üçün qismən qeyri-müəyyən olan yeganə məsələ "URARTU" məsələsidir və bu səbəbdən də, mətləbə birbaşa dəxli olmasa belə, bir incə məqama - "Göyçənin əzəli sahibliyinə iddiaları müqabilində ermənilər niyə öz adlarından yox, Urartu çarlarının adından danışırlar" sualına cavab tapmağa ehtiyac duyulur. Tam aydınlıq üçünsə məsələnin iki kontekstdə- "Urartu: reallıq, yoxsa növbəti mif?" və "Urartumu ermənilərə bağlıdır,

yoxsa ermənilərmi Urartuya?" suallarına cavab verə biləcək iki ayrı-ayrı müstəvidə nəzərdən keçirilməsi vacib və zəruridir.

Urartu dövləti tarixin hansı dönəmində peyda olub, tarix səhnəsində nə qədər qalıb, əhalisi əsasən kimlərdən ibarət olub? Dünyanın ən ciddi elmi dairələrində ən güclü urartoloq kimi qəbul edilən, amma məhz erməni "elmi dairələri" tərəfindən bir çox hallarda aldadılmış və bu səbəbdən də ciddi yanlışlıqlara yol vermiş akademik B.Piotrovskinin qənaətlərinə görə, **"...Uruatri adına ilk dəfə eramızdan əvvəlki XIII əsrin əvvəllərində, Assuriya çarı I Salmanasarın yürüşlərinə dair salnamələrdə rast gəlinir. Eramızdan əvvəlki XIII-XII əsrlərə dair kitabələrdə Uruatri kəlməsinə nadir hallarda təsadüf olunsa da, hər halda əldə olunan məlumatlara əsasən bu dövlətin (???) Assuriya çarlığının şimalında, Van gölü hövzəsində olduğunu söyləmək mümkündür. Assuriya ilə Urartunu bir-birindən assuriyalıların Nairi dənizi adlandırdığı Van gölünün cənubundakı Nairi dövləti ayırırmış..."** *(Пиотровский Б.Б. "Урарту - древнейшейе государство Закавказя". Ленинград-1939. стр.-10)* Dünyanın ən məhşur urartoloqunun özünü qecə dolaşdırdığına diqqət yetirək! Akademik Piotrovskinin özünün tərtib etdiyi və bizim az əvvəl təqdim etdiymiz e.ə.d. IX əsrinə aid xəritəyə görə assuriyalıların Nairi adlandırdıqları Van gölünün ətrafında qədim Musasir, Xubuşkia, Quzana, Alzi, Enzit, Tumma dövlətləri yerləşirdisə, onda Nairi dövləti haradaymış ki, Assuriya çarlığı ilə Urartu çarlığını bir-birindən ayıra bilsin?!. Piotrovskinin assuriya çarı Sarqonun e.ə.d. 714-cü ilindəki yürüşünə dair tərtib etdiyi xəritədə də nə Nairi, nə də Urartu deyilən bir dövlət göstərilmir. Amma onun 760-740-cı illərə dair "xəritəsində" qüdrətli Urartu dövlətinin sərhədləri nəinki Van-Urmiya-Göyçə gölləri hövzəsini, az qala Xəzər-Qırmızı dəniz arealını əhatə edir. Qəribədir deyilmi; eramızdan əvvəlki dövrün XIII əsrindən etibarən mövcud olmuş bir dövlət nə IX, nə də VIII əsrin sonlarına dair xəritələrdə yoxdur, amma bununla belə VIII əsrin ortalarında eyni arealdakı bütün mövcud ölkələrin hamısının ərazisini nəzarətdə saxlayan bir dövlət kimi təqdim olunur. Necə başa düşmək olar bu tapmacanı?!. Şərh sadəcə mümkün deyil. Odur ki, "Uriatri"nin özündə nəyi ehtiva etdiyini başqa bir mənbəyə istinadən aydınlaşdırmağa çalışaq. 1955-ci ildə nəşr olunmuş "Qədim dünya tarixi"ndə (səh.-56) deyilir: **"...Assuriya kitabələrində ən çox adı çəkilən qəbilələr arasında Uratri adı hamısından çox hallanır...hansı ki, geniş bir ərazidə yayılmış çoxsaylı qəbilələrin ittifaqını ehtiva edirdi..."** Və deyəsən bütün müəmmaların açarı da məhz bu təsnifatdadır. Qədim dünyanın mixi yazılarını tətqiq edən bütün alimlərin yekdil rəyi-

nə görə, **ilk dəfə Assuriya çarı I Salmanasarın eramızdan əvvəlki dövrün XIII əsrinə aid kitabələrində rast gəlinən URUATRİ (U-ru-at-ri) kəlməsi konkret coğrafi təyinat olmayıb, qəbilələr ittifaqını ehtiva edir** (*E.Ebeling, B. Meissner, E. Weidner. "Inschriften der Altassyrischen Könige". Leipzig. 1926. s.-113*). Digər tərəfdən də Kələqıran kitabəsi 24 cırtdan çarlığın- özünümüdafiə şüuru səviyyəsinə yüksəlmiş 24 qəbilənin bir bayraq altında birləşməsini təsbitləyir. **Bu reallıqlara istinadən birmənalı şəkildə demək olar ki, "Uruatrinin qüdrətli dövlət olmasına dair mülahizələr" qədim mixi yazılarda bu ifadə ilə tez-tez rastlaşmış akademik B.Piotrovskinin yanlışlıqlarından savayı bir şey deyil və onun bu yanlışlığı zaman- zaman yazılan tarixi kitabələrin ümumi dəyərinə əhəmiyyətli dərəcədə xələl gətirib.** Belə ki, həm Assuriya, həm Midiya, həm Manna, həm Göyçə ərazisində, eləcə də bütün digər ərazilərdə müxtəlif etnoslara mənsub qəbilələrin bir ittifaqda birləşməsi qədim dünyanın reallıqları baxımından təbii bir proses idi. Və təbii ki, hər bir ərazidəki kitabələrdə qəbilələrin bu sayaq ittifaqı barədə məlumatlar əks oluna bilərdi. Assuriyalıların öz çarlıqlarının sərhədlərini genişləndirmək məqsədi daşıyan yürüşləri zamanı bir yox, bir neçə qəbilə ittifaqı ilə üzləşməsi də təbii idi. B.Piotrovskini, də çox böyük ehtimalla, bu fakt çaşdırıb; "U-ru-at-ri" kəlməsinə müxtəlif coğrafi ərazilərdəki kitabələrdə rast gələn akademik onun hansısa qüdrətli dövlətin adı olduğunu güman edib və...Öz təsəvvüründə canlandırdığı dövlətin sərhədlərini Uruatri kəlməsi işlənmiş kitabələrin coğrafi koordinantlarına uyğunlaşdırıb. Halbuki... Göyçə hövzəsindəki 23 qəbiləni öz bayrağı altına yığmış 24-cü qütrətli sərkərdə Kələqıran qalasına həkk etdiyi mətndə öz dövlətini **"qüdrətli BİAYNİ"** kimi təsnifləyir. Həmin kitabəni ilk dəfə tərcümə etmiş B. Piotrovski isə nədənsə öz xəritələrində özünün aşkarladığı o "qüdrətli Biayni" dövlətinə yer tapa bilməyib və Biayninin "ermənilərin qədim dövləti olan Van sarlığı"nın- "Uruatri dövləti"nin əyalətlərindən biri olduğunu sübut etməyə çalışıb. Amma bununla belə, o, "Biayninin Uruatrinin əyalətlərindən biri olması" barədə öz qənaətlərinin əsassızlığını, dolayısı ilə olsa da, diqqətə çatdırıb: **"...Biaynili termininin özü də bizim üçün hələlik tam aydın deyil... Bu termini Biayni şəkilində işlətmək daha rahatdır..."** ( *Б.Пиотровский. "Ванскойе царство:Урарту". М.,-1959. стр.-32*).

Bəli, urartoloq alim BİAYNİLİ termininin özündə nəyi ehtiva etdiyini bilmir, çünki o ifadə nə rus, nə assuriya, nə latın, nə ərəb, nə fars, nə də erməni dilində anlaqlı deyil. Onun bildiyi tarixdə isə türklərin Qafqazda peyda olması Kələqıran kitabəsinin yazıldığı dövrdən 2000 il sonraya



Kələqıran kitabələri

aiddir və bu səbəbdən də, o, Biaynili kəlməsinin qədim türkcədə nəyi isə ifadə edə biləcəyi barədə heç düşünmək istəmir. Halbuki başqa bir urartoloqun- Q.A.Melikişvilinin bu termini BİAY-AN-Ellİ şəklində oxuduğu akademik Piotrovskiyə də, başa düşmədiyi sözlərin açmasını yalnız "qədim erməni dili"ndə tapan köməkçilərinə də bəlli idi. Və onun özündən fərqli olaraq, ixtisasca şərqşünas olan o köməkçiləri qədim türkcədə **"BAY" kəlməsinin "uca ərənlər", "AN" kəlməsinin "toplum-cəm", "ELLİ" kəlimənsinin isə "dövləti olan xalq- bütünlük" anlamına gəlməsi kimi aşkar həqiqətdən xəbərsiz deyildilər** (*XI əsr mütəfəkkiri Mahmud Kəşğarinin "Divani lüğət-üt türk" əsərinə bax*). Urartoloqlar üçün müəmma olan "BİAYNİLİ- BAYANELLİ" ifadələri dəqim türkcədə nə qədər də anlaşıqlı imiş: **"Uca ərənlərin bütöv dövləti"**. Bu məqamda "Kitabi Dədə Qorqud"da əksini tapmış bir incəliyə diqqət yetirmək heç də zərərli olmazdı. Dədə Qorqud oğuz igidlərinə əməllərinə müvafiq adlar verirmiş. O adlardan biri də "BAYAN-dur" şəklində ifadə olunur. "Dur" kəlməsinin qədim türkcədə "dayaq, dirək, arxa" anlamına

gəldiyini nəzərə alsaq, bu adın sahibinin "Uca ərənlər yurdunun dayağı, dirəyi" anlamına gəldiyi bəlli olur. "Kitabi Dədə Qorqud"da da xanlardan heç biri yox, məhz Bayandur bir neçə epizodda padşah adlandırılır. Bütün bu həqiqətlərin eyni sırada nəzərdən keçirilməsindən sonra isə qəribə bir bağlılıq çıxır ortaya. **Kələqıran kitabəsinin e.ə.d. VIII əsrinin sonlarına, VII əsrin əvvəllərinə aidliyi faktdır. O da faktdır ki, qədim Assuriya kitabələrində tez-tez rast gəlinən "u-ru-at-ri" kəlməsi məhz bu dövrdən sonra öz aktuallığını itirməyə başlayıb və VI əsrdə tamamilə yoxa çıxıb. Bu faktın özü də "u-ri-at-ri" termininin konkret toponim olmadığına, məhz "qəbilə ittifaqlarını" ehtiva etdiyinə sübüt deyilmi? Əgər geniş anlamda dövlətləşmə prosesi başlayan məqamdan, yəni müəyyən dövr ərzində yadellilərə qarşı mübarizədə bir-birinin gücündən yararlanan eyni etnosa mənsub qəbilələr birləşərək konkret sərhəd daxilində mərkəzləşmiş fəaliyyətə başladığı, düşmənlə mübarizədə ayrı-ayrı qüvvələr şəklində yox, vahid qüvvə şəklində çıxış etdiyi andan etibarən "qəbilələr birliyi" anlamına gələn bir ifadə avtomatik şəkildə aradan qalxırsa, buna özgə nə ad vermək olar? Bir daha diqqət yetirək: Kələqıran qalasındakı mətnin müəllifi qəbilələri birləşdirdiyini qeyd edərək, konkret dövlət adı çəkdikdən dərhal sonra "qəbilə ittifaqı" anlamına gələn bir ifadə yazılı mənbələrdən yoxa çıxır və paralel olaraq oğuznamələrdə padşah, yəni dövlət rəhbəri təsnifatı peyda olur. Yəni doğrudanmı bu reallıqların bir-birinə əsla dəxli yoxdur? Bunca təsadüf ola bilərmi?!. Bəlkə də...Amma onu da unutmayaq ki, təsadüf kimi dəyərləndirilən hallar bir-biri ilə məntiqi ardıcıllıqla bağlanırsa, onda bu məqamlar "təsadüflüyünü" itirərək, tarixi proseslərin dinamik mərhələlərinin diqtə etdiyi zərurət mahiyyəti kəsb edir.**

Özləri özlərini "qədim dünya araşdırıcıları və biliciləri" tituluna layiq görmüş xristian dünyası təbəələrinin heç biri Kələqıran kitabəsində adı açıq mətnlə qeyd olunmuş Biayni-Biayanilli-Bayanelli dövləti haqqında məlumat verməsələr də, aysori nağıllarında bu və ya digər çarın birləşmiş qəbilələrin- "uruatri"lərin müqavimətini qırmasına işarə olan məqamlara istinadən, Urartu çarlığının mövcudluğu barədə hökm verməleri; üstəlik belə bir dövlətin konkret sərhədlərini müəyyən edə bilməmələrinə rəğmən, onun eramızdan əvvəlki dövrün XIII əsrindən VII əsrinə qədər yaşamasını "təsdiqləmələri"; bu azmış kimi, heç bir kitabədə heç bir çarın özünü "Urartu çarı" kimi təqdim etməməsinə rəğmən, "Urartu çarlarının sülalə şəcərələri"ni tərtib etmələri olduqca qəribə, qəribə olduğu qədər də müəmmalı görünür. Hətta bütün dünyanın istinad yeri olan qədim yu-

nan mənbələrində, o cümlədən konkret olaraq Strabonun əsərlərində Urartu dövlətinin mövcudluğuna bircə eyham belə olmadığı halda, eramızın XIX əsrində dünya tarix elminin Urartu bumu yaşamasına səbəb nə imiş, bu bum kimin maraqlarına xidmət edirmiş?!.Bu suala tam və anlaqlı cavab almaq üçün "erməni tarixi" deyilən bir tarixin müəyyən məqamlarına nəzər salmaq lazım gəlir.

"Ərman" ifadəsinə ilk dəfə Daranın kitabələrində, təxminən eramızdan əvvəlki 515-ci ilə aid edilən qayaüstü yazılarda rast gəlinir. Eramızdan əvvəlki V əsrdə yaşadığı güman edilən Heredotun "Tarix" əsərində isə bu kəlimə "Arman" şəklində ifadə olunub. Amma bu mənbələrin hər ikisində bu ifadə sırf coğrafi mahiyyət daşıyaraq, heç bir halda millət, yaxud tayfa anlamına gəlmir. Başqa sözlə, "Ərmən" ifadəsi qədim buntürk ağzında "ərlər yurdu" anlamına gələrək, Assuriya çarlığının nəzarətində olan, e.ə. VI əsrin sonlarından isə I Daranın yaratdığı fars dövlətinin 13-cü satraplığına daxil edilmiş konkret ərazini ifadə edib. Eramızdan əvvəlki dövrün VII əsrindən sonra dövlətləşmə prosesinin sürətlənərək bütün Yaxın Şərq, Ön Asiya və Qafqaz ərazisini əhatə etdiyi zamanlarda həmin **"Ərmən" yurdunun coğrafi tutumu "İberiya, Albaniya, Midiya, Assuriya və Mesepotomiya dövlətləri arasındakı təxminən 7-8 min millik bir sahə" kimi xarekterizə olunurdu"** (*И.Н. Березин. "Русский энтсиклопедический словар". СПб.,-1874. Отд.1, том 2*). Həmin ərazi eramızdan əvvəlki VI əsrdə Midiyanın, V əsrin əvvəllərindən etibarən isə Əhəmənilər dövlətinin nəzarətində olub. Erməni tarixinin yaradıcılarından biri olan **A.Pastermacyan** isə bildirir ki, **"...hindavropa qrupuna daxil edilən müasir erməni millətinin qərbdən şərqə axını, Balkanlardan və Kiçik Asiyadan keçərək tarixi Ərməniyyəyə- Ərmən yurduna gəlişi eramızdan əvvəlki VI əsrə aid edilir. Bu hipotez elmi dairələrdə də qəbul edilir..."** (*A.Pastermadcian. "Historie de L.Armenie". Paris-1949. p.-23*) Eramızdan əvvəlki dövrün 331-ci ilində Makedoniyalı İsgəndər III Daranın qoşunlarını darmadağın edərək əhəmənilər sülaləsinin hökmranlığına son qoyduqdan sonra Ərmən yurdu Makedoniyanın tabeçiliyinə keçdi. Eramızdan əvvəlki dövrün 189-cu ilindən etibarən həmin ərazilər romalıların nəzarətində oldu və artıq bir millət kimi təşəkkül prosesi keçmiş ermənilərin yaşadığı həmin əraziyə erməni knyazlığı statusu verildi. Amma bununla belə knyazlıq 123-cü ilə qədər rəsmi olaraq Artaksiyas (ermənilərin iddiasınca, "Artaşes") və Zariardris (erəmnilərin iddiasınca, "Artavazd") adlı fars mənşəli şəxslər tərəfindən idarə olunurdu. 123-cü ildə isə Arşakidlər sülaləsi Ərməniyyədə hakimiyyəti ələ aldı. Və bu məqamda tarixin axarını pozub bir məsələyə diqqət yetirmək lazım

gəlir. Mitriadın hakimiyyəti dövründə (eramızdan əvvəl 123-88-ci illər) Ərməniyyədə hakimiyyət çevrilişi olması yazılı mənbələrdə təsbitlənmiş faktdır. Hadisənin məhz Ərməniyyədə baş verməsini əsas tutan erməni tarixçiləri hakimiyyəti zəbt edənlərin başqa bir erməni sülaləsi- Arşakidlər olmasını iddia edir. Amma... "Stepanos Taronskinin ümumi tarixi"ni tərcümə edərək 1864-cü ildə Moskvada rus dilində nəşr etdirmiş **N.Emin** adlı müəllif "Arşakid" ifadəsini şübhə altına alaraq hakimiyyəti ələ alanların "Arşakxuni"lər olduğunda israr edir. Erməni mənbələrində "sak" tayfalarının "şak"lar kimi təqdim olunması sübutuna ehtiyac duyulmayan reallıqdır. Bu reallığı nəzərə alaraq "Arşakxuni" kəlməsini rus dilinin qramatikasının qəlibindən çıxaranda isə ƏRSAKHUNlar olur. Digər tərəfdən, erməni mənbələri onu da bildirirlər ki, hakimiyyəti zəbt edənlər knyaz Artavazdın oğlu Tiqranı öz saraylarında girov saxlayıblar. Bu tarixi reallığa istinad etdikdə, məntiq və tarixi təcrübə hakimiyyəti zəbt edənlərin erməni olması barədə iddianı rədd edir. Deməli, N. Eminin şübhələri də əsassız deyil. Daha doğrusu, N.Emin konkret tarixi situasiyada Ərməniyyədə hakimiyyətin aborigen əhali - hun mənşəli saklar tərəfindən ələ alındığı həqiqətini bilsə də, erməni tarixinin bütövlüyü naminə bircə eyhamla kifayətlənib. Amma onun bu təəssübkeşliyi də erməni tarixini bütövləşdirmək gücündə deyil. Çünki eramızdan əvvəl 95-ci ildə Mitridatın vasitəçiliyi ilə knyaz taxtına əyləşdirilmiş Tiqran Ərməniyyənin cəmi 7-8 min millik ərazisinin yarıdan çoxunu öz qəyyumuna bağışlayıb (*"История древного мира" Москва-1955. стр.-414*). Bununla belə, binəva erməni knyazı Tiqranın **"Ərməniyyə ərazilərinin yarıdan çoxunun peşkəş verilməsi müqabilində qazandığı müstəqilliyin ömrü cəmi 30 il olub"; daha dəqiqi, "eramızdan əvvəlki 66-cı ildə Tiqran öz canını qurtarmaq üçün Pompeyə minnətçi düşdü və onun diqtəsit ilə alçaldıcı sülh sazişinə qol çəkdi"** (*Мхитар Айриванеци. "История Армени". Москва-1860. стр.106*). **"...Həmin dövrə dair sikkələrdə erməni çarlığı alleqorik olaraq roma imperatorunun ayaqları altında oturmuş qadın surətində təsvir olunurdu...Hətta Mark Avrelinin və Lütsiya Verinin dövründə, yəni eramızın II əsrinin 60-cı illərinə qədərki sikkələrdə erməni çarları eyni dərəcədə alçaldılmış təsvirlərlə səciyyələnirdilər..."** (*Мушегян Х. А. "Денежные обрашения Армении". Ереван - 1983. с.,245*). Beləliklə, eramızdan əvvəlki I əsrin ortalarından eramızın II əsrinə qədər erməni çarlığında müntəzəm olaraq işğalçı qoşunlar saxlanmış və o qoşunların komandirləri çarlığın faktiki hökmdarları olmuşlar *(Амиранашвили-Болтунова А.И. "Иберия и Римская экспансия в Азии". "Вестник древней истории", 1938, N:4).* Eramızın 63-cü ilində romalılarla farslar ara-

sında bağlanmış müqaviləyə əsasən erməni knyazlığının ikili asılılığı təsbitləndi. Yəni ölkənin idarəçiliyi birbaşa farsların nəzarətində olsa da, knyazları təyin etmə hüququ romalılarda qalırdı. 115-ci ildə isə erməni knyazlığı rəsmən Roma imperatorluğunun tərkibinə qatılaraq, əyalət statusu qazandı. Həmin dövrdən başlayaraq 185-ci ilə qədər roma qoşunları erməni knayzlığında saxlanıldı. Ermənilərin vəziyyətdən çıxmaq üçün işlətdikləri fəndgirlik- 301-ci ildə xristianlığı qəbul etmələri də bir xeyir vermədi. Erməni çarlarının imperator xəzinəsinə vergi ödəməsi ənənəsi 358-ci, Roma nümayəndələrinin erməni çarlarının sarayında səlahiyyət sahibi olmaları ənənəsi isə 370-ci ilə qədər dəyişməz qaldı *(Гарсоян Н.Г. "Армения в IV веке". "Вестник обшественных наук". АН Арм.ССР, 1971. N:3).* 387-ci ildə isə 100 illik müharibələrdən cana doymuş farslarla romalılar öz aralarında razılığa gəldilər və bu "sülh danışıqları" nəticəsində Ərməniyyənin ərazisi bu dövlətlər arasında bölündü. 428-ci ildə isə nə farsların, nə də romalıların nəzarətindəki torpaqlarda erməni knyazlığı deyilən bir məvhum qalmamışdı; tarix səhnəsinə Avropada çıxaraq eramızdan əvvəlki V-IV əsrlərdə Van hövzəsində peyda olmuş, eramızdan əvvəlki tarixin 331-ci ilindən sonra Makedoniyalı İsgəndərin xeyirxahlığı ilə tarixi türk torpaqları olan Ərməniyyə ərazisində vassal knyazlıq yaratmış bir etnosun dövlətçilik arzularına birmənalı şəkildə son qoyulmuşdu. Elə təxminən həmin vaxtlardan etibarən də ermənilər bir millət olaraq yaşadıqları bütün ərazilərdə qədirbilməz və nankor təbəələr kimi tanınmağa başladılar ki, bunun da məntiqi sonluğu hər bir hökmdarın öz dövlətinin sərhədlərindəki bu etibarsız millətin daha təhlükəsiz yerlərə köçürülməsi barədə qərar qəbul etməsi oldu. Beləliklə, ermənilərin təxminən 8 əsr- eramızdan əvvəlki tarixin IV əsrindən eramızın V əsrinin ortalarına qədər kompakt yaşadıqları ərazidən, Van gölü hövzəsindəki Ərməniyyədən qovulması prosesi başlandı. Bu yönlü ilk addımı isə fars hökmdarı II Şabuh atdı. V əsrin ortalarında o, İranın sərhəd bölgəsi sayılan ərazilərdəki ermənilərin xəyanətindən ehtiyatlanaraq, onların ölkənin içərilərindəki müxtəlif nahiyələrdə yerləşdirilməsi barədə sərəncam imzaladı ki, bu sərəncamın təsir dairəsinə də bir neçə min erməni düşdü və...Bu proses, ermənilərin hər yerdən "sahibinin üzünə ağ olmuş köpək kimi" qovulması ənənəsi az qala 1000 il, rusların onlardan qonşuların müdafiə gücünü azaldan təxribatçılar qismndə istifadə etmək barədə niyyətləri üzə çıxana qədər davam etdi ki, bu barədə Göyçənin tarixi ilə bağlı söhbətimizdə ətraflı danışacağıq. Hələliksə, mətləbdən uzaqlaşmayaq, ermənilərin "Urartunun qədim erməni dövləti" olması barədə iddialarının haradan qaynaqlandığını və nə dərəcədə əsaslı olduğunu aydınlaşdıra bi-

ləcək tarixi faktların xronologiyasını izləyək.

İran - Bizans müharibələri zamanı ermənilərin bir qismi Konstantinopola köçürüldülər. Və məhz o ağır dövrdə, ermənilərin öz satqın xislətləri səbəbiylə düçar olduqları məşəqqətlər dövründə ilk dəfə "erməni dövlətçiliyinin bərpası" çağırışı atıldı ortaya. Erməni mənbələrinin verdiyi məlumata görə, Böyük Ermənistanın coğrafi koordinantları, qələbələrlə dolu tarixi və onun bərpası uğrunda müqəddəs mübarizəyə çağırış ilk dəfə V əsr müəllifi **Favstos Buzandetsi**nin qeydlərində yer alıb. Bu gün üzdə olan o qeydlərdə qədim Albaniyanın bir sıra vilayətləri, o cümlədən Göyçə də böyük Ermənistanın ərazisi kimi qeyd olunur. Bu məsələni elmi baxımdan tədqiq etmiş professor F.Məmmədovanın fikrincə, **"...F.Buzanqdetsi öz əsərini elə bir vaxtda yazmışdı ki, o zaman artıq erməni dövlətçiliyi tam mənada itirilmişdi. Belə bir zamanda əhalini farslar əleyhinə üsyana hazırlamaq üçün erməni dövlətinin gücünü və sərhədlərini şişirdən bir ideoloji vasitəyə ehtiyac duyulurdu. Amma artıq erməni knyazlığının real ərazisini bərpa etmək sadəcə mümkün deyildi, çünki o bizanslarla farslar arasında bölüşdürülmüşdü. Belə olan təqdirdə erməni dövlətçiliyinin bərpası ideoloqlarının fikrincə Ermənistanın ərazisini Bizans və İrandan asılı olan digər dövlətlərin torpaqları hesabına bərpa etmək ən sərfəli variant ola bilərdi. F.Buzandetsi də məhz bu niyyətlə öz qeydlərində Albaniyanın bir sıra vilayətlərini erməni knyazlığının tarixi ərazisi kimi göstərirdi"**. Bəli, niyyət tam reallaşmasa da, yəni erməni knyazlığını bərpa etmək mümkün olmasa da, hər halda eramızın 450-451-ci illərində ermənilərin farslar əleyhinə üsyan qaldırdıqları tarixi məxəzlərdə təsbitlənmiş reallıqdır. Bundan sonra isə VI əsrdə Moisey Xorenskinin və VII əsrdə Ananiy Şirakatsinin eyni təyinatlı, eyni məqsədli "tarixi əsərləri" işıq üzü görüb. Müasir erməni tarixşünaslığı üçün bazis rolu oynayan bu əsərlər barədə təsəvvür əldə etmək üçün onların geniş şərhinə belə ehtiyac yoxdur; dünyanın ciddi elmi institutlarının aparıcı mütəxəssislərinin, o cümlədən elmi həqiqətləri erməni xəstəliyinə qurban verməyən erməni alimlərinin bu "məxəzlər" barədə rəylərinin bir neçəsi ilə tanışlıq kifayətdir ki, onların dəyərsizliyinin- cılız niyyətlə yazılmış və sonradan müxtəlif dövrlərdə müxtəlif adamlar tərəfindən müqəddəs erməni savaşının məqsədlərinə uyğunlaşdırılmış cızmaqaralardan savayı bir şey olmadığı həqiqətini dərk edəsən. Doktor T.Vetter 1895-ci ildə Venada nəşr etdirdiyi "Erməni uydurmaları" kitabında deyir: **"M. Xorenskinin bizə V əsrin nümunəsi kimi təqdim edilən kitablarının birinci və ikincisi nağıllara əsaslanır; müəllif mifik personajları tarixi şəxsiyyətlər kimi təq-**

**dim edir, tarixi faktları ürəyi istədiyi kimi təhrif edir".** 1919-cu ildə Parisdə nəşr olunmuş "Erməni tarixi" kitabında isə erməni tarixçisi **Haykazyan** məsələni lap qəti şəkildə qoyur: **"...ilk erməni dinastiyası tarixi şəxsiyyətlərin real yaşantılarına yox, quraşdırılmış nağılların personajlarına əsaslanıb. Movses Xorenskinin özü isə V əsr tarixçisi yox, VII əsrdə yaşamış tarix təhrifçisidir".** Bu iqtibasları sonsuzluğa qədər də uzatmaq olar. Amma yalanın yalan olduğunu təkrar - təkrar sübuta yetirməyə ehtiyac varmı? Bu xüsusda təkcə onu qeyd edək ki, müasir erməni tarixçiləri Anani Şirakatsini "Ermənistanın coğrafiyası VII əsrdə" kitabının müəllifi kimi təqdim etsələr də, belə bir əsərin nə əlyazması, nə VII-XV əsrlərə aid edilən nüsxəsi, nə də VII-XV əsrlərdə yaşamış hər hansı tarixçinin bu əsərə istinad etdiyinə dair konkret məlumat yoxdur. Düzdür, VII əsrdə belə bir astronom yaşayıb, amma elmi dairələrə o alimin təkcə bir "Təqvim"i məlumdur və ciddi elmi dairələr təqvimlə coğrafi təsnifat məvhumlarının fərqinə vararaq, "Ermənistanın coğrafiyası VII əsrdə" əsərini növbəti erməni fırıldağı kimi dəyərləndirirlər. Amma təbii ki, Bizansın, Romanın, İranın çoxəsrlik müharibələri zamanı tapdağa çevrilmiş erməni knyazlığı ərazisində kompakt yaşayan və bu hegemon dövlətlərin əsgərlərinin bir-birini əvəzləyən təcavüzü nəticəsində nəinki dilini, hətta antropoloji cizgilərini itirən bir millətin mövcudluğunu, heç olmasa kağız üzərində qorumaq məqsədi güdən ideoloqlar öz fəaliyyətlərinin 1000-1500 il sonra kim tərəfindən necə dəyərləndiriləcəyinin fərqində deyildilər. Onların fərqində olduğu yeganə amil, öz dövrlərində real güc sahibi olan millətlərin və dövlətlərin qəzəbinə tuş gəlməmək idi ki, eramızın VII-VIII əsrindən başlayaraq məhz Albaniya torpaqlarının bir qisminin "qədim Erməni dövlətinin" ərazisi olduğu barədə uydurmalara rəvac verilməsinin səbəbini də məhz bu reallıqda axtarmaq gərəkdir. Çünki az qala 12 əsrlik bir müddət ərzində, eramızdan əvvəlki IV əsrdən eramızın VIII əsrinə qədər Qafqazda yeganə real güc sahibi olmuş, bütün bu müddət ərzində sərhədləri cüzi dəyişikliklərə belə məruz qalmamış Alban dövləti məhz VIII əsrdə özünün tənəzzül mərhələsinə qədəm qoymuşdu və təbii ki, artıq ermənilərin iddialarına cavab verəcək halda deyildi. O zaman faktiki güc sahibi olan bizansların, farsların, tarix səhnəsinə yeni hegemon qüvvə kimi çıxan ərəblərin maraqlarına toxuna biləcək hər hansı bir iddia isə, təbii ki, yeni faciələrə səbəb ola bilərdi. Bir daha təkrar edək ki, erməni ideoloqlarını Albaniya sərhədləri daxilində qədim yurd yeri axtarışına sövq edən tarixi şərait məhz VIII əsrdə yetişmişdi, ermənilər də bundan maksimum bəhrələnməyə çalışırdılar. Və müəyyən mənada bəhrələndilər də. IV-VIII əsrlərdə İrana, Ərə-

bistan çöllərinə, Balkanlardan keçməklə Avropaya səpələnən və bu yerlərin aborigen əhalisi tərəfindən assimilyasiya olunan ermənilər IX əsrin əvvəllərindən etibarən Alban dövlətinin xarabələri üzərində təşəkkül tapan yeni müstəmləkə dövlətlərdə təhlükəsiz yaşamaq imkanı əldə etdilər. Çünki hər bir işğalçıya yerli tayfalar arasında rəxnə sala biləcək, beləliklə də vaxtilə qüdrətli Alban dövlətinin əsasını təşkil edən millətin ümumi müqavimətini sarsıda biləcək təxribatçı sakinlər lazım idi və "yer üzündə yer axtarışında olan ermənilər" bu iş üçün ən yararlı kütlə idi. Başqa sözlə, yaranmış şərait həm işğalçılara, həm də ermənilərə sərfəli idi və tərəflər məhz bu müstəvidə bir-birini tam mənada qane edirdilər. Farslara da, ərəblərə də, bizanslılara da ermənilərin onların tarixi torpaqlarını qan-qadasız tərk edərək tədricən Qafqaza axışmaları sərf edirdi, çünki bu halda aramsız döyüşlər həm erməniləri, həm də Qafqazın əzəli sahiblərini- qüdrətlı Alban dövlətinin əsasını təşkil edən hun mənşəli Qafqaz oğuzlarını zəifədirdi. Və ermənilərdən katalizator kimi istifadə metodu o qədər effektli oldu ki, VIII əsrdən sonra tarix səhnəsinə yeni hegemon güc sahibi kimi çıxaraq Qafqaza diş qıcırtmış bütün tərəflər eyni taktikadan - erməni faktorundan eyni dərəcədə ustalıqla bəhrələndilər. Təbii ki, bu zaman super güclərin əsas məqsədi öz nəzarətlərini gücləndirmək olduğundan ermənilərin konkret məqsəd - müstəqil dövlət yaratmaq naminə manevr imkanları məhdudlaşırdı, amma bununla belə ermənilərin indiki Azərbaycan və Gürcüstan ərazisində kompakt məskunlaşması üçün münbit şərait, qismən də olsa təmin olunurdu. Ermənilər üçün göydəndüşmə olan və az qala 1200 ildən bəri davam edən bu ənənənin əsasını isə VII-X əsrlərin alternativsiz güc sahibi olan ərəblər qoydular. Belə ki, VII-IX əsrlərdə Albaniya bir dövlət olaraq süqut etsə də, xristian kilsələrindən köklü şəkildə fərqlənən, özündə daha çox hürri-zərdüştiliklə oğuz kultunun sintezini yaşadan alban kilsələrinin müqavimətini qırmaq ərəblərə müyəssər olmamışdı. Odur ki, onlar alban məbədlərinin yanında qriqorian kilsələri tikilməsinə yardım edir və xristian birliyi üçün seperatizm təhlükəsi yaradan bu kilsələrə ağlagəlməz imtiyazlar verirdilər. Bu eybəcərlik 909-cu ildə özünün kuliminasiya nöqtəsinə çatdı, Zəngəzur mahalındakı Tatev məbədi xəlifənin razılığı ilə rəsmən qriqorian kilsəsi elan edildi və bütün ətraf türk kəndləri onun sərəncamına verildi *(Симеон Ереванци. ДСАМБАР-Памятная книга зерцало и сборник всех обстаятельств святого пестола Эчмиадзина и окрестных монастырей. X в. Москва-1958).* Yazıqlar olsun! Yazıqlar olsun ki, IX-X əsrlərdən başlayaraq hegemon gücə çevrilən səlcuqilər də, XI-XV əsrlərdə dünyaya meydan oxuyan moğol-tatarlar da, hətta... hətta eramızdan əvvəlki VIII əsrdə

dövlətçilik şüuru səviyyəsinə yüksəlmiş oğuz türklərinin Qafqazdakı, Ön Asiyadakı tarixi haqları uğrunda müqəddəs savaşa qalxmış Səfəvilər də ərəblərdən gəlmə bu iyrəncliyi tam mənada yamsıladılar, bir-birinə qarşı mübarizədə erməni faktorundan yararlanmağa çalışdılar. 1449-cu ildə Qaraqoyunlu hökmdarı Cahan Şah "Erməni kilsələrini vergilərdən azad edilməsi barədə fərman" imzaladı və həmin fərmanla öz məliklərinə kilsənin işinə qarışmağı qadağan etdi. 1468-ci ildə başqa bir Qaraqoyunlu hökmdarı - Həsən Əli gərgin döyüşlər ərəfəsi ermənilərin etimadını qazanmaq naminə Əmir Rüstəmin mülkü olan 14 kəndi qriqorian kilsəsinə bağışladı və kilsənin vəqf torpaqlarındakı kəndləri biyar ödəmələrindən azad edərək, bütün gəlirlərinin kilsəyə ödənilməsini təmin edən fərman imzaladı. Eyni qəbil addımı Şah İsmayıl Xətai də atdı, 1503, 1506, 1510-cu illərdə qriqorian kilsəsinin nəfinə 3 fərman verdi. I Şah Təhmasib isə bir az da irəli gedərək, özünün 1557-ci il fərmanı ilə qriqorian kilsələrinə müstəqil idarəçilik hüququ verdi. Və ali məqsəd naminə müqəddəs savaşlarda istifadə olunan bu cılız taktika son nəticə etibarı ilə ermənilərə gizli niyyətlərini beynəlxalq səviyyəyə çıxarmaq, XI əsrdən başlayaraq dini müstəvidə sürətlə qütbləşən dünyaya "öz həqiqətlərini" qəbul etdirmək, xristian təəssübkeşliyi müstəvisində havadarlar tapmaq şansı verdi. Və *real güc sahiblərinin bu cılız taktiki gedişləri bəzən o qədər ifrat xarakter aldı ki, bəzi hallarda iki qardaşı bir-birinə düşmən, ayrılıqda isə hər birini erməniyə dost etdi. Belə bir reallıq nə qədər utandırıcı olsa da, hər halda türk tarixində izi qalmış gerçəklikdir və yeri düşmüşkən bu barədə danışmağa, ən azı tarixi təcrübədən dərs almaq naminə bu yönlü faktlardan, bu qəbil təcrübənin acı nəticələrindən söhbət açmağa ehtiyac var. Səfəvilərin erməni kartından məharətlə yararlandığını görən osmanlı Sultanı III Murad eyni taktikadan istifadə etdi və səfəvilərlə yeni müharibə ərəfəsində, 1578-ci il aprelin 28-də (hicri 986-cı il səfər ayının 20-si) türkə şərəf ləkəsi gətirən bir fərman imzaladı. Həmin fərmanda, o, öz qazilərinin səfəvi türklərinə və ermənilərə qarşı davranış tərzlərini müəyyənləşdirərək deyirdi:* ***"...nizə və qılıncın hədəfi olduqlarına görə onların (qızılbaşların-S.V.) övladları və zövcələri əsir götürülməli, məmləkət və vilayətləri istila olunmalı, malları qazi qullarının qəniməti olmalıdır..."*** *Ermənilərə münasibətin konturlarını müəyyənləşdirərkən isə sultan öz döyüşçülərinə birmənalı şəkildə əmr edirdi:* ***"...rəayadan xarac-güzar erməni tayfasının isə mallarına ziyan vurmayasan, canlarına xəsarət yetirməyəsən!".*** Bu fərmanın nəticəsi olaraq osmanlı döyüşçüləri hələ Arazı keçməmiş öz qanı bir, dili bir, dini bir qardaşlarına elə müsibətlər yaşatdılar ki, onun sədasını eşidən bütün türk kəndləri boşaldıldı və o kənd-

lərin türk sakinləri osmanlılar 1635-ci ildə geri çəkilənə qədər öz yurdlarına dönmədilər. Əvəzində erməni qriqorian kilsəsi, yaranmış boşluqdan istifadə edərək, Göyçə gölündəki "Selcan türbəsi"ni Eçmiədzinin tabeçiliyinə keçirməyə və "Sercan monastırı" adı ilə bərpa etməyə müvəffəq oldu. Bu tarixi təcrübədən dərs alan Səfəvi hökmdarı I Şah Abbas isə hamıdan qabağa getdi: 1605-ci ildə ermənilərin kompakt yaşamaları üçün torpaqlar ayırdı və İsfahan şəhərinin yaxınlığında Yeni Culfa şəhərinin salınması üçün xəzinədən vəsait ayırdı. Bu azmış kimi, o, Səfəvi dövlətinin xarici siyasətini Xoca Səfər adlı bir erməniyə etibar etdi ki, bu erməni diplomatı da elə ilk fürsətdəcə, yəni 1608-ci ildə Avropaya səfəri zamanı Roma papasına ermənilərin xristian dövlətinin qurulmasına yardımçı olmaq barədə xahişnamə təqdim etdi (*Байбуртян В. А." Армянская колония Новой Джулфы в XVII веке". Ереван-1969. стр.-21*). II Şah Abbas isə bütün sələflərini kölgədə qoydu: özünün 1644, 1645 və 1650-ci il tarixli fərmanları ilə qriqorian kilsəsini dövlət içində dövlətə çevirdi, ona hətta müstəqil məhkəmə hüququ verdi. Bu elə bir zaman idi ki, Rusiya Qafqaza yollar arayırdı və Səfəvi xanədanın da, Osmanlı imperiyasının da zəiflədilməsi onun xarici siyasətində prioritet təşkil edirdi. Və bu niyyətin reallaşması üçün Rusiya çarları ermənilərin istəyindən yararlanmağa qərar verdilər; 1660-cı il avqustun 28-də Çar Aleksey Mixayloviç Yeni Culfalı Xoca Zakar Sarhadovu qəbul etdi. 1701-ci ildə isə İsrael Ori Pyotrun qəbulunda olur və İstanbula can atan çara köməklik vəd edir. Və həqiqətən ilk Rusiya-İran çarpışmasında ermənilər İrana xəyanət edərək, əvəzində 1723-cü il noyabrın 10-da çar tərəfindən mükafatlandırılırlar. Bu, tarixi Ərməniyyədən əllərini üzmüş ermənilərin tarixi Alban torpaqlarında məskunlaşmasını ehtiva edən ilk tarixi fərman idi. Belə ki, 1723-cü ildə bağlanmış müqaviləyə səasən Astarabad, Bakı və Dərbənd Rusiyanın tabeçiliyinə keçmişdi və çar da ermənilərin bu ərazilərdə maneəsiz yerləşməsinə icazə vermişdi. 1726-cı ildə isə imperətriçə I Yekaterina ermənilərin yüksək mərhəmətə və himayəyə götürülməsi haqqında fərman imzaladı. Bu fərman artıq dövlət yaratmaq yönündə qəti addımlar atmağa imkan verirdi və erməni kilsəsi bu reallığı qədərincə dəyərləndirərək, "tarixi erməni torpaqları"nın mövcudluğunu təsdiq edə biləcək konkret işlər görülməsi barədə məxfi qərar qəbul etdi. Bu məqsədlə Arakel adlı monaxın tarixi əsərləri 1669-cu ildə Amsterdamda, güya IV əsrdə yaşamış Aqafangel adlı mifik erməni tarixçisinin əsərləri 1709-cu ildə Kanstantinopolda, İohann Mamikonian adlı VI əsr tarixçisinin əsərləri 1719-cu ildə yenə də Konstantinopolda, Moisey Xorenskinin "Erməni tarixi"nin latın dilinə tərcüməsi 1736-cı ildə Londonda və s. nəşr edilərək er-

məni koloniyaları arasında geniş təbliğ edilməyə başladı. Məqsəd bir tərəfdən erməni ziyalılarını öz qədim tarixlərinə inandırmaq, eyni zamanda tarixi torpaqlar barədə tələblər irəli sürülərkən konkretliyi təmin etmək idi. Təbii ki, bu zaman ilk növbədə qədim Ərməniyyə ərazisində qurulacaq dövlət barədə düşünülürdü, amma bu işin son dərəcə çətinliyi nəzərə alınaraq, artıq tam mənada Rusiyanın nəzarətinə keçməkdə olan Qafqaz ərazisi də diqqətdən yayındırılmır, Kür çayına qədər olan torpaqların "qədim Van çarlığı"nın - Urartunun xəritəsinə daxil edilməsi yönündə konkret işlər görülürdü. Nəhayət, çar Rusiyası məzlum erməni millətinin qeydinə qaldı; Türkiyə və İranla sərhədləri türk əsilli aborigenlərdən təmizləməklə burada ermənilərdən bufer zona yaratmaq yönündə konkret addımlar atdı. 1828-ci il fevralın 10 - da bağlanmış Türkmənçay müqaviləsini martın 20-də təsdiq edən I Nikolay elə ertəsi gün, yəni 1828-ci il martın 21-də "İrəvan və Naxçıvan xanlıqlarının ərazisində Erməni vilayətinin təşkil edilməsi barədə fərman" imzaladı. Elə həmin tarixdən etibarən erməni kilsəsi qədim Ermənistanın varlığını təsdiqləyə biləcək maddi dəlillərin axtarışına start verdi və paralel olaraq qədim tarix kitablarında Ermənistanın sərhədlərinə dair qeydlərdə dəyişikliklər aparılmasının qayğısına qaldı. Ermənilərin təşəbbüsü ilə Fransadakı Asiya Cəmiyyətinin xətti ilə 1828-ci ildə gənc alim Şults Van rayonuna ezam olundu və ona xüsusi olaraq "Moisey Xorenskinin əsərləri"ni təsdiqləyə biləcək materiallar toplamaq tapşırığı verildi. Amma 1829-cu ildə Şults kürdlər tərəfindən öldürüldüyü üçün, sırf erməni izlərinin axtarışı dayandı. Alman zabitləri Müller və Moltkenin 1840-cı ildə İzoğlu kəndi ərazisində, Mosuldakı fransız konsulu Bottun 1844-cü ildə Qoyuncuqda tapdığı mixi yazılar isə tarix etibarı ilə eramızdan əvvəlki XIII-XI əsrlər aid olsa da, burada erməni izləri əsla müşahidə olunmurdu. Odur ki, Mxitaristlərin Venesiya Konqresi axtarışların indiki Ermənistan ərazisinə, ələlxüsus da Göyçə hövzəsinə keçirilməsi barədə qərar qəbul etdi və bu işlərin maliyyələşdirilməsini öz üzərinə götürdü. 1843-cü ildə isə erməni tarixini araşdırmaq və təbliğ etmək məqsədi ilə konqres özünün "Bazmavep" jurnalının nəşrinə başladı. Tezliklə Mxitaristlərin Vena Konqresi də fəaliyyətə başladı və o da Göyçə hövzəsindəki arxeoloji qazıntılara maliyyə dəstəyi göstərdi. Bu təşkilatın təsis etdiyi "Xandes Amsorya" dərgisi isə 1887-ci ildən dərc edildi. Arxeoloji qazıntılar gözlənildiyindən də yüksək nəticələrlə müşaiyət olunurdu. 1862-ci ildə Kestner Gəlincikdə, 1863-cü ildə isə Eçmiədzin emissarı Mesrop Smbatyants Ellər kəndində və Kələqıran qalasında daş kitabələr aşkarladılar. Növbəti 12 il isə əsil tapntılar epoxası oldu; Ördəkli, Qışlaq, Başkənd, Kəvər, Quləli, Əliqırıx, Zağalı,

Ərgişcə qalaları aşkarlandı. 1875-ci ildə Ataxan qalasında tapılan kitabələr o qədər aydın, o qədər iri həcmli idi ki, Mesrop Smbatyans onları kəsib Tiflisdəki Erməni Etnoqrafiya Muzeyinə göndərməkdən belə çəkinmədi. Bəli, mixi yazılar saysız-hesabsız idi, amma onların ermənilərə məxsusluğu birbaşa rədd olunurdu. Çünki bu kitabələrin ən cavanının 2700 yaşı olduğunu birmənalı şəkildə təsdiqləyən ciddi alimlər, eyni ciddiyyətlə də ermənilərin Avropadan şərqə axınının cəmi 2500, bir xalq kimi formalaşmalarının 2200, xristianlığı qəbul etmələrinin 1700, əlifba yaratmalarının 1300 illik tarixini qəbul edirdilər. Yəni ki, indiki Ermənistan ərazisindəki, o cümlədən Göyçə hövzəsindəki kitabələrin ermənilərə məxsusluğunu sübut etmək üçün, bir millət olaraq ermənilərin pasportunu saxtalaşdırıb, yaşlarını artırmaq lazım gəlirdi. Bu elə bir zaman idi ki, qədim Assuriya çarlığına dair kitabələrdə də, Van hövzəsindəki oxşar qrafikalı, amma Assuriya çarlarına dəxli olmayan yazılarda da, Kələqıran və Ataxan qaya təsvirlərində də "U-ri-at-ri" kəlməsinə rast gələn arxeoloqlar bu ifadənin nəyi ehtiva etdiyni hələ tam yəqinləşdirə bilməmişdilər və bu səbəbdən də o kəlmələr həkk olunmuş kitabələrin koordinantları çərçivəsindəki mifik Uruatru dövlətinin sərhədlərini axtarırdılar. Qazdan ayıq erməni kilsəsi vəziyyəti öz xislətinə uyğun dəyərləndirərək, bütün ranqlarda fəaliyyətini Urartunun qədim erməni çarlığı olmasının təsdiqinə yönəltdi və...1881-ci ildə Tiflisdə V (???) Arxeoloji Qurultay çağırıldı. 400 (???) nümayəndənin iştirak etdiyi bu "mötəbər elmi yığıncaqda" V.Miller "Qafqazla Prometey əfsanələri arasında paralellər" axtardı, N.Emin "Şamiram haqqındakı erməni nağılları"nı təhlil etdi (*Б.Б.Пиотровский. "Ванское царство-Урарту". М.,1959. стр.12*). Bəli, tərkibində bir nəfər belə müsəlman olmayan 400 nəfərlik arxeoloq kontingenti (*Görəsən indinin özündə arxeoloqların qurultayı çağırılsa, neçə arxeoloq bir nümayəndə seçməlidir ki, qurultaya bu sayda adam yığmaq mümkün olsun?-* S.V.) öz qurultayında Prometey əfsanələrini və erməni nağıllarını ciddi şəkildə təhlil edərək belə qənaətə gəldi ki, "ya Urartu elə erməni çarlığı deməkmiş, yaxud da onun birbaşa varisi, yəni süqutundan sonra yerində yaranan dövlət erməni dövləti imiş". Qurultayın bu "əndrabadi qərar"ının adam dilinə tərcüməsi isə o deməkdir ki, sərhədləri 400.000 kvadrat kilometrlik bir ərazini əhatə edən mifik Urartu dövləti elə Böyük Erməni imperiyasının özüdür. Bərəkallah 400 alim-arxeoloqun 4 günlük gərgin zəhmət hesabına ortaya qoduğu bu "elmi" hipotezə!!! Bu da sənə tarix! Elə bir tarix ki, absurdluğu və ölümə məhkumluğu hər kəsə əyan idi və... Ölümə məhkum oldu da. Amma çox gec - ermənilər ondan qədərincə yararlanandan, dünyanın bütün elmi və siyasi dairələrini yanlışlığa yuvarlayandan

sonra elan olundu o "ölüm hökmü". İş o yerə çatdı ki, yalanla nəfəs alan Ermənistanın elmi və siyasi dairələri bu "elmi hipotezin şərəfsizliyindən xəcalət çəkərək", dünya arxeoloqlarının onların xeyrinə qəbul etdiyi qərarın əleyhinə siyasi qərar qəbul etdilər. 1989-cu ildə Ermənistan KP MK-nın orqanı olan "Kommunist" qəzetində Ermənistan SSR EA-nın Rəyasət Heyətinin adından dərc olunmuş o qərarda deyilirdi ki, **"urartuluların ermənilərin əcdadı və Ermənistan dövlətinin Urartunun davamı olması barədə erməni tarixşünaslığında yer almış fikirlər heç bir elmi əsası olmayan, kökündən yanlış faktlardır!!!".** Bu, yumşaq desək, həmin arxeoloji qurultayda iştirak etmiş alimlərin də, ondan sonra qədim erməni dövlətinin tarixi haqları uğrunda mübarizədə bu fakta istinadən ermənilərə havadarlıq etmiş alim və siyasətçilərin də, o cümlədən erməni tarixinin klassiki sayılan fransız arxeoloqu C. Morqanın da vicdanına tüpürmək idi. Təbii ki, o tarixi qurultaya yığışmış 400 nümayəndənin və müxtəlif zamanlarda erməniləri müdafiə etmiş dünya siyasətçilərinin bir çoxunun səhv buraxmalarına səbəb ermənilər tərəfindən məqsədyönlü şəkildə aldadılmalarıdır. Buna görə də ermənilərin onlara ünvanladığı təhqir də elə bumeranq effektlidir. Morqan kimilər üçünsə o təhqir dünyada qazandıqları ən böyük mükafatdır, ermənilərin tula payı müqabilində itirdikləri mənliklərinin, vicdanlarının əsil qiymətidir. Bu ittiham müqabilində hər kəsdə "nəymiş Morqanın günahı" sualına cavab axtarmaq marağı oyana bilər. Odur ki, bu məsələyə də aydınlıq gətirək. 1895-ci ildə Parisə jurnalist qismində bir İstanbul ermənisi gəlir- Arşak Çobanyan. Az müddət sonra Parisdəki antitürk mərkəzlərindən birinə rəhbərlik edən bu "yazıçı-alim" öz dostu Şlumberqerin vasitəçiliyi ilə məşhur arxeoloq Morqana erməni tarixi yazmaq barədə sifariş verir və... Bu alimin ortaya nə qoyduğunu tam aydınlığı ilə dərk etmək üçün onun kitab üzərində işlədiy zaman Şlumberqerə yazdığı məktublardan bir neçə məqama diqqət yetirək: **"...fikirləşirdim ki, mənim yazdığım erməni tarixi hərtərəfli əsaslandırılmış olmalıdır. Amma başa düşdüm ki, siz və cənab Çobanyan başqa bir şey arzulayırsınız. F.Lenormanın "Böyük Yunanıstan" kitabına oxşar bir kitab gözləyirsiniz. Bu məsələni kökündən dəyişir.."; "...sizə deyə bilmirəm ki, bu kitabı yazmaq üçün mənə hansı ədəbiyyatlar lazımdır. Çünki bu yöndə hansı ədəbiyyatların nəşr olunduğu barədə məlumatım belə yoxdur. Sözsüz ki, siz bu sahədə daha məlumatlısınız, odur ki, vacib bildiyiniz ədəbiyyatları göndərin..."; "...əlimizdə erməni tarixinə şəhadət verə biləcək bircə arxeoloji dəlil də yoxdur. Bu səbəbdən də qədim dövrlərdən söhbət açarkən qədim yunan və roma nağıllarına istinad etmək məc-**

**buriyyətindəyik..."** Bu da dünyanın ən qüdrətli arxeoloqlarından biri! Bu da sivil fransız alimçiliyi! Bu da "Erməni xalqının tarixi"nin müəllifi! Şərhə ehtiyac qaldımı?!. Əsla!

Beləliklə, tarixi faktların təhlilindən hasil olan bir neçə qənaətimiz var:

- *XIX əsrin əvvəllərindən başlayaraq qədim dünya tarixinə dair araşdırmalarda yer almış "Urartu çarlığı" məvhumu mixi yazıların oxunması üzrə mütəxəssislərlə xristian təəssübkeşliyi buxovundan çıxa bilməyən tədqiqatçıların müştərək yanlışlığından savayı bir şey deyilmiş və ermənilər bu yanlışlığın doğurduğu boşluqdan - mifik bir çarlığın müəmmalı taleyindən maksimum yararlanaraq, özləri üçün "qüdrətli tarix" yaratmağa çalışıblar. Bu, birmənalıdır.*
- *Göyçənin əzəli sahibləri qondarma erməni tarixi üçün bazis rolu oynamış "U-ru-at-ri" kəlməsinin ilk dəfə yer aldığı kitabələrdən, eramızdan əvvəlki XIII-XII əsrlərə aid qayaüstü yazılardan xeyli əvvəl özünümüdafiə şüuru, həmçinin ali mədəniyyət nümunələri yaratmaq səviyyəsinə qədər inkişaf etmiş bir etnos idi və Kələqıran kitabəsi bu etnosun 2700 il öncə dövlətləşmə prosesi yaşadığına şəhadət verir.*

Bu etnosun kimliyinə, hansı xalqın sələfi oluğuna, hansı dildə danışdığına söhbətimizin əvvəlində, erməni tarixinin özündə nəyi ehtiva etdiyinə dair zəruri haşiyədən qabaq qismən də olsa aydınlıq gətirmiş, konkret faktlara və elmi mülahizələrə istinadən bu etnosun məhz hun mənşəli Dədə Qorqud oğuzları olduğunu yəqinləşdirmişdik. Amma Kələqıran kitabələri ilə yaşdaş olan Van, Urmiya, Musasir kitabələrinin qrafikalarının oxşarlığı prinsipial bir məsələyə aydınlıq gətirilməsini, az qala 400000 kvadrat kilometrlik bir ərazidə yayılmış kitabələrin eyni qrafik üslubda həkk olunmasının sirrinin açılmasını vacib şərt kimi önə çəkir. Bu, həqiqətən də prinsipial, prinsipial olduğu qədər də maraqlı bir məsələdir; axı doğrudan da necə olub ki, bu kitabələrin hamısı eyni bir üslubda yazılıb? Bu kitabələrin müəlliflərində onların hər kəs tərəfindən oxuna biləcəyinə, 400 min kvadratkilometrlik bir ərazidə məskunlaşan insanların hər biri üçün anlaqlı ola biləcəyinə əminlik hardan imiş? Yəni doğrudanmı Mesepotomiyadan Dərbəndə, Suriyadan Göyçəyə qədər geniş bir arealda vahid yazı nümunəsi, hamının başa düşəcəyi vahid dil varmış? Eramızın X əsrindən etibarən imperiyaların məhz bu qəbil təcrübədən - hər birinin öz dili olan müstəmləkələrdə vahid qrafika və hakim dil tətbiq etmək təcrübəsindən yararlanması faktdır. Ərəblər də, osmanlılar da, ingilislər də, fransızlar da eyni taktikadan bəhrəleniblər. Doğrudanmı bu ənənənin də əsası eramızdan əvvəlki XV-XII əsrlərdə Van-Urmiya-Göyçə hövzəsində qoyulub? Nəticə çıxarmağa tələsməyək, məsələlərə fərq-

li bir yöndən - tarixi faktların və məxəzlərin Dədə Qorqud dünyası reallıqları ilə müqayisəli təhlili müstəvisində diqqət yeirək...

"Kitabi Dədə Qorqud"un ədəbi abidədən daha çox, Göyçənin əzəli sahiblərinin real tarixnaməsi olduğunu qeyd etmişdik. Onu da vurğulamışdıq ki, sadəcə bu gün o tarixnamənin hekayətlərinin hamısı əldə olmadığı üçün biz ümumən dastana bütöv tarixi salnamə kimi baxa, boylar arasında bağlılığı tapa bilmirik. Əslində isə bu hekayətlərin hər biri İç Oğuzdan qalxmış köçlərin əsrlərlə davam edən yürüşlərinin xronoloji təsviridir. Qədim dünyanın bu qəbil yürüşləri isə nə tarix, nə də elm üçün yenilik deyil. K.Marks hələ XIX əsrdə bu xüsusa diqqət yetirərək deyirdi ki, **"...şərq qəbilələrində tarixin lap əvvəlindən əhalinin bir hisssəsinin oturaqlığı, başqa bir hissəsinin isə davam edən köçəriliyi arasında ümumi tənasübü izləmək olar..."** (*К.Маркс и Ф.Енгельс. "Избранные писма". М., Госполитиздат-1953. стр.73*). "Kitabi Dədə Qorqud"da da bu hal, Oğuz elinin İç qisminin oturaq həyat tərzi ilə yanaşı Dış qisminin köçəriliyi, əbədi yürüşləri, məqsədli səfərləri paralel əks olunur. Əsrlər uzunu səfərdə olmuş oğuz-qıpçaq köçlərinin dilində də, məişətində də yad elementlərin müşahidə olunması təbii proses kimi qəbul ediləndir. Amma onların dönüşlərinin ağrısız keçməsi, yəni indiki Qafqaz dövlətlərinin ərazisinə dönən köçlərlə yerli sakinlər arasında hər hansı münaqişə barədə tarixi faktların olmaması ona dəlalət edir ki, köçlərin neçə nəslin həyatı bahasına başa gəlməsindən asılı olmayaraq, tərəflər həmişə biri-birini qəbul etməyə tam hazır olublar. Moskva alimi X. Koroğlunun bu barədə mülahizələrinə söhbətimizin əvvəlində diqqət yetirmişdik. Eyni motiv- Oğuz köçlərinin məhz öz yurd yerlərinə döndüklərinə dair eyham, oğuzların hətta ölkələr fəth etdikdən sonra yurda dönüşləri MÜTLƏQ HÖKM kimi dastanın bütün hekayətlərindən keçir. Dastanda açıq-aşkar göstərilir ki, qərinələr uzunu səfərlərdə olan tacirlər geri dönəndə öz qövmlərini qoyub getdikləri yurdda tapıblar. Hətta yağıya yenilib yurdu müvəqqəti tərk edənlərin ilk fürsətdəcə geri dönməsinin mütləqliyi dastanda açıq mətnlə ifadə olunur: "...Oğuzların qul - qaravıaşları, o cümlədən hindu qulları, öz tacirləri, bəzirganları var. Tacirləri çox uzun müddətə mal dalınca uzaq ellərə yollayırlar. Deməli, tacirlər geri dönərkən sifarişçiləri öz daimi məkanlarında görəcəklərinə əmindirlər...

Oğuzların dövlət quruluşunda tək xanlar xanı Bayandırın deyil, Qazanın, hətta Bəkilin də öz divanları, bu divanlarda isə hərənin öz yeri, öz mövqeyi var. Müxtəlif oğuz bəyləri ayrı - ayrı tayfaların başçıları olsalar da, elin müqəddəratı ilə bağlı döyüşlərdə hər biri dəqiq strateji mövqeyə malikdir. Bu o deməkdir ki, Qalın Oğuz Eli özünü vahid bir dövlət, sər-

hədləri bəlli bir məmləkət kimi dərk edir. Oğuzların qalaları da var, hətta onlara bəxşiş verməyi də boyun olurlar. Bir sözlə, Oğuzun qalarda - qoparda, yəni bir yerdə qalanda da, qopub başqa yerə köçəndə də coğrafi mövqeləri tamamilə müəyyənləşmiş elləri vardır. Onlar məhz bu ellərin sərhədlərinə keşik çəkir, bu məmləkətin pozulmasını istəmirlər...Təkrar edirik ki, oğuzlar yarı köçəri, yarı oturaq olsalar da, yurdları müəyyən və məlumdur. Dastanın bircə yerində onların öz yurdlarını elliklə tərk etmələri və sonra yenidən ora qayıtmalarına işarə var ki, bu da ən arxaik boya, Basat-Təpəgöz boyuna aiddir... (və dastanın həmin epizodu bir neçə yöndən maraq doğurur - S. V.):

...Məgər, xanım, bir gün oğuz (burda oğuz- xalq, el mənasındadır) oturarkən üstünə yağı gəldi. Dün içində ürkdü, köçdü. Qaçıb gedərkən Aruz qocanın oğlancığı düşmüş, bir aslan bulud götürmüş, bəsləmiş.

Oğuz yenə əyyamla gəlib yurduna qondu.

Oğuz xanın (burda Oğuz - şəxs adıdır) ilxıçısı gəlib xəbər gətirdi...

Bu kiçik parça ğir sıra vacib mətləblərdən xəbər verir. Əvvəla, Oğuz xanın- oğuzların əfsanəvi eponiminin adı bircə dəfə burda çəkilir. Demək, boyun hadisələri Oğuz xanın yaşadığı çox əski zamana aid edilir. İkincisi oğlanın (Basatın) aslan tərəfindən bəslənib böyüdülməsi çox arxaik bir motivdir. Təpəgöz kimi həmin obrazın da kökləri çox uzaqlara, hətta qədim yunan əsatirləri dövrünə çatır... **Dədə Qorqudun ilk tədqiqatçılarından olan Dits isə hələ 1812-ci ildə yazırdı ki: buradakı Təpəgöz başqa sikloplara, xüsusən də Homerin siklopuna bütün cəhətlərilə bənzəyir. Ancaq oğuz siklopu yunanlardan alınma deyil. Yunanlarınkı bunun təqlididir. Yunanlarınkı köhnə deyilsə, oğuzlarınkı da yeni deyildir..."** (*Anar. "Dədə Qorqud dünyası". Bakı-1992*).

Bəli, Oğuz Elinin lap əskidən, artıq əfsanələşmiş OĞUZ XAN zamanından bəri dəyişməz olaraq eyni bir yurdda yaşaması, eramızdan əvvəlki birinci minilliyin ortalarında hətta qədim yunan əsatirlərinə vəsilə ola biləcək qədər mükəmməl epos yaratması dünyanın ən ciddi alimləri tərəfindən birmənalı qəbul edilir. Buradan isə belə bir nəticə hasil olur ki, Oğuz Elinin dili hətta qədim yunanlar üçün belə anlaqlı imiş. Bu doğrudanmı belə olub?

Akademik B. Piotrovski Teyşebaini Allahının şərəfinə ucaldılmış Kələqıran qalasında apardığı qazıntılardın sonra deyirdi: **"...bu qalanın qədim dünyanın bütün ölkələri ilə sıx əlaqələri olub; burada Assuriya möhürləri, Misir amuletləri, Suriya və Aralıq dənizi hövzəsinin digər ərazilərindən gətirilmiş zinət əşyaları, Hindistandan gətirilmiş muncuqlar tapılıb"** (*Б.Пиотровский. "Ванское царство Урарту". М.,-1959.*

*стр.-22*). Bəli, sovet arxeoloqlarının XX əsrin ortalarında aşkarladıqları həqiqətləri "Kitabi Dədə Qorqud"un yaradıcıları hələ 1300 il əvvəl bütün incəliyi ilə qələmə almışdılar.

Suriyadan Göyçəyə qədər uzanan bir arealdakı oxşar qrafikalı kitabələrin hansı hakim etnosun didlində yazıldığına aydınlıq gətirə biləcək daha bir neçə maraqlı məqama diqqət yetirək:

**XIV əsr tarixçisi Rəşidəddin** özünün **"Came ət-təvarix"** əsərini qədim oğuznamələr əsasında tərtib etdiyini xüsusi vurğulayır və həmin əsərin "Tarixi Oğuzan və Turkan" adlı ikinci hissəsində yazır ki, **"...Oğuz Xəzər Dərbəndi üzərinə köç etdi... Şirvana yə Şamaxıya elçi göndərdi. Arana və Muğana hərəkət etdi, Savalana çatdı...Yaylaqda olduqları zaman bu tərəflərdə olan bütün ölkələri ələ keçirib zəbt etdilər. Aəzərbaycan vilayətini də aldılar... Azər türkcə yüksək deməkdir. Baynan da zənginlərin uluların məkanı anlamındadır..."** (*"Oğuz dastanı- Rəşidəddin oğuznaməsi". İstanbul-1972. səh.-30*).

XVII əsr tarixçisi **Xivəli Əbülqazi xan** isə özünün məşhur **"Şəcərəyi tərakimə"** əsərində Oğuz xanın Azərbaycanı, İraqı, Suriyanı fəth etməsindən, döyüşlərdə fərqlənənlərə ad verməsindən danışır.

XVI əsr tarixçisi **Əbubəkr Tehrani** isə yenə qədim oğuznamələrə istinadən yazdığı **"Kitabi Diyarbəkriyyə"** əsərində göstərir ki, **"Padşah Bayandur xan İran, Turan, Rum, Şam, Misir, İfrənci istila etdi..."**

Olduqca maraqlı, maraqlı olduğu qədər də mifik təsir bağışlayan məlumatlardır deyilmi? Mifik təsir bağışlayır ona görə ki, İqrar Əliyevin rəhbərliyi altında yazılmış Azərbaycan tarixində hər şey tərsinə təsvir olunub; türk dövlətləri farsların, assuriyalıların, ərəblərin, yunanların, hətta talışların qüdrətli dövlətləri arasında müharibələrin gedişində peyda olmuş və tarixdə epizodik rolla kifayətlənən dövlətlər kimi xarakterizə olunub. Əslində isə hər şey İqrar Əliyevin elmi fəaliyyətinin istinad nöqtəsi olan fars və ərəb məxəzlərinin, türk tarixini tarixdən silmək məqsədi daşıyan məkrli salnamələrin tam əksinəymiş. Bu ittihamı da kimsə bir müəllifin rəvayətlərə əsaslanan subyektiv fikri, qərəzli mövqeyi kimi qəbul edə bilər. Amma... Tarix elə ona görə tarixdir ki, İqrar Əliyevlərin görə bilmədiklərini də yaşadır və müqayisə üçün həmişə şans verir. Kimlərinsə istəyinə uyğun olaraq 40 il ərzində "müti, kökü olmayan Azərbaycan tarixi" yazmız iqrarşünasların görə bilmədikləri, görmək istəmədikləri həqiqətlərdən biri də OĞUZ XANın və PADŞAH BAYANDUR XANın mifik ədəbi personajlar yox, REAL TARİXİ ŞƏXSİYYƏTlər olmasıdır, bunu da məxəzlər və dünyanın ciddi elm dairələri təsdiqləyirlər.

Xivəli Əbülqazi Xanın verdiyi məlumatlara görə, **Oğuz Xan real tari-**

**xi şəxsiyyət olub və Məhəmməd Peyğəmbərdən 4000 il əvvəl, yəni eramızdan əvvəlki dövrün IV minilliyinin sonlarında, təxminən 3400-3500-ci illərdə yaşayıb.** Bütün dünya tarixçiləri tərəfindən tam ciddi alim kimi dəyərləndirilən Rəşidəddin də Oğuz Xandan real tarixi şəxsiyyət kimi söhbət açır. XIX əsrin görkəmli rus şərqşünası, bir çox Asiya xalqlarının tarixinə dair məlumatlar toplamış **N.Y.Biçurin (İakinf)** isə Oğuz Xanın tarixi şəxsiyyət olmasını birmənalı şəkildə təsdiqləyir və onun eramızdan əvvəlki III- II minilliklərdə yaşadığını göstərir (*Н.Й.Бичурин-Иакинф. Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена. М.-Л., 1950. стр.-225*). XII əsr tarixçisi **Bayburtlu Osman** isə öz əsərlərində müəllifi məlum olmayan qədim bir kitab- **"Bəhr əl-ənsab"** haqqında məlumat verərək bildirir ki, həmin kitabdakı hadisələr Dədə Qorqud dastanları ilə səsləşir və kitabda Bayandur xan elinin eramızdan əvvəlki dövrdəki qəziyyələri öz əksini tapıb. XIV əsrin oğuz əsilli tarixçisi **Əbu Bəkir bən Abdullah bən Aybək əd Dəvadəri** isə özünün **"Dürəri tican"** əsərində eramızın IV əsrində naməlum müəllif tərəfindən qələmə alınmış **"Ulu xan Ata bitikçi"** kitabı barədə məlumat verərək yazır ki, **"...türkdilli xalqlara böyük sevinc bəxş edən bu kitab oğuzlar arasında çox məşhurdur. Çünki həmin kitabda oğuzların 3000 il öncəki erkən həyatlarından və ilk hökmdarlarından, qəhrəmanlarından danışılır. Kitabda Təpəgözün Pəri qızından doğulması, oğuzlara asi kəsilməsi və Aruz oğlu Basat tərəfindən öldürülməsi** (eyni ilə "Kitabi Dədə Qorqud"dakı Təpəgöz boyunda olduğu kimi- S.V.) **əks olunmuşdur..."** ( *Х.Короглы. "Огузский героический эпос". М.,-1976. с.-38*). Göründüyü kimi, Oğuz Xanın real tarixi şəxsiyyət olması, müasir Azərbaycan, İran, İraq, Suriya ərazilərini əhatə edən geniş bir arealda hökmdarlıq etməsi, onun şəcərəsindən olan Bayandur Xanın hətta Misirə qədər genişlənmiş bir arealda nüfuz sahibi olması tarixin bütün dövrlərinə aid məxəzlərdə əksini tapmış reallıqdır. Deməli, eramızdan əvvəlki XV əsrdən VII əsrə qədərki 800 illik dövrə aid olan daş kitabələrin vahid qrafikasının müəllifi də yalnız və yalnız həmin hökmran etnos - daha konkreti Dədə Qorqudun vəsf etdiyi oğuzlar ola bilərdi. Assuriyalıların, yaxud parfiyalıların bu qrafikadan istifadəsində isə qəribəlik axtarmağa dəyməz; ərəblərin öz hakim mövqelərini itirməsindən sonra vaxtilə onların nəzarətində olmuş ərazilərin, istinasız olaraq hamısında ərəb qrafikasının mütləq yazılı ünsiyyət vasitəsi kimi qalmasını, yaxud sovet imperiyasının 70 illik dövrü ərzində kiril qrafikasının vahid hökmran mövqeyə çıxmasını nə qədər təbii qəbul edirikə, Oğuz qrafikasının 3-4 min illik hökmranlığını da eyni dərəcədə sakitliklə qəbul etmək lazımdır...

**Kələqıran qalasından Qədim Nineviya ərazisindəki Qoyuncuq təpəliklərinə, qədim Manna ərazisindəki Səhənd qalasından qədim Qummux ərazisindəki Til-Barsib qalasına; yəni müasir coğrafi anlamda Göyçənin şərqindən Dəclə hövzəsinə, Urmiyanın şərqindən Aralıq dənizinə qədər böyük bir əraziyə səpələnmiş 3-4 min illik kitabələrin vahid qrafikasının şəriksiz sahibinin oğuzlar olduğu şəksizdir.** Bu hipotezin indiyə qədər süngü ilə qarşılanmasının isə tək bircə səbəbi var: türklərin şərqdən baş qaldıraraq qərbə doğru hərəkət etməsi barədə mülahizələrin mövcud tarix elmimizdəki doqmatik mövqeyi. Bu nəzəriyyənin əsas qəbul edildiyi halda, "Qafqaza eramızın IX-XI əsrlərində gəlmiş oğuzlar"ın bu tarixi məqamdan 2000-3000 il əvvəl Göyçədən Aralıq dənizinə qədər uzanan bir ərazidə hakim nüfuz sahibi olması barədə deyilənlər qeyri-ciddi görünür. Dünya tarixçiləri də nədənsə türkün əsrlərlə davam edən yürüşlərini birmənalı olaraq istilaçı-işğalçı fəaliyyət kimi dəyərləndirməyə çalışır və türkləri xarakterizə edərkən Oğuz ellərinin dünyaya dil mədəniyyəti yayma kimi müqəddəs missiyaları ilə paralel inkişaf etmiş "yurda müqəddəs dönüş" ənənələrini gözardı etməyə çalışırlar. Halbuki mövcud tarix elminin bütün müəmmalarının açarı məhz bu mütləq davranış normalarındadır. "Kitabi Dədə Qorqud"da əksini tapmış həqiqətlərdən biri də odur ki, oğuz elləri daim hərəkətdə olsalar da, onlar üçün müqəddəs ocaq anlamına gələn dəyişməz yurd yerləri olub. Yəni dünyanın hansı səmtinə yürüş etmələrindən, o yürüşlərin neçə statistik nəslin ömrü bahasına başa gəlməsindən asılı olmayaraq, MÜQƏDDƏS OCAĞA DÖNÜŞü oğuz köçləri mütləq əxlaq norması kimi qavrayıblar. Bəs oğuzların müqəddəs ocağı anlamına gələn o yurd yeri özündə hansı coğrafi məkanı ehtiva edib? Təbii ki, bu barədə uzun-uzadı mübahisələr aparıla bilər, bu və ya digər hipotezin doğruluğunu sübuta yetirmək üçün yüzlərlə arqument tapmaq olar. Amma mütləq həqiqətlərdən qaçmaq mümkün deyil. Dastandakı hadisələrin uca dağlar qoynunda, "Gökcə dəniz" sahillərində cərəyan etdiyi barədə danışmış, söhbətin mücərrəd bir məkandan yox, "QARŞI YATAN QARA DAĞLAR"la əhatələnmiş "Gökcə dəniz"dən getdiyini aydınlaşdırmışdıq. Coğrafi-strateji əhəmiyyətlilik baxımından, yəni kompakt şəkildə məskunlaşma və çevik nəzarət imkanları baxımından OĞUZ ELİNİN MÜQƏDDƏS OCAĞInın məhz Göyçə yaylası olması versiyası həqiqətə ən yaxın ehtimaldır. Ən əsası isə odur ki, bir sıra tarixi faktlar və reallıqlar da bu versiyanın təsdiqləyici arqumentləri kimi çıxış edirlər:

1. XX əsrin 60-cı illərində indiki Basarkeçər rayonunun Ağkilsə kəndi ərazisində, Hüsən çayın şimal sahilində aparılan təsərrüfat əhəmiyyət-

li qazıntılar zamanı, sırf təsadüfdən eyni bir şaquli xətt üzrə 4 qəbir aşkarlanıb. Bir-birindən təxminən 2-3 metr dərinlikdə yerləşmiş qəbirlərin yuxarıdan aşağıya ardıcıllıqla artan ölçüləri, ən dərin qatdakı heyrətamiz iri qəbirdə aşkarlanmış müasir təsəvvürə sığmayan ölçüdəki skelet, aşağıdan ikinci qəbirdəki tunc əşyalar Göyçənin ən qədim yaşayış məskənlərindən biri, bəlkə də birincisi olması barədə qənaətlərə əsas verən maddi sübutlardır. Ümumiyyətlə isə Göyçə yaylasında və yaxın coğrafi ərazilərdə günümüzə qədər gəlib çatmış "Uğuz qəbirləri"nin sayının digər regionlara nisbətdə fantastik çoxluğu, eləcə də heyrətamiz ölçülərinin məhz Dədə Qorqud oğuzlarının mifik fiziki imkanlarına uyğunluğu bu mülahizənin əlavə təsdiqləyici arqumenti kimi sərf-nəzər edilə bilər.

2. Türklərin tarixi yürüşlərinin trayektoriyasına uyğun gələn coğrafi ərazilərin heç birindəki kitabələr Kələqıran qalasındakı kitabə qədər qədim və qədim türkcəyə uyğun toponimlərlə zəngin deyil.

3. Biçurin Oğuz Xanı eramızdan əvvəlki III minilikdə yaşamış real tarixi şəxsiyyət hesab etsə də, məhz türklərin Şərqdən baş qaldırması kimi yanlış hipotezə istinadən onu Çin mənbələrindəki Mode ilə eyniləşdirməyə çalışır. Tutaq ki, bu versiya həqiqətdir. Onda yunan siklоplarının oğuz sikloplarının təqlidi olması barədə Dits nəzəriyyəsini necə qavramalıyıq? Eramızdan əvvəlki III minillikdə Altay ellərində baş qaldırmış oğuzlarmı Yunanıstana gəlmişdilər, yoxsa yunanlarmı Çinə qədər gedib çıxmışdılar? Bunların heç biri olmayıb! Deməli, eramızdan əvvəlki Oğuz mədəniyyətinin yunan mədəniyyətinin təşəkkülündəki rolunun stimullaşdırıcı parametrlərini bu xalqların coğrafi yaxınlığı faktorunda axtarmaq gərəkdir.

4. Kələqıran və Ataxan kitabələrinin onlarla təxminən eyni ifadə tərzinə malik Orxon-Yenisey kitabələrindən 1300-1500 il qoca olması tarixi gerçəklikdir və bu gerçəklik Oğuz türk elinin düyaya mədəniyyət daşımaq missiyası ilə əvvəl bütün Avrasiya məkanı boyunca Qərbdən Şərqə, sonra isə müqəddəs ocağa dönüş missiyası ilə Şərqdən Qərbə köç etməsi barədə mülahizələrə əsas verir. Bu mülahizəni ciddiləşdirən faktlardan biri də Göyçə kitabələrində Orxon xaqanları haqqında bircə kəlməyə rast gəlinməmsi müqabilində, Orxon kitabələrində oğuz-tatar adlarının qoşa çəkilməsi, Yazər elinə müraciət olunmasıdır.

5. Əgər türklər həqiqətən də Şərqədən baş qaldırıb Qərbə hərəkət etsəydilər və onların ilk yolgöstərəni Bilgə, yaxud Mode olsaydı, bu tarixi reallıq müdaxiləsiz el yaddaşında da, yazılı mənbələr də, eposlarda da mütləq mənada öz izini qoyardı. Amma fakt odur ki, bütün bu eposlar, hətta qırğız və uyğur ellərində yaranmış nümunələr mütləq mənada

"Oğuznamə" adlanır. Deməli, sözün böyük mənasında türkün ilkinliyini də hunlarda, bunlarda və sair təsnifatlarda yox, Oğuz Elində, yəni Dədə Qorqudun vəsf etdiyi ellərdə axtarmaq daha doğrudur.

6. Bu gün qədim Şərq tarixinin ən mükəmməl qaynaqlarından biri kimi dəyərləndirilən "Came ət-təvarix"də Rəşidəddin OĞUZ XANın Arana-Muğana hərəkət etdiyindən, Şirvana-Şamaxıya elçilər göndərdiyindən, Xəzər Dərbəndi üzərinə köçündən, Savalana yetdiyindən, Yazər yurdu yaratdığından söhbət açır. Deməli, Oğuz Xanın konkret məkanını bu yerlərin dışında axtarmaq gərəkdir. Konkret harada? Bu sualın cavabını Əbubəkr Tehrani özünün "Kitabi-Diyarbəkriyyə" kitabında verir. Onun bu kitabda təqdim etdiyi şəcərəyə görə, padşah Bayandur Oğuz Xanın oğul törəmələrindədir və həmin bu "qüdrətli padşah Byandur xan İranı, Turanı, Rumu, Şamı, Misiri...istila etdikdən sonra Qarabağ qışlağı və Göyçə dəniz yaylasında Böyük Qurultay çağırıb..." (Bu məlumatı tarixçi Oqtay Əfəndiyev Əbubəkr Tehraninin "Kitabi Diyarbəkriyyə" kitabının 30-cu səhifəsindən tərcümə edib. Ətraflı məlumat üçün Anarın "Dədə Qorqud dünyası" əsərinə bax). Bu fakt təkcə Göyçənin qədim Oğuz Elinin müqəddəs ocağı olmasının təsdiqi baxımından yox, ümumən Oğuz Elinin tarixinin öyrənilməsi, Azərbaycan tarixinin eramızdan əvvəlki VIII-IV əsrləri əhatə edən dövrdəki boşluqlarının doldurulması baxımından da xüsusi əhəmiyyət kəsb edə bilər ki, bu barədə Göyçənin tarixinin ümumiləşdirilməsi zamanı ayrıca danışacağıq. Hələliksə, belə bir nəticə ilə kifayətlənək ki, Əbubəkr Tehraninin "Bayandur xanın Böyük Qurultayı Göyçə yaylasında və Qarabağ qışlağında çağırması" barədə məlumatı Oğuz Elinin daimi məkanının məhz bu arealda olduğunu təsdiqləyən yazılı faktdır.

Oğuz ellərinin tarixi köçlərinin mütləq dönüşlə sonuclanması, yəni yeni ölkələr fəth etdikdən sonra belə öz yurdlarına dönməsi faktı da öz təsdiqini tapmış reallıqdır. "Kitabi Dədə Qorqud"a istinadən onu da söyləmək olar ki, Oğuz Elinin dar günündə oğuz boylarının igidləri, harada olmalarından asılı olmayaraq, yurda dönər, xana yardım edərmişlər. Bu xüsusda bir tarixi fakt da diqqəti çəkir. Ağqoyunlu hökmdarları özlərini Oğuz Xanın 60-cı nəsil törəməsi kimi təsnifləyirdilər. Və bu nəslin ən məhşur nümayəndəsi Uzun Həsənə dair şəcərədən belə məlum olur ki, onun ulu babalarından olan Sunqur bəy təxminən eramızın VI-VII əsrlərində Göyçə dənizə, bəli, məhz Göyçəyə gələrək "kəffarla" vuruşub!!! Bu, təxminən islamdan əvvəlki dövrə təsadüf edir. "Kitabi Dədə Qorqud"da da məhz islam öncəsi və ilk islam dövrlərində İç oğuzun "kəffar" probleminə işarət var və "kəffarla" döyüş üçün Sunqur xanın Göyçə dənizin sahillərinə gəlməsi faktı da Oğuz Elinin müqəddəs ocağının məhz

Göyçədə olmasına birbaşa işarədir.

"Kitabi Dədə Qorqud"da cərəyan edən hadisələrin təsviri zamanı "bəylər bəyi", "padşah" terminləri işlədildiyi halda, "paytaxt" anlamına gələn hər hansı ifadənin, yaxud konkret olaraq paytaxt kimi təsniflənən yer adının göstərilməməsi də maraq doğuran məqamdır. Belə ki, ən qədim dövrdən tutmuş yeni tarixə qədər türk ellərində mövcud olmuş bütün mahallarda aparıcı funksiya daşıyan, mərkəz anlamına gələn yaşayış məntəqələri olub. Nə qədər qəribə olsa da, yeganə olaraq Göyçədə hansısa bir kənd, bir qəsəbə əlahiddə qaydada mərkəz statusu ilə seçilməyib. İri - xırdalığından asılı olmayaraq bütün kəndlər eyni nüfuzlu tərəf kimi qəbul edilib. Bu, "Kitabi Dədə Qorqud"da təsvir olunan oğuz sancaqlarının müstəqillik və bərabərlik ənənələrinin yaşarılığı deyilmi? Xristian hegemonluğu ideoloqlarının Göyçə və Göyçəyə yaxın ərazilərə qarşı daha qəddar münasibətinin səbəbi də məhz bu reallıqla şərtlənir və bu kontekstdən yanaşıldıqda erməni dövləti üçün məhz bu ərazilərin seçilməsinin təsadüfi bir iş olmadığı tam aydınlığı ilə çıxır ortaya. Bu seçimin mahiyyətində 4 min illik tarixi olan yazılmamış qanunların, ənənələrin məhv edilməsi istəyi dayanıb. Bu, ilk növbədə saf yaddaşın, ilkinlikdən gələn bakirə qan yaddaşının məhvinə, bir qövmün pərən-pərən düşərək birliyini itirməsinə xidmət edən plan olub. Çünki Göyçənin saf yaddaş mərkəzi olduğu həqiqətini xristian hegemonluğu ideoloqları da anlayıblar. Anlayıblar ki, Oğuz Elinin mərkəziyyətindən məqsədli şəkildə köç edərək öz mədəniyyətlərini dünyaya yayan, amma əsrlər keçsə belə, tarixi missiyasını ocağa dönüşlə tamamlayan bir qövmün birliyi durduqca, yenilməzliyi də yaşarı olacaq. Bu ənənələrin yaşarılığını görməmək isə mümkün deyil. Dədə Qorqud da əslində bu gün mifik anlamda qəbul etdiyimiz haqq dərvişlərinin ümumiləşmiş obrazıdır. Qopuz da o mifik haqq yolçularının mütləq həqiqətə doğru yolunda İLAHİ SƏSin - müqəddəs ruhları haraylayan səsin ifadəçisidir. O izlərin Göyçədə və yaxın coğrafi ərazilərdə son günlərə qədər yaşarılığı da təsadüf deyil. **Azərbaycan tarixinin mütləq təfəkkür hipotezçisi İsa Hüseynov**un SAF AĞ ocağının mərkəziyyətinin Göyçə - Qazax ərazisində olması barədə ilahiləri, qavranışı çətin, amma təkzibi mümkünsüz və mütləq mənada qəbul edilən mülahizələri də məhz bu gerçəklikdən qaynaqlanır. Dədə Qorqud dərvişliyinin zaman-zaman haqq aşıqlarının cismində zühur edib Ağ Aşıqdan, Alıdan, Ələsgərdən, Növrəs İmandan keçərək bu günümüzə yetməsinin; Göyçədə, Gədəbəydə, Tovuzda, Qazaxda, Kəlbəcərdə öz bəkarətiylə yaşamasının da səbəbini bu tarixi reallıqda axtarmaq gərəkdir. Türk hökmdarlarının bütün tarixi yürüşlərinin haqq aşıqlarının müşaiyəti ilə keçməsi də o müqəddəs dərvişliyin zaman

səddini aşan sehriylə bağlıdır. "Ağıl" kəlməsi bu gün məna etibarı ilə hər kəsə bəllidir. Nağıl - hərəkətdə olan, ötürülən, nəsildən-nəslə keçən ağıldır. Dərvişlər isə hərəkətdə olan aqillərdir. Mütləq həqiqətə qovuşmaq, mütləq həqiqəti söyləmək dərvişliyin baş prinsipidir ki, sonradan dərvişliyin ideoloji əsası kimi qəbul edilən süfiliyin əsasında da məhz bu prinsip dayanır: mistik ekstaz yolu ilə mütləq həqiqətə qovuşmaq. Azərbaycanda ən geniş yayılan dərviş ittifaqı səfəviyyə olub. Bu ittifaqın ən görkəmli nümayəndəsi olan **Şeyx Cüneyd** dövründə sufinin sirli yolunun pillələri belə xarakterizə olunub: **şəriət, təriqət, həqiqət!** Bununla belə Şeyx Cüneydin ali mütləq həqiqəti Oğuz Elinin tarixi yurdlarının bütövlüyü ideyası idi. Deməli, Şeyx Cüneyd öz dövrünün reallıqları ilə - güclü islam faktoru ilə barışmaq məcburiyyətində olsa belə, ali məqsədi, yəni mütləq həqiqəti Dədə Qorqud təlimində görüb. Və dini pərdə altında toxunulmazlıq qazanan bu təlim öz ilkinliyindəki anlamını qoruyub saxlayıb: **səf-ağ-iy, yəni SAF AĞ (mütləq nur) ELMİ kimi öyrənilib, ali məqsəd kimi yurdun bütövlüyü qəbul edilib.** Əslində tarixi Azərbaycan dövlətlərinin - Albanların da, Ağqoyunluların da, Qaraqoyunluların da, Səfəvilərin də ali məqsədi bu olub. Bu tarixi savaşın, sonda SAF AĞ ELMİnin daha kamil biliciləri tərəfindən davam etdirilməsi məntiqi sonluq idi və Şeyx Cüneyddən, Şeyx Heydərdən keçən kamillik məktəbinin Ağqoyunlu boyları ilə birləşərək Şeyx İsmayılı ərsəyə gətirməsi tarixi zərurət idi. Ən maraqlısı isə odur ki, tariximizi yozanların bizə "bir-birinin qanına susamış qatı düşmənlər" kimi təqdim etdiyi Ağqoyunlular da, Qaraqoyunlular da, Səfəvilər də eyni bir boyun Oğuz boyunun övladlarıdır: öz şəcərələri etibari ilə Oğuz Xanın törəmələridir. Ağqoyunlu hökmdarı Uzun Həsənin 53-cü babasının Bayandur xan olduğu barədə Əbübəkir Tehraninin "Kitabi Diyarbəkiriyyə"sində məlumat olduğunu qeyd etmişdik. Maraqlıdır ki, Qaraqoyunlu hökmdarları da şəcərələrini tərtib edərkən, özlərini Oğuz Xanın kiçik oğlu Ər Dəniz Alpın törəmələri kimi təqdim ediblər. Səfəviyyə təliminin banisi sayılan nəslin - Ərdəbil şeyxlərinin də şəcərə etibarı ilə Nuh peyğəmbərə qovuşması belə bir qənaətə əsas verir ki, bu tərəflərin hər biri Oğuz Xanın dövründə xüsusi missiya ilə müxtəlif yönlərə köç etmiş nəsillərin nümayəndələridir və hər biri də eyni missiyanın daşıyıcıları olaraq Oğuz Elinin birliyi, bütövlüyü yönündə mübarizə aparıb. Bu boyların hər birinin mübarizəsinin mayasında eyni amalın olması və aparıcı simalarının məqam düşdükcə Göyçəyə səfər etməsi də onların hər birinin Dədə Qorqud dərvişliyindən gələn ənənəyə sadiqliklərinin, müqəddəs ocağa dönüşü mütləq həyat qayəsi kimi qəbul etmələrinin əyani göstəricisidir. Van sahillərindən baş qaldırmalarına baxmayaraq, qaraqoyunluların sonda

Göyçənin bir dərəsinə sığınması, Şah İsmayılın tarixi missiyasının ən qaynar çağında məhz Göyçəyə səfər etməsi, bu baxımdan həm heyrətdoğurucu, həm də diqqətçəkici tarixi məqamlardır. Və bu məqamda daha bir tarixi reallığa diqqət yetirməyə ehtiyac duyulur. Şah İsmayılın Göyçə yürüşü islamiyyətin dünyanın aparıcı dinlərindən biri kimi 8 əsrlik hökmranlıq dövrünə təsadüf etsə də, Göyçə dənizi hövzəsində mühafizəkar İslamın izləri hiss olunmur. Göyçədə Şah İsmayıl təbəəliyi ilə yanaşı şiəliyin (mütləq islamın yox) qəbul edilməsi və şiəliyin az qala mütləq din kimi yaşarılıq qazanması, eyni zamanda qatı təriqətçi kimi təqdim olunan Şah İsmayılın Göyçədə rastlaşdığı "islamdankənar mədəniyyət"dən əndişə keçirməməsi ona dəlalət edir ki, Şah İsmayılın Oğuz Elinin sirli ideoloji təlimindən müfəssəl xəbəri olub. Şah İsmayılın məhz ali dərviş titulu- "Miskin Avdal" titulu qazanmış bir insanın ocağını ziyarət edərək, ona "Göyçənin seyyidi" rütbəsi verməsi bu qənaətləri təsdiqləyən faktlar kimi çıxış edir.

Yeri gəlmişkən, bu məqama, yəni Oğuz Elinin bütövlüyünə xidmət edən xüsusi təlimin- SAF AĞ ELMİnin "səfəviyyə təliminin" əsasını təşkil etdiyinə işarə olan daha bir fakta da diqqət yetirək. Xalıq Koroğlu özünün "Oğuz qəhrəmanlıq eposu"nda yazır ki, **"Qərbi Türkmənlər Orta Asiya türkmənlərinin birbaşa xələfləri olsalar da, Azərbaycan xalqının etnik qrupuna daxil idilər və müasir Azərbaycan xalqının... mühüm hissəsini təşkil edirlər".** Ümumən tarixi məxəzlər isə türk qəbilələrinin bir - biriylə qanlı savaşlarına dair məlumatlarla doludur və bu, təkcə oğuz boyunun qıpçaqlarla döyüşü ilə məhdudlaşmayaraq, həm də Dış Oğuzun İç Oğuzla münasibətlərinin kəskinliyi ilə də seçilir. Eyni bir qövmün müxtəlif yerlərdə yaşayan, bir-birinin yurduna iddialı olmayan boylarının davası nə ola bilərdi ki?!. Torpaq davasının, dil, din davasının izləri olmayan bu tarixi savaşların əsasında daha çox ideoloji mahiyyətin dayanması versiyası təbii şəkildə çıxır ortaya. Bəs o ideoloji zəmin özündə nəyi ehtiva edə bilərdi ki, mal-mülk, dil-din iddiasından uzaq olan doğma insanları bir - birinin ən qatı düşməninə çevirirdi? Bunun ümumi konturları səfəviyyə dərvişlərinin öz dindaşları, qanı bir, dili bir qardaşları ilə çoxəsrlik mübarizələrində görünür. Daha ciddi səbəblərini dərk etmək üçünsə müasir qazax xalqının soykökünü təşkil edən Qıpçaq Eli ilə Oğuz Elinin qanlı savaş tarixçəsinin güzgüsü olan **"Koblandı Batır"** dastanındakı bir incə məqama diqqət yetirmək lazım gəlir. Bu dastanda Oğuz Elinin "Kitabi Dədə Qorqud"undan bizə bəlli olan **Qazan xan "Qızılbaşlar ölkəsinin xanı"** kimi təqdim olunur. Biz öz tariximizdə "Qızılbaş"lıq terminini Səfəvilər dövləti dövrünə aid termin kimi qəbul edirik. "Kob-

landı Batır" dastanında cərəyan edən hadisələr "Kitabi Dədə Qorqud"dakı hadisələrdən sonrakı dövrü əhatə etsə də, hər halda Səfəvilər dövründən çox-çox əvvəlki dövrün təsviridir. Deməк, "Qızılbaşlıq" heç də bizə təqdim olunduğu kimi "səfəvi döyüşçülərinin geyimi"nin ümumiləşməsi olmayıb, Oğuz Elinin sirlərinin məcmusu olan SAF AĞ ELMİndən gələn bir termin imiş və çox güman ki, özündə ciddi ideoloji əsasları ehtiva edirmiş. Bəlkə də haqqında yuxarıda söhbət açdığımız Oğuz Elinin beyin mərkəzinin ümumiləşmiş ünvanı, yəni qızıl qədər qiymətli başların cəm olduğu məkan anlamına gəlirmiş və "qızılbaşlar"ın göstərişlərinin, mahiyyətindən heç də hamının xəbərdar olması məsləhət bilinməyən ali həqiqətlərinin, ideoloji prinsiplərinin həyata keçirilməsini özünə həyat qayəsi seçənlərə fəxri titul kimi verilirmiş. Hər halda, "Qızılbaşlıq" terminin xüsusi bir mahiyyət daşıdığına şübhə yoxdur və onun kütləviləşməsinin məhz Şah İsmayılın zəfər missiyası dövrünə təsadüf etməsi də məntiqi görünür: ali məqsəd, yəni Oğuz Elinin bütövlüyü reallaşdıqca, bu məqsədə doğru aparan sirli təlim artıq öz məxfilik effektini itirirdi.

Oğuz Elini bürümüş haqq dərvişliyindən söhbət açarkən, hələlik araşdırıcıların diqqətini çəkməmiş bir məqam üzərində də dayanmaq zəruridir. Oğuz dərvişliyinin təməlində haqq aşıqlarının, yəni oğuz həqiqətlərini saz-sözlə yayan ozanların durduğu təkzibedilməzdir. Maraq doğuran cəhət isə aşıq sənətinin eyni intensivliklə inkişaf etməməsidir. Kərkükdən uyğur ellərinə qədər səpələnmiş qovmün aşıq məktəblərinin Van, Urmiya, Göyçə, Aral və İssıq-Qul hövzələrində daha intensiv inkişafı və bu günə qədər yaşarı qalması maraq doğurmaya bilməz. Və məhz bu hövzələrdə oğuz adət-ənənələrinin daha dolğun yaşadılması, oğuz ağzının öz qədim məna tutumundan çox da uzaqlaşmaması belə bir ehtimala əsas verir ki, oğuzun sirli SAF AĞ ELMİ xüsusi mərkəzlərdə təlim olunurmuş və o mərkəzlərin ən qədimi Göyçədir.

Beləliklə, yuxarıda qeyd olunan real tarixi faktlara və yarı real, yarı mifik mülahizələrə istinadən qəti şəkildə söyləmək olar ki, **OĞUZ ELİNİN GÖYÇƏDƏ MƏSKUNLUĞUNUN AZI 5000, ÖZÜNÜMÜDAFİƏ ŞÜURUNA YETMƏSİNİN AZI 4000, DİL VƏ YAZI MƏDƏNİYYƏTİ ƏXZ ETMƏSİNİN AZI 3000, DÖVLƏTLƏŞMƏ MƏRHƏLƏSİNƏ QƏDƏM QOYMASININ AZI 2700, YAZILI ƏDƏBİ VƏ TARİXİ ABİDƏLƏR YARATMASININ AZI 2500 İLLİK TARİXİ VAR.** Oğuz türkünün 3-5 min il öncəki dilində isə təbii ki, yuxarıda qeyd etdiyimiz kimi, "Göyçə" kəliməsi "göyçək", "gözəl yurd", "göy sulu" anlamına gələ bilməzdi. Bəs eləsə "Göyçə" toponimi özündə hansı mənanı ehtiva edə bilərdi? Tarixi məxəzlərdə əfsanəvi Oğuz Xanın oğlanlarından birinin adının Göyxan ol-

duğu göstərilir. Bu fakta söykənib Göytürklər barədə mülahizə yürüdənlər də var. Təbii ki, eyni ətalətlə Göyçənin adının Göyxanla bağlı olduğunu söyləmək də mümkündür. Bu çox asan yol olsa da, əslində mahiyyətdən qaçmaqdan, Göyçə sözünün həqiqi tarixi anlamından düşmənlərin xeyrinə imtina etməkdən savayı bir şey deyil.

Qədim türkdilli xalqlar kimi oğuzlar da çoxallahlı idilər və konkret əməllərin, təbii hadisələrin stimullaşdırıcısı kimi təsniflənən o allahlar ümumilikdə bir əsas Allaha tabe idilər ki, **Əhməd Ibn Fədlanın** yazdığına görə, **"Bir tenqri" (bir tanrı) anlamına gələn o əsas allaha oğuzlar "GÖY" (səma) deyirmişlər** (*А.П.Ковалевский. Книга Ахмеда ибн Фадлана о его путешествии на Волгу в 921-922 г. Харьков-1956*). "Ça", "çə", "ca", "cə" şəkilçilərinin yurd-məkan anlamına gəldiyi qədim oğuz türkcəsində yer adlarının əmələ gəlmə qanunauyğunluqlarını nəzərə alsaq, onda tam əminliklə demək olar ki, **4-5 min il öncə Misirdən Tibetə qədər böyük bir coğrafi areala mədəniyyət yaymış oğuz türklərinin leksikonunda "Göyçə" kəlməsi "Müqəddəs insanlar yurdu", " Baş tanrının yurdu", "Səmavi varlıqlar yurdu" anlamına gəlirmiş** ki, bu da əslində yuxarıda qeyd etdiyimiz xüsusla, yəni Göyçə hövzəsinin Oğuz Elinin düşüncə mərkəzi, oğuz boylarının TENQRİ kimi qəbul etdikləri seçkin şəxsiyyətlərin yurdu olması barədə qənaətlərlə - konkret tarixi faktlarla söykənən ciddi elmi mülahizələrlə tam mənada uzlaşır.

## ULU YURDUN "TARİXÇİ"LƏR YOZUMUNDAKI "TARİXİ" VƏ REALLIQLAR

"Azərbaycan tarixşünaslığı"nın 40 illik təslimçilik və özünüinkar dövründən sonra ələ düşmüş "demokratik tarixşünaslıq" fürsətindən, yəni XX yüzilliyin son on ilində birdən-birə vüsətlənmiş elmdənkənar tarixyaratma sərbəstliyindən maksimum faydalanan işbazlar Göyçə üçün də düşmənə sərfəli bir tarix qondarmağa cəhd edibrlər. Yadellilərə sərfəli olan o "tarix yaradıcılığı"nın diqtə etdiyi "tarixi coğrafiya" təxəyyülünə görə, Göyçə coğrafi anlamda indiki Ermənistan Respublikasındakı Basarkeçər (Vardenis), Qaranlıq (Martuni) rayonlarının inzibati sərhədlərini tam; Kəvər (Kamo) və Çambarak (Krasnoselo) rayonlarının inzibati hüdudlarını isə qismən əhatə edən bir ərazidir. Və güya Göyçə eramızın əvvəllərindən başlayaraq Arşakilərin, eramızın V əsrindən sonra Arsaxın (???), bir müddət (*axı nə vaxt, tarixin hansı dönəmində???*- S.V.) Şahnazaryanların hakimiyyəti altında (*hansı Şahnazaryan ???*-S.V.), bir müddət də Qaraqoyunlu dövlətinin tərkibində (???), ən nəhayət, Ağqoyunluların nəzarətində olub. Qəribə təsnifatdır deyilmi? "Dünyanın sinəsinə həkk olunmuş əbədi izlər" bölümündə Göyçə toponiminin özündə nəyi ehtiva etdiyi məsələsini araşdırarkən, Rusiya elmi dairələrinin xəyanətkar, İqrar Əliyev epoxasındakı Azərbaycan tarixşünaslığının isə təslimçi mövqeyi sayəsində ermənilərin Göyçə üçün quraşdırdığı tarixin əsassızlığını, yəni "Göyçədə güya mövcud olmuş Urartu, Tiqran, Arşaki, Arsaxi, Şahnazaryani hakimiyyətləri barədə" hipotezlərin boş söz yığınından savayı bir şey olmadığını konkret faktlara istinadən aydınlaşdırmışdıq və söhbətimizin gedişində bu məsələyə təkrar-təkrar qayıdacağıq. Amma məsələ təkcə bununla da bitmir. Aydınlaşdırılmasına ehtiyac duyulan daha incə mətləblər də var. Müasir tarixşünaslığın Göyçənin bioqrafiyasına pərçim etdiyi "Arşaki, Arsaxi, Şahnazaryani" hakimiyyətləri hətta elmi təsdiqini tapmış məqamlar olsa belə, onların hamısı üst-üstə bir neçə əsri əhatə edir. Qaraqoyunlulardan sonrakı 6 əsri də əlavə etsək "müasir Azərbaycan tarixşünaslığı"ndan Göyçə üçün "səxavətlə ayrılmış pay" 1500 ildən o yana keçmir. Bəs Göyçənin 5000 illik tarixinin qalan 3500 ili hansı dövlətlərlə, hansı hakimiyyətlərlə bağlıdır? Ümumiyyətlə bu cür "tarix yaratma ənənəsi"nə nə ad vermək olar? Bu qəbil cəhdlər tarixi həqiqətlərin aşkarlanması yox, tarixin təhqiridir!!! Və tarixə bu cür səthi yanaşma istər-istəməz alternativ yanaşmanı zəruriləşdirir. Konkret halda söhbət Göyçənin tarixindən və coğrafi tutumundan getdiyi üçün bir sıra

məqamlara diqqət yetirməyə ehtiyac duyulur. Əvvəlcə,

**Göyçənin coğrafi tutumu**

barədə. Tarixi Göyçə mahalı, yəni Qüdrətli Oğuz Elinin müqəddəs ocağı anlamına gələn məkan Çar Rusiyasının istəyi ilə 1828-ci ildə yaradılmış erməni vilayətində tətbiq olunmuş inzibati bölgünün ehtiva etdiyi məhdud ərazi yox, ümumən Göyçə gölü hövzəsinin və o hövzəni dövrələmiş qapalı dağ silsiləsinin arxa ətəklərinin daxil olduğu geniş bir coğrafi arealdır. Yəni indi Ermənistan dövlətinin ərazisində qalan Vardenis (Basarkeçər), Çambarak (Krasnoselo-Çənbərək), Sevan (Çubuqlu, Yelenovka), Martuni (Aşağı Qaranlıq), Kamo (Kəvər, Yeni Bayazid) rayonlarının inzibati hüdudlarını tam; Yeğeqnadzor (Dərələyəz), Abovyan (Ellər), Hrazdan (Axta), Dilican, həmçinin Azərbaycan ərazisindəki Kəlbəcər və Gədəbəy rayonlarının inzibati hüdudlarını isə qismən əhatə edən bir coğrafi ərazidir Göyçə. Şimaldan Şahdağ, qərbdən Göyəm (Göyçə), cənubdan Basatkeçən sillsilə yüksəklikləri ilə əhatələnmiş bu məkanın sahəsi isə, Göyçə gölü də daxil olmaqla 10.000 kvadratkilometrdən çoxdur. Bəs,

**Bəşər övladının Göyçədə məskunluğu tarixin hansı dönəmindən başlayır?**

XX əsrin 60-cı illərində Basarkeçər nahiyəsindəki Ağkilsə kəndində təsərrüfat məqsədli təsadüfi bir qazıntı zamanı torpaq laylarında eyni bir şaquli xətt üzrə müxtəlif dərinliklərdə 4 qəbirin aşkarlanması və bu qəbirlərin dərinliyə görə böyüyən ölçüləri, eyni zamanda hər dörd qəbirdə yalnız oğuz kultunun izlərinin olması, yəni bu qəbirlərin heç birində nə alban, nə xristian, nə də islam mədəniyyətinin izlərinə rast gəlinməməsi təkcə bu suala yox, ümumən çox mətləblərə aydınlıq gətirir.

Bu baxımdan Azərbaycan xalqının söz yaddaşına istinadən qədim mədəniyyətinin öyrənilməsində müstəsna xidmətlər göstərmiş tədqiqatçı alim Q.Qaraqaşlının "Materialnaya kultura azerbaydcantsev" kitabındakı bir məqam da xüsusi diqqət çəkir. Bu kitabda xalqın yaddaşına istinadən göstərilir ki, **"Uğuz (oğuz) köçəriydi, harada ölürdü, orada dəfn edilirdi... Onlar bu mahalda vəngləri (kiçik alban kilsələri) tikənlərdən çox-çox əvvəl yaşayıblar".** Qəribədir deyilmi? Oğuzların Göyçə hövzəsində məskunluq tarixinin albanların tarix səhnəsinə çıxışından çox- çox əvvələ təsadüf etməsi müdaxiləsiz xalq yaddaşında da təsdiqlənir. Alban və qriqorian xristianlığı tarix baxımından bu günümüzə nə qədər yaxın olsalar da, Göyçədə oğuz kultunun izləri mütləq əksəriyyət təşkil edir. Bu real faktlar və mülahizələr isə tam qətiyyətlə deməyə əsas verir ki, **bəşər övladının Göyçədə məskunluğunun tarixi Oğuz Xan zamanından da**

**xeyli əvvəldən başlayır. Qədim dünya tarixi üzrə ən məşhur mütəxəssislərin yekdil fikri isə belədir ki, Oğuz Xan real tarixi şəxsiyyətdir.** Bu xüsusda mübahisə doğuran yeganə məsələ Oğuz Xanın yaşadığı dövrlə bağlıdır. Məxəzlərin bəzisində, xüsusən də Qafqaz və Kiçik Asiyanın tarixinə dair mənbələrdə onun Məhəmməd Peyğəmbərdən 4000 il əvvəl, yəni eramızdan əvvəlki IV minilliyinin ortalarında yaşadığı göstərilsə də; Çin tarixinə istinad edənlərin fikrincə, Oğuz Xan eramızdan əvvəlki III minilliyin sonlarında, II minilliyin əvvəllərində, təxminən 2050-1950-ci illər aralığında yaşamış tarixi şəxsiyyətdir. Deməli, bütün hallarda Oğuz Xanın bir qövmün hökmdarı, müdrik başbiləni kimi tarix səhnəsinə çıxmasının ən azı 4000 illik tarixi var. Və onu da nəzərə alsaq ki, Oğuz Xan sürü halında yaşayan bir kütlənin nümayəndəsi yox, artıq özünə rəhbər seçmiş və o rəhbərin tapşırığı ilə məqsədli fəalliyyətlə məşğul olan, ən ümdəsi öz hökmdarının əməllərini yaşada, gələcəyə əmanətləyə biləcək dil mədəniyyətinə yiyələnmiş  və yaradıcı təxəyyül səviyyəsinə yüksəlmiş bir qövmün rəhbəri olub, onda tam qətiyyətlə hökm vermək olar ki, **bəşər övladının Göyçədə məskunluğunun, oturaq həyat tərzinə keçidinin azı 5-6 min illik tarixi var.** Çünki ibtidai insan kütləsinin cəmiyyətləşmə şüuru səviyyəsinə yüksəlişi əsrlərlə yox, minilliklərlə ölçülən bir prosesdir. Əvvəlki söhbətimizdə konkret tarixi faktlara və yazılı məxəzlərə istinadən onu da aydınlaşdırmışdıq ki, Oğuz Xanın müqəddəs yurdu, mütləq məkanı məhz  Göyçə olub. O da həqiqətdir ki, məhz onun zəkasının qüdrəti sayəsində Göyçədən baş qaldıran bir qövm dünyaya ünsiyyət mədəniyyəti və cəmiyyətləşmə şüuru yaymaq kimi müqəddəs bir missiyanı həyata keçirib.  Dil və mədəniyyət yaymaq missiyası ilə Göyçədən köç edən nəsillər müxtəlif zamanlarda tarix səhnəsində mövcud olmuş müxtəlif dövlətlərdə yaşasalar da, o dövlətlərin qurulmasında, süqutunda müəyyən rol oynasalar da, Göyçənin özü eramızdan əvvəlki XV-XIII əsrlərə, yəni indiki coğrafi təqdimatda Kiçik Asiya və Yaxın Şərq kimi təsniflənən məkanlarda müxtəlif etnosların, xüsusən də sonradan Assuriya çarlığının əsas qüvvəsini təşkil edən qəbilələrin istilaçı mahiyyəti üzə çıxana  qədər öz qədim ənənələrini yaşadan, mütləq mənada Oğuz qanunları ilə yaşayan tam müstəqil bir inzibati struktur olub.

Eramızdan əvvəlki XV əsrdən etibarən isə Oğuz Elinin tarixi missiyasında müəyyən korrektələr zərurəti yaranıb.  Daha dəqiq desək, eramızdan əvvəlki dövrün ilkinliyindən başlayaraq, bir neçə minillik ərzində Misirdən Tibetə qədər geniş bir arealda mütləq söz sahibi olan Oğuz Eli eramızdan əvvəlki XV əsrdən etibarən, bir sıra etnosların işğalçı-istilaçı meyllərinə qarşı mübarizə aparmaq məcburiyyətində qalıb. Bu zərurət

şərqdə Çinin, qərbdə isə yenicə baş qaldıran Assuriyanın maraq dairəsinə düşmüş ərazilərdə xüsusilə kəskin xarakter alıb. Assuriya eposlarında ən qəddar düşmən anlamına gələn "u-ri-at-ri"lər ifadəsinin əslində konkret bir dövlətin təbəələrinə yox, Oğuzların rəhbərliyi ilə işğalçılıq siyasəti əleyhinə çıxan qəbilələrin birləşmiş qüvvələrinə şamil edilən ifadə olduğuna da əvvəlki söhbətimizdə tarixi faktlara və qədim dünya tarixinə dair araşdırmalara istinadən aydınlıq gətirmişdik. Bəli, **Oğuz Eli bəşəri sivilizasiyanın ilkinliyindən etibarən dünyəvi təkamülün təkanvericisi olub və tarixin yaddaşında əfsanəvi Turan dövləti kimi əbədiləşmiş, bu günün reallığından baxdıqda isə mifik təəssürat oyadan dövlət- hüdudları Misirdən Tibetə qədər uzanan Ulu Turan dövləti Oğuz Elinin həmin yüksəliş dövrünün əks-sədasıdır.** Amma nə yazıq ki, dünyaya mədəniyyət yaymaq kimi müqəddəs bir missiyanı uğurla həyata keçirmiş bir qövm bəşər övladının işğalçılıq istəyinə sipər çəkmək iqtidarında olmadı. Bu da səbəbsiz deyildi...

Bəşər övladının yırtıcı xislətinin - işğalçılıq istəyinin tam şiddəti ilə üzə çıxmasına qədərki azı 1000-1500 illik dövr ərzində Oğuz Elinin öz tarixi missiyasını həyata keçirmək üçün qruplar halında müxəlif istiqamətlərə köç etməsi, onun potensial imkanlarını qismən də olsa məhdudlaşdırmışdı və bu reallıq da baş qaldıran istilaçı meyllərə qarşı effektiv mübarizəni mümkünsüzləşdirirdi. Düzdür, Oğuz təlimindəki mütləq hökmlərdən biri müqəddəs ocağın dar günündə geriyə dönmək, o ocağı yad nəfəsdən qorumaq idi. Amma minilliklərlə keçilmiş yol boyunca səpələnmiş qüvvələrin qısa müddətdə səfərbər edilərək vahid cəbhədə birləşdirilməsinin çətinliyi qaçılmaz reallıqdır və bu reallıq da öz sözünü dedi. Eramızdan əvvəlki XIII əsrdən başlayaraq ta VIII əsrə qədər Oğuz Xanədanı Van-Urmiya hövzəsindəki nüfuzunu mərhələ-mərhələ itirdi ki, bu tarixi məqam da qədim bir kitabədəki mətndə öz əksini tapıb. Eramızdan əvvəlki 1116-1090-cı illərdə Assuriyaya hökmdarlıq etmiş I Tiqlatpalasara məxsus olduğu güman edilən həmin mətndə deyilir: **"...23 çar mənə qarşı mübarizəyə qalxdı... mən onları da, onlara köməyə gəlmiş 60 çarı da YUXARI DƏNİZ sahillərinə qədər qovdum..."** *(Б.Б.Пиотровский. "Ванское царство-Урарту". Москва-1959. с.-45)*. 23 çar dedikdə məhz Göyçə hövzəsindəki, Dədə Qorqudun 24 sancaq kimi təsniflədiyi 24 boydan 23-nə məxsus qalaların hökmdarlarının nəzərdə tutulduğunu əvvəlki söhbətimizdə əsaslandırmışdıq. 60 çar məvhumu isə eramızdan əvvəlki XIII əsrə qədər hakim Oğuz mədəniyyətinin Göyçədən kənardakı təsir dairəsində olmuş ərazilərdəki- Aralıq dənizindən Göyçə gölünə qədər uzanan arealdakı qədim cırtdan dövlətlərin: Melita, Til-Bar-

sib, Pitru, Bit-zamani, Tuşpa, Qarğamış, Arpad, Markasi, Xarran, Nasibina, Nineviya, Kalxu, Dur-Şərruhini, Ərbail (Ərbil), Kələşihuni, Musasir, Menuas (Manas), Arquştxunii (Ərgünhuni), Makaltuni, Erebuniani (Ərbun-İrəvan yaxınlığındakı "Qanlı təpə" deyilən ərazidəki qala-S.V) və sair kimi özünü müstəqil dövlət sayan qalaların sayına tam mənada uyğun gəlir. Bəli, qədim mixi yazılarından da göründüyü kimi eramızdan əvvəlki II minilliyin sonlarında Oğuz Eli bəşəri sivilizasiyanın assuriyalıların timsalında oyanmış dağıdıcı xislətinin qarşısına sipər çəkmək iqtidarında deyildi. Və bu hal Oğuz elinin BAYANELLİ (ermənilərin təbirincə BİAYNİ) qalasının hökmdarının müqəddəs ocağı qorumaq naminə qalan 23 qalanı bir bayraq altında birləşdirmək üçün ayağa qalxdığı tarixi məqama, yəni Dədə Qorqudda əksini tapmış hadisəyə, Dış Oğuz elləri ilə İç oğuz arasında ilk baxışda düşmənçilik təəssüratı oyadan, əslində isə eramızdan əvvəlki VIII əsrin sonlarında, təxminən 730-cu ildə Qalın Oğuz (yəni qüdrətli uca bayların məskəni) dövlətinin yaranmasının təməli olan real tarixi hadisələrə qədər davam etdi. Həmin tarixi məqamı əks etdirən maddi dəlil mövcuddur və indiki Ermənistanın Martuni rayonunun Tsovinar kəndi ərazisindəki Kələqıran qalasının bünövrəsi rolunu oynayan qayaya həkk edilmiş o kitabənin tam mətnini əvvəlki söhbətimizdə təqdim etmişdik. Oğuz Elinin bir sancaq bəyisinin qalan 23 qalanı vahid dövlətdə birləşdirməsindən xəbər verən bu qədim yazıda ən çox maraq doğuran məsələ qalib hökmdarın özünün və dövlətinin adıdır ki, zənnimizcə, bu xüsusda bir neçə məqama diqqət yetirmək zəruridir.

Fərat və Dəclə arasındakı qədim kitabələrdə ən sox hallanan hökmdar adı "Salmanasar" olsa da, Van sahillərindən Göyçə hövzəsinə qədər hər yerə səpilmiş eyni qrafikalı və eyni üslüblü qədim kitabələrdə rast gələnən hökmdar adlarını xristian alimləri təxminən "Menuas", "Arquniuni", "Rusa", "Sarduri", "Sarqoniuni" şəklində "oxuyublar" və bu adların "qədim erməni adları" olduğu qənaətinə gəliblər. Bu qənaətin yeganə "arqumenti" isə odur ki, güya bu adlar qədim erməni tarixindən savayı heç bir tarixlə və müasir erməni dilindən savayı heç bir dilin qanunauyğunluqları ilə uzlaşmır. Arqumentin cılızlığı və əsassızlığı göz önündədir. Ən azı ona görə ki, bu kitabələr yazılarkən, yəni 3000-3500 il əvvəl ermənilər bir millət olaraq tarix səhnəsinə çıxmamışdılar və bu səbəbdən də kitabələrdə adları çəkilən hökmdarların adlarının "erməni tarixindəki real şəxsiyyətlər"in adlarına uyğun gəlməsindən söhbət açmaq sadəcə sərsəmlikdir. Amma bu adların hər birinin qədim türkcəyə də, məxəzlərlə təsdiqlənən Oğuz tarixinə də birbaşa dəxli var, təbii ki, "Salmanasar" ifadəsindən başqa. Bu adın qədim assuriyalılara məxsusluğu və eyni adlı bir

neçə hökmdarın bu dövlətə başçılıq etdiyi artıq tam təsdiqini tapmış tarixi reallıqdır. Digər adlara gəldikdə isə...

Qədim məxəzlərin hamısında əfsanəvi Turan dövləti barədə məlumatlar var. Bu əfsanəvi dövlətin hökmdarının adı bir sıra mənbələrdə Əfrasiyab kimi göstərilsə də, bir-birindən xəbərsiz iki mənbədə, **XI əsr müəllifləri Mahmud Kaşğarinin "Dİvani Lüğət-üt türk" və XV əsrin uyğur salnaməçisi Yusif Balasaqunlunun "Kudatqu bilik" əsərlərində əsl adı ALP-ƏR TONQA olan bu bahadırın Nuh peyğəmbərin oğlu Yafəsin törəmələrindən biri və real tarixi şəxsiyyət olduğu birmənalı şəkildə göstərilir.** XV əsr müəllifi **Əli Yazıçıoğlu** isə **"Tarix Əlsəlcuq"** əsərində "Kitabi Dədə Qorqud"dan bizə tanış olan **Alp Aruzun tarixi şəxsiyyət olduğunu təsdiqləyərək, onun ərəb-fars mənbələrində göstərilən kimi Əfrasiyabın yox, məhz Alp Ər-Tonqanın oğlu olduğunu bildirir. A.Bakıxanov** isə öz zəmanəsinə qədər gəlib çıxmış "Oğuznamə"lərə istinadən hazırladığı **"Gülüstani-İrəm"** əsərində Yafəsin oğullarının adını belə sıralayır: Türk, Xəzər, Rus, Kamari, Saqlib, Çin. Əbubəkr Tehraninin "Kitabi Diyarbəkriyyə"sində verilən məlumata görə isə **Oğuz Xan Huh peyğəmbərin nəvəsi Türkün nəslindəndir** və Ulu Yaradan tərəfindən üzərinə dünyaya ünsiyyət mədəniyyəti yaymaq missiyası qoyulmuş bu tarixi şəxsiyyətə qədərki şəcərənin düzümü aşağıdakı kimidir: Əbülcə xan, Dib Yaqub (bəzi mənbələrdə Div Yabqu), Qaraxan, Oğuz. Oğuznamələrin əsasında tərtib olunmuş tarixnamələrdə Oğuz xanın 6 övladının adı çəkilir: Ər-Gün Xan (hun), Ər-Ay Xan (hun), Ər-Ulduz Xan (hun), Ər-Göy Xan (hun), Ər-Dağ Xan (hun), Ər-Dəniz Xan (hun). Oğuzun övladlarının adlarından sonrakı titulun bəzi mənbələrdə "hun", bəzilərində isə "xan" kimi veilməsi, prinsipial bir fərq olmayıb, tarixnamələri qələmə alan müəlliflərin öz dövrlərinin reallıqlarına istinadının məntiqi nəticəsi kimi dəyərləndirilməlidir. Sonrakı mərhələlərdə isə Oğuzun şəcərəsi 6 qola ayrıldığı üçün, təbii ki, onların hamısının eyni bir kitabda ümumiləşdirilməsi sadəcə mümkün deyildi. Odur ki, Oğuzdan sonrakı nəsillər barədə məlumatlar müxtəlif məkanlarda yazılmış oğuznamələrdə yer alıb. Məsələn, uyğur oğuznamələrində Ər-Ay xanın övladlarından birinin adının ulu əcdadının şərəfinə Rus, Dədə Qorqud oğuzlarının şivəsinə yaxın olan oğuznamələrdə Ər-Gün xanın törəmələrindən birinin Bayandur, qırğız dilinə yaxın dildə qələmə alınmış oğuznamələrdə Ər-Dağ xanın övladlarından birinin Manas adlandırıldığı qeyd olunur. Bunca aşkar həqiqətlər ortada olduğu halda eramızdan əvvəlki XIII-XI əsrlərdə Kiçik Qafqazda mövcud olmuş qalaların adlarını xristian alimləri Menuas, Arqinuini şəklində təqdim edəndə və bu adların heç bir dildə

anlaqlı olmadığı barədə rəy formalaşdıranda nədənsə türk alimləri qədim mənbələrə müraciət erməkdən çəkiniblər. "Menuas"ın sadəcə Manas, "Arqinuini"nin Ər-Gün hun (xan) adlı tarixi şəxsiyyətlərin qalaları olduğunu söyləməyə özlərində cəsarət tapmayıblar. Bəlkə müasir türkdilli xalqların alim-tarixçiləri "Oğuznamə"ləri və onların əsasında X-XV əsrlərdə qələmə alınmış tarixnamələri yetərli mənbə saymırlar? Elə isə onda bir məntiqi sual çıxır ortaya: Dədə Qorqud sikloplarının ən primitiv səviyyədə köçürməsindən savayı bir şey olmayan yunan sikloplan; Heredotun, Homerin, Strabonun o sikloplara əsaslanan nağıllardan mayalanmış "dahiyanə əsərləri" mötəbər mənbələrdirsə, onda "oğuznamələrin dəyərsizliyi"ni hansı amillər şərtləndirir?!. Öz məxəzlərinə inamsızlığın, biganəliyin nəticəsi isə o olur ki, mixi yazıların tərcüməçiləri, yəni "müqəddəs xaç yürüşünün məqsədlərinə xidmət edən alimlər" Manas adlı hökmdarı "Menuas", Rus adlı hökmdarı "Rusa", Ər-Gün hun (xan) adlı hökmdarı isə "Arquniuni" kimi təqdim edirlər dünyaya və bu yalan üzərində də xristian təbəələri üçün tarix yazırlar. Necə ki, qədim türkcədə "uca bayların dövləti" anlamına gələn Biayanelli qalasını Urartu adlı mifik dövlətin mərkəzi əyaləti kimi təqdim ediblər dünyaya. Halbuki Kələqıran qalasındakı kitabənin müəllifi özünün kimliyni - ərazicə Kələqırana yaxın olan bir qalanın hökmdarı olduğunu açıq mətnlə göstərib. Belə ki, həmin kitabəni həkk etdirən hökmdar deyir: **"...bu səmtdə olan 4, uca dağların o biri səmtindəki 19 qalanı yendim...O biri ili bura bir daha qayıdıb bu qalanı tikdirdim".** Xristian alimlərinə inansaq, bu hökmdar Urartunun mərkzəzi əyalətinin, yəni Biayninin hökmdarı olub; deməli, haradasa Van gölü sahillərində yaşayıb. Bir hökmdarın bir il ərzində döyüşə-döyüşə Van gölü ətrafından Göyçənin şərq sahilinə qədər geniş bir ərazini fəth etməsi və öz yurduna döndükdən sonra təkrarən buraya qayıdaraq, Kələqıran qalası kimi bir qala inşa etdirməsi, eramızdan əvvəlki VIII əsrin reallıqları baxımından nə dərəcədə məntiqi və inandırıcı görünür?!.

Belə bir qənaət hasil olur ki, ya bu zavallı hökmdarın başqa iş-gücü olmayıb, ya da o 3000 il bundan əvvəl müasir hərbi və tikinti texnikası səviyyəsinədək mükəmməl texnika sahibi, Kələqıran qalası kimi möhtəşəm bir qalanı bir neçə ay ərzində tikə biləcək qədər fantastik güc sahibi olub? Kələqıran qalası kimi bir qalanı heç müasir texnikanın imkanları ilə belə bir neçə aya tikmək mümkün deyil. Belə ki, qala şimal bürcləri gölün içində olmaqla, təxminən 3-4 kilometr uzunluğu, 1-1,5 kilometr eni olan bir ərazidə ikiqat istehkamlarla əhatələnmiş möhtəşəm bir kompleks olub. Birinci istehkam xətti iri ölçülü qayaların düzümü vasitəsi ilə yara-

dılmış təbii görkəmli qaya-səngər, ikinci istehkam isə arası xüsusi bərkidici məhlulla doldurulmuş ikiqat divardır. Qalanın gölün içərisindəki hissəsinin sualtı qayalar üzərində inşa edildiyi güman edilsə də, qayanın üzərinə həkk edilmiş mətn bu bünövrə qayalarının sonradan gətirilmə, yəni kənarda hazırlanaraq xüsusi qurğular vasitəsi ilə suyun dərinliyinə salındığını söyləməyə əsas verir. Bu qədər möhtəşəm bir işin bir neçə aya görüldüyünü yalnız xristian nağılları iddia edə bilər. Qalanın tikintisinə azı bir il vaxt sərf olunduğuna şübhə yoxdur, amma onu tikdirən şəxsin bu bir ildə həm tikinti ilə məşğul olmasını, həm də eyni vaxtda Van sahillərinə hərbi yürüş edib təkrar geri dönməsini real tarix kimi qəbul etmək sadəlövhlükdür. Deməli, o hökmdarın Biayanelli ölkəsini Kələqırana yaxın bir ərazidə axtarmaq gərəkdir. Harada ola bilərdi o qala?!. Bəlkə elə Kələqırandan bir mənzillik, bir günlük məsafədə olan indiki Daşkəsən rayonunun Bayan kəndində axtaraq BAYANELLİ qalasının izlərini. Bəlkə eramızdan əvvəlki 730-cu ildə bir hökmdarın Göyçə qalalarını ram edərək vahid bayraq altında birləşdirməsi kimi tarixi hadisənin vaxtilə Göyçədən köç etmiş boylardan birinin Oğuz Elinin bütövlüyü naminə müqəddəs cihada qalxdığı tarixi məqam olduğu həqiqətini dərk və qəbul edək?!. Ağlasığmaz dərəcədə risqli bir təklifdir deyilmi?!. Ola bilər ki, risklidir, amma tarixi həqiqətlərə söykənən tam əsaslı bir təklifdir. Bunun belə olduğunu tam dəqiqliyi ilə yəqinləşdirmək üçünsə bir sıra tarixi gerçəkliklərə diqqət yetirək.

Qədim dünya tarixinə dair elmi baxışların hamısında birmənalı şəkildə etiraf olunur ki, eramızdan əvvəlki VIII əsrin sonlarında və VII əsrin əvvəllərində, yəni təxminən 730-670-ci illərdə prototürklərin Qafqaza axını olub. Prototürklərin Qafqaza axını kimi xarkakterizə olunan o hadisənin əsl mahiyyətini dərk etməkdə xristian alimləri acizdirlər. Çünki onlar üçün müqəddəs ocaq, yurdun dar günündə hər şeyi atıb ona köməyə gəlmək anlayışı yoxdur. Çünki xristğianlığın mahiyyətində "günün xoş keçən yer vətəndir" prinsipi dayanır. Məhz ona görə də "prototürklərin Qafqaza axını" kimi təsniflədikləri tarixi hadisənin sadəcə bir istilaçı yürüş yox, müqəddəs dönüş, yurdun dar günündə onun köməyinə gəlmək kimi ali bir məqsəd daşıdığı həqiqətini xristian təfəkkürü heç cür qavraya bilmir. Əslində isə bu axın elə bir zamana təsadüf edirdi ki, o vaxt həqiqətən də Oğuz Eli özünün ən ağır günlərini yaşayırdı. Assuriyalıların 600 illik hərbi təcavüzü nəticəsində artıq Oğuz Eli nəinki Qafqaz və Kiçik Asiyada nüfuzunu itirmək üzrəydi, üstəlik onun müqəddəs ocağının-Göyçənin də taleyi təhlükə altında idi. Belə bir məqamda indi "prototürklər" kimi qəbul etdiyimiz Oğuz köçlərinin Qafqaza, ələlxüsus da

Göyçə və Göyətrafı ərazilərə dönüşü, paralel olaraq Göyçə ərazisindəki mövcud qüvvələrin vahid mərkəzdə cəmləşdirilməsi doğrudanmı təsadüfdür?!. Bu reallıq kimin üçünsə, bəlkə də, təsadüf kimi dəyərləndirilə biləcək qədər adi haldır. Amma...Tarix təsadüflər yığnağı yox, zərurətdən qaynaqlanan konkret hadisələrin məcmusudur. Eramızdan öncəki VIII-VII əsrlərdə də belə bir zərurət yaranmışdı; 2-3 min illik bir dövr ərzində yalnız dünyaya ünsiyyət mədəniyyəti yaymaqla məşğul olmuş bir qövm, Oğuz Eli deyilən bir toplum öz mövcudluğunu qorumaq üçün dövlətləşmək məcburiyyəti ilə üz-üzə qalmışdı. Bu, bəlkə də sonradan tarixə Albaniya adı ilə düşmüş qüdrətli ALPAN dövlətinin təşəkkül mərhələsinin başlanğıcı, rüşeymləşmə dövrü idi. Əvvəlki söhbətimizdə Əbubəkr Tehraniyə istinadən qeyd etmişdik ki, **"...Oğuzun törəmələrindən olan Bayandur xan Rum, Turan, Şam, Misir və İfrəncdə nüfuzunu bərpa etdikdən sonra Göyçə yaylasında və Qarabağ qışlağında BÖYÜK QURULTAY çağırıb..."** (*"Kitabi-Diyarbəkriyə" əsəri, səhifə 30*). Bir az öncə isə eramızdan əvvəlki VIII əsrdə Göyçə qalalarını bir bayraq altında birləşdirən bahadırın əsas qalasının indiki Daşkəsən rayonu ərazisindəki Bayan kəndində olması barədə mülahizələrin həqiqətə ən yaxın ehtimal olduğunu diqqətə çatdırmışdıq.

Ə.Tehraninin Bayandır xanın qurultaylarının məkanı barədə verdiyi məlumat da Kələqıran kitabəsində adı çəkilən BİAYANELLİ qalasının məhz Bayan kəndində olması ehtimalını təsdiqləyən fakt kimi çıxış edir. Belə ki, Bayan kəndi elə bir mövqedə yerləşir ki, oradan həm Göyçə yaylasının bütün ərazisinə, həm də Qarabağ qışlağına, müasir anlamdakı Bərdə və Tərtər rayonlarının ərazisinə nəzarət imkanları təxminən bərabərdir. Sonradan böyük Albaniyanın hərbi-strateji baxımdan ən əhəmiyyətli knyazlıqlarından olan Girdiman və Sakasan knyazlıqlarının ərazilərinin də məhz bu arealı, indiki Göyçə-Daşkəsən-Gəncə-Qazax-Tərtər-Bərdə ərazilərini əhatə etməsi də eramızdan əvvəlki 730-cu ildə baş vermiş və Kələqıran kitabəsində əksini tapmış hadisənin məhz Oğuz Elinin dövlətləşmə istəyinin reallaşmısının başlanğıcı olduğu barədə qəti hökmə əsas verən amillərdən biridir. Həmin tarixi proseslərlə bağlı daha bir diqqətçəkici məqam mixi kitabələrindəki "U-ri-at-ri" kəlməsinin öz yerini tədricən "ALP-an" termininə verməsidir. Bəlli olduğu kimi "u-ri-at-ri" qədim assuriyalılar uçun düşmən, daha dəqiqi, assuriyalıları uzun illər nəzarətdə saxlamış qohum qəbilələrin vahid qüvvəsi anlamına gəlirdi. Eramızdan əvvəlki VIII əsrdə, yəni Oğuz Elinin birləşmiş boylarının öz fövqəl gücünü itirməsi dövründə bu ifadənin yazılı mətnlərdən yavaş-yavaş çıxması təbii, təbii olduğu qədər də məntiqidir. Həmin məqamda paralel

olaraq öz mövcudluğu qayğısına qalan bir qövmün yeni yaratmaq istədiyi birliyi öz anlamında, öz dilində adlandırması da eyni dərəcədə təbii və başadüşüləndir. Bu xüsusda maraq doğüran ən incə bir məqam: qədim tarix üzrə ən məşhur mütəxəssislərdən sayılan **A.Seys** qədim lüğətlərə istinadən **"Uriatri kəlməsinin assuriyalıların leksikonunda təkcə "düşmən qəbilələr birliyi" anlamına yox, həm də "Yüksək ölkə - Müqəddəs yurd" anlamına gəldiyini" bildirir** (*A.Sayce. "The Kingdom of Van - The Cambridge ancient history ". III, 2 the d., Cambridge-1929. p.-169*). Göyçə ifadəsinin də qədim türkcədə məhz "müqəddəs yurd" anlamını ehtiva etdiyini sırf elmi dəlillərlə əsaslandırmışdıq. Kələqıran kitabəsindən təxminən üç əsr sonra tarix səhnəsində peyda olmuş və ərəb, yunan, fars mənbələrində Albaniya kimi təsniflənən dövlətin adındakı "ALP"+"AN" leksemlərinin də təxminən eyni anlama "yüksək yurd- uca insanlar yurdu" anlamına gəldiyi reallığını da bu deyilənlərə əlavə etsək, onda tam qətiyyətlə söyləmək olar ki, **eramızdan əvvəlki IV əsrdə tarix səhnəsinə çıxmış qədim Alban dövləti eramızdan əvvəlki V minillikdən etibarən dünyaya mədəniyyət yaymış, eramızdan əvəvlki XIII əsrdən başlayaraq nüfuzunu itirən Oğuz Elinin öz mövcudluğunu saxlamaq üçün məcburən yaratdığı dövlətdən qeyri bir şey deyil.** Bu mülahizəni təsdiq edən amillərdən biri də Oğuz Elini təşkil edən boylarla Albaniya dövlətinin əsasını təşkil edən qəbilələrin say tərkibinin üsüstə düşməsidir. Belə ki, "Kitabi Dədə Qorqud"un əvvəlində 24 sancaqdan, 24 boydan danışıldığı halda, sonda 26 boydan söhbət açılır. XI əsr müəllifi Mahmud Kaşğari, XIV əsr müəllifi Rəşidəddin, XVII əsr müəllifi Əbülqazi Xan da oğuz boylarının sayının əvvəl 24, sonra isə 26 olduğunu göstərirlər. Maraqlıdır ki, Strabon da "albanların 24-26 tayfanın birləşməsi olduğunu və əvvəllər hər bir tayfanın öz çarı olduğunu" göstərir (*Страбон. "География". Москва-1964. XI-4,6. с.-503*). 24 boy, 24 tayfa, yaxud 24 qəbilə məsələsi başadüşüləndir. Bəs, 25 və 26-cılar özündə nəyi ehtiva edir. Eramızdan əvvəlki VII-VI əsrlərdə sak-kimmer birləşmələrinin Qafqaza, Göyçəyə, sonrakı Albaniya, müasir Azərbaycan ərazisinə dönüşünü qeyd etmişdik. Məsələ burasındadır ki, tarixçilərin prototürklərin axını kimi dəyərləndirdyi bu dönüş eramızdan əvvəl reallaşmış yeganə dönüş deyil. İkinci kütləvi dönüş eramızdan əvəvl IV əsrdə baş vermişdir. Uyğur ellərində yaşayan qədim türk tayfalarından biri, syunnular Orta Asiyadan keçərək Qara dəniz sahillərinə, oradan isə Qafqaza - Göyçə gölünün şərq sahillərindən Zəngəzura qədər olan geniş bir areala yayılmışlar. Bu, Albaniya dövlətinin tarix səhnəsinə çıxma ərəfəsi idi və çox maraqlıdır ki, Albaniyanın ən qüdrətli knyazlıqlarından biri də

məhz Sunnik knyazlığı adlanırdı. Bir sözlə, deyilənlərdən bir daha aydın olur ki, "Kitabi Dədə Qorqud"un yaradıcıları da, Strabon da, Kaşğari də, Rəşidəddin də, Xivəli Əbülqazi Xan da bir-birindən xəbərsiz eyni tarixi olayı, eyni tarixi gerçəkliyi yüz faiz dəqiqliklə təsbitləyiblər. Strabonun alban tayfalarının müxtəlif dilləri olması barədə qeydlərinin digər mənbələrdə yer almamasını da təbii qəbul etmək lazımdır. Min illər boyunca tarixi yürüşlərdə olmuş Oğuz köçlərinin hər birinin dilində və məişətində köçlərinin coğrafiyasına uyğun izlərin qalması təbii idi.

Amma həmin boyların bir-birini tam mənada başa düşməsi qaçılmaz reallıq olduğundan nə "Kitabi Dədə Qorqud"un yaradıcıları, nə də digər türk əsilli tarixçilər qohum tayfaların danışığındakı şivə, dialekt fərqlərini dil ayrılığı kimi qəbul edə bilməzdilər. Həqiqətən də, XV əsrdə uyğur ellərində yaşayan Yusif Balasanqunlu Mahmud Kaşğarinin XI əsrdə yazdığı "Divani lüğət-üt türk", Rəşidəddinin XIV əsrdə yazdığı "Came ət-təvarix" əsərlərini heç bir çətinlik hiss etmədən oxuya bilirdisə; yaxud XVII əsrdə Xivəli Əbulqazi Xan Yusif Balasanqunlunun XV əsrdə uyğur dilində yazdığı "Kutadqu bilik" əsərini sərbəst mütaliə edirdisə, onda bu müəlliflər hansı dil ayrılığından söhbət aça bilərdilər. Strabonun Albaniyada olmadan, yalnız kiminsə səfər təəssüratları əsasında qələmə aldığı "tarix"də isə hər şivənin, hər dialektin, hər boğazın ayrıca bir dil kimi təsniflənməsi həm təbii, həm də məntiqidir. Bütün bu deyilənlərdən sonra Göyçənin eramızdan əvvəlki tarixini təxminən belə ümumiləşdirmək olar:

**Eramızdan əvvəlki IV minillikdən etibarən dünyaya ünsiyyət mədəniyyəti yaymaq missiyası ilə müxtəlif istiqamətlərə hərəkət etmiş Oğuz Ellərinin düşüncə mərkəzi, mütləq anlamda daimi yurdu - müqəddəs ocağı Göyçə hövzəsində yerləşib və onun bu statusu Oğuz Elinin sərbəst manevr imkanlarının mövcudluğunun bütün 2-3 min illik dövrü ərzində, yəni eramızdan əvvəlki XIII əsrə qədər davam edib. Eramızdan əvvəlki XIII - VIII əsrlər ərzində Oğuz xanədanı öz nüfuzunu və təbii olaraq nəzarətindəki məkanların çoxunu itirsə də, Göyçənin yad nəfəsdən qorunması başlıca prioritet olub, yəni müqəddəs ocağın sərhədlərinin pozulmaması naminə qüvvələrin konsentrasiyası prosesi gedib ki, bu da tarixdə sak-kimmer tayfalarının Qafqaza yürüşü kimi təsbitlənib. Eramızdan əvvəlki 730-cu ildə Göyçə hövzəsindəki 23 qala bir bayraq altında birləşdirilərək mərkəzləşdirilmiş müdafiə sistemi yaradılıb ki, bu da Oğuz Elinin dövlətləşmə mərhələsinin başlanğıcı kimi səciyyələnir və bu proses eramızdan əvvəlki IV əsrə qədər, yəni tarix səhnəsinə Albaniya adlı bir dövlətin çıxmasına qədər davam edib. Bu dövlətləşmə prosesinin bu qədər ləng, təxminən 4 əsrlik bir müddət ərzində getməsi isə heç şübhəsiz ki,**

həmin dövrdə regionda hegemon qüvvə kimi çıxış edən Maday (Midiya) dövlətinin və Əhəmənilər imperiyasının bu prosesi hər cür vasitələrlə əngəlləməsi ilə bağlı olub. Belə ki, eramızdan əvvəlki 675-550-ci illərdə Midiya, 550-330-cu illərdə isə Əhəmənilər hər cür dövlətləşmə istəklərinə qarşı xüsusi dözümsüzlük nümayiş etdiriblər. Həmin illərdə özünün tənəzzül dövrünü yaşayan Oğuz xanədanının artıq dövlətləşmə mərhələsini keçmiş, assuriyalılarla döyüşlərdə xüsusi təcrübə qazanmış bu qüvvələrə qarşı müqavimət göstərmək imkanları təbii ki, çox aşağı idi. Bununla belə, tarixi proseslərin gedişində geniş bir areala səpələnərək mütəşəkkilliyini itirmiş oğuz boyları ilk fürsətdən maksimum yararlandılar, birləşərək tarix səhnəsinə yenidən qayıtdılar, amma bu dəfə ALP-AN dövləti kimi. Ən əsası: bu dövlət ilkinliyindən etibarən işğalçı yox, özünümüdafiə mahiyyəti ilə səciyyələndi və Kiçik Asiya - Qafqaz regionunda romalılardan birbaşa asılı vəziyyətə düşməyən yeganə dövlət oldu. Plutarxın həmin dövrə dair tarixi qeydlərinin 45-ci, Appianın qeydlərinin isə 117-ci fəslindəki məlumatlardan aydın olur ki, Alpan (Albaniya) çarı Oroys (bəzi mənbələrdə isə Orus kimi təqdim olunan bu şəxsiyyətin əsl adının Oğus, özünün isə əfsanəvi Oğuz Xanın törəmələrindən olduğu haqqında da mülahizələr mövcuddur -S. V.) Pampeyin təbəələri sırasına düşməmiş, hətta onun tacqoyma mərasimində iştirak etməmişdir ki, bu da "romalıların Albaniya çarlığını öz imperiyalarının əyalətləri sırasına daxil edə bilməmələrinə dəlalət edir" *(Мамедова Ф. Дж. О некоторых вопросах исторической географии Албании с 1 в. до н. э., 8 в. в книге историческая география Азербайджана. Баку-1987.стр.-13,14)*. Eramızdan əvvəlki IV əsrdən eramızın VII əsrinin sonlarına, VIII əsrinin əvvəllərinə qədər mövcud olmuş bu dövlətin cənub sərhədləri Araz çayından keçib və mövcudluğunun bütün dövrləri ərzində, demək olar ki, dəyişməz qalıb (*Movses Kalankatuyskiy. I fəsil, IV hissə*). Həmin dövr ərzində ən çox hərbi təcavüzə məruz qalmış, ən çox döyüşlər getmiş ərazi isə məhz Göyçə, Oğuz Elinin müqəddəs ocağı olub. Belə ki, eramızdan əvvəlki dövrün sonlarında tarix səhnəsinə çıxaraq istilaçı mahiyyətləri ilə şöhrətlənmiş yunanların da, romalıların da, farsların da Göyçənin bir müqəddəs ocaq olaraq Oğuz Elinin taleyindəki və tarixindəki rolundan xəbərləri olduğu üçün, o daim diqqət mərkəzində saxlanırdı.

Konkret olaraq, mənən Alban çarlığı ilə bağlı olsa da, eramızdan əvvəlki III əsrin sonlarından eramızın 226-cı ilinə qədər Göyçə hövzəsində defakto hakimiyyətsizlik olmuş, ərazi gah alban qoşunlarının, gah da Parfiya süvarilərinin nəzarətinə keçmişdir. Eyni vəziyyət 226-651-ci illərdə, sasanilər sülaləsinin hakimiyyət illərində də müşahidə olunmuşdur. Era-

**mızın V əsrində Albaniyanın qüdrətindən əsər-əlamət qalmamışdı və Göyçə gölünün şimalındakı ərazilərin bir qismi, təxminən indiki Toxluca kəndindən Söyüdlü aşırımına qədər olan ərazi Girdiman knyazlığının nəzarətində qalsa da, hövzənin qalan bütün əraziləri mütəmadi olaraq əldən-ələ keçir, gah tarix səhnəsinə yeni hegemon qüvvə kimi atılmaq istəyən ərəb bütpərəstlərinin, gah zərdüştiliyi özününküləşdirmiş fars kahinlərinin, gah ö dövrdə hələlik formalaşma mərhələsi yaşayan xürrəmi inancı tərəfdarlarının, gah da xristianlığın bütün qollarından kəskinliklə fərqlənən alban xristianlığı təbliğatçılarının, yəni zərdüştiliklə xristianlığın sintezindən ibarət olan bir inam məktəbi formalaşdırmaq istəyənlərin təsir dairəsinə düşürdü. Amma bütün bunlar Oğuz Elinin müqəddəs sirlərinin mütləq daşıyıcısı və qoruyucusu olan Göyçə haqq dərvişlərinin inamına əsla xələl gətirə bilmədi: ərəb, fars ruhu Göyçənin pak yaddaşında özünə yer tapmadı, xristianlığın və zərdüştiliyin Göyçədəki əzəli Oğuz kultuna təsiri səthi effektdən o yana keçmədi. Çünki öz tarixi missiyasını yerinə yetirib - yetirməməsindən asılı olmayaraq Oğuz boyları mütəmadi olaraq Göyçəyə dönür, onun müqəddəs ruhunu qorumaq üçün yadellilərlə ölüm-dirim savaşına çıxırdılar.** Düzdür, Azərbaycan tarix elmi bu qəbil döyüşlər barədə məlumat vermir, çünki o döyüşlər tarixi salnamələrdə yer almayıb. Eramızın birinci minilliyində dünyanın bütün xalqlarının istilaçılıq iştahının kükrədiyi bir zamanda bu qəbil döyüşlər, işğalçı mahiyyət daşımayan, yalnız doğma ocağın mütləq həqiqətləri naminə, ideallarn bəkarəti naminə cihada çıxmaq, ölümə getmək inanılmaz bir şey idi. Çünki **o dövrdə bəşəri sivilizasiya Oğuz Elinin bu müqəddəs sirrinin mahiyyətini qavraya biləcək, onları tarixin yaddaşına yaza biləcək qədər kamilləşməmişdi.** Amma bu o demək deyil ki, dünya tarix elminə istiqamət vermək niyyətinə düşmüş ərəblərin, farsların, yunanların, çox-çox sonralar isə ingilislərin diqqətinə düşməyən bu müqəddəs cihadların izləri tarixin yaddaşından tamam pozulub. Əsla! Bu müqəddəs cihadlar, Göyçədən baş qaldırmış Oğuz köçlərinin dar məqamda müqəddəs ocağa - Göyçəyə dönüşü və bu yurda diş qıcırtmış kəffarlarla vuruşması faktdır və bu qəbil cihadlardan biri Oğuz Elinin saf yaddaşında özünə yer tapıb.

Əbubəkr Tehraninin "Kitabi-Diyarbəkriyyə"sində göstərilir ki, **"Bayandur padşahın 29-cu nəsil törəməsi olan Sunqur bəy eramızın VI əsrində Göyçəyə və Alagözə gələrək kəffarla vuruşub".** Sunqur bəyin haradan gəlməsi barədə ətraflı məlumat olmasa da, hər halda Bayandur padşahın Qızılbaşlar ölkəsinin, yəni Oğuz Elinin düşüncə mərkəzi anlamına cələn bir məkanın - Göyçənin şamanı, yolgöstəricisi olduğu, onun

törəmələrinin isə Oğuz həqiqətlərini yaymaq naminə uzun dinc səfərlərə çıxdığı bəllidir. Müqəddəs ocağın dar günündə yurda dönüşün Oğuzlar üçün mütləq hökm olduğunu da tarixi faktlara istinadən aydınlaşdırmışdıq. Sunqur bəyin məhz Göyçəyə dönməsi də bu həqiqətlərin birbaşa təsdiqləyigisi olan faktlardan biridir. Ən əsası odur ki, Oğuz köçlərinin, Oğuz ərənlərinin Göyçəyə müqəddəs dönüşü Sunqur bəylə yekunlaşmır. Sunqur bəyin 7-ci nəsil törəməsi, deməli Bayandur padşahın 36-cı nəsil davamçısı olan **Qıpçaq xanın** VIII əsrin əvvəllərində, onun oğlu **Şəktur xanın**, yəni Bayandur padşahın 37-ci nəsil davamçısının isə Xəlifə Məmun dövründə ərəblərə qarşı döyüşmələri də tarixi faktlardır və bu faktlar da "Kitabi-Diyarbəkriyyə"də təsbitlənib. Göründüyü kimi, ərəb xilafətinə qarşı döyüşlərin ümumi mənzərəsi İqrar Əliyev tarixşünaslığının təqdim etdiyi mənzərədən kəskinliklə fərqlənib. Bəzz qalası, ərəblərin təqdimatında Babəkin dövləti kimi təsniflənən ərazidəki döyüşlər ərəb hegemonluğuna qarşı yeganə döyüş meydanı olmayıb. Bu tarixi döyüşlərin əks-sədası Göyçədən də gəlir və məhz bu reallıq Göyçənin öz kultu, öz dəyərləri, öz həqiqətləri uğrunda bir neçə minillik cihadının tarixi izləridir. Başqa gözlə ifadə etsək, **656-889-cu illər aralığında Göyçə Arran-Azərbaycan torpaqlarının tərkibində ərəblərin nəzarətinə keçsə də, burada ortodoksal islam heç vaxt hakim mövqeyə çıxmayıb.** Və bu fakt da maddi dəlillərlə təsdiqlənir: belə ki, Göyçənin hətta IX-X əsrlərə aid tarixi abidələri arasında islam mədəniyyətinin izləri olduqca kasaddır və o tarixi abidələrin ümumi həcmində oğuz - turk memarlığı nümunəsi olan qeyri-qriqoryan profilli kilsə - məbədlərin xüsusi çəkisi mütləq çoxluq təşkil edir. Ümumiyyətlə isə Oğuz tarixinin bu dövrü olduqca maraqlı, maraqlı olduğu qədər də şərəfli bir dövrdür və eramızın VII-XII əsrlərində baş vermiş hadisələrin, eləcə də ondan sonrakı 300 illik dövr ərzindəki proseslərin məntiqi sistemləşdirilməsi yalnız bu dövrün həqiqətləri çərçivəsində mümkündür. O dövrdə, üst qatda xilafətin dünyaya meydan oxuduğu illər kimi görünən 656-900-cü illər aralığında və ondan sonrakı 200 il ərzində əslində nələr baş verirdi?!. Bu dövr əslində islama qarşı düşmənçilik dövrü yox, Oğuz Elinin öz inanclarını qorumaq, öz mövcudluğunu saxlamaq uğrunda mücadilə mərhələsi idi. Belə ki, **ərəblər xristianlara və yəhudilərə əhli-kitab, yəni dini kitab sahibləri kimi yanaşaraq onları müsəlmanlaşdırmaq üçün zor işlətməsələr də, odu mutləq qüvvə kimi qəbul edən, xüsusi təlimlə - şamançılığın bünövrəsində dayanan ruhi və fiziki kamillik təlimi ilə ölümsüzlük təbliğ edən oğuzlara qarşı münasibətdə xüsusi amansızlıq nümayiş etdirirdilər.** *Babəkin mübarizəsində əsas silah olan*

*XÜRRƏMİLİK də əslində ruhi kamillik prinsiplərinə, yəni insanın ruhən və cismən heç nədən asılı olmadan dilinin, elinin və belinin mütləq sahibi, şəriksiz ağası olması fəlsəfəsinə söykənən ideoloji təlim, bir növ din-bir qövm üçün mütləq yaşam normativləri anlamına gələn əlahiddə din idi ki, onun da kökləri tarixin ən dərin qatlarına, eramızdan əvvəlki IV minilliyə dayanırdı. Başqa sözlə, Oğuzun sirli təliminin bir qolu olan hürrilik tarixən onun təbliğatçısı olan xüsusi qrupun- adları ən qədim kitabələrdə xüsusi qövm, HÜRRİDlər (erməni, fars və yunan mənbələrində isə "xurrid") kimi qeyd olunan Hürri Oğuz dərvişlərinin nəsil davamçılarının şəxsində öz yaşarılığını eramızın VII əsrinə qədər saxlamışdı.* Bu məqam da tariximizin ən ağrılı məqamlarından biridir. Daha doğrusu, bizim tarixçilərimiz, həmişə hər yerdə olduğu kimi, bu məsələyə də o qədər biganəlik göstəriblər ki, nəhayətdə Hürri ifadəsinin rus ağzında eybəcərləşmiş formasını elmi əsas kimi qəbul ediblər. Halbuki eramızdan əvvəlki II minilliyə aid kitabələrdəki qrafikanın transkripsiyasından sonra qədim dünya tarixi bilicilərinin, istisnasız olaraq hamısı sözün əslinin "hwrrt" formasında yazıldığını təsdiqləmişlər. Ermənilər və ermənipərəst alimlər heç bir əsas olmadan "hwrrt" formalı ifadəni "Ararat" kimi tərcümə ediblər və belə bir fantastik elmi nəticə əldə ediblər ki, "hwrrt" Ararat, Ararat isə Urartu deməkdir (*Б.Б.Пиотровский. "Ванское царство-Урарту". стр.-33; К.Патканов "Армянская география VII века". стр.-19*). Bu hələ dözüləsi bir versiyadır. Başqa bir versiyada "hwrrt" ifadəsi mütləq şəkildə "xurrit" kimi oxunur və birmənalı şəkildə göstərilir ki, "xurrit" sözünə ən uyğun ifadə "kürrid" olduğu üçün söhbətin kürdlərdən getdiyini etiraf etmək lazımdır. Bəli, hər kəs "hwrrt" kimi oxunan sözdən öz xeyrinə istifadə etməyə çalışıb. Bu qəbil qapaqapa səbəb nəymiş: bəlkə bir kəlməyə bu qədər iddianın bünövrəsində o kəlmənin heç bir dildə anlaşıqlı olmaması, qədim kitabələrdə bu adla təsniflənən qəbilənin - xalqın konkret məkanının naməlumluğu, qövmün özünün isə tarix səhnəsindən izsiz-soraqsız itməsidir?!. "İqrar Əliyevin yetirməsi olan qədim Azərbaycan biliciləri" çox istərdilər ki, bu məhz belə olsun. Amma... Elmdə bu məsələ kifayət qədər araşdırılıb və birmənalı şəkildə bildirilir ki, **eramızdan əvvəlki Ön Asiyanın etnik substratını təşkil edən xalqın "ARİ təbəqəsi hürrilər adlanırdı və onlar olduqca geniş bir arealda hakim söz sahibi idilər"** (*A.Ungnad. "Subarti". Berlin-Leipzig, 1936*). Qədim dünya tarixi üzrə başqa bir tanınmış mütəxəssis - **Gyotze** isə birmənalı şəkildə göstərir ki, **" assuriyalıların Nairi ölkəsi, müasir tədiqatçıların Urartu dövləti kimi xarakterizə etdiyi məkan hett mətnlərində Hürrilər diyarı kimi təsniflənən yerdən başqa bir şey deyil. Həmin dövrə aid edilən Urar-**

**tu xalqı, Mitan xalqı ifadələri də hürrilərə məkan və zaman fərqi ilə digərlərinin verdiyi adlardır"** (*A.Götze. "Kleinasien-Kulturgeschichte des alten Orients". Berlin-1933; A.Götze. "Hethiter, Churriter und Assyrer". Oslo-1936*). **Q.A.Melikişvili** isə tərəddüdsüz olaraq bildirir ki, Mitan dövlətinin də, eramızdan əvvəlki XIII əsrdə o dövlətin varlığına son qoymuş Assuriya çarlığının da mədəniyyətlərinin bünövrəsində hürri mədəniyyətinin izləri çoxluq təşkil edir. Bu alimin qəti fikrinə görə, **Musasir dövləti deyilən, amma sərhədləri və mövcudluq tarixi konkret müəyyənləşməmiş dövlət də hürrilərin öz allahlarının şərəfinə ucaltdıqları və öz mədəniyyətlərini təlim etdikləri qaladan savayı bir şey deyilimiş**.

Bu ərazilərin qədim tarixində SASPİR soy birləşmələrinin rolundan danışarkən isə tədqiqatçı HÜRRİ və İŞQUZ tayfalarının rolunu xüsusi qeyd edir. Ən diqqətçəkici məqam isə odur ki, Melikişvili hürrilərin ümumən Ön Asiyanın tarixində həlledici rol oynamış bu qalasının yerini dəqiq göstərməyərək, onun haradasa Van və Urmiya göllərinə yaxın olduğu barədə təxminlər irəli sürsə də, bu qalanın hürrilərin Teyşebi allahının təlim mərkəzi olduğunu söyləyərkən tərəddüdlərə əsla ayaq yeri qoymur. Bu tədqqiqatçının fikrincə Teyşebi allahının şərəfinə ucaldılan qalalar bir yox, bir neçə dənə olub. Maraqlı faktlardan biri isə odur ki, **Göyçədəki Kələqıran qalasının bünövrə kitabəsində də bu tikilinin Teyşebi allahının şərəfinə ucaldıldığı açıq mətnlə ifadə olunub** *(А.Меликишвили. Наири-Урарту. гл..2. К вопросу об этническом составе населения Наири-Урарту и соседних с ним областей. стр. 70-147; Г.А.Меликишвили. Мусасир и вопрос о древнейшем очаге урартских племен. ВДИ, 1948-2. стр.,37).*

Nə nəticə hasil olur bu deyilənlərdən?!. Bəlli olur ki, Azərbaycan tarixşünaslığının farslara və ermənilərə istinadən xurridlər kimi təsbitlədiyi qəbilə eramızdan əvvəlki IV-II minilliklərdə Ön Asiyanın taleyində həlledici söz sahibi olmuş qövmün ari silkindən, daha dəqiq ifadə etsək yolgöstərən zümrəsindən - müasir anlamla ziyalı təbəqəsindən savayı bir şey deyilmiş və bu öncül silk xüsusi təlim mərkəzlərində təşəkkül tapırmış. Yəni Oğuz Elinin Allahlarının iradəsinə uyğun təlim mərkəzləri hələ eramızdan əvvəlki II minillikdən etibarən mövcud imiş və o məktəblərin müridləri öz Allahlarının iradəsini təmin etmək üçün xüsusi missiya ilə dünyanın hər yerinə göndərilirlərmiş. Bəs o təlimin əsasında hansı ideya, hansı əsaslar dayanırmış?!. Bu sualın cavabı "Kitabi dədə Qorqud"un alt qatında, Qalın Oğuz Elinin müxtəlif boylarının müxtəlif dövrlərdəki tarixnamələrini bir-biri ilə üzvi surətdə birləşdirən məntiqdədir. Nə deyir bizə Dədə Qorqud kitabələrinin alt qatındakı o məntiq, o eyhamlı mətləb-

lər?!. Deyir ki, **Oğuz Elinin inancında İNSAN Allahın zərrəsi, Allahın hissəsi, Allahın ifadəsidir. Yəni, İnsan Allahın iradəsi ilə Odla Torpağın qüdrətindən yarandığı üçün, O, od kimi əbədi, torpaq qədər yaşarı olmalı, Allahın iradəsinin ifadəçisinə çevrilməli, daha doğrusu, ömür deyilən konkret fəaliyyət imkanından o qədər səmərəli istifadə etməlidir ki, əbədiyaşarlıq əldə etsin.** Heyrət! Min dəfə heyrət! Oğuz Elinin ibtidai təfəkkürünün məhsulu olan bu prinsip kamillik fəlsəfəsinin ən yığcam konsepsiyasıdır. Hələ 4-5 min il öncə bunca təkmil təfəkkürə malik bir qövmün təkamül mərhələlərinin kamilliyi qaçılmaz bir zərurət idi və bu zərurət Oğuz Elinin mütləq həyat normativlərini - ölümsüzlüyə zəkanın qüdrəti, ruhun saflığı, cismin kamilliyi ilə qovuşmaq kimi mütləq şərti önə çəkirdi. Çəkdi də. Bunun belə olduğunu tam aydınlığı ilə dərk etmək üçünsə qədim siklopları müqayisə etmək kifayətdir. Yunan siklopları üçün yalnız GÜC başlıca amildir, yəni Ölümə yalnız fiziki gücün qalib gəlməsi xarakterikdir. Oğuz sikloplarında isə Ruh hər şeydən öndədir, Ölümə qalib gələn Ağıldır, Məhəbbətdir, Ruhdur. Yunan əsatirləri üçün hakimiyyət qovğası xarakterikdir. Oğuznamələrdə isə hakimiyyət davasının, var-dövlət hərisliyinin izləri yoxdur; əksinə Oğuz Eli var - dövləti insanın kamilliyi, mütləq hakimliyi isə "elə, belə , dilə sahib olmaq" yolunda əngəl sayır. Yəni, Oğuzun inancına görə var - dövləti qorumağa meylli adamın ruhən yeniləşməsi, mütləq hakimliyinə əmin adamın elin qayğıları ilə yaşaması, nəslinin saflığı qayğısına qalması, dilinin yaşarılığı naminə mücadilə aparması, onun yad dillərin təsiri altına düşməməsi naminə sayıqlıq nümayiş etdirməsi sadəcə mümkünsüzdür. Bu səbəbdəndir ki, Oğuz eposlarında başçını öz boyundan, öz soyundan olan ərlər - ərənlər mütəmadi sınağa çəkirlər. Bu səbəbdəndir ki, Qazan xan hər il ailəsinin əlindən tutub evini tərk edir və var - dövlətini elin sərəncamına verərək, yağmaladır. Bu prinsip müasir Azər Türkü üçün də bir növ mütləq normativdir; hər il torpaq oyananda, yəni mövcudiyyətin davamı üçün real şərait yarananda, evdə köhnə nə varsa oda tutulması, artıq azuqədən qohum - qonşuya pay ayrılması bir ənənə kimi bu gün də yaşarıdır və Oğuz Elinin 4-5 min illik qanunlarının qan yaddaşımızda yaşamasının əyani təzahürüdür. Mövzumuza birbaşa dəxli olmasa da, yeri gəlmişkən maraqlı bir məlumata diqqət yetirmək heç də pis olmazdı: *Himalay zirvələrində bugünkü dünyanın qayğılarından tam uzaq bir qəbilə yaşayır. Bugünkü sivilizasiyanın qayğıları onlar üçün tam mənada yaddır. Dilləri də müasir dillərin heç birinə bənzəmir. Onların konkret məskənlərini müəyyənləşdirmək də hələlik kimsəyə müyəssər olmayıb. Onlar yalnız ildə bir dəfə, təxminən aprel ayının sonlarında, yəni Himalay yamaclarında torpaq oy-*

*anan, təbiət təzələnən vaxt, elliklə peyda olur, qışdan artıq qalmış nələri varsa hamısını ətraf obaların kənarına ataraq, gəldikləri kimi qəflətən də qeybə çəkilirlər. Nə qədər qəribə olsa da, dil və din fərqinə rəğmən Himalay ətrafı ellərin, istisnasız olaraq hamısında bu qəribə qəbiləni "HUNZA-KUT"lar, yaxud da "HUNAZQUT"lar adlandırırlar. Bu adların qədim türkcədə "xoşbəxt hun yazərləri" anlamına gəlməsinə istinadən həmin qəbilənin 3-4 min əvvəl Oğuz Elindən şərqə köç etmiş və ilişib Himalay dağlarında qalmış Oğuz tayfalarından biri olmasını iddia etmək fikrindən uzaq olsaq da, hər halda Dədə Qorqud oğuzlarının yaşam prinsipləri ilə Hunazqutların yaşam tərzinin oxşarlığı diqqət çəkən məqamdır.* Bütün bunları söyləməkdə məqsədimiz Oğuz Elinin mövcudiyyət prinsiplərinin mütləqliyini bir daha nəzərə çatdırmaq idi. Bəli, o prinsiplər hələ Oğuz Xanın öz zamanından etibarən mütləq norma həddinə, yəni ali qanun səviyyəsinə yüksələrək MÜTLƏQ İNANCa, ETİQAD EHKAMIna, başqa sözlə DİNə çevrilmişdi. Bu dinin əsas parametrləri isə ODun qüdrətinə, TORPAĞın müqəddəsliyinə, RUHun azadlığına, CİSMin sağlamlığına, NƏFSin toxluğuna; ən nəhayət, İNSANın kamilliyinə - ALLAHA QOVUŞUB ÖLÜMSÜZLÜK MƏRTƏBƏSİNƏ YÜKSƏLMƏSİnin, İLAHİLƏŞMƏSİnin mümkünlüyünə MÜTLƏQ İNAM idi. Bu mütləq inamın diqtə etdiyi səciyyələrdən biri FƏRDİN HÜSN GÖZƏLLİYİdir. Yəni OĞUZ İNANCI üçün surətin gözəlliyi, sifət cizgilərinin tənasübü başlıca şərtlərdən biri sayılırdı ki, o da "zahiri gözəllik mənəvi gözəlliyin ifadəsidir" prinsipinə söykənirdi. OĞUZ İNANCIna görə yalnız və yalnız daxilən kamilləşən, yəni söz qüdrətinə tapınan insan həqiqəti dava ilə yox, sözlə bərqərar etməyə, deməli əməlisalehlik səviyyəsinə yüksəlməyə, beləliklə də özünə və elinə ölümsüzlük qazanmağa qadir idi. Bu məqama yetə bilməyin yeganə vasitəsi isə təbii ki, yalnız söz ola bilərdi; yəni kamilliyn yolu bəşər övladının təcrübəsini öyrənməkdən, öyrətməkdən keçir. Bu həqiqətin dərki oğuznamələrin ən görünən tərəfidir, sanki Söz oğuz dünyasının Bayandır xanıdır  və yalana tapınmaq Söz tərəfindən mütləq cəzalandırılır. Bir sözlə, Oğuz cəmiyyətinin həqiqi üzvü olmağın əsas şərtlərindən biri Sözə ehtiram və itaətdir. Bu səbəbdən də Dədə Qorqud ölümə qalib gəlməyin mümkünlüyünü öz qövmünün şüuruna zərə-zərrə, qətrə-qətrə yeridirdi və...İnsan nəfsinə, o cümlədən bir xalqın, bir zümrənin, bir nəslin hakim mövqeyinin təminatçısı kimi ortaya atılan yeni dinlərə - həm xristianlığa, həm də İslama qarşı mücadiləyə çıxan Oğuzun oğul törəməsi Sunqur bəy, Əbu İmran bəy, Səkrək oğlu Cavidan, yaxud da Babək deyildi. Oğuz Elinin ali zümrəsinin - HÜRRİlərin ruhunda döyüşkənlik havasına köklənərək yeni yaranan dinlərə qarşı mücadiləyə

qalxan məhz OĞUZ ELİNİN MÜQƏDDƏS DİNİ - Elin, Dilin, Nəslin azadlığının Mütləqliyinə Müqəddəs İnanc idi...Düzdür, ərəb mənbələri yəhudilərə və ermənilərə qarşı dözümlülük müqabilində digər xalqlara münasibətdə nümayiş etdidikləri əzazilliyi ört - basdır etmək üçün Babək hərəkatı haqqında özlərinə sərfəli şəkildə məlumatlar yaymış, Oğuz Elinin xilafətə qarşı mübarizəsini bir dəstə əxlaqsızın əməli kimi qələmə verməyə cəhd etmişlər. Amma məsələnin mahiyyətində tamam başqa nəsnənin dayandığını - hürrəmilərin mücadiləsinin sırf ideoloji əsaslara dayanan milli - azadlıq mübarizəsi olduğunu və bu mübarizənin kütləvi xarakter daşıdığını, hətta digər millətlər tərəfindən belə müdafiə olunduğunu təsdiqləyən tarixi faktlar kifayət qədərdir. Ərəb məxəzlərində, xüsusən də Məhəmməd Üvfinin "Cavami əl-hekayət", Əbu Əli Miskəveyhin "Təcarib əl-ümən", Əb-ül-fəzl Bəyhəqinin "Tarixi Məsudi", Yaqut Həməvinin "Möcəm əl-üdəba" əsərlərində belə bir rəy yaradılmasına çalışılır ki, güya onlar **"təkcə xürrəmidinlərlə yox, eyni zamanda həm də məzdəkilərin, batinlərin, qızılbayraqların birləşmiş qüvvələri ilə vuruşublar".** Əslində isə ərəblərin bu manevri tarixin özünü yanıltmağa, məsələnin mahiyyətini təhrif etməyə; geniş bir arealda yayılmış mükəmməl bir din olduğu reallığını danmaqla hürrəmiliyin əhəmiyyətini qayda - qanuna tabe olmayan bir dəstə adamın iğtişaş yaratmaq cəhdi səviyyəsinə qədər ucuzlaşdırmaq məqsədinə xidmət edən cılız taktikadan savayı bir şey deyil. Belə ki, məzdəkilər, batinlər, yaxud qızılbaşlar nə ayrıca bir qövm, nə ayrı din təəssübkeşləri olmayıblar. Hətta Babəkə aşkar nifrəti əsərlərinin ruhuna hopmuş Nizam-əl-Mülk kimi alim belə son nəticədə etiraf edir ki, **"məzdəkilərin, batinilərin, qızılbayraqların və xürrəmidinlərin məsləkləri də, dinləri də eynidir"**. Bu, ərəb məxəzlərində əks olunan bəlkə də yeganə mütləq həqiqətdir. **Seyid Mürtəza ibn-Dan Həsən Razi "Təbsirət-əl-əvam fi mərifəti məqalət-əl-ənam"** kitabında bu məsələyə aydınlıq gətirərək, konkret şəkildə bildirir ki, **"...bu xalqı hər yerdə bir adla çağırırdılar. İsfahan və nahiyələrində xürrəmiyələr, Qəzvin və Reydə məzdəkilər, Azərbaycanın özündə qovliyə, Orta Asiyada isə muğlar deyilən bu xalqın adət-ənənələri də, dini təsəvvürləri də eynidir".** Bəs bu dinin mahiyyətində nə dururdu? Hürrəmiliyin mahiyyətində tənasüx, yəni ruhun ölməzliyi ideyası durur və o, ruhun əbədiyaşarlığının elmin köməyi ilə mümkünlüyünü təbliğ edir. Bu prinsip hürrəmiliyin silahlı mübarizə metoduna keçməsindən min-min il öncə Oğuzun Elinin gizli təlimlərinin əsasında dayanmış bir prinsipdir. Amma o açıq təbliğ olunmurdu, çünki Oğuz övliyaları belə düşünürdülər ki, kamillik təliğat nəticəsində yetilən fəzilət məqamı deyil; ruhun ölməz-

liyinə inamı hər kəs özü öz zəhməti hesabına əldə etməlidir. Oğuz Eli bu prinsipi təbliğ etmirdi, əməldə yaşadırdı. Batinlik də məhz burdan doğurdu. Bu təlimə uyğun tərbiyə verilən ocaqlarda əyləşən övliyalar da heç zaman dini rəhbər funksiyası yerinə yetirmirdilər; onlar daim xalqın arasında olan, onlara nümunə göstərən dərrakəli insanlar, Başları Qızıldan Qiymətli olan övliyalar - Qızılbaşlar idilər. **Ərəb təfəkkürünün dünyanı sözün qüdrəti ilə fəth etməyin mümkünlüyünü dərk etməsindən ən azı 3000 il əvvəl bu kamillik zirvəsinə yetmiş bir qövm idi Oğuz Eli və heç şübhəsiz ki, ərəblərin Oğuza qarşı amansızlığının bünövrəsində də bu tarixi reallıqlardan doğan qısqanclıq dayanırdı.** Belə olmasaydı eyni prinsipə, Oğuz inancından götürülmüş "ruhun elm yolu ilə ölümsüzlük qazanması" prinsipinə söykənən İsa təliminə qarşı da eyni amansızlıq müşahidə olunardı ərəblərin taktikasında. Amma, görünür o zaman İsa təlimi ərəblər üçün o qədər də qorxulu deyilmiş; Oğuz Elinin inancı isə onların dinini həqiqətən təhlükə ilə üz-üzə qoya biləcək qədər qüdrətliymiş. Hər halda VII-IX əsrlərdə ərəblərin nümayiş etdirdiyi əzazilliyin başqa izahı sadəcə yoxdur. Və görünür, real tarixi şəraiti düzgün qiymətləndirməyi bacaran ərəb alimləri oğuzlardan ehtiyatlanmaqda haradasa haqlı imişlər ki, tarix də bunu təsdiq etdi. Özgə dinlərdən olanlardan - yəhudilərdən də, xristianlardan da İslamı könüllü qəbul edənlər çox oldu. Oğuz ellərində isə İslamın qəbulu yalnız qılıncın qüdrətinə söykəndi və...Min illər sonra belə islam təbəəsi olmuş Oğuz Elində Oda sitayiş, ruhun azadlığına, ölümsüzlüyünə inam digər dəyərlərdən daha güclüdür, daha yaşarıdır. Bəli, hürrəmilik bir din, bir müqəddəs inam idi. Belə olmasaydı, daha doğrusu o ərəblərin qələmə verdiyi kimi "bir dəstə zinanın dünyanın təamlarından ləzzət almaq üçün uydurduğu fitnə" olsaydı, Babəkin ölümü elə HÜRRİ OĞUZ TƏLİMinin də süqutu olardı. Amma olmadı. Hürrəmilik hətta Babəkin ölümündən sonra belə nə az, nə çox- 300 il ərzində ərəbləri lərzəyə saldı. 1112- 1167-ci illərdə yaşamış **Səmani** özünün "Kitab-əl-ənsab" əsərində yazır ki, **"...hazırda babəkilərin böyük bir qismi yaşamaqdadır, bunlar həmin hürrilərdir"**. **Məhəmməd Üvfi "Cəvami-əl-hekayət və ləvami-əl-rəvayət"** kitabında 1118-1135-ci illlərdə hakimiyyətdə olan xəlifə Müstərşid - billah zamanından söhbət açarkən göstərir ki, **"...hürrəmilər Azərbaycanda yenə üsyan qaldırdılar..."**. Bəli, Hürri təlimi Oğuz zamanından gələn bir Müqəddəs İnanc idi və o mövcudluğunun bütün dövrlərində gizli bir təlim olaraq dünyəvi fəthə yox, könüllərin fəthinə xidmət edib; ruhun ölməzliyinə, yəni elmi təkamül yolu ilə izlərini tarixin yaddaşına yazmaq kimi ali bir məqsədə xidmət edib. İnsanın kamilliyi onun üçün başlıca meyar idi və o

təlim İnsanda Allahın zərrəsini görürdü. İnsanın sifətindəki cizgilərdə məna axtarmaq da, əslində burdan gəlirdi, yəni hürrilərin təbirincə, **"mənən kamil insanın siması elə İlahi nur demək idi"** ki, bu fəlsəfi kateqoriya da sonunda hürufilik kimi təkmil bir sistemin ortaya çıxmasına səbəb oldu. Daha doğrusu, ərəblərin yeni dininin dünyanı qan-qadaya bələcəyi həqiqətini dərk edən Oğuz Elinin qüdrətli zəka sahibləri xalqı lüzümsuz qırğına verməmək üçün yeni bir taktika seçdi; silahlı mübarizə metodundan əl çəkərək, islama qarşı mübarizədə islamın öz fəndlərindən yararlanmağı - "parçala, hökm sür" prinsipindən istifadəni məqbul saydı. Bu, islama müxalif olan təsəvvüf cərəyanının - **Sufizm**in meydana çıxması idi. Sufizm konsepsiyasının məntiqi nəticəsi isə, bəlli olduğu kimi, "ƏNƏL HƏQQ" çağırışı - ilkinliyindən bəri Oğuz Eli üçün mütləq olan prinsipin "Allah mənim içimdədir" şəkilli ifadəsi idi. Ərəblər İslam üçün real təhlükə olan "ƏNƏL HƏQQ" tezisinin ilk müəllifini - Oğuz övliyası Mənsur Həllacı 922-ci ildə xüsusi işgəncələrlə edam etdilər. Amma bu dəhşətli edam da Oğuzun inancını yenmək qüdrətində olmadı. Cəmi bir əsr ərzində sufizmin 12 qolu təşəkkül tapdı. Yalnız bundan sonra ərəblər işin son dərəcə çətinliyini nəzərə alaraq, sufizmin bütün qollarına qarşı eyni zamanda mübarizə aparmağın mümkünsüzlüyünü dərk etdilər və XI əsrin qüdrətli alimlərindən olan **Əl-Qazali** sufizmin rəsmi inslamın bir qolu olmasını təsdiqləyən nəzəriyyə hazırladı. Amma...Sufiliyin 12 qolundan yalnız 10 - nu məqbul hesab edilmiş, hürufilik, yəni əsası hürri təlimindən gələn və kamil insanın simasında hərfi ifadələrlə Allahın cizgilərini axtaran təlim haram buyurulmuşdu. Bəli, İslamın mövcudluğunun 1500 illik tarixi ərzində onun ən güclü rəqibi Oğuz İnancları - Hürri təlimi olmuşdur ki, İslam ideoloqları bu mübarizəni daim alt qaltda gizlətməklə özlərinə əlavə problem yaratmamağa çalışmışlar. Amma... Alt qatda hansı niyyətlərin, hansı istəklərin olmasından asılı olmayaraq, öz müqəddəs missiyaları ilə tarixin müxtəlif dönəmlərində müxtəlif məkanlara yürüş etmiş OĞUZ köçləri zaman-zaman baş qaldıraraq, Oğuz İnancı naminə müqəddəs mücadiləyə qatılmışlar.

Bəli, eramızın VII-VIII əsrlərində Oğuz Elinin müqəddəs inancının təlim mərkəzi səviyyəsinə yüksəlmiş Bəzz qalasında qərarlaşmış dərviş ordeni- elinin, dilinin, ruhunun azadlığını yaşamağın ilkin şərti kimi qəbul edən insanların mütəşəkkil birliyi istilaçı - işğalçı mahiyyəti ilə fərqlənən dinlərə, o cümlədən xristianlığa və islama qarşı eyni intensivliklə mübarizə aparırdı. Məhz bu reallıq islamla xristianlığın mövqelərini müəyyən mənada yaxınlaşdırır, onların hər ikisininin xürrəmidinliyə (əslində hürri Oğuz təliminə) qarşı mübarizədə birləşməsinə zəmin yaradırdı. Yaratdı

da. 661-ci ildə erməni katolikosu Nersesin iştirakı ilə naxararların yığıncağı çağrıldı və həmin yığıncaqda ermənilər ərəblərin xeyrinə fəalliyyət göstərmək barədə qərar qəbul etdilər *(Тер-Гевондян А.Н. Армения и арабский халифат. Ереван-1977. стр.48).* Təbii ki, erməni katolikosu ərəblərin dininin xristianlığın qriqorian qolu ilə əsla uyuşmadığının fərqindəydi və ərəblərin xeyrinə fəalliyət barədə qərar qəbul etməklə, əslində iki hədəfi nişan alırdı; bu yolla həm ərəblərin ermənilərə münasibətini loyallaşdırmaq, eyni zamanda həm Alban xristianlığının, həm də Qriqorian xristianlığının Ön Asiya və Qafqazda yayılmasını birmənalı şəkildə əngəlləyən, üstəlik Alban vənglərini az qala müqəddəs oğuz Ocaqlarına, oda sitayiş məbədlərinə çevirən Oğuz İnancına qarşı mübarizədə ərəblərin qüvvəsindən yararlanmaq şansı əldə etmək istəyirdi. Və nə yazıq ki, ermənilər bu niyyətlərinə qismən yox, sözün tam mənasında nail oldular. **Xəlifə Əbd-ül-Malik**in fərmanı ilə VII əsrin sonlarından etibarən ALPAN məbədləri erməni Qriqorian kilsəsindən asılı vəziyyətə düşdü. Bu, 642-ci ildə Sasani ordusunu yenərək Qədim Oğuz Elinin güneyində Azərbaycana, quzeyində isə Albaniyaya nüfuz imkanı qazanmış ərəblərin ən böyük səhvi, ən bağışlanmaz günahı idi ki, məhz bu günah da çox əsrlik qan-qadaya səbəb oldu. 776-cı ildən etibarən, yəni erməni katolikosu Nersesin təklifinin xəlifə tərəfindən qəbulundan sonra Oğuz İnancına qarşı bir əsrlik səlib yürüşünə cavab olaraq, ərəb - erməni mənbələrində qorxulu qüvvə kimi, xürrəmilər kimi təsniflənən HÜRRİlərin İslama və Qriqorian kilsəsinə qarşı müqədədəs cihadı, silahlı müqaviməti başladı və bu mücadilə düz 61 il davam etdi. Bu şərəfli mübarizə tarixinin təxminən 9 ilinə Cavidan, son 22 ilinə isə Babək başçılıq etdi. **Və çox ehtimal ki, Oğuz Elinin düşüncə mərkəzi - müqəddəs ocağı olan Göyçədən dünyaya səpələnmiş oğuz köçlərinin sirr kimi yalnız yaddaşlarda yaşayan tarixini, sonradan "Kitabi Dədəm Qorqud ala lisani taifeyi Oğuzan" kimi tanınan oğuznamələr toplusunu yazıya köçürmək zərurəti də məhz o vaxt, eramızın VII-VIII əsrlərində həm xristian, həm islam ideologiyasına söykənən dövlətləşmə və dini zəminli siyasi qütbləşmənin kəskinləşdiyi dövrdə əlahiddə kultun, oğuz kultunun yaşam imkanlarının məhdudlaşması həqiqəti dərk edildikdən sonra yaranıb.** Bu isə "Kitabi Dədə Qorqud"a sadəcə ədəbiyyatımızın şah abidəsi kimi yox, ümumən tariximizin bazisi kimi baxılmasını şərtləndirir. Və o şah abidə birmənalı şəkildə bildirir ki, xristianlıq da, islam da Göyçə Oğuz xanədanının taleyində səthi rol oynamış, nəinki V-X əsrlərdə, hətta XII-XV əsrlərdə belə Göyçə mühitində HÜRRİ Oğuz təlimi hakim mövqedə olmuşdur.

"Göyçə ərazisindəki müstəqil Oğuz mədəniyyəti və Oğuz dini mərkəzi" ilə bağlı mülahizələr kimlərisə qane etməyə, kimlərisə elmi baxışlar sistemindən kənar mülahizə kimi qıcıqlandıra bilər. Amma Göyçəni Arşakilərin, Şahnazaryanların tabeliyinə "sırıyanlar", "Uca baylar yurdu" kimi tam anlaqlı bir ifadəni - "Azərbaycan" kəlməsini farsın, ərəbin Azərbaycan türkcəsi ilə əsla uyuşmayan "əndrabadi" sözlərinin əzintisi, tapdanmış, zorlanmış variantı kimi təqdim edənlər ilk növbədə öz "elmi" fərziyyələrinin nə dərəcədə əsaslı olduğuna diqqət yetirmək və bir neçə məntiqi suala cavab tapmaq məcburiyyətindədirlər:

Əvvəla, Göyçədə xristianlıq 7-8, ortodoksal islam isə 2-3 əsr ərzində hökmran mövqedə olubsa, onda Göyçədə mövcud olan I - X əsrlərə məxsus tarixi - arxeoloji maddi mədəniyyət abidələrinini heç olmasa bircəsində niyə Alban mədəniyyətindən kənar xristianlığın və İslamın izlərinə rast gəlinmir?

İkincisi, Göyçə hər hansı hakim sülalə tərəfindən işğal edilibsə, onda bu zəfər yürüşləri Göyçənin el yaddaşı bir yana, həmin sülalələrin tarixində niyə əks olunmayıb?

Üçüncüsü, mədənlərin şaxta üsulu ilə istismarı ərəblərin adıyla bağlandığı və bir elmi qol olaraq tarixi 1200-1300 illə ölçüldüyü halda, Göyçədə tam elmi əsaslarla mövcud olmuş şaxta üsulu ilə filizçıxarmanın və mükəmməl qızıl istehsalı texnologiyasının 2000 illik tarixi nəylə izah olunur? Axı Göyçədə qızıl yataqları hazır əlvan metal mədəni kimi xarakterizə olunmur, filizdən qızılın ayrılması isə mürəkkəb texnologiya olmaqla, işlənməsi mükəmməl bilik tələb edir. 2000 il əvvəl bu yetkinlik səviyyəsində olmuş bir millətin o dövr üçün heç nəyi olmayan hansısa "yan"ın, yaxud da "əl-ərəbiyyə"nin mənəvi əsarətinə düşməsi absurd deyilmi?

Bu suallar təbii ki, cavabını gözləyən məqamlardır və ortada heç bir dəlil- sübut, adi bir eyham belə olmadan kiminsə tarix yaradıcılığının bütövlüyü naminə bütöv bir mahalın tarixinin ərəblərlə, ermənilərlə, islam, yaxud qriqorian kilsəsi ilə bağlanması öz söykökünə xəyanətdir. Digər tərəfdən də ən yeni tarix bəşəri sivilizasiyanın tarixinə dair xristian xronologiyasının "təkamül məntiqi"ni darmadağın edən yüzlərlə faktın şahididir. Müasir texnologiyanın Marsa səyahət imkanı verdiyi XX yüzillikdə, min illər boyunca öz ocağında dünyadan təcrid olunmuş qaydada yaşamış onlarca qəbilənin aşkarlanması, həmin qəbilələrin mütləq mədəniyyətinin əsrlər boyunca sirr - müəmma kimi qəbul edilmiş bir çox tarixi həqiqətlərə aydınlıq gətirməsi; yaşadıqları ərazinin müasir düşüncə tərzindən və hansı dövlətin ərazisinə şamil edilməsindən asılı olmayaraq, o dövlətlərin ictimai-siyasi gerçəkliklərinin həmin qəbilələrin mütləq

mədəniyyətinə heç bir şəkildə müdaxilə edə bilməməsi qaçılması mümkün olmayan reallıqdır. Azərbaycan tarixinin özü də bu qəbil nümunələrlə doludur. İslamın tüğyan etdiyi Azərbaycanda adi bir kənd səviyyəsində, yəni Nicin timsalında Alban xristianlığı, alban mədəniyyətinin ünsürləri hətta sovet dönəminə qədər yaşarı ola bilirsə, tək bir kəndin timsalında bənzərsiz Xınalıq mədəniyyətini, Lahıc yaşam tərzini qoruyub saxlamaq mümkün olursa, Oğuz Elinin müqəddəs ocağı, düşüncə mərkəzi kimi minillik ənənələri olan Göyçənin eramızın əvvəllərində 700-800 illik bir dövr ərzində öz sirrini, ənənəvi yaşayış tərzini qoruyub saxlaması niyə qəribə görünməlidir ki?!. Ən nəhayət! İndiki Ermənistan ərazisində mövcud olduğu ehtimal edilən heç bir "tarixi dövlət"in "arxivləri"ndə Göyçənin zəbti, Göyçənin təbəəçiliyi barədə bircə cümlə yoxdursa, niyə Göyçə "könüllü" şəkildə hansısa dövlətin ərazisi kimi qəbul edilməli, tarixi təslimçi mövqedən xarakterizə olunmalıdır?!.

Və bunca sualların heç birinə heç kim cavab tapa bilmirsə, məxsusi dövlət quruluşu olmasa belə, **Göyçə ərazisində mövcud olmuş Oğuz mədəniyyəti və Oğuz HÜRRİ təlimi mərkəzinin eramızın VIII-X əsrlərinə qədər yaşaması mütləq həqiqət kimi qəbul edilməlidir.** Azərbaycan ərazisində bütöv dövlət ideologiyasının - səfəviyyə təliminin islam pərdəsi altında xüsusi cərəyan kimi inkişafını da, bütöv dövlətçilik naminə tarixi yürüşləri də məhz Oğuz Elinə məxsus HÜRRİ təliminin, eləcə də azad ruh, azad məkan, toxunulmaz sərhəd prinsiplərinə söykənən ənənələrin yaşarılığı kimi dəyərləndirmək lazım gəlir. Başqa sözlə, dinin yeni nizamlayıcı kimi çıxış etdiyi VIII - X əsrlərdə Oğuz düşüncəsinin eyni taktikadan, islamdan ali məqsəd naminə vasitə kimi istifadə etməsinin izləri, hürufilikdə olduğu kimi, səfəviyyə təlimində də açıq-aşkardır. Və bu təlimin məhz Ərdəbildə təşəkkül tapması da təsadüfi deyil. Belə ki, Ərdəbil Hürri təliminin yaşarı olduğu ən qaynar məkanlardan-Babəkin Bəzz dövlətinin ərazisindəki xüsusi təlim mərkəzlərindən biri idi. Şeyx Səfiəddinin məhz belə bir mərkəzdə, Oğuz HÜRRİ təlimi ilə İslama müxalif sufi cərəyanının eyni dərəcədə intensivliklə inkişaf etdiyi bir ocaqda yetişməsi təbii qanunauyğunluq idi. Şeyx Səfiəddin təliminin uzun illər, az qala 300 illik bir dövr ərzində batinliyi də məhz Hürri təlimindən qaynaqlanan bir məsələdir. Təlim qədərincə yayılıb tərəfdarlar toplamamış əsl mahiyyətinin açılması Oğuz Elinin əzəli qüdrətini bərpa etmək niyyətlərini yarımçıq qoya bilərdi. Odur ki, Ərdəbil şeyxlərinin zahirən islamçı, daxilən Hürri mahiyyəti Şeyx Cüneydə qədər gizli qaldı. Yalnız onun dövründə, XV əsrdə Oğuz Elinin əzəli qüdrətinin bərpası üçün real şərait yaranmışdı ki, məhz bu tarixi andan etibarən də səfəviyyə

öz əsl mahiyyətini ortaya qoymağa başladı. Bu gün bir sıra elmi dairələr, ələlxüsus farspərəst və ərəbpərəst dairələr Səfəviyyə təlimini fanatik dini təəsübkeşlik kimi qələm verməyə çalışırlar. Amma... Səfəvilər sözün mütləq anlamında fanatik olsaydılar, onda Şeyx Cüneyd sünni Uzun Həsənin bacısı Xədicə bəyimlə, Şeyx Heydər sünni Uzun Həsənin Trabzon xristian hökmdarının qızı Despinə xatundan olan övladı Marta ilə - Ələmşahbəyimlə evlənməzdidlər. Onlar nə ortodoksal islam, nə də şiəlik fanatiki deyildilər; əksinə yaranmış tarixi şəraitdə islamdan maksimum bəhrələnərək Oğuz Hürri İnancını bərpa etmək istəyən fədailər idilər. Akademik **İ.P.Petruşevski** məhz bu xüsusa diqqət yetirərək deyirdi ki, " **Şeyx Cüneydin və Şeyx Heydərin siyasi maraqları şübhəsiz ki, dini maraqlarından üstün idi. Şübhə yoxdur ki, hər iki şeyx Azərbaycanı vahid bayraq altında birləşdirmək üçün şiəlikdən ideoloji silah kimi istifadə edirdilər..."** *(И.П.Петрушевский. "Государства Азербайджана в XVI в". Баку-1949, стр.-207).* Bütövlük, ruhi kamillik, mütləq həqiqət kimi prinsiplərə söykənən Oğuz təliminin izləri səfəviyyə təlimi ilə yanaşı Qaraqoyunlu xanədanının ideoloji əsasını əks etdirən Yunus Əmrə təlimində də, Yəsəvi dərvişliyində də, Nəimi, Nəsimi həqiqətində də hiss olunur və kimin necə yozmasından asılı olmayaraq, indiyədək bir - birindən təcrid olunmuş şəkildə öyrənilən bu cərəyanlarla "Kitabi Dədə Qorqud"dan gələn, elin bütövlüyü naminə yorulmaz fəaliyyətdə olan ozanlığın aşkar bağlılığı var. Bu təlimlərin ən kamil mürşüdlərinin anlamında Hələbdən Altaya qədər geniş bir ərazinin VƏTƏN kimi təsniflənməsi də söhbətimizin əvvəlində irəli sürdüyümüz hipotezin - Göyçənin Oğuz Elinin düşüncə mərkəzi olduğu və eramızın təxminən VIII - X əsrlərində bu müqəddəs ocağı yad təsirlərdən qorumaq mümkün olmayanda, vaxtilə Göyçədən köç etmiş tarixi missiya daşıyıcılarının vətənin bütövlüyü naminə geri dönmələri, tarixi mübarizəyə başlamaları barədə mülahizələrin təsdiqinə yönəlik faktlar kimi çıxış edir. Bu təlimlərin müəyyən tarixi məqamlarda toqquşması isə tarixi missiya daşıyıcılarının İç Oğuzdan köç etmələrinin zaman fərqi və coğrafi təyinatı ilə şərtlənir. Bununla belə, hamısında məqsədin eyniliyi və Oğuzun HÜRRİ İnancının izləri danılması mümkün olmayan gerçəklikdir. Göyçə Oğuz Xanədanının süqutundan sonra bu yurdun taleyindəkit qəribəlik - ərazicə tabeçiliyi ilə inanc baxımından mənsubluğu arasındakı fərq də məhz bu gerçəkliklə şərtlənir. Tarixi faktların fonunda tam çılpaqlığı ilə müşahidə olunan bu dualizmin ümumi mənzərəsi isə belədir.

Eramızdan əvvəlki IV əsrdə 3000 illik ənənələri olan Oğuz Xanədanının, Ulu Ərlər Yurdunun xərabələri üzərində bərpa edilən yeni qüdrətli

dövlətin, ALPAN dövlətinin təşəkkülündə Göyçə çarlıqlarının, o vaxtadək müstəqil fəalliyyət göstərən 23 qalanın və onları məcburən birləşdirən ayrılmış oğuz boyu hökmdarının, sonradan göyçəlilər tərəfindən ayrımlar kimi təsniflənmiş elin -BAYAN qalasının hökmdarının müstəsna xidmətlərindən tarixi faktlara əsasən söhbət açmışdıq. Onu da qeyd etmişdik ki, eramızın V əsrində Göyçənin şimal əraziləri Albaniyanın tərkibində olsa da, indiki coğrafi anlamla Zod kəndindən başlamış Çubuxluya qədər olan ərazilər, yəni Göyçə gölü hövzəsinin cənub və qərb qalaları Azərbaycan dövlətinin tabeçiliyində idi. Alpan dövlətinin banisi olan bir qövmün bu dövlətin sərhədlərindən kənarda qalması nə ilə izah oluna bilərdi? Yalnız və yalnız inanc məsələsi ilə. Belə ki, V əsrdə artıq Albaniyada xristian inancı hakim mövqeyə çıxmışdı və təbii ki, bu Oğuz Elinin mədəniyyət və inanc mərkəzi olan Göyçənin tarixi missiyası ilə əsla uyuşmurdu. Oğuz Elinin yayıldığı arealın digər hissəsində - Azərbaycanda isə sasanilərin nüfuzu xristianlığa əl-qol açmaq imkanı vermirdi. Bu reallıq Göyçədə əzəli bəkarəti ilə yaşayan HÜRRİ inancını xristianlığın təsirindən qorumaq üçün əlavə şans versə də, hər halda sasanilərin təsiri də yan keçmirdi. Ərəb xilafətinin Qafqazda və Kiçik Asiyada meydan suladığı 656-889-cu illərdə isə həm Azərbaycanın, həm də Albaniyanın ərazisi formal olaraq ərəblərin nəzarətində olsa da, məhz xürrəmilərin Bəzz - Ərdəil - İsfahan boyunca açdığı cəbhə islamın Göyçəyə tam nüfuzuna sipər çəkmişdi. Sacilərin 889-942-ci illərdəki 53, Salarilərin 941- 981-ci illərdəki 40 illik hegemonluğu zamanı Göyçənin bu hakimiyyətlərin təsir dairəsinə düşməsi barədə də tarixi qaynaqlarda heç bir məlumat yoxdur. Məhz bu reallıq qətiyyətlə deməyə əsas verir ki, 889-cu ildən 981-ci ilə qədərki bir əsrlik dövr ərzində Göyçə öz əvvəlki növrağı ilə yaşamış, Oğuz Elinin inanc və mədəniyət mərkəzi kimi fəaliyyət göstərmişdir. Şəddadilərin hegemon qüvvə kimi tarix səhnəsinə çıxmasından, yəni 971-ci ildən sonra da Göyçənin onlar tərəfindən zəbti ilə bağlı heç bir məlumat yoxdur. Amma şəddadilərin Oğuz Elinin bu mərkəzinə real təhlükə yaratdığını güman etməyə əsas verən tarixi fakt var. Bu fakt X əsrdən etibarən qərb oğuzlarının Azərbaycan ərazisinə, xüsusən də Göyçə və Göyçəətrafı ərazilərə, əsasən də Qarabağ, Gəncə, Qazax, Borçalı ellərinə mütəşəkkil dönüşüdür. Bu tarixi reallıq bütün elmi dairələr tərəfindən birmənalı şəkildə təsbitlənib və həmin proses məhz Azərbaycan xalqının təşəkkül məqamı kimi səciyyələndirilib. Bu tarixi məqamda ən çox diqqət çəkən məsələ isə yeni oğuz köçlərinin gəldikləri yerlərdə heç bir müqavimətlə rastlaşmamasıdır ki, Xaliq Koroğlu da, məhz bu gerçəkliyə istinadən, **"yeni köçlərin gözlənilən qonaq olduğu-**

**nu"** vurğulayır. Əslində də həqiqət budur; X əsrdə baş vermiş o axın Oğuz Elinin müqədəds ocağını qorumaq zərurətindən yaranan bir müqəddəs dönüş idi, min illər boyunca dünyaya ünsiyyət mədəniyyəti yaymış bir qövmün öz mövcudiyyəti uğrunda mücadiləyə qatılmasının başlanğıcı idi. Bu müqəddəs dönüş əslində Qafqaz və Kiçik Asiyada çoxəsrlik türk hökmranlığı üçün bazis rolunu oynadı, XIII əsrdə moğol-tatarların hakimiyyətlərinin (hülakilərin və elxanilərin) ümumən Azərbaycan ərazisində və Şərqi Anadoluda, digər regionlardan fərqli olaraq, minimum az qan-qada ilə bərqərar olmasına münbit zəmin hazırladı. 1385-ci ildə Əmir Teymur ordusunun Qafqazda hakim mövqe qazanmasında da Oğuz köçlərinin öz əzəli yurdlarına X əsrdən başlamış dönüşlərinin mühüm əhəmiyyəti oldu. Amma moğol-tatar boyları da, teymurilər də irsən Oğuzlara nə qədər yaxın olsalar da, hər halda min illərlə davam etmiş, yüzlərlə statistik nəslin ömrü bahasına reallaşmış köçlərdə getdikləri ellərin təbiətinə və aborigen əhalilərinin yaşam tərzlərinə uyğun baş vermiş dəyişikliklər öz sözünü demişdi; necə deyərlər, Şərqdən gələnlər, qismən də olsa, oğuz inanclarından uzaqaşmışdılar və bu qaçılmaz reallıq nəticə etibarı ilə bu qövmlərin vahid qüvvə kimi çıxış etməsini əngəlləyirdi. Qaraqoyunluların - Göyçəyə məkanca və ruhən yaxın olan bir qövmün Van sahillərindən baş qaldırması və vahid Azərbaycan dövlətçiliyi naminə müqəddəs savaşa başlaması da, heç şübhəsiz ki, Şərq türklərinin baxışları ilə Oğuz Elinin beşiyindəki inanclar arasındakı fərqlərlə şərtlənirdi. Bu o zaman idi ki, xürrəmilik də, hürufilik də, səfəviyyə təlimi də özünün ikinci renesansını yaşayırdı. Yəni Oğuz Elinin müqədəds inanclarının şərq türkləri tərəfindən bərpa olunacağına ümidlər artıq öləzimiş; onların vahid Azərbaycan, Oğuz inanclarının hakim olduğu bütöv vətən yaratmaq iqtidarında və istəyində olmadıqları artıq yəqinləşmişdi. Qaraqoyunluları ayağa qaldıran və döyüşə-döyüşə məhz Göyçəyə üz tutmağa vadar edən tarixi gerçəklik məhz bu idi. Anadolu ellərindən qalxaraq, vahid dövlət ideyasını gerçəkləşdirmək kimi böyük bir tarixi missiya həyata keçirən bir nəslin o dövr üçün artıq ciddi bir önəm daşımayan, nə elmi, nə hərbi inkişaf, nə də vahid dövlət baxımından xüsusi strateji əhəmiyyəti olmayan Göyçəyə xüsusi marağı, mütləq mənada haqqında yuxarıda söhbət açdığımız nüanslarla, oğuz köçlərinin qan yaddaşından qaynaqlanan **"müqəddəs ocağa sahiblik"** haqqı ilə izah oluna bilər. Hər halda məsələyə münasibəti aydınlaşdıra biləcək digər versiyalar yoxdur və Bayram Xocanın ideyalarına tapınan qaraqoyunlu igidlərinin onilliklər boyunca qan tökə-tökə Göyçəyə yol tutduqları, Göyçəyə sahiblik haqqlarını təsdiqlədikləri tarixi reallıqdır. Bu reallığın arxasındakı bir incə mətləb isə

xüsusi diqqət çəkir: Qaraqoyunluların vahid dövlət ideyasının reallaşması indiki Cənubi və Şimali Azərbaycana aid edilən ərazilərin hamısında qılıncla, süngü ilə qarşılanıb. Bu arada Göyçə ilə bağlı döyüşlər barədə məlumatlara rast gəlinməməsi, qaraqoyunluların Göyçədə məskunluğunun yerlilər tərəfindən son dərəcə sakitliklə qarşılanması bir daha ona dəlalət edir ki, Qaraqoyunlular da Göyçədə "gözlənilən qonaq" olublar, bu tarixi qayıdış oğuz köçlərinin 4 min il boyunca davam edən müqəddəs köçlərindən birinin müqəddəs dönüşü kimi dəyərləndirilib. 1468-ci ildə Çuxur - Səddə ağqoyunlulara məğlub olduqdan sonra qaraqoyunlu döyüşçülərinin, son ümid yeri kimi baş qaldırdıqları Van sahillərinə yox, məhz Göyçəyə sığınması da, bu kontekstdə olduqca diqqətçəkici faktdır. Məntiqlə məğlub döyüşçü öz yurduna dönməlidir. Qaraqoyunlu sərkərdələrinin yurd yeri kimi məhz Göyçəyə üz tutması bir çox gizli mətləblərə açar rolu oynayır. Ən qəribəsi isə odur ki, Ağqoyunluların dövlətləşmə prosesi də bu dövlətin ərazisinə rəsmən daxil edilmiş bütün ərazilərdə qanlı döyüşlər bahasına başa gəlsə də, Göyçə istisna təşkil edib. Nə qədər paradoksal görünsə də, tarixi döyüşlərin mənzərəsinə görə bir-birinə qənim kəsilmiş tayfalar kimi səciyyələndirilən Ağqoyunlu və Qaraqoyunlu sülalələrinin Göyçədə az qala beş əsr boyunca tam anlaşma şəraitində yanaşı yaşamaları faktdır. Bu tarixi reallığı, Qaraqoyunlu dövlətini tarixdən silmək niyyətində olan Ağqoyunluların hakimiyyəti dövründə Göyçədə qaraqoyunluların az qala hakim qüvvə kimi qalmasına xüsusi dözümlülük göstərilməsini "Oğuz Elinin sirli yaşam qanunları"ndan savayı heç nə ilə izahlamaq mümkün deyil. Bütün bu reallıqların fonunda ən qürurgətirici məqamsa, ideoloji əsaslarındakı cüzi fərqlərə rəğmən hər iki sülalənin - həm ağqoyunluların, həm də qaraqoyunluların vahid Azərbaycan ideyasının gerçəkləşməsində Göyçənin rolunu, əhəmiyyətini gərəyincə dəyərləndirmələri idi. Amma təəssüflər ki, onların heç biri Göyçəyə tam mənada sahib ola bilmədilər. Qaraqoyunlular dövründə Göyçə hövzəsinin bütün qərb sahilləri osmanlıların nəzarətində qalırdı. Ağqoyunlular bu problemi qismən yoluna qoysalar da, hər halda onlar da tam nəzarəti təmin edə bilmədilər: Çubuxludan Nərədüzünə qədər bütün sahilboyu və Göyəm sıra dağlarının ətəklərindəki kəndlər 1501-ci ilə, Ağqoyunluların süqutuna qədər Osmanlı imperiyasının nəzarətində qaldı.

Qüdrətli Azərbaycan dövlətçiliyi ənənələrinin yaşarılığının təmin olunması yönündə müstəsna xidmətləri olmuş Şah İsmayıl Xətainin ideloji mübarizədə, dövlətçilik məsələlərində prinsipiallığı sirr deyil. O da sirr deyil ki, öz dövründə bu prinsipiallıq amansızlıq, qəddarlıq səviyyəsinə qədər tərəddüdsüz- güzəştsiz olub. Bu cəhət Şah İsmayılın bütün yürüşlə-

rinə, bütün döyüşlərinə, bütün diplomatik danışıqlarına şamil edilsə də, Göyçə yürüşü burada da istisna təşkil edib. Şah İsmayıl da Göyçədə "gözlənilən qonaq" kimi döyüşsüz, təntənəsiz qəbul edilib. Ən qəribəsi isə odur ki, ali məqsədə səfəviyyə təlimi ilə islam pərdəsi altında gedən bu qeyri - adi təfəkkür sahibi, digər yerlərdən fərqli olaraq Göyçədə nə məzhəb davasına çıxmayıb, nə də Qaraqoyunlu dövlətinin yüksək titullu əyanlarının Göyçədə olan və onun hökmdarlığını qəbul etməyən nümayəndələri ilə haqq-hesab çəkməyə lüzum görməyib. Göyçənin müxtəlif yerlərə köç edərək yurda dönmüş və təbii olaraq müxtəlif dini inanclarla, dini qütbləşmələrlə silahlanmış nisbətən yeni sakinlərindən fərqli olaraq, yerli əhalinin Şah İsmayılın gəlişindən sonra islamı yox, məhz "şiəliyi" (!!!) inanc kimi qəbul etməsi barədə Miskin Abdal yaradıcılığındakı, eləcə də Göyçənin silinməz, pozulmaz el yaddaşındakı eyhamlar da əslində yuxarıda irəli sürdüyümüz hipotezi birbaşa təsdiqləyən tarixi gerçəkliklərdir. Tarixin bu məqamına xüsusi önəm verən digər bir reallıq da öz həqiqi izahını gözləyir. Belə ki, Şah İsmayılın Göyçə yürüşünü heç bir ekstremal şərait şərtləndirməyib. Nə Göyçə əhalisinin kütləvi itaətsizlik faktı qeydə alınıb, nə Şah İsmayıl əleyhinə iğtişaşlara rəvac verilib, nə də Göyçə Şah İsmayılın hansısa yürüşünün yolu üzərində yerləşib. Olduqca gərgin hərbi proqramı olan sərkərdənin, o planın reallaşdırılmasına başlamazdan öncə öz iş - gücünü buraxıb, həftələrlə üzücü yol qət edərək Göyçəyə sadəcə maraq naminə gəldiyini düşünmək də sadəlövhlük olardı. Amma fakt odur ki, Şah İsmayıl Göyçəyə gəlib və nə qədər qəribə olsa da, nə hansısa bir imkanlı adamı, nə hansısa bir qoluzorlu igidi yox, məhz haqq aşığı Miskin Abdalın mürşidlik etdiyi ocağı ziyarət edib; məhz Miskin Abdala Göyçənin seyyidliyi kimi yüksək titul verərək, onu özünün səlahiyyətli nümayəndəsi qismində, Göyçənin o zaman üçün ən iri yaşayış məntəqəsi, eyni zamanda həm də alınmaz qalası olan Qara Dərbənd kəndinə (başqa bir adı Virs) elçi göndərib. İlk baxışda hakimiyyətinin zora söykəndiyi güman edilən qüdrətli sərkərdənin real güc sahiblərinə yox, əqlin qüdrətinə arxalanan dərvişə xüsusi etimadının səbəbi nə ola bilərdi? Şah İsmayılda Dərbənd elləri ilə məhz Miskin Abdalın dil tapa biləcəyinə inam haradan idi? Və ümumiyyətlə, körpəliyindən başı dövlət işlərinə qarışmış, Göyçədən min kilometrlərlə uzaqda böyüyüb tərbiyə almış gələcək hökmdar heç bir sarayda, heç bir rəsmi dövlət işində olmayan Miskin Abdalın varlığı, onun dinlə heç bir əlaqəsi olmayan ocağı barədə kimdən, necə xəbər tutmuşdu? Ən əsası, dünyəvi mübarizəsini din müqəddəsliyi bayrağı altında həyata keçirən Şah İsmayıl bir dərviş ocağını ziyarət etməklə ciddi risqə yol verdiyini hesablamamış deyildi. Ali amallar uğrunda mübarizə aparan

bir şəxsiyyətin, sadəcə rəğbət naminə, bunca risqə getməyi, təbii ki, ağlabatan deyil. Odur ki, birmənalı şəkildə iddia etmək olar: Şah İsmayılı səfəviyyə təlimi ruhunda formalaşdıran tərbiyəçilərinin, müəllimlərinin Göyçədəki Oğuz Düşüncə Ocağı barədə müfəssəl məlumatları varmış. Şah İsmayılın Miskin Abdalla görüşü barədə heç bir açıqlama olmaması da, heç şübhəsiz ki, Oğuz Elinin yaşam tərzinə xas olan "mütləq həqiqətin sirli saxlanması qanunu"ndan irəli gələn reallıqdır. Göyçədə Oğuz nəfəsindən gələn ozan aşıq sənətinin yaşarılığı və mükəmməl məktəb kimi inkişafı da, məhz bu reallığın əksi kimi xarakterizə olunmalıdır. Göyçə aşıq məktəbi yetirmələrinin sadəcə saz - söz ustaları kimi yox, dünyəvi düşüncə, fəlsəfi fikir adamları olaraq üzə çıxması, ilk baxışda mifik görünən, əslində isə mükəmməl təlimdən doğan güclü iradə, qeyri - adi təffəkür və zehin aydınlığı ilə seçilən haqq aşıqları, işıqlı adamlar - şıxlar kimi tanınmasında da məhz bu sirli mahiyyət həlledici rol oynayır ki, bunun da görüntüləri Ağ Aşıq, Dədə Alı, Dədə Ələsgər, Növrəs İman yaradıcılığında tam aydınlığı ilə sezilir.

Beləliklə, yuxarıda qeyd olunan tarixi faktlara istinadən belə qənaətə gəlmək olar ki, Göyçə hövzəsi eramızdan əvvəlki tarixin III minilliyinin əvvəlindən eramızın XII - XIII əsrlərinə qədər Oğuz Elinin düşüncə mərkəzi qismində tam müstəqil subyekt kimi, sonradan müvafiq ardıcıllıqla Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi Azərbaycan dövlətlərinin tərkibinə daxil olan mahal kimi mövcud olmuşdur və Oğuz xanədanının tarixi missiyasının özəyi olan adət-ənənələr bu mahalın ozan - dərviş ordeninin, eləcə də hər biri oğuz təfəkkürünün bir yönünün mükəmməl məktəbi olan Dərbənd, Göyçə, Zod, Ərgün, Zağalı, Ərdənuc, Ağqala, Kənizər, Kələqıran, Gözəldərə, Alparus kimi bir neçə minillik tarixi olan obaların mühafizəkar mühiti sayəsində yaşarılıq haqqını eramızın XIX əsrinin əvvəllərinə qədər qoruyub saxlamağı bacarmışdır. Baxmayaraq ki, XVI-XVIII əsrlərdə mənasız Qızılbaş - Osmanlı müharibələrində Göyçə olmazın fəlakətlər yaşayıb. Bu tarixi faciələrin konkret faktlar fonundakı ümumi mənzərəsi isə belədir:

Şah İsmayıl Xətai 1500-cü ildə Ərzincan səfəri çərçivəsində Göyçə mahalına gəlib Miskin Abdalı ziyarət edəndə Göyçə hələ Ağqoyunlu dövlətinin nəzarətindəydi. Amma buna baxmayaraq, İsmayıl Səfəvi hər yerdə - Siyaqutda da, Qazanlıqdərədə də, Mədinə kəndində də şahlara layiq təntənə ilə qarşılandı. Güman ki, həmin səfərdə gələcək şahın əsas məqsədi Oğuz Elinin müqəddəs ocağının dəstəyini almaq idi və çox böyük ehtimalla, o, bu dəstəyi almışdı da. Belə ki, bu səfərdən sonra Şah İsmayılın bütün zəfər yürüşləri boyunca Göyçə səmtinə təkrar üz tutma-

dığı tarixi faktdır və bu, gənc şahın bu ocağa olan yüksək inamının ifadəsiydi. O arxayın idi ki, Göyçədən ona zərər toxunmaz və bu səbəbdən də Göyçə Hürri İnancı ocağının qızıl başları ilə Ərdəbil Səfəvi təlimi mərkəzinin qızıl başlarının tarixi - mənəvi ittifaqını rəsmiləşdirməyə əsla ehtiyac duymurdu. Bəlkə də digər regionlardakı hərbi əməliyyatların intensivliyi Xətaini Göyçəyə sahibliyi hərbi yöndən rəsmiləşdirməkdən çəkindirirdi. Bu səbəblərin hansının həqiqətə daha yaxın olmasından asılı olmayaraq, tarixi reallıq ondan ibarətdir ki, Xətainin ölümünə qədər Göyçə defakto qızılbaşların əyalətlərindən biri sayılsa da, deyure Səfəvi dövlətinin sərhədlərinin xaricindəydi. Bu boşluqdan yararlanan Osmanlı imperiyası isə əksinə, Göyçənin ərazicə ona tabe olduğunda iddialı olsa da, faktiki olaraq Göyçə osmanlıların nəzarətindən kənardaydı. 1555-ci ildə isə Göyçə hövzəsi artıq rəsmən Səfəvi Azərbaycan dövlətinin ərazisi idi və inzibati strukturlaşdırmaya görə, iki bəylərbəyliyi arasında bölünmüşdü. Göyçə gölünün şimal sahilindəki Qəməsar kəndindən başlayaraq, şimal- qərb, qərb sahili boyunca və cənub sahillərində Ərgün kəndə ( Yuxarı Zağalı) qədər olan obalar Çuxur-Səd bəylərbəyliyinin inzibati idarəçiliyinə; Ərgündən başlayaraq cənub-şərq, şərq, və şimal-şərq sahilləri boyunca Qəməsara qədər olan kəndlər, Toxluca kəndi də daxil olmaqla Qarabağ (Gəncə) bəylərbəyliyinin inzibati idarəçiliyinə verilmişdi. Amma hələ Şah İsmayılın sağlığında, 1512-ci ildən başlamış osmanlı - səfəvi ədavəti səngiməmişdi. 1574-cü ildə Osmanlı sultanı şərəfinə layiq görülmüş bir nadanın - Sultan III Muradın səyi ilə 1578-ci ildə bu ədavət yenidən müharibə səviyyəsinə qədər qızışdı və nə az, nə çox - düz 9 il davam etdi. Nəticədə Səfəvi dövləti ərazilərinin bir qisminə, o cümlədən Göyçə mahalının şərq sahillərindəki ərazilərin bir qisminə, təxminən Zod - Basarkeçər - Daşkənd xəttindən şərqdəki kəndlərin hamısına nəzarəti itirmiş oldu. Beləliklə də Zod, Hasansu, Zərzibil, Ağkilsə, Dərbənd, Hüseynquluağalı, Cahanşah, Siyaqut, Qayabaşı, Qoşabulaq, Daşkənd, Daş Keyti, Göytəpə, Göyçə Yellidərəsi, Baş Keyti, Ayaq Keyti, Yuxarı Şorca kəndləri osmanlıların əlinə keçdi ki, bu reallıq da 1590-cı ildə tərtib olunmuş və hazırda Türkiyə Cümhuriyyətinin Başbakanlıq Arxivində saxlanan **"İrəvan əyalətinin müfəssəl dəftəri"**ndə təsbitlənib. Həmin rəsmi sənəddən bəlli olur ki, o vaxt tətbiq olunmuş inzibati strukturlaşmaya görə Göyçə kəndləri, çox cüzi istisna ilə, İrəvan əyalətinin Ordubad qəzasının Zar nahiyəsinin idarəçiliyində imiş. 1595-ci ildə tərtib olunmuş **"İrəvan əyalətinin icmal dəftəri"**ndə isə bu kəndlərin torpaq mülkiyyətçiləri barədə məlumatlar yer alıb ki, onlar da bu kitabda, hər bir kəndə dair tarixi oçerklərdə müfəssəl şəkildə təqdim olunub. Be-

ləliklə, Göyçənin bir qismi XVII əsrin birinci qərinəsinin sonlarına, 1635-ci ilə qədər osmanlıların nəzarətində qalıb. Həmin tarixdən sonra isə Səfəvilər bütün itirilmiş ərazilərdə hakimiyyətlərini bərpa ediblər və 1555-ci ildəki inzibati bölgü yenidən qüvvəyə minib, yəni Göyçənin bir qismi Çuxur Səd, bir qismi isə Qarabağ bəylərbəyliyinin idarəçiliynə qaytarılıb. Amma bu bölgü də uzun sürməyib. 1721-ci ildə Osmanlı - Səfəvi qarşıdurması yenidən alovlandı; müharibə nə az, nə çox - düz 15 il, yəni hər iki tərəf tamamilə əldən düşənə qədər davam etdi. Və bu dəfə Göyçə hövzəsi müharibənin ikinci ilində, təxminən 1723-cü ilin əvvəllərində bütünlüklə osmanlıların nəzarətinə keçdi ki, bu tarixi reallıq da 1728-ci ildə tərtib olunmuş və həmin il aprel ayının 12-də (hicri təqvimi ilə 1140-cı il ramazan ayının 24-də) Əhməd şah Mehmet xan oğlu tərəfindən tuğralanmış, hazırda Türkiyə Cümhuriyyəti Başbakanlıq Arxivində hivz olunan sənəddə - **"İrəvan əyalətinin icmal dəftəri"**ndə təsbitlənmişdir. Həmin sənəddən bəlli olur ki, Göyçə gölü hövzəsində İrəvan əyalətinin inzibati bölgüsünə daxil olan 4 nahiyə - Dərəçiçək, Məzrəə, Zarzəmin və Göyçə nahiyələri yaradılmışdır. Dərəçiçək nahiyəsinə Göyçə gölünün şimal-qərbindəki Əfəndi kəndindən başlayaraq şimal sahillərindəki Qaramurad kəndinə qədər olan ərazilər; Məzrəə nahiyəsinə Cil kəndindən başlayaraq şimal-şərq, şərq, cənub-şərq sahilləri boyunca Alçalıya qədər olan ərazilər; Göyçə nahiyəsinə Gözəldərədən başlamış Nərədüzü kəndinə qədər ərazilər daxil idi. Zarzəmin nahiyəsinə isə hövzənin şərqindəki dağlıq ərazilərdəki kəndlərin bir qismi - Ağkilsə, Zərzibil, Göyçə Yellicəsi, eləcə də Alagöllər səmtindən Yuxarı Şorca və Daşkənd kəndləri daxil edilmişdi. Sənəddə diqqəti çəkən əsas məqam isə 1723-cü ildə osmanlıların nəzarəti bərqərar olduqdan sonra Zarzəmin nahiyəsinin inzibati bölgüsünə daxil edilmiş kəndlərin əhali tərəfindən tərk edilməsidir ki, bunu da birmənalı şəkildə III Sultan Muradın zamanında Göyçədə törədilmiş vəhşiliklərin yaddaşlarda yaşayan xofu ilə izahlamaq olar. Və təbii ki, türk boyları arasındakı bu inamsızlıq, bu rəxnə təsirsiz ötüşmədi. İki əsrlik Osmanlı - Səfəvi müharibələrinin məntiqi nəticəsi o oldu ki, XVIII əsrin ortalarından etibarən hər iki dövlət öz tarixlərinin ən şərəfsiz mərhələlərinə qədəm qoydular. O qədər şərəfsiz bir mərhələ ki, heç bir əyalət dövlətin onun təhlükəsizliyinə zəmanət verəcəyinə inanmadı; hərə öz başını qorumaq hayına qaldı. O qədər şərəfsiz bir mərhələ ki, hər yerindən qalxan özünü hökmdar görmək istədi. Beləcə Oğuz Eli öz Müqəddəs İnancından aralı düşərək, hakimiyyət, var-dövlət naminə, hətta şeytanla dostluğa hazır olan kütlələr səviyyəsinə qədər cılızlaşdı. Nəticəsi də o oldu ki, ilk dəfə 1769-1774-cü illər Rusiya - Türkiyə mühari-

bələri zamanı erməni kəndləri Türkiyənin əleyhinə çıxmaq qədər gözlənilməz bir cəsarət nümayiş etdirdilər və 1780-ci ildə erməni tacirləri Rusiya rəsmiləri ilə Türkiyə - İnran sərhədlərinin kəsişdiyi ərazidə erməni dövləti yaratmaq barədə sövdələşmələrə başladılar. Hətta A.V.Suvorov onlara söz verdi ki, "bu istək, nəyin bahasına olur-olsun, reallşadırılacaq". Əslində bu plan hələ XVIII əsrin sonlarında reallaşdırılacaqdı, sadəcə 1796-cı ildə II Yekaterinanın ölümü bu planı bir az ləngitdi. Bununla belə, Rusiya özünü artıq o dərəcədə arxayın hiss edirdi ki, çar 1797-ci il oktyabrın 1-də "İran ərazisində yaşayan ermənilərin öz təbəəliyinə qəbul edilməsi və Qafqaz xətti boyunca yerləşdirilməsi", 1799-cu il iyunun 3-də isə "Ermənilərin Qazaxda yerləşməsinə şərait yaradılması" barədə fərmanlar imzalamaqdan zərrəcə çəkinmədi. Nəhayət, 1801-ci ildən etibarən Qafqazın tam mənada ruslaşdırılması və ermənilərə bu ərazilərdə "vətən" yaradılması prosesinə start verildi. Elə həmin il Loru-Pəmbək və Şəmşədil bölgələrinin, 1805-ci il oktyabrın 20-də Şörəyel sultanlığının, 1813-cü il oktyabrın 12-də Gülüstanda bağlanmış müqavilə nəticəsində isə Bakı, Quba, Şirvan, Şəki, Qarabağ, Gəncə və Talış xanlıqlarının Rusiyanın tərkibinə qatılması rəsmiləşdirildi. Həmin vaxtlar 15 mahaldan (Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd, Səədli, Talın, Seyidli-Axsaxlı, Sərdarabad, Körpübasar, Abaran, Dərəçiçək və GÖYÇƏ) ibarət olan İrəvan xanlığını ram etmək üçün iki dəfə cəhd olunsa da, rusların niyyəti baş tutmamışdı. Odur ki, 1826-cı ildə, Rusiya - İran müharibələri yenidən qızışanda, əsas diqqət bu istiqamətə yönəldildi və...1827-ci il oktyabrın 1-də İrəvan qalası təslim oldu. 1828-ci il fevralın 10-da Türkmənçay kəndində bağlanan müqavilə Naxçıvan və İrəvan xanlıqlarının ərazilərinin, deməli, həm də Oğuz Elinin 5000 illik ənənələrini yaşadan GÖYÇƏnin Rusiyanın tabeçiliyinə keçməsini rəsmiləşdirdi. Elə həmin il martın 20-də bu müqaviləni təsdiqləyən **I Nikolay** ertəsi gün, yəni **martın 21-də "Naxçıvan və İrəvan xanlıqlarının ərazilərində Erməni vilayəti yaradılması barədə fərman"**ı da imzaladı. Nəinki dövlətləri, hətta knyazlıqları 1500 il öncə itirilmiş ermənilər üçün bu fürsət göydəndüşmə idi və ermənilərə göstərilən bu səxavətin elan edilməsi üçün seçilən gün təsadüfi deyildi. I Nikolay Oğuz Eli üçün müqəddəs sayılan, dünyanın təzələnməsi anlamına gələn bir gündə ermənilər üçün yeni epoxanın başlanmasına işarə verirdi.

O zamana qədər, yəni İrəvan xanlığı tam ilhaq olunanadək, Göyçə mahalı öz etnik saflığını tam mənada qorumağa müvəffəq olmuşdu və bu baxımdan o dövr Azərbaycan mahalları sırasında bəlkə də yeganə mahal idi. Bu da sadəcə gəlişigözəl söz olmayıb, tarixi faktlara əsaslanan gerçəklik-

dir. Bu gerçəklik **İ.Şopenin** "Исторический памятник состояния армянской области в эпоху присоединения к Российской империи" kitabında öz əksini tapmışdır. Belə ki, həmin kitabda 1826-28-ci illər Rusiya - İran və 1828-29-cu illər Rusiya - Türkiyə müharibələrindən sonra çarın səxavətilə yaradılmış erməni vilayətinin İrəvan əyalətinin tərkibinə daxil edilən ərazilərdə əhalinin kameral siyahıyalınmasının nəticələrinə istinadən verilən məlumatdan aydınca görünür ki, hətta 1826-1829-cu illərdə tüğyan etmiş 3 illik soyqırım siyasəti nəticəsində türklər müvəqqəti olaraq öz yurdlarını tərk etdikdən sonra belə, Göyçədə 5607 nəfərdən ibarət 999 türk və cəmi 19 erməni ailəsi (90 nəfər) yaşayırmış. Bu siyahıyaalınmaya qədərki rəsmi statistika bəlli olmasa da, hər halda elə İ. Şopenin verdiyi digər bir məlumat XVIII əsrin sonlarında Göyçədə əhalinin etnik tərkibini tam müəyyənləşdirməyə, eyni zamanda Rusiya dövlətinin Göyçəni oğuz türklərindən təmizləmək üçün ermənilərlə birgə həyata keçirdiyi qanlı aksiyaların tam təfsilatını təsəvvür etməyə imkan verir. O məlumatdan açıqca görünür ki, İran və Türkiyə ilə müharibə bəhanəsi ilə 1826-1829-cu illərdə rus-erməni birləşmələri Göyçədə (Dərəçiçək mahalının inzibati bölgüsünə qatılmış Göyçə kəndləri də daxil olmaqla) olan 171 kənddən 108-ini darmadağın edərək, yer üzündən silmişlər. Qalan 63 kənddə (1831-ci ildə) əhalinin etnik balansı 15:1 nisbətində türklərin xeyrinə olsa da, qısa müddətdə ruslar demoqrafik vəziyyəti kəskin surətdə dəyişməyə müvəffəq olmuşlar. Türkiyə və İrandan buraya köçürülən 14 min erməni sayəsində bu mahalda ermənilərin sayı türklərin sayını 2 dəfə üstələmişdir. Erməni vilayətinin İrəvan əyalətinə daxil edilən Göyçə hövzəsinə qondarma Nor-Bayazid qəzası adının verilməsində də, əslində bu süni demoqrafik tənzimləmə böyük rol oynamışdır. Və yeri gəlmişkən xüsusi qeyd etməyə dəyər ki, güya Türkiyənin Bayazid qəzasından köçürülən ermənilərə təsəlli xarakteri daşıyan bu advermə aktı ümumən türk toponimlərinə qarşı xaç yürüşünün rəsmi startı idi və bu tarixi cinayətə niyə məhz Göyçə mahalından, ilk baxışda mərkəzdən (İrəvandan) uzaq bir əyalətdən başlanması diqqət çəkməyə bilməz. Bu məqam heç bir halda təsadüf kimi dəyərləndirilməməlidir. Birmənalı şəkildə etiraf edilməlidir ki, rus-erməni ideoloqları Göyçənin tarixi mahiyyətini daha yaxşı dərk etdikləri üçün ilk zərbənin də məhz bura vurulmasına zərurət duyublar. Bu xüsusda diqqət çəkən başqa bir məsələ isə Oğuz Elinin müqavimət gücünü azaltmaq məqsədi ilə həyata keçirilən inzibati struktur dəyişiklikləridir. Bu oyunun təxmini mənzərəsi isə belədir: 1828-ci ildə erməni vilayəti müstəqil bir inzibati struktur statusunda idi və onun iki əyalətinin hər birinin - həm Naxçıvanın, həm də İrəvanın konkret sər-

hədləri, eyni zamanda hər əyalətin tərkibindəki nahiyələrin hər birinin konkret ərazi bölgüsü olduğundan, hər hansı bir bölgədə ermənilərin demoqrafik üstünlüyünü təmin etmək mümkün olmurdu. Bu isə öz növbəsində kompakt şəkildə yaşayan türklərin müqavimət əmsalını artırırdı. Odur ki, 1840-cı ildə ümumən Qafqazın ərazisi iki adminstrativ vahidə bölündü: Gürcü general qubernatorluğu və Kaspi vilayəti. Erməni vilayəti, o cümlədən Göyçə hövzəsi də Gürcü general qubernatorluğuna tabe etdirildi. 1844-cü ildə isə Qafqazda tam yeni bir inzibati bölgü tətbiq edildi. Qafqaz canişinlik elan olundu və canişin vəzifəsinə təyin edilmiş qarf Vorontsovun əmri ilə Kutaisi, Tiflis, Şamaxı və Dərbənd quberniyaları yaradıldı. Erməni vilayətinin 1828-ci ildəki ərazilərinin bir qismi Tiflis qubernatorluğunun tabeçiliyinə verildi. Az sonra isə, həmin ərazilər geri qaytarılmaq şərti ilə, 1828-ci il ərazilərinə uyğun ərazidə İrəvan quberniyası təşkil edildi. Hər belə oyundan sonra mahalların sərhədlərində nəzərəçarpmayan dəyişikliklər edilməklə demokrafik balansın tarazlaşdırılmasına cəhd olunurdu. Konkret olaraq İrəvan quberniyası yaradılarkən, Göyçə kəndlərinin bir qismi - Nərədüzündən başlayaraq Çubuxluya qədər olan qərb və şimal-qərb sahili boyundakı kəndlərin hamısı, o zaman artıq qismən erməniləşdirilmiş Dərəçiçək mahalının inzibati idarəçiliyinə verildi ki, bu da əslində həm bu kəndlərin əhalisini Dərəçiçəkdə çoxluq təşkil edən ermənilərdən asılı vəziyyətə salmaq, eyni zamanda Göyçə mahalının Nor Bayazit nahiyəsində ermənilərin süni demoqrafik üstünlüyünə nail olmaq məqsədi daşıyırdı. Eyni taktika sonralar da eyni intensivliklə tətbiq olundu. Belə ki, sovetlər dövründə Göyçə kəndlərinin 6 rayon arasında bölüşdürülməsi də eyni mahiyyət daşıyırdı. Demoqrafik balansın dəyişməsi həm də erməni dövləti yaratmaq üçün faktiki əsaslar hazırlanmasına xidmət edirdi və bunun üçün hər mümkün şansdan maksimum istifadə edlilir, ermənilərin İrəvan quberniyasında yerləşdirilməsinə xüsusi diqqət yetirilirdi. Belə ki, hətta 1854-1856-cı illərdə Rusiya və Türkiyənin Krım uğrunda apardığı müharibə belə Şərqi Anadolu ermənilərinin İrəvan ərazisinə, xüsusən də Göyçəyə yerləşdirilməsi ilə nəticələndi (*Маккартияне Джордж и Коралине. Тюрки и армяне. Руководство по армянскому вопросу. Баку-1996. стр.,37*). 1877-1878-ci illər Rusiya-Türkiyə müharibələri zamanı isə vəziyyət o yerə çatmışdı ki, "erməni dövləti məsələsi" nəinki Rusiyanın Şərq siyasətinin prioritetinə çevrilmişdi, hətta Şərqi Anadolu da daxil olmaqla Böyük Ermənistanın bərpası məsələsi gündəmə gəlmişdi. Təbi ki, bu niyyət o zaman reallaşmadı və ruhlanaraq Türkiyə hökuməti əleyhinə silah qaldırmış ermənilərin qorxudan Türkiyə ərazisini tərk edərək, Rusiyanın İrəvan əyalətinə köçməsi ilə nəticələn-

di. Bu qaçqınların da əksər hissəsi Göyçəyə yönəldildi, çünki həmin vaxt digər mahallarla müqayisədə Göyçə ermənilərin ən seyrək məskunlaşdığı ərazi idi.

Bununla belə, törətdikləri dəhşətli cinayətlərin miqyas genişliyinə, çeşid əhatəliyinə rəğmən, rus-erməni hərbi birləşmələri Göyçənin müqavimətini heç də asanlıqla qıra bilməyiblər. İrəvan əyalətinin tərkibində olduğu 90 illik dövr ərzində, bütün süni əngəllərə baxmayaraq, Göyçənin əzəli - əbədi sakinləri nəinki öz yurdlarından əl çəkiblər, əksinə demoqrafik durumu öz xeyirlərinə dəyişməyə də, bir çox dağıdılmış yurd yerlərini bərpa etməyə də müvəffəq olublar. Belə ki, I Dünya müharibəsi ərəfəsində, yəni 1914-cü ildə Göyçədə türklərin yaşadığı (qarşıq kəndlərlə birlikdə) 93 kənd vardı və bu kəndlərdə məskunlaşmış oğuz türklərinin sayı, rəsmi statistikaya görə, 60.000 nəfəri ötmüşdü. 1832-ci ildəki vəziyyətlə, yəni rus-erməni istilasından sonra salamat qalmış 63 kənddəki 6907 türklə müqayisədə 1918-ci ilin reallığı - 93 kənddə məskunlaşmış türklərin sayının 60000 nəfər həddini keçməsi erməni vilayəti rəsmilərini və onların rusiyalı havadarlarını əndişələndirməyə bilməzdi. Odur ki, I Dünya müharibəsinin başlanması ilə paralel şəkildə ermənilərin yaranmış qarışıqlıqdan bəhrələnmək istəyi də aktivləşdi. Təşəbbüsü öz üzərinə götürən erməni katolikosu V Gevorq Qafqaz canişini Vorontsov - Daşkova müraciət etsə də, onun konkret iş görə bilməyəcəyini yəqinləşdirərək, 1914-cü il dekabrın 20-də birbaşa çar II Nikolaya üz tutdu. Türkiyə cəbhəsində ermənilərin xidmətindən maksimum yararlanmaq istəyində olan çar isə öz növbəsində erməni katolikosuna səxavət göstərərək erməni dövlətinin yaranmasının yaxın gələcəyin planı olduğunu bildirdi (*Harutunyan A. "Qafqaz cəbhəsi: 1914-1917". Yerevan-1971, səh.- 345*). Amma tarixin çarxı ermənilərin istəyincə fırlanmadı; II Nikolay taxtdan salındı, Türkiyə döyüşlərin gedişində rusların xeyrinə işləmiş erməni bölgələrində nizam - intizamı bərpa etməyə başladı. Rəsmi Rusiyanın mövcud tarixi şəraitdə onlara heç nə ilə yardım edə bilməyəcəyini yəqinləşdirən ermənilər taktikalarını dəyişərək, bolşeviklərin imkansızlığından yararlanmağa qərar verdilər və 1917-ci ilin noyabrından etibarən İrəvan quberniyasının ərasində türklərə qarşı hərbi aksiyalara start verdilər. 1918-ci ilin əvvəllərindən etibarən isə terrorçu Andronik Ozanyanın tabeçiliyində olan hərbi birləşmələrin Qafqaz ərazisinə, əsasən də İrəvan quberniyasının ərazisinə transferi başladı. Tarixin bu məqamındakı olaylar Azərbaycan tarixşünaslığının diqqətindən yayınsa da, əslində 1917-ci ilin noyabrından 1918-ci ilin martına qədər ermənilərin İrəvan quberniyasında törətdikləri vəhşiliklərin miqyası 1905-1907 və 1918-1920-ci il-

lərdə törədilmiş cinayətlərin miqyasından da geniş olub. Belə ki, 1917-ci ilin noyabrından 1918-ci ilin martına qədər İrəvan ərazisində nə az, nə çox - düz 109 kənd yerlə-yeksan edilib. 1918-ci ilin martında isə Andronikin quldur birləşməsinin komissarı Dro "Transqafqaz komissarlarının seymi"ndə açıq mətnlə Azərbaycana qarşı ərazi iddiaları səsləndirdi və Erməni dövlətinin yaranması barədə planları açıqladı. Bu, erməni hərbi birləşmələrinə hər yerdə açıq hərbi fəaliyyətə keçmək barədə göstəriş demək idi və belə də oldu...

1918-ci il mayın 29-da, İrəvan quberniyası ərazisində "yaradılacaq Erməni dövləti"nin paytaxtının İrəvan şəhəri olması barədə qərər qəbul edilərkən, ermənilər Azərbaycanın ciddi müqavimətı ilə üzləşmişdilər və nəhayətdə 6 gün sonra bu qərarın Azərbaycan tərəfi ilə razılaşdırılmasına nail olmaq üçün Batum müqaviləsinə imza atmağa məcbur olmuşdular. Bu müqavilə əslində Erməni dövləti ideoloqlarının 300 illik niyyətlərinin puç olması kimi dəyərləndirilə bilərdi. Belə ki, həmin müqaviləyə əsasən Ermənistan dövlətinin ərazisi cəmi 9.000 kvadratkilometrə çatırdı; bu isə təkcə Göyçə hövzəsinin ərazisindən də az bir ərazi demək idi. Təbii ki, o zaman "Ermənistan dövləti" öz hərbi imkansızlığı və mövcud beynəlxalq vəziyyət ucbatından Rusiyadan dəstək ala bilməməsi səbəbi ilə Azərbaycan tərəfinə ciddi etiraz etmək imkanında da deyildi. Yaranmış situasiya "Ermənistan dövləti"nin ərazisinə daxil olmayan, amma ümumi plana daxil olan torpaqların hərbi istila yolu ilə ələ keçirilməsini ermənilərin xarici siyasətinin prioritetinə çevirdi və bu niyyətin "rəsmi Erməni dövləti" tərəfindən yox, güya "Ermənistan Respublikasının daşnak hökumətinə tabe olmayan Andronik Paşanın quldurları"nın əliylə reallaşdırılması taktikasından istifadə olundu. Şərqi Anadoluda qırğınlar törətdikdən sonra, Türkiyə dövlətinin təqibindən yaxa qurtarmaq üçün, Qafqaza keçən Andronikin quldur qoşunlarının öz qanlı cinayətlərinə məhz Göyçədən başlaması da təsadüfi olmayıb, yuxarıda haqqında söhbət açdığımız tarixi və mənəvi amillərlə şərtlənirdi. Amma Andronik Ozanyanın quldurları birinci həmlədə, 1918-ci ilin yayında həyata keçirilən hərbi kampaniyada Göyçənin müqavimətini qıra bilmədilər. Nə qədər azğınlıq etsələr də, ciddi müqavimətlə üzləşdilər; onlarca kəndi xaraba qoysalar da, yüzlərlə ev yandırılsa da, yüzlərlə adam öldürülsə də Göyçəni oğuz türklərindən təmizləmək onlara nəsib olmadı; əksinə Andronikin quldur ordusų Qafqaz ərazisində ilk ciddi tələfatını məhz Göyçədə verdi. İkinci həmlə ilin sonlarında - noyabr, dekabr aylarında oldu. Və bu qanlı kampaniya zamanı tayqulaq general və onun ətrafındakılar "mütləq erməni xisləti"ni tam mənada ortaya qoydular.

Bu hadisələrin də təfsilatı Azərbaycan tarixşünaslığında əksini tapmayıb. Amma bununla belə, erməni vəhşiliyinin izlərini yaşadan tarixi sənədlərə istinadən 1918-ci ilin sonlarında Göyçədə törədilmiş faciələrin təxmini xronoloji mənzərəsini müəyyənləşdirmək mümkündür:

...1918-ci ilin noyabrından başlayaraq Dərələyəz səmtindən Göyçəyə keçmiş daşnak qoşunları Qaranlıq nahiyəsindəki Mədinə kəndindən Alçalıya qədər olan ərazilərdəki türk kəndlərinə mütəmadi zərbələr endirmişlər. Amma bu döyüşlərdə erməni ordusu ciddi itkilərə məruz qaldığı üçün ermənilər öz xislətlərinə uyğun olaraq sülh təklifi ilə çıxış etmişlər. Göyçənin sərt qışı şəraitində döyüşlərin davam etməyəcəyinə əmin olan türklər nisbətən arxayınlaşdıqdan sonra isə, ermənilər qəflətən hərbi əməliyyatları bərpa etmiş, 1918-ci il dekabrın 31-də Sulikovun tabeçiliyindəki iki bölük - Filimonov və Nişanevin başçılıq etdiyi bölüklər Şəraba kəndini yerlə - yeksan etmişlər. 1919-cu il yanvarın 4 - də isə elə həmin bölüklər Qızılvəng, Zağalı və Subatan kəndlərini dağıtmış, əhalinin böyük bir qismini qırmışlar. Bu irimiqyaslı hərbi əməliyyatın başlanğıcı idi, amma...Erməni nizami qoşunlarının Çamırlıya hücumu uğursuzluğa düçar olur, kəndin və ümumən mahalın ağsaqqalı Hacı Nağının oğullları Həsən və Mustafa vaxtında silah-sursat tədarükü gördükləri üçün kəndin müdafiəsini lazımi səviyyədə təşkil edirlər; ermənilər xeyli itki ilə geri çəkilmək məcburiyyətində qalırlar. Bu gözlənilməz müqavimətdən qeyzlənən Sulikov quduzlaşır və növbəti bir həftə ərzində daha 31 kəndə - Qamışlı, Tüstülü, Örkülü, Kamilli, Yarpızlı, Qanlı, Kərkibaş, Çaxırlı, Keflicə, Daşkənd, Zod, Hüseynquluağalı, Sarıyal, Böyük Qaraqoyunlu, Bala Qaraqoyunlu, Qoşabulaq, Aşağı Şorca, Kəlbaşı, Kama - Bilal, Ağkilsə, Zərzibil, İnəkdağı, Sultanəli Qışlağı, Qaraiman, Böyük Məzrə, Bala Məzrə, Kəsəmən, Şişqaya, Göysu, Sətənağac, Qızıl Bankə kəndlərinə divan tutur. Amma qarlı dağ aşırımları ilə əsasən Kəlbəcər və Gədəbəy ərazilərinə çəkilən əhali nə qədər itki versə də, təxminən bir həftədən sonra, Şərəba kəndi istisna olmaqla, bütün kəndlərin əhalisi öz yurdlarına qayıtmışdır. Türklərin mütəşəkkil qaydada dönüşünü gözləməyən ermənilər yeni hərbi aksiya keçirmək niyyətinə düşürlər. Və yalnız bundan sonra Göyçənin əzəli sahibləri düşmənlə sülh danışıqlarının nəticə verməyəcəyini dərk edərək, nəhayət ki, açıq müharibəyə qərar verdilər. Zodlu Səmənd ağa Vəli oğlunun, Qaraimanlı Məşədi İsənin, Daşkəndli Aşıq Nəcəfin, Şişqayalı Kor Tanrıverdinin, Çamırlıdan Həsən Hacı Nağı oğlunun, Qaraqoyunlulu Alaboğaz Haxoyun iştirakı ilə məşvərət keçirən Göyçə igidləri 1919-cu il martın ilk günlərində Andronikin hərbi birləşmələri ilə Basarkeçər və Zod kəndlərii arasındakı düzənlik-

də döyüşə girərək, mükəmməl hərbi taktika nümayiş etdirdilər. Top-tüfəngli nizami erməni ordusunun 1300 əsgərinə qarşı 100-150 nəfərlik 3 dəstə ilə döyüşən Göyçə igidləri qəfil cinah zərbəsi ilə düşməni bir neçə dəqiqəyə darmadağın etdilər. Qaraimanlı Məşədi İsənin, sonradan Qaçaq Cəmil kimi şöhrətlənmiş Bala Qaraqoyunlulu Cəmil Əmiraslan oğlunun, Alaboğaz Haxoyun rəhbərlik etdiyi dəstələrin ani hücumundan sonra əsas diqqətini Zod istiqamətinə - Səmənd ağanın dəstəsinə yönəltmiş erməni qoşunu pərən - pərən düşür və türklərə qarşı xüsusi qəddarlığı ilə ad çıxarmış qoşunbaşı Sulikov əsir alınır. Onun başını Səmənd ağanın ayaqları altında kəsirlər və bu ibrət əməliyyatını Alaboğaz Haxoyun dəstəsinin gənc üzvləri Cəmil Əmiraslanoğlu (Qaçaq Cəmil) və Aşıq Əsəd icra edirlər. Bu o zaman idi ki, Stepan Şaumyanın vasitəsi ilə bolşeviklərin dəstəyini qazanmaq istəyən tayqulaq Andronikin ümidləri puça çıxmış, ingilislər tərəfindən həbs edilmiş Şaumyan Hindistana yola salınmış, Xosrov bəy Sultanovun dəstələri isə Zəngəzur və Dağlıq Qarabağda ermənilərə divan tutmağa başlamış və hərbi əməliyyatların dayandırılmasının başlıca şərti kimi Andronikin Qafqazdan çıxması tələbi irəli sürülmüşdü. Əlacsız qalan ermənilər Qarabağın tam ermənisizləşdirilməsinin qarşısını almaq üçün Andronikin deportasiyası barədə qərar qəbul etmişdilər və 1919-cu ilin martında bu quldur general birbaşa öz tabeliyində olan 2000 nəfərlik qoşunu Eçmiədzin kilsəsinə təhvil vermək üçün İrəvana gəlmişdi. Sulikovun qətli xəbərini də, o, məhz burda eşitmişdi və onun xüsusi etimadını qazanmış polkovnikin qisasını almaq üçün son sərəncamına imza atmış, Göyçəni qana bələmək barədə göstəriş vermişdi. Amma tayqulaq generalın son hərbi sərəncamına əməl etmək o qədər də asan deyildi. Çünki Göyçədə artıq vahid komanlıq vardı və Sulikovun başının kəsilməsi ilə açıq psixoloji üstünlük qazanmış özünümüdafiə dəstələrinə qarşı açıq mübarizə sadəcə mümkün deyildi. Odur ki, ermənilər 1919-cu ilin mart ayında, bahar bayramı günlərində növbəti fitnəyə əl ataraq Səmənd Ağanı sülh danışığına dəvət edirlər. Bu görüşə Ağa özü ilə Dədə Qorqud ozan - dərviş məktəbinin o dövr üçün ən tanınmış nümayəndəsi olan daşkəndli Qul Nəcəfi aparır. Basarkeçərdə Zərgər Ağacan deyilən köhnə tanışının evində pusquya düşən Səmənd Ağa ömrü boyu ona qulluq etmiş bu iblisin təhqirinə dözmür, ürəyi partlayaraq dünyasını dəyişir. Qul Nəcəfi isə erməni daşnaqkları kürəyinə qaynar somavar bağlayaraq, dəhşətli işgəncə ilə qətlə yetirirlər. Bu cür amansızlığa səbəb isə ermənilərin yanlış informasiyası olub. Onlar Sulikovun başını kəsənlərdən birinin aşıq olduğunu eşidərkən, belə qənaətə gəliblərmiş ki, bu şəxs mahalın ən hörmətli şəxsiyyəti Nəcəf ola bilər. Çox sonralar əsl həqiqəti bildikdən sonra ermə-

nilər Aşıq Əsədi təqib etməyə başlayıblar və o, təqiblərdən yaxa qurtarmaq üçün Tovuz rayonunda məskunlaşmaq məcburiyyətində qalıb.

Səmənd Ağanın ölümündən sonra Göyçə kəndlərinin müdafiəsinin bir mərkəzdən təşkili mümkün olmadığından, mahaldan qadınların və uşaqların çıxarılması qərara alınır. Amma Göyçənin təbii şəraiti ucbatından, yol-izin qarlı olması səbəbindən, risq ehtimalını azaltmaq üçün, bu işi mayın əvvəllərinə qədər təxirə salırlar. Bu niyyətdən xəbər tutan daşnaklar isə növbəti hücum planlarının vaxtını irəli çəkərək, 1919-cu il aprelin 13-də mahalın bütün nahiyələrində mütəşəkkil şəkildə hərəkətə gəlirlər və...Bu hadisələr ADR Dağlıq zolağının V sahəsinin müsəlman əhalisi üzrə müvəkkili **İsmayıl Sultanovun** Gəncə qəzası rəisinə göndərdiy raportda belə əks olunub: **"Erməni qoşunları əllərinə düşən müsəlmanları heç vəchlə sağ buraxmır, ağlagəlməz işgəncələrlə məhv edirlər...artıq Göyçə mahalında müsəlman qalmayıb, Yeni Bayazid qəzasında 84 müsəlman kəndi məhv edilmişdir ki, onlardan da 22 - si aprelin 13 - 20 - si tarixində dağıdılmışdır. Daşkənd, Qoşabulaq, Sarıyaqub, Baş Şorca, Ayaq Şorca, Soğanquluağalı, Ağkilsə, Zod, Quluağalı, Böyük Qaraqoyunlu, Bala Qaraqoyunlu, Zərzibil, Cayəhmədli, İnəkdağı, Qaraiman, Kəsəmən, Başkənd, Bala Məzrə, Böyük Məzrə, Şişqaya, Baş Hacı, Qərib, Qaya kəndlərinin 15 mindən artıq əhalisi bütün malını, dövlətini ataraq qaçmaq məcburiyyətində qalmışdır. Hal-hazırda ermənilərə qalıb qarət olunmuş əmlak bir neçə milyon, hətta milyardlar dəyərindədir..."** (*"Azərbaycan" qəzeti, 17 may 1919-cu il*). Bəli, 1919-cu ilin yaz kampaniyasında Göyçə gölünün cənub-qərb, cənub, cənub-şərq sahili boyunca olan kəndlərin hamısı boşaldıldı. Amma bu qanlı hərbi aksiyaların dalğası şimal-şərq sahil boyunca yerləşmiş kəndləri - Ardanışdan Toxlucaya qədər əraziləri tutmadı. Bu kəndlər 1920-ci ilin yay aylarına qədər öz yerlərində qaldılar. 1920-ci ilin may ayında daşnakların bu nahiyədə keçirdikləri hərbi əməliyyatlardan sonra isə ümumən Göyçə hövzəsində bir nəfər belə oğuz türkü qalmamışdı...

Göyçənin yarıköçkün həyatı 1922-ci ilə qədər davam etdi. 1922-ci ildə bolşevik pərdəsi ilə maskalanmış "erməni daşnak hökuməti"nin SSRİ-nin tərkibinə daxil olmasından sonra mahalın sakinlərinin öz yurdlarına dönüşü başladı. Amma təəssüf ki, bu dönüş tam mənada baş tutmayaraq simvolik xarakter daşıyırdı. Rəsmən Dərəçiçək nahiyəsinin inzibati bölgüsünə daxil edilmiş Göyçə hövzəsi kəndləri də daxil olmaqla, ümumən Göyçənin 1918-1920-ci illərdə dağıdılmış 93 kəndindən 65- ini bərpa etmək mümkün oldu. Bu müddətdə İran, Türkiyə erməniləri hesabına məskunlaşdırılmış kədlərin bir çoxuna isə heç kim qayıtmadı. Bu acına-

caqlı mənzərəni rəsmi statistika daha aydın göstərir: 1918-20-ci illərdə təkcə Basarkeçər nahiyəsindən köçmüş 26918 nəfərdən yalnız 11413-ü, indiki Martuni nahiyəsindən köçmüş 10640 nəfərdən yalnız 2000-ni, indiki Kamo nahiyəsindən köçmüş 5806 nəfərdən təxminən 1500-ü, Dərəçiçəyin inzibati bölgüsünə daxil edilmiş Göyçə kəndlərini tərk etmiş 9153 nəfərdən 4300-ü, Göyçənin şimal sahilindəki kəndlərdən köçmüş on mindən çox türkün isə yarıdan azı geri qayıtmışdır ki, bu da nəticə etibarı ilə demoqrafik vəziyyətin yenə də ermənilərin xeyrinə dəyişməsi idi. Vəziyyəti gərginləşdirən əsas amil isə o idi ki, bolşevik Rusiyasının diqtəsi ilə artıq Göyçə mahalı rəsmən Ermənistan Sovet Sosialist Respublikasının ərazisinə qatılmışdı. Bu azmış kimi 1918-ci ildə Azərbaycanın ərazisi kimi qeyd olunan kəndlər - Göyçə gölünün şimal və şimal-şərq sahillərindəki 36 kənd də rəsmən ermənilərə bağışlanmışdı. Və Göyçəyə oğuz türkünün dönüşünün mütləqliyi faktorunu nəzərə alaraq, türklərin kompakt yaşadığı bu mahalda demoqrafik üstünlüyün tam mənzərəsini diqqətdən yayındırmaq, eləcə də milli birlik zəminində güclənmənin qarşısını almaq üçün 1930-cu il sentyabrın 9-da Göyçənin ərazisi 5 rayon arasında - Basarkeçər, Sevan, Axta, Kamo, Martuni rayonları arasında bölüşdürüldü. Bu azmış kimi 1937-ci il dekabrın 31-də Krasnoselo adlı yeni bir rayon təşkil edildi və Göyçə gölünün şimalındakı türk kəndləri, əhalisi əsasən türklərdən ibarət olan Basarkeçərin tabeçiliyindən çıxarılaraq, kürdlərin, rusların, mordvinlərin, ermənilərin qarışıq yaşadığı Krasnoselo rayonunun tabeçiliyinə verildi. Bu inzibati bölgü o qədər hiyləgərcəsinə aparılmışdı ki, Basarkeçər rayonu istisna olmaqla digər rayonların hamısında əhalinin say tərkibi etibarı ilə ermənilər çoxluq təşkil edirdilər. Bu isə Ermənistanın daşnak - bolşevik rəhbərliyinə həmin rayonlarda ermənilərin inzibati amirlik mövqeyini təmin etməyə real şans verirdi. Amma 1926-1937-ci illərdə həyata keçirilən bu hiyləgər tədbir - inzibati dəyişikliklər yolu ilə tarixi təhrif etmək və demoqrafik balansda ermənilərə sərfəli tarazlıq yaratmaq məqsədi daşıyan fəndgirliklər belə Göyçənin əzəli sahibi olan oğuz türklərinin müqavimətini tam sarsıtmağa kifayət etmədi... 1931-ci ildə Axta, Sevan, Kamo, Martuni rayonlarında türklərin sayı nəzərəçarpacaq dərəcədə azalsa da, xaricdən gələn ermənilərin bu ərazilərdə yerləşmə intensivliyinin yüksək olması səbəbi ilə öz ev-eşiyini tərk edənlərin başqa bir yerə yox, məhz elə Göyçə gölünün şimal və şimal-şərq hissəsindəki kəndlərə köçməsi sayəsində Basarkeçər və Çənbərək rayonlarında demoqrafik balans türklərin xeyrinə kəskin dərəcədə dəyişmişdı. Belə ki, 1941-ci ildə Basarkeçərdəki 38 kəndin 33-ü mütləq mənada sırf türk kəndi, 4-ü qarışıq kənd idi. Çəmbərəkdə də təx-

minən eyni vəziyyət idi. Bu reallıq istər - istəməz həmin rayonlarda rəhbər vəzifələrdə türklərin olmasını diqtə edirdi ki, bu da heç şübhəsiz ermənilərin iyrənc niyyətlərinin reallaşmasını əngəlləyirdi.

Ən qəribəsi o idi ki, sovetlərin ilk dövründə Göyçədə türklərin əsas dayaq nöqtəsinə çevrilmiş Basarkeçərdə inqilab komitəsinin fəalları 1918-20-ci illərdə Ararat Respublikası əleyhinə vuruşmuş el qəhrəmanları idi. Bu reallıq rayon rəhbərliyi ilə mahalın adlı - sanlı bəylərinin, nüfuzlu ağsaqqallarının, igidlərinin vəhdətini şərtləndirir, Basarkeçərin timsalında Göyçəni ermənilər üçün keçilməz səddə, alınmaz qalaya çevirirdi. Ermənilər üçün ən böyük təhlükə isə ondan ibarət idi ki, Basarkeçərdə oğuz türkünün öz mövqelərini möhkəmlətməsi 1918-1920-ci illərdə didərgin düşmüş əhalinin əks axınına, yurda dönüşünə rəvac verirdi və bu proses günü-gündən aktivləşirdi. Bu məqamda sovet bolşevik rəhbərliyinin kollektivləşmə, kolxozlaşma layihəsi Ermənistanın daşnak - kommunist rəhbərliyinə Göyçənin əzəli sakinlərinə qarşı növbəti təxribat şansı verdi. Ermənistan NKVD-si, səbəb olub-olmadan ən nüfuzlu adamları; varlı-kasıb olmasından, kolxozu bəyənib-bəyənməməsindən asılı olmayaraq, 1918-1920-ci illərdə Ararat Respublikası əleyhinə döyüşənləri hədəfə götürdü və bu haqsız repressiyalar o həddə çatdı ki, Göyçədə milli zəmində qarşıdurma yarandı. Təbii ki, erməni NKVD-si bunu dövlətə qarşı

## QİYAM

kimi qələmə verərək, Göyçənin əzəli sakinlərinə divan tutmaq üçün SSRİ rəhbərliyinin dəstəyini qazandı. Qiyam isə düz 3 il davam etdi. Amma nə qədər qəribə olsa da, eyni vaxtda Ermənistanın digər bölgəsində, Vedibasarda Kərbəlayi İsmayılın rəhbərliyi ilə başlanmış antisovet qiyamı barədə geniş təbliğata rəvac verilsə də, Göyçə qiyamı bütün mümkün vasitələrlə gizlədildi, ictimai diqqətdən, tarixi xronologiyadan yayındırıldı. Niyə? Çünki Vedibasarda türklər arasında ikitirəlik yaranmışdı, yəni 1918- ci ildə daşnaklara qarşı müqavimət hərəkatının fəallarından olan Abbasqulu ağa Şadlinski hökumətin maraqlarının, Qəmlo isə el - obanın maraqlarının ifadəçisi kimi çıxış edirdi. Bu reallıq ermənilərə hadisəni "bir qrup qolçomağın dövlət əleyhinə qiyamı" kimi təqdim etmək imkanı verirdi. Göyçədə isə hadisələri bu nöqteyi - nəzərdən şərh etmək sadəcə mümkün deyildi. Çünki "qiyamçı qolçomaqlara" nə az - nə çox, Qəza İnqilab Komitəsinin sədri, 1918-ci illərdə Andronikin quldur ordusuna qarşı müqavimət hərəkatının faktiki lideri olmuş Qaçaq Cəmilin özü rəhbərlik edirdi. Bu fakt, təbii ki, Göyçə qiyamçılarına hansısa siyasi damğa yapışdıraraq, hadisələrdən sovet quruluşunun xeyrinə təbliğat materialları düzəldilməsini mümkünsüzləşdirirdi.



**Qaçaq Cəmil və silahdaşları:**
öndə Qaradağlı Qara Aslan; orta cərgədə soldan-sağa
Ədil, Bəhrəm, Bəylər; arxada Qaçaq Cəmil

Odur ki, erməni NKVD-si bu qiyamı mümkün qədər hay-küysyz yatırmaqda, eyni zamanda fürsətdən istifadə şansından, yəni qiyamçılara yaxın türk əhalisinə qarşı kütləvi repressiyalar keçirmək şansından maksimum dərəcədə yararlanmaqda maraqlı idi. Yararlana bildi də. Bu qiyam Göyçədə oğuz türkünə qarşı repressiyaların əlahiddə bir məqamı olduğu və tarixdən gizlədildiyi üçün, bu hadisələrə bir qədər əhatəli yanaşmağa:

***- XX əsrin 30 -cu illərində Göyçədə başlanmış qiyamın səbəbləri nə idi?***

***- 3 il davam etmiş silahlı mücadilə ictimaiyyətdən niyə gizlədilirdi?***

***- Göyçə qiyamı nə ilə nəticələndi?***

suallarına və bu kimi digər suallara cavab tapmağa lüzum var.

Ümid edək ki, haqqında indiyə qədər cəmi bircə cümlədə eyham olan bu hadisə nə vaxtsa "Azərbaycan tarix elmi"nin maraq dairəsinə düşəcək. Hələliksə, əldə etdiyimiz faktlar əsasında Göyçə qiyamının ümumi təsvirini yaratmağa, yuxarıda qeyd olunan suallara konkret tarixi faktlar əsasında aydınlıq gətirməyə çalışaq:

...1931-ci ilin yazında Ermənistan "NKVD"-sinin Basarkeçər rayonundakı daşnaklardan ibarət dəstəsi növbəti həbslər aparmaq üçün Böyük Qaraqoyunluya gəlir. Hədəf kəndin imkanlı nəsillərindən olan Nağılar tayfasının ağsaqqalları idi. Amma çekist qiyafəli daşnaklar bu dəfə istədiklərinə nail ola bilmirlər. Tayfa comərdləri "çekist"ləri silahla qarşılayırlar. 10-12 nəfərlik dəstə darmadağın edilir, çekist bölüyünün komissarı isə alnına dəymiş güllədən həlak olur. Növbəti gün kəndə çekistlərin təxminən 100 nəfərlik dəstəsi yeridilir. Lüzumsuz tələfata yol verməmək üçün, "asi"lərin 12-13 nəfərlik ilk dəstəsi kəndi tərk edir, "Pir" deyilən strateji yüksəkliyə çəkilərək, erməni çekistlərinin həmləsini burada qəbul edirlər və... Təxminən 10 saat davam edən döyüşdə "qızıl ordu" 16 erməni döyüşçüsü itirsə də, "qaçaq"lar bir nəfər belə itki vermədən gecəykən dağlara çəkilirlər.

Basarkeçər NKVD-sinin bu qəbil "qolçomaq ovu" şübhəsiz ki, o dövr üçün səciyyəvi hal idi. Amma Qaraqoyunluda Nağılar tayfası ilə açıq qarşıdurma, o dövrün özündə belə, kifayət qədər müəmmalı görünürdü. Çünki NKVD-nin hədəf götürdüyü Nağılar tayfası Basarkeçər nahiyəsinin İnqilab Komitəsinin sədri, yəni XX əsrin 20- 30 - cu illərində kəsdiyi başlara sorğu - sual olmayan "revkom" deyilən bir vəzifənin sahibi olan Qaçaq Cəmilin dayı nəsli idi. "Yerin altından da, üstündən də bircə anda xəbər tutan" sovet NKVD-sinin yerli nümayəndələrinin bu həqiqətdən bixəbər olmasını düşünmək sadəlövhlük olardı. Deməli, əgər Nağılar tayfası ilə bağlı bir problem olsaydı belə, NKVD bu anlaşılmazlığı qan tökmədən, elə Qaçaq Cəmilin əliylə də həll edə bilərdi. Baxmayaraq ki,

o vaxt "sovet rayonlarının təşkili" adı altında revkomun səlahiyyətləri qismən məhdudlaşdırılmışdı, bununla belə, hər halda Qaçaq Cəmilin şəxsi nüfuzu kimsəyə sirr deyildi. Amma nə qədər qəribə olsa da, revkomun dayılarına qarşı hərbi əməliyyat ondan xəbərsiz, Qaçaq Cəmil yas mərasimində iştirak etmək üçün Gəncəbasarda olarkən, həyata keçirilirdi. Bunca müəmmalı məxfiliyə səbəb nə idi?

Məsələ burasında idi ki, Basarkeçər rayonu ərazisində və ümumən Göyçədə Cəmilin nüfuzunun "revkom"luğu ilə yox, məhz qəhrəmanlığı və milli təəssübkeşliyi ilə bağlı olduğu həqiqətini hər kəs, o cümlədən NKVD-nin əsasını təşkil edən daşnak - kommunist güruhu çox gözəl bilirdi. Onu da bilirdilər ki, 1915-1920-ci illərdə Cəmilin qaçaqlığını şərtləndirən əsas amil, o zamanlar sovet ədəbiyyatının qondarma arqumenti olan "bəylərin azğınlığı faktı" yox, Çar Rusiyasının ermənilərə hakimi - mütləqlik yaratması gerçəkliyi olub. Başqa sözlə, "revkom" Cəmilin 1915-1920-ci illərdəki qaçaqlığını heç bir vəchlə "bəylərin zülmündən zinhara gəlmiş zəhmətkeş" haləsinə bürümək mümkün deyildi. Ən azı ona görə ki, Cəmil əsil - nəcabətinə görə kasıb sayılmırdı, əksinə ümumən Göyçənin imkanlı adamlarından biri kimi dəyərləndirilirdi. Dayı nəsli, Hacı Nağı törəmələri mahalın ən varlı adamları olmaqla yanaşı, atası da Cəmilə mükəmməl təhsil verəcək qədər imkan sahibi idi. Cəmilin erməni istilasına və çar zülmünə qarşı mübarizələrin önünə çıxmasını da, əslində bu reallıqlar şərtləndirirdi. Bir tərəfdən savadlı olması, digər tərəfdən həm ata, həm də ana nəsilləri tərəfdən ciddi dəstəyi, üstəlik qanındakı milli təəssübkeşlik onu təbii şəkildə önə çıxarmışdı. Və əslində 1915-1920-ci illərdə Cəmil heç bir gün də dağlara çəkilməmişdi; sadəcə, ətrafındakı igidlərlə birgə mahalda erməni azğınlığının və erməni quldurlarına rus havadarlığının qarşısına sipər çəkirdi. Qaçaq titulunu isə ona görə qazanmışdı ki, Nor Bayazit qəzasının rus pristavı onu heç cür tuta bilmirdi. Daha doğrusu, Cəmilin Göyçənin bütün türk obalarında doğma adam kimi hifz olunması, ermənilərin şikayətinə əsasən tutulmalı olan bu şəxsin həbsini mümkünsüzləşdirirdi; bu səbəbdən də, erməni sifarişini yerinə yetirməkdə aciz olduğunu anlayan pristav Cəmilin "qaçaq"lığı barədə rəvayət uydurmaq məcburiyyətində idi.

1919-cu ildə Səmənd Ağanın ümumi rəhbərliyi ilə Zod kəndi yaxınlığında Andronik Ozanyanın quldur qoşununa qarşı keçirdiyi döyüş və quldur dəstəsinin rəhbəri Sulikovu əsir alaraq, başını Səmənd Ağanın ayaqları altında kəsməsi gənc Cəmili, təbii bir seçimlə, Göyçə igidlərinin liderinə çevirmişdi. Səmənd Ağanın namərdcəsinə öldürülməsindən sonra yaranmış vəziyyət isə Qaçaq Cəmili çox gənc yaşlarında ümumən Göy-

çənin ağsaqqalına çevirdi. Onun bolşeviklər tərəfindən xüsusi rəğbətə layiq görülməsi də, əslində bu reallığın etirafı idi və birmənalı şəkildə demək olar ki, Cəmilin "revkom" tituluna layiq görülməsi böyük rus siyasətinin çox incə məqamı, sovet işğalını reallaşdırmaq naminə faktiki gerçəklik qarşısında zorən güzəştə getməsi idi. Cəmilin "revkom"luğu yerli türklərin erməni təzyiqindən müvəqqəti də olsa yaxa qurtarmasını təmin etməklə, əslində sovetlərə bu bölgədə maneəsiz möhkəmlənmək şansı verirdi. Amma o dövr üçün olduqca zəruri olan bu sakitlik sovetlərə öz mövqelərini tam mənada təmin edənə qədər lazım idi və şübhəsiz ki, Sovet Rusiyasının bu yerlərdə əsas istinad qüvvəsi olan kommunist - daşnaklar Cəmilin kimliyini, keçmişini, Andronik qoşununa qarşı tarixi döyüşünü, Sulikov faciəsini unutmamışdılar. Təbii ki, Qaçaq Cəmilin real gücünü şərtləndirən qüvvələr də diqqətdən kənarda qalmamışdılar: dostları, eləcə də Qaçaq Cəmilə hər yöndən dəstək olan qohumları hədəfdə idilər. Revkom Cəmilin cəmi 3 günlüyə rayonda olmamasından istifadə edərək, dayılarının həbsinə təşəbbüs göstərilməsi 12 ildən bəri ermənilərin ürəyində yığılıb qalmış qisas niyyətinin açılma məqamı idi. Və burada da erməni xislətinin iyrəncliyi tam aşkarlığı ilə sezilir: ermənilər bu əməliyyata başlayarkən Qaçaq Cəmilin tələdən qurtara bilməyəcəyini ən incə detallara qədər hesablamışdılar. Belə ki, Revkom Cəmil "siyasi sayıqlıq" nümayiş etdirsəydi, yəni doğma dayılarına, ona çörək verən insanlara nankorluq etsəydi, elin gözündən düşəcək, nüfuzunu itirəcəkdi ki, bu da elə Cəmilin məhvi demək idi. Dayılarının həbsi ilə razılaşmayacağı təqdirdə də məsələ aydın idi. Bir sözlə, Revkom Cəmilin timsalında Göyçənin əzəli əbədi sakinləri olan oğuz türklərinə ikili quyu qazılmışdı: ya əhali ilə revkom arasında nifaq düşməli, ya da Cəmilin timsalında dövlətin türklərə etibarı itməliydi. Vəziyyəti öz nəzarətində saxlamaq üçün, "mərkəz" hər iki halda bölgədəki digər qüvvədən - ermənilərdən istifadə məcburiyyətində qalırdı. Bu isə ermənilərin illərdən bəri arzuladığı məqam - Göyçənin taleyini öz istəklərinə uyğun həll etmək üçün dövlətdən rəsmi səlahiyyət almaq şansı idi. Qaçaq Cəmil isə öz çevik manevri ilə ermənilərin bu şansdan istifadəsini gücü yetdiyi qədər, nə az - nə çox, düz 3 il əngəllədi.

Hadisədən hələ yolda ikən xəbər tutan Cəmil, çox güman ki, ermənilərin planının mahiyyətini sövq-təbii duyduğundan, öz səlahiyyətlərindən istifadə edərək araşdırma aparmağa, yəni NKVD-ninmi, yoxsa dayılarınınmı haqlı olduğunu aydınlaşdırmağa lüzum görmür; birbaşa Böyük Qaraqoyunluya gələrək, iki gün ərzində 17 erməni çekisti öldürmüş qaçaqlara qoşulur və strateji cəhətdən əlverişli "Göy yurd" yüksəkliyinə çəki-

lir. Sanki Qaçaq Cəmilin bu siqnalını gözləyirmişlər kimi, cəmi bir həftə ərzində Basarkeçərin bütün kəndlərini antiermənі, antisovet mahiyyətli iğtişaşlar bürüyür; əsasən, Qaraimandan, Böyük Qaraqoyunludan, Bala Qaraqoyunludan, Zoddan olan igidlərin sayəsində Qaçaq Cəmilin yeni qaçaq dəstəsinin sayı 200 nəfəri keçir. Az sonra Qaçaq Cəmilin dəstəsi vaxtilə Göyçədən didərgin düşərək Goranboy, Tərtər, Gəncə ərazisində məskunlaşmış igidlərin hərbi və maddi dəstəyi sayəsində haqq - ədalət nizamlayıcısına çevrilir. Qəribəsi odur ki, Revkom Cəmilin sovetlərə qarşı qaçaqlığı dövründə Basarkeçərdən köçən ermənilərin sayının, buraya xaricdən gətirilənlərin sayından qat - qat çox olduğu rəsmi statistika ilə də təsdiq olunur. 180 illik dövr ərzində Göyçədə erməni məskunluğunun dinamik artımına rəğmən, 1930-1934-cü illərdə bu prosesin əks xarakter almasına nə sovet, nə də qazdan ayıq erməni tarixçiləri şərh verməyiblər. Niyə?

İzah çox sadədir: Göyçə qiyamının "unutdurulması" barədə "mərkəz"in sərəncamı olub, çünki bu qiyamın təfərrüatına varılması sovet millitarizminin, Stalin hakimiyyətinin antitürk mahiyyətinin çılpaq etirafı olardı. Stalin rejimi isə belə etiraflardan çox - çox uzaq idi. Ermənilərin "Göyçə revkomunun dönüklüyü" barədə informasiyaları Moskvaya necə çatdırdıqlarının təxmini mənzərəsi bəlli olduğu üçün, "mərkəz"in konkret haldakı qəzəbinin həddini də təsəvvür etmək çətin deyil. Və Göyçə qaçaqlarına qarşı mübarizənin amansızlığının məhz bu qəzəbin səviyyəsinə düz mütənasib olduğu da şahidlərin təsdiqlədiyi gerçəklikdir.

...1934-cü ilin soyuq fevral aylarına qədər sovet rejimi timsalında Basarkeçərin erməni kommunistlərinə və daşnak tör - töküntülərinə divan tutmuş Göyçə qaçaqlarının nizami hərbi birləşməsində 6 bölük fəaliyyət göstərib ki, hər biri 50 nəfərdən ibarət olan bu bölüklərə Kərbəlayi Miri, Abbasəli, Rəsul, Yapon (ləqəbi, yaxud adı olduğu bəlli deyil), Lətif və Sayad Kərbəlayi Çoban oğlu rəhbərlik ediblər. Dəstənin ümumi rəhbəri Cəmil Əmiraslanoğlu, baş məsləhətçisi (qərargah rəisi) Göyçənin ən nüfuzlu ağsaqqallarından biri olmuş qaraimanlı Məşədi İsənin oğlu Musa, çevik zərbə korpusunun (qəfil gecə hücumları edən süvari alay) rəhbəri Bəylər olub. Dəstənin silah - sursatla təchizat məsələlərini o zaman Gəncəbasarda məskunlaşmış və el arasında Qaradağlı Qara Aslan kimi məşhur olan şəxsin 20-25 nəfərlik kəşfiyyat dəstəsi həyata keçirir, Vedibasar qiyamçılarının rəhbəri Kərbalayi İsmayılla əlaqələri Alaboğaz Haxoy təmin edirmiş. Fəaliyyət göstərdiyi 4 il ərzində dəstə yerli türklərə qarşı təqiblərə görə Revkomun Basarkeçərdəki binasına 20-dən çox həmlə endirib və yaddaşlardakı statistikaya əsasən, bu əməliyyatlarda 100-dən çox erməni çekisti və kommunistinin məhv edilməsi müqabilində qaçaqlar

bircə nəfər belə itki verməyiblər. Göyçə qaçaqlarının bu üstünlüyü psixoloji cəhətdən o qədər qabarıq olub ki, digər bölgələrdə "asilər"in ailələrinə divan tutan ermənilər, Göyçə qaçaqlarının kəndlərdə qalmış ailələrindən bir nəfəri belə tutmağa cəsarət etməyiblər. Və erməni - sovet hökumətinin bu çarəsizlik burulğanı Göyçə qaçaqlarına qarşı dövlət səviyyəli hərbi əməliyyata qədər davam edib.

...1934-cü ilin boranlı fevral günlərində əlverişli hava şəraitindən istifadə edən Ermənistan Daxili İşlər Komissarlığının Sevan, Kamo, Martuni və Basarkeçərdən səfərbərliyə aldığı erməni dəstələri İrəvandan gətirilmiş hərbi hissə ilə birgə qaçaqların gizləndiyi "Göy yurd" yüksəkliyini mühasirəyə alırlar. Boran səngiyib hava sakitləşən kimi təxminən 500-600 nəfərlik erməni birləşmələri hücuma keçirlər və 2 gün davam edən qanlı döyüşlərdə ciddi itkilər verən Göyçə qaçaqları mövqelərini tərk edərək, Azərbaycan ərazisinə keçməyə məcbur olurlar. Hadisədən xəbərdar olan qaçaqların yaxınlarından aldığımız məlumata görə, Cəmilin 300 nəfərlik dəstəsindən təxminən 30-40 nəfər salamat qalıb. "Göy yurd"a meyidlərin dalınca gedənlərin şahidliyinə görə, qışın oğlan çağında düm ağ libasa bürünmüş dağların ətəyindəki qaçaq məskəni al - qırmızı lalə rəngindəymiş və hökumət qoşunları meyitlərin dəfninə icazə verməyib. Şahidlərin ifadəsindən o da bəlli olur ki, həmin tarixi döyüşdən sonra hökumət düz bir həftə arabalarla erməni cəsədi daşıyıb. Təxmini hesablamalara görə, ermənilər "Göy yurd"da 400 nəfərə qədər itki veriblər. Sağ qalaraq sonradan bir müddət Samux meşələrində gizlənən, Mingəçevir SES tikiləndən sonra isə başqa adlar altında Gəncəbasar bölgəsində məskunlaşan qaçaqlardan biri - Böyük Qaraqoyunlunun Nağılar tayfasından olan, Cəmilin dəstəsində bölükbaşı vəzifəsini icra etmiş Abbasəli də çox sonralar bu təxmini statistikanı təsdiqləyib.

Açıq döyüşdə heç cür bacara bilmədikləri Göyçə qaçaqlarına qarşı ürəklərində yığılmış kinlərinin əvəzini ermənilər sonradan dinc əhalidən, əsasən də qaçaqların yaxınlarından çıxdılar. 1934-cü ildən başlayaraq II Dünya müharibəsinə qədər, Göyçədən təxmini hesablamalara görə, dörd yüzə qədər ailə sürgün edilib ki, onların çox az qismi sonradan geri qayıdıb. Qazaxıstan çöllərinə, Sibir meşələrinə qədər uzanan bu sürgünlük həyatı ilə də kifayətlənməyiblər ermənilər. Qaçaq Cəmilin ata yurdu olan Bala Qaraqoyunlu kəndi kolxozlaşma adı altında ümumiyyətlə ləğv edilmiş, əhalisinin sürgünlükdən yayınan qismi qonşu kəndlərə köçürülmüş; Cəmilin dəstəsində çoxluq təşkil edən Böyük Qaraqoyunlu və Qaraiman kəndlərinin sakinlərinə qarşı xüsusi repressiya tədbirləri görülmüş, nəticədə bu kəndlərin əhalisinin yarıdan çoxu, təqiblərdən yaxa qurtarmaq

üçün, Tərtər və Goranboy rayonlarında, cüzi hissəsi isə Gürcüstanda, Aran Borçalıda məskunlaşmışdır.

Ümumilikdə isə, rəsmi statiskiya görə, XX əsrin 30-45-ci illərində Göyçənin əzəli sahiblərinə qarşı keçirilən repressiv tədbirlər "sürgün edilən 15.000 nəfər, tam ermənilәşdirilən 7 və yerlə-yeksan edilərək, xəritədən silinən 9 kənd" kimi faciəli statistika ilə ifadə olunur və nə yazıq ki, bu faciəvi statistika Böyük Vətən Müharibəsi deyilən savaşda minlərlə qurban verən Göyçə üçün sonuncu olmadı.

**Müharibədən sonrakı müharibə və ya alman faşizmi cəbhəsindən erməni faşizmi cəbhəsinə**

Ümumən Ermənistanda yaşayan türk əhalisinə, o cümlədən Göyçənin əzəli sakinlərinə qarşı növbəti erməni qəsdinin əsası 1943-cü ildə Tehran konfransı zamanı İ.V.Stalindən "xaricdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsinə razılıq" alınması ilə qoyuldu. 1946-cı ilin əvvəlində "Hincak" və "Ramkavar" partiyaları və Ümumerməni Xeyriyyə İttifaqı 130 min ermənin Ermənistan SSR ərazisində yerləşməsinin təşkili üçün 1 milyon dollar vəsait ayırdıqdan sonra, 1946-cı ilin noyabrında bu məsələ rəsmi müstəviyə çıxarıldı. Təbii ki, ermənilər üçün əsas olan xaricdə yaşayan soydaşlarının gəlişi yox, türklərin sıxışdırılıb çıxarılması idi və bu işi o zaman birbaşa hərbi təcavüz yolu ilə həyata keçirmək mümkün olmadığı üçün, daha hiyləgər gedişə əl atıldı: güya Azərbaycan SSR - nin Kür - Araz ovalığında pambıqçılığın inkişafını təmin etmək üçün, işçi qüvvəsi qismində "Ermənistan SSR - dən kolxozçuların və başqa əhalinin Azərbaycan SSR - nin Kür - Araz ovalığına köçürülməsi haqqında" qərar qəbul edildi. SSRİ Nazirlər Sovetinin 27 dekabr 1947-ci il tarixli 4083 nömrəli bu qərarına uyğun olaraq, 10 mart 1948-ci ildə 754 saylı sərəncamla konkret tədbirlər müəyyənləşdirildi ki, bu da təxminən 100 min türkün deportasiyası üçün hüquqi baza mahiyyəti daşıyırdı. Ermənilərsə 100 min nəfərin deportasiya planını 144 faiz yerinə yetirməyə müvəffəq oldular. Bundan əlavə isə müxtəlif təzyiqlər ucbatından təxminən 50 min nəfər türk Ermənistanı "könüllü" tərk etdi. Burada əsas diqqətçəkici məqam isə o idi ki, ermənilər türklərin deportasiyasına Stalinin razılığını almaq üçün əsas kimi "xaricdən gələn ermənilərin şəhər əhalisi olmaları səbəbiylə kəndlərdə məskunlaşmaq istəməmələri"ni göstərmişdilər. Tutaq ki, bu həqiqətən belə idi və bu səbəbdən ermənilərin geri qayıtması SSRİ - nin beynəlxalq imicinə zərbə vura bilərdi. Elə isə kolxozçuların köçürülməsi barədə qərar qəbul edilməsi hansı məntiqə sığırdı. Axı "kolxozçu" termininin məhz kənd təsərrüfatı ilə məşğul olan kənd əhalisini ehtifa etdiyi SSRİ rəhbərliyi üçün sirr deyildi. İkinci-

si, əgər xaricdən gələn ermənilər yalnız İrəvan və yaxın şəhərlərdə məskunlaşmaq istəyirdilərsə, onda ucqar dağlıq zonası olan Ağbabanın, Göyçənin köçürülməsinə səbəb nə idi?!. Reallıq isə ondan ibarətdir ki, ermənilər məhz Türkiyə və Azərbaycanla həmsərhəd kəndləri, bir də Göyçə gölü sahilində kompakt yaşayan türk obalarını boşaltmaq niyyətindəydilər və İ.V.Stalinin türklərə qarşı nifrətindən ustalıqla yararlanaraq, bu niyyətlərini, qismən də olsa, reallaşdıra bildilər. Bu tarixi cinayət Göyçədən də yan ötmədi.

Yenicə təşkil edilmiş "Sevan", eləcə də Kamo və Martuni rayonları ərazisində türk kəndləri birmənalı şəkildə ləğv edildi, hər üç rayon etnik tərkib etibarı ilə "saflaşdırıldı". Belə ki, Kamo (əvvəlki Kəvər) rayonunun Ağqala kəndinin 587, Ağzıbir kəndinin 1351, Başkənd kəndinin 941, Kuzəcik kəndinin 634, Hacı Muğan kəndinin 244; Martuni rayonunun (əvvəlki Aşağı Qaranlıq) Karvansara kəndinin 938, Mollalı kəndinin 439, Mədinə kəndinin 197, Qızılxaraba kəndinin 345, Aşağı Alçalı kəndinin 174, Aşağı Qaranlıq kəndinin 423, Yanıx kəndinin 181; Sevan rayonunun Ördəkli kəndinin 186, Əfəndi kəndinin 86, Çubuxlu kəndinin 37 nəfər türk əhalisinə qarşı 1948 - 1953 - cü illərdə həyata keçirilən deportasiya tədbirlərindən sonra bu rayonlarda türk izi silinmiş oldu. Basarkeçər rayonunda isə bu aksiya qismən ağrısız oldu. Daha doğrusu, o illərdə Basarkeçərdə türklərin demoqrafik üstünlüyü səbəbiylə rəhbərlər arasında türklərin üstünlük təşkil etməsi burada ermənilərə istədikləri qədər əl -qol açmağa imkan vermədi. O zaman Basarkeçər rayon Partiya Komitəsinin birinci katibi olan **Talıb Musayev**in və SSRİ Ali Sovetinin Ermənistandan olan yeganə türk deputatı **Aydın Məmmədov**un qətiyyətləri sayəsində Basarkeçərdə türklərin deportasiyası kütləvi xarakter almadı. Bu iki şəxsiyyət çevik manevrlə erməniləri Basarkeçərin boşaldılmasından bir növ çəkindirməyə məvəffəq oldular. Belə ki, onların birgə təşəbbüsü sayəsində Mir Cəfər Bağırov Basarkeçərdən köçürülənlərin Gəncə, Xanlar, Tərtər, Bərdə zonasında yerləşdirilməsini təmin etdi və bu da ermənilərin gözləmədiyi əks prosesə təkan verdi. Deportasiyaya məruz qalmış Basarkeçər əhalisinin gəlişindən az sonra Gəncə, Xanlar, Tərtər zonasında məskunlaşmış ermənilərin Ermənistana üz tutması erməni ideoloqlarının planları ilə əsla uyuşmurdu və ona görə də, Basarkeçərdən deportasiyanı dayandırmaq məcburiyyətində qaldılar. Bununla belə, Talıb Musayevin və Aydın Məmmədovun cidd-cəhdlərinə baxmayaraq, 1948 - 1953 - cü illərdə Basarkeçərin 7 kəndindən təxminən 5500 türk deportasiyaya məruz qaldı ki, bu faciəvi statistikanın da təsnifatı belədir: Yarpızlıdan 1400, Qanlıdan 640, Qızılvəngdən 1421, Zoddan 1400, Yuxarı Zağalıdan 400, Çaxırlıdan 200,

Kərkibaşdan 130 nəfər hökumət səviyyəsində öz dədə -baba yurdundan didərgin düşmüşdür. Amma bu, rəsmi qərarla köçürülənlərin sayıdır. Həmin dövrdə müəyyən təzyiqlər səbəbiylə Ağkilsə, Daşkənd, Göysu, Canəhməd, Tüstülü, Subatan kəndlərindən qeyri - rəsmi olaraq köçənlərin sayı təxminən rəsmi statistikadakı rəqəmə bərabər idi. Düzdür, sonrakı illərdə bu adamların bir qismi öz boş qalmış yurdlarına döndülər, amma dönənlərin ümumi sayı köçürülənlərlə müqayisədə heç 20 faiz belə təşkil etmirdi. Bu qayıdışı əngəlləyən əsas səbəblərdən biri həmin illərdə türk toponimlərinə və türk ziyalılarına qarşı həyata keçirilən total genosid faktı idi. Bu proses alt qatda aparıldığından kütləvi etiraza səbəb olmasa da, hər halda türklərin Göyçəyə dönüşünü əngəlləyən, eləcə də Göyçədən Azərbaycana köçü stimullaşdıran amil kimi çıxış edirdi və Ermənistan hökumətinin 1964-cü ildə "Türkiyədə erməni genosidinin 50 illiyi"nin, 1965-ci ildə isə "Erməni cəlladı Andronik Ozanyanın anadan olmasının 100 illiyi"nin qeyd olunması barədə qərarlarından sonra, Ermənistanın hər yerində olduğu kimi, Göyçədə də türklərə qarşı repressiyalar dözülməzlik həddinə qədər gücləndi. 1964-cü ildən başlayaraq, iki on illik ərzində ali təhsilli türk gənclərinin işlə təminatı demək olar ki, sıfır səviyyəsində olduğundan, zəruri "könüllü" deportasiya kütləvi xarakter aldı. Əgər XX əsrin 60 - cı illərinin ortalarında, o zaman Basarkeçər rayon Partiya Komitəsinin birinci katibi olan **Yunis Rzayev**in, Krasnoselo rayon Partiya Komitəsinin rəhbəri olan **Əli Həsənov**un və SSRİ Ali Sovetinin deputatı **İman Hüseynov**un şəxsi dəyanətləri sayəsində bu "könüllü deportasiya"nın qarşısı, qismən də olsa alınırdısa; Yunis Rzayevin və Əli həsənovun "irəli çəkilmək" bəhanəsi ilə Göyçədən uzaqlaşdırılmasından, İman Hüseynovun isə vəfatından sonra Basarkeçərdə erməni repressiya maşınının qarşısını ala biləcək yeganə adam təhsil şöbəsinin müdiri **Tapdıq Əmiraslanov** idi ki, XX əsrin 70 - ci illərinin ortalarında onun qəfil (???) ölümündən sonra Göyçədə türklərin erməni repressiyasına müqaviməti mərkəzləşmiş yox, məhz məhəlli, yəni kəndlər səviyyəsində müqavimət xarakteri daşıyırdı. Bu da, heç şübhəsiz, lazımi effekti vermirdi, verə də bilməzdi. XX əsrin 70-ci illərində Basarkeçər RİK sədri, sonradan Amasiya RPK - nın I katibi, "Sovet Ermənistanı" qəzetinin redaktoru olmuş **Zərbəli Qurbanov**un, Şişqaya sovxozunun rəhbəri, el ağsaqqalı **Mikayıl Bayramov**un, Qaraimandan **Polad Rüstəmov**un, Böyük Məzrədən **Mansur Mirzəyev**in, **Telman Muradov**un, **Teyyub Köçəriyev**in, Qaraqoyunludan **İsrafil Babayev**in, Zərzibildən **Cəmşid Hənifəyev**in, Göysudan **Qurban Əzizov**un, Şişqayadan **Tapdıq Cəfərov**un, eləcə də Göyçənin atıb-vuran igidləri **Zodlu Kor Yunus**un, **Qaraqoyunlu Keçəl Şahmar**ın (Qaçaq Cəmilin dəstəsin-

də bölükbaşı olmuş Abbasəlinin böyük oğlu) şəxsində zaman-zaman kəskinləşən bu müqavimət vaxtilə Basarkeçər RPK katibi, sonradan "Azərbaycan gəncləri" qəzetinin redaktoru, Şuşa, İsmayıllı, Abşeron rayonlarının birinci katibi olmuş **Qəşəm Aslanov**un, o zaman artıq Azərbaycan SSR Üzümçülük və Şərabçılıq Komitəsinin sədri olan **Yunis Rzayev**in, əslən göyçəli olan, vaxtilə "Sovet Ermənistanı" qəzetinin baş redaktoru və Ermənistan SSR Ali Soveti sədrinin müavini işləmiş **Həbib Həsənov**un timsalında Azərbaycandan mənəvi dəstək alsa da, ümumi hesabla heç nəyi həll etmək gücündə deyildi. Qəşəm Aslanovun qətlindən və Yunis Rzayevin ölümündən sonra bu pərakəndlik daha da dərinləşdi ki, onun da ağrısını Göyçənin Oğuz Eli 1988-ci ilin açıq hərbi təcavüzü zamanı tam şiddəti ilə hiss etdi.

1988-ci il fevralın 20-də keçmiş DQMV-nin Xalq Deputatları Soveti "Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibindən çıxarılaraq, Ermənistan SSR-in inzibati-ərazi bölgüsünə daxil edilməsi haqqında" qərar qəbul etdikdən sonra ermənilər, hər yerdə olduğu kimi, Göyçədə də açıq hərbi təcavüzə cəhd göstərdilər. 1988-ci il mart ayının 26-sını "Sumqayıtın qisas günü" elan etmiş "Krunk" cəmiyyətinin çağırışına cavab olaraq, ermənilər Basarkeçərdə də qanlı aksiyalar törətmək iddiasına düşmüşdülər. Güya bu qırğının qarşısını almaq istəyən SSRİ rəhbərliyinin hiyləgər taktikası da əslində hələ 1988-ci il martın 26-da, yəni faciəvi 1918-ci il qırğınlarının 70-ci ildönümü günlərində Ermənistanın türklərdən təmizlənməsi üçün real şərait yaratmışdı. Belə ki, güya millətlərarası toqquşmaya yol verməmək mahiyyəti daşıyan fövqaladə vəziyyət rejimi, o vaxt cəmi 300-500 türkün yaşadığı Yerevan şəhərində, bir nəfər türkün belə yaşamadığı Leninakanda tətbiq edilmiş, türklərlə ermənilərin qarışıq yaşadığı kənd rayonları isə "unudulmuşdu". Əlverişli şəraitdən yararlanan "Krunk" əsasını Türkiyə və İrandan köçürülənlərin təşkil etdiyi Martuni və Kamo rayonlarındakı fəallarını səfərbər edərək, demoqrafik üstünlük türklər tərəfdə olan Basarkeçərə yeritmişdilər və... Martın 26-da "Krunk" fəalları gözləniləmin tam əksi olan mənzərə ilə rastlaşdılar. Basarkeçər rayon mərkəzinin türk kəndlərinə yaxın qəsəbəsində - "Zod ORS" deyilən hissədə yaşayan ermənilər gecə ikən qəsəbəni tərk edərək, təhlükəsiz evlərə çəkilmişdilər. Elə həmin gün ZOD mədənlərində işləyən Nərimanlı kənd sakini Fazil bir türk oğlu onunla axmaq zarafat edən bir ermənini ağır traktorun təkərləri altında əzərək öldürmüş, cəmi 11 türk ailəsinin yaşadığı Tüstülü kəndindən isə gənc bir türk balası onu hədələyən erməni həmyaşıdını bıçaqla yaralamışdı. Bu hadisələrdən qaynaqlanan xof erməniləri uzun zaman tərk etmədi və yəqin ki, Göyçədə başla-

yan mitinqlər Azərbaycandan heç olmasa mənəvi dəstək alsaydı, proseslər tam əks istiqamətdə cərəyan edəcəkdi, ermənilərin Qarabağ iddiasının müqabilində "Göyçənin Azərbaycan SSR-in inzibati ibölgüsünə daxil edilməsi" tələbi rəsmiləşəcəkdi. Nə yazıq ki, 1988-ci ilin yazında 17 türk kəndi nümayəndələrinin iştirakı ilə Nərimanlı kəndi ərazisindəki Göy körpüdə (1919-cu ildə Sulikovun başının kəsildiyi yerdə) və Krasnoselo rayonu ərazisindəki türk kəndlərinin birləşmiş səyi ilə Şorca kəndində başlamış və əsas tələbi **"Göyçənin Ermənistan SSR - in tərkibindən çıxarılaraq, Azərbaycan SSR - in ərazi - inzibati bölgüsünə daxil edilməsi"** olan mitinqlər nə Azərbaycanın ölüvay Bağırov rəhbərliyi, nə satqın Vəzirov hakimiyyəti, nə də bu gün özünü milli - azadlıq mücahidləri kimi təqdim edən "Varlıq", "Çənlibel", "Gənc alimlər klubu" kimi çoxsaylı təşkilatlar tərəfindən dəstəklənmədi və...

1988-ci il noyabr ayının 22-də Ermənistan SSR Ali Sovetinin sessiyası öz işini yarımçıq dayandıraraq, bütün istansiya rəhbərlərinə **"noyabr ayının 28-dək respublikanın türklərdən təmizlənməsini təmin etmək"** tapşırığı verdi. Ermənistanın bütün rayonlarına şamil edilən bu qərarın təsir dairəsinin mərkəzinə şübhəsiz ki, Göyçə mahalı və Ağbaba bölgəsi düşürdü. Çünki 1988-ci ilin noyabr ayınadək digər rayonlardan türklərin deportasiyası, demək olar ki, başa çatdırılmışdı. Odur ki, Göyçə və Ağbabadan türklərin deportasiyasına rəhbərlik Ermənistan Respublikasının ali rəhbərliyinə həvalə edildi. Bu gün Ermənistan dövləti bu faktı danmağa cəhd etsə də, tarixi gerçəkliyi gizlətmək mümkün deyil. Çünki hadisənin canlı şahidləri var. Təbii ki, ermənilər o şahid ifadələrini birtərəfli təbliğat kimi dəyərləndirməyə çalışırlar. Odur ki, hadisələrin tam mənzərəsini təsəvvür etmək üçün Göyçənin əzəli sakinlərinin yox, o zaman Göyçə qızıl mədənlərində çalışan, milliyyətcə rus olan **L.V.Tolstyak**ın şahid ifadəsindən bir məqama diqqət yetirmək kifayətdir. O, öz şahid ifadəsində deyir: **"1988 - ci il noyabr ayının 27 - də Ermənistan SSR Nazirlər Soveti sədrinin birinci müavini, sonradan Ermənistan KP MK - nin birinci katibi olmuş V.Movsesyan Vardenis (Basarkeçər) rayonunun Zod kəndinə gələrək, yerli əhalinin kəndi tərk etməsi üçün 3 gün vaxt verdiyini, əks halda təhlükəsizliyə təminat verilməyəcəyini bildirdi. Elə həmin gün kəndə elektrik enerjisi və ərzaq verilməsi dayandırıldı, gecələr kənd atəşə tutuldu".** Bu 1988-ci ilin noyabrında Göyçədə həyata keçirilən soyqırımının başlanğıcı idi və bir həftə ərzində tüğyan edən faciələrə Azərbaycan hökuməti tam laqeydliklə yanaşdı. Ə.Vəzirov isə bilavasitə ermənilərin tərəfdaşı rolunda çıxış etdi: deportasiyanı həyata keçirmək üçün erməni tərəfinə

nəqliyyat yardımı göstərən Azərbaycan KP MK - nın birinci katibi qaçqınların Azərbaycanın ermənilər yaşayan bölgələrində yerləşməsinə rəsmi qadağa qoydu ki, bunun da nəticəsi tarix üçün üzqarası olan aşağıdakı faciəvi statistikada əks olunur:

**1988-ci ilin 27 noyabr - 5 dekabr aralığında ermənilərin həyata keçirdikləri qətliamlar nəticəsində Göyçə 56 şəhid (45 nəfər Basarkeçər, 11 nəfər Çənbərək rayonu ərazisində) şəhid verdi, Göyçənin son 80 min nəfər əzəli sakini didərgin düşdü, əhaliyə şəxsi əmlak qismində 500 milyon, ictimai təsərrüfatların əmlakı qismində 1 milyard dollar həcmində ziyan dəydi...**




# GÖYÇƏDƏ TARİXƏN MÖVCUD OLMUŞ KƏNDLƏR HAQQINDA

# ENSKLOPEDİK

## MƏLUMAT

## ABBASGÖLÜ

(Camalgöl)

Göyçə gölünün şimal-qərbində, indiki Sevan şəhərindən 12-13 kilometr cənub-şərqdə, indi Geqam sıra dağları adlandırılan Göyəm silsiləsinin şimal başlanğıcının Göyçə gölü səmtində, üç tərəfdən yamaclarla əhatə olunmuş kiçik dağ gölünün ətrafındakı xarabalıqları 1988-ci il deportasiyasına qədər qalan bu kənd haqqında ilk rəsmi məlumata Səfəvi-Azərbaycan dövlətinə dair sənədlərdə rast gəlinir. 1555-ci ilə dair yazışmalardan bəlli olur ki, bu kənd Çuxur Səd bəylərbəylinin inzibati bölgüsünə daxil olan digər ətraf kəndlər üçün inzibati mərkəz rolu oynayırmış. 1723-cü ildə Göyçə hövzəsi bütünlüklə osmanlıların nəzarətinə keçdikdən sonra tətbiq edilən inzibati bölgüdə kənd İrəvan əyalətinin Göyçə nahiyəsinin inzibati vahidlərindən biri kimi təsniflənmişdir. 1728-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsindəki qeydlərdə kənd öz əzəli adı ilə - XIX əsrdə kəndin faktiki sahibi olmuş Abbas bəyin ulu babası Camal bəyin şərəfinə "Camalgöl" adı ilə təqdim olunur və onun birbaşa sultan xəzinəsinə illik vergisinin 4.190 ağça həcmində olduğu bildirilir. Erməni mənbələrində isə bu kəndə dair ilk məlumat 1828-ci ilə aiddir. Rusiya - İran müharibələri zamanı Abbasgölü dəfələrlə erməni - rus birləşmələrinin hücumuna məruz qalıb dağıdılmış, yeni yaradılmış erməni vilayətinin rəhbərliyi kəndin bərpasına imkan verməmək üçün onun bir inzibati vahid kimi ləğv olunması barədə qərar qəbul etmişdir. Amma ermənilərin bu məkrli niyyətinə rəğmən XIX əsrin ortalarında kəndin əzəli sahibləri doğma ocaqlarını yenidən bərpa etmişlər və bu tarixi reallıq rəsmi sənədlərdə təsbitlənmişdir. 1897-ci ilə dair rəsmi məlumatlarda Nor-Bayazit qəzasının Kəvər nahiyəsindəki Abbasgölü kəndinin 670 nəfər türk əhalisinin olduğu barədə qeydlər edilmişdir. 1918-ci il qətliamları zamanı isə bu qədim türk obası yer üzündən silinmiş, 1930-cu il sentyabrın 9-da sovet hökumətinin apardığı inzibati bölgü zamanı kəndin ərazisi Kamo rayonunun "payı"na düşmüşdür. Kəndin sağ qalan əhalisinin sonrakı taleyi barədə uzun müddət səhih məlumatlar olmasa da, nəhayət zaman hər şeyi öz yoluna qoydu. XX əsrin altmışıncı illərində Türkiyənin ünlü ziyalılarından biri - Qarsdan millət vəkili seçilmiş Abbas Göyçə* öz ad və soyadının mənşəyi barədə danışmaqla, həm də Abbasgölü kəndinin erməni təqiblərindən yaxa qurtarmağa fürsət tapmış əhalisinin sonrakı taleyinə aydınlıq gətirmiş oldu. Belə ki, millət vəkili öz adının XX əsrin əvvəllərində erməni varvarları tə-

rəfindən didərgin salınmış babalarının doğma kəndi Abbasgölünün şərəfinə Abbas, soyadının isə o kəndin yerləşdiyi Göyçə mahalının şərəfinə Göyçə adlandırıldığını bildirirdi. Və o özəl açıqlamadan məlum olur ki, Abbasgölü sakinlərinin 1918-ci il qırğınlarından sağ çıxmış çox cüzi hissəsi kompakt şəkildə Arpaçayın sahilindəki Meydancıq köyünə köç etmiş, oradan isə Türkiyənin Qars vilayətinin müxtəlif nahiyələrinə səpələnmişlər.

* *1927-ci ildə Meydancıqda anadan olmuş Abbas Göyçə orta və litsey təhsilini Qarsda, ali təhsilini Ankara Universitetinin hüquq fakültəsində almış, Erçiş və Onyedə məhkəmə hakimi, Danıştayda yardımçı və baş yardımçı vəzifələri tutmuş, Qarsdan millət vəkili seçilmiş, Türkiyə Böyük Millət Məclisində Anayasa komissiyasının üzvü olmuşdur. Hüquq nəzəriyyəsinə dair bir sıra elmi əsərlərin müəllifidir. Türkiyə ictimaiyyəti Abbas Göyçəni həm də ünlü şair kimi tanıyır.*

## ABDALAĞALI

(Görücüörən)

Göyçə gölün cənub-qərbində, indiki Martuni rayonunun Yuxarı Adyaman (Verin Getaşen) kəndi ilə həmsərhəd bir ərazidə yerləşən bu obanın oğuz türkləri tərəfindən binələşdirilməsinin dəqiq tarixinə işarə ola biləcək rəsmi məlumatlar məxəzlərdə əks olunmasa da, kəndin ərazisində 1988-ci il deportasiyasına qədər toxunulmamış qalan və türk memarlığı nümunəsi olduğu heç bir şübhə doğurmayan V-VII əsrlərə aid qala bürclərinin qalıqları, kəndin müasir coğrafi mövqeyindən təxminən 500-600 metr cənubdakı qayalıqlardakı qoç təsvirləri Abdalağalının eramızdan əvvəlki dövrlərə gedib çıxan qədim tarixinə şahidlik edən maddi sübutlardır. Elə kəndin əzəli adının - Görücüörən toponiminin özü də əslində çox mətləblərdən, bu obada xüsusi təlim görmüş sufi dərvişləri ordeninin, yəni gələcəkdən xəbər vermək qüdrəti ilə seçilən insanların, görücülərin olmasından; yaxud da kəndin sufi dərvişlərin ən ali tituluna, yəni Abdal rütbəsinə layiq görülmüş konkret şəxsə məxsusluğundan xəbər verir. 1723-cü ildə Göyçə hövzəsi bütünlüklə osmanlıların nəzarətinə keçdikdən sonra tətbiq edilən inzibati bölgüyə əsasən Abdalağalı İrəvan əyalətinin Göyçə nahiyəsinin ərazisi kimi təsniflənmişdir. 1728-ci ildə təsdiqlənən və hazırda Türkiyə Respublikasının Başbakanlıq Arxivində saxlanan "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində kənd əzəli adı ilə, Görücüörən kəndi kimi təqdim olunmuş və onun sultan xə-

zinəsinə illik vergisinin 5.210 ağça həcmində müəyyənləşdirildiyinə dair qeyd aparılmışdır.

Türk ellərinin istilası zamanı tarixlə bağlı məsələlərə xüsusi diqqət yetirən və onların məhvində xüsusi amansızlıq göstərən ermənilər Abdalağalıya münasibətdə əsl xislətlərini tam çılpaqlığı ilə büruzə vermişlər. 1826-1828-ci il Rusiya-İran müharibələri zamanı Abdalağalı kəndi bir neçə dəfə əldən - ələ keçmiş və hər dəfə də yandırılmışdır. 1828-ci ildə yeni yaradılmış erməni vilayətinin tərkibinə daxil edildikdən sonra isə məhz toponimin özünün aradan qaldırılması, "abdal" kəlməsi kimi qədim bir kəlmədən yaxa qurtarmaq üçün rəsmi sənədlərdə kəndin adı təhrif edilərək "Əbdülağalı" kimi yazılmışdır. İ.Şopenin tərtib etdiyi siyahılara əsasən 1831-ci ildə Abdalağalıda 532 nəfər türk yaşamışdır. Z.Korkodyanın verdiyi məlumatlardan isə görünür ki, Abdalağalı 1904-cü ilə qədər sırf türk kəndi kimi qalmışdır. 1905-ci il qırğınlarından sonra isə kəndə erməni qaçqınların ilk dəstəsi gətirilmişdir. 1918-ci ildə ermənilərin ciddi cəhdlərinə baxmayaraq, kəndi türklərdən tam təmizləmək mümkün olmamış, Abdalağalı 1937-ci ilə qədər qarışıq kəndlərin siyahısında qalmışdır. Amma bu zaman artıq demoqrafik göstəricilər ermənilərin xeyrinə kəskin surətdə dəyişmiş, Abdalağalı toponimi isə Ermənistan SSR Xalq Komissarları Soveti Mərkəzi İcraiyyə Komitəsinin 3 yanvar 1935-ci il tarixli qərarı ilə dəyişdirilərək, kənd "Vağaşen" adlandırılmışdır. 1937-ci ildə isə Abdalağalının türksüzləşdirilməsi siyasəti dövlət səviyyəsində həll olundu, kənddə olan 27 türk ailəsi kolxoz quruluşunun əleyhdarı olan xalq düşmənləri qismində Qazaxıstanın Cambul vilayətinə sürgün edildilər.

## ADAQALA

(Adahunar - Adahülək-Alağək)

İndiki Sevan şəhərindən təxminən 7-8 kilometr şimal-şərqdə, Göyçə gölünə yarımada şəklində daxil olmuş ərazidə yerləşmiş bu kənd haqqında ilk rəsmi məlumatlar Səfəvi - Azərbaycan dövlətinə aid məxəzlərdə verilir. Həmin tarixi sənədlərdən bəlli olur ki, Adaqala 1555-ci ildən etibarən bir inzibati vahid kimi Çuxur - Səd bəylərbəyliyinin idarəçiliyində olub. 1723-cü ildə səfəvilərlə döyüşlərdə qalib gələrək Göyçə hövzəsinə tam nəzarət imkanı qazanmış osmanlıların tətbiq etdiyi inzibati bölgüyə əsasən Adaqala İrəvan əyalətinin Dərəçiçək nahiyəsinin inzibati idarəçiliyində olmuşdur. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 11-ci səhifəsində kəndin adı "Adağələk" şəklində qeyd olunub

və onun birbaşa sultan xəzinəsinə ödənilən illik vergisinin 3.000 ağça həcmində olduğu göstərilib. Göyçənin söz yaddaşında qalan məlumatlara görə isə, bu kənddə əsasən türkəçarəçilər, şamanlar yaşayıblar.

1826-1829-cu illər Rusiya - İran, Rusiya -Türkiyə müharibələri zamanı kənd yerlə - yeksan edilib, bərpasına imkan verilməyib, ərazisi isə rusların istəyi ilə yaradılmış erməni vilayətinin Nor - Bayazit qəzasının tərkibinə daxil edilib. 1930-cu ilin sentyabr ayında sovet hakimiyyətinin apardığı rayonlaşdırma bölgüsü zamanı Adaqalanın coğrafi mövqeyi Sevan rayonunun ərazisi kimi təsbitlənib. 1988-ci il deportasiyasına qədər bu kəndin yerində yeni bir yaşayış məskəni salınmamışdı, ərazidə təxminən 35 - 40 ocağın xərabələrinin izi və sonradan Qriqorian kilsəsi kimi restavrasiya edilmiş, erməni tarixçilərinin özlərinin eramızdan əvvəlki XVII-XVI əsrlərə aid etdiyi məbəd qalırdı. Bu maddi sübutlar həmin ərazidəki kəndin azı 4000 illik tarixinə şəhadət versə də, erməni tarixçiləri Göyçədə Adaqala adlı kəndin olmadığında israrlıdırlar. Amma fakt odur ki, akademik B. Piotrovskinin aşkarladığı 2750 illik tarixi olan Kələqıran kitabəsində Göyçədəki 23 qalanın adı çəkilir və o sırada birinci ad məhz "Adahuni" kimi təqdim edilir. Ermənilər isə bu faktı diqqətdən yayındırmaq üçün İ. Şopenin 1829-1831-ci illərdə tərtib etdiyi siyahılara istinad edir, Göyçə mahalının dağıdılmış və erməni vilayətinin tərkibinə qatılmış kəndlərin sırasında Adaqala adının qeyd olunmadığı faktını önə çəkirlər. Həqiqətən də kollec assesoru İ. Şopen özünün keçirdiyi kameral siyahıyaalmanın nəticələrinə əsasən Göyçə mahalına dair tərtib etdiyi siyahılarda Adaqalanın adını qeyd etməyib. Amma siyahılar bütünlüklə öyrənildikdə burada da düşünülmüş erməni bicliyinin izləri aşkar görünür. Belə ki, o siyahılarda Göyçənin bir sıra kəndləri - Çubuxlu, Ördəkli, Ağapənahlı, Alparus, o cümlədən Adaqala da Dərəçiçək mahalının kəndləri kimi təsniflənirlər. Halbuki, Dərəçiçək mahalının coğrafi tutumu, adından da göründüyü kimi, özündə Göyçə gölünün yerləşdiyi yüksəkliyi və sahil boyu düzülmüş kəndlərin yerləşdiyi yamacları yox, Göyçə gölü hövzəsinin şimal-qərbindən, yəni Pəmbək və Göyəm sıra dağlarının arasından başlayaraq Mərmərə çayı boyunca cənub-qərbə doğru uzanan dərəni əhatə edir. Göyçə kəndlərinin XIX əsrin əvvəllərindəki ermənilərə məxsus təsnifatında mahalların ərazilərinin bu cür qarışdırılması fitnəkarlıqdan və sonrakı mərhələlərdə tarixi təhriflər üçün zəmin hazırlamaqdan savayı bir şey deyildir. Məsələn: Adaqalanın tarixi ilə maraqlandıqda erməni alimləri Göyçə mahalının kəndlərinin siyahılarına istinadən belə bir kəndin olmadığını "sübuta yetirirlər". Dərəçiçəkdən söhbət düşəndə isə, kəndin xərabələrinin bu mahalın ərazisində olmadığı faktını əsas tutaraq

İ. Şopenin yanlışlığa yol verdiyini, yaxud da kəndin "ölü kənd"lərdən biri oduğunu isbatlamağa cəhd göstərirlər. Əslində isə İ. Şopen yanılmayıb, o ermənilərin yanıltmaclarını, tarixi təhrif etmək üçün apardıqları hazırlıq proqramını, heç özü də fərqinə varmadan olduğu kimi faktlaşdırıb. Bunun belə olduğunu görmək üçünsə o qədər də uzağa getməyə, xüsusi tədqiqatlar aparmağa ehtiyac yoxdur; İ. Şopenin məlum siyahılarına baxmaq kifayətdir. O siyahılarda Göyçənin dağıdılmış 171 kəndindən cəmi 67 - si barədə məlumat yer alıb ki, bunlardan da 40 - ı sadəcə "adı unudulmuş ölü kəndlər" kimi təsniflənib. Bu nə deməkdir? O deməkdir ki, İ. Şopen bir tədqiqatçı kimi faktları təsbitləyərək, erməniləri dağıdılmış hər kənd barədə məlumat vermək məcburiyyətində qoyub. Ermənilər isə gerçək niyyətlərini - XIX əsrin əvvəllərində zəbt etdikləri torpaqların tarixi barədə sonradan qondarma sənədlər tərtib etmək niyyətlərini təbii ki, ondan gizlədiblər. Odur ki, dağıdılmış kəndlərin hansının barəsində İ. Şopen özü məlumat toplaya bilməyibsə, ermənilər də o haqda ya susublar, ya da mahalların ərazilərini bilərəkdən qarışdıraraq, qraf Paskeviç - İrəvanskinin xüsusi tapşırığını yerinə yetirən bu kollec assesorunu, onun vasitəsi ilə də həm dünyanı, həm də tarixin özünü çaşdırmağa cəhd ediblər. Bu cür gedişlər son nəticə etibarı ilə həm də törədilmiş cinayətlərin miqyasını azaltmaq niyyəti güdüb. Belə ki, bir var bir mahalda viran qoyulmuş 108 kəndin siyahısı təqdim olunsun; bir də var o kəndlərdən 5-i başqa mahala aid edilsin, 36 - sı ümumiyyətlə xatırlanmasın, 40 - ı isə əvvəldən dağılmış (hətta o qədər əvvəl ki, kəndin adının belə yaddaşlardan silinməsinə kifayət etmiş olsun) kəndlər kimi təsniflənsin və cəmi 27 dağıdılmış kəndin adı çıxsın ortaya. Fərq və niyyət göz qabağındadır. Bütün bu tarixi reallıqların təhlilindən ortaya çıxan məntiqi nəticə odur ki, XIX əsrin əvvəllərində erməni - rus hərbi birləşmələrinin səyi ilə yer üzündən silinmiş və ermənilərin çirkin niyyəti ucbatından adı Göyçə kəndlərinin siyahısından çıxarılmış qədim türk obalarından biri də Adaqaladır. İndi həmin ərazidə Eçmiədzin kilsəsinin xüsusi rejimli qapalı məktəbi yerləşir ki, həmin məktəbdə də Böyük Ermənistan ideyası uğrunda ölümə hazır olan fanat kamikadze - keşişlər hazırlanır.

## ADATƏPƏ

Göyçə mahalının Çənbərək nahiyəsindəki Şorca və Ardanış kəndləri arasında, gölə yarımada şəklində daxil olmuş təpəlikdə yerləşmiş bu kəndin xərabəliklərində 1988-ci il deportasiyasına qədər toxunulmamış qalan

V-VI əsrə aid məbədin və qoç şəkilli qəbirüstü kitabələrin qalıqlarına istinadən onun azı 1800 illik tarixindən söhbət açmaq mümkündür. Amma təəssüf ki, o torpaqlar Azərbaycan türklərinin nəzarətində olanda bu tarixi abidənin tətqiqi barədə düşünən olmadı, indi isə gecdir. Erməni mənbələri isə bu kənd barədə nəinki susmağa çalışırlar, ümumiyyətlə belə bir kəndin olmadığını iddia edirlər. Fakt isə amansız şahiddir: 1828-ci ildə Rusiyanın iradəsi ilə yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalının o zaman yaşayış üçün yararlı sayılan 59 kəndinin İ. Şopen tərəfindən tərtib olunmuş siyahısında 56-cı sırada Adatəpə kəndinin adı gəlir. Məxəzlərə görə , Adatəpənin 1831-ci ildə 129,1873-cü ildə isə 287 nəfər türk əhalisi olub. 1886-cı ilə dair sənədlərdə isə Adatəpə kəndi bir inzibati vahid olaraq siyahılarda yer almayıb. Min illik tarixi, ermənilərin idarəçiliyinə verilən zaman 129 nəfər sakini olan bir kənd birdənbirə qeybəmi çəkildi? Kənd əhalisinin öz minillik yurdunu səbəbsiz tərk etməsini düşünmək absurd olardı. Deməli, səbəbi ermənilərin idarəçiliyində axtarmaq lazım gəlir və istər-istəməz bir məntiqi sual doğur:1873 -1886 - cı illər aralığında adatəpəliləri öz tarixi yurdlarından köçməyə vadar edən hansı hadisə baş verib? Təssüf ki, bütün anoloji hallarda olduğu kimi Azərbaycan tarixi bu suala da cavab verməkdə acizdir. Ermənilərin Adatəpəni xatırlamaq istəməmələrinə, hətta belə bir yaşayış məntəqəsinin olmadığında israr etmələrinə istinadən isə belə bir qənaətə gəlmək olar ki, həmin 12 illik dövrün hansı bir məqamındasa bu gün üstünün açılması ermənilərə sərf etməyən dəhşətli bir cinayət törədilib. Adatəpənin əzəli sahibi olan oğuz türklərinin yaşadığı o faciənin təfərrüatı hələlik tarix üçün qaranlıq olsa da, bir şey tam çılpaqlığı ilə aydındır ki, o tarixi faciənin, bir kəndin yer üzündən silinməsi kimi ağır bir cinayətin tarixi məsuliyyəti ermənilərin və onların havadarı olan xristian hegemonluğu ideoloqlarının üzərindədir.

## ADIYAMAN

Göyçə gölünün cənub-şərqində, Gözəldərə kəndindən (indiki Martuni rayonunun Vardenik qəsəbəsi) 5-6 kilometr cənubda, Göyəm silsiləsindəki Ərgün yüksəkliyinin şərq yamacındakı xərabəlikləri 1988-ci ilə qədər qalan bu kənd barədə ilk məlumat eramızdan əvvəlki 750-ci ilə aid edilən Kələqıran kitabəsində verilir. Belə ki, akademik B. Piotrovskinin bu kitabənin 3 müxtəlif alim tərəfindən ekstampajlanmış surətlərinin müqayisəli transkripsiyası vasitəsi ilə əldə etdiyi mətndə Göyçə hövzə-

sində hələ 3000 il əvvəl mövcud olmuş 23 qalanın- yaşayış məskəninin adı çəkilir və onlardan da biri "Adiamaniuni" kimi təqdim edilir. Səfəvi Azərbaycan dövlətinin 1555-ci ildəki inzibati bölgüsünü əks etdirən sənədlərdə Adıyaman Çuxur - Səd bəylərbəyliyinin inzibati vahidlərindən biri kimi xarakterizə olunur. Həmin sənəd həm də ona görə qiymətlidir ki, o, erməni tarixşünaslarının Göyçədə mövcud olmuş Adıyaman toponimləri ilə manipulyasiya şanslarını birmənalı şəkildə məhv edir. Belə ki, həmin sənəddə Adıyaman, Aşağı Adıyaman, Yuxarı Adıyaman kəndlərinin hər üçünün adı paralel şəkildə çəkilir. 1723-cü ildə Göyçə hövzəsi bütünlüklə osmanlıların nəzarətinə keçdikdən sonra tətbiq edilmiş inzibati bölgü nəticəsində Aşağı və Yuxarı Adıyaman kəndləri İrəvan əyalətinin Göyçə nahiyəsinin, Adıyaman kəndi isə Məzrəə nahiyəsinin inzibati bölgüsünə daxil edilmişdir. 1728-ci ildə təsdiqlənmiş və hazırda Türkiyə Respublikasının Başbakanlıq Arxivində saxlanan "İrəvan əyalətinin icmal dəftəri"nin 15-ci səhifəsində Adıyamanın sultan xəzinəsinə illik vergisinin 7.332 ağça həcmində olması barədə qeydlər aparılıb. 1826-1829 - cu illərdə baş vermiş İran - Rusiya, Rusiya - Türkiyə müharibələrindən sonra tərtib olunmuş siyahılarda isə Göyçə nahiyəsindəki Aşağı və Yuxarı Adıyaman kəndlərinin adları olsa da, Məzrəə nahiyəsindəki Adıyaman kəndinin adına rast gəlinmir. Bu isə o deməkdir ki, 1826-1829-cu illərdə Göyçədə erməni - rus hərbi birləşmələri tərəfindən yerlə - yeksan edilmiş və İ. Şopenin siyahılarında "adları unudulmuş ölü kəndlər" qrafasında ümumiləşdirilmiş, ya da onun siyahılarına ümumiyyətlə düşməmiş 41 qədim Göyçə kəndindən biri də Adıyamandır.

## AĞAPƏNAHLI

(Cənqurtərən)

Göyçə gölünün şimal-qərbində, Göyəm sıra dağlarının şimal başlanğıcı sayıla biləcək ərazidəki xərabəlikləri 1988-ci il deportasiyasına qədər toxunulmamış qalan bu kəndin adına hələ XV əsrdə yaşamış el sənətkarı Dəliqardaşlı aşıq Rəhimlə bağlı söhbətlərdə rast gəlinir. Kəvər nahiyəsindəki (indiki Kamo rayonu) türk obalarının canlı ensiklopediyası olan mərhum ziyalımız Qasım Məmmədovun XX əsrin 80-ci illərində verdiyi bilgilərə görə, Ağapənahlı kəndinin əsası Səfəvi dövlətinin təşəkkülündən xeyli əvvəl Ərdəbildən gəlmiş seyidlər tərəfindən qoyulub və bu oba bir növ iman yeri kimi, aman ocağı kimi məhşurlaşıb. Ətraf obalardan hər hansı günah ucbatından qaçmağa məcbur olmuş insanlar

məhz bura pənah gətirər və amanda olarlarmış. Məhz bu reallıq müəyyən müddətdən sonra kəndin adının el arasında həm "Canqurtaran", həm də "Allahapənah" kimi işlənməsinə səbəb olub. Şah İsmayıl Xətainin hakimiyyətə gəlişindən sonra bu ucqar dağ kəndinə xüsusi diqqət yetirilməsi də, heç şübhəsiz, adi maraq xatirinə olmayaraq, xüsusi əhəmiyyət daşıyıb. Şah Abbas dövründə diplomatik xidmətin rəhbəri səviyyəsinə yüksəlmiş, milliyyətcə erməni olan Xoca Səfərin, təbii ki, səfəvilərin tarixi missiyalarından da, səfəviyyə təliminin mahiyyətindən də xəbər tutmaq imkanı vardı və o, Ərdəbil şeyxlərinin öz üzərlərinə götürdükləri tarixi missiyanın mahiyyətini bilməmiş deyildi. Xoca Səfərin bildiyi həqiqətlərin Böyük Ermənistan planı işlənərkən nəzərə alındığı da şəksizdir. Çünki nə qədər qəribə olsa da, hələ Şah Abbas zamanında "yer üzündə yer" axtaran erməni kilsəsi məhz Xoca Səfərin, Şah Abbasın fövqəladə səlahiyyətli elçisinin xidmətlərindən gen - bol yararlanır, onun vasitəsi ilə xristian dünyasında havadarlar axtarırdılar. 1826-1829 - cu illər müharibələri zamanı erməni - rus hərbi birləşmələrinin Ağapənahlıya qarşı xüsusi amansızlığının bir səbəbini də məhz bu tarixi reallıqda - Xoca Səfərin kilsəyə ötürdüyü dosyelərdə axtarmaq lazım gəlir. Belə ki, Erməni vilayətinin yaradılması zamanı və ondan sonrakı iki əsrlik dövr ərzində baş vermiş hadisələrin təhlili "Böyük Ermənistan" ideoloqlarının Azərbaycan dövlətçiliyinin qurulmasında müstəsna xidmətləri olmuş türk tayfalarına, türk ellərinə qarşı xüsusi amansızlığını təksibimümkünsüz fakt kimi çıxarır ortaya. Ağapənahlıya münasibət də bu amansızlığın bir nümunəsidir. Kənd yerlə - yeksan edilərək, "adı unudulmuş ölü kəndlər" qrafasında ümumiləşdirilmiş, bərpasına imkan verilməmişdir. Erməni-rus hərbi biləşmələrinin törətdiyi qanlı faciələrdən sonra Ağapənahlının sağ qalan əhalisinin bir qisminin Ağqala kəndinə, bir qisminin isə Göyçənın ucqar şərqinə, Basarkeçər nahiyəsindəki Seyidlər kəndinə pənah apardığı güman edilir. Nə yazıq ki, ermənilərin törətdiyi bu cinayətin də təfərrüatı Azərbaycan tarixində öz əksini tapmayıb. Erməni tarixçiləri isə məhz bu reallıqdan - Azərbaycan tarixşünaslığının bu səhlənkarlığından istifadə edərək, Ağapənahlı adlı bir obanın mövcudluğunu inkar etməyə çalışırlar və onların bu mövqeyi başadüşüləndir. Ağapənahlının mövcudluğu sübuta yetirilmirsə, orada ermənilərin törətdiyi cinayətin də izləri itmiş olur. Amma... Əlahəzrət fakt həmişə ciddi ittihamçıdır. Bu gün Türkiyə Gümhuriyyətinin Başbakanlıq Arxivində saxlanan 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"nin 12 - ci səhifəsində Ağapənahlı (Canqurtaran) Göyçə nahiyəsinin kəndlərindən biri kimi təsniflənir və onun xas şəkilli, yəni birbaşa sultan xəzinəsinə ödənən illik vergisinin

2.892 ağça həcmində olduğu göstərilir. XVIII əsr müəllifi Simon İrəvanlı da Göyçə gölü hövzəsindəki tarixi abidələrə dair qeydlərində Ağapənahlı kəndinin adını çəkir. Həmin qeydlərdə bu kəndin coğrafi mövqeyi ilə bağlı verilmiş təsnifat Ağapənahlının xərabəliklərinin coğrafi koordinantları ilə tam mənada üst-üstə düşür. 1826-1829 - cu il müharibələri zamanı erməni - rus hərbi birləşmələrinin dağıtdığı kəndlərin İ. Şopen tərəfindən tərtib olunmuş siyahısında isə bu kənd "Allahapənah" adı ilə və Dərəçiçək mahalının inzibati bölgüsünə daxil olan vahidlərdən biri kimi təqdim edilir. Bu, sadəcə bir yanlışlıq deyil; bu, ermənilərin düşünülmüş saxtakarlığının sənədlərdəki əksidir. Erməni tarixçiləri bu yolla, yəni mahalların sərhədlərini qəzaların sərhədlərində əritmək, qəzaların coğrafi tutumunu inzibati rayonlar arasında parçalamaqla əslində tarixi həqiqətləri dolaşdırmaq, bu və ya digər türk obasının tarixindən söz düşdükdə isə özlərinə sərfəli bölgünü ortaya çıxarmaqla Rusiyanın türklərdən zorla alıb onlara verdiyi "200 illik qədim dövlətlərinin" ərazisi ilə bağlı tarixi həqiqətlərin izini itirmək istəyirlər. Tarix isə ona görə tarixdir ki, heç nəyin izini itməyə qoymur; Ağapənahlı həqiqətlərini iki əsrin dərinliyindən çıxararaq ermənilərin sifətinə çırpdığı kimi, digər gizlədilmiş mətləbləri də eləcə çırpacaq xristian hegemonluğu ideoloqlarının sifətinə...

## AĞBULAQ

Göyçə gölünün şimal sahillərində, Çənbərək rayon mərkəzindən 12 km. cənub - şərqdə yerləşən bu obada oğuz türklərinin məskunluq tarixini tam dəqiqliklə söyləmək mümkün olmasa da, hər halda Ağbulaq kəndinin Qaraqoyunlu xanədanının süqutundan xeyli əvvəl mövcud olduğu tarixi məxəzlərdə əksini tapmış reallıqdır. Etnoqraf Q. Qaraşlı indiki Gədəbəy rayonu və ona yaxın ərazilərdə tətqiqatlar apararaq belə bir qənaətə gəlmişdi ki, Gədəbəyin Göyçə səmtindəki dağlarda, o cümlədən Ağbulaq ərazisindən başlayaraq Çalmalı dağın ətəklərinə qədər səpələnmiş uğuz (oğuz) qəbirlərinin ən azı 2000 illik tarixi var. Ağbulaq ətrafındakı ərazilərlə bağlı olan və son deportasiyaya qədər el yaddaşında yaşayan toponimlər - "Uğuztəpə", "Qorqudtəpə" və s. kimi yer adları da bu qənaətin təsdiqləyici elementləri kimi çıxış edir. Bəzi məlumatlara görə, Ağbulaq hələ sufizmin geniş intişar tapmadığı dövrlərdə bu missiya ilə türk ellərini dolaşan dərvişlərin dayaq məntəqələrindən biri olmuş, Göyçə ilə Gəncəətrafı regionlar arasında bir növ ötürücü rolu oynamışdır. XVI əsrə dair sənədlərdə isə Ağbulaq Səfəvi - Azərbaycan dövlətinin

Qarabağ (Gəncə) bəylərbəyliyinin tabeçiliyindəki inzibati vahidlərdən biri kimi səciyyələndirilir. El yaddaşında daşlaşan məlumatlardan isə aydın olur ki, Şah Abbasın bu yerlərə səfərindən sonra Ağbulaq Göyçə-Gəncə əlaqəsində strateji əhəmiyyətli dayaq məntəqəsinə çevrilmişdir. 1723-cü ildə Göyçə hövzəsi bütünlüklə osmanlıların nəzarətinə keçdikdən sonra tətbiq olunan inzibati strukturlaşmaya əsasən Ağbulaq kəndi İrəvan əyalətinin Dərəçiçək nahiyəsinin inzibati bölgüsünə daxil edilmişdir. 1728-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"nin 116-cı səhifəsində Ağbulaq kəndinin timar, yəni səlahiyyətli dövlət məmurunun məsrəflərini təmin edən vergi ödəyicisi qismində Əbdürrəhman adlı şəxsin tabeçiliyinə verilməsi və kəndin illik vergisinin 3.000 ağça həcmində müəyyənləşdirilməsi barədə qeydlər aparılıb.

Rəsmi statistikaya görə, 1831-ci ildə Ağbulaqda 136 türk ailəsi yaşamışdır. 1905-ci il qırğınlarında nəzərəçarpacaq dərəcədə itkilər verdikdən sonra belə Ağbulaq oğuz türklərinin strateji əhəmiyyətli iri yaşayış məskənlərindən biri kimi qalmaqda davam edirdi. Belə ki, rəsmi statistikaya görə kənddə 1908-ci ildə 940, 1914-cü ildə 982, 1919-cu ildə 1329 nəfər oğuz türkü yaşayırdı. Ən əsası isə o idi ki, Ağbulaq hələ XIX əsrin ortalarından etibarən Göyçənin təhsil mərkəzlərindən biri kimi tanınırdı: Məşədi Əlinin və Məşədi Həsənin məktəbləri dini təmayüllü olsa da, burada dünyəvi elmlərə xüsusi diqqət yetirildiyindən ətraf kəndlərdən də xeyli uşaq bu məktəblərdə təhsil alırdı. Heç şübhəsiz ki, bu həqiqətlər ermənilərə də bəlli idi və onların Ağbulağa qarşı aqressivliyi də məhz bu reallıqlarla şərtlənirdi. 1918-ci ildə heç bir hüquqi əsas olmadan qədim oğuz torpaqlarında Ararat Respublikası deyilən qondarma dövlət qurulmasını elan etdikdən sonra ermənilər bu kəndə bir neçə dəfə hücum etsələr də, Dəli İsmayılın özünümüdafiə dəstəsi onları geri çəkilməyə məcbur edə bilmişdi. 1919-cu ildə Ağbulaq əhalisi erməni nizami orduları ilə açıq döyüşdə xeyli itki verdikdən sonra belə kəndi tərk etməmişlər. Ağbulağın müqavimətini qırmaq ermənilərə yalnız 1920-ci ilin baharında-Azərbaycanda sovet hakimiyəti qurulduqdan sonra nəsib oldu. 1922-ci ildə sovet hökuməti təhlükəsizlik barədə rəsmi bəyanatla çıxış etsə də, əhalinin çox az bir qismi geri dönmüşdür. Amma maneələrə baxmayaraq ağbulaqlılar doğma yurd yerinin bərpasını misilsiz vüsətlə həyata keçirmişlər. 1926-cı ildə kənd əhalisinin sayı artıq 1113 nəfərə çatmışdı. Kəndin strateji əhəmiyyətli coğrafi mövqeyi, kənd əhalisinin yurdcanlılığı, təhsilə, elmə marağı erməni millətçilərini narahat etməyə bilməzdi. Ağbulağa qarşı repressiyalar mütəmadi xarakter almış, ziyalıların sıxışdırılıb çıxarılması sovet hakimiyyətinin bütün tarixi boyunca davam etmişdir ki,

bunu rəsmi statistika da təsdiqləyir. Məsələn, 1931-ci ildə kənddə 1513 nəfər yaşayırdısa, 48 il sonra bu rəqəm nəinki artmış, hətta bir qədər də azalmışdı. Belə ki, 1979-cu ilin rəsmi statistikasına görə kənd əhalisinin sayı 1450 nəfər olmuşdur. Bu quru rəqəmlərin özü belə Ağbulaq həqiqətlərini dərk etmək üçün kifayətdir: 48 illik dövr ərzində kənd əhalisinin sayının azalma tempinin təbii artım tempini üstələməsi diskriminasiyanın ən yüksək dərəcəsindən xəbər verən faktdır. Bununla belə, Ağbulaq sürətlə inkişaf edərək Göyçənin ən müasir tipli yaşayış məskənlərinin sırasına çıxa bilmişdi. Kənddə ən müasir tipli - 5 korpuslu orta məktəb, mədəniyyət evi, poçt, kitabxana, avtomat telefon stansiyası, tibb məntəqəsi, dəyirman, bir sıra ictimai - iaşə və məişət xidməti obyektləri fəaliyyət göstərirdi. Ən ümdəsi, Ağbulağın maarifçilik ənənələri yaşarıydı, inkişafdaydı: kənd orta məktəbinin məzunlarından 11 nəfər elmin müxtəlif sahələrində uğurlar qazanaraq alimlik dərəcələri almışdılar. Və təbii ki, bütün bu uğurlar Göyçənin əzəli sahiblərini - oğuz türklərini nə qədər sevindirirdisə, ermənilləri bir o qədər əndişələndirirdi. 1988-ci il noyabrın 24 - də erməni quldurları kəndə növbəti dəfə hücum etmiş, 4 gün davam edən döyüşlərdən sonra ağbulaqlılar öz əzəli dədə - baba yurdlarını tərk etmək məcburiyyətində qalmışlar. Həmin hadisələrdə kəndin 4 nəfər sakini - 1922-ci il təvəllüdlü **Hacıyeva Fatma Əsgər qızı**, 1954-cü il təvəllüdlü **Zeynalova Urqiyyə Sultanəli qızı**, 5 yaşlı **Camalova Şəhla İman qızı** və 1 yaşlı **Camalov Behbud İman oğlu** həlak olmuşdur. Ermənistan parlamentinin 9 aprel 1991-ci il tarixli qərarı ilə Ağbulaq toponimi ləğv edilərək, kənd "Ağperek" adlandırılmışdır.

***Ağbulağın ünlü tarixi şəxsiyyətləri və məsul vəzifələr tutmuş ictimai simaları:***

**Məşədi Molla Əli.** XIX əsrin ikinci yarısında yaşamış, mükəmməl dini təhsil almış, öz vəsaiti hesabına Ağbulaqda dini təmayüllü məktəb açmışdır.

**Məşədi Molla Həsən.** XIX əsrin sonu- XX əsrin əvvəllərində yaşamış, Məşhəd şəhərində mükəmməl dini təhsil almış, bütün ömrü boyu Göyçə gənclərinə təmənnasız elm öyrətmişdir.

**Hacı Hüseyn.** XIX əsrin həmyaşıdı olan bu insan nəinki Ağbulaqda, ümumən Göyçənin Çəmbərək nahiyəsində xeyriyyəçi kimi tanınmış, onlarca qabiliyyətli insanın təhsil almasına yardımçı olmuşdur.

**Hacı Mirəli Ağa.** XIX əsrin sonlarından etibarən Göyçə mahalının ən mötəbər iman adamı kimi şöhrət tapmış bu nurlu şəxsiyyət həm də ermənilərə qarşı mübarizlərdən biri olmuş, 1918-1919-cu illərdə baş vermiş döyüşlərdə xüsusi qəhrəmanlıq göstərmişdir.

**Dəli İsmayıl.** 1918-1919-cu illərdə Ağbulaq özünümüdafiə dəstəsinə rəhbərlik etmiş, ermənilərə qarşı Basarkeçərdə və Dilican dərəsində keçirilən döyüşlərin iştirakçısı olmuşdur.

**Hacı Mirhüseyn.** 1930-cu ildə anadan olmuş, ömrü boyu namusla çalışmış, elin-obanın ən kəsərli söz sahibi olmuşdur. 1988-ci il deportasiyasından sonra Ağstafa rayonunda məskunlaşmışdır.

**Məhəmməd Əmiraslan oğlu Talıbov.** 1926-cı ildə anadan olub. Zəhmətsevərliyi ilə nüfuz qazanmış, uzun illər Ağbulaq kolxozuna rəhbərlik etmiş, xidmətləri "Qırmızı Əmək Bayrağı" ordeni ilə qiymətləndirilmişdir. 1975-ci ildə vəfat etmişdir.

**İbrahim Mustafa oğlu Ağacanov.** 1947-ci il aprelin 17-də anadan olmuş, Azərbaycan Politexnik İnstitutunu bitirmiş, 1972-ci ildən hərbi işə cəlb edilmiş, Əfqanıstan Demokratik Respublikasında, Zabaykalnı hərbi dairəsində qulluq etmiş, 1990-cı ildə müstəqil Azərbaycan Respublikasında Milli Ordunun formalaşması prosesi başlayanda könüllülər sırasına qatılmış, Vətənin müdafiəsində bacarığını əsirgəməmişdir. Azərbaycan Ordusunun polkovnik-leytenantıdır.



**İsgəndər Mehdi oğlu Zeynalov.** 1926-cı ildə anadan olmuş, İrəvan Kənd Təsərrüfatı Texnikumunu və Bakı Ali Partiya Məktəbini bitirmiş, Zaqafqaziya hərbi dairəsində polk komandiri vəzifəsinə qədər yüksəlmiş, sonradan partiya və sovet orqanlarında işə cəlb olunmuşdur. 1961-1963-cü illərdə doğma kəndlərində təsərrüfata rəhbərlik etmiş, 1969-1975-ci illərdə Krasnoselo rayon XDS İcraiyyə Komitəsinin sədri olmuşdur. 1981-ci ildə Bakıya köçmüş, indiki Xətai rayonunda bir sıra məsul vəzifələrdə işləmişdir.



**Mahal Yunis oğlu Əliyev.** 1948-ci il sentyabrın 18-də anadan olmuş, İrəvan Pedoqoji İnstitutunu və Bakı Ali Partiya Məktəbini bitirmiş, Ermənistan KP MK-nın orqanı olan "Sovet Ermənistanı" və Krasnoselo RPK-nın orqanı olan "Dostluq" qəzetlərində məsul vəzifələrdə, Ağbulaq kənd orta məktəbində direktor müavini vəzifəsində çalışmış, 1983-1989-cu illərdə Krasnoselo rayon XDS İcraiyyə Komitəsinin sədri olmuşdur.1989-cu ildə Bakıya köçdükdən sonra Nərimanov rayon XDS-də bir sıra məsul vəzifələr tutmuş, İcraiyyə Komitəsi sədrinin müavini seçilmişdir. 1991-1992-ci illərdə Nərimanov rayon təhsil şöbəsinə rəhbərlik etmiş, 1992-ci ildən

2000-ci ilə qədər S.C.Pişəvəri adına humanitar fənnlər gimnaziyasının direktoru işləmişdir. Hazırda Nərimarov rayon təhsil şöbəsinin müdiridir.

**Sultanəli Əmiraslan oğlu Talıbov.** 1940-cı ildə anadan olmuş, İrəvan Dövlət Pedoqoji İnstitutunu və Bakı Ali Partiya Məktəbini bitirmiş; Krasnoselo rayon Partiya Komitəsində məsul vəzifələrdə işləmiş, 1980-1983-cü ildə həmin rayonda Daxili İşlər İdarəsi rəisinin siyasi məsələlər üzrə müavini olmuş, 1983-cü ildə milli zəmində təzyiqlərə məruz qalaraq Azərbaycana köçmüş, 1992-ci ilə qədər Kürdəmir DİŞ rəisinin müavini, 1993-1996-cı illərdə AR Dövlət Gömrük Komitəsi Mərkəzi Attestasiya Komissiyasının məsul katibi olmuşdur. Polis polkovnik-leytenantı və II dərəcəli Gömrük Xidməti Müşaviridir.

**Vaqif Aslan oğlu Hüseynov.** 1947-ci il oktyabrın 9-da anadan olmuş, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmiş, Bakı İdman Malları Fabrikinin direktor müavini olmuşdur. 1996-cı ildən AR Nümunəvi Özəl Təsərrüfatların Formalaşmasına Yardım Layihəsinin Mərkəzi İşçi Orqanının rəhbəridir.

**Ziyad Məhəmmədəli oğlu Abbasəliyev.** 1950-ci il yanvarın 1-də anadan olmuş, Azərbaycan Politexnik İnstitutunu və Moskva Ali Həmkarlar İttifaqı Məktəbini bitirmişdir. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini, Əhalinin Siyahıyaalınması İdarəsinin rəisidir.

***Ağbulağın saz-söz ustadları:***

**AQİL - Niftəli Qafar oğlu Qafarov.** 1899-cu ildə anadan olmuş, əvvəl ruhani məktəbini, sovet hakimiyyəti dövründə isə İrəvan Pedoqoji Texnikumunu bitirmiş, Ağbulağın ilk sovet müəllimlərindən biri olmuşdur. Yüksək sənətkarlıqla qələmə aldığı şerlərinə görə Azərbaycan Yazıçılar Birliyinə üzv seçilmişdir. 1942-ci ildə ikinci dünya müharibəsinə getmiş, 1943-cü ildə Ukrayna cəbhəsində həlak olmuşdur.

**Aşıq Məhərrəm.** 1919-cu ildə anadan olub, Növrəs İmandan dərs alıb. Xidmətləri bir sıra orden və medallarla qiymətlənidirilib.



**Eldar İsmayıl - Eldar Ələsgər oğlu İsmayılov.** 1942-ci il martın 10-da anadan olub, Bakı Mədəni Maarif Texnikumunda və Bakı Dövlət Unversitetində təhsil alıb; Ağbulaq kənd Mədəniyyət Evinin direktoru, Krasnoselo RPK-nın orqanı olan "Dostluq" qəzetinin redaktor müavini, Ağbulaq-Şorca birləşmiş sovetliyinin sədri olub. 1988-ci ildə Bakıya köçdükdən sonra Dövlət Statistika Komitəsində, Azərbaycan Qaçqınlar Cəmiyyətində bir sıra məsul vəzifələrdə çalışıb. "Göyçə" və "Ulu Göyçə" qəzetlərinin təsisçisi və baş

redaktoru olub. 10 kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin və Jurnalistlər İttifaqının üzvü, "Təbib" qəzetinin baş redaktorudur.

**Aşıq İmran - İmran Mehrəli oğlu Həsənov.** 1931-ci ildə anadan olub, Şınıxın Arabaçı kəndində Aşıq Hüseynə, Ağbulaqda Aşıq Məhərrəm Hacıyevə, Tovuzda Aşıq Əsədə şəyirdlik edib. 1956-cı ildə Moskvada Gənclərin və Tələbələrin VI Ümumdünya Festivalının laureatı olub, "Azərbaycan SSR-in Əməkdar Mədəniyyət İşçisi" fəxri adına layiq görülüb.

***Ağbulağın alim övladları:***

**Allahyar Məmmədəli oğlu Hüseynov.** 1928-ci ildə anadan olmuş, Azərbaycan Dövlət Pedoqoji İnstitutunu bitirmiş, 1984-cü ildə dissertasiyasını İrəvan şəhərində müdafiə edərək Pedoqoji elmlər namizədi alimlik dərəcəsi almış, ADPU-da, Azərbaycan SSR Maarif Nazirliyində, "Azərbaycan müəllimi" qəzetində bir sıra məsul vəzifələr tutmuş, "Azərbaycanın əməkdar müəllimi" və "SSRİ-nin maarif əlaçısı" fəxri adlarına layiq görülmüşdür. 15 elmi kitabın, 100-dən çox elmi-metodik məqalənin müəllifidir. 1991-ci ildən ömrünün sonuna- 1998-ci ilə qədər AR Təhsil Nazirliyində çalışmışdır.

**Cavanşir Aslan oğlu Hüseynov.** 1949-cu il noyabrın 1-də anadan olub, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirib. 1986-cı ildə iqtisadi elmlər namizədi alimlik dərəcəsi alıb. Ukrayna SSR-in "Znamya" Dövlət mükafatına və Azərbaycan SSR Dövlət mükafatına layiq görülüb. 1993-cü ilə qədər Azərbaycan Neft Akademiyasının siyasi-iqtisad kafedrasında çalışıb. 1993-1996-cı illərdə Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli bölməsinə rəhbərlik edib.1996-cı ildə qəflətən vəfat edib.

**Elbrus Abbasəli oğlu Abbasəliyev.** 1956-cı il fevralın 29-da anadan olub, Bakı Tibb Məktəbini, Leninqrad Hərbi Tibb Akademiyasını, Akademiyanın Rəhbər Tibb Personalı Fakültəsini bitirib, 1993-cü ildə tibb elmləri namizədi alimlik dərəcəsi alıb və həmin ildə də Azərbaycan Prezidentinin çağırışına cavab olaraq Vətənin müdafiəsinə gəlib. Hazırda AR Müdafiə Nazirliyi Mərkəzi Qospitalının laboratoriya rəisidir.

**Hüseyn Ələsgər oğlu İsmayılov.** 1952-ci il dekabrın 10-da anadan olmuş, Azərbaycan Pedoqoji İnstitutunu və MEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasını bitirmiş, 1986-cı ildə filologiya elmləri namizədi alimlik dərəcəsi almış, 1976-1988-ci illərdə İrəvan Dövlət Pedoqoji İnstitutunda, Bakıya köçdükdən sonra isə Azərbaycan Neft Akademiyasında çalışmışdır. Filologiya elmləri doktoru, Azərbaycan MEA Folklor İnstitutunun direktorudur.

**Kərəm İsmayıl oğlu Hacıyev.** 1943-cü il mayın 7-də anadan olmuş,

Azərbaycan Neft-Kimya İnstitutunu və Leninqrad Sənaye Elmi Tədqiqat İnstitutunun aspiranturasını bitirmiş, 1974-cü ildə dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək texniki elmlər namizədi alimlik dərəcəsi almışdır. Bakı Məişət Kondensionerləri Zavodunun baş mühəndisi, Avstriyanın "Antroşreidiit" şirkətinin Azərbaycan təmsilçisi, "Pantera" kompaniyasının texniki direktoru olmuşdur. 1997-ci ilin dekabrında qəfil ürəktutmasından vəfat etmişdir.

**Məhəmməd Bayram oğlu Hüseynov.** 1949-cu il noyabrın 15-də anadan olub; Bakı Dövlət Universitetini və Sverdlovsk Metallar Fizikası İnstitutunun aspiranturasını bitirib. Fizika-riyaziyyat elmləri namizədidir, hazırda Azərbaycan MEA-nın Fizika İnstitutunda çalışır.

**Məhəmməd Əliməsim oğlu Hüseynov.** Fizika - riyaziyyat elmləri namizədidir.

**Mirhəsən Miryaqub oğlu Cavadov.** 1951-ci ildə anadan olmuş, Bakı Dövlət Universitetini və Azərbaycan EA Aşqarlar Kimyası İnstitutunun aspiranturasını bitirmiş, 1982-ci ildə dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək kimya elmləri namizədi alimlik dərəcəsi almışdır. Hazırda Azərbaycan MEA Aşqarlar Kimyası İnstitutunun baş elmi işçisidir.

**Nyuton Aslan oğlu Həsənov.** Fizika - riyaziyyat elmləri namizədidir.

**Novruz İslam oğlu Zeynalov.** 1963-cü il martın 11-də anadan olmuş, N.Voznesenski adına Leninqrad Maliyyə-İqtisad İnstitutunu və M.Lomonosov adına Moskva Dövlət Universitetinin aspiranturasını bitirmiş, 1991-ci ildə iqtisadi elmlər namizədi alimlik dərəcəsi almış, Rusiya Federasiyasının "Noks Sığorta" Səhmdar Cəmiyyətində direktor müavini və "Soyuzaudit"in eksperti olmuşdur. 1992-ci ildə Bakıya döndükdən sonra "Bakinkom" MMC-nin direktoru təyin edilmişdir.

**Rəhim Məmmədəli oğlu Hüseynov.** 1932-ci ildə anadan olmuş, Bakı Dövlət Universitetini, Azərbaycan Sənaye İnstitutunu, SSRİ Dövlət Plan Komitəsi nəzdində aspiranturanı bitirmiş, 1965-ci ildə iqtisad elmləri namizədi, 1984-cü ildə elmlər doktoru alimlik dərəcəsi almış, Azərbaycan Dövlət Plan Komitəsində idarə rəisi, Dövlət Qiymət Komitəsində sədr müavini, Anqola Respublikasında müşavir - məsləhətçi işləmişdir. 50-dən çox elmi kitabçanın və monoqrafiyanın müəllifi, "Azərbaycan Respublikasının Əməkdar İqtisadçı"sıdır.

**Telman İsmayıl oğlu Əliyev.** 1940-cı ildə anadan olmuş, Azərbaycan Dövlət Pedoqoji İnstitutunu və Azərbaycan EA Fizika İnstitutunun aspiranturasını bitirmiş, 1971-ci ildə fizika - riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır. 3 ixtiranın, 5 dərs vəsaitinin müəllifi, Kənd Təsərrüfatı Akademiyasının dosentidir.

**Ziyad Mirəziz oğlu Seyidov.** 1950-ci ildə anadan olmuş, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu və Bakı Dövlət Universitetinin aspiranturasını bitirmiş, dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək 1991-ci ildə iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. 1978-ci ildən Azərbaycan Pedoqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda (indi Bakı Slavyan Universiteti) çalışan Ziyad Seyidov 32 elmi əsərin müəllifidir.

## AĞCAQALA
(Ağrıca)

Göyçə gölünün cənub-şərqində, Basarkeçər nahiyəsinin Qaraiman kəndindən təxminən 14-16 kilometr şimal-qərbdə, dağlar qoynunda yerləşmiş bu kəndin adını bəzən Oğruca kimi qələmə verir və "Oğruca" toponiminin də güya Qaraiman kəndinin əvvəlki adı olduğu barədə yanlış mülahizələr yürüdürlər. Əslində isə, Ağcaqala Şahdağ silsiləsində qərar tutmuş, zahiri görkəmcə Ağrıdağın kiçik modelinə bənzəyən bir yüksəkliyin yamacında yerləşən sırf oğuz yurdu olmuşdur ki, 1988-ci ilə qədər Göyçənin quzey kəndlərindən Gəncəbasara kəsə yolla qaramal aparan insanların demək olar hamısı, o kəndin xarabalıqlarının nəinki şahidi olmuşlar, bir çox hallarda orada dincəlmişlər də. Ərazinin özünü də göyçəlilər əski adı ilə- Ağrıca gədiyi adlandırırdılar. Və çox böyük ehtimalla kəndin və aşırımın bu cür adlandırılması məhz bu reallıqla - dağların zahiri bənzərliyi ilə bağlı olub. Rəsmi mənbələrdə isə kənd birmənalı olaraq Ağcaqala adı ilə təqdim olunur. 1555-ci ilə dair sənədlərdə Ağcaqala Səfəvi Azərbaycan dövlətinin Qarabağ bəylərbəyliyinin inzibati vahidlərindən biri kimi təsniflənir. 1723-cü ildə Göyçə hövzəsi bütünlüklə osmanlıların nəzarətinə keçdikdən sonra tətbiq olunan strukturlaşmaya əsasən Ağcaqala İrəvan əyalətinin Məzrəə nahiyəsinin inzibati bölgüsünə daxil edilib. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 16-cı səhifəsində Ağcaqala kəndinin sultan xəzinəsinə 4.772 ağça həcmində illik vergi ödədiyi barədə qeyd aparılıb.

1828-ci ildə rusların istəyi ilə yaradılan erməni vilayətinin tərkibinə daxil edilmiş yaşayış məntəqələrinin siyahısında yer almamasına baxmayaraq, Ağrıcada XX əsrin əvəllərinə qədər yaşayış olduğu faktdır. Ermənilərin hansı səbəbdən, yolun uzaqlığı, yoxsa bu kəndin coğrafi relyefinin işğalı çətinləşdirməsi səbəbiyləmi bu kəndə yaxın düşməmələri bəlli olmasa da, 1930-cu illərdə sovet hakimiyyətinə qarşı qiyam qaldırmış Göyçə qaçaqlarının sərt qış aylarının çox hissəsini məhz bu obada keçirməsi, Qaradağlı Qara Aslanın Qaçaq Cəmillə görüşlərinin məhz bura-

da keçirilməsi və Gəncəbasardan göndərilmiş silah - sursatın məhz burada qəbul edilməsi Göyçənin el yaddaşında yaşarı olan təkzibimümkünsüz tarixi həqiqətlərdir. Göyçə qiyamı qan içində boğulduqdan sonra isə rəsmi hesabatlarda yer almayan, yalnız yaylaq yeri kimi təsniflənən bu yurdun sonuncu nümayəndələri erməni hökumətinin qisasından ehtiyatlanaraq Samux rayonuna qaçmışlar. Böyük Qaraqoyunludan Məhəmmədəli Bəxtiyaroğlunun verdiyi məlumata görə, Ağrıcanın mövcudluğunun son dövrlərində, yəni XX əsrin 30-uncu illərinin ortalarında bu yurdda təxminən 35 ailə yaşayırmış.

## AĞÇIRAQ

Xərabələri Dəlikdaş (indiki Martuni rayonunun Tsakkar kəndi) kəndindən 16-18 kilometr cənub-qərbdə yerləşmiş bu kəndin ərazisindəki tarixi - memarlıq abidələrindən və qədim mixi kitabələrindən söhbət açan XVIII əsr müəllifi Simon İrəvanlı onların eramızdan əvvəlki dövrə aid olması faktına istinadən Ağçırağı Göyçənin ən qədim kəndlərindən biri kimi təsnifləyir. 1828-ci ildə yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalında o zaman yaşayış üçün yararlı hesab edilən 59 kəndin İ. Şopen tərəfindən tərtib olunmuş siyahısında isə bu obanın adı "Ağqıraq" kimi qeyd edilib. 1831-ci ilə dair sənədlərdə kəndin 321 nəfər türk əhalisinin (57 təsərrüfat) olduğu barədə qeyd aparılıb. 1873-cü ilə və ondan sonrakı dövrlərə dair sənədlərdə isə artıq Ağçırağın adı yoxdur. Bu rəsmi faktlara istinadən tam qətiyyətlə demək olar ki, Ağçıraq XIX əsrin ortalarında tüğyan edən erməni faşizminin qurbanı olmuş türk obalarından biridir. Amma təəssüflər olsun ki, digər anoloji hallarda olduğu kimi, oğuz türkünün Ağçıraqda yaşadığı faciənin də təfərrüatı Azərbaycan tarixşünaslığının diqqətindən kənarda qalıb.

## I AĞKİLSƏ

Bu qədim türk obasının adı yazılı mənbələrdə ilk dəfə Səfəvi Azərbaycan dövlətinə dair sənədlərdə çəkilir və o, Çuxur - Səd bəylərbəliyinin inzibati vahidlərindən biri kimi səciyyələndirilir. 1723-cü ildə Göyçə hövzəsi bütünlüklə osmanlıların nəzarətinə keçdikdən sonra tətbiq olunun inzibati bölgüyə əsasən bu kənd İrəvan əyalətinin Göyçə nahiyəsinin ərazisinə daxil edilmişdir. 1728-ci ildə Şah Əhməd Mehmet xan oğlu tə-

rəfindən təsdiqlənərək tuğralanmış və hal-hazırda Türkiyə Respublikasının Başbakanlıq Arxivində saxlanan "İrəvan əyalətinin icmal dəftəri"ndə Ağkilsə kəndinin adı Göl kəndindən (indiki Martuni rayonunun Liçk kəndi) əvvəl qeyd olunub və...Həmin nahiyədəki Ağkilsə (yəni Ağqala - Ağkilsəsi), eləcə də həmin siyahının Zarzəmin nahiyəsinə dair bölməsindəki Ağkilsə (Aşıq Ələsgərin kəndi) kəndləri ilə qarışıq salınmaması naminə, həm də yəqin ki, dəftərin tərtibində yanlışlığa və təkrarçılığa yol verilmədiyini diqqətə çatdırmaq üçün bu kənd "digər bir Ağkilsə kəndi" təsnifatı ilə təqdim edilib. Həmin sənəddən o da bəlli olur ki, Göl kəndinə yaxın ərazidəki Ağkilsənin, yəni bizim şərti olaraq "I Ağkilsə" adlandırdığımız kəndin sultan xəzinəsinə illik vergisi 2.890 ağça həcmində imiş. Ağqala - Ağkilsə kəndində bu rəqəm 7.325 ağça həddində olub. Həmin sənədin 118-ci səhifəsində isə Zarzəmin nahiyəsindəki Ağkilsə əhalisinin osmanlıların gəlişindən sonra kəndi tək etmələri və bu səbəbdən də boş yurd yerləri sırasında xas qismində birbaşa sultanın mülkiyyətinə verildiyi barədə qeydlər var. Buradan aydın olur ki, XVIII əsrin ortalarında Göyçə hövzəsində Ağkilsə adlı üç kənd varmış.

XVIII əsr müəllifi Simon İrəvanlı Göyçə gölü ətrafındakı obalar sırasında bu kəndin adını çəksə də, onun dəqiq coğrafi koordinantlarına işarə ola biləcək məlumatlar vermir. Bu qeydlərdən yalnız o bəlli olur ki, I Ağkilsə Dəlikdaşa yaxın dağlıq bir ərazidə yerləşmiş qədim obalardan biridir. XIX əsrin iyirminci illərində Rusiya - İran, Rusiya - Türkiyə müharibələri nəticəsində dağıdılmış yaşayış məntəqələrinin, nə də yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş kəndlərin siyahısında I Ağkilsənin adına rast gəlinmir. Və məhz İ. Şopenin siyahılarına düşməməsi reallığına istinadən, erməni tarixçiləri belə bir kəndin olmaması, olsa da 1750-1820-ci illər aralığında dağılması barədə ehtimal irəli sürürlər. Kəndin mövcudluğunun tarixi fakt olmasına rəğmən, ermənilərin onun inkarına yönəlik səylərinin arxasında olduqca dəhşətli bir cinayətin izlərini itirmək istəyinin dayandığı şəksizdir. Bu ehtimala əsas verən faktlardan biri də odur ki, İ. Şopen 1826-1829-cu il müharibələri zamanı erməni - rus hərbi birləşmələrinin Göyçədə dağıtdığı 108 kənddən yalnız 67-si barədə məlumat versə də, nədənsə siyahılarda cəmi 27 kəndin adını göstərib, qalan 40 kəndi isə "adları unudulmuş ölü kəndlər" kimi təsnifləyib. İ. Şopenin bələdçilərinin ermənilər olduğu və siyahıların tərtibində olduqca ciddi, amma düşünülmüş təhriflərə yol verildiyi reallığını nəzərə alsaq, onda 40 "ölü kənd"dən birinin - siyahıda 27 -32- ci sırada yer almış adsız kəndlərdən birinin məhz I Ağkilsə olduğunu söyləmək mümkündür. Və belə olduğu təqdirdə erməni tarixşünaslığının I Ağkilsə ilə

bağlı həqiqətlərin gizlədilməsindəki marağı barədə də düşünmək zərurəti yaranır. İ.Şopenin siyahılarında dağıdılmış kəndlər kimi göstərilən və yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalının o zaman yaşayış üçün yararlı sayılan 59 yaşayış məntəqəsinin siyahısında yer almayan kəndlərin bir çoxu, konkret olaraq əhalisinin bir qismi sağ qalmış kəndlər XIX əsrin ortalarında bərpa olunub və bu reallıq rəsmi sənədlərdə əksini tapıb. I Ağkilsə isə bərpa edilməyib. Bu reallıq ona dəlalət edir ki, 1826-1829-cu illərdə erməni - rus hərbi birləşmələrinin Göyçə mahalında həyata keçirdikləri soyqırımı zamanı ya I Ağkilsə əhalisi kütləfi qətliama məruz qalıb, ya da sağ qalanlar o qədər az sayda olublar ki, kəndi bərpa etməyə gücləri yetməyib. Bu ehtimalların hansının həqiqətə daha yaxın olduğunu qəti şəkildə söyləmək mümkün olmasa da, bir fakt tam aşkardır: azı 1000 illik tarixi olan "I Ağkilsə" kəndi 1826-1829-cu il aralığında tüğyan etmiş erməni faşizminin qurbanlarından biridir və bu tarixi cinayətin məsuliyyəti həm ermənilərin, həm də onlara havadarlıq etmiş xristian dünyasının üzərinə düşür.

## AĞKİLSƏ

İndiki Vardenis şəhərindən 13 kilometr şimal - şərqdə, Zod və Böyük Qaraqoyunlu kəndləri arasında, Hüsən çayın (Dərə çayı) şimalında, dəniz səviyyəsindən 2085 metr yüksəklikdə yerləşən bu kəndin adına rəsmi mənbələrdə ilk dəfə 1828-ci ildə, Göyçədə erməni - rus hərbi birləşmələri tərəfindən dağıdılmış 108 kənddən 67-sinin İ. Şopen tərəfindən tərtib edilmiş siyahısında rast gəlinir. Amma Azərbaycan aşıq sənətinin zirvəsi sayılan Aşıq Ələsgərin məhz bu kənddə 1821-ci ildə anadan olması, alban memarlığı üslubunda inşa edilmiş V-VI əsrlərə aid məbədin qalıqlarının bu kəndin ərazisində XX əsrə qədər qalması kimi təkzibolunmaz faktlar onun tarixinin daha qədim olmasına dəlalət edən məqamlardır. XX əsrin 60 - cı illərində bu kənddə təsərrüfat məqsədi ilə aparılan qazıntılar zamanı sırf təsadüfdən eyni şaquli xətt üzrə dörd qəbrin üzə çıxması, ən dərin qatdakı qəbirdə skeletlə yanaşı ilk tunc dövrünə aid olan xəncər və digər sursatların aşkarlanması bu ərazidə məskunlaşma tarixinin eramızdan əvvəlki III - II minilliklərə təsadüf etməsi barədə qənaətlərə tam mənada əsas verir. 1555 - ci ilə aid rəsmi sənədlərdə isə Ağkilsə kəndi Səfəvi-Azərbaycan dövlətinin Qarabağ (Gəncə) bəylərbəyliyinə daxil olan Göyçə kəndlərindən biri kimi təsniflənir. 1578-ci ildə osmanlılar səfəviləri yenərək Göyçənin şərq sahillərinə nəzarət imkanı əldə etdikdən sonra tətbiq

olunmuş yeni strukturlaşmaya əsasən Ağkilsə İrəvan əyalətinin Ordubad qəzasının Zar nahiyəsinin inzibati ərazisinə daxil edilmişdi ki, bu reallıq da 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"nin 327-ci səhifəsində təsbitlənmişdir. 1595-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə isə Zar nahiyəsindəki Göyçə Yellidərəsi və Ağkilsə kəndlərinin timar qismində, yəni dövlətin səlahiyətli nümayəndəsinin məsrəflərini qarşılayan vergi ödəyicisi qismində İshaq Məlik oğlu, Bəkir İshaq oğlu və Abdal Cəbrayıl oğlu adlı şəxslərin mülkiyyətinə verilməsi barədə qeydlər aparılıb.

1723-cü ildə, Göyçə ikinci dəfə bütünlüklə osmanlıların nəzarətinə keçdikdən sonra tətbiq edilən yeni struktur bölgüsündən sonra Ağkilsə İrəvan əyalətinin Zarzəmin nahiyəsinin inzibati ərazinə daxil olan kəndlərdən biri kimi təsniflənirdi. 1728-ci ildə tərtib edilmiş və Şah Əhməd Mehmet xan oğlu tərəfindən tuğralanaraq təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 118-ci səhifəsindəki qeydlərdən isə bəlli olur ki, 1723-cü ildə osmanlıların gəlişindən sonra əhali Ağkilsəni tərk edibmiş və kənd sahibsiz yurd yerləri sırasında Sultanın mülkiyyətinə verilibmiş. Bəs osmanlıların birinci gəlişində yerindən tərpənməyən bir obanın, osmanlıların ikinci gəlişində tərk edilməsi nə ilə bağlı ola bilərdi? Məxəzlərdə bu sualın da aydın cavabı var. XVIII əsr müəllifi Simon İrəvanlının qeydlərində Ağkilsə qədim alban mədəniyyətinin izlərini yaşadan, eyni zamanda sufi təliminin tədrisinə xüsusi diqqət ayıran dərviş ordeninin məskunlaşdığı bir oba kimi xarakterizə edilir. Deməli, Ackilsənin əzəli sahiblərinin öz yurdlarını tərk etməsinin əsas səbəbini də din faktorunda- sufi təliminin osmanlılar tərəfindən süngü ilə qarşılanması reallığının doğura biləcəyi narahatlıqlarda axtarmaq gərəkdir. Amma bununla belə Ackilsənin əzəli sahiblərinin osmanlıların geri çəkilməsindən dərhal sonra öz yurdlarına qayıtmaları da tarixi reallıqdır və bu fakt da İrəvan xanlığının müfəssəl dəftərlərində təsbit olunub.

1826-1829-cu illərdə baş vermiş İran - Rusiya, Rusiya - Türkiyə müharibələrinin gedişində kənd yerlə - yeksan edilsə də, qısa müddətdən sonra yenidən bərpa olunmuşdur. Z. Korkodyanın verdiyi rəsmi məlumatlara görə, bu obada 1876-cı ildə 321, 1897-ci ildə 389, 1914-cü ildə 515 nəfər oğuz türkü yaşamışdır. 1918-ci ildə Tiflisdə əldə olunmuş razılığa əsasən Göyçənin şərq sahilindəki bütün kəndlər kimi Ağkilsə də Azərbaycan Demokratik Cümhuriyyətinin Cavanşir qəzasının inzibati ərazisinə daxil idi. Amma Andronikin quldur qoşununun Göyçədə 1919-cu ilin 13 - 20 aprelində törətdiyi qırğınlar zamanı kənd dağıdılmış, əhalisinin bir qismi Daşkəsən, bir qismi isə Kəlbəcər ərazisində məskunlaşmışdır.

1922-ci ildə artıq deyure Ermənistan SSR- in tərkinə qatılmış kəndə dönənlərin sayı cəmi 108 nəfər, yəni 1914 - cü ildəki əhalinin 20 faizi həddində olmuşdur. 1931-ci ilin rəsmi məlumatlarına görə, Ağkilsədə yaşayan oğuz türklərinin sayı 307 nəfər olmuşdur. Ermənistan SSR Xalq Komissarları Soveti Mərkəzi İcraiyyə Komitəsinin 3 mart 1935-ci il tarixli qərarı ilə Ağkilsə toponimi "Azad" sözü ilə əvəzlənmişdir.

1948-1953-cü illərdə Ermənistandan türklərinin dövlət səviyyəsində deportasiyasının ağır zərbəsi Ağkilsədən də yan keçmədi. 1959-cu ildə kənd sakinlərinin sayı cəmi 276 nəfər idi. 1988-ci il qətliamları zamanı kəndin 569 sakini öz yurdundan zorla qovulmuşdur. Ağkilsəlilərin böyük əksəriyyəti Daşkəsən rayonunun Bayan kəndində, qalanları isə əsasən Gəncədə, Xanlarda, Bakıda, Moskvada məskunlaşmışlar.

***Ağkilsənin ünlü yetirmələri:***



**Aşıq Ələsgər.** Dünyaya 1821-ci ildə ağkilsəli Alməmməd kişinin ocağında göz açan Ələsgər 105 il ömür sürmüş, öz dövrünün ən qüdrətli zəka sahibi, dünyəvi və dini elmlərin kamil bilicisi, yorulmaz səyyah, inanılmaz fiziki güc sahibi olmuşdur. Bütün ömrünü ozan müridlər hazırlanmasına sərf etmiş Dədə Ələsgər Azərbaycan şer sənətinin inkişafına təkan vermiş, bir neçə təzə canr yaratmışdır.

**Növrəs İman.** Sufi dərviş filosofların sonuncu nəsil nümayəndələrindən biri olan İman 1903-cü ilin mayında Aşıq Ələsgərin qardaşı Məşədi Salehin ocağında dünyaya göz açmış, qonşu Hüsenquluağalı kəndində mədrəsə təhsili və əmisi Ələsgərdən sufi-ozan təlimi almışdır. Qəzəl, qəsidə, nət, münəcat, qoşma və gəraylılardan ibarət zəngin irsi olan Növrəs İman Göyçə qaçaqlarının daşnak-bolşevik quruluşuna qarşı mübarizəsini dəstəkləyən azsaylı ziyalılardan biri olmuş və 1934-cü ildə Göyçə qaçaqlarının Göy Yurdda qətliamından sonra 31 yaşında batin olmuşdur.



**Əli Qurban Dastançı.** 1928-ci il mayın 14-də Ağkilsədə anadan olan Əli Abdulla oğlu Qurbanov uzun illər Kəlbəcər rayonunda məsul vəzifələrdə çalışmış, bütün ömrünü folklor incilərinin toplanmasına sərf etmiş, mükəmməl xalq yaradıcılığı nümunələri yaratmışdır. 15 kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvü olan bu qüdrətli şair Kəlbəcərin işğalından sonra Gəncədə məskunlaşmış, 2004-cü il martın 27-də Bakıda vəfat etmişdir.

**Aşıq Talıb.** 1877-ci ilin baharında Aşıq Ələsgərin ocağında dünyaya gələn Talıb 102 il ömür sürmüş, Azərbaycan aşıq sənətinin inkişafı

yönündə müstəsna xidmətlər göstərmişdir.

**Bilal Məmmədov.** 1911-ci ilin baharında anadan olmuş, II Dünya müharibəsindən sonra partiya və sovet orqanlarında işə cəlb olunmuş, Basarkeçər rayon XDS İcraiyyə komitəsinin sədri, Krasnoselo rayon Partiya Komitəsinin birinci katibi vəzifələrində işləmiş, uzun illər Ağkilsə kənd kolxozuna rəhbərlik etmişdir.



**İsmixan Didərgin.** 1935-ci ildə anadan olan İsmixan Müseyib oğlu Məmmədov 9 yaşında atasını, 15 yaşında anasını itirdikdən sonra böyük bir ailənin qayğılarını çəkmək məcburiyyətində qalsa da, taleyin bu acı sınağı onun qaynar təbini söndürə bilmədi. İsmixan müəllimin bayatıları, cığalı təcnisləri dildən-dilə, eldən-elə yayıldı. 1988-ci il deportasiyasından sonra Daşkəsən rayonunun Bayan kəndində məskunlaşan İsmixan Didərginin şair qəlbi vətənsizlik dərdinə tablamadı və 1994-cü il iyunun 6-da dayandı. Mükəmməl sənət inciləri olan nəğmələrindən ibarət "Ayırdılar qucağından Göyçənin" adlı şerlər kitabı ölümündən sonra "Yazıçı" nəşriyyatında 20.000 tiracla nəşr edilib.

**İslam Ələsgər.** 1925-ci ildə Aşıq Ələsgərin oğlu Aşıq Talıbın ocağında dünyaya göz açan İslam Talıb oğlu Ələsgərov yurda-vətənə bağlılıq örnəyi idi. Bakı Dövlət Universitetini, Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasını müvəffəqiyyətlə bitirib, dissertasiyasını müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi alandan sonra Bakıda xeyli perspektivli vəzifələr təklif edilsə də, o, Ələsgər ocağına dönməyi daha məqbul saydı və 1988-ci il faciəsinə qədər doğma kəndini tərk etməyərək Ağkilsənin tərəqqisi naminə vicdanla çalışdı. 5 kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun elmi əməkdaşıdır.



**Hüseynov Rüstəm Zaman oğlu.** 1961-ci ildə anadan olmuş, Moskva Maliyyə-İqtisad İnstitutunu və Vergi İşinin Təşkili üzrə Beynəlxalq Akademiyanı bitirmişdir. İqtisad elmləri doktoru, Rusiya Federasiyasının II dərəcəli vergi xidməti müşaviri, RF Vergilər Nazirliyinin "Vergilərin yığılması üzrə xüsusi inspeksiyası"nın Moskva şəhər idarəsinin rəis müavinidir.

**Qurbanov Pənah Abdulla oğlu.** Kimya elmləri doktoru, "Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi"dir.

**Qurbanov Nazim Əli oğlu.** Texniki elmlər namizədidir, Moskva şəhərində yaşayır.



**Əzizov Mamed Cablud oğlu.** 1962-ci ildə anadan olmuş, İvanovsk Texnologiya İnstitutunu bitirmişdi. Azərbaycan Respublikası Dövlət Əmlak Komitəsinin Daşkəsən şöbəsinin rəis müavini işləyirdi. 2000-ci ilin may ayında qəfil ürəktutmasından vəfat etmişdir.

**Məmmədov İsrafil Rəfi oğlu.** 1979-cu ildə anadan olmuş, Azərbaycan İnşaat və Memarlıq Universitetində təhsil almış, Universitetin aspiranturasını bitirmişdir. Ekoloci elmlər namizədi, Az.İMU Azad Tələbə Həmkarlar Komitəsinin sədridir.

**Məmmədov İlham Bilal oğlu.** Baytarlıq elmləri namizədidir.

## AĞQALA

(Ağkilsə)

Göyçə gölünün cənub-qərb sahilində, indiki Kamo-Sevan magistralının 12-ci kilometrinə uyğun bir ərazidə yerləşən bu kəndin adına rəsmi qaynaqlarda ilk dəfə Şah İsmayıl Xətainin Ərzincan yürüşü öncəsi Göyçəyə səfəri haqqında məlumatlarda rast gəlinsə də, Ağqalanın sorağı tarixin daha dərin qatlarından gəlir. Belə ki, 2700 il öncə yazılmış Kələqıran kitabəsində adı çəkilən 23 "çarlıq"dan- qaladan biri də Ağqala qalasıdır. Kənd ərazisində 1950-1955-ci illərdə aparılmış arxeoloci qazıntılar zamanı əldə olunmuş maddi sübutlar- bəzək əşyaları və oğuz mədəniyyəti nümunəsi olduğu əsla şübhə doğurmayan məişət əşyaları oğuz türkünün Ağqalanı binələşdirməsinin Kələqıran kitabəsindən 1000 il öncəyə təsadüf etməsi barədə mülahizələrə tam əsas verir. Başqa sözlə, Ağqalanın ən azı 3000-3500 illik tarixi maddi dəlillərlə təsdiqlənmiş reallıqdır. Göyçənin el yaddaşında daşlaşmış məlumatlara görə isə bu yurd yeri bir növ qapalı məktəb statusu daşımış, burada sufi fəlsəfəsinin tədrisinə xüsusi diqqət yetirilmişdir (Bu kitabın "Göyçənin maarifçilik ənənələri" fəslinə bax). XVI əsrə dair rəsmi sənədlərdən isə aydın olur ki, 1555-ci ildən etibarən Ağqala bir inzibati vahid kimi Səfəvi Azərbaycan dövlətinin Çuxur-Səd bəylərbəyliyinin ərazisinə daxil olmuşdur. 1723-cü ildə Göyçə hövzəsi bütünlüklə osmanlıların nəzarətinə keçdikdən sonra tətbiq olumuş inzibati strukturlaşmaya görə Ağqala İrəvan əyalətinin Göyçə nahiyəsinin inzibati ərazisinə aid edilmişdir. 1728-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində Ağqalanın adı "I Ağkilsə" kimi qeyd olunub və onun sultan xəzinəsinə illik ödəncinin 7.325 ağça həcmində olduğu göstərilib. İrəvan xanlığının

müfəssəl dəftərlərində verilən məlumatlara görə isə 1800-cü ildə Ağqalada 390 nəfər azəri türkü yaşamışdır. 1826-1828- ci illər İran-Rusiya,1828-1829-cu illər Rusiya-Türkiyə müharibələri zamanı rus-erməni hərbi kontingentinin təcavüzünə ən çox məruz qalan kəndlərdən biri, bəlkə də birincisi Ağqala olmuşdur. Bu üç il müddətində kənd bir neçə dəfə əldən-ələ keçsə də, əhali doğma yurdunu tərk etməmişdir. 1831-ci ildə kənd əhalisinin sayı cəmi 139 nəfər olmuşdur. Rəsmi statistikaya görə, Ağqalada 1873-cü ildə 192, 1897-ci ildə 331, 1904-cü ildə 424, 1916-cı ildə 520 nəfər türk yaşamışdır.

1918-ci ildə daşnakların Göyçəyə irimiqyaslı hücumu zamanı Ağqala yerlə-yeksan edilmişdir. Oğuz türklərinin bu obaya qayıdışı yalnız 1922-ci ildə mümkün olmuşdur. O zaman artıq kənddə ermənilər məskunlaşdırıldığından türklərin dönüşü dövlət səviyyəsində əngəllənirdi. Amma maneələrə baxmayaraq, 1939-cu ilin rəsmi statistikasına görə, Ağqalada məskunlaşmış türklərin sayı 442 nəfər olmuşdur. 1948-1953-cü illərin deportasiyası da Ağqaladan yan ötməmiş, kəndin əzəli sahibləri olan oğuz türklərinin hamısı zorla köçürülmüşdür. Əvvəlcə Əli-Bayramlı rayonuna gətirilən ağqalalılar az sonra Azərbaycanın dağlıq və dağətəyi zonalarına, əsasən də Gəncəətrafı rayonlara səpələnmişlər. 1956-cı ildən sonra müxtəlif illərdə 22 ailə kəndə dönsə də, onlar qısa müddətdən sonra bu və ya digər səbəbdən yenidən geriyə-Azərbaycana qayıtmağa məcbur edilmişlər. Amma...Bütün bu təqib və təzyiqlərə rəğmən 1988-ci ildə Ermənistanda oğuz türklərinə qarşı keçirilən soyqırımı zamanı Ağqalada 8 türk ailəsi vardı. Quduzlaşmış erməni “boyevikləri” ilə təkbətək qalmış, ətraf aləmdən tam təcrid olunmuş bu 8 ailənin aqibəti barədə isə heç bir məlumat yoxdur. Bəzi məlumatlara görə, harayları heç yana çatmayan bu ailələrin hamısı qətlə yetirilmiş, digər məlumatlara görə isə həmin ailələrin bəzi nümayəndələri qətliamlardan yaxa qurtarmağa müvəffəq olaraq Rusiyanın Krasnodar vilayətinə köçmüşlər. Hər halda “Sovet Ermənistanı” qəzeti əməkdaşlarının 1988-1989-cu, Azərbaycan Qaçqınlar Cəmiyyətinin 1990-1993-cü illər ərzindəki təkidli sorğularına rəğmən ermənilərin bu 8 ailənin taleyi barədə məlumat verməkdən inadkarlıqla imtina etməsi nikbin fərziyyələrə əsas vermir. Ermənistan Ali Sovetinin 9 aprel 1991-ci il tarixli qərarı ilə Ağqala toponimi “Berdunk” sözü ilə əvəzlənmişdir.

Ağqalanın ünlü tarixi şəxsiyyətləri:

**Şıx Əli.** XV əsrin ortalarından XVI əsrin birinci qərinəsinin sonlarına qədər yaşamış bu müdrik insan sufi təlimini mükəmməl əxz etmiş mürşidlərdən biri və kamil təbib olub. Ərzincan yürüşü zamanı Göyəm aşırımında, dəniz səviyyəsindən 2500 metr yüksəklikdə olan Ərgişcə qa-

lasına yaxın bir yerdə müvəqqəti dayanacaq zamanı Şah İsmayıl Xətainin səhhətində yaranan problemin aradan qaldırılmasındakı xidmətlərinə görə sonradan ona seyyidlik rütbəsi verilmiş və Ağqala kəndi barat kimi ona bağışlanmışdır. Səfəvi dövlətinin inkişaf dövründə Şıx Əlinin törəmələri müəllim kimi Göyçənin kəndlərinə, Əyrivəngdən tutmuş Çamırlıya qədər Göyçə gölünün qərb və cənub sahillərindəki türk ellərinə səpələnərək, öz tarixi misssiyalarını davam etdirmiş, elə həmin kəndlərdə də binələşib kökləmişlər.

*Ağqalanın ünlü tarixi şəxsiyyətləri:*

**Hacı Qasım Şıx İsmayıl oğlu.** XIX əsrin əvvəllərindən sonlarına qədər uzun bir ömür sürmüş bu nurlu şəxsiyyət haqqında Göyçənin el yaddaşında daşlamış bilgilər onun bəsirətindən, kamil loğmanlığından xəbər verir.

**Dəli Həllac Şıx Ələkbər oğlu.** XIX əsrin sonlarında anadan olmuş bu oğuz igidi çox qısa, amma örnək bir ömür yaşayıb. Qısa həyatı başabaş mübarizələrdə, rus-erməni hökumətinə qarşı döyüşlərdə keçib və...1918-ci ildə erməni daşnak qoşunlarına qarşı döyüşlərdə şəhid düşüb.

*Ağqalanın alim övladları və nurlu qələm sahibləri:*

**Mahmudov Mirəli Mirhüseyn oğlu.** 1935-ci ildə Ağqalada anadan olsa da, 1948-ci ildə ailəsi ilə birlikdə deportasiyaya məruz qaldığı üçün orta məktəbi Ağstafa rayonunda bitirib. Azərbaycan Dövlət Pedoqoji İnstitutunu və Bakı Dövlət Universitetinin aspiranturasını bitirib. Filologiya elmləri namizədi, 11 elmi kitabın müəllifidir.

**Salman Əli - Salman Ağakişi oğlu Əliyev.** 1929-cu il mayın 24-də anadan olmuş, İrəvan Pedoqoji Texnikumunda və H.Zərdabi adına Gəncə Pedoqoji İnstitutunda təhsil almışdır. 6 pyesi teatrlarda səhnələşdirilmiş, topladığı 4 dastan çap olunmuşdur. "Qravəlli və nağıllar" toplusunun şəriksiz müəllifi, "Qızıl qələm" mükafatı laureatı, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**Yusif İldırım - Miryusif Mirismayıl oğlu.** 1918-ci ildə Ağqala dağıdıldıqdan sonra bir çoxları kimi Göyçənin ünlü loğmanı Hacı Qasımın uşaqları, o cümlədən kiçik oğlu Mirismayıl da mühacirətə, vaxtilə təhsil aldığı Türkiyəyə getmiş, bir daha qayıtmamışdır. 1928-ci ildə İqdır bölgəsinin Başburun nahiyəsində anadan olan Miryusif ailənin ilk övladıdır. İqdır rəssamlıq litseyində və Ərzurumdakı Atatürk Universitetində təhsil alan Miryusif Mirismayıl oğlu hələ gənc yaşlarından etibarən Yusif İldırım təxəllüsü ilə valideynlərinin vətən nisgilindən qaynaqlanan şerlər yazmış, Azərbaycanı, Göyçəni tərənnüm etmişdir. Bu səpgili qoşmalardan, gəraylılardan, bayatılardan bağlanmış 4 kitabın müəllifi olan vətən həsrətli Yusif İldırım 1975-ci ildə Kütahyada vəfat etmişdir.

## AĞTALA

Göyçə gölünün şimalında, Toxluca-Çubuqlu şosesinin 17-ci kilometrində sahilə bitişik bir ərazidə qərarlaşmış bu qədim türk yurdunun xərabəlikləri 1988-ci ilə, yəni Ermənistandan türklərin son deportasiyasına qədər qalırdı. XX əsrin 70-ci illərində erməni arxeoloqlarının bu xərabəliklərdə apardığı qazıntılar zamanı aşkarlanmış kurqanların eramızdan əvvəlki dövrün I minilliyinin sonlarına, təxminən eramızdan əvvəlki III-II əsrlərə aid edilməsi Ağtalanın oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 2000-2500 illik tarixinə şəhadət verən təkzibimümkünsüz faktdır. Erməni mənbələrində isə bu kəndin adı təhrif olunaraq "Ağatala" kimi göstərilir. Bu adi bir yanlışlıq olmayıb toponimin qədimliyini şübhə altına almaq cəhdidir. Belə ki, Ağtala toponimini bu qədim obanın konkret coğrafi mövqeyindəki təbii şəraitin şərtləndirdiyi qaçılmaz və sübutuna ehtiyac duyulmayan gerçəklikdir. Toponimin "Ağa"+ "tala" şəklində təqdimatı isə onun məxsus olduğu yurd yerinin yaxın tarixi, bu yurdun hansısa ağanın mülkiyyəti qismində binələşdirilməsi barədə gümanlara yol açır. Erməni hiyləgərliyinin izləri açıq-aşkardır. Amma bu cəhdlər əbəsdir, çünki Ağtalanın qədim tarixindən soraq verən maddi dəlillərlə yanaşı rəsmi yazılı məlumatlar da kifayət qədərdir. XVI əsrə dair məxəzlərdən aydın olur ki, Səfəvilər dövründə Ağtala Qarabağ (Gəncə) bəylərbəyliyinin tərkibinə daxil olan Göyçə kəndlərindən biri imiş. Erməni mənbələrində isə kəndin adına ilk dəfə 1873-cü ilə dair sənədlərdə rast gəlinir. Rəsmi statistikaya görə həmin vaxt bu kənddə 34 türk ailəsi (218 nəfər) yaşamışdır. 1800-cü ilə qədər mövcud olmuş bir kəndin adının İ.Şopenin siyahılarına düşməməsi və bu siyahıların tərtibindən təxminən 40 il sonra yenidən üzə çıxması ona dəlalət edir ki, 1826-1829-cu illər aralığında erməni-rus hərbi birləşmələrinin viran qoyaraq "adları unudulmuş ölü kəndlər" qrafasında ümumiləşdirdiyi 81 kəndin biri də məhz Ağtala olmuşdur. Amma ermənilərin məkrli niyyətlərinə rəğmən əzəli sahibləri Ağtalanı bərpa etmişlər və bu tarixi reallıq 1873-cü ildən sonrakı bütün sənədlərdə təsbitlənmişdir. 1897-ci ildə kənd əhalisinin sayı 314 nəfər, 1914-cü ildə 396 nəfər idi. XX əsrin əvvəllərindən baş qaldırmış erməni faşizminin qanlı hərbi aksiyaları Göyçədəki bütün türk obaları kimi bu kənddən də yan ötməmişdir. 1918-ci ildə kənd yandırılmış, əhalisinin böyük əksəriyyəti məhv edilmişdir. Və ermənilərin Ağtalada törətdikləri bu qanlı cinayətin miqyasını 1922-ci ildə sovet hökumətinin təhlükəsizlik barədə zəmanətindən sonra kəndə qayıdanların sayına əsasən də aydınca təsəvvür etmək olar:

cəmi 62 nəfər, yəni 1914-cü ildəki əhalinin altıdan biri...1930-cu il sentyabrın 9-da Ağtala bir inzibati vahid kimi Sevan rayonunun bölgüsünə daxil edilmişdir. XIX əsrin 30-cu illərində kolxozlaşma bumu ilə əlaqədar "etibarsız sakinlər", "qolçomaqlar" və "xalq düşmənləri" ilə mübarizə başlayanda Ermənistan Xalq Daxili İşlər Komissarlığı (NKVD) Ağtalanı bütünlüklə "qara siyahı"ya saldı və Ermənistan XKS Mərkəzi İcraiyyə Komitəsinin 3 yanvar 1935-ci il tarixli qərarı ilə Ağtala bir inzibati vahid kimi ləğv edilərək, ərazisi Sevan rayonunun erməni kəndlərinin sərəncamına verildi. Bu, izləri itirmək üçün ermənilərin icad etdiyi ənənəvi metodun növbəti tətbiqi idi ki, həm də kəndin əzəli sahiblərini sadəcə bütün yaşam imkanlarından məhrum etmək mahiyyəti daşıyırdı. Belə ki, bu qərar türkləri ya erməni kəndlərindən birinə, ya da ümumiyyətlə Azərbaycana köçmək məcburiyyəti ilə üz-üzə qoymuşdu. Sevan rayonunda o zaman üçün bütün rəhbər vəzifələr ermənilərin əlində olduğundan, üstəlik bütün ətraf türk kəndləri artıq sırf erməni kəndlərinə çevrildiyindən seçimin aqibəti əvvəlcədən bəlli idi və erməni daşnak-bolşevik liderlərinin gümanları doğruldu, ağtalalılar elliklə Ağstafa rayonuna köçdülər, oradan isə müxtəlif bölgələrə səpələndilər.

## AĞTƏPƏ

(Ağatəpəsi)

Göyçə gölünün şimal sahilində, Çubuxlu aşırımından 10 kilometr şimal- şərqdə, Ağtala kəndindən 2-3 km. şimalda çox da yüksək olmayan təpənin yamacındakı xərabəlikləri 1988-ci il deportasiyasına qədər toxunulmamış qalan bu kəndin ərazisindəki XI-XII əsrə aid karvansaray kompleksinin qalıqları Ağtəpənin azı 1000 illik tarixindən soraq verən maddi sübutdur. Rəsmi məxəzlərdə isə kəndin adına ilk dəfə Şah Abbas dövrünə dair sənədlərdə rast gəlinir və o qeydlərdən məlum olur ki, Ağtəpə Qarabağ (Gəncə) bəylərbəyliyinin tabeçiliyində olan Göyçə kəndlərindən biri imiş. 1828-ci ildə yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə kəndlərinin siyahısında adının çəkilməməsi isə bu obanın 1826-1828-ci illər aralığında dağıdılmasına dəlalət edir. Bu faciənin təfərrüatı rəsmi məxəzlərdə öz əksini tapmasa da, bir danılmaz həqiqət bəllidir: Ağtəpə adlı türk obasının yer üzündən silinməsi kimi ağır tarixi cinayətin də məsuliyyəti ermənilərin və onların havadarı missiyasını üzərinə götürən xristian dünyasının yzərindədir.

## AĞPARAX

Kəvər kəndindən (indiki Kamo şəhəri) 13-14 kilometr cənub-qərbdə, Göyəm silsiləsinin ətəyindəki xərabələri 1988-ci ilə qədər toxunulmamış qalan bu obanın adına ilk dəfə XVI əsrə dair rəsmi sənədlərdə rast gəlinir və bu sənəddən aydın olur ki, Ağparax Səfəvi Azərbaycan dövlətinin Çuxur- Səd bəylərbəyliyinə daxil olan Göyçə kəndlərindən biri imiş. Həmin xərabəliyi əhatələyən istehkam divarlarının bünövrə qalıqlarının erməni alimləri tərəfindən VII-VIII əsrlərə aid edilməsi və bu faktın Ermənistan Tarixi Abidələrin Qorunması və Bərpası Komitəsi tərəfindən təsbit edilməsi isə Ağparax kəndinin oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 1500 illik tarixi barədə mülahizələrə əsas verir. Amma bütün bunlara rəğmən erməni tarixçiləri Göyçə ərazisində Ağparax adlı kəndin mövcudluğunu israrla inkar edirlər və bu zaman adicə bir suala cavab vermək istəmirlər ki, bəs o xərabələr yer üzündən silinmiş hansı kəndin varlığına şəhadət verən izlər, maddi sübutlardır? Ermənilərin bu elementar suala cavab vermək istəməmələrinə baxmayaraq tarixi məxəzlər bu obanın varlığına birbaşa şəhadət verir. Belə ki, 1728-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"nin 112-ci səhifəsində Ağparax kəndinin timar qismində, yəni dövlətin səlahiyyətli nümayəndəsinin məsrəflərini qarşılayan vergi ödəyicisi qismində Saleh Abdulla oğlu adlı şəxsə təhkim edildiyi barədə qeydlər var. Elə erməni mənbələrinin özü də Ağparax adlı türk obasının mövcudluğuna şahidlik edir: XVIII əsr müəllifi S. İrəvanlı Göyçə hövzəsinə səfər qeydlərində Ağparax kəndindən də söhbət açır və Göyçəli Başkəndi ilə həmsərd olan bu dağ kəndində 40-a yaxın tarixi əhəmiyyətli abidə olduğunu göstərir.

1826-1829-cu illər müharibələri zamanı erməni-rus hərbi birləşmələri tərəfindən Göyçədə yerlə-yeksan edilmiş 108 kənddən 67-sinin İ. Şopen tərəfindən tərtib olunmuş siyahısında isə Ağparax adı yoxdur. S. İrəvanlının təəssüratlarının qələmə alınması ilə İ. Şopenin cədvəllərinin hazırlanması arasındakı 30-35 ildə Ağparax "qeyb"əmi çəkildi? 1500 illik tarixi olan bir yurdun heç bir ciddi səbəb olmadan tərk edilməsi mülahizəsi qeyri - ciddi olduğu qədər də qeyri - elmidir. Və ermənilərin bu qeyri-elmi, qeyri-ciddi iddiasını elə İ. Şopenin siyahılarının özü rədd edir. Belə ki, o siyahıda 8-11-ci sırada olan kəndlər, yəni Kərimkəndi və Yuxarı Altuntaxt kəndləri arasında mövcud olmuş 4 kənd "adları unudulmuş ölü kəndlər" kimi təsniflənir. Kəndin məhz 1826-1829-cu illər müharibələri zamanı ermənilər tərəfindən dağıdıldığı təsbit olunursa, onda kəndin adı

cəmi bir il sonra unudula da bilməzdi. Sadəcə o adların unudulması məqsədəuyğun ola bilərdi, yəni ermənilər bu kəndlərdə törətdikləri cinayətlərin miqyasını bildikləri üçün onların adlarının xatırlanmamasında maraqlı olublar və İ. Şopenə dəqiq məlumat verməyiblər. Amma bununla belə Ağparax faciəsinin izlərini tarixdən silmək ermənilərə müyəssər olmayıb. Ağparax qətliamından sağ çıxanlara öz kəndlərini bərpa etmək imkanı verilməsə də, onlar Dəlikdaşa pənah gətirərək, orada kompakt şəkildə yaşayıblar və Dəlikdaşın türklərdən tam təmizlənərək "Tsakkar"a çevrilməsindən sonrakı dövrlərdə belə ermənilərin özləri də Dəlikdaşın cənub səmtindəki məhəlləni "Ağparaxlılar məhləsi" kimi təsnifləyirdilər. Bir sözlə, Ağparax kəndinin eramızın V əsrindən 1830-cu ilə qədər mövcudluğu maddi dəlillərlə və real tarixi faktlarla təsdiqini tapmış bir gerçəklikdir və onun yer üzündən silinməsi kimi ağır bir cinayətin məsuliyyəti ermənilərin tarixi saxtalaşdırma oyunlarına rəvac vermiş xristian dünyasının üzərindədir.

## AĞYOXUŞ

(Ağcakənd - Ağcakelkid)

Göyçə gölünün cənub-şərqində, indiki Vardenis şəhərindən 8-9 kilometr şimalda, dəniz səviyyəsindən 2091 metr hündürlükdə qərarlaşmış bu kəndin adına yazılı mənbələrdə ilk dəfə 1728-ci ildə tərtib olunmuş və hazırda Türkiyə Cümhuriyyətinin Başbakanlıq Arxivində saxlanan "İrəvan əyalətinin icmal dəytəri"ndə rast gəlinir. Həmin sənəddə bu qədim türk yurdu öz ilkin adı ilə, Ağcakelkid kəndi kimi təqdim olunub və onun Məzrəə nahiyəsinin inzibati vahidlərindən biri olduğu, sultan xəzinəsinə illik vergisinin 2.400 ağça həcmində müəyyənləşdirildiyi barədə müvafiq qeydlər aparılıb. Erməni mənbələrində isə kəndin adına ilk dəfə 1828-ci ildə, yəni osmanlıların "İrəvan əyalətinin icmal dəftəri"ni tərtib etməsindən düz 100 il sonra rast gəlinir. Belə ki, qraf Paskeviç - İrəvanskinin tapşırığı ilə, yeni yaradılmış erməni vilayətində kameral siyahıyaalma keçirmiş kollec assesoru İ. Şopenin tərtib etdiyi "Göyçə mahalındakı yaşayış üçün yararlı kəndlərin siyahısı"nda 48-ci sırada məhz bu oba yer alıb, amma kəndin adı heç bir əsas olmadan "Ağyoxuş" kimi verilib. Rəsmi statistikaya görə, 1831-ci ildə bu kənddə 192 nəfər azəri türkü yaşamışdır. 1918-ci ildə kənd erməni daşnak ordusu tərəfindən viran qoyulsa da, 1922-ci ildən sonra bərpa edilmişdir. Amma ermənilər Ağyoxuşun müstəqil inzibati vahid kimi tanınmasını hər mümkün vasitə ilə əngəllə-

mişlər. 1930-cu il sentyabrın 9-da tətbiq olunmuş inzibati bölgüyə əsasən Ağyoxuş kəndi və kənd əhalisinə məxsus örüşlər Zod sovetliyinin sərəncamına verilmiş, 1953-cü ildə inzibati bölgü dəyişdirilərək Ağyoxuş rəsmən Canəhməd kolxozu ilə birləşdirilmişdir. 1988-ci il deportasiyaları zamanı kəndin 453 sakini öz yurdundan didərgin salınmışdır. Ağyoxuşluların böyük əksəriyyəti Gəncə və Gəncəətrafı ərazilərdə, az bir qismi isə Bakıda məskunlaşmışldır.

## AĞZIBİR
(Kəməndbulaq)

İndiki Kamo şəhərindən 9 kilometr cənub-şərqdə, Göyçə gölünün sahilinə yaxın bir ərazidə yerləşən bu kəndlə bağlı ilk məlumata XIV əsrin sonlarından XV əsrin ortalarına qədər yaşayıb-yaratmış ünlü el sənətkarı Dəliqardaşlı Aşıq Rəhimin yaradıcılığında rast gəlinir. Yazılı mənbələrdə isə kəndin adı ilk dəfə Səfəvi Azərbaycan dövlətinin arxiv sənədlərində çəkilir. 1555-ci ilin inzibati strukturlaşmasına görə Ağzıbir Çuxur -Səd bəylərbəyliyinin ərazisinə daxil olan kəndlərdən biri idi. 1934-cü ildə Ermitaj muzeyi əməkdaşlarının Göyçədə apardığı arxeoloji qazıntılar zamanı Ağzıbirin ərazisində aşkarlanmış qala kompleksinin bünövrə qalıqlarının akademik B.Piotrovski tərəfindən eramızdan əvvəlki I minilliyin sonlarına aid edilməsi isə oğuz türkünün bu yerləri binələşdirməsinin azı 2000 illik tarixini təsdiqləyən elmi-maddi sübutdur. Bu fakt erməni tarixçilərini ciddi problemlərlə üzləşdirdiyindən onlar Ağzıbir toponimi ilə bağlı müxtəlif versiyalar uydurur, bu toponimin Əbulkəndinin müasir adı olduğunu təsdiqləməyə çalışırlar. Halbuki İrəvan xanlığının 1800-cü ilə dair müfəssəl dəftərlərində Ağzıbir, Əbulkəndi və Qızılcıq kəndlərinin hər üçünün müstəqil subyektlər kimi mövcud olduğu aydınca görünür. Ermənilər isə 1826-1829-cu illərdə baş vermiş İran - Rusiya, Türkiyə - Rusiya müharibələri zamanı yerlə - yeksan etdikləri Ağzıbir və Qızılcıq kəndlərində törətdikləri faciələrin məsuliyyətindən qaçmaq üçün 100 il fəndgirlik etmişlər. Əvvəl İ. Şopenə yanlış məlumat verməklə onun tərtib etdiyi siyahılarda Əbulkəndi və Qızılcıq toponimlərini eyni kəndin müxtəlif dövrlərdəki adı kimi "təsbitlətmiş"; 1873-cü ilə dair sənədlərdə isə Əbulkəndi və Ağzıbir toponimlərinin eyni kəndin adları olduğu barədə rəy yaratmağa çalışmışlar. Bu, erməni tarixşünaslığının ənənəvi metodudur. Amma tarix öz tarixliyində qalır. Və o real tarixdən bəllidir ki, Ağzıbir toponimi gəlişigözəl bir ifadə olmayıb, kəndin coğrayi

relyefinin şərtləndirdiyi və o reallığı tam mənada ifadə edən bir kəlmədir. Belə ki, bu yurd yerini əhatələmiş çoxsaylı çeşmələr, sanki xüsusi layihə əsasında işlənibmiş kimi, bütün obanı dövrələyən xətt üzrə bir-birinə qovuşaraq kəməndəbənzər bir axınla Göyçə gölünə istiqamətlənir. "Kəməndbulaq" və "Ağzıbir" toponimləri də məhz bu reallığın ifadəsi olaraq, yerli dialektdə özlərinə yaşarılıq haqqı qazanmışlar. 1723-cü ildə Göyçə hövzəsi bütünlüklə osmanlıların nəzarətinə keçdikdən sonra tətbiq olunmuş strukturlaşmaya əsasən kənd İrəvan əyalətinin Göyçə nahiyəsinin inzibati bölgüsünə daxil edilmiş və sənədlərdə Kəməndbulaq kimi təsniflənmişdir. 1728-ci ildə Şah Əhməd Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsindəki qeydlərdən bəlli olur ki, həmin vaxt Kəməndbulağın sultan xəzinəsinə illik vergisi 1.750 ağça həcmində olub.

1826-1829-cu illərdə dağıdılmış Ağzıbir kəndinin əhalisi Əbulkəndə sığınsa da, XIX əsrin ortalarında öz kəndlərini yenidən bərpa etmişlər və bu tarixi reallıq rəsmi sənədlərdə əks olunmuşdur. Belə ki, rəsmi sənədlərə görə 1873-cü ildə Ağzıbirdə 380, 1886-cı ildə 557, 1897-ci ildə 696, 1904-cü ildə 755, 1914-cü ildə 1068 nəfər türk yaşamışdır. 1918-ci ilin mart qırğınları zamanı kənddə olan 166 təsərrüfat bütünlüklə yandırılmış, əhalinin bir hissəsi qətlə yetirilmiş, sağ qalan 413 kişi və 342 qadın isə kəndi tərk etməyə məcbur olmuşdur (*Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. səh-220*). 1922-ci ildə onlardan 327 nəfər geri qayıtsa da, artıq kənddə Türkiyənin Bayazit qəzasından gətirilmiş ermənilər məskunlaşdırıldığı üçün, ağzıbirlilərin bir qismi yenə də kəndi tərk edərək Azərbaycanın Ağstafa, Şəmkir, Daşkəsən və Şəki rayonlarına köçmuşdür. 1926-cı ilin rəsmi statistikasına görə, Ağzıbir əhalisinin 165 nəfəri türk, 276 nəfəri erməni olmuşdur. 1931-ci ildə türklərin sayı artaraq 295 nəfərə çatsa da, ermənilər onların sıxışdırılması siyasətini daha da gücləndirmiş, Ağzıbiri bir inzibati vahid kimi qonşu Hacı Muğan kəndinin tabeçiliyinə vermiş, kənd məktəbində azərbaycanlı sektorunu ləğv edərək türk uşaqlarını qonşu kəndlərdə oxumaq məcburiyyətində qoymuşlar. Ermənistan SSR Ali Sovetinin 7 dekabr 1945-ci il tarixli qərarı ilə Ağzıbir toponimi ləğv edilərək, kənd "Lcap" adlandırılmışdır. 1948-ci ildə Ağzıbir tamamilə türksüzləşdirilmiş, əhali dövlət səviyyəsində deportasiya olunaraq, əsasən Salyan rayonu ərazisinə yerləşdirilmiş, bir müddət sonra isə kiçik qruplar şəklində SSRİ-nin müxtəlif bölgələrinə səpələnmişdir.

***Ağzıbirin ünlü yetirmələri:***

**Həbib Rəhim oğlu Həsənov.** İrəvan Dövlət Pedoqoji İnstitutunu və Moskva Ali Partiya məktəbini bitirmiş; komsomol, partiya və sovet or-

qanlarında bir sıra məsul vəzifələr tutmuş, Amasiya RPK-nın birinci katibi, "Sovet Ermənistanı" qəzetinin baş redaktoru, Ermənistan KP MK-nın üzvü, Ermənistan SSR Ali Soveti sədrinin müavini olmuşdur. 1972-ci ildə ermənilərin qardaşına qarşı törətdikləri qəsdə etiraz olaraq, rəsmən bütün vəzifələrdən və Ermənistan vətəndaşlığından imtina etmişdir. Azərbaycana köçdükdən sonra Qazax rayon Partiya Komitəsinin birinci katibi, Respublika Meşə Təsərrüfatı Komitəsinin sədri, Dövlət Aqrar-Sənaye Komitəsi sədrinin müavini vəzifələrində işləmişdir. Xidmətləri çoxsaylı medallarla və 5 ordenlə qiymətləndirilmiş, "Əməkdar jurnalist" fəxri adına layiq görülmüşdür.

**Mehdi Rəhim oğlu Həsənov.** 1935-ci il oktyabrın 23-də anadan olmuş, orta təhsilini Kəvər nahiyəsinin Hacı Mumuxan (Hacı Muğan) kənd məktəbində, ali təhsilini İrəvan Dövlət Pedoqoji İnstitutunda aldıqdan sonra elmi şuranın qərarı ilə elə həmin ali təhsil ocağında müəllimlik etmişdir. 1969-cu ildə Bakı Dövlət Universitetinin aspiranturasını bitirərək, elə həmin ildə də dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş, filologiya elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. 1959-cu ildən dövrü mətbuatda bədii yazılarla müntəzəm çıxış edən Mehdi Həsənov 1964-cü ildə Azərbaycan Yazıçılar İttifaqına üzv seçilmişdir. "Dağlar qoynunda" adlı ilk kitabında Ermənistan türklərinin həyatına diqqət yetirməsi erməni rəsmi dairələrinin kəskin etirazı ilə qarşılansa da, o öz yolundan dönməmiş, "Maral əfsanəsi" adlı ikinci kitabına Göyçənin Kəvər nahiyəsindəki toponimlərlə bağlı həqiqətləri əks etdirən hekayələrini daxil etmişdi və...Və bu kitab daşnak-kommunistlərin Mehdi Həsənov üçün "ölüm hökmü" çıxarmasına vəsilə oldu. 1971-ci il fevralın 5-də Mehdi Həsənov Mərkəzi Komitənin xəstəxanasında- "leçkomissiya"da aşkar bir cinayətin qurbanı oldu: cərrahın "səhlənkarlığı" ucbatından başlayan qan zəhərlənməsi onun həyatına son qoydu. Ermənistan hökuməti bu aşkar cinayətin izlərini itirmək üçün onun İrəvandakı II Fəxri Xiyabanda dəfn edilməsi barədə qərar qəbul etsə də, o zaman MK üzvü və Ali Sovetin sədr müavini olan qardaşı Həbib Həsənov öz karyerasını da, həyatını da riskə qoyaraq, Mehdi Həsənovun ermənilərlə bir qəbristanlıqda dəfninə icazə verməmiş və gərgin səylər sayəsində cənazənin Ağstafa kənd qəbristanlığında torpağa tapşırılmasına nail olmuşdur.

**Babayev Qədir İbrahim oğlu.** 1937-ci il martın 16-da anadan olmuş, 1948-ci il deportasiyasından sonra ailəsi ilə birlikdə Daşkəsən rayonunda məskunlaşmış, Qazax Pedaqoji Texnikumunu bitirdikdən sonra bir müddət Daşkəsən rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsində şöbə müdiri işləmişdir. 1960-cı ildən ədəbi fəaliyyətə başlamış, paralel olaraq təhsi-

lini davam etdirmiş, Xarkov Avtomobil Yolları İnstitutunu və Kiyev Ali Partiya Məktəbini bitirmişdir. Bakıya döndükdən sonra fəaliyyətini birmənalı şəkildə ədəbi yaradıcılığa yönəltmiş, "Elm" qəzetinin yaradıcılarından biri olmuşdur. Hazırda "Bakinskiy raboçiy" qəzetində çalışır. Əsasən rus dilində yazıb-yaradan Qədir Babayev iki povestin və hekayələrdən ibarət 3 kitabın müəllifi, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvüdür.

## AXSAXTOVUZ

Göyçə gölünün qərbində, indiki Kamo şəhərindən 15-18 kilometr cənubda, Əyriçayın cənub qolunun üstündə, Atdaş (Altundaş) kəndi ilə həmsərhəd bir ərazidəki xərabəlikləri 1988-ci il deportasiyasına qədər qalan bu kənd barədə də erməni mənbələri israrla susurlar. Amma kəndin xərabəliklərinə yaxın bir yamacdakı daş kitabələrin qalıqları bu yerlərin oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 1500 illik tarixi barədə mülahizələrə əsas verir. Erməni tarixçilərinin belə bir kəndin olmaması barədə iddialarına rəğmən elə erməni mənbələrində də kəndin mövcudluğu birmənalı şəkildə təsdiqlənir. Haqqında ilk dəfə XVIII əsr müəllifi Simon İrəvanlının səfər qeydlərində məlumat verilən Axsaxtovuz kəndinin adı 1826-1829-cu illər aralığındakı müharibələr zamanı erməni-rus birləşmələri tərəfindən Göyçə mahalında dağıdılmış 108 kənddən 67-sinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında 22-ci sırada yer alıb. Bu siyahıda Axsaxtovuz Atdaş kəndinə yaxın bir kənd kimi təsniflənir ki, bu da S.İrəvanlının qeydlərindəki təxmini coğrafi təyinatla uzlaşır. Yeni yaradılmış erməni vilayətinin idarəçiliynə verilmiş Göyçə mahalının o zaman üçün dağıdılmamış və ya bərpası nəzərdə tutulan yaşayış məntəqələrinin İ.Şopen tərəfindən 1831-ci ildə tərtib olunmuş siyahısında və bundan sonrakı dövrlərə dair rəsmi sənədlərdə isə Axsaxtovuz kəndinin adı yoxdur. Bu isə o deməkdir ki, Axsaxtovuz kəndi ermənilərin Göyçədə həyata keçirdiyi soyqırım siyasətinin ilk mərhələsində- XIX əsrin əvvəllərində şəhid düşmüş türk obalarından biridir.

## ALLAHVERDİBƏYLİ

XIX əsrin əvvəllərində erməni-rus hərbi birləşmələrinin səyi ilə yer üzündən silinmiş bu qədim türk obasının xərabəlikləri indiki Sevan rayonunun Noraşen kəndindən təxminən 6-7 km. cənub-qərbdə, Abbasgölü kəndi ilə həmsərd bir ərazidədir və 1988-ci il deportasiyasına qədər toxunulmamış qalırdı. Kəndin xərabəliklərindən 200-300 metr şərqdəki V-

VI əsrlərə aid türbənin və oğuz kultunun izləri aşkar sezilən qəbirüstü kitabələrin qalıqları oğuz türkünün bu yerlərdə məskunlaşmasının azı 1500 illik tarixinə şəhadət verən maddi sübutlardır. XVI əsrin ikinci yarısına dair məxəzlərdə isə Allahverdibəyli Səfəvilər dövlətinin Çuxur- Səd bəylərbəyliyinin Kəvər nahiyəsinə daxil olan inzibati vahidlərdən biri kimi səciyyələnir. Erməni mənbələrində isə kəndin adına ilk dəfə 1826-1829-cu illərdə baş vermiş Rusiya-İran, Rusiya-Türkiyə müharibələri zamanı erməni-rus hərbi birləşmələrinin Göyçə mahalında dağıdıqları 108 türk kəndindən 67-sinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında rast gəlinir. Elə həmin tarixçinin tərtib etdiyi başqa bir syahıda- yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalında o zaman yaşayış üçün yararlı sayılan məntəqələrin siyahısında və ondan sonrakı dövrlərə dair rəsmi hesabatlarda bu qədim obanın adı yoxdur. Buradan çıxan məntiqi nəticə isə belədir ki, ya ermənilər kəndin bərpasına imkan verməmişlər, ya da kənd əhalisinin hamısı qətlə yetirildiyindən onu bərpa edəcək kimsə olmamışdır. Bu mülahizələrdən hansının həqiqətə yaxın olduğunu birmənalı şəkildə söyləmək üçün Azərbaycan tarixində əksini tapmış dəlillər yoxdur. Erməni tarixşünaslığı isə bütün anoloji hallarda olduğu kimi Allahverdibəyli ilə bağlı məsələdə də israrla susur. Amma...Dağıdıldıqdan sonra təzədən məskunlaşmasına icazə verilməməsinə baxmayaraq, əhalisinin bir hissəsi sağ qalmış Göyçə kəndlərinin sonradan bərpası praktikasına və bu tarixi reallığın erməni mənbələrində də əks olunması faktına istinadən, qətiyyətlə demək olar ki, ermənilərin rus hərbçilərinin dəstəyi ilə Allahverdibəylidə həyata keçirdikləri qətliamdan canını qurtaran olmayıb.

## ALPARUS

(Alapars-Əlkovas-Əlkavus)

Erməni alimləri bu türk obasının qədimiliyinə şəhadət verə biləcək dəlilləri məhv etmək, ümumən onun izlərini tarixdən silmək üçün xeyli əziyyət çəkiblər və müəyyən mənada məqsədlərinə nail olublar da. Göyçənin erməni təcavüzünə məruz qaldığı 180 illik dövrün bütün mərhələlərində erməni mənbələri bu kəndin adını israrla “Alapars” kimi göstəriblər. İ.Şopen isə 1828-1831-ci illərdə tərtib etdiyi siyahılarda kəndin adının, ermənilərin qeyd etdiyi kimi “Alapars” yox, “ALP-ARAS” olduğunu göstərir. Göyçənin el yaddaşında isə bu yurd yeri ALP-ARUS kimi yaşayırdı və onun sirr - sehiri barədə söz - söhbətlər son deportasiyaya

qədər yaşarıydı. Orada kimlərin və nə vaxt yaşadığı barədə səhih söhbətlər olmasa da, ağsaqqallar bu yerləri qan çanağı, gedər-gəlməz, başqa bir diyar kimi təsnifləyirdilər. Bu söhbətlərin "Dədə Qorqud kitabələri"nə nə dərəcədə bağlı olmasını konkret söyləmək mümkün olmasa da, "Alparus" kəndinin coğrafi mövqeyi bu yönlü düşüncələrə əsas verir. Belə ki, kənd həqiqətən də Göyçənin qurtaracağında, Göyçə hövzəsini əhatələmiş dağların elə bir yamacında yerləşib ki, oradan baxanda göz önündə yeni bir dünya - Dərəçiçək elləri canlanır. Müasir xəritəçəkmə prinsiplərindən təsnifləndikdə Sevan şəhərindən 15-16 km. cənub-şərqdə yerləşmiş bu kəndin yaxınlığındakı, konkret olaraq indi Ellər rayonunun yaylaq yerləri sayılan Kotandağ yüksəkliyindəki kahalarda 1988-ci ilə qədər toxunulmamış qalan daş kitabələr və ibtidai insanın primitiv məişətinin izlərini əks etdirən ocaq yerləri oğuz türklərinin bu yurdda məskunluğunun azı 2000-2500 illik tarixinə və "Kitabi Dədə Qorqud" süjetlərinin cərəyan etdiyi məkanların real coğrafi ərazilər olduğuna şəhadət verən maddi dəlillərdir. XVI əsrin sonlarına aid sənədlərdə isə Alparus Səfəvi Azərbaycan dövlətinin Çuxur-Səd bəylərbəyliyinin inzibati ərazisinə daxil olan kəndlərdən biri kimi səciyyələndirilir. 1723-cü ildə Göyçə hövzəsi bütünlüklə osmanlıların nəzarətinə keçdikdən sonra tətbiq olunmuş inzibati bölgüyə görə, Alparus kəndi İrəvan əyalətinin Göyçə nahiyəsinə daxil olan inzibati vahidlərdən biri kimi təsbitlənmişdir. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində Alp-Arus kəndinin adı "Əlpavus" kimi qeyd olunur və bu kəndin sultan xəzinəsinə illik vergisinin 1.999 ağça həcmində olduğu göstərilir. Erməni mənbələrində isə kəndin təhrif olunmuş adına ilk dəfə 1828-ci ildə yeni yaradılmış erməni vilayətinin idarəçiliynə verilmiş kəndlərin sırasında rast gəlinir və 1831-ci ilə dair məlumatlarda kəndin 182 nəfər türk əhalisinin olduğu göstərilir. Sonradan bu kəndə Maku və Xoydan gətirilmiş 85 erməni yerləşdirilsə də, onlar coğrafi mövqeyinə görə çətin təbii şəraiti olan belə bir yerdə yaşamaq istəməyərək, başqa bölgələrə köçmüşlər. 1918-ci il qətliamları zamanı kənd yerlə-yeksan edilmişdir. Həmin vaxt törədilən cinayətin miqyasını təsəvvür etmək üçünsə bircə fakta diqqət yetirmək kifayətdir: 1922-ci ildə sovet hökumətinin təhlükəsizlik barədə təminatından sonra Alparusa qayıdacaq bircə nəfər belə sağ adam tapılmamışdır. Və Ermənistanın daşnak-bolşevik hökuməti dərhal kəndin bir inzibati vahid kimi ləğvi barədə qərar qəbul etmiş, Alparus kəndinə məxsus örüş yerləri isə 1930-cu ildə Axta (Hrazdan), Ellər (Abovyan) və Kəvər (Kamo) rayonları arasında bölüşdürülmüşdür.

## ALTUNDAĞ

Erməni-rus hərbi birləşmələrinin səyi ilə yer üzündən silinmiş bu qədim türk obası haqqında ilk məlumat XVIII əsr müəllifi Simon İrəvanlının qeydlərində yer alsa da, o da kəndin coğrafi mövqeyi haqqında dəqiq məlumat verməyərək, bu kəndin Aşağı Altuntaxt və Yuxarı Altuntaxt kəndlərinə yaxın bir ərazidə yerləşdiyi barədə səthi bilgilərlə kifayətlənir. Gevorq Alişan adlı digər bir "erməni tarixi quraşdırıcısı"nın XIX əsrdə irəli sürdüyü versiyaya görə isə, binələşmə tarixi eramızdan əvvəlki dövrə aid olan bu kənd indiki Kamo rayonu ərazisində olan dağ silsiləsində yox, Basarkeçər nahiyəsindəki Zod qızıl mədənlərinə yaxın bir ərazidə, Zod və İnəkdağı kəndləri arasında yerləşmişdir. Amma ehtimallara rəğmən Altundağ adlı yaşayış məntəqəsinin dəqiq coğrafi mövqeyi barədə mülahizələrə əsas verə biləcək maddi sübutlar, rəsmi məlumatlar yoxdur. Bu məsələni yalnız və yalnız həmin yerlərdə aparılan arxeoloci qazıntalar vasitəsi ilə həll etmək mümkündür. Amma nə yazıqlar ki, tariximiz üçün gərəkli ola biləcək bir çox mətləblər kimi bu qədim yurd yerimiz barədə də əsl həqiqəti öyrənməyə nə imkanımız, nə də gümanımız var...Yeganə bəlli fakt odur ki, Simon İrəvanlının təxminən 1770-1780-ci illərə təsadüf edən Göyçə səfəri zamanı mövcud olmuş Altundağ kəndi 1826-1829-cu illərdə baş vermiş İran-Rusiya, Rusiya-Türkiyə müharibələri dövründə izsiz-soraqsız "qeybə çəkilib". Niyə? Bu elementar sualın cavabsız qalmasının tarixi və bəşəri məsuliyyəti ermənilərin, bir də onlara havadarlıq edən xristian dünyasının üzərindədir.

## ARDANIŞ
### (Ərdanuc)

Krasnoselo rayon mərkəzindən 22 kilometr cənub-şərqdə, Zod-Sevan dəmiryolunun təxminən 35-ci kilometrində, sahildən 1 kilometr məsafədə yerləşən bu kəndin müasir coğrafi mövqeyindən təxminən 1-1,5 kilometr şimalda, Şahdağ silsiləsinin cənub ətəklərindəki oğuz kurqanları bu yerlərin oğuz türkləri tərəfindən binələşdirilməsinin qədim tarixinə işarət olan fakt kimi dəyərləndirilsə də, onların vaxtında tədqiq edilməməsi Ardanışın həqiqi tarixi barədə konkret qənaətlərə imkan vermir. Bununla belə, kəndin şimal-şərqindəki, I-II əsrlərə aid edilən qədim məzarlığın qalıqları oğuzların Ardanışda məskunlaşmasının azı 2000 illik tarixini təsdiqləyən maddi sübutdur. XVI əsrə dair rəsmi sənədlərdə Ardanış Səfə-

vi Azərbaycan dövlətinin Qarabağ (Gəncə) bəylərbəyliyinə daxil olan Göyçə kəndlərindən biri kimi təsnifiənir. 1723-cü ildə Göyçə hövzəsi bütünlüklə osmanlıların nəzarətinə keçdikdən sonra tətbiq olunmuş stuktur bölgüsünə əsasən Ardanış İrəvan əyalətinin Məzrəə nahiyəsinin inzibati vahidləri sırasına daxil edildmişdir. 1728-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"nin 16-cı səhifəsindəki qeydlərdə kənd öz əzəli adı ilə - "Ərdanuc kəndi" kimi təqdim olunub və onun sultan xəzinəsinə illik vergisinin 4.339 ağça həcmində olduğu göstərilib.

Erməni mənbələrində isə Ardanış toponiminə ilk dəfə XIX əsrin əvvəllərinə dair sənədlərdə rast gəlinir. Belə ki, 1828-ci ildə yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalının o zaman yaşayış üçün yararlı sayılan 59 yaşayış məntəqəsinin siyahısında 55-ci sırada Ardanış kəndinin adı gəlir. Həmin siyahıları tərtib etmiş İ. Şopenin verdiyi məlumata görə, 1831-ci ildə Ardanışın sırf türklərdən ibarət 389 nəfər əhalisi olmuşdur. Z. Korkodyanın təqdim etdiyi rəsmi məlumatlara görə, 1914-cü ildə kənd əhalisinin sayı 1045, 1919-cu ildə 1154 nəfər olmuşdur. 1918-ci ilin əvvəllərində Ararat Respublikasının quldurları kəndi talan etsələr də, Türkiyədən gətirilmiş erməniləri Ardanışda yerləşdirmək niyyəti baş tutmamışdır. Məşədi Hümbətin başçılıq etdiyi özünümüdafiə batolyonunun qisasından qorxan gəlmə ermənilər Ardanışda məskunlaşmaqdan qətiyyətlə imtina etmişlər. 1919-cu ilin qışında yenidən kəndə dönən Ağbulaq, Toxluca və Ardanış əhalisinin təsərrüfat işləri ilə məşğul olması xəbəri daşnak liderlərini qıcıqlandırmış və 1920-ci ildə kəndə yeni hərbi basqın olmuşdur. "Joğovord" qəzeti özünün 1920-ci ildəki 105-ci sayında Q. Muradyan adlı müəllifin dili ilə həmin hadisəni belə təsvir edirdi: *"...Bizim hökumətin tədbirləri sayəsində Toxluca, Ağbulaq, Ardanış kəndlərinin əhalisi Ermənistan sərhəddini tərk elədilər. Bu kəndlərin əhalisi külli miqdarda kartof, buğda və arpa səpmişdi. Hökumət bu kəndlərdən 2 milyon puddan çox buğda və yarım milyon puddan çox kartof yığa bilər..."* Bu məlumata əsasən belə təxmin etmək olar ki, ermənilərin Ardanışa və qonşu kəndlərə hücumu 1920-ci ilin yay aylarına, yəni Azərbaycanda sovet hökumətinin qurulmasından sonrakı dövrə təsadüf etmişdir. 1922-ci ildə sovet hökumətinin təhlükəsizlik barədə təminatından sonra Ardanışa qayıdanların sayının 1138 nəfər, yəni 1914-cü ildəki əhalinin sayına az qala bərabər olması isə Ardanış müdafiəçilərinin, sözün həqiqi mənasında bacarıqlı olmalarına, əhalini 1918-1920-ci illər qətliamlarından maksimum az itki ilə çıxara bilmələrinə şəhadət verən tarixi reallıq kimi dəyərləndirilə bilər. Sovet hakimiyyəti illərində isə ardanışlılar doğma yurdlarını, sözün tam mənasında var gücləri ilə abad-

laşdırmağa müvəffəq oldular. 1937-ci ilə qədər Basarkeçər rayonunun idarəçiliyində olan kəndin sürətli inkişafı ermənilər əndişələndirdiyindən, Ermənistan Xalq Komissarları Sovetinin Mərkəzi İcraiyyə Komitəsi özünün 31 dekabr 1937-ci il tarixli qərarı ilə Ardanışı türklərin çoxluq təşkil etdiyi Basarkeçərdən ayıraraq, ermənilərin, rusların, mordvinlərin, kürdlərin qarışıq yaşadığı Krasnoselo rayonunun inzibati vahidlərindən birinə çevirdi. Amma bu tədbir də Ardanışlıların vətən sevgisini öləzidə bilmədi, əksinə sanki özünüqoruma, öz varlığını təsdiqləmə instinkti tam gücü ilə işə düşdü və Ardanış alimlər, ziyalılar məktəbinə çevrildi. 1979-cu ilin rəsmi siyahıyaalınmasının nəticələrinə görə, Ardanışın sırf türklərdən ibarət əhalisinin sayı 2589 nəfər idi. 1988-ci il noyabr ayının 24-dən 28-nə qədər erməni quldurlarının mühasirəsində qalan kənd əhalisi Azərbaycanın rəsmi dairələrindən heç bir kömək ala bilməməsi səbəbiylə doğma yurdu tərk etmək məcburiyyətində qaldı və ... Bu hadisə zamanı Ardanış 6 şəhid verdi. 1929-cu il təvəllüdlü **Mustafa Musa oğlu Məmmədov** və 1934-cü il təvəllüdlü **Həsən Şaban oğlu Həsənov** erməni quldurlarının yetirdikləri xəsarət nəticəsində; 1958-ci il təvəllüdlü **Firəngiz Hüseyn qızı Xəlilova** isə həkim baxımsızlığı ucbatından vəfat etdilər. Kəndin digər 3 sakini- 1920-ci il təvəllüdlü **Bahar Süleyman qızı Ələsgərova**, 1928-ci il təvəllüdlü **Əli Abbasəli oğlu İsmayılov** və 1930-cu il təvəllüdlü **Səməd İsmayıl oğlu İsmayılov** Şahdağın qarlı aşırımlarında borana düşərək dünyalarını dəyişdilər. Ermənistan Respublikası Nazirlər Sovetinin 24 mart 1990-cı il tarixli qərarı ilə Ardanış bir təsərrüfat subyekti kimi ləğv edilərək, ərazisi qonşu kəndlər arasında bölünmüşdür.

***Ardanışın ünlü yetirmələri:***

**HACI AXUND - Rəhim Hacı Həsən oğlu.** XIX əsrin 70-ci illərində Xoy şəhərində ali ruhanı təhsili almış, Göyçənin 8 kəndinin baş din xadimi olmuşdur.

**Məşədi Hümbət.** 1875-ci ildə anadan olmuş, Hacı Axunddan dini dərs almışdır. 1918-ci ildə ermənilərin Qaraqoyunlu dərəsinə hücumu zamanı döyüşlərdə göstərdiyi şücaətə görə kənd ağsaqqallarının ümumi rəyi ilə kəndin koyxası təyin edilmiş, 1918-1920-ci illərdə kənd müdafiəçilərinə rəhbərlik etmişdir.

**Aşıq Niftəli - Niftəli Kərbəlayi İsmayıl oğlu Süleymanov.** 1913-cü ildə anadan olmuş, Hacı Axunddan dini təlim almış, Qızılvəngli Aşıq Qulunun şəyirdi, II Dünya müharibəsinin iştirakçısı, Azərbaycan Aşıqlarının III qurultayının nümayəndəsi, Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş, Göyçədə mahir el sənətkarı kimi tanınmışdır. 1976-cı ildə vəfat etmişdir.

**Axundov Məmmədəli Əbdüləzim oğlu.** 1946-cı ildə anadan olmuş, ibtidai təçhsilini Tovuz rayonunun Çatax kəndində, orta təhsilini Krasnoselo rayonunun Gölkənd kəndində almış; Bakı Dövlət Universitetinin biologiya fakultəsini, A.Qarayev adına Fiziologiya İnstitutunun aspiranturasını bitirmiş, dissertasiyasını Moskvada müdafiə edərək, biokimya elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. 35 elmi əsərin müəllifi, Azərbaycan Tibb Universitetinin dosentidir.

**Bayramlı Abbas Əli oğlu.** Fizika-riyaziyyat elmləri namizədidir.

**Əhmədov Rəhim Abbas oğlu.** 1927-ci ildə anadan olmuş, Azərbaycan Sənaye İnstitutunu (indiki Neft Akademiyası) və Ümumittifaq Yeyinti Sənayesi İnstitutunu bitirmiş, bir sıra məsul vəzifələrdə çalışmış, SSRİ Dövlət İnspeksiyasında Baş Dövlət Müfəttişi olmuşdur. 10-dan çox ixtiranın, dilçiliyə və tarixə dair bir sıra elmi məqalələrin müəllifidir. Şer və hekayələri çap olunmuş, SSRİ-nin bir sıra orden və medalları ilə təltif edilmişdir. 1989-cu il dekabrın 7-də Bakıda vəfat etmişdir.

**Əliyev Kazım Əsgər oğlu.** Göyçədə təhsil sisteminin inkişafında müstəsna xidmətlər göstərmiş, Ardanış məktəbinin direktoru işlədiyi dövrdə Ermənistan SSR Ali Sovetinin 8 noyabr 1965-ci il tarixli qərarı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür.

**Əliyev İlyas İslam oğlu.** 1955-ci ildə anadan olmuş, Ardanış kənd orta məktəbini qızıl medalla, Bakı Dövlət Universitetini və Yalta şəhərindəki Ümumittifaq Elmi-Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutunun aspiranturasını fərqlənmə diplomları ilə bitirmişdir. Texniki elmlər namizədi, 15 elmi əsərin müəllifidir.

**Əliyev Rəşid Ələs oğlu.** 1931-ci ildə anadan olmuş, İrəvan Dövlət Pedoqoji İnstitutunu, Bakı Ali Partiya Məktəbini və AEA Fəlsəfə və Hüquq İnstitutunun aspiranturasını bitirbmiş, Ardanış kənd məktəbində direktor müavini, Krasnoselo rayon Partiya Komitəsində təlimatçı, Bakının Sabunçu rayonunun Partiya Komitəsində şöbə müdiri işləmiş, Azərbaycan Tibb Universitetinin professoru olmuşdur. Fəlsəfə elməlri doktoru, 4 elmi monoqrafiyanın müəllifidir. 1996-cı ildə Bakıda vəfat etmişdir.

**Hacıyev Əli Zeynalabdı oğlu.** 1926-cı ildə anadan olmuş, Bakı Dövlət Universitetinin hüquq fakultəsini və Moskva İctimai Elmlər Akademiyası nəzdində rəhbər kadrların hazırlıq kursunu bitirmiş, Bakı şəhər prokurorluğunda şöbə rəisi, Quba və Şəki rayonlarında prokuror işləmiş, baş ədliyə müşaviri rütbəsinə qədər yüksəlmişdir. 1999-cu ilin aprelində Bakıda vəfat etmişdir.

**Hacıyev İmamverdi Kəlbəabbas oğlu.** Tarix elmləri namizədidlr.

**Hacıyev Oruc Ələs oğlu.** Texniki elmlər namizədidir.

**Həsənli Ələkbər Kazım oğlu- ƏLƏKBƏR HƏSƏNLİ.** Göyçə təhsil sisteminin inkişafında müstəsna xidmətlər göstərmiş, Basarkeçər nahiyəsindəki Şişqaya kənd orta məktəbinin direktoru işləyərkən Ermənistan SSR Ali Sovetinin 4 dekabr 1951-ci il tarixli qərarı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülmüş; bir sıra məsul vəzifələrdə çalışmış, dövri mətbuatda müntəzəm çıxış etmiş, bədii yaradıcılıqla məşğul olmuşdur. Bir şer kitabının müəllifidir.



**Həsənov Həsən Zal oğlu - HƏSƏN HƏSƏNLİ.** 1954-cü il avqustun 30-da anadan olmuş, Bakı Dövlət Universitetini, Ümumittifaq Mətbuat İnstitutunu, Azərbaycan Dövlət Xarici Dillər İnstitutunu, AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını bitirmiş, bir sıra KİV-lərdə məsul vəzifələrdə çalışmış, Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkəti sədrinin müavini olmuşdur. Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Curnalistlər Birliyinin üzvü, "Xalq" qəzetinin baş redaktorudur.

**Həsənov Eldar Məhəmməd oğlu.** Fizika-riyaziyyat elmləri namizədidir.

**Hüseynov Rövşən Məhəmmədəli oğlu.** 1976-cı ildə anadan olub. Boks üzrə 3 dəfə SSRİ, 2 dəfə Avropa, 2 dəfə dünya çempionudur.



**İsmayılov Abbas Kərbalayı Məhəmməd oğlu.** 1927-ci ildə anadan olmuş, 1951-ci ildə Xanlar Pedoqoji Texnikumunu, 1955- ci ildə Azərbaycan Dövlət Pedoqoji İnstitutunun tarix fakultəsini bitirdikdən sonra təyinatla Salyan rayonuna göndərilmiş, Parça - Xalac yediillik məktəbinin direktoru işləmişdir. 1960- cı ildə APİ-nin əyani aspiranturasına daxil olan Abbas İsmayılov bundan sonrakı həyatını Azərbaycan pedoqogika elminin inkişafına həsr etmiş, həmin kafedranın professoru səviyyəsinə qədər yüksəlmiş, "SSRİ Ali Məktəb Əlaçısı", "SSRİ Maarif Nazirliyi Əlaçısı" fəxri adlarına layiq görülmüşdür. APİ-nin "İctimai peşələr fakultəsi"nin yaranmasının təşəbbüskarı, təşkilatçısı və ilk rəhbəri məhz professor A. İsmayılov olmuşdur. 70-dən çox elmi əsərin, 16 kitab və monoqrafiyanın müəllifi olan bu zəhmətkeş alim həm də fəal vətəndaşlıq

mövqeyi ilə seçilirdi. 1988-ci ildə başlayan milli azadlıq hərakatına ilk dəstək verən ziyalılardan, 1990-cı ildə sovet ordusunun Azərbaycan xalqına qarşı törətdiyi cinayətlərə etiraz olaraq Sov. İKP sıralarını tərk edənlərdən biri də məhz o idi. Və onun yurdsevər qəlbi o illərin dəhşətlərinə dözməti; 1992-ci il yanvarın 11-də əbədiyyətə qovuşdu.

**İsmayılov Nəvazi Abbas oğlu.** 1957 - ci ildə anadan olmuşdur. Fizika - riyaziyyat elmləri namizədi, Bakı Dövlət Universitetinin dosentidir.

**İsmayılov Raizi Abbas oğlu.** 1962 - ci ildə anadan olmuşdur. Azərbaycan Ordusunun polkovnikidir.

**İsmayılova Mirvari Abbas qızı.** 1960 - cı ildə anadan olmuşdur. Filologiya elmləri doktoru, N. Tusi adına Azərbaycan Dövlət Pedoqoji Universitetinin professorudur.

**Kərimov Əbdüləli İsmayıl oğlu.** Filologiya elmləri namizədidir.

**Məmmədov Qoşqar Məhərrəm oğlu.**1968-ci ildə anadan olmuş, Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını və AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun aspiranturasını bitirmişdir. Kənd təsərrüfatı elmləri namizədi, 20 elmi əsərin müəllifi, AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun böyük elmi işçisidir.

**Məmmədov Tapdıq Əli oğlu.** Pedoğoji elmlər namizədidir.

**Musayev Zakir Səməd oğlu.** Texniki elmlər namizədidir.

**Paşayev Əhməd Əli oğlu - ƏHMƏD PAŞA.** 1927-ci il yanvarın 14-də anadan olmuş, 1945-ci ildə İrəvan Pedoqoji Texnikumunu, 1951-ci ildə Azərbaycan Pedoqoji İnstitutunu, 1968-ci ildə Bakı Ali Partiya Məktəbini bitirmiş, Göyçə mahalının müxtəlif kəndlərində müəllimlik etmiş, bir sıra məsul vəzifələrdə çalışmış, dövri mətbuatda müntəzəm çıxış etmiş, bədii yaradıcılıqla məşğul olmuşdur. 3 şer kitabının, 20-dən çox hekayənin müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 1997-ci il sentyabrın 3-də Bakıda qəfil ürəktutmasından vəfat etmişdir.



**Paşayev Vəli Əli oğlu.** 1939-cu il mart ayının 26-da anadan olmuş, Bakı Dövlət Universitetini və AEA Fəlsəfə İnstitutunun aspiranturasını bitirmiş, Cəlilabad rayonundakı Qarakazımlı kənd məktəbində müəllim, Krasnoselo rayonundakı Cil kənd məktəbində dərs hissə müdiri, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun fəlsəfə kafedrasında müəllim işləmiş, "Elmi kommunizm" kafedrasının müdiri olmuşdur. Fəlsəfə elməlri doktoru, 200-dən çox elmi məqalənin, dərs vəsaitinin, monoqrafiyanın müəllifidir.

**Paşayev Məhəmməd Əli oğlu.** 1943-cü il iyulun 29-da anadan olmuş, Azərbaycan Xarici Dillər İnstitutunu və BDU-nun aspiranturasını bitirmiş, Ardanış kənd məktəbində, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun xarici dillər kafedrasında müəllim işləmişdir. Fəlsəfə elmələri doktoru, 2 elmi monoqrafiyanın, 2 dərs vəsaitinin, 15 elmi məqalənin müəllifi, Azərbaycan Tibb Universitetinin professorudur.

**Verdiyev Nuru Bayram oğlu - NURU BAYRAM.** 1939-cu ildə anadan olmuş, 1948-ci il deportasiyası zamanı ailəsi ilə birlikdə Xanlar rayonunun Qızılca kəndində məskunlaşmış, Azərbaycan Dövlət Pedoqoji Universitetini bitirmişdir. 1973-cü ildən Bakıda məskunlaşıb. Bir neçə şer kitabının müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

## AŞAĞI ADIYAMAN

Göyçə gölünün cənubunda, indiki Martuni şəhərindən təxminən 8-9 kilometr şimal-qərbdə, Göl (indiki Liçk) və Yuxarı Adıyaman (indiki Verin Getaşen) kəndləri ilə həmsərhəd bir coğrafi mövqedə yerləşən bu qədim türk yurdu haqqında ilk yazılı rəsmi məlumat XVI əsrə aiddir. 1555-ci ilə dair yazışmalarda Aşağı Adıyaman Səfəvi Azərbaycan dövlətinin Çuxur-Səd bəylərbəyliyinin tabeçiliyində olan Göyçə kəndlərindən biri kimi xarakterizə olunur. 1723-cü ildə Göyçə hövzəsi bütünlüklə osmanlıların nəzarətinə keçdikdən sonra tətbiq olunan struktur bölgüsünə görə, Aşağı Adıyaman kəndi İrəvan əyalətinin Göyçə nahiyəsinin inzibati ərazisinə daxil edilmişdi. 1728-ci ildə tərtib olunan “İrəvan əyalətinin icmal dəftəri”ndəki qeydlərdən isə bəlli olur ki, Aşağı Adıyaman kəndinin sultan xəzinəsinə illik vergisi 3.723 ağça həcmində müəyyənləşdirilibmiş. Erməni mənbələrində isə Aşağı Adıyamanla bağlı ilk məlumat 1828-ci ilə təsadüf edir. Rusların istəyi ilə yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalının o zaman yaşayış üçün yararlı sayılan 59 yaşayış məntəqəsindən biri də Aşağı Adıyaman kəndi idi. İ.Şopenin verdiyi məlumata görə, 1831-ci ildə Aşağı Adıyamanın sırf türklərdən ibarət 234 nəfər əhalisi olmuşdur. XIX əsrin ortalarından etibarən Türkiyədən köçürülmüş ermənilərin məskunlaşması hesabına bir çox ətraf kəndlər kimi Aşağı Adıyaman da qarışıq kəndə çevrilmiş, 1918-ci il qırğınları zamanı isə kəndin min nəfərdən çox türk sakini (286 ailə) sıxışdırılıb çıxarılmışdır. 1922-ci ildə kənd əhalisinin bir qismi doğma ocağa qayıtmağa təşəbbüs göstərsə də, Ermənistan SSR-in daşnak- kommunist rəhbərliyi buna imkan verməmişdir. Ermənistan SSR Ali Sovetinin 7 dekabr 1945-ci il tarixli qərarı ilə Aşağı Adıyaman toponimi ləğv edilərək, kənd “Nerkin Getaşen” adlandırılmışdır.

# AŞAĞI ALÇALI

Göyçə gölünün cənub-şərq ləpədöyənindən 4 kilometr aralıda, Kötük çayın hər iki sahilində yerləşən bu kənddə oğuz türklərinin binələşmə tarixi eramızdan əvvəlki tarixin II minilliyinin sonlarına, I minilliyin əvvəllərinə təsadüf edir. XX əsrin otuzuncu illərində Kələqıran qalasında arxeoloji ekspedisiyaya rəhbərlik etmiş akademik B. Piotrovski ermənilərin birbaşa dəstəyi və diqtəsi ilə yazdığı "Van çarlığı" adlı əsərində Göyçə gölünün cənub sahilində, konkret olaraq Tsovinar (Kələqıran) və Artsvanist (Alçalı) kəndləri arasındakı qalada aşkarladığı mixi yazılarının eramızdan əvvəlki VIII əsrin ortalarında yaşamış Urartu çarı I Rusaya şamil edilən daş kitabələrə oxşarlığından söhbət açır və Kələqırandakı daş kitabənin tərcüməsini təqdim edərək, o dövrdə Göyçə hövzəsində 23 qalanın mövcud olduğunu təsdiqləyir. Həmin 23 qalanın adınının tam siyahısından aşkar olur ki, tərcümə zamanı məhz ermənilərin təhriki ilə müəyyən təhriflərə yol verilmiş və həmin adların Göyçədəki qədim toponimlərə oxşarlığı faktını gizlətmək məqsədi güdülmüşdür. Məsələn, B.Piotrovski Göyçə gölünün sahilindəki Ataxan qalası barədə elmi əsərində dəfələrlə söhbət açdığı və özü bu qalanı tədqiq etdiyi halda, nədənsə mixi yazısının tərcuməsindəki "Ataziaani" qalasınının izlərini tamam başqa səmtdə axtarır. Tərcümənin xətasına uyğun olaraq "Ulikuxi" kimi təqdim olunmuş məkanı mifik bir ərazi kimi təqdim edən Piotrovski türk dilindən xəbərdar olsaydı, yəqin ki, "Ulu qullar" anlamına gələn bir ifadənin açılışında o qədər də əziyyət çəkməz, mifik mənalar axtarmaq həvəsinə düşməzdi. Kələqıran kitabəsində adları çəkilən qalalar sırasında bir ad da var: ALÇARİANİ. B.Piotrovski təbii ki, bu "çarlığın" da yerini müəyyənləşdirməkdə çətinlik çəkib və heç ağlına da gəlməyib ki, əsərlərində Tsovinar qalası kimi təqdim etdiyi və ilkin adının Kələqıran qalası olduğunu etiraf etdiyi qalanın qonşuluğundakı Alçalı kəndi elə haqqında söhbət açdığı "izləri silinmiş Alçariani" qalasının yerləşdiyi ərazidir. Bəli, akademik B. Piotrovski ciddi yanlışlıqlara yol verib. Amma bu xətalara görə onu qınamağa bizim haqqımız yoxdur. Çünki o bir arxeoloq kim vicdanla işləyib: Kələqıran qalasının tədqiqi naminə həyatı ilə risq edib, daş kitabənin surətini əldə etmək üçün hətta kanatla qayadan asılaraq günlərlə işləyib. Sonradan ermənilər onu yanlış istiqamətə yönəldərək hər şeyi Van çarlığı ilə bağlamağa sövq ediblər. Bu da səbəbsiz deyil: B.Piotrovski 1934-cü ildə Kələqıran kitabələrini aşkarlayanda oxşar kitabələr, yəni ermənilərin Van ətrafından, Qanlı Təpədən oğurladıqları

kitabələr artıq dünya elmi ictimaiyyəti tərəfindən erməni məxəzləri kimi qəbul edilmişdi. O zaman gənc alim olan B. Piotrovski isə Orbelyan tərəfindən vəd olunmuş sürətlə məhşurlaşma təklifindən yan keçə bilməmiş, öz tapıntılarını erməni tarixinin təsdiqinə yönəltməklə qısa zamanda elmi karyera qazanmaq şansını buraxmamışdır. Bununla belə, o, 1959-cu ildə Moskvada çap etdirdiyi fundamental əsərində Göyçənin əsl tarixinin tədqiqi üçün gərəkli ola biləcək izlər qoyub. Amma nə yazıq ki, 1959-cu ildə çap olunaraq dünya elmi ictimaiyyətini silkələmiş və erməni tarixçilərinin yeni yalanları üçün zəmin hazırlamış bu kitab "Azərbaycan sovet tarixçiləri"nin diqqətini çəkməmişdir. Halbuki, ermənilərin ciddi redaktəsinə, kitabın elmi redaktoru akademik İ.A.Orbelinin etirazlarına baxmayaraq, B.Piotrovski Göyçə ərazisindəki "qədim erməni qalaları"nın müasir erməni adlarının hamısının yanında həqiqi adları- türk toponimlərini qeyd etməkdə israr göstərmiş və buna qismən nail olmuşdu. Deməli, Azərbaycan tarixçilərinin bu elmi axtarışlara qoşulması ümumən nəticəyə təsir göstərə, B. Piotrovskinin düzgün qənaətlərinə rəvac verə bilərdi. Təəssüf...İqrar Əliyevin başçılıq etdiyi Azərbaycan tarixşünaslığının o zamankı vəzifəsi oğuz türkünün izlərinin axtarılması yox, Azərbaycan türkünün izlərinin farsa calanması idi. Amma İqrar Əliyev tarixşünaslarının istəyindən asılı olmayaraq, oğuz türkünün Göyçənin əzəli sahibi olmasını təsdiqləyən maddi sübütlar minilliklərin arxasından boy qaldırır. Alçalı kəndinin indiki coğrafi mövqeyindən təxminən 500 metr cənubdakı yamacda qalıqları 1988-ci il deportasiyasına qədər toxunulmamış qalan, eramızdan əvvəlki ikinci minilliyə aid kurqanlar bu yerlərin oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 3000 illik tarixinə şəhadət verən faktdır. Erməni mənbələrində isə Alçalının adına ilk dəfə erməni vilayətinin tərkibinə verilmiş Göyçə mahalının Rusiya - İran, Rusiya - Türkiyə müharibələri zamanı dağıdılmamış 59 yaşayış məntəqəsinin İ. Şopen tərəfindən 1831-ci ildə tərtib edilmiş siyahısında rast gəlinir. Həmin siyahıda 31- ci sırada yer alan Alçalıda o zaman 521 türkün yaşaması barədə rəsmi məlumat da, bu yurdun qədimiliyinə dəlalət edən tarixi sübutdur. 1830-cu ildən başlayaraq Alaşkerd mahalının Qorun və Muson kəndlərinin əhalisi tam tərkibdə Alçalıya köçürüldüyündən türklərin bir qismi onlarla birlikdə yaşamaq istəməmiş və Mollalı kəndinə köçmüşlər. Aşağı Alçalı adının ortaya çıxması da məhz bu dövrə, XIX əsrin ortalarına təsadüf edir. Belə ki, Alçalıdan Mollalıya köçənlərin bir qismi yeni yurd yerlərini Yuxarı Alçalı kimi təsnifləmişlər ki, bu reallıq da ermənilərin məskunlaşdığı Alçalı kəndinin Aşağı Alçalı kimi təsniflənməsi zərurətini yaratmışdır. Oğuz türklərinin Alçalı kəndindən sıxışdırı-

kitabələr artıq dünya elmi ictimaiyyəti tərəfindən erməni məxəzləri kimi qəbul edilmişdi. O zaman gənc alim olan B. Piotrovski isə Orbelyan tərəfindən vəd olunmuş sürətlə məhşurlaşma təklifindən yan keçə bilməmiş, öz tapıntılarını erməni tarixinin təsdiqinə yönəltməklə qısa zamanda elmi karyera qazanmaq şansını buraxmamışdır. Bununla belə, o, 1959-cu ildə Moskvada çap etdirdiyi fundamental əsərində Göyçənin əsl tarixinin tədqiqi üçün gərəkli ola biləcək izlər qoyub. Amma nə yazıq ki, 1959-cu ildə çap olunaraq dünya elmi ictimaiyyətini silkələmiş və erməni tarixçilərinin yeni yalanları üçün zəmin hazırlamış bu kitab "Azərbaycan sovet tarixçiləri"nin diqqətini çəkməmişdir. Halbuki, ermənilərin ciddi redaktəsinə, kitabın elmi redaktoru akademik İ.A.Orbelinin etirazlarına baxmayaraq, B.Piotrovski Göyçə ərazisindəki "qədim erməni qalaları"nın müasir erməni adlarının hamısının yanında həqiqi adları- türk toponimlərini qeyd etməkdə israr göstərmiş və buna qismən nail olmuşdu. Deməli, Azərbaycan tarixçilərinin bu elmi axtarışlara qoşulması ümumən nəticəyə təsir göstərə, B. Piotrovskinin düzgün qənaətlərinə rəvac verə bilərdi. Təəssüf...İqrar Əliyevin başçılıq etdiyi Azərbaycan tarixşünaslığının o zamankı vəzifəsi oğuz türkünün izlərinin axtarılması yox, Azərbaycan türkünün izlərinin farsa calanması idi. Amma İqrar Əliyev tarixşünaslarının istəyindən asılı olmayaraq, oğuz türkünün Göyçənin əzəli sahibi olmasını təsdiqləyən maddi sübütlar minilliklərin arxasından boy qaldırır. Alçalı kəndinin indiki coğrafi mövqeyindən təxminən 500 metr cənubdakı yamacda qalıqları 1988-ci il deportasiyasına qədər toxunulmamış qalan, eramızdan əvvəlki ikinci minilliyə aid kurqanlar bu yerlərin oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 3000 illik tarixinə şəhadət verən faktdır. Erməni mənbələrində isə Alçalının adına ilk dəfə erməni vilayətinin tərkibinə verilmiş Göyçə mahalının Rusiya - İran, Rusiya - Türkiyə müharibələri zamanı dağıdılmamış 59 yaşayış məntəqəsinin İ. Şopen tərəfindən 1831-ci ildə tərtib edilmiş siyahısında rast gəlinir. Həmin siyahıda 31- ci sırada yer alan Alçalıda o zaman 521 türkün yaşaması barədə rəsmi məlumat da, bu yurdun qədimiliyinə dəlalət edən tarixi sübutdur. 1830-cu ildən başlayaraq Alaşkerd mahalının Qorun və Muson kəndlərinin əhalisi tam tərkibdə Alçalıya köçürüldüyündən türklərin bir qismi onlarla birlikdə yaşamaq istəməmiş və Mollalı kəndinə köçmüşlər. Aşağı Alçalı adının ortaya çıxması da məhz bu dövrə, XIX əsrin ortalarına təsadüf edir. Belə ki, Alçalıdan Mollalıya köçənlərin bir qismi yeni yurd yerlərini Yuxarı Alçalı kimi təsnifləmişlər ki, bu reallıq da ermənilərin məskunlaşdığı Alçalı kəndinin Aşağı Alçalı kimi təsniflənməsi zərurətini yaratmışdır. Oğuz türklərinin Alçalı kəndindən sıxışdırı-

lıb çıxarılması o qədər məqsədyönlü xarakter almışdır ki, 1904-cü ilə dair rəsmi statistikaya görə, Aşağı Alçalıda artıq ermənilərin sayı türklərin sayından 5 dəfə çox idi: müvafiq olaraq 613 və 134 nəfər. Bununla belə alçalılar öz əzəli yurdlarından əl çəkməməkdə israrlı idilər. Hətta 1918-1919-cu il qırğınlarından sonra belə onların yurd sevgisi öləziməmişdi. 1922-ci ildə Aşağı Alçalıya 34 türk ailəsi qayıtmışdı. Alçalı camaatının yurdu tərk etməmək israrına XX əsrin 30-cu illərində kolxozlaşma bumu zamanı son qoyuldu və 1939-cu ildə Aşağı Alçalı artıq qarışıq kəndlərin yox, tam mənada ermənilərin sahib olduğu yaşayış məntəqələrinin siyahısına düşmüşdü. Aşağı Alçalı toponimi isə az qala 30 ildən sonra, Ermənistan SSR Ali Sovetinin 27 sentyabr 1968-ci il tarixli qərarı ilə dəyişdirilərək, kənd "Artsvanist" adlandırılmışdır.

## AŞAĞI ALTUNTAXT

(Altuntaxt Ağbulağı)

Göyçə gölünün qərbində, indiki Kamo və Abovyan (Ellər) rayonları arasında yerləşən Altundağ yüksəkliyində, Kəvər nahiyəsindəki Göyçəli Başkəndindən (indiki Kamo rayonunun Gexarkunik kəndindən) 8-10 km. qərbdə yerləşmiş bu kəndin məskunluq tarixinə şəhadət verə biləcək maddi sübutlar ermənilərin səyi ilə tam məhv edilsə də, Səfəvi Azərbaycan dövlətinin XVI əsrə dair sənədlərində Çuxur-Səd bəylərbəyliyi ərazisində Aşağı Altuntaxt adlı kəndin olduğu göstərilir. 1723-cü ildə Göyçə gölü hövzəsi osmanlıların nəzarətinə keçdikdən sonra tətbiq olunan inzibati strukturlaşmaya görə kənd İrəvan əyalətinin Göyçə nahiyəsinin ərazisinə daxil edilmişdir. 1728-ci ildə təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində aparılmış qeydlərdə kənd "Altuntaxt Ağbulağı" kimi təqdim olunur və onun sultan xəzinəsinə illik vergisinin 4.500 ağça həcmində olduğu göstərilir. Bu isə o deməkdir ki, oğuz türkünün Aşağı və Yuxarı Altuntaxt kəndlərində məskunluq tarixinin izlərinin ən azı XV əsrdən əvvəlki dövrlərdə axtarmaq lazımdır. XVIII əsr müəllifi Simon İrəvanlı da Göyçə hövzəsindəki tarixi abidələrlə bağlı təsnifat qeydlərində bu kəndin coğrafi mövqeyini Göyəm silsiləsindəki Kotandağ zirvəsinə yaxın bir ərazi kim səciyyələndirir ki, bu da elə Göyəm silsiləsindəki Altundağ yüksəkliyinə yaxın bir ərazi deməkdir. Erməni tarixçilərinin bu kəndlər barədə israrla susmalarına rəğmən onların öz mənbələrində də hər iki kəndin adı yer alıb. 1826-1828-ci illər İran - Rusiya, 1828-1829-cu illər Türkiyə - Rusiya müharibələri zamanı

Göyçədə erməni - rus hərbi birləşmələri tərəfindən tamamilə məhv edilmiş yaşayış məntəqələrindən 67-sinin İ. Şopen tərəfindən tərtib olunmuş siyahısında 12 və 13-cü sıralarda Yuxarı və Aşağı Altuntaxt kəndlərinin adları gəlir. Yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalının o zaman yaşayış üçün yararlı sayılan 59 kəndinin İ. Şopen tərəfindən 1831-ci ildə tərtib edilmiş siyahısında və ondan sonrakı dövrlərə aid sənədlərdə isə bu kəndlərdən heç birinin adı yoxdur. Deməli, hər iki kənd yerlə-yeksan edilib, əhalisi isə bütünlüklə qətlə yetirilib. Ermənilərin Göyçədə Aşağı və Yuxarı Altuntaxt adlı kəndlərin olmaması barədə iddiaları və bu iddiada israrları bu tarixi cinayətin izlərini itirmək cəhdindən başqa bir şey deyil.

## AŞAĞI GÖZƏLDƏRƏ

(Aşağı Qazanlıqdərə)

İndiki Martuni şəhərindən 14 km. cənub-şərqdə yerləşən bu kənd Göyçə mahalının ən "cavan" yaşayış məskənlərindən biridir. Belə ki, Göyçənin el yaddaşında daşlaşmış bilgilərə əsasən bu kəndin əsası XVIII əsrin ortalarında Qazanlıqdərə kəndindən incik düşmüş bir nəsil tərəfindən qoyulub. Amma bu incik nəslin nümayəndələri çox da uzağa getməyərək Qazanlıqdərənin ərazisi sayılan, vaxtlə Şah İsmayılın ordugahının bir neçə gün dincəldiyi Gözəldərə vadisinin digər səmtində məskunlaşaraq yeni yurdu da Gözəldərə adlandırıblar. 1826-1829-cu illərdə baş vermiş Rusiya-İran, Rusiya-Türkiyə müharibələrinin gedişində erməni-rus hərbi biləşmələri qədim tarixə malik Qazanlıqdərə (Baş Gözəldərə) kəndini yerlə-yeksan edərək, sonradan onun bərpasını rəsmi qaydada əngəlləyiblər. Gözəldərə isə bu 3 illik hərbi aksiyalar nəticəsində nisbətən az zərər çəkən kəndlərdən biri olub və Rusiyanın istəyi ilə yeni yaradılan erməni vilayətində yaşayış üçün yararlı kəndlərin siyahısına düşüb. 1829-cu ildən etibarən İran və Türkiyədən gətirilən ermənilərin bir qismi də burada məskunlaşdırılıb. 1830-cu ildə türk qaçqınların dönüşü zamanı Çar hökuməti Qazanlıqdərənin (Baş Gözəldərənin) bərpasına imkan vermədiyi üçün bu kəndin əhalisinin də bir qismi Gözəldərədə məskunlaşmaq məcburiyyətində qalıb. Rəsmi statistikaya görə, 1831-ci ildə Qazanlıqdərədən buraya köçənlər də daxil olmaqla Gözəldərədə 368 türk və 54 erməni ailəsi olmuşdur. Aşağı Gözəldərənin əlverişli coğrafi şəraitini nəzərə alaraq, ermənilər bu kəndin yerli əhalisinə qarşı repressiyaları ilbəil gücləndirmiş və demoqrafik vəziyyətin kəskin dəyişməsinə na-

il olmuşlar ki, bunu da rəsmi statistikadan aydınca görmək mümkündür. 1897-ci ildə Aşağı Gözəldərədə ermənilərin sayı 1308 nəfər, türklər isə cəmi 296 nəfər olmuşlar. 1919-cu ilin martında Andronikin birbaşa göstərişi ilə kənddə olan türklərin hamısı sonuncu nəfərinə qədər qətlə yetirilmişlər. Ermənistan SSR Ali Sovetinin 7 dekabr 1945-ci il tarixli qərarı ilə bu yaşayış məntəqəsinə qəsəbə statusu verilmiş və Aşağı Gözəldərə toponimi "Vardenik" sözü ilə əvəzlənmişdir.

## AŞAĞI QARANLIQ

(Qoranlı - Qara Dayə - Böyük Dayə)

Göyçə gölünün cənub sahilində, dağətəyi bir ərazidə qərarlaşmış bu kəndin indiki coğrafi mövqeyindən 2 km. cənub-şərqdə 1988-ci il deportasiyasına qədər toxunulmamış qalan qədim məzarlıqdakı oğuz kultu nümunəsi olduğu şübhə doğurmayan daş kitabələr, eləcə də erməni arxeoloqlarının III-V əsrlərə aid etdikləri və Ermənistan Tarixi Abidələrin Bərpası və Mühafizəsi Baş İdarəsi tərəfindən qeydiyyata alınaraq, tarixi mədəniyyət abidəsi kimi qorunan məbədin qalıqları Aşağı Qaranlıq kəndinin oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 1800-2000 illik tarixi barədə tam ciddi mülahizələrə əsas verir. Amma...

Bu obanın Göyçənin el yaddaşında daşlaşmış ilkin adı- "Qoranlı" toponimi bu yurdun izlərini tarixin daha dərin qatlarında axtarmağı zəruriləşdirir. Qoranlı toponimini "Qurani Kərim"lə bağlamağa cəhd edənlər də var və şübhəsiz ki, bu da ermənilərin əlinə oynayan kartdır. Əslində isə bu toponimi "qor" və "an" leksemlərinin birləşməsi kimi nəzərdən keçirmək kifayətdir ki, onun qədim türkcədə "igidlər yurdu" anlamına gəldiyi aydın olsun. Elə 2750 yaşlı Kələqıran kitabəsi də Qaranlıq toponiminin qədimliyinə şəhadət verir. Belə ki, həmin kitabəni tərcümə etmiş akademik B.Piotrovski kitabədə haqqında söz açılan 23 qaladan birinin adının "Quriaini", yaxud da "Qoriaini" olduğunu göstərir. Kitabədəki sıralanmanın ümumi prinsiplərinə və "Qoriaini" toponiminin məhz "Aidamaniuni" (müasir anlamda Adyaman) toponimi ilə yanaşı yazılması, eləcə də müasir Adyaman və Qaranlıq kəndlərinin coğrafi yaxınlığı faktına istinadən qəti şəkildə demək olar ki, konkret halda söhbət məhz indiki Aşağı Qaranlıq kəndinin coğrafi mövqeyindən cənub-şərqdəki qaladan- Qoranlı qalasından gedir.

1555-ci ilə dair sənədlərdə isə bu qədim yurd yeri "başqa bir adı Qoranlı olan Qara Dayə kəndi" kimi təsniflənir və onun Çuxur-Səd bəylər-

bəyliyinin inzibati vahidlərindən biri olduğu göstərilir. 1723-cü ildə Göyçə hövzəsi bütünlüklə osmanlıların nəzarətinə keçdikdən sonra tətbiq edilən bölgü nəticəsində isə Qoranlı İrəvan əyalətinin Göyçə nahiyəsinə daxil olan kəndlərin siyahısına düşüb. 1728-ci ildə təsdiqlənmiş və hazırda Türkiyə Respublikasının Başbakanlıq Arxivində saxlanan "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində isə kəndin adı "Böyük Dayə" kimi qeyd olunub və onun sultan xəzinəsinə illik vergisinin 8.239 ağça həcmində olduğu göstərilib. Yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalında o zaman yaşayış üçün yararlı sayılan 59 kəndin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında isə kəndin adı 27-ci sırada yer alıb və Aşağı Qaranlıq kimi təqdim edilib. Rəsmi statistikaya görə 1831-ci ildə Aşağı Qaranlıqda 324 türk və cəmi 48 erməni ailəsi yaşamışdır (müvafiq olaraq 1253 və 164 nəfər). 1896-cı ilin məlumatları isə tamam başqa mənzərəni canlandırır: cəmi 94 türk və...214 erməni ailəsi. 1918-ci il soyqırımı zamanı isə Aşağı Qaranlıqda türklərin mövcudluğuna son qoyuldu. 1930-cu ildə sovetlərin tətbiq etdiyi bölgüyə əsasən Aşağı Qaranlıq kəndi rəsmən rayon mərkəzi statusu aldı. 1935-ci il noyabrın 12-də isə Ermənistan Xalq Komissarları Soveti Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Aşağı Qaranlıq toponimi "Martuni" sözü ilə əvəzlənmiş və bu yaşayış məntəqəsinə "qəsəbə" statusu verilmişdir. Ermənistan SSR Ali Sovetinin müvafiq qərarları ilə artıq "Martuni" adlanan Aşağı Qaranlıq kəndi 1948-ci ildə "şəhər tipli qəsəbə", 1967-ci ildə isə "şəhər" statusu almışdır.

## AŞAĞI ŞORJA

(Salaməleyk kəndi - Aşağı Keyti)

Göyçə gölünün cənub-şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 13 km. şərqdə, dəniz səviyyəsindən 2245 metr yüksəklikdə yerləşən bu kənd barədə ilk yazlı məlumat Şah İsmayılın Ərzincan yürüşü öncəsi Göyçəyə səfərinə dair qeydlərdə yer alıb. 1555-ci ilə dair rəsmi məlumatlarda Salaməleyk kəndi Səfəvi Azərbaycan dövlətinin Qarabağ (Gəncə) bəylərbəyliyinin inzibati vahidlərindən biri kimi səciyyələndirilir. 1574-cü ildə Sultan Muradın qızışdırdığı səfəvi- osmanlı müharibələri nəticəsində Göyçə hövzəsinin cənub-şərqindəki kəndlərin bir qismi, o cümlədən Salaməleyk kəndi də osmanlıların nəzarətinə keçib. 1590-cı ildə tərtib olunmuş "İrəvan əyalətinin müfəssəl dəftəri"nin 328-ci səhifəsində Salaməleyk kəndinin Ordubad qəzasının Zar nahiyəsinin

inzibati ərazisinə daxil edildiyi barədə qeydlər aparılıb. XVII əsrin 30-cu illərində səfəvilər itirdikləri torpaqlara nəzarətlərini bərpa etmişlər və kənd yenə də Qarabağ bəylərbəyliyinin tabeçiliyinə verilmişdir. 1723-cü ildə Göyçə hövzəsi bütünlüklə osmanlıların nəzarətinə keçdikdən sonra, yeni inzibati bölgüyə əsasən, Salaməleyk İrəvan əyalətinin Məzrəə nahiyəsinin inzibati vahidlərindən biri kimi təsnifləmişdir. 1728-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"nin 15-ci səhifəsindəki qeydlərdən bəlli olur ki, o zaman Salaməleyk kəndinin sultan xəzinəsinə illik vergisinin həcmi 7.736 ağça həcmində imiş.

Erməni mənbələrində isə kəndin adına ilk dəfə 1826-1829-cu illər İran-Rusiya, Türkiyə-Rusiya müharibələrindən sonra İ.Şopenin tərtib etdiyi siyahılarda rast gəlinir və kəndin adı ilə bağlı müəmmalı oyunlar da elə həmin tarixdən başlayır. Belə ki, o zaman yaşayış üçün yararlı sayılan 59 kəndin siyahısında 40-cı sırada məhz Salaməleyk kəndinin yer alsa da, kəndin adı ilkinliyində olduğu və türk mənbələrində göstərildiyi kimi yox, el arasında işlənən ikinci adı ilə Aşağı Keyti kimi verilib. Amma bununla belə İ.Şopen dil xətasından irəli gələn bir yanlışlıqla olsa da, kəndin əzəli adının Aşağı Keyti yox, "Salamkəndi" olduğu barədə qeydlər aparıb. Sonralar ermənilər İ.Şopenin qeydlərini də təhrif edərək, bir sıra sənədlərdə kəndin adını "Salmankəndi" şəklində vermişlər. Ermənilərin bu qədim türk toponiminə qarşı səlib yürüşü isə bununla bitməyib. 1873-cü ilə dair sənədlərdə kənd "qədim adı Aşağı Keyti olan Aşağı Şorca kəndi" kimi təqdim edilib. Məqsəd aydındır; ermənilər bu yolla Salaməleyk kəndinin azı 1000 illik yaşantılarının üstündən qara qələm çəkərək, onun tarixinin "Aşağı Keyti" adının yazılı mənbələrə daxil edildiyi 1829-1831-ci illərdən başladığı barədə rəy yaratmağa çalışıblar.

Z.Korkodyanın verdiyi məlumata görə, 1831-ci ildə, yəni yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verildiy ilk vaxtlarda Aşağı Şorcada 164 nəfər, 1876-cı ildə 411 nəfər, 1886-cı ildə 524 nəfər, 1914-cü ildə 910 nəfər türk yaşamışdır. 1919-cu ilin aprelində ermənilərin Göyçə mahalında həyata keçirdikləri soyqırımı siyasətindən ən çox ziyan çəkmiş kəndlərdən biri də məhz Aşağı Şorca olmuşdur ki, bu tarixi reallıq da rəsmi sənədlərdə əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikası Dağlıq zolağının V sahəsinin müsəlman əhalisi üzrə müvəkkili İsmayıl Sultanovun "1919-cu ilin 13-20 aprel tarixində Göyçənin 22 kəndinin ermənilər tərəfindən dağıdılması barədə" Gəncə qəzası rəisinə ünvanladığı raportda 5-ci sırada Aşağı Şorca kəndinin adı gəlir və müvafiq olaraq bu kənddə baş vermiş faciələr sadalanır. 1922-ci ildə sovet hökumətinin təhlükəsizlik barədə təminatından sonra doğma yurda dönən Aşağı Şorca

sakinlərinin sayı, rəsmi statistikaya görə, cəmi 324 nəfər, yəni 1914-cü ildəki əhalinin üçdən biri qədər olmuşdur. 1979-cu ilin rəsmi siyahıyaalınmasının nəticələrinə görə Aşağı Şorca kəndində 1150 nəfər türk yaşamışdır. 1988-ci ildə Aşağı Şorca da dövlət səviyyəsində deportasiyaya məruz qalmış, milli münaqişələr zəminində toqquşmalar zamanı aldıqları zədələrdən kəndin 8 sakini-1923-cü il təvəllüdlü **Bəndalı Hüseyn oğlu Məmmədov**, 1922-ci il təvəllüdlü **Tahir Qasım oğlu Məmmədov**, 1925-ci il təvəllüdlü **Bahadur Hümbət oğlu Məsimov**, 1928-ci il təvəllüdlü **İmaməli Məmmədov**, 1933-cü il təvəllüdlü **Xədicə İbrahim qızı Hüseynova**, 1934-cü il təvəllüdlü **Leyli Mustafa qızı Hüseynova**, 1972-ci il təvəllüdlü **Yusif İsbi oğlu Əliyev** və 5 yaşlı **Teymur Sabir oğlu Abbasov** həlak olmuşlar. Ermənistan Respublikası parlamentinin 9 aprel 1991-ci il tarixli qərarı ilə Aşağı Şorca kəndi bir inzibati vahid olaraq rəsmən ləğv edilərək, ərazisi örüş yeri kimi qonşu kəndlər arasında bölünmüşdür.

***Aşağı Şorcanın ünlü yetirmələri:***

**Quliyev Nəsib Cəfər oğlu.** Tibb elmləri doktoru, Azərbaycan Tibb Universitetinin professoru, Azərbaycan Respublikasının əməkdar elm xadimi və əməkdar həkimi, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktorudur.

**Həmzəyev Xanlar Çoban oğlu.** Fizika-riyaziyyat elmləri namizədidir.

**Hüseynov Şahbaz Çoban oğlu.** Tarix elmləri namizədidir.

**Hümbətov Ellər Qulu oğlu.** Kimya elmləri namizədidir.

**Hümbətov Lətif Cəfər oğlu.** Tibb elmləri namizədidir.

## AŞAĞI ZAĞALI

(Ərgüş kəndi - Ərgünkənd)

Göyçə gölünün cənub-şərqində, indiki Vardenis-Kamo şosesinin 19-cu kilometrinə uyğun coğrafi mövqedə yerləşmiş Aşağı Zağalı kəndinin ərazisində 1988-ci ilə qədər toxunulmamış qalan, alban memarlığı nümunəsi olduğu şübhə doğurmayan VI-VII əsrlərə aid məbədin və IV-V əsrlərə məxsusluğu hətta erməni arxeoloqları tərəfindən təsdiqlənmiş məzarlığın qalıqları bu obanın oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 1500-1800 illik tarixindən söhbət açmağa imkan versə də, akademik B.Piotrovskinin tədqiqatları bu yurdun tarixinin eramızdan əvvəlki dövrlərə təsadüf etdiyi barədə elmi mülahizələrə əsas verir. Belə ki, erməni tarixşünaslığı Aşağı Zağalı kəndindəki hər hansı qədim kitabə barədə israrla susduğu halda, B.Piotrovski özünün "ВАНСКОЕ ЦАРСТВО" (*Изда-*

*тельство Восточной Литературы. Москва-1959)* kitabının 31-ci səhifəsində "Tsovaq" (Aşağı Zağalı) kəndi ərazisində tapılmış kitabələrdən söhbət açır və o kitabədə bu ərazilərdə mövcud olmuş dövlətin adının "Arkuni-ani-Arkukuni" kimi qeyd olunduğunu göstərir . Amma Azərbaycan alimləri nədənsə rus aliminin min bir əziyyətlə ortaya çıxardığı bu ada diqqət yetirmək, onun rus dilinin qrammatik çərçivəsindən çıxarılmış variantı-ƏRGÜNİANİ kəlməsi üzərində baş sındırmıq istəməmişlər; halbuki, Oğuz xanın törəmələri sırasında Ərgün adlı tarixi şəxsiyyətin olduğunu həm Rəşidəddin, həm Xivəli Əbulqazi Xan, həm də Əbubəkr Tehrani birmənalı şəkildə təsdiqləyiblər. "An" lekseminin isə qədim türkcədə məkan, yurd anlamına gəlməsi də heç kimə sirr deyil. Akademik B.Piotrovskinin ortaya qoyduğu tam anlaqlı bir toponimə- "Ərgün yurdu", "Ərgün qalası" anlamına gələn "Arkuniani" kəlməsinə diqqət yetirmək bu qədərmi çətin idi?!.Əsla! Sadəcə bu məqama diqqət yetirmək İqrar Əliyev tarixçilərinin vəzifələrinə aid edilməmişdi. Aıd edilsəydi Ərgün kəndi haqqında rəsmi yazılı məlumatları da tapa bilərdilər. Onları tapmaq üçünsə sadəcə XVIII əsrin sənədlərinə diqqət yetirmək kifayət idi. Belə ki, 1728-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"nin 16-cı səhifəsindəki qeydlərdə Məzrəə nahiyəsində Ərgün kəndinin mövcud olması birmənalı şəkildə göstərilib.

Elə həmin müəllif özünün "Крепости Армении доурартского и урартского периода" kitabının 56-cı səhifəsində göstərir ki, Zağalı qalası öz memarlıq həllinə görə Göyçə gölünün şimal-qərbindəki Ördəkli qalasına bənzəsə də, miqyas etibarı ilə ondan çox böyükdür və bu reallıq Zağalı qalasının daha mühüm əhəmiyyətli müdafiə sistemi olmasına dəlalət edir. Akademik B.Piotrovski Zağalı qalasının terrasındakı torpaq kurqanlardan söhbət açarkən onu da qeyd edir ki, qaladan bir az aralıda böyük kurqan məzarlığı olub və o tam mənada talan edilib. Bu tarixi cinayəti kim törətmiş olar? Erməni mənbələri bu barədə susmağa üstünlük versələr də, faktlardan qaçmaq sadəcə mümkün deyil. Bu kurqanlardan tapılmış eramızdan əvvəlki I minilliyə aid əşyalar Gürcüstan Muzeyində saxlanır və onları bu muzeyə E.A.Lalayan adlı bir erməni verib. 1907-ci ildə erməni dilində çap olunmuş "Etnoqrafik icmal" kitabının 165-206-cı səhifələrində isə həmin Lalayanın özü 1906-cı ildə Zağalı qalasında apardığı qazıntı işlərinin təfsilatını verir. Bəli, növbəti bir tarixi cinayət, tarixi saxtalaşdırma cəhdi. Akademik B.Piotrovski isə Lalayanın Zağalı və Ərgün kəndləri ərazisindən tapdığı əşyaları tətqiq edərək bildirir ki, **Zağalı kurqanlarından əldə olunmuş maddi dəlillər həm qədimilik, həm də eyni bir mədəniyyətə məxsusluq baxımından E.Reslerin, V.Belkin və A.İva-**

**novskinin indiki Azərbaycan ərazisində əldə etdikləri arxeoloji qazıntılarla eyniyyət təşkil edir. Həmin arxeoloji nümunələrin 3000 il yaşı olduğu isə dünyanın bütün arxeoloqları tərəfindən təsdiqlənmiş fatkdır. Deməli, Ərgün kəndinin oğuz türkü tərəfindən binələşdirilməsinin tarixini də məhz o dövrlərdə axtarmaq gərəkdir.**

1826-1829-cu il müharibələri zamanı dağıdılmış kəndlərin və yaşayış üçün yararlı məntəqələrin İ.Şopen tərəfindən tərtib olunmuş siyahılarında isə Ərgün kəndinin adı yoxdur. Amma Zağalı kəndinin adı yaşayış üçün yararlı kəndlərin siyahısında yer alıb. Aşağı və Yuxarı Zağalı təsnifatlarına isə ilk dəfə 1873-cü ilə dair sənədlərdə rast gəlinir. Həmin ilin rəsmi statistikasında Yuxarı Zağalının adı sırf türk kəndlərinin, Aşağı Zağalının adı isə qarışıq kəndlərin siyahısında keçir: 114 türk və 42 erməni ailəsi. Nə nəticə hasil olur bu faktdan? Bəlli olur ki, Ərgün kəndi 1826-1829-cu illərdə yerlə-yeksan edilib və bütün digər qədim kəndlər kimi ermənilər bu kəndin də adını "adları unudulmuş ölü kəndlər" qrafasında ümumiləşdiriblər; başqa sözlə, onun bərpasında maraqlı olmayıblar. Amma onların bu niyyətlərinə rəğmən müvəqqəti olaraq Zağalıda məskunlaşmış ərgünlülər XIX əsrin ortalarında öz yurdların bərpa ediblər və Aşağı, Yuxarı Zağalı təsnifatları da məhz o dövrdə yaranıb. Belə ki, "Ərgün" adının qədimiliyindən əndişələnən ermənilər rəsmi sənədlərdə bu adın yazılmasını əngəlləyiblər və paralel olaraq Aşağı Zağalıda ermənilərin məskunlaşmasının qayğısına qalıblar. Qədim tarixi ənənələri olan bütün türk obaları kimi Aşağı Zağalı da erməni millətçilərinin daimi diqqətində olmuş, bu kəndin yerli əhalisinin deportasiyası xüsusi amansızlıqla aparılmışdır. 1897-ci ildə ermənilər bu kəndlə bağlı planlarını demək olar ki, reallaşdırmışdılar. Rəsmi statistikaya görə bu vaxt artıq demoqrafik vəziyyət ermənilərin xeyrinə kəskin şəkildə dəyişmişdi; kənddə Türkiyədən gətirilmiş ermənilərin sayı artaraq 839 nəfər, türklərin sayı isə azalaraq 345 nəfər olmuşdu. 1919-cu ilin aprelində kənd bütövlüklə türksüzləşdirildi. 1922-ci ildə bu kəndə qayıtmaq istəyən yerli türklərə öz doğma obalarında məskunlaşmaq imkanı verilmədi və onların bir qismi Yuxarı Zağalıda, bu haqsızlıqla barışmayanlar isə Gədəbəy rayonunda məskunlaşdılar. Ermənistan SSR Ali Sovetinin 12 avqust 1946-cı il tarixli qərarı ilə Aşağı Zağalı toponimi də dəyişdirilərək, kənd "Tsovaq" adlandırılmışdır.

## ATAXAN

(Atamxan)

Göyçə gölünün cənub-qərbində, indiki Martuni-Kamo şosesinin 10-11-ci kilometrlərinə uyğun coğrafi mövqedə, sahilə yaxın bir ərazidə yerləşmiş bu kənd nəinki Göyçə mahalının, ümumən Qafqazın və bəlkə də dünyanın ən qədim yaşayış məskənlərindən biridir. Bu kəndin adına ilk dəfə eramızdan əvvəlki VIII əsrin ortalarına aid olduğu elmi cəhətdən tam sübuta yetirilmiş daş kitabədə rast gəlinir. Göyçənin başqa bir kəndində, Kələqıran qalasında aşkarlanmış bu kitabəni erməni tarixçiləri Urartu çarlığı, konkret olaraq "Sardurinin oğlu Rusa"nın adı ilə bağlamağa çalışsalar da, onun 3 ayrı-ayrı alim (Q.A.Kapantsyan, İ.İ.Meşşaninov və B.B.Piotrovski) tərəfindən ekstampaj edilmiş surətlərinin transkripsiyası üsulu ilə əldə olunmuş mətn əsl həqiqətləri tam çılpaqlığı ilə ortaya qoyur. Belə ki, Kələqıran qalasının yerləşdiyi qayalıqda həkk olunmuş mətndə deyilir: "...mən bir yürüşlə iyirmi üç çarı yenərək, özümə tabe etdim. Gölün bir tərəfində dörd çara...qalib gəldim, o biri səmtdə 19 qalanı...diz çökdürdüm...". Mətndə çarlıqların, yəni qalaların adları konkretliklə göstərilir ki, onlardan biri də akademik B.Piotrovskinin "Atazaiani" kimi təqdim etdiyi ATAXAN qalasıdır. Bəli, söhbət müasir təqdimatda "Atamxan" kimi səslənən qədim türk qalasından, Ataxan qalasından gedir. 1930-1935-ci illərdə Göyçə gölü sahillərində arxeoloji tədqiqatlar aparmış və Kələqıran qalasından bu mətni aşkarlamış B.Piotrovski türk dilindən bixəbər idi və türk alimləri onun araşdırmalarına maraq göstərmədiklərindən, bu tədqiqatlardan ermənilər ustalıqla bəhrələnirdilər. B.Piotrovskinin Göyçədə çalışdığı həmin illərdə Ataxan toponimi hələ yaşarı olsa da, ermənilər bu rusiyalı alimi çaşdırmağa müvəffəq olmuş, "Atazaiani adlı erməni çarı"nın tarixi şəxsiyyət olduğu, özünün isə Tuluxi şəhərində yaşadığı barədə uydurmalarını ona həqiqət kimi qəbul etdirə bilmişdilər. Çünki akademik olsa belə, "Ataxan" və "Atazaiani" toponimlərinin heç biri B.Piotrovskiyə konkret heç nə demirdi. O bilmirdi, bilə də bilməzdi ki, oğuz türklərinin Ata Xan Bitikçi (yəni Kitab Bağlayan Ata Xan) adlı tarixi şəxsiyyətləri olub və onun konkret olaraq Göyçə hövzəsinin əzəli sahiblərinin həyatından bəhs edən eyni adlı əsəri-"Ulu Xan Ata Bitikçi" oğuznaməsi hələ VI əsrdə yazıya köçürülüb. Bəli, B.Piotrovski bunu bilmirdi və bilməyə məcbur da deyildi. Bu həqiqəti ona Azərbaycan tarixşünasları başa salmalıydılar. Eyni zamanda onu da başa salmalıydılar ki, Kamo rayonunun Kosaməmməd kəndi ərazisində

aşkarlanmış və memarlıq həlli baxımından Ataxan qalasının oxşarı olan, ermənilərin isə israrla "Badik" qalası adlandırmaq istədikləri qala da əslində Ataxan müdafiə kompleksinin davamı olan və ilkinliyində Bitikçi qalası adlanan qaladan savayı bir şey deyil. Təbii ki, eyni araşdırmanı "Tuluxi" toponimi ilə bağlı da aparmaq və sübut etmək olardı ki, "Tulu" erməni çarlarının mifik adı yox, hələ çoxallahlılıq zamanında qədim türklərin "ulu türk quşuna- quş allahına" verdiyi addır və qədim türk ellərində qalaların hansısa bir Allahın şərəfinə adlandırılması yazılmamış qanun idi. Məhz bu təsnifata uyğun olaraq, qədim oğuzlar Salur Qazan timsallı ən qüdrətli sərkərdələrini "Tulu quşun yavrusu" kimi şərəfləndirirdilər. Təəssüf ki, bu həqiqətləri zamanında elmi mübahisəyə çevirən tapılmadı. Amma alimlərin yanlışlığı və yaxud məqsədli təhrifləri əlahəzrət fakt qarşısında acizdir. Fakt isə ondan ibarətdir ki, Kələqıran qalasından tapılan həmin daş kitabədə adı qeyd olunan Ataxan qalası tarixin dərinliyindən baş qaldıraraq, bütün mübahisələrə son qoydu. B.Piotrovskinin Göyçə gölü hövzəsindəki tədqiqatlarından xeyli sonra -1952-ci ilin əvvəllərində Martuni rayonunun Atamxan kəndi yaxınlığında, gölün ləpədöyənində yuyulmuş qumların altından qala qalıqları üzə çıxdı. Və onda məlum oldu ki, bu dəfə özü üzə çıxan qalada da nə vaxtsa arxeoloji tədqiqatlar aparılıbmış!!! Daş kitabələrin səliqə ilə kəsilməsi faktı təsbitlənəndən sonra erməni tarixçiləri etiraf etməli oldular ki, hələ 1863-cü ildə Eçmiədzin emissarları burada qazıntılar aparıblarmış və oğurlanmış kitabələr sonradan Qafqaz Muzeyinə, indiki Gürcüstan Muzeyinə verilibmiş. O da məlum oldu ki, Q.A.Melikişvilinin Urartu çarlığına aid etdiyi, amma mənbələrini bilmədiyi mixi yazıların bir neçəsi elə Ataxan qalasından aparılmış kitabələrdir. Bəli, budur erməni tarixşünaslığının əsl mahiyyəti! Amma erməni tarixşünaslarının fəaliyyətinin mahiyyətindən asılı olmayaraq, Ataxan qalası arxeoloqları öz mülahizələrinə korrektələr etmək məcburiyyəti ilə üz-üzə qoydu. O cümlədən, akademik B.Piotrovskini də. "Vanşünas alim" etiraf etməli oldu ki, Ataxan qalasının tarixi Kələqıran qalasındakı kitabələrdən daha qədimdir. Yəni, eramızdan əvvəl VIII əsrin sonlarında yazılan bu mətn Ataxan qalasının əsl sahiblərinə yox, qalanı işğal etməsindən məmnunluq duyan başqa bir sərkərdəyə məxsusdur. Ataxan qalasının özünə gəldikdə isə, qalanın memarlıq həlli heç bir halda erməni memarlığı ilə uzlaşmır. Qala iki terraslıdır və hər terrasın müdafiə xətti var. İri qaya parçalarından ibarət olan birinci müdafiə xəttindəki su oymalarının izinə istinadən belə qənaətə gəlmək olar ki, ilkin müdafiə xətti gölün içində yerləşirmiş. Oxşar müdafiə sisteminin yalnız Bakı qalasında və Kələqıranda müşahidə olunması isə bu qəbil me-

marlıq həllinin eyni bir millətə məxsusluğu barədə mülahizələrə əsas verir. Ataxan qalasının daxili müdafiə xətti isə ikiqat divarların xüsusi yapışdırıcı məhlulla bərkidildməsi yolu ilə ucaldılıb ki, bu texnologiyaya da eramızdan əvvəlki dövrə aid olan heç bir digər memarlıq nümunəsində rast gəlinmir. Yalnız Göyçə hövzəsinin şimalındakı Ördəkli qalasında oxşar texnologiyadan və memarlıq həllindən istifadə olunması isə Göyçədə eramızdan əvvəl mövcud olmuş 23 çarlığın hamısının eyni bir mədəniyyətə və o dövr üçün anoloqu olmayan yüksək dərəcədə inkişaf etmiş texnologiyalara malik eyni bir etnosa məxsus olması barədə qənaətlərə tam mənada əsas verir. Bir sözlə, indiki Vardadzor və Eranos kəndləri arasındakı Ataxan qalasının 1988-ci ilə qədər toxunulmamış qalan qalıqları Göyçənin əzəli sahibi olan etnosun hələ 3000 il bundan əvvəl sivil bir mədəniyyətə malik olmasına şəhadət verən canlı sübütdür. O etnosun müasir təsnifatdakı hansı millətin əcdadı olmasını isə 3000 illik tarixi olan daş kitabələrdəki toponimlər göstərir.

Eramızın XVI əsrinə dair rəsmi sənədlərdə Ataxan kəndi Səfəvi dövlətinin Çuxur Səd bəylərbəyliyinin inzibati vahidlərindən biri kimi təsniflənir. Erməni mənbələrində isə bu kəndin adına ilk dəfə XIX əsrin əvvəllərinə dair sənədlərdə rast gəlinir və bu mənbələrin özü də Ataxanın (İ. Şopenə görə “Atamxan”) sırf türk kəndi olmasını birmənalı şəkildə təsdiqləyir. 1826-1829-cu illər müharibələri zamanı dağıdılan, sonradan isə Rusiyanın istəyi ilə yaradılan erməni vilayətinin idarəçiliyinə verilən Göyçə mahalının kəndləri barədə məlumat verən İ. Şopenin tərtib etdiyi siyahıdan aydın olur ki, 1831-ci ildə Ata(m)xan kəndində sırf türklərdən ibarət 93 ailə (346 nəfər) yaşamışdır. 1901-ci ilin rəsmi məlumatlarında isə Ataxanın adı qarışıq kəndlərin siyahısında keçir: 76 türk, 54 erməni ailəsi. “Ararat Respublikası” deyilən qondarma dövlətin cinayətkar rəhbərliyinin 1918-ci ildə həyata keçirdiyi qətliamlar zamanı Ataxanın əzəli sahibi olan oğuz türklərinin sonuncu nümayəndələri kəndi tərk etmiş, onların evlərində əsasən Türkiyədən gələn ermənilər məskunlaşdırılmışdır. 1922-ci ildən sonra türklərin bu kəndə qayıtması barədə heç bir məlumat yoxdur. Buna baxmayaraq, Ataxan (Atamxan) toponimi yalnız 50 il sonra, Ermənistan SSR Ali Sovetinin 3 iyul 1968-ci il tarixli qərarı ilə ləğv edilərək, kənd “Vardadzor” adlandırılmışdır.

## ATDAŞ

(Altundaş-Qızıldaş)

Göyçə gölünün qərbində, indiki Kamo şəhərindən təxminən 15 kilometr cənub-qərbdə, Göyəm sıra dağlarının ətəyində, Əyriçayın qolları arasında (o qollar Kamo şəhərindən 2-3 km. cənubda birləşərək Göyçə gölünə tökülür) mənbəyə yaxın qayalıq bir ərazidə yerləşmiş bu kəndin xərabəlikləri Ermənistandan türklərin son deportasiyasına -1988-ci ilə qədər toxunulmamış qalırdı. Oğuz türkünün bu kənddə məskunlaşma tarixi barədə səhih məlumatlar olmasa da, o xərabəliklərdəki ocaq yerlərinin təxmini sayının 200 həddini keçməsi reallığına və kəndə məxsus məzarlıqdakı qəbirüstü kitabələrin qalıqlarına əsasən, bu obanın təxminən 10-12 əsrlik tarixi barədə mülahizə yürütmək olar. Amma təbii ki, bu bir ehtimaldır və kənd dağıdıldıqdan sonra əhalisinin taleyi barədə dürüst məlumatlar olmadığı üçün bu ehtimalı təsdiqləyə biləcək digər arqumentlərin tapılması da mümkünsüzdür. Təsdiqinə ehtiyac duyulmayan yeganə fakt isə odur ki, Göyçənin ən qədim və iri yaşayış məskənlərindən biri olan Qızıldaş adlı bir türk obası XVIII əsrdə hələ yaşarı idi və bu tarixi reallıq rəsmi mənbələrdə təsdiqlənib. 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində kənd əzəli adı ilə - "Görücüörən (Avdalağalı) kəndi tərəfdəki Qızıldaş kəndi" təsnifatı ilə təqdim olunub və onun sultan xəzinəsinə illik ödəncinin 3590 ağça həcmində müəyyənləşdirilməsi barədə müvafiq qeydlər aparılıb. 1750-ci ilə dair sənədlərdə isə kənd Altundaş kimi qələmə verilib. 1826-1829-cu illərdə baş vermiş Rusiya-İran, Türkiyə-Rusiya müharibələri zamanı erməni-rus hərbi birləşmələrinin Göyçədə viran qoyduğu kəndlərdən 67-sinin siyahısını tərtib etmiş İ. Şopen isə kəndin adını "Atdaş" kimi qeyd etmişdir. 1831-ci ildən sonrakı sənədlərdə isə kəndin adına rast gəlinmir. Bu isə o deməkdir ki, qədim türk yurdu olan Qızıldaş da XIX əsrin əvvəllərində şəhid düşərək yer üzündən silinib və bu tarixi cinayətin məsuliyyəti ermənilərlə bərabər onların qanlı cinayətlərinə dəstək vermiş rusların boynundadır.

## BABACAN

Göyçə gölünün şərqində, Vardenis-Çənbərək şosesinin 24-cü kilomertində, dəniz səviyyəsindən 1957 metr yüksəklikdə yerləşən bu kəndin adına rəsmi məxəzlərdə ilk dəfə 1873-cü ilə dair statistik hesabatlarda

rast gəlinir. XIX əsrin əvvəllərində Rusiya-İran, Rusiya-Türkiyə müharibələri nəticəsində erməni-rus hərbi birləşmələri tərəfindən Göyçədə dağıdılmış kəndlərin və yeni yaradılmış erməni vilayətinin tərkibinə qatılmış yaşayış üçün yararlı məntəqələrin siyahılarında bu kəndin adına rast gəlinməməsi faktına istinadən erməni tarixçiləri Babacanın türklər tərəfindən binələşdirilmə tarixini təxminən 1850-1860-cı illərə aid edirlər. Amma bu zaman başqa bir tarixi gerçəklik bilərəkdən gözardı edilir. Məsələ burasındadır ki, 1828-ci ilə qədər yerlə-yeksan edilmiş Göyçə kəndlərindən söhbət açarkən erməni tarixçiləri cəmi 27 kəndin adını çəksələr də, İ.Şopen bu kəndlərin sayının 67 olduğunu göstərir və 40 kəndi "adları unudulmuş ölü kəndlər" kimi xarakterizə edir. Kim tərəfindən unudulmuş? Təbii ki, söhbət ermənilərin unutmaq istədikləri toponimlərdən gedir. Belə ki, İ.Şopen tədqiqatlar apararkən Göyçənin dağıdılmış kəndlərində türklər yox idi və o bütün məlumatları ermənilərdən almaq, məhz onlara istinadən dəqiqləşdirmələr aparmaq məcburiyyətində idi. Amma hər halda, o, öz işini digər həmkarlarına nisbətdə vicdanla yerinə yetirməyə çalışıb; həqiqəti tam aşkar edə bilməsə də, ona bəlli siyahıda adları gizlədilən kəndlərin sayını dəqiq göstərməyə qeyrəti çatıb. Odur ki, 1828-ci ildə yeni yaradılan erməni vilayətinin idarəçiliyinə verilmiş kəndlərin siyahısında yer almayan yaşayış məntəqələrinin tarixini 1850-ci ildən sonrakı dövrlə bağlamaq kökündən yanlış bir yanaşmadır. O 40 kəndin hamısı olmasa da, bir qismi sonrakı dövrlərdə bərpa edilib və ermənilər məcburiyyət qarşısında qalaraq onları rəsmi sənədlərdə qeyd ediblər. Başqa sözlə, Göyçədə XIX əsrdə və sonra salınmış türk kəndləri yoxdur, Göyçədəki bütün türk obalarının məskunluq tarixi ermənilərin Qafqaza köçürülməsindən 500-4000 il əvvəlki dövrlərə aiddir. Deməli, Babacanın 1828-ci ildə "yoxa çıxıb", 1873-cü ildə "göydən düşməsi" sadəcə düşmən felidir və bu kəndin oğuz türkü tərəfindən binələşdirilmə tarixini də eramızın ikinci minilliyinin daha dərin qatlarında, bəlkə ondan da əvvəllərdə axtarmaq gərəkdir. Z.Korkodyanın təqdim etdiyi rəsmi statistikaya görə, Babacan kəndinin sırf türklərdən ibarət əhalisinin sayı 1873-cü ildə 173 nəfər, 1897-ci ildə 259 nəfər, 1916-cı ildə 290 nəfər olmuşdur. 1918-ci ilin noyabr-dekabr, 1919-cu ilin mart-aprel qırğınları zamanı ətraf türk kəndlərinin böyük əksəriyyəti kimi Babacan kəndi də dağıdılmışdır. 1922-ci ildə bu kəndə dönənlərin sayı 116 nəfər, yəni 1916-cı ildəki əhalinin 40 faizi həddində olmuşdur. 1931-ci ilin rəsmi statistikasına görə isə Babacanın əhalisi 471 nəfər idi. 1948-1953-cü il deportasiyaları zamanı Babacana elə bir ciddi ziyan dəyməsə də, hər halda dövlət səviyyəsində həyata keçirilən repressiyalar izsiz də ötüşmürdü.

Ali təhsil üçün Azərbaycana gedənlərin böyük əksəriyyəti sonradan geri qayıtmırdı. 1988-ci il qətliamları isə erməni xəyanətinin son məqamı oldu. Noyabrın 24-dən dekabrın 7-nə qədər mühasirədə qalan kəndin 900 nəfər əhalisi var-yoxunu ataraq qarlı dağ aşırımları ilə Gədəbəyə keçməyə məcbur oldu. Babacan toponimi Ermənistan SSR Ali Sovetinin 25 yanvar 1978-ci il tarixli qərarı ilə ləğv edilərək kənd "Qızılkənd" adlandırılmış, 9 aprel 1991-ci il tarixli qərara əsasən isə Qızılkənd adı "Çantak" sözü ilə əvəzlənmişdir.

## BALA QARAQOYUNLU

(Kiçik Yengicə)

Göyçə gölünün şərqində, indiki Vardenis şəhərindən 11 kilometr şimal-şərqdə, Böyük Qaraqoyunlu -Sarıyaqub yolunun üstündə, iki dağ arasındakı dərədə, dəniz səviyyəsindən 2187 metr yüksəklikdə yerləşmiş bu kəndin oğuz türkləri tərəfindən binələşdirilmə tarixi XVII əsrin ortalarına təsadüf edir. Belə ki, Böyük Qaraqoyunlunun əsasının XV əsrin sonlarında Qaraqoyunlu hökmdarı Cahan şahın oğlu Məhəmməd Mirzə tərəfindən qoyulduğu, sonradan kəndin təriqətçilik zəminində iki yerə bölündüyü qaraqoyunluların söz yaddaşında əbədiləşmiş real tarixi faktdır. 1578-ci ildə Göyçə hövzəsinin şərq səmtindəki kəndlərin bir qisminə nəzarət imkanı əldə etmiş osmanlıların tərtib etdikləri sənədlərin hər ikisində- 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə və 1595-ci il tarixli "İrəvan əyalətininin icmal dəftəri"ndə yalnız kəndin ilkinlikdəki adı, Cahanşah adı yer alıb. 1723-cü ildə osmanlılar Göyçə hövzəsinə bütünlüklə nəzarət hüququ əldə etdikdən sonra tərtib olunmuş və 1728- ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 15-ci səhifəsində isə həm Böyük Yengicə, həm də Bala Yengicə kəndlərinin adları paralel şəkildə yer alıb. Bu fakt Cahanşah kəndinin dini zəmində parçalanmasının osmanlıların Göyçəyə nəzarətlərinin birinci və ikinci mərhələləri arasındakı dövrə, yəni 1630-1723-cü illər aralığına təsadüf etməsi barədə mülahizələrə əsas verir. Ən maraqlı məqam isə odur ki, 1728-ci ildə Böyük Yengicənin sultan xəzinəsinə illik ödənci 4582 ağça olduğu halda, Bala Yengicənin illik vergisi 7943 ağça həcmində müəyyənləşdirilibmiş. Bu isə o deməkdir ki, Cahanşah kəndinin qaraqoyunlulardan ibarət əhalisinin mütləq əksəriyyəti şiəlikdən kəskinliklə imtina edibmiş. XVIII əsrin ortalarında osmanlılar Göyçəyə nəzarəti itirdikdən sonra hər iki kənd İrəvan xanlığının inzibati ərazisinə daxil edilib və

görünür, Qaraqoyunlu adı ilə bağlı təhlükələrin aradan qalxması səbəbiylə məhz o dövrdən etibarən hər iki kəndin adı rəsmi mənbələrdə paralel şəkildə həm Böyük və Bala Yengicə, həm də Böyük və Bala Qaraqoyunlu kimi işlənmişdir. Rəsmi statistikaya görə 1897-ci ildə Bala Qaraqoyunluda 235 nəfər türk yaşamışdır. 1916-cı ildə kənd əhalisinin sayı 301 nəfər olmuşdur. 1919-cu il aprel ayının 13-20-də kəndin özünümüdafiə dəstəsi ilə nizami daşnak ordu hissələri arasında şiddətli döyüşlər olmuş, kənd maddi itkilərə məruz qalsa da, əhali doğma yurdunu canlı itki və əsir vermədən tərk etmişdir. 1922-ci ildə doğma ocağa qayıdan Bala Qaraqoyunlu əhalisinin sayı 194 nəfər olmuşdur. 1931-ci ildə Qaçaq Cəmilin rəhbərliyi ilə sovet hökumətinə qarşı qiyam başlayanda kənd əhalisinin sayı 383 nəfər idi. Və elə bu tarixdən başlayaraq ermənilərin Bala Qaraqoyunluya qarşı repressiyaları kəskinləşmiş, Ermənistan SSR Xalq Komissarları Soveti Mərkəzi İcraiyyə Komitəsinin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kənd bir təsərrüfat subyekti kimi ləğv edilərək, Böyük Qaraqoyunlu ilə vahid kolxozda birləşdirilmişdir. Bununla belə, bir inzibati vahid olaraq, Bala Qaraqoyunlu 1948-ci ilə qədər mövcud idi. Həmin ildə İ.V.Stalinin "Ermənistanda yaşayan azərbaycanlı kolxozçuların Azərbaycana köçürülməsi barədə" qərarının verdiyi geniş imkanlardan maksimum yararlanan ermənilər Bala Qaraqoyunlunun bir inzibati vahid kimi ləğvinə nail oldular. Kəndin əhalisinin bir qismi Tərtər rayonunun Seyidimli kəndinə köçürülsə də, böyük əksəriyyəti Basarkeçərin Zod və Böyük Qaraqoyunlu kəndlərində məskunlaşdı. Və beləcə, döyüşkən və mübariz türk tayfalarının qədim yurdlarından biri də yer üzündən silinərək, "ölü kəndlər"in siyahısına düşdü...

**P.S.** *Əslən Bala Qaraqoyunludan olan dəyərli şəxsiyyətlər haqqında məlumatlar "Orda bir kənd var uzaqda..." sərlövhəli bölümdə verilmişdir.*

## BALA MƏZRƏ

(Məraq)

İndiki Vardenis şəhərindən 9 kilometr şimalda, Göyçə gölünün cənub-şərq sahilində, dəniz səviyyəsindən 1948 metr yüksəklikdə yerləşən bu kənddə oğuz türklərinin məskunluq tarixi eramızın birinci minilliyinin əvvəllərinə təsadüf edir. Hətta erməni arxeoloqları belə qalıqları Bala Məzrə kəndində olan alban məbədinin VI-VIII əsrlərə, oğuz kultunun izlərini saxlayan qəbristanlıqdakı daş kitabələrinsə eramızın I-II əsrlərinə aid olduğunu etiraf etmişlər. 1555-ci ilə dair sənədlərdə

kənd Səfəvi Azərbaycan dövlətinin Qarabağ bəylərbəyliyinin inzibati vahidlərindən biri kimi təsniflənir və öz əzəli adı ilə - Məraq kəndi kimi təqdim olunur. 1723-cü ildə Göyçə hövzəsi bütünlüklə osmanlıların nəzarətinə keçdikdən sonra tətbiq olunmuş inzibati strukturlaşmaya görə Məraq İrəvan əyalətinin Məzrəə nahiyəsinin ərazisinə daxil olan kəndlərdən biri idi. 1728-ci il aprelin 12-də Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 16-cı səhifəsində bu barədə müvafiq qeydlər aprılaraq göstərilmişdir ki, kəndin sultan xəzinəsinə illik vergisi 4127 ağça həcmində müəyyənləşdirilmişdir. 1800-cü ilə dair sənədlərdə isə kənd "başqa bir adı Məraq olan Bala Məzrə kəndi" kimi təsniflənir. 1826-1829-cu illərdə baş vermiş Rusiya-İran, Türkiyə-Rusiya müharibələri zamanı erməni-rus hərbi birləşmələri Böyük Məzrədə ciddi müqavimətlə üzləşdikləri üçün Bala Məzrəyə də xətər yetirə bilməmişlər və kəndin adı yeni yaradılan erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalında o zaman yaşayış üçün yararlı sayılan 59 kəndin siyahısında 51-ci sırada yer almışdır. Rəsmi məlumatlara görə, 1831-ci ildə Bala Məzrənin sırf türklərdən ibarət əhalisinin sayı 272 nəfər idi. 1897-ci ildə bu göstərici 1200, 1908-ci ildə 1658, 1914-cü ildə 1731 nəfər olmuşdur. 1919-cu il aprelin 13-20-də erməni daşnak qoşunları ilə vuruşma zamanı əhalinin təxminən yarısı qırılmış, kənd bütövlükdə yandırılmışdır. 1922-ci ildə doğma yurda dönən Bala Məzrə əhalisinin sayı cəmi 859 nəfər, yəni 1914-cü ildəki əhalinin yarısından da az olmuşdur. Bu tarixdən etibarən kəndin adı rəsmi sənədlərdə "sovet mədəniyyətinə uyğun qaydada"- Kiçik Məzrə kimi qeyd olunmuşdur. Buna baxmayaraq Bala Məzrə kəndi sona qədər sırf türk kəndi olaraq qalmış, ermənilərin burada məskunlaşmasına imkan verilməmişdir. 1979-cu ilin rəsmi siyahıyaalınmasının nəticələrinə görə kəndin türk əhalisinin sayı 1973 nəfər olmuşdur. 1988-ci il noyabrın 21-dən dekabrın 7-nə qədər erməni quldurları tərəfindən mühasirədə saxlanan Bala Məzrə kəndi bu 15 gün ərzində 4 nəfər şəhid vermişdir: 1924-cü il təvəllüdlü **Qurban Bəxtiyar oğlu Nəsibov**, 1928-ci il təvəllüdlü **Şamo Qaraca oğlu Musayev**, 1945-ci il təvəllüdlü **Qurban Həsən oğlu Sadıqov** və 1944-cü il təvəllüdlü **Nigar Cəbi qızı** aldıqları xəsarətlər nəticəsində vəfat etmişlər. Dekabrın 7-də Ermənistanda baş vermiş zəlzələnin yaratdığı eyforik vəziyyətdən istifadə edən kənd əhalisi qarlı dağ aşırımları ilə Azərbaycana keçmiş, əsasən Gəncə, Xanlar, Şəmkir və Bakıda məskunlaşmışlar. Ermənistan parlamentinin 9 aprel 1991-ci il tarixli qərarı ilə Bala Məzrə toponimi "Pokr Masrik" sözü ilə əvəzlənmişdir.

*Bala Məzrənin ünlü yetirmələri:*

**Həsənov İbrahim Əziz oğlu.** Basarkeçər rayonunun təhsil sisteminin inkişafında müstəsna xidmətlər göstərmiş, Ermənistan SSR Ali Sovetinin 31 avqust 1962-ci il tarixli qərarı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülmüş, uzun illər Qazax rayon təhsil sisteminə rəhbərlik etmişdir.

**Abbasov Telman Salman oğlu.** Kimya elmləri namizədidir.

**Abbasov Telman Fərman oğlu.** Kənd təsərrüfatı elmləri namizədidir.

**Əliyev Bayram Zeynal oğlu.** Fizika-riyaziyyat elmləri namizədidir.

**Hacıyev Saleh İsgəndər oğlu.** Texniki elmlər namizədidir.

**İsmayılov Ənvər Rza oğlu.** Texniki elmlər namizədidir.

**Novruzov Salman Əzim oğlu.** Geologiya elmləri namizədidir.

**Rəsulov Aydın İslam oğlu.** Fizika-riyaziyyat elmləri namizədidir.

**Səfərov Naxçıvan Yusif oğlu.** Fizika-riyaziyyat elmləri namizədidir.

**Füzuli Sabiroğlu - Eyvazov Füzuli Sabir oğlu.** 1964-cü ildə anadan olmuş, Azərbaycan Dövlət Texniki Universitetini bitirmiş, Qarabağ döyüşlərində sağlamlığını itirmişdir. İki kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**Məcnun Göyçəli - İbrahimov Məcnun Səməd oğlu.** 1949-cu ildə anadan olmuş, Bakı Dövlət Universitetini bitirmiş, "Ozan" qəzetinin baş redaktoru, Azərbaycan Aşıqlar Birliyi sədrinin müavini işləmişdir. 4 kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Müasir Müsavat Partiyası sədrinin ictimai əlaqələr üzrə müavinidir.

## BASARKEÇƏR

(Basatkeçən)

Göyçə gölünün cənub-şərqində yerləşən bu qəsəbə mahalın ən qədim yaşayış məskənlərindən biridir. Göyçənin el yaddaşında daşlaşmış rəvayətlərdən birinə görə, ilkinliyində bu toponim "Basatkeçən" şəklində olmuşdur. Bu mülahizənin özündə tam həqiqəti ehtiva etdiyini qəti şəkildə söyləmək üçün ciddi elmi araşdırmalara ehtiyac duyulur. Amma bununla belə, "Kitabi Dədə Qorqud" və ondan çox-çox əvvəlki dövrlərlə səsləşən bir sıra toponimlərin- "Qazanuçan" "Alparus", "Dəlikdaş", "Uğuztəpə", "Dirsədağı", "Becanölən", "Uruzqaçan", "Qazanlıqdərə", "Qara Dərbənd", "Nuhdam", "Dəli Becan", "Cacaklı" kimi yer - yurd adlarının Göyçə mühiti üçün ənənəviliyi və bunların böyük əksəriyyətinin son deportasiyaya qədər yaşarılığı Basarkeçər kəlməsinin "Basatkeçən" və ya "Basat köçən" ifadələrinin təhriflərə məruz qalmış forması olması versi-

yası üzərində incələmələr aparmağa əsas verir. Bu versiyanı möhkəmləndirən səbəblərdən biri də odur ki, "Basarkeçər" kəlməsinin bir toponim kimi formalaşmasını azəri türkcəsinin dialektik qanunauyğunluqları inkar edir. Belə ki, iki felin birləşməsindən ibarət yer-yurd adları bu dilə yaddır. Mövcudluğunun son 4000 illik tarixi ərzində "vuraryıxar", "vurarqaçar", "yıxılardurar" kimi bircə görənək toponimi olmayan bir dildə "Basar" + "keçər" leksemlərinin birləşməsi olan bir ifadənin qəflətən toponim statusu qazanmasını elmi mülahizə kimi qəbul etmək sadəcə absurddur. Özü də elə bir məkanda ki, orada bu dilin bəkarəti ilkinlikdəki şəhdşəkəri ilə qorunub saxlanmış olsun. Təbii ki, bu mübahisəli bir məsələdir. Amma bu elmi mübahisə Basarkeçər kəndinin oğuz türkləri tərəfindən binələşdirilməsi tarixinin qədimiliynə əsla xələl gətirmir. Basarkeçərin təməlinin oğuz kultunun hakim mövqedə olduğu zamanlardamı, yaxud ondan əvvəlmi qoyulduğu barədə elmi araşdırmaların olmamasına rəğmən, bu kəndin ərazisində 1970-ci illərdə tapılaraq, o zaman rayon partiya komitəsinin katibi olmuş Nuricanyanın əmri ilə açıq muzeydə toplanmış V-VIII əsrə dair alban mədəniyyəti nümunələri, eramızdan əvvəlki birinci minilliyin əvvəllərinə aid olduğu hətta erməni tarixçiləri tərəfindən təsdiqlənmiş daş kitabələr, Basarkeçər kəndinin cənub-şərqində, Daşkənd yolunun təxminən ikinci kilometrinə uyğun gələn bir ərazidəki eramızdan əvvəlki dövrün III yüzilliyinə aid qədim qalanın bünövrə qalıqları birmənalı şəkildə deməyə əsas verir ki, oğuz türkünün bu kənddə məskunluğunun tarixi azı 2000 illik bir dövrü əhatə edir. XVI əsrə dair sənədlərdə isə Basarkeçər Səfəvi Azərbaycan dövlətinin Qarabağ (Gəncə) bəylərbəyliyinə daxil olan ən iri yaşayış məskənlərindən biri kimi səciyyələndirilir. 1578-ci ildə Səfəvi dövlətinin ərazilərinin bir qismi, o cümlədən Göyçə hövzəsinin şərqindəki bir sıra kəndlər osmanlıların nəzarətinə keçsə də, 1590-cı ildə tərtib olunmuş "İrəvan əyalətinin müfəssəl dəftəri"nin 326-328-ci səhifələrindəki qeydlər Basarkeçərin Səfəvilərin nəzarətində qaldığına şəhadət verir. 1723-cü ildə növbəti Səfəvi-Osmanlı qarşıdurmasından sonra isə Göyçə hövzəsi bütünlüklə osmanlıların nəzarətinə keçib və onların tətbiq etdiyi yeni bölgüyə əsasən Basarkeçər kəndi İrəvan əyalətinin Məzrəə nahiyəsinin inzibati vahidləri sırasında yer alıb. 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 16-cı səhifəsində Basarkeçərin sırf türk kəndi olduğu və sultan xəzinəsinə illik ödəncinin 6.704 ağça həcmində müəyyənləşdirildiyi barədə qeyd aparılıb ki, bu da "Basarkeçərin əzəli erməni yurdu olması" barədə erməni iddialarını birmənalı şəkildə rədd edən tutarlı faktdır. Erməni mənbələrin-

də isə Basarkeçər kəndinin adına ilk dəfə XIX əsrin əvvəllərində rast gəlinir. Belə ki, İ.Şopen erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalının o zaman yaşayış üçün yararlı olan 59 kəndi barədə məlumat verərkən, 38-ci sırada Basarkeçər kəndinin adını çəkir. Elə həmin müəllifin verdiyi məlumata görə, 1831-ci ildə Basarkeçərdə 272 türk ailəsi yaşamışdır. 1831-ci ildən etibarən isə Türkiyənin Baqrevand və Alaşkert vilayətlərindən gətirilmiş ermənilərin bu kənddə yerləşdirilməsinə start verilir. Və bu proses o qədər sürətlə aparılır ki, XIX əsrin sonlarında demoqrafik vəziyyət ermənilərin xeyrinə kəskin surətdə dəyişmiş olur: 2108 nəfər erməni və cəmi 85 nəfər türk. 1905-ci il qırğınları zamanı isə Basarkeçərdə yaşayan yüzə qədər türk ailəsinə keşişin fitvası ilə divan tutulur və kənd tam mənada türksüzləşdirilir. Ermənistan Xalq Komissarları Soveti Mərkəzi İcraiyyə Komitəsinin 9 sentyabr tarixli qərarı ilə Basarkeçər kəndi yeni təşkil olunmuş eyni adlı rayonun inzibati mərkəzi elan edilmiş, 1935-ci il yanvarın 3-də isə ona şəhər tipli qəsəbə statusu verilmişdir. Ermənistan SSR Ali Sovetinin 11 iyun 1969-cu il tarixli qərarı ilə Basarkeçər toponimi "Vardenis" sözü ilə əvəzlənmiş və bu yaşayış məntəqəsinə şəhər statusu verilmişdir.

## BAŞ GÖZƏLDƏRƏ

(Qazanlıqdərə)

İndiki Martuni şəhərindən 13 kilometr cənub-şərqdə yerləşən bu kəndin adına yazılı mənbələrdə ilk dəfə Şah İsmayıl Xətainin Ərzincan yürüşündən öncəki Göyçə səfərinə dair məlumatlarda rast gəlinir. Qazanlıqdərə toponimi isə oğuz türkünün bu yerləri binələşdirməsinin daha qədim tarixindən soraq verir. Amma o tarixi tam dəqiqləşdirə biləcək arxeoloji tədqiqatlar fürsətini artıq buraxmışıq. Və erməni tarixçiləri məhz bizim dəqiqləşdirmələr aparmaq şansımızın məhdudluğu reallığından çıxış edərək, Gözəldərənin tarixini hər vəchlə saxtalaşdırmağa, müasir Vardenik kəndinin əsasının XIX əsrdə ermənilər tərəfindən qoyulduğunu sübut etməyə çalışırlar. Və bu zaman onların istinad etdiyi yeganə arqument XIX əsrdən əvvəlki sənədlərdə Gözəldərə adına rast gəlinməməsidir. Həqiqətən də belədir; XIX əsrdən əvvəlki sənədlərdə Gözəldərə adı yoxdur, ola da bilməzdi. Çünki türk mənbələrində o kənd öz əzəli adı ilə təqdim edilirdi və onun el ağzındakı təsnifini rəsmiləşdirməyə ehtiyac duyulmurdu. Şah İsmayılın bu yurda tarixi səfərinə rəğmən heç səfəvilər də onun adını dəyişməyə lüzum görməmiş, 1555-ci ilə dair sənəd-

lərdə Çuxur-Səd bəylərbəyliyinin inzibati bölgüsünə daxil edilmiş kəndlərin siyahısında onun adını məhz Qazanlıqdərə kimi göstərmişlər.

Göyçə hövzəsi 1723-cü ildə bütünlüklə osmanlıların nəzarətinə keçdikdən sonra tətbiq edilmiş strukturlaşmaya əsasən, bu kənd İrəvan əyalətinin Məzrəə nahiyəsinin inzibati vahidlərindən biri kimi səciyyələndirilirdi. Belə ki, 1728-ci ildə təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 15-ci səhifəsində kəndin adının Qazanlıqdərəsi, illik vergisinin isə 8.491 ağça həcmində olduğu barədə müvafiq qeydlər aparılmışdır. Müqayisə üçün bir faktı diqqətə çatdıraq ki, o zaman eyni adlı nahiyənin inzibati mərkəzi statusu daşıyan Böyük Məzrə kəndinin və XX əsrdə Göyçənin ən iri yaşayış məskəni sayılan Zod kəndinin illik vergiləri müvafiq olaraq 8.795 və 7.214 ağça həcmində idi. Bu isə o deməkdir ki, Qazanlıqdərəsi XVIII əsr Göyçəsinin ən iri yaşayış məskənlərindən biri olub. Ermənilərə tarixlə manipulyasiya şansı verən reallıq isə Göyçədə Qazanlıqdərə kəndi ilə yanaşı həm də Gözəldərə kəndinin mövcud olmasıdır. Qazanlıqdərədən 1 km. cənub-şərqdə, vaxtilə Şah İsmayılın ordugahının dayandığı dərənin digər qurtaracağındakı bu kəndin əsası XVIII əsrin ikinci yarısında naməlum səbəblərdən Qazanlıqdərəni tərk etmiş bir nəsil tərəfindən qoyulub və doğma yurddan ayrılmış o incik nəsil təzə yurdu Gözəldərə adlandırıb. Və məhz bu məqamdan etibarən el ağzında kəndlərin adları qoşalaşıb. Qazanlıqdərə el ağzında "Baş Qazanlıqdərə" və ya "Baş Gözəldərə" adları ilə; Gözəldərə isə "Aşağı Gözəldərə", "Aşağı Qazanlıqdərə" adları ilə tanınıb ki, bu reallıq da tarixi məxəzlərdə öz əksini tapıb. Belə ki, 1826-1829-cu illər Rusiya-İran, Türkiyə-Rusiya müharibələrindən sonra yeni yaradılmış erməni vilayətində kameral siyahıyaalma aparmış İ.Şopenin tərtib etdiyi siyahılarda hər iki kəndin adı var. Qazanlıqdərə (Baş Gözəldərə) kəndi dağıdılıb viran qoyulmuş kəndlərin siyahısında 33-cü sırada, Gözəldərə (Aşağı Qazanlıqdərə) kəndi isə o zaman yaşayış üçün yararlı sayılan məntəqələrin siyahısında 25-ci sırada yer alıb. Bütün müəmmalar da məhz bundan - Göyçənin yeni yaradılan erməni vilayətinin idarəçiliyinə verilməsindən sonra başlayıb, müharibə nəticəsində yerlə - yeksan edilmiş Qazanlıqdərə (Baş Gözəldərə) kəndi rəsmən ləğv edilərək, əhalisi Gözəldərəyə (Aşağı Qazanlıqdərə) köçürülmüşdür. Beləcə bir türk obası da erməni fitnəsinin qurbanı olaraq tarix səhnəsindən izsiz-soraqsız silinmişdir.

## BAŞKƏND

(Qızılörən - Öyüdöyrət)

Kəvər kəndindən (indiki Kamo şəhəri) 8 kilometr cənub - şərqdə yerləşən bu yurd yerimiz mahalın ən qədim yaşayış məskənlərindən biridir və bu səbəbdən də erməni mənbələrində Başkəndlə bağlı məlumatların bilərəkdən dolaşdırılmasına cəhd edilir. Belə ki, bəzi məxəzlərdə, xüsusən də A. Hambarsumyanın İrəvan Dövlət Universitetinə rəhbərliyi dövründə tarix fakultəsində aparılmış elmi araşdırmalarda Başkəndin XIX əsrin ortalarında ermənilər tərəfindən binələşdirilməsini sübuta yetirməyə təşəbbüs göstərilir. Amma...

"Göyçənin baş kəndi" anlamına gələn və əzəli adı Öyüdöyrət olan bir yurd yerinin coğrafi mövqeyinə diqqət yetirildikdə "Kitabi Dədə Qorqud"da xanların elatı şənliyə topladığı, çadırlar qurulub atəşfəşanlıq edilən qara dağlarla əhatələnmiş el meydanının təsvirləri canlanır göz önündə. Başkənddən keçərək sıldırımlı dağ yolları ilə Dərələyəz istiqamətinə uzanan qədim karvan yolu da eynən Dədə Qorqud boylarında təsvir olunan, Təpəgöz tərəfindən inhisara alınmış karvan yollarını xatırladır. Başkəndin cənub-qərbindəki dağın zirvəsindəki heyrətamiz ölçülü qəbir yerləri də bu obada məskunluq tarixinin eramızdan əvvəlki minilliklərin dərinliklərindən başladığına dəlalət edən təkzibedilməz maddi sübutlardır. 1986-cı ildə İrəvanda nəşr olunan "Komsomolets" qəzetinin əməkdaşı Levonla bu kənddə olduğumuz zaman Gexarkunik sovxozunun komsomol komitəsinin katibi "doğma kəndlərinin tarixi"ndən qürurla söhbət açaraq deyirdi ki, "Orbeli burada qazıntılar aparıb və erməni tarixinə dair olduqca zəngin materiallar əldə edib". Amma Orbelinin məhz Başkənd ərazisindəki arxeoloji fəaliyyətinin nəticələri barədə məlumatlar nəinki "Qədim Erməni dövləti"nin tarixinə dair kitablara, heç elmi hesabatlara belə salınmayıb. Niyə? Səbəb çox sadədir: Orbeli Başkənd ərazisindən yalnız oğuz mədəniyyətinin izləri olan maddi sübutlar tapa bilərdi ki, bunları üzə çıxarmaq da heç bir halda ermənilərə sərf etməzdi. Daha dəqiqi, onları məhv etmək daha sərfəli idi, nəinki üzə çıxarıb bu barədə elmi dairələrə məlumat vermək. Amma... Akademik B. Piotrovski Göyçə sahillərindəki qədim qalaları tədqiq edərkən Kəvər qalasının adi bir qala yox, bir-biri ilə bağlanmış qalalar kompleksinin həlledici həlqəsi olduğu qənaətinə gələrək müəyyən edib ki, Quləli, Qışlaq, Başkənd, Kəvər, Əyrivəng qalaları ilkinliyində müstəqil müdafiə istehkamları kimi yaransa da, sonradan bu qalalar Kənizər (ermənilərə görə Qavar) çayı va-

disini tam əhatə edən böyük bir müdafiə sisteminin həlqələrinə çevriliblər. Yəni Başkənd və Kəvər qalalarını birləşdirən təsəvvürəgəlməz ölçülü müdafiə istehkamı bu qalaların özlərindən xeyli sonra, bəlkə də 1000 il sonra tikilib. Başqa sözlə, B.Piotrovskinin qənaətinə görə Göyçə gölünün cənub-qərbini tam əhatə edən istehkam divarları eramızdan əvvəlki dövrün VIII əsrinə aiddirsə, Kəvər, Quləli, Başkənd, Qışlaq qalaları eramızdan əvvəlki ikinci minilliyin ortalarına aid memarlıq nümunələridir. Göyçədə tapılan mixi yazılar da qala divarlarına məhz bu qalalar fəth olunub birləşdirildikdən sonra yerləşdirilib. Nə deyir bizə bu elmi mülahizə? Deyir ki, Dədə Qorqudda təsvir olunan 24 sancağın hər biri müstəqil bir struktur olub və tarixin hansı bir dönəmindəsə (arxeoloji tədqiqatları əsas kimi götürdükdə bu dönəmin konkret olaraq eramızdan əvvəlki dövrün birinci minilliyinin əvvəllərinə aid olduğunu söyləmək olar), daha qüdrətli qalanın sərkərdəsi dili və inancı eyni olan bu qalaların digər 23-nü özünə birləşdirərək, vahid bir XANƏDAN yaradıb. Və o ULU XANƏDAN formalaşarkən Başkənd qalası da onun tərkibinə qatılan köklü qalalardan biri olub. Bir sözlə, B. Piotrovskinin arxeoloji tədqiqatları Başkənd qalasının 3500 illik tarixinə şəhadət verir. Bu qalanın təbii coğrafi mövqeyi isə ona mahalın ulu şamanlarının, ulu ozanlarının, xanlarının yaşadığı baş kənd, müasir anlamda paytaxt kimi formalaşmaq imkanı yaratmışdı. Ağqoyunlularnı hakimiyyəti dövründə Başkənd adına uyğun statusda olmuş, Göyçə hövzəsinin inzibati mərkəzi funksiyası daşımışdır. 1555-ci ilə dair sənədlərdə isə bu kənd əzəli adı ilə, yəni Öyüdöyrət kəndi kimi təqdim olunur və Çuxur-Səd bəylərbəyliyinin Kəlyavər (Kənizər, Kəvər) nahiyəsinin inzibati mərkəzi kimi təsniflənir.

1723-cü ildə növbəti Səfəvi-Osmanlı qarşıdurmasından sonra Göyçə hövzəsi bütünlüklə osmanlıların nəzarətinə keçir və onların tətbiq etdiyi inzibati bölgüyə əsasən Başkənd İrəvan əyalətinin Göyçə nahiyəsinin ərazisinə düşür. 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində kənd "Qızılörən. Başqa bir adı Öyüdöyrətdir" açıqlaması ilə təqdim olunub və onun sultan xəzinəsinə illik vergisinin 6.385 ağça olduğu barədə qeydlər aparılıb. Və təbii ki, erməni vilayəti təşkil edilərkən bu həqiqətlər diqqətdən yayınmamışdı; Türkiyənin Bayazit, Muş, Alaşgerd qəzalarından gətirilən ermənilərin ən böyük qrupu- 272 nəfər məhz bu kəndə yerləşdirilmişdi. O zaman, yəni 1828-1830-cu illərdə Başkəndin əzəli sahibləri olan türklərin sayı 639 nəfər təşkil etsə də, 1831-ci ilin rəsmi statistikasında bu rəqəm artıq 491 nəfərə qədər azalmışdı. 1886-cı ildə Başkənddə yaşayan ermənilərin sayı 385, türklər 243 nəfər idi. 1897-ci ildə

isə bu göstərici müvafiq olaraq 440 və 357 nəfər həddinə çatmışdı. Türklərin sayının artımı və demoqrafik balansda tarazlıq yaranması erməni millətçilərini narahat etməyə bilməzdi və...1905-ci il qətliamları zamanı ən çox zərər çəkən kəndlərdən biri də Başkənd oldu. 1918-ci ildə isə Başkənd türklərdən tamamilə təmizləndi. 1922-ci ildə türklərin bir qisminin yurda dönüşü ermənilər üçün gözlənilməz idi və təbii ki, o dövrün siyasi qarışıqlığı səbəbiylə bu dönüşün qarşısını almağa müvəffəq olmadılar. 1926-cı ildə Başkənddə 928 erməni və 112 türk yaşayırdı. 1930-cu ildə Ermənistan SSR-də tətbiq olunmuş yeni inzibati strukturlaşmaya əsasən Başkənd Yeni Bayazid rayonunun inzibati vahidlərindən birinə çevrildi. 1931-ci ilin rəsmi statistikasına görə, erməni əhalinin sayında artımın müşahidə olunmamasına rəğmən (941), azəri türklərinin sayı artaraq 294 nəfərə çatmışdı. Artım sürətinin bu qəbil fərqi artıq hökumət dairələrinin narahatlığına əsas verirdi və məhz bundan sonra Başkəndin türk əhalisinə qarşı repressiyalar dövlət səviyyəsində aparıldı. "Kolxozlaşma siyasətinin əleyhdarı" olan 18 türk ailəsi, yəni 66 nəfər sürgün edildi. Ermənistan SSR Ali Sovetinin 4 aprel 1946-cı il tarixli qərarı ilə Başkənd toponimi ləğv edilərək, kənd "Gexarkunik" adlandırıldı. 1948-ci ildə isə "millətlər atası Stalin"in "azərbaycanlıların Kür-Araz ovalığına köçürülməsi" barədə qərarı Göyçədə ilk olaraq Başkənddə reallaşdırıldı və 3800 illik tarixi olan bir türk obası sırf erməni kəndlərinin siyahısına salındı.

## BAŞ KEYTİ

Yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verildiyi zaman Göyçədə yaşayış üçün yararlı sayılan 59 kəndinin İ. Şopen tərəfindən tərtib olunmuş siyahısında 41-ci sırada Baş Keyti kəndinin adı yer alıb. O zaman 248 nəfər əhalisi olan bu kəndin adına sonradan heç bir rəsmi məlumatda rast gəlinmir. Və bu reallıqdan çıxış edən "erməni tarixçiləri" Baş Keyti toponiminin Yuxarı Şorca kəndinin əvvəlki adı olduğu barədə mülahizələrlə çıxış ediblər. Bu, tarixi həqiqətlərin növbəti dəfə təhrif edilməsi cəhdindən başqa bir şey deyil. Belə ki, Baş Keytinin xərabəlikləri indiki Yuxarı Şorca kəndindən təxminən 6-7 kilometr cənub-qərbdə, indiki Daşkəndə yaxın bir ərazidədir. Bu isə o deməkdir ki, Baş Keyti heç bir halda Yuxarı Şorca adlandırıla bilməzdi. Ən yaxşı halda Baş Keyti dağıdıldıqdan sonra əhalisinin bir qisminin Yuxarı Şorcada məskunlaşması barədə mülahizələr irəli sürmək olar. Erməni tarixşünaslığının Baş Keyti və Yuxarı Şorca toponimlərini eyni bir kəndin müxtəlif dövrlərə

aid adları kimi səciyyələndirmək cəhdlərini birmənalı şəkildə əhəmiyyətsizləşdirən digər bir faktsa ondan ibarətdir ki, 1831-ci ilin rəsmi məxəzlərində Baş Keytidə 248 nəfər türk yaşadığı göstərildiy halda, 1873-cü ilə aid statistikada Yuxarı Şorca kəndinin cəmi 123 nəfər əhalisi olduğu göstərilir. Əgər söhbət adi addəyişmədən getsəydi onda kəndin əhalisinin sayı bu qədər azala bilməzdi. Bu qəbil kəskin azalma yalnız iki halda mümkün olardı: ya hər hansı kütləvi xəstəlik, ya da köçürülmə nəticəsində. Göyçənin bütün tarixi ərzində kütləvi qırğınlara səbəb ola biləcək hər hansı bir epidemiya barədə heç bir mənbədə, həmçinin el yaddaşında heç bir məlumat yoxdur. Yuxarı Şorca kəndinin XIX əsr ərzində hər hansı köçürməyə məruz qalmadığı da bəllidir. Deməli, addəyişmədən danışmağa da lüzum yoxdur. Bu addəyişmə versiyası bir kəndin yer üzündən silinməsi kimi faciəvi gerçəkliyi tarixdən gizlətmək üçün uydurulmuş yalandan qeyri bir şey deyil. Və birmənalı şəkildə demək olar ki, Baş Keyti kəndi 1831-1873-cü illər aralığında erməni-rus fitnəkarlığı nəticəsində ölü kəndlər siyahısına düşmüş türk obalarından biridir və bu tarixi cinayətin də məsuliyyəti erməni faşistlərinin üzərindədir.

## BƏDKAL

(Bəndqala)

Kəvər kəndindən (indiki Kamo şəhəri) 10 kilometr cənub-şərqdə, gölə yarımada şəklində daxil olmuş təpəliyin üstündə yerləşmiş bu qədim yurdun izlərini tarixdən silmək XX əsr erməni tarixşünaslığı üçün ölüm-qalım dilemması qədər əhəmiyyətlidir, desək, yanılmarıq. Nİyə? Çünki Bəndqalanın mövcudluğunun etirafı o kəndin əzəli sahiblərinə qarşı törədilmiş cinayətin etirafı mahiyyəti daşıyır. Üstəlik Bəndqala həqiqətlərinin tam açılışı ümumən "müasir və qədim erməni tarirxi"nin məhvi deməkdir. Kosaməmməd kəndi ilə bağlı məlumatda bu barədə ətraflı danışıldığı üçün qısaca olaraq onu deyək ki, akademik B. Piotrovski Kosaməmməd və Bəndqala kəndlərinin tam müstəqil, bir-birinə əsla dəxli olmayan yaşayış məntəqələri olduğunu birmənalı şəkildə təsdiqləyərək bildirirdi ki, Bəndqala eramızdan əvvəl Göyçədə mövcud olmuş Ördəkli- Əyrivəng- Qışlaq- Qul Əli - Kəvər- Başkənd istehkamına daxil olan digər qalalardan xeyli sonra inşa edilsə də, strateji baxımdan onların hamısından əhəmiyətli idi və görünür bu səbəbdən də onun memarlıq həlli mükəmməlliyi ilə seçilir. Bəli, Bəndqalanın ilkinliyində sırf müdafiə səciyyəsi daşıdığı faktdır. Eramızın əvvəllərində isə o artıq dövrünün tipik

şəhərlərindən birinə çevrilmişdi ki, bu reallığı da akademik B.Piotrovskinin apardığı qazıntılar zamanı əldə edilmiş maddi dəlillər təsdiqləyir. Amma Bəndqalanın mövcudluğuna təkcə maddi tapıntılar şəhadət vermir; elə yazılı rəsmi mənbələr də onun qədim tarixini təsdiqləyir. 1555-ci ilə dair yazışmalarda Səfəvi Azərbaycan dövlətinin Çuxur-Səd bəylərbəyliyinin inzibati vahidləri sırasında adı çəkilən yaşayış məntəqələrindən biri də məhz Bəndqaladır. XVII əsrə dair məxəzlərdə isə qalanın adı "Bədkəl" şəklində verilir. 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində də kənd "Bədkal" kimi təqdim olunub və onun illik vergisinin 7864 ağça həcmində müəyyənləşdirilməsi barədə müvafiq qeydlər aparılıb. 1826-1829-cu illərdə baş vermiş Rusiya-İran, Türkiyə-Rusiya müharibələri zamanı Göyçədə dağıdılmış və yeni yaradılmış erməni vilayətinin tərkibinə verilərkən yaşayış üçün yararlı sayılan kəndlərin İ. Şopen tərəfindən tərtib olunmuş siyahılarında isə Kosaməmməd adı olsa da, "Bəndqala", "Bədkəl", "Badkal" istilahlarına rast gəlinmir. Məhz bu dövrdən etibarən erməni mənbələrində "Badik qalası" ifadəsi peyda olur və... 1945-ci il dekabrın 7-də Ermənistan SSR Ali Soveti rəsmi qərarla "Kosaməmməd" toponiminin "Badikyan" sözü ilə əvəzlənməsi barədə qərar qəbul edir... Bu, Bəndqala adlı qədim türk yurdunda törədilmiş cinayətin izini itirmək və tarixi təhrif etmək üçün göstərilmiş səylərə rəsmi dəstək idi. Amma... heç bir rəsmi qərar tarixi həqiqətləri dəyişmək, tarixi cinayətləri ört-basdır etmək qüdrətində deyil. Oğuz memarlığının mükəmməl nümunəsi olan Bəndqalanın qalıqları bütün rəsmi maneələri dəf edərək, erməni tarixşünaslığına meydan oxumaqda davam edir...

## BIĞLI HÜSEYN

Göyçə gölünün şimal-qərbində, indiki Sevan şəhəri ilə Noraşen kəndi arasındakı ərazidə yerləşmiş bu qədim türk yurdunun adının tarixdən silinməsi üçün ermənilər mümkün olan hər şeyi etsələr də, Bığlı Hüseyn kəndinin xərabələri sanki inada düşüb erməni faşizminə meydan oxuyur, 1831-1873-cü illər aralığında erməni-rus hərbi birləşmələrinin Göyçədə törətdikləri cinayətlərin canlı şahidi kimi zaman-zaman torpaq altından boy qaldırır. Görünür bu da zamanın bir ironiyasıdır: kənd yerlə-yeksan edilir, adı yaddaşlardan və rəsmi sənədlərdən silinir... Amma 100 il sonra qanla söndürülmüş ocaqların yerləri torpaqdan boy qaldıraraq bir əsr öncə səssiz-səmirsiz həyata keçirilmiş qətliamlardan soraq verir, tarixdən giz-

lədilmiş cinayətlərin üstünü açır. Bəli, erməni tarixşünaslığı Bığlı Hüseyn kəndinin mövcudluğunu inadla inkar etsə də, XX əsrin 70-ci illərində tam aşkarlıqla üzə çıxmış xərabəliklərin hansı kəndə məxsusluğu barədə suala cavab vermək məcburiyyətində qaldılar. Və onda yada düşdü ki, bu ərazilərdə, konkret olaraq Zenalağalı və Əfəndi kəndləri ilə həmsərhəd bir ərazidə Bığlı Hüseyn kəndi deyilən bir kənd də olub və onun mövcudluğu tarixi sənədlərdə təsbitlənib. Belə ki, yeni yaradılan erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalının o dövrdə yaşayış üçün yararlı sayılan 59 kəndinin İ.Şopen tərəfindən 1831-ci ildə tərtib edilmiş siyahısında birinci sırada məhz Bığlı Hüseyn kəndinin adı gəlir. Diqqət yetirək! Bığlı Hüseyn kəndinin adı dağıdılmış kəndlərin siyahısında yox, yaşayış üçün yararlı sayılan 59 kəndin siyahısında yer alıb və 1831-ci ilə dair kameral siyahıyaalma hesabatlarında Bığlı Hüseyn kəndinin 243 nəfər türk əhalisinin olduğu göstərilib. 1873-cü ilə və ondan sonrakı dövrlərə dair sənədlərdə isə Bığlı Hüseyn kəndinin adına nə sırf türk kəndlərinin, nə də qarışıq yaşayış məntəqələrinin siyahısında rast gəlinmir. Bu tarixi faktlara əsasən belə bir qənaətə gəlmək olar ki, kənd 1831-1873-cü illər aralığında dağıdılaraq, “ölü kəndlər” siyahısına daxil edilib. Burada baş verən hadisələrin təfsilatı heç bir mənbədə öz əksini tapmasa da, bir həqiqət bəllidir: Bığlı Hüseyn adlı qədim türk obası ruslar tərəfindən dəstəklənən erməni faşizminin qurbanıdır və bu tarixi cinayətin məsuliyyəti təkcə ermənilərin yox, ümumən onların cinayətlərinə göz yuman xristian dünyasının üzərindədir.

## BÖYÜK AĞA

(II Canqurtaran)

Göyçənin el yaddaşında əbədiləşmiş bilgilərdən belə qənaətə gəlmək olar ki, gölün cənub-şərq sahillərində yerləşmiş bu kəndin əsası Kəvər nahiyəsindəki Ağapənahlı (Allahapənah - Canqurtaran) kəndindən köç etmiş insanlar tərəfindən qoyulub. Erməni mənbələri isə israrla sübut etməyə çalışırlar ki, Göyçə hövzəsində Canqurtaran adlı cəmi bir kənd olub. Amma... Əlahəzrət fakt həmişə həlledici söz sahibidir. Və əlahəzrət fakt XIX əsrin əvvəllərinə qədər Göyçədə Canqurtaran adlı iki müstəqil kəndin olduğuna birbaşa şəhadət verir. Belə ki, 1728-ci ildə tərtib olunmuş və hazırda Türkiyə Respublikasının Başbakanlıq Arxivində saxlanan “İrəvan əyalətinin icmal dəftəri”nin 12-ci səhifəsində Göyçə nahiyəsindəki Canqurtaran kəndi, 15-ci səhifədə isə Məzrəə nahiyəsindəki

Canqurtaran kəndi barədə məlumat verilib və onların sultan xəzinəsinə illik ödəncinin, müvafiq olaraq 2892 və 5520 ağça həddində müəyyənləşdirildiyi barədə qeydlər aparılıb. El arasında isə bu kəndlərdən biri Ağapənahlı, digəri- indiki Vardenis rayonunun inzibati ərazisindəki Canqurtaran kəndi isə "Böyük Ağanın yurdu", yəni nüfuzlu seyidin ocağı kimi təsniflənirmiş. Və qazdan ayıq erməni tarixgəmiriciləri bu reallıqdan maksimum bəhrələnərək, bu kəndlərin mövcudluğunu ümumiyyətlə danmaq yönündə kifayət qədər ciddi səylər göstəriblər. Amma bununla belə, Böyükağa adlı kəndin mövcudluğu faktdır və bu reallıq erməni mənbələrində də əksini tapıb.

1826-1828-ci il Rusiya-İran və 1828-1829-cu illər Türkiyə-Rusiya müharibələri zamanı erməni-rus hərbi birləşmələri tərəfindən Göyçə mahalında yerlə-yeksan edilmiş 108 kənddən 67- sinin İ. Şopen tərəfindən tərtib olunmuş siyahısında 45-ci sırada Böyük Ağa kəndinin adı, Dərəçiçəyə dair siyahılarda isə Ağapənahlının adı yer alıb. Rusiyanın təhriki ilə yaradılan erməni vilayəttinin idarəçiliyinə verilən Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı sayılan kəndlərin elə həmin müəllif tərəfindən tərtib olunmuş siyahısında və ondan sonrakı dövrlərə dair rəsmi sənədlərdə isə Böyük Ağa kəndinin adına rast gəlinmir. Amma İ.Şopenin siyahıları ilə 1873-cü ilə dair rəsmi sənədlərin müqayisəli təhlilindən bəlli olur ki, 1826-1829-cu illərdə Göyçədə dağıdılmış və yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş yaşayış məntəqələrinin siyahısına düşməyən kəndlərdən hansının əhalisinin bir qismi sağ qalıbsa, o yurd yerlərinin, demək olar hamısı XIX əsrin ortalarında bərpa olunub və bu tarixi reallıq 1873-cü ilə dair rəsmi sənədlərdə təsbitlənib. Böyük Ağanın bərpa edilməməsi isə ona dəlalət edir ki, erməni-rus hərbi birləşmələrinin 1826-1829-cu illər aralığında həyata keçirdikləri qətliamdan bu kəndin bir nəfər belə sakini sağ çıxmayıb.

## BÖYÜK QARAQOYUNLU

(Cahanşah - Böyük Yengicə)

Göyçə gölünün şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 12 kilometr şimal-şərqdə, dəniz səviyyəsindən 2091 metr yüksəklikdə yerləşən bu kəndin əsasının qoyulması təxminən 1480-1500-cü illər aralığına təsadüf edir. Bəzi mənbələrdə bu kənd haqqında məlumat verilərkən o, "Yellicə", "Böyük Yellicə" kəndləri ilə qarışıq salınır və bütün bu toponimlərin eyni bir kəndin müxtəlif dövrlərə aid dəyişilmiş

adları olduğu barədə yanlış mülahizələr irəli sürülür. Əslində isə...

Böyük Qaraqoyunlu kəndinin əsası XV əsrin sonlarında, təxminən 1480-1490-cı illər aralığında Qaraqoyunlu hökmdarı Cahan Şahın oğlu Məhəmməd Mirzə tərəfindən qoyulub və sonradan Ağa Məhəmməd Qaraqoyunlu kimi məşhurlaşan bu tarixi şəxsiyyət öz təzə yurdunu babasının şərəfinə Cahanşah kəndi adlandırıb ki, bu tarixi reallıq da məxəzlərdə əksini tapıb. Belə ki, 1555-ci ilə dair sənədlərdə Səfəvi Azərbaycan dövlətinin Qarabağ (Gəncə) bəylərbəyliyinin Zar nahiyəsinə daxil olan inzibati subyektlər sırasında Zod, Zərzibil, Salaməleyk, Daşkənd kəndləri ilə yanaşı Cahanşah kəndinin də adı yer alıb. 1578-ci ildə Sultan III Murad səfəviləri yenərək onların torpaqlarının bir qisminə, o cümlədən Göyçə hövzəsinin şərqindəki Zod, Zərzibil, Ağkilsə, Cahanşah, Salaməleyk, Daşkənd, Siyaqut (Sarıyaqub), Qayadibi (Qayabaşı) kəndlərinə nəzarət imkanı əldə edib. Osmanlıların təxminən 45 il davam etmiş bu nəzarəti müddətində tətbiq edilmiş inzibati bölgüyə əsasən, həmin kəndlər İrəvan əyalətinin Ordubad qəzasının Zar nahiyəsinin inzibati vahidləri kimi təsniflənib ki, bu barədə də 1590-cı ildə tərtib olunmuş "İrəvan əyalətinin müfəssəl dəftəri"nin 328-ci səhifəsində müvafiq qeydlər aparılıb. 1595-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndəki qeydlərdən isə bəlli olur ki, osmanlıların 1578-ci ildən başlayan 40-45 illik idarəçiliyi dövründə Cahanşah kəndi timar qismində, yəni dövlət yetkililərinin məsrəflərini ödəyən vergi subyekti qismində **Səfər və İbrahim İlyasoğlu qardaşlarının**, eləcə də həm Zod, həm Damğa, həm də Cahanşahdan payı olan **Dürri İskəndəroğlu** adlı şəxsin istifadəsinə verilibmiş. XVII əsrin əvvəllərində osmanlılar bu yerlərə nəzarəti itirdikdən sonra kənd yenidən Səfəvi Aəzərbaycan dövlətinin Qarabağ bəylərbəyliyinin idarəçiliyinə düşüb və... kənd ağsaqqalları şiələrin Qaraqoyunlu ənənələrinə düşmənçiliyindən qaynaqlanan narahatlıqlardan sığortalanmaq üçün öz yurdlarını "Yengicə", yəni "təzə yurd yeri" kimi təqdim ediblər ki, bu reallıq da rəsmi sənədlərdə təsbitlənib. 1723-cü ildə növbəti Səfəvi-Osmanlı qarşıdurması nəticəsində bütünlüklə Göyçə gölü hövzəsinə nəzarət imkanı qazanmış osmanlıların tərtib etdiyi sənədlərdə bu kənd "başqa bir adı Cahanşah olan Böyük Yengicə kəndi" kimi təqdim olunub. 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 15-ci səhifəsində Böyük Yengicə İrəvan əyalətinin Məzrəə nahiyəsinə daxil olan inzibati vahidlərdən biri kimi xarakterizə olunub və onun sultan xəzinəsinə illik vergisinin 4582 ağça həcmində müəyyənləşdirilməsi barədə müvafiq qeydlər aparılıb. Səfəvi dövlətinin süqutundan sonra kənd İrəvan xanlığının inzibati

hüdudlarına daxil edilib; şiə-sünni müstəvisindəki qarşıdurma təhlükəsi qismən aradan qalxdığı üçün kəndin əzəli sahibləri öz kimliklərini açıq bəyanlamaq qərarına gəliblər və o zamandan etibarən bu kənd Böyük Qaraqoyunlu adı ilə tanınıb. 1826-1829-cu illər Rusiya-İran, Türkiyə-Rusiya müharibələrinin gedişində kənd yerlə-yeksan edilərək "ölü kəndlər"in siyahısına daxil edilsə də, XIX əsrin ortalarında yenidən bərpa olunmuşdur və bu tarixi olay da rəsmi sənədlərdə əksini tapmışdır. Belə ki, 1873-cü ilə dair statistik məlumatlarda Böyük Qaraqoyunlu İrəvan quberniyasının Nor Bayazet qəzasının Basarkeçər nahiyəsindəki kəndlərdən biri kimi səciyyələndirilir və həmin vaxt kəndin sırf türklərdən ibarət 408 nəfər sakini olduğu göstərilir. Rəsmi statistikaya görə, Böyük Qaraqoyunluda 1886-cı ildə 591 nəfər, 1914-cü ildə 655 nəfər oğuz türkü yaşamışdır. 1919-cu il aprelin 13-dən başlayaraq, ermənilərin bir həftə ərzində Göyçədə törətdiyi qırğınlar zamanı kənd əhalisi mütəşəkkil şəkildə Qarabağa köçürülmüş, kənddə yalnız kişilərdən ibarət müqavimət dəstəsi qalmışdır. Kəndə daşnaklar təfəfindən ciddi xətər yetirilməməsinə rəğmən 1922-ci ildə yurda dönənlərin sayı cəmi 392 nəfər, yəni 1914-cü ildəki əhalinin 60 faizi həddində olmuşdur. 1939-cu ildə kənd əhalisinin sayı 561 nəfər olsa da, II dünya müharibəsindən sonra bu göstərici 474 nəfər həddinə enmişdir. 1979-cu il siyahıyaalınmasının nəticələrinə görə Böyük Qaraqoyunlunun türk əhalisinin sayı 1407 nəfər olmuş, 1988-ci ildə bu rəqəm 1880 həddini keçmişdir. Ermənistan Xalq Komissarları Soveti Mərkəzi İcraiyyə Komitəsinin 3 yanavr 1935-ci il tarixli qərarı ilə Böyük Qaraqoyunlu toponimi "Əzizli" sözü ilə əvəzlənmiş, Ermənistan Respublikası Ali Sovetinin 9 aprel 1991-ci il tarixli qərarına əsasən isə Əzizli adı dəyişdirilərək, kənd "Norabak" adlandırılmışdır.

***Böyük Qaraqoyunlunun ünlü tarixi şəxsiyyətləri:***

**Ağa Məhəmməd Qaraqoyunlu (Məhəmməd Mirzə Cahan Şah oğlu).** Qarqoyunlu hökmdarı Cahan şahın oğlu olan bu tarixi şəxsiyyət XV əsrin son, XVI əsrin ilk qərinəsində yaşayıb; Böyük Qaraqoyunlu kəndinin əsasını qoyub.

**Hacı Nağı.** XVI əsrdə Böyük Qaraqoyunluda məskunlaşmış Nağılar tayfasının ağsaqqalı, el qəhrəmanı.

**Məşədi Qəhrəman.** XVIII əsrin sonları XIX əsrin əvvəllərində yaşamış el ağsaqqalı.

**Cahan Məşədi Qəhrəman oğlu.** XIX əsrin ortalarından XX əsrin 20-ci illərinə qədər örnək bir ömür yaşamış, 30 ilə yaxın bir dövr ərzində kəndin qlavası olmuşdur.

**Ayıboğan Məhəmməd.** XIX əsrdə yaşamış el qəhrəmanı.

**Kərbalayi Cəfər.** XIX əsrin sonlarından XX yüzilliyin 30 - cu illərinə qədər seyidlər tayfasına ağsaqqallıq etmiş bu tarixi şəxsiyyət ümumən mahalın ən nüfuzlu din xadimlərindən və sayılıb- seçilən el qəhrəmanlarından biri olmuşdur.

**Molla Nəcəf.** Şam şəhərində mükəmməl dini təhsil almış bu tarixi şəxsiyyət ümumən mahalda sayılıb-seçilən ziyalılardan biri olmuş; Böyük Qaraqoyunluda dini məktəb yaratmışdır. Sovet hökuməti qurulduqdan sonra öz mülkünü məktəbə bağışlamış bu nurlu insan varlı olduğuna görə NKVD-nin təqiblərinə məruz qalsa da, sürgün taleyi yaşamamış, ömrünü doğma kəndində başa vurmuşdur.

**Məşədi Sultanəli.** XIX əsrin ortalarında Məşhəd şəhərində təhsil almış, 20 ilə yaxın bir müddətdə kəndin rəhbəri olmuşdur.


Hadı Kərbalayı Cəfər oğlu

**Seyid Abbasəli.** Mahalın ən nüfuzlu din xadimlərindən biri olmuşdur.

**Hadı Kərbalayı Cəfər oğlu.** Mahalda el qəhrəmanı kimi şöhrətlənmiş bu tarixi şəxsiyyət 1918-1922-ci illərdə ermənilərə qarşı müqavimət hərəkatının fəallarından biri olmuşdur.

**Məşədi Hüseynalı.** Məşədi Hüseynalılar tayfasının ağsaqqalı, XIX əsrdə yaşamış el qəhrəmanı.

**Alaboğaz Haxoy.** 1918-1922-ci illərdə ermənilərə qarşı mübarizənin təşkilatçılarından biri kimi Səmənd Ağa və onun bacısı oğlu Abbasqulu bəy Şadlınski ilə dostluq etmiş, 1931-ci ildə Göyçədə sovetlər əleyhinə qiyam başlayarkən Qaçaq Cəmillə Vedibasar partizanlarının lideri Qəmlonun əlaqələndiricisi olmuşdur.

**Qaçaq Cəmil (Cəmil Əmiraslanoğlu).** 1919-cu ildə ermənilərə qarşı müqavimət hərəkatının liderlərindən biri, sovetlərin gəlişindən sonra isə Basarkeçər qəza İnqilab Komitəsinin sədri olmuşdur. 1931-ci ildə Göyçədə sovet hakimiyyətinə qarşı başlamış silahlı qiyama rəhbərlik etmiş, 1934-cü ildə qiyam qan içində boğulduqdan sonra ömrünün axırına qədər müxtəlif adlar altında gizlənmişdir.



**Məmmədov Aydın Abdulla oğlu.** 10 il SSRİ Ali Sovetinin, bir çağırış Ermənistan SSR Ali Sovetinin deputatı olmuş, 1945-ci il mayın 9-da Qələbə paradında iştirak etmiş bu qüdrətli şəxsiyyət, sözün həqiqi mənasında kişilik etalonu kimi tanınmış, nəinki doğma kəndinin, ümumən Basarkeçər türklərinin 1937-ci ilin qasırğasından və 1948-ci ilin deportasiyasından maksimum az itki ilə çıxması üçün

mümkün olan hər şeyi etmişdir.

**Aşıq Əsəd (Rzayev Əsəd).** 1874-cü ildə anadan olmuş, haqq dərvişliyinin sirrini Aşıq Ələsgərdən öyrənmişdir. 1919-cu ildə ermənilərə qarşı müqavimət hərakatının fəallarından və erməni sərkərdəsi Sulikovun başını kəsənlərdən biri olmuşdur. XX əsrin 30-cu illərində ermənilərin təqiblərindən yaxa qurtarmaq üçün Tovuz rayonuna köçmüşdür. Aşıqların I qurultayında "Azərbaycanın birinci ustad aşığı" fəxri tituluna və "Şərəf" ordeninə layiq görülən bu qüdrətli şəxsiyyət 1951-ci ildə vəfat etmişdir.

**Süleyman Gülalıoğlu.** Bəsirətli haqq aşiqi, Növrəs İmanın dostu olmuş bu insanın II Dünya müharibəsində itkin düşməsi barədə rəsmi xəbər verilsə də, cəbhə yoldaşlarının şahidliynə görə, o, sovetlər uğrunda vuruşmamaq üçün ordudan yayınmış və əvvəl Türkiyəyə, oradan isə İrana keçmiş, XX əsrin 60-cı illərinə qədər Urmiya ellərində aşıqlıq etmişdir.

***Böyük Qarqoyunludan olan dövlət xadimləri və təsərrüfat rəhbərləri:***



Hüseynov İman

**Hüseynov İman Gülalı oğlu.** II Dünya müharibəsində faşizmə qarşı döyüşlərdə sağlamlığını itirmiş bu qüdrətli zəka sahibi iki çağırış SSRİ Ali Sovetinin deputatı olmuş; xidmətləri bir sıra orden və medallarla qiymətləndirilmişdir.



Qəhrəmanov Abbasəli

**Qəhrəmanov Abbasəli Salman oğlu.** Böyük Qaraqoyunlunun ilk rəsmi peşə təhsili almış sakini olan bu şəxs SSRİ- Finlandiya, SSRİ- Almaniya, SSRİ- Yaponiya müharibələrinin iştirakçısı olmuş; müharibədən sonra Göyçənin bir sıra təsərrüfatlarına rəhbərlik etmiş, Basarkeçərdə və Kəlbəcərdə bir sıra məsul vəzifələr tutmuş; 1985-ci ildə doğma kəndində vəfat etmişdir.



Cahanov Qəzənfər

**Cahanov Qəzənfər Aval oğlu.** Mahalın ən qabaqcıl təsərrüfatlarında ən məsul işlərdə çalışmış, öz prinsipiallığı və peşəkarlığı ilə nüfuz qazanmış bu nurlu insan 1988-ci il deportasiyasından sonra əvvəl Bərdə rayonunun Buəhmədli kəndində, sonradan isə Gəncə şəhərində məskunlaşmış; 1996-cı ildə elə burada vəfat etmişdir.

**Məcidov Nəsrəddin Mirələkbər oğlu.** 1936-cı ildə Böyük Qaraqoyunluda anadan olmuş, Gədəbəy rayonundakı Qaramurad kənd orta məktəbini, Gəncə Toxuculuq Texnikumunu, Bakı Ali Partiya Məktəbini,

Bakı Dövlət Universitetinin hüquq fakultəsini bitirmiş; Bakının Yasamal rayonunda məhkəmənin sədri, Ədliyyə Nazirliyinin "Qanunlar toplusu" məcmuəsinin baş redaktoru olmuşdur. 1986-cı ildən Bakı şəhər Birinci Dövlət Notariat Kontorunda baş dövlət notariusudur.



Babayev İsrafil

**Babayev İsrafil İmamalı oğlu.** Uzun illər Böyük Qaraqoyunlu təsərrüfatına rəhbərlik etmiş bu şəxs peşəkarlıq səriştəsi ilə yanaşı kişilik qanunlarına tapınması, mərdanəliyi və yurdcanlılığı ilə nüfuz qazanmış; mahalın ötkəm söz sahiblərindən biri kimi tanınmışdır. Hazırda Gəncə şəhərində yaşayır.

**Abdullayev Bəylər Aydın oğlu.** Uzun illər Azərbaycan Daxili İşlər Nazirliyi sistemində məsul vəzifələr tutmuş bu nurlu insan xidmətlərinə görə bir sıra dövlət təltiflərinə layiq görülmüşdür. Ehtiyatda olan polis polkovnikidir, Bakı şəhərində yaşayır.



**Məmmədov Miryusif Hadı oğlu.** Azərbaycan Neft-Kimya İnstitutunu və Bakı Ali Partiya Məktəbini bitirdikdən sonra uzun illər "Azneft" İB-nin partiya komitəsinə rəhbərlik etmiş, Səbayıl rayon sosial-təminat şöbəsinin rəisi işləmiş bu nurlu ziyalı həm də milli-azadlıq mübarizəsinin fəallarından biri, Milli Hərəkat Partiyasının sədr müavini idi. 2003-cü ildə qəfil ürəktutmasından vəfat etmişdir.



**Nəsibov Köçəri Məcid oğlu.** Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirmiş, komsomol və partiya təşkilatlarının katibi olmuş, uzun illər Böyük Qaraqoyunlu təsərrüfatına rəhbərlik etmişdir. 1988-ci il hadisələri zamanı həmkəndlilərinin Şəmkirdəki Ağkənddə kompakt şəkildə məskunlaşmasının və həmin kəndə Qaraqoyunlu adının verilməsinin təşəbbüskarıdır. Hazırda Şəmkir RİH başçısının Leninkənd üzrə səlahiyyətli nümayəndəsidir.

**Babayev Eyvaz İlyas oğlu.** Moskva Neft-Kimya və Qaz Sənayesi İnstitutunu bitirmiş, dissertasiyasını Sankt-Peterburqda müdafiə edərək texniki elmlər namizədi alimlik dərəcəsi almış, 1990-2000-ci illərdə Gəncə Çini Qablar Zavodunun direktoru, 2000-2004-cü illərdə Gəncə şəhər İcra Hakimiyyətinin başçısı olmuşdur.

**Nağıyev Eyvaz Hilal oğlu.** Aktyubinsk Politexnik İnstitutunun yol inşaatı fakultəsini və Novosibirsk Dövlət Universitetinin hüquq fakultəsini

bitirmiş; uzun illər Qazaxıstan Respublikasının Aktyubinsk vilayətindəki səyyar-mexanikləşdirilmiş yol inşaatı müəssisəsinə rəhbərlik etmiş, dəfələrlə rayon və vilayət Xalq Deputatları Sovetlərinə üzv seçilmişdir.

**Məmmədov Əhliman Aydın oğlu.** Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu və Ali Milis Məktəbini bitirmiş, uzun illər hüqüq-mühafizə orqanlarında məsul vəzifələr tutmuşdur. Ədliyyə polkovnikidir.

***Böyük Qaraqoyunlunun ünlü maarif xadimləri:***



**Cahanov Elbəyi Aval oğlu.** Böyük Qaraqoyunlunun ilk ali təhsilli övladı olan bu maarifpərvər insan Azərbaycan təhsil sisteminin inkişafında müstəsna xidmətlər göstərmiş, Neftçala rayonunun bir sıra məktəblərində direktor olmuş, uzun illər Neftçala rayon təhsil şöbəsinə rəhbərlik etmiş; Netçala şəhərində də dünyasını dəyişmişdir.



**Salmanov Vilayət Abbasəli oğlu.** İrəvan Dövlət Pedoqoji İnstitutunu bitirmiş, Böyük Qaraqoyunlu kənd partiya təşkilatının katibi, məktəbin direktoru, Şuşa rayon Xalq Təhsili Şöbəsində metodiki kabinetin müdiri işləmiş; 1988-ci ildən sonra Gəncədə məskunlaşmış, 36 nömrəli erməni məktəbinin bazasında qaçqınlar üçün məktəb yaradılmasının və həmin məktəbə Aşıq Ələsgərin adının verilməsinin təşəbbüskarı, eləcə də ilk rəhbərlərindən biri olmuş, Kəpəz rayon İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini vəzifəsində çalışmışdır. Hazırda Bakı şəhərində yaşayır.



Həsənov Əli

**Həsənov Əli Zülfü oğlu.** Gəncə Dövlət Pedoqoji İnstitutunu bitirmiş, 10 il Böyük Qaraqoyunlu kənd orta məktəbinin, 12 il Gəncədəki 36 saylı orta məktəbin direktoru olmuşdur. Hazırda Gəncə şəhərində yaşayır.

**Hüseynov Əbülfəz Ərzəni oğlu.** Azərbaycan Dövlət Pedoqoji İnstitutunu bitirdikdən sonra təyinatla Şəki şəhərinə göndərilmiş, qısa müddətdə bacarıqlı təşkilatçı imici ilə tanınmış, gənclərlə iş üzrə təcrübəsi Təhsil Nazirliyinin xətti ilə yayılmışdır. Hazırda Şəki şəhərində məktəb direktorudur.

***Böyük Qaraqoyunlunun alim övladları:***

**Nəcəfov Fəxrəddin İbrahim oğlu.** İrəvan Kənd Təsərrüfatı Texnikumunu, Azərbaycan Politexnik İnstitutunu, Leninqrad Yol İnşaatı İnstitutu-

nun aspiranturasını bitirmişdi; texniki elmlər namizədi idi. 1984-cü ildə vəfat edib.

**İsmayılov Mehman Mehdi oğlu.** Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirib, uzun illər Abşeron rayonunun aqrar-sənaye kompleksində məsul vəzifələr tutub. Kənd təsərrüfatı elmləri namizədidir, hazırda Abşeron rayonunun Mehdiabad qəsəbəsində yaşayır.

**Nəsibov Famil Nəsir oğlu.** 1960-cı ildə anadan olub, Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirib. Kənd təsərrüfatı elmləri doktorudur; hazırda Gəncə şəhərində yaşayır.



**Bayramov Səhman Yusif oğlu.** 1967- ci ildə anadan olub, Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirib. Azərbaycan Respublikası Elmi - Tədqiqat Baytarlıq İnstitutunun aparıcı elmi işçisi, baytarlıq elmləri namizədidir.

***Böyük Qaraqoyunlunun nurlu qələm sahibləri:***



**Dəmirçi Bayraməli (Qəhrəmanov Bayraməli Salman oğlu).** 1921-ci ildə anadan olub. İrəvan Pedoqoji Məktəbində təhsil aldığı illərdə dövrü mətbuatda şerləri müntəzəm çap olunurmuş, amma... II dünya müharibəsi taleyinin nizamını pozub. Alman əsir düşərgələrindən sonra sovet DTK-sının təcridxanalarından keçib və oxumaq, yazıb-yaratmaq, dərc olunmaq arzularının üstündən birdəfəlik xətt çəkildiyindən, el sənətkarı kimi məşhurlaşıb. 2005-ci ildə Gəncə şəhərində vəfat edib.

**İbrahim Köçgün (Qurbanov İbrahim İsgəndər oğlu).** Azərbaycan Dövlət Pedoqoji İnstitutunu və M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutunu bitirib. İki kitab müəllifidir. Hazırda Abşeron rayonunun Mehdiabad qəsəbəsində yaşayır.



**Hüseynov Xosrov Avdıhüseyn oğlu.** 1947-ci ildə anadan olub, orta məktəbi qızıl medalla, Azərbaycan Dövlət Universitetinin jurnalistika fakultəsini fərqlənmə diplomu ilə bitirib, uzun illər Böyük Qaraqoyunlu kənd orta məktəbinin direktoru və "Vardenis" qəzetinin məsul katibi vəzifələrində çalışıb. Hazırda Xanlar rayon İH başçısının Mirzik kəndi üzrə səlahiyyətli nümayəndəsidir.



**Quliyev Tapdıq Fərhad oğlu.** 1958-ci ildə anadan olub, H.Zərdabi adına Gəncə Dövlət Pedoqoji İnstitutunu bitirib. 1988-ci ildə başlayan milli-azadlıq hərəkatının fə-

allarından, müstəqil demokratik mətbuatın əsasını qoyanlardan, "Azadlıq" qəzetinin yaradıcılarından biridir. Azərbaycan Respublikası Prezidentinin aparatında və "Turan" İnformasiya Agentliyində məsul vəzifələr tutub. Hazırda "Amerikanın səsi" radiosunun Azərbaycandakı təmsilçisidir.

**P.S.** *Böyük Qaraqoyunlunun tarixi, mərd kişiləri, şəhidlik zirvəsinə yüksəlmiş qeyrətli övladları, yurdcanlı orta və gənc nəsil ziyalıları, təəssübkeş iş adamları haqqında daha ətraflı məlumatla bu kitabın "Orda bir kənd var uzaqda..." sərlövhəli bölümündə tanış ola bilərsiniz.*

## BÖYÜK MƏZRƏ

Göyçə gölünün şərqində, Basarkeçərdən (Vardenis şəhəri) 5 kilometr şimalda, dəniz səviyyəsindən 1969 metr yüksəklikdə olan düzənlik bir ərazidə yerləşən bu kəndin ərazisindəki XII əsrə aid məzarlıqda 1988-ci ilə qədər toxunulmamış qalan qəbirüstü kitabələr; eləcə də alban mədəniyyəti nümunəsi olduğu şübhə doğurmayan və üzərində konkret tarix- "881-ci il" sözləri həkk olunmuş abidə oğuz türkünün Böyük Məzrədə məskunlaşmasının azı 1500 illik tarixindən xəbər verən maddi sübutlardır. 1555-ci ilə dair sənədlərdə Böyük Məzrə kəndi Səfəvi Azərbaycan dövlətinin Qarabağ (Gəncə) bəylərbəyliyinin inzibati vahidlərindən biri kimi səciyyələndirilir. 1578-ci ildə Sultan III Murad səfəviləri yenərək Göyçə hövzəsinin şərqindəki bir neçə kəndə nəzarət imkanı əldə etsə də, 1590-cı ildə tərtib olunmuş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndən bəlli olur ki, Böyük Məzrə osmanlıların nəzarət dairəsinə düşməmişdir. 1723-cü ildə isə növbəti Səfəvi-Osmanlı qarşıdurması səfəvilərin Göyçə hövzəsini bütünlüklə itirməsi ilə nəticələnmiş və osmanlıların tətbiq etdiyi yeni inzibati bölgüyə əsasən Göyçə hövzəsində 4 nahiyə təşkil edilmişdir ki, bunlardan biri də inzibati mərkəzi Böyük Məzrə kəndi olmaqla Məzrəə nahiyəsi adlandırılmışdır. 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 15-ci səhifəsində Məzrə kəndinin sultan xəzinəsinə illik vergisinin 8795 ağça həcmində müəyyənləşdirildiyi barədə qeyd aparılmışdır.

1826-1828-ci illər Rusiya-İran, Türkiyə-Rusiya müharibələri zamanı Böyük Məzrəyə ciddi ziyan dəyməmiş və kəndin adı yeni yaradılan erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı sayılan 59 kəndin İ. Şopen tərəfindən tətrtib olunmuş siyahısında 50-ci sırada yer almışdır. Erməni tarixçisi Z. Korkodyan isə birmənalı şəkildə göstərir ki, Göyçənin ən iri yaşayış məntəqələrindən

olan Böyük Məzrə kəndi XIX əsrin 90-cı illərinə qədər sırf türk kəndi olmuşdur. Belə ki, rəsmi statistikaya görə burada 1831-ci ildə 593, 1873-cü ildə 956 türk yaşamışdır. 1897-ci ildə isə kəndin 1370 nəfər türk, 124 nəfər erməni sakini varmış. 1914-cü ildə bu göstərici müvafiq olaraq 1900 və 234 nəfər həddinə qədər artmışdı. 1918-ci ilin noyabr-dekabr qırğınları zamanı kənd müvəqqəti olaraq boşaldılmış, 1919-cu ilin aprel qırğınları zamanı isə kəndin türk əhalisi sonuncu nəfərinə qədər qovulmuş və həmin ilin yayında buraya Türkiyənin Alaşgerd vilayətindən erməni qaçqınlar gətirilmişdir. 1922-ci ildə Böyük Məzrənin əzəli sahiblərinin dördən biri, təxminən 572 türk öz yurduna qayıtmışdır. 1931-ci ildə kəndin 1199 nəfər erməni, 867 nəfər türk əhalisi olmuşdur. 1979-cu il siyahıyaalınmasının nəticələrinə görə, Böyük Məzrənin türk əhalisinin sayı 2469 nəfər idi. 1988-ci il noyabrın 24-dən dekabrın 6-na qədər "Krunk"un silahlı dəstələrinin hücumuna məruz qalan Böyük Məzrə türkləri çox böyük çətinliklə qarlı dağ aşırımları ilə Azərbaycana keçmişlər. Hadisələr zamanı kəndin iki sakini- 1932-ci il təvəllüdlü **Əvəz Məhəmməd oğlu Orucov** və 1934-cü il təvəllüdlü **Tariyel Əhməd oğlu Əhmədov** milli münaqişə zəminində aldıqları xəsarətdən vəfat etmiş, əhalinin varidatı rəsmi dairələrin fitvası ilə talan edilmişdir. Talanlara Böyük Məzrədə doğulub böyümüş, 1988-ci ildə Vardenis rayon Daxili İşlər İdarəsinin rəisi işləyən Boxyan şəxsən rəhbərlik etmişdir. Ermənistan Respublikası Ali Sovetinin 9 aprel 1991-ci il tarixli qərarı ilə Böyük Məzrə toponimi ləğv edilərək, kənd "Mets Masrik" adlandırılmışdır.

***Böyük Məzrənin ünlü yetirmələri:***

**Əliyev Mədəd Ağamalı oğlu.** Basarkeçər rayonunun təhsil sisteminin inkişafında müstəsna xidmətlər göstərmiş, Ermənistan Xalq Maarif Komissarlığının 22 noyabr 1940-cı il tarixli qərarı ilə "Ermənistan SSR- in əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür.

**Hacıyev Mahmud Qəhrəman oğlu.** II Dünya müharibəsindən qayıtdıqdan sonra bütün həyatını gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş, uzun illər Böyük Məzrə kənd orta məktəbinin direktoru olmuş, Ermənistan SSR Ali Sovetinin 22 noyabr 1950-ci il tarixli qərarı ilə "Əməkdar müəllim" adına layiq görülmüşdür. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşmışdır.

**Abbasov Nəbi.** Uzun illər təsərrüfat rəhbəri olmuş, partiya-sovet orqanlarında məsul vəzifələrdə çalışmış, 1969-1975-ci illərdə Basarkeçər rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri seçilmişdir. 1976-cı ildə milli zəmində təqiblərə məruz qalaraq Bakıya köçmüş, Bakı Məişət Kondensionerləri EİB-nin kadrlar idarəsinin rəisi olmuşdur.

**Mirzəyev Mənsur.** Uzun illər Basarkeçər rayonunun hüquq-mühafizə orqanlarında çalışmış, türk millətçisi imici ilə tanınmışdır. 1988-ci il hadisələri zamanı "Krunk" o zaman rayon prokurorunun müavini işləyən Mənsur müəllimə qiyabi ölüm hökmü çıxarsa da, o rayondan sağ-salamat çıxaraq Gəncədə məskunlaşmış, az müddət sonra Dağlıq Qarabağda Volskinin rəhbərliyi ilə fəaliyyət göstərən Xüsusi Komitənin müstəntiqlər qrupuna daxil edilmiş, Şuşa rayon prokurorluğunda mühüm işlər üzrə müstəntiq olmuş, bir neçə dəfə ermənilərin pusqusuna düşərək yaralansa da, son ana qədər Qarabağı tərk etməmişdir.

**Köçəriyev Teyyub.** Uzun illər Basarkeçər rayon Dövlət Avtomobil Müfəttişliyinin rəisi olmuş, türk millətçisi imici ilə tanınmışdır. 1988-ci il deportasiyasından sonra Kəpəz rayon Dövlət Avtomobil Müfəttişliyində fəaliyyət göstərmiş, Xüsusi Təyinatlı Milis Dəstəsinin tərkibində dəfələrlə Dağlıq Qarabağda döyüşlərin iştirakçısı olmuş, Gəncə şəhərində vəfat etmişdir.

**Abdullayev Əbdüləli Yaqub oğlu.** Fizika-riyaziyyat elmləri doktorudur.

**Veyisov Kamil Veyis oğlu.** Geologiya-minerologiya elmləri namizədidir.

**Qəhrəmanov İsmixan İsmayıl oğlu.** Tibb elmləri doktoru, professordur.



**Qəhrəmanov Rasim.** 1985-1988-ci illərdə Vardenis rayon Komsomol Komitəsinin birinci katibi olmuş, millətçi mövqeyinə görə "Krunk" ona qiyabi ölüm hökmü kəsmişdir. 1988-ci ildə Bakıya köçdükdən sonra Nəsimi rayonunda sahə həkimi, M.Topçubaşov adına Eksperimental Cərrahiyyə İnstitutunun baş həkimi işləmiş, paralel olaraq elmi fəaliyyətlə məşğul olmuşdur. Tibb elmləri namizədi, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Nüvə-Maqnit Rezonans Mərkəzinin direktorudur.

**Quliyev Telman Dadaş oğlu.** Kimya elmləri namizədidir.

**Qurbanov Qurban Həvil oğlu.** Tarix elmləri doktoru, professordur.

**Əhmədov Ələddin İslam oğlu.** Kimya elmləri doktoru, professor, əməkdar elm xadimidir.

**Əliyev Nağı Ağaməli oğlu.** Kənd təsərrüfatı elmləri namizədidir.

**Hacıyev Aydın Əli oğlu.** Biologiya elmləri namizədidir.

**Hacıyev Vidadi Əbdüləli oğlu.** Fizika-riyaziyyat elmləri namizədidir.

**Hacıyev Qəhrəman Mahmud oğlu.** Tibb elmləri doktorudur.

**Hacıyev Zahid İsmayıl oğlu.** Fizika-riyaziyyat elmləri namizədidir.

**Hacıyev Faiq Şıxəli oğlu.** Texniki elmlər namizədidir.

**Hacıyev Fərhad Şıxəli oğlu.** Texniki elmlər namizədidir.

**Hacıyev Cəmil Əli oğlu.** Biologiya elmləri namizədidir.

**Mahmudov Suliddin Abuzər oğlu.** 1946-cı ildə anadan olmuş, Gəncə Kənd Təsərrüfatı Akademiyasını, Timiryazev adına Moskva Kənd Təsərrüfatı Akademiyasının aspiranturasını və Bakı Ali Partiya Məktəbini bitirmiş, Ağsu rayon Aqrosənaye İstehsalat Birliyinin rəisi olmuşdur. Kənd təsərrüfatı elmləri namizədi, Xanlar rayon "Aqrokimya" Birliyinin rəisidir.

**Zamanov Nurəddin Dostməli oğlu.** Coğrafiya elmləri namizədidir.



**İsgəndərov Fərhad.** Uzun illər partiya və sovet orqanlarında çalışmış, "Sovet Ermənistanı" qəzetinin Göyçə mahalı üzrə xüsusi müxbiri işləmiş, 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşmış, şəhər qəzetinin redaktoru, mətbəənin direktoru, Gəncə şəhər İcra Hakimiyyətində qaçqınlarla iş şöbəsinin müdiri olmuşdur.

## BUĞATƏPƏSİ

(Buğdayitəpə)

Erməni tarixçiləri bu kəndin də mövcudluğunu şübhə altına salmaq yönündə ciddi əmək sərf ediblər. Amma... Əlahəzrət fakt bütün istəklərdən yüksəkdədir və amansız ittihamçıdır. Nə deyir faktlar bizə? Deyir ki, rusların ermənilər üçün dövlət təşkil etmək niyyətini ciddi etirazla qarşılayan və ermənilərin Göyçəyə hərbi müdaxiləsinə qarşı ciddi müqavimət göstərən kəndlər sırasında Buğatəpəsi deyilən bir oba da olub və... Ermənilər bu döyüşkən obanı rusların hərbi dəstəyi ilə yendikdən sonra orada daşı daş üstə qoymayıblar. Bu vandalizmin izlərini gizlətmək üçün ciddi tədbirlər görülsə də, tarix öz sözünü deyib: bu cinayət bir kəlmə ilə olsa da diqqətə düşüb. İ.Şopen 1826-1829-cu illərdə baş vermiş Rusiya-İran, Türkiyə-Rusiya müharibələri zamanı yerlə-yeksan edilmiş 108 kənddən 67-sinin siyahısını tərtib edib və bu faciəvi siyahının elə birinci sırasında BUĞATƏPƏSİ kəndinin adı yer alıb. Yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalında o zaman yaşayış üçün yararlı sayılan 59 kəndin İ.Şopen tərəfindən 1831-ci ildə tərtib edilmiş siyahısında və ondan sonrakı dövrlərə aid sənədlərdə Buğatəpəsinin adına rast gəlinməməsi isə kənd əhalisinin kütləvi şəkildə məhv edilməsindən xəbər verir. Bu qənaət də səbəbsiz deyil. Belə ki, Göyçədə dağıdılmış kəndlərdən hansının əhalisinin cüzi bir hissəsi belə sağ qalıbsa, həmin kəndlər XIX əsrin ortalarında bərpa olunub və bu tarixi reallıq 1873-cü ilə dair rəsmi sənədlərdə öz əksini tapıb. Buğatəpəsi kimi qədim bir kəndin yenidən bərpasına təşəbbüs göstərilməməsi isə ermənilərin bu kənddə törətdikləri cinayətin miqy-

asını təsəvvür etmək üçün yetərlidir. Bəs bu şəhid obanın konkret coğrafi koordinantları necədir? Bu suala qəti şəkildə cavab vermək mümkün olmasa da, hər halda tarixi qaynaqlar təxmini mülahizələrə əsas verir. Belə ki, 1723-cü ildə Göyçə hövzəsi bütünlüklə osmanlıların nəzarətinə keçdikdən 5 il sonra Əhməd şah Mhmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış və hazırda Türkiyə Başbakanlıq Arxivində saxlanan "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində aparılmış qeydlərdə bu kənd "Buğdayitəpə" kimi təqdim olunur və Göyçə nahiyəsinin inzibati bölgüsünə daxil olan bu kəndin sultan xəzinəsinə illik vergisinin 2.110 ağça həcmində müəyyənləşdirildiyi göstərilir. Bu sənəddəki toponimlərin ardıcıllığına və həmin siyahılarda adları yer almış mövcud yaşayış məntəqələrinin coğrafi koordinantlarına diqqət yetirəndə Buğatəpəsinin Kəməndbulaq (Ağzıbir) və Dəlican (əsl adı Dəli Becan olan bu kənd də sonradan yer üzündən silinib) kəndləri ilə həmsərd olduğu barədə qənaət hasil olur. 1930-cu ildə erməni arxeoloqları məhz bu ərazidə- Ağzıbirdən 3-4 km. cənub-qərbdə qədim bir qalanın bünövrə qalıqlarını aşkarlayıblar və onu eramızdan əvvəlki III-II əsrlərə aid ediblər. XVIII əsr müəllifi Simon İrəvanlı da Göyçə hövzəsindəki tarixi mədəniyyət abidələrinə dair qeydlərində Göyəm silsiləsindəki Acdağ yüksəkliyinə yaxın bir ərazidə yerləşmiş Buğdayitəpə qalasından söhbət açaraq bildirir ki, buradan baxanda Kəməndbulaq və "Delican" kəndləri ovuc içindəki kimi görünür. Deməli, Buğatəpəsi kəndinin izlərini də məhz burada, Göyçə gölünün şimal-qərbində, sahildən təxminən 8-10 kilometr cənubdakı dağ silsiləsinin başlanğıcındakı yamacda axtarmaq gərəkdir ki, həmin ərazi də məhz erməni arxeoloqlarının aşkarladığı qədim qalanın xərabəliklərinin koordinantları ilə uzlaşır. Bu reallıq isə Buğatəpəsinin yaşı barədə konkret mülahizələrə, onun oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 2300 illik tarixindən söz açmağa imkan verir.

## BUZXANA

Göyçənin söz yaddaşında son deportasiyaya qədər yaşarı olan Buzxana toponimi də uzun illər mübahisə predmeti olmuşdur. Erməni tarixşünasları israrla belə bir kəndin olmadığını sübuta yetirməyə çalışmışlar. Və həmişə olduğu kimi bu iddia Azərbaycan tarixşünaslarının ölü sükutu ilə qarşılandığından, belə bir təəssürat yaranmışdı ki, ermənilər öz iddialarında haqlıdırlar. Nəhayət, Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun əməkdaşı Hüsaməddin Qaramanlının tədqiqatları bu mübahisələrə son qoydu. Məhz bu alimin gərgin zəhməti sayəsində geniş auditoriyaya təqdim olunan 1728-ci il tarixli "İrəvan əyaləti-

nin icmal dəftəri" Buzxana kəndi ilə bağlı həqiqətləri üzə çıxardı. Məlum oldu ki, XVIII əsrin əvvəllərində osmanlıların tətbiq etdiyi inzibati bölgüyə əsasən Göyçə nahiyəsindəki yaşayış məskənlərindən biri kimi səciyyələndirilən Buzxana adlı qədim oğuz yurdu Göyəm silsiləsindəki Buzluca yüksəkliyində yerləşirmiş və nahiyənin böyük inzibati vahidlərindən olmasa da, hər halda kiçik də deyilmiş. Bunun belə olduğunu görmək üçünsə adi fakta diqqət yetirmək kifayətdir: müasir Göl (Liçk) kəndinin o dövrdə illik vergisi 3823 ağça olduğu halda, Buzxananın sultan xəzinəsinə illik ödənci 5.407 ağça həcmində müəyyənləşdirilibmiş. Kəndin osmanlıların geri çəkilməsindən sonrakı taleyi barədə isə səhih məlumatlar yoxdur. Hər halda nə 1826-1829-cu illərdə baş vermiş Rusiya-İran, Türkiyə-Rusiya müharibələri zamanı erməni-rus hərbi birləşmələrinin Göyçədə yerlə-yeksan etdiyi 108 kənddən 67-nin, nə də o zaman yaşayış üçün yararlı sayılan 59 kəndin İ. Şopen tərəfindən tərtib edilmiş siyahılarında Buzxana kəndinin adına rast gəlinmir. Və bu tarixi reallığa istinadən qəti şəkildə söyləmək olar ki, XIX əsrin əvvəllərində erməni-rus hərbi biləşmələri tərəfindən yerlə-yeksan edilərək, İ.Şopenin siyahılarında "adları unudulmuş ölü kəndlər" qrafasında umumiləşdirilmiş qədim türk yurdlarından biri də məhz Buzxanadır.

## CACAKLI
(Azadkaha)

Göyçə gölünün cənub-qərbində, Dəliqardaşdan (indiki Kamo rayonunun Saruxan kəndi) təxminən 15 kilometr cənub-qərbdə, Göyəm silsiləsindəki Acdağ zirvəsinin ətəyindəki qayalıqlarda oyulmuş mağara - evlərin xərabələrini bu yazının müəllifi 1986-cı ilin yayında şəxsən seyr edib. O vaxt bizə- İrəvandan gəlmiş müxbirlərə yaylaq yerində bələdçilik edən Saruxan sovxozunun komsomol katibi bu qəribə xərabəliklərə diqqətimi görüb burada lap qədim insanların yaşadığını demiş, yaşlı ermənilərin bu yerləri "azad kahalar", bəzilərinin isə "cacaklu" adlandırdığını söyləmişdi. Mənim bu ifadəni "çiçəkli" kimi qəbul etməyim isə komsomolun ciddi etirazına səbəb oldu və o, bu toponimin məhz "Cacaklu" olmasında israr göstərdi, amma bu ifadənin nəyi ehtiva etdiyini izah edə bilmədi. Düzü, o anda bu toponimə o qədər də diqqət yetirməmişdim. Mənim üçün maraqlı olan o xərabəlikdəki mağara-evlərin memarlıq üslubu və ümumən o yurd yerinin qalayabənzər formada salınması idi. Təəssüf ki, o zaman bu maraq araşdırma həvəsi səviyyəsinə qədər yüksəlmədi. O zaman Türkiyə

əsilli o ermənininin dilindən çıxmış "Cacaklu" adı da mənə heç nə demədi. "Cacaklu" deyilən o yurd yerini bir də 15 ildən sonra, XVII əsr səlnaməçi-tarixçisi Xivəli Əbülqazi Xanın "Şəcəreyi tərakimə"sində oğuz ellərinin padşahı Xan Qazanın anasının adının CACAKLI olduğu barədə tarixi qeydlərlə tanış olduqdan sonra xatırladım və... Anladım ki, "Cacaklu" adı Göyçəyə XIX əsrin əvvəllərində gəlmiş ermənilərin o zamanlar türklərdən eşitdikləri "CACAKLI" toponiminin sadəcə erməni ağzına uyğunlaşdırılmış formasından savayı bir şey deyilmiş...

Sən demə, yazılı mənbələrdə də bu qədim oğuz yurdu barədə məlumatlar kifayət qədərmiş. 1555-ci ilə dair sənədlərdə Səfəvi Azərbaycan dövlətinin Çuxur-Səd bəylərbəyliyinə daxil olan inzibati vahidlərdən biri məhz Cacaklı Azadkahası kimi səciyyələndirilir. 1723-cü ildə Göyçə hövzəsi bütünlüklə osmanlıların nəzarətinə keçdikdən sonra buradakı türk obaları inzibati idarəçilik baxımından 4 nahiyədə qruplaşdırılıb: gölün şimal-qərbindəki və qərbindəki kəndlər Dərəçiçək, cənub-qərb sahil boyunca sıralanmış kəndlər Göyçə, şimal-şərq sahilboyundakı ərazilər və şərq sahildəki kəndlərin bir qismi Məzrəə, hövzənin şərq hüdudlarındakı bir neçə kənd isə Zarzəmin nahiyəsinin inzibati ərazisinə daxil olan yaşayış məntəqələri kimi təsniflənib. 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində məhz Göyçə nahiyəsindəki kəndlərin siyahısı verilib və bu sırada Azadkaha kəndinin də adı yer alıb. Siyahıda Azadkaha adının məhz Dəliqardaşdan sonra gəlməsi həmin kəndin ermənilər tərəfindən əski adı ilə- Cacaklı adı ilə təqdim olunan qədim yurd yerimiz olduğuna şübhə yeri qoymur. Həmin sənəddən o da bəlli olur ki, 1728-ci ildə Cacaklının sultan xəzinəsinə illik vergisi 8771 ağça həcmində müəyyənləşdirilibmiş. Bu isə o deməkdir ki, XVIII əsrin əvvəllərində Cacaklı ümumən nahiyənin ən iri vergi ödəyiciləri sırasında 7-ci sırada dayanırmış, yəni ümumən nahiyənin ən iri və ən abad kəndlərindən biri imiş.

1826-1829-cu illərdə baş vermiş İran-Rusiya, Rusiya-Türkiyə müharibələrinin gedişində Göyçədə dağıdılmış, eləcə də yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalında o zaman yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahılarında isə Cacaklı Azadkahası, yaxud da sadəcə Azadkaha adlarına rast gəlinmir. "İrəvan əyalətinin icmal dəftəri"nin tərtibi ilə rusların başladığı 1826-1829-cu illər müharibələri arasındakı düz bir əsrlik (1728-1826) müddət ərzində konkret olaraq Göyçə hövzəsində bütöv yurd yerlərinin məhvinə səbəb ola biləcək heç bir ekstremal hadisə- təbii fəlakət, epidemiya, yaxud da kütləvi qırğınlarla müşaiyət olunan lokal müharibə faktı

qeydə alınmayıb. Deməli, bu bir əsr ərzində Cacaklı kimi iri və abad bir kəndin dağılmasını, yaxud könüllü tərk edilməsini şərtləndirən amillərdən danışmağa belə dəyməz. Bu isə o deməkdir ki, Cacaklının şəhidliyinin tarixini və "adları unudulmuş ölü kəndlər" siyahısına düşməsinin səbəblərini məhz 1826-1829-cu illərdə axtarmaq lazımdır.

## CANƏHMƏD

Göyçə gölünün şərq sahilində, indiki Vardenis şəhərindən 11 kilometr şimalda, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşən bu yurdun oğuz türkü tərəfindən binələşdirilməsinin 1000-1500 illik tarixi elə bu kəndin özündəki maddi dəlillərlə təsdiqlənir. Belə ki, Canəhməd kəndinin müasir coğrafi mövqeyindən təxminən 500-600 metr şərqdəki qədim məzarlıqda XX əsrin 70-ci illərinə qədər toxunulmamış qalan, 1977-ci ildə isə o zaman Vardenis RPK-nin I katibi olan Nuricanyanın göstərişi və birbaşa rəhbərliyi ilə Vardenis qəsəbəsindəki kilsənin həyətində yaradılmış açıq muzeyə aparılan qəbirüstü kitabələrin eramızın V-VI əsrlərinə aid olduğu Ermənistan Tarixi Abidələrin Qorunması və Bərpası üzrə Dövlət Komitəsinin əməkdaşları tərəfindən rəsmən təsdiq olunmuş faktdır.

1826-1829-cu illərdə baş vermiş İran-Rusiya, Rusiya-Türkiyə müharibələrinin gedişində Göyçə hövzəsində yerlə-yeksan edilmiş 108 yaşayış məntəqəsindən 67-sinin, eləcə də yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı sayılan 59 kəndin İ.Şopen tərəfindən tərtib edilmiş siyahılarında Canəhməd kəndinin adına rast gəlinmir. Erməni tarixçisi Z. Korkodyanın "Sovet Ermənistanının əhalisi 100 ildə: 1831-1931" kitabında rəsmi mənbələrə istinadən təqdim etdiyi məlumata görə, 1873-cü ildə Canəhməd kəndində 245 nəfər türk yaşamışdır. Bu faktlara istinadən qətiyyətlə demək olar ki, rusların istəyi və dəstəyi ilə yaradılmış erməni vilayətinin rəhbərləri XIX əsrin əvvəllərində viran qoyduqları 108 kənddən biri olan Canəhmədin bərpasında maraqlı olmasalar da, əzəli sahibləri onu yenidən dirçəltməyə müvəffəq olmuşlar. 1914-cü ilin rəsmi sənədlərinə görə, birinci dünya müharibəsi ərəfəsində Canəhmədin əhalisinin sayı 523 nəfər olmuşdur. 1919-cu il qətliamları zamanı kənd bütünlüklə dağıdılmışdır. 1922-ci ildə doğma yurda qayıdan canəhmədlilərin sayı 194 nəfər, yəni 1914-cü ildəki göstəricinin üçdən biri həddində olmuşdur. Sonrakı illərdə kənd əhalisinin sayı artaraq 1939-cu ildə 339, 1959-cu ildə 337,1979-cu ilin rəsmi siyahıyaalınmasının nəticələrinə görə isə 699

nəfər olmuşdur. 1968-ci ildə Canəhməd toponimi "Günəşli" adı ilə əvəzlənsə də, Canəhməd sona qədər sırf türk kəndi olaraq qalırdı. 1988-ci ildə kənd bütünlüklə deportasiya edilmişdir. Ermənisdan parlamentinin 9 aprel 1991-ci il tarixli qərarı ilə Günəşli adı da ləğv edilmiş və kənd "Kutakan" adlandırılmışdır.

***Canəhmədin qəhrəman oğlu:***

**Səyyadov Mehman Qəzənfər oğlu.** 1972-ci ildə anadan olub. 1988-ci il deportasiyasından sonra ailəsi ilə birlikdə Xanlar rayonunun Əzizbəyov kəndində məskunlaşıb. Xanlarda yaranan ilk özünümüdafiə batolyonunun ilk könüllülərindən biridir. Şuşa rayonunun Nəbilər kəndi uğrunda döyüşlərdə misilsiz rəşadət göstərib. Şuşa uğrunda döyüşlərdə qəhrəmancasına həlak olub. Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

## CİL

(Ərkəcilli-Ərgəvil)

Göyçə gölünün şərqində, Krasnoselo rayon mərkəzindən (indiki Çambarak qəsəbəsi) 28 kilometr cənub-şərqdə, sahilə yaxın bir ərazidə yerləşən bu kəndin oğuz türkü tərəfindən binələşdirilmə tarixinin qədimiliyini etiraf etsələr də, erməni alimləri bu tarixi mümkün qədər yaxın zamana çəkməyə müntəzəm cəhdlər etmişlər. Və bu cəhdlər o qədər gərgin və çılğın olmuşdur ki, erməni tarixşünaslığı hətta özü-özünü təkzib edən materiallar dərc etdirdiyinin fərqində olmamışdır. Məsələn: Erməni Sovet Ensiklopediyasında (IX cild, səhifə 514) Cil kəndinin əsasının XII əsrdə qoyulduğu yazılsa da, Tarixi Abidələrin Qorunması və Bərpası üzrə Dövlət Komitəsinin rəsmi bülletenində (1965-ci il nəşri, səhifə 35) Cil kəndi ərazisindəki maddi mədəniyyət nümunələrinin eramızdan əvvəlki dövrə mənsubluğu birmənalı şəkildə qeyd olunur. Diqqət yetirdiyimiz ikinci məlumat həqiqəti, birinci isə ermənilərin qədim bir türk obasının tarixini öz xeyirlərinə təhrif etmək cəhdini əks etdirir. Bu isə o deməkdir ki, Cil kəndi Göyçənin ən qədim yaşayış məskənlərindən biridir və onun binələşmə tarixinin izlərini eramızdan əvvəlki dövrlərdə axtarmaq lazım gəlir. 1555-ci ilə dair sənədlərdə kənd Ərkəcilli (çox güman ki, bu toponim "ərkəc"+ "elli" leksemlərinin birləşməsindən yaranaraq, "tərs ərənlərin eli", yaxud da "ərkəclərin yurdu" anlamına gəlirmiş) kimi təqdim olunur və Səfəvi Azərbaycan dövlətinin Qarabağ (Gəncə) bəylərbəyliyi-

nin inzibati bölgüsünə daxil olan Göyçə mahalı kəndlərindən biri kimi xarakterizə edilir. 1723-cü ildə osmanlılar Göyçə hövzəsinə tam nəzarət imkanı qazandıqdan sonra tətbiq edilmiş bölgüyə əsasən Cil kəndi İrəvan əyalətinin Dərəçiçək nahiyəsinin inzibati vahidləri sırasına daxil edilmişdir ki, bu reallıq da rəsmi mənbələrdə əksini tapmışdır. Belə ki, 12 aprel 1728-ci ildə Şah Əhməd Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 113-cü səhifəsində bu kənd "Zod kəndi yaxınlığındakı Məzrəə nahiyəsi ilə sərhəd bölgədə yerləşən Ərgəvil kəndi" kimi təsniflənir. Həmin vaxt Məzrəə nahiyəsinin sərhədlərinin cənubda Qazanlıqdərədən (Gözəldərə) başlayaraq şimalda Ərdanuca (Ardanış) qədər olan böyük bir arealı əhatə etməsi reallığını nəzərə aldıqda söhbətin məhz Ərkəcilli kəndindən, 1828-ci ildən sonra İ. Şopenin məlumatsızlığı səbəbiylə ermənilər tərəfindən təhrif edilərək Cil kəndi kimi təqdim etdilən yurd yerindən getdiyinə şübhə yeri qalmır. Həmin sənəddən o da bəlli olur ki, o zaman Ərgəvil kəndi timar qismində, yəni dövlət səlahiyyətlilərinin gəlirlərini təmin edən vergi ödəyicisi qismində **Əhməd Osman oğlu** adlı şəxsin mülkiyyətinə verilibmiş və kəndin illik vergisi 5675 ağça həcmində imiş. 1828-ci ildə yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə veriləndə qədər Cilin sırf türk kəndi olmasını İ.Şopenin siyahıları da təsdiqləyir. Onun verdiyi məlumata görə, 1831-ci ildə Cildə 265 nəfər türk yaşayırmış. Erməni tarixçisi Z. Korkodyanın rəsmi sənədlərə istinadən verdiyi məlumata görə, bu göstərici 1886-cı ildə 587, 1904-cü ildə 975, 1914-cü ildə 1035 nəfər olmuşdur. 1919-cu ilin martında Gil üç tərəfdən- Basarkeçər, Çubuxlu və göl tərəfdən hücuma məruz qalmış, təxminən 12 gün davam edən şiddətli döyüşlərdən sonra əhali kəndi tərk edərək Şahdağ aşırımı ilə Azərbaycanın Gədəbəy rayonuna keçmiş, boş qalan kənd isə erməni quldurları tərəfindən talan edilərək yandırılmışdır. 1922-ci ildə kəndə qayıdanların sayı 697 nəfər, yəni 1914-cü ildəki əhalinin yarısı həddində olmuşdur. 1930-cu ildə sovetlərin tətbiq etdiyi yeni inzibati strukturlaşmaya görə Cil kəndi Basarkeçər rayonunun inzibati ərazisinə daxil edilmiş; 1937-ci ildə isə yeni yaradılmış Krasnoselo rayonunun inzibati idarəçiliyinə verilmişdir. 1931-ci ildə kənd əhalisinin sayı 1041, 1979-cu il siyahıyaalınmasının nəticələrinə görə isə 1490 nəfər idi. 1988-ci ildə Ermənistan dövləti tərəfindən həyata keçirilən soyqırımı zamanı kəndin bir sakini - 1911-ci il təvəllüdlü **Mustafayev İbrahim Məmməd oğlu** döyülərək qətlə yetirilmiş, 1800 nəfər əhali məcburiyyət qarşısında qarlı dağ aşırımları ilə Azərbaycan ərazisinə keçmişdir. Kəndin adının dəyişdirilməsi barədə məlumat yoxdur.

*Cil kəndinin ünlü yetirmələri:*

**Əli Mazanoğlu.** 1890-cı ildə anadan olmuş, Aşıq Nəcəf, Aşıq Əsəd kimi kamil saz-söz ustaları ilə dostluq etmiş, mahalda ən mahir sənətkarlardan biri kimi şöhrətlənmişdir. 1905-ci il qırğınları zamanı ermənilərə əsir düşmüş, ağlasığmaz cəsarət hesabına düşmənin əlindən qaçmağa müvəffəq olmuşdur. 1918-ci ilin qışında ermənilərə qarşı döyüşlərdə xüsusi ilə fərqlənmişdir. Ədəbi təxəllüsü Əli Xələflidir. 1974-cü ildə doğma kəndində vəfat etmişdir.

**Aşıq Yunis -Yunis Məmməd oğlu İbrahimov.** 1988-ci ildə anadan olmuş, həmkəndlisi Aşıq Qasıma şəyirdlik etmişdir. 1918-ci il Göyçə qırğınları zamanı Cilin müqavimət dəstəsinin tərkibində daşnaklara qarşı vuruşmuş, yaralanmışdır. 6 kamil aşıq yetişdirmiş bu qüdrətli saz-söz ustası 1974-cü ildə doğma kəndlərində vəfat etmişdir.

**Aşıq Müseyib - Müseyib Qasım oğlu Nəsibov.** 1909-cu ildə anadan olmuş, atası Aşıq Qasıma şəyirdlik etmişdir. Onun "Qaragöz" mahnısı Azərbaycan Milli Radiosunun "Qızıl fond"unda saxlanılır. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşan qocaman sənətkar 1992-ci ildə vəfat etmişdir.

**İbrahimov Oruc Həmzə oğlu.** 1908-ci ildə anadan olmuş, 1934-cü ildən 1961-ci ilə qədər Cil, Ağbulaq, Dərə kəndlərində təsərrüfatlara rəhbərlik etmiş, 1961-ci ildən ömrünün sonuna- 1984-cü ilə qədər poçt rəisi olmuşdur.

**Tağıyev Haqverdi Əli oğlu.** 1916-cı ildə anadan olmuş, 22 yaşında Krasnoselo rayon Komsomol Komitəsinin birinci katibi seçilmiş, 1940-1947-ci illərdə Ermənistan LKGİ MK plenumunun üzvü olmuş, türk millətçisi kimi tanındığı üçün sonradan ideoloji-siyasi işlərdən kənarlaşdırılmış, yalnız təsərrüfat rəhbəri kimi fəaliyyət göstərmişdir. 1988-ci il hadisələri zamanı qəfil ürəktutmasından vəfat etmişdir.



**Mazanov Abbas Əli oğlu.** 1929-cu ildə anadan olmuş, Qazax Pedoqoji Texnikumunu, Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu, Bakı Ali Partiya Məktəbini bitirmiş, 1962-1975 və 1983-1988-ci illərdə Cil kolxozuna rəhbərlik etmiş, 1975-1983-cü illərdə Krasnoselo rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri olmuşdur. 1988-ci il deportasiyasından sonra Xanlar rayonunun Şəhriyar kəndində məskunlaşmış, Xanlar rayon Aqrar Sənaye Birliyi sədrinin müavini vəzifəsində işləmişdir. Ədəbi təxəllüsü Abbas Vəfadağlıdır. 2 kitab müəlifi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.



**Xələfov Abuzər Alı oğlu.** 1931-ci il dekabrın 25-də anadan olmuş, BDU-nu bitirmişdir. Azərbaycan kitabxanaşünaslıq elminin banilərindən biri, bu sahədə yeganə elmlər doktorudur. 25 il BDU-nun kitabxanaçılıq fakultəsinin dekanı, 36 il kafedra müdiri olmuşdur. 12 monoqrafiyanın, 120 elmi əsərin müəllifi, "Ali məktəb əlaçısı", "Əməkdar mədəniyyət işçisi", "Əməkdar elm xadimi", professordur. Xidmətlərinə görə 6 medal, bir ordenlə təltif edilib.

**İdris Zamanlı-İdris Abbasəli oğlu Zamanov.** 1930-cu ildə anadan olub, BDU-nun jurnalistika fakultəsini bitirib, "Sovet Ermənistanı" qəzetində, "Elm və həyat" jurnalında çalışıb, Moskvada nəşr olunan "Nedelya" qəzetinin Qafqaz üzrə müxbiri olub. 4 kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.



**Zəki İslam-Zəki İslam oğlu Yusifov.** 1939-cu ildə anadan olub, Gəncə Pedoqoji İnstitutunu, Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını və AMEA Elmi-Tədqiqat Kənd Təsərrüfatı İnstitutunun aspiranturasını bitirib, uzun illər kolxoz sədri işləyib. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşaraq sahibkarlıq fəaliyyəti ilə məşğul olmuşdur. 7 kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl qələm" mükafatı laureatıdır.

**Tağıyev Zübeyit Haqverdi oğlu.** 1940-cı ildə anadan olub, M.V.Lomonosov adına Moskva Dövlət Universitetini bitirib. 50-dən çox elmi məqalənin müəllifi, fizika-riyaziyyat elmləri doktoru, professor, Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Tibb Universitetinin kafedra müdiridir.

**Qurbanov İsa Əli oğlu.** 1940-cı il yanvarın 1-də anadan olmuş, BDU-nu bitirmişdir. Fizika-riyaziyyat elmləri doktoru, Azərbaycan MEA Tətbiqi Riyaziyyat İnstitutunun şöbə müdiridir.

**Xələfli Ayvaz Alı oğlu.** 1942-ci ildə anadan olmuş, BDU-nun fizika fakultəsini, Leninqradda Arktika Geologiya Elmi-Tədqiqat İnstitutunun aspiranturasını bitirmiş, Leninqrad Dağ-Mədən Markşeyder İşləri İnstitutunda çalışmış, 1977-ci ildə Bakıya gəlmişdir. Maqnit sahələrinin tədqiqi üzrə elmlər doktoru, AMEA Geologiya İnstitutunun laboratoriya müdiri, 35 elmi əsərin müəllifi, Nyu-York Elmlər Akademiyasının həqiqi üzvüdür.

**İbrahimov Tahir Oruc oğlu.** 1946-cı ildə anadan olmuş, BDU-nun coğrafiya fakultəsini bitirmişdir. 32 elmi əsərin müəllifi, coğrafiya elmləri namizədi, AMEA Coğrafiya İnstitutunun böyük elmi işçisidir.

**Allahverdiyev Əli Qulu oğlu.** 1952-ci il martın 22-də anadan olmuş, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu və Bakı Dövlət Universitetinin aspiranturasını bitirmişdir. İqtisad elmləri doktoru, 23 elmi əsərin müəllifi, Azərbaycan Dövlət Pedoqoji Universitetinin "İqtisadi nəzəriyyə" kafedrasının müdiridir.

**Sadıqov Misrəddin Allahverdi oğlu.** 1954-cü ildə anadan olub, BDU-nu bitirib. Fizika-riyaziyyat elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyası Riyaziyyat İnstitutunun şöbə müdiri, 44 elmi əsərin müəllifidir.

**Mazanov İlham Abbas oğlu.** 1956-cı ildə anadan olmuş, BDU-nun jurnalistika fakultəsini və Rusiya İdarəetmə Akademiyasının aspiranturasını bitirmiş, Bakı Politologiya İnstitutunda və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyində çalışmışdır. Tarix elmləri namizədi, Beynəlxalq Humanitar Yardım üzrə Azərbaycan Respublikası Komissiyasının Nazirlər Kabineti strukturundakı işçi qrupunun rəhbəridir.

**Xələfov Xələf Alı oğlu.** 1959-cu ildə anadan olmuş, Kiyev Dövlət Universitetinin "Beynəlxalq əlaqələr və beynəlxalq hüquq" fakultəsini bitirmiş, Azərbaycan SSR Daxili İşlər Nazirliyi komsomol komitəsinin katibi olmuş, SSRİ Xarici İşlər Nazirliyinin Diplomatiya Akademiyasında çalışmışdır. 1992-ci ildən Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin əməkdaşı, 1997-ci ildən Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavinidir.



**Şahvələd Çobanoğlu - Namazov Şahvələd Abutalıb oğlu.** 1969-cu ildə anadan olub, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib, demokratik mətbuatın inkişafında müstəsna xidmətlər göstərib. "Hüriyyət" qəzetinin baş redaktoru, "Günaydın" qəzetinin təsisçisi və baş redaktoru olub. Hazırda "Gündəlik Azərbaycan" qəzetinin şef-redaktorudur.

**Sadıqov Xalıqverdi Allahverdi oğlu.** 1958-ci ildə anadan olmuş, BDU-nun fizika fakültəsini bitirmişdir. Fizika-riyaziyyat elmləri namizədi, AMEA Fizika İnstitutunun elmi işçisidir.

**Sadıqova Sayalı Allahverdi qızı.** 1960-cı ildə anadan olmuş, Azərbaycan Dövlət Pedoqoji İnstitutunu və Nəsimi adına Dilçilik İnstitutunun aspiranturasını bitirmişdir. Filologiya elmləri doktoru, 40 elmi məqalənin, 1 monoqrafiyanın müəllifidir.

**Rüstəmov Fərrux Abbas oğlu.** 1961-ci ildə anadan olmuş, Azərbaycan Dövlət Pedoqoji Universitetini bitirmişdir. Pedoqoji elmlər namizədi, ADPU-nun "Ümumi pedoqogika" kafedrasının dosenti, "Şagirdlərin peşəyönümü" elmi laboratoriyasının müdiri, 15 monoqrafiyanın, 4 tədris proqramının, 100 elmi məqalənin müəllifidir.

**Rəhimov Cavanşir Əli oğlu.** 1962-ci ildə anadan olmuş, Azərbaycan Dövlət Universitetinin fizika fakultəsini və Sankt-Peterburq Dövlət Universitetinin aspiranturasını bitirmişdir. Fizika-riyaziyyat elmləri doktorudur. Sankt-Peterburq şəhərində yaşayır.

**Elyazov İsrail Şükür oğlu.** 1962-ci ildə anadan olmuş, Azərbaycan Texniki Universitetini və Moskva Texniki Universitetinin aspiranturasını bitirmişdir. 2 kitabın və 15 elmi məqalənin müəllifi, Azərbaycan Texniki Universiteti "Dəmiryolu nəqliyyatı" fakultəsinin dekan müavini, texniki elmlər namizədidir.

**Fazilə Yəhyaqızı- Hüseynova Fazilə Yəhya qızı.** 1963-cü ildə anadan olub, İrəvan Kənd Təsərrüfatı Texnikumunu və Azərbaycan Dövlət Pedoqoji Universitetinin "Tarix və dövlət hüququ" fakultəsini bitirib. 2 şer kitabının müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Beynəlxalq Universitetinin müəllimidir.

**İsgəndərov Ramiz Əziz oğlu.** Fizika-riyaziyyat elmləri namizədidir.

**Qurbanov Azad İsa oğlu.** Fizika-riyaziyyat elmləri namizədidir.

## ÇAXIRLI

Göyçə gölünün cənub-şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 2,5 kilometr cənub-qərbdə, dəniz səviyyəsindən 1963 metr yüksəklikdə yerləşən bu kənddəki VI-VII əsrlərə aid məbədin qalıqları Çaxırlının oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 1400 illik tarixinə şəhadət verən maddi sübutdur. 1826-1829-cu illərdə baş vermiş İran- Rusiya, Rusiya- Türkiyə müharibələrinin gedişində kəndə ciddi zərər dəyməsə də, Çaxırlı haqqında məlumatlarda ciddi məqsədli "yanlışlıqlara" yol verilmişdir. Belə ki, qonşu Qızılbulaq kəndi həmin vaxt erməni-rus birləşmələri tərəfindən tam mənada yerlə- yeksan edildiyi üçün əhalisinin sağ qalan hissəsi Çaxırlıya pənah gətirmişdir. Məhz bu reallıqdan yararlanan ermənilər, İ.Şopenin məlumatsızlığından istifadə edərək, onun siyahılarında Qızılbulağın "adları unudulmuş ölü kəndlər" qrafasına salınmasına, Çaxırlının isə Qızılbulaq kimi təqdim edilməsinə nail olmuşlar. Məqsəd aydındır: ermənilər bu yolla həm Göyçə hövzəsindəki tarixi

yurd yerlərinin sayını azaltmağa, eyni zamanda Qızılbulaqda törətdikləri cinayətin izlərini itirməyə çalışıblar.

Erməni alimi Z.Korkodyan isə özünün "Sovet Ermənistanının əhalisi 100 ildə: 1831-1931" kitabında rəsmi tarixi faktlara istinadən etiraf edir ki, 1918-ci il erməni fitnəkarlıqlarına qədər Çaxırlı kəndi əhalisinin etnik tərkibinə görə sırf türk kəndi olmuşdur. Belə ki, Çaxırlının türk əhalisinin sayı 1831-ci ildə 212, 1873-cü ildə 770, 1897-ci ildə 1204, 1916-cı ildə 1653 nəfər imiş. 1918-ci ilin sonlarında kənd erməni-rus hərbi birləşmələrinin hücumuna məruz qalaraq ciddi itkilər versə də, əhali kəndi tərk etməmişdir. 1919-cu il 13-20 aprel aralığındakı qırğınlar zamanı isə Çaxırlı kəndi yandırılaraq yerlə-yeksan edilmiş, əhalinin yarıdan çoxu qətlə yetirilmişdir. 1919-1922-ci ildə burada Türkiyədən gətirilən ermənilər məskunlaşdırılsa da, kəndin bərpası və sürətlə abadlaşdırılması yalnız türklərin bir qismi öz doğma ocaqlarına qayıtdıqdan sonra mümkün olmuşdur. 1922-ci ildə Çaxırlının 679 nəfər türk, 363 erməni, 1931-ci ildə isə 975 nəfər türk, 663 nəfər erməni sakini olub. Və elə o tarixdən başlayaraq Çaxırlının əzəli sahiblərinə qarşı repressiyalar güclənib. Repressiyaların məntiqi yekunu kimi 1948-ci ildə Çaxırlının əzəli sahibləri hökumət səviyyəsində həyata keçirilən deportasiyaya məruz qalıblar. Nəticədə 1979-cu il siyahıyaalınması zamanı demoqrafik vəziyyət ermənilərin xeyrinə kəskin şəkildə dəyişmişdi: 1465 nəfər türk və 2131 nəfər erməni. 1988-ci il deportasiyaları zamanı kənd 2 nəfər şəhid vermiş- 1931-ci il təvəllüdlü **Bayram Ağababa oğlu Ağayev** və 1930-cu il təvəllüdlü **Səyyad Əli oğlu Əliyev** qətlə yetirilmişlər. Əmlakı dövlət səviyyəsində talanmış əhali Azərbaycanın müxtəlif rayonlarına pənah gətirmişdir. Ermənistan SSR Ali Sovetinin 25 yanvar 1978-ci il tarixli qərarı ilə Çaxırlı toponimi "Sovetakert" sözü ilə əvəzlənib.

***Çaxırlının ünlü yetirmələri:***

**Quliyev Həsən Musa oğlu.** Texniki elmlər doktorudur.

**Əliyev Əlif İmamverdi oğlu.** Tibb elmləri namizədidir.

**Məhərrəmov Münasib Hidayət oğlu.** 1954-cü ildə anadan olmuş, Azərbaycan Dövlət Politexnik İnstitutunu bitirmiş, Basarkeçərdəki avtomobil təsərrüfatı müəssisəsində baş mühəndis işləmiş, ermənilərlə milli münaqişə zəminində vəzifəsindən istefa verərək Bakıya köçmüşdür. Burada hüquq mühafizə orqanlarına işə daxil olmuş; Rostov Milis Məktəbini, Ümumittifaq Hüquq İnstitutunu bitirmiş, uzun illər cinayət axtarışları sahəsində çalışmış, Bakı Hava Limanının polis idarəsinə rəhbərlik etmişdir. Polis polkovnikidir.

**Məhərrəmov Fariz Hidayət oğlu.** Daha çox ictimai xadim kimi tanı-

nır. Azərbaycanda milli-azadlıq hərəkatının fəallarından biri olmuş, bir müddət Suraxanı rayon İcra Hakimiyyəti başçısının müavini işləmişdir. "Ağrıdağ" xeyriyyə cəmiyyətinin yaradıcılarından və ilk rəhbərlərindən biridir. Hazırda müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğuldur.

## ÇAMIRLI

Göyçə gölünün cənub-şərqində yerləşmiş Çamırlı kəndi ərazi etibarı ilə Gödəkbulaq, Mollalı, Subatan, Yuxarı Zağalı kəndləri ilə həmsərhəd olub. Çamırlının yerləşdiyi coğrafi mövqedəki - sovet hakimiyyəti illərində Basarkeçər rayonunun Gödəkbulaq sovxozu tərəfindən yaylaq yataqları kimi istifadə olunan ərazidəki qayaüstü kitabələr bu yerlərin oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 2500-3000 illik tarixinə şahidlik edən maddi sübutdur. XX əsrin otuzuncu illərində bu qədim kitabələri tədqiq edən akademik B. Piotrovski bu yazıların Kələqıran yazılarından daha qədim olduğuna əminlik ifadə edərək, təəssüflə yazırdı ki, **"...yerli sakinlər son 10-15 ildə bu qayaları hansı səbəbdənsə bərbad hala salmışlar".** Kim idi o "yerli sakinlər"? Bu sualın cavabı birmənalıdır: ermənilər. Belə ki, 1918-ci ildən sonra Göyçənin Basarkeçər nahiyəsindəki digər kəndlərdən fərqli olaraq Çamırlıya bir türkün belə ayağı dəyməyib və bu da səbəbsiz deyil. Çamırlı tarixən Göyçənin ən iri yaşayış məntəqələrindən və mədəni mərkəzlərindən biri olub. Burada hələ Şah İsmayılın Ərzincan yürüşündən əvvəl xüsusi mədrəsə fəaliyyət göstərib. Miskin Abdalın da sufi təlimi təlqin edən bu mədrəsənin- sufi dərvişləri ordeninin müridlərindən biri olduğu tarixi faktdır və bu reallıq Xətainin Göyçə səfəri barədə el yaddaşında əbədiləşmiş məlumatlarda öz əksini tapıb. XVI əsrin ortalarından, yəni Səfəvi dövlətinin Çuxur-Səd bəylərbəyliyinin tabeçiliyində olduğu dövrdən etibarən isə Çamırlıda şəfaxana fəaliyyət göstərib ki, bu loğmanlar məktəbinin də ən görkəmli nümayəndəsi Hacı Nağı olub. Hacı Nağı hələ sağlığında az qala əfsanəyə çevrilmişdi və o əfsanələr göyçəlilərin söz yaddaşında bu günə qədər yaşarıdır. Bu həqiqətləri bilən ermənilərin qara siyahısında Çamırlı, təbii ki, birinci yerdə dayanırdı. Çünki onlar Hacı Nağının nüfuzunu və imkanlarını yaxşı bilirdilər. Bilirdilər ki, Hacı Nağı elin qabağına düşsə, Göyçə daşnaklar üçün cəhənnəm zəbanəsinə dönəcək. Odur ki, Hacı Nağıya belə bir fürsəti verməmək üçün ilkin zərbə Çamırlıya endirildi. Bu qəfil hücum Filimonov və Nişanevin başçılıq etdiyi erməni-rus nizami qoşun hissələrinin Qızılvəngə basqınından 4 gün əvvəl baş verib və bu tarixi məqam

"Azərbaycan" qəzetinin 27 yanvar 1919-cu il tarixli sayında təsbitlənib. Ermənilərin Qızılvəngi məhz 1 yanvar günü qana bələdiyi barədə Göyçənin el yaddaşında qalmış məlumata istinadən Çamırlıya hücumun 1918-ci il dekabrın 26-27-də olduğunu söyləmək mümkündür. Amma o döyüş Göyçənin əzəli sahibləri üçün faciəli olsa da, heç ermənilərə də uğur gətirmədi. Həmin gün Çamırlı 10 nəfər şəhid verdi: 4 kişi və 6 qadın. Amma ertəsi gün Hacı Nağının oğulları- Mustafa ilə Həsən təcili surətdə döyüş tədarükü gördülər və... Qızılvəng, Subatan, Zağalı əhlini hiylə ilə qıran Filimonovun dəstəsi Çamırlıda pusquya düşərək darmadağın oldu. Vahiməyə düşən ermənilər Hacı Nağı oğullarının Səmənd ağa ilə birləşməsinin qarşısını almaq üçün Basarkeçər-Çaxırlı-Tüstülü-Gödəkbulaq-Alçalı kəndlərində xüsusi pusqu istehkamları yaratdılar. Bu səbəbdən də Hacı Nağı oğulları 1919-cu ilin aprel qırğınları zamanı Basarkeçərin şərq nahiyəsindəki kəndlərə kömək edə bilmədilər. Amma onların sayəsində Mollalı, Alçalı, Qızılxaraba, Baş Gözəldərə kəndlərinin əhalisi kütləvi qırğınlardan qurtararaq, Züldağ aşırımı ilə Dərələyəzə, oradan isə Naxçıvana və Türkiyəyə keçməyə müvəffəq oldular. Məhz bu tarixi reallıqlar səbəbiylə, yəni Hacı Nağı oğullarından qisas ala bilmədikləri üçün ermənilər boş qalmış Çamırlını bünövrəsinə qədər yandırmışlar və 1922-ci ildə sovet hökumətinin təhlükəsizlik barədə təminatından sonra belə doğma yurduna qayıdan çamırlılara kəndi bərpa etməyə rəsmən icazə verilməmişdir. Kəndin ərazisi qonşu kəndlər arasında bölünmüş, 30-cu illərin sonlarında isə məhz Çamırlının xərabələri üzərində Gödəkbulaq kolxozunun heyvandarlıq fermaları üçün tövlələr inşa edilmişdir. Beləcə, bir qədimqayım türk obasının da izləri tarixdən silindi, 2000-dən çox yaşı olan bir yurd yerimiz də "adı unudulmuş ölü kəndlər"in siyahısına salındı.

## ÇUBUXLU

Göyçə hövzəsinin qərb qurtaracağı ilə Pəmbək silsiləsinin şimal-şərq başlanğıcının kəsişmə nöqtəsinə uyğun bir ərazidə qərarlaşmış bu kəndin ərazisində XX əsrin 50-ci illərində aparılmış arxeoloji tədqiqatlar zamanı aşkarlanmış maddi dəlillər- türk mədəniyyəti nümunələri olduğu şübhə doğurmayan bəzək və məişət əşyaları Oğuz Elinin burada məskunlaşmasının azı 1500-1700 illik tarixinə şəhadət verir. Erməni mənbələrində isə Çubuxlu kəndi əsası XIX əsrin əsrin əvvəllərində ermənilər tərəfindən qoyulmuş yaşayış məskəni kimi təsniflənir. Amma... Əlahəzrət FAKT ermənilərin bu iddialarını da birmənalı şəkildə rədd edir. Belə ki,

Osmanlılar 1723-cü ildə Göyçə hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş və 12 aprel 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 11-ci səhifəsində Dərəçiçək nahiyəsinin inzibati ərazisinə daxil edilmiş kəndlərin sırasında Çubuxlu barədə də məlumat verilib və onun xas şəkilli, yəni birbaşa sultan xəzinəsinə ödənilən vergilərinin 12000 ağça həcmində müəyyənləşdirilməsi barədə müvafiq qeydlər aparılıb. 12000 ağça. Bu o deməkdir ki, hələ XVIII əsrin əvvəllərində Çubuxlu Dərəçiçək nahiyəsinin iri vergi ödəyiciləri sırasında Qaramuraddan sonra ikinci, ümumən Göyçə hövzəsində isə dördüncü sırada dayanırmış. Yəni əhalisinin sayına və abadlığına görə ümumən hövzənin 4 ən böyük yaşayış məntəqəsindən biri də Çubuxlu olub. Az qala iki min illik yaşı olan abad bir kəndin öz əzəli sahibləri tərəfindən atılması və sonradan onun xərabələri üzərində ermənilərin təzə bir kənd salması barədə fərziyyələr xəstə təxəyyül məhsulundan savayı bir şey deyil.

Göyçə hövzəsi 1828-ci ildə yeni yaradılan erməni vilayətinin idarəçiliyinə veriləndən sonra tətbiq olunmuş inzibati strukturlaşmaya əsasən Çubuxlu Dərəçiçək mahalının ərazisinə daxil edilib və İ.Şopenin siyahılarında o zaman yaşayış üçün yararlı sayılan kəndlərin sırasında yer alıb. Elə 1828-ci ildə buraya Türkiyənin Alaşkert və Muş vilayətlərindən olan erməni qaçqınlarının ilk dəstəsi yerləşdirilib ki, bu reallıq da 1831-ci ilin kameral siyahıyaalınmasında əksini tapıb. Sonrakı 80 ildə kəndin əzəli sahiblərinə qarşı repressiyalırın səviyyəsi o qədər yüksək olub ki, demoqrafik balans ermənilərin xeyrinə kəskin surətdə dəyişib. 1914-cü illin rəsmi sənədlərinə əsasən Çubuxluda yerləşdirilmiş ermənilərin sayı kəndin əzəli sahiblərinin sayını 5 dəfədən də çox üstələyirdi: 864 nəfər erməni və 138 nəfər türk. 1918-ci ilin noyabrında isə kənd tamamilə türksüzləşdirildi və hətta 1922-ci ildə sovet hökumətinin təhlükəsizlik barədə təminatından sonra belə kəndə bir nəfər də olsa türk qayıtmadı.

## DAŞ KEYTİ

Göyçə gölünün cənub-şərqində, Basarkeçər rayonunun Daşkənd kəndinin müasir coğrafi mövqeyindən 3 kilometr cənubdakı xərabəlikləri 1988-ci il deportasiyasına qədər toxunulmamış qalan bu kəndin adına yazılı mənbələrdə ilk və həm də sonuncu dəfə XIX əsrin 30-cu illərinə dair rəsmi sənədlərdə rast gəlinir. Belə ki, yeni yaradılan erməni vilayətinin tabeçiliyinə verilmiş Göyçə mahalının o zaman yaşayış üçün yararlı

sayılan 59 kəndinin İ. Şopen tərəfindən tərtib olunmuş siyahısında Daş Keyti 44-cü sırada yer alıb. Bu siyahıda verilən məlumata görə, Daş Keyti Daşkənd kəndi ilə həmsərd bir inzibati vahidmiş və o dövrdə kəndin sırf türklərdən ibarət 124 sakini varmış. 1873-cü ilə dair rəsmi sənədlərdə isə artıq bu kəndin adına rast gəlinmir. Bu faktdan çıxış edərək belə bir qənaətə gəlmək olar ki, 1840-1870-ci illər aralığında Göyçə mahalında ermənilər tərəfindən yerlə-yeksan edilərək, "ölü kəndlər" siyahısına salınmış qədim türk yurdlarından biri də Daş Keytidir. Bu faciənin təfərrüatı barədə isə, təəssüf ki, rəsmi qaynaqlarda heç bir məlumat yoxdur.

## DAŞKƏND

Basarkeçərdən (indiki Vardenis şəhəri) 8 kilometr cənub-şərqdə, dəniz səviyyəsindən 2144 metr yüksəklikdə yerləşən bu kəndin ərazisindəki heyrətamiz ölçülü oğuz məzarları, eramızın I-II əsrlərinə aid edilən ovalvari qalanın və V-VI əsrlərə aid məbədin bünövrə qalıqları Daşkəndin azı 2000 illik tarixinə, bu obanın Göyçənin ən qədim və ən böyük yaşayış məskənlərindən biri olduğuna şəhadət verən maddi sübutlardır. 1555-ci ilə dair sənədlərdə Daşkənd Səfəvi Azərbaycan dövlətinin Qarabağ (Gəncə) bəylərbəyliyinin inzibati bölgüsünə daxil olan kəndlərdən biri kimi səciyyələndirilir. 1578-ci ildə Osmanlı sultanı III Murad səfəviləri yenərək Göyçənin şərq sahilindəki kəndlərin bir qisminə nəzarət imkanı əldə etdikdən sonra tətbiq edilən yeni inzibati bölgüyə əsasən, Daşkənd bir inzibati vahid olaraq İrəvan əyalətinin Ordubad qəzasının Zar nahiyəsinin ərazisi kimi təsnifləndirilmişdir ki, bu barədə də 1590-cı ildə tərtib olunmuş "İrəvan əyalətinin müfəssəl dəftəri"nin 326-cı səhifəsində məxsusi qeydlər aparılmışdır. 1595-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə isə Daşkəndin zeməat, yəni yüksək titullu dövlət məmurunun məsrəflərinin ödəyicisi qismində **Həsən Hüseyn oğlu** adlı şəxsin istifadəsinə verildiyi; eyni zamanda **Əli Nağıəli oğlu** adlı başqa bir şəxsin həm Zar, həm də Daşkənd kəndlərindən timar qismində ödənc aldığı barədə məlumatlar əks olunub. Daşkəndin bu statusu XVII əsrin 30-cu illərinə qədər davam edib. 1723-cü ildə osmanlılar Göyçə hövzəsinə ikinci dəfə və bütünlüklə nəzarət imkanı əldə etdikdən sonra kənd İrəvan əyalətinin Zarzəmin nahiyəsinin inzibati bölgüsünə daxil edilib. Amma... Bu dövrə qədər Daşkənd mahalın ən güclü sufi ocaqlarından, şiə təlimi mərkəzlərindən biri kimi şöhrətləndiyi üçün, əhali osmanlı əsgərinin dini zəminli qəzəbindən ehtiyatlanaraq kəndi tərk etmişdir və bu tarixi gerçəklik rəs-

mi sənədlərlə təsbitlənmişdir. Belə ki, 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 118-ci səhifəsində Daşkənddə heç kimin yaşamadığı və onun ərazisinin xas şəklində sultanın mülkiyyətinə keçirildiyi barədə qeydlər aparılıb. Kənd əhalisi öz yurduna bir də XVIII əsrin 70-ci illərində, səfəvilərin və osmanlıların hegemonluq iddiaları səngiyəndən sonra qayıtmışdır.

Erməni mənbələrinin özü də bu qədim yurdun tarixən sırf türk kəndi olduğunu birmənalı şəkildə təsdiqləyir. Belə ki, yeni yaradılmış erməni vilayətinin idarəçiliynə verilmiş Göyçə mahalında o zaman yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında 43- cü sırada Daşkəndin adı yer alıb və müəllifin verdiyi məlumata görə, 1831-ci ildə burada 357 nəfər türk yaşayırmış. Erməni tarixçisi Z. Korkodyanın "Sovet Ermənistanının əhalisi 100 ildə:1831-1931" kitabında rəsmi mənbələrə istinadən verdiyi məlumata görə, Daşkəndin türk əhalisinin sayı 1873-cü ildə 560 nəfər, 1897-ci ildə 1004 nəfər, 1916-cı ildə 1954 nəfər olmuşdur. 1918-ci ildə ermənilər öz mənfur niyyətlərini reallaşdırmaq üçün Göyçədə qətliamlara rəvac verəndə Daşkənd ən çox zərər çəkən yurd yerlərindən biri oldu. 1918-ci ilin noyabr-dekabr aylarında daşnakların Göyçəyə ilk basqını zamanı Basarkeçər nahiyəsində dağıdılan 30 kənddən biri də Daşkənd idi. Bu tarixi fakt Daşkənd sakinləri **Məşədi Qasım Hacı Kərim oğlu** və **Böyükəli Hacı Mirzə Ələkbər oğlu**nun Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə 23 yanvar 1919-cu il tarixli ərizələrində tam təfsilatı ilə əks olunub. Amma o faciənin miqyası nə qədər böyük olsa da, bu 30 kəndin əhalisi qışın boranında dağlarda nə qədər itki versələr də, qısa müddətdən sonra mütəşəkkil şəkildə öz ocaqlarına qayıtmışdılar və Azərbaycandan köməyə ümid edərək, mübarizələrini davam etdirirdilər. Nə yazıq ki, gözlənilən kömək olmadı...ADR-in "mili hökuməti" Göyçəni və göyçəliləri taleyin ümidinə buraxmışdı. Baxmayaraq ki, o zaman Göyçənin şərq və şimal-şərq sahilləri rəsmən Azərbaycan Demokratik Cümhuriyyətinin inzibati ərazisi hesab olunurdu. 1919-cu il aprelin 13-20-də daşnakların Göyçəyə növbəti basqısı zamanı 22 kənd yenidən dağıdıldı, 15 min əhali Cavanşir qəzasının dağlıq ərazilərinə qaçmaq məcburiyyətində qaldı. Dağlıq zolağın V sahəsinin müsəlman əhalisi üzrə müvəkkil İ.Sultanovun bu faciə barədə verdiyi məlumatda *("Azərbaycan" qəzeti 19 may 1919-cu il)* dağıdılmış kəndlərin siyahısında birinci sırada yenə də Daşkəndin adı gəlir. Ermənilərin Daşkəndə qarşı bu dəfəki aqressivliyi isə səbəbsiz deyildi. Aprel qırğınlarından əvvəl daşnaklar Zod yaxınlığında ciddi məğlubiyyətlə üzləşmişdilər və Andronikin sağ əli sayılan Sulikovun başının kəsilmə

mərasimində iştirak edənlərdən birinin daşkəndli Aşıq Nəcəf olduğu barədə şaiyələr ermənilər təbdən çıxarmışdı. Əslində isə Aşıq Nəcəf həmin mərasimdə sadəcə bir el ağsaqqalı kimi iştirak etmişdi. Sulikovun başını kəsənlərdən biri isə Aşıq Əsəd imiş. Ermənilər üçün, təbii ki, bu təfərrüata varmaq lazım deyildi: onlar Aşıq Nəcəfi hədəf seçmişdilər və mahalın ən keçərli söz sahibi olan bu nurlu şəxsiyyəti məhv etməkdə israrlı idilər. Məhv etdilər də. Hiylə ilə danışığa dəvət edərək onu da, Səmənd ağanı da qətlə yetirdilər. Aprel qırğınlarında artıq Aşıq Nəcəf sağ deyildi, amma bu da daşnakların ürəyini soyutmamışdı, onlar bu haqq aşığının nəslinin qanına susamışdılar...Kənd əhalisinin yarısı qəfil hücum zamanı qırıldı, təxminən 300 nəfər diri-diri yandırıldı və quyulara doldurularaq, üstləri torpaqlandı. 1922-ci ildə kəndə qayıdanların sayı cəmi 882 nəfər, yəni 1916-cı ildəki əhalinin 40 faizi həddində idi ki, bu da Daşkəndin 1919-cu ildə yaşadığı faciənin miqyasını tam mənada təsəvvür etməyə imkan verir. 1931-ci ilin rəsmi statistikasına görə isə kənd əhalisinin sayı 1230 nəfər olmuşdur. Bu cür sürətli artım və kəndin sürətlə abadlaşaraq aparıcı yurd yerlərindən birinə çevrilməsi erməni millətçilərini əndişələndirməyə bilməzdi. Odur ki, 1948-1953-cü il deportasiyaları zamanı Daşkəndə xüsusi diqqət yetirildi və kəndin əhalisinin yarıdan çoxu məcburi qaydada köçürüldü. İndi Azərbaycan Respublikasının Bərdə rayonunda həmin köçkünlərin binələşdirdiyi və kompakt şəkildə məskunlaşdığı bir kənd var: Yeni Daşkənd kəndi. 1979-cu il siyahıyaalınmasının rəsmi nəticələrinə görə isə Basarkeçər nahiyəsindəki Daşkənddə 1973 nəfər türk yaşayırdı. 1988-ci il faciələri zamanı kənd üç şəhid verdi: 1916-cı il təvəllüdlü **Safay İsmayıl oğlu Babayev**, 1928-ci il təvəllüdlü **Sultan Həsənov** və 1930-cu il təvəllüdlü **Zeynalabdi Əliyev** aldıqları xəsarətlər nəticəsində dünyalarını dəyişdilər. Sağ qalan əhali isə kütləvi şəkildə deportasiyaya məruz qalaraq, əmlakları və kolxozun mülkiyyəti hökumət tərəfindən talan edildi. Ermənistan Respublikası Ali Sovetinin 9 aprel 1991-ci il tarixli qərarı ilə Daşkənd toponimi "Hayrk" sözü ilə əvəzlənmişdir.

***Daşkəndin ünlü yetirmələri:***

**Hacı Kərim Hacı Mustafa oğlu.** 1820-1892-ci illərdə yaşamış, dövrünün tərəqqipərvər ziyalılarından biri olmuş, öz vəsaiti ilə Daşkənddə dini təmayüllü məktəb açmışdır.

**Hacı Mirzə Ələkbər.** Ali ruhani təhsili almış, Göyçə mahalının dini ayinlər üzrə müvəkkili olmuşdur. 1900-cu ildə təxminən 55-60 yaşlarında vəfat etmişdir.

**Aşıq Nəcəf.** Dədə Ələsgərin şəyirdi, Göyçə oğuz dərvişləri məktəbi-

nin ən kamil müridlərindən biri olmuş, erməni təcavüzünə qarşı döyüşlərdə xüsusi fəallıq göstərmişdir. 1919-cu ilin martında Basapkeçərə danışığa dəvət olunan türk nümayəndə heyətinin tərkibində hiylə ilə əsir alınmış, Novruz bayramı günü xüsusi amansızlıqla qətlə yetirilmişdir.

**Böyükəli Hacı Mirzə Ələkbər oğlu.** Daşkənd mədrəsəsində və Kəvər rus-tatar gimnaziyasında təhsil almışdır. 1918-1920-ci il qırğınlarından sonra Göyçəyə qayıtmamış, Şəmkirdə məskunlaşaraq partiya-sovet orqanlarında məsul vəzifələrdə çalışmışdır.

**Həsən Xəyallı.** 1885-ci il martın 20-də anadan olub, dayısı Hacı Rəhimdən dini təhsil alıb, Aşıq Nəcəfə şəyirdlik edib. 1966-cı il aprelin 10-da doğma kəndində vəfat edib.

**Hacıyev Xasay Oruc oğlu.** 1925-ci il aprelin 20-də anadan olub, 1948-ci il deportasiyaları zamanı ailəsi ilə birlikdə Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşıb. Bakı Dövlət Universitetinin fizika-riyaziyyat fakultəsini bitirib. 1962-ci ildə Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul edilib. 3 kitabı kütləvi tirajla çap olunub. 1977-ci il aprelin 11-də qəfil ürəktutmasından vəfat edib.


Canbaxışov Qələndər

**Canbaxışov Qələndər Surxay oğlu.** Tibb elmləri doktoru, Azərbaycan Tibb Universitetinin professoru, Azərbaycan Respublikasının Əməkdar həkimi, AR Səhiyyə Nazirliyi Travmatologiya və Ortopediya İnstitutunun direktorudur.

**Kərimov Əlif Hüseyn oğlu.** Fizika-riyaziyyat elmləri namizədidir.

**Rəsulov Safalan Xanlar oğlu.** Fizika-riyaziyyat elmləri namizədidir.



**Xəlilov Alqayıt Bayram oğlu.** 1939-cu il noyabrın 28-də anadan olmuş, Azərbaycan Dövlət Pedoqoji İnstitutunu bitirmiş, Daşkənd orta məktəbində müəllim, "Vardenis" və "Mingəçevir işıqları" qəzetlərində ədəbi işçi kimi fəaliyyət göstərmiş, Xanlar rayon Mədəniyyət Evinin bədii rəhbəri olmuşdur. 5 kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**Şiruyə Həsənoğlu - Hacıyev Şiruyə Həsən oğlu.** 1942-ci il sentyabrın 11-də anadan olub. 1953-cü ildə ailəsi ilə birlikdə Bərdə rayonunda məskunlaşıb. Atasından dini təhsil alıb, Azərbaycan Dövlət Pedoqoji İnstitutunun fizika-riyaziyyat fakultəsini bitirib. 5 şer kitabının müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**Aqil İman - Hacıyev İman Həsən oğlu.**1958-ci il mayın 4-də anadan olmuş, Azərbaycan Dövlət Neft-Kimya İnstitutunu bitirmiş, 1992-1994-cü illərdə Qarabağ müharibəsində iştirak etmiş, Ağdərədə yaralanaraq ordudan tərxis olunduqdan sonra bədii yaradıcılıqla məşğul olmuşdur. Azərbaycan Yazıçılar Birliynin üzvü, 1 kitab müəllifi idi. 1996-cı il avqustun 28-də qəfil ürəktutmasından vəfat etmişdir.

**Eldar Həsənli- Eldar Həsən oğlu Həsənov.** 1960-cı il aprelin 28-də el şairi Həsən Xəyallının ocağında anadan olub. Ermənі təcavüzkarlığından sonra Bərdə rayonunda məskunlaşıb. 8 kitab müəllifi, 1990-cı ildən Azərbaycan Yazıçılar Birliyinin, 1991-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

## DƏLİ AĞACAN

Göyçə hövzəsinin cənub-şərqində qərarlaşmış bu kənd barədə məlumatlar son dərəcə məhdud olsa da, onun mövcudluğu tarixi reallıqdır və rəsmi sənədlərlə təsbitlənir. Belə ki, osmanlılar 1723-cü ildə ümumən Göyçə hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş, 12 aprel 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış, hazırda Türkiyə Cümhuriyyətinin Başbakanlıq Arxivində saxlanan "İrəvan əyalətinin icmal dəftəri"nin 16-cı səhifəsində İrəvan əyalətinin Məzrəə nahiyəsinin kəndləri sırasında Dəli Ağacan kəndinin də adı yer alıb. Həmin məlumatlardan bəlli olur ki, Dəli Ağacan kəndi Zod kəndi yaxınlığındakı Həsənkəndlə həmsərhəd bir oba imiş və birbaşa sultan xəzinəsinə ödənilən illik vergisi 2980 ağça həcmində müəyyənləşdirilibmiş.

1826-1829-cu illərdə baş vermiş İran-Rusiya, Rusiya-Türkiyə müharibələrinin gedişində erməni-rus hərbi birləşmələrinin Göyçədə viran qoyduqları 108 kənddən 67-sinin, eləcə də yeni yaradılan erməni vilayətinin idarəçiliyinə verilərkən Göyçədə yaşayış üçün yaralı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahılarında və ondan sonrakı dövrlərə dair rəsmi sənədlərdə isə Dəli Ağacan kəndinin adı yoxdur. Bu tarixi reallıqdan çıxan məntiqi nəticə isə odur ki, XIX əsrin əvvəllərində ermənilərin Göyçədə viran qoyduğu və sonradan bərpasına imkan vermədiyi 54 qədim türk obasından biri də Dəli Ağacan kəndidir. Göyçənin el yaddaşında daşlaşmış bilgilərə əsasən isə, belə mülahizə yürütmək olar ki, 1826-1829-cu illərdə tüğyan etmiş erməni faşizmi nəticəsində yer üzündən və tarixdən silinmiş Dəli Ağacan kəndinin qətliamlardan sağ çıxmış əhalisi sonradan Zod kəndində məskunlaşmışdır.

## DƏLİKDAŞ

Göyçə gölünün cənub-qərbində, Martuni-Kamo şossesinin 12-ci kilometrində, sahilə yaxın bir ərazidə yerləşən bu kəndin adına ilk dəfə Şah İsmayılın Ərzincan yürüşü öncəsi Göyçəyə səfərinə dair tarixi qeydlərdə rast gəlinsə də, bu yurdda oğuz türkünün binələşmə tarixi eramızdan əvvəlki dövrə təsadüf edir. Belə ki, Dəlikdaş kəndinin müasir coğrafi mövqeyindən təxminən 1 kilometr qərbdə yerləşən qədim qalanın eramızdan əvvəlki II minilliyə aid olduğunu erməni tarixçilərinin özləri də etiraf edirlər (Ermənistan Tarixi Abidələrin Bərpası və Qorunması üzrə Dövlət Komitəsinin illik hesabatı-1965). Qaladan təxminən 150-200 metr cənubdakı qayalıqdan başlayan mağara isə "sonsuzluğa" qədər uzanır. Bəzi ehtimallara görə, bu təbii mağara-tunel Göyəm silsiləsinin cənub yamaclarına, Dərələyəz çökəkliyinə çıxır. Hər halda mağaranın təxminən 1 kilometr dərinliyndə hava axınının olması faktdır və bu reallıq mağaranın qapalı yox, keçid tipli olmasına dəlalət edir. XX əsrin 80-ci illərində həmin kənddə yaşayan ermənilərin bilgilərinə əsasən, "bu kəndin əzəli sahiblərinin (yəni oğuz türklərinin) inancına görə, Dəlikdaş mağarası sehirlidir və onu axıracan keçmək kimsəyə müyəssər olmayıb, çünki mağaranın əsl sahibi olan Təpəgöz buraya qədəm qoyan hər kəsi udub". Bu motivlərin "Kitabi-Dədə Qorqud"dakı boyların bir neçəsi ilə səsləşməsi təsadüfdürmü? Ən maraqlı fakt isə Dəlikdaş mağara-keçidinin girəcəyindən təxminən 2 kilometr cənub-qərbdə zil qara rəngə çalan dağlarla əhatələnmiş yarğandakı qayanın içində bir neçə yarusdan ibarət olan oyma qaladır ki, bu mənzərə eynən Dədə Qorquddakı Şöklü Məliyin yurdunu xatırladır. Bütün bu maddi sübutlar birbaşa elmi hipotez irəli sürməyə əsas verməsə də, hər halda Dəlikdaşın oğuz türkünün tarixindəki rolunun öyrənilməsi baxımından gərəkli məqamlardır.

Dəlikdaş Göyçənin ən qədim yaşayış məskənlərindən olduğu kimi, həm də ən iri kəndlərindən bri olub ki, bunu da rəsmi sənədlər təsdiqləyir. 1555-ci ilə dair rəsmi yazışmalarda Dəlikdaş Səfəvi-Azərbaycan dövlətinin Çuxur-Səd bəylərbəyliyinin inzibati bölgüsünə daxil olan türk ellərindən biri kimi səciyyələndirilir. 1723-cü ildə osmanlılar Göyçə hövzəsinə ikinci dəfə və tam nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş, 1728-ci ildə Əhməd şah Məhmət xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsindəki qeydlərdə isə Dəlikdaş İrəvan əyalətinin Göyçə nahiyəsinin inzibati vahidlərindən biri kimi təqdim olunur və onun sultan xəzinəsinə illik vergi-

sinin 5832 ağça həcmində olduğu göstərilir.

1826-1829-cu illər İran-Rusiya, Rusiya-Türkiyə müharibələrinin nəticəsi olaraq rusların istəyi ilə yeni yaradılan erməni vilayətinin tərkibinə verilən Göyçə mahalında o zaman yaşayış üçün yararlı sayılan 59 kəndin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında Dəlikdaşın adı 20-ci sırada gəlir və bu siyahıdakı məlumatlardan aydın olur ki, 1831-ci ildə Dəlikdaşda 87 türk ailəsi (464 nəfər) yaşayırmış. Sonrakı 70 il ərzində isə kənddə əhalinini etnik tərkibi sürətlə dəyişib: 1901-ci ildə kəndin 547 nəfər türk, 432 nəfər erməni sakini olub. 1918-ci il erməni vəhşilikləri zamanı kəndin türk sakinlərinin az qala hamısı qılıncdan keçirilib. 1922-ci ildə kəndə dönən türklərin sayı cəmi 156 nəfər, yəni 1901-ci ildəki əhalinin beşdən biri həddində olub. 1931-ci ildə Dəlikdaşda yaşayan türklərin sayı nisbətən artaraq 301 nəfərə çatsa da, ikinci dünya müharibəsi ərəfəsində burada cəmi 23 türk ailəsi yaşayırmış. 1948-ci il deportasiyaları zamanı isə Dəlikdaş artıq sırf erməni kəndi idi. Çünki müharibə illərinin aclığı zamanı Dəlikdaşın əzəli sahiblərinin sonuncu nümayəndələri kompakt şəkildə Özbəkistana -1918-ci il qırğınlarından sonra Fərqanədə məskunlaşmış Rəhim ağanın övladlarına pənah aparmışdılar. Hazırda dəlikdaşlıların bir neçə nümayəndəsi Rusiyanın Tolyatti şəhərində yaşayır. Ermənistan SSR Ali Sovetinin 21 iyun 1948-ci il tarixli qərarı ilə Dəlikdaş toponimi hərfi tərcüməsi eyni anlama gələn "Tsakkar" sözü ilə əvəzlənmişdir.

## DƏLİQARDAŞ

İndiki Kamo şəhərindən 7 kilometr cənub-şərqdə, Göyçə gölünün sahilində, Əyricə çayının deltasına yaxın bir ərazidə yerləşən bu kəndin adına rəsmi məxəzlərdə ilk dəfə Səfəvilər dövlətinin arxivlərində rast gəlinsə də, onun həqiqi tarixinin izləri eramızdan əvvəlki dövrün II minilliyində müşahidə olunur. Kəndin ərazisindəki istehkam və qala bünövrələrinin, eləcə də eramızdan əvvəlki X-IX əsrlərə məxsusluğu elmi təsdiqini tapmış mixi yazılarının qalıqları Dəliqardaşın oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 3000 illik tarixinə şəhadət verən maddi sübutlardır. Hələ XII əsrdə burada mükəmməl sufi ozan-dərvişlər ordeninin olduğu, o məktəbin ən kamil müridlərindən biri olan Dəliqardaşlı Rəhimin XV əsrdə Təbrizə, Ərdəbilə, Anadoluya, Dərbəndə səfərlər etdyi barədə Azərbaycan folklorunda zəngin məlumatlar var. 1555-ci ilə dair sənədlərdə Dəliqardaş Səfəvi Azərbaycan dövlətinin Çuxur-Səd bəylərbəyliyinin inzibati vahidlərindən biri kimi səciyyələndirilir.1578-1620-ci illərdə

osmanlıların Göyçəyə qismən nəzarəti zamanı tərtib olunmuş sənədlərdə Dəliqardaşın həmin dövrkü taleyi ilə bağlı məlumatlar yer almasa da, 1728-ci ildə təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində Dəliqardaşın İrəvan əyalətinin Göyçə nahiyəsinin inzibati idarəçiliyinə verilməsi və kəndin sultan xəzinəsinə illik ödəncinin 10.807 ağça həddində müəyyənləşdirilməsi barədə müvafiq qeyd aparılıb. Bu isə o deməkdir ki, Dəliqardaş o dövrdə Göyçə mahalının ən iri vergi ödəyiciləri sırasında üçüncü yerdə dayanırmış.

1828-ci ildə rusların iradəsi ilə yaradılan erməni vilayətinin tərkibinə qatılan Göyçə mahalının o zaman yaşayış üçün yararlı sayılan 59 kəndinin İ.Şopen tərəfindən tərtib edilmiş siyahısında Dəliqardaş kəndinin adı 13-cü sırada yer alıb və elə həmin müəllifin verdiyi məlumata görə 1931-ci ildə Dəliqardaşın sırf türklərdən ibarət 376 nəfər əhalisi olub. Həmin ilin sonlarında Türkiyənin Bəyazid qəzasından köçürülən 182 erməni bu kəndə yerləşdirildikdən sonra isə əhalinin etnik tərkibinin sürətlə dəyişməsi müşahidə olunmuşdur. 1897-ci ilin rəsmi statistikasına görə, Dəliqardaşdakı türklərin sayı 225 nəfər imiş. 1918-ci ildə ermənilərin həyata keçirdyi qətliamlar zamanı kəndin türk əhalisi bütünlüklə qovulsa da, 1922-ci ildə 17 ailə öz doğma yurduna qayıtmışdır. 1930-cu il sentyabrın 9-da ermənistan SSR-də tətbiq olunmuş yeni inzibati bölgü nəticəsində Dəliqardaş Kamo rayonunun "payına düşmüş", 1937-ci il repressiyaları zamanı Dəliqardaşdakı 12 türk ailəsinin hamısı Qazaxıstana sürgün edilmiş, Ermənistan SSR Ali Sovetinin 21 iyun 1948-ci il tarixli qərarı ilə Dəliqardaş toponimi "Saruxan" sözü ilə əvəzlənmişdir.

## DƏMİRÇİOBASI

1826-1829-cu illərdə baş vermiş İran - Rusiya, Rusiya- Türkiyə müharibələri zamanı erməni-rus hərbi birləşmələrinin Göyçədə viran qoyduqları yurd yerlərinin, həmçinin yeni yaradılmış erməni vilayətinin tərkibinə qatılmış Göyçə mahalında o zaman yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib edilmiş siyahılarında Dəmirçiobası adı yoxdur. Erməni diyarşünasları da məhz bu fakta istinadən Göyçədə belə bir kəndin ümumiyyətlə mövcud olmaması barədə iddialarında israr göstərirlər. Amma XVIII əsr müəllifi S.İrəvanlının qeydlərində Göyçə mahalında belə bir yurd yerinin olması birmənalı şəkildə təsdiqlənir. İ.Şopenin tərtib etdiyi "dağılmış kəndlərin siyahısı"nda isə 14-cü sırada "Dəmirçi Poğos" adı yer alıb. Milliyyətcə erməni olan Simon İrəvanlımı səhv

edib, yoxsa İ.Şopenmi?!. Qondarma "erməni tarixinin görkəmli nümayəndələrindən biri olan Simon İrəvanlı"nın "Dəmirçi Poğosun kəndi"ni türk toponimi ilə- "Dəmirçiobası" adı ilə təsnifləməsi inanılası bir nəsnə deyil. İ.Şopenin yanlışlığa yol verməsi isə mümkün idi. Çünki İ.Şopen bu siyahıları tərtib edərkən viran qoyulmuş kəndlərin əsl sahiblərindən məlumat almaq imkanı olmayıb. O, bu kəndlərin adlarını onu müşaiyət edən erməni bələdçilərə istinadən "dəqiqləşdirib". Nəticədə 1826-1829-cu illərdə dağıdılmış 108 kənddən yalnız 67-si qeydiyyata alınıb ki, onlardan da 40-ı "adları unudulmuş ölü kəndlər" qrafasında ümumiləşib.

XIX əsrin əvvəllərində Göyçədə bir-biri ilə qonşu iki "dəmirçi" obasının mövcudluğu ehtimalını ciddi qəbul entməyin özü sadəlövlük olardı. Bəs həqiqəti necə müəyyənləşdirməli? Bu dəfə də qoca tarix öz sözünü dedi. XX əsrin 50-ci illərinin əvvəllərində Göyçə hövzəsində axtarış aparan Ermitaj ekspedisiyası XV-XVI əsrlərə aid dəmirçi emalatxanasının qalıqlarını, daha dərin qatlardan isə IV-V əsrlərə aid qızıl əşyalar və təxminən o dövrlərə aid dəmirçi alətləri aşkarladılar. Bu ərazidə dəmirçiliklə məşğul olan nəslin, yaxud elatın yaşadığı şəksiz idi. İndi yalnız bir suala cavab tapmaq lazım gəlirdi: bu dəmirçilər nəsli kimlər olub? Tapılmış qızıl əşyaların oğuz kultunun izlərini əks etdirməsi və istifadə olunan qızılın Zod qızılı olduğunun elmi cəhətdən təsdiqlənməsi bu sualın cavabında tərəddüdlərə yer qoymurdu: eramızın əvvəllərində Göyçədə dəmirçilik peşəsinə mükəmməl şəkildə yiyələnmiş insanlar oğuzlar olub. Qazıntıların aparıldığı ərazinin coğrafi koordinantlarının S.İrəvanlının Dəmirçiobasının coğrafi mövqeyi barədə təxmini təsvirləri ilə üst-üstə düşməsi isə bu qənaəti təsdiqləyən əlavə arqument rolunu oynayır. Belə ki, S.İrəvanlı Dəmirçiobası barədə məhz Aşağı Altuntaxt kəndi barədə məlumatlardan sonra söhbət açıb. Ermitaj ekspedisiyasının qazıntı apardığı yerlər də məhz Altuntaxtdan 2 kilometr cənub-şərqdədir. İ.Şopenin siyahılarında da 13-cü sırada Aşağı Altuntaxt, 14-cü sırada "Dəmirçi Poğos" qeyd olunub. Bu faktlardan belə bir qənaət hasil olur ki, Göyçədə dəmirçiliklə şöhrətlənmiş yalnız bir oba olub. Bu obanın adının müxtəlif mənbələrdə müxtəlif cür qeyd olunması isə konkret məqsədin nəticəsidir. Yəni ermənilər XIX əsrin əvvəllərində Göyçədə az da olsa erməni yaşadığı barədə rəy formalaşdırmaq üçün, İ.Şopenin məlumatsızlığından yararlanaraq, rəsmi sənədlərə təhrif edilmiş məlumat salıblar. Amma bu istək reallaşsa da, onun dəqiq tarixi fakt kimi təsbitlənməsi üçün başqa bir suala da aydınlıq gətirmək lazımdır: "viran qoyulmuş kəndlərin siyahısı"na düşmüş 67 yurd yerindən 66-nın türklərə məxsusluğu və onların məhz erməni-rus hərbi birləşmələri tərəfindən dağıdılması həm erməni-

lər, həm də İ.Şopen tərəfindən təsdiqlənirsə, onda "Dəmirçi Poğosun erməni kəndi" niyə və kimlər tərəfindən dağıdılıb? 108 kəndi viran qoymağa, 63 kəndi özünə tabe etdirməyə qadir olan bir nizami ordu bir kəndi qorumaq gücündə deyildimi? Cavab elə sualın özündən aydındır. O zaman Göyçədə mövcud olmuş 171 kənddən biri erməni kəndi olsaydı, məntiqlə, o yaşayış üçün yararlı kəndlərin siyahısına düşməliydi, yaxud da tezliklə bərpa olunmalıydı. Amma dəmirçiliklə şöhrətlənmiş o kənd viran qoyulmuş kəndlərin siyahısındadır və sonrakı dövrlərə aid sənədlərdən məlum olur ki, bərpa edilməyib. Deməli, o kənd heç zaman ermənilərə məxsus olmayıb və Dəmirçiobası kimi tam anlaqlı bir toponimin "Dəmirçi Poğos" şəklinə salınması cəhdi növbəti erməni riyakarlığından savayı bir şey deyil.

## DƏRBƏND
(Virs)

Müasir tədqiqatçılar "Kİtabi Dədəm Qorqud ala lisani taifei oğuzan" dastanında adı çəkilən Dərbənd qalasını birmənalı şəkildə müasir Dərbənd şəhəri ilə eyniləşdirirlər ki, bu da ilk baxışda dastanın real tarixi hadisələrin xronologiyası yox, mifik təxəyyül məhsulu olması barədə təəssürat yaradır. Eyni mövqe Şah İsmayılla Miskin Abdal arasında baş vermiş gizli görüşə də şamil edilir və belə bir təəssürat yaranır ki, Miskin Abdal 80-85 yaşı olanda Göyçədən Dərbəndə səfər edib. Halbuki müasir Dərbənd şəhəri heç zaman Şah İsmayılın hərbi planlarına daxil olmayıb. O gizli görüşdə söhbət Göyçənin ən möhtəşəm qalasından- Dərbənd qalasından və orada məskunlaşmış ən döyüşkən tayfalardan, zarlardan gedirmiş. Bəli, Dərbənd qalası Şah İsmayıl üçün mühüm əhəmiyyət daşıyırdı. Belə ki, qala Zar nahiyəsi ilə Göyçə arasında ən mühüm strateji məntəqə idi və bu qalanı ram etmədən Azərbaycan torpaqlarının bütövlüyündən danışmaq belə mümkün deyildi. Gələcək şahı Ərzincan səfəri öncəsi, min bir əziyyətə qatlaşaraq Göyçəyə gəlməyə məcbur edən səbəblərdən biri, bəlkə də birincisi məhz bu reallıq idi. Məsələni aktuallaşdıran digər bir səbəb isə Dərbənd qalasının əsasını təşkil edən zarların məzdəkiliyə, xürrəmiliyə daha çox bağlı olması idi. Hələ hakimiyyət kürsüsünə yiyələnməmiş gələcək şahın isə bu qalanı yenəcək qədər gücü yox idi. Odur ki, yeganə çıxış yolunu Dərbənd qalasını sülh danışıqları ilə ram etməkdə görürdü və Miskin Abdal bu tarixi məsuliyyəti öz üzərinə götürərək, ləyaqətlə həll etməyi bacardı.

Bəli, Göyçənin ən uca zirvəsində, Alagöllərə yaxın bir ərazidə, Virs yüksəkliyində tarixi Dərbənd qalası vardı və o qala XVIII əsrdə belə yaşarı idi. Bu tarixi reallıq 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş və 12 aprel 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 15-ci səhifəsində birmənalı şəkildə təsbitlənib. Həmin sənəddən bəlli olur ki, XVIII əsrin əvvəllərində Dərbənd kəndinin sultan xəzinəsinə illik ödənci 10384 ağça həcmində imiş. Bu isə o deməkdir ki, XVIII əsrin əvvəllərində Dərbənd kəndi Məzrəə nahiyəsinin ən iri vergi ödəyicisi, deməli, həm də ən iri və ən varlı yaşayış məskəni olub...XIX əsrin əvvəllərində Göyçə gölü hövzəsi rusların təkidi ilə yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verildikdən sonrakı dövrə aid olan sənədlərdə isə Dərbənd kəndinin adına rast gəlinmir. Bu reallıqdan çıxan məntiqi nəticə isə odur ki, bütün qədim türk kəndləri kimi Dərbənd də erməni-rus hərbi birləşmələri tərəfindən məqsədyönlü şəkildə dağıdılıb və bərpasına imkan verilməyib...

## DƏRƏ

Göyçə gölünün şərqində, Basarkeçər - Çənbərək şossesinin 22-ci kilometrində, sahildən 2 kilometr aralıda, dəniz səviyyəsindən 1942 metr yüksəklikdə yerləşən bu kəndin əsasının qoyulma tarixi erməni mənbələrində XIX əsrin sonlarına şamil edilsə də, Dərənin 1826-1829-cu illərdə baş vermiş İran-Rusiya, Rusiya- Türkiyə müharibələrinin gedişində erməni-rus hərbi birləşmələri tərəfindən viran qoyulmuş və sonradan məhz ermənilərin təhriki ilə İ.Şopenin siyahılarında "adı unudulmuş ölü kəndlər" qrafasında ümumiləşdirilmiş, yaxud ümumiyyətlə diqqətdən kənarda qalmış 81 türk obasından biri olduğu təkzibimümkünsüz tarixi reallıqdır. Yeni yaradılan erməni vilayətinin ideoloqları bu kəndin bərpasında maraqlı olmasalar da, Dərə kəndinin əzəli sahibi olan oğuz türklərinin bir qismi XIX əsrin ortalarında yenidən buraya qayıtmış və qısa zamanda kəndi abadlaşdırmışlar. 1918-ci ilin dekabrında kənd yenidən ermənilərin qəzəbinə tuş gəlmiş, yandırılaraq əhalisi qovulmuşdur. 1922-ci ildə kəndə cəmi 17 ailə qayıtsa da, bu dəfə kəndin bərpası misilsiz sürətlə aparılmış, 1930-cu ilin rəsmi statistikasına görə, Dərə kəndinin əhalisinin sayı 330 nəfər həddini keçmişdi. 1979-cu il siyahıyaalınmasının nəticələrinə görə kəndin 846 nəfər türk sakini olmuşdur. 1988-ci ildə Dərə də Göyçənin digər kəndləri kimi dövlət səviyyəsində deportasiyaya mə-

ruz qalmış, əhalinin varidatı və kolxozun mülkiyyəti talanmışdır. Ermənistan parlamentinin 9 aprel 1991-ci il tarixli qərarı ilə Dərə toponimi "Daranak" sözü ilə əvəzlənmişdir.

***Dərənin ünlü yetirmələri:***

**Əhmədov Abbas.** Uzun illər partiya-sovet orqanlarında çalışmış, Göyçə mahalında türk təəssübkeşi kimi tanınmış, rəsmi dairələrlə daim mübarizə apardığına görə vəzifə pillələri ilə irəliləyişinə imkan verilməmişdir.

**Əhmədov Yusif Abbas oğlu.** 1938-ci ildə anadan olmuş, Bakı Bədən Tərbiyəsi İnstitutunu və Ali Partiya Məktəbini bitirmiş, uzun illər təsərrüfat rəhbəri olmuş, sovet-partiya orqanlarında məsul vəzifələr tutmuş, Basarkeçər rayonunda türk millətçisi imici ilə tanınmışdır. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşmış, Azərbaycan Qaçqınlar Cəmiyyətinin yaradıcılarından və fəallarından biri olmuşdur.

**Əhmədov Əli Cavad oğlu.** 1988-ci ildən milli-azadlıq hərəkatına qoşulmuş, ictimai xadim və siyasətçi kimi tanınmış, Azərbaycan Respublikası Prezidentinin Aparatında ictimai-siyasi şöbənin müdir müavini, Bakının Xətai rayonunun İcra Hakimiyyətinin başçısı olmuşdur. Siyasi elmlər namizədi, Yeni Azərbaycan Partiyasının sədr müavini və icra katibi, Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır.

**Əhmədov Bəhram Həsən oğlu.** Biologiya elmləri namizədidir.

**İsmayılov Qaçay Köçəri oğlu.** Biologiya elmləri namizədidir.

**Yusifov Əli Puta oğlu.** Geologiya-minerologiya elmləri namizədidir.

## ƏBULKƏND

(Əmirkəndi)

İndiki Kamo şəhərindən 12 kilometr cənub-şərqdə, müasir Badikyan kəndinin yaylaq örüşləri kimi səciyyələndirilən bir ərazidə xərabəlikləri qalmış bu qədim türk yurdunun izlərini tarixdən silmək üçün erməni alimləri bilərəkdən bir sıra dolaşıqlıqlara yol vermişlər. Onların iddiasına görə, Əbulkəndi toponimi Ağzıbir kəndinin əvvəlki adıdır. Halbuki bu iddianın əsassızlığını təsdiqləyə biləcək yazılı məlumatlar da, maddi sübutlar da kifayət qədərdir. Belə ki, 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış və hazırda Türkiyə Cümhuriyyətinin Başbakanlıq Arxivində saxlanan "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində Əbulkənd (mənbədə Əmirkəndi), Ağzıbir (mənbədə Kəməndbulaq) və Qızılcıq (mənbədə Qızıldaş) adlı obaların hər biri haqqında ayrı-ayrılıqda qeydlər aparılıb və onların sultan xəzinəsinə il-

lik ödənclərinin müvafiq olaraq 5575, 1750 və 3590 ağça həcmində olduğu göstərilib.

1828-ci ildə yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalının o zaman yaşayış üçün yararlı sayılan kəndlərinin İ.Şopen tərəfindən məhz ermənilərə istinadən hazırlanmış siyahısında Əbülkəndinin adı altıncı sırada yer alır və elə oradaca Qızılcıq kəndi ilə eyniləşdirilir. Əslində isə Qızılcıq da tamam başqa bir kənddir (bax Qızılcıq kəndi barədə məlumatlara). Bundan sonrakı dövrlərə aid sənədlərdə isə yalnız Qızılcıq kəndinin adına rast gəlinir. Məlumatların bu cür qarışdırılmasından hasil olan nəticə isə odur ki, Əbulkəndi 1826-1829-cu illər aralığında baş vermiş İran-Rusiya, Türkiyə-Rusiya müharibələri zamanı erməni-rus hərbi birləşmələri tərəfindən Göyçədə yerlə-yeksan edilmiş 108 kənddən biri olmuşdur. Bu kəndlərdən 54-ü sonradan bərpa olunsa da, qalan 54-ü tarix səhnəsindən biryolluq silinmişdir ki, onlardan da biri məhz Əbulkənddir. Sadəcə kəndin əhalisi müvəqqəti olaraq ərazicə ona daha yaxın Qızılcıq kəndinə sığındığından ermənilər bu reallıqdan maksimum bəhrələnməyə çalışmışlar. XIX əsrin sonlarında isə Qızılcıq da dağıdıldıqdan sonra əhalisinin bir qismi Ağzıbırdə məskunlaşdığından daşnak-kommunist "tarixçilər" ortaya yeni tezis ataraq, Qızılcıq, Əbulkənd və Ağzıbir toponimlərinin eyni bir yaşayış məntəqəsinin müxtəlif tarixi dönəmlərdəki adı olduğunu sübut etməyə cəhd göstərmişlər. Maddi sübutlar isə tamam başqa mətləblərdən xəbər verir. Akademik B. Piotrovski arxeoloji qazıntılara istinadən sübuta yetirib ki, Ördəkli qalasından başlayaraq Göyçəli Başkəndinə qədər uzanan istehkam daxilindəki yurd yerlərinin hamısının əsası eramızdan əvvəlki tarixin ikinci minilliyinin sonlarında qoyulub və bu istehkama daxil olan obalar vahid bir mərkəzdən idarə olunan dövlət anlamına gəlirmiş. Bu istehkamdan kənardakı qədim yurd yerlərinin tarixini isə B. Piotrovski eramızın əvvəllərinə şamil edir. Yəni ki, birləşmiş qalalar daxilindəki kəndlərlə, istehkam xaricindəki kəndlərin əsaslarının qoyulması arasında azı 1200-1400 il fərq var. Əbulkəndinin də, Qızılcığın da xərabəlikləri coğrafi koordinant etibarı ilə məhz bu istehkamların xaricinə düşür. Ağzıbir kəndinin müasir coğrafi mövqeyi isə o istehkamların daxilindədir. Bu isə o deməkdir ki, Əbulkəndi ilə Ağzıbir tarix etibarı ilə belə bir-biri ilə eyniləşdirilə bilməz. Bu cür eyniləşdirmə cəhdi yalnız erməni tarixşünaslığına xas olan bir üslubdur və bu da səbəbsiz deyil. Bu qəbil eyniləşdirmədə yallnız bir məqsəd güdülüb: tarixin əski qatlarından gələn türk toponimlərinin izlərini itirmək və beləliklə də, o kəndlərdə törətdikləri tarixi cinayətlərin məsuliyyətindən yayınmaq. Əbulkəndi ilə bağlı həqiqətlərin qəsdən dolaşdı-

rılması da eyni məqsədə hesablanıb. Amma kağız üzərində özünəbəraət hələ tarix qarşısında bəraət demək deyil...

## ƏFƏNDİ

Erməni mənbəlrində bu toponim Rəhmankəndinin (indiki Sevan rayonunun Noraşen kəndi) əvvəlki adlarından biri kimi xarakterizə edilir. Əslində isə XIX əsrin əvvəllərinə qədər həm Rəhmankəndi, həm də Əfəndi kəndi tam müstəqil inzibati vahidlər kimi mövcud olmuşlar və bu reallığı həm rəsmi sənədlər, həm də maddi sübutlar təsdiqləyir. Rəhmankəndi indiki Sevan-Kamo şosesindən təxminən 1,5 km. cənubda yerləşir və kəndin indiki coğrafi mövqeyindən 300-400 metr cənub-qərbdəki, VI-VII əsrlərə aidliyi şübhə doğurmayan məzarlığın qalıqları 1988-ci ilə qədər toxunulmamış qalırdı. Əfəndi kəndinin xərabəlikləri isə həmin şose yolunun şimalında, Göyçə gölünün şimal-qərb sahilində, indiki Sevan şəhərindən 3-4 kilometr şimal-şərqdədir. Yəni Rəhmankəndinin qədim məzarlığı ilə Əfəndi kəndinin xərabəlikləri arasında təxminən 6-6,5 kilometr məsafə var ki, bu da erməni tarixçilərinin uydurmalarına tarixin özünün cavabı kimi dəyərləndirilə bilər. Əfəndinin xərabəliklərində 1988-ci ilə qədər toxunulmamış qalan, tarix etibarı ilə eramızın II-III əsrlərinə aid edilən, memarlıq həlli baxımından daha çox zərdüşti məbədlərə bənzəyən türbənin üzərindəki daş kitabə isə oğuz türklərinin burada məskunlaşmasının 2000 illik tarixini təsdiqləyən maddi sübutdur. Amma bununla belə XIX əsrin əvvəllərinə dair sənədlərdə, o cümlədən İ.Şopenin tərtib etdiy siyahıların heç birində, nə erməni-rus hərbi birləşmələrinin Göyçədə dağıtdığı kəndlərin, nə də erməni vilayətinin idarəçiliyinə zorla verilmiş 63 yaşayış məntəqəsinin siyahılarında Əfəndinin adı qeyd olunmur. Bu deyilən tarixi faktlardan isə belə qənaətə gəlmək olar ki, ermənilərin fitvası ilə rusların Göyçədə viran qoyduğu; eyni zamanda İ.Şopenin cədvəllərində "adları unudulmuş ölü kəndlər" qrafasında ümumiləşdirilmiş 40, yaxud da ümumiyyətlə diqqətdən kənarda saxlanaraq adları heç bir siyahıya salınmamış 41 türk kəndinin biri də Əfəndidir və onun bərpasına heç bir vəchlə imkan verilməyib. Təssüf ki, bu faciənin də təfərrüatı Azərbaycan tarixində əks olunmayıb. Elə bu səbəbdən də bu qədim türk obasının əzəli sahiblərinin sonrakı taleyi barədə də səhih məlumat almaq mümkün deyil. Yalnız ermənilərin sonradan "Rəhmankəndi" və "Əfəndi" toponimlərini qəsdən qarışdırmaq cəhdlərinə nəzərən belə güman etmək olar ki, Əfəndi kəndinin sağ qalan əhalisinin bir qismi

ərazicə ona yaxın olan Rəhmankəndində məskunlaşıb, yaxud da ermənilər onları kəndlərin birləşməsinin zəruriliyi bəhanəsi ilə doğma yurda dönməyə qoymayıblar. Belə bir kəndin adının erməni mənbələrində çəkilməməsi erməni tarixşünaslığının ənənələri baxımından başa düşüləndir. Ermənilər Əfəndi adını Rəhmankəndi ilə qarışdırmaqla incə bir manevr etməyə çalışıblar: bir tərəfdən oğuz türkünün Göyçənin əzəli sahibi olmasının təsdiqləyicisi kimi çıxış edən faktların sayını mümkün qədər azaltmaq, digər tərəfdən də belə bir qədim kəndin yoxa çıxmasının təfərrüatını - yəni Əfəndi kəndində törətdikləri cinayətlərin izlərini itirmək məqsədi güdüblər. Əfəndi kəndindəki məbədin qalıqlarının məhv edilməməsi isə onun sonradan erməni memarlığına uyğun bərpa edilərək, "erməni tarixinin qədimiliyini sübut edən maddi dəyər"lərdən biri kimi ortaya çıxarılması istəyi ilə şərtlənir. Amma istək istəkliyndə, fakt isə faktlığında qalır. Ermənilər o məbədi nə qədər rekonstruksiya etsələr də, türk memarlığına məxsus rəmzlərin hamısını gizləyə bilməyəcəklər, çünki məbəd bütövlükdə əbədi odun fəaliyyətinə hesablanmış bir mükəmməl kompleksdir və onun hər hansı konstruksiyasının dəyişdirilməsi, qübbəsinin qüllə ilə əvəzlənməsi tikilinin təyinatını dəyişmək iqtidarında deyil. Qalır bircə yol: o məbədi bünövrəsindən məhv edərək, onun daşlarından yeni bir erməni kilsəsi quraşdırmaq və sonradan məhz daş kitabələrin qədimiliyinə istinadən kilsənin qədimliyini sübuta yetirmək. Erməni diyarşünaslığının ümumən bu fənd üstündə durması reallığından çıxış edərək, Əfəndi məbədinin də belə bir tale yaşayacağını ehtimal etmək olar. Amma bu qəbil tarix yaradıcılığının ömrü ilk ciddi tətqiqatlara qədərdir ki, bu gerçəkliyi erməni tarixçiləri də dərk edirlər və belə bir aqibətdən hər vasitə ilə qaçmağa çalışırlar. Bu xofun bariz nümunələrindən biri erməni soyqırımını dünyaya həqiqət kimi qəbul etdirmək istəyən erməni tarixçilərinin rəsmi Ankaranın arxivləri açmaq və dünya alimlərinin iştirakı ilə araşdırmaq təklifindən israrla yayınmasıdır.

## ƏHMƏDLİ

Xərabəlikləri Göyçə gölünün şimal-qərbində, sahildən təxminən 3,5 kilometr məsafədə, Əyricə çayın üstündə 1988-ci ilə qədər qalan bu kənd 1826-1829-cu illərdə baş vermiş İran- Rusiya, Rusiya- Türkiyə müharibələrinin gedişində erməni- rus hərbi birləşmələri tərəfindən, sözün tam mənasında yerlə-yeksan edilərək, "adları unudulmuş ölü kəndlər"in siyahısına salınmışdır. Amma.... XIX əsrin ortalarında əzəli sahibləri doğma

yurda qayıdaraq kəndi yenidən abadlaşdırmışlar ki, bu tarixi gerçəklik də rəsmi sənədlərdə əksini tapmışdır. Belə ki, 1897-ci ilin rəsmi statistikasına görə kənddə 35 türk ailəsi (141 nəfər) yaşamışdır. 1905-ci ildə ermənilərin türklərə qarşı apardığı növbəti soyqırımı kampaniyası zamanı kənd təkrarən dağıdılaraq, bu dəfə həqiqətən də ölü kəndə çevrilmiş- yer üzündən və xəritələrdən birdəfəlik silinmişdir. O zaman kənddə olan türklərin aqibəti barədə məlumat yoxdur.

## ƏLİKƏNDİ

(Bəd Əlinin kəndi)

Göyçə gölünün cənub - qərb sahillərində qərarlaşmış bu kənd barədə də ilk və son rəsmi yazılı məlumat XVIII əsrin əvvəllərinə aiddir. 1723-cü ildə osmanlılar Göyçə hövzəsinə bütünlüklə nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş və 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində bu qədim türk yurdu "Bəd Əlinin kəndi" kimi təsniflənir. Sənəddən bəlli olur ki, həmin dövrdə Əlikəndi İrəvan əyalətinin Göyçə nahiyəsinin inzibati hüdudlarına daxil imiş və kəndin sultan xəzinəsinə illik ödənci 1200 ağça həcmində müəyyənləşdirilibmiş. 1828-ci ildə yeni yaradılan erməni vilayətinin idarəçiliyinə verilən yaşayış məntəqələrinin siyahısında bu kəndin adına rast gəlinməməsi isə belə bir qənaətə əsas verir ki, 1826-1829-cu illərdə baş vermiş İran-Rusiya, Rusiya- Türkiyə müharibələri zamanı Göyçə hövzəsində yerlə-yeksan edilmiş və adları o dövrə dair heç bir rəsmi sənəddə yer almamış 81 qədim türk yurdundan biri də Əlikəndidir.

## ƏLİQIRIX

(Bədəlli)

İndiki Martuni şəhərindən 17 kilometr cənub-qərbdə, Göyəm silsiləsinin Züldağ zirvəsi ilə Ərgiş çayının mənbəyi arasındakı yamaclıqda yerləşən Əliqırıx kəndinin adı nə 1826-1829-cu illər aralığında dağıdılan, nə də yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş yaşayış üçün yararlı Göyçə kəndlərinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahılarında yer almayıb. Amma nə qədər qəribə olsa da, sonrakı 70 il ərzində də

rəsmi sənədlərdə adı çəkilməyən bu kənd XX əsrin əvvəllərində əhalisinin etnik tərkibi etibarı ilə sırf türk kəndi və mahalın ən iri yaşayış məntəqələrindən biri kimi "peyda" olub: 1914-cü ilin rəsmi statistikasına görə, kəndin yalnız türklərdən ibarət olan sakinlərinin sayı 753 nəfər imiş. 1918-ci il vəhşiliklərindən sonra isə rəsmi hesabatlarda Əliqırıx kəndi əsası ermənilər tərəfindən qoyulmuş sırf erməni kəndi kimi təqdim olunub. Amma nədənsə (???) Ermənistanın daşnak- sovet hökuməti "əsası ermənilər tərəfindən qoyulmuş təmiz erməni kəndi"nin sırf türk mənşəli adını dəyişmək barədə yalnız 1935-ci ildə fikirləşib və Ermənistan Xalq Komissarları Soveti Mərkəzi İcraiyyə Komitəsinin 3 yanvar 1935-ci il tarixli qərarı ilə Əliqırıx toponimi "Astxadzor" sözü ilə əvəzlənib. Bəs kəndin adının rəsmi sənədlərdə yer almaması nə ilə bağlı ola bilərdi? Müəmmalı sualdır. Amma...Açılışı da müşkül deyil.

XX əsrin əllinci illərinin əvvəllərində erməni arxeoloqu A. O. Mnatsakanyan "Astxadzor qalası"nda qazıntılar apardı və kurqanlardan birində eramızdan əvvəlki dövrün IX-VIII əsrlərinə dair dəmir əşyalar, silah-sursat qalıqları aşkarlandı. Skeletlərin birinin çanaq sümüyündə ilişib qalmış tunc ucluqlu ox isə bu yerlərin binələşdirilməsinin daha qədim tarixi barədə mülahizələrə rəvac verirdi. Belə ki, həmin kurqandakı kütləvi dəfnin izləri hələ 2800 il əvvəl burada ciddi döyüşlər getdiyinin birbaşa təsdiqləyicisi rolunu oynayırdı. O ciddi döyüşlərdən əvvəl qalanın tikilməsi və qalanın sahiblərinin mütəşəkkil müdafiə şüuru səviyyəsinə yüksəlişi isə heç şübhəsiz minilliklərlə ölçülən bir tarixi prosesin nəticəsi idi. Deməli, "Astxadzor qalası"nın əsasının qoyulmasının, onun əzəli sahiblərinin bu yerləri binələşdirməsinin tarixini də daha qədimdə, ən azı eramızdan əvvəlki dövrün ikinci minilliyinin ortalarında, yəni tarixin 3500-4000 illik dərinliyində axtarmaq gərəkdir. A. Mnatsakanyanın tapıntıları ilə tanış olan akademik B. Piotrovski də "Astxadzor qalası"nın qədim tarixə malik olmasını təsdiqlədi. Amma... Qalaya rəsmi səviyyədə baxış zamanı aşkarlandı ki, buradakı daş-kitabələr xeyli əvvəl səliqəli şəkildə kəsilərək götürülüb. Bunu kim etmiş olardı? Araşdırmalardan sonra məlum oldu ki, Eçmiədzin kilsəsinin yepiskopu Mesrop Smbatyants hələ 1863-cü ildə bu yerlərdə "tədqiqatlar" aparıb və "Astxadzor qalası"ndakı daş kitabənin kəsilib götürülməsi də məhz onun "əl işi"dir. Həmin kitabə barədə məlumatlar Eçmiədzin kilsəsinin 1869-cu il tarixli bülleteninin 27-ci səhifəsində və M.Smbatyantsın "Описание области Гехаркуни" kitabında aşkarlandıqdan sonra kitabənin öz taleyinə də aydınlıq gətirildi. Məlum oldu ki, həmin kitabə də vaxtilə Qafqaz Muzeyinə verilib və hazırda Gürcüstan Dövlət Muzeyində saxlanır. Bütün bu aydınlaşdırmalardan

sonra akademik B. Piotrovski "Astxadzor qalası"nı Ermənistan ərazisindəki ən qədim qala kimi səciyyələndirdi. Amma o, bu dəfə digər anoloji hallarda olduğu kimi qalanın qədim adını qeyd etmədi. Çünki həmn vaxt Astxadzorun əvvəlki adı barədə heç bir mənbədə məlumat yox idi; rəsmi sənədlərdə isə Astxadzor əsası 1900-cü ildə qoyulmuş kənd kimi təsnifl ənirdi. Bu səbəbdən də akademik B. Piotrovski 4000 il yaşı olan qədim qalanı şərti olaraq "Astxadzor qalası" adlandırmaq "məcburiyyətindəydi". Amma o zaman artıq ömrünün ixtiyar çağında olan bu zəhmətkeş alim bir az da zəhmətə qatlaşıb tarixə təkrar nəzər salsa görərdi ki, orta əsrlər tarixçisi kimi təsniflənən Moisey-Xorenskinin Şamiram haqqında nağıllarında Kələqıran və Atamxan qalaları ilə yanaşı Əliqırıx qalasına da işarə var və ermənilər "super dövlətlərinin" sərhədlərini axtararkən bu işarətlərədən yararlanıblar. Görərdi ki, 1555-ci ilə dair məxəzlərdə Əliqırıx qalası Səfəvi Azərbaycan dövlətinin Çuxur-Sədd bəylərbəyliyinin ərazisindəki ən möhtəşəm qalalardan və ən iri yaşayış məskənlərindən biri kimi təsniflənib. Görərdi ki, 1728-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində "başqa bir adı Əliqırıx olan Bədəlli kəndi"nin Göyçə nahiyəsinin inzibati vahidlərindən biri olduğu və onun sultan xəzinəsinə ödəncinin 1200 axça həddində müəyyənləşdirildiyi barədə qeydlər aparılıb.

Akademik B. B. Piotrovski bir az diqqətli olsaydı bu həqiqətləri görərdi və bütün XIX əsr əsr ərzində rəsmi hesabatlarda yer almamış bir kəndin 1914-cü ilə dair hesabatlarda yenidən peyda olmasının, eləcə də kəndin qədim adı ilə yox, el rasında işlənən yeni adı ilə - Əliqırıx adı ilə təqdim olunmasının səbəblərini anlayardı.

Bütün bu reallıqlar fonunda yuxarıda qoyulmuş suala- Əliqırıx haqqında məlumatların israrla gizlədilməsinin səbəblərinə aydınlıq gətirmək çox asandır. Bəli, ermənilər əsl həqiqətləri bilirdilər və ona görə də Əliqırıx toponimi ilə bağlı təfərrüatın açılmasında maraqlı deyildilər. Bu səbəbdən də 1826-1829-cu il müharibələri dövründə qədim tarixi olan digər qalaların ərazisindəki kəndlər kimi Bədəlli kəndinin əhalisinə qarşı da xüsusi amansızlıq nümayiş etdirmiş, onu İ.Şopenin siyahılarında "adı unudulmuş ölü kəndlər" qrafasına salmağa müvəffəq olmuşdular. Yaşayış üçün yararlı kəndlərin siyahısına salınmaması isə ona dəlalət edir ki, ermənilər Bədəllinin bərpasında maraqlı olmayıblar. Amma onların istəyinə rəğmən, əhalisinin bir qismi sağ qalmış digər Göyçə kəndləri kimi Bədəlli də XIX əsrin ortalarında öz əzəli sahibləri tərəfindən bərpa olunub. Elə həmin vaxtlarda yepiskop M. Smbatyants Əliqırıx qalasının qədimdən-qədim tarixinə şəhadət verə biləcək maddi sübutlar əldə etsə

də, bu həqiqətləri kütləviləşdirmək məqsədəuyğun sayılmayıb. Çünki qalanın tarixi ilə bərabər, onun əsl sahiblərinin kimliyi də maraq doğura bilərdi. Odur ki, erməni tarixşünaslığı bu həqiqətlərin yayılmasını daha münasib bir vaxta, əsası ermənilər tərəfindən qoyulduğu şübhə doğurmayan bir kənd barədə rəyin formalaşacağı bir zamana saxlayıblar. Saxladılar da. Qalanın rəsmi elmi dairələrdə "Astxadzor qalası" kimi qəbul edilməsinə nail oldular da. Amma heç kim bu qalanın 3000 il əvvəl şəhid düşmüş döyüşçülərinin erməni, silahlarının erməni sənətkarlığı nümunəsi, qalanın isə erməni memarlığı incisi olduğu fikrini ciddi qəbul etmədi. Hətta ermənilərin xidmətindən maksimum dərəcədə yararlanmış akademik B. Piotrovski belə açıq mətnlə göstərdi ki, **"...burada tapılan əşyalar, ən yaxşı halda** (*ermənilər üçün ən təsəlliverici halda- S.V.*) **Urartu işğalına qarşı mübarizə aparmış yerli qəbilələrə aid edilə bilər"**. Yəni ki, Əliqırıx qalasının nə vaxtsa "Böyük Van İmperiyası"nın ərazisi olması barədə versiya ciddi qəbul edilmiş olsa belə, o qalanın Van çarlığının təşəkkülündən çox-çox əvvəl mövcud olmasına, onun əzəli sahiblərinin "Van işğalçıları"na qarşı ciddi müqavimət göstərməsinə şübhə yoxdur. Daha konkreti, Əliqırıx qalasının ermənilərə heç bir aidiyyatı yoxdur: burada aşkarlanmış maddi sübutlar isə ermənilərin qədim xalq olduğuna yox, qalanın əsl sahiblərinin, yəni oğuz türklərinin hələ 4000 il öncə mütəşəkkil müdafiə şüuru, yəni dövlətçilik şüuru səviyyəsində inkişafına şəhadət verir.

## ƏMİRYAR

Göyçə gölünün cənub-qərbində, indiki Martuni rayonunun Göl (Liçk) kəndindən təxminən 12-13 kilometr cənubda, Ərgiş çayının mənbəyinə yaxın zirvədə xərabəlikləri qalmış bu kəndin adına Göyçənin el yaddaşında tez-tez rast gəlinməsinə, onun faciəvi taleyinə işarət olan yaddaş yaşantılarının mövcudluğuna rəğmən, erməni mənbələri Əmiryarın varlığını danmaqda israrlıdırlar və bu əsassız inadkarlıq Rusiyanın istəyi ilə erməni dövləti yaratma prosesinin bütün 180 illik dövrü ərzində dəyişməz xarakter daşıyıb. Amma...Heç bir kor inad tarixi həqiqətləri yenmək gücündə deyil. Tarixi faktlar Əmiryarın mövcudluğuna birmənalı şəkildə şahidlik edir. 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində osmanlıların tətbiq etdiyi inzibati bölgüyə əsasən Göyçə nahiyəsinin ərazisinə daxil edilmiş kəndlərin siyahısı verilib ki, həmin siyahıda da 33-cü sırada məhz Əmiryar kəndinin adı yer alıb. Həmin sənəddən o da bəlli

olur ki, XVIII əsrin 20-ci illərində Əmiryarın sultan xəzinəsinə illik ödənci 4920 ağça həcmində müəyyənləşdirilibmiş. Bu həcmdə illik vergi isə o deməkdir ki, Əmiryar kəndi nə əhalisinə, nə də ərazisinə görə kiçik yaşayış məntəqəsi kimi təsniflənə bilməzdi. İ.Şopenin 1831-ci ildə Göyçədəki vəziyyəti ehtiva edən siyahılarında və ondan sonrakı dövrlərə dair rəsmi sənədlərdə isə Əmiryar kəndinin adı çəkilmir. XVIII əsrin ortalarında Göyçənin orta səviyyəli kəndləri sırasında olan bir yurd yerinin XIX əsrin əvvəllərində birdən-birə qeybə çəkilməsinin səbəbsiz olmadığı da bəllidir. Bəs o səbəblər nədən ibarətdir və onları hansı tarixi amillər, hansı cinayətkar əməllər şərtləndirib? Təssüf ki, İqrar Əliyevin redaktəsindən keçmiş Azərbaycan tarixşünaslığı bütün anoloji hallarda olduğu kimi bu dəfə də israrla susur. Bu suala kokret cavab ola biləcək maddi sübutları axtarmaq fürsətini isə bir millət olaraq özümüz çoxdan əldən buraxmışıq. O imkanı əldə edəcəyimiz zamana qədərsə, ermənilərin o yerlərdəki izlərimizi biryolluq silməyəcəklərinə güman azdır.

## ƏRGİŞCƏ

(Ərgüş qalası)

Göyçə gölündən təxminən 16 kilometr cənubda, Göyəm silsiləsinin Ərgiş çayının mənbəyinə yaxın bir zirvəsindəki xərabələri 1988-ci il deportasiyasına qədər toxunulmamış qalan Ərgüş qalasının Göyçə mahalının ən qədim yaşayış məskənlərindən biri olduğu şəksizdir. Qədim türk memarlığı üslubunda - ovalvari planda tikilmiş bu qalanın eramızdan əvvəlki dövrün ikinci minilliyinə, təxminən e.ə. XVIII-XV əsrlərə aid olduğu hətta erməni tarixçiləri tərəfindən təsdiqlənmiş həqiqətdir. Qalanın ümumən dəniz səviyəsindən 2000 metr yüksəklikdə olan Göyçə hövzəsinin əlçatmaz zirvəsində tikilməsi faktına istinadən isə belə bir qənaətə gəlmək olar ki, bu müdafiə kompleksi Öğuz Xanədanı üçün mühüm əhəmiyyət kəsb etmişdir. Şah İsmayıl Xətainin Göyçə səfəri zamanı yolunu rahat bir marşrutla yox, məhz çətin relyefli bu qalanın ərazisi ilə davam etdirməsi faktı da Ərgüşcənin Oğuzun taleyindəki tarixi əhəmiyyətinə işarə kimi dəyərləndirilə bilər. 1555-ci ilə dair rəsmi yazışmalarda Ərgişcə Səfəvi Azərbaycan dövlətinin Çuxur-Sədd bəylərbəyliyinin inzibati vahidlərindən biri kimi səciyyələndirilir. Osmanlıların 1723-cü ildə Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etməsindən 5 il sonra hazırlanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 16-cı səhifəsində Ərgüş kəndinin adı yer alsa da, onun vergiləri barədə məlumat verilmir. Bu

qeydlərdən təkcə o bəlli olur ki, osmanlıların tətbiq etdiyi inzibati bölgü nəticəsində Ərgişcə İrəvan əyalətinin Göyçə nahiyəsinin idarəçiliyinə verilibmiş. 1826-1829-cu illər İran-Rusiya, Rusiya- Türkiyə müharibələri zamanı nə dağıdılmış kəndlərin, nə də yaşayış üçün yararlı məntəqələrin siyahılarında Ərgişcənin adının olmaması ona dəlalət edir ki, məhz bu müharibələr nəticəsində Göyçədə dağıdılmış, sonradan isə bilərəkdən "adı unudulmuş ölü kəndlər" kimi təsnifllənmiş qədim türk yurdlarından biri də məhz Ərgişcədir. Amma nə yazıq ki, bütün digər anoloji hallarda olduğu kimi, bu qədim türk yurdunun yaşadığı faciələrin izləri də Azərbaycan tarixşünaslığında öz əksini tapmayıb. Erməni tarixşünaslığı isə bu adın ümumiyyətlə tarixdən silinməsi yönündə "misilsiz" xidmətlər göstərib. XIX əsrin ortalarında Karvansaray kəndində "ərgişcəlilər məhəlləsi" deyilən yeni bir məhəllə ilə yanaşı Kəvər nahiyəsindən köçüb gəlmiş "əyriçaylılar"ın da öz məhəlləsi təşəkkül tapıb. Məhz bu tarixi reallıqdan yararlanan erməni tarixşünaslığı rəsmi sənədlərdə 1873-cü ilə qədər Karvansaray adı ilə tanınan kəndi bundan sonrakı sənədlərdə "Əgrişçay", 1918-ci ildən sonra isə "Əyriçay" kimi qeyd etmişlər. İlk baxışda bu cür dolaşıqlığı adi məlumatsızlığın, yaxud da texniki qüsurun ayağına yazmaq olar. Amma... Erməni tarixşünaslığının çirkin məqsədi göz qabağındadır. Bütün bu oyunlarda məqsəd Ərgişcə adının izləini itirmək, XIX əsrin ortalarında Karvansarayda ərgişcəlilərin yox, Əyriçay sahillərindəki müxtəlif obalardan didərgin düşmüş insanların məskunlaşması barədə rəy formalaşdırmaqla, diqqəti Ərgiş qalasından yayındırmaq olub. Ərgiş qalasının diqqətdən yayındırılması yönündə XIX əsrin son 30 ili ərzində ciddi səylər göstərilməsi də səbbəsiz deyildi. 1863-cü ildə Eçmiədzin emissarları bu qalanı da goreşən kimi eşmiş, Ərgiş adlı hökmdara məxsus mixi yazıları oğurlayaraq Eçmiədzinə aparmışdılar. XX əsrin ortalarında isə həmin daşlar "İrəpuni" şəhərinin xərabələrindən tapıldı. Amma nədənsə heç kim Ərgiş adlı hökmdarın Göyçə gölünün sahilində qala tikməyə qərar verməsi barədə hökmü niyə İrəvan qalasının divarına yazmasının səbəblərinə aydınlıq gətirmədi. Ərgişcənin adının belə israrla gizlədilməsinin səbəbi nə ola bilərdi: saxtakarlığa öyrəncəli erməni tarixçiləri elə həmin qalanı erməni qalası kimi təqdim edə bilməzdilərmi? Məsələnin mahiyyəti də elə bu sualın arxasındadır. Məsələ ondadır ki, Göyçə ərazisindəki əksər qalalardan fərqli olaraq Ərgişcə sahildə yox, zirvədə tikildiyindən onun bünövrəsi yuyulub dağılmayıb və məhz bu reallıq qalanın memarlıq həlli barədə tam təfsilatı açmağa imkan verir. Bu təfsilat isə kağız üzərində formalaşdırılmış "erməni memarlığının ənənələri" ilə əsla uzlaşmır. Ən nəhayət, Ərgişcədəki yeganə məzarlıqda həm oğuz kul-

tunun, həm alban, həm də islam mədəniyyətinin izlərini yaşadan qəbirüstü abidələrin mövcudluğu, burada 3000 il ərzində eyni bir etnosun yaşadığını təsdiqləyən maddi sübutlardır ki, o millətin adını dilə gətirmək erməni tarixşünaslığına ölümcül zərbə vurulması, ermənilərin Göyçə ilə bağlı iddialarının özləri tərəfindən rədd edilməsi demək olardı. Bax buna görə də erməni tarixçiləri Ərgişcənin adının silinməsində maraqlı olublar və...Bütün qədim adlar, qədim obalar kimi onun da izlərinin itirilməsi üçün az qala bir əsrə yaxın müddətdə xüsusi plan üzrə yalanlar uydurub, "elmi məlumatlar" hazırlayıblar. Təbii ki, bu qəbil əməllər cinayət kimi tövsif olunur. Amma... Hüquqda cinayətlə yanaşı cinayət şəraiti də var. Konkret halda erməniləri ittiham etməzdən əvvəl onlara kimin şərait yaratdığı barədə düşünməyə də ehtiyac duyulur. Və istər-istəməz bir sual doğur: Ərgiş qalasının dağıdılması ilə bu qaladan və digər yerlərdən gətirilmiş daş kitabələr hesabına İrəvanın 2750 illik erməni şəhəri olmasının bayram edilməsi arasındakı 100 illik bir dövrdə bizim tarixşünaslıq nə edib?!. Cavab utandırıcıdır: həqiqəti aramağa ehtiyac duymayan Azərbaycan tarixşünaslığı özünün İqrar Əliyev epoxasına qədəm qoyduqdan sonra erməni havasına oynayıb: "Ərşahlar hakimiyəti" kimi anlamlı bir ifadənin "Arşakilər dövrü" kimi qəbul edilməsi üçün xüsusi zəhmətə qatlaşıb; Kələqıran ifadəsininin rus variantını - "Kalyaqıryan" sözünü Azərbaycan dilinə "Kolagirən" kimi tərcümə edib; "Göyəm silsiləsinin" Aəzrbaycan xəritələrində "Geqam" kimi qeyd olunmasında israr göstərib; ən nəhayət, Ərgüc kimi tam anlaqlı bir türk sözünün erməni yozumu olan "Arqiş", "Arqişti" deyimlərinin "elmiliyini" təsdiqləməklə, Azərbaycan tarixinin bir neçə min illik ömrünü 10 əsrə qədər qısaltmağa müvəffəq olub...

## ƏYRİCƏ HƏQİQƏTLƏRİ

**ƏYRİCƏ-1.** Göyçə gölünün şimal-qərbində, Əyricə çayın sahilində eyni adlı bir kənd olub. Bu ərazilərdə XX əsrin 30-cu illərində arxeoloji qazıntılar aparmış akademik B. Piotrovski konkret şəkildə göstərirdi ki, Əyricə qalasının qərb və cənub səmtlərində, istehkam divarlarından çox da uzaq olmayan bir məsafədə, hətta məskunlaşma tarixinə görə bir-birindən kəskin fərqlənən iki yaşayış məntəqəsi olmuşdur ki, onlardan biri Atdaş, digəri isə Əyricə kəndidir. Sovet hakimiyyəti illərində türklərin bu yerlərdəki məskunluğunu hər vəchlə ört-basdır etmək yönündə xüsusi canfəşanlıq göstərərn erməni alimləri isə belə bir iddia ilə çıxış etmişdi-

lər ki, “B.Piotrovski bu qala haqqında məlumat verərkən sadəcə yanlışlığa yol verib, çünki Göyçə hövzəsində Əyricə adlı cəmi bir kənd olub və o kənd də Kəvər nahiyəsində yox, Basarkeçər nahiyəsində yerləşib”. Ermənilər bu iddianı irəli sürərkən, heç şübhəsiz XIX əsrdə rəsmi sənədlərdə Əyricə adlı cəmi bir kəndin adının yer alması faktına istinad ediblər. Bəs həqiqəti necə müəyyənləşdirməli: maddi dəlillərə istinad edən akademik B. Piotrovskimi yanılıb, yoxsa XIX əsrin arxiv sənədlərinə əsaslanan erməni tarixçilərimi təhrifə yol verirlər? Bu sual da ilk baxışda cavabı müşkül sual təsiri bağışlayır. Amma... Əyricə məsələsində, digər anoloji hallardan fərqli olaraq, xoşbəxtlik şansı bizim tərəfimizdədir. Belə ki, 1829-cu ildə qraf Paskeviç-Erivanskinin tapşırığı ilə indiki Ermənistan ərazisində kameral siyahıyaalma keçirən kollec assesoru İ. Şopen 1826-1829-cu illərdə baş vermiş İran-Rusiya, Türkiyə-Rusiya müharibələri nəticəsində Göyçə mahalında dağıdılmış kəndlərdən 67-nin siyahısını tərtib edərək onlardan 40-nı ermənilərə istinadən “adı unudulmuş ölü kəndlər” siyahısına daxil etsə də, “Əyricə” adlı 3 kənd haqqında ayrı-ayrılıqda məlumat verib: daha konkreti, rus-erməni hərbi birləşmələri tərəfindən dağıdılmış kəndlərin siyahısında 20 və 62-ci sıralarda, eyni zamanda o zaman yaşayış üçün yararlı sayılan 59 kəndin siyahısında 49-cu sırada yer alan yaşayış məntəqələrinin hər üçünün adının “Əyricə” olduğunu göstərib. Həqiqət də belədir. Bizim şərti olaraq “birinci” Əyricə adlandırdığımız kənd Kəvər nahiyəsindəki Əyricə çayının mənbəyinə yaxın bir yerdə, Göyəm sıra dağlarının ətəyində, onunla eyni dövrdə faciəli aqibət yaşamış Atdaş kəndi ilə həmsərhəd bir ərazidə yerləşib. Sovet hökuməti illərində örüş yerləri kimi istifadə olunan həmin ərazidə 1988-ci il deportasiyasına qədər qalan xərabəliklər və akademik B. Piotrovskinin tədqiq etdiyi qalanın qalıqları bu gerçəkliyi təsdiqləyən maddi sübutlardır. Yerlə-yeksan edildikdən sonra kəndin bərpasına dövlət səviyyəsində imkan verilmədiyindən “birinci” Əyricə əhalisinin sağ qalan qismi indiki Martuni rayonu ərazisindəki Qızılxaraba kəndində məskunlaşmışdır ki, ermənilər də məhz bu tarixi reallıqdan maksimum bəhrələnməyə- Kəvər nahiyəsindəki Əyricə kəndində törətdikləri cinayətin izlərini itirməyə çalışmışlar. Bir sözlə, Kəvər və Qaranlıq nahiyələrində Əyricə adlı kəndlərin olmaması, “Əyricə” toponiminin Qaranlıq nahiyəsindəki Qızılxaraba kəndinin əzəli adı olması barədə iddialar erməni tarixşünaslığının növbəti həyasızlığından savayı bir şey deyil.

**ƏYRİCƏ-2.** 1826-1829-cu illər Rusiya-İran, Türkiyə-Rusiya müharibələri zamanı erməni-rus hərbi biləşmələrinin Göyçədə yerlə-yeksan et-

diyi 108 kənddən 67-nin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında 62-ci sırada yer alan "ikinci" Əyricə kəndinin xərabəlikləri "birinci" Əyricənin tam əks istiqamətində Göyçə gölünün şimal-şərqində, Səmənd Ağa Karvansarayından təxminən 4 kilometr şimal-qərbdə, müasir coğrafi anlamda Vardenis və Çambarak rayonlarının sərhəddi kimi təsniflənən bir ərazidədir. O xərabəliklərdəki qəbirüstü kitabələrin qalıqları isə "ikinci" Əyricənin azı 1000 illik tarixinə şəhadət verir. Erməni tarixmənimsəyiciləri 1988-ci ildən sonra türklərin bu yerlərin əzəli sahibi olmasından xəbər verən digər bütün maddi mədəniyyət nümunələri kimi, yəqin ki, "ikinci" Əyricənin varlığına şəhadət verən maddi sübutların da məhvinin qayğısına qalıblar. Amma o maddi dəlillər məhv edilsə belə, Əyricə həqiqətlərinin tam təfərrüatı ilə üzə çıxmasını əngəlləmək ermənilərə müyəssər olmayacaq. Çünki "ikinci" Əyricənin mövcudluğunu birbaşa təsdiqləyən rəsmi sənəd Türkiyə Cümhuriyyətinin Başbakanlıq Arxivində saxlanır. Həmin sənədin, 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 16-cı səhifəsində İrəvan əyalətinin Məzrəə nahiyəsinin inzibati bölgüsünə daxil olan kəndlərin sırasında Əyricə kəndinin də adı yer alıb və onun konkret olaraq Ardanış kəndi ilə həmsərhəd olduğu, sultan xəzinəsinə illik vergisinin isə 4858 ağça həcmində müəyyənləşdirildiyi barədə qeydlər aparılıb. İ.Şopenin 1829-cu ildə tərtib etdiyi siyahılarda birinci və ikinci Əyricə kəndlərinin adı dağıdılımış kəndlərin, üçüncü Əyricənin adı isə yaşayışa yararlı kəndlərin siyahısında yer alsa da, 1873-cü ilə dair sənədlərdə Basarkeçər nahiyəsindəki hər iki Əyricə kəndinin adı hallanır. Bu isə o deməkdir ki, 1826-cı ildə erməni-rus hərbi birləşmələri tərəfindən dağıdılmış Kəvər nahiyəsindəki Əyricə kəndi bərpa olunmasa da, ikinci Əyricənin, Çənbərək-Basarkeçər sərhəddindəki Əyricə kəndinin sakinləri erməni vilayəti rəsmilərinin iradəsini yenərək öz dədə-baba yurdlarını yenidən abadlaşdırmağa müvəffəq olublarmış. 1873-cü ilin rəsmi statistikasına görə, ikinci Əyricədə 171 nəfər türk yaşayırmış. 1914-cü ilə dair rəsmi sənədlərdə isə artıq Əyricə kəndlərindən heç birinin adına rast gəlinmir. Bu isə o deməkdir ki, ikinci Əyricə 1873-1915-ci illər aralığında şəhid düşmüşdür.

**ƏYRİCƏ-3.** 1826-1829-cu il müharibələrindən sonra Rusiyanın təkidi ilə yeni yaradılan erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalının o zaman yaşayış üçün yararlı sayılan 59 kəndinin İ. Şopen tərəfindən tərtib olunmuş siyahısında 49- cu sırada yer almış "üçüncü" Əyricə kəndinin xərabəlikləri Basarkeçər nahiyəsindəki Ağyoxuş və Böyük

Məzrə kəndləri arasındakı ərazidə, Çalmalının ətəyindən Göyçə gölünə tərəf axan çayın şimal sahilində idi və 1988-ci il deportasiyalarına qədər o kəndin ocaq yerlərinin, həmçinin qədim məzarlığının qalıqlarını adi seyrçi belə aydınca müşahidə edə bilərdi. Bu qalıqlar "üçüncü" Əyricənin qədim tarixinə şəhadət verən maddi sübutlar olsa da, erməni tarixçiləri Əyricə toponimi ilə bağlı mülahizələrində bütün faktları kənara ataraq, bu adda yalnız bir kəndin mövcudluğu və "həmin o bir kənd"in də Martuni ərazisindəki Qızılxaraba kəndi olduğu barədə hipotezlərində israr göstərirlər. Fakt isə amansız ittihamçıdır. XVIII əsrə dair sənədlərdə, o cümlədən 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə Qızılxaraba kəndi ilə yanaşı hər üç Əyricə kəndinin adı paralel olaraq çəkilir və onlardan hər biri müstəqil inzibati vahidlər kimi təsniflənir. 1831-ci ilə dair sənədlərdə isə Əyricə kəndlərindən ikisi "ölü kəndlər" siyahısına düşsə də, Qızılxaraba və Əyricə adlı kəndlərdən birinin adı mövcud yaşayış məntəqələri sırasında çəkilir. 1873-cü ilin rəsmi statistikasında Əyricə adlı iki kənd qeyd olunub.1914-cü ilə dair sənədlərdə isə Qızılxaraba adı qalsa da, Əyricə kəndlərinin heç birinin adı siyahılarda yer almayıb. Bu fakta istinadən qəti şəkitldə demək olar ki, "üçüncü" Əyricə də 1873-1905-ci illər aralığında Göyçədə tüğyan edən ruslaşdırma - erməniləşdirmə siyasəti nəticəsində şəhid düşmüş obalardan biridir. O vaxt Əyricənin əzəli sahiblərinin hansı faciələri yaşadığının təfərrüatı bəlli olmasa da, bir həqiqət gün kimi aydındır: hər üç Əyricə kəndində törədilmiş cinayətlərin tarixi məsuliyyəti ermənilərin və onlara havadarlıq etmiş xristian təəssübkeşlərinin üzərindədir.

## ƏYRİVƏNG

Göyçə gölünün şimal-qərbində yerləşmiş bu kəndin Göyçənin ən qədim yaşayış məskənlərindən biri olmasını təsdiqləyən maddi sübutlar kifayət qədərdir. Belə ki, bu kəndin ərazisindəki Əyrivəng (ermənilərin iddiasınca Ayrivan) məbədinin eramızdan əvvəlki dövrün XI-X əsrlərinə aid olmasını akademik B. Piotrovski birmənalı şəkildə təsdiqləyir (*Б.Б.Пиотровский. "Ванское царство". Москва. Изд. Восточной литературы-1959. стр.90.*) və erməni arxeoloqları da bu elmi hipotezin doğruluğunu birmənalı şəkildə etiraf edirlər. Sırf türk memarlığının nümunəsi olan bu kompleksdən, yəni qala divarları və bürclərin qalıqlarından təxminən 1,5-2 km. şərqdə yerləşən qədim məzarlıqdakı qəbirüstü kitabələrin qalıqları da öğuz kultunun Göyçədəki pozulmayan izləridir. Əyrivəngin

qədimliyinə birbaşa işarə olan tarixi faktlardan biri də Ağqala seyidlərinin şəcərələrində özlərinin əslən Əyrivəngdən olmalarını açıq mətnlə ifadə etmələridir. Ağqala seyidlərinin XIV-XIX əsrlərdə ümumən Göyçənin taleyində oynadığı rol isə artıq elmi təsdiqini tapmış həqiqətdir və bu fakt, eləcə də Şah İsmayılın Ərzincan yürüşü ərəfəsində Göyçəyə baş çəkərkən Mədinə kəndində ağqalalı seyyidlərlə gizli görüş keçirməsi kimi təkzibimümkünsüz reallıq (*bu kitabın "Ağqala" haqqında məlumatlar bölümünə bax*) oğuz türklərinin Əyrivəngin əzəli və şəriksiz sahibləri olmasına şəhadət verir. Yeni yaradılan erməni vilayətinin tərkibinə qatıldığı zaman da Əyrivəng təmiz türk kəndi idi ki, bu həqiqət də İ. Şopenin o zaman Göyçə mahalında yaşayış üçün yararlı sayılan 59 kənd barədə tərtib etdiyi siyahıda təsbitlənib. Həmin siyahıda 5-ci sırada yer alan Əyrivəng haqqında məlumatlardan bəlli olur ki, 1831-ci ildə bu kənddə sırf türklərdən ibarət 64 ailə yaşayırmış. Erməni tarixçisi Z. Korkodyan da özünün "Sovet Eomənistanının əhalisi 100 ildə:1831-1931" kitabında Əyrivəngdə nəinki 1831-ci ilə, hətta1920-ci ilə qədər bir nəfər belə erməninin yaşamadığını birmənalı şəkildə təsdiqləyir: rəsmi statistikaya görə  Əyrivəngin 1886-cı ildə 451 nəfər, 1914-cü ildə 896 nəfər türk əhalisi olmuşdur. Ermənilərin 1918-ci ildə həyata keçirdiyi qətliamlar zamanı, rəsmi sənədlərə görə (Bax: *"Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə" səh.-220*), Əyrivəngin 706 sakini- 380 kişi və 326 qadın hərbi təcavüzə məruz qalmış, kənd talan edilmişdir. Sağ qalanlar əsasən Çənbərək nahiyəsinin Ağbulaq və Toxluca kəndlərinə, oradan isə Şəmkir və Ağstafa nahiyələrinə köçmüşlər. 1919-1920-ci illərdə Əyrivəngdə Türkiyənin müxtəlif vilayətlərindən gətirilmiş ermənilər məskunlaşdırılmış və Ararat Respublikası hökumətinin qərarı ilə kənd "Əyrivan" adlandırılmışdır.

***Əyrivəngin ünlü yetirmələri:***

**Seyyid Hüseyn Ağa.** 1840-1905-ci illərdə yaşayıb, mahalın ən nüfuzlu din xadimlərindən, Kəvər nahiyəsində ilk rəsmi dini məktəbin təşəbbüsçüsü və yaradıcılarından biri olmuşdur.

**Məşədi Mirmahmud Seyyid Hüseyn oğlu.** 1867-ci ildə anadan olmuş, İraqi-Əcəmdə ali ruhani təhsili almış, Göyçə mahalı Qazilər Şurasına rəhbərlik etmişdir. 1918-ci il qətliamlarından sonra bir müddət Şəmkirdə sığınacaq tapan Mirmahmud Ağa 1922-ci ildən sonra Çənbərək nahiyəsinin Ağbulaq kəndində məskunlaşmış, 1939-cu ildə elə bu kənddə dünyasını dəyişmişdir.

**Mirəli Seyyid Hüseyn oğlu.** 1870-ci ildə anadan olmuş, atasından ruhani təhsil aldıqdan sonra İrəvanda rus-tatar məktəbini bitirmiş, Kəvər

gimnaziyasında müəllimlik etmişdir.

**Mirməcid Seyid Hüseyn oğlu.** 1873-cü ildə anadan olmuş, ruhani məktəbində və gimnaziyada təhsil almış, ünlü şair kimi şöhrətlənmişdi.

**Mirələkbər Mirməcid oğlu (Seyidov).** 1896-cı ildə anadan olmuş, Kəvər gimnaziyasını bitirmiş, mahalın ən mütərəqqi maarifpərvərlərindən biri kimi tanınmışdır. 1918-ci il qətliamları zamanı Toxluca kəndinə pənah aparan Mirələkbər Mirməcid oğlu 1919-cu il qırğınlarından sonra Şəmkir rayonunun Kamandar kəndində məskunlaşmış, 1920-ci ildə qaçqınların N.Nərimanovla görüşən nümayəndə heyətinə başçılıq etmişdir. 1924-cü ildə doğma Göyçəyə qayıdan Mirələkbər müəllim Basarkeçər nahiyəsində məktəblərin təşkilində müstəsna xidmətlər göstərmiş, Daşkənd və Böyük Qaraqoyunlu məktəblərinin direktoru olmuşdur. 1947-ci ildə Gədəbəy rayonunun Qaramurad kəndinə köçmüş, uzun illər təhsil sahəsində məsul vəzifələrdə çalışmışdır. Xidmətləri "Qırmızı Əmək Bayrağı" ordeni ilə qiymətləndirilmişdir. 1971-ci ildə Gəncə şəhərində vəfat etmişdir.



**Məcidov Nəsrəddin Mirələkbər oğlu.** Atası Mirələkbər Mirməcid oğlu Basarkeçər nahiyəsinin Böyük Qaraqoyunlu kəndində məktəb direktoru işləyərkən, 1936-cı ildə bu kənddə anadan olan Nəsrəddin Mirələkbər oğlu orta təhsilini Gədəbəy rayonunun Qaramurad kəndində almış, Gəncə Toxuculuq Texnikumunu, Marksizm-Leninizm Universitetinin axşam şöbəsini və Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmiş; Xanlar rayonunun, Bakının Suraxanı və Yasamal rayonlarının xalq məhkəmələrinin sədri olmuş, Bakı şəhərinin Birinci Dövlət Natoriat Kontorunda Baş Dövlət Natoriusu vəzifəsində çalışmış, məhkəmə sisteminin təkmilləşdirilməsi yönündəki səmərəli fəaliyyətinə görə bir sıra orden və medallara layiq görülmüşdür.

## GÖDƏKBULAQ

(Kediqarabulaq)

Göyçə gölünün cənub-şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 15 km. cənub-qərbdə yerləşən bu kəndin ərazisində 1988-ci ilə qədər qalan qədim qala bürclərinin və alban mədəniyyətinin izlərini yaşa-

dan VIII-IX əsrə aid məbədin qalıqları bu ərazinin oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 1000-1500 illik tarixi olduğu barədə qənaətlərə əsas verən maddi sübutlardır. Rəsmi mənbələrdə isə kəndin adına ilk dəfə 1555-ci ilə dair sənədlərdə rast gəlinir və o, Səfəvi Azərbaycan dövlətinin Çuxur-Səd bəylərbəyliyinin inzibati vahidlərindən biri kimi səciyyələndirilir. 1728-ci ildə osmanlılar tərəfindən tərtib olunaraq təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 15-ci səhifəsindəki qeydlərdə isə Kediqarabulaq kəndi İrəvan əyalətinin Məzrəə nahiyəsinin inzibati bölgüsünə daxil olan kəndlərdən biri kimi təqdim edilib. Həmin vaxt Kediqarabulağın sultan xəzinəsinə xass qismındəki ödənci 2421 ağça həcmində imiş. Yeni yaradılan erməni vilayətinin tərkibinə verilən yaşayış məntəqələri sırasında adının çəkilməməsi isə ona dəlalət edir ki, Kediqarabulaq da 1826-1829-cu il müharibələri zamanı erməni-rus hərbi birləşmələrinin Göyçə mahalında yerlə-yeksan etdiyi qədim türk yurdları sırasında olmuşdur. Amma sonradan kəndin əzəli sahibləri onu yenidən abadlaşdırmışdır ki, bu tarixi reallıq da 1873-cü ilə dair sənədlərdə təsbitlənmişdir. Amma həmin sənəddə ermənilər kəndin adını Kediqarabulaq şəklində yox, Gödəkbulaq şəklində vermişlər. Erməni tarixçisi Z.Korkodyanın rəsmi statistikaya istinadən verdiyi məlumata görə, 1886-cı ildə kəndin etnik tərkib etibarı ilə sırf türklərdən ibarət 226 sakini olmuşdur. 1905-ci il qırğınlarından sonra kənd qarışıq kəndlər siyahısına düşmüşdür. 1918-ci il qırğınları zamanı kənd daşnak ordusu tərəfindən dağıdılmış, əhalinin böyük qismi öldürülmüşdür. 1922-ci ildə doğma yurda qayıtmaq istəyənlər olsa da, o vaxta qədər kənddəki bütün evlər Türkiyədən gətirilmiş ermənilərin yeni dəstəsi tərəfindən zəbt olunduğu üçün, türklərin doğma ocaqlarına sahib durmaq niyyətləri dövlət səviyyəsində əngəllənmişdir. Kəndin adı isə yalnız ikinci dünya müharibəsindən sonra dəyişdirilmiş, Ermənistan SSR Ali Sovetinin 12 avqust 1946-ci il tarixli qərarı ilə Gödəkbulaq toponimi "Qarcaxpyur" sözü ilə əvəzlənmişdir.

## GÖL

Göyçə gölünün cənub-qərbində, sahildən 2 kilometrlik məsafədə, indiki Martuni-Kamo şosesinin üzərində yerləşən bu kəndin müasir coğrafi mövqeyindən təxminən 800 metr qərbdə 1988-ci ilə qədər yaşarı olan oğuz kultu nümunələrini: qoç və at təsvirli kitabələrin, eləcə də qədim məzarlığın yaxınlığındakı məbədin bünövrə qalıqlarını bu yurdun tarixinin qədimliyinə işarə olan maddi sübutlar kimi dəyərləndirmək mümkün

olsa da, təəssüf ki, Azərbaycan tarixçiləri bütün digər hallarda olduğu kimi, o tarixi izlərin də öyrənilməsi yönündə heç bir təşəbbüs göstərməmilər. Amma Göl kəndindəki abidələrin öyrənilməsi oğuz türkünün Göyçənin əzəli sahibi oması faktının təsdiqlənməsi baxımından həqiqətən əhəmiyyətli ola bilərdi. Ən azı ona görə ki, buradakı abidələr digər yerlərdəkinə nisbətdə daha yaxşı vəziyyətdə idilər. Təəssüf...

Maddi sübutlar bir yana, Göl kəndi barədə yazılı məlumatlar da kifayət qədərdir. 1555-ci ilə dair yazışmalarda bu oba Səfəvi Azərbaycan dövlətinin Çuxur-Səd bəylərbəyliyinin inzibati bölgüsünə daxil olan vahidlərdən biri kimi təsniflənir. 1728-ci ildə osmanlılar tərəfindən tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində aparılmış qeydlərdən isə bəlli olur ki, osmanlıların tətbiq etdiyi inzibati bölgüyə əsasən Göl kəndi Göyçə nahiyəsinin inzibati ərazisinə daxil edilibmiş və onun sultan xəzinəsinə illik ödənci 3823 ağça həcmində müəyyənləşdirilibmiş. Bəli, maddi sübutlar da, yazılı məlumatlar da olub, sadəcə Azərbaycan tarixşünaslığının Göyçə oğuzlarının tarixini öyrənmək həvəsi olmayıb. Və məhz o həvəsin olmamasının məntiqi nəticəsidir ki, XIX əsrin əvvəllərində yeni yaradılmış erməni vilayətinin idarəçiliynə verilmiş Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı sayılan ən iri yaşayış məntəqələrindən biri olan, İ.Şopenin tərtib etdiyi siyahılara görə hələ 1831-ci ildə türk əhalisinin sayı 573 nəfərə çatan bu qədim yurd yerimiz barədə də mükəmməl məlumatlara sahib deyilik. Bununla belə, Göyçənin erməni vilayətinin tərkibinə qatılmasından sonrakı bir əsrlik dövr ərzində Göl kəndində oğuz türkünün yaşadığı faciələrin miqyasını rəsmi quru statistikaya əsasən də müəyyənləşdirmək mümkündür. Belə ki, erməni tarixçisi Z. Korkodyanın rəsmi statistikaya istinadən verdiyi məlumatlar Göl kəndində əhalinin etnik tərkib balansının kəskin şəkildə pozulmasının tam dinamikasını əks etdirir. O məlumatlardan bəlli olur kı, Göl kəndində 1886-cı ildə türklərin sayının 1831-ci ildəki 573 nəfərdən azalaraq 370 nəfərə çatması müqabilində, ermənilərin sayı sıfır həddindən 284 nəfərə qədər artmışdır. 1914-cü ildə isə türklərin sayı 1886-cı il həddindəkindən 4 dəfə aşağı- 86 nəfər olduğu halda, ermənilərin sayı 2 dəfə artaraq 532 nəfərə çatmışdı. 1918-ci ildə kənd tam mənada türksüzləşdirilmişdir. Amma Göl kəndində türklərin başına gətirilən oyunların tam təfsilatını açıqlamaq iqtidarında deyil bu statistik xronologiya. Azərbaycan tarixşünaslığı öyrənmədi, öyrənmək istəmədi o təfsilatı. Ermənilər isə o faciələr barədə tarixdə heç bir iz qalmamasının qayğısına qaldılar. Amma Azərbaycan tarixşünaslığının bu etinasızlığına və erməni tarixşünaslarının cinayətkar tələskənliyinə rəğmən, hətta 1918-ci ildə

tam türksüzləşdirildikdən sonra belə bu qədim oğuz yurdu düz 26 il öz adı ilə yaşayıb. Ermənistan SSR Ali Sovetinin 3 yanvar 1946-cı il tarixli qərarı ilə Göl toponimi "Liçk" sözü ilə əvəzlənib.

## GÖR
(Görüncə)

Bu kənd barədə ilk yazılı rəsmi məlumat XVI əsrə aiddir. 1555-ci ilə dair yazışmalarda Görüncə kəndi Səfəvi Azərbaycan dövlətinin Çüxur-Səd bəylərbəyliyinin inzibati vahidlərindən biri kimi təsnifl ənir. 1723-cü ildə Osmanlı imperiyası Göyçə hövzəsinə tam nəzarət hüququ əldə etdikdən sonra tərtib edilmiş və 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində aparılmış qeydlərdə isə kəndin adı "GÖR" şəklində təqdim edilir və onun İrəvan əyalətinin Göyçə nahiyəsinin inzibati ərazisinə daxil edildiyi bildirilir. Həmin qeydlərdən bəlli olur ki, XVIII əsrin əvvəllərində Gör kəndinin birbaşa sultan xəzinəsinə ödədiyi vergi 10583 ağça həcmində olub. Bu isə o deməkdir ki, Gör kəndi Göyçə nahiyəsindəki ən iri vergi ödəyiciləri sırasında dördüncü yeri tuturmuş. XVIII əsrdə Göyçə mahalının inzibati coğrafiyasına dair qeydlər aparmış Simon İrəvanlının təxmini təsnifatlarından isə bəlli olur ki, Gör kəndi Göyçə gölünün qərbində, Göyçəli Başkəndinin (indiki Kamo rayonunun Gexarkunik kəndi) yerləşirmiş. Amma nə 1826-1829-cu illərdə baş vermiş İran-Rusiya, Türkiyə-Rusiya müharibələri nəticəsində dağıdılmış kəndlərin, nə də yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş yaşayış məntəqələrinin İ.Şopen tərəfindən tərtib edilmiş siyahısında Gör kəndinin adına rast gəlinmir. Bu faktlara istinadən tam dəqiqliklə demək olar ki, ermənilərin dağıdaraq sonradan "adları unudulmuş ölü kəndlər" kimi təsnifl ədiyi qədim türk yurdlarından biri də Görüncədir.

## GÖYÇƏ HƏQİQƏTLƏRİ

Mahalın adı ilə eyniyyət təşkil etməsi səbəbiylə bəzən bu kənd barədə məlumatlara səthi yanaşılıb, bəzən də tam əsassız olaraq Göyçə kəndi ilə bu mahalda yerləşən başqa bir kəndin, əvvəllər Göyçəli Başkəndi, XIX əsrdən sonra isə sadəcə Başkənd adlandırılmış (indiki Kamo rayonundakı Gexarkunik kəndi) yaşayış məntəqələrinin eyniləşdirilməsinə

cəhd edilib. Əslində isə bu qəbil eyniləşdirməyə nə əsas, nə də lüzum var. Bəli, nəinki təkcə Göyçə gölü hövzəsində, hətta ondan kənarda da "Göyçə" kəlməsi ilə bağlı saysız-hesabsız toponimlər var. Konkret olaraq Göyçə gölü hövzəsində bu qəbildən olan 5 toponim və deməli, eyni sayda da yaşayış məntəqəsinin ( **1.Cöyçəli Başkəndi. 2. Göyçə. 3. Deşdik Camal Göyçə. 4. Başqa bir adı Suaçır olan Göyçə kəndi. 5. Göyçə Yellidərəsi.**) olduğu tarixi gerçəklikdir. Göyçənin baş kəndi anlamına gələn **Göyçəli Başkəndi** Kəvər nahiyəsində, indiki Kamo rayonunun inzibati bölgüsünə düşən ərazidədir. **Göyçə Yellidərəsi** Basarkeçər nahiyəsində, Çalmalı dağın şimal-qərb yamacında yerləşirdi. Həmin kənd 1826-1829-cu illərdə baş vermiş İran- Rusiya, Rusiya- Türkiyə müharibələrinin alovundan salamat çıxmışdı və bu tarixi reallıq 1828-ci ildə rusların iradəsi ilə yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı sayılan 59 kəndin İ. Şopen tərəfindən tərtib olunmuş siyahısında təsbitlənib. Belə ki, həmin siyahıda 42-ci sırada Göyçə Yellicəsi sadəcə "Yellicə" kəndi kimi təqdim olunub. 1873-cü ilə və bundan sonrakı dövrlərə dair sənədlərdə isə Göyçə Yellicəsi barədə heç bir məlumata rast gəlinmir. Digər bir Yellicə kəndi isə Çalmalı dağın şərq yamacında qərarlaşmışdı ki, həmin kənd də 1922-ci ildən sonra Kəlbəcər rayonunun inzibati vahidləri sırasına daxil edilmişdi. **"Deşdik Camal Göyçəsi"** və **"başqa bir adı Suaçır olan Göyçə"** kəndlərinin mövcudluğuna isə elə 1826-1829-cu illər müharibələrinin gedişində son qoyulub. Göyçə Yellicəsi və Deşdik Camal Göyçəsi 1728-ci ilin rəsmi sənədlərində İrəvan əyalətinin Zarzəmin nahiyəsinin inzibati bölgüsünə daxil olan kəndlər kimi təsniflənirdi. 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"nin 118-ci səhifəsində aparılmış qeydlərdən o da bəlli olur ki, həmin vaxt hər iki kəndin şiə əhalisi müvəqqəti olaraq doğma yurdlarını tərk ediblərmiş və bu səbəbdən də hər iki kəndin torpaqları sultanın mülkiyyətinə verilibmiş. Başda bir adı Suaçır olan Göyçə kəndi isə Söyüdlü aşırımı ilə Çalmalı yüksəkliyi arasında, müasir təqdimatla ifadə olunsa, Zərzibil kəndinin Kəlbəcər rayonu ilə həmsərhəd örüşlərində yerləşirmiş. 1578-ci ildə osmanlılar ilk dəfə Göyçənin bir qisminə nəzarət imkanı əldə edəndə Suaçır-Göyçə kəndi Zebil nahiyəsinin inzibati bölgüsünə daxil edilmişdi və 1595-ci ildə tərtib olunaraq təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"ndəki qeydlərdən bəlli olur ki, həmin vaxt bu kənd timar qismində, yəni dövlət səlahiyyətlisinin gəlirlərini təmin edən vergi ödəyicisi qismində **Çələbi Mahmudoğlu** adlı şəxsin istifadəsinə verilibmiş. Şərti olaraq sayca ikinci sırada qeyd etdiyimiz **Göyçə** kəndi isə Qaranlıq nahiyəsi ilə Kəvər nahiyəsinin inzibati sərhəddinə

təsadüf edən bir ərazidə, Göyəm silsiləsindəki Göyçə yüksəkliyində, Buğdayitəpə və Kəməndbulaq (Ağzıbir) kəndləri ilə həmsərhəd bir coğrafi mövqedə yerləşirmiş. 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsindəki qeydlərdə Göyçə kəndi Göyçə nahiyəsinin inzibati vahidlərindən biri kimi təsniflənir və onun sultan xəzinəsinə illik vergisinin 3114 ağça həcmində müəyyənləşdirildiyi göstərilir. Sonuncu dəfə isə Göyçə kəndinin adına 1826-1829-cu illər aralığında baş vermiş İran-Rusiya, Rusiya- Türkiyə müharibələri zamanı erməni-rus hərbi birləşmələrinin Göyçə gölü hövzəsində yerlə-yeksan etdikləri 108 kənddən 67-sinin İ. Şopen tərəfindən tərtib olunmuş siyahısında rast gəlinir.

## GÖYSU

(Göylük)

Göyçə gölünün şərq sahilində, indiki Vardenis - Çambarak şosesinin 16-cı kilometrinə uyğun gələn bir nöqtədən 2 kilometr şimalda yerləşən bu kəndin adına rəsmi mənbələrdə ilk dəfə XVIII əsrin əvvəllərində rast gəlinir. Belə ki, 1728-ci ildə təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 16-cı səhifəsində aparılmış qeydlərdə kənd öz əzəli adı ilə- "Göylük kəndi" kimi təqdim olunur və onun inzibati baxımdan Məzrəə nahiyəsinə daxil olduğu, sultan xəzinəsinə illik vergisinin isə 1271 ağça həcmində müəyyənləşdirildiyi bildirilir. 1826-1829-cu illərdə baş vermiş İran-Rusiya, Rusiya-Türkiyə müharibələri nəticəsində dağıdılmış kəndlərin siyahısında "adları unudulmuş ölü kəndlər"dən biri kimi təsniflənən Göylük kəndinin bərpasında ermənilər maraqlı olmamışlar. Amma erməni millətçilərinin bu məkrli niyyətinə rəğmən əzəli sahibləri XIX əsrin ortalarında kəndi yenidən abadlaşdırmışlar ki, bu da rəsmi sənədlərdə öz əksini tapmışdır. Belə ki, erməni tarixçisi Z. Korkodyan rəsmi məxəzlərə istinadən hazırladığı "Sovet Ermənistanının əhalisi 100 ildə: 1831-1931" toplusunda bu kənd XX əsrdə bərpa edildikdən sonra verilmiş adı ilə, yəni Göysu kəndi kimi təqdim olunur və onun 1897-ci ildə 187, 1908-ci ildə 233, 1914-cü ildə 360 nəfər türk əhalisinin olduğu göstərilir. Halbuki, 1897-ci ilə dair sənədlərin orijinalında da kənd məhz Göylük kəndi kimi təsniflənir.

1919-cu il mart qırğınları zamanı Ararat Respublikasının nizami qoşun hissələri Göyçənin digər türk kəndləri kimi Göyləki də talan etmiş, əhali müvəqqəti olaraq kənddən çıxmaq məcburiyyətində qalmışdır. 1922-ci ildə sovet hökumətinin təhlükəsizlik barədə təminatından sonra kəndin

əzəli sahiblərindən heç kimin doğma yurda dönməməsi faktına istinadən 1919-cu il qırğınlarında kənd əhalisinin böyük qisminin tələf olduğu barədə mülahizə yürütmək mümkündür. Kəndin bərpasına cəhd isə yalnız XX əsrin otuzuncu illərində olub. Zakfederasiyanın üzvü, Martuni rayonundakı Gözəldərə kənd Xalq Deputatları Sovetinin sədri olmuş İsə Əzizoğlu dövlətdən rəsmən razılıq alaraq qohum-əqrabalarının bir qismi ilə birgə Göylük ərazisinə gəlmiş və əslən Göyçənin Qaranlıq nahiyəsinin Mollalı kəndindən olan bu insanların köməyi ilə bu qədim türk yurdunu yenidən binələşdirmiş və onu Göysu adlandırmışdır. Rəsmi statistikaya görə Göysunun 1939-cu ildə 314, 1959-cu ildə 264, 1970-ci ildə 396, 1979-cu ildə 531 nəfər əhalisi olmuşdur.

1988-ci ildə Göysu kəndinin əhalisi dövlət səviyyəsində həyata keçirilən deportasiyaya məruz qalmış, əhalinin şəxsi əmlakı və kolxoz mülkiyyətində cəmlənmiş varidatı Vardenis rayon rəhbərləri tərəfindən talan edilmişdir. Kəndin adının dəyişdirilməsi barədə heç bir məlumatın olmamasına və kənddə kimsənin yaşamadığına dair qeyri-rəsmi xəbərlərə əsasən kəndin bir inzibati vahid kimi ləğv edildiyi, ərazisinin qonşu Qaraiman və Şişqaya kəndləri arasında bölüşdürüldüyü təxmin edilir.

**P.S.** *Göysu kəndinin 1919-cu ilə qədərki həyatı ilə bağlı müfəssəl məlumatlar olmadığı və bu yurd yerini 1930-cu ildən sonra abadlaşdıranların əslən Qaranlıq nahiyəsindəki Mollalı kəndindən olduqları nəzərə alınaraq, 1930-1988-ci illərdə mövcud olmuş Göysunun görkəmli şəxsiyyətləri və nurlu ziyalıları barədə qeydlər bu kitabın Mollalı kəndinə dair məlumatlar bölümündə verilmişdir.*

## GÖYTƏPƏ

(Göyranis)

Göyçə gölünün cənub-şərqində yerləşmiş bu kənd barədə ilk məlumata XVIII əsr müəllifi Simon İrəvanlının Göyçə gölü hövzəsindəki tarixi abidələrə dair qeydlərində rast gəlinir. O, Göytəpəni dövrünün ən iri yaşayış məskənlərindən biri kimi səciyyələndirsə də, XIX əsrin əvvəllərində ermənilərin nəzarəti altında hazırlanmış sənədlərdə - müharibələr nəticəsində dağıdılmış kəndlərin və erməni vilayətinin idarəçiliyinə verilən zaman yaşayış üçün yararlı olan məntəqələrin İ. Şopen tərəfindən tərtib edilmiş siyahılarında bu kəndin adı çəkilmir. Amma bu kəndin mövcudluğu barədə informasiyalar Göyçənin el yaddaşında yaşarı olduğu kimi, o mövcudluğu təsdiqləyəcək maddi sübutlar da 1988-ci ilə qədər qalırdı.

Belə ki, Basarkeçər nahiyəsinin Qoşabulaq kəndindən təxminən 2,5-3 kilometr cənub-şərqdə ocaq yerlərinin xərabələri, həmçinin qoç təsvirli qəbirüstü kitabələrin qalıqları ilə dolu olan ərazini yerli sakinlər "Göytəpə xərabəliyi" adlandırırdılar və o ərazi heç zaman əkilib-biçilməzdi, müqəddəs bir yer kimi ehtiramla qorunardı. Rəsmi sənədlərdə isə kəndin adına ilk dəfə 12 aprel 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"ndə rast gəlinir. Həmin sənədin 15-ci səhifəsində Salaməleyk (Aşağı Şorca), Siyaqut (Sarıyaqub), Kiçik Yengicə (Bala Qaraqoyunlu) kəndləri ilə bir sırada Göyrənis kəndinin də adı çəkilib və onun sultan xəzinəsinə illik vergisinin 2980 ağça həcmində müəyyənləşdirildiyi barədə qeydlər aparılıb. Bu tarixi reallıqlara istinadən qətiyyətlə demək olar ki, 1826-1829-cu illər aralığında Göyçədə dağıdılan və "adı unudulmuş ölü kənd" qrafasında ümumiləşdirilən qədim yurd yerlərimizdən biri də Göytəpədir. Amma ermənilərin məkrli niyyətlərinə rəğmən əzəli sahibləri XIX əsrin ortalarında kəndi bərpa etmişlər və bu tarixi reallıq sənədlərdə əks olunmuşdur. Belə ki, 1873-cü ilə dair məlumatlarda Göytəpə adı yer alıb və onun sırf türklərdən ibarət əhalisinin 132 nəfər olduğu göstərilib. 1914-cü ilə dair sənədlərdə isə nə Göytəpə, nə də Göyrənis adlarına rast gəlinmir. Bu faktlara istinadən belə bir nəticəyə gəlmək olar ki, Göytəpə kəndi XX əsrin əvvəllərində - çox güman ki, 1905-ci ildə tüğyan etmiş erməni vəhşilikləri zamanı dağıdılmışdır.

## HACI MUĞAN

(Muğanna)

Göyçə gölünün qərbində, sovetlərin tətbiq etdiyi inzibati bölgüyə əsasən Kamo rayonunun ərazisi kimi təsniflənən coğrafi mövqedə yerləşmiş bu kənd barədə ilk məlumata XIV əsrə dair folklor nümunələrində rast gəlinir. Belə ki, zəmanəsinin ünlü sənətkarlarından olan Dədə Heydər onu "Muğanna" kəndi kimi təqdim edir və mahalın ən qədim , ən iri yaşayış məskənlərindən biri olduğunu xüsusi vurğulayırdı. 1826-1829-cu illər aralığında baş vermiş İran- Rusiya, Rusiya- Türkiyə müharibələri zamanı Göyçədə dağıdılmış 108 kənddən 67-sinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında ikinci sırada bu kəndin adının yer alması faktına istinadən demək olar ki, erməni fitnəkarları Hacı Muğan kəndinin də bərpasında maraqlı olmamışlar. Lakin az sonra kəndin əzəli sahibləri doğma

yurda dönərək onu bərpa etmiş və abadlaşdırmışlar ki, bu tarixi reallıq da rəsmi sənədlərdə öz əksini tapmışdır: erməni tarixçisi Z. Korkodyanın "Sovet Ermənistanının əhalisi 100 ildə: 1831-1931" kitabında etiraf olunmuş rəsmi statistik məlumatlardan bəlli olur ki, Hacı Muğan kəndinin 1873-cü ildə 437 nəfər, 1886-cı ildə 670 nəfər, 1904-cü ildə 1034 nəfər, 1916-cı ildə 1255 nəfər türk əhalisi olmuşdur. Artım tempinə diqqət yetirdinizmi? İndi də 1918-ci ildə törədimiş qətliamlardan sonrakı dinamikaya diqqət yetirək. 1920-ci ildə daşnak hökuməti yıxıldıqdan sonra kənddə Türkiyənin Alaşkerd vilayətindən gətirilmiş 339 erməni yaşayırdı. 1922-ci ildə sovet hökumətinin təhlükəsizlik barədə zəmanətindən sonra öz doğma ocağına qayıdan türklərin sayı isə cəmi 100 nəfər, yəni 1916-cı ildəki əhalinin cəmi 8 faizi həddində olmuşdur. 1926-cı ildə ermənilərin sayı 382 nəfər, türklərin sayı 115 nəfər idi. 1930-cu ildə xaricdən gətirilənlər hesabına ermənilərin sayı 664 nəfərə çatdırılmış, türklərin sayı isə 195 nəfər olmuşdur. 1948-ci ildə kəndin 270 türk sakini dövlət səviyyəsində deportasiyaya məruz qalaraq, əsasən Azərbaycan Respublikasının Salyan rayonu ərazisinə köçürülmüşlər. Sonradan onların bir qismi kompakt şəkildə Göyçay rayonunda məskunlaşmış, qalanları isə SSRİ-nin müxtəlif yerlərinə səpələnmişlər. Kəndin adı isə yalnız 30 ildən sonra dəyişdirilmiş, Ermənistan SSR Ali Sovetinin 25 yanvar 1978-ci il tarixli qərarı ilə Hacı Muğan toponimi "Tsovazard" kəlməsi ilə əvəzlənmişdir.

## HARUNLU

("Dəli Harutyun)

Göyçə gölünün şimal-qərbində, müasir təsnifatla Sevan və Krasnoselo rayonlarının sərhəd zolağına uyğun gələn bir coğrafi mövqedə, sahildən təxminən 6-7 kilometrlik məsafədə yerləşən bu qədim yurd yeri haqqında nəinki rəsmi mənbələrdə, elə Göyçənin el yaddaşında da çox az məlumat var. Əslən Ağqala seyidlərindən olan Qaraqoyunlulu Qasım Məmmədovun yaddaşında isə babalarının "Harınca" deyilən bir oba haqqındakı söhbətlərinin izi qalmışdı. O xatirələrə görə, Ağqala ilə üzbəüz sahildəki dağ kəndlərinin birində "allaha bəndəlik etməyən dəlilər" toplaşıblarmış və harınlamış bu bəndələr özlərini allahın buyruqçusu kimi aparaq, hər kəslə istədikləri kimi rəftar edirlərmiş ki, onların allah yoluna qayıtmasının səbəbkarı da məhz ağqalalı Seyid Əli olub. Bu hekayətə əsasən iki versiya irəli sürülə bilər: 1) ya Harun ər-Rəşid zamanında bu

kənddə məskunlaşmış xüsusi nümayəndəyə fövqəladə səlahiyyət verilibmiş və bu səbəbdən də kənd "Harunlu" adlandırılıb; 2) ya da bu obada arxaik türk dilindəki "dəli" anlamına gələn qoçular yığılırmış və zaman-zaman onların harınlamasını müşahidə edən qonşu obaların əhalisi onları "Dəli harınlar" kimi təsnifləyirmişlər. Bu iki toponimin hər hansı şəkildə bağlılığı, yaxud da hər hansı birininsə həqiqətə daha yaxın olduğu barədə qəti fikir söyləmək mümkün olmasa da, hər halda "Harınca" adının "Harunlu" toponiminin Göyçə ağzındakı variantlarından biri olduğunu güman etmək mümkündür. 1826-1829-cu illərdə baş vermiş İran- Rusiya, Rusiya- Türkiyə müharibələrinin gedişində Göyçə hövzəsində dağıdılmış 108 kənddən 67-sinin İ.Şopen tərəfindən ermənilərə istinadən tərtib edilmiş siyahısında isə nə "Harunlu", nə də "Harınca" toponimlərinə rast gəlinir. Amma nə qədər qəribə olsa da, o siyahıda "Dəli Harutyun" kəndi kimi təsniflənən bir yaşayış məntəqəsinin adı qeyd olunub. Hətta XX əsrdə belə bu ərazidə, konkret olaraq Göyçə gölünun şimalında erməni kəndləri olmayıb. Belə bir ərazidə XIX əsrin əvvəllərində "Dəli Harutyun" adlı bir erməni kəndinin mövcud olması əsla inandırıcı görünmür. Digər tərəfdən, əgər belə bir erməni kəndi mövcud olsa belə, erməni-rus hərbi birləşmələrinin onu dağıtması məntiqə sığmır. Əgər o kəndi türklər dağıtmış olsaydılar, o halda da məntiqlə ermənilər onun bərpasında maraqlı olmalı idilər. Amma faktlar bunun əksini deyir. Belə ki, nə 1828-ci ildə erməni vilayətinin idarəçiliyinə verilmiş yaşayış üçün yararlı kəndlərin siyahısında, nə də sonrakı bir əsr ərzində Nor Bayazit qəzasına dair rəsmi hesabatlarda "Dəli Harutyun" kəndinin adına rəst gəlinmir. Ən qəribəsi isə odur ki, erməni məxəzlərində ümumiyyətlə bu məsələyə qayıdılmır və "Dəli Harutyun" adlı kəndin harada yerləşdiyi barədə məlumatlar yer almır. Bütün bü tarixi faktlardan çıxan məntiqi nəticə isə odur ki, İ.Şopenin "Dəli Harutyun" kəndi kim təqdim etdiyi dağıdılmış yurd yeri Dəli-Harunlu, yaxud Harınca kimi mövcud olmuş türk yurdundan savayı bir şey deyil. Amma nə yazıq ki, bu gün bu ehtimalı təsdiq edə biləcək maddi sübutlara əlimiz yetmir.

## HASANSU

(Həsən kənd)

Göyçə gölünün şərqində, indiki Vardenis şəhərindən 13 km. şimal-şərqdə yerləşən bu kənd barədə ilk yazılı rəsmi məlumat XVIII əsrin əvvəllərinə aiddir. Osmanlıların Göyçə gölü hövzəsinə tam nəzarət imkanı

əldə etməsindən sonra tərtib edilmiş və 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"ndə bu kəndin vergiləri barədə birbaşa qeydlər aparılmasa da, hər halda onun mövcudluğuna birbaşa işarə olan məqamlar öz əksini tapıb. Belə ki, o zaman kiçik kəndlər sayılan Dəli Ağa (Dəliağaca) və Yengicə-Polad kəndlərinin coğrafi təsnifatını verərkən müəlliflər "Həsənkənd" və "Zod kəndi yaxınlığındakı Həsənkənd" istilahlarına istinad ediblər. 1826-1829- cu illərdə baş vermiş İran-Rusiya, Rusiya- Türkiyə müharibələrinin gedişində erməni-rus hərbi birləşmələri tərəfindən viran qoyularaq, İ.Şopenin siyahılarında "adları unudulmuş ölü kəndlər" qrafasına salınsa da, XIX əsrin ortalarında Hasansu kəndinin əzəli sahibləri onu bərpa etmişlər və bu tarixi reallıq rəsmi sənədlərdə təsbitlənmişdir. 1873-cü ilin rəsmi statistikasına görə kəndin 219 nəfər (39 təsərrüfat) türk əhalisi olub. 1919-cu ilin aprelində kənd daşnak qoşunu tərəfindən təkrarən dağıdılıb. 1922-ci ildə sovet hökumətinin təhlükəsizlik barədə zəmanətindən sonra kəndə dönənlərin sayı 1873-cü ildəki əhalinin 25 faizi həddində, yəni cəmi 49 nəfər olub. XX əsrin otuzuncu illərində kolxoz quruculuğu pərdəsi altında kənd bir inzibati vahid kimi ləğv edilərək ərazisi və əhalisi Zod kolxozu ilə birləşdirilmişdir.

## HEYRANLI

(Heyranıs)

Göyçə gölünün şimal-qərbində, sahildən təxminən 16 km. məsafədə, Əyricə çayın mənbəyinə yaxın bir zirvədəki xərabələri 1988-ci ilə qədər qalan bu oba barədə ilk yazılı məlumat XVI əsrə aiddir. Belə ki, 1555-ci ilə dair yazışmalarda Heyranlı Səfəvi Azərbaycan dövlətinin Çuxur-Səd bəylərbəyliyinin inzibati vahidlərindən biri kimi səciyyələndirilir. XVIII əsr müəllifi Simon İrəvanlı isə Göyçə hövzəsindəki tarixi abidələr barədə qeydlərində bu kəndi əfsanəfi füsunkarlığı ilə seçilən bir ərazidə yerləşmiş iri yaşayış məntəqəsi kimi təsnifləyir. Onun sözlərinə görə, XVIII əsrin ortalarında Heyranlıda 10-dan çox tarixi əhəmiyyətli memarlıq nümunəsi olub.

Göyçə hövzəsi rusların istəyi ilə yaradılmış erməni vilayətinin tabeçiliyinə verildikdən sonra yaşayış üçün yararlı sayılan 59 kəndin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında 17-ci sırada bu kəndin adı yer alsa da, heç bir əsas olmadan "Heyranıs" kəndi kimi təqdim edilib. 1831-ci ilə dair sənədlərdən isə bəlli olur ki, hətta 5 illik erməni-rus varvarlığından

sonra belə Heyranlı sırf türk kəndi olaraq qalırmış və onun əhalisinin sayı 378 nəfər imiş. Belə bir böyük yaşayış məntəqəsinin, inkişaf etmiş kəndin müharibələrlə və fövqəladə təbii fəlakətlərlə müşaiyət olunmayan əsr ərzində, yəni 1828-1918-ci illər aralığında "qeybə" çəkilməsini iddia etmək hansı məntiqə sığır? Fakt isə odur ki, erməni tarixi bu kəndin öz-özünə dağıldığını, XX əsrin əvvəllərində artıq mövcud olmadığını israr edir. Bu cür israr ermənilərin tarixyaratma təcrübəsi baxımından adi bir hal olsa da, bəşəri təkamül təcrübəsi bu qəbil xəstə təxəyyülü birmənalı şəkildə rədd edir. Hər hansı bir yaşayış məntəqəsinin, xüsusən də Heyranlı kimi tarixi eramızın əvvəllərindən başlayan, hələ XVIII əsrdə yüksək inkişaf səviyyəsinə çatmış bir kəndin ciddi bir səbəb olmadan tərk edilməsi, əhalinin min illər boyunca yığdığı maddi və mənəvi sərvətləri ataraq getməsi barədə mülahizələr heç bir halda əsas kimi qəbul edilə bilməz. Bəs tarixi gerçəklik necədir? Heyranlının "adları unudulmuş ölü kəndlər" siyahısına düşməsinə səbəb nə olmuşdur? İndiki Ermənistan ərazisində əhalinin sayı barədə ilk statistik məlumatlar 1831-ci ilə aid olsa da, növbəti rəsmi sənədlər 1873-cü ili əhatə edir. Və məhz bu siyahılarda artıq nə Heyranlı, nə də Heyranıs adı yer almır. 1831-1873-cü illər aralığında Göyçədə kütləvi qırğınlarla müşaiyət olunan heç bir təbii fəlakət, epidemiya barədə tarixi qaynaqlarda məlumat yoxdur. Deməli, 42 illik bu dövr ərzində siyahılardan yoxa çıxaraq "ölü kəndlər" qrafasına düşmüş obaların, o cümlədən Heyranlının "qeybə çəkilməsinin" səbəblərini təbii və ilahi qüvvələrdə yox, "erməni vilayəti" daxilində cərəyan etmiş proseslərdə axtarmaq gərəkdir. Elə isə nə baş vermişdir? Təəssüf ki, baş verənlərin real mənzərəsi məxəzlərdə əksini tapmayıb. Odur ki, bu suala da birmənalı cavab vermək, kənd əhalisinin tam şəkildə qırıldığını, yaxud təqiblər nəticəsində başqa yerə köçdüyünü söyləmək mümkün deyil. Təkcə onu söyləmək mümkündür ki, 1831-1873-cü illər aralığında Göyçənin əzəli sahibi olan oğuz türkləri Heyranlı faciəsi deyilən bir müsibət də yaşayıblar...Bu tarixi cinayətin bütün məsuliyyəti isə "sülhpərvər" ruslarla "məzlum" ermənilərin üzərindədir.

## HƏRBƏND

Göyçə gölünün şimal-şərqində, müasir təsnifatda Vardenis və Çambarak rayonlarının inzibati hüdudlarının Şahdağ silsiləsinin zirvəsində kəsişdiyi coğrafi mövqeyə uyğun bir ərazidə yerləşmiş bu qədim türk yurdu barədə məlumatlar olduqca məhduddur: erməni mənbələrində və

Azərbaycan tarixşünaslığında Hərbənd toponiminə ümumiyyətlə rast gəlinmir. Və bu reallıq başadüşüləndir. Ermənilər Hərbənddə törətdikləri cinayətlərin izlərini itirməkdə maraqlı olduqları üçün onun xatırlanmamasında israrlıdırlar. Azərbaycan tarixşünaslığının isə mütləq mənada yalnız bir prioriteti var: hər gələn yeni rəhbərin zövqünü oxşamaq. Amma Azərbaycan tarixşünaslığının bu xəyanətkar susqunluğuna rəğmən ƏLAHƏZRƏT TARİX öz böyüklüyündə qalır; Azərbaycan tarixşünaslığının diqqətinə düşməyən bütün gerçəklikləri olduğu kimi yaşadır.

Hərbənd kəndi barədə ilk rəsmi məlumat 12 aprel 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə yer alıb. Həmin sənədin 111-ci səhifəsində bu qədim türk yurdu İrəvan əyalətinin Dərəçiçək nahiyəsinin inzibati vahidləri sırasında "Qaramurad kəndi tərəfdəki Hərbənd kəndi" təsnifatı ilə təqdim edilib. Müvafiq qeydlərdən o da bəlli olur ki, 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra Hərbənd kəndi timar qismində, yəni dövlətin səlahiyyətli nümayəndəsinin gəlirlərini təmin edən vergi ödəyicisi qismində **Saleh Yusif oğlu** adlı şəxsin istifadəsinə verilibmiş və illik ödənci 3000 ağça həcmində müəyyənləşdirilibmiş.

1826-1829-cu illərdə baş vermiş İran-Rusiya, Rusiya -Türkiyə müharibələrinin gedişində erməni-rus hərbi birləşmələrinin Göyçə hövzəsində yerlə-yeksan etdiyi 108 kənddən 67-sinin və yeni yaradılmış erməni vilayətinin tabeçiliyinə verilmiş Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahılarında, eləcə də bundan sonrakı dövrə aid rəsmi sənədlərdə Hərbənd toponiminə rast gəlinmir. Bu tarixi reallıqdan çıxan məntiqi nəticə isə odur ki, XIX əsrin əvvəllərində tüğyan etmiş erməni faşizmi nəticəsində dağıdılmış və sonradan bərpasına imkan verilməmiş 54 qədim türk yurdundan biri də Hərbənddir. Amma nə yazıq ki, oğuz türkünün Hərbənddə yaşadığı faciələrin təfsilatı sirr olaraq qalacaq...

## HÜSEYNBƏYLİ

Göyçə hövzəsinin qərbində, indiki Kamo şəhərindən 5-6 km. cənubdakı xərabələri XX əsrin 80-ci illərinin ortalarına qədər qalan bu kənd barədə ilk məlumat XVIII əsr müəllifi Simon İrəvanlının Göyçədəki tarixi abidələrə dair qeydlərində yer alıb. O qeydlərdən bəlli olur ki, Hüseynbəylidəki qədim qala eramızın əvvəllərinə aidmiş. Amma İ. Şopenin ermənilərə istinadən hazırladığı siyahılarda- "1826-1829-cu illərdə baş ver-

miş İran-Rusiya,Türkiyə-Rusiya müharibələri nəticəsində dağıdılmış yaşayış məskənlərinin" və "yeni yaradılmış erməni vilayətinin ilarəçiliyinə verilərkən yaşayış üçün yararlı sayılan kəndlərin" siyahılarında Hüsenbəyli kəndinin adına rast gəlinmir. Bu isə o deməkdir ki, bu müharibələr zamanı Göyçədə erməni-rus birləşmələri tərəfindən yerlə-yeksan edilərək, bərpasına imkan verilməyən, "adları unudulmuş ölü kəndlər" qrafasında ümumiləşdirilərək tarixin yaddaşından silinməsinə cəhd olunan qədim türk yurdlarından biri də məhz Hüseynbəyli kəndi olmuşdur. Amma ermənilərin bu "qayğıkeşliyinə" rəğmən Hüseynbəyli kəndinin əzəli sahibləri XIX əsrin ortalarında doğma yurdlarını bərpa etmiş və abadlaşdırmışlar ki, bu tarixi reallıq da rəsmi sənədlərdə öz əksini tapmışdır. Belə ki, indiki Ermənistanın əhalisi barədə 1873-cü ilə dair rəsmi statistikada Hüseynbəli kəndi yer almasa da, 1904-cü ilə dair sənədlərdə artıq kəndin adı çəkilir və burada 658 nəfər türk əhalisinin yaşadığı qeyd olunur. Amma...Hüseynbəylilərə öz yurdlarını ürəkləri istəyən kimi abadlaşdırmaq imkanı vermədilər. 1918-ci ilin noyabr-dekabr aylarında Ararat Respublikasının nizami qoşun hissələri üç günlük mühasirədən sonra kəndin özünümüdafiə qüvvələrinin müqavimətini qıraraq kəndə soxuldular və...Bir türk obası da beləcə şəhid düşdü.

## HÜSEYNQULUAĞALI

Göyçə hövzəsinin şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 9 km. şimal-şərqdə, dəniz səviyyəsindən 1997 metr yüksəklikdə yerləşmiş bu kəndin adına rəsmi mənbələrdə ilk dəfə 1919-cu ildə, Azərbaycan Demokratik Cümhuriyyətinin Dağlıq zolağının V səhəsinin müsəlman əhalisi üzrə müvəkkili İsmayıl Sultanovun Gəncə qəzasının rəisinə göndərdiyi raportda rast gəlinsə də, kəndin indiki mövqeyindən cənubdakı XIV-XV əsrlərə aid məzarlıqdakı qəbirüstü kitabələrin qalıqları bu obada məskunlaşmanın azı 700-800 illik tarixi barədə qənaətlərə əsas verən madddi sübutdur. Kənddəki sonuncu məzarlıqdakı qəbirüstü kitabələrdən bir neçəsinin XVII əsrin birinci yarısına aid olması isə ona dəlalət edir ki, XIX əsrin əvvəllərində Hüseynquluağalı kəndi Göyçənin islam qanunları ilə yaşayan iri obalarından biri olmuşdur. 1826-1829 -cu il müharibələrinin gedişində erməni - rus hərbi birləşmələrinin Göyçədə yerlə-yeksan etdikləri yurd yerlərinin, eləcə də yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilərkən yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahılarında Hüseynquluağalı kəndinin adına rast gəlinmir. Bu isə o deməkdir ki, ermənilər Hüseynquluağa-

lının da bərpasında maraqlı olmamış və təkrar dirçəlişinə imkan vermək istəməmişlər.Amma kəndin çox qısa fasilədən sonra bərpa edildiyi tarixi reallıqdır. Belə ki, 1873-cü ilə dair rəsmi statistikada Hüseynquluağalı kəndinə dair qeydlər öz əksini tapıb. O vaxt 663 nəfər türk əhalisi olan kənd surətlə inkişaf etmiş, 1914-cü ildə əhalinin sayı 1207 nəfərə çatmışdır. 1919-cu ilin aprelində kənd nizami daşnak ordusuna müqavimət göstərə bilməmiş, əhali əsasən Cavanşir qəzasına pənah aparmışdır. Kənddə o vaxt mövcud olan 330 təsərrüfatın əmlakı ermənilər tərəfindən talan edilmişdir. 1922-ci ildə kəndə dönənlərin sayı cəmi 527 nəfər, yəni 1914-cü ildəki əhalinin 40 faizi həddində olmuşdur. 1930-cu il sentyabrın 9-da kənd yenicə təşkil olunmuş Basarkeçər rayonunun inzibati vahidləri sırasına daxil edilmişdir. Ermənistan SSR Xalq Komissarları Soveti Mərkəzi İcraiyyə Komitəsinin 15 dekabr 1948-ci il tarixli qərarı ilə Hüseynquluağalı toponimi Nərimanlı adı ilə əvəzlənmişdir. 1979-cu il siyahıyaalınmasının nəticələrinə görə kənd əhalisinin sayı 2762 nəfər olmuşdur. 1988-ci il deportasiyası zamanı kənd 5 nəfər şəhid vermiş - 1923-cü il təvəllüdlü **Əliyev Savalan Yunis oğlu**, onun həmyaşıdı **Elləzov Qara Nəbi oğlu**, 1920-ci il təvəllüdlü **Elləzov Həsən Nəbi oğlu**, 78 yaşlı **Həsənov İsgəndər Bayraməli oğlu** və 30 yaşlı **Cabbarov Teymur Yusif oğlu** aldıqları fiziki xəsarət nəticəsində dünyalarını dəyişmiş; kəndin sağ qalan əhalisi bütövlüklə köçürülmüş, əhalinin şəxsi və kolxoz mülkiyyətində olan əmlakı Vardenis rayon rəhbərlərinin bilavasitə iştirakı ilə talanmışdır. Ermənistan Respulikası Ali Sovetinin 9 aprel 1991-ci il tarixli qərarı ilə Nərimanlı adı da ləğv edilərək, kənd "Şatavan" adlandırılmışdır.

***Hüseynquluağalı kəndinin ünlü yetirmələri:***

**Aşıq İslam - Yusifov İslam Qara oğlu.** 1893-cü ildə anadan olmuş, 1930-cu il repressiyaları zamanı Gəncədə məskunlaşmış, Gəncə Dövlət Filarmoniyasının nəzdində 25 nəfərlik aşıqlar ansamblı yaratmış, Azərbaycan Aşıqlarının I Qurultayının nümayəndəsi, 1934-cü ildə Tiflisdə keçirilən musiqi festivalının laureatı, Moskvada Azərbaycan mədəniyyəti ongünlüyünün iştirakçısı olmuşdur. "Azərbaycan SSR-in Əməkdar Mədəniyyət İşçisi", Azərbaycan Yazıçılar Birliyinin üzvü, 150 mahnının müəllifi idi. 1968-ci ildə Gəncə şəhərində vəfat etmişdir.

**Xəstə Bayraməli - Xudiyev Bayraməli Abbasəli oğlu.** 1898-ci ildə anadan olub. Mahalın ən ünlü söz xiridarlarından biridir. "Mənim Göyçəm" adlı şerlər və poemalar toplusu 1987-ci ildə 14000 nüsxə tirajla çap edilib.

**Bəhmən Göyçəli - Qarayev Bəhmən İbrahim oğlu.** 1901-ci ildə ana-

dan olub. Mahalın ən qüdrətli el sənətkarlarından biri, Azərbaycan Yazıçılar Birliyinin üzvü və Azərbaycan Aşıqlar Birliyinin fəallarından idi. 1976-cı il noyabrın 13-də doğma kəndində vəfat edib.

**Musayev Talıb Qurban oğlu.** 1908-ci ildə anadan olub, İrəvan Ticarət Məktəbini və Bakı Ali Partiya Məktəbini bitirib. 28 yaşında Basarkeçər rayon Komsomol Komitəsinin birinci katibi, 31 yaşında Basarkeçər rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, 34 yaşında Qarabağlar rayon Partiya Komitəsinin, 1946-cı ildə isə Basarkeçər rayon Partiya Komitəsinin birinci katibi seçilmişdir.

1948-1953-cü illərdə Göyçədən türklərin deportasiyasına mane olduğu üçün vəzifədən azad edilərək, Vedi rayonunun ən zəif təsərrüfatlarından birinə sədr göndərilmiş, bir müddət sonra isə repressiyalara məruz qoyularaq Azərbaycana köçməyə məcbur edilmişdir. Uzun İllər Abşeron rayonunda müxtəlif məsul vəzifələrdə çalışmış, respublika əhəmiyyətli fərdi təqaüdçü olmuş, Azərbaycan Respublikası Prezidentinin xüsusi təqaüdünə layiq görülmüşdür. 2005-ci ildə Abşeron rayonunun Mehdiabad kəndində vəfat etmişdir.

* *T.Musayevin fəaliyyəti barədə daha ətraflı məlumatla bu kitabın "Ömrünü yurda çıraq etmiş dağdan ağır kişilər" bölümündə tanış ola bilərsiniz.*



**Hacıyev Əhməd Qasım oğlu.** 1921-ci ildə anadan olmuş, Naxçıvan Pedoqoji Məktəbini və Azərbaycan Dövlət Pedoqoji İnstitutunu bitirmiş, Basarkeçər rayonunda təhsilin inkişafı yönündə müstəsna xidmətlər göstərmiş, uzun illər Böyük Qaraqoyunlu və Nərimanlı kənd məktəblərinin direktoru olmuşdur. II Dünya müharibəsində bir sıra orden və medallarla, təhsildə uğurlarına görə isə Ermənistan SSR Ali Sovetinin Fəxri Fərmanları və Ermənistan SSR Maarif Nazirliyinin diplomları ilə təltif olunmuşdu. 1988-ci ildən sonra Xanlar rayonun Mirzik kəndində məskunlaşmışdı. Gəncə şəhərində vəfat etmişdir.



**Əliyev Qafar.** 1920-ci ildə anadan olmuş, İrəvan Pedoqoji Texnikumunu və Bakı Dövlət Universitetini bitirmişdi. II Dünya müharibəsində "Şərəf" ordeninin iki dərəcəsi və "Qırmızı ulduz" ordeni, həmçinin bir sıra medallarla təltif edilmişdi. Uzun illər Basarkeçər rayonunun müxtəlif kəndlərində məktəb direktoru işləmiş, 1988-ci il deportasiyasın-

dan sonra Gəncə şəhərində məskunlaşmış, elə həmin şəhərdə də vəfat etmişdir.



**Qurbanov Zərbəli Qasım oğlu.** 1934-cü ildə anadan olmuş, Naxçıvan Pedoqoji Məktəbini, Kənd Təsərrüfatı İnstitutunu, Bakı Dövlət Universitetini, Bakı Ali Partiya Məktəbini bitirmiş, Basarkeçər nahiyəsinin müxtəlif kəndlərində təsərrüfat rəhbəri, Basarkeçər rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, Amasiya rayon Partiya Komitəsinin birinci katibi, "Sovet Ermənistanı" qəzetinin baş redaktoru işləmiş, Ermənistan KP MK-nın üzvü, Ermənistan SSR Ali Sovetinin deputatı olmuşdur. 1988-ci ildə Ermənistanda türklərə qarşı dövlət səviyyəsində həyata keçirilən deportasiyadan sonra Bakıda məskunlaşmış, Azərbaycan Respublikası Qaçqınlarla İş üzrə Dövlət Komitəsində və Azərbaycan Respublikası Prezidentinin Aparatında məsul vəzifələr tutmuş, 2003-cü ildə Bakıda vəfat etmişdir.

* *Bu nurlu ziyalının örnək ömür yolu barədə daha ətraflı məlumatlar bu kitabın "Ömrünü yurda çıraq etmiş dağdan ağır kişilər" bölümündə verilmişdir.*



**Musayev Səfyar Bəylər oğlu.** 1935-ci il iyunun 17-də anadan olmuş, Bakı Dövlət Universitetini bitirmiş; Bakı Dövlət Universitetinin "Siyasi tarix" kafedrasının müdiri olmuş, mustəqil Azərbaycan Respublikasının ilk parlamentində "İnsan hüquqları" daimi komissiyasına və Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının "Sosial siyasət və insan haqları" daimi komissiyasına rəhbərlik etmişdir. Tarix elmləri doktoru, professor, əməkdar elm xadimi, 400-dən çox elmi məqalənin və monoqrafiyanın müəllifi idi. 1999-cu il yanvarın 6-da Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

* *Daha ətraflı məlumat bu kitabın "Göyçənin maarifçilik ənənələri" bölümündə.*

**Aslanov Əvəz Musa oğlu.** 1925-ci ildə anadan olmuş, İrəvan Pedoqoji Texnikumunu və Azərbaycan Pedoqoji İnstitutunu bitirmiş, uzun illər Basarkeçər rayon Xalq Təhsili Şöbəsində məsul vəzifə tutmuş, azərbaycanlı məktəblərinin inkişafında müstəsna xidmətlərinə görə Ermənistan SSR Ali Sovetinin 02.X. 1965-ci il tarixli qərarı ilə "Ermənistan SSR-in

Əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür.

**Ağayev Hacı.** 1925-ci ildə anadan olmuş, İrəvan Ticarət Texnikumunu və Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmiş, II Dünya müharibəsindən qayıtdıqdan sonra 1988-ci il hadisələrinə qədər Basarkeçər rayon İstehlak İdarəsində müfəttiş olmuş, qatı türk millətçisi imici ilə tanınmışdır. 1988-ci il deportasiyasından sonra Şamaxı rayonunun Mədrəsə kəndində məskunlaşmış, Azərbaycan Qaçqınlar Cəmiyyətinin Şamaxı, Ağsu, İsmayıllı, Göyçay şöbələrinin yaradıcısı və ilk sədri, Mədrəsə kəndinin ilk bələdiyyəsinin üzvü olmuşdur.



**Abdullayev Şövqiyar Cəmil oğlu.** 1969-cu il aprelin 13-də doğulub, sovet qoşunlarının tərkibində Monqolustan Xalq Respublikasında hərbi qulluqda olub, Azərbaycan Texniki Universitetinin "Elektron hesablama" fakultəsində təhsil alıb. Qarabağ müharibəsi başlayanda təhsilini yarımçıq qoyaraq ilk könüllülər sırasında cəbhəyə yollanıb. Ağdam uğrunda döyüşlərdə mahir tankçı kimi dəfələrlə fərqlənib, iki dəfə ağır yaralanmasına baxmayaraq döyüş bölgəsini tərk etməyib. 1992-ci il avqustun 26-da şəhid olub, avqustun 28-də Şəhidlər Xiyabanında dəfn olunub. Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli fərmanı ilə **"AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANI"** adına layiq görülüb.

**Bayramov Qurban Balı oğlu.** 1935-ci ildə anadan olmuş, Bakı Dövlət Universitetini bitirmiş, 1956-cı ildən ömrünün sonuna qədər Azərbaycan Tibb İnstitutunun fəlsəfə kafedrasında çalışmışdır. Fəlsəfə elmləri doktoru, professor, 400-dən çox elmi məqalənin, 3 elmi-kütləvi kitabın, 1 dərs vəsaitinin müəllifi idi. 1996-cı ildə Bakıda vəfat etmişdir.



**Musayev Maksim Talıb oğlu.** 1938-ci il avqustun 18-də anadan olmuş, Gəncə Kənd Təsərrüfatı Texnikumunu, Leninqrad Kənd Təsərrüfatı Akademiyasını, Moskva İctimai Elmlər Akademiyasını, Bakı Ali Partiya Məktəbini bitirmiş; Azərbaycan SSR komsomol və partiya təşkilatlarının Mərkəzi Komitələrində, Xalq Nəzarəti Komitəsinin Mərkəzi Aparatında məsul vəzifələr tutmuş; Qax və Xızı rayon Partiya Komitələrinin birinci katibi, AR Qaçqınlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini vəzifələrində işləmiş; 1985, 1990, 1995-ci illərdə üç dəfə dalbadal Azərbaycan parlementinə üzv seçilmişdir. Kənd təsərrüfatı elm-

ləri namizədi, "Göyçə" qəzetinin təsisçisi, 6 kitab müəllifidir.

**Əkbərov Zaməddin Məsi oğlu.** Uzun illər Abşeron rayonunun partiya -sovet orqanlarında məsul vəzifələrdə çalışmış, Xızı rayon sosial-təminat şöbəsinin və Azərbaycan Respublikası Sosial Təminat Nazirliyinin baş idarəsinin rəisi olmuşdur. 2000-ci ildən Bakının Xətai rayonunun İcra Hakimiyyəti başçısının birinci müavinidir.



Musayev İlqar

**Musayev İlqar Səfyar oğlu.** 1960-cı ildə anadan olmuş, Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmiş, Bakı şəhərinin müxtəlif rayonlarının hüquq-mühafizə orqanlarında çalışmış, uzun illər Abşeron rayon Daxili İşlər İdarəsinin rəisi olmuşdur. Polis polkovnikidir.

**Cəlilov Maqsud Fərhad oğlu.** Fəlsəfə elmləri doktoru, Azərbaycan İqtisad Universitetinin professorudur.

**Cəlilov Mahmud Fərhad oğlu.** Fizika-riyaziyyat elmləri doktorudur.

**Bayramov Nuru Yusif oğlu.** Tibb elmləri doktoru, professordur. Mərkəzi Klinik Xəstəxanada çalışır.

**Abdullayev Malik Qurban oğlu.** 1954-cü ildə anadan olub, Bakı Dövlət Universitetini bitirib, uzun illər Elmlər Akademiyasında çalışıb. Texniki elmlər namizədi, AR Energetika Nazirliyinin əməkdaşıdır.

**Bayramov Şahin Qəmbər oğlu.** Fizika-riyaziyyat elmləri namizədidir.

**Cabbarov Mübariz Səyyad oğlu.** Texniki elmlər namizədidir.

**Quliyev Mübariz Sayad oğlu.** Fizika-riyaziyyat elmləri namizədidir.

**Hacıyev Arif Şahmalı oğlu.** Geologiya elmləri namizədidir.

**Hacıyev Tofiq Pənah oğlu.** Kimya elmləri namizədidir.

**Məmmədov Rasim Qara oğlu.** Fizika-riyaziyyat elmləri doktorudur.

**Musayev Vidadi Həsən oğlu.** Texniki elmlər namizədidir.

**Aşıq Fətullah-Əliyev Fətullah Əbdüləzim oğlu.** 1941-ci ildə anadan olub, Gəncə Dövlət Pedoqoji İnstitutunu bitirib. Aşıq sənətinin sirlərini Aşıq Ələsgərin oğlu Aşıq Talıbdan öyrənib. Mahalın ən ünlü el sənətkarlarından biri, bir sıra şerlərin müəllifidir.



**Qədir Aslan - Aslanov Qədir Təyyar oğlu.** 1944-cü ildə anadan olub, Bakı Dövlət Universitetini bitirib, müxtəlif mətbu orqanlarda çalışıb. 5 kitab müəllifi, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, Az.KİVİHİ-nin "Qızıl qələm", "Simurq" Milli Mükafat Fondunun "Peşəkar qələm" mükafatlarının laureatı, "Respublika" qəzetinin şöbə müdiridir.

**Maşallah Xudubəyli- Xudiyev Maşallah Bayraməli oğlu.** 1952-ci il fevralın 21-də anadan olub, Bakı Dövlət Universitetini bitirib. 2 kitab müəllifi, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Azərbaycan Dövlət Radiosu baş proqram direktorunun müavinidir.

**Qaçay Bəhmənoğlu- Qarayev Qaçay Bəhmən oğlu.** 1956-cı ildə anadan olub, Bakı Energetika Texnikumunu bitirib. 2 kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**Mahir Bayram - Bayramov Mahir Fərman oğlu.**1959-cu ildə anadan olub. Azərbaycan Dövlət Pedoqoji İnstitutunun "Azərbaycan dili və ədəbiyyatı" fakültəsini və həmin institutun "Fəlsəfə tarixi" kafedrasının aspiranturasını bitirmişdir. Fəlsəfə elmləri namizədi, 2 kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**İbrahimov Şikar Xanış oğlu.** 1961-ci ildə anadan olmuş, Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirmişdi. Moskva vilayətinin Zaqorsk şəhərində sahibkarlıq fəaliyyəti ilə məşğul olurdu, xeyriyyəçi-mesenat, qatı türk təəssübkeşi imici ilə tanınırdı. 1994-cü ildə ermənilərin fitvası ilə Ağdamdan olan qaçqın soydaşlarımız tərəfindən qətlə yetirilib.

**Möhsüm Qədiroğlu - Aslanov Möhsüm Qədir oğlu.** 1970-ci il aprelin 20-də anadan olmuş, Azərbaycan Futurologiya İnstitutunu və Bakı Dövlət Universitetini bitirmişdir. Az.KİVİHİ-nin "Qızıl qələm" və "Simurq" Milli Mükafat Fondunun ""Peşəkar jurnalist" mükafatlarının laureatı, Azərbaycan Dövlət Teleradio Verilişləri QTSC-nin Qərbi Avropa ölkələri üzrə müxbiri, Kiyevdə 3 dildə nəşr olunan "Azərbaycanın səsi" qəzetinin baş redaktorudur.

## XANCIĞAZOĞLU

Göyçənin el yaddaşında daşlamış bilgilərə görə, qədimlərdə xan titulu daşımış hansısa şəxsiyyətin yaylaq yeri olmuş bu oba sonradan xanın özü tərəfindən unudulsa da, buradakı nökər-naiblər hesabına böyüyərək axarlı-baxarlı bir yaşayış məskəninə çevrilmişdir. Hansı xanın? Bu suala təəssüf ki, Göyçənin sözlü-söhbətli vaxtlarında cavab aranmayıb. İndi isə bu suala cavab tapmaq sadəcə müşküldür, çünki bu yönlü araşdırmalara açar ola biləcək maddi sübutlar və o maddi sübutların olduğu yerlərə getmək imkanları itirililmişdir. Oğuz türkünün o qədim yaşayış məskəni barədə bizə çatan yeganə rəsmi informasiya ondan ibarətdir ki, 1826-1829-cu illər aralığında baş vermiş İran-Rusiya, Türkiyə-Rusiya müharibələri zamanı erməni-rus nizami ordu birləşmələrinin Göyçədə yerlə-yeksan

edərək viran qoyduğu qədim türk yurdlarından biri də Xancığazoğludur. Eyni faciəvi tale yaşamış 108 kənddən 67-sinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında 34-cü sırada bu obanın adı yer alsa da, Göyçə hövzəsinin rəsmi Rusiyanın təkidi ilə 1828-ci ildə yaradılmış erməni vilayətinin inzibati bölgüsünə daxil edilməsindən sonrakı dövrlərə aid rəsmi sənədlərdə Xancığazoğlu adına rast gəlinmir. Bu fakta istinadən belə bir qəti qənaətə gəlmək olar ki, 1826-1829-cu illərdəki qətliamlar zamanı kəndin əhalisi tamamilə məhv edildiyindən onun bərpasına heç kim təşəbbüs göstərməmişdir. Kəndin coğrafi mövqeyini isə S.İrəvanlının qeydlərindəki və İ.Şopenin siyahısındakı sıralanmalar arasında paralellər aparmaqla təxmin etmək olar: bu coğrafi mövqe Baş Gözəldərə kəndi ilə Qızılvəng arasındakı ərazilərə, indiki Martuni və Vardenis rayonlarının inzibati sərhəd zolağına təsadüf edib.

## XARTLIQ

İndiki Martuni şəhərindən 8 kilometr cənub-qərbdə, Mədinə və Kəsikbaş kəndləri ilə həmsərhəd bir coğrafi mövqedə yerləşmiş bu yurd yeri barədə ilk rəsmi məlumat XVI əsrə təsadüf etsə də, 1826-1829-cu illərdə baş vermiş İran - Rusiya, Rusiya - Türkiyə müharibələrinin gedişində dağıdılmış və erməni vilayətinin idarəçiliyinə verilərkən yaşayış üçün yararlı sayılan Göyçə kəndlərinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahılarında onun adına rast gəlinmir. Bu tarixi fakta istinadən qəti şəkildə söyləmək olar ki, həmin illərdə rus-erməni hərbi birləşmələrinin Göyçə mahalında dağıtdığı və bərpasına imkan verilməyərək "adları unudulmuş ölü kəndlər" qrafasında ümumiləşdirilmiş 81 qədim yurd yerimizdən biri də Xartlıq olmuşdur. Amma o "ölü kəndlər"in bir çoxundan fərqli olaraq Xartlıq XIX əsrin ortalarında yenidən bərpa olunmuşdur ki, bu fakt da 1873-cü il statistikasında öz əksini tapmışdır. Z.Korkodyanın rəsmi statistikaya istinadən verdiyi məlumata görə, Xartlıq kəndinin 1873-cü ildə 144 nəfər, 1886-cı ildə 162 nəfər, 1897-ci ildə 190 nəfər, 1914-cü ildə isə 271 nəfər türk əhalisi olmuşdur. 1918-ci ilin noyabr-dekabr aylarında Ararat Respublikasının nizami ordu hissələri Xartlıq kəndini də qonşu Mədinə və Kəsikbaş kəndləri ilə birgə yandırmış, əhalini kütləvi surətdə qırmışlar. Xartlıq sakinlərinin hansı müsibətləri yaşaması, o kənddən kiminsə sağ qalması barədə Göyçənin el yaddaşında heç bir məlumat yoxdur. Amma o faktdır ki, 1918-1920-ci illərdə burada ermənilər yerləşdiriləndən sonra belə Xartlıq adı 27 il yaşarı olub. Yalnız 1945-ci il iyun ayı-

nın 30-da Ermənistan SSR Ali Sovetinin qərarı ilə Xartlıq toponimi "Tsaxkaşen" sözü ilə əvəzlənmişdir. 1948-ci il deportasiyaları zamanı isə Xartlıq kəndi ilə əhalisi köçürülmüş qonşu Kəsikbaş kəndi birləşdirilmiş və yeni birləşmiş kəndə "Lernakert" adı verilmişdir.

## XATUNKƏND

Göyçə hövzəsinin şərqində, müasir anlamda Böyük Məzrə və Qaraiman kəndləri ilə həmsərhəd bir coğrafi mövqedə yerləşmiş bu qədim türk obası barədə ilk və son yazılı rəsmi məlumat 12 aprel 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış və hazırda Türkiyə Cümhuriyyətinin Başbakanlıq Arxivində qorunan "İrəvan əyalətinin icmal dəftəri"ndə yer alıb. Həmin sənədin 16-cı səhifəsində Xatunkəndinin Məzrəə nahiyəsinin inzibati vahidlərindən biri olması və illik vergisinin 6151 ağça həcmində müəyyənləşdirilməsi barədə müvafiq qeydlər aparılıb. Həmin dövrdə Sədənağacın illik vergisinin 5431, Bala Məzrə kəndinin illik vergisinin 4127 ağça olması reallığını nəzərə aldıqda qətiyyətlə demək olar ki, Xatunkənd XVIII əsr Göyçəsinin ən iri yaşayış məntəqələrindən biri imiş. Amma... 1828-ci ildə rusların istəyi və təkidi ilə qədim oğuz torpaqlarında erməni vilayəti təşkil edildikdən sonra kollec assesoru İ.Şopenin qraf Paskeviç- İrəvanskinin sifarişi ilə tərtib etdiyi siyahılarda və ondan sonrakı dövrlərə aid sənədlərin heç birində Xatunkəndi toponiminə rast gəlinmir. Bu isə o deməkdir ki, Xatunkəndi 1826-1829-cu illərdə baş vermiş İran- Rusiya, Rusiya- Türkiyə müharibələrinin gedişində şəhid düşmüş türk obalarından biridir və onun yer üzündən silinməsinin tarixi məsuliyyəti erməni faşizminə havadarlıq etmiş xristian dünyasının üzərindədir.

## İLANLI

Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) təxminən 15 km. cənub-qərbdə, Göyəm silsiləsinə daxil olan yüksəkliklərdən birinin ətəyində, daha konkreti Yarpızlı kəndindən təxminən 2-3 kilometr cənubda bir yurd yerinin xərabələri vardı və oğuz türkünün Göyçədən son deportasiyasına qədər toxunulmamış qalan o xərabəliyin yerləşdiyi ərazi Göyçənin el yaddaşında "İlanlıca" adı ilə əbədiləşmişdi. Bununla belə...Bu maddi dəlillərin üzdə olmasına rəğmən erməni mənbələri İlanlı adlı kən-

din mövcudluğu faktını israrla inkar etməyə çalışırlar. Amma tarix də məhz ona görə tarixdir ki, kimsənin istəyinə tabe olmur, ən müəmmalı nəsnələrə belə zaman-zaman aydınlıq gətirir. Necə ki, Türkiyə Başbakanlıq Arxivində üzə çıxmış bir sənədlə indi "erməni dövləti"nin ərazisi sayılan qədim türk torpaqlarındakı minlərlə kəndin, o cümlədən də İlanlı kəndinin varlığını təsdiqlədi, taleyinə aydınlıq gətirdi...

1728-ci ildə Şah Əhməd Mehmet xan oğlu tərəfindən tuğralanaraq təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 16-cı səhifəsində Məzrəə nahiyəsinə daxil olan kəndlərdən birinin İlanlı kəndi olduğu və onun sultan xəzinəsinə illik ödəncinin 2590 ağça həcmində müəyyənləşdirildiyi barədə qeyd aparılıb. Və elə bu qeyd ermənilərin İlanlı kəndinin varlığının inkar edilməsinə yönəlik bütün cəhdlərini tar-mar edir, çünki o həm də maddi dəlillərlə, bu kəndin xərabəlikləri ilə təsdiqlənir. İlanlı kəndinin oğuz türkü tərəfindən binləşdirilməsinin tarixini dəqiqləşdirmək bu günün reallıqları fonunda nə qədər mümükünsüz görünsə də, onun mövcudluğunu danmaq sadəcə mümkün deyil. İ.Şopenin tərtib etdiyi siyahılarda, 1826-1829-cu il Rusiya-İran, Türkiyə-Rusiya müharibələrinin gedişində Göyçədə yerlə-yeksan edilmiş yurd yerlərinin, eləcə də rusların istəyi ilə yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalının o zaman yaşayış üçün yararlı sayılan kəndlərinin siyahılarında və ondan sonrakı dövrlərə dair rəsmi sənədlərdə isə İlanlı kəndinin adına rast gəlinmir. Bu isə birmənalı şəkildə deməyə əsas verir ki, XIX əsrin 30-cu illərində tüğyan edən erməni faşizmi nəticəsində Göyçədə şəhid düşmüş qədim türk yurdlarından biri də İlanlıdır.

## İMƏKDAĞI

(İnəkdağı)

Göyçə gölünün cənub-şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 13 kilometr şimalda, dəniz səviyyəsindən 2109 metr yüksəklikdə yerləşən bu kəndin IV-V əsrlərə aid qədim məzarlığındakı qəbirüstü kitabələrin qalıqları İməkdağının oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 1500 illik tarixinə şəhadət verən maddi sübutlardır. XVI əsrə dair məxəzlərdə isə İməkdağı Səfəvi Azərbaycan dövlətinin Qarabağ (Gəncə) bəylərbəyliyinin inzibati bölgüsünə daxil olan türk obalarından biri kimi səciyyələndirilir. 1826-1829-cu illərdə baş vermiş İran-Rusiya, Rusiya-Türkiyə müharibələri zamanı Göyçədə dağıdılmış, eləcə də o zaman yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfin-

dən tərtib olunmuş siyahılarında isə İməkdağı kəndinin adına rast gəlinmir. Erməni tarixşünaslığı məhz bu fakta istinadən İməkdağı kəndini XIX əsrdə salınmış yaşayış məntəqələrindən biri kimi qələmə verməyə çalışır. Doğrudanmı İməkdağının qədim bir yurd yeri olması ermənilərə bəlli deyil? Təbii ki, bəllidir. Məqsəd həm Göyçənin tarixinin qədimliyini şübhə altına almaq, həm də erməni faşizminin XIX əsrin əvvəllərindəki cinayətlərini ört-basdır etməkdir. Amma həmin illərdə Göyçədə viran qoyulmuş kəndlərdən 81-inin adının gizlədilməsinə cəhd edildiyi artıq hamı tərəfindən etiraf olunmuş təkzibimümkünsüz tarixi gerçəklikdir və "adları unudulmuş ölü kəndlər" qrafasında ümumiləşdirilmiş o türk obalarından birinin məhz İməkdağı olması şəksizdir. XVI əsrə dair sənədlərdə yer almış İməkdağı adlı bir kəndin XIX əsrin əvvəllərində "qeybə çəkilib", elə həmin əsrin ortalarında "peyda olması"nın özgə izahını tapmaq da sadəcə mümkün deyil. O "peyda olma" isə faktdır. Ermənilərin məkrli niyyətlərinə rəğmən İməkdağının 1826-1829-cu illər qətliamlarından yaxa qurtarmış əhalisi XIX əsrin ortalarında doğma yurdlarını bərpa etmişlər və bu reallıq erməni mənbələrinin özündə təsbitlənmişdir. Belə ki, erməni tarixçisi Z.Korkodyanın rəsmi sənədlərə istinadən verdiyi məlumata görə, İnəkdağı (*1873-cü ildən başlayaraq İməkdağı adı erməni mənbələrində hansı səbəbdənsə, bəlkə də məqsədli şəkildə "İnəkdağı" şəklində yazılmışdır*) kəndinin sırf türklərdən ibarət əhalisinin sayı 1873-cü ildə 317 nəfər olmuş; sonrakı dövrlərdə bu göstərici dinamik şəkildə artaraq 1886-cı ildə 469, 1897-ci ildə 517, 1904-cü ildə 567, 1914-cü ildə 674 nəfər təşkil etmişdir. 1919-cu il aprelin 13-20-si aralığında Andronikin quldur qoşununun Göyçədə törətdiyi vəhşiliklər zamanı İməkdağı kəndi də talan olunmuş, əhali doğma ocağını müvəqqəti olaraq tərk etmək məcburiyyətində qalaraq, əsasən Şəmkir nahiyəsinə pənah gətirmişdi. 1922-ci ildə kəndə qayıdanların sayı cəmi 297 nəfər, yəni 1914-cü ildəki əhalinin 40 faizi həddində olsa da, İməkdağının bərpası və abadlaşması sürətlə aparılmış, 1931-ci ildə kənd əhalisinin sayı 383 nəfərə çatmışdı. Bu inkişaf erməniləri əndişələndirdiyi üçün mahalın digər kəndləri kimi İməkdağı da daim repressiyalara məruz qoyulmuş, kəndin bir sıra ziyalıları kolxoz quruluşunun əleyhdarları kimi sürgün edilmiş, bir qismi isə 1948-1953-cü illərdə həyata keçirilən dövlət səviyyəli deportasiya siyasətinin əhatə dairəsinə salınaraq kənddən çıxarılmışdır. 1978-ci il yanvar ayının 25-də isə ermənilər fiziki repressiyaları mənəvi repressiya müstəvisinə də yönəltdilər: Ermənistan SSR Ali Sovetinin həmin gün qəbul etdiyi qərara əsasən İnəkdağı toponimi "Yenikənd" sözü ilə əvəzləndi. 1988-ci ildə rəsmi Moskvanın dəstəyi

ilə həyata keçirilən "türksüz Ermənistan" kampaniyası zamanı isə kəndin 1800-dən çox sakini 3 gün ərzində deportasiya edildi və 70 il ərzində qazandıqlarının hamısı ermənilərin sərəncamına verildi. Ermənistan Respublikası parlamentinin 9 aprel 1991-ci il tarixli qərarı ilə kənd "Tretuk" adlandırılmışdır.

*İməkdağının ünlü yetirmələri:*

**Həsən Göyçəli- Kərimov Həsən Səməd oğlu.** 1937-ci ildə anadan olmuş, Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirmiş, bir sıra məsul vəzifələrdə çalışmışdır. 1988-ci il deportasiyasından sonra Goranboy rayonunun Veyisli kəndində məskunlaşmışdır. 2 kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**İsmayılova Yaqut İsrafil qızı.** Tarix elmləri namizədidir.

**Şamilov Əli Hüseyn oğlu.** Filologiya elmləri namizədidir.

## İRƏKƏND

(Bağlıca)

Göyçənin ən qədim yaşayış məskənlərindən biri olan bu kənd XIX əsrin əvvəllərində yerlə-yeksan edilərək, "adları unudulmuş ölü kəndlər" siyahısına düşən yurd yerlərimizdəndir. Onun xərabələri indiki Vardenis rayonunun ərazisində, rayon mərkəzindən təxminən 24 kilometr cənub-qərbdə, sovetlər dönəmində Qızılvəngin yaylaq örüşləri kimi təsniflənən ərazidə- üç tərəfdən dağlarla əhatələnmiş dərədə 1988-ci ilə qədər qalırdı. Kəndin el ağzındakı ikinci adı, Bağlıca toponimi də əslində onun relyefindən qaynaqlanan bir deyim olub. Ermənilər isə İ. Şopenin siyahılarında belə bir kəndin adının olmaması faktına istinadən İrəkəndinin varlığını ümumiyyətlə inkar etməyə çalışıblar. Amma 1728-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri" onun mövcudluğuna və Göyçə hövzəsindəki iri yaşayış məntəqələrindən biri olduğuna şəhadət verir. Belə ki, həmin sənədin 16-cı səhifəsində İrəkənd Məzrəə nahiyəsinə daxil olan yaşayış məntəqələrindən biri kimi səciyyələndirilib və onun sultan xəzinəsinə illik vergisinin 4250 ağça həcmində olması barədə qeydlər aparılıb. Kəndin 1826-1829-cu illərdə yaşadığı müsibətlər barədə isə təəssüf ki, nə Azərbaycan tarixində, nə də Göyçənin el yaddaşında heç bir məlumat qalmayıb. Bəlli olan yeganə fakt odur ki, İrəkənd 1826-1829-cu illərdə tüğyan etmiş erməni-rus faşizmi zamanı şəhid düşmüş türk obalarından biridir və onun yer üzündən silinməsi kimi ağır tarixi cinayətin məsuliyyəti xristian dünyasının üzərinə düşür.

## İYNƏDİR

Göyçənin söz yaddaşında izi, daş yaddaşında nişanəsi qalmamış tək-tək yurd yerlərindən biri də İynədir kəndidir desək, yanılmarıq. Bu oba haqqında ilk və son məlumat 12 aprel 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış və hazırda Türkiyə Cümhuriyyətinin Başbakanlıq Arxivində hifz olunan "İrəvan əyalətinin icmal dəftəri"ndə yer alıb. Həmin sənədin 12-ci səhifəsində axırdan ikinci sırada İynədir kəndinin Göyçə nahiyəsinin inzibati ərazisinə daxil olması və sultan xəzinəsinə illik ödəncinin 2890 ağça həcmində müəyyənləşdirilməsi barədə müvafiq qeydlər aparılıb. O zaman Göyçə nahiyəsinin özündə ehtiva etdiyi ərazinin təxmini koordinantlarına və siyahıda kəndlərin sıralanmasının təqribi prinsipinə əsasən, belə təxmin etmək olar ki, İynədir kəndi indiki Martuni rayonunun Dəlikdaş kəndi ilə həmsərhəd bir mövqedə yerləşirmiş. 1826-1829- cu illərdə baş vermiş İran-Rusiya, Rusiya- Türkiyə müharibələrinin gedişində dağıdılmış yaşayış məntəqələrinin, eləcə də rusların təkidi ilə yaradılmış yeni erməni vilayətinin inzibati hüdudlarına qatılmış Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahılarında və ondan sonrakı dövrə aid sənədlərdə İynədir adına rast gəlinmir. Bu faktdan belə bir məntiqi nəticə hasil olur ki, XIX əsrin birinci qərinəsində tüğyan etmiş erməni faşizmi nəticəsində Göyçədə dağıdılmış 108 kənddən, o cümlədən sonradan bərpasına imkan verilməyən 54 qədim yurd yerindən biri də İynədir kəndidir.

## KAMİLLİ

Göyçə hövzəsinin cənub-şərqində, müasir təsnifatla Martuni və Vardenis rayonlarının sərhəd zolağına uyğun gələn bir coğrafi mövqedə qərarlaşmış bu kəndin adı erməni mənbələrində əsla hallanmır. Səbəb də çox sadədir; ermənilər bu qədim türk obasının adını yaddaşlardan silməklə orada törətdikləri cinayətlərin tarixi məsuliyyətindən sığortalanmaq istəyirlər. Amma istək istəkliyində, tarix isə tarixliyində qalır...

Kamilli toponimi özlüyündə çox da qədim dövrlərdən xəbər verməsə də, onun Yarpızlı və Alçalı kəndləri arasında toxunulmamış qalan xərabəliklərindəki ocaq yerlərinin və qəbirüstü kitabələrin qalıqları, eləcə də

Göyçənin el yaddaşında daşlaşmış məlumatlar bu yurdun oğuz türkləri tərəfindən binələşdirilməsinin ən azı bir neçə əsrlik tarixinə şəhadət verir. Əslən Kamillidən olan, hazırda Bakının Balaxanı qəsəbəsində yaşayan qocaman müəllim **İsgəndər Həsən oğlu Qəmbərov**un öz valideyinlərindən aldığı bilgilərə görə, Kamilli ilk dəfə 1826-1829-cu illərdə baş vermiş İran-Rusiya, Rusiya-Türkiyə müharibələrinin gedişində dağıdılıb və kəndin sağ qalan əhalisi əsasən Çamırlıya sığınıb. Ermənilər kəndin bərpasına imkan verməsələr də, XIX əsrin ortalarında əzəli sahibləri Kamillini yenidən bərpa etmişlər ki, bu tarixi reallıq da rəsmi sənədlərlə təsbitlənir. Belə ki, 1873-cü ilin rəsmi statistikasında Nor Bayazit qəzasının inzibati strukturları sırasında Kamilli adı da yer alıb və onun sırf türklərdən ibarət əhalisinin 74 nəfər olduğu göstərilib. 1898-ci ildə bu göstərici 106, 1914-cü ildə isə 139 nəfər həddində olub.

Rəsmi mənbələrdə kəndin adına sonuncu dəfə 1919-cu ildə, Ararat Respublikasının quldur ordusunun Qarabağ və İrəvanın müsəlman əhalisinə qarşı zorakılıqlarına dair Azərbaycan Demokratik Cümhuriyyətinin Daxili İşlər Nazirliyinin dəftərxanasına daxil olmuş məlumatlarda rast gəlinir. Həmin ildəki 65 saylı işin IV bölməsinin 19-cu bəndində Daşkənd sakinləri **Məşədi Qasım Hacı Kərim oğlu** və **Böyükəli Hacı Mirzə Ələkbər oğlu**nun 23 yanvar 1919-cu il tarixli ərizələrinə əsasən, 1918-ci ilin dekabrında Göyçədə tamamilə yandırılmış 9 kəndin siyahısı təqdim olunub ki, bu sırada da üçüncü ad Kamillidir. Kamillidə törədilmiş faciələrin miqyasını təsəvvür etmək üçünsə bir fakta diqqət yetirmək kifayətdir: 1922-ci ildə sovet hökumətinin təhlükəsizlik barədə zəmanətindən sonra kəndin əzəli sahiblərinin bircə nümayəndəsi belə doğma yurda dönməyə cəsarət etməmişdir...

## KARCA

(Karçan - Keflicə)

Göyçə hövzəsinin cənub-şərqində, dəniz səviyyəsindən 2028 metr yüksəklikdə, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) təxminən 10 km. cənub-qərbdə, Qırxbulaq kəndindən təxminən 4 km. cənubda, yüzlərlə çeşmənin qaynadığı bir yamacdakı xərabəlikləri 1988-ci ilə qədər yaşarı olan Karçan kəndinin başqa bir adı son dövrlərin həyat tərzindən qaynaqlanmışdı. Göyçənin ən şöhrətli adamları yay aylarında kef məclislərini bu füsunkar obada qurduqları üçün bu qədim yurd yeri el yaddaşına başqa bir adla- Keflicə adı ilə də daxil olmuşdu. 1728-ci il ta-

rixli "İrəvan əyalətinin icmal dəftəri"ndə aparılmış qeydlərdən belə məlum olur ki, Karçan kəndi osmanlıların tətbiq etdiyi inzibati bölgüyə əsasən Məzrəə nahiyəsinin inzibati hüdudlarına daxil imiş və sultan xəzinəsinə illik vergisi 225 ağça həcmində müəyyənləşdirilibmiş.

1826-1829-cu illərdə baş vermiş İran- Rusiya, Rusiya- Türkiyə müharibələrinin gedişində ermənilərin Göyçədə viran qoyduqları 108 kənddən 67-sinin və o zaman yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahılarında isə "Karca", "Karçan", "Keflicə" toponimlərinin heç birinə rast gəlinmir. Bu fakta istinadən qəti şəkildə demək olar ki, ermənilərin təhriki ilə İ.Şopenin siyahılarında "adları unudulmuş ölü kəndlər" kimi ümumiləşdirilmiş türk obalarından biri də Karçandir və ermənilər onun bərpasında maraqlı olmamışlar. Amma onların bu niyyətlərinə rəğmən əzəli sahibləri kəndi bərpa etməyə müvəffəq olmuşlar və bu fakt rəsmi sənədlərdə əks olunmuşdur. Belə ki, rəsmi statistikaya görə, Karçanın 1908-ci ildə 262, 1914-cü ildə 362, 1916-cı ildə 444 nəfər türk əhalisi olmuşdur. 1919-cu il aprelin 13-20-si aralığında daşnak ordusu tərəfindən dağıdıldıqdan və talan olunduqdan sonra əhalinin sağ qalan hissəsi Qızılbulaqda, az bir qismi isə Azərbaycanın Şəki rayonu ərazisində məskunlaşmış, kəndə dönməmişlər. Ermənistan hökumətinin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kənd bir inzibati vahid kimi ləğv edilmiş, ərazisi və örüş yerləri Akunk sovxozuna verilmişdir.

## I KARVANSARAY

(Dilənçi - Ərgişçay Karvansarayı)

Erməni tarixçiləri Ərgüc-Ərgüşcə (1873-cü ildən sonrakı sənədlərdə isə "Ərgişçay", "Əgriçay", "Əyriçay") və Karvansaray toponimlərinin eyni bir kəndin müxtəlif dövrlərə aid adları olduğunu "sübut etmək" üçün ciddi səylər göstərirlər. Onların "azərbaycanlı" həmkarlarının bir qismi də məhz ermənilərə istinadən bu iki toponimi eyni bir yurd yeri ilə bağlamağa tələsiblər. Əslində isə...Əyriçay Kəvər nahiyəsindəki çaylardan birinin adıdır. Karvansaray isə Qaranlıq nahiyəsində yerləşir. Deməli, bu iki toponim heç bir halda eyni bir yurd yerinə şamil edilə bilməz. Ərgişçay toponimi ilə bağlı həqiqətlər isə tamam özgə bir yanaşma tələb edir. Belə ki, ərazisində Ərgişcə (Ərgüc) qalası kimi möhtəşəm bir tarixi abidə yerləşən kəndin 1988-ci ilə qədər yaşarı olan xərabəlikləri ilə Karvansaray kəndininin xərabəlikləri arasında təxminən

9-10 kilometrlik bir məsafə var. Daha dəqiqi, Karvansaray kəndi indiki Martuni rayonu ərazisində, Ərgiş çayının sahilində yerləşsə də, o Mədinə kəndinə yaxın bir ərazidə olub. Ərgişcə qalası da Ərgiş çayının sahilindədir, amma Karvansaraydan fərqli olaraq, o dağətəyi ovalıqda yox, Göyəm silsiləsinin zirvəsinə yaxın bir coğrafi mövqedə qərarlaşıb. Erməni tarixçilərinə bu iki toponimi qarışdırmıq şansı verən amil isə hər iki kəndin xərabəliklərində öz dövrləri üçün qeyri-adi sayıla biləcək irimiqyaslı qədim tikililərin qalıqlarının olmasıdır. Amma Karvansaraydakı tikilinin qalıqlarını ilk baxışda qala divarlarına bənzətmək mümkün olsa da, bünövrəyə diqqətlə baxdıqda iri bir karvansaray kompleksinin planını açıqca sezmək mümkündür. Bu qədim abidələri fərqləndirən əsas cəhətlər isə onların memarlıq həlli və yaş fərqidir. Ərgişcə qalası eramızdan əvvəlki birinci minilliyin sonlarına, ikinci minilliyin əvvəllərinə aid olub ovalşəkilli forma kəsb etdiyi halda, Karvansaray kəndi ərazisindəki tikili dəqiq dördbucaqlı planda olub, dövrələmə otaqlar və tövlələrdən ibarət qapalı kompleksi xatırladır ki, bu qəbil memarlıq həllinin eramızın birinci minilliyinin sonlarına aid olduğu əlavə isbatına ehtiyac duyulmayan faktdır. Ən əsas məqamlardan biri isə odur ki, karvasaray kompleksinin qalıqları ilə eyni adlı kəndin ocaq yerlərinin xərabələri arasında açıqca müşahidə olunan bir sədd var. Yaşlı nəslin göz yaddaşından Göyçənin el yaddaşına köçmüş məlumatlara görə isə Karvansaray kəndindəki məhəllələrdən biri "Ərgüclülər məhləsi", digəri isə "Əyriçaylılar məhləsi" adlanırmış. Bu nə ilə bağlı ola bilərdi? Çox böyük ehtimalla 1828-ci ildə Ərgişcə qalası dağıdıldıqdan sonra qalanın sakinləri ən yaxın kənd olan Karvasarayda məskunlaşaraq, öz məhlələrini elə kəndlərinin adı ilə adlandırıblarmış. Anoloji addımın Əyriçay sahillərindən didərgin salınmış türklər tərəfindən atılması da istisna deyil. Və erməni tarixçiləri sonrakı mərhələlərdə məhz bu reallıqdan ustalıqla yararlanıblar. "Ərgişçay" və "Əgriçay" adlarını dolaşdırmaqla Göyçədə oğuz türklərinin məskunluğunun azı 3000 illik tarixinin təsdiqləyicisi olan maddi sübutun- ƏRGİŞCƏ (Ərgüc) qalasının diqqətdən yayındırılması fürsəti qazanıblar. Bu qəbil oyunbazlıq erməni tarixçilərinin fəaliyyəti üçün xarakterik haldır. Təkcə Göyçə ilə bağlı "elmi işlərində" ermənilər bu texnologiyadan bir neçə yüz dəfə istifadə edərək, eyni adlı kəndlərdən birinin izini silməyə, yaxud da adları eyniləşdirməklə birinin mövcudluğunu ümumiyyətlə inkar etməyə çalışıblar. Məsələn, dağıdılmış kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında Əyricə, Karvansaray, Kərimkəndi adlarının hər birinin iki-üç dəfə çəkilməsinə rəğmən erməni diyarşünasları onlardan yalnız

birinin mövcudluğunu etiraf ediblər. Halbuki Karvansarayın biri Göyçə gölünün cənub sahilində, indiki Martuni ərazisindən keçən karvan yolu üstündə, digəri gölün şimal-şərqində, Şahdağ aşırımına yaxın bir ərazidə; Kərimkəndinin biri Kamo rayonu ərazisində, digəri Qaranlıq nahiyəsində olub. Və bu reallıqlar rəsmi sənədlərdə əksini tapıb. O rəsmi sənədlərdən məlum olur ki, bizim şərti olaraq "I Karvansaray" kimi təsniflədiyimiz kəndin, yəni Martuni rayonu ərazisindəki Karvansaray kəndinin el arasındakı adlarından biri də "Dilənçi kəndi" imiş və kəndin tarixi missiyasından qaynaqlanan yaşam tərzinin ortaya çıxardığı bu ad bir sıra hallarda hətta rəsmiləşib də. Belə ki, 1723-cü ildə Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etmiş osmanlıların tərtib etdiyi və 12 aprel 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində kənd məhz Dilənçi adı ilə təqdim olunub və onun sultan xəzinəsinə illik vergisinin 6890 ağça həcmində müəyyənləşdirildiyi barədə müvafiq qeydlər aparılıb. 1831-ci ildə isə kənd Karvansaray adı ilə qeydə alınıb. O zaman kəndin 168 nəfər türk əhalisi varmış.

Erməni tarixçisi Z.Korkodyanın rəsmi statistikaya istinadən hazırladığı "Sovet Ermənistanının əhalisi 100 ildə:1831-1931" kitabındakı məlumatlardan isə aydın olur ki, bu göstərici 1886-cı ildə 205, 1897-ci ildə 310, 1904-cü ildə 418, 1914-cü ildə 623 nəfər həddinə qədər yüksəlib. 1918-ci ildə isə erməni daşnak qoşunları kəndi talayaraq yandırıblar. Sonradan kənd bərpa edilsə də, Ermənistan SSR Ali Soveti özünün 4 aprel 1946-cı il tarixli qərarı ilə Karvansarayı bir inzibati vahid kimi ləğv edib və burada 1918-ci ildən sonra məskunlaşmış ermənilər Lernakert kolxozuna köçürülmək şərti ilə, kəndin ərazisi də həmin kolxozun istifadəsinə verilib. 1948-ci ildə isə Karvansarayın əzəli sahiblərinin hamısı rəsmi qaydada həyata keçirilən deportasiyaya məruz qalıblar və kənd ümumiyyətlə ləğv edilib.

## II KARVANSARAY
### (Səmənd ağa Karvansarayı)

Göyçə gölünün şimal-şərqində, indiki Vardenis-Çanbarak şosesinin 25-ci kilometrində, sahildən təxminən 1,5-2 km. məsafədə yerləşən bu obanın adı 1826-1829-cu illərdə baş vermiş İran-Rusiya, Türkiyə-Rusiya müharibələri zamanı Göyçədə dağıdılmış kəndlərdən 67-sinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında 61-ci sıradadır. Yeni yaradılan er-

məni vilayətinin idarəçiliynə verilmiş yaşayış məntəqəlrinin siyahısında yer almaması isə ona dəlalət edir ki, ermənilər bu kəndin bərpasında maraqlı olmamışlar. Və bu tarixi reallıq başadüşüləndir. Belə ki, Karvansaray kəndi Şərur - Dərələyəz - Göyçə - Gəncə karvan yolunun üstündəki əsas dayaq məntəqələrindən biri idi və bu yolun işləkliyi ermənilərə əsla sərf etmirdi. Amma onların məkrli niyyətlərinə rəğmən, XIX əsrin ortalarından başlayaraq Karvansaray dirçəldilmiş və əsrin sonlarında Göyçənin ünlü simalarından olan Səmənd ağanın səyi ilə dövrünün tranzit məntəqəsi rolunu oynayan ən abad obalardan birinə çevrilmişdi. Rəsmi məlumatlara görə, 1914-cü ildə kənddə 47 təsərrüfat (219 nəfər) olmuşdur. 1918-ci il Göyçə qırğınları zamanı bu kənd daşnaklar tərəfindən talanaraq yandırılmış və məhz ermənilərə qarşı müqavimət hərakatınını lideri Səmənd Ağanın adı ilə bağlı olduğu üçün sonradan bərpasına imkan verilməmişdir.

## KƏLƏQIRAN

Göyçə gölünün cənub-şərq sahilində, indiki Martuni-Vardenis şosesinin 18-ci kilometrinə uyğun gələn bir coğrafi mövqedə yerləşmiş bu kəndin tarixinin təhrif edilməsi erməni tarixşünaslıq elminin XX əsrdəki ən mühüm vəzifəsi olub. Və erməni tarixçiləri bu yöndə o qədər cidd-cəhdlə çalışıblar ki, nəinki Azərbaycan tarixçilərini çaşdırıblar, elə özlərini də dolaşığa salıblar. Belə ki, 1828-ci ildə yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilən Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında bu kəndin adı "Kolanlıqırılan" kimi təsniflənsə də, sonrakı rəsmi sənədləşmələrdə kəndin adı gah "Kolagirən", gah "Kəlləgiryan" kimi yazılıb. Düzdür, Göyçədə Kolanı kəndi olub: 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində Göyçə nahiyəsində belə bir inzibati vahidin mövcud olduğu göstərilir. Amma o kənd indiki Martuni ərazisində yox, Kamo rayonunun inzibati bölgüsünə daxil olan ərazidə-Bədkəl qalası yaxınlığında qərarlaşmışdı. Bədkəl qalası ilə Kələqıran qalasını isə nə az, nə çox- düz 50 kilometrlik bir məsafə ayırır. Yəni ki, Kolanı kəndinin Kələqıran qalası yaxınlığında olması barədə iddialar kökündən yanlış mülahizə, məqsədli təhrifdir. Belə ki, 1826-1829-cu illərdə baş vermiş Rusiya- İran, Türkiyə-Rusiya müharibələrinin gedişində Kolanı kəndi yerlə yeksan edilmiş, Kələqıran qalasına və eyni adlı kəndə isə xətər toxunmamışdır. Həmin dövrdə Kolanı ilə qonşu olan Bədkəl

kəndi də tam mənada dağıdıldığı üçün hər iki kəndin əhalisi Göyçənin nisbətən təhlükəsiz olan bölgəsinə - Qaranlıq nahiyəsinə köçmüş və sağ qalan əhali məhz Kələqıran kəndində məskunlaşmışdır. Heç şübhəsiz, bu məskunluq faktında müəyyən tarixi bağlılıqların rolu olmuşdur. Belə ki, Kələqıran və Bədkəl qalaları yaş etibarı ilə bir-birindən kəskin fərqlənsələr də, memarlıq həlli baxımından əkiz qalalardır. Kələqıran qalasının eyni oxşarının az qala 2000 il sonra başqa bir ərazidə tikilməsi bu qalaları tikənlərin eyni kökdən olduğu barədə ciddi mülahizələrə əsas verir. Məhz bu reallıqdan çıxış edərək, Bədkəl qalasının və Kolanı kəndinin Kələqırandan köç etmiş nəsillər tərəfindən binələşdirilməsini və həmin kəndlər dağıdıldıqdan sonra öz əzəli yurdlarına dönmələrini əməinliklə söyləmək olar. Erməni tarixçilərinə Kələqıran və Kolanı adları ətrafında manipulyasiya şansını da məhz bu reallıq vermişdir. Ermənilərin təhriki ilə Kolanı və Bədkəl adları İ.Şopenin siyahılarına ümumiyyətlə salınmamış, Kələqıran adı isə məhz kolanılıların burada məskunluğu faktına istinadən "Kolanlıqırılan" şəklində təqdim olunmuşdur. Bu bir sadə "yanlışlıq"la ermənilər əslində 3 hədəf vurmuşlar: həm Kolanı və Bədkəl kəndlərində törətdikləri faciələrin, həm də qədim mixi kitabələrdə adı çəkilən Kələqıran qalasının izlərini itirməyə cəhd etmişlər. Azərbaycan tarixşünaslığı üçünsə belə "xırda yanlışlıqlar" heç vaxt prinsipial əhəmiyyət kəsb etməyib...

Bəs bir kəndin adı ətrafında bu qədər oyunbazlığı şərtləndirən səbəblər hansılardır? Bu kitabın əvvəlki bölümlərində bu barədə ətraflı söhbət açıldığı üçün, qısaca olaraq onu qeyd edək ki, erməni tarixçilərinin bu qədər əndişələnməsinə səbəb kənddə mövcud olan və eramızdan əvvəlki ikinci minilliyə aid edilən qalanın qalıqlarıdır. Belə ki, qalanın 3000-3500 illik tarixinin dünyanın bütün alimləri tərəfindən qeydşərtsiz qəbul edilməsi; eləcə də qalanın adının məhz onun bünövrəsini təşkil edən qayada həkk olunmuş kitabələrdə açıq-aşkar göstərilməsi və bu təkzibimümkünsüz faktların oğuz türkünün Göyçədə məskunluğunun azı 4000 illik tarixinin birbaşa təsdiqləyicisi olan maddi sübutlar kimi dəyərləndirilməsi erməniləri hər vəchlə bu qalanın adını tarixdən silməyə təhrik edir. Çünki ermənilər vaxtilə bu mətndən tamam başqa məqsədlə- Urartu çarlığının erməni dövləti olduğunu və sərhədlərinin Göyçə gölünə qədər uzandığını sübut etmək məqsədi ilə istifadə ediblər və bu səbəbdən də Kələqıran kəlməsinin bir türk obasının qədim adı olduğunu etiraf etməmək naminə hər cür rəzalətə əl atmağa sadəcə məhkumdurlar. Amma fakt faktlığında qalır. Kələqıran qalası, sanki eramızın ikinci minilliyinin sonlarındakı məkrli tarixyaratma həyasız-

lığına etiraz əlaməti olaraq, 3000 illik səddi inadla keçərək, bir görk kimi dayanıb ermənilərin gözləri önündə...Baxmayaraq ki, ermənilər ona sahib durduqları 170 il ərzində bu qalanın izlərini itirmək üçün olmazın əzablar çəkiblər. 1826-1829-cu illərdə onu rus nizami ordu hissələrinin əli ilə dağıdıb, 1918-ci ildə nizami daşnak ordusunun səyi ilə o zaman üçün 1324 nəfər əhalisi olan Kələqıran kəndini oda qalayıb, 1935-ci il yanvar ayının 3-də Ermənistan SSR Xalq Komissarları Soveti Mərkəzi İcraiyyə Komitəsinin rəsmi qərarı ilə Kələqıran toponimini "Tsovinar" sözü ilə əvəzləyib, XX əsrin otuzuncu illərində kəndin əzəli sahibləri olan oğuz türklərinin son nümayəndələrini "kolxoz quruluşunun əleyhdarı və xalq düşməni" kimi gedər-gəlməzə göndəriblər...Bununla belə, onlar Kələqıran qalasına dözməyə, onun qalıqlarını qorumağa məcburdurlar, ən azı ona görə ki, saxta erməni tarixini məhz bu qalanın daş kitabələrinə uyğunlaşdırıblar və qondarma "Tsovinar" adı ilə olsa belə, bu qalanın mövcudluğunu bütün müvafiq beynəlxalq təşkilatlarda qeyd etdiriblər. Bir sözlə, ermənilər bizə qəsd etməklə bərabər özlərinə çıxılmaz quyu qazıblar: Kələqıran Azərbaycan tarixçilərinə ilk fürsətdəcə öz haqq səsini ucaltmağa imkan verən maddi sübutdur - alınmaz qaladır. Göyçə Oğuz Elinin ən azı 3500 illik tarixinin şahidi olan bir qeyrət qalası...

**PS.** *Kələqıran qalasında aparılmış arxeoloji tədqiqatların tam təfsilatı, qalanın memarlıq xarakteristikası, qalanın bünövrəsi sayılan qaya üzərindəki mixi yazının tam mətni, eləcə də o mətnin Azərbaycan tarixindəki rolu barədə mülahizələrlə bu kitabın "Dünyanın sinəsinə həkk olunmuş əbədi izlər" sərlövhəli bölümündə tanış ola bilərsiniz.*

## I KƏRİMKƏNDİ

Göyçə hövzəsinin cənub-qərbində, Kəvər kəndindən (indiki Kamo şəhəri) 6-8 km. cənub-şərqdə yerlşən bu kəndin müasir təsnifatdakı coğrafi mövqeyinə uyğun bir ərazidəki VIII-IX əsrlərə aid qədim məzarlığın həm alban mədəniyyətindən, həm də oğuz kultundan xəbər verən qalıqları bizim şərti olaraq "I Kərimkəndi" kimi təsniflədiyimiz yurdun azı 1500 illik tarixindən söhbət açmağa imkan versə də, onun adına rəsmi mənbələrdə ilk dəfə 1826-1829-cu illərdə baş vermiş İran-Rusiya, Türkiyə-Rusiya müharibələri zamanı erməni-rus hərbi birləşmələrinin Göyçədə dağıtdığı yaşayış məskənlərindən 67-sinin İ.Şopen tərəfindən hazırlanmış siyahısında rast gəlinir. Təbii ki, ermənilər bu kəndin də bər-

pasında maraqlı olmayıblar. Buna baxmayaraq, XIX əsrin ortalarında kənd öz əzəli sahibləri tərəfindən bərpa edilib və bu fakt 1873-cu ilə dair rəsmi sənədlərdə öz əksini tapıb. Belə ki, həmin il Kərimkəndində 115 türkün yaşadığı ermənilərin özləri tərəfindən təsbitlənib.1897-ci ildə bu göstərici 213, 1904-cü ildə 286, 1914-cü ildə isə 412 nəfər təşkil edib. Amma kəndin bərpasından sonrakı təxminən 60 illik dövr ərzində erməni hökumətinin səyi ilə indi bizim şərti olaraq "I Kərimkəndi" adlandırdığımız bu qədim türk yurdu, yəni Kəvər nahiyəsindəki Kərimkəndi qarışıq kəndə çevrilib. 1914-cü ildə burada yaşayan ermənilərin sayı artıq 511 nəfərə çatıbmış ki, bu da demoqrafik vəziyyətin onların xeyrinə kəskin surətdə dəyişməsi demək idi. 1918-ci ildə daşnak qoşunlarının kəndə basqını zamanı artıq yerli sayılan ermənilər onlara kömək edərək həmkəndlilərinin qətlində xüsusi fəallıq göstərmişlər ki, məhz bu reallıq da kərimkəndlilərin doğma yurda qayıtmasını əngəlləmişdir. 1918-ci ildən kənd sırf erməni kəndi osa da, Kərimkəndi toponimi bundan sonra da 22 il yaşamışdır. Yalnız 1940-cı ildə erməni millətçiləri kəndin adının dəyişdirlməsinin "qayğısına qalmış", Ermənistan SSR Ali Sovetinin 02.03.1940- cı il tarixli qərarı ilə Kərimkəndi toponimi "Tsaxkaşen" sözü ilə əvəzlənmişdir.

## II KƏRİMKƏNDİ

Eyni adın hər hansı ensiklopedik məlumat toplusunda təkrarlanması, əlbəttə ilk baxışda çaşqınlıq yarada bilər. Məsələyə bir az əhatəli baxdıqda isə... Erməni riyakarlığının, bir kəndin izlərini tarix səhnəsindən silmək üçün nə kimi rəzilliklərə baş vurduqlarının şahidi olursan. Erməni mənbələrində birmənalı şəkildə göstərilir ki, Göyçə sahillərində Kərimkəndi adlı cəmi bir yaşayış məntəqəsi olub ki, o da indiki Kəvər rayonu ərazisindəki "Tsaxkaşen" kəndidir. İ.Şopenin "Исторический памятник состояния армянской области в эпоху присоединения к Российской империи" kitabında 1826-1829-cu illərdə Göyçədə dağıdılmış türk kəndlərinin siyahısında isə bir deyil, iki yaşayış məntəqəsinin adı "Kərimkəndi" kimi göstərilir. Siyahı üzrə 7-ci və 65-ci kəndlər. Təbii ki, yeni yaranan erməni vilayətinin rəhbərləri bu kəndlərin heç birinin bərpasında maraqlı olmayıblar. Bu istəyə rəğmən Kəvər yaxınlığındakı Kərimkəndi bərpa edilib və oğuz türkləri öz döğma yurdlarında 1918-ci ilə qədər yaşayıblar. Bunu erməni mənbələrinin özləri də etiraf edirlər. Bəs bizim şərti olaraq "II Kərimkəndi" kimi təsnifədiyimiz türk yurdunun taleyi

necə olub? Ermənilər onun varlığını dansalar da, tarix öz sözünü deyir. İkinci Kərimkəndinin izlərini tarixdən silmək üçün nə qədər canfəşanlıq etsələr də, bu niyyətlərini gerçəkləşdirmək ermənilərə müyəssər olmayıb. Onun varlığını təsdiqləyən maddi sübutlar - kəndin ocaq yerlərinin xərabələri və məzarlıqdakı qəbirüstü kitabələrin qalıqları indiki Martuni rayonunun ərazisindəki Xartlıq kəndindən 6-8 km şimal-qərbdə 1988-ci il deportasiyasına qədər qalırdı. Ermənilər isə bu aşkar faktı danmaq üçün hansı oyunlara əl atmayıblar. 1940-cı ildə Kamo rayonundakı Kərimkəndi "Tsaxkaşen" adlandırdıqdan sonra 1945-ci ildə Martunidəki ikinci kəndin, o zaman artıq ölü kəndlər siyahısına düşmüş ikinci Kərimkəndinin yaxınlığındakı Xartlıq kəndinə də eyni ad - "Tsaxkaşen" adı verilib. Bir müddət sonra isə "Martuni rayonunun Tsaxkaşen kəndi" bir inzibati vahid kimi ləğv edilərək, ərazisi Lernakert sovxozunun sərəncamına verilib. Bəs erməniləri "II Kərimkəndi"nin adını aradan götürmək üçün bunca fəndgirliklərə məcbur edən nədir? Məsələ burasındadır ki, ikinci Kərimkəndi də ermənilərin istəyinin əleyhinə olaraq, XIX əsrin ortalarında bərpa edilibmiş və rəsmi statistikaya görə 1914-cü ildə burada 117 nəfər türk yaşayırmış. 1918-ci ildə "Ararat Respublikası" rəhbərlərinin birbaşa iştirakı ilə Göyçədə həyata keçirilən soyqırımı zamanı daşnak ordusu bu kənddə misilsiz bir cinayət törədib: kəndin bir nəfər sakininə belə aman verilməyib. Gecəyarısı kəndə soxulan quldurlar böyükdən-kiçiyə hamını doğradıqdan, kəndi talan etdikdən sonra cəsədləri də yandırmışlar. Məhz bu tarixi cinayəti ört-basdır etmək üçün, erməni tarixçiləri və rəsmi dairələri 90 ildir ki, yalanı yalana calayır, saysız-hesabsız fəndgirliklərə əl atırlar.

## KƏRKİBAŞ

Göyçə gölünün cənub-şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 5 km. qərbdə, Vardenis - İrəvan şosesinin üstündə, dəniz səviyyəsindən 1952 metr yüksəklikdə yerləşən bu kəndin şimalındakı qədim məzarlıqda 1988-ci il deportasiyasına qədər yaşarı olan X-XII əsrlərə aid qəbirüstü kitabələrin qalıqları oğuz türkünün bu yerləri binələşdirməsinin ən azı 1000-1200 illik tarixindən söhbət açmağa imkan verir. XIX əsrin əvvəllərindəki Rusiya-İran, Türkiyə-Rusiya çəkişmələri zamanı Göyçədə tamamilə dağıdılaraq ölü kəndlər siyahısına salınmış yaşayış məntəqələrindən biri Kərkibaş olsa da, az müddət sonra əzəli sahibləri doğma ocağa dönərək onu bərpa etmişlər. Rəsmi statistikaya gö-

rə Kərkibaşın türk əhalisinin sayı 1873-cü ildə 183, 1886-cı ildə 255, 1897-ci ildə 301, 1908-ci ildə 306, 1914-cü ildə 377, 1916-cı ildə 423 nəfər olmuşdur. 1919-cu il aprelin 13-20-si aralığında erməni daşnak qoşunlarının Göyçədə həyata keçirdikləri qətliamlar zamanı Kərkibaş kəndi bütünlüklə yandırılmış, əhalinin təqiblərdən yaxa qurtaran qismi Gədəbəy və Şəmkir mahallarına pənah aparmışdır. 1922-ci ildə sovet hökumətinin təhlükəsizlik barədə təminatından sonra Kərkibaşın əzəli sahiblərinin 174 nümayəndəsi, yəni 1916-cı ildəki əhalinin 40 faizə qədəri doğma yurda dönərək onu yenidən bərpa etmişlər. 1931-ci ilin rəsmi statistikasına görə Kərkibaşın 224 nəfər türk əhalisi olmuşdur. 1948-1953-cü illərdə Ermənistanda dövlət səviyyəsində həyata keçirilən deportasiyalar zamanı Kərkibaş əhalisinin yarıdan çoxu Azərbaycanın müxtəlif rayonlarına köçürülmüş, 60-cı illərdə onların az bir qismi təkrar vətənə dönmüşdür. Ermənistan SSR Ali Sovetinin 25 may 1967-ci il tarixli qərarı ilə Kərkibaş toponimi "Şəfəq" sözü ilə əvəzlənmişdir. 1979-cu il siyahıyaalınmasının nəticələrinə görə Kərkibaşın türk əhalisinin sayı 734 nəfər idi. 1988-ci il deportasiyası zamanı əhali bütünlüklə qovulmuş, varidatları dövlət səviyyəsində talana məruz qoyulmuşdur. Ermənistan Respublikası parlamentinin 9 aprel 1991-ci il tarixli qərarı ilə ermənilərin özlərinin uydurması olan qondarma Şəfəq "tononimi" də ləğv edilərək, kənd "Vanevan" adlandırılmışdır.

***Kərkibaş kəndinin ünlü yetirmələri:***

**Məhərrəmov Hüseyn İmaməli oğlu.**1909-cu ildə anadan olmuş, Göyçədə təhsil sisteminin inkişafı yönündə müstəsna xidmətlərinə görə Ermənistan SSR Ali Sovetinin 22 noyabr 1940-cı il tarixli qərarı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür. II Dünya müharibəsindən sonra Basarkeçər nahiyəsindəki bir sıra təsərrüfatlara rəhbərlik etmiş, partiya-sovet orqanlarında məsul vəzifələr daşımışdır.

**Cəfərov Elbrus Mahmud oğlu.** Texniki elmlər doktoru, professor, əməkdar elm xadimidir.

**Məhərrəmov Əyyub Vəli oğlu.** Kimya elmləri doktoru, professordur.

## KƏSƏMƏN

(Solaq)

Göyçə gölünün şimal-şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 15 km. şimal-qərbdə, dəniz səviyyəsindən 2048 metr yuksəklikdə yerləşmiş Kəsəmənin qədim məzarlığındakı daş kitabələrin X-XI

əsrə aid olması oğuz türkünün bu yerləri binələşdirməsinin azı 1000 illik tarixindən söhbət açmağa imkan verir. Rəsmi sənədlərdə isə bu qədim türk yurdu barədə ilk məlumata1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə rast gəlinir. Həmin sənədin 16-cı səhifəsində bu kənd öz əzəli adı ilə-Solaq kəndi kimi təqdim olunub və "Məraq (indiki Bala Məzrə) kəndi tərəfdəki Solaq kəndi" kimi təsniflənib. Müvafiq qeydlərdən o da bəlli olur ki, həmin vaxt bu kəndin sultan xəzinəsinə illik vergisi 2800 ağça həcmində imiş. XVIII əsrin II yarısında buraya Qazağın Kəsəmən kəndindən köçüb gələnlərin hesabına kənd xeyli böyümüş və elə o zamandan etibarən qeyri-rəsmi olaraq Kəsəmən adlandırılmışdır. 1800-cü ilə dair sənədlərdə isə artıq kəndin adı rəsmi mənbələrdə də Kəsəmən kimi qeyd olunmuşdur. 1826-1829-cu illər aralığında baş vermiş torpaq çəkişmələrində İran və Türkiyənin müqavimətini qıran Rusiyanın istəyi ilə yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında Kəsəmənin adı 52-ci sırada yer alıb. Erməni tarixçisi Z.Korkodyanın rəsmi statistikaya əsasən hazırladığı "Sovet Ermənistanının əhalisi 100 ildə: 1831-1931" kitabında verilən məlumatlara görə, Kəsəmənin sırf türk əhalisinin sayı 1831-ci ildə 166, 1873-cü ildə 379, 1886-cı ildə 492, 1897-ci ildə 671, 1904-cü ildə 713, 1914-cü ildə 894 nəfər təşkil etmişdir. 1918-ci ildə Ararat Respublikasının nizami quldur dəstələri kəndə xeyli ziyan vursalar da, onu boşaltmağa nail olmamışlar. Daşnaklar bu niyyətlərini yalnız ikinci həmlədə- 1919-cu il aprelin 13-20-si aralığında həyata keçirdikləri qətliamlar zamanı gerçəkləşdirmişlər. Kəndin sağ qalan əhalisi Azərbaycana, əsasən Daşkəsən və Şəmkir nahiyələrinə pənah aparmış, əmlakları talan edilmişdir. 1922-ci ildə Ermənistanın daşnak- kommunist hökumətinin toxunulmazlıq barədə zəmanətindən sonra kəndə dönənlərin sayı 249 nəfər, yəni qaçanların 25 faizi həddində olmuşdur. 1926-cı ildə kənd əhalisinin saıy artaraq 414, 1939-cu ildə isə 758 nəfərə çatmışdı. 1948-1953-cü illər aralığında Ermənistanda dövlət səviyyəsində həyata keçirilən deportasiyalar zamanı Kəsəmənin adı köçürüləcək kəndlərin siyahısına rəsmən daxil edilməsə də, zərbə ondan da yan keçməmiş, müxtəlif bəhanələrlə həyata keçirilən təzyiqlər nəticəsində əhalinin böyük bir qismi doğma yurdunu tərk etmişdir ki, bu reallıq da öz əksini rəsmi statistikada tapmışdır. Belə ki, 1945-ci ildə kənd əhalisinin sayı 716 nəfər olduğu halda, 1959-cu ildə bu göstərici 583 nəfər həddinə qədər azalmışdı. Amma repressiyalar bununla bitməmiş, sonrakı 30 il ərzində də müntəzəm xarakter daşımışdır. Ermənistan SSR Ali Sovetinin 25 yanvar

1978-ci il tarixli qərarı ilə Kəsəmən toponimi "Bahar" sözü ilə əvəzlənmişdir. 1979-cu il siyahıyaalınmasının nəticələrinə görə Kəsəmən əhalisinin sayı 955 nəfər idi. 1988-ci il deportasiyasında əhali qovulmuş, kəndin varidatı dövlət səviyyəsində talanmışdır. Ermənistan Respublikası parlamentinin 9 aprel 1991-ci il tarixli qərarı ilə kənd "Arpunk" adlandırılmışdır.

***Kəsəmən kəndinin ünlü yetirmələri:***

**Bayramov İbrahim Hüseyn oğlu.** İkinci dünya müharibəsi zamanı İtaliyada partizan hərəkatına qoşulmuş, Broz Titonun rəhbərliyi altında Yuqoslaviyada faşizmə qarşı döyüşən dəstənin fəallarından biri, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin yaxın silahdaşı olmuşdur.



**Aslanov Qəşəm Novruz oğlu.** 1934-cü il aprelin 10-da anadan olmuş, Xanlar rayonundakı Pedoqoji Məktəbi, Bakı Dövlət Universitetinin jurnalistika fakultəsini, Moskva Ali Partiya Məktəbini bitirmiş; Basarkeçərdə nəşr olunan "Sevan" qəzetinin redaktoru, Basarkeçər rayon Komsomol Komitəsinin I, Partiya Komitəsinin III katibi olmuş, XX əsrin 60-cı illərində Ermənistanda tüğyan edən şovinizm siyasətinin nəticəsi olaraq Azərbaycana köçməyə məcbur edilmişdir. Bakıda məskunlaşdıqdan sonra "Azərbaycan gəncləri" qəzetinin redaktoru olmuş, Azərbaycan KP Şuşa, İsmayıllı, Abşeron rayon komitələrinin birinci katibi işləmiş, iki çağırış Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdi. Ədəbi təxəllüsü Qəşəm Eloğludur. 2 kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin və Jurnalistlər İttifaqının üzvü idi. 1984-cü il noyabrın 19-da milliyyətcə ermənilərdən ibarət olan cinayətkar dəstənin həyata keçirdiyi sui-qəsd nəticəsində həlak olmuş, Bakıdakı II Fəxri Xiyabanda dəfn edildmişdir.



**Kərimov Sərdar İsa oğlu.** 1954-cü ildə anadan olmuş, Azərbaycan Tibb İnstitutunu və Bakı Ali Partiya Məktəbini bitirmiş, Bakının Nəsimi rayonunun partiya-sovet orqanlarında bir sıra məsul vəzifələrdə işləmiş, 1990-cı ildən Azərbaycan Respublikasının Səhiyyə Nazirliyində çalışmış, 1996-cı ildən ömrünün sonuna- 2003-cü ilin dekabrına qədər səhiyyə nazirinin birinci müavini olmuşdur. Ədəbi təxəllüsü Sərdar Kərimli idi, zəngin irsi qalıb.

**Hacıyev İsgəndər Qurban oğlu.** İrəvan Pedoqoji Məktəbini, Bakı Dövlət Universitetini və Ali Partiya Məktəbini bitirib, Basarkeçər nahiyəsində azərbaycanlı məktəblərinin ikişafı yönündə müstəsna xidmətlər göstərib. Ermənistan SSR Ali Sovetinin 22 noyabr 1950-ci il tarixli qərarı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülüb.



**Bayramov Məhəmməd İbrahim oğlu.** 1949-cu ildə anadan olmuş, Bakı Dövlət Universitetini bitirmiş, uzun illər Bakı şəhərinin müxtəlif rayonlarının təhsil sistemində məsul vəzifələr tutmuş, ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etmiş, qaçqınların məskunlaşmasında müstəsna xidmətlər göstərmişdir. Ali kateqoriyalı metodist müəllim, Bakı şəhər Müəllimlər Şurasının sədri, Respublika Müəllimlər Şurası idarə heyətinin üzvü, Xətai rayon təhsil şöbəsinin müdiridir.



**Bünyadzadə Ülvi Yusif oğlu.** 1969-cu il sentyabrın 23-də anadan olmuş, sonradan ailəsi ilə birlikdə Daşkəsəndə məskunlaşmışdı. Azərbaycan Dövlət Pedoqoji Xarici Dillər İnstitutunda təhsil alırdı. 1988-ci ildə başlayan milli-azadlıq hərəkatının fəallarından idi. 1990-cı il yanvarın 20-də sovet qoşunlarının tərkibində Bakıya girən erməni hərbçiləri tərəfindən qətlə yetirilmişdir. Ölümündən sonra iki şer kitabı nəşr olunmuşdur. "Azərbaycanın azadlığı uğrunda mücahid" fəxri adına ilk layiq görülənlərdən biridir.

**Orucov Asəf Oruc oğlu.** Bakı Dövlət Universitetinin hüquq fakultəsini bitirib, Azərbaycan Milli İstiqlal Partiyasının yaradıcılarından biri və beynəlxalq məsələlər üzrə katibi, "Millət" qəzetinin baş redaktoru olub. 2000-ci ildən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvüdür.

**Kərimov İrşad İsa oğlu.** Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun memarlıq fakultəsini bitirib. 1988-ci ildə milli-azadlıq mübarizəsinə qoşulub, 1990-cı il yanvarın 20-də yaralanıb. Keçmiş SSRİ-nin, Çexoslovakiyanın, Polşanın bir çox şəhərlərində reallaşmış 30-a qədər layihənin müəllifi, "Azərbaycanın azadlığı uğrunda mücahid" fəxri adına layiq görülmüş ilk 100 Azərbaycan vətəndaşından biridir.

**Qafarov Məmmədhəsən Şıxalı oğlu.** 1932-ci ildə anadan olmuş,

Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirmiş, namizədlik dissertasiyasını 1962-ci ildə İrəvanda, doktorluq dissertasiyasını 1977-ci ildə Moskvada müdafiə etmişdi. Biologiya elmləri doktoru, professor, əməkdar elm xadimi idi. 1998-ci ildə Bakıda vəfat edib..

**Abbasov Ziyad Mehralı oğlu.** Texniki elmlər doktoru, professordur.

**Axundov İbrahim Sarı oğlu.** Fizika-riyaziyyat elmləri namizədidir.

**Binnətov Ələddin Məmmədhüseyn oğlu.** Fizika-riyaziyyat elmləri namizədidir.

**Almaz Ülvi - Binnətova Almaz Qasım qızı.** 1960-cı il avqustun 8-də anadan olub, Bakı Dövlət Universitetini və Xarici Dillər İnstitutunu bitirib. Filologiya elmləri namizədi, 10-dan artıq kitabın və 300-ə qədər elmi məqalənin müəllifi, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvüdür.

**Cabbarov İsrafil Məhəmməd oğlu.** Bakı Sənaye İnstitutunu və Moskva Dövlət Universitetinin aspiranturasını bitirmiş, Azərbaycan komsomolunun Mərkəzi Komitəsində, partiya-sovet orqanlarında məsul vəzifələr tutmuş, Azərbaycan Qaçqınlar Cəmiyyətinin yaradıcılarından biri və ilk məsul katibi olmuş, dəfələrlə Bakı şəhər Xalq Deputatları Sovetinə üzv seçilmişdir. Texniki elmlər namizədi, Azərbaycan Neft - Qaz Sənayesi İşçiləri Həmkarlar İttifaqının məsul işçisidir.

**Quliyev Zülfüqar Mustafa oğlu.** Biologiya elmləri namizədidir.

**Ələkbərov Əziz Həmid oğlu.** İqtisad elmləri namizədidir.

**Əliyev Mübariz İsgəndər oğlu.** Biologiya elmləri namizədidir.

**İsmayılov Ələddin Oruc oğlu.** Kənd təsərrüfatı elmləri namizədidir.

**Əliyev Rizvan.** Uzun illər həmkarlar ittifaqları orqanlarında məsul vəzifələrdə çalışıb. Fizika-riyaziyyat elmləri namizədi, müstəqil sahibkardır.

**Xəlilov Allahyar Şıxalı oğlu.** 1947-ci ildə anadan olub. Azərbaycan Dövlət Politexnik İnstitutunu və Ali Partiya Məktəbini bitirib, əmək fəaliyyətinə Azərbaycan SSR Xalq Üçün Mallar Dövlət Konsernində fəhlə kimi başlayıb, mühəndis olduğu müddətdə bir neçə ixtirası qeydiyyatdan keçib və yenilikçi kadr kimi həmin konsernin fabriklərindən birinə müdir təyin edilib. 1975-1979-cu illərdə Bakının Şaumyan (indiki Xətai) rayonunun XDS İcraiyyə Komitəsində çalışıb. 1980-1989 illərdə Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində Azərbaycan SSR nümayəndəliyinə rəhbərlik edib, buradakı xidmətləri bir neçə medalla qiymətləndirilib. 1989-cu ildə rəsmi Moskvanın Azərbaycana qarşı yürütdüyü siyasətə etiraz əlaməti olaraq tutduğu vəzifədən istefa verərək Vətənə dönüb. 1989-1990-cı illərdə ölkənin ictimai - siyasi həyatında fəal iştirak edib; Azərbaycan Qaçqınlar Cəmiyyə-

tinin yaradıcılarından və fəallarından biri olub. Hazırda müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğuldur, xeyriyyəçi kimi tanınır.

## KƏSİKBAŞ

Göyçə gölünün cənub-şərqində, sahildən 7-8km. məsafədə, Mədinə, Xartlıq və Qasımbaşı kəndlərinin əhatəsində yerləşmiş bu obanın ərazisindəki IX-X əsrlərə aid məbədin qalıqları Kəsikbaşın oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 1500 illik tarixinin təsdiqləyicisi olan maddi dəlildir. Erməni mənbələrində isə kəndin adına ilk dəfə 1826-1829 - cu illər ərzindəki müharibələr zamanı Göyçədə dağıdılmış kəndlərdən 67 - sinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında rast gəlinir. Ermənilər bu qədim türk obasının bərpasında maraqlı olmamış, buna rəsmən mane olmağa çalışmışlar. Amma onların məkrli niyyətlərinə rəğmən, kənd XIX əsrin ortalarında öz əzəli sahibləri tərəfindən bərpa edilmiş və bu fakt rəsmi sənədlərdə təsbitlənmişdir. Belə ki, rəsmi sənədlərə görə, 1873-cü ildə Kəsikbaşda 246 nəfər türk yaşamışdır. Sonrakı illərdə kənd ermənilərin daimi təzyiqlərinə məruz qalsa da, əhali kəndi tərk etməmişdir. 1898-ci ildə Türkiyədən gətirilən 60 erməni ailəsi bu kəndə yerləşdirildikdən sonra isə demoqrafik göstəricilər sürətlə və kəskin şəkildə dəyişmişdir. 1914-cü ilin rəsmi statistikasına görə Kəsikbaşın türk əhalisinin sayı cəmi 77 nəfər idi. 1918-ci il qətliamları zamanı Kəsikbaş türkləri kütləvi qırğınlara və talanlara məruz qalmışlar. 1922-ci ildə kəndə qayıdan olmamış, o zamandan etibarən Kəsikbaş sırf erməni kəndi kimi səciyyələndirilmişdir. Amma buna baximayaraq Kəsikbaş toponimi daha 23 il yaşarı olmuşdur. Ermənistan SSR Ali Sovetinin 7 dekabr 1945-ci il tarixli qərarı ilə Kəsikbaş toponimi dəyişdirilərək kənd "Lernakert" adlandırılmış, qısa müddətdən sonra qonşu türk kəndləri bir inzibati vahid kimi ləğv edilərək, o kəndlərə 1918-1922-ci illər ərzində yerləşdirilmiş ermənilər də "Lernakert"ə köçürülməklə vahid bir sovxoz təşkil edilmişdir.

## KƏVƏR

(Kanizar)

Göyçə hövzəsinin cənub- qərbində yerləşən Kəvər kəndi ümumən mahalın ən qədim və ən iri yaşayış məskənlərindən biridir. Kəndin əra-



**Kənizə mağarasının girişi** *(C.F.Lehmann - Haupt)*

zisindəki qədim qalanın xərabəliklərində 1926-cı ildə aparılan qazıntılar zamanı erməni arxeoloqları oradan tapılan maddi sübutların - bəzək və məişət əşyalarının eramızdan əvvəlki tarixin birinci minilliyinin əvvəllərinə aid olduğu qənaətinə gəlmişlər ki, məhz bu faktın özü oğuz türkünün Göyçədə məskunlaşmasının azı 3000 illik tarixi barədə mülahizələrin birbaşa təsdiqləyicisi kimi çıxış edir. Amma ermənilər bu maddi sübutdan maksimum dərəcədə yararlanmağa çalışmışlar. S. Q. Barxudaryan Kəvər nahiyəsinin arxeoloci xəritəsini tərtib edərkən Kəvər qalasına xüsusi diqqət yetirərək onu "Urartu mədəniyyəti nümunəsi" kimi təqdim etməyə səy göstərmişdir. Akademik B.B.Piotrovski isə ovalşəkilli qalanın bir tərəfinin "dartılması" faktına diqqət yetirdikdən və qalanın bünövrə qalıqlarını tədqiq etdiklən sonra belə qənaətə gəlmişdir ki, qalanın əsas hissəsindən kəskin səddlə ayrılan ikinci hissə, yəni yarğanın üstündə tikilmiş şərq hissə birincidən xeyli "cavandır" və çox güman ki, yerli hakimi müvəqqəti əvəzləmiş başqa bir hakim tərəfindən tikilmişdir. Akademikin bu qənaətinə səbəb "erməni memarlığının ənənələri"nə uyğun restavrasiya edilmiş ikinci hissənin memarlıq həllinin bi-

rincinin memarlıq həllinə əsla uyuşmaması, ən başlıcası isə restavrasiya edilmiş hissədə Başkənd qalasından, yəni Kəvər qalasına yaxın ərazidəki başqa bir qaladan götürülmüş kitabələrə rast gəlinməsi idi. Təbii ki, B.Piotrovski bir alim kimi ermənilərin qeyri-elmi metodlarından, yəni əvvəl kitabələri oğurlayıb gizlətmək, əsrlər keçdikdən sonra isə həmin kitabələrdən öz məqsədlərinə uyğun şəkildə istifadə etmək kimi həyasız texnologiyadan xəbərsiz idi və bu səbəbdən də eramızdan əvvəlki birinci minilliyin əvvəllərində tikilmiş bir qalanın 3000 il sonra niyə öz formasını dəyişməsinə, qalanın artırmasının hansı səbəbdən müasir tikinti materialları hesabına möhkəmləndirilməsi kimi müəmmalara aydınlıq gətirə bilməzdi. Odur ki, o qalanın çox yaxşı görkəmdə olan ikinci hissəsindəki qədim yazıların tarixinə (bəli, məhz yazıların tarixinə) şübhə etmədən sadəcə "ikinci hissənin birincidən cavan olmasını" qeyd etməklə kifayətlənmək məcburiyyətində idi. Bəli, bu da tarixin bir ironiyasıdır. Kimlərsə tarixi qanıyla, kimlərsə də xəritələrlə yazır. Başqa birisi isə qanla və xəritə ilə yazılmış tarixlərin arasındakı fərqi tapmaq əziyyətinə qatlaşmaqdansa, eləcə faktları yozmağı daha üstün tutur. Amma kimin faktları necə yozmasından asılı olmayaraq, bir fakt heç kim tərəfindən inkar olunmayıb: XIX əsrin əvvəllərinə qədər Kəvər etnik tərkib etibarı ilə sırf türk kəndi olmuş, bir növ mahalın mədəni mərkəzi rolunu oynamışdır. Və bu gerçəkliyi həm maddi sübutlar, həm də rəsmi məxəzlər təsdiqləyir. Belə ki, qalanın özündə tapılmış kitabələrdə onun adı "Kənizər" kimi qeyd olunur. 1555-ci ilə dair sənədlərdə isə kəndin adı "Kənivər" şəklində verilir və o Səfəvi Azərbaycan dövlətinin Çuxur-Səd bəylərbəyliyinə daxil olan türk obalarından biri kimi təsniflənir. Sultan III Muradın 1574-cü ildən başlayan antişiə kampaniyası zamanı erməni yepiskopları əlahiddə səlahiyyətlər əldə etmişdilər və onlar hətta sultanın katiblərinin yazılarına belə düzəliş verirdilər. O düzəlişlərdən biri də "Kənizər" toponiminin "Kanavar", "Kanvar", "Kavar" şəkilli variantlarının ortaya çıxması ilə nəticələndi. 1620-ci ildə Səfəvi dövləti XVI əsrin sonlarında itirdiyi ərazilərə yenidən sahib oldu və mövqelərini möhkəmlətmək üçün III Muradın taktikasından bəhrələnməyi üstün tutdu. Bu dövrdə xristian dünyasının dəstəyini qazanmaq üçün Səfəvi sarayı ermənilərin xidmətindən maksimum yararlanmağa səy göstərirdi və bu "incə diplomatiya" onunla nəticələndi ki, türk toponimlərinin erməni ağzına uyğun variantları rəsmi ad statusu aldı. XVII əsrə dair sənədlərdə yer almış "Qavar kəndi" və "Qavar çayı" ifadələri də məhz o incə diplomatiyadan qaynaqlanan qələtlər idi. 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikləri zaman artıq erməniə-

rin müstəqil dövlət arzuları açıq müstəviyə çıxmışdı və məhz bu reallıq osmanlı dövlətini ermənilərin xidmətindən imtina zərurəti ilə üz-üzə qoymuşdu. Bu səbəbdən də 1728-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"ndə Göyçə kəndləri "erməni ağzına uyğar variantlar"da yox, ilkinliyindəki formada, yaxud da ona yaxın variantlarda təqdim olunmuşdur. O cümlədən də Kənizər toponimi yenidən həyat vəsiqəsi almış və icmal dəftərinin 12-ci səhifəsində "Kənizək" şəklində qeyd olunmuşdur. Həmin qeydlərdən bəlli olur ki, XVIII əsrin əvvəllərində Kənizərin sultan xəzinəsinə illik ödənci 10307 ağça həcmində imiş. Bu isə o deməkdir ki, Kənizər Göyçə mahalının ən iri vergi ödəyiciləri sırasında 5-ci sırada dayanırmış.

1826-1829-cu il müharibələri zamanı kənd ciddi dağıntılara məruz qalmasa da, rusların istəyi ilə yeni yaradılan erməni vilayətinin idarəçiliyinə verilmiş bütün kəndlər kimi mənəvi təzyiqlərə məruz qalmışdır ki, bu reallıq da rəsmi mənbələrdə təsbitlənmişdir. Belə ki, İran- Rusiya, Rusiya- Türkiyə müharibələrindən sonra Göyçənin yaşayış üçün yararlı kəndlərinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında 9-cu sırada yer alsa da, kəndin adı "Kənizər" kimi yox, "Kavar" kimi göstərilmişdir ki, məhz bu reallıq Kənizər toponiminin 3000 illik tarixinin gözardı edilməsi üçün əsas rolunu oynamışdır. 1831-ci ilə dair sənədlərdə kənd əhalisinin etnik tərkibi etibarı ilə sırf türk yurdu kimi təsniflənsə də, sonrakı illərdə bütün iri yaşayış məntəqələri kimi "Kəvər"ə də ermənilər gətirilmiş və məhz "zavallı erməni qaçqınları"nın istəyi ilə Kəvər kəndi rəsmi yazışmalarda "Yeni Bayazid" kimi təsniflənmişdir. 1835-ci ildə "Yeni Bayazid" rəsmən inzibati mərkəz elan olunduqdan sonra isə Kənizərdə ermənilərin sayının artırılmasına xüsusi diqqət yetirilmişdir ki, bu tarixi cinayətin dinamikası da rəsmi statistikadan aşkarca görünür. Belə ki, 1835-ci ildə "Kəvər"də 238 türk, 56 erməni ailəsi yaşayırdısa, 1873-cü ildə bu göstərici müvafiq olaraq 211 və 248 idi. 1897-ci ildə isə artıq türk ailələrin sayı 47-yə enmişdi (283 nəfər). 1918-ci il qırğınları zamanı Andranikin quldur dəstəsi "Kəvər"dəki türk ailələrinə qarşı xüsusi amansızlıq nümayiş etdirmiş, sağ qalmağa müvəffəq olanlar Ağqalaya, oradan isə Göyçə gölündən keçərək Gəncəyə pənah aparmışlar. 1922-ci ildə Kəvərə dönən türklər cəmi 12 nəfər olmuşdur. 1926-cı ildə Kənizərdə yaşayan türk ailələrinin sayı 15, 1931-ci ildə 69 idi. 1948-ci ildə həyata keçirilən dövlət səviyyəli deportasiya zamanı Kəvərdə yaşayan 13 türk ailəsinin hamısı Salyan rayonu ərazisinə köçürülsə də, az sonra onlar kompakt şəkildə Krasnodar diyarına köç etmişlər. Ermənistan hökumətinin qərarı ilə Kənizər kəndinə

1930-cu ildə Yeni Bayazid rayonunun inzibati mərkəzi, 1950-ci ildə şəhər statusu verilmiş, 1959-cu ildə isə Yeni Bayazid adı da Kamo kəlməsi ilə əvəzlənmişdir.

## KOLANI

Erməni tarixçiləri bu toponimlə bağlı həqiqətləri tarixin yaddaşından silmək üçün 200 ildir ki sərasər yalanlar uydurur, qondarma "elmi dəlillər" toplayırlar. Nəymiş səbəb? İlk növbədə Kolanı kəndində törədilmiş cinayətlərin - kütləvi repressiya və məqsədyönlü soyqırımı faktlarının məsuliyyətindən sığortalanmaq. Paralel olaraq Göyçənin əzəli sahibləri haqqında tarixi reallıqları təhrif etmək üçün əsaslar yaratmaq. Nail ola bildilərmi bu niyyətlərinə erməni tarixçiləri? Təəssüf ki, hansı yöndən yanaşılmasından asılı olmayaraq, bu sualın cavabı Azərbaycan tarixşünaslığına utancdan savayı bir şey vəd etmir.

Göyçədə eramızla yaşıd olan Kolanı adlı bir kənd, tarixi eramızdan əvvəlki dövrün II minilliyinin ortalarından başlayan, yəni yaşca Kolanı qalasından az qala iki dəfə böyük olan bir qala- Kələqıran qalası olub. Kələqıran qalası müasir anlamda Basarkeçər və Martuni rayonlarının sərhəd zolağında, Kolanı kəndi isə ondan onlarca kilometr şimal-qərbdə, müasir təsnifatla Kamo rayonunun ərazisində, Dəliqardaş (Saruxan) kəndinə yaxın bir ərazidə yerləşib. Bu barədə Kələqıran haqqında məlumatlarda ətraflı söhbət açıldığı üçün qısaca onu deyək ki, XVIII əsrdə hər iki kəndin müstəqil subyektlər kimi mövcud olması faktı rəsmi yazılı mənbələrdə də təsbitlənib. 1728-ci il aprelin 12-də Şah Əhməd Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində Göyçə nahiyəsinə daxil olan kəndlərin sırasında Kolanı kəndinin də adı yer alıb və onun illik vergilərinin 9505 ağça həcmində müəyyənləşdirildiyi barədə müvafiq qeydlər aparılıb. Bu isə o deməkdir ki, Kolanı kəndi o zaman Göyçənin ən iri vergi ödəyiciləri sırasında altıncı yerdə dayanırmış; başqa sözlə, o zaman Göyçə nahiyəsində mövcud olan 42 kənd arasında xüsusi çəkisi olan kəndlərdən biriymiş. Amma o heç bir halda Kələqıran qalası ilə eyniləşdirilə bilməzdi. Ən azı ona görə ki, osmanlıların tətbiq etdiyi inzibati bölgüyə əsasən Kələqıran qalası Göyçə nahiyəsinin yox, Məzrəə nahiyəsinin ərazisinə şamil edilirdi. 1826-1829-cu illərdə baş vermiş İran- Rusiya, Rusiya- Türkiyə müharibələrinin gedişində rusların istəyi ilə yaradılan erməni vilayətində tətbiq edilən inzibati bölgüdə isə, osmanlıların Məzrəə və Göyçə nahiyələri ki-

mi təsniflədiyi ərazilər bir inzibati ərazi halına gətirilərək, Göyçə mahalı adlandırıldı. Həmin vaxt İ. Şopenin ermənilərə istinadən tərtib etdiyi siyahılarda Kələqıran və Kolanı toponimlərinə rast gəlinmir. Əvəzində Göyçədə o zaman yaşayış üçün yararlı sayılan kəndlərin siyahısında "Kolanlıqırılan" adı peyda olub və İ. Şopenin siyahılarının düzüm prinsipinə istinadən qəti şəkildə demək olar ki, o məhz Kələqıranın əvəzinə işlədilib. Bəs Kolanı kəndinin özü hara qeyb olub? İlk baxışda cavabı müşkül sualdır! Amma ermənilərin tarixyaratma prinsipləri baxımından burada heç bir müəmma yoxdur, hər şeyin izahı çox sadədir: Kolanı kəndi 1826-1828-ci illər aralığında rus - erməni hərbi birləşmələri tərəfindən yerlə-yeksan edildikdən sonra əhalinin sağ qalan hissəsinin bir qismi nisbətən təhlükəsiz türk obalarına, o cümlədən Kələqırana pənah aparıb. Ermənilər bütün anaoloji hallarda olduğu kimi bu reallıqdan da maksimum bəhrələnərək, bir güllə ilə iki hədəf vurublar. Kolanlıqırılan adını dövriyyəyə buraxmaqla kolanılıların 1826-1829-cu il müharibələrindən hələ xeyli əvvəl ( bu olayın toponiləşməsi üçün zəruri olan zaman kəsiyi qədər əvvəl) qırıldığı barədə rəy yaratmağa, eyni zamanda Kəvər nahiyəsindəki Kolanı kəndi haqqında həqiqətləri diqqətdən yayındırmağa müvəffəq olublar. Ən əsası, "Kolanlıqırılan" adının ortaya çıxması bir növ Kələqıran toponiminin üzərinə çəkilmiş qara örtük funksiyası daşıyıb: erməni tarixçiləri Kələqıran qalası barədə həqiqətləri istədikləri kimi yozublar və bir çox hallarda ümümiyyətlə onun adını heç bir sənəddə qeyd etməyiblər. Azərbaycan tarixşünaslığı isə bütün anaoloji hallarda olduğu kimi yalnız seyrçi mövqe tutaraq "qədim Urartu qalası olan Tsovinar" haqqında bilgilərlə ötəri tanışlığı məqbul sayıb, həqiqəti öyrənmək əvəzinə ermənilərin dövriyyəyə buraxdığı Kolanlıqırılan kəlməsinin rus ağzında zorlanmış "Kolaqiryan", "Kolagirən", "Kalaqıryan" kimi formalarının nəyi ehtiva etdiyi barədə "ciddi elmi incələmələr" aparıb...Və bu incələməyə elə aludə olublar ki, XIX əsrin əvvəllərində şəhid düşmüş Kolanı kəndinin "adı unudulmuş ölü kəndlər" siyahısına salınaraq tarixdən silindiyindən belə xəbər tutmayıblar...

## KOSAMƏMMƏD

Kəvər kəndindən (indiki Kamo şəhəri) 8-9 km. cənub-şərqdə, Göyçə gölünün sahilinə yaxın bir ərazidə yerləşmiş bu kəndin sorağı da tarixin dərinliklərindən gəlir. Kəndin ərazisindəki qədim qala kompleksinin (Ermənistan Tarixi Abidələrin Bərpa və Mühafizəsi Komitəsi tərəfindən "Badik qalası" kimi təsniflənən tarixi abidə) tarixini erməni arxeoloqla-

rının özləri eramızdan əvvəlki birinci minilliyin ortalarına aid edirlər ki, elə bu faktın özü də Kosaməmməd kəndinin oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 2500 illik tarixi barədə elmi mülahizələrin təsdiqləyicisi rolunu oynayır. Ermənilərin bu qalanı “Badik qalası” kimi təsnifləməsinin isə heç bir elmi əsası yoxdur və bu gerçəkliyi də akademik B. B. Piotrovski dolayı yolla olsa belə təsdiqləmişdir. O özünün məşhur “Van çarlığı” kitabında Kosaməmməd kəndi ərazisindəki qaladan söhbət açarkən bildirir ki, bu qala Göyçə hövzəsindəki digər qalalardan nisbətən cavan olsa da, o müstəqil bir qaladan daha çox Ördəkli - Əyrivəng-Qışlaq - Qul Əli - Kəvər - Başkənd qalalarını birləşdirən müdafiə istehkamının coğrafi relyefin tələbi ilə daha möhkəm əsaslar üzərində tikilmiş bəndindən başqa bir şey deyil. Bu açıqlamadan hansı qənaət hasil olur? Birmənalı şəkildə bəlli olur ki, tarixin hansı dönəmindəsə Ördəkli -Başkənd istehkamının qurucuları daha bir qalanın tikintisinə ehtiyac duymuş və bu istəklərini reallaşdırmışlar. Amma bu yeni bənd - qalanın yaxınlıqdakı Kosaməmməd kəndinə əsla heç bir aidiyyatı olmamış, orada yalnız döyüşçülər yerləşdirilmişdir. Amma zaman keçdikcə qalada təbii olaraq artım müşahidə olunmuş və bu qala da müstəqil bir yaşayış məntəqəsinə çevrilmişdir. Qalanın coğrafi mövqeyindən də bəlli olur ki, Ördəklidən başlayaraq Göyçəli Başkəndinə qədər uzanan istehkam sırf relyef səbəbiylə bu ərazidə qırılırmış və görünür bu boşluq müdafiə baxımından, xüsusən də göl səmtindən hücumların qarşısının alınması baxımından müəyyən narahatlıqlar doğururmuş. Yeni qalanın tikintisini də, heç şübhəsiz, bu reallıq şərtləndirib və yeni qala bir növ əvvəldən mövcud olmuş istehkamların birləşdirici bəndi funksiyasının yerinə yetirib. Bu səbəbdən də o “Bənd qala” kimi təsniflənib və 1555-ci ilə dair yazışmalarda məhz bu adla təqdim olunub. Sultan III Murad dövrünə aid olan erməni məxəzlərində isə bu qala “Badkala” adı ilə təsniflənib. 1728-ci il tarixli “İrəvan əyalətinin icmal dəftəri”nin 12-ci səhifəsində bu qala və eyni adlı kənd “Bədkal” kimi göstərilir. 1826-1829-cu il müharibələrindən sonra yeni yaradılan erməni vilayətinin idarəçiliynə verilmiş Göyçə mahalının o zaman yaşayış üçün yararlı sayılan 59 kəndinin İ.Şopen tərəfindən hazırlanmış siyahısında 11-ci sırada Kosaməmməd kəndinin adı yer alsa da, Bəndqala adının müxtəlif dövrlərə aid variantlarından heç biri nə bu siyahıda, nə də dağıdılmış kəndlərin siyahısında yoxdur. Halbuki XVIII əsr erməni müəllifi Simon İrəvanlı da Göyçə gölü hövzəsindəki tarixi abidələrdən söhbət açarkən Bəndqala və Kosaməmməd kəndləri barədə ayrı-ayrılıqda danışırdı. Deməli, Bəndqala (S. İrəvanlıya görə “Badkala”) 1826-1829-cu illərdə tüğyan etmiş ermə-

ni-rus faşizminin qurbanlarından biridir və onun adının 1830-cu ildən sonrakı sənədlərdə birmənalı şəkildə əks olunmaması məqsədli xarakter daşıyıb. Ermənilərin Kosaməmməd və Bəndqala toponimlərinin eyni bir kəndin müxtəldif dövrlərə aid adları olması barədə iddiaları da, əslində bu kəndlərlə bağlı tarixi cinayətlərinin izlərini itirmək üçün düşünülmüş fəndgirlikdən savayı bir şey deyil.

İ.Şopenin verdiyi məlumata görə 1831-ci ildə Kosaməmməd kəndinin türk əhalisinin sayı 642 nəfər olmuşdur. Sonrakı 2-3 il ərzində Türkiyənin Bayazid qəzasından gətirilən ermənilərin bu kəndə yerləşdirilməsindən sonra isə etnik tərkib baxımından vəziyyətin kəskin dəyişməsi müşahidə olunmuş, bu reallıq rəsmi sənədlərdə öz əksini tapmışdır. Belə ki, 1897-ci ilə dair rəsmi sənədlərdə Kosaməmməd kəndində türklərin sayının 115 nəfər həddinə qədər azaldığı bildirilir. 1918-ci il soyqırımı zamanı isə Kosaməmməd türklərdən tam təmizlənmiş, kənd sırf erməni kəndinə çevrilmişdir. Kəndin adı isə yalnız 27 il sonra, Ermənistan SSR Ali Sovetinin 7 dekabr 1945-ci il tarixli qərarı ilə dəyişdirilmiş, Kosaməmməd toponimi "Badikyan" kəlməsi ilə əvəzlənmişdir. Daha doğrusu, "qazdan ayıq erməni tarixçiləri" Bəndqala toponiminin erməni ağzına uyğunlaşdırılmış variantını - "Badik qalası" kəlməsini dövriyyəyə buraxmaqla, XIX əsrin əvvəllərindən etibarən quraşdırdıqları yalanı rəsmiləşdirmişlər.

## KUZƏCİK

Kəvər kəndindən (indiki Kamo şəhəri) 15 km. cənub-qərbdə, üç tərəfdən dağlarla əhatələnmiş ərazidə qərarlaşmış bu kəndin indiki coğrafi mövqeyindən təxminən 500-700 metr aralıdakı II-III əsrlərə aid qalanın xərabəliklərindəki kitabələr öğuz elinin bu ərazilərdə binələşməsinin azı 2000 illik tarixinə şəhadət verən maddi sübutdur. Erməni tarixçiləri bu faktdan "qədim Urartu çarlığının sərhədləri"ni genişləndirmək məqsədi ilə yararlanmağa çalışsalar da, dünyanın ən məhşur tarix institutları Urartunun ön Qafqaza heç bir dəxli olmadığını artıq qəti şəkildə bildirmiş, eyni qrafikalı oxşar kitabələrdəki yazıların isə məhz antik türk dilinə uyğarlığını birmənalı şəkildə təsdiqləmişlər.

Belə bir qədim tarixə malik olan bu türk obasının adına rəsmi sənədlərdə ilk dəfə Rusiyanın istəyi ilə yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalında o zaman yaşayış üçün yararlı sayılan 59 kəndin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında rast gəlinməsinə

baxmayaraq, Göyçənin el yaddaşında və folklor nümunələrində Kuzəciklə bağlı nümunələr kifayət qədərdir. 1830-cu ildən sonra isə Kuzəcikdə Türkiyənin Bəyazid qəzasından gətirilmiş ermənilərin məskunlaşmasına rəvac verilib və bu məcburi aksiya Kuzəciyin növrağını pozub. Rəsmi statistikaya görə 1831-ci ildə sırf türklərdən ibarət 432 nəfər əhalisi olan Kuzəcikdə 1897-ci ildə 231 nəfər türk, 316 nəfər erməni yaşayıb. 1918-ci il soyqırımı zamanı Kuzəciiyn türk əhalisinin böyük qismi qətlə yetirilib ki, bu tarixi faciəyə kəndin indiki mövqeyindən 1,5-2 km. cənubda təxminən 250 kvadratmetr sahədə yerləşən, 1988-ci ilə qədər hətta kənd təsərrüfatı məqsədilə istifadə olunmayan, yalnız dörd iri daşla əhatələnmiş kütləvi məzarlıq şahidlik edirdi. Beləcə 1918-ci ildə Andronikin quldur qoşunu daha bir tarixi cinayətə imza atdı, bir türk kəndi şəhid düşdü. Amma bu qanlı faciədən sonra belə Kuzəciyin əzəli sahibləri öz doğma yurdlarına döndülər. 1922-ci ildə sovet hökumətinin təhlükəsizlik barədə təminat-vədindən sonra öz doğma yurduna dönən kuzəciklilərin sayı cəmi 50 nəfər, yəni 1897-ci ildəki göstəricinin 20 faizi həddində olsa da, onların bu israrı, bu yurd sevgisi erməni ideoloqlarını daha bir cinayətə sövq etdi: 1948-ci ildə Kuzəciyin türk əhalisi dövlət səviyyəsində həyata keçirilən deportasiyaya məruz qaldı. Ermənistan SSR Ali Sovetinin 19 aprel 1950-ci il tarixli qərarı ilə Kuzəcik toponimi "Lancaxpyur" sözü ilə əvəzlənmişdir.

## QAMIŞLI

Göyçə gölünün cənub-şərq sahillərində yerləşmiş bu kənd barədə məlumatlar ermənilər tərəfindən bilərəkdən təhrif olunmuş və Azərbaycan "tarixçiləri" də bir çox hallarda bu təhrifi əsas kimi qəbul etmişlər. Belə ki, erməni mənbələri Qamışlı toponimini Qanlı Allahverdi kəndinin əvvəlki adı kimi qələmə verirlər. Amma bu kəndlərin tamam başqa-başqa yurd yerləri olduğuna dair məlumatlar həm Göyçənin el yaddaşında, həm də rəsmi qaynaqlarda da öz əksini tapıb. Qamışlı kəndi XX əsrin əvvəllərinə qədər tam müstəqil bir inzibati vahid kimi mövcud olub və coğrafi mövqeyinə görə Qanlı Allahverdi kəndindən xeyli aralı, indiki Martuni rayonunun ərazisindəki Aşağı Alçalı (indiki Ardzvanist) kəndindən 3 km. şimal-şərqdə, Kötük çayın Göyçə gölə töküldüyü yerdən təxminən 1 km. aralıda yerləşib. Bu gün Qamışlının tarixin hansı dönəmində binələşdirildiyini təsdiqləyə biləcək maddi sübutlar olmasa da, hər halda bu tarixin eramızdan əvvəlki dövrə tə-

sadüf etməsi barədə elmi mülahizələrə əsas ola biləcək faktlar mövcuddur. Belə ki, akademik B.Piotrovski öz arxeoloci tədqiqatları zamanı Kələqıran qalasında və onun ətrafında yaşayan etnosun hələ eramızdan əvvəlki birinci minilliyin ortalarında mükəmməl suvarma sistemi qurduğunana şəhadət verən maddi dəlil əldə etmiş və bu sisteminin əsas dayaq məntəqəsinin Qamışlı xərabəliyinin coğrafi mövqeyinə uyğun bir ərazidə olmasını təsbitləmişdir. Elə həmin ərazidə ilk bürünc dövrünə aid orağın qırıntısını tapan B. Piotrovski ermənilərin istəyinin əksinə olaraq birmənalı şəkildə qeyd edir ki, **“... xərabəlikləri son illərdə yerli əhali tərəfindən qazılaraq yararsız hala salınmış, adı tarixin yaddaşından silinmiş** (oxu:erməni tarixindən silinmiş) **bu yaşayış məntəqəsi öz dövrünün ən inkişaf etmiş kəndlərindən biri, bəlkə də birincisi olub. Burada qurulmuş suvarma sisteminin fizika qanunlarının tələblərinə tam cavab verməsi onu yaratmış xalqın yüksək intellektindən və dünyəvi elmlərə bələdliyindən xəbər verir...”** Təbii ki, o kəndin əsl adının ortaya çıxması orada yaşamış etnosun kimliyi barədə konkret qənaətlərə rəvac verə bilərdi. Odur ki, ermənilər Qamışlı toponimini hər vəchlə gizlədir, moskvalı alimin Qamışlının coğrafi mövqeyinə uyğun gələn ərazidə qədim yurd yerinin olmasına dair elmi fikirlərinə rəğmən, həmin kəndin mövcudluğunu israrla inkar edirdilər. Bu israr həm də bir tarixi cinayətin məsuliyyətindən sığortalanmaq cəhdidir. Belə ki, Qamışlının 1826-1829-cu illər aralığında baş vermiş İran - Rusiya, Türkiyə - Rusiya müharibələri zamanı erməni - rus hərbi birləşmələri tərəfindən Göyçədə yerlə - yeksan edilmiş türk yurdlarından biri olduğu tarixi faktdır. O da faktdır ki, həmin illərdə dağıdılmış Qamışlının sağ qalan əhalisinin az qismi Aşağı Alçalıya, əksər hissəsi isə nisbətən təhlükəsiz olan Qanlı Allahverdi kəndinə pənah aparsalar da, XIX əsrin ortalarında kənd yenidən bərpa edilmişdir və bu tarixi gerçəklik rəsmi sənədlərdə təsbitlənmişdir. Erməni tarixçisi Z. Korkodyanın rəsmi statistikaya istinadən verdiyi məlumata görə, 1873 - cü ildə Qamışlının 93, 1898-ci ildə 161 nəfər türk əhalisi olmuşdur. 1914-cü illərə dair sənədlərdə isə Qamışlı adı siyahılardan yenə də silinmişdir. Bu isə o deməkdir ki, 1898- 1914- cü illər aralığındakı 16 illik dövrün hansı məqamındasa Qamışlı ikinci dəfə erməni təcavüzü ilə üz-üzə qalmış və bu qədim kənd amansızlıqla məhv edilmişdir. Qamışlıların bir qismi bu faciədən sonra həmişəlik Qanlı Allahverdi kəndində məskunlaşmışlar ki, Qanlı Allahverdi kəndinə el arasında hərdən Qamışlı deyilməsi də bu tarixi gerçəkliyin, Qanlı Allahverdidə yaşasalar da, qamışlıların bir neçə nəslinin öz məhlələrini məhz doğma yurdları-

nın adı ilə təsnifləməsinin təzahürüdür. Ermənilər də məhz bu reallıqdan bəhrələnməyə çalışaraq Qamışlının adını, deməli həm də orada yüz il ərzində törətdikləri faciələrin izlərini itirmək istəyiblər. Ermənistan SSR Ali Sovetinin 12 avqust 1946-cı il tarixli qərarı ilə Qanlı Allahverdi adı Qamışlı adı ilə əvəzlənmiş, sonradan həmin toponim də bir neçə dəfə dəyişlikliyə məruz qalmışdır. Bu, ermənilərin tarixin özünü aldatmaq, Göyçənin əzəli sahibləri ilə bağlı həqiqətləri bilərəkdən dolaşdırmaq cəhdlərinin aşkar nümayişidir. Amma tarix öz əlahəzrət ucalığında qalır və əsl Qamışlının ocaq yerlərinin və eramızdan əvvəl mövcud olmuş suvarma sisteminin qalıqları 1988-ci ilə qədər ermənilərə göz dağı kimi yaşayırdı...

## QANLI ALLAHVERDİ

Göyçə gölünün cənub - şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 3 kilometr qərbdə, Vardenis - Yerevan şosesinin üstündə, dəniz səviyyəsindən 1940 metr yüksəklikdə yerləşən bu kəndin ərazisindəki məbədin qalıqlarının VIII-IX, qədim məzarlıqdakı daş kitabələrin isə XI-XII əsrlərə aid olduğunu erməni tarixçilərinin özləri də rəsmən etiraf ediblər. Rəsmi mənbələrdə isə bu kəndin adına ilk dəfə yeni yaradılmış erməni vilayətiinin idarəçiliyinə verilmiş Göyçə mahalının o zaman yaşayış üçün yararlı sayılan 59 türk kəndinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında rast gəlinir. Tarixi sənədlərə görə 1831-ci ildə Qanlı Allahverdi kəndinin (Qamışlıdan köçüb bu kəndə pənah gətirənlərlə birlikdə) əhalisinin sayı 314 nəfər olub. Kənddə yaşayan türklərin sayı 1897-ci ildə 397, 1908-ci ildə 445, 1914-cü ildə 465, 1916-cı ildə 483 nəfər həddinə qədər artıb. Qondarma Ararat Respublikasının mövcudluğu illərində Göyçənin digər kəndlərinə nisbətən Qanlı Allahverdi kəndi daha çox ziyan çəkib; 1918-ci ilin noyabrında kənd qismən, 1919-cu ilin aprelində isə bütünlüklə yandırılıb və talan edilib. 1922-ci ildə qaçqınların cəmi 30 faizə qədəri, 165 nəfər qayıdaraq kəndi yenidən bərpa etmişlər. Amma bu vaxtdan etibarən ermənilər rəsmi sənədlərdə kəndin adını Qanlı Allahverdi kimi yox, Qanlı kimi göstərmişlər. 1931-ci ildə kənd sakinlərinin sayı 287, 1945-ci ildə 363 nəfər idi. 1946-cı il avqustun 12-də Qanlı Allahverdi toponimi dəyişdirilərək, kənd Qamışlı adlandırılmışdır. 1948-1953-cü illər aralığında dövlət səviyyəsində həyata keçirilən deportasiya zamanı Qanlı Allahverdi kəndi də qara siyahıya düşmüş, kənd bütövlükdə Kür-Araz ovalığına

köçürülmüşdür. Əhalinin bir qismi aran zonasına uyğunlaşa bilməyərək, bir qismi isə malyariya nəticəsində tələf olmuşdur. 1956-cı ildən sonra sağ qalanların az bir hissəsi yenidən kəndə dönərək onu bərpa etməyə çalışmışlar.1979-cu il siyahıyaalınmasının nəticələrinə görə kənd əhalisinin sayı 673 nəfər olmuşdur. 1988-ci il noyabrın 24-dən dekabrın 7-nə qədər erməni quldurları tərəfindən mühasirəyə alınmış Qanlı Allahverdi kəndi iki şəhid vermiş- 62 yaşlı Əhmədov Firudin Həsən oğlu aldığı fiziki xəsarətlər nəticəsində, 61 yaşlı İbrahimov Mirzağa İbad oğlu isə təqiblər zamanı borana düşərək dünyalarını dəyişmişlər. Kənd isə tam mənada dağıdılmış və qarət edilmiş, əhali Azərbaycanın müxtəlif bölgələrinə səpələnmək məcburiyyətində qalmışdır. Ermənistan SSR Ali Sovetinin 9 aprel 1991-ci il tarixli qərarı ilə Qanlı adlı türk yurdu qonşu Kərkibaş kəndi ilə bir inzibati vahiddə birləşdirilmiş və birləşmiş kənd "Vanevan" adlandırılmışdır.

***Qanlının alim övladı:***

**Avılov Bəhram Salman oğlu.** 1940-cı ildə anadan olmuş, Bakı Dövlət Universitetini və Partiya Tarixi İnsitutunun aspiranturasını bitirmiş, uzun illər Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda çalışmışdır. Siyasi elmlər doktoru, professor, 100-dən çox elmi məqalənin müəllifidir.

## QARAİMAN

(Qaraçubuq)

Göyçə gölünün şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 13 km. şimal-qərbdə, dəniz səviyyəsindən 2091 metr yüksəklikdə yerləşmiş bu kəndə məxsus qədim məzarlıqdakı daş kitabələr oğuz türklərinin bu obanı binələşdirməsinin azı 500 illik tarixinə şahidlik edən maddi sübutlardır. Kəndin ən qədim tayfalarının şəcərələrindən də məlum olur ki, Qaraiman kəndinin əsasını Qaraqoyunlu dövlətinin əsas qüvvəsini təşkil edən qaramanlı tayfasının Ağqoyunluların təqibindən yaxa qurtarmaq üçün Göyçəyə pənah gətirmiş nümayəndələri qoyublar. 1555-ci ilə dair yazışmalarda bu kənd "Qaraçoban" adı ilə təqdim olunur və Səfəvi - Azərbaycan dövlətinin Qarabağ (Gəncə) bəylərbəyliyinin inzibati bölgüsünə daxil olan vahidlərdən biri kimi təsniflənir. 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş və 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış " İrəvan əyalətinin icmal dəftəri"nin 16-cı səhifəsində aparılmış qeydlərdə isə kəndin adı "Qaraçubuq - Qa-

racaiman" kimi verilir və onun sultan xəzinəsinə illik ödəncinin 5474 ağça həcmində olması göstərilir.

1826-1829-cu illərdə baş vermiş Rusiya - İran, Türkiyə - Rusiya müharibələri zamanı Qaraiman kəndi də erməni-rus birləşmələri tərəfindən dağıdılaraq yerlə-yeksan edilsə də, qısa müddət sonra əzəli sahibləri doğma yurda dönərək onu yenidən abadlaşdırmışlar və bu tarixi gerçəklik rəsmi mənbələrdə əks olunmuşdur. Z.Korkodyanın tarixi məxəzlərə istinadən verdiyi məlumata görə, Qaraiman kəndinin əhalisinin sayı 1873-cü ildə 418, 1886-cı ildə 569, 1908-ci ildə 1033, 1914-cü ildə 1079 nəfər olmuşdur. Təbii ki, bu cür sürətlə inkişaf edən, əhalisi əsasən Qaraqoyunlu dövlətinin ən döyüşkən tayfalarından birinin- qaramanlıların törəmələrindən ibarət olan belə bir kənd ermənilərin diqqətini çəkməyə bilməzdi. 1918-1920-ci illərdə Göyçədə soyqırımı siyasəti aparan daşnak hökumətinin qaraimanlılara qarşı xüsusi qəddarlığını yalnız bu konteksdən izahlamaq olar. Və bu vandalizm aktı o dövrün mətbuatının diqqətindən yayınmadı. "Azərbaycan" qəzeti özünün 17 may 1919-cu il tarixli sayında Azərbaycan Demokratik Cümhuriyyətinin Dağlıq zolağının beşinci sahəsinin müsəlman əhalisi üzrə müvəkkili İsmayıl Sultanova istinadən yazırdı ki: "aprelin 13-də Ararat Respublikasının qoşunları Qaraiman kəndinə hücum etmiş, kəndi talamış, ələ keçənləri öldürmüşlər". 1922-ci ildə Ermənistan SSR rəhbərliyinin çağırışından və təhlükəsizlik barədə təminatından sonra qaraimanlı qaçqınların yarıdan azı- cəmi 478 nəfər kəndə dönsə də, kəndin bərpası və inkişafı misilsiz sürətlə aparılmışdır. Amma...Kəndin ağsaqqalı Məşədi İsənin 1818-1819-cu illərdə ermənilərə qarşı döyüşlərdə göstərdiyi rəşadət bolşevik şinelinə bürünmüş daşnakların yadından çıxmamışdı və bu kindən qaynaqlanan qisas hissi özünü çox gözlətmədi. Məşədi İsə xaincəsinə qətlə yetirildi.* Vaxtilə Məşədi İsənin dəstəsində ermənilərə qarşı vuruşanların hamısının ailələrinə qarşı təqiblər başlandı. Və bu təqiblər o qədər ciddi xarakter aldı ki, XX əsrin otuzuncu illərində Qaçaq Cəmil qiyama başlayanda Məşədi İsənin oğlu Musanın başçılıq etdiyi Qaraiman igidləri az qala elliklə bu mübarizəyə qoşuldular. Qiyam qan içində boğulduqdan sonra isə erməni NKVD-si qaraimanlıların az qala yarısını sürgünə göndərdi. Amma ermənilər qaraimanlıların mübarizə əzmini qıra bilmədilər...1979-cu il siyahıyaalınmasının nəticələrinə görə, kənddə 2042 nəfər türk yaşayırdı. Bu qəbil sürətli inkişaf da erməniləri əndişələndirir, Qaraimanın daim təzyiqlərə məruz qalmasına səbəb olurdu. Kadrların sıxışdırılması ilə kifayətlənməyən erməni millətçiləri mənəvi təzyiqlərdən də çəkinmirdilər. Ermənistan SSR Ali Sovetinin 25 yanvar 1978-ci il tarixli qərarı ilə Qaraiman kəndinin

adının dəyişdirilərək "Sovetkənd" qoyulması o təzyiqlərin təzahürlərindən biri idi və bu qəbil oyunlar 1988-ci ildə özünün kuliminasiya nöqtəsinə çatdı. 1988-ci il noyabrın 28-30-da iki mindən çox əhali rəsmi orqanların birbaşa müdaxiləsi nəticəsində kənddən çıxarıldı, əhalinin və kolxozun əmlakı dövlət səviyyəsində talana məruz qoyuldu. Ermənistan SSR Ali Sovetinin 9 aprel 1991-ci il tarixli qərarı ilə "Sovetkənd" sözü də dəyişdirilərək, kənd "Kaxakn" adlandırılmışdır.

***Qaraimanın ünlü yetirmələri:***

- *Məşədi İsə. Bu tarixi şəxsiyyət barədə müfəssəl məlumatla bu kitabın "Ömrünü yurda çıraq etmiş dağdan ağır kişilər" bölümündə tanış ola bilərsiniz.*

**Mustafayev Nurəddin.** Əsələn Qaraimandan olsa da, Gəncədə böyüyüb ərsəyə yetmiş, Azərbaycan KP-nın sayılıb seçilən funksionerlərindən biri, Naxçıvan KP MK-nın birinci katibi olmuşdur. Hazırda "Ağrıdağ" xeyriyyə cəmiyyətinin sədridir.

**Hüseynli Qabil.** Əslən Qaraimandan olsa da, Tərtər rayonunda böyüyüb ərsəyə yetmiş, 1988-ci ildə başlayan milli azadlıq hərakatının fəallarından, Milli İstiqlal Partiyasının yaradıcılarından biri, 1993- 1996-cı illərdə Azərbaycan Respublikası Prezidentinin müşaviri olmuşdur. Siyasi elmlər doktoru, Müsavat Partiyası başqanının müavinidir.

**Əliyev Məmməd İbrahim oğlu.** Tarix elmləri namizədidir.

**Mustafayev Əhliman Əşrəf oğlu.** Texniki elmlər namizədidir.

## QARAMURAD

Göyçə gölünün şimalında, müasir təsnifatla Çənbərək nahiyəsi ilə Şınığın sərhəd zolağında yerləşmiş bu qədim türk yurdu barəsində həm erməni mənbələri, həm də Azərbaycan tarixşünaslığı uzun illər inadkarlıqla susublar. Azərbaycan tarixşünaslığının bu yöndəki xəyanətkar mövqeyinin səbəblərini anlamaq nə dərəcədə çətindirsə, erməni tərəfin analoci məsələyə münasibətdə nümayiş etdirdiyi prinsipiallıq eyni dərəcədə başadüşüləndir.

Qaramurad adına yazılı mənbələrdə ilk dəfə XVI əsrə dair sənədlərdə rast gəlinir. 1555-ci ilə dair yazışmalarda Qaramurad Səfəvi Azərbaycan dövlətinin Qarabağ (Gəncə) bəylərbəyliyinin inzibati ərazisinə daxil olan kəndlərdən biri kimi səciyyələndirilir. 1723-cü ildə Osmanlı dövləti Göyçə hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tətbiq edilmiş inzibati bölgüyə əsasən, Qaramurad İrəvan əyalətinin Dərəçiçək nahiyə-

sinin ərazisinə daxil edilmişdi ki, bu tarixi reallıq da 12 aprel 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə əks olunmuşdur. Həmin sənədin 109-cu səhifəsində aparılmış qeydlərdən bəlli olur ki, o zaman Qaramurad kəndi zemaət qismində, yəni dövlət yetkililərinin məsrəflərini təmin edən vergi ödəyicisi qismində Yusif Mehmet oğlu Krımski adlı şəxsin istifadəsinə verilibmiş və illik ödənci 15000 ağça həcmində müəyyənləşdirilibmiş. 15000 ağça! Bu o deməkdir ki, XVIII əsrin ortalarında Qaramurad ümumən Göyçə hövzəsində - Dərəçiçək, Göyçə, Məzrəə nahiyələrində ən iri vergi ödəyicisi imiş. Bunca iri bir yaşayış məskəninin sadəcə tərk edilməsini, atılıb yaddan çıxarılmasını düşünmək ən azı sadəlövlük olardı. Erməni tarixçiləri isə Qaramuradın məhz belə bir aqibətlə üzləşdiyini sübuta yetirmək niyyətindədirlər və bu zaman onların yeganə istinad nöqtəsi İ. Şopenin siyahılarıdır. Bəli, İ.Şopenin siyahılarında- 1826-1829-cu illərdə Göyçədə viran qoyulmuş 108 kənddən 67-sinin və müharibələrdən sonra yaşayış üçün yararlı sayılan kəndlərin siyahılarında Qaramurad adı yoxdur. Amma bu o demək deyil ki, belə bir kənd olmayıb, yaxud da rusların Qafqaza təcavüzündən əvvəl dağıdılıb. Faktiki olaraq o müharibələr zamanı Göyçədə 108 kənd dağıdılıb, amma İ.Şopen şəhid yurdlardan yalnız 67-sini qeydiyyata alıb ki, onlardan da yalnız 27-sinin adını "dəqiqləşdirə bilib". Qaramurad da məhz qeydiyyata alınmayan kəndlərin siyahısındadır və bu tarixi reallığa Göyçənin el yaddaşında daşlaşmış bilgilər, eləcə də qaramuradlıların nəsildən-nəsilə ötürülən göynər xatirələri şəhadət verir. O bilgilərdən isə aydın olur ki, 1826-1829-cu illərdə erməni-rus birləşmələri Qaramuradda daşı-daş üstə qoymayıblar və yaşanmış faciənin dəhşətindən kəndin əzəli sahibləri doğma yurda qayıtmağa cəsarət etməyiblər; sığındıqları Gədəbəy nahiyəsində eyni adlı yeni bir kənd salmağın məşəqqətini yurda dönməkdən üstün tutublar.

Ermənilər isə Qaramuradın strateci əhəmiyyətini nəzərə alaraq burada məskunlaşmaya xüsusi önəm veriblər və XIX əsrin ortalarında Qaramuradın tarixi mövqeyindən təxminən 3 km. şimal-qərbdə yeni bir kənd salıblar ki, sonradan "Erməni Başkəndi" kimi təsniflənən bu kənd bütün XX əsr ərzində erməni faşizminin əsas dayaq məntəqəsi funksiyası daşıyıb.

## QARAÖRƏN

Göyçə gölünün şimal-qərbində yerləşmiş Qaraörənin xərabəlikləri 1988-ci il deportasiyasına qədər yaşarı idi. Ağqala kəndindən 1-1,5 kilo-

metr şərqdə, sahilə bitişik qayalıqda olan o xərabəlikdəki daş kitabələrin, məzar sənduqələrin və qədim məbədin bünövrə qalıqları bu yerlərin oğuzlar tərəfindən binələşdirilməsinin azı 1000-1500 illik tarixinə şəhadət versə də, erməni mənbələri Göyçə hövzəsində belə bir adda kənd olmamasında israrlıdır. Amma heç bir elmi əsasa söykənməyən israr kor cahil inadından savayı bir şey deyil... Qaraörənin mövcudluğunu təkcə maddi sübutlar yox, eyni zamanda rəsmi yazılı mənbələr də təsdiqləyir: 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş və 12 aprel 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində Göyçə nahiyəsinin inzibati ərazisinə daxil olan kəndlərin siyahısında 13-cü sırada məhz Qaraörən kəndinin adı yer alıb və onun sultan xəzinəsinə illik ödəncinin 8445 ağça həcmində müəyyənləşdirilməsi barədə müvafiq qeydlər aparılıb. Həmin sənəddən o da bəlli olur ki, Qaraörən kəndi Qışlaq (Qalacıq) və Ağkilsə (Ağqala) kəndləri ilə həmsərhəd imiş. Bunca aydın təsnifata baxmayaraq nə İ.Şopenin tərtib etdiyi siyahılarda: 1826-1829-cu illərdə erməni-rus hərbi birləşmələri tərəfindən dağıdılmış kəndlərdən 67-sinin və Göyçə mahalı erməni vilayətinin tərkibinə qatılan zaman yaşayış üçün yararlı sayılan 59 kəndin siyahısında, nə də bundan sonarkı dövrə aid olan rəsmi sənədlərdə Qaraörən toponiminə rast gəlinmir. Bu reallıqdan çıxan məntiqi nəticə isə odur ki, XIX əsrin əvvəllərində erməni faşizminin qurbanı olmuş qədim türk obalarından biri də Qaraörən kəndidir.

## QARASAQQALQIŞLAĞI

Göyçə gölünün cənub-şərq sahillərində, Basarkeçər-Martuni şosesinin 17-ci kilometrinə uyğun gələn bir ərazidəki xərabəlikləri 1988-ci ilə qədər qalan Qarasaqqalqışlağı kəndi barədə tarixi həqiqətləri gizlətmək üçün erməni tarixçiləri kifayət qədər ciddi səylər göstəriblər və nəticədə "rəsmi erməni mənbələri" bir - birini təkzib edən məlumatlarla zənginləşib. Belə ki, erməni mənbələrində Qarasaqqalqışlağı kəndi Mollalı kəndinin, Mollalı toponimi isə Alçalı kəndinin müxtəlif dövrlərə aid olan adları kimi təsniflənir. Həqiqətdə isə Göyçədə Yuxarı Alçalı adlı oba olmayıb. Göyçə mahalında XIX əsrin əvvəllərində tam müstəqil inzibati vahidlər qismndə həm Alçalı, həm Qarasaqqalqışlağı, həm də Mollalı kəndləri mövcud olub. 1826-1829-cu illər aralığında baş vermiş İran - Rusiya, Türkiyə - Rusiya müharibələrinin gedişində Mollalı tam

məhv edilərək bərpasına imkan verilməsə də, sonralar kənd dirçəldilmişdir. O zaman rəsmən erməni vilayətinin idarəçiliyinə verilmiş yaşayışa yararlı kəndlərin siyahısında yer almış Qarasaqqalqışlağı kəndi isə əksinə, tam məhv edilmişdir. Alçalıda isə yerli türklərin diskriminasiyası siyasəti aparılmışdır. Nəticədə Alçalı, Mollalı və Qarasaqqalqışlağı kəndlərinin əhalisi bütün XIX əsr ərzində müəyyən dövrülüklə bir - birinə sığınmaq məcburiyyətində qalaraq, son nəticədə eyni kəndin əhalisi kimi qaynayıb - qarışmağa məcbur olmuşlar. Bu reallığı ermənilər etiraf etmək istəməsələr də, onun izləri məxəzlərdə qalır. Belə ki, 1828-ci ildə yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında 32-ci yerdə Qarasaqqalqışlağı kəndinin adı yer alsa da, Mollalının adı "dağıdılmış və adı unudulmuş ölü kəndlər" qrafasında "əbədiləşib". 1873-cü ilin statistikasında isə, 1828-ci ildə yaşayış üçün yararlı sayılan kəndlərin siyahısında müvafiq olaraq 31 və 32-ci sıralarda olan Alçalı və Qarasaqqalqışlağı kəndlərinin adları "yoxa çıxıb" və əvəzində rəsmi statistikada Aşağı Alçalı və Mollalı kəndləri peyda olub. 1904-cü il statistikasında isə Mollalı da yoxa çıxıb və əvəzinə Yuxarı Alçalı adı peyda olub. Nədir bu "qeybə çəkilib - peyda olma" möcüzəsinin əsl səbəbi? Erməni tarixçiləri bu qədər əziyyət hesabına eyni vaxtda 3 türk kəndinin tarixini məhv etməyə cəhd ediblər. Belə bir təəssürat yaratmağa çalışıblar ki, Göyçədə Alçalı, Mollalı, Qarasaqqalqışlağı kəndləri olmayıb; Aşağı və Yuxarı Alçalı kəndləri isə yalnız 1828-ci ildən sonra təşkil olunmuş kəndlərdir və onlardan biri-Yuxarı Alçalı müxtəlif dövrlərdə Mollalı və Qarasaqqalqışlağı kimi təsniflənib. Beləliklə də ermənilər 1826-1829-cu və 1918-1919-cu illərdə Mollalıda, 1828-1873-cü illər aralığında Qarasaqqalqışlağında, 1873-1918-ci illər aralığında Alçalıda törədilməiş cinayətlərin izini itirmək istəyiblər. Amma tarix amansız şahiddir: Qarasaqqalqışlağının mövcudluğu XVI əsrə dair sənədlərdə də təsbitlənib. Belə ki, 1595-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"nin Zar nahiyəsinə dair qeydlər bölümündə Qarasaqqalqışlağı kəndinin timar qismində, yəni osmanlı dövlətinin səlahiyyətli nümayəndələrinin xərclərini ödəyən vergi ödəyicisi qismində Məhəmməd Əli oğlu, Şahin Hüseyn oğlu və Teymur Sultan oğlu adlı şəxslərin istifadəsinə verilməsi barədə xüsusi qeyd aparılıb. Qarasaqqalqışlağının xərabəlikləri də erməni cinayətlərinə şahidlik edən maddi sübut kimi yaşayır və bu məqsədlə aparılacaq arxeoloji qazıntılar əsl ittiham xarakteri daşıya bilər.

## QASIMBAŞI

Göyçə gölünün cənub-şərqində, sahildən 10-12 kilometr cənubda-Mədinə, Xartlıq, Kəsikbaş kəndləri ilə həmsərhəd bir mövqedə yerləşmiş bu kəndin xərabəlikləri indiki Martuni rayonunun Lernakert kəndinin ərazisi hesab olunan dağətəyi bir taladadır. Erməni tarixçiləri bu kəndin izlərini tarixdən silmək üçün belə bir "hipotez" irəli süpmüşlər ki, güya Qasımbaşı toponimi Kəsikbaş kəndinin əvvəlki adıdır. Əslində isə bu kəndlərin hər biri ayrı-ayrılıqda mövcud olub və bu reallıq öz əksini rəsmi sənədlərdə tapıb. Belə ki, 1826-1829-cu illərdə erməni-rus hərbi birləşmələri tərəfindən Göyçədə yerlə-yeksan edilmiş 108 kənddən 67-sinin İ. Şopen tərəfindən tərtib olunmuş siyahısında 25 - ci sırada məhz Qasımbaşı kəndinin adı gəlir. Ermənilər bu kəndin bərpasında əsla maraqlı olmadıqlarından onun təkrar binələşməsinə imkan verməməyə çalışıblar. Tarixi həqiqətlərin izini itirmək üçün müxtəlif kəndlər haqqında məlumatları bilərəkdən qarışdırmaq, ayrı - ayrı toponimləri eyni bir yaşayış məntəqəsinin müxtəlif dövrlərə aid variasiyaları kimi təqdim etmək erməni tarixşünaslığı üçün ənənəvi haldır. Amma fakt odur ki, indiki Martuni rayonundakı Lernakert (əvvəlki Kəsikbaş) kəndinin ərazisi sayılan yerlərdə Kəsikbaş kəndinə məxsüs məzarlıqdan savayı daha 3 kəndin və müvafiq olaraq, 3 məzarlığın xərabəlikləri 1988-ci ilə qədər dururdu. Onlardan birinin məhz Qasımbaşının ocaq yerləri olduğu danılmaz gerçəklikdir. Kəndin hansı müsübətlər yaşadığı barədə müfəssəl məlumatlar olmasa da, rəsmi sənədlərdə təsbitlənmiş faktlara istinadən o faciələrin təxmini mənzərəsini canlandırmaq mümkündür:

1826-1829-cu illər ərzində erməni - rus birləşmələri tərəfindən dağıdılmış Qasımbaşı kəndinin sağ qalmış nümayəndələri XIX əsrin ortalarında doğma yurdlarını yenidən bərpa etmişlər və bu reallıq sənədlərdə əks olunub. 1873-cü ilin rəsmi statistikasında Qaranlıq nahiyəsində Qasımbaşı adlı kənd qeydiyyata alınıb və orada 117 nəfər türkün yaşadığı göstərilib. 1898-ci ildə isə Qasımbaşının 163 nəfər əhalisi varmış. 1914-cü ilə dair sənədlərdə isə Qasımbaşı kəndinin adı yoxdur. Bu fakta istinadən Qasımbaşının məhz 1905-ci il qırğınları zamanı şəhid düşdüyü barədə mülahizə yürütmək olar. O zaman yaşanmış facie barədə Azərbaycan tarixində heç bir məlumat olmasa da, ermənilərin sonradan Kəsikbaş kəndini israrla Qasımbaşı adlandırmaq istəklərinə istinadən delə güman etmək olar ki, Qasımbaşının sağ qalan əhalisi Kəsikbaşa pənah aparıb.

# QAYABAŞI

(Qayadibi)

Göyçə gölünün şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 10 kilometr şimal-şərqdə, dəniz səviyyəsindən 2035 metr yüksəklikdə yerləşmiş bu kəndə məxsus qədim məzarlıqda 1970-ci illərin ortalarına qədər (*yəni həmin vaxt Vardenis rayon partiya komitəsinin birinci katibi, sonradan respublika idman komitəsinin sədri, 1988-ci ildə isə "Krunk" fəallarından biri olmuş Nuricanyan soyadlı bir daşnak törəməsi alban mədəniyyətinin izlərini yaşadan tarixi abidələri kütləvi şəkildə yığıb Basarkeçərdəki erməni qəbristanlığında gizlədənə qədər*) qalan qəbirüstü daş kitabələr bu türk yurdunun azı 1000 illik tarixindən söz açmağa imkan versə də, nə yazıq ki, ümumən Göyçə mahalının tarixi kimi Qayabaşının tarixinin də əsl çalarlarının öyrənilməsi fürsətini buraxmışıq. Amma bununla belə, rəsmi məxəzlərdə bu kəndin qədim tarixini təsdiqləyən məlumatlar kifayət qədərdir. 1555-ci ilə dair sənədlərdə bu kənd "Qayadibi" adı ilə təqdim olunur və Səfəvi - Azərbaycan dövlətinin Qarabağ (Gəncə) bəylərbəyliyinin inzibati vahidlərindən biri kimi təsniflənir. 1578- ci ildə Sultan III Murad səfəviləri yenərək Göyçə hövzəsinin şərqindəki kəndlərin bir qisminə nəzarət imkanı əldə etdikdən sonra tətbiq edilmiş yeni inzibati bölgüyə görə isə Qayadibi İrəvan əyalətinin Ordubad qəzasının Zar nahiyəsinə daxil edilmişdi. 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş və 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 118-ci səhifəsində aparılmış qeydlərdə isə Qayadibi kəndi Zarzəmin nahiyəsinin idarəçiliyində olan inzibati vahidlərdən biri kimi xarakterizə edilirdi. Həmin qeydlərdən o da bəlli olur ki, həmin vaxt Göyçənin bir çox kəndləri kimi Qayadibi kəndinin əhalisi də osmanlıların şiələrdən qisas alacağı barədə şaiyələrə inanaraq yurdu tərk edibmiş və Qayadibi də boş qalmış kəndlər sırasında sultanın mülkiyyətinə verilibmiş. XVIII əsrin sonlarında osmanlılar Göyçəyə nəzarəti itirdikdən sonra əhali yenidən qayıtmış, amma kəndi əvvəlki mövqedə, qayanın dibindən axan çayın sahilində yox, qayanın üstündə bərpa etmişlər və müvafiq olaraq "Qayabaşı" toponimi formalaşmışdır.

İ.Şopenin hazırladığı siyahıların heç birində, 1826-1829-cu illərdə baş vermiş İran- Rusiya, Rusiya - Türkiyə müharibələri zamanı erməni-rus hərbi birləşmələri tərəfindən dağıdılmış və yeni yaradılmış erməni vila-

yətinin idarəçiliyinə verilərkən yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahılarında isə nə "Qayadibi", nə də "Qayabaşı" adı çəkilmir. Bu fakta istinadən birmənalı şəkildə demək olar ki, o dövrdə tam məhv edilmiş və ermənilərin təhriki ilə "adı unudulmuş ölü kəndlər" qrafasında ümumiləşdirilmiş qədim türk yurdlarından biri də Qayabaşı olmuşdur. Amma yaşanmış faciələrə rəğmən XIX əsrin ortalarında kəndin əzəli sahibləri doğma ocağa dönərək onu bərpa etmişlər və bu tarixi reallıq rəsmi sənədlərdə öz əksini tapmışdır. Belə ki, 1873-cü ilin rəsmi statistikasında Qayabaşı kəndinin adı var və kəndin 131 nəfər türk əhalisi olduğu göstərilir. Sonrakı illərdə kənd inkişaf etmiş və rəsmi statistikaya görə əhalisinin sayı 1886-cı ildə 181, 1897-ci ildə 219, 1914-cü ildə 228, 1916-cı ildə 234 nəfər olmuşdur. 1919-cu il 13-20 aprel tarixli qətliamlar zamanı daşnak ordusu kəndi talamış, əhali kəndi tərk edərək əsasən Cavanşir qəzasının dağlıq zolağına pənah aparmaq məcburiyyətində qalmışdır. 1922-ci ildə kəndə qayıdanların sayı cəmi 149 nəfər, yəni 1914-cü ildəki əhalinin yarısı həddində olmuşdur. 1979-cu il siyahıyaalınmasının nəticələrinə görə kənd əhalisinin sayı 531 nəfər olmuşdur. 1988-ci il noyabrın 24-dən dekabrın 7-nə qədər nizami daşnak dəstələrinin mühasirəsində qalan kənd 3 şəhid vermiş - 66 yaşlı **Namazov Qoşun İbrahim oğlu**, 55 yaşlı **Cəfərov Koroğlu Bəşir oğlu** və 47 yaşlı **Xəlilov Məmməd Qulu oğlu** aldıqları fiziki xəsarətlər nəticəsində vəfat etmiş; kənd elliklə köçürülmüş, əhalinin və kolxozun əmlakı Ermənistan hökuməti tərəfindən mənimsənilmişdir. Ermənistan Respublikası parlamentinin 9 aprel 1991-ci il tarixli qərarı ilə Qayabaşı toponimi ləğv edilərək kənd "Qeğamabok" adlandırılmışdır.

***Qayabaşının ünlü yetirmələri:***

**Bəylərov Müslüm Balakişi oğlu.** Filologiya elmləri namizədi.

**Məmmədov Əhməd Ramazan oğlu.** Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirmiş və ömrünün sonuna qədər bu ali təhsil ocağında çalışmışdır. Kənd təsərrüfatı elmləri namizədi, dosent idi.



**Məmmədov Şahmar Məhəmmədəli oğlu.** 1956-cı il mayın 8-də anadan olmuş, Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu və Moskva şəhərində aspiranturanı bitirmiş, Azərbaycan Dövlət Quşçuluq Sənayesi Birliyində və Dövlət Statistika Komitəsində bir sıra məsul vəzifələr tutmuşdur. Kənd təsərrüfatı elmləri namizədi, Şəmkir Quşçuluq Kompleksinin direktorudur.

**Cəlilov Ənvər Yusif oğlu.** Azərbaycan Dövlət Pedoqoji İnstitutunu bitirmiş, uzun illər Gəncə şəhərinin təhsil sistemində məsul vəzifələr tut-

muş, 1988-ci ildə Aleksandr Şirvanzadə adına məktəbin bazasında Ermənistandan qovulmuş türklər üçün məktəb təşkil edilməsinin və həmin məktəbə Aşıq Ələsgərin adının verilməsinin təşəbbüskarlarından biri, həmin məktəbin ilk direktoru olmuş, AXC hakimiyyəti zamanı haqsızlıqlara etiraz olaraq tutduğu vəzifədən imtina etmişdir. Biologiya elmləri namizədi, 10-dan çox elmi məqalənin müəllifidir.


Məmmədov Murad

**Məmmədov Murad Muxtar oğlu.** 1976 - cı ildə anadan olub, Azərbaycan Dövlət İqtisad Universitetini bitirib. İqtisadçı alim, "Odlar Yurdu" Universitetində tədris hissə müdirinin müavinidir.


Məmmədov Zöhrab

**Məmmədov Zöhrab Ələddin oğlu.** 1975 - ci ildə anadan olub, Azərbaycan Dövlət İqtisad Universitetini bitirib. İqtisadçı alim, "Odlar Yurdu" Universitetinin müəllimidir.

**Şabanov Rafiq Mirzəli oğlu.** Filologiya elmləri namizədidir.

## QAZANÇI

Göyçə gölünün cənub-qərbində, müasir coğrafi təsnifatda Vardenis və Martuni rayonlarının sərhəd zolağına təsadüf edən bir ərazidə yerləşmiş bu kəndin 1988-ci ilə qədər yaşarı olan xərabəliklərindəki qədim məbədin qalıqları onun oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 1500 illik tarixinə şəhadət versə də, kənd haqqında ilk və son yazılı rəsmi məlumat 1728-ci ilə aiddir. Belə ki, həmin il aprelin 12-də Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 15-ci səhifəsində Məzrəə nahiyəsinin inzibati bölgüsünə daxil olan kəndlərin siyahısında 18-ci sırada məhz Qazançı kəndinin adı yer alıb və onun sultan xəzinəsinə illik vergisinin 1989 ağça həcmində müəyyənləşdirilməsi barədə müvafiq qeydlər aparılıb.

1826-1829-cu illər Rusiya-İran, Türkiyə-Rusiya müharibələrinin gedişində erməni-rus hərbi birləşmələri tərəfindən dağıdılmış Göyçə kəndlərindən 67-sinin, eləcə də o zaman yaşayış üçün yararlı sayılan 59 kəndin İ.Şopen tərəfindən tərtib olunmuş siyahılarında və ondan sonrakı dövrə dair sənədlərdə isə bu kəndin adı yer almayıb. Bu tarixi faktlardan qaynaqlanan məntiqi nəticə isə odur ki, XIX əsrin əvvəllərində erməni-rus vəhşiliyinin qurbanı olmuş və "adları unudulmuş ölü kəndlər" qrafasında

ümumiləşdirilərək izlərinin tarixdən silinməsinə cəhd olunmuş qədim türk yurdlarından biri də Qazançı kəndidir. Oğuz türkünün o kənddə yaşadığı faciələrin təfərrüatı isə, çox təəssüf ki, Azərbaycan tarixşünaslığına bəlli deyil.

## QƏMASAR

1826-1829-cu illərdə baş vermiş İran- Rusiya, Rusiya-Türkiyə müharibələrinin gedişində erməni-rus hərbi birləşmələrinin Göyçədə dağıtdıqları 108 kənddən 67-sinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında "Qəməsar"ın adı sonuncu sırada yer alsa da, erməni vəhşiliyinin qurbanı olmuş bu qədim yurd haqqında başqa bir məlumatlar yoxdur. Nə qədər qəribə olsa da, Göyçənin el yaddaşında da Qəməsarın coğrafi mövqeyinə işarət ola biləcək ciddi bir iz qalmayıb. Amma İ.Şopenin məhz ermənilərə istinadən hazırladığı cədvəllərin təhlilinə əsasən belə bir məntiqi nəticəyə gəlmək olar ki, Qəməsar o zaman üçün Göyçənin ən iri yaşayış məntəqələrindən biri olub və Göyçənin şimalında, indiki Çambarak rayonunun inzibati bölgüsünə düşən Toxluca və Sevan rayonunun inzibati bölgüsünə daxil olan Çubuqlu kəndləri arasında yerləşib. Bu qənaətə səbəb Göyçədə dağıdılmış və erməni vilayətinin idarəçiliynə verilmiş kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahılarında kəndlərin adlarının gölün cənub-qərbindən başlayaraq cənub-şərq, şərq, şimal-şərq, şimal - qərb istiqaməti üzrə ardıcıllıqla sıralanması və o dövr üçün əhalisinin sayı 200 nəfərdən aşağı olan dağıdılmış kəndlərin istisnasız olaraq hamısının bir qarafada-"adları unudulmuş ölü kəndlər" qrafasında ümumiləşdirilməsidir. Əsl həqiqət, Qəməsar kəndinin faciəli taleyindən xəbər verə biləcək həqiqətlər isə təəssüf ki, tarixin müəmmaları sırasındadır və açılmasına güman günü-gündən azalır...

## QIRXBULAQ

Göyçə gölünün cənub-şərqində, Basarkeçər kəndindən (inliki Vardenis şəhəri) 2 km.cənubda, dəniz səviyyəsindən 1984 metr yüksəklikdə yerləşmiş bu kəndin ərazisindəki VIII-IX əsrlərə aid məbədin və qədim məzarlıqdakı kitabələrin qalıqları onun binələşdirilməsinin azı 1500 illik tarixinə şahidlik edən maddi sübutlardır. XVI əsrə dair sənədlərdə isə Qırxbulaq Səfəvi-Azərbaycan dövlətinin Çuxur-Sədd bəylərbəyliyinin

inzibati vahidlərindən biri kimi səciyyələndirilir. 1723-cü ildə Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etmiş osmanlıların tərtib etdiyi və 24 ramazan 1140 - cı ildə ( 12 aprel 1728-ci il) Əhməd şah Mehmet xan oğlu tərəfindən tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 16-cəhifəsində isə Qırxbulaq kəndinin İrəvan əyalətinin Məzrəə nahiyəsinin inzibati bölgüsünə daxil olması və illik vergisinin 7788 ağça həcmində müəyyənləşdirilməsi barədə qeydlər aparılıb.

Rəsmi erməni məxəzlərində isə Qırxbulağın adına ilk dəfə 1828-ci ilə dair sənəddə - yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib edilmiş siyahısında rast gəlinir. O vaxta qədər əhalisinin etnik tərkibinə görə Qırxbulaq sırf türk obası olmuş, 1831-ci ilin sənədlərinə görə kənddə 247 nəfər türk yaşamışdır. Sonrakı bir əsr ərzində Türkiyə və İrandan gətirilən ermənilərin bu kəndə yerləşdirilməsi hesabına etnik balans pozulmuş və demoqrafik vəziyyət ermənilərin xeyrinə sürətlə dəyişmişdir. 1918-ci ilin noyabr-dekabr və 1919-cu ilin mart-aprel aylarında Andronikin fitvası ilə Göyçədə həyata keçirilən qətliamlar zamanı Qırxbulağın əzəli sahiblərinə divan tutulmuş, kənd türklərdən tamamilə təmizlənmişdir. Kəndin sağ qalan əhalisi 1922-ci ildən sonra əsasən Çaxırlı, Subatan və Yuxarı Zağalı kəndlərində məskunlaşmış, bir qismi isə ümumiyyətlə geri dönməyərək Şəmkir nahiyyəsində qalmışdır. Kəndin əzəli adı isə bu qanlı faciədən sonra belə 17 il yaşarı olmuş, Ermənistan SSR Xalq Komissarları Soveti Mərkəzi İcraiyyə Komitəsinin 3 yanvar 1935-ci il tarixli qərarı ilə Qırxbulaq toponimi "Aqunk" sözü ilə əvəzlənmişdir.

## QIŞLAQ

(Qalajıq)

Ermənilərin tarixin yaddaşından silmək istədikləri türk toponimlərindən biri də Qışlaqdır. Xərabəlikləri Göyçə gölünün cənub-qərbində, Kəvər çayının deltasında, sahilə yaxın bir ərazidə 1988-ci il deportasiyasına qədər toxunulmamış qalan bu kənd barədə erməni mənbələri inadla sussa da, onların özlərinə istinadən İ. Şopenin tərtib etdiyi siyahı - rusların inadı ilə yeni yaradlmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı sayılan kəndlərin siyahısı Qışlaq kəndinin XIX əsrin ortalarına qədər mövcud olduğunu təsdiqləyən faktdır. Kəndin xərabəliklərindəki və erməni alimlərinin özlərinin IX əsrə aid etdiyi məbədin, XV-XVI əsrlərə aid məscid-mədrəsnin, qədim

məzarlıqdakı oğuz kitabələrinin qalıqlarına əsasən isə qətiyyətlə demək olar ki, Qışlaq Göyçə mahalının qədim, sorağı min illiklərin dərinliyindən gələn ən iri yaşayış məskənlərindən biri olub. Təbii ki, bu iki fakt hər cür elmi mübahisələrə son qoymaq, Göyçənin ən azı 1500 illik tarixinin türklərə məxsusluğunu təsdiqləmək üçün yetərlidir. Amma... Bu faktlarla kifayətlənmək yalnız və yalnız ermənilərin xeyrinə olardı. Niyə?!. Çünki ermənilərin gizlətmək istədiyi həqiqətlər son 1000-1500 ilin həqiqətləri yox, Qışlağın 3000 illik tarixi və o tarixin oğuz türkləri ilə bağlılığını təsdiqləyən gerçəkliklərdir. Belə ki, erməni tarixçilərinin Göyçədə 100 il ərzində apardığı qazıntılar zamanı hansı səbəbdənsə "gözdən yayınmış" Qışlaq qalaları 1935-ci ildə akademik B.Piotrovski tərəfindən aşkarlanıb və indi erməni tarixinə meydan oxuyan fakt kimi ortadadır. Ən qəribəsi isə odur ki, ermənilər bu qalaları "Mrtbi-dzor" adlandırsalar da, onların dostluğundan kifayət qədər bəhrələnmiş bu moskvalı alim öz əsərlərində qalaları məhz "Qışlaq-1", "Qışlaq-2", "Qışlaq-3" kimi təsnifləmiş və konkret olaraq göstərmişdir ki, çayın sağ və sol sahillərində üzüzə dayanmış bu qalalar müstəqil qala olmayaraq Ördəkli-Başkənd istehkam kompleksinin zəncirbəndləri rolunu oynayır. Və akademikin fikrincə, onlardan ikisi sırf müdafiə, üçüncüsü isə mütləq mənada məişət səciyyəsi daşıyıb. Yəni Qışlaq təkcə müdafiə istehkamının həlqəsi olmayıb, bu təyinata qədər Qışlaqda məskunlaşmanın uzun bir tarixi yaşanıb. O qədər uzun ki, əhali özünümüdafiə təfəkkürü səviyyəsinə qədər oturuşa bilib. Ən çox maraq doğuran isə qalaların memarlıq həllidir. Sağ sahildəki qalanın yalnız iri qayalardan ibarət bünövrəsi qaldığı üçün onun haqqında konkret söz söyləmək o qədər də asan deyil. Sol sahildə isə qala divarlarının bir qismi qalır. Bu, arası xüsusi bərkidici məhlulla doldurulmuş iki divardan ibarət bir hörgü nümunəsidir ki, anoloci texnologiya dünyanın heç bir qədim memarlıq nümunəsində müşahidə olunmayıb. Bundan əlavə divardan öncə bir-biri ilə birləşməyən qayalar düzümü var ki, bu da qədim göytürklərin "tələ divarlar"ına bənzəyir. Qalanın künclərində istifadə olunmuş terras sistemləri isə hər şeydən öncə dəniz tərəfdən hücumlar əleyhinə hesablanmış qurğular kimi dəyərləndirilə bilər. Hələ 3000 il əvvəl bu qədər mükəmməl texnologiyadan yararlanan bir etnosun özü barədə hər hansı bir məlumat qoymaması sadəcə mümkün deyil. Amma akademik B.Piotrovski qalanın bünövrəsini təşkil edən qayadan kəsilib çıxarılmış kitabələrin boş qalmış yerlərindən başqa heç nə ilə rastlaşmayıb. Bəs kitabələr kim tərəfindən və nə məqsədlə oğurlanıb? Bu ərazilərdə 1860-1863-cü illərdə Eçmiədzin emissarı Mesrop Smbatyansın, 1922-1926-cı illərdə isə Ermənistan Tarixi Abidələrin Bərpası və

Mühafizəsi Komitəsinin ekspedisiyasının qazıntalar apardığı faktlarını nəzərə aldıqda kitabələrin kim tərəfindən oğurlanmasını aydınca təsəvvür etmək olar. Bəs onların üzə çıxarılmaması? Hər bir daşdan Van çarlığının qədim tarixi üçün yararlı fakt kimi istifadə edən erməni tarixşünaslığı Qışlaq kitabələrini niyə üzə çıxarmır? Səbəb çox sadədir: bu kitabələrdə yazılanlar ermənilərin niyyətlərini alt-üst edir, heç bir halda erməni tarixinə yapışmır. Məhz buna görə də ermənilər Qışlağın üzə çıxmasında yox, onunla bağlı həqiqətlərin tarixin yaddaşından silinməsində maraqlıdırlar. Və bu cinayətkar maraq az qala 200 ildir ki, real tədbirlərlə müşaiyət olunur. Amma... Qışlaq qalaları ilə bağlı yazılı məlumatlar da maddi sübutlar kimi ölməzdir. 1555-ci ilə dair rəsmi yazışmalarda Qalaca Qışlaq kəndi Səfəvi-Azərbaycan dövlətinin Çuxur - Sədd bəylərbəyliyinin inzibati vahidlərindən biri kimi təsniflənir. 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikdən 5 il sonra təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində isə Qalacıq (Qışlaq) kəndinin İrəvan əyalətinin Göyçə nahiyəsinin inzibati bölgüsünə aid edilməsi və illik vergisinin 3920 ağça həcmində müəyyənləşdirilməsi barədə qeydlər aparılıb. 1831-ci ilə dair sənədlərdə Qışlaq kəndinin 583 nəfər əhalisi olduğu göstərilsə də, 1873-cü ilə dair statistikada və bundan sonrakı dövrlərə dair rəsmi sənədlərdə Nor Bayazit qəzasının kəndləri sırasında Qışlağın adına rast gəlinmir. Bu, o deməkdir ki, Qışlaq kəndi məhz 1831-1873-cü illər aralığında Göyçədə tüğyan etmiş 42 illik erməni vəhşiliklərinin qurbanı olmuşdur. Amma əfsuslar ki, bu faciənin də təfsilatı Azərbaycan tarixində öz əksini tapmayıb.

## QIZILBULAQ

(Qızılca)

Göyçə hövzəsinin cənub-şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 4, Çaxırlı kəndindən 1 kilometr cənub-qərbdə, dəniz səviyyəsindən 1970 metr yüksəklikdə yerləşmiş bu kəndin izlərinin tarixdən silinməsi yönündə xeyli əziyyət çəkən erməni tarixçilərinin fərziyyələrinə görə, Göyçə mahalında belə bir kənd olmayıb və "Qızılbulaq" toponimi Çaxırlı kəndinin müəyyən dövrdə işlənmiş adından savayı bir şey deyil. Eyni iddia Qızılbulaqdan təxminən 2 km. aralıda yerləşmiş Karçan (Karca - Keflicə) kəndi barədə də səsləndirilib. Amma bu sərsəmləmələrə baxmayaraq, Göyçənin erməni vilayətinin tərkibinə qatılmasına qədər və ondan sonrakı bir neçə onillik ərzində hər üç kəndin

müstəqil inzibati vahid kimi mövcud olmasını təsdiqləyən rəsmi sənədlər də, tarixi maddi sübutlar da var. Belə ki, 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş və 1728-ci ildə Əhməd şah Məhmət xan oğlu tərəfindən təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 15 səhifəsində İrəvan əyalətinin Məzrəə nahiyəsindəki Qızılbulaq kəndi barədə qeydlər aparılıb və onun sultan xəzinəsinə illik ödəncinin 2320 ağça həcmində olduğu göstərilib.

1828-ci ildə yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında Qızılbulağın adı 35-ci sırada yer alıb. Rəsmi sənədlərə görə 1831-ci ildə Qızılbulağın türk əhalisinin sayı 341 nəfər, 1873-cü ildə 289 nəfər olmuşdur. Türkiyədən gətirilən ermənilərin sayı demoqarik vəziyyəti kəskin şəkildə dəyişməklə yanaşı həm Qızılbulaq, həm də Çaxırlı kəndlərinin sürətlə böyüməsinə, deməli həm də ərazicə bir-birinə yaxınlaşmasına səbəb olmuş və XIX əsrin sonlarında bu kəndlər erməni ideoloqlarının inadı ilə mexaniki surətdə Çaxırlı adı altında birləşdirilmişlər. XX əsrin iyirminci illərindən sonra isə ermənilər məhz öz fitvaları ilə aradan qaldırılmış "Qızılbulaq" və "Karçan (Karca-Keflicə)" toponimlərinin eyni bir kəndin müxtəlif dövrlərə dair adları olduğu barədə tezis irəli sürməklə, Göyçədə ta qədimdən mövcud olmuş türk yaşayış məskənlərinin sayını mexaniki surətdə azaltmaq, deməli, həm də tarixi təhrif etmək yolu tutdular. Amma... Tarix əlahəzrət faktları ilə möhtəşəmdir və o faktlardan biri Qızılbulaq adlı kəndin mövcudluğunu, onun qədim türk yurdu olduğunu birmənalı şəkildə təsdiqləyir.

## QIZILCIQ

Göyçə gölünün cənubunda, sahildən 3 kilometrlik bir məsafədə, Ağzıbır kəndi ilə Əbulkəndi arasında qərar tutmuş bu qədim türk obasının adına erməni mənbələrində ilk dəfə 1828-ci ildə yeni yaradılmış erməni vilayətinin idarəçiliynə verilmiş Göyçə mahalında o zaman yaşayış üçün yararlı sayılan 59 kəndin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında rast gəlinsə də, onun 1988-cii ilə qədər qalan xərabəliklərindəki IX əsrə aid məbədin qalıqları Qızılcığın azı 1500 illik tarixinə şahidlik edən tutarlı maddi dəlildir. Erməni tarixçiləri zaman-zaman həqiqətləri təhrif edərək Ağzıbir, Əbulkəndi və Qızılcıq toponimlərini eyni bir kəndin müxtəlif tarixi dövrlərə aid adları kimi qələmə verməyə, beləliklə də Göyçədə tarixən mövcud olmuş türk obalarının sayını azaltmağa cəhd etsələr də,

tarix tarixliyində, fakt isə faktlığında qalır. Ağzıbir kəndinin 1945-ci ildə rəsmi qərarla Lcap adlandırılması sənədlərdə əksini tapmış faktdırsa, onun indiki mövqeyindən qərbdəki xərabəliyin Qızılcıq kəndinə, Qızılcıqdan təxminən 2 km cənubdakı xərabəliyin isə Əbulkəndə məxsusluğu tarixin daş yaddaşında, Göyçənin söz və göz yaddaşında qalmış həqiqətlərdir. Maddi sübutlar da bu həqiqəti təsdiqləyir. Belə ki, həm indiki Lcap yaxınlığında, həm də o xərabələrin hər birinin yaxınlığında məzarlıqlar var və bu məzarlıqların qalıqlarına əsasən hər üçünün eyni dövrə- Alban mədəniyyətinin son dövrlərinə aid olmasını qətiyyətlə söyləmək mümkündür. Və bu reallıqdan istər-istəməz bir məntiqi sual doğur: bir kəndin əhalisinə üç məzarlıq nə üçün lazım ola bilərdi? Özü də elə bir kənd ki, həm əhalinin etnik tərkibi, həm dini inancı, həm də dil baxımından heç bir problemi omayıb. Təbii ki, bu kəndlər ayrı-ayrı kəndlər olmasaydılar hər birinin tarixin eyni dövrünə aid ayrıca məzarlığı da olmazdı. Erməni tarixşünaslığı bunca aşkar həqiqətləri belə gözardı etmək "qüdrətindədir". Nə yazıq ki, onlara bu fürsəti özümüz vermişik və bu fürsət nə az, nə çox - düz 200 illik bir dövrü əhatə edib.

Beləliklə... Göyçənin qədim yaşayış məskənləri sırasında Qızılcıq adlı bir yurdun mövcudluğu və XIX əsrin əvvəllərində yaşarı olması təkzibimümkünsüz faktdır. O da faktdır ki, 1831-ci ildə İ.Şopenin yaşayış üçün yararlı kəndlərdən biri kimi təsniflədiyi bu yurdun adı 1873-cü ilə və ondan sonrakı dövrlərə dair rəsmi sənədlərdə yer almayıb. Bu isə o deməkdir ki, erməni faşizminin iki əsrlik tüğyan dövrünün ilk mərhələsində, 1831-1873-cü illər aralığında şəhid düşmüş qədim yurd yerlərimizdən biri də Qızılcıq kəndidir.

## QIZILXARABA

Göyçə gölünun cənub-şərqində, örüşləri etibarı ilə Qaranlıq nahiyəsindəki Baş Gözəldərə və Mollalı kəndi ilə həmsərhəd bir coğrafi mövqedə yerləşmiş bu qədim türk obasının 1831-ci ildə124 nəfər sakini olduğu rəsmi mənbələrdə əksini tapmış faktdır. 1826-1829-cu illər hərbi təcavüzündən sonra bərpasına imkan verilməmiş "birirnci" Əyricə kəndinin sağ qalan əhalisinin bir qismi Qızılxarabada məskunlaşandan sonra kəndin adı müxtəlif mənbələrdə müxtəlif cür, gah Əyricə, gah da Qızılxaraba kimi qeyd olunsa da, bu reallıq heç bir halda Qızılxaraba toponiminin qədimiliyinə və kəndin Göyçənin tarixindəki roluna xələl gətirmir. Belə ki, Qızılxaraba toponimi XVI əsrə dair sənədlərdə yer alıb və həmin sənəd-

lərdə bu kənd Səfəvi Azərbaycan dövlətinin Çuxur-Səd bəylərbəyliyinə daxil olan türk obalarından biri kimi xarakterizə olunur. 1728-ci ildə təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 15-ci səhifəsində yer almış məlumatlardan isə aydın olur ki, həmin vaxt Qızılxaraba inzibati baxımdan Məzrəə nahiyəsinə ərazisinə daxil edilibmiş və birbaşa sultan xəzinəsinə illik ödənci 4070 ağça həddində müəyyənləşdirilibmiş. XVIII əsr müəllfi Simon İrəvanlının Göyçə gölü hövzəsinə səfər qeydlərində kəndin coğrafi koordinantları tam təfsilatı ilə verilməsə də, hər halda kənd sırf "müsəlman kəndi" kimi səciyyələndirilir və müəllifin təsvirlərindən Mollalı kəndinə yaxın bir ərazidə olduğu aydınlaşır ki, bu təsnifat da Qızılxarabanın müasir coğrafi mövqeyi ilə tam uzlaşır. Erməni tarixçisi Z.Korkodyan da Qızılxarabanın 1918-ci ilə qədər sırf türk kəndi olduğunu birmənalı şəkildə təsdiqləyir. Onun rəsmi statistikaya istinadən verdiyi məlumatlara görə, Qızılxarabanın türk əhalisinin sayı 1873-cü ildə 188, 1897-ci ildə 225, 1916-cı ildə 349 nəfər olmuşdur. 1919-cu il erməni vəhşilikləri zamanı daşnak ordusu kəndi talan etmiş, əhalini kütləvi şəkildə qırmışdır. Bu tarixdən sonra kəndə 104 nəfər erməni yerləşdirilmiş, 1922-ci ildə doğma yurduna dönən türklərin sayı cəmi 154 nəfər, yəni 1916-cı ildəki əhalinin yarısı həddində olmuşdur. 1922-ci ildən sonra erməni tarixşünaslarının istəiy ilə heç bir səbəb və ehtiyac olmadan kənd rəsmi sənədlərdə Əyricə kimi təqdim olunmuş və əhalinin etnik tərkib balansı ermənilərin xeyrinə kəskin şəkildə dəyişmişdir. 1931-ci ildə kənddə yaşayan ermənilərin sayı 531, türklərin sayı isə cəmi 84 nəfər həddində imiş. Ermənistan XKS MİK - nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kənd yenidən Qızılxaraba adlandırılmış, 1948-1953-cü illərdə dövlət səviyyəsində həyata keçirilən deportasiya zamanı Qızılxarabanın bütün türk əhalisi öz yurdlarından çıxarılaraq, əsasən Sabirabad rayonu ərazisində məskunlaşdırılmışlar. Kəndin özü isə sonradan bir inzibati vahid kimi ləğv edilərək, ərazisi qonşu təsərrüfatlar arasında bölünmüş, burada 1920-1945-ci illər ərzində məskunlaşmış ermənilər isə əsasən Xartlıq sovxozuna (indiki Zaxqaşen kəndi) köçürülmüşdür. Bütün bu faciəvi xronologiyada ən çox maraq doğuran məqam kəndin adı ilə bağlı oyunlardır. Məqsəd nə idi? Qızılxaraba adı ilə oynamaq üçün ermənilərə şansı "birinci" Əyricə əhalisinin bu kənddə məskunlaşması faktı verib. Bu reallıqdan istifadə edərək ermənilər çox ustalıqla XIX əsrdə tam mənada məhv edərək "ölü kəndlər" siyahısına saldıqları üç eyni adlı kəndin tarixinin, deməli həm də burada törətdikləri cinayətlərin üstündən xətt çəkmək istəyiblər və buna qismən nail olublar da. Azərbaycan tarixşünaslığı isə XIX əsr və ondan əvvəlki dövrlərə məxsus mənbələrdə mövcudluğu təsbitlənmiş 3 Əyricə kəndinin tarixi əvəzinə

"Əyricə" toponiminin "Qızılxaraba"ya, "Qızılxaraba" toponiminin "Əyricə"yə çevrilməsi kimi "çətin məsələdəki funksionallığı" tapmaq üçün tam qeyri-ciddi fəaliyyətlə məşğul olub.

## QIZILVƏNG

(Qızılkilsə)

Göyçə gölünün cənub-şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 15 km. cənub-qərbdə, dəniz səviyyəsindən 2176 metr yuksəklikdə yerləşmiş bu kəndin Göyçənin ən qədim yaşayış məskənlərindən biri olduğu hətta ermənilər tərəfindən rəsmən etiraf olunmuş tarixi gerçəklikdir. Kənddəki məbədin IV-V əsrlərə, qədim məzarlıqdakı kitabələrin isə eramızın əvvəllərinə aid olduğu bildirilsə də, kənd ərazisində 1950-1953-cü illərdə aparılmış arxeoloci qazıntılar zamanı tapılmış və Yerevan Tarixşünaslıq Muzeyində eramızdan əvvəlki ikinci minilliyin ortalarına aid eksponatlar kimi nümayiş etdirilən məişət və bəzək əşyaları Qızılvəngin oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 3500 illik tarixini təsdiqləyən maddi sübutlardır. Amma bütün bu maddi sübutlar olmadan belə Qızılvəngin sufi ənənələri ilə yaşayan bir türk eli olduğu və Göyçə ozan-dərviş ordeninin inkişafında müstəsna xidmətlər göstərdiyi AĞ AŞIQ yaradıcılığına bələd olanlar üçün sirr deyil. O da faktdır ki, XIX əsrin əvəllərində Rusiyanın istəyi ilə erməni vilayəti yaradılana qədər Qızılvəng əhalisinin etnik tərkibinə görə, sırf türk kəndi olmuşdur. Bunu rəsmi sənədlər də sübut edir. 1555-ci ilə dair yazışmalarda Qızılvəng Səfəvi Azərbaycan dövlətinin Çuxur-Səd bəylərbəyliyinin inzibati vahidlərindən biri kimi təqdim olunur. 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş və 12 aprel 1728-ci ildə Əhməd şah Məhmət xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 16-cı səhifəsitndə isə Qızılvəngin İrəvan əyalətinin Məzrəə nahiyəsinin inzibati bölgüsünə daxil edildiyi və illik ödəncinin 2190 ağça həcmində müəyyənləşdirildiyi barədə müvafiq qeydlər aparılıb.

1826-1829-cu illər aralığında baş verən müharibələr zamanı isə kənd erməni-rus hərbi birləşmələri tərəfindən yerlə-yeksan edilmişdir. Bu fakt da tarixi sənədlərdə əksini tapmış, Göyçədə tam mənada dağıdılıb viran qoyulmuş 108 kənddən 67-sinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında 39-cu sırada Qızılvəng kəndinin adı yer almışdır. Amma... XIX əsrin ortalarında kənd öz əzəli sahibləri tərəfindən bərpa olunmuşdur və

bu reallıq erməni mənbələrinin özündə də təsbitlənmişdir. Belə ki, erməni tarixçisi Z.Korkodyanın rəsmi statistikaya istinadən hazırladığı "Sovet Ermənistanının əhalisi 100 ildə: 1831-1931" kitabında verilən məlumatlara görə, 1873-cü ildə Qızılvəngin sırf türklərdən ibarət 563 nəfər sakini olmuş, sonrakı illərdə bu göstərici artaraq 1897-ci ildə 733, 1914-cü ildə 807 nəfər təşkil etmişdir. 1919-cu il aprelin 13-20-də daşnak ordusunun Göyçədə həyata keçirdiyi qətliamlar zamanı Qızılvəng əhalisinin yarıdan çoxu qətlə yetirilmiş, təqiblərdən yaxa qurtaranlar Züldağ yüksəkliyində ciddi itkilərlə üzləşərək Dərələyəz-Şərura, oradan isə Türkiyəyə pənah aparmışlar. 1922-ci ildə Sovet hökumətinin təhlükəsizlik barədə zəmanətindən sonra Qızılvəngin əzəlr sahiblərinin yalnız az bir qismi, cəmi 168 nəfər doğma ocağa qayıdaraq kəndi bərpa etməyə başlamışdır. Amma türklərin kəndi öz istəklərinə uyğun abadlaşdırmaq niyyətləri əngəllənmiş, 1926-1928-ci illərdə İrandan gətirilmiş ermənilərin burada yerləşdirilməsindən sonra quruculuq işlərinin vüsəti azalmış, etnik balansın ermənilərin xeyrinə dəyişməsi isə sürətlənmişdir. 1931-ci ildə artıq kənd əhalisinin üçdən biri türklər (282 nəfər), üçdən ikisi isə (521 nəfər) ermənilər idi. 1948-1953-cü illərdə Ermənistan hökumətinin Moskvanın dəstəyi ilə həyata keçirdiyi deportasiya zamanı Qızılvəngin türk əhalisi kütləvi şəkildə Azərbaycana köçməyə məcbur edilmiş və burada 7 rayona səpələnmişlər. Qızılvəng toponimi isə bu tarixi cinayətdən sonra belə daha 30 il ərzində yaşarı olmuş, kəndin adı yalnız 1978-ci ildə, Ermənistan SSR Ali Sovetinin 25 yanvar tarixli qərarı ilə dəyişdirilərək "Makenis" adlandırılmışdır.

## QORQUDUS

Toponimin özü bu yurd yeri ilə bağlı çox mətləblərdən xəbər versə də, konkret coğrafi mövqeyinin məlum olmaması Qorqudusun tarixinə dair konkret faktların üzə çıxarılmasını çətinləşdirir. Daha dəqiqi, yerinin bəlli olmaması səbəbindən onun binələşmə tarixinə və ümumən mövcudluğuna şəhadət verə biləcək maddi dəlillərin tapılması da mümkünsüzdür. Və heç şübhəsiz ki, bu əlacsızlığın da əsl səbəbkarı erməni faşistləri və erməni tarixşünaslarıdır. Onlar Ulu Dədə Qorqudun adı ilə bağlı olan bu toponimin tarixdən, Ulu Oğuz mütəfəkkirinin izlərini yaşadan kəndin yer üzündən silinməsi naminə mümkün olan hər şeyi ediblər. Amma...Qorqudusun mövcudluğunu təsdiqləyən maddi sübutları tam mənada məhv etməyə nail olsalar da, yazılı mənbələri məhv etməyə müyəssər

olmayıblar. 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş və 12 aprel 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin zemaət və timarlar haqqında məlumatlar bölümündə Qorqudusun haqqında qeydlər var. O qeydlər geniş əhatəli olmasa da, hər halda kənd barədə müəyyən təsəvvürlər əldə etmək üçün yetərlidir. Sənədin 112-ci səhifəsində aparlmış qeydlərdən bəlli olur ki, Qorqudus kəndi o zaman tətbiq edilən inzibati bölgüyə əsasən Dərəçiçək nahiyəsinin inzibati vahidlərindən biri kimi səciyyələnirmiş və kənd timar qismində, yəni dövlət yetkilisinin məsrəflərini təmin edən vergi ödəyicisi qismində Osman adlı şəxsə hər il 3000 ağça həcmində vəsait ödəyirmiş. O zamankı Dərəçiçək anlayışının isə müasir anlamdakı Dərəçiçək anlayışına əsla dəxli yoxdur. XVIII əsrdəki Dərəçiçək nahiyəsi özündə Göyçə gölünün qərb, şimal- qərb, şimal və şimal-şərq sahilləri kimi geniş bir arealı ehtiva edirdi; başqa sözlə, indiki Hrazdan şəhərindən başlayaraq Krasnoselo rayonunun Cil kəndinə qədər olan ərazilərin hamısı Dərəçiçək nahiyəsinin inzibati sərhədlərinə aid idi. Məhz bu qəbil bölgü nəticəsində Göyçənin şimal-şərqində, Toxluca kəndinə yaxın bir coğrafi mövqedə olan Qorqudus da Dərəçiçəyin inzibati vahidləri sırasına düşmüşdü. Onun dəqiq coğrafi koordinantları bəlli olmasa da, bir fakt bəllidir ki, 1988-ci il deportasiyalarına qədər Göyçə gölünün şimalındakı təpəliklərdən biri məhz "Qurqud təpəsi-Qorqud yurdu" adlanırdı və yaxın kəndlərin, o cümlədən Toxlucanın, Şorcanın, Ağbulağın türk əhalisi o yerə bir növ müqəddəs bir ziyarətgah kimi baxırdılar. Qurqudusun məhz o təpəlikdə yerləşməsi barədə mülahizələr üçün əsaslar yetərli olmasa da, "Qorqud yurdu" toponiminin təsadüfi bir deyim olmadığı da şəksizdir. Hər halda bu barədə düşünməyə, araşdırmalar aparmağa dəyər.

Erməni vilayətinin təşkilindən sonrakı dövrə aid sənədlərdə isə Qorqudus adına rast gəlinmir. Bu faktdan isə belə bir məntiqi nəticə hasil olur ki, 1826-1829-cu illərdə erməni-rus hərbi birləşmələrinin yerlə-yeksan etdiyi və sonradan "adları unudulmuş ölü kəndlər" qrafasında ümumiləşdirilmiş qədim yurd yerlərimizdən biri də Qorqudusdur.

## QOŞABULAQ

(Qarabudar-Qaraköynək)

Göyçə gölünün şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 8 km. şimal-şərqdə, dəniz səviyyəsindən 2023 metr yükçəklikdə yer-

ləşmiş bu kəndin indiki mövqeyindən təxminən 600-800 metr cənubdakı qədim məzarlıqdakı oğuz - alban mədəniyyəti nümunələri: V-VI əsrlərə aid qəbirüstü kitabələrin və IX-X əsrə aid edilən məbədin qalıqları Qoşabulağın azı 2000 illik tarixinə şahidlik edən maddi sübutlardır. 1555-ci ilə dair sənədlərdə kəndin adı Qoşabudar şəklində göstərilir və onun Səfəvi-Azərbaycan dövlətinin Qarabağ (Gəncə) bəylərbəyliyinin inzibati bölgüsünə daxil edildiyi bildirilir. 1578-ci ildə Sultan III Murad səfəviləri yenərək Göyçə gölünün şərqindəki kəndlərin bir qisminə nəzarət imkanı əldə etdikdən sonra tətbiq edilmiş inzibati bölgüyə əsasən Qoşabudar kəndi İrəvan əyalətinin Ordubad qəzasının Zar nahiyəsinin inzibati vahidləri sırasına daxil edilmişdi. 1595-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"ndə kəndin adı "Qarabudar" kimi göstərilib və onun timar qismində, yəni hökumət səlahiyyətlilərinin gəlirlərini təmin edən vergi ödəyicisi qismində Murad Şəmsəddin oğlu, Mahmud Murad oğlu və Əli Şəmsəddin oğlu adlı şəxslərin istifadəsinə verildiyi barədə müvafiq qeydlər aparılıb. 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsini tam nəzarətə götürdükdən sonra tərtib olunmuş və 12 aprel 1728-ci ildə Əhməd şah Məhmət xan oğlu tərəfindən təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə isə kənd İrəvan əyalətinin Zarzəmin nahiyəsinin inzibati vahidlərindən biri kimi təsniflənib və adı "Qaraköynək" kimi təqdim olunub. Sənədin 16-cı səhifəsində aparılmış qeydlərdən o da bəlli olur ki, həmin vaxt Qoşabulağın sultan xəzinəsinə illik ödənci 1959 ağça həcmində müəyyənləşdirilibmiş. 1800-cü ilə dair sənədlərdə isə kənd İrəvan xanlığının Göyçə mahalının Qoşabulaq kəndi kimi təqdim olunmuşdur.

Erməni mənbələrində isə Qoşabulaq kəndinin adına ilk dəfə 1831-ci ildə, yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib edilmiş siyahısında rast gəlinir. Bu siyahıda 39-cu sırada yer alan Qoşabulağın əhalisinin sayı rəsmi sənədlərə görə 1831-ci ildə 117, 1873-cü ildə 316, 1886-cı ildə 419, 1897-ci ildə 456, 1914-cü ildə 672 nəfər olmuşdur. 1919-cu ilin aprelində Andronikin quldur ordusunun Göyçədə həyata keçirdiyi qətliamlar zamanı kənd bütünlüklə talan olnunmuş, əhalinin sağ qalan hissəsi Cavanşir qəzasının dağlıq zolağına pənah aparmışdır. 1922-ci ildə sovet hökumətinin təhlükəsizlik barədə zəmanətindən sonra kəndə qayıdanların sayı cəmi 387 nəfər, yəni 1914-cü ildəki əhalinin yarısı həddində olsa da, az müddət sonra növbəti repressiyalar nəticəsində müntəzəm şəkildə azalaraq 1926-cı ildə 291 nəfər təşkil edirdi. 1979-cu il siyahıyaalınmasının nəticələrinə görə kənd əhalisinin sayı 1743 nəfər olmuşdur. 1988-ci il noyabrın 24-dən etibarən Ermənistan hökumətinin təh-

riki ilə hərbi aksiyalara başlayan "Krunk"un silahlı quldur dəstələri dekabrın 7-nə qədər Qoşabulağı mühasirədə saxlamış, bu hadisələr zamanı kənd 3 şəhid vermişdir: 52 yaşlı **Əliyev Firudin Alı oğlu** və 9 yaşlı **Abbasova Rüxsarə Əli qızı** aldıqları fiziki xəsarət nəticəsində vəfat etmiş, 1950-ci il təvəllüdlü **Cəfərov Tapdıq İsmayıl oğlu** isə elektrik cərəyanı ilə qətlə yetirilmişdir. Əhali bütövlüklə qovulmuş, kəndin varidatı talan edilmişdir. Ermənistan Respublikası parlamentinin 9 aprel 1991-ci il tarixli qərarı ilə Qoşabulaq toponimi "Şadcrek" sözü ilə əvəzlənmişdir.

***Qoşabulağın ünlü yetirmələri:***

**Abbasov Müzəffər Zeynalabdin oğlu.** Kənd təsərrüfatı elmləri namizədidir.

**Ələkbərov Qaçay İsmayıl oğlu.** Biologiya elmləri namizədi, H.Zərdabi adına Gəncə Dövlət Pedoqoji Universitetinin dosentidir.

**Ələkbərov Fariz Xalıqverdi oğlu.** Texniki elmlər namizədidir.

**Məhərrəmov Ziyəddin Həmid oğlu.** 1947-ci il mayın 31-də anadan olmuş, Azərbaycan Dövlət Pedoqoji İnstitutunu və Bakı Ali Partiya Məktəbini bitirmiş, Basarkeçərdə nəşr olunan "Bolluq uğrunda" qəzetinin müxbiri, Şuşa radio qovşağının təşkilatçı-müxbiri, AMEA Ədəbiyyat Muzeyinin Qarabağ Filialının direktoru, Xızı rayon İcra Hakimiyyəti başçısının müavini işləmişdir. 3 kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Curnalistlər İttifaqının üzvü, filologiya elmləri namizədi, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosentidir.

## QULƏLİ

(Qaradəli)

Göyçə gölünün cənub sahillərində, Kəvər qəsəbəsindən (indiki Kamo şəhəri) 3 kilometr cənub-şərqdə yerləşmiş Quləli kəndi ərazisindəki qədim qala həm bəşər övladının bu yerlərdə məskunlaşma tarixinin dəqiqləşdirilməsi, həm də qalanın əzəli sahiblərinin kimliyinin müəyyənləşdirilməsi baxımından olduqca böyük əhəmiyyət kəsb edir. Akademik B. Piotrovski öz dövrünün anoloji tikililərinə nisbətən olduqca yaxşı vəziyyətdə qalmış bu qalanı tədqiq edərək tam əminliklə bildirmişdir ki, eramızdan əvvəlki dövrün ikinci minilliyinin sonlarında inşa edilmiş bu qala ümumən Kəvər hövzəsindəki vahid dövlətin müdafiə istehkamları kompleksinə daxil olsa da, bir çox qalalardan fərqli olaraq istehkam zəncirbəndi mahiyyəti yox, müstəqil yaşıyış-müdafiə kompleksi səciyyəsi daşıyırmış və...Ən əsası,

B.Piotrovski bu qalanın memarlıq həllində "Urartu tikililəri"nə uyğarlıq olmamasını birmənalı şəkildə qeyd etməklə yanaşı, qalada aşkarlanmış məişət əşyalarının Nor Bayazit (Kəvər) qalasının əsas hissəsindəki və Tsovinar (Kələqıran) qalası ərazisindəki anoloci tapıntılarla oxşarlığına xüsusi diqqət yönəldərək, belə bir elmi hipotez irəli sürür ki, "Quləli, Kəvər və Kələqıran qalaları eyni vaxtda tikilməsələr də, hər üçünün eyni etnosun mədəniyyət nümunələri olduğu şübhə doğurmur..." Erməni tarixçiləri bu məqamdan yararlanmaqla hər üç qalanın qədim Van çarlığına məxsusluğunu isbat etməyə çalışsalar da, moskvalı alimin başqa bir tezisi bu cəhdi altüst edir. Belə ki, akademik B.Piotrovski Göyçə hövzəsindəki bir çox arxeoloji tapıntıların hansı mədəniyyətin nümunələri olmasına, hansı etnosa mənsubluğuna aydınlıq gətirməsə də, elmi mülahizələrini ümumiləşdirərək konkret şəkildə göstərir ki, **"...Ördəkli və Kəvər qalalarında tapılmış əşyalar Urartuya və Van çarlığına aid edilən mədəniyyət nümunələri ilə nəinki eyniyyət təşkil edir, əksinə onlar Urartu çarlarına qarşı vuruşmuş qəbilələrin maddi mədəniyyət nümunələri təsiri bağışlayır."** Bu da fakt!!! Erməni sərsəmliyinə ölümcül zərbə vuran bir dəlil!

Quləli kəndinin qədim tarixindən soraq verən digər bir maddi dəlil qalanın coğrafi mövqeyindən 200 metr şimal-qərbdəki IV-V əsrlərə aid məzarlığın və IX əsrə aid məbədin qalıqlarıdır. Quləli ilə bağlı ilk rəsmi yazılı məlumat isə XVI əsrə aiddir. Bu sənədlərdə o "Dəli Qul qalası" kimi göstərilir və Səfəvi Azərbaycan dövlətinin Çuxur-Sədd bəylərbəyliyinə daxil olan strateci qalalardan biri kimi təsniflənir. 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib edilmiş və 12 aprel 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində isə kənd "başqa bir adı Qaradəli olan Dəliqul kəndi" təsnifatı ilə təqdim olunaraq, İrəvan əyalətinin Göyçə nahiyəsinin inzibati vahidlərindən biri kimi səciyyələndirilir. Həmin qeydlərdən bəlli olur ki, kəndin sultan xəzinəsinə illik ödənci 2190 ağça həcmində imiş.

Erməni mənbələrində isə Quləli kəndinin adına ilk dəfə 1831-ci ildə, yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib edilmiş siyahısında rast gəlinir. Həmin siyahıda 10 - cu sırada yer alan Quləli kəndində 1831-ci ildə 324, 1873-cü ildə 197, 1897-ci ildə 27 nəfər türkün yaşadığı rəsmi mənbələrdə əksini tapmış reallıqdır. 1831-ci ildən başlayaraq Türkiyənin Aleşgerd vilayətindən gətirilərək bu kəndə yerləşdirilən ermənilərin sayı isə həmin müddətdə dinamik şəkildə artaraq XX əsrin əvvəllərində 574 nəfərə çatmışdır. 1905-ci ildən sonra kənd

sırf erməni kəndinə çevrilmişdir. Amma buna baxmayaraq "Quləli" toponimi daha 35 il yaşarı olmuşdur. Ermənistan SSR Ali Sovetinin 4 iyun 1940-cı il tarixli qərarı ilə kənd "Qarmirgyuğ" adlandırılmışdır.

## QUŞÇU

(Quşçu Dərəsi)

Bu toponim erməni mənbələrində Basarkeçər nahiyəsindəki Pəmbək kəndinin qədim adı kimi səciyyələndirilir. Əslində isə Göyçə gölünün şimal-şərqində, Basarkeçər kəndindən 27 km. şimal-qərbdə yerləşmiş bu kənd tam müstəqil br inzibati vahid olmuşdur və bu tarixi reallıq rəsmi sənədlərdə təsbitlənmişdir. Belə ki, 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş və 12 aprel 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 16 - cı səhifəsində Ağcaqala kəndi yaxınlığındakı Quşçu kəndi barədə qeydlər aparılıb. Həmin qeydlərdə göstərilir ki, inzibati bölgü etibarı ilə Məzrəə nahiyəsinə daxil olan Quşçu kəndinin birbaşa sultan xəzinəsinə illik ödənci 3000 ağça təşkil edirmiş. 1826 - 1829 - cu illərdə baş vermiş İran - Rusiya, Türkiyə - Rusiya müharibələri zamanı Quşçu kəndi də erməni - rus hərbi birləşmələri tərəfindən darmadağın edilmiş, sonradan İ. Şopenin ermənilərə istinadən hazırladığı siyahılarda "adları unudulmuş ölü kəndlər" qrafasına salınmışdır. Göyçə rusların təkidi ilə yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə veriləndən sonra ermənilər bir çox kəndlər kimi bu obanın da bərpasına imkan verməmədiyndən Quşçu kəndinin əzəli sahiblərinin sonrakı taleyi barədə dürüst məlumat yoxdur. Yalnız kəndin xərabəliklərindən 200-300 metr kənardakı qədim məzarlıqdakı qəbirüstü kitabələrin qalıqlarına əsasən oğuz türklərinin burada məskunluğunun 1000-1500 illik bir dövrü əhatə etdiyi barədə mülahizələr irəli sürmək olar. Tam tarixi təfsilat üçünsə arxeoloji tədqiqatlara ehtiyac duyulur. Quşçu kəndinin ocaq yerlərinin xərabələri Pəmbək kəndindən 4-5 km. şimalda, dağlarla əhatələnmiş bir dərədədir və 1988-ci ilə qədər qalırdı.

## MƏDİNƏ

(Qarakilsə)

İndiki Martuni şəhərindən 10 kilometr cənub-şərqdə, Ərgüş çayının sahilində yerləşmiş Mədinənin Göyçənin ən iri və ən qədim yaşayış məs-

kənlərindən olduğunu təsdiqləyə biləcək maddi sübutlar: VII əsrə aid məbədin, oğuz mədəniyyəti nümunələri olduğu şübhə doğurmayan qəbirüstü kitabələrin, XV-XVI əsrlərə aid məscid-mədrəsənin qalıqları, eləcə də kəndin öz ocaq yerlərinin xərabəlikləri 1988-ci ilə qədər yaşarı idi. Daha doğrusu, 1918-ci ildə buranı zəbt etmiş Aşağı Getaşen kəndinin ermənilər az müddət sonra sırf dini xof səbəbiylə bu kənddə yaşamaqdan imtina etmişlər və 1948-ci ildə Mədinənin əzəli sahibləri zorla köçürüləndən sonra belə kimsə buraya ayaq basmamış, kənd baxımsız qalsa da, onu dağıtmağa risk etməmişlər. Kəndin örüşləri sonradan Kəsikbaş və Xartlıqda məskunlaşmış ermənilərin birləşdirilməsi yolu ilə təşkil edilmiş Lernakert sovxozu tərəfindən istifadə edilsə də, kənddəki ocaq yerləri toxunulmamış qalmışdı.

Mədinə kəndi barədə ilk yazılı məlumat Qaraqoyunlu hakimiyyəti dövrünə aiddir. 1452-ci ilə dair yazışmalarda kənd buradakı alban məbədinin adı ilə - "Qarakilsə" kimi təqdim olunur. 1555-ci ilə dair yazışmalarda isə kənd "başqa bir adı Qarakilsə olan Mədinə kəndi" kimi təqdim edilir və onun Suxur-Səd bəylərbəyliyinin inzibati vahidlərindən biri olduğu göstərilir. 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib edilmiş və 12 aprel 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə kənd əski adı ilə, yəni Qarakilsə kimi verilib və Göyçə nahiyəsinin inzibati bölgüsünə daxil edilməsi, sultan xəzinəsinə illik vergisinin 3100 ağça həcmində müəyyənləşdirilməsi barədə müvafiq qeydlər aparılıb.

Erməni mənbələrində isə Mədinə barəsində ilk dəfə 1826-1829-cu illərdə baş vermiş İran-Rusiya, Rusiya-Türkiyə müharibələri zamanı Göyçədə dağıdılmış kəndlərdən biri kimi məlumat verilir. Belə ki, həmin dövrdə yer üzündən silinmiş 108 kənddən 67-sinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında Mədinənin adı 26-cı sırada yer alıb. Amma Mədinənin əzəli sahibləri doğma ocağa dönərək onu bərpa etmişlər ki, bu tarixi fakt da 1873-cü ilə dair rəsmi statistik məlumatlarda öz əksini tapmışdır. Həmin vaxt 208 sakini olan Mədinədə yaşayan türklərin sayı sonradan artaraq 1886-cı ildə 296, 1897-ci ildə 346, 1904-cü ildə 736, 1914-cü ildə 1023 nəfərə çatmışdı. 1918-ci ilin noyabrında Göyçədə ermənilərlə türklər arasında ən kəskin toqquşma da məhz bu kənddə baş vermişdir. Ararat Respublikasının daşnak ordusu qonşu Xartlıq, Kəsikbaş kəndlərinin özünümüdafiə dəstələri ilə əlbir hərəkət edən mədinəlilərin müqavimətini yalnız iki həftədən çox davam edən artilleriya hazırlığından sonra qıra bilmiş və bu zaman verdikləri itkilərin qəzəbi ilə kəndi tamam talamış, əhalinin ələ keçən hissəsinin heç birinə aman verməmişlər.

Hadisənin şahidlərinin xatirələrindən Göyçənin el yaddaşına köçən məlumatlara görə, ermənilər mədinəlilərin meyitlərini belə dinc buraxmamış, onları məscid-mədrəsəyə yığaraq yandırmışlar. Mədinə faciəsinin tam miqyasını təsəvvür etmək üçün rəsmi statistikaya diqqət yetirmək kifayətdir: 1922-ci ildə sovet hökumətinin təhlükəsizlik barədə zəmanətindən sonra Mədinəyə qayıdan türklərin sayı cəmi 94 nəfər, yəni 1914-cü ildəki əhalinin 9 faizi həddində olmuşdur. 1931-ci ildə Mədinənin türk əhalisinin sayı artıq 234 nəfər idi. Ermənistan hökumətinin İ.Stalinin razılığı ilə dövlət səviyyəsində həyata keçirdiyi 1948-1953-cu illər deportasiyası zamanı kənd bütünlüklə Salyan və Sabirabad rayonlarına köçürülsə də, 1956-cı ildən sonra mədinəlilərin böyük əksəriyyəti Azərbaycanın dağlıq rayonlarına, bir qismi isə Krıma köç etmişlər. Mədinənin özü isə 1948-ci ildə bir inzibati vahid kimi ləğv edilərək ərazisi Lernakert sovxozunun istifadəsinə verilmişdir.

*Mədinənin fəxri:* **Əli Ələsgər oğlu Həsənov.** 1920-ci ildə anadan olmuş, İrəvan Pedoqoji Texnikumunu bitirdikdən sonra Mədinə məktəbinin direktoru işləmiş, II dünya müharibəsindən qayıtdıqdan sonra partiya işinə cəlb edildmiş, Qaranlıq rayon Partiya Komitəsində və Ermənistan KP MK-nın orqanı olan "Sovet Ermənistanı" qəzetində şöbə müdiri vəzifələrində çalışmış, Moskvada Ali Partiya Məktəbini bitirmiş, 1960-cı ildə Krasnoselo rayon Partiya Komitəsinin birinci katibi vəzifəsinə seçilmiş, Ermənistan KP MK bürosu üzvlüyünə namizəd, Ermənistan SSR Ali Sovetinin deputatı, Ermənistan SSR Ali Soveti sədrinin müavini olmuş, xidmətləri 2 orden və 6 medalla qiymətləndirilmişdi. Amma bütün bunlar Əli Həsənovun 57 illik ömrünün sənədlərdə əksini tapmış məqamlarıdır. Və o məqamlar nə qədər qürurgətirici olsa da, Əli Həsənovun bir şəxsiyyət kimi təqdimatı üçün yetərli deyil. Çünki o rəsmi çərçivələrlə məhdudlaşan bir ictimai xadim yox, sözün həqiqi mənasında kamil bir şəxsiyyət, nurlu bir ziyalı, millətini sevən bir mərd kişi olub. Və onun bu məziyyətləri Krasnoselo rayonuna rəhbərlik etdiyi 9 il ərzində tam mənada üzə çıxıb. Aşkar nümayiş etdirdiyi qatı millətpərəstliyi onun karyerasına ciddi zərbə vursa da, Əli Həsənov heç vaxt öz prinsipiallığından dönməyib. Birinci katiblikdən azad olunduqdan sonra onu Ermənistan KP MK kənd təsərrüfatı şöbəsinin müdiri təyin etmişdilər və o burada da eyni mövqedən çıxış etdiyi üçün Əli Həsənova qarşı repressiyalar son həddə qədər kəskinləşmişdi. Nəticədə Əli Həsənov 1971-ci ildə Bakıya köçməyə məcbur oldu. Azərbaycan SSR Xalq Nəzarəti Komitəsində çalışanda da erməni millətçilərinə münasibətinə görə başı az ağrımadı Əli Həsənovun...1977-ci ildə isə onun vətənpərvər ürəyi qəflətən dayandı...

## MOLLALI

İndiki Martuni şəhərindən 19 kilometr şərqdə yerləşmiş Mollalı kəndi şimaldan Alçalı, şimal- şərqdən Qamışlı , şərqdən Çamırlı, cənub-şərqdən Gödəkbulaq və Yuxarı Zağalı, qərbdən Aşağı Gözəldərə və Gözəldərə, cənubdan isə Dərələyəz mahalının Sallı kəndləri ilə həmsərhəd olub. Relyefinə görə təbii səngər - qala mahiyyəti daşıyan kənd üç tərəfdən dağlarla, bir tərəfdən isə dərin yarğanla əhatələnmişdi. Sıldırım qayalıq olan yarğanın dibindəki dərəyə yalnız bir cığırla düşmək mümkün idi. Oğuz türklərinin bu yurdda binələşməsinin tarixini öyrənmək üçün ciddi əmək sərf etmiş iqtisadçı alim Hacı Abbas Alıyevin və tədqiqatçı-jurnalist Qurban Əzizovun araşdırmalarına görə, Mollalının ilk sakinləri olmuş Hacınəsiblilər və Yekəalılar (Əzizuşağı) tayfaları XII əsrdə Türkiyənin İğdır mahalının Axura kəndindən köç edərək Araz sahilindəki Novruzlu kəndinə (Ermənistanın Qəmərli rayonu ərazisində), az müddət sonra isə indiki Qazax rayonunun Şıxlı kəndinə gəliblər. O zaman Şıxlının tez-tez gürcü basqınlarına məruz qalması tayfa ağsaqqallarını daha təhlükəsiz yerlər axtarmaq zərurəti ilə üzləşdirib və onlar Göyçə mahalındakı bu yeri bəyənərək, öz tayfalarını burada məskunlaşdırıblar. Beləliklə də, XIV əsrin əvvəllərindən başlayaraq bu oba da oğuz türklərinin Göyçədəki yurd yerlərindən biri olub və kənd onu binələşdirən tayfanın ağsaqqalının şərəfinə əvvəlcə “Yekəalılar”, sonradan isə rəsmən bu kəndin bəyi olmuş Dünyamalı bəyin atası Molla Alı Sultanın şərəfinə “Mollalı” adlandırılıb. 1728-ci il tarixli “İrəvan əyalətinin icmal dəftəri”nin 118-ci səhifəsində kənd məhz Yekəalıca kimi təqdim olunub. Həmin səhifədəki qeydlərdən o da bəlli olur ki, kəndin əhalisi osmanlıların şiələrə münasibətindən ehtiyatlanaraq müvəqqəti də olsa kəndi tərk edibmiş və kəndin ərazisi sahibsiz yer qismində sultanın mülkiyyətinə daxil edilibmiş. XVIII əsrin ortalarında osmanlılar Qafqazdakı mövqelərini itirdikdən sonra kənd İrəvan xanlığının Göyçə mahalının inzibati bölgüsünə daxil edilmiş və 1800-cü ilə dair sənədlərdə Mollalı adı ilə təqdim olunmuşdur. 1828-ci ilə dair sənədlərdə, yəni İran-Rusiya, Türkiyə-Rusiya müharibələri zamanı erməni-rus hərbi birləşmələrinin Göyçə hövzəsində dağıtdıqları və erməni vilayətinin idarəçiliyinə verilərkən yaşayış üçün yararlı sayılan kəndlər barədə İ. Şopen tərəfindən ermənilərə istinadən hazırlanmış məlumat - siyahılarda Mollalı kəndinin adına rast gəlinmir. Bu 28 ildə kənd qeybəmi çəkildi? Əsla! Məsələnin mahiyyəti ondadır ki, Mollalı ermənilər tərəfindən Göyçədə dağı-

dılmış və məqsədli şəkildə "adları unudulmuş ölü kəndlər" qrafasında ümumiləşdirilmiş qədim türk kəndlərindən biri idi və ermənilər tarix etibarı ilə daha qədim olan digər türk obaları kimi onun da bərpasında maraqlı deyildilər. Amma ermənilərin bu məkrli niyyətlərinə rəğmən Mollalının əzəli sahibləri kəndi yenidən bərpa etdilər və bu fakt rəsmi sənədlərdə əksini tapdı. Belə ki, 1873-cü ilin rəsmi statistikasında Mollalı kəndinin 232 nəfər türk sakini olduğu göstərilir. 1914-cü ildə Mollalıda əhalinin sayı artaraq 278 nəfərə (73 təsərrüfat) çatmışdı ki, bu fakt da erməni mənbələrində təsbitlənib. Beləcə, rəsmi sənədlərdən də göründüyü kimi, 700 illik tarixi olan bu kənd XIX əsrin əvvəllərində yaşadığı faciələrə baxmayaraq XX əsrin əvvəllərində də Göyçənin iri və abad yaşayış məskənlərindən biri imiş. Və bu reallıq türkün qədim tarixinə qənim kəsilmiş erməni millətçilərini əndişələndirməyə bilməzdi. Odur ki, 1918-ci ildə Göyçədə həyata keçirilən soyqırımı zamanı hədəfə ilk düşən kəndlərdən biri də Mollalı oldu. Amma ermənilərin gözləntilərinə rəğmən Mollalı sadəcə təslim olmadı; döyüşərək şəhid düşdü. Daşnak qoşunları Gödəkbulaq və Yuxarı Zağalı kəndləri istiqamətindən hücuma keçdikləri, Gözəldərə istiqaməti isə artıq ermənilərin nəzarətində olduğu üçün Mollalının digər türk kəndləri ilə əlaqəsi demək olar ki, kəsilmişdi. Kəndə yeganə kömək Çamırlıdan gəlirdi: təkcə Çamırlının yox, ümumən Göyçənin nüfuzlu şəxsiyyəti olan Hacı Nağının oğulları Həsən və Mustafanın başçılıq etdiyi özünümüdafiə dəstəsi Mollalı fədailərinə silah və sursatla kömək etsə də, canlı qüvvə ilə yardım imkanında deyildilər. Çünki azsaylı dəstələri öz kəndlərinin müdafiəsində dayanmaq, gecəli-gündüzlü davam edən aramsız hücumların qarşısını almaq məcburiyyətində idi. Belə bir şəraitdə Hacınəsibli **Cəlil İsmayılovun** başçılıq etdiyi Mollalı müdafiəçilərinin nizami daşnak ordusuna uzunmüddətli müqaviməti təbii ki, mümkünsüz idi. Odur ki, kənd ağsaqqallarının ümumi iradəsi ilə 1918-ci ilin dekabrında Mollalı əhalisi Züldağ aşırımı ilə Dərələyəzə, oradan isə Şərura və Türkiyəyə üz tutdu. Qarlı aşırımlarda uşaqların və qocaların böyük əksəriyyəti qırıldı. 1922-ci ildə sovet hökumətinin çağırışından və təhlükəsizlik barədə zəmanətindən sonra doğma yurda qayıdan mollalıların sayı cəmi 170 nəfər, yəni 1914-cü ildəki əhalinin yarısından da az idi; başqa sözlə, əhalinin bir qismi Türkiyədən qayıtmamış, bir qismi Azərbaycanın müxtəlif regionlarına üz tutmuşdu. Kəndə isə o zamana qədər əlliyə yaxın erməni ailəsi köçürülmüşdü və beləliklə də1922-ci ildə Mollalı, əhalisinin etnik tərkibinə görə qarışıq yaşayış məntəqələrinin siyahısına düşdü. Buna baxmayaraq, kənddə türklərin sözü hakim mövqedə idi. Kəndin ilk sovet


Cəlil İsmayılova

rəhbəri də yekəalılar nəslindən **İsə Əzizoğlu** idi. Sonradan o Martuninin ən iri yaşayış məntəqələrindən olan Gözəldərənin revkomu və Zakfederasiyanın Mərkəzi İcraiyyə Komitəsinin üzvü də oldu. XX əsrin 30-cu illərində İsə Əzizoğlu 1918-ci ildə ermənilər tərəfindən Basarkeçər nahiyəsində dağıdılmış, sonradan bərpa edilməyən Göysu kəndinə köçdü və qısa zamanda bu kəndi abadlaşdırmağa müvəffəq oldu. 1930-cu il sentyabrın 9-da Ermənistanda tətbiq edilən bölgüyə əsasən Mollalı türklərin əksəriyyət təşkil etdiyi Basarkeçər rayonundan çıxarılaraq, etnik balansın ermənilərin xeyrinə olduğu Martuni rayonunun inzibati bölgüsünə daxil edildi. Kəndin ilk kolxoz sədri seçkilərində vaxtilə Mollalı özünümüdafiəçilərinə başçılıq etmiş Gəlil İsmayılovun fikri əsas kimi qəbul edilib və onun təkidi ilə **Məhərrərm Fətəliyev** sədr təyin olunub. Kənd partiya özəyinin katibi də türk olub: **Fatma İsmayılova.** Digər məsul vəzifələrdə də əsasən türklər çalışıb. Kəndin baytar həkimi **Gəlil kişinin oğlu Surxay**, ambardarı **Həmid Abbasov** idi. Bir sözlə, özünün üçüncü həyatını yaşadığı müddətdə, 1922-1949-cu illər aralığındakı 27 il ərzində Mollalıda sayca ermənilər çoxluq təşkil etsələr də, əsas söz sahibi türklər olublar və buna görə Mollalı camaatı Cəlil İsmayılova minnətdar olub. İşlərin bu cür gedişi- 1918-ci ildə Andronikla vuruşmuş bir adamın, Cəlil İsmayılovun az qala tam erməniləşdirilmiş Martuni kimi bir rayonda at oynatması Ermənistan rəhbərliyindəki daşnakları ciddi şəkildə narahat edirdi. Onunla açıq mübarizəyə girişməyə risk etmirdilər. Çünki Cəlil qoçaq olduğu qədər də tədbirli idi və qanunlara ciddi şəkildə riayət etdiyindən onu ləkələməklə aradan götürmək sadəcə mümkün deyildi. Hər hansı başqa vasitə isə türklərin ayağa qalxması ilə nəticələnə bilərdi. Yeganə çıxış yolu onu dövlətin əli ilə uzaqlaşdırmaq idi ki, ermənilər bu qəbil ilk fürsətdən yetərincə yararlandılar. 1948-ci ildə "Ermənistan azərbaycanlılarının Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi barədə" qərar qəbul edilən kimi Mollalı qara siyahıya salınan ilk kəndlərdən biri oldu. Bu, 700 il ərzində heç kimə baş əyməyən bir qədim-qayım türk obasının

kürəyinə sancılan ox, arxadan atılan namərd gülləsiydi. Amma Cəlil də Cəlil olmazdı, əgər el-obasının talan olmasına yol versəydi. Digər köçürülən kəndlərdən fərqli olaraq, Mollalı əhalisi sadəcə vaqonlara doldurulub hansısa bir düzənliyə daşınmadı, camaat allah ümidinə buraxılmadı. Cəlil İsmayılov öz şəxsi nüfuzundan istifadə edərək, kənd ağsaqqallarının ümumi rəyi ilə seçilmiş yeni yurda elliklə köçməyə razılıq aldı və Mollalı kolxozunun əmlakı bu təzə yurda - Əli Bayramlı rayonunun Cəngən və Muğangəncəli kəndlərinə gətirildi. Sonradan dağlıq ərazidə böyümüş insanlar aran şəraitinə uyğunlaşa bilmədikləri üçün mollalıların bir qismi Bərdə rayonunun İmirli kəndinə, bir qismi Yevlax rayonunun Səmədabad kəndinə, bir qismi isə Şəmkirə köçdülər. Budur 700 illik tarixi olan bir türk obasının gerçək salnaməsi. Erməni mənbəlrində isə Mollalı toponimi Alçalı kəndinin əvvəlki adı kimi təsniflənir və bu da səbəbsiz deyil. Belə ki, XX əsrin əllinci illərində Mollalı ümumiyyətlə bir inzibati vahid kimi ləğv edilib və ermənilər bu tarixi cinayətin izini itirmək üçün bütün anoloci hallarda olduğu kimi bu dəfə də tarixi təhrif etmək fəndinə əl atıblar. Nə yazıq ki, Azərbaycan tarixşünasları da əksər hallarda olduğu kimi bu dəfə də ermənilərin toruna düşüblər. Hətta "Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası" kimi sanballı bir ensiklopediyada Mollalı toponimi ermənilərin uydurmalarına istinadən Alçalının qədim adlarından biri kimi göstərilib. Əslində isə həm Mollalı, həm də Alçalı 1950-ci ilə qədər müstəqil ərazi vahidləri kimi paralel mövcud olublar. Azərbaycan tarixşünaslarını çaşdıran məqam isə ermənilərin 1922-ci ildə yenidən bərpa olunmuş Mollalının adını qeyri - rəsmi olaraq "Yuxarı Alçalı" kimi səsləndirmələri faktı olub. Bu da tarixi gerçəklikdir! Azərbaycan tarixçiləri isə bu gerçəkliyin arxasındakı uzaq niyyəti, Mollalının izini tarixdən silmək kimi məkrli bir niyyəti sezə bilməyiblər... O niyyət isə çox sürətlə reallaşdırıldı: Ermənistanın daşnak hökuməti 1949-cu ildə Mollalının əzəli sahiblərini deportasiya etdikdən az sonra, 1950-ci ilin martında buradakı erməniləri də Vedi rayonunda boşaldılmış türk kəndlərinə köçürdü. Elə həmin il Ermənistan SSR Ali Sovetinin qərarı ilə Mollalı kəndi bir inzibati vahid kimi ləğv edildi və ərazisi Alçalı kolxozunun (*erməni mənbələrində Aşağı Alçalı kimi təsniflənən və sonradan Ardzvanist adlandırılan qədim türk kəndi*) sərəncamına verildi.

Amma... Mollalının izini tarixdən silmək onlara müyəssər olmadı. Mollalının 700 illik tarixinə şahidlik edən maddi sübütlar, kənddəki ocaq yerlərinin xərabəlikləri, məzarlıqdakı daş kitabələrin qalıqları və bir də Mollalını qəlblərində ən müqəddəs varlıq kim hifz edən insanlar yaşarıdır.

*Mollalının ünlü yetirmələri:*



**İsmayılov Surxay Cəlil oğlu.** 1926 - cı ildə anadan olmuş, 1939 - cu ildə Mollalı kənd yeddiillik məktəbini, 1942 - ci ildə İrəvan Kənd Təsərrüfatı Texnikumunu bitirmiş, 1945- 1948- ci illərdə hərbi xidmətdə olmuş, 1949-cu il repressiyaları zamanı kənd əhalisinin mütəşəkkil qaydada köçürülməsi, kompakt şəkildə yerləşməsi, kolxozun varidatının qorunub saxlanması yönündə müstəsna xidmətlər göstərmişdir. 1949-cu ildən etibarən Əli- Bayramlı rayonunun Muğangəncəli kəndində məskunlaşan Surxay Cəliloğlu öz işgüzarlığı, prinsipiallığı sayəsində çox qısa müddətdə rayon rəhbərliyinin diqqətini çəkdi və 1950-ci ildə Partiya Komitəsinin kənd təsərrüfatı şöbəsinə təlimatçı təyin olundu. 1954-cü ildə Gəncədə kənd təsərrüfatı rəhbərlərinin ikillik hazırlıq kursuna göndərilən Surxay Cəliloğlu təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra bir sıra təsərrüfatlarda məsul vəzifələrdə çalışmış, paralel olaraq Azərbaycan Kəınd Təsərrüfatı Akademiyasında təhsil almışdır. Hansı sahəyə göndərilməsindən asılı olmayaraq, o qısa müddətdə işlərdə ciddi dönüş yaratmış və bu qabiliyyəti ilə respublika rəhbərliyinin diqqətini cəlb etmişdir. 1969-cu ildə Azərbaycan SSR-in o zamankı sovxozlar nazri Əziz Əzizovun şəxsi göstərişi ilə Surxay İsmayılov Sabirabad rayonunun geri qalmış təsərrüfatlarından olan 6 nömrəli sovxoza direktor təyin olunur və özünün yüksək təşkilatçılıq qabiliyyətini bir daha təsdiqləyərək, 1974-cü ildə Neftçala rayon Aqrar Sənaye Birliyinin baş aqronomu təyin olunur. Harada işləməsindən asılı olmayaraq həmişə prinsipial vətəndaş mövqeyi, ədalətli rəhbər imici və bacarıqlı mütəxəssis keyfiyyəti ilə seçilən Surxay Cəliloğlu bütün həyatını doğma Azərbaycanın tərəqqisinə sərf etməklə yanaşı, hələ lap erkən gəncliyindən üzərinə düşmüş bir missiyanı- Molalı camaatının ağsaqqalı olmaq missiyasını da şərəflə yerinə yetirdi. Bu gün mollalıları bir- birinə və Göyçəyə bağlayan tellərin mövcudluğuna görə məhz ona minnətdar olmalıyıq.



**Əzizov Qurban İsə oğlu.** 1932-ci ildə anadan olmuş, Pedoqoji Məktəbi, Gəncə Kənd Təsərrüfatı İnstitutunu və Bakı Ali Partiya Məktəbini bitirmiş, uzun illər Basarkeçər rayon Partiya Komitəsində çalışmış, müxtəlif dövrlərdə Göysu və Zod təsərrüfatlarına rəhbərlik etmiş, Ermənistan KP MK-nın orqanı olan "Sovet Ermənistanı" qəzetinin Sevan, Kamo, Martuni, Vardenis, Krasnoselo, İcevan, Dilican rayonları üzrə

xüsusi müxbiri işləmişdir. 1988-ci il deportasiyasından sonra Şəmkir rayonunun Günəş kəndinə köçmüşdür. Hazırda Gəncə şəhərində yaşayır.



**Alıyev Abbas İsmayıl oğlu.** 1938-ci il mayn 25-də anadan olmuş, valideynləri 1948-ci il deportasiyaları zamanı Azərbaycana köçdükləri üçün orta təhsilini Şəmkir stansiyasındakı məktəbdə tamamlamış, Saratov Ali Hərbi Məktəbini və Bakı Dövlət Universitetini bitirmişdir. 1966-cı ildən Gəncə Kənd Təsərrüfatı Akademiyasında müəllim işləyir. Ərəb, yunan, ingilis və rus dillərini bilir. 1988-ci ildə Həcc ziyarətində olub. İqtisad elmləri namizədi, dosentdir.



**İsmayılov İlham Surxay oğlu.** 1960-cı il mayın 1-də valideynlərinin 1948-ci il deportasiyasından sonra məskunlaşdığı Salyan rayonunun Qaraçala kəndində anadan olmuş, Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirmiş, əmək fəaliyyətinə fəhləlikdən başlayaraq Salyan rayon İcra Hakimiyyəti başçısının müavini vəzifəsinə qədər yüksəlmişdir. 1994-1998-ci illərdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Pambıq emalı və satışı" idarəsinin rəis müavini işləmişdir. 1988-ci ildən müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğuldur. "Klassik-A" şirkətinin baş direktoru, Respublika Sahibkarlar Şurasının üzvü, xeyriyyəçi-messenat, "Simurq" Milli Mükafat Fondunun "Məsuliyyətli və mübariz Azərbaycan vətəndaşı" mükafatının laureatıdır.



**İsmayılov İlqar Surxay oğlu.** 1965- ci ildə Salyan rayonunun Qaraçala kəndində anadan olmuş, 1993- cü ildə Bakı Dövlət Universitetinin hüquq fakultəsini bitirmişdir. 1992- ci ildə könüllülər sırasında Qarabağ uğrunda döyüşmüşdür. 1998- ci ildən ədliyyə sistemində çalışır; hazırda Bakının Yasamal rayonunda Məhkəmə Nəzarətçiləri və Məhkəmə İcraçıları şöbəsinin rəisidir.

## NƏRƏDÜZÜ

(Nərdüzü - "Noradüz")

Göyçə gölünün qərb sahilində, indiki Sevan-Kamo şosesinin 17- ci kilometrinə uyğun gələn coğrafi mövqedə yerləşmiş bu qədim türk obasının sorağı tarixin dərin qatlarından gəlir. Kəndin qərbində 1988-ci ilə qə-

dər toxunulmamış qalan qədim məzarlıqdakı kurqanlar-oğuz qəbirləri öz heyrətamiz ölçüləri ilə diqqəti çəkir. O kurqanlarda hələ II Dünya müharibəsindən öncə Moskva arxeoloqlarının iştirakı ilə aparılmış qazıntılar zamanı tapılmış bəzək əşyalarının təxminən 3500 yaşı olduğu və o zərgərlik məmulatlarında istifadə olunmuş qızılın keyfiyyət etibarı ilə məhz Zod qızılı ilə eyniyyət təşkil etdiyi elmi cəhətdən rəsmən təsbit edilmişdir. Rəsmi məlumatlarda o da qeyd olunur ki, bu kurqanlardan təxminən 1 km. cənub- şərqdə eramızın VII- VIII əsrlərinə aid edilən və özündə həm ilkin islam, həm də alban mədəniyyətinin izlərini yaşadan başqa bir məzarlıq da olub. Amma...XX əsrdə kənd şərqə doğru sürətlə böyüyüb və 1975-ci ildə, II Dünya Müharibəsində SSRİ-nin qələbəsinin 30 illiyi şərəfinə xatirə kompleksi ucaldılarkən bu məzarlıq yerlə-yeksan edilib.

XVI əsrə dair məlumatlara görə, Nərədüzü Səfəvi- Azərbaycan dövlətinin Çuxur-Səd bəylərbəyliyinin inzibati bölgüsünə daxil olan iri yaşayış və Təbriz- Naxçıvan-Dərələyəz-Göyçə-Gəncə ticarət yolu üstündəki ən böyük dayaq məntəqəsi olub və göyçəlilər üçün ticarət mərkəzi funksiyası daşıyıb. Göyçənin el yaddaşındakı bilgilər isə Nərədüzü toponimi ilə bağlı tamam başqa mətləblərdən soraq verir və bu mətləblər Nərədüzünün sorağını tarixin daha dərin qatlarında axtarmaq zərurəti yaradır. Az qala XX əsrin yaşıdı olan Qasım Məmmədov heç vaxt nə Noradiz, nə də Nərdüzü ifadələri işlətməzdi. Onun leksikonunda bu obanın bircə adı vardı: NƏRƏDÜZÜ. O, bu məkanı dəvə karvanlarının dayanacaq yeri kimi yox, Oğuz xanın böyük məclislər qurduğu, el igidlərini yarışa çıxardığı, dar gündə qaynar müzakirələr apardığı bir yer kimi; ən ciddi problemlərin, qan düşmənçiliklərinin aradan qaldırılması məqsədi ilə mərdanə söhbətlərin, döyüşlərin aparıldığı bir yer kimi səciyyələndirirdi. Onun sözlərinə görə, bura həm də müqəddəs ruhların məskəniymiş: elin adlı-sanlı igidləri məhz burada dəfn olunar, hər baharda bura toplaşan sancaq ərənləri o ruhların səsini dinləyər, o ruhların nərəsindən vəcdə gələrmiş. Bu təsnifat bir az mifik görünsə də, hər halda kəndin 4000 illik tarixinin təsdiqləyicisi olan maddi sübutlarla, eləcə də oğuz ellərinin "Kitabi Dədəm Qorqud ala lisani taifei oğuzan"da təsvir olunan həyat tərzi ilə tam mənada səsləşən bir versiyadır. Erməni mənbələrində isə bu kənd birmənalı şəkildə Noradiz kimi qələmə verilir və binələşməsinin ilkinliyindən erməni kəndi olduğu iddia edilir. Faktlara söykənməyən və elmi cəhətdən əsaslandırılmayan iddia isə heç bir halda həqiqət kimi qəbul edilə bilməz. Ermənilərin Nərdüzü ilə bağlı iddiaları elmi əsasdan məhrum olduğu kimi, həqiqətdən də uzaqdır və bu reallıq erməni mənbələrinin özündəcə əks olunub. XVIII əsr müəllifi Simon İrəvanlı özünün Göy-

çə gölü hövzəsindəki tarixi abidələrə dair qeydlərində "Naradüz" (!!!) kəndi haqqında məlumat versə də, bu qeydlərdə kəndin əhalisinin milliyyətcə erməni olmasına dair bir eyhama belə rast gəlinmir. 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib edilmiş və 12 aprel 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsindəki qeydlərdə isə kəndin adı "Noradiz", yaxud "Nərdüzü" kimi yox, məhz "Nərədüz" kimi yazılıb və Göyçə nahiyəsinin inzibati bölgüsünə daxil olan sırf türk obası olması birmənalı şəkildə təsbitlənib. Həmin qeydlərdən o da bəlli olur ki, Nərədüzünün sultan xəzinəsinə illik ödənci 12312 ağça həcmində imiş. Bu isə o deməkdir ki, XVIII əsrin əvvəllərində Nərədüzü Göyçənin ən iri vergi ödəyicisi imiş. O da faktdır ki, 1828-ci ildə yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilərkən Göyçə hövzəsində yaşayış üçün yararlı sayılan 63 kəndin biri də Nərədüzü olub. İ.Şopenin həmin siyahını ermənilərə istinadən tərtib etdiyi bəlli olduğundan, burada 7-ci sırada yer almış kəndin adının "Noradiz" kimi yazılmasından asılı olmayaraq, söhbətin Nərədüzündən getdiyi şəksizdir. Elə isə, yəni ermənilər hələ Göyçəyə qədəm basmamış bu kənd mövcud olubsa, onda kəndin əsasının ermənilər tərəfindən qoyulduğunu iddia etmək nə dərəcədə məntiqi və elmi bir iddiadır? Yox əgər ermənilər hələ erməni vilayətinin təşkilindən əvvəl burada yaşayıblarsa və kəndin əsasını məhz onlar qoyublarsa niyə kəndin adı erməni dilinin qanunauyğunluqları ilə uzlaşmır? Məsələn, niyə Norakert, Noragyuğ, Noraşen yox, məhz Nora-"diz"? Əgər doğrudan da bu ifadə "yeni düz" anlamına gələn bir toponimdirsə, onda digər erməni kəndlərinin adında niyə bircə dənə olsun belə görənək ifadə yoxdur: məsələn, Qarmirdağ, Qarmirvəng, Sevgöl və s. İddianın absurdluğu göz qabağındadır. Və bu absurd iddianın nə vaxtsa özlərinə qarşı ittihama çevriləcəyi həqiqətini dərk edən erməni alimləri 1970-ci illərdən başlayaraq oğuz türklərinin Nərədüzündəki tarixi izlərinin aradan qaldırılması yönündə xüsusi canfəşanlıq göstəriblər. Haqqında söhbət açdığımız məzarlığın yerində xatirə kompleksinin layihələşdirilməsi də məhz bu canfəşandığın tərkib hissəsi kimi dəyərləndirilməlidir. Əgər ermənilər o məzarlıqda "erməni mədəniyyəti"nə uyğunlaşdırıla biləcək bircə nişanəyə rast gəlsəydilər, onu memoriala çevirərdilər. Bu onların xarakteridir və etiraf etməliyik ki, tarixə diqqət baxımından qibtəyə layiq bir cəhətdir... Bütün bunlara rəğmən ermənilər saxtalaşdırmaya o qədər aludə olurlar ki, hansı yalanı harada danışdıqlarını özləri də unudurlar. Nərədüzü ilə bağlı yalanlarda da eyni hal müşahidə olunur. "Noradüz"ün əsasının ermənilər tərəfindən

qoyulduğunu sübut etmək üçün oğuz məzarlıqlarını məhv edən erməni tarixşünasları rəsmi statistik məlumatları məhv etməyi yaddan çıxarıblar. Z.Korkodyanın rəsmi statistikaya istinadən verdiyi məlumata görə, "Noradüz" 1898-ci ilə qədər qarışıq kənd olub. 1873-cü ildə kəndin erməni əhalisinin sayı 864 nəfər, türklərin sayı isə 234 nəfər; 1898-ci ildə isə müvafiq olaraq 842 və176 nəfər imiş. 1914-cü ilə dair statistikada isə Nərədüzü sırf erməni kəndi kimi səciyyələnir. Bu faktlara istinadən belə güman etmək olar ki, Nərədüzünün tam türksüzləşdirilərək "Noradiz"ə çevrilməsi prosesi 1905-ci il qətliamları zamanı yekunlaşıb. Həmin vaxt Nərədüzünün əzəli sahiblərinin yaşadığı faciələrin tam təfsilatı bəlli olmasa da, bir həqiqət bəllidir: bu tarixı cinayətin məsuliyyəti ermənilərin və onların dövlət yaratmaq istəklərinə havadarlıq etmiş xristian dünyasının üzərindədir.

## NUHDAMI
(Nohdam)

Göyçə gölünün cənub-şərqində, Yuxarı Zağalı kəndindən 10-11 kilometr cənub-qərbdə qərar tutmuş bu qədim - qayım yurdun Züldağ aşırımının şərq yamacı səmtindəki xərabəlikləri azərbaycanlıların indiki Ermənistan ərazisitndən son deportasiyasına - 1988-ci ilə qədər yaşarı idi və Oğuz Elinin bu yerlərin əzəli sahibi olduğunu birbaşa təsdiqləmək qüdrətində olan şah abidə idi. Təəssüf ki, bütün tarixi maddi dəlillər kimi o abidəni tədqiq etmək fürsətini də əldən verdik...

Oğuzun azı 2000 illik yaşantısının şahidi olmuş o yurd barədə ilk və son rəsmi yazılı məlumat isə 1728-ci ilə aiddir. Həmin il aprelin 12-də Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 16-cı səhifəsində Nuhdamı kəndinin Məzrəə nahiyəsinin inzıbatı vahidləri sırasında olduğu və sultan xəzinəsinə illik ödəncinin 2000 ağça həcmində müəyyənləşdirilməsi barədə müvafiq qeydlər aparılıb. Göyçə mahalının rusların istəyi ilə yaradılmış erməni vilayətinin idarəçiliyinə verilməsindən sonra isə heç bir rəsmi sənəddə Nuhdamı toponiminə rast gəlinmir. Hətta 1826-1829-cu illər aralığında erməni-rus birləşmələri tərəfindən Göyçədə yerlə-yeksan edilmiş kəndlərdən 67-sinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında belə Nuhdamının adı çəkilmir. Bu isə o deməkdir ki, bütün qədim türk yurdlarına münasibətdə olduğu kimi, ermənilər Nuhdamının da izlərinin tarixdən silinməsində maraqlı olublar və bu niyyətlərini reallaşdırmaq üçün onu da "adları unudulmuş ölü kəndlər" qrafasında ümumiləşdiriblər. Nə yazıq ki, Azər-

baycan tarixşünaslığı bu cür ümumiləşdirmələrin arxasındakı həyat reallıqlarına heç vaxt diqqət yetirməyib...

## ÖRDƏKLİ HƏQİQƏTLƏRİ

İndiki Kamo şəhərindən 18 km. şimal-qərbdə, Göyçə gölünün sahilinə yaxın bir ərazidə yerləşmiş Ördəklinin izini tarixdən silmək üçün erməni tarixşünaslığı 200 ildir əzab çəkir: gah kəndlərin mahallar üzrə bölgüsünü təzələməklə, gah da inzibati dəyişiklik zərurəti bəhanəsi ilə bu kəndi hər 10-15 ildən bir başqa bir rayonun inzibati ərazisinə daxil edir. Bunca narahatlığa səbəb nədir? Səbəb çox sadədir: Ördəklidə aşkarlanmış maddi dəlillər ermənilərin 1500 illik tarixyaratma fəaliyyətinə öldürücü zərbə vurur. Necə? Əlləri Türkiyə ərazisindən üzüldükdən sonra qədim Van çarlığının izlərinin axtarışını Göyçə gölü hövzəsinə keçirən ermənilər XX əsrin 30-cu illərində xüsusilə fəallıq göstərirdilər və Ermənistan hökuməti də elmi tədqiqatlar üçün ayrılmış büdcəni bütünlüklə arxeoloci işlərə yönəltməkdən çəkinmirdi. Ermənistan ərazisi "arxeoloci tapıntılar" bumu yaşayırdı və hər tapıntı "qədim Urartu çarlığının Göyçə gölü sahillərinə qədər uzanan sərhədləri"nin dəqiqləşdirilməsinə xidmət edirdi. Belə bir zamanda Ermənistan SSR Elmlər Akademiyasının Tarixşünaslıq Muzeyinin əməkdaşı A.O. Mnatsakanyanın Ördəkli kəndində aşkarladığı kurqanlar xususi diqqətə səbəb olmaya bilməzdi, oldu da. Ermənilər "Böyük Erməni İmperiyası"nın sərhədlərinin dəqiqləşdirilməsi yönündə yararlı ola biləcək yeni tapıntını elmi dəyərə mindirməyə, Moskva alimləri tərəfindən qeydə aldırmağa tələsdilər və... özləri qazıntını başa çatdırmamış Ermitac ekspedisiyasını tarixi dəfinənin tədqiqinə cəlb etdilər. Dəfinə həqiqətən zəngin idi: kurqanlardan tunc bəzək əşyaları, silahlar, qızıl qolbağlar və boyunbağları, cənazələrin yerləşdirilməsi üçün xüsusi taxta kətillərin qalıqları çıxdı. Tapıntıların tarixi barədə fikirlər yekdil idi; Moskva arxeoloqları tapılan əşyaların eramızdan əvvəlki dövrün ikinci minilliyinin ortalarına aid olduğunu, yəni azı 3500 illik bir tarixə malik olduğunu birmənalı şəkildə təsdiqləyirdilər. Amma...Ördəkli kurqanlarından tapılan bu əşyaların hansı etnosun mədəniyyət nümunəsi olması kimi prinsipial məsələdə moskvalı alimlərlə ermənilərin fikri ayrılırdı. Akademik B.Piotrovski öz rəyində birmənalı şəkildə deyirdi ki: **"Qəbirlərdə... bu yerlərin əzəli sahiblərinin olduqca yüksək mədəniyyətindən xəbər verən çoxlu sayda tunc əşyalar, həmçinin, çox böyük ehtimalla, buraya başqa yerlərdən gətirilmiş (!!!) qızıldan hazırlanmış əşyalar tapılmışdır.**

**Bu kurqanlar Urartunun Qafqaza doğru hərəkəti zamanı** *(!!! Əgər belə bir şey olubsa!-S.V.)* **onlar əleyhinə vuruşmuş yerli qəbilələrin başçılarına məxsusdur..."** Bu nə deməkdir? O deməkdir ki, Ördəklidən tapılan, ən azı 3500 illik tarixi olan maddi dəlillərin nəinki erməni mədəniyyətinə, heç mifik Urartu mədəniyyətinə də dəxli yoxdur. Təbii ki, B.Piotrovski o vaxta qədər Venesiya Mxitaristlər Mərkəzinin səyi ilə elmi dairələrdə təsbitlənmiş "Urartu-Van çarlağı" hipotezini birbaşa rədd etmək imkanında deyildi. Amma bununla belə Urartunun sərhədlərinin Göyçə gölü hövzəsinə qədər uzanması versiyasını şübhə altına alırdı və erməni tarixşünaslığını konkret suala- 3500 il öncə Göyçədə yüksək mədəniyyət nümunələri yaratmış və dövlətçilik təfəkkürü sərgiləmiş qəbilələrin hansı millətin əcdadları olması barədə suala cavab vermək məcburiyyəti ilə üz-üzə qoyurdu. Təbii ki, bu sualın cavabı erməni tarixşünaslığının imkanları xaricindədir. Ona cavab vermək ümumən erməni tarixindən imtina etmək deməkdir. Bu səbəbdən də erməni tarixşünaslığı akademik B.Piotrovskinin rəyindən doğan suala cavab axtarmaqdan daha çox, o suala əsas olan faktı - Ördəkli reallığının özünü məhv etmək yönündə fəaliyyətə üstünlük verir. Ördəklinin 200 il ərzində müxtəlif inzibati vahidlərin tərkibindəki "səyahəti" də məhz bu fəaliyyətin zəruriləşdirdiyi prosesdir.

1826-1829-cu il müharibələrindən sonra yeni yaradılan erməni vilayəti üçün inzibati struktur müəyyənləşdiriləndə Böyük Ördəkli və Bala Ördəkli Göyçədən ayrılaraq Dərəçiçək mahalının tərkibinə daxil edilmişdi. Amma Bala Ördəklinin yalnız adı qalmışdı siyahılarda, kəndin özü isə erməni-rus varvarları tərəfindən yerlə-yeksan edilmişdi. Bu səbəbdən də, 1831-ci ildən sonrakı sənədlərdə yalnız "Ördəkli" adı yer alıb. Şübhəsiz ki, ermənilər bu yolla Bala Ördəklidə törətdikləri cinayətlərin izini itirməyə çalışıblar. Amma tarix bu qəbil oyunları birmənalı şəkildə rədd edr. 1723-cü ildən osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş və 1728-ci ildə Əhməd şah Məhmət xan oğlu tərəfindən təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində İrəvan əyalətinin Göyçə nahiyəsinin inzibati bölgüsünə daxil olan kəndlərin siyahısı verilib və o siyahıda hər iki kəndin adı-həm Böyük Ördəkli, həm də Bala Ördəkli adları tam müstəqil inzibati vahidlər kimi yer alıb. Belə ki, Böyük Ördəkli kəndinin sultan xəzinəsinə illik vergisinin 5067, Bala Ördəklinin illik vergisinin isə 1910 ağça həcmində müəyyənləşdirilməsi barədə xüsusi qeydlər var.

1918-ci ilin noyabr-dekabr aylarında daşnak ordusu kəndi talan edərək yandırdıqdan sonra Ördəkliyə "erməni qaçqınları"nın ilk dəstəsi yerləşdirildi. 1922-ci ildə sovet hökumətinin təhlükəsizlik barədə zəmanətindən

sonra doğma yurduna qayıdan ördəklilərin sayı cəmi 134 nəfər, yəni Z.Korkodyanın verdiyi məlumata görə 1914-cü ildə bu kənddə yaşamış əhalinin (573 nəfər) 25 faizi həddində idi. Amma bu faciəvi rəqəm də ermənilərı qane etmirdi, onlar türklərin qayıdışını əngəlləməkdə israrlı idilər. Və bu məkrli niyyəti reallaşdırmaq məqsədi ilə 1930-cu ildə Ördəkli Kəvər rayonunun tabeçiliyindən çıxarılaraq o zaman artıq sırf erməni rayonu kimi səciyyələnən, yəni rəhbərliyində bir nəfər belə türk olmayan Sevan rayonunun tabeçiliyinə verildi. Məqsəd türk əhalini bezdirib pərən salmaq olsa da, ördəklilər doğma yurdlarından xoşluqla əl çəkmək istəmirdilər. 1931-ci ildə buradakı türklərin sayı artaraq 286 nəfərə çatmışdı. Və elə o illərdə akademitk B.Piotrovski ermənilərin kefinə soğan doğradığı üçün Ördəklinin inzibati bölgülər müstəvisində oyuncağa çevrilməsinə yenidən rəvac verildi. Kənd bir müddət yeni təşkil olunmuş Axta rayonunun tabeçiliyində oldu. 1940-cı ildə isə yenidən Sevan rayonuna qaytarıldı. Təbii ki, hər belə inzibati tədbir Ördəklinin ərazisinin azalması ilə müşaiyət olunurdu. Nəhayət, hələ Tehran konfransı zamanı İ.V.Stalindən monoetnik respublika yaradılması üçün razılıq almış ermənilər II Dünya müharibəsindən sonra Ermənistan ərazisindəki türklərin tarixinə qarşı total hücuma başladılar və bu zaman ilk zərbə alanlardan biri də Ördəkli oldu. Ermənistan SSR Ali Sovetinin 26 aprel 1946-cı il tarixli qərarı ilə Ördəkli adı "Lcaşen" sözü ilə əvəzləndi. Və...Nə qədər qəribə olsa da, Ermənistanda sovet hökumətinin mövcudluğunun 70 ili ərzində müntəzəm davam etmiş addəyişmə oyununa qarşı ilk və son kütləvi etiraz məhz Ördəklidə qeydə alınıb. Sevan rayon Partiya Komitəsi məsələni müzakirəyə çıxarıb etirazçıları cəzalandırmaq istəsə də, Anastas Mikoyanın məsələyə birbaşa müdaxiləsi ilə bu plandan imtina edilmiş, məsələnin millətlərarası münaqişə səviyyəsinə qalxmasının qarşısı hiyləgərliklə alınmışdır. Güya Sevan rayon rəhbərliyini cəzalandırmaq görüntüsü yaradaraq, Ördəkli təkrarən Kamo rayonunun tabeçiliyinə verilmiş, kəndin əzəli sahibləri "buraxılmış səhv"in tezliklə düzəldiləcəyi, yəni kəndin adının yenidən bərpa ediləcəıyi vədi ilə sakitləşdirilmişdir. Və Anastas Mikoyan erməni məmurlarının səhvini tezliklə "düzəltdi": 1948-ci ildə hökumət səviyyəsində həyata keçirilən deportasiyalara Göyçə mahalında Ördəklidən başladılar. Beləcə, oğuz türkünün Göyçədə məskunluğunun ən azı 3500 illik tarixinə şəhadət verən bir yurd yeri də "qədim və sırf erməni məskəni"nə çevrildi...

## ÖRKÜLÜ

(Döyürəkli - Böyürəkli - Börkülü)

Göyçə mahalının Qaranlıq (Martuni rayonu) və Basarkeçər nahiyələrinin sərhəd zolağında yerləşmiş bu kənd barədə ilk məlumat XVI əsrə aiddir. 1555-ci ilə dair sənədlərdə Səfəvi-Azərbaycan dövlətinin Çuxur-Səd bəylərbəyliyinin inzibati vahidlərindən biri Böyürəkli kimi təqdim olunur. 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 16-cı səhifəsində isə Məzrəə nahiyəsinin inzibati ərazisinə daxil olan kəndlərdən biri Döyürək adı ilə təqdim olunur və onun sultan xəzinəsinə illik vergisinin 4996 ağça olduğu göstərilir.

1826-1829-cu il Rusiya-İran, Türkiyə-Rusiya müharibələrindən sonra Göyçədə dağıdılmış və yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahılarında isə bu adlardan heç birinə rast gəlmək olmur. Bu fakta istinadən belə qənaət hasil olur ki, Döyürəkli kəndi də 1826-1829-cu illərdə erməni-rus hərbi birləşmələri tərəfindən viran qoyulmuşdur. Amma əzəli sahibləri XIX əsrin ortalarında kəndi bərpa etmişlər və bu tarixi reallıq rəsmi sənədlərdə təsbitlənmişdir. Belə ki, 1873-cü ilə dair rəsmi statistikada Qaranlıq nahiyəsinə aid edilən Börkülü kəndi barədə məlumat verilib. Kənd barədə son rəsmi məlumat 1919-cu ilə dair sənədlərdə yer alıb. Belə ki, Azərbaycan Demokratik Cümhuriyyətinin Daxili İşlər Nazirliyi 23 yanvar 1919-cu il tarixli rəsmi bəyanatında Nor Bayazid qəzasında dağıdılmış 22, tamamilə məhv edilmiş 9 türk kəndinin siyahısını açıqlayıb. Həmin 9 kəndin birincisi isə Örkülü kəndidir. Amma Örkülünün dəqiq coğrafi mövqeyi barədə nə Azərbaycan tarixşünaslığında, nə də Göyçənin el yaddaşında heç bir əlavə məlumat yoxdur. Yalnız həmin siyahıda kəndlərin sıralanma prinsipinə istinadən Örkülünün Alçalı və Gözəldərə kəndlərinə yaxın bir ərazidə yerləşdiyi barədə mülahizə yürütmək olar. Həmin bəyanatda adı çəkilən kəndlərdən yalnız ikisinin- Örkülü və Kamillinin sonradan bərpa edilməməsi isə bu kəndlərdə törədilmiş faciələrin miqyasını tam mənada təsəvvür etməyə imkan verir. Amma nə yazıq ki, Örkülü faciəsinin təfsilatı dünya üçün sirr olaraq qalacaq...

## PAŞAKƏNDİ

(Dəlicə-Dəlican)

Göyçə gölünün şimal-qərb sahillərində mövcud olmuş bu kəndin də izlərini tarixdən silmək üçün erməni tarixşünaslığı bir sıra fəndgirliklərə əl atıb. Ermənilərin iddialarına görə XIX əsrin əvvəllərində baş vermiş İran-Rusiya, Türkiyə-Rusiya müharibələrinə qədər Göyçə gölü hövzəsində "Paşakəndi" adlı bir yaşayış məntəqəsi olub ki, o da Axta rayonunun Paşakənd kəndidir (indi Razdan rayonunun Marmarik kəndi). Təbii ki, bu ermənilərin versiyasıdır və elmi əsaslardan tam məhrum bir iddiadır. Çünki mənbələr tamam başqa mətləblərdən xəbər verir. XVIII əsrin əvvəllərinə aid olan rəsmi məxəzdə, daha konkreti, 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində bu kənd öz əzəli adı ilə- Dəlicə adı ilə təqdim olunur və onun sultan xəzinəsinə illik vergisinin 9902 ağça həcmində olduğu göstərilir. 1750-ci ilə dair sənədlərdə isə kənd "başqa bir adı Delican olan Paşakəndi" kimi təsniflənir. XVIII əsr müəllifi Simon İrəvanlı Göyçə gölü hövzəsindəki tarixi abidələr barədə qeydlərində Paşakəndinin dəqiq coğrafi mövqeyini göstərməsə də, onun Aşağı və Yuxarı Altuntaxta yaxın bir oba olduğunu bildirir. 1826-1829-cu il müharibələrindən sonra rusların təkidi ilə yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalında o zaman yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında da 12-ci sırada Paşakəndinin adı gəlir və açıq mətnlə göstərilir ki, o örüşləri etibarı ilə Kosaməmməd və Dəliqardaş kəndləri ilə həmsərhəddir. Bu təsnifat isə Simon İrəvanlının təqdimatı ilə tam mənada üst-üstə düşür. Amma ermənilərin Paşakəndi kimi qeyd etdikləri indiki Marmarik kəndi Razdan şəhərindən 12 km. şimal-qərbdə, Mərmərə çayının sahilində yerləşir ki, bu da onın Göyçəyə məxsus kənd olmasını birmənalı şəkildə istisna edir. Elə isə ermənilər Paşakəndinin Axta ərazisində olduğu iddiasını hansı əsasla irəli sürə bilərdilər? İlk baxışda olduqca müəmmalı görünsə də, əslində bu sualın cavabı çox sadədir. Belə ki, erməni vilayətinin idarəçiliyinə verilmiş Dərəçiçəkdəki yaşayış üçün yararlı kəndlərin elə həmin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında 19-cu sırada Dəli Paşa kəndinin adı gəlir və onun Babakişi kəndi (indiki Ağavnadzor) ilə həmsərhəd olduğu göstərilir. Bu təqdimat isə ermənilərin Paşakəndi kimi qələmə verdikləri kəndin, indiki Marmarikin coğrafi mövqeyi ilə uzlaşır. Bəli, 1831-ci ildə Göyçə gölü hövzəsində Paşakəndi, Mərmərə çayı sahillərində isə Dəli Paşa adlı iki müstəqil yaşayış məskəni olub və Paşakəndində 137, Dəli Paşa kəndində

isə 76 nəfər türk yaşayıb. 1873-cü ilin sənədlərində isə Göyçəyə dair siyahılarda Paşakəndinin, Dərəçiçəyə dair siyahılarda isə Dəli Paşa kəndinin adına rast gəlinmir. Amma Dərəçiçək siyahısında bir Paşakənd adı peyda olub. Nə nəticə hasil olur bu kələfdən?!. Məntiqi nəticə odur ki, 1831-ci ildən 1873-cü ilə qədər, yəni Göyçədə erməni faşizminin ilk tüğyan dövründə Kəvər nahiyəsindəki Paşakəndi tam mənada dağıdılıb. Paşakəndinin əzəli sahibləri olan oğuz türklərinin həmin hadisələr zamanı yaşadığı faciələrin tam təfərrüatı və əhalinin sonrakı taleyi barədə dəqiq məlumatlar olmasa da, ermənilərin Axta nahiyəsindəki "Dəli Paşa" toponimini israrla Paşakəndinin əvvəlki adı kimi qələmə vermələri faktına istinadən, belə güman etmək olar ki, kəndin sağ qalan əhalisi ya qohumluq səbəbiylə könüllü, ya da əlacsızlıq ucbatından zorla Dəli Paşaya köçürülmüşdür və...Ermənilər bu tarixi reallıqdan, bütün anoloci hallarda olduğu kimi, maksimum bəhrələnmək istəmişlər. Amma mülahizə mülahizəliyində, fakt isə faktlığında qalır. Fakt isə odur ki, Göyçədə 1831-ci ilə qədər yaşarı olmuş bir kənd varmış və Paşakəndi adlanan o kənd 1831-1873-cü illər aralığında erməni faşizminin qurbanı olmuşdur.

## PƏMBƏK
(Göldək)

Göyçə gölünün şimal-şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 24 km. şimal-qərbdə, Vardenis-Çanbarak şosesinin üstündə, sahildən 1,5-2 km. aralıda, dəniz səviyyəsindən 2027 metr yüksəklikdə qərarlaşmış bu kəndin indiki coğrafi mövqeyindən 300-350 metr qərbdəki VIII-IX əsrlərə aid məbədin və onun şimalındakı qədim məzarlıqdakı sənduqələrin qalıqları Pəmbəyin oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 1500 illik tarixinə şəhadət verən maddi sübutlardır. 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş və 12 aprel 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 16-cı səhifəsində bu kənd öz əzəli adı ilə- Göldək kəndi kimi təqdim olunur və onun sultan xəzinəsinə illik vergisinin 4971 ağça həcmində müəyyənləşdirildiyi göstərilir.

1826-1829-cu illərdə baş vermiş müharibələr zamanı erməni-rus hərbi birləşmələri Göldəyi də yerlə-yeksan etmiş və bərpasına imkan verməmək üçün onu yeni yaradılmış erməni vilayətinin idarəçiliyində olacaq Göyçə kəndlərinin siyahısına daxil etməmişlər. Amma kəndin əzəli sahibləri doğma yurdlarını bərpa etməyə müvəffəq olmuşlar ki, bu fakt da

rəsmi mənbələrdə öz əksini tapmışdır. Rəsmi statistikaya görə Göldək kəndinin 1873-cü ildə 266 nəfər türk əhalisi olmuşdur. Elə həmin dövrlərdə erməni vəhşiliklərinə məruz qalmış Pəmbək ellərinin didərgin əhalisinin bir qismi Göldəyə pənah gətirmişdir və...Ermənilər həmişə olduğu kimi bu tarixi reallıqdan da maksimum bəhrələnərək, türk tarixinin təhrifi yönündə növbəti addım atmışlar. 1873-cü ildən sonrakı bütün rəsmi sənədlərdə Göydəyin adı Pəmbək kimi verilir ki, bu tarixi gerçəklik də elə erməni mənbələrində əks olunmuşdur. Erməni tarixçisi Z.Korkodyanın rəsmi sənədlərə əsasən təqdim etdiyi məlumatlara görə Pəmbək kəndinin 1886-cı ildə 387, 1897-ci ildə 463, 1908-ci ildə 592, 1914-cü ildə 712 nəfər türk əhalisi olmuşdur. Faktlara bir daha diqqət yetirək: 1873-cü ildə 266 nəfər əhalisi olan Göldək kəndi heç bir səbəb olmadan yoxa çıxır; 1873-cü ilə qədər mövcud olmamış Pəmbək kəndi isə birdən-birə peyda olur və əhalisinin sayına görə qonşu kəndlərin hamısını üstələyir. Mümkünmü belə bir möcüzə? Şərhə ehtiyac yoxdur...

XX əsrin əvvəllərində ermənilərin türklərə qarşı səlib müharibələrinin yeni dalğası başlayanda ən çox zərər çəkən kəndlərdən biri yenə də Pəmbək oldu. Kənd iki dəfə, 1918-ci ilin noyabrında və 1919-cu ilin yazında nizami daşnak ordusunun həmlələrinə məruz qaldı və müqavimət göstərə bilməyən silahsız əhali doğma ocağını tərk edərək, Gədəbəyə və Şəmkirə pənah aparmaq məcburiyyəti ilə üzləşdi. 1922-ci ildə kəndin əzəli sahiblərinin yarısı, 390 nəfər doğma yurda dönərək onu bərpa etdi. 1926-cı ildə Pəmbəyin türk əhalisinin sayı 377, 1931-ci ildə isə artıq 512 nəfər idi.1979-cu il siyahıyaalınmasının nəticələrinə görə əhalinin sayı artaraq 1744 nəfərə çatmışdı. 1988-ci ildə Ermənistan hökumətinin həyata keçirdiyi deportasiya zamanı kəndin 2000 nəfərdən çox əhalisi zorla qovulmuş, camaatın və kolxozun əmlakı talan edilmişdir. Bu hadisələr zamanı 2 yaşlı İsayeva Sevinc Şahin qızı borana düşərək həlak olmuşdur. 1988- ci ildən sonra kəndin adının və inzibati statusunun dəyişdirilməsi ilə bağlı hər hansı bir rəsmi informasiya olma sa da, qeyri-rəsmi məlumatlara görə, Pəmbəyin izi yer üzündən və erməni xəritələrindən silinmişdir.

***Pəmbəyin ünlü yetirmələri:***

**Orucova Zəhra Əli qızı.** Basarkeçər nahiyəsində təhsilin səviyyəsinin yüksəldilməsi yönündə müstəsna xidmətlərinə görə Ermənistan SSR Ali Sovetinin 30 sentyabr 1967-ci il tarixli qərarı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür.

**Namazov Tufan Namaz oğlu.** Kənd təsərrüfatı elmləri namizədidir.

**Şəbəndiyev Dağıstan Zeynalabdin oğlu.** Kənd təsərrüfatı elmləri doktorudur.

## RƏHMANKƏNDİ

Göyçə gölünün cənub-qərbində, indiki Sevan şəhərindən 9 km. şərqdə, Sevan-Kamo şosesindən 1,5 km. cənubda yerləşən Rəhmankəndinin indiki coğrafi mövqeyindən təxminən 300-400 metr şərqdə 1988-ci ilə qədər toxunulmamış qalan X- XI əsrlərə aid məzarlıqdakı kitabələrin, eləcə də məzarlıqdan təxminən 500 metr cənubdakı VI-VII əsrlərə aid məbədin qalıqları bu obanın oğuz türkləri tərəfindən binələşdirilməsinin ən azı 1500- 1800 illik tarixinin təsdiqləyicisi rolunda çıxış edən maddi sübutlardır. Erməni mənbələrində isə bu ada ilk dəfə yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalında o zaman yaşayış üçün yararlı sayılan 59 kəndin İ.Şopen tərəfindən tərtib edilmiş siyahısında rast gəlinir. Rəhmankəndinin əhalisinin etnik tərkibi baxımından sırf türk kəndi olduğu və 1831-ci ildə burada 68 nəfərin yaşadığı da məxəzlərdə əksini tapmış faktdır. 1873-cü ilin rəsmi statistikasına görə isə kənd əhalisinin sayı 479 nəfər olmuşdur ki, bunu da yalnız və yalnız qonşu Əfəndi kəndi viran qoyulduqdan sonra onun sakinlərinin sağ qalan hissəsinin Rəhmankəndində məskunlaşması ilə izahlamaq olar (Bu kitabda Əfəndi kəndi haqqında verilmiş məlumatlara bax). 1914-cü ilin rəsmi stattistikasına görə 654 nəfər türk əhalisi olmuş Rəhmankəndinin adının bundan sonrakı dövrlərə aid sənədlərdə yer almaması, daha konkreti "Əfəndi" kəndi kimi qeyd olunması faktını da məhz ermənilərin Əfəndi kəndi ilə bağlı həqiqətlərin izini itirmək, eyni zamanda Rəhmankəndinin qədim türk obası olduğu həqiqətini təhrif etmək üçün əsaslar hazırlamaq cəhdi kimi izahlamaq olar. Və bu təhrif özünü çox gözlətmədi. 1918-ci ildə Göyçədə soyqırımı həyata keçirən daşnaklar Türkiyənin Alaşgert vilayətindən gətirilmiş ermənilərin bir qrupunu burada yerləşdirdikdən sonra türklərin kəndə dönüşünə imkan vermədilər. Ermənii tarixçiləri isə 1920-ci ildən sonra bu kənddə türklərin olmaması faktına əsaslanaraq "Ermənistan Sovet Ensiklopediyası"nda (VIII cild, səh.-377, "Noraşen" məqaləsi) belə bir iddia ilə çıxış etmişlər ki, güya bu kəndin əsası 1920-ci ildə ermənilər tərəfindən qoyulmuşdur. Amma erməni tarixçiləri bu iddialarını ortaya qoyarkən həmişə olduğu kimi bir çox faktların, o cümlədən elə Ermənistan dövlətinin rəsmi sənədlərində təsbit olunmuş faktların üstündən sükutla keçdiklərinin fərqinə varmaq istəməmişlər. Bu qəbil faktlardan biri də, Ermənistan Xalq Komissarları Soveti Mərkəzi İcraiyyə Komitəsinin 4 yanvar 1938-ci il tarixli qərarıdır ki, onun bəndlərindən biri Sevan rayonu ərazisindəki Əfəndi toponiminin ləğv edilərək, kəndin

"Noraşen" adlandırılmasını ehtiva edir. Və bu danılmaz fakt istər-istəməz bir məntiqi sual doğurur: əgər kəndin əsası 1920-ci ildə ermənilər tərəfindən qoyulubsa və həmin tarixdən etibarən bu kənddə bircə nəfər də olsun türk yaşamayıbsa, onda Türkiyədə "qətliama məruz qalaraq məşəqqətlər çəkmiş" erməniləri yeni saldıqları kəndi "qatı düşmən"lərinin şərəfinə "Əfəndi" adlandırmağa məcbur edən nə idi? Ən nəhayət, rəsmi bir sənəd (Az.SSR MDOİA. f.897, op.1. i. 112. V.19.): 1918-ci ildə ermənilərin törətdikləri cinayətlərin siyahısını əks etdirən bu sənəddə 20 saylı cinayət belə təsvir edilir: "İrəvan quberniyasının Yeni Bəyazid qəzasının Rəhmankəndində İbrahim Hacı Hüseyn oğlunun sağ-sağ gözlərini çıxarmış, meyidini yandırmışlar"... Əcaba, əsası 1920-ci ildə qoyulmuş kənddə 1918-ci ildə milli zəmində toqquşma necə ola bilərdi? Erməni tarixşünaslığı bu qəbil minlərlə suala cavab tapılması zərurəti yaratsa da, dünya tarixçiləri bu qəbil suallardan bircəsinə belə cavab tapılmasında israr göstərmirlər. Heç bu qəbil sualların məngənəsində boğulan Azərbaycan tarixşünaslığının da bu yönlü istəyi hiss olunmur. Yazıqlar olsun...

## SARIYAQUB

(Siyaqut - Sarıyuqut-Sarıyal)

Göyçə gölünün şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 10 km. şimal-şərqdə, dəniz səviyyəsindən 2102 metr yüksəklikdə qərarlaşmış bu qədim turk obası barədə ilk rəsmi məlumat Şah İsmayıl Xətainin Ərzincan yürüşü çərçivəsində Göyçəyə səfər etdiyi dövrə, yəni 1500-cü ilin əvvəllərinə aid olsa da, kəndin indiki coğrafi mövqeyindən cənubdakı qayalıqlara həkk olunmuş kitabələr oğuz elinin bu yerlərdə məskunlaşmasınınən azı 2000 illik tarixinə şahidlik edən maddi sübutdur. Səfəvilər dövrünə dair yazışmalarda kəndin adı "Sarıyaqut", XVIII əsr osmanlı mənbələrində "Siyaqut" kimi qeyd olunsa da, sonrakı dövrlərdə hansı səbəblərdənsə "Sarıyaqub", bəzənsə "Sarıyal" ifadələri işlənmişdir. Şah İsmayıl Ərzincan yürüşü zamanı bir neçə günlüyə Göyçədə dayandığı zaman məhz bu kəndə gələrək oğuz ozan-dərvişlərinin ən kamil nümayəndələrindən olan Miskin Abdalı* ziyarət etmiş, ona seyyidlik rütbəsi vermiş, sonradan rəsmən şah elan olunduqdan sonra isə xüsusi fərmanla Sarıyaqut kəndini barat kimi ona bağışlamış, onu Göyçədə özünün nümayəndəsi təyin etmişdir. 1555-ci ilə dair mənbələrdə Sarıyaqut kəndi Səfəvi-Azərbaycan dövlətinin Qarabağ (Gəncə) bəylərbəyliyinin inzibati vahidlərindən biri kimi səciyyələndirilir. 1723-cü ildə osman-

lılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş və 12 aprel 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 15-ci səhifəsində isə kənd "Siyaqut" adı ilə təqdim olunur və İrəvan əyalətinin Məzrəə nahiyəsinin inzibati bölgüsünə daxil olan obalardan biri kimi təsniflənir. Həmin səhifədəki qeydlərdən o da bəlli olur ki, Sarıyaqutun sultan xəzinəsinə illik ödənci 5787 ağça həcmində olub. Sarıyaqutun tarixinin qədimliyinə dair bu qədər aşkar tarixi faktlar ortada olduğu halda erməni mənbələrində bu kəndin əsasının XIX əsrin ortalarında qoyulduğu iddia edilir. Əslində isə ermənilərin göstərdiyi tarix Sarıyaqubun üçüncü dəfə binələşdirilmə tarixidir. Belə ki, Sarıyaqut kəndi ilk dəfə 1578-ci ildə, səfəviləri yenərək şimali Azərbaycan torpaqlarının bir qisminə, o cümlədən Göyçə gölünün şərq sahilindəki kəndlərin bir neçəsinə nəzarət imkanı əldə etmiş III Sultan Muradın şiələrə aman verilməməsi barədə amansız fərmanından sonra boşaldılmış, Miskin Abdal kimi qüdrətli şiə mürşidinin ocağına aman olmayacağı həqiqətini dərk edən sarıyaqutlular doğma yurdlarını müvəqqəti tərk edərək indiki Gədəbəy rayonunun Miskinli kəndi ərazisinə pənah aparmışlar. 1620-ci ildə osmanlılar Göyçə kəndlərinə nəzarəti itirdikdən sonra sarıyaqutluların bir qismi geri dönməyərək Miskinli adlandırdıqları təzə yurdlarında qalsalar da, Miskin Abdalın törəmələri və tərəfdarları doğma ocağa dönmüş və onu ikinci dəfə binələşdirmişlər.

1826-1829-cu illərdə baş vermiş İran- Rusiya, Rusiya- Türkiyə müharibələrinin gedişində erməni-rus hərbi birləşmələrinin Göyçədə dağıtdığı yurd yerlərinin və erməni vilayətinin idarəçiliyinə verilərkən Göyçə hövzəsində yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib edilmiş siyahılarında Siyaqutun adı yoxdur. Yəni bu kənd də ermənilərin təkidi ilə "adı unudulmuş ölü kəndlər" qrafasında ümumilşdirilmiş qədim türk obalarından biri olub. Başqa sözlə, ermənilər oğuzun bu yerlərdə məskunluğunun qədimiliyinə şəhadət verən yurd yerlərinin hamısı kimi Sarıyaqutun da izini tarixdən silmək niyyətində olublar və bu səbəbdən də onun bərpasına imkan vermək istəməyiblər. Amma 1826-1829-cu illərdə müvəqqəti olaraq Gədəbəydəki Miskinlidə məskunlaşmış siyaqutlular az sonra doğma yurdlarına dönərək, kəndi bərpa etmişlər ki, bu fakt da 1873-cü ilə dair rəsmi statistik göstəricilərdə öz əksini tapmışdır. Həmin sənəddə "Sarıyal" kimi təqdim olunan kəndin türk əhalisinin sayı 294 nəfər idi və bu rəqəm 1886-cı ildə 416, 1897-ci ildə 536, 1914-cü ildə isə 675 nəfər həddinə qədər artmışdı. 1919-cu il 13-20 aprel aralığında Andronikin daşnak qoşunlarının Göyçədə həyata keçirdikləri qətliam-

lar zamanı Sarıyal (erməni mənbələrinə görə bu dəfə "Sarıyaqub") yenidən dağıdılmış, əhalinin sağ qalan hissəsi təkrarən Gədəbəy və Daşkəsən rayonlarına pənah aparmışlar. 1922-ci ildə kəndə dönənlərin sayı 1914-cü ildəki əhalinin yarısından da az, cəmi 343 nəfər olmuşdur. Məhz bu tarixdən sonra kəndin adı rəsmi sənədlərdə "Sarıyaqub" kimi qeyd olunmuşdur. 1931-ci ildə kənd əhalisinin sayı artaraq 471 nəfər həddinə çatsa da, "kulak", "xalq düşməni" axtarışları nəticəsində əhalinin bir qismi yenə didərgin salınmış, kişilərin böyük bir qismi isə ikinci dünya müharibəsindən geri dönməmişlər. 1953-cü ildə kənddəki təsərrüfatların sayı 1940-cı ilə nisbətdə 40 faizə qədər azalmışdı. Amma bu repressiyalara baxmayaraq sarıyaqutlular doğma yurdlarını daha coşğun səylə abadlaşdırırdılar və 1979-cu il siyahıyaalınmasnın nəticələrinə görə kənd əhalisinin sayı 1000 nəfər həddini keçmişdi. Tibb elmləri namizədi Mustafayev İbrahim Məmmədəli oğlu bu kəndin yetirməsidir. 1988-ci il deportasiyası zamanı 1919-cu il təvəllüdlü Quliyeva Tutu Allahverdi qızı aldığı fiziki xəsarətlər nəticəsində vəfat etmiş, kəndin əhalisi elliklə köçürülmüş, camaatın və kolxozun varidatı Ermənistan hökuməti tərəfindən talanmışdır. Ermənistan Respublikası parlamentinin 9 aprel 1991-ci il tarixli qərarı ilə Sarıyaqub toponimi də ləğv edilərək, kənd "Çaxqacor" adlandırılmışdır.

* *Zəmanəsinin alim-loğmanlarından, qüdrətli söz xiridarlarından biri kimi ad-san qazanmış sufi dərviş Miskin Abdal haqqında ətraflı məlumatla bu kitabın "Haqq işığı" bölümündə tanış ola bilərsiniz.*

## SEYİDLƏR
(Qızıltəpə)

Göyçə gölünün şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 11 km. şimal-şərqdə, Nərimanlı, Sarıyaqub, Böyük Qaraqoyunlu kəndlərinin sərhəd zolağı sayılan "Üçtəpələr" deyilən bir ərazidə yerləşmiş bu kəndin xərabəlikləri 1988-ci ilə qədər qalırdı. Bəzi məlumatlara görə bu kənddə 1828-ci ildə ermənilər tərəfindən Kəvər nahiyəsində dağıdılmış Üçtəpə kəndinin (bu kitabda Üçtəpə kəndi haqqında məlumata bax.) əzəli sahibi olmuş bir tayfanın- Seyidlər tayfasının sağ qalan nümayəndələri məskunlaşıbmış. Bu versiya əsas kimi qəbul edilsə, onda kəndin əsasının XIX əsrin otuzuncu illərində qoyulduğu barədə qənaət hasil olur. Başqa bir versiyaya görə isə, kəndin əsasını Miskin Abdalın ölümündən sonra bu qüdrətli şəxsiyyətin doğmalarının onun adından is-

tifadə edərək nəzir-niyaz yığmalarından rəncidə düşərək Sarıyaqutu tərk etmiş müridlər qoymuşlar. Bu versiyanın əsas kimi qəbul edildiyi halda isə belə bir qənaətə gəlmək olar ki, Seyidlər kəndinin əsası XVI əsrin ortaları, XVII əsrin əvvəllərində qoyulubmuş. Əslində isə... "Seyidlər" adı da, "Üçtəpə" toponimi də çox yaxın tarixin soraqlarıdır. Kəndin tarixi isə minilliklərin dərinliklərindən başlayır. Bu qənaət bir müəllifin təxəyyülünün məhsulu yox, həm maddi dəlillərlə, həm də rəsmi mənbələrlə təsdiqlənən tarixi reallıqdır. Belə ki, XX əsrin ortalarından başlayaraq yerli əhalinin var-dövlətə həris qisminin bu xərabəliklərdə, bünövrə və çənət daşı çıxarmaq bəhanəsi ilə qazıntılar aparması, o qazıntılar zamanı qədim oğuz məzarlarını örtən iri ölçülü sal daşların üzə çıxması, bəzilərinin hətta dəfinələr-qədim qızıl əşyaları və külçələr tapması Göyçənin el yaddaşından silinməmiş həqiqətlərdir.

1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"nin 15-ci səhifəsində bu kənd əzəli adı ilə- Qızıltəpə kəndi kimi təqdim olunub və onun sultan xəzinəsinə illik ödəncinin 4079 ağça həcmində müəyyənləşdirilməsi barədə müvafiq qeydlər aparılıb. Miskin Abdal ocağından incik düşmüş müridlərin- seyidlərin bu kənddə məskunluğu isə tarixin yaxın qatlarının reallıqlarıdır. Bir sözlə, real tarixi faktlara əsasən, Seyidlər adlı bir türk obasının mövcudluğunu və erməni vəhşilikləri nəticəsində ölü kəndə çevrildiyini qəti şəkildə söyləmək mümkündür. Bu ittihamı rəsmi sənədlər də təsdiqləyir. Belə ki, İ. Şopenin tərtib etdiyi siyahılarda yer almasa da, 1873-cü ilə dair pəsmi məlumatlarda Seyidlər kəndinin adı var  və kəndin türklərdən ibarət əhalisinin 124 nəfər olduğu göstərilir. 1919-cu ilin aprel qırğınları zamanı Göyçənin digər kəndləri kimi Seyidlər kəndi də dağıdılmış, əhalisi müvəqqəti olaraq Cavanşir qəzasının dağlıq zolağına sığınmışdır. 1922-ci ildə kəndə dönənlərin sayı hətta 1873- cü ildəki əhalinin beşdən biri həddində, cəmi 26 nəfər olmuşdur. Kolxozlaşma dövründə Ermənistanın bolşevik-daşnak hökuməti tərəfindən kənd ləğv ediliş, ərazisi Böyük Qaraqoyunlu kəndinin sərəncamına verilmişdir.

## SƏTƏNAĞAC

(Çətən - Çətənağac)

Göyçə gölünün şimal-şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 20 km. şimal-qərbdə, dəniz səviyyəsindən 2016 metr yüksəklikdə, sahilə yaxın bir ərazidə yerləşmiş bu kəndin ərazisi oğuz türkünün bu yerləri binələşdirməsinin azı 1500-2000 illik tarixinə şəhadət verən

qayaüstü yazıların və məzarlıq kitabələrinin qalıqları ilə zəngindir. Bu baxımdan 1988-ci ilə qədərki Sətənağacın ərazisini oğuz türkünün açıq səma altındakı tarix-diyarşünaslıq muzeyi kimi də xarakterizə etmək olardı. Amma təəssüflər ki, o muzeyi tədqiq etmək fürsətini artıq buraxmışıq. Erməni mənbələrində isə Sətənağacın adına ilk dədə 1826-1829-cu illər aralığında baş vermiş İran-Rusiya, Türkiyə-Rusiya müharibələri zamanı Göyçədə erməni-rus hərbi birləşmələrinin dağıtdığı kəndlərin İ.Şopen tərəfindən ermənilərə istinadən tərtib edilmiş siyahısında rast gəlinir. Erməni alimləri bu faktı diqqətdən kənarda saxlayaraq kəndin əsasının XIX əsrin ortalarında qoyulduğunu iddia edirlər. Və bu faktlar istər-istəməz məntiqi bir sual doğurur: Sətənağacın əsası XIX əsrin ortalarında qoyulubsa, onda kənd 1828-ci ilə qədər dağıdılmış yaşayış məntəqələrinin siyahısına necə düşübmüş? İlk baxışda yanıltmanc təsiri bağışlayan bu suala aydınlıq gətirmək üçün bir tarixi sənədə diqqət yetirmək kifayətdir: 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"nin 16-cı səhifəsində İrəvan əyalətinin Məzrəə nahiyəsinin inzibati bölgüsünə daxil edilmiş kəndlər barədə məlumat verilir və o kəndlər sırasında Çətən kəndi deyilən bir kəndin də adı çəkilir. Həmin sənəddən o da bəlli olur ki, Çətən kəndi Ərdanuca (müasir Ardanış kəndi) yaxın bir ərazidə yerləşirmiş və onun sultan xəzinəsinə illik ödənci 5431 ağça həcmində müəyyənləşdirilibmiş. Tarixin bir az da dərin qatlarına diqqət yetirəndə isə bəlli olur ki, 1555-ci ilə dair yazışmalarda da Göyçə kəndləri sırasında bu kəndin adı yer alıb və o sənədlərdə "Çətənəağacı" adı ilə təqdim olunan bu oba Səfəvi-Azərbaycan dövlətinin Qarabağ (Gəncə) bəylərbəyliyinin inzibati vahidlərindən biri kimi təsniflənirmiş. 1831-ci ildə İ.Şopenin siyahılarına "Satanaxaç" adı ilə düşən kəndin məhz Çətənəağacı- Çətən kəndi olduğu şəksizdir. Kəndin adının bu cür təhrifində, bəlkə də, "çətənə" bitkisinə bəzi yerlərdə "şeytan ağacı" deyilməsi reallığının da rolu olub və İ.Şopen bu izahı özü bildiyi kimi yozaraq, "çətənəağac"ı yox, məhz "satanaağacı" formasının daha doğru variant olduğu qənaətinə gəlib. Bəlkə də bu kəndin qədim adının və müvafiq olaraq tarixinin üstündən qara xətt çəkmək üçün erməni tarixçilərinin diqtəsi ilə belə edilib. Bu gümanlardan hansının reallığa daha yaxın olmasına baxmayaraq, fakt odur ki, XIX əsrin əvvəllərində Çətənəağacın adının tarixdən silinməsi və təhrif olunması üçün ciddi səy göstərilib. Amma erməni vilayəti rəhbərliyinin məkrli niyyətinin əleyhinə olsa da, kəndin əzəli sahibləri onun bərpasında israrlı olublar və bu inadkarlıq sayəsində ermənilər daha bir qədim-qayım türk obasının izlərini tarixdən silmək istəklərini o zaman reallaşdıra bilməyiblər. Erməni vəhşiliklərinə, 1830-1900-cu illər aralığındakı 70 il ərzində

müntəzəm olaraq davam etmiş erməni-rus repressiyalarına rəğmən XX əsrin əvvəllərində "Sətənağac" adlı kənd Göyçənin iri və abad yaşayış məntəqələrindən birinə çevrilmişdi və 1914-cü ilin rəsmi statistikasına görə kəndin türk əhalisinin sayı 659 nəfər idi. 1918-ci ilin payızında və 1919-cu ilin aprelində Andronikin daşnak qoşunlarının Göyçədə həyata keçirdyi qətliamlar zamanı isə kənd yerlə-yeksan edilmiş, əhalinin təqiblərdən yaxa qurtaran az bir qismi Şahdağ silsiləsindən aşaraq Şəmkir, Daşkəsən, Samux nahiyələrinə sığınmışlar. Həmin vaxt yaşanmış faciənin miqyasını isə 1922-ci ildə doğma ocağına dönənlərin sayına istinadən təsəvvür etmək mümkündür. Cəmi 300 nəfər. Yəni ki, sağ qalanların sayı Sədənağacın 1914-cü ildəki əhalisinin yarısından da az olub. Buna baxmayaraq sətənağaclılar kəndi bərpa etdilər də, sürətlə abadlaşdırdılar da. 1931-ci ildə kənd əhalisinin sayı artıq 491 nəfərə çatmışdı. Təbii ki, bu artım, bu tərəqqi erməniləri ciddi şəkildə narahat edirdi və onlar hər bir təzyiq imkanından maksimum yararlanmağa çalışırdılar. Bu fürsətlərdən birində kəndin qədimliyindən soraq verən adı rəsmi qərarla aradan götürüldü; Ermənistan Xalq Komissarları Soveti Mərkəzi İcraiyyə Komitəsinın 3 yanvar 1935-ci il tarixli qərarı ilə kənd Güney adlandırıldı. Amma nə bu qəbil mənəvi zərbələr, nə də kəndin nüfuzlu şəxsiyyətlərinin "qolçomaq", "xalq düşməni" damğası ilə təqib olunması sətənağaclıların yurd sevgisini səngitmədi, onları yurda bağlayan telləri qırmaq gücündə olmadı.1979-cu ilin rəsmi siyahıyaalınmasının nəticələrinə görə Sətənağacın türk əhalisinin sayı artıq 1223 nəfər həddində idi.1988-ci ildə Ermənistan hökumətinin rəsmi Moskvanın dəstəyi ilə həyata keçirdiyi deportasiya zamanı Sətənağacın əzəli sahibləri elliklə qovuldu, əhalinin və kolxozun əmlakı dövlət səviyyəsində talan edildi. Ermənistan Respublikası parlamentinin 9 aprel 1991-ci il tarixli qərarı ilə kəndə 1935-ci ildə verilmiş qondarma Güney adı "Arevuni" sözü ilə əvəzlənib.

***Sətənağacın ünlü yetirmələri:***

**İbrahimov Məcnun Səyyad oğlu.** İrəvan Pedoqoji Məktəbini, Bakı Dövlət Universitetini və Moskva Ali Partiya Məktəbini bitirmiş; Basarkeçər rayon Partiya Komitəsində və təhsil şöbəsində məsul vəzifələr tutmuşdur. M.P.Vaqif adına Bala Məzrə kənd qiyabi məktəbinin direktoru olduğu dövrdə savadsızlığın ləğvi yönündə səmərəli fəaliyətinə görə Ermənistan SSR Ali Sovetinin 7 mart 1978-ci il tarixli qərarı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür.

**Camalov Yadigar Tapdıq oğlu.** Filologiya elmləri namizədidir.

**Cəlilov Ədalət Bilal oğlu.** Pedoqoji elmlər namizədidir.

**Qurbanov Sultan Baxşəli oğlu.** Kimya elmləri namizədidir.

**İbrahimov Sahib Məcnun oğlu.** Tibb elmləri doktorudur.

**Məmmədov İsmayıl Oruc oğlu.** 1946-cı il noyabrın 15-də anadan olmuş, 1948-ci il deportasiyaları zamanı ailəsi ilə birlikdə Gədəbəyin Zəhmət kəndində məskunlaşmış, M.F.Axundov adına Azərbaycan Pedoqoji Dillər İnstitutunu bitirmişdir. Filologiya elmləri namizədi, 2 kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun şöbə müdiridir.

## SUBATAN

(Yalaqlı)

Erməni mənbələrində Subatanın əsasının XIX əsrin ortalarında qoyulduğu iddia olunsa da, Göyçə gölünün cənub-şərqində, dəniz səviyyəsindən 2198 metr yüksəklikdə, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 9 kilometr cənub-qərbdə yerləşmiş bu kəndin ərazisindəki VII-VIII əsrlərə aid məbədin xərabəlikləri və V-VI əsrlərə məxsusluğu şübhə doğurmayan məzarüstü kitabələrin qalıqları bu yurdun oğuz türkləri tərəfindən eramızın əvvəllərində binələşdirildiyini təsdiqləyən maddi sübutlardır. Kəndin qədimiliyini təkcə maddi dəlillər yox, rəsmi yazılı mənbələr də təsdiqləyir. 1723-cü ildə osmanlılar Göyçə hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş və 12 aprel 1728-ci ildə Əhməd şah Məhməd xan oğlu tərəfindən təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 16-cı səhifəsində o zaman Məzrəə nahiyəsinə daxil olan inzibati vahidlərin sırasında bu kəndin də adı yer alıb və o ilkin adı ilə- "Yalaqlı" kəndi kimi təqdim olunub. Həmin qeydlərdən o da bəlli olur ki, həmin vaxt Subatanın sultan xəzinəsinə illik vergisi 3813 ağça həcmində imiş.

İ.Şopenin tərtib etdiyi siyahılarda - 1826-1829- cu illərdə baş vermiş İran-Rusiya, Türkiyə-Rusiya müharibələri zamanı erməni-rus hərbi birləşmələrinin Göyçədə dağıtdıqları və yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilərkən Göyçə hövzəsində yaşayış üçün yararlı sayılan kəndlərin siyahılarında isə Subatanın adına rast gəlinmir. Bu isə o deməkdir ki, Göyçədə ermənilər tərəfindən yerlə-yeksan edilmiş və onların təqdimatı ilə İ.Şopen tərəfindən "adları unudulmuş ölü kəndlər" qrafasında ümumiləşdirilmiş qədim türk obalarından biri də Subatan imiş və ermənilər onun bərpasında əsla maraqlı olmayıblar. Amma düşmənin bu məkrli niyyətinə rəğmən subatanlılar əzəli yurdlarını bərpa ediblər və bu fakt da rəsmi sənədlərdə əksini tapıb. Rəsmi statistikaya görə 1873-cü ildə kəndin türk əhalisinin sayı 180 nəfər olub və bu göstərici 1886-cı ildə

263, 1897-ci ildə 306, 1908-ci ildə 368, 1914-cü ildə 429 nəfər həddinə qədər yüksəlib. Ararat Respublikası deyilən cinayətkar recimin mövcud olduğu iki il ərzində (1918-1920) isə Subatan iki dəfə dağıdılmışdır. Birinci dəfə 1918-ci ilin sonlarında Filimonov və Nişanev soyadlı rus zabitləinin komandanlıq etdiyi erməni batalyonları kənd camaatını aldadaraq kişiləri danışıq adı ilə kənddən çıxarmış və kəndi talamışlar. İkinci dəfə 1919-cu ilin aprelində Andronikin quldur dəstəsi əhalinin yarıdan çoxunu qıraraq, kəndi bütünlüklə yandırmışdır. 1922-ci ildə sovet hökumətinin təhlükəsizlik barədə zəmanətindən sonra doğma yurduna dönən subatanlıların sayı cəmi 208 nəfər, yəni 1914-cü ildəki əhalinin yarısı həddində idi. Ermənilər kəndin bərpasını bütün mümkün vasitələrlə əngəlləməyə çalışsalar da, 1926-cı ildə kənddə yaşayan türklərin sayı 349 nəfərə,1931-ci ildə 453 nəfərə çatmışdı. Sonrakı 10 ildə subatanlılar da "qolçomaq və xalq düşmənlərinin zərərsizləşdirilməsi" kampaniyalarından xeyli zərər çəkib, ikinci dünya müharibəsində xeyli itki versə də, onların Vətən sevgisi sarsılmadı. Qonşu türk kəndlərinin əksəriyyəti tam mənada erməniləşdiriləndən sonra belə Subatanın döyüşkənlik əzmi səngimədi, kənd əhalisini sıxışdırıb çıxarmaq ermənilərə müyəssər olmadı. 1979-cu il siyahıyaalınmasının nəticələrinə görə kəndin türklərdən ibarət əhalisinin sayı 1437 nəfər idi. 1988-ci ildə Ermənistan hökumətinin rəsmi Moskvanın dəstəyi ilə həyata keçirdiyi deportasiya zamanı Subatan 1 nəfər şəhid vermiş- 1920-ci il təvəllüdlü Mehdi Şəldiyev aldığı fiziki xəsarətlər nəticəsində dünyasını dəyişmiş; kəndin əzəli sahibləri doğma yurdlarını tərk etmək məcburiyyətində qalmış, əhalinin və kolxozun əmlakı Ermənistan hökuməti tərəfindən talanmışdır. Ermənistan Respublikası parlamentinin 9 aprel 1991-ci il tarixli qərarı ilə Subatan toponimi "Qexakar" sözü ilə əvəzlənmişdir.

***Subatanın ünlü yetirmələri:***

**Əhmədov Saday İsaq oğlu.** Azərbaycan Tibb Universitetini bitirmişdir. Müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğul olur. Daha çox ictimai xadim və xeyriyyəçi kimi tanınır. "Ağrıdağ" xeyriyyə cəmiyyətinin yaradılmasının təşəbbüskarlarından və ilk rəhbərlərindən biri olmuşdur. Tibb elmləri namizədidir.

**Əhmədov Vidadi İsaq oğlu.** Bakı Dövlət Universitetini bitirmiş, uzun müddət Azərbaycan Respublikasının ədliyyə sistemində məsul vəzifələr tutmuşdur. Daha çox ictimai xadim və xeyriyyəçi kimi tanınır. "Ay işığı" ədəbi məclisinin yaradıcısı və himayədarıdır.

## SULTANƏLİ QIŞLAĞI

Erməni mənbələrində bu toponim Basarkeçər nahiyəsindəki Canəhməd kəndinin qədim adlarından biri kimi göstərilsə də, əslində bu kəndlər ərazicə bir-birinə yaxın, amma XIX əsrin əvvəllərinə, yəni Göyçəyə erməni-rus hərbi təcavüzlərinə qədər paralel şəkildə mövcud olmuş müstəqil inzibati vahidlərdir. Göyçə gölünün şərqində, Basarkeçər kənlindən ( indiki Vardenis şəhri) 16 km. şimal-şərqdə yerləşmiş bu kəndin adına rəsmi mənbələrdə ilk dəfə 1826-1829-cu il Rusiya-İran, Türkiyə-Rusiya müharibələri zamanı Göyçədə erməni-rus hərbi birləşmələri tərəfindən dağıdılmış 108 kənddən 67-sinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında rast gəlinir. Həmin siyahıdan da aşkarca görünür ki, Sultanəliqışlağı indi ölü kəndlər olan Göyçə və Ağyoxuş, eləcə də Canəhməd kəndi ilə həmsərhəd imiş. Bu təsnifat isə Sultanəliqışlağının indiki Canəhməd kəndindən təxminən 2 km. şimaldakı xərabəliklərinin coğrafi təsnifatı ilə tam mənada uzlaşır. Sultanəliqışlağı və Canəhməd toponimlərinin sonradan ermənilər tərəfindən eyni bir kəndin müxtəlif dövrlərə aid adları kimi qələmə verilməsi isə Sultanəliqışlağı kəndində törədilmiş faciənin izlərini itirmək cəhdindən başqa bir şey deyil. O faciənin təfərrüatı barədə Azərbaycan tarixində heç bir məlumat olmasa da, belə bir faciənin yaşandığı, kəndin dağıdıldığı faktdır və bu tarixi cinayətin məsuliyyəti təkcə ermənilərin yox, eyni zamanda onların havadarı olmuş Rusiyanın üzərindədir. Ermənilərin Sultanəliqışlağı və Canəhməd toponimlərini birləşdirmək cəhdlərinin müəyyən dövr ərzində rahatlıqla həzm olunması faktına istinadən isə 1826-1829-cu illər ərzində Göyçədə ermənilərin həyata keçirdiyi qətliamlardan canını qurtarmış sultanəliqışlaqlıların məhz Canəhməddə sığınacaq tapdığını ehtimal etmək olar.

## ŞAHAQÇI

Göyçə hövzəsinin cənub-qərbində, muasir təsnifatla Sevan və Kamo rayonlarının inzibati hüdudlarının kəsişmə zolağına uyğun bir coğrafi mövqedə, sahilə bitişik bir ərazidə qərarlaşmış bu kənd barədə erməni mənbələri israrla susurlar. Əslində törədilmiş cinayətin məsuliyyətindən sığortalanmaq mahiyyəti daşıyan bu susqunluq Şahaqçı adlı qədim türk yurdunun mövcudluğunu inkar etməyə hesablanmış bir taktiki gediş olsa da, tarixi gerçəkliklər qarşısında olduqca gücsüzdür, Şahaqçının izlərini

tarixdən silmək iqtidarında deyil. Bəli, Göyçədə Şahaqçı adlı bir türk yurdu olub və onun varlığını rəsmi yazılı sənədlər təsdiqləyir.

1723-cü ildə osmanlılar Göyçə hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib edilmiş və 12 aprel 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində İrəvan əyalətinin Göyçə nahiyəsinə daxil olan yaşıyış məntəqələrinin siyahısında 6-cı sırada məhz Şahaqçı kəndinin adı yer alıb və onun xas qismində, yəni birbaşa sultan xəzinəsinə ödənilən illik vergisinin 4910 ağça həcmində müəyyənləşdirilməsi barədə müvafiq qeydlər aparılıb. İrəvan xanlığının 1800-cü ilə dair müfəssəl hesabatlarında da Şahaqçı kəndi barədə məlumatlar əksini tapıb. 1826-1829-cu illərdə baş vermiş İran-Rusiya, Rusiya-Türkiyə müharibələrinin gedişində erməni-rus hərbi birrləşmələrinin Göyçədə viran qoyduğu 108 kənddən 67-sinin və yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahılarında; eləcə də ondan sonrakı dövrlərə dair rəsmi sənədlərdə Şahaqçı toponiminə rast gəlinmir. Bu tarixi faktlardan çıxan məntiqi nəticə isə odur ki, XIX əsrin əvvəllərində erməni faşizminin türklərə qarşı həyata keçirdiyi soyqırımı nəticəsində yerlə- yeksan edilmiş və sonradan bərpasına imkan verilməmiş 54 kənddən biri də Şahaqçıdır.

## ŞAHNƏZƏR

Bu qədim türk yurdu barədə ilk və son yazılı rəsmi məlumata 12 aprel 1728-ci il tarixdə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış və hazırda Türkiyə Cümhuriyyətinin Başbakanlıq Arxivində saxlanan "İrəvan əyalətinin icmal dəftəri"ndə rast gəlinir. Həmin sənədin 16-cı səhifəsində o "Əyricə kəndi tərəfdə olan Şahnəzər kəndi" təsnifatı ilə təqdim edilir və bu təsnifatdan bəlli olur ki, Şahnəzər kəndi Göyçə gölünün şimalında, təxminən müasir Babacan və Ardanış kəndləri ilə həmsərhəd bir ərazidə yerləşirmiş; osmanlıların 1723-cü ildə tətbiq etdiyi inzibati bölgüyə görə, Məzrəə nahiyyəsinin ərazisinə daxil imiş. Həmin dövrdə kəndin xas qismində vergiləri, yəni birbaşa sultan xəzinəsinə ödəncləri 2191 ağça həcmində müəyyənləşdirilibmiş.

Rusların istəyi ilə erməni vilayətinin təşkil olunduğu dövrdən- 1828-ci ildən sonrakı heç bir sənəddə isə Şahnəzər kəndinin adına rast gəlinmir. Bu tarixi reallığın diqtə etdiyi məntiqi mülahizə isə odur ki, 1826-1829-

cu illər Rusiya-İran, Türkiyə-Rusiya müharibələrinin gedişində erməni-rus hərbi birləşmələrinin Göyçə hövzəsində viran qoyduğu 108 qədim yurd yerimizdən biri də Şahnəzər kəndidir.

## ŞƏHRİZ

Göyçə hövzəsinin qərbində, müasir təsnifatla Sevan şəhərindən 7 km. cənub-şərqdə qərarlaşmış bu kənd erməni mənbələrində "əsası XIX əsrin əvvəllərində ermənilər tərəfindən qoyulmuş yaşayış məntəqələrindən biri kimi" təsniflənir. Amma... 12 aprel 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri" tamam başqa mətləblərdən xəbər verir və erməni tarixçilərinin Şəhrizlə bağlı iddialarını birmənalı şəkildə rədd edir. Belə ki, həmin sənədin 11-ci səhifəsində Dərəçiçək nahiyəsinin türk kəndlərinin sırasında Şəhriz haqqında da məlumat verilib və onun xas şəkilli, yəni birbaşa sultan xəzinəsinə ödənilən illik vergisinin 11000 ağça həcmində müəyyənləşdirilməsi barədə müvafiq qeydlər aparılıb. Bu o deməkdir ki, hələ XVIII əsrin əvvəllərində Şəhriz Dərəçiçək nahiyəsinin ən iri vergi ödəyiciləri sırasında üçüncü, ümumən Cöyçə hövzəsinin ən iri yaşayış məskənləri sırasında isə yeddinci yerdə dayanırmış.

1828-ci ildə rəsmi Rusiyanın istəyi ilə yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə hövzəsinin o zaman yaşayış üçün yararlı sayılan kəndlərinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında da Şəhrizin adı yer alıb. Bu isə o deməkdir ki, Şəhrizin əsası heç bir halda Göyçəyə yalnız 1828-ci ildən sonra ayaq basmış ermənilər tərəfindən qoyula bilməzdi. Bir sözlə, erməni tarixçilərinin bu iddiası Şəhrizin yerli sakinlərinə qarşı həyata keçirilmiş antiinsani siyasətin məsuliyyətindən sığortalanmaq üçün düşünülmüş yalandan savayı bir şey deyil. O antiinsani siyasət isə tarixi gerçəklikdir... Belə ki, 1831-ci ilə dair rəsmi sənədlərdə Şəhrizin adı qarışıq yaşayış məntəqələrinin siyahısında keçdiyi və 441 nəfər türk, 86 nəfər erməni əhalisinin olduğu göstərildiyi halda; 1898-ci ilə dair sənədlərdə Şəhriz sırf erməni kəndi kimi təsniflənir. Bu isə o deməkdir ki, XIX əsrin əvvəllərində buraya Türkiyədən köçürülmüş ermənilər rəsmi dairələrin köməyi ilə kəndın əzəli sahiblərini öz minillik yurdundan qovmağa müvəffəq olmuşlar. Oğuz türkünün Şəhrizdə yaşadığı müsibətlərin gerçək təfərrüatı isə Azərbaycan tarixşünaslığı üçün sirr olaraq qalacaq, çünki Azərbaycan tarix elmi üçün prioritet istğiqamət "bu qəbil xırda məsələlər" yox, hər növbəti rəhbərin könlünü oxşaya biləcək nağıllar quraşdırmaqdır.

## ŞƏRABA

Göyçə gölünün cənub-şərqində, Basarkeçərdən 20 km. cənub-qərbdə, coğrafi relyefi baxımından keçilməz dağlarla əhatələnmiş bir dərədə yerləşmiş bu kənd barədə erməni mənbələri israrla susurlar. Niyə? Çünki bu kənd dünyanın üzqarası sayıla biləcək bir vəhşiliyin qurbanı olub; bu obanın türk sakinləri Amerika hindularının 28 noyabr 1864-cü ildə Sənd-Krikdə yaşadığı faciədən, belorusların Xatında yaşadığı müsibətlərdən daha dəhşətli bir faciə, daha ağrılı bir müsibət yaşayıblar. Ermənilərin Şərabada törətdikləri cinayət miqyasına görə olmasa da, amansızlığına və qəddarlığına görə ingilislərin Sənd-Krikdə, almanların Xatında törətdikləri cinayətləri kölgədə qoyur. Nə baş verib Şərabada?

1918-ci ilin son günlərində, təxminən dekabrın 20-22-si aralığında ən yaxın türk kəndləri olan Qızılvəngi, Yuxarı Zağalını və Subatanı mühasirəyə alan erməni qoşunları, Şərabaya heç bir istiqamətdən kömək gəlməyəcəyinə əmin olaraq, gecə ilə kəndə soxulmuşlar. Kənddəki hər ev on nəfərlik bir bölüyün sərəncamına buraxılmış və bölüklərə tam sərbəst qərar qəbul etmək imtiyazı verilmişdir. Kişi cinsindən olanlar, kiçikdən-böyüyə, hər evin öz təndirindəcə diri-diri yandırılmış, yaşlı qadınların döşləri, hamilə gəlinlərin qarınları kəsilməklə öldürülmüş, qalanları əsgərlərin ixtiyarına buraxılmışdır. Kənddən 8 qadın seçilərək qəfəslərdə ordu qərargahına pay göndərilmiş və orada təhqiramiz formada qətlə yetirilmişlər. Kəndin varidatı talan olunduqdan sonra bütün kənd oda qalanmışdır. Göyçənin el yaddaşında göynər xatirəyə dönmüş bilgilərə görə Şəraba kəndi mahalın ən qədim kəndlərindən biriymiş və o əsasən seyyidləri, gözəl təbi olan aşıqları, türkəçarəçiləri, övliyaları ilə tanınırmış ki, ermənilər də görünür bu reallığa xüsusi diqqət yetiriblərmiş. Azərbaycan tarixşünaslığı isə nədənsə Şəraba faciəsinə diqqət yetirməyə lüzum görməyib. Baxmayaraq ki, bir cümlə ilə olsa da, “Azərbaycan” qəzetinin 27 yanvar 1919-cu il tarixli 30-cu sayında bu müsibət barədə məlumat verilmişdi. Beləcə, Azərbaycan tarixşünaslığının 80 illik biganəliyi erməni tarixçilərinə tarixi bir cinayəti ört-basdır etmək, tarixi min illərlə ölçülən bir türk kəndinin izlərini sənədlərdən, özünü isə yer üzündən və tarix səhnəsindən silmək imkanı verdi. Amma qoca dünya daha etibarlıdır və şahidi olduğu müsibətləri yaddaşından silmir, tarixi cinayətlərin izlərini itirmir. Şəraba faciəsinin də izləri hələlik durur dünyada. Qızılvəng (indiki Makenis) kəndinin yaylaq yeri sayılan ərazidə Şərabanın oda qalanmış ocaq yerlərinin xərabələri dünyanın üz qarası kimi yaşarıdır.

## ŞİŞQAYA

Basarkeçər kəndindən 15 km. şimal-qərbdə, dəniz səviyyəsindən 2059 metr hündürlükdə yerləşən bu kəndin cənubundakı məzarlıqda 1988-ci ilə qədər toxunulmamış qalan X-XII əsrə aid məzarlıq sənduqələrinin qalıqları bu obanın azı 1200-1500 illik tarixinə şəhadət verən maddi sübutdur. Erməni mənbələrində isə kəndin adına ilk dəfə yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalında o zaman yaşayış üçün yararlı sayılan 59 kəndin İ. Şopen tərəfindən tərtib olunmuş siyahısında rast gəlinir. 1831-ci ilə dair sənədlərdə bu kəndin 251 nəfər türk əhalisinin olduğu göstərilir. Sonrakı 90 il ərzində kənd sürətlə inkişaf etmiş və rəsmi statiistikaya görə kənd əhalisinin sayı 1873-cü ildə 593, 1886-cı ildə 905, 1897-ci ildə 1132, 1916-cı ildə 1232 nəfər olmuşdur. 1919-cu il qətliamları zamanı mahalın ən iri yaşayış məntəqəlrindən biri kimi Şişqaya xüsusi diqqətdə olmuş, ermənilər əsas qüvvələrini bu kəndə yönəltmişlər. Aprelin 13-dən 18-nə qədər davam edən döyüşlər zamanı Kor Tanrıverdinin* başçılıq etdiyi özünümüdafiə qüvvələrinin müqavimətini qıra bilməyəcəklərini yəqin edən ermənilər hiyləyə əl atmışlar. Rusların vasitəçiliyi ilə danışıq aparmaq barədə razılığa gəlinmiş, kəndin ağsaqqalları və əsas döyüş qüvvələri məscidə yığıldıqdan sonra erməni-rus hərbi birləşməsi qəflətən hücuma keçmiş və məscidi yandırmışlar. Həyatını qurtarmaq istəyənlər və köməyə gələnlər güllləbaran edildikdən sonra kənd məhlə-məhlə talan edilmiş, qaçmağa imkan tapmayanlar ya qətlə yetirilmiş, ya da ermənilərin əlinə keçməmək yçün özlərini öldürmüşlər. Sağ qalanlar Şahdağ silsiləsindən keçərək Gəncə qəzasının beşinci sahəsinə və Cavanşir qəzasının dağlıq zolağına səpələnmişlər. Şişqayanın 1919-cu il aprelin 19-da yaşadığı faciənin miqyasın təsəvvür etmək üçün, 1922-ci ildə doğma ocağa dönənlər barədə rəsmi statistikaya baxmaq kifayətdir: cəmi 461 nəfər, yəni kəndin 1916-cı ildəki əhalisinin üçdən biri. Amma bu faciə belə şişqayalıların vətən vevgisini zərrəcə azaltmadı və onlar doğma yurdu qısa müddətdə abadlaşdırmağa müvəffəq oldular. 1926-cı ildə kənd əhalisinin sayı 612, 1931-ci ildə isə artıq 863 nəfər idi. 1979-cu il siyahıyaalınmasının nəticələrinə görə Şişqayada yaşayan türklərin sayı 3800 nəfər idi və kənd o zaman üçün artıq nəinki mahalın, ümumən respublikanın ən abad yaşayış məntəqələrindən biri kimi səciyyələndirilirdi. Kənddə mədəniyyət evi, məişət xidməti mərkəzi, bir neçə sənaye malları və ərzaq mağazası, xəstəxana, poliklinika, əczaxana, avtomat telefon stansifası və idman klubu fəaliyyət göstə-

rirdi. 1988-ci ildə Ermənistan hökumətinin rəsmi Moskvanın dəstəyi ilə həyata keçirldiyi qətliamlar zamanı Şişqaya 6 şəhid vermiş- 1933-cü il təvəllüdlü İbrahimov Əziz Cabbar oğlu, 1935-ci il təvəllüdlü Əliyev Mehralı İbrahim oğlu, 46 yaşlı Züleyxa Əsədova, 1942-ci il təvəllüdlü Zeynalov İlyas Əmirxan oğlu, 24 yaşlı Əliyev Yunis Tahir oğlu və 15 yaşlı Əliyev Şahin Qabil oğlu həlak olmuşlar. Kəndin sağ qalan əhalisi isə doğma yurdu yenidən tərk etməyə məcbur olmuş və Şişqaya kolxozunun bütün varidatı, o cümlədən əhalinin əmlakı Ermənistan dövləti səviyyəsində mənimsənilmişdir. Ermənistan Respublikası parlamentinin 9 aprel 1991-ci il tarixli qərarı ilə Şişqaya toponimi "Qukariç" sözü ilə əvəzlənmişdir.

***Şişqayanın ünlü yetirmələri:***

* *Göyçə mahalında Kor Tanrıverdı ləqəbi ilə tanınan bu el qəhrəmanı 20 ilə yaxın bir müddətdə rus ordusunda qulluq etdikdən sonra istefaya buraxılmış və rəsmən Nor Bayazit qəzasının Basarkeçər nahiyəsi üzrə hərbi işlər müvəkkili vəzifəsini tutmuş, Rusiya imperatorunun xüsusi təqaüdünü almışdır. Amma rəsmi titullarına və imtiyazlarına baxmayaraq, taleyüklü məqamlarda həmişə el-obası ilə birlikdə olmuş, nəinki ermənilərə, hətta ruslara qarşı döyüşməkdən çəkinnəmişdir.*



**Rzayev Yunis Qəhrəman oğlu.** 1924-cü il martın 2-də anadan olmuş, Bakı Dövlət Universitetini, Bakı Ali Partiya Məktəbini və Moskva İctimai Elmlər Akademiyasını bitirmiş, 33 yaşında Krasnoselo, 38 yaşında Basarkeçər rayon Partiya Komitələrinin birici katibi seçilmiş, bir çağırış SSRİ Ali Sovetinin, 3 çağırış Ermənistan SSR Ali Sovetinin deputatı olmuş, Basarkeçər rayonunun adının dəyişdirilməsinə etiraz etdiyinə görə 1968-ci ildə partiya işindən uzaqlaşdırılaraq Ermənistan SSR Meşə Təsərrüfatı Komitəsinin sədr müavini təyin edilmiş; mənəvi təzyiqlər nəticəsində Azərbaycana köçəndən sonra Şamaxı rayon Partiya Komitəsinin birinci katibi, Azərbaycan SSR Üzümçülük və Şərabçılıq Komitəsinin sədri vəzifələrində çalışmışdır. 1985-ci ildə qəfil ürəktutmasından vəfat etmiş, Bakıdakı II Fəxri Xiyabanda dəfn olunmuşdur( Bu görkəmli dövlət xadiminin həyat və fəaliyyəti, o cümlədən vətən sevgisinin ali örnəyi olan əməlləri ilə bu kitabın "Ömrünü yurda çıraq etmiş dağdan ağır kişilər" sərlövhəli bölümündə daha ətraflı tanış ola bilərsiniz).



**Bayramov Mikayıl Musa oğlu.** 1925-ci ildə anadan olmuş, Gəncə Kənd Təsərrüfatı Akademiyasını bitirmiş, uzun illər doğma Şişqaya kolxozuna və Göysu kolxozuna rəhbərlik etmiş, qatı türk millətçisi imici ilə tanınmışdı. XX əsrin 70-ci illərində Ermənistan hökumətinin qərarı ilə Şişqayanın torpaqlarının bir qisminin qonşu Norakert kəndinə verilməsi məsələsində Ermənistan KP MK-nın birinci katibi K.S.Demirçyanla açıq mübahisəyə girərək hökumətin xəyanətkar planını əngəllədiyinə görə ciddi təqiblərə məruz qalsa da, el-oba bu məğrur insanın müdafiəsinə qalxmış, onun cəzalandırılmasına imkan verməmişdir. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşmışdı, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirdi. Azərbaycan Qaçqınlar Cəmiyyətinin yaradıcılarından və ilk rəhbərlərindən biri idi. 1996-cı ildə vəfat etmişdir.

**Cəfərov Tapdıq.** Azərbaycan Kənd Təsrrüfatı İnstitutunu bitirmiş, uzun illər Basarkeçər rayonunun partiya-sovet orqanlarında məsul vəzifələr tutmuş, Qoşabulaq, Böyük Qarqoyunlu təsərrüfatlarına rəhbərlik etmiş, 1988-ci ildən ömrünün sonuna qədər Azərbaycan Respublikası Dövlət Baytarlıq Komitəsində çalışmışdır.

**İbrahimov Adil Abbas oğlu.** Basarkeçər nahiyəsində təhsil sisteminin inkişafı yönündə müstəsna xidmətlərinə görə Ermənistan SSR Ali Sovetinin 24 yanvar 1978-ci il tarixli qərarı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür.

**Cahangirov Məhəmməd Şamil oğlu.** Tibb elmləri doktoru, professor, əməkdar elm xadimidir.

**Musayev Məhərrəm Aslan oğlu.** Texniki elmlər namizədidir.

**Cəfərov Vaqif Tapdıq oğlu.** Azərbaycan Dövlət Tibb Universitetini bitirmiş, Bakı şəhərinin müxtəlif səhiyyə ocaqlarında çalışmış, M.Topçubaşov adına Eksperimental Cərrahiyyə İnstitutunun və Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının baş həkimi olmuş; 2000-ci ildə "Azərbaycan Respublikasının əməkdar həkimi" fəxri adına layiq görülmüşdür. Hazırda Bakı şəhər Yasamal rayonunun səhiyyə şöbəsinin müdiridir.

## ŞORCA

(Şor Əli)

Göyçə gölünün sahilində, Çənbərək qəsəbəsindən (Krasnoselo) 13km. cənub-şərqdə yerləşən bu kənd hələ ta qədimdən coğrafi mövqeyinə görə Göyçə mahalının strateci əhəmiyyətli yaşayış məskənlərindən biri ol-

muş, Qaraqoyunlu dərəsindəki türk obaları ilə Göyçə kəndləri arasında əlaqələndirici dayaq məntəqəsi rolu oynamışdır. Elə indi də kənd mühüm əhəmiyyət daşıyır: Vardenis-Çambarak, Sevan-Çambarak şose yolları, Sevan-Zod dəmiryolu bu kənddən keçir. Kəndin ərazisindəki qalanın bünövrə qalıqlarının eramızın I minilliyinin əvvəllərinə aid olması, hətta erməni arxeoloqları tərəfindən etiaf olunmuş faktdır. Bu isə o deməkdir ki, Şorcanın oğuz türkləri tərəfindən binələşdirilməsinin ən azı 2000 illik tarixi var. Kənddəki II-III əsrlərə aid oğuz məzarlığının və VI-VII əsrlərə aid məbədin qalıqları isə türklərin bu obanın şəriksiz sahibləri olduğunu birmənalı şəkildə təsdiqləyən maddi sübutlardır. Erməni mənbələri isə bu kəndin qədim tarixinə dair aşkar faktlardan yan keçərək, Şorcanın əsasının XIX əsrin ortalarında ruslar tərəfindən sürgün edilmiş mordvinlər (malakanlar) tərəfindən qoyulduğunu iddia edirlər. Və bu zaman belə bir fakta istinad edirlər ki, 1828-ci ildə yeni yaradılmış erməni vilayətinin idarəçiliynə verilmiş Göyçə Hövzəsində o zaman yaşayış üçün yararlı sayılan kəndlərin və 1826-1829-cu il İran-Rusiya, Rusiya-Türkiyə müharibələri zamanı Göyçədə dağıdılmış 108 kənddən 67-sinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahılarında Şorca adlı yaşayış məntəqəsi yoxdur. Həqiqət də belədir. Amma erməni vilayətinin idarəçiliyinə verilərkən yaşayışa yararlı olan 59 kəndin siyahısında 57-ci sırada “Şor Əli” adlı yaşayış məntəqəsi yer alıb və İ.Şopenin siyahılarının məntiqi ardıcıllığından aydınca görünür ki, bu kənd Adatəpə və Ağbulaq kəndləri arasında yerləşirmiş. Başqa bir sənəddə isə göstərilir ki, 1831-ci ildə Şor Əli kəndinin 140 nəfər türk əhalisi olub. Malakanların (mordvinlərin) Rusiyadan kütləvi şəkildə sürgün olunması isə 1850-ci illərin əvvəllərinə təsadüf edir. Rəsmi sənədlərlə təsbitlənmiş bu tarixi reallıqlar Şorcanın əsasının XIX əsrin ortalarında malakanlar tərəfindən qoyulması barədə iddiaları birmənalı şəkildə rədd edir. Erməni tarixçilərinin öz iddialarında israrı isə təbii məntiqi suallar doğurur: əgər Şorcanın əsasını malakanlar qoyubsa, onda bu kənddəki 2000 illik qalanı, 1500 yaşı olan məbədi kim tikib, 1700-1800 illik tarixi olan məzarlıqda uyuyanlar kimlərdir? Ən nəhayət, Şorca yeni bir kənddirsə, onda 1828-ci ilin rəsmi sənədlərində yer almış Şor Əli kəndi haradadır və aqibəti necə olub? Bu məntiqi sualın bir çıxış yolu var: erməni tarixçiləri Şorca ilə ilə bağlı həqiqətləri etiraf etməsələr, onda Şor Əli kəndini yer üzündən sildiklərinin, bu kənddə daha bir tarixi cinayət törətdiklərinin - Şor Əlinin türk əhalisinə qarşı soyqırımı həyata keçirdiklərinin məsuliyyətini öz üzərlərinə götürməlidirlər. Təbii ki, belə bir etiraf olmayacaq və ən ciddi elmi diskussiyalarda belə, ermənilər “Şorca” və “Şor Əli” toponimləri ətrafında manipulyasiyalarla Oğuz Eli-

nin Göyçənin əzəli sahibi olduğu həqiqətinə kölgə salmaq niyyətlərini etiraf etmək məcburiyyətində qalacaqlar. Bəli, Şorca kəndi Göyçənin ən qədim yaşayış məskənlərindən biridir və onun əzəli sahiblərinin məhz oğuz türkləri olduğu təkzibimümkünsüz bir tarixi gerçəklikdir ki, bu da öz təsdiqini həm maddi dəlillərlə, həm də rəsmi sənədlərlə tapır. Rəsmi statistikaya görə Şorcada yaşayan türklərin sayı 1873-cü ildə 196, 1904-cü ildə 329, 1914-cü ildə 381 nəfər olub. 1918-ci ilin qışında və 1920-ci ilin yazında daşnak quldur qoşunu Şorca əhalisini qılıncdan keçirmiş, kəndi talamışdır. Sağ qalanlar Gəncə qəzasının dağlıq sahəsində sığınacaq tapmış, sonradan Azərbaycanın müxtəlif bölgələrinə səpələnmişlər. Şorcada erməni vəhşiliklərinin miqyasını təsəvvür etmək üçünsə Sovet hökumətinin təhlükəsizlik barədə zəmanətindən sonra kəndə qayıtmış qaçqınların sayı barədə rəsmi statistikaya diqqət yetirmək kifayətdir: cəmi 6 nəfər, yəni ermənilərin Göyçədə həyata keçirdikləri soyqırımdan əvvəl kənddə yaşayan əhalinin cəmi 1,5 faizi. Amma zaman bu müsibətləri qismən unutdurmuş və Şorcanın əzəli sahiblərinin vətən sevgisi bütün qorxulara üstün gəlmişdir. 1931-ci ildə kənddəki türklərin sayı 196 nəfər idi və onlar doğma yurdu sürətlə bərpa etdilər də, mahalın ən abad yaşayış məntəqələrindən birinə çevirməyə müvəffəq oldular da. 1979-cu il siyahıyaalınmasının nəticələrinə görə Şorcadakı türklərin sayı 944 nəfər idi və bu zaman kənddə məişət xidməti mərkəzi, dəmiryol stansiyası, avtomat telefon stansiyası, xəstəxana, klub, uşaq bağçası, bir neçə mağaza və ictimai iaşə müəssisəsi fəaliyyət göstərirdi. 1988-ci ildə isə...Ermənistan hökumətinin rəsmi Moskvanın dəstəyi ilə türklərə qarşı keçirdiyi soyqırımı siyasətinin dalğası mahalın bütün kəndləri kimi Şorcanı da tutdu: əhali qovuldu, kolxozun əmlakı, o cümlədən camaatın varidatı erməni faşist dövləti tərəfindən talan edildi.

***Şorcanın ünlü yetirmələri:***



**Hüseynov Məhərrəm Abbasəli oğlu.** 1947-ci il fevralın 17-də anadan olmuş, Bakı Dövlət Universitetini və Azərbaycan SSR Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun aspiranturasını bitirmiş, İrəvan Dövlət Pedoqoji İnstitutunda baş müəllim və dosent vəzifələri tutmuş, elmi şuranın üzvü olmuşdur. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşmışdır. Filologiya elmləri doktoru; 2 kitabın, 1 metodik vəsaitin, 150 elmi məqalənin müəllifidir. Azərbaycan Dövlət Texniki Universitetində işləyir.

**Cabbarov Ramiz Məmmədrza oğlu.** 1942-ci ildə anadan olmuş, Ba-

kı Dövlət Universitetini və Azərbaycan SSR Elmlər Akademiyasının Fizika İnstitutunun aspiranturasını bitirmiş, elə həmin institutun elmi işçisi olmuşdur. Fizika-riyaziyyat elmləri namizədi, 40 elmi məqalənin müəllifi, Azərbaycan Dövlət Texniki Universitetinin dosentidir.

**Hüseynov Əli Həsən oğlu.** Fizika-riyaziyyat elmləri namizədidir.

**Məsimov Məcid Oruc oğlu.** Tibb elmləri namizədidir.

## TAXCA

Göyçə gölünün şimalında, Toxluca kəndindən təxminən 9 km. şimal-qərbdə, üç tərəfdən dağlarla əhatə olunmuş düzənlikdə yerləşmiş bu kənd barədə ilk rəsmi məlumat SSRİ adlı imperiyanın təşəkkülünün ilk dövrlərinə aiddir. 1926-cı ildə SSRİ-də keçirilmiş ilk siyahıyaalınmanın nəticələrinə dair rəsmi sənədlərdə Taxca kəndində 112 nəfərin yaşadığı və etnik tərkibinə görə kəndin sırf türk kəndi olduğu göstərilir. XX əsrin otuzuncu illərində SSRİ-ni kolxozlaşma bumu bürüyəndə ermənilər fürsətdən istifadə edərək kolxoz qurmaq istəməyən taxçalıları NKVD-nin (Xalq Daxili İşlər Komissarlığının) qara siyahısına daxil etmiş, 1933-1937-ci illərdə kəndin nüfuzlu şəxsiyyətlərinin hamısı həbs edilmiş, ailələri isə etibarsız insanlar kimi Qazaxıstana sürgün olunmuşdur. Ermənistan Xalq Komissarları Soveti  Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə kənd 1937-ci ildə bir inzibati vahid kimi rəsmən ləğv edilmişdir. Taxçanın xərabəlikləri 1988-ci ilə qədər toxunulmamış qalsa da, Göyçənin söz yaddaşında bu kəndin tarixinə işarə ola biləcək və yaşadığı faciələrin miqyasını təsəvvür etməyə imkan verə biləcək izlər yoxdur. Yalnız rəsmi sənədlərə və tarixi proseslərin xronoloci ardıcıllığına əsasən təxmin etmək olar ki, Taxça 1826-1829-cu il Rusiya-İran, Türkiyə-Rusiya müharibələri zamanı dağıdılaraq ölü kəndlər siyahısına salınsa da, XIX əsrin ortalarında yenidən bərpa edilmiş; 1918-1920-ci illərdə Göyçə kəndlərinin yaşadığı anoloci aqibəti yaşamışdır. Və görünür bu hadisələr zamanı Taxçalıların ermənilərə qarşı güclü müqaviməti daşnakların qəzəbinə səbəb olmuş və onlar bütün anaoloci hallarda olduğu kimi ilk fürsətdəcə taxçalılara qarşı xüsusi amansızlıq nümayiş etdirərək kəndi dağıtmışlar.

## TATUL QIŞLAĞI

Göyçə gölünün cənub-şərqində, Böyük Qaraqoyunlu  və Zərzibil kəndləri arasındakı Daşlı Güney deyilən yamacdan təxminən 1 km. şərq-

dəki dərədə, Hüsən çayın mənbəyinə yaxın bir ərazidə yerləşmiş bu kəndin adına məxəzlərdə ilk dəfə 1828-ci ildə, yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalının o zaman yaşayış üçün yararlı sayılan 59 kəndinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında rast gəlinir. Həmin siyahıda 45-ci sırada yer alan bu obanın adı İ.Şopen tərəfindən Tatlı Qışlağı kimi qeyd olunsa da, Göyçənin el yaddaşında bu oba Tatul Qışlağı kimi əbədiləşmişdi. 1831-ci ilin statistikasına görə, kənddə 148 nəfər türk yaşamışdır və təkcə elə bu fakta istinadən Tatul Qışlağının əsasının 1800-cü ildən əvvəlki dövrlərdə qoyulduğunu söyləmək mümkündür. Kəndin sonradan Nərimanlı kolxozunun yaylaq örüşləri kimi istifadə edilən ərazisindəki oğuz məzarlığının qalıqları isə bu tarixin daha qədim olduğuna şəhadət verən maddi sübut idi. Amma təəssüflər ki, o məzarlıqda elmi- arxeoloci araşdırmalar aparmaq, oradakı daş kitabələri oxumaq fürsəti əldən buraxılıb. Ən faciəvisi isə odur ki, Tatul Qışlağının ermənilərə qədərki tarixi kimi, XIX əsrin ortalarında burada ermənilərin törətdiyi cinayətlərin təfərrüatını öyrənmək imkanları da itirilib. Cinayətin törədilməsi isə danılmaz faktdır və bu tarixi reallıq rəsmi sənədlərdə əksini tapıb. Belə ki, 1873-cü ilə dair sənədlərdə artıq Tatul Qışlağı bir inzibati vahid kimi yoxdur. Bu isə o deməkdir ki, 1831-ci ildən 1873-cü ilə qədər olan 42 il ərzində bu türk obası ölü kəndə çevrilib. Niyə? Bu sualın birmənalı cavabı olmasa da, Tatul Qışlağının "yoxa çıxmasında" erməni amilinin rolu şəksizdir. Əsrlərlə mövcud olmuş və əhalisinin sayı etibarı ilə digər kəndlərdən böyük olan bir obanın ermənilərin gəlişindən sonra qısa bir müddətdə "qeybə çəkilməsi" səbəbsiz ola bilməzdi və bu səbəbin səciyyəsindən asılı olmayaraq, Tatul Qışlağının məhv olmasının məsuliyyəti ermənilərin və onlara havadarlıq etmiş xristian dünyasının üzərindədir.

## TAYA QAYA

Göyçə gölünün şimalında, Ardanış kəndindən 11 km. şimal-şərqdə yerləşmiş bu kənd barədə ilk rəsmi məlumata 1873-cü ilə dair sənədlərdə rast gəlinir və rəsmi statistikaya görə, həmin vaxt Taya Qaya kəndinin türklərdən ibarət 103 sakini olub. 1926-cı ildə SSRİ-də keçirilmiş ilk siyahıyaalınmanın rəsmi nəticələrinə görə isə kənd əhalisinin sayı cəmi 69 nəfər imiş. XX əsrin otuzuncu illərində əmlaklarını ümumi mülkiyyətə vermək istəmədiklərinə görə, Taya Qaya sakinləri bolşevik-daşnak hökumətinin qəzəbinə tuş gəlmiş, Ermənistan SSR Xalq Komissarları Soveti

Mərkəzi İcraiyyə Komitəsinin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kənd bir inzibati vahid kimi ləğv edilmiş, bir neçə ailə sürgünə göndərilmiş, qalanları isə müxtəlif yerlərə köçməyə məcbur edilmişlər. Kəndin xərabəlikləri 1988-ci ilə qədər qalırdı.

## TƏZƏKƏND

Bu toponim özlüyündə qədim tarixdən xəbər verməsə də, hər halda Göyçədə belə bir kəndin hələ 200 il əvvəl mövcud olduğu tarixi reallıqdır və o reallıq rəsmi sənədlərdə təsbitlənib. Belə ki, 1826-1829-cu illər aralığında baş vermiş İran- Rusiya, Rusiya- Türkiyə müharibələrinin gedişində, rusların istəyi ilə, yeni yaradılmış erməni vilayətinin idarəçiliynə verilmiş Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı hesab edilən 59 kəndin (rusların tətbiq etdiyi inzibati strukturlaşmaya görə Dərəçiçək mahalına aid edilən Göyçə kəndləri bu siyahıya düşməyib) İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında 19-cu sırada Təzəkəndin adı gəlir. Göyçə ilə bağlı bundan əvvəlki və sonrakı dövrlərə aid sənədlərdə isə Təzəkənd toponiminə əsla rast gəlinmir. Bu səbəbdən də kəndin coğrafi mövqeyini belə təyin etmək mümkün deyil. Yalnız İ.Şopenin siyahılarındakı sıralanmanın dəqiq prinsiplərinə istinadən Təzəkəndin indiki Martuni rayonundakı Dəlikdaş (Tsakkar) kəndinə yaxın bir ərazidə olduğu və 1831-1873-cü illər aralığında Göyçədə erməni faşizminin birinci tüğyan mərhələsində yerlə-yeksan edildiyi barədə mülahizə yürütmək olar. Başqa bir versiya Təzəkəndin 1828-1831-ci illər ərzində Türkiyə və İrandan gətirilmiş ermənilər tərəfindən binələşdirilmiş yurd yeri olması versiyasıdır ki, o da heç bir şərt daxilində özünü doğrultmur. Əgər kəndi ermənilər salmış olsaydılar; əvvəla, İ.Şopen 1831-ci ildə bu kənddə yaşamış 126 nəfərdən neçəsinin erməni olduğunu mütləq göstərərdi, heç bir halda onların hamısını türk kimi səciyyələndirilməsinə yol verməzdi. İkincisi, kənd ermənilər tərəfindən salınsaydı, onu Tazagyuğ, Noragyuğ və sair şəklində adlandırardılar. Üçüncüsü, ermənilər öz saldıqları kəndi niyə dağıtmalıydılar ki?!.

## TOXLUCA

Göyçə gölünün şimal-şərqində, Çənbərək qəsəbəsindən 24 km. cənub-qərbdə, sahilə yaxın bir dərədə yerləşmiş bu kənddəki IX əsrə aid qalayabənzər tikilinin, eləcə də V-VII əsrlərə aidliyi şübhə doğurmayan

oğuz məzarlığında 1988-ci ilə qədər toxunulmamış qalan kitabələrin qalıqları bu yurdun oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 2000 illik tarixinə şəhadət verən maddi sübutlardır. Erməni mənbələrində isə kəndin adına ilk dəfə XIX əsrin əvvəllərində, yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalında o zaman yaşayış üçün yararlı sayılan 59 kəndin İ.Şopen tərəfindən tərtib edilmiş siyahısında rast gəlinir. Rəsmi sənədlər isə Toxlucanın Göyçə mahalının ən böyük və sürətlə inkişaf edən kəndlərindən biri olduğunu təsdiqləyir. Belə ki, rəsmi statistikaya görə Toxluca əhalisinin sayı 1831-ci ildə 296, 1873-cü ildə 466, 1886-cı ildə 681, 1897-ci ildə 935, 1914-cü ildə 1373 nəfər olmuşdur. Və təbii ki, kəndin həm qədim tarixə malik olması, həm də sürətli inkişafı daşnak ideoloqlarının diqqətindən yayınmamış və onlar Toxlucaya qarşı daha aqressiv olmuşlar. Buna baxmayaraq Toxluca kəndi Ararat Respublikası deyilən faşist recimi zamanında nəinki Göyçədə, ümumən Ermənistan miqyasında ən az itki verən kənd olmuşdur. Daşnakların bu kəndə ilk hücumu 1918-ci ilin noyabrında Çubuxlu istiqamətindən olmuşdur. Toxlucaya qədər artıq Qəməsar və Harunlu kəndləri tam viran qoyulduğundan ermənilər Toxlucada psixoloci qələbəyə daha çox ümid bəsləyirdilər və kənd əhalisinin müqavimətsiz təslim olacağını gözləyirdilər. Amma...Topal Oruc və Cığal Məmmədin rəhbərlik etdiyi özünümüdafiə dəstələri nizami daşnak ordusuna ciddi müqavimət göstərdi və ermənilərin Toxlucaya girmək planı tam iflasa uğradı. Təbii ki, bir həftədən çox davam edən döyüşlər itkisiz də ötüşmədi və bu, kənd sakinlərinin ovqatında müəyyən tərəddüdlərə səbəb oldu. 1919-cu ilin əvvəllərində kəndi tərk edənlər vardı və bu reallıq özünü statistik rəqəmlərdə də göstərir: həmin vaxt kənd əhalisinin sayı 1916-cı ildəki göstəricidən xeyli aşağı düşərək, 1190 nəfər həddinə qədər azalmışdı.

Ermənilərin Toxlucaya növbəti hücumu 1920-ci il yazın sonlarında oldu. Bu dəfə ermənilər iki istiqamətdən- həm Çubuxlu, həm də Şorca istiqamətindən hücum etdikləri üçün hərbi sürsat sarıdan korluq çəkən özünümüdafiə dəstələri uzun müddət müqavimət göstərə bilmədilər və cüzi itkilərlə kəndi tərk edərək kompakt şəkildə Gəncə qəzasının dağlıq zolağının 5-ci sahəsinə çəkildilər. Göyçənin şimal kəndlərində bu cinayətlər törədilərkən Azərbaycanda artıq sovet hökuməti qurulmuşdu. Amma Göyçənin şimal kəndlərinin, o cümlədən Toxlucanın da o zaman rəsmən Azərbaycanın inzibati bölgüsünə daxil olması kimi real fakta əsla məhəl qoyulmurdu. Başqa sözlə, Azərbaycanın bolşevik hökuməti də Demokratik Cümhuriyyət rəhbərliyinin biganəlik siyasətini davam etdirirdi. Və elə bu biganəlik də öz məntiqi nəticəsini verdi: 1918-ci il Batumi razılaşması-

na əsasən Azərbaycanın nəzarətində olan Göyçə kəndləri, yəni Göyçə gölünün şimal və şimal-şərq sahillərindəki türk obaları 1920-ci iin noyabrında Ermənistan Sovet Sosialist Daşnak Respublikasına pay verildi. 1922-ci ildə Toxlucalılar elliklə geri qayıtdılar ki, bu qürurgətirici tarixi reallıq da rəsmi sənədlərdə öz əksini tapıb: 1176 nəfər. 1919-cu ildə kənddən didərgin salınmış 1190 nəfər və 1922-ci ildə qayıdan 1176 nəfər. Bu müqayisənin özü Toxlucadakı söz və əməl birliyinə şəhadət deyilmi? Toxluca ağsaqqallarının nüfuzu, elatı yaşatmaq fərasəti, elin birliyini təmin etmək qüdrəti göz önündədir. Və bu birliyi, bu bütövlüyü toxlucalılar sonrakı 70 ildə də layiqincə nümayiş etdirdilər. 1922-ci ildən 1930-cu ilin sentyabrına qədər Toxluca Basarkeçər nahiyəsinin inzibati bölgüsünə, 1930-1937-ci illərdə Sevan rayonunun inzibati bölgüsünə, 1937-ci ildən sonra isə Krasnoselo rayonunun inzibati bölgüsünə daxil edilib. Amma... ermənilərin Toxlucanın əzəli sahiblərinə psixoloci təzyiq vasitəsi kimi düşündükləri bu plan, inzibati pressinq, yəni ermənilərin inzibati dairələrdə üstünlüyünü təmin etməklə türk əhalini perikdirmək niyyəti baş tutmadı; bu oyunbazlıqlar toxlucalıların yurd sevgisinə əsla xələl gətirmədi, əksinə onların müqavimət əmsalını qat-qat artırdı. 1979-cu il siyahıyaalınmasının nəticələrinə görə Toxluca etnik tərkibi etibarı ilə sırf türk kəndi kimi səciyyələnirdi və əhalisinin sayı 2632 nəfər idi. Kənddə mədəniyyət evi, ambulatoriya, aptek, məişət xidməti mərkəzi, ərzaq və sənaye malları mağazaları, rabitə şöbəsi və avtomat telefon stansiyası, orta məktəb və texniki peşə məktəbi, xalçaçılıq fabriki fəaliyyət göstərirdi. 1988-ci ildə Ermənistan hökumətinin rəsmi Moskvanın dəstəyi ilə həyata keçirdiyi deportasiya zamanı kənd əhalisi qovuldu, əmlakları dövlət səviyyəsində talana məruz qaldı. Ermənistan Respublikası Ali Sovetinin 9 aprel 1991-ci il tarixli qərarı ilə Toxluca toponimi "Draxtik" sözü ilə əvəzlənmişdir.

***Toxlucanın ünlü yetirmələri:***

**Topal Oruc.** 1918-1920-ci illərdə ermənilərə qarşı mübarizənin təşkilatçısı olub.

**Cığal Məmməd.** 1918-1920-ci illərdə ermənilərə qarşı döyüşlərdə xüsusi rəşadət göstərmiş bu şəxs 1988-ci ildə Azərbaycanda başlamış milli-azadlıq hərəkatının lideri Etibar Məmmədovun babasıdır.



**Əhmədov Hüseyn Mustafa oğlu.** Pedoqoji elmlər doktoru, akademik, əməkdar elm xadimi və görkəmli ictimai xadim kimi tanınmış bu nurlu şəxsiyyətin həyat və fəaliyyəti ilə bağlı ətraflı məlumatla bu kitabın "Göyçənin maarifçilik ənənələri" bölümündə tanış ola bilərsiniz.



**İsmayılov Ağəli Şirəli oğlu.** 1946-cı ildə anadan olmuş, Ağdaş rayon Pirəzə kənd orta məktəbini, Azərbaycan Dövlət Pedoqoji İnstitutunu, Bakı Ali Partiya Məktəbini bitrmiş, uzun illər mətbuat yayımı sahəsində məsul vəzifələr tutmuşdur. Hazırda "Qasid" ATSC idarə heyəti sədrinin birinci müavinidir. Daha çox xeyriyyəçi kimi tanınır.



**Bayramov Həsən Bayram oğlu.** 1953-cü ildə anadan olmuş, Y.Məmmədəliyev adına Naxçıvan Pedoqoji İnstitutunda baş müəllim, Azərbaycan Beynəlxalq Universitetində prorektor işləmişdir. 1988-ci ildə başlanan milli-azadlıq hərəkatının öndərlərindən, Milli İstiqlal Partiyasının yaradıcılarından biridir. Pedoqoji elmlər namizədi; 100-dən çox elmi məqalənin, 5 elmi metodik proqramın və 1 dərs vəsaitinin müəllifi; N.Tusi adına ADPU-nun dosentidir.

**Bayramov İbrahim Məmməd oğlu.** Filologiya elmləri namizədidir.

**Əhmədov Akif Həbulla oğlu.**1942-ci ildə anadan olmuş, Bakı Dövlət Universitetini və AMEA Coğrafiya İnstitutunun aspiranturasını bitirmiş, dissertasiyasını Moskva Dövlət Universitetində müdafiə etmişdir. Coğrafiya elmləri namizədi, 1 kitabın və 85 elmi məqalənin müəllifi, AMEA Coğrafiya İnstitutunun baş elmi işçisi və bölmə müdiridir.

**Əhmədov Hümeyir Hüseyn oğlu.** 1958-ci ildə anadan olmuş, Azərbaycan Dövlət Pedoqoji İnstitutunu və Azərbaycan Elmi-Tədqiqat Pedoqoji Elmlər İnstitutunun aspiranturasını bitirmiş, bir sıra orta təhsil məktəblərində riyaziyyat müəllimi işləmişdir. Pedoqoji elmlər doktoru, 25 elmi əsərin müəllifi, Pedoqoji Elmlər İnstitutunun aparıcı mütəxəssisidir.

**Əhmədov Şövqi Həbulla oğlu.** 1934-cü ildə anadan olmuş, Bakı Kitabxanaçılıq Texnikumunu və Bakı Dövlət Universitetini bitirmiş, "Bilik" cəmiyyəti Əzizbəyov rayon şöbəsinin sədri, AKP MK nəzdində mühazirəçilər qrupunun üzvü olmuşdur. Tarix elmləri namizədi, 10 monoqrafiyanın müəlifi idi. 1988-ci ildə Ermənistanda türklərə qarşı deportasiyalar başlayarkən qəfil ürəktutmasından vəfat etmişdir.

**Əliyev Yusif Qəmət oğlu.** 1967-ci ildə anadan olmuş, 1992-ci ildə Azərbaycan Tibb Universitetini fərqlənmə ilə bitirmiş və Elmi Şuranın qərarı ilə elə həmin təhsil ocağında müəllim saxlanmışdır. Tibb elmləri namizədi, ATU-nun dosentidir. Xarici ölkələrin elmi nəşrlərində 30-a qədər əsəri çap olunmuşdur.

**Həsənov Vaqif Səməd oğlu.** 1950-ci ildə anadan olmuş, Azərbaycan

Dövlət Pedoqoji İnstitutunu və AMEA-nın Aşqarlar Kimyası İnstitutunun aspiranturasını bitirmişdir. Kimya elmləri doktoru, N.Tusi adına ADPU-nun Tələbə Elmi Cəmiyyətinin sədri, kimya-biologiya fakültəsi elmi şurasının katibi, AR Təhsil Nazirliyinin Elm İdarəsi yanında elmi-metodik şuranın üzvüdür.

**Məmmədəliyev Zakir Qurban oğlu.** 1957-ci ildə anadan olmuş, Azərbaycan Dövlət Pedoqoji İnstitutunun riyaziyyat fakultəsini və AMEA Fəlsəfə İnstitutunun aspiranturasını bitirmişdir. 1987-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetində çalışır. Fəlsəfə elmləri doktoru, 30 elmi məqalənin və 2 monoqrafiyanın müəllifidir.

**Məhərrəmov Əliyənnağı Məhəmmədtağı oğlu.** 1957-ci ildə anadan olmuş, atasından dini təhsil almış, Azərbaycan Dövlət Pedoqoji İnstitutunda oxumaqla yanaşı AMEA Fiziologiya İnstitutunun elmi işçisi olmuş, təhsilini başa vurduqdan sonra doğma kəndlərində müəllim işləmişdir. 1988-ci ildən sonra Bakıda məskunlaşmış, ADPU-nun aspiranturasını bitirmişdir. Pedoqoji elmlər namizədi, dosentdir.

**Məhəmməd Rəşad Toxlucalı-(Muradov Məhəmməd Rəşid oğlu)**. 1927-ci ildə anadan olmuş, Azərbaycan Bədən Tərbiyəsi Texnikumunu və Bakı Dövlət Universitetini bitirmiş, doğma kəndlərində müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. Şair-publisistdir. 2 kitabın müəllifi, Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. 1988-ci il hadisələrindən sonra Bakıda məskunlaşmışdır.

## TÜSTÜLÜ

Göyçə gölünün cənub-şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 8 km. qərbdə, Züldağ aşırımının şərq ətəyində, düzənlik bir ərazidə yerləşmiş bu kənd də erməni mənbələrində əsası XIX əsrin ortalarında ermənilər tərəfindən qoyulmuş yaşayış məskənlərindən biri kimi təsniflənir. Təbii ki, erməni tarixşünaslığı bu iddia ilə çıxış edərkən yalnız və yalnız İ.Şopenin siyahılarına istinad edir və başlıca arqument kimi bu siyahılarda Tüstülü adının olmaması göstərilir. Həqiqətən də Tüstülü adı nə 1826-1829-cu illərdə baş vermiş müharibələr nəticəsində Göyçə mahalında darmadağın edilmiş yurd yerlərinin, nə də Göyçə mahalı yeni yaradılmış erməni vilayətinin idarəçiliynə verildiyi zaman yaşayış üçün yararlı sayılan 59 kəndin siyahısında yoxdur. Amma... Kəndin ərazisindəki XII-XIV əsrlərə aid məzarlıqdakı qəbirüstü kitabələrin qalıqları bu yerlərin binələşdirilməsinin ən azı 1000 illik tarixinə şəhadət verən məd-

Nərimanlı kənd sakini türkləri söyən bir erməni ağır maşınlar arasında qoyub öldürmüşdü. İkinci hadisə isə məhz Tüstülüdə olub: 16 yaşlı türk çocuğu mağazaya gedərkən onu hədələyən ermənilərin dəstəsinə təkbaşına hücüm edərək, onlardan birini bıçaqla yaralamışdı...Beləcə, Tüstülünün əzəli sahibləri 1988-ci ildə dövlət səviyyəsində həyata keçirilən deportasiyaya qədər öz qədim yurdlarında öz sözlərini dedilər...

## UZUNXAÇ

Konkret coğrafi koordinantları bəlli olmadığı üçün, erməni tarixçiləri belə bir kəndin mövcudluğunu israrla inkar etməyə çalışsalar da, hər halda Göyçə hövzəsində Uzunxaç adlı qədim oğuz-alban yurdunun olduğu tarixi gerçəklikdir və bu gerçəklik rəsmi sənədlərlə təsbitlənib. Belə ki, 1723-cü ildə osmanlılar Göyçə hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş və 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış, hazırda Türkiyə Cümhuriyyətinin Başabakanlıq Arxivində saxlanan "İrəvan əyalətinin icmal dəftəri"nin 15-ci səhifəsində Uzunxaç kəndinə dair qeydlər var. O qeydlərdən bəlli olur ki, İrəvan əyalətinin Məzrəə nahiyəsinin inzibati vahidlərindən biri olan bu oba Salaməleyk (Aşağı Şorca) və Adıyaman kəndləri ilə həmsərhəd bir ərazidə yerləşirmiş. Həmin qeydlərdən o da bəlli olur ki, Uzunxaçın sultan xəzinəsinə illik vergisi 6345 ağça həcmində müəyyənləşdirilibmiş. Həmin dövrdə Uzunxaça nisbətən yaxın obalar olan Sarıyaqub kəndinin illik ödəncinin 5787, Seyidlər (Qızıltəpə) kəndinin illik ödəncinin isə 4079 ağça həddində olduğu reallığını nəzərə alsaq, onda qətiyyətlə demək olar ki, hələ XVIII əsrin əvvəllərində Uzunxaç Göyçənin kifayət qədər iri yaşayış məskənlərindən biri imiş. Belə bir kəndin sadəcə qeybə çəkilməsi, yaxud da könüllü olaraq tərk edilməsi barədə mülahizələri ciddi qəbul etmək sadəcə sadəlövhlükdür. Amma o da faktdır ki, nə 1926-1929-cu illər Rusiya-İran, Türkiyə-Rusiya müharibələrinin gedişində Göyçədə viran qoyulmuş, nə də yeni yaradılmış erməni vilayətinin idarəçiliynə verilmiş Göyçə mahalının o zaman yaşayış üçün yararlı sayılan məntəqələrinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahılarında Uzunxaç kəndinin adı yer almayıb. Bundan sonrakı dövrə dair sənədlərdə də bu ada rast gəlinmir. Bütün bu reallıqlardan çıxan məntiqi nəticə isə odur ki, Uzunxaç kəndi 1826-1829-cu illərdə tüğyan etmiş erməni faşizminin qurbanlarından biridir.

Təbii ki, kəndin əzəli sahiblərinin sonrakı taleyi barədə də rəsmi məlumatlar yoxdur. Amma... XX əsrdə Böyük Qaraqoyunludakı tayfalardan

biri və onların kompakt şəkildə məskunlaşdığı məhəllə "Xaçdar" adlanırdı. Bu fakt, eyni zamanda Göyçədə dağıdılmış kəndlərin sağ qalan əhalisinin yaxın obalarda məskunlaşandan sonra doğma ocaqlarının adını məhəllə səviyyəsində əbədiləşdirmə praktikasının mövcudluğu müəyyən qənaətlərə əsas verir. Bu qəbil anoloji faktlardan biri elə Böyük Qaraqoyunluda müşahidə olunmuşdu: 1918-ci il qırğınlarından sonra İrəvan ətrafı kəndlərdən buraya pənah gətirmiş insanlar "irəvanlılar tayfası" kimi təsnifl ənirdi və onların yaşadıqları ərazi də elə "irəvanlılar məhəlləsi" adlanırdı. Bütün bu reallıqlar Böyük Qaraqoyunludakı "Xaçdar tayfası"nın məhz Uzunxaçın sağ qalmış nümayəndələrinin törəmələri olmasını birmənalı şəkildə təsdiqləmək üçün yetərli arqument olmasa da, hər halda tarixi Uzunxaç kəndinin Böyük Qaraqoyunluya yaxınlığı bu yönlü nikbin mülahizələrə əsas verir.

## ÜÇTƏPƏ

Oğuz türkünün qədim yurd yerlərindən biri olan Üçtəpənin adına ilk dəfə XVIII əsr müəllifi Simon İrəvanlının Göyçə gölü hövzəsindəki tarixi abidələrin təsnifatına dair qeydlərində rast gəlinir. Bu qeydlərdə Üçtəpənin dəqiq coğrafi koordinatları göstərilməsə də, təsvirlərdən aydın olur ki, Üçtəpə Göyəm sıra dağlarının şimal başlanğıcında- təpəliklərlə əhatələnmiş bir ərazidə yerləşirmiş və bu obaya yeganə yol Ağapənahlıdan keçirmiş. Üçtəpə ilə bağlı yeganə rəsmi məlumat isə 1826-1829-cu illərdə baş vermiş İran-Rusiya, Türkiyə-Rusiya müharibələri zamanı Göyçə mahalında yerlə-yeksan edilmiş kəndlərdən 67-nin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında yer alıb. Bu siyahıların işlənmə prinsiplərinə istinadən belə nəticəyə gəlmək olar ki, Üçtəpə kəndi həqiqətən də S.İrəvanlının qeydlərindəki təsvirlərə uyğun bir coğrafi mövqedə, Göyçə gölünün şimal-qərbində yerləşirmiş və ərazicə Zeynalağalı, Rəhmankənd, Ağapənahlı kəndləri ilə həmsərd imiş. Vəssalam. Qədim bir türk obasının tarixinə dair rəsmi məlumatlar bununla yekunlaşır. Bundan sonrakı dövrlərə dair sənədlərdə Üçtəpə deyilən ada əsla rast gəlinmir; sanki bu obanın əzəli sakinləri başqa bir planetdən gəliblərmiş və gəldikləri kimi də səssiz-səmirsiz qeyb olublar. O obanın 1826-1829-cu illərdə hansı faciələri yaşadığı, əhalisinin sonrakı taleyi barədə nə erməni mənbələrində, nə də İqrar Əliyevin rəhbərlyi ilə yazılmış, bu gün də məhz o iqrarşünaslıq təlimləri üzərində ucaldılan, "möhtəşəm Azərbaycan tarixi"ndə bircə kəlmə olsun yoxdur. Göyçənin el yaddaşında daşlaşmış bi-

lgilərə görə isə Üçtəpə dağıdıldıqdan sonra onun əhalisinin sağ qalan hissəsi Basarkeçər nahiyəsində, konkret olaraq Sarıyal, Hüseynquluağalı, Böyük Qaraqoyunlu və Bala Qaraqoyunlu kəndləri arasındakı bir ərazidə məskunlaşıblar və yeni obalarını da məhz Üçtəpə adlandırıblar. Amma yeni kəndin sakinlərinin əsasən seyidlərdən ibarət olması və fəaliyyətlərinin də əsasən dini səciyyə daşıması səbəbi ilə yeni Üçtəpə Basarkeçər nahiyyəsinin əhalisi tərəfindən Seyyidlər kəndi kimi təsniflənib. Və bu kənd 1926-cı ilə, bolşevik maskası arxasında gizlənmiş daşnaklar sovet hökumətinin "din və xurafatla mübarizə" kampaniyası çərçivəsində türkün ziyalılarına qarşı açıq düşmənçiliyə başlayana qədər yaşayıb.

## VƏLİ AĞALI

Göyçə gölünün cənubunda, Aşağı Qaranlıq kəndindən (indiki Martuni şəhəri) 8 km. şimal-şərqdə yerləşmiş bu kəndin ərazisində 1988-ci ilə qədər toxunulmamış qalan V-VI əsrlərə aid məzarlığın və VIII-IX əsrlərə aid məbədin qalıqları Vəliağalının oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 1500 illik tarixinin şəhadətidir. Erməni mənbələrində isə kəndin adına ilk dəfə XIX əsrin əvvəllərinə dair sənədlərdə, rusların istəyi ilə yaradılmış erməni vilayətinin idarəçiliynə verilmiş Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı hesab edilən kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında rast gəlinir. Elə həmin ildən də başlayaraq kəndə Türkiyədən gətirilmiş ermənilərin ilk dəstəsi yerləşdirildiyindən artıq 1831-ci ilə dair sənədlərdə Vəliağalı qarışıq kənd kimi səciyyələnirdi. Bu zaman kənddə 184 nəfər türk və 37 nəfər erməni yaşayırdı. Sonrakı 60 il ərzində isə ermənilərin məskunlaşması xüsusi intensivliklə aparıldığından, 1897-ci ildə demoqrafik balans (əhalinin etnik tərkibi baxımından) ermənilərin xeyrinə kəskin şəkildə dəyişmişdi: türklərin sayının 47 nəfər həddinə qədər azalması müqabilində ermənilərin sayı artaraq 300 nəfər həddini keçmişdi.

1918-ci ildə ermənilər daha bir tarixi cinayətə Vəliağalı kəndində imza atdılar: Andronikin birbaşa fitvası ilə Vəliağalıda məskunlaşmış ermənilər 90 ildən bəri qonşuluq etdikləri insanları- kəndin əzəli sahibi olan türklərin sonuncu nümayəndələri olan 63 nəfərin hamısını vəhşicəsinə qətlə yetirdilər. Vəliağalı toponimi isə, sanki o qanlı faciənin harayçısı kimi daha 17 il yaşadı, Azərbaycan tarixçilərini bu tarixi cinayətlə maraqlanmağa səslədi. Heyhat... Nəhayət, Azərbaycan rəsmi dairələrinin və tarixçilərinin Göyçənin taleyinə biganəliyini yəqinləşdirən Ermənistan

Xalq Komissarları Sovetinin Mərkəzi İcraiyyə Komitəsi qəti hərəkətə keçərək, özünün 3 yanvar 1935-ci il tarixli qərarı ilə Vəliağalı toponimini "Dzoragyuğ" sözü ilə əvəzlədi.

## VƏLİKƏND

Bu kənd barədə də ilk və son rəsmi məlumata 12 aprel 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış, hazırda Türkiyə Cümhuriyyətinin Başbakanlıq Arxivində hifz olunan "İrəvan əyalətinin icmal dəftəri"ndə rast gəlinir. Həmin səndin 16-cı səhifəsindəki müvafiq qeydlərdən bəlli olur ki, Vəlikənd Məzrəə nahiyəsinin inzibati bölgüsünə daxil imiş və onun sultan xəzinəsinə illik vergisi 1888 ağça həcmində müəyyənləşdirilibmiş. Siyahıda kəndlərin sıralanması dəqiq prinsiplər üzrə aparılmadığından kəndin coğrafi mövqeyi barədə qəti fikir söyləmək sadəcə mümkün deyil. Yalnız təxminlərə əsasən belə nəticəyə gəlmək olar ki, Vəlikənd indiki Vardenis rayonunun ərazisi coğrafi mövqedə, indi ölü kənd olan Qazançı kəndi ilə həmsərhəd bir ərazidə yerləşirmiş. Göyçə mahalı erməni vilayətinin iidarəçiliyinə verildikdən sonrakı dövrə aid sənədlərdə isə Vəlikənd adına təsadüf edilmir. Başqa sözlə, Vəlikənd də 1826-1829-cu il müharibələri zamanı yerlə-yeksan edilərək sonradan İ.Şopen tərəfindən "adları unudulmuş ölü kəndlər" qrafasında ümumiləşdirlmiş qədim türk yurdları sırasındadır. Amma İ.Şopenin siyahılarındakı tale oxşarlarının böyük əksəriyyətindən fərqli olaraq, Vəlikənd həqiqətən də bu kollec assesorunun təsnifatına uyğun bir tale- "adı unudulmuş ölü kənd" taleyi yaşadı... Hətta Göyçənin el yaddaşında onunla bağlı hər hansı bir bilgi qalmayıb...

## YANIX

XIX əsrin əvvəllərində baş vermiş İran- Rusiya, Rusiya - Türkiyə müharibələri zamanı erməni-rus hərbi birləşmələrinin Göyçədə yerlə-yeksan etdiyi 108 kənddən 67-sinin İ.Şopen tərəfindən tərtib edilən siyahısında "adları unudulmuş ölü kəndlər" kimi təsniflənmiş qədim türk obalarından biri də Göyçə gölünün cənubunda, indiki Martuni şəhərindən 13 km. şimal-şərqdə, sahilə yaxın bir ərazidə yerləşmiş Yanıx kəndidir. Yeni yaradılmış erməni vilayətinin rəhbərliyi bu kəndin bərpasında maraqlı olmasa da, kəndin əzəli sahibləri XIX əsrin ortalarında doğma ocağa

dönmüş və onu sürətlə abadlaşdırmağa müvəffəq oqlmuşlar ki, bu fakt da məxəzlərdə öz əksini tapmışdır. Belə ki, 1873-cü ilin rəsmi hesabatlarında Nor Bayazid qəzasının yaşayış məntəqələri sırasında Yanıx kəndi də yer alıb və burada 194 nəfər türkün yaşadığı açıq mətnlə göstərilib. 1886-cı ildə kənd əhalisinin sayı 245, 1897-ci ildə 333, 1916-cı ildə 423 nəfər həddində olub.1918-ci ildə nizami daşnak ordusu kənd əhalisini qılıncdan keçirərək, var-dövlətlərini talamışdır. Yanıx kəndində türklərin yaşadığı faciənin miqyası isə 1922-ci ildə bu kəndə dönən qaçqınların verdiyi məlumatdan aydınca görünür: qətliamlardan canını qurtarmağa müvəffəq olanların sayı 63 nəfər imiş ki, onların da bir hissəsi 1918-ci ilin qarlı qış aylarında tələf olub. 1922-ci ildə sovet hökumətinin təhlükəsizlik zəmanətindən sonra Yanıx kəndinin sağ qalmış 37 sakini öz doğma ocaqlarına dönəndə isə artıq kənddə Türkiyənin Alaşkert vilayətindən gətirilmiş 163 erməni yaşayırdı. Otuzuncu illərdə kolxozlaşma bumu yaşananda isə türklərin hamısı qolçomaq kimi sürgünə göndərildi və Yanıx etnik tərkibinə görə sırf erməni kəndlərinin siyahısına salındı. 1948-ci il deportasiyaları zamanı isə Ermənistan hökuməti Yanıx kəndindəki erməniləri Vedibasarda boşaldılmış türk kəndlərinə köçürdü və Ermənistan SSR Ali Sovetinin 15 iyul 1948-ci il tarixli qərarı ilə Yanıx kəndi bir inzibati vahid ktmi ləğv edilərək, ərazisi həmsərhəd erməni kəndləri arasında bölüşdürüldü. Bu, erməni daşnak-bolşevik hökuməti üçün son dərəcə vacib bir addım idi; çünki Yanıx kəndi durduqca 1918-ci ildə törədilimiş daha bir tarixi cinayətin izləri yaşarı olacaqdı. Tarixin üzqarası olan cinayətlərdən yaxa qurtarmağın ən asan yolu isə kəndin güya sivil yolla, sadəcə köçürülməsinin və inzibati vahid kimi ləğv edilməsinin məsuliyyətini öz üzərinə götürməkdir.

## YARPIZLI

(Söyüdlü)

Göyçə gölünün cənub-şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 18 kilometr cənub-qərbdə, dəniz səviyyəsindən 2027 metr hündürlükdə yerləşmiş Yarpızlı kəndinin hazırkı mövqeyindən 100-150 metr şimaldakı xərabəlikləri 1988-ci ilə qədər qalan, V-VI əsrlərə aidliyi və sırf türk memarlığı nümunəsi olduğu şübhə doğurmayan qala bu yurdun oğuz türkləri tərəfindən binələşdirilməsinin azı 1500-1600 illik tarixinə şəhadət verən maddi sübutdur. 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət hüququ əldə etdikdən sonra tərtib olunmuş və 12

aprel 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 16-cı səhifəsində kənd öz əzəli adı ilə - Söyüdlü kəndi kimi, daha dəqiqi, "başqa bir adı Yarpızlı olan Söyüdlü kəndi" təsnifatı ilə təqdim olunur. Həmin qeydlərdən bəlli olur ki, o zaman Yarpızlı (Söyüdlü) kəndi Məzrəə nahiyəsinin inzibati bölgüsünə daxil imiş və sultan xəzinəsinəsinə illik ödənci 5230 ağça həcmində müəyyənləşdirilibmiş.

Erməni mənbələrində isə Yarpızlının adına ilk dəfə 1828-ci ildə, rusların istəyi ilə yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı hesab edilən kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş syahısında rast gəlinir. Rəsmi sənədlərə görə 1831-ci ildə Yarpızlıda 221 nəfər türk yaşamışdır. Sonradan əhalinin sayı artaraq 1873-cü ildə 398, 1897-ci ildə 584, 1914-cü ildə 815 nəfər olmuşdur. 1918-ci ilin dekabrında daşnak ordusu üç günlük mühasirədən sonra özünümüdafiə dəstələrinin müqavimətini qıraraq kəndə daxil olmuş və misli görünməmiş vəhşiliklər törətmişdir. Şahidlərin ifadələrinə görə kəndin 900-ə yaxın sakinindən təxminən yarısı qətlə yetirilmiş, əhalinin əmlakı talanmışdır. 1922-ci ildə doğma yurda qayıdan yarpızlıların sayı 1914-cü ildəki əhalinin üçdə biri həddində olmuşdur: cəmi 336 nəfər. Həmin vaxt kəndə yaşayan ermənilərin sayı 104 nəfər imiş. 1931-ci ilin rəsmi statistikasına görə, türklərin sayı 547, ermənilərin sayı 184 nəfər olmuşdur. Yarpızlının əzəli sahiblərinin bu cür sürətli artımı erməni daşnak-bolşevik hökumətini narahat etməyə bilməzdi və bu naratçılığa elə ilk fürsətdəcə son qoyuldu. 1948-1953-cü illərdə İ.Stalinin razılığı ilə Ermənistanda həyata keçirilən deportasiyanın ilk mərhələsindəcə Yarpızlının türk əhalisi bütünlüklə kənddən çıxırılaraq, əsasən Saatlı və Sabirabad rayonlarına yerləşdirildi ki, onların da böyük bir qismi elə həmin il malyariyadan dünyasını dəyişdi. Sağ qalanlar isə Gədəbəy, Şəmkir, Daşkəsən və Xanlar rayonlarına səpələndilər.Yarpızlı adı isə bu tarixi cinayətdən sonra daha 19 il yaşadı. Ermənistan SSR Ali Sovetinin 25 may 1967- ci il tarixli qərarı ilə Yarpızlı toponimi "Lcavan" sözü ilə əvəzlənmişdir.

***Yarpızlının ünlü yetirmələri:***

**Əliyev Rövşən Nəriman oğlu.** 7 avqust 1972-ci ildə valideynlərinin 1948-ci il deportasiyasından sonra məskunlaşdığı Gədəbəydə anadan olmuş, Bakının Xətai rayonundakı 254 saylı məktəbi bitirmişdi. 1991-ci ildə könüllülər sırasında Qarabağ uğrunda döyüşlərə qatılanda Azərbaycan Dövlət Texniki Universitetinin maşınqayırma fakultəsinin II kurs tələbəsi idi. Qazançı, Muğanlı, Şıxbabalı, Fərrux, Pircamal, Naxçıvanik uğrunda döyüşlərdə iştrak etmiş, 1992-ci il mayın 16-da Abdal-Gülablı yaxın-

lığındakı Keçisğırı yüksəkliyindəki erməni mövqelərinin dağıdılmasında xüsusi rəşadət göstərmişdi. 1992-ci il iyunun 14-də Dəhraz kəndi uğrunda döyüşlərdə qəhrəmancasına həlak olmuş, ertəsi gün Bakıda, Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 1992-ci ıl tarixli fərmanı ilə "AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANI" adına layiq görülmüşdür.

**Aşıq Oruc - Əhmədov Oruc Vəli oğlu.** 1920-ci il martın 19-da anadan olmuş, 1948-ci il deportasiyasından sonra Gədəbəy rayonunda məskunlaşmışdı. Şerləri "Sovet Ermənistanı", "Kommunist", "Sovet kəndi" qəzetlərində çap olunmuş; lent yazıları Azərbaycan Dövlət Radiosunun "Qızıl Fond"una daxil edilmişdir. Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Aşıqlar Birliyi idarə heyətinin üzvü idi. Xidmətlərinə görə 3 medalla təltif olunmuş, "Azərbaycan SSR- in Əməkdar Mədəniyyət Xadimi" fəxri adına layiq görülmüşdü. 1976-cı il iyunun 19-da Gədəbəy rayonunun Zəhmət kəndində qəfil ürəktutmasından vəfat etmişdir.

## YAYCI

Göyçə gölünün şimalında, müasir təsnifatla Ermənistanın Çambarak rayonunu ilə Gədəbəyin sərhəd zolağında, Şınıx ərazisindəki erməni Başkəndindən 4-5 km. cənub-şərqdə yerləşmiş bu kənd barədə ilk yazılı rəsmi məlumat 12 aprel 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə verilib. Həmin sənədin 111-ci səhifəsində bu qədim türk obası "Qaramurad kəndi tərəfdəki Yaycı kəndi" təsnifatı ilə təqdim edilir və onun İrəvan əyalətinin Dərəçiçək nahiyəsinin inzibati bölgüsünə daxil olması bildirilir. Müvafiq qeydlərdən o da bəlli olur ki, həmin vaxt Yaycı timar qismində, yəni dövlət yetkilisinin gəlirlərini təmin edən vergi ödəyicisi qismində Yusif Mehmet oğlu Krımski adlı şəxsin istifadəsinə verilibmiş və onun illik ödənci 3000 ağça həcmində müəyyənləşdirilibmiş.

Göyçə mahalının rusların istəyi ilə yaradılmış erməni vilayətinin tabeçiliyinə verilməsinin ilkin dövrünə, yəni 1828- 1831-ci illərə dair sənədlərdə isə Yaycı kəndinin adına rast gəlinmir. Bu real tarixi faktdan çıxan məntiqi nəticə isə odur ki, 1826-1829-cu illərdə baş vermiş İran-Rusiya, Rusiya - Türkiyə müharibələrinin gedişində erməni-rus hərbi birləşmələrinin Göyçə hövzəsində viran qoyduğu və İ.Şopenin siyahılarında məqsədli şəkildə yer almayan, yaxud da "adları unudulmuş ölü kəndlər" kimi təsniflənən 81 qədim türk kəndindən biri də Yaycıdır. Amma bu antibəşəri aksiyalar belə Yaycının əzəli sahiblərinin yurd sevgisini yenmək

gücündə olmayıb və XIX əsrin ortalarında kənd yenidən bərpa edilib ki, bu tarixi reallıq da rəsmi sənədlərdə təsbitlənib. 1873-cü ilə dair rəsmi statistik məlumatlarda Göyçə mahalındakı Yaycı kəndinin adı yer alıb və onun sırf türk əhalisinin 184 nəfər olduğu barədə müvafiq qeydlər aparılıb. 1898-ci ildə bu göstərici 231, 1914-cü ildə 237 nəfər olub. 1918-ci ilin noyabr-dekabr aylarında Başkənd erməniləri rus nizami ordularının köməyi ilə Yaycını yerlə-yeksan etmiş, kəndin bir nəfər sakininə belə aman verməmişlər.

## YUXARI ADYAMAN

Göyçə gölünün cənub sahillərində, indiki Martuni şəhərindən 11 km. cənub-qərbdə yerləşən Yuxarı Adyaman kəndinin adına erməni mənbələrində ilk dəfə XIX əsrin əvvəllərində, rusların istəyi ilə yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı sayılan kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında rast gəlinir. Kəndin ərazisində 1988-ci ilə qədər toxunulmamış qalan VII-VIII əsrlərə aid məbədin və X-XI əsrlərə aid edlən qalanın qalıqları isə oğuz türklərinin bu yerlərdə binələşməsinin azı 1500 illik tarixinə şəhadət verən maddi dəlillərdir. 1831-ci ildə kəndin 343 nəfər türk sakini olsa da, XIX əsrin 50-ci illərində kəndə Türkiyənin Alaşkert qəzasından gətirilmiş 30 erməni ailəsinin yerləşdirilməsindən sonra etnik balans ermənilərin xeyrinə sürətlə dəyişmişdir. 1897-ci ildə kəndin 239 nəfər türk, 192 nəfər erməni sakini olmuşdur. 1918-ci ildə daşnak ordusu kəndin erməni sakinlərinin köməyi ilə türklərə divan tutmuş, əmlaklarını talamış, özlərini isə qovmuşlar. 1922-ci ildə Sovet hökumətinin təhlükəsizlik barədə zəmanətindən sonra Yuxarı Adyamanın əzəli sahiblərindən 56 nəfər doğma yurda qayıtsa da, otuzuncu illərin repressiyaları zamanı onlar kəndi təkrarən tərk etmək məcburiyyətində qalmışlar. Ermənistan SSR Ali Sovetinin 7 dekabr 1945-ci il tarixli qərarı ilə Yuxarı Adyaman toponimi ləğv dillərək, kənd "Verin Qetaşen" adlandırılmışdır.

## YUXARI ALTUNTAXT

Göyçə gölününü cənubunda, Qaranlıq nahiyəsindəki Dəlikdaş kəndindən (indiki Martuni rayonunun Tsakkar kəndi) 17-18 km. cənub-qərbdə, Kəvər nahiyəsindəki Göyçəli Başkəndindən (indiki Kamo rayonunun

Gexarkunik kəndi) 20-22 km. cənub-şərqdə, Aşağı Altuntaxtdan (Altuntaxt Ağbulağından) 2-3 kilometr cənubda, Kamo və Martuni rayonları arasındakı Altundağ silsiləsinin zirvəsində yerləşmiş bu kəndin xərabəlikləri son illərə qədər toxunulmamış qalsa da, o xərabəliklərdəki qalanın qalıqlarının tədqiqi Azərbaycan tarixçilərinin diqqətini nədənsə (!!!) çəkməmişdir. Ermənilər isə, təbii olaraq, ümumiyyətlə onu xatırlamaq və xatırlatmaq niyyətində olmamışlar. Çünki Yuxarı Altuntaxtın xatırlanması daha bir tarixi cinayətin üstünün açılması demək olardı. Ən azı ona görə ki, ermənilərin bu qədim türk obası barədə israrla susmalarına rəğmən, 1826-1829- cu illərdə baş vermiş İran- Rusiya, Rusiya- Türkiyə müharibələrinin gedişində erməni-rus hərbi birləşmələrinin Göyçədə dağıtdığı 108 kənddən 67-sinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında 12-ci sırada məhz Yuxarı Altuntaxtın adı göstərilib. Bundan sonrakı dövrlərə dair rəsmi sənədlərdə isə artıq bu obanın adına rast gəlinmir. Deməli, ermənilərin həyata keçirdikləri qətliamlar zamanı ya bu kənddən ümumiyyətlə sağ qalan olmayıb, ya da ermənilər kəndin bərpasına imkan verməyərək əhalisini digər kəndlərə sığınmaq məcburiyyəti ilə üz-üzə qoyublar. Bu ehtimallardan hansının həqiqətə daha yaxın olduğunu qəti şəkildə söyləmək mümkün olmasa da, bir şeyi tam əminliklə söyləmək mümkündür: Yuxarı Altuntaxt erməni faşizminin qurbanı olmuş türk obalarından biridir və onun yer üzündən silinməsi kimi tarixi bir cinayətin məsuliyyəti mənfur erməni millətinin üzərindədir.

## YUXARI QARANLIX

(Yuxarı Qoranlı - Kiçik Dayə)

Göyçə gölünün cənub-şərqində, Aşağı Qaranlıx kəndindən (indiki-Martuni şəhəri) 4 km. cənub-şərqdə yerləşmiş bu kəndin adına erməni mənbələrində ilk dəfə XIX əsrin əvvəllərində, yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalının o zaman yaşayış üçün yararlı sayılan 59 kəndinin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında rast gəlinir. 1831-ci ilə dair sənədlərdən isə aydınca görününr ki, həmin dövrdə Yuxarı Qaranlıx əhalisinin etnik tərkibinə görə sırf türk kəndi olmuş və burada 213 nəfər yaşamışdır. Sonrakı 42 il ərzində isə Türkiyənin Alaşkert vilayətindən gətirilmiş ermənilərin bu kəndə yerləşdirilməsi hesabına Yuxarı Qaranlıq 1873-cü ilə dair sənədlərdə qarışıq kəndlər siyahısına düşmüşdür: 265 nəfər türk və 126 nəfər erməni. Bundan sonra Yuxarı Qaranlıqda türklərə qarşı repressiyalar mütəmadi xarakter almış-

dır. 1897-ci ildə kənddə etnik balans az qala bərabələşmişdi: 207 nəfər türk və 198 nəfər erməni. 1918-ci ildə erməni daşnak ordusunun Göyçədə həyata keçirdiyi soyqırım siyasəti bu balansın birmənalı şəkildə ermənilərin xeyrinə dəyişməsinə zəmin yaratdı; Yuxarı Qaranlığın əzəli sahibi olan türklər qovuldular, əmlakları isə yüz ildən bəri onlara sığınmış erməni həmkəndliləri tərəfindən talan edildi. 1922-ci ildə sovetlərin təhlükəsizlik barədə zəmanətlərinə baxmayaraq doğma yurda qayıdanların sayı o qədər də çox olmadı. 1918-ci ildə Yuxarı Qaranlıxda ölüm təhlükəsi ilə üz-üzə qalan 254 nəfərdən yalnız 103-ü geri qayıtdı. 1926-cı ildə kənddə yaşayan türklərin sayı artaraq 134, 1931-ci ildə 196 nəfər olmuşdu. Həmin vaxt kənddəki ermənilərin sayı türklərin sayını 2 dəfədn çox üstələsə də, türklərin sayının ilbəil artımı daşnak-bolşevikləri qane etmirdi. Odur ki, repressiyaları bir az da şiddətləndirdilər. 1935-ci ildə Aşağı Qaranlığın adı dəyişirilərək "Martuni" qəsəbəsi adlandırılandan sonra ermənilər Yuxarı Qaranlıx toponiminin məntiqi bir sual doğuracağı reallığını dərk edərək, rəsmi sərəncam olmadan Yuxarı Qaranlıx adına da düzəliş etdilər. 1935-ci ildən sonrakı bütün sənədlərdə, təsərrüfat əhəmiyyətli yazışmalarda kəndin adı sadəcə "Qaranlıq" ( Qaranlıx yox, məhz "Qaranlıq") kimi qeyd olundu. Məqsəd aydın idi: ermənilər bu yolla Göyçədə Qaranlıq adlı yalnız bir yaşayış məntəqəsi olduğu barədə gələcək iddiaları üçün zəmin hazırlayırdılar. Bu məqsədlə hətta "Aşağı Qaranlıx" toponiminin "Martuni" sözü ilə əvəzlənməsinə dair sərəncam da sonradan bütün arxivlərdən itirilmişdi. Amma bu cinayətkar tarix yaradıcıları unudurdular ki, Yuxarı Qoranlının izləri tarixin dərinliklərindən gəlir və XIX-XX əsrlərə dair yazışmaları saxtalaşdırmaqla onun izlərini tarixdən silmək sadəcə mümkün deyil. Belə ki, hələ 1555-ci ilə dair yazışmalarda Yuxarı Qoranlı toponimi yer alıb və eyni adlı kənd Səfəvi-Azərbaycan dövlətinin Çuxur-Səd bəylərbəyliyinin inzibati vahidlərindən biri kimi təsniflənib. 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş və 1728-ci ildə Əhməd şah Məhmət xan oğlu tərəfindən təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə isə bu qədim türk obası "başqa bir adı Yuxarı Qoranlı olan Kiçik Dayə kəndi kimi" səciyyələndirilir. Həmin sənədin 12-ci səhifəsində aparılan qeydlərdən o da bəlli olur ki, həmin vaxt Kiçik Dayə kəndi Göyçə nahiyəsinin inzibati bölgüsünə daxil imiş və onun sultan xəzinəsinə illik ödənci 6214 ağça həcmində müəyyənləşdirilibmiş. Bəli, tarix həmişə öz sözünü deyir və uydurmalara yaşamaq şansı vermir...

Nəhayət, Yuxarı Qaranlığı sırf erməni kəndinə çevirmək planının reallaşması üçün fürsət yarandı: 1948-1953-cü illərdə dövlət səviyyəsində

həyata keçirilən deportasiyaların dalğası Yuxarı Qaranlıxdan da yan keçmədi, kəndin bütün türk əhalisi bir gün ərzində Sabirabad rayonunun ərazisinə köçürüldü. 1956-cı ildən sonra onların bir qismi Əli-Bayramlı şəhərində, bir qismi Şəmkirdə məskunlaşdılar. Lap az hissə isə Ermənistana dönərək Göyçənin müxtəlif kəndlərinə səpələndilər. Qaranlıx toponimi isə kəndin əzəli sahiblərinin sonuncu nümayəndələrinin qovulmasından sonra belə daha 20 il yaşadı və yalnız 1968-ci il iyulun 3-də Ermənistan SSR Ali Sovetinin müvafiq qərarı ilə kənd "Gexovit" adlandırıldı.

## YUXARI ŞORCA

Göyçə gölünün cənub-şərqində, Basarkeçər kəndindən (indki Vardenis şəhəri) 15 km. şərqdə, dəniz səviyyəsindən 2245 metr hündürlükdə yerləşən bu oba mahalın ən qədim yaşayış məskənlərindən biridir. Və bu reallığı nəzərə alaraq erməni mənbələrində toponimlərin qarışdırılması yolu ilə kəndin tarixinin təhrif olunmasına cəhdlər göstərilib. Əslində isə "Yuxarı Şorca", "Baş Keyti" toponimləri, ermənilərin iddia etdiyi kimi eyni bir kəndin müxtəlif dövrlərə aid adları yox, ermənilərin Göyçəni istila etməsinə qədər müstəqil şəkildə mövcud olmuş inzibati vahidlərin bir-birinə dəxli olmayan adlarıdır. Sadəcə ermənilər Baş Keytidə və Yuxarı Şorcada törətdikləri cinayətlərin izini itirmək naminə ənənəvi fəndgirliklərinə əl atıblar. Amma fakt amansız şahiddir və bu qəbil oyunbazlıqların qarşısına keçilməz sədd çəkir. Belə ki, 1828-ci ildə yeni yaradılmış erməni vilayətinin idarəçiliynə verilmiş yaşayış məntəqələrinin siyahısında Yuxarı Şorcanın adı çəkilməsə də, 1873-cü ilə dair sənədlərdə bu kənddə 123 nəfər türkün yaşadığı göstərilir. Bu isə o deməkdir ki, ermənilər 1826-1828-ci illərdə rus hərbi birləşmələrinin dəstəyi ilə dağıtdıqları Yuxarı Şorcanın bərpasına imkan vermək istəməsələr də, kəndin əzəli sahibləri onun yenidən abadlaşdırılmasında israrlı olublar və niyyətlərini reallaşdırmağı bacarıblar. Rəsmi statistikaya görə, Yuxarı Şorcanın türk əhalisinin sayı dinamik şəkildə artaraq 1886-cı ildə 158, 1908-ci ildə 248, 1914-cü ildə 283 nəfər olmuşdur. 1919-cu ilin aprelində daşnak ordusunun Göyçədə törətdiyi qətliamlar zamanı kənd ikinci dəfə dağıdılmış, əhalinin sağ qalan hissəsi Kəlbəcərə, oradan isə Cavanşir qəzasına pənah aparmışdır. 1922-ci ildə doğma yurda dönən Yuxarı Şorca sakinlərinin sayı 204 nəfər olsa da, kəndin bərpası və inkişafı sürətlə getmiş, kənd əhalisinin sayı 1931-ci ildə 495 nəfər həddinə çatmışdır. 1979-cu il siyahıyaalınmasının nəticələrinə görə Yuxarı Şorcanın türk əhalisinin

sayı 1259 nəfər olmuşdur. 1988-ci il deportasiyaları zamanı kənd əhalisi qovulmuş, camaatın və kolxozun əmlakı dövlət səviyyəsində qarət olunmuşdur. Kənddə ermənilərin məskunlaşdırılması planı baş tutmadığından hazırda xarabalığa çevrilmişdir. Kəndin bir inzibati vahid olaraq rəsmən ləğv edilməsi, adının dəyişdirilməsi barədə məlumat yoxdur.

***Yuxarı Şorcanın ünlü yetirmələri:***

**ƏLİ VƏKİL-Səfiyev Əli Vəkil oğlu.** 1939-cu il iyulun 10-da anadan olmuş, Şişqaya kənd orta məktəbini və İrəvan Pedoqoji İnstitutunun fizika-riyaziyyat fakultəsini bitirmişdir. 1968-ci ildən Azərbaycan Curnalistlər Birliyinin, 1972-ci ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü, 13 kitab müəllifidir.

**Abdullayev Vaqif İdris oğlu.** Azərbaycan Dövlət Universitetini və Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını bitirmiş, Azərbaycan Respublikası Prezidentinin Aparatında işləmişdir. Siyasi elmlər doktoru, Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür.

**Abdullayev Zakir İdris oğlu.** Bakı Dövlət Universitetini və Milis Akademiyasını bitirmiş, Bakı şəhərinin müxtəlif rayonlarının hüquqmühafizə orqanlarında bir sıra məsul vəzifələr tutmuşdur. Əlibayramlı şəhər Daxili İşlər İdarəsinin rəisi, polis polkovnikidir.

## YUXARI ZAĞALI

Göyçə gölünün cənub-şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 15 km. qərbdə, dəniz səviyyəsindən 2198 metr hündürlükdə yerləşən Yuxarı Zağalının müasir coğrafi mövqeyindən təxminən 500 metr qərbdəki, eramızdan əvvəlki dövrün ikinci minilliyinin ortalarına aid qalanın qalıqları oğuz türkünün bu yurdda binələşməsinin azı 3500 illik tarixinə şəhadət verən maddi sübutdur. Məhz bu reallıq da erməni alimlərini Yuxarı Zağalı toponimi ilə bağlı çoxsaylı fəndlər işlətməyə məcbur etmişdir və həqiqətin gizlədilməsi məqsədi daşıyan bu təhrifetmə-dolaşdırma oyunbazlığı nə az, nə çox-düz 175 ildən bəri davam edir. Belə ki, hələ XIX əsrin əvvəllərində, yeni yaradılan erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalında yaşayış üçün yararlı məntəqələrin siyahısı tərtib edilərkən ermənilərin təhriki ilə Zağalı adı ilə yalnız bir kəndin adı qeyd olunmuşdur. Əslində isə həmin vaxt Göyçədə Zağalı kimi təsniflənən və bir-birinə dəxli olmayan iki müstəqil inzibati vahid var idi: Aşağı Zağalı və Yuxarı Zağalı. Bu reallığı akademik B.B.Piotrovski də təsdiq-

ləyir. O, vaxtilə liman kimi istifadə olunmuş Aşağı Zağalının ərazisindən başlayan müdafiə bəndinin Yuxarı Zağalı qalasına qədər uzandığını vurğulayaraq 3500 il tarixi olan bu müdafiə istehkamının uzunluğunun 6 km. olduğunu qeyd edir. Aşağı və Yuxarı Zağalı kəndlərinin XX əsrdəki mövqeləri arasındakı məsafə də eynən bu qədərdir və bu reallıq İ.Şopen tərəfindən tərtib edilmiş siyahının həm də siyasi mahiyyət daşıdığına, yəni hərbi cinayətlərin izlərinin itirilməsi məqsədi daşıdığına əyani sübütdür. O da faktdır ki, Ermənistan SSR Ali Soveti özünün 12 avqust 1946-cı il tarixli qərarı ilə Aşağı Zağalı toponimini "Tsovaq", 25 yanvar 1978-ci il tarixli qərarı ilə isə Yuxarı Zağalı toponimini "Axpradzor" sözü ilə əvəzləyib. Bu faktlar isə erməni tarixçilərinin iddialarını (XIX əsrin əvvəllərində Göyçədə yalnız bir Zağalı kəndinin olması barədə) tar-mar edəcək məntiqi suallara vəsilə olur:

-Əgər bu kəndlərdən birinin əsası 1828-ci ildə Turkiyənin Alaşkert qəzasından gəlmiş ermənilər tərəfindən qoyulmuşdusa, onda onun sırf türk toponimi ilə adlandırılmasına nə zərurət vardı?

-Əgər akademik B.Piotrovskinin ermənilərin xeyrinə olan bütün iddiaları qeyd-şərtsiz qəbul edilirsə, onda Yuxarı Zağalı və Aşağı Zağalı adlı qalalara dair mülahizələri niyə süngü ilə qarşılanır?

Təbii ki, bu sualların heç biri heç vaxt cavablandırılmayacaq. Ən azı ona görə ki, ermənilər hələ XIX əsrin əvvəllərində düşündükləri planı- Zağalı kəndlərindən birini yer üzündən ümumiyyətlə silmək planlarını reallaşdıra bilmədiklərinin və bunun məntiqi davamı kimi XX əsrdə Yuxarı və Aşağı Zağalı toponimlərinin dəyişdirilməsi üçün iki dəfə dövlət səviyyəsində qərar qəbul etdiklərinin fərqinə varmaq məcburiyyətindədirlər. Odur ki, ermənilər başqa bir versiya da atıblar ortaya: güya Yuxarı Zağalı Qızılxaraba kəndinin 1828-ci ildən sonrakı adıdır. Bu da növbəti bir hiylə, həm də başqa bir tarixi cinayətin izlərini itirmək cəhdidir. Belə ki, Göyçə mahalında Qızılxaraba kəndi də XIX əsrin əvvəllərinə qədər müstəqil inzibati vahid kimi mövcud olub və bu kəndin indiki Martuni ərazisindəki Əyricə-Qızılxarabasına əsla dəxli yoxdur. Həmin kənd Yuxarı Zağalı və Mollalı kəndləri arasında yerləşib və İran-Rusiya müharibələri zamanı yerlə-yeksan edilərək Şopenin siyahısında "adı unudulmuş ölü kəndlər" qrafasında ümumiləşdirilib. XIX əsrin ortalarında həmin kənd öz əzəli sahibləri tərəfindən təkrar bərpa olunsa da, 1919-cu ilin aprelində daşnak qoşunları onu yenidən dağıdıblar və əhalisinin sağ qalan çox cüzi hissəsi 1922-ci ildə Yuxarı Zağalıda məskunlaşıb. Göründüyü kimi erməni alimləri bir güllə ilə üç hədəfi nişan alırlar: həm Yuxarı Zağalının qədim bir kənd olduğu faktını danmaq, yəni orada mövcud olan qalanın Yuxarı Zağ-

alının əzəli sahiblərinə heç bir aidiyyatı olmadığını sübut etmək; həm Aşağı Zağalıda 1828-1918-ci illər ərzində türklərə qarşı törətdikləri vəhşiliklərdən sığortalanmaq; həm də Qızılxaraba adlı bir kəndi yer üzündən silmələrinin tarixi məsuliyyətindən yayınmaq istəyirlər. Amma...Bu məkrli niyyətə baxmayaraq, fakt öz faktlığında qalır. Və fakt ondan ibarətdir ki, Yuxarı Zağalı oğuz türkkünün 3500 il bundan əvvəl binələşdirdiyi yaşayış məskənidir və ermənilərin 1828-ci ildən başlayan qəsdlərinə rəğmən bu kənddə 1831-ci ildə 298, 1873-cü ildə 515, 1897-ci ildə 774, 1908-ci ildə 917, 1914-cü ildə 1018 nəfər türkün yaşadığı erməni məxəzlərinin özündə də etiraf olunmuş tarixi reallıqdır.

1919-cu il yanvarın 23-27-də dörd günlük mühasirədən sonra hiylə işlədərək danışıq bəhanəsi ilə kəndə daxil olan daşnak qoşunlarının burada törətdyi cinayətlər də rəsmi sənədlərlə təsbit olunub: 311 yaralı və 15 şəhid. Elə həmin vaxtdan başlayaraq Muş vilayətindən gətirilmiş ermənilərin Yuxarı Zağalıda məskunlaşdırılmasına start verilir. 1922-ci ildə sovet hökumətinin təhlükəsizlik barədə zəmanətinə baxmayaraq, gəlmə ermənilərlə bir kənddə yaşamaq istəyən Yuxarı Zağalı sakinlərinin sayı çox cüzi olur. 1919-cu ildə doğma yurdundan didərgin salınan mindən çox qaçqından yalnız 206 nəfər qayıdır. Bu zaman kəndə yerləşdirilmiş ermənilərin sayı artıq 397 nəfər idi. Bununla belə Yuxarı Zağalının əzəli sahibləri ermənilərlə açıq mübarizədən çəkinməyərək, doğma ocaqlarını sürətlə abadlaşdırır, artıb çoxalırdılar. Bu səbəbdən də 1948-ci ildə dövlət səviyyəsində həyata keçirilən deportasiya zamanı bolşevik-daşnaklarının ilk növbədə boşaltmaq istədikləri qədim türk obalarının siyahısına Yuxarı Zağalı da düşdü və kəndin əzəli sakinlərinin mütləq əksəriyyəti doğma ocağından didərgin düşdü. Əhali əsasən aran rayonlarına köçürülsə də, Yuxarı Zağalı sakinlərinin bir qismi 1953-cü ildən sonra kompakt şəkildə Gədəbəy rayonuna, 1919-cu il qaçqınlığı zamanından burada məskunlaşmış qohumlarının yanına; cüzi bir hissəsi isə yenidən Yuxarı Zağalıya qayıtdı. Ermənilərin Yuxarı Zağalı uğrunda 170 illik mübarizəsinin son akkordu isə 1988-ci ilin noyabr deportasiyası oldu; bu zaman kənddəki türklərin sayı 450-500 nəfər həddində idi.

***Yuxarı Zağalının ünlü yetirmələri:***

**Vəliyev Sabir Yadigar oğlu.** Biologiya elmləri namizədidir.

**Həsənov Qəhrəman Hüseyn oğlu.** Kimya elmləri namizədidir.

**Məmmədov Yunis Qəzənfər oğlu.** İrəvan Dövlət Pedoqoji İnstitutunu bitirmiş, uzun illər N.Tusi adına Azərbaycan Dövlət Pedoqoji İnstitutunda çalışmış, Türkiyə Respublikasının bir sıra universitetlərində dərs demişdir. Ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edir: Azər-

baycan milli-azadlıq hərəkatının öndərlərindən, Azərbaycan Qaçqınlar Cəmiyyətinin yaradıcılarından, həm də ilk rəhbərlərindən biridir. 5 kitabın, bir neçə monoqrafiya və dərs vəsaitinin, 100-dən çox elmi məqalənin müəllifi; filologiya elmləri doktoru, professordur.



**Hümbətov Akif Hümbət oğlu.** 1961-ci il avqustun 25-də anadan olmuş, 1984-cü ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını, 1996-cı ildə Beynəlxalq San-Marino Universitetinin hüquq fakultəsini, 2002-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət və hüquq" fakultəsini bitirmiş; 1984-1996-cı illrədə Azərbaycan Respublikası Quşçuluq Sənayesi Birliyində çalışmış, müxtəlif təsərrüfatlarda baş mühəndis, direktor vəzifələri tutmuş; 1996-1997-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının hüquqşünası olmuş; 1997-1999-cu illərdə Azərbaycan Respublikası Dövlət Əmlak Komitəsində şöbə rəisi işləmişdir. 1999-cu ildən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin işlər idarəsinin rəhbəridir.

**Məmmədov Nurəddlin Nəcəf oğlu.** Texniki elmlər namizədidir.

## ZAR

Erməni mənbələrində Göyçədə nə vaxtsa mövcud olmuş Zar kəndi haqqında bircə kəlmə olsun belə məlumat yoxdur. Və nə qədər qəribə olsa da, Azərbaycan tarixşünaslığı da bu barədə israrla susur. Amma erməni tarixşünaslarının məqsədyönlü, onların azərbaycanlı həmkarlarının isə təslimçi susqunluğuna rəğmən əlahəzrət fakt öz ucalığında qalır: Zorqala (Zarqala, ermənilərin təbirincə isə "Mtribi-dzor") minilliklərin dərinliyindən baş qaldıraraq Azərbaycan tarixşünaslığının iki əsrlik təslimçi susqunluğuna da, erməni tarixçilərinin min illik cinayətkar təhrifetmələrinə də meydan oxuyur.

Kənizər kəndindən (İndiki Kamo şəhəri) təxminən 2 kilometr cənubda yerləşmiş Zorqala memarlıq həllinə görə Kəvər çayının sağ sahilindəki II Qışlaq qalasını xatırladır. Qalanı şimal və şərq tərəfdən iri qayalardan ibarət təkqat divarlar, divarlardan sonra isə dairəvi şəkilli, yanları və tağları daşla hörülmüş yeraltı qazmalar əhatələyir. Cənub və qərb istiqamət isə sərt sıldırım qayalıqlardan ibarətdir. Erməni "tarixçisi" E.Lalay-

an hələ 1906-cı ildə Zorqalada qazıntılar aparsa da, bu barədə erməni tarixində heç bir məlumata rast gəlinmir. Yalnız XX əsrin 30-cu illərində akademik B.Piotrovski qalanı tətdiq etdikdən, qalanın təyinat etibarı ilə Kəvər qalasının (Xalda şəhərinin) mühafizəsində köməkçi element funksiyası daşıdığı barədə qəti fikir söylədikdən və burada nə vaxtsa qazıntılar aparıldığını, bir sıra kitabələrin kəsilərək götürüldüyünü kütləviləşdirdikdən sonra erməni elmi məcmuələrində, son dərəcə qısqanclıqla da olsa, Lalayanın qazıntıları barədə məlumat verildi; amma ermənilər qalanın adını olduğu kimi işlətməyərək onu "Mrtbi-dzor" kimi qələmə verdilər.

Bəs ZAR nədir və o özündə nəyi ehtiva edir? Zarlar haqqında ilk yazılı məlumat Babək hərakatı dövrünə aiddir və bu tarixi məlumatlardan aydın olur ki, xürrəmi sərkərdələrinin əsas zərbə qüvvəsi Zar döyüşçülərindən ibarət olmuşdur. XII əsr müəllifi Səmani isə öz dövründə belə ərəblərə qarşı döyüşkən mövqe tutmuş "zar" tayfaları haqqında məlumat verərək bildirir ki, onların adət-ənənələri xürrəmilərin adət- ənənələrinin eynidir. Elə həmin müəllif öz qeydlərində birmənalı şəkildə göstərir ki, "zar" sözünü ərəbcə "zaer" kəlməsinin təhrif olunmuş forması kimi qəbul etmək yanlışlıqdır; "zar"lar haqqında məlumatlar məzdəkilikdən də xeyli əvvələ təsadüf edir və çox böyük ehtimalla Zərdüştiliklə bağlıdır. Bəs zarları Babəkə bağlayan hansı amil idi? Bu suala birmənalı cavab vermək, zar tayfaları ilə Babəki islama münasibətlərinin birləşdirməsi barədə hökm vermək, bəlkə də həqiqətə ən yaxın ehtimaldır. Amma bir maraqlı məqam da var ki, onu da diqqətdən yayındırmaq olmaz. XIII əsrdə yaşamış Vartapet adlı bir müəllif özündən əvvəlki alban mənbələrinə istinadən yazdığı "Ümumi tarix" kitabında göstərir ki, "Süniyin... şimal sərhəddi Göyçə idi. Babək bu nahiyəni çalıb-çapdı və yerli əyanlardan birinin qızını aldı...". Başqa bir mənbədə isə göstərilir ki, Babəkin arvadına "Doxtəri-Gəldaniyə", yəni "Xaldeyin qızı", yəni "Xalda allahının qızı" deyirlərmiş. "Xalda" eramızdan əvvəl Hürrilərin  öz baş allahlarına verdiyi ad idi və onlar məhz Xalda Allahının şərəfinə qala tikmişdilər. Adətə görə qaladakı qızlardan biri Allaha pay olaraq toxunulmamış saxlanılırdı...Akademik B.Piotrovski isə birmənalı şəkildə sübuta yetirib ki, qədim Xalda şəhəri qədim Uluqullar çarlığının ərazisindəki, konkret olaraq Kənizər kəndindəki (indiki Kamo şəhəri) qaladır. Hansı nəticə hasil olur bu faktlardan? Belə çıxır ki, sirli SAF AĞ ELMİnə uyğun olaraq Xaldanın qızı Babəkə verilmiş və Allahın qızını qoruyan döyüşkən zarlılar onun mühafizə dəstəsində xidmət etmişlər. Təbii ki, bu, qəti fikir deyil, sadəcə zar tayfaları ilə bağlı həqiqətlərin üzə çıxarılmasına yönəlik bir mülahizədir. Amma razılaşaq ki, düşünməyə əsas verən mülahizədir. Bu mülahizələrin həqiqətə nə dərəc-

ədə yaxın, yaxud uzaq olmasından asılı olmayaraq, Zorqalanın- Zar kəndinin mövcudluğu faktdır və bu fakt rəsmi sənədlərlə təsbitlənib. Belə ki, 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş və 12 aprel 1728-ci ildə Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tüğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 12-ci səhifəsində Göyçə nahiyəsinin inzibati vahidləri sırasında 18-ci kənd kimi Zarın adı göstərilib və onun sultan xəzinəsinə illik ödəncinin 3220 ağça həcmində müəyyənləşdirilməsi barədə müvafiq qeydlər aparılıb. Həmin sənəddən o da bəlli olur ki, Zar kəndi Kənizərlə (Kəvər) həmsərhəd bir coğrayi mövqedə yerləşirmiş.

Erməni vilayətinin təşkilindən sonrakı dövrə aid olan heç bir sənəddə isə ZAR kəndinin adı yoxdur. Bu isə o deməkdir ki, ermənilərin 1826-1829-cu ildə məqsədyönlü şəkildə yerlə-yeksan etdikləri, sonradan bərpasına imkan verməyərək "adları unudulmuş ölü kəndlər" qrafasında ümumiləşdirdikləri qədim türk yurdlarından biri də məhz ZAR kəndidir.

## ZEYNALAĞALI

Göyçə gölünün qərb sahilində, indiki Sevan şəhərindən 5 km. cənüb-şərqdə yerləşmiş bu kəndin ərazisində tarixi mədəniyyət abidəsi kimi qorunan qaladan tapılmış və eramızın birinci minilliyinin əvvəllərinə aid olduğu elmi cəhətdən təsdiqlənmiş daş kitabələr; həmçinin XX əsrin 50-ci illərində Ermitac ekspedisiyasının apardığı qazıntılar zamanı aşkarlanaraq Zod qızılından hazırlandığı rəsmən sübuta yetirilmiş III-IV əsrə aid bəzək əşyaları oğuz türkünün bu yerlərdə binələşməsinin ən azı 2000 illik tarixinə şəhadət verən maddi sübutlardır. Erməni mənbələrində isə Zeynalağalının adına ilk dəfə XIX əsrin əvvəllərinə dair sənədlərdə, yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçəhövzəsində o zaman yaşayış üçün yararlı hesab edilən kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında rast gəlinir. 1831-ci ilə dair sənədlərə görə erməni vilayətinin tərkibinə qatıldığı zaman Zeynalağalının sırf türklərdən ibarət 423 nəfər əhalisi olmuşdur. 1873-cü ilə və bundan sonrakı dövrlərə dair sənədlərdə isə Nor Bayazid qəzasınının inzibati vahidləri arasında Zeynalağalı kəndinin adına rast gəlinmir. Bu tarixi reallıqdan doğan məntiqi nəticə birmənalıdır: Zeynalağalı kəndi 1831-1873-cü illər aralığındakı "nisbi sakitlik" dövründə dağıdılmışdır. Hansı səbəbdən? 2000 illik bir tarixi və XIX əsin əvvəllərində əhalisinin sayına görə Göyçə mahalının ən iri yaşayış məskənlərindən biri olan bir yurd yerinin xoşluqla tərk edil-

məsi, yaxud əhalinin əsrlərlə yığdığı sərvəti, qurub-yaşatdığı ocağı sadəcə atıb getməsi ehtimalı sıfra bərabərdir. Səbəbi yalnız erməni vilayəti ideoloqlarının yürütdüyü siyasətdə və həyata keçirdikləri repressiv tədbirlərdə axtarmaq gərəkdir. Amma təəssüf ki, nə erməni mənbələrində, nə də "iqrarşünaslıq elminə" çevrilmiş Azərbaycan tarixşünaslığında Zeynalağalıda baş vermiş hadisələrin təfərrüatına işarə ola biləcək bircə fakt belə yoxdur. Məlum olan yeganə fakt 423 nəfər əhalisi ilə birlikdə ermənilərin ixtiyarına verilmiş bir türk obasının "qeybə çəkilməsi" və izinin itirilməsi naminə onunla bağlı bütün dəlillərin gizlədilməsidir ki, bu tarixi cinayətin də məsuliyyəti təkcə ermənilərin yox, eyni zamanda onların havadarı olan xristian dünyasının, ilk növbədə Çar Rusiyasının rəsmilərinin üzərinə düşür.

## ZƏRZİBİL

Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 15 km. şimal-şərqdə, dəniz səviyyəsindən 2112 metr hündürlükdə yerləşmiş bu kəndin cənub-şərqindəki oğuz kurqanlarının qalıqları onun qədim tarixi barədə mülahizələrə tam mənada əsas verir. Kəndin şimalındakı "yanmış təpələr"də aparılan arxeoloci tədqiqatlar nəticəsində məlum olmuşdur ki, hələ eramızın əvvəllərində, 1500-1800 il bundan öncə Zod mədənlərindən şaxta üsulu ilə çıxarılan qızıl məhz bu ərazidə filizdən təmizlənmiş və emal olunmuşdur. Erməni mənbələrində isə Zərzibilin adına ilk dəfə XIX əsrin əvvəllərində, 1828- ci ildə rusların istəyi ilə yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı hesab edilən kəndlərin İ.Şopen tərəfindən tərtib edilmiş siyahısında rast gəlinir. Rəsmi sənədlərə görə bu zaman Zərzibildə 202 nəfər türk yaşamış və əhalinin sayı dinamik templə artaraq 1873-cü ildə 462, 1897-ci ildə 754, 1914-cü ildə 1005 nəfər olmuşdur. 1919-cu il aprelin 13-20-si aralığında daşnak qoşunlarının Göyçədə törətdikləri qətliamlar zamanı digər kəndlər kimi Zərzibil də talanlara məruz qalmış, kənd tam mənada dağıdılmış, əhali məcburiyyət qarşısında Kəlbəcər rayonuna və Cavanşir qəzasının müxtəlif nahiyələrinə pənah aparmışdır. Zərzibilllilərin 1919-1922-ci illər ərzində yaşadığı faciələrin miqyasını isə sovet hökumətinin təhlukəsizlik barədə rəsmi bəyanatından sonra kəndə qayıtmış əhalinin sayına dair rəsmi statistikaya əsasən təsəvvür etmək olar: cəmi 581 nəfər, yəni faciədən əvvəl kənddə yaşayan əhalinin təxminən 40 faizi. Amma bu müsibətlər Zərzibilin əzəli sahiblərini doğma yurda bağlayan

müqəddəs telləri qıra bilmədi və onlar kəndi sürətlə bərpa etdilər.1931-ci ildə kənd əhalisinin sayı artıq 808 nəfərə çatmışdı. Və təbii ki, qədimiliyi şübhə doğurmayan, min illərdən bəri bu obanın şəriksiz sahibi olmuş bir elatın bu qəbil sürətli inkişafı ermənilərı narahat etməyə bilməzdi... Ermənistan Xalq Komissarları Soveti Mərkəzi İcraiyyə Komitəsinin 3 yanvar 1935-ci il tarixli qərarı ilə Zərzibil toponimi "Zərkənd" kəlməsi ilə əvəzlənsə də, bu qərar yalnız 1969-cu il iyun ayının 11-də, Basarkeçər rayonunun adı dəyişdirildikdən sonra açıqlandı. Kəndə qarşı repressiyalar isə bununla bitmədi, Zərzibil "qolçomaqlara qarşı mübarizə"dən də, "xalq düşmənlərinin ifşası" kampaniyasından da, ziyalılara qarşı açıq təqiblər kampaniyasından da əziyyət çəkdi. Amma bütün bunlara baxmayaraq, inkişaf etdi, böyüdü. 1979-cu il siyahıyaalınmasının nəticələrinə görə Zərzibilin əhalisinin sayı 1798 nəfər idi. 1988-ci ilin noyabrında Ermənistan hökumətinin birbaşa rəsmi Moskvanın himayədarlığı ilə həyata keçirdiyi deportasiya zamanı Zərzibil 4 şəhid vermiş- 1932-ci il təvəllüdlü İsaqov Qədim Səməd oğlu, 1936-cı il təvəllüdlü Babayev Nəriman Şahəmməd oğlu, 1937-ci il təvəllüdlü Allahverdiyev Şəmsəddin İman oğlu və 10 yaşlı İsmayılova Fəxrəndə Mehralı qızı aldıqları fiziki xəsarətlərdən həlak olmuş, əhalinin sağ qalan hissəsi Azərbaycanın müxtəlif bölgələrinə və keçmiş SSRİ-nin müxtəlif regionlarına səpələnmiş, kəndin əmlakı Ermənistan hökuməti tərəfindən qarət edilmişdir. Ermənistan Respublikası parlamentinin 9 aprel 1991-ci il tarixli qərarı ilə ermənilərin özlərinin 1935-ci ildə uydurduqları "Zərkənd" adı da dəyişdirilmiş və 2000 illik tarixə malik qədim bir türk obası olan Zərzibil "Kut" adlandırılmışdır.

***Zərzibilin ünlü yetirmələri:***

**Aşıq Şirin-Şirin Məhərrəm oğlu.** 1874-cü ilin baharında anadan olmuş, atasından dini, Aşıq Ələsgərdən ozanlıq dərsi almış, zəmanəsinin qüdrətli sənətkarları ilə dostluq etmişdir. 1918-1920-ci illərdə Zərzibil özünümüdafiə dəstəsinin fəallarından olmuşdur. 1937-ci ildə doğma kəndində vəfat etmişdir.

**Aşıq İdris-Məhərrəmov İdris Şirin oğlu.** 1894-cü ildə anadan olmuş, atasından aşıqlıq dərsi almış, zəmanəsinin ən qüdrətli saz-söz ustadlarından biri kimi tanınmış, şerləri İrəvanda çıxan "Qızıl şəfəq" qəzetində dərc olunmuşdu. 1944-cü ildə sovet-alman cəbhəsində itkin düşmüşdür. Zəngin ədəbi irsi qalmışdır.

**Nəbiyev Namiq Xanəli oğlu.** 1968-ci ildə anadan olub, Bakıdakı kimya-biologiya təmayüllü internat məktəbi və Azərbaycan Tibb Universitetini bitirib. 1996-2001-ci illərdə 3 saylı Vərəm Dispanserinin baş hə-

kimi işləyib, paralel şəkildə elmi araşdırmalar aparıb. 2002-ci ildə dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi alıb. Hazırda 3 saylı Şəhər Kliniki Xəstəxanasının yoluxucu xəstəliklər şöbəsinin müdiridir.

**Şirinov Şükür Şikar oğlu.** 1967-ci ildə anadan olub. Bakıdakı kimya-biologiya təmayüllü internat məktəbi və Azərbaycan Dövlət Pedoqoji İnstitutunun hərbi hazırlıq fakultəsini bitirib. 1999-2001-ci illərdə Ağsu, 2001-2003-cü illərdə Hacıqabul rayonunun hərbi komissarı işləyib. Hazırda Ağcabədi rayonunun hərbi komissarı, Azərbaycan Milli Ordusunun polkovnik-leytenantıdır.

**Bayramov Ramiz Bəxtiyar oğlu.** 1970-ci ildə anadan olub. 1994-cü ildə Azərbaycan Tibb Universitetini fərqlənmə diplomu ilə bitirmiş və elə həmin il müsabiqə yolu ilə ATU-nun onkologiya kafedrasına klinik-ordinaturaya daxil olmuşdur. Klinik-ordinaturanı bitirdikdən sonra 1996-1997-ci illərdə İstanbul Universitetinin İstanbul Tibb Fakultəsinin nəzdindəki Hepatopankreatobiliar Mərkəzdə ixtisaslaşma keçmiş, 1997-ci ildə ATU-nun onkologiya kafedrasına aspiranturaya qəbul olunmuş, 2000-ci ildə namizədlik dissertasiyasını vaxtından əvvəl müdafiə etmişdir. 2003-cü ildə Rusiya Tibb Elmləri Akademiyasının Onkoloci Elmi Mərkəzinin "Torakoabdominal şöbə"sində ixtisaslaşma keçmişdir. Pankreatoduodenal zona şişlərinə görə radikal cərrahi əməliyyatları Azərbaycanda ilk dəfə o aparmışdır. Tibb elmləri namizədi, 30 elmi əsərin, o cümlədən abdominal onkologiyaya həsr olunmuş 1 kitabın müəllifi, ATU-nun onkologiya kafedrasının assistenti, respublikanın baş cərrahının müavinidir.

**Bayramov Rasim Bəxtiyar oğlu.** 1972-ci ildə anadan olmuşdur. Orta təhsilini valideynlərinin 1988-ci il deportasiyasından sonra müvəqqəti məskunlaşdığı Xanlar şəhərindəki 4 saylı orta məktəbdə tamamlamış, 1991-ci ildə Azərbaycan Tibb Universitetinə daxil olmuşdur. 1992-ci ildə universitetlərarası müqavilə əsasında, təhsilini davam etdirmək üçün Türkiyə Cümhuriyyətinə göndərilmiş, 1997-ci ildə İstanbul Universitetinin Çapa Tibb Fakultəsini müvəffəqiyyətlə bitirdikdən sonra Cerrahpaşa Tibb Fakultəsinin radiodiaqnostika şöbəsinə qəbul olunmuşdur. 2002-ci ildə təhsilini başa vuraraq radiodiaqnostika uzmanı kimi vətənə dönmüşdür. 10-dan çox elmi əsərin müəllifi, AR Səhiyyə Nazirliyi Mərkəzi Klinik Xəstəxanasının əməkdaşıdır.

**Nəbiyev Əfran Xanəli oğlu.** 1974-cü ildə anadan olub. Bakıdakı kimya-biologiya təmayüllü internat məktəbi və Bakı Dövlət Universitetini bitirib. Goranboy Hərbi Komissarlığında ikinci şöbənin rəisi, Azərbaycan Milli Ordusunun kapitanıdır.

**Səmədov Arzu Həbib oğlu - ARZU SƏMƏDBƏYLİ.** Orta məktəbi qızıl medalla, Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu fərqlənmə ilə bitirib. 1988-ci ildə başlayan milli-azadlıq hərəkatının fəallarından biri, Müsavat Partiyası başqanının müavinidir.

**Səmədov Aqil Həbib oğlu-AQİL SƏMƏDBƏYLİ.** Türkiyə Cümhuriyyətində təhsil almışdır. Azərbaycanda 1988-ci ildə başlamış milli-azadlıq hərəkatının fəallarından, demokratik hərəkatın öndərlərindən biridir.

**Hənifəyev Şahbaz Cəmşid oğlu.** Tibb elmləri doktoru, AR Səhiyyə Nazirliyi Onkoloci Mərkəzinin baş həkimidir.

**Hənifəyev İsmayıl Cəmşid oğlu.** Baytarlıq elmləri namizədidir.

**Həziquliyev Əli Sevindik oğlu.** Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirmişdir. Azərbaycanda 1988-ci ildə başlamış milli-azadlıq hərəkatının fəallarından biri, "Elçi" qəzetinin yaradıcısı və baş redaktorudur.

## ZOD

Göyçə gölünün şərqində, Basarkeçər kəndindən (indiki Vardenis şəhəri) 10 km. şimal-şərqdə, dəniz səviyyəsindən 2016 metr hündürlükdə qərarlaşmış bu kənd ümumən oğuz türklərinin ən qədim yaşayış məskənlərindən və Göyçənin tarixində müstəsna rolu olmuş kəndlərdən biridir. Kəndin coğrafi mövqeyindən irəli gələn strateci əhəmiyyəti və ərazisindəki zəngin qızıl yataqlarının açıq mədən üsulu ilə işlənmə imkanları hələ ta qədimdən bu yerə marağı artırmışdır. XX əsrin ortalarında burada aparılmış qazıntılar zamanı aşkarlanmış şaxtaların eramızdan əvvəlki birinci minilliyin ortalarına aid olması, Göyçə gölünün cənub-qərbində arxeoloci tədqiqatlar zamanı aşkarlanmış, eramızdan əvvəlki II-III əsrə aid bəzək əşyalarının məhz ZOD qızılından hazırlanmasının elmi cəhətdən sübuta yetirilməsi Zodun azı 3000 illik tarixinə şəhadət verən maddi sübutlardısa; kənd ərazisindəki III-V srlərə aid yurd yerlərinin və oğuz məzarlığının xərabəlikləri Zodun hələ 1500 il öncə sənaye və mədəniyyət mərkəzi rolu oynamasını, müxtəlif yerlərdən müxtəlif məqsədlərlə gəlmiş insanların kəndə yaxın ərazilərdə məskən salaraq, burada yaşayıb-yaratmasını təsdiqləyən faktlardır. Zodun qədim tarixinə şəhadət verən maddi dəlillərlə yanaşı çoxsaylı yazılı məlumatlar da mövcuddur. 428-ci ilə aid olduğu artıq elmi təsdiqini tapmış sənədlərdən birində Göyçə gölü hövzəsindəki ZOD XANƏDANIndan söhbət açılır. Hansı yollasa Matenadarana düşmüş bu sənəddə Zod dövlətinin kiminsə nəzarətində olması barədə bircə kəlmə belə qeyd olunmasa da, erməni tarixçiləri həmin Zod xa-

nədanının Arşakilər hakimiyyəti dövründəki inzibati vahidlərdən biri olduğu barədə iddia irəli sürüblər və o iddiaya görə, güya o tarixi sənəddə "SOTK" kəlməsi müəllifin xətası ucbatından "ZOD" kimi işlənib. İddianın absurdluğu elə özündən bəllidir: V əsr müəllifi o zaman dövləti olmayan bir millətin- ermənilərin "tarixi adları"nı hansı məntiqlə təhrif etməliydi və ümumiyyətlə V əsr müəllifi XIX-XX əsrlərdə cərəyan edəcək siyasi proseslərə hansı əsasla müdaxilə etməliymiş. Belə bir fikri söyləmək xəstə təxəyyül təzahüründən savayı bir şey deyil... Və ermənilərin nə danışmasından, nəyi necə yozmasından asılı olmayaraq əlahəzrət fakt bütün əsassız iddiaları yenmək qüdrətindədir. Zod məsələsi də bu baxımdan istisna təşkil etmir. Zodun müasir coğrafi ərazisindəki qədim məzarlıq oğuz kultunun, III-IV əsrlərə aid məbəd alban mədəniyyətinin, X-XII əsrə aid sənduqələrin qalıqları islam mədəniyyətinin izlərini yaşadır. Amma bu ərazilərdə erməni mədəniyyətinin izinə işarə ola biləcək bir nişanə belə yoxdur... 1555-ci ilə dair yazışmalarda isə Zod kəndi Səfəvi-Azərbaycan dövlətinin Qarabağ (Gəncə) bəylərbəyliyinin inzibati vahidlərindən biri kimi təsniflənir. 1578-ci ildə Sultan III Murad səfəviləri yenərək Azərbaycan torpaqlarının bir qismini, o cümlədən Göyçə hövzəsinin şərqindəki kəndlərdən bir neçəsini ələ keçirdikdən sonra tətbiq edilmiş inzibati bölgüyə əsasən Zod kəndi Ordubad qəzasının Zar nahiyəsinin ərazisinə daxil edilmişdi ki, bu tarixi reallıq da 1590-cı ildə tərtib olunmuş "İrəvan əyalətinin müfəssəl dəftəri"nin 326-cı səhifəsində müvafiq qeydlərlə təsdiqlənir. 1595-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndəki qeydlərdən isə bəlli olur ki, Sultan III Muradın hakimiyyəti illərində Zod kəndi timar qismində, yəni dövlətin səlahiyyətli nümayəndələrinin gəlirlərini təmin edən vergi ödəyicisi qismində Vəli Bayram oğlu, Əhməd İlyas oğlu, Əli Mustafa oğlu, Hacı Abdin oğlu adlı şəxslərin istifadəsinə verilibmiş. Əlavə olaraq, Damğa və Cahanşah kəndlərindən vergi alan Dürri İsgəndər oğlu adlı şəxsin gəlirlərinin bir qsmi də Zod kəndinin vergiləri hesabına ödənirmiş. Tımar şəkilli verginin 20000 ağça həddində olduğunu və həmin dövrdə 3-4 kəndin bir tımarı ödədiyini nəzərə aldıqda qətiyyətlə demək olar ki, XVI əsrin sonlarında Zod kəndi Göyçə hövzəsinin ən iri və ən abad yaşayış məskəni imiş. 1723-cü ildə osmanlılar Göyçə gölü hövzəsinə tam nəzarət imkanı əldə etdikdən sonra tərtib olunmuş və 1728-ci il aprelin 12-də Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənmiş "İrəvan əyalətinin icmal dəftəri"nin 16-cı səhifəsində aparılmış qeydlərdə isə Zod kəndi İrəvan əyalətinin Məzrəə nahiyəsinin inzibati vahidlərindən biri kimi təsniflənir və onun birbaşa sultan xəzinəsinə xas şəkilli ödəncinin 7214 ağça həcmində müəyyənləşdirildiyi göstərilir.

Erməni mənbələrində isə Zodun adına ilk dəfə XIX əsrin əvvəllərində, 1828- ci ildə yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə hövzəsində o zaman yaşayış üçün yararlı hesab edilən kəndlərin İ.Şopen tərəfindən tərtib olunmuş siyahısında rast gəlinir. Rəsmi məlumatlara görə, Zod həmin vaxt, əhalisinin etnik tərkibi etibarı ilə sırf türk kəndi idi və burada 425 nəfər yaşayırdı. 1873-cü ildə kənd əhalisinin sayı artaraq 905, 1897-ci ildə 1584, 1914-cü ildə 1988 nəfər olmuşdur. Maraqlı cəhət isə odur ki, Zodun inkişafı təkcə əhalinin say artımı ilə səciyyələnmirdi. Hələ 1885-ci ildə Zodda mədrəsə ilə yanaşı müasir tipli məktəb fəaliyyət göstərirdi və bu məktəbin bütün xərclərini öz üzərinə götürmüş Səmənd ağa* kəndin yüksək dini təhsillə yanaşı avropa təhsili almış ziyalılarının- Mirzə Əsgər*, Mirzə Bəylər* və Hacı Əliş Ağanın* təqdimat verdiy istedadlı gənclərin Rusiyanın və Avropanın ən mötəbər ali təhsil ocaqlarında oxumasına şərait yaradır, onların təhsil məsrəflərini ödəyirdi. Elə həmin nurlu şəxsiyyətlər "Mola Nəsrəddin" dərgisinin Göyçədə yayılmasını da təşkil etmişdilər. Təbii ki, ermənilər bu cür hərtərəfli inkişafın, XX əsrin əvvəllərində Zodun ümumən Nor-Bayazit qəzası türkləri üçün mədəniyyət mərkəzinə və qeyri-rəsmi inzibati mərkəzə çevrildiyinin fərqində olmaya bilməzdilər. Odur ki, 1918-ci ildə Göyçədə qətliamlar planını həyata keçirmək niyyətinə düşən ermənilər Zoda xüsusi diqqət yetirdilər. Amma Andronikin ən məhşur sərkərdəsi Sulikovun 1918-ci ilin dekabrındakı həmləsi bir nəticə vermədi, Zod mərdliklə müqavimət göstərdi. Həmin döyüşlərdə ermənilər yüzlərlə itki versə də, Zodun özünümüdafiə batolyonundan cəmi bir nəfər-Məcid Süleyman oğlu şəhid oldu, 4 nəfər isə ağır yaralandı. Bundan az sonra Səmənd Ağanın təşəbbüsü ilə Göyçə kəndlərinin özünümüdafiə dəstələrinin gücləri birləşdirildi. Ermənilər 1919-cu ilin martında Zoda növbəti həmlə zamanı Göyçə kəndlərinin birləşmiş qüvvəsi ilə üz-üzə qaldılar və... Sulikov öldürüldü, yüzlərlə daşnak qırıldı, qalanlar isə qaçıb dağıldılar. Bu döyüşdən sonra ümumən Göyçəni itirmək təhlükəsinin reallığını duyan ermənilər həmişə olduğu kimi hiyləyə əl atdılar və danışıq təklifi ilə Basarkeçərə dəvət olunmuş Səmənd Ağa namərdcəsinə qətlə yetirildi. Səmənd Ağa itkisindən sonra Göyçə müdafiə dəstələri arasında rabitə bir növ pozuldu və bu fürsətdən istifadə edən ermənilər aprelin 13-20-si aralığında Göyçə kəndlərinə, xüsusən də Basarkeçər nahiyəsindəki 22 kəndə divan tutdular. Həmin döyüşlərdə Zod kəndinin 200 sakini şəhid oldu, sağ qalanlar Kəlbəcərə çəkilərək oradan əsasən Cavanşir qəzasının sərhəd kəndlərinə və Gəncəətrafı kəndlərə səpələndilər.1922-1926-cı illərdə kəndə qayıdan qaçqınların sayı rəsmi statistikaya görə 1325 nəfər ol-

sa da, 1931-ci ildə Zod əhalisinin sayı artıq 1599 nəfər idi. Və elə həmin dövrdən etibarən Ermənistanın bolşevik-daşnak hökumətinin Zoda qarşı repressiyalarının yeni gizli dalğası başladı və bu məkrli oyun 1988-ci ilə qədər fasiləsiz olaraq davam etdi. XX əsrin otuzuncu illərində Zodun nüfuzlu adamlarının böyük qismi, 100 nəfərdən çox savadlı adam müxtəlif bəhanələrlə həbs olunaraq sovet repressiya maşınının məngənəsində məhv edildi. 1945-ci ildən sonra isə qızıl mədənlərinin işlənməsi bəhanəsi ilə Zodun qarışıq yaşayış məntəqəsinə çevrilməsi yönündə məqsədyönlü iş başladı. 1948-1953-cü illərdə İ.Stalinin havadarlığı ilə Ermənistan türklərinə qarşı həyata keçirilən deportasiya zamanı Zod əhalisinin yarısı Azərbaycan SSR-in Xanlar və Daşkəsən rayonları ərazisinə köçürüldü, əvəzində isə Zodun ərazisində yeni salınmış qəsəbəyə 1000 nəfər erməni və rus yerləşdirildi. Amma Zodun əzəli sahiblərinin mütəşəkkil müqaviməti öz sözünü dedi və 70-ci illərin sonunda artıq Zod yenə də sırf türk kəndlərinin siyahısında idi. Bu zaman artıq Zodun türk əhalisinin sayı 4137 nəfərə çatmışdı və kənddə iki orta məktəb, bir texniki peşə məktəbi, iki fabrik filialı, məişət xidməti mərkəzi, avtomat telefon stansiyası, 10-na qədər müxtəlif təyinatlı mağaza, mədəniyyət evi, klub, xəstəxana, iki aptek fəaliyyət göstərirdi. 1988-ci ildə Ermənistan hökuməti rəsmi Moskvanın birbaşa hərbi yardımı ilə Zod kəndini bir həftə ərzində talanlara məruz qoydu və kənd əhalisi məcburi qaydada Azərbaycan SSR ərazisinə deportasiya edildi. Bu hadisələr zamanı Zod bir şəhid vermiş- 58 yaşlı kənd sakini **Qocayev Teymur Ələsgər oğlu** aldığı xəsarətlərdən həlak olmuşdur. Ermənistan Respublikası parlamentinin 9 aprel 1991-ci il tarixli qərarı ilə Zod kəndi "Sotk" adlandırılmışdır.

***Zodun ünlü övladları:***

- *XIX əsrin ən görkəmli ziyalı- messenatlarından olan Hacı Əliş Ağa, zəmanəsinin sayılan müəllimi Mirzə Əsgər və beş dildə mükəmməl danışan qüdrətli söz ustası Mirzə Bəylərin həyat və fəaliyyəti barədə ətraflı məlumat bu kitabın "Göyçənin maarifçilik ənənələri" bölümündə verilmişdir.*



**Səmənd Ağa - Səmənd Ağa Vəli Ağa oğlu.** Erməni faşizminə qarşı mübarizənin simvoluna çevrilmiş bu tarixi şəxsiyyətin örnək ömür yolu, eləcə də Göyçənin tarixindəki rolu ilə bu kitabın "Dünyanın sinəsinə həkk olunmuş əbədi izlər" və "Ömrünü yurda çıraq etmiş dağdan ağır kişilər" bölümlərində daha ətraflı tanış ola bilərsiniz.



Əmiraslanov Tapdıq



Əmiraslanov Əhliman

**Əmiraslanov Tapdıq Muxtar oğlu.** Göyçə təhsil sisteminin qurulmasında və inkişafında müstəsna tarixi xidmətlər göstərmiş bu nurlu şəxsiyyətin örnək ömür yolu bu kitabın "Göyçənin maarifçilik ənənələri" bölümündə ətraflı işıqlandırılmışdır.

**Əmiraslanov Əhliman Tapdıq oğlu.** Tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, əməkdar həkim, əməkdar elm xadimi, Azərbaycan Tibb Universitetinin rektoru olan bu kamil şəxsiyyətin həyat və fəaliyyəti barədə ətraflı məlumatlar bu kitabın "Göyçə loğmanlar məktəbi" bölümündə verilmişdir.

**Əmiraslanov Surxay Tapdıq oğlu.** 1940-cı ildə anadan olmuş, İrəvan Dövlət Pedoqoji İnstitutunu bitirmiş, N.Tusi adına Azərbaycan Dövlət Pedoqoji İnstitutunun dosenti olmuşdur.

**Əmiraslanov Vaqif Tapdıq oğlu.** Tarix elmləri namizədi, Bakının Yasamal rayonunun təhsil şöbəsinin müdiridir.

**Cəfərov Sayəddin Cəfər oğlu.** Texniki elmlər doktoru, professordur.

**Cəfərov Nəriman Pənah oğlu.** Fəlsəfə elmləri namizədidir.

**Əliyev Əli Adil oğlu.** Biologiya elmləri doktoru, professordur.

**Hacıyev Etibar Firudin oğlu.** 1971-ci ildə anadan olmuş, 1988-ci il deportasiyasından sonra ailəsi ilə birlikdə Xanlar rayonunda məskunlaşmış, 1991-ci ilin oktyabrında Xanlar özünümüdafiə batolyonuna daxil olmuş, Goranboy rayonunun Qışlaq, Buzluq, Mənəş, Erkəc kəndləri uğrunda döyüşlərdə rəşadət göstərmiş, bir döyüşdə təkbaşına 7 erməni quldurunu məhv edərək digər ikisini əsir almış, Aşağı Ağcakənd uğrunda döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992-ci il tarixli fərmanı ilə "AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANI" adına layiq görülmüşdür.

**Hacıyev Firdovsi Bədəl oğlu.** Fizika-riyaziyyat elmləri namizədidir.

**Hacıyev Hafiz Ələmdar oğlu.** Azərbaycan milli-azadlıq hərəkatının öndərlərindən biridir. 1992-1993-cü illərdə-AXC hakimiyyəti dövründə Dövlət Balıqçılıq Komitəsinin sədri, 2003-cü ildə Azərbaycan Respublikası prezidentliyinə namizəd olmuşdur. Kənd təsərrüfatı elmləri namizədi, "Müasir Müsavat" Partiyasının yaradıcısı və ilk sədri, eyni adlı qəzetini sahibidir.

**İsgəndərov Bayram Firudin oğlu.** Biologiya elmləri namizədidir.

**Aydın Murovdağ - Hacıyev Aydın Bəndalı oğlu.** 1963-cü il mayın 22-də anadan olmuş, orta təhsilini Daşkəsəndəki Qazaxyolçular kənd or-

ta məktəbində, ali təhsilini Gəncə Pedoqoji İnstitutunda almış, Xanlar rayonunun müxtəlif məktəblərində direktor, Xanlar rayon təhsil şöbəsinin müdiri, Xanlar rayon İcra Hakimiyyətində şöbə müdiri işləmişdir. 1992-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 2 kitab müəllifidir.

## ZOLAĞAC

Göyçə gölünün cənub-şərqində, Aşağı Qaranlıq kəndindən (indiki Martuni şəhəri) 12 km, şimal-şərqdə, Kələqırandan (indiki Zovinar kəndi) 4 km. cənub-qərbdə qərarlaşmış bu kəndin ərazisindəki, erməni alimlərinin özləri tərəfindən eramızdan əvvəlki dövrün ikinci minilliyinin ortalarına aid edilən qala divarlarının qalıqları Zolağacın oğuz türkləri tərəfindən binələşdirilməsinin 3500 illik tarixinə dair elmi mülahizələrə əsas verən maddi sübutdur. Erməni mənbələrində isə kəndin adına ilk dəfə XIX əsrin əvvəllərinə dair sənəddə, 1828- ci ildə yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilərkən Göyçə hövzəsində yaşayış üçün yararlı hesab edilən kəndlərin İ. Şopen tərəfindən tərtib edilmiş siyahısında rast gəlinir. Rəsmi məlumatlara görə 1831-ci ildə Zolağacın yalnız türklərdən ibarət əhalisinin sayı 128 nəfər olmuşdur. 1873-cü ilə dair məlumatlarda isə Zolağac artıq qarışıq yaşayış məntəqələrinin siyahısında yer alır: 75 nəfər erməni və 153 nəfər türk. Bu tarixdən sonra isə Türkiyədən gətirilən ermənilərin hesabına demoqrafik balans ermənilərin xeyrinə sürətlə dəyişir. 1897-ci ildə kəndin erməni əhalisinin sayı türklərin sayından az qala 3 dəfə çox idi: 286 nəfər erməni və 107 nəfər türk. 1918-ci ildə daşnak qoşunlarının Göyçədə törətdikləri qətliamlar zamanı kəndin əzəli sahiblərinin sonuncu nümayəndələrinin hamısına divan tutulmuşdur. Həmin tarixdə Zolağacda yaşamış 131 nəfər oğuz türkünün başına gətirilən faciənin miqyasını isə 1922-ci ildə qaçqınların dönüşünə dair statistikaya əsasən təsəvvür etmək olar. O statistika isə oğuz türklərinin Zolağacda həqiqətən də dəhşətli faciə yaşadıqlarına şəhadət verir: belə ki, Zolağac 1922-ci ildə bircə nəfər qaçqını qayıtmayan tək-tək kəndlər siyahısındadır. Və buradan belə bir nəticəyə gəlmək olar ki, 1918-ci ilin dekabrında Zolağaclılar ya son nəfərinə qədər qırılmış, ya da sağ qalanlar gördükləri dəhşətin xofundan geriyə dönməyə risk etməmişlər. Bu ehtimallardan hansının həqiqətə daha yaxın olduğunu müəyyənləşdirmək üçün Azərbaycan tarixində və erməni mənbələrində Zolağac faciəsinin təfərrüatına aydınlıq gətirə biləcək bircə işarə belə yoxdur. Bununla belə Zolağac toponimi kənd tam türksüzləşdiriləndən sonra belə daha 17 il yaşamış, Ermənistan Xalq Komissarları Soveti Mərkəzi İcraiyyə Komitəsinin 3 yanvar 1935- ci il tarixli qərarı ilə kənd "Zolakar" adlandırılmışdır.

# YARANIŞDAN ŞƏHİDLİYƏ QƏDƏR

*və ya*

*5000 illik tarixi olan bir yurdun faciəvi taleyi barədə statistik xronologiya*

Eramızdan əvvəlki dövrün birinci minilliyinin başlanğıcında Göyçə artıq dünyanın sivil yaşayış məskənlərindən biriydi. Mixi kitabələrdə verilən məlumatlara görə hələ 3000 il bundan öncə Göyçədə, sözün mütləq anlamında yaşayış məskəni kimi formalaşmış 23 yurd yeri vardı ki, onların da arxeolo;ı tədqiqatlarla təsdiqlənmiş sıralanması belədir: 1. Adaqala. 2.Adıyaman. 3.Ataxan. 4. Ağqala. 5.Ağkilsə. 6.Alçalı. 7.Basatkeçən (Basarkeçər). 8.Dərbənd. 9. Dəlikdaş. 10. Dəliqardaş. 11. Ərgün (Aşağı Zağalı). 12. Ərgəcilli (Cil). 13. Ərgişqala. 14. Əyrivəng. 15.Əliqırıx. 16. Qışlaq. 17. Quləli. 18.Kələqıran. 19. Kənizər (Kəvər). 20. Nərədüzü. 21. Ördəkli. 22. Öyüdöyrət. 23. Zod.

Eramızın əvvəllərində bu obaların sırasına daha 25- i əlavə olunmuşdu: 1. Alparus. 2. Ağbulaq. 3. Ağtala. 4. Ağzıbir. 5. Bəndqala (Bədkal). 7. Buğatəpəsi. 8.Daşkənd. 9. Cacaklıca. 10. Çamırlı. 11. Ərdanuc (Ardanış). 12. Kolanı. 13. Görücüörən (Avdalağalı). 14. Qazanlıqdərə (Gözəldərə). 15. Qamışlı. 16. Qoranlı (Aşağı Qaranlıq). 17. Qorqudus. 18. Qızılvəng. 19. Nuhdamı. 20. Siyaqut (Sarıyaqub). 21. Şorluca (Şorca). 22. Zağalı (Yuxarı Zağalı). 23. Zar. 24. Zeynalağalı. 25. Zolağac.

XIX əsrin əvvəllərində Göyçədəki yaşayış məntəqələrinin sayı ümumilikdə 171 idi ki, 1826-1829-cu illər aralığında baş vermiş İran-Rusiya, Rusiya-Türkiyə müharibələrindən sonra bunlardan yalnız 63-ü yaşayış üçün qismən yararlı kəndlər kimi yeni yaradılmış erməni vilayətinin idarəçiliyinə verilmişdir. Həmin kəndlərin İ. Şopen tərfindən təsdiqlənmiş siyahısı (coğrafi təyinat üzrə sıralanma şərti ilə) belədir: 1. Alparus. 2. Şəhriz. 3. Ördəkli. 4. Bığlıca (Bığlı Hüseyn). 5. Zeynalağalı. 6. Çubuxlu. 7. Rəhmankəndi. 8. Ağqala. 9. Əyrivəng. 10. Qızılcıq. 11. Nərədüzü (Noradüz). 12. Qışlaq. 13. Kəvər. 14. Quləli. 15. Kosa Məmməd. 16. Paşa-

kəndi. 17.Dəliqardaş. 18.Kuzəcik. 19.Başkənd (Göyçəli Başkəndi). 20. Heyranıs. 21.Atamxan. 22.Vəliağalı. 23.Təzəkənd. 24.Dəlikdaş. 25. Göl. 26. Aşağı Adyaman. 27.Yuxarı Adyaman. 28. Avdalağalı (Əbdülağalı). 29. Gözəldərə. 30.Ağçıraq. 31.Aşağı Qaranlıq. 32.Yuxarı Qaranlıq. 33. Zoloğac. 34. Kələqıran (Kolagirən- Kolanlıqırılan). 35. Alçalı (Aşağı Alçalı). 36.Qarasaqqalqışlağı. 37.Yarpızlı. 38.Zağalı (Yuxarı Zağalı). 39. Qızılbulaq. 40.Qırxbulaq. 41.Qanlı Allahverdi. 42. Basatkeçən (Basarkeçər). 43.Qoşabulaq. 44.Aşağı Keyti. 45. Baş Keyti. 46. Yellicə (Göyçə Yellicəsi). 47.Daşkənd. 48.Daş Keyti. 49.Tatlı Qışlağı (Tatul Qışlağı). 50. Zərzibil. 51.Zod. 52.Ağyoxuş. 53.Əyricə. 54.Böyük Məzrə. 55.Bala Məzrə. 56.Kəsəmən. 57.Şişqaya. 58. Cil. 59.Ardanış. 60.Adatəpə. 61. Şor Əli (Şorca). 62. Ağbulaq. 63. Toxluca.

1826-1829-cu il müharibələri öncəsi mövcud olmuş 171 kəndin qalan 108-i isə yerlə-yeksan edilmişdir. İ.Şopen onlardan 67-nin dağıdılmasını açıq mətnlə təsdiqləsə də, bu 67 kənddən də yalnız 27-sinin adını göstərib; qalan 40 kəndi isə "adları unudulmuş ölü kəndlər" kimi təsnifləyib. Amma İ.Şopenin, ermənilər tərəfindən aldadılması səbəbiylə, 108 dağıdılmış kənddən cəmi 27-sinin adını dəqiqləşdirə bilməsinə rəğmən, o kəndlərdən yalnız 54-ü həqiqətən "ölü kənd"ə çevrilərək tarix səhnəsindən silinib. Amma adları unudulmayıb. 1826-1829-cu illərdə erməni vəhşiliyinin qurbanı olaraq yaşamını itirmiş o 54 kənd bunlardır: 1. Adaqala. 2. Ağapənahlı. 3. Allahverdibəyli. 4. Altundağ. 5. Atdaş. 6. Aşağı Altuntaxt. 7. Axsaxtovuz. 8. Ağatəpə. 9. Ağparax. 10. Adıyaman. 11. Ağkilsə-1. 12. Bala Ördəkli. 13. Baş Gözəldərə. 14. Böyük Ağa. 15. Buğatəpəsi. 16. Buzluca (Buzxana). 17. Bəndqala (Bədkal). 18. Cacaklı. 19. Dəmirçiobası (Dəmirçi Poğos). 20. Dərbənd. 21. Dəli Ağacan. 22. Əbulkəndi. 23. Əfəndi. 24. Əlikənd. 25. Əmiryar. 26. Əyricə-1. 27. Ərgişqala. 28. Göyçə. 29. Göyçə (Suaçır Göyçəsi). 30. Göyçə (Deşdik Cəmal Cöyçəsi). 31. Harunlu (Harınca- Dəli Harutyun). 32. Xancığazoğlu. 33. Xatunkəndi. 34. İrəkənd (Bağlıca). 35. İlanlı. 36. İynədir. 37. Kolanı. 38. Görüncə (Gör). 39. Qaramurad. 40. Qaraörən. 41. Qazançı. 42. Qorqudus. 43. Quşçu. 44. Qəməsar. 45. Nuhdamı. 46. Sultanəliqışlağı. 47. Şahaqçı. 48. Şahnəzər. 49. Uzunxaç. 50. Üçtəpə. 51. Hərbənd. 52. Yuxarı Altuntaxt. 53. Vəlikənd. 54. Zar.

1826-1828-ci illərdə erməni-rus hərbi birləşmələrinin səyi ilə dağıdılmış 108 kəndin qalan 54-ü isə XIX əsrin ortalarında öz əzəli sahibləri tərəfindən bərpa olunub ki, onların da siyahısı belədir: 1. Abbasgölü. 2. Ağtala. 3. Ağcaqala. 4. Ağkilsə. 5. Ağzıbir. 6. Babaca (Babacan). 7. Bala Qaraqoyunlu. 8. Böyük Qaraqoyunlu. 9. Cayəhməd (Canəhməd). 10. Çaxırlı. 11. Çamırlı. 12. Dərə. 13. Əhmədli. 14. Əyricə-2. 15. Ərgün (Aşağı

Zağalı). 16. Əliqırıx. 17. Gödəkbulaq. 18. Göylük (Göysu). 19. Göyrənis (Göytəpə).20. Hacı Muğan. 21. Hasansu (Həsənkəndi). 22. Hüseynbəyli. 23. Hüseynquluağalı (Nərimanlı). 24. Xartlıq. 25. İməkdağı (İnəkdağı). 26.Karvansaray-1 (Əyriçay Karvansarayı). 27. Karvansaray-2 (Səmənd Ağa Karvansarayı). 28. Karca (Keflicə). 29. Kamilli. 30. Kərimkəndi-1. 31. Kərimkəndi- 2. 32. Kərkibaş. 33. Kəsikbaş. 34. Qamışlı. 35. Qaraiman. 36. Qasımbaşı. 37. Qayabaşı. 38. Qızılvəng. 39. Qızılxaraba. 40. Mədinə. 41. Mollalı. 42. Örkülü. 43. Pəmbək. 44. Siyahqut (Sarıyaqub). 45. Seyidlər. 46. Sətənağac. 47. Subasan (Subatan). 48. Şəraba. 49.Taxca. 50. Taya Qaya. 51. Tüstülü. 52.Yanıx. 53. Yaycı. 54. Yuxarı Şorca.

Beləliklə, yuxarıda təqdim olunmuş siyahılardan da göründüyü kimi, ermənilərin və rusların 1828-1840-cı illərdə Göyçənin əzəli sahiblərinə qarşı bütün vasitələrlə repressiv təzyiqlərinə rəğmən Göyçədə tarixən mövcud olmuş 171 qədim türk obasından 117-si XIX əsrin ortalarında öz yaşam haqqını hifz edə bilmişdi. 1900-cü ildə isə Göyçənin əzəli sahiblərinin məskun olduğu kəndlərin sayı (qarışıq kəndlər də daxil olmaqla) 102 idi. Başqa sözlə, 1850-1898-ci illərdə ermənilər rəsmi Rusiyanın dəstəyi ilə bir kəndi- Şəhrizi tam türksüzləşdirməyə, 14 yaşayış məntəqəsini isə yerlə-yeksan edərək "ölü kəndə" çevirməyə müvəffəq olmuşdular ki, onların da tam siyahısı belədir: 1. Adatəpə. 2. Ağçıraq. 3. Baş Keyti. 4. Bığlı Hüseyn. 5. Daş Keyti. 6. Heyranlı (Heyranıs). 7. Qarasaqqalqışlağı. 8. Qışlaq. 9. Qızılcıq. 10. Paşakəndi. 11. Yellicə (Göyçə Yellicəsi). 12. Tatul Qışlağı. 13. Təzəkənd. 14. Zeynalağalı.

1918-ci ildə qondarma Ararat Respublikası elan olunanda isə Göyçədə türklərin yaşadığı kəndlərin sayı (qarışıq yaşayış məntəqələri də daxil olmaqla) 93 idi. Yəni... XIX əsrin ortalarında türklərin 1826-1829-cu illərdə dağıdılmış kəndlərini bərpa etməklə Göyçə mahalında demoqrafik balansı öz xeyirlərinə sürətlə dəyişməsindən əndişələnən ermənilər həmin əsrin sonlarında 15 kənddə törətdikləri cinayətlərlə kifayətlənməyərək, 1905-1907-ci illərdə Göyçənin daha 3 kəndini- Basarkeçər, Quləli və Nərədüzü kəndlərini tam erməniləşdirmiş, 6 yaşayış məntəqəsini isə yer üzündən silmişdilər ki, XX əsrin birinci onilliyində erməni faşizminin qurbanı olmuş o qədim türk yurdlarının da siyahısı belədir: 1. Əhmədli. 2.Əyricə-2. 3. Əyricə-3. 4. Göytəpə (Göyrənis). 5. Qamışlı. 6. Qasımbaşı.

Yuxarıda diqqət yetirdiyimiz tarixi gerçəklikləri, 1850-1898 və 1905-1907-ci illərdə üst-üstə 20 kəndin dağıdılmasını və 4 kəndin türksüzləşdirilməsini erməni faşizminin ənənəvi təzahürlərindən biri kimi dəyərləndirmək olar. Amma... Burada bir incə məqam xüsusi diqqət çəkir. Türk obalarına qarşı dinc şəraitdə həyata keçirilmiş vandalizm aktları zamanı dağı-

dılan kəndlərin mütləq əksəriyyəti 1826-1829-cu illər aralığında salamat qalan kəndlərdir və o kəndlərin hansının ərazisində 2000-3000 və daha çox tarixi olan abidələr aşkarlanıbsa, onlar dağıdılmadan erməniləşdirilib. Nisbətən yaxın tarixə aid olan kəndlər isə birmənalı şəkildə yer üzündən silinib. Bu, ermənilərin monoetnik dövlət yaratmaq və "böyük erməni xalqı"nın qədim tarixini təsdiqləmək yönündə hələ XIX əsrin otalarından planlaşdırılmış fəaliyyət proqramlarının olduğuna, o prqoramın bütün detallar üzrə dəqiqliklə həyata keçirildiyinə dəlalət edən bir məqamdır.

1918-1919-cu illərdə Andronikin quldur dəstələri Göyçə mahalındakı 93 (qarışıq kəndlər də daxil olmaqla) türk kəndinin, istisnasız olaraq hamısını (hətta ermənilərlə türklərin qarışıq yaşadığı kəndləri də) tam mənada dağıtmışlar və əhalinin erməni qətliamlarından yaxa qurtaran hissəsi doğma yurdunu tərk etmişdir. 1922-ci ildə sovet hökumətinin təhlükəsizlik barədə zəmanətindən sonra isə türklər bu kəndlərin yalnız 65-nə (qarşıq kəndlər də nəzərə alınmaqla) qayıtmışlar. Çünki Ararat Respublikasının mövcudluğu müddətində türk kəndlərinin 10-nu tam mənada yer üzündən silinmişdir: 1.Abbasgölü. 2. Alparus. 3. Çamırlı. 4. Hüseynbəyli. 5. Karvansara-2 (Səmənd Ağa Karvansarası). 6. Kamilli. 7. II Kərimkəndi. 8. Örkülü. 9. Şəraba. 10. Yaycı. Həmin dövrdə 18 kənd isə tam erməniləşdirilmişdir ki, onların da siyahısı belədir: 1. Aşağı Adıyaman. 2. Aşağı Gözəldərə. 3. Ərgün (Aşağı Zağalı). 4. Aşağı Qaranlıq. 5. Atamxan. 6. Çubuxlu. 7. Əyrivəng. 8. Əliqırıx. 9. Gödəkbulaq. 10. Göl. 11. Xartlıq. 12. Kərimkəndi-1. 13. Kəsikbaş. 14. Kosaməmməd. 15. Qırxbulaq. 16. Rəhmankəndi. 17. Vəliağalı. 18. Zolağac. 1922-ci ildən sonra Göyçənin əzəli sahibi olan oğuz türklərinin qayıtdığı kəndlərin (qarışıq yaşayış məntəqələri də daxil olmaqla) tam siyahısı isə belədir: 1. Ağbulaq. 2. Ağcaqala. 3. Ağtala. 4. Ağkilsə. 5. Ağqala. 6. Ağyoxuş. 7. Ağzıbir. 8. Ardanış. 9. Aşağı Alçalı. 10. Aşağı Şorca. 11. Avdalağalı. 12. Babacan. 13. Bala Qaraqoyunlu. 14. Bala Məzrə. 15. Başkənd (Öyüdoyrat). 16. Böyük Qaraqoyunlu. 17. Böyük Məzrə. 18. Canəhməd. 19. Cil. 20. Çaxırlı. 21. Daşkənd. 22. Dəlikdaş. 23. Dəliqardaş. 24. Dərə. 25. Göysu (Basarkeçər nahiyəsindəki bu kənd XX əsrin 30- cu illərində bərpa edilib). 26. Hacı Muğan. 27. Hasansu. 28. Hüseynquluağalı. 29. İnəkdağı. 30. Karvansaray-1. 31. Karça (Keflicə). 32. Kələqıran. 33. Kərkibaş. 34. Kəsəmən. 35. Kəvər. 36. Kuzəcik. 37. Qanlı Allahverdi. 38. Qaraiman. 39. Qayabaşı. 40. Qızılbulaq. 41. Qızılxaraba. 42. Qızılvəng. 43. Qoşabulaq. 44. Mədinə. 45. Mollalı. 46. Ördəkli (Böyük Ördəkli). 47. Pəmbək. 48. Sarıyaqub. 49. Seyidlər. 50. Sətənağac. 51. Subatan. 52. Şişqaya. 53. Şorca. 54. Taxca. 55. Taya Qaya. 56. Toxluca. 57. Tüstülü. 58. Yanıx. 59.

Yarpızlı. 60. Yuxarı Adyaman. 61. Yuxarı Qaranlıq. 62. Yuxarı Şorca. 63. Yuxarı Zağalı. 64. Zərzibil. 65. Zod.

Bəli, 1922-ci ildə sovet hakimiyyəti Ermənistandakı türklərə, o cümlədən Göyçənin əzəli sahiblərinə təhlükəsizlik barədə zəmanət vermişdi. Amma zəmanət erməni faşizminin antiinsani mahiyyətini dəyişmək gücündə olmadı. 1922- 1945-cı illər aralığında Göyçədəki 65 türk obasından daha 16-sı türk səsinə həsrət qaldı; 9 kənd inzibati qərarlarla ləğv edildi, 7 kənd tam erməniləşdirildi. Həmin dövrdə sovet hökumətinin əli ilə inzibati vahid kimi ləğv edilərək dağıdılan kəndlər bunlardır: 1. Ağcaqala. 2. Ağtala. 3. Hasansu (Zoda birləşdirilib). 4. Karvansaray-1 (Əyriçay Karvansarayı). 5. Karça (Keflicə). 6. Qızılbulaq (əhalisi Çaxırlıya köçürülüb). 7. Seyidlər. 8. Taxca. 9. Taya Qaya. Paralel şəkildə türklərdən təmizlənərək sırf erməni kəndlərinin siyahısına salınmış yaşayış məntəqələrinin düzümü isə belədir: 1. Aşağı Alçalı. 2. Avdalağalı. 3. Dəlikdaş. 4. Dəliqardaş. 5. Kələqıran. 6. Yanıx. 7. Yuxarı Adyaman. Beləliklə II Dünya müharibəsindən sonra, qarşıq kəndlər də daxil olmaqla, Göyçənin cəmi 49 kəndində türklər yaşayırdı. 1948-1953-cü illərdə İ.V. Stalinin birbaşa dəstəyi ilə daha 14 kənddən türk izi silindi: 4 kənd inzibati qaydada ləğv edildi, 10 kənd erməniləşdirildi. 1948-1953-cü il deportasiyalarında ləğv edilmiş kəndlər bunlardır: 1. Bala Qaraqoyunlu. 2. Qızılxaraba. 3. Mədinə. 4. Mollalı. Bundan əlavə daha iki kənd, 1918-ci ildə erməniləşdirilmiş Xartlıq və sovet hökuməti illərində erməniləşdirilmiş Yanıx kəndləri də inzibati qaydada ləğv edilərək hər ikisinin əhalisi Vedibasarda boşaldılmış türk kəndlərinə köçürüldü. Həmin dövrdə Göyçədə tam erməniləşdirilmiş 10 kəndin siyahısı isə belədir: 1. Ağqala. 2. Ağzıbir. 3. Başkənd (Öyüdoyrat). 4. Hacı Muğan. 5. Kəvər. 6. Kuzəcik. 7. Qızılvəng. 8. Ördəkli (Böyük Ördəkli). 9. Yarpızlı. 10. Yuxarı Qaranlıq. Amma 1922-1960-cı illərdə Göyçədə türk obalarına vurulan zərbələr bununla bitmirdi; həmin vaxt Kərkibaş, Zod, Qanlı, Çaxırlı kəndlərinin əhalisi qismən köçürülmüş, digər kəndlərdən "könüllü" deportasiyalar müntəzəm xarakterli olmuşdur.

Bununla belə, Ermənistan hökuməti monoetnik dövlət uğrunda gizli mübarizəsini açıq müstəviyə çıxaranda, yəni 1965-ci ildə quldur Andronikin yubileyini dövlət səviyyəsində qeyd edəndə, Göyçədə hələ 35 türk kəndi vardı ki, onlardan da 5-i Çənbərək nəahiyəsində, 30-u isə Basarkeçərdə idi. 1988-ci il deportasiyası zamanı tam mənada türksüzləşdirilmiş o kəndlərin düzümü belədir: 1. Ağbulaq. 2. Ağkilsə. 3. Ağyoxuş. 4. Ardanış. 5. Aşağı Şorca. 6. Babacan. 7. Bala Məzrə. 8. Böyük Qaraqoyunlu. 9. Böyük Məzrə. 10.Canəhməd. 11. Cil. 12. Çaxırlı. 13. Daşkənd. 14. Də-

rə. 15.Göysu. 16. Hüseynquluağalı. 17. İməkdağı (İnəkdağı). 18. Kərkibaş. 19. Kəsəmən. 20. Qanlı. 21. Qaraiman. 22. Qayabaşı. 23. Qoşabulaq. 24. Pəmbək. 25. Sarıyaqub. 26. Sətənağac. 27. Subatan. 28. Şişqaya. 29. Şorca. 30. Toxluca. 31. Tüstülü. 32. Yuxarı Şorca. 33. Yuxarı Zağalı. 34. Zərzibil. 35. Zod.

Bu kəndlərdən beşi- Basarkeçər nahiyəsindəki Böyük Məzrə, Çaxırlı, Tüstülü, Yuxarı Zağalı və Çənbərək nahiyəsindəki Şorca kəndləri hələ 1988-ci ilə qədər qarışıq kəndlərə çevrilmişdi. 1988-ci ildən sonra bu kəndlərdən doqquzu- Şorca, Ardanış, Cil, Pəmbək, Göysu, Ağyoxuş, Ağkilsə, Aşağı Şorca və Yuxarı Şorca inzibati vahid olaraq ləğv edilmiş, Qanlı və Kərkibaş kəndləri isə bir inzibati vahiddə birləşdirilmişdir.

Ümumilikdə isə 1831-ci ilə, yəni Rusiyanın iradəsi ilə qədim türk torpaqlarında erməni vilayətinin yaradılmasına qədər Göyçədə mövcud olmuş 171 kəndin 109-u yer üzündən silinmişdir: 1826-1829-cu illərdə 54, 1850-1898-ci illərdə 14, 1905-1907-ci illərdə 6, 1918-1920-ci illərdə 10, 1922-1945-ci illərdə 9, 1948-1953-illərdə 6 (onlardan ikisi artıq erməniləşdirilmiş kəndlər idi), 1988-ci ildən sonra 10 kənd. Qalan 62 kənd isə adları dəyişdirilərək erməniləşdirilib: 1850-1898-ci illərdə 1, 1905-1907-ci illərdə 3, 1918-1920-ci illərdə 18 (onlardan biri 1948-ci il deportasiyaları zamanı ləğv edilib), 1922-1945-ci illərdə 7 (onlardan biri 1948-ci il deportasiyaları zamanı ləğv edilib), 1948-1953-cü illərdə 10, 1988-ci ildən sonra 25 kənd. Göyçənin bu gün dünyaya erməni kəndləri kimi təqdim olunan həmin 62 kəndi aşağıdakılardır:

1. Ağbulaq- "Çambarak" r. "Ağperek" kəndi (9.IV.1991).
2. Ağqala (Ağkilsə)- "Kamo" r. "Berdunk" kəndi (9.IV.1991).
3. Ağzıbir (Kəməndbulaq)- "Kamo" r. "Lcap" kəndi (7.XII.1945).
4. Aşağı Adyaman-"Martuni" r. "Nerkin Getaşen" kəndi (7.XII.1945).
5. Aşağı Alçalı- "Martuni" r. "Artsvanist" kəndi (27.IX.1968) .
6. Aşağı Gözəldərə (Qazanlıqdərə)- "Martuni" r. "Vartenik" qəsəbəsi (7.XII.1945).
7. Aşağı Zağalı (Ərgün)-"Vardenis" r. "Tsovaq" kəndi (12.VIII.1946).
8. Aşağı Qaranlıq (Qoranlı, Kiçik Dayə)- "Martuni" şəhəri (12.XI.1935).
9. Atamxan- "Martuni" r. "Vardadzor" kəndi (3.VII.1968).
10. Avdalağalı- "Martuni" r. "Vağaşen" kəndi (3.I.1935).
11. Babacan - "Vardenis r. "Qızılkənd" (25.I.1978); "Çantak" kəndi (9. IV.1991).
12. Basarkeçər (Basatkeçən)- "Vardenis" şəhəri (11.VI.1969).
13. Başkənd (Göyçəli Başkəndi)- "Kamo" r. "Gexarkunik" kəndi (4.IV.1946).

14. Böyük Qaraqoyunlu (Cahanşah, Böyük Yengicə)- "Vardenis" r. "Əzizli" (3.I.1935); "Norabak" kəndi (9.IV.1991).
15. Böyük Məzrə- "Vardenis" r. "Mec Masrik" kəndi (9.IV.1991).
16. Bala Məzrə (Məraq)-"Vardenis" r. "Pokr Masrik" kəndi (9.IV.1991).
17. Canəhməd-"Vardenis" r. "Günəşli" (3. VII. 1968); "Kutakan" kəndi (9.IV.1991).
18. Çaxırlı- "Vardenis" r. "Sovetakert" kəndi (25.I.1978).
19. Çubuxlu-"Sevan" r. "Dzovagyuğ" kəndi (3.I.1935).
20. Daşkənd- "Vardenis" r. "Hayrk" kəndi (9.IV.1991).
21. Dəlikdaş- "Martuni" r. "Tsakkar" kəndi (21.VI.1948).
22. Dəliqardaş- "Kamo" r. "Saruxan" kəndi (21.VI.1948).
23. Dərə- "Vardenis" r. "Daranak" kəndi (9.IV.1991).
24. Əyrivəng- "Sevan" r. "Ayrivan" kəndi (1918-1920).
25. Əliqırıx- "Martuni" r. "Astğaqdar" kəndi (3.I.1935).
26. Gödəkbulaq (Kediqarabulaq)- "Vardenis" r. "Qarcaxpyur" kəndi (12.VIII.1946).
27. Göl- "Martuni" r. "Liçk" kəndi (3.I.1946).
28. Hacı Muğan- "Kamo" r. "Tsovazard" kəndi (25.I.1978).
29. Hüseynquluağalı- "Vardenis" r. "Nərimanlı" (15.XII.1948); "Şatvan" kəndi (9.IV.1991).
30. İnəkdağı (İməkdağı)- "Vardenis" r. "Yenikənd" (25. I. 1978); "Tretuk" kəndi (9.IV.1991).
31. Kələqıran (Kolagirən)- "Martuni" r. "Tsovinar" kəndi (3.I.1935).
32. I Kərimkəndi- "Kamo" r. "Tsaxkaşen" kəndi (2.III.1940).
33. Kərkibaş- "Vardenis" r. "Şəfəq" (25.V.1967); "Vanevan" kəndi (9.IV.1991).
34. Kəsəmən (Solaq)- "Vardenis" r. "Bahar" (25.I.1978); "Arpunk" kəndi (9.IV.1991).
35. Kəvər (Kənizər, Kənizək)- "Yeni Bayazid" qəsəbəsi (XIX əsr); "Kamo" şəhəri (13.IV.1959).
36. Kəsikbaş- "Martuni" r. "Lernakert" kəndi (7.XII.1945).
37. Kosaməmməd- "Kamo" r. "Badikyan" kəndi (7.XII.1945).
38. Kuzəcik- "Kamo" r. "Lancaxpyur" kəndi (19.IV.1950).
39. Qaraiman- "Vardenis" r. "Sovetkənd" (25.I.1978); "Kaxakn" kəndi (9.IV.1991).
40. Qayabaşı- "Vardenis" r. "Qeğamabok" kəndi (9.IV.1991).
41. Qırxbulaq- "Vardenis" r. "Aqunk" kəndi (3.I.1935).
42. Qızılvəng- "Vardenis" r. "Çiçəkli" (24.VII.1940); "Makenis" kəndi (25.I.1978).

43. Qoşabulaq- "Vardenis" r. "Şadcrek" kəndi (9.IV.1991).
44. Quləli- "Kamo" r. "Qarmirgyuğ" kəndi (4.VI.1940).
45. Nərədüzü- "Sevan" r. "Noradiz" qəsəbəsi (XIX əsr).
46. Ördəkli (Böyük Ördəkli)-"Sevan" r. "Lcaşen" kəndi (26.IV.1946).
47. Rəhmankəndi - "Sevan" r. "Noraşen" kəndi (4.I.1938).
48. Sarıyaqub (Siyaqut, Sarıyal)- "Vardenis" r. "Çaxqacor" kəndi (9.IV.1991).
49. Sətənağac (Çətən)- "Vardenis" r. "Güney" (3.I.1935); "Arevuni" kəndi (9.IV.1991).
50. Subatan (Yalaqlı)- "Vardenis" r. "Gexakar" kəndi (9.IV.1991).
51. Şişqaya- "Vardenis" r. "Qukariç" kəndi (9.IV.1991).
52. Şəhriz- "Sevan" r. "Geğamavan" kəndi (26.XII.1946).
53. Toxluca- "Çambarak" r. "Draxtık" kəndi (9.IV.1991).
54. Tüstülü- "Vardenis" r. "Tuskulu" kəndi (25.I.1978).
55. Yarpızlı- "Vardenis" r. "Lcavan" kəndi (25.V.1967).
56. Yuxarı Adyaman-"Martuni" r. "Verin Getaşen" kəndi (7.XII.1945).
57. Yuxarı Qaranlıq- "Martuni" r. "Gexovit" kəndi (3.VII.1968).
58. Yuxarı Zağalı- "Vardenis" r. "Axpradzor" kəndi (25.I.1978).
59. Vəliağalı- "Martuni" r. "Dzoragyuğ" kəndi (3.I.1935).
60. Zərzibil-"Vardenis" r. "Zərkənd" (3.I.1935); "Kut" kəndi (9.IV.1991).
61. Zod- "Vardenis" r. "Sotk" qəsəbəsi (9.IV.1991).
62. Zolağac- "Martuni r. "Zolakar" kəndi (3.I.1935).

**P.S.** *Mötərizələrdə kəndlərin adının dəyişdirilməsinə dair rəsmi sərəncamların verilmə tarixi göstərilmişdir.*

# ÖMRÜNÜ YURDA ÇIRAQ ETMİŞ DAĞDAN AĞIR KİŞİLƏR

Göyçədə hər hadisə əfsanələşdirilməz, hər mərdlik nümunəsi qəhrəmanlıq kimi səciyyələndirilməzdi. Çünki mərdlik-mərdanəlik bu yurdun bütün sakinləri üçün xarakterik olan adi davranış tərzi, ibtidai həyat norması idi. Hər kişinin damarlarında Beyrək, hər qadının damarlarında Banuçiçək qanı qaynardı. Hər kişi Qazan xan qədər təmkinli, hər qadın Burlaxatun qədər tədbirli idi Göyçədə. Elə o səbəbdən də adi mərdanəlik nümunəsi sayıla biləcək hərəkətlər kimisə təəccübləndirməz, belə hadisələr xalqın söz yaddaşında əbədiləşməz, zəngin Göyçə folklorunda özünə yer ala bilməzdi, günün mövzusu kimi unudulardı. Göyçənin söz yaddaşında əbədiləşmək haqqının kriteriyaları olduqca ciddi, olduqca sərt idi: o haqqı qazanmaq üçün bütün ömür boyunca ən elementar səhvə belə yol verməmək, həyatını başabaş elə - obaya sərf etmək lazım gəlirdi. QƏHRƏMANLIQ göyçəlilərin anlamında el-oba naminə həyatı ilə, taleyi ilə risq etmək demək idi. Və nə xoş ki, OĞUZ ELİnin bəylərbəyi Bayandurdan başlayan bu yol tarixin heç bir dönəmində yolçusuz olmadı: müqəddəslik zirvəsinə aparan o yoldan Dəlikdaşlı Qaraca, mahalda "Qara toxmaq" ləqəbi ilə məşhur olan Ağzıbirli Yaqub, Ağqalalı Div Heydər, XVI əsrdən etibarən Yengicədə (indiki Basarkeçər rayonunun Böyük Qaraqoyunlu kəndində) məskunlaşmış Ağa Məhəmməd Mirzə Cahan şah oğlunun törəmələrindən olan Gödək Alı və Məşədi Qəhrəman, sovet hökumətinə qarşı vuruşmuş Göyçə qaçaqlarının bir çoxunun ulu babası sayılan Böyük Qaraqoyunlulu Qara Nağı, 1820-1840-cı illər aralığında Rusiya-İran, Rusiya-Türkiyə müharibələri fonunda Göyçəyə ilk erməni qəsdi zamanında bütövlükdə Kəvər nahiyəsini səngərə çevirmiş Atamxanlı Qara Yunus, Rusiyanın səxavəti ilə yaradılmış erməni vilayətinin Nor Bəyazid qəzasının erməni əsilli rus pristavını yuxuya həsrət qoymuş Böyük Qaraqoyunlulu Bayram, erməni xəyanəti nəticəsində zindana salınaraq öldürülmüş qardaşının və 6 həmkəndlisinin qisasını almaq üçün Qaranlığın qlavası (indiki anlamda icra hakimiyyətinin başçısı), əvvəllər muncuq ticarəti ilə məşğul olduğu üçün "muncuqlu Hakop" ayaması ilə məhşur olan Akop Zarkarlinskini (Zərgəryan) qətlə yetirdikdən sonra qanını 7 itə içirdən Əliqırıxlı Qaçaq Mustafa, 1918-1920-ci illərdə daş-

nak ordusuna qarşı rəşadətlə vuruşmuş Toxlucalı Topal Oruc kimi cəmərdlər keçdi. Yurdsevərliyin, el-oba təəssübkeşliyinin zirvəsi, mükəmməl məktəbi sayıla biləcək o yolun ənənələrini Göyçə ərənləri iyirminci yüzillikdə də ləyaqətlə yaşatdılar. O ər kişilərin millətə başucalığı gətirən əməllərinin yaddaşlara köçürülərək gələcəyə əmanətlənməsi həm Göyçənin hələ də tam öyrənilməmiş tarixindəki boşluqların doldurulması, həm də tarixi ədalətin bərpası baxımından zəruridir. Ən azı ona görə ki, Göyçənin tarixində həqiqi mənada izi olan, göyçəlilər qarşısında müstəsna xidmətlər göstərmiş, el-obanı tarixin sərt dönəmlərində imkanları daxilində hifz etmiş, amma bu gün sağ olmamaları, yaxud qohumlarının maddi imkansızlığı səbəbiylə "tədqiqatçı"ların diqqətinə düşməyən əsl el qəhrəmanlarının, əsl el ağsaqqallarının tanınmaq, yaddaşlarda yaşamaq haqqı "yurd həsrəti"ni çörək ağacına çevirən jurnalistlər tərəfindən "Göyçənin el ağsaqqalı" tituluna layiq görülmüş Göyçə əsilli "pullu kişi"lərdən- Göyçədə kolxoz sədri, sovet sədri işlədiyi dövrlərdə Bakıda övladlarına güzəran düzəltmiş qondarma qəhrəmanlardan daha çoxdur. Gənc nəslin Göyçə barədə təsəvvürləri məhz o böyük şəxsiyyətlərin örnək ömürlükləri fonunda formalaşmalıdır ki, o qeyrətli mücahidlərin önündə də, heç şübhəsiz,

## SƏMƏND AĞA



gəlir. Səmənd ağa Göyçənin ən varlı-hallı adamlarından olan zodlu Vəli Ağanın oğlu idi. 1868-ci ildə anadan olan Səmənd ağa taleyin hökmü ilə çox gənc yaşlarında- təxminən 15 yaşında təhsilini yarımçıq qoyaraq, atasının böyük dövriyyəli təsərrüfatını idarə etmək məcburiyyətində qalır. Özünün oxumaq arzuları yarımçıq qalmış gənc Səmənd Ağa niyyətlərini istedadlı həmkəndliləri hesabına həyata keçirmək qərarına gəlir və 17 yaşında olarkən doğma ZOD kəndində öz şəxsi vəsaiti hesabına məktəb açır. Ümumiyyətlə, o, öz müasirləri arasında səxavətli, həlim təbiətli adam kimi xarakterizə olunurmuş. Amma... Səmənd Ağa olduqca sərt, olduqca prinsipial adam imiş: heç kimə, hətta ən yaxın adamlarına belə, ən elementar səhvləri bağışlamazmış. Xüsusən də namus məsələlərində əzazilliyə qədər sərtləşirmiş Səmənd Ağa. Və bu sərtlik 1918-ci ilin noyabr-dekabr aylarında ermənilər Göyçənin cənub-şərq kəndlərində vəhşiliklər törədib əsir qadınlarla qeyri-insani davrandıqdan sonra öz apogeyinə qalxdı: cəmi bir həftə ərzində

Göyçə igidlərini səfərbər etməyə müvəffəq olmuş Səmənd Ağa Selikovun rəhbərlik etdiyi nizami daşnak ordusunu Basarkeçər qəsəbəsi ilə Zod kəndi arasındakı düzənlikdə, "Göy körpü" deyilən ərazidə qarşılayır və döyüşü mahir sərkərdə kimi idarə edərək, 300 nəfərlik nizami erməni qoşununu cəmi 4 saat ərzində son nəfərinədək məhv etməyə müvəffəq olur. Onun mahir sərkərdəliyinə qiymət olaraq Göyçə igidləri əsir alınmış polkovnikin- Selikovun başını məhz onun ayaqları altında kəsməyi özlərinə borc bildilər. Şahidlərin dilindən Göyçənin el yaddaşına süzülmüş söhbətlərə əsasən, adi hallarda bir insanın burnunun qanamasına belə sakit baxa bilməyən Ağa bu erməni vəhşisinin imdad diləyən gözlərinə baxa-baxa qətli son dərəcə soyuqqanlıqla seyr edib. Amma təəssüflər olsun ki, Səmənd Ağa da OĞUZ ELİnin bütün böyük şəxsiyyətləri kimi yalnız MÜTLƏQ KİŞİLİK QANUNU ilə yaşayırdı, hiylə anlayışı ona yad idi və elə bu sadəlövhlüyünün də qurbanı oldu.

"Göy körpü"dəki ağır məğlubiyyətdən sonra ermənilər Səmənd Ağanın rəhbərlik etdiyi müqavimət hərakatı ilə bacarmayacaqlarını anlayaraq, əsl xislətlərini işə saldılar: danışıq təklif etdilər. Şərtə görə danışıqların sakitliyi naminə tərəflər görüş yerinə silahsız və müşaiyətçilərsiz gəlməli idilər və danışıqlarda hər tərəfdən yalnız üç adam iştirak etməli idi. Səmənd Ağa öz kişilik qüruruna tapınaraq şərtə tam mənada əməl etdi. Görüşqabağı məşvərət zamanı danışığa cəmi 3 nəfərin- Ağanın, mahalın ən adlı-sanlı ocaqlarından birinin, eləcə də Göyçə haqq dərvişləri ordeninin ən mötəbər nümayəndəsi daşkəndli Aşıq Nəcəfin, bir də vaxtilə Kəvərdə rus gimnaziyasını bitirərək çar ordusunda xidmət etmiş və bunun müqabilində Göyçə mahalı üzrə hərbi müvəkkil təyin edilmiş KOR TANRIVERDİ ləqəbli şişqayalı Tanrıverdi Məhərrəm oğlunun getməsi qərara alınır. Amma hansı səbəbdənsə təyin olunmuş vaxtda Kor Tanrıverdi gəlib çıxmır və görüşə Ağa ilə Aşıq Nəcəf ikilikdə yollanırlar. Basarkeçərdə güya gizli keçirilən görüşün əvvəlində erməni tərəfdən də 3 nümayəndə olur: keşiş Bağdasar, sonradan Basarkeçərdə böyük bir klana çevrilmiş nəslin böyüyü Martiros Melikyan və Ararat Respublikası deyilən qondarma qurumun səlahiyyətlisi kimi qələmə verilən, adı heç bir yerdə rəsmi olaraq açıqlanmayan bir hərbçi. Danışıqların ilk saatları ərzində olduqca sakit davranan ermənilər Səmənd Ağanın görüşə həqiqətən də mühafizəçilərsiz gəldiyinə tam əminlik hiss etdikdən sonra evi silahlı adamlarla mühasirəyə alırlar və... Ağa ilə köhnə tanışlığından istifadə edərək görüşün baş tutmasında vasitəçilik etmiş ev sahibi- zərgər Ağacan deyilən mənfur erməni silahlanmış vəziyyətdə otağa daxil olaraq Səmənd Ağaya bir şillə vurur. Səmənd Ağa iti fəhmilə vəziyyəti olduqca re-

al qiymətləndirir və çıxış yolu barədə fikirləşmədən, ömrü boyu onun xidmətində dayanmış zərgəri yalın əllə boğmaq üçün irəli atılır... Amma içəri dolan silahlılar ona əl-qol açmağa imkan vermirlər. Məqsəd onu həbs edib camaatın gözü qarşısında eynən Selikov sayaq edam etmək imiş. Səmənd Ağa öz kişilik qüruru ilə erməni mənfurlarının bu planını da alt-üst edir: zərgərin təhqirinə cavab verə bilmədiyi üçün bir neçə saniyə ərzindəcə hirsindən ürəyi partlayaraq dünyasını dəyişir.

Səmənd Ağanın ölümü Göyçə üçün həqiqətən böyük itki idi, xüsusən də tarixin belə bir məqamında. Təbii ki, Ağaya qəsd müəyyən mənada Göyçənin müqavimət gücünə də təsir edir. Ruhdan düşmüş əhali arasında matəm günlərinin sükutundan xoflanıb ev-eşiyini könüllü tərk edənlər də olur, amma bu sükut çox da uzun sürmür. Səmənd ağanın yeddisini adət-ənənəyə uyğun yola verdikdən dərhal sonra ermənilərə qarşı mübarizədə onun ən yaxın köməkçisi və baş məsləhətçisi olmuş

## QARAİMANLI MƏŞƏDİ İSƏ

təşəbbüsü öz üzərinə götürərək, müqavimət hərəkatının mütəşəkkilliyini təmin edir. Əslində Məşədi İsənin buna bir dövlət rəsmisi kimi də haqqı çatırdı. Belə ki, o 1880-ci ildən 1917-ci ilə qədər, Rusiyada çar hakimiyyətinə son qoyulanadək rəsmi olaraq İrəvan quberniyasının Nor-Bəyazid qəzasının Basarkeçər nahiyəsindəki türk kəndlərinin starşinası olmuşdu. Amma Məşədi İsə Göyçə müqavimət hərəkatının önünə bir dövlət rəsmisi kimi yox, el ağsaqqalı, mərd kişi nüfuzu ilə çıxmışdı.

1845-ci ildə Qaraiman kəndində Kərbəlayı Musanın ocağında dünyaya göz açan İsə əvvəl dini, sonra rus dilində gimnaziya təhsili almışdı. Amma 35 yaşında Göyçə kimi qədim ənənələri olan bir mahalda 44 kəndin rəhbəri seçilməsinə səbəb onun təhsili deyildi. Çünki Göyçədə onun müasiri olan, ondan da mükəmməl təhsilli adamlar az deyildi. Məşədi İsəni dövrünün ziyalılarından fərqləndirən onun həm də atıb-vuran igid olması, comərdliyi idi. O rəhbərlik etdiyi kəndləri rus qayda-qanunlarından daha çox kişilik qanunları ilə idarə edirdi. Hələ 1898-ci ildə Türkiyədən ermənilərin Göyçəyə növbəti kütləvi köçürülməsi zamanı məhz Məşədi İsə rəhbərlik etdiyi əraziyə bir nəfər olsun belə erməninin yerləşdirilməsinə imkan verməmiş, zorla yerləşdiriləcəkləri təqdirdə ciddi müqavimətlə üzləşəcəklərini birbaşa bəyanlamışdı. Onun böyük nufuzunun əsas səbəbi də əslində bu idi. Və bu nüfuzla təşəbbüsü öz üzərinə götürən 75 yaşlı bu müdrik insan, sözün həqiqi mənasında öz tarixi missiyasını: 1919-1920-ci illərdə Göyçə müqavimət hərəkatının mənəvi lideri olmaq kimi ağır bir missiyanı ləyaqətlə yerinə yetirdi. Amma nə yazıq ki, bu tarixi şəxsiyyətin əsl dəyərini düşmənlərimiz bizdən yaxşı dərk edirdilər. Onun Selikova qarşı döyüşdə Səmənd Ağaya necə kömək etdiyini,

Səmənd ağadan sonra Göyçə comərdlərini pərən-pərən olmağa qoymayaraq, necə birləşdirdiyini unutmayan ermənilər Məşədi İsəni ilk fürsətdəcə aradan götürdülər: 1924-cü il noyabr ayının 7-də Basarkeçərdən dövlət tədbirindən qayıdarkən, kəndin girəcəyində qətlə yetirdilər. Onda Məşədi İsənin 79 yaşı olub. Amma sinninin o çağında belə ermənilər onunla üzbəüz gəlməkdən çəkiniblər, silahsız olduğunu bildikləri halda üzə çıxmayıblar, arxadan güllələyiblər. Məşədi İsəyə qarşı bu terror o vaxt rəsmən "revkom" (inqilab komitəsinin sədri) vəzifəsi daşıyan, mahalda



QAÇAQ CƏMİL

kimi tanınan el qəhrəmanına qarşı erməni repressiyalarının başlanğıcı idi. Bu da səbəbsiz deyildi. Məşədi İsə Göyçə müqavimət hərəkatının mənəvi lideri olsa da, yadellilərə qarşı mübarizədə Göyçənin vuran əli Qaçaq Cəmil idi. Selikovun başını da şəxsən o kəsib Səmənd Ağanın ayaqları altına atmışdı. Ağanın ölümündən sonra Göyçə igidlərini başına toplayan Məşədi İsəyə ümumi hərəkata başçılıq təklif olunsa da, o özü şəxsən etiraf etmişdi ki, bu vəzifənin öhdəsindən yalnız Cəmil gələ bilər. O vaxt cəmi 26 yaşı olan bir gənc üçün bu çox böyük etimad idi və tarix göstərdi ki, Məşədi İsə seçimində əsla yanılmayıb. Qaraimanda Məşədi İsənin evində keçirilmiş bu məşvərət məclisində mahalın bütün kəndlərindən arvad-uşağın çıxarılaraq ağsaqqalların nəzarəti altında Cavanşir qəzasının dağlıq ərazilərinə yola salınması barədə qərar qəbul olunur. Bu qəti döyüş notası idi. Qaçaq Cəmilin döyüş taktikasına və Səmənd Ağadan fərqli olaraq son dərəcə amansızlığına bələd olan ermənilər hazırlığın miqyasındanca əndişələnərək, Kəvər və Qaranlıq nahiyələrindəki hərbi hissələri də Basarkeçərə yığaraq, aprelin 13-20-si aralığında misli görünməmiş vəhşiliklər törətmişdilər. Döyüş hazırlığına başlamağa imkan tapmamış Qaçaq Cəmilin bu müddət ərzindəki başlıca vəzifəsi sağ qalanların təhlükəsiz yerlərə çatdırılması idi. Sonrakı il yarım ərzində, yəni "Ermənistan SSR" deyilən qondarma erməni dövləti tarix səhnəsinə çıxana qədər onun rəhbərlik etdiyi "Göy qartallar" batolyonu ermənilərin başına od ələdi: hansı kəndə bir erməni yerləşdirildisə, o ətrafda 10-15 erməni Qaçaq Cəmilin gülləsinə tuş gəldi. Bundan ən çox yararlananasa, bolşevik maskası taxmış rus müstəmləkəçiləri oldular: Qaçaq Cəmil kasıbların pənahı kimi inqilab komitəsinin rəhbərliyinə gətiril-

di və 1931-ci ilə, sovet hökumətinə qarşı silahlı qiyama başlayana qədər rəsmən bu vəzifəni daşıdı. Qaçaq Cəmilin sovetlərə qarşı mübarizəsi barədə əvvəlki söhbətlərimizdə məlumat verildiyindən yalnız onu qeyd edək ki, nə ermənilər, nə də sovet maskası arxasında gizlənmiş rus şovinistləri Qaçaq Cəmili cismən məhv etmək planlarını reallaşdıra bılmədilər. Sovet hökumətinin yerli qulbeçələri 1894-cü ildə indiki Basarkeçər rayonunun Bala Qaraqoyunlu kəndində anadan olan Cəmilin 1934-cü ildə Göy Yurd yaylasında qətlə yetirildiyi barədə şaiyələr yaysalar da, onun XX əsrin 60-cı illərinin sonuna qədər Samux, Tərtər, Goranboy ərazisində yaşadığı və bu 30 illik konspirasiya müddətində dəfələrlə Göyçədə olduğu, ermənilərlə kişilik qanunları əsasında haqq-hesab çəkdiyi tarixi reallıqdır.

Göyçə qaçaqlarının daşnak-bolşevik hökuməti əleyhinə silahlı üsyanı amansızlıqla yatırıldıqdan, çoxsaylı həbs və sürgünlərdən sonra ermənilər OĞUZ ELİnin döyüşkənlik ruhunu sarsıtdıqlarını zənn edirdilər və elə bu gümanla da 37-ci ilin "xalq düşməni ovu üzrə dövlət planı"nı birmənalı şəkildə türklərin hesabına doldurmaq niyyətinə düşmüşdülər. Və bir müddət bu mənfur niyyətlərini reallaşdırmağa müvəffəq oldular da. Böyük Qaraqoyunluya növbəti səfərlərində isə



AYDIN MƏMMƏDOV

qətiyyəti ilə üz-üzə qaldılar. Onun cəsarəti qarşısında o dövrün ən dəhşətli repressiya maşını olan NKVD (Xalq Daxili İşlər Komissarlığı) də tablamadı. 1937-ci ildə artıq SSRİ Ali Sovetinin deputatı- böyük sovet imperiyasının ilk parlamentində Ermənistanda yaşayan türklərin təmsilçisi idi Aydın Məmmədov. Ən qəribəsi isə o idi ki, Aydın Məmmədov kommunist olmadan deputat seçilmişdi və elə bu məqam onun taleyində mühüm rol oynadı, öz tarixi missiyasını həyata keçirmək üçün ona əlavə şans verdi. Moskvada birinci çağırış SSRİ Ali Sovetinin birinci sessiyasında ona Sov.İKP üzvü olmaq "tövsiyyə" edildi və Aydın Məmmədov bu təklifin adi bir təklif olmadığını fəhmlə hiss edərək, vəziyyəti düzgün qiymətləndirdi: partiyaya daxil olmaq barədə ərizə yazdı...Və çoxlarının yuxusuna belə gətirmədiyi bir möcüzə baş verdi: İ.V.Stalin partiya biletini ona şəxsən təqdim etdi. Bu, o dövr üçün misilsiz bir şans demək idi. Təbii ki, bu cür gedişlərlə xal toplayan "ellər atası" imkan düşdükcə Ermənistan rəhbərlərindən öz

gənc partiya yoldaşını xəbər alır, sessiyalar zamanı iclaslararası fasilələrdə geniş kütlə qarşısında növbəti təbliğat imkanından yararlanmağa ehtiyac duyanda, şəxsən partiyaya qəbul etdiyi deputatla hal- əhval tuturdu. Stalinin bu cür gedişlərdə öz məqsədinin olduğu bəlli idi: "böyük rəhbər" hər bir vətəndaşla fərdi qaydada maraqlandığı, partiyaya keçməsi üçün zamin durduğu şəxslərin taleyinə biganə olmadığı barədə rəy formalaşdırırdı. Aydın Məmmədov üçünsə rəhbərin bu səxavəti geniş manevr imkanları açırdı. "Yoldaş Stalinin şəxsən partbilet təqdim etdiyi şəxs"in sözünün qarşısına söz qoymaq kimsənin ağlına belə gələ bilməzdi. Taleyin bu qəbil xoş imkanından yararlanan sadə insanlarla bağlı hekayətlər kifayət qədər çoxdur qoca tarixin yaddaşında. Aydın Məmmədov da yetərincə yararlandı bu tale şansından. Amma onun hekayəti anoloci hekayətlərdən köklü şəkildə fərqlənir. Çünki Aydın Məmmədov bu şansdan mütləq mənada kişilik qanunları çərçivəsində yararlanıb, o imkanı başabaş el-obanın xoşbəxtliyinə, milli heysiyyatın qorunmasına, milli ləyaqətin müdafiəsinə sərf edib. Və bunun belə olduğunu tam əminliklə başa düşmək üçün Aydın Məmmədovun örnək ömür yolundan bir neçə məqama ötəri də olsa diqqət yetirmək kifayətdir.

...1941-ci ilin yayında Böyük Qaraqoyunlu ani bir xəbərdən təlatümə gəldi: "NKVD Molla Nəcəfi apardı!" Bu, son dörd ildə ilk belə həyacanlı xəbər idi. Aydın Məmmədov deputat olduğu gündən bu kəndə çekistlərin ayağı dəyməmişdi. İndi, kəndin əksər cavanları müharibəyə gedəndən sonra isə NKVD birdən-birə Böyük Qaraqoyunluda "xalq düşməni" axtarmaq həvəsinə düşmüşdü. Əslində Qaçaq Cəmilin dəstəsinin əsasını təşkil edən igidlərin ata yurdu kimi bu kəndə qarşı inamsızlıq o dövrün ab-havası baxımından məntiqi görünürdü. Amma başqa bir reallıq, Aydın Məmmədovun hətta qonşu Nərimanlıda NKVD-nin əl-qol açmasına imkan verməməsi reallığı Molla Nəcəfin tutulması xəbərini adi bir xəbər kimi qavramağa imkan vermirdi. Həmin gün Aydın Məmmədovun kənddə olmaması isə gümanları min bir yerə şaxələyirdi. Xəbərdən təlaşlanmayan yeganə adam vardısa, o, elə Molla Nəcəfin özüydü. Vaxtilə Şamda ali dini təhsil almış bu nurani insan zəmanənin siyasi ab-havasını təbii instiktlə duyurdu və çox güman 37-nin qara yellərinin onun da qapısını nə vaxtsa döyəcəyini yəqinləşdirmişdi. Məqam indi yetişmişdi: igidləri 4 il sovetlərlə mübarizə aparmış kənddə NKVD-nin erməni çekistlərinin qarşısına çıxacaq bircə yeniyetmə belə qalmamışdı. Molla Nəcəfinsə daha düşmən qabağına çıxası vaxtı deyildi. Odur ki, 80 yaşı arxada qoymuş ixtiyar qoca bu həbsi taleyin qisməti kimi qəbul edərək, sakitcə çekistlərin qabağına düşdü... Qaraqoyunlulardan yanıqlı olan er-

məni çekistlər Aydın Məmmədov rayona qayıtmamış Molla Nəcəfin taleyini həll etməkdə israrlı idilər. Odur ki, digər "xalq düşmənləri"ndən fərqli olaraq Molla Nəcəfi Basarkeçərdə sorğu-suala tutmadan İrəvana yola saldılar... Üç gün idi ki, Molla Nəcəf NKVD-nin zirzəmisində gününü "Quran" oxumaqla keçirir, güllələnməsi barədə hökmün oxunacağı anı gözləyirdi. Əlini hər yerdən üzmüşdü, möcüzə gözləmirdi: yeganə narahatçılığı cəbhəyə yola saldığı oğlu Məhəmmədin 4 uşağı sarıdan idi. Birdən zindanın qara qapısı arxasından tanış səs dəydi qulağına: "Mən sizə göstərərəm əsgər atasını həbs etməyi!". Qulaqlarına inanmaq istəməsə də, bu səs onun, Aydın Məmmədovun səsiydi. 80 il möcüzəyə inanmayan Molla Nəcəfin gözləri önündəcə möcüzə baş verirdi: sovet dövlətinin ən etibarlı adamı- SSRİ kimi qüdrətli bir dövlətin xalq deputatı şərəfinə layiq görülmüş bir insan "sinfi düşmən" olan bir mollanın müdafiəsinə qalxırdı. Molla Nəcəfi təəccübləndirən daha bir məqam vardı: Aydın Məmmədovun nəsli ilə Molla Nəcəfin başçılıq etdiyi ağaməmmədlilər bir-birinə asi kəsilmişdilər, az qala qan düşmənçiliyi səviyyəsində ədavətləri vardı. Amma İrəvanda NKVD-nin zirzəmisində Aydın kişi onu elə səmimi qucaqladı ki, Molla Nəcəf bəlkə də 80 illik ömründə birinci dəfə "düşmən"inin kişiliyindən qürurlandı. Bu, bir tarixi ibrət məqamıdır. Şöhrətin zirvəsində olan bir adam el-oba təəssübkeşliyi naminə öz karyerası ilə, öz taleyi ilə risq edirdi. Amma elə ordaca Molla Nəcəfə son sözünü deməyi də unutmadı: "Sən o kəndin ağsaqqalı, mən rəhbəriyəm. Camaat bizə ümidlidir. Allah qoysa uşaqlar müharibədən qayıdar, haqq-hesabımızı çəkərik." Elə də oldu. Ağaməmmədlilərdən çox az adam qayıtdı müharibədən. Onlardan biri də bu yazının müəllifinin ata babası Abbasəli idi və Aydın kişi onlarla kişi düşmənçiliyi apardı. Hətta bir- birinə güllə atmaq səviyyəsinə qədər şiddətli oldu bu mübarizə. Amma heç kim heç vaxt onların bir-birinə söyüş söyməsini, hədyan deməsini eşitmədi. Bir başqası da yarınmaq üçün nəsə deyəndə, ağzından vurdular. Bax belə kişilər idilər onlar. Vəzifəni qalxan edib məişət zəminli düşmənçilik aparmazdılar. Düşmənçilik məqamı yetişəndə də vəzifənin buxovu onlara mane olmazdı...

Ümumiyyətlə, el-oba təəssübü məsələsində olduqca prinsipial bir insan olub Aydın Məmmədov. Və bunu real bir fakt tam əyaniliyi ilə göstərir: Böyük Qaraqoyunlu nəinki Göyçədə, ümumən bəlkə də keçmiş SSRİ-də yeganə kənddir ki, 1937-1953-cü illər ərzində, yəni Aydın Məmmədovun rəhbərliyi dövründə NKVD bu kənddən bir nəfəri belə xalq düşməni kimi sürgün edə bilməyib. Baxmayaraq ki, bu kənddə az qala hər iki ailədən birinin nümayəndələri sovetlərə qarşı silahlı üsya-

nın iştirakçısı olub. Hətta müharibədən sonra alman əsirliyində olmuş şəxslərə ölkənin hər yerində divan tutulanda, Aydın Məmmədov əsirlikdə olmuş həmkəndlilərini ən ağır sahələrdə işlədib, qırmancdan keçirib, amma heç birinin sürgünə göndərilməsinə imkan verməyib. Ən əsası odur ki, Aydın Məmmədov təkcə özünün rəhbərlik etdiyi kəndi yox, az qala Basarkeçərin türk kəndlərinin yarısını müharibənin aclığından xilas edib. Və bu xüsusda bir ibrət örnəyini xatırlamamaq günah olardı...

1944-cü ildə çörəyin lap qıt vaxtı Kəlbəcərdən bir gəlin Böyük Qaraqoyunluya gəlir və Aydın Məmmədova bir ovuc qızıl verərək, əvəzində bir kisə buğda istəyir. Aydın Məmmədov qızılı əlində sanballayaraq, kabinetinin açıq pəncərəsindən gicirtkənliyə tullayır və deyir: "Balası, əsgər ailəsinə çatacaq çörək pulla-qızılla satılmır". Gəlin ağlaya-ağlaya,- özünün də əsgər ailəsi olduğunu, bu qızıllarınsa qaynanasından qalma pay olduğunu,- deyir. Onda Aydın kişi briqadirə tapşırır ki, gəlin axşama qədər xırmanda işləyəndən sonra ona iki kisə buğda versinlər və özləri araba ilə aparıb evlərinə qoysunlar ki, üstündə qızıl olduğunu bilən hansı bir nadürüstsə onu qarət etməsin. Budur nəfs toxluğunun, zəhmətə qiymət verməyin ali örnəyi!!! O belə bir insan idi və el-oba təəssübkeşliyinin hüdudları öz kəndi, yaxud rayonu ilə məhdudlaşmırdı. 1948- ci ildə "ellər atası Stalin"in birbaşa müdaxiləsi ilə Ermənistan azərbaycanlılarının deportasiyası başlayanda, açıq etiraz bildirənlərdən biri də o oldu. Və bu üsyankarlıq ona ucuz başa gəlmədi. Növbəti seçkilərdə onu Stalinlə görüşmək imkanlarından məhrum edərək, SSRİ Ali Sovetinə deputat seçmədilər. Düzdür, Stalinin ölümünə qədər onunla haqq-hesab da çəkə bilmədilər, respublikanın deputatı kimi ehtiyatla davrandılar onunla. Sonra isə sonsuz təqiblər başlandı və o, uzun illər Kəlbəcər rayonunda işləmək məcburiyyətində qaldı. Amma doğma yurda məhəbbəti bir an da səngimədi. 60-cı illərdə yenə qayıtdı yurda. O zaman övladlarının əksərıyyəti artıq Bakıda yaşasa da, hər birinin atalarına ürəyi istəyən şəraiti yaratmaq imkanı olsa da, Aydın kişi kənddə yaşamağı üstün saydı. Və sona qədər, 1988-ci ilin noyabr faciələrinə qədər qaldı o kənddə. Ömrü boyu çox çətinliklərə dözmüşdü Aydın kişi...Qaçqınlığın möhnətinə, yurd nisgilinə dözə bilmədi: 1994-cü ilin payızında Bakıda dəyişdi dünyasını.

1948-1953-cü illərdə Zod kəndinin, Ağkilsənin, Qaraimanın, Çaxırlının tam köçürülməsini qismən də olsa əngəllədiyinə görə təzyiqə məruz qalan tək Aydın Məmmədov deyildi. Ermənilərin qəzəbinə tuş gələnlərdən biri də SSRİ Ali Sovetinin deputatı ilə birləşərək mərkəzin qərarla-

rının icrasına imkan verməyən Basarkeçər rayon Partiya Komitəsinin birinci katibi

TALIB MUSAYEV

idi. 1908-ci ildə Hüseynquluağalı (Nərimanlı) kəndində dünyaya göz açan Talıb Musayev erməni faşizminin müsibətlərini hələ uşaq ikən yaşamışdı. 1919-cu ilin Göyçə qırğınları zamanı onun ailəsi 5 üzvünü itirmişdi. Atası Qurban kişi də 1921-ci ildə Daşkəsəndə dəyişmişdi dünyasını. Onun el-oba təəssübkeşliyinin ifrat dərəcədə qabarıq olmasını da çox güman ki, uşaqlıqdan yaşadığı vətən həsrəti nisgili stimullaşdırmışdı. Harada çalışmasından asılı olmayaraq, o, yurda gərəkli olmağa, öyrənib-öyrətməyə çalışırdı. Məhz bu çalışqanlığının bəhrəsiydi ki, 28 yaşında o artıq həm ticarət məktəbini, həm rəhbər partiya kadrları məktəbini bitirmiş, həm də praktiki işlərdə müsbət nəticələr əldə etmiş perspektivli gənc kimi Basarkeçər rayon Komsomol Komitəsinin birinci katibi seçilmişdi. 3 il sonra o artıq Basarkeçər rayon Xalq Deputatları Sovetinin sədri, 34 yaşında isə Qarabağlar rayon Partiya Komitəsinin birinci katibi idi. 1946-cı ildə o yenidən doğma yurda döndü: Basarkeçər rayon Partiya Komitəsinin birinci katibi seçildi. Bu, bəlkə də taleyin xoş bir təsadüfü idi. Onda hələ heç kim azərbaycanlıların köçürülməsinə dövlət səviyyəsində hazırlıq getdiyini bilmirdi. Tale sanki onu yurduna həyan olmağa, Göyçənin müsibətlərinin miqyasını bacardığı qədər azaltmağa hazırlayırdı. Və o, bu tarixi missiyasını şərəflə yerinə yetirdi. Səmənd Ağanın kəndi kimi ermənilərin gözünü deşən Zodun bütövlükdə köçürülməsi məsələsi ortaya çıxanda Talıb Musayev hələ cəmi 40 yaşı olmasına baxmayaraq, bütün karyerası ilə risq etdi. Əvvəl Ermənistan rəhbərliyinin iradəsini yenərək Zodun bütövlükdə yox, qismən köçürülməsinə razılıq aldı. Sonra isə Aydın Məmmədovla birgə Mir Cəfər Bağırovun qəbuluna düşərək, Göyçədən köçürülənlərin Kür-Araz ovalığına yox, Gəncəətrafı dağlıq ərazilərə yerləşdirlməsini təmin etdi. Mir Cəfər bu güzəştini Moskva qarşısında "Göyçəlilərin aran rayonlarına uyğunlaşmasının çətinliyi ilə" əsaslandırdı. Həqiqətdə isə Mir Cəfər Talıb Musayev və Aydın Məmmədovun təkidi ilə olduqca güclü bir manevr etmişdi. Həmin ərazilərdə ermənilər məskunlaşdığından Göyçə köçkünlərinin məhz Xanlar, Daşkəsən, Tərtər rayonlarına yerləşdirilməsi həm bu rayonlarda demoqrafik balansı türklərin xeyrinə kəskin surətdə dəyişir, həm də qəzəbli köçkünlərin yarı aşkar-yarı gizli təzyiqi nəticəsində ermənilərin bir çoxu Ermənistana köçürdü. Və bu tendensiya 1950-ci ildə o qədər aşkar xarakter aldı ki, ermənilər Zod kəndinin mərhələlərlə köçürülməsi planını dayandırmaq məcburiyyətində qaldılar. Əvəzində bütün acıqlarını ən işgüzar katibdən çıxdı-

lar: 10 il raykomluq stacı olan, bu müddətdə dəfələrlə dövlət mükafatlarına layiq görülən Talıb Musayev nəinki işdən, ümumən Göyçədən uzaqlaşdırılaraq Vedi rayonunun ən zəif kolxozlarından birinə sədr göndərildi. Amma ermənilərin Talıb Musayevi cəzalandırmaqla Göyçədə türk ruhunu öldürmək niyyətləri baş tutmadı: Talıb Musayevlə Aydın Məmmədovun birgə səyləri sayəsində artıq Basarkeçərin rəhbər kadrlarının əksəriyyəti milli ruhlu, mübarizə əzmli oğuz türkləri idi. Vəziyyət elə bir həddə çatmışdı ki, erməniləşdirmə siyasətinin reallaşması yolunda heç bir qanuna məhəl qoymayan rəsmi İrəvanın risq etməyə cəsarəti çatmadı... Və Talıb Musayevin qayğısı ilə 26 yaşında rayon partiya komitəsinin şöbə müdiri təyin olunmuş, bu vəzifədə işlədiyi 3 il müddətində qatı millətçi imici qazanmış

YUNİS RZAYEV



Basarkeçər rayonunun faktiki rəhbərlərindən biri: Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri oldu. Onda Yunis Qəhrəman oğlunun cəmi 29 yaşı vardı. 33 yaşında isə o Göyçənin başqa bir bölgəsində- Krasnoselo (Çənbərək) rayonunda partiya komitəsinin birinci katibi idi. Ermənilərin bütün hiylələrinə rəğmən Yunis müəllim öz kristal prinsipiallığı, ideal təmizliyi sayəsində həm partiya xəttində, həm təsərrüfat sahəsində uğur dalınca uğur qazanır, həm də Göyçə türkləri arasında nüfuzunu günbəgün artırırdı. O, artıq SSRİ Ali Sovetinin deputatı, respublika Ali Soveti sədrinin müavini idi. Bu cür titulların sahibi ilə açıq konfrantasiya təbii ki, xeyli səs-küyə səbəb ola bilərdi. Odur ki, rəsmi İrəvan kolxoz-sovxoz istehsalat birlikləri adı altında Martuni və Basarkeçər rayonlarını birləşdirərək, demoqrafik vəziyyəti ermənilərin xeyrinə dəyişməklə "məxməri çevriliş" etmək niyyətinə düşdü. Amma məhz Yunis Rzayevin ayıq təfəkkürü və işgüzarlığı sayəsində plan nəinki baş tutmadı, əksinə birləşmiş rayonda türklərin təsir dairəsi daha da genişləndi. Bu dəfə ermənilər öz xislətlərinə uyğun olaraq açıq şantac, şərləmə metodunu işə salmağa cəhd etdilər. Bu xüsusda olmuş bir hadisə həm tarixi, həm mənəvi, həm də psixoloji baxımdan örnək olduğu üçün onu tam təfərrüatı ilə xatırlamaq yerinə düşərdi...

1963-cü ildə Martuni kolxoz-sovxoz istehsalat idarəsi partiya komitəsinin plenumunda DTK-nın yerli şöbəsinin rəisinə Yunis Rzayev əleyhinə kompromatlarla çıxış etmək tapşırığı verilir. Rəsmi İrəvandan xeyir-dua almış "KQB zabiti" də plenum başlayar-başlamaz söz alaraq, birinci katibin əleyhinə faktlar sadalayır. Məqsəd elə bu plenumdaca Yunis Rzayevi vəzifədən uzaqlaşdırıb yerinə erməni təyin etməklə, Basarkeçərə türklərin rəhbərlik etməsi ənənəsinə biryolluq son qoymaq imiş. Ssenari əvvəlcədən qurulduğundan, DTK rəsmisi məruzəsindən dərhal sonra əvvəlcədən öyrədilmiş adamların açacağı müzakirələrin necə tufan qoparacağının, Yunis Rzayevin yerinə təyin ediləcəyi anın xoş təəssüratları ilə yaşaya-yaşaya çıxışını getdikcə sərtləşdirirmiş. Bu zaman o dövrün plenumlarının reqlamenti ilə əsla uyuşmayan bir hadisə baş verir. Məruzəçidən qeyri bir kimsənin cınqırının çıxmadığı zaldan bir nəfər ağır ləngərlə tribunaya yaxınlaşır, çox sakit tərzdə məruzəçinin qalstukundan tutaraq üzünü özünə tərəf çevirir və ağzının üstünə tərs bir şillə ilişdirir. Özünü itirən çekist qışqıra-qışqıra zalı tərk edəndən sonra elə həmin adam tribunada onun yerini tutaraq, eyni sakit tövrlə bəyanat verir: "Yunis Rzayevi vəzifədən çıxarmaq olar, amma xalqın qəlbindən yox! Bu dığanın dediyi iftiralar Yunis Qəhrəman oğluna əsla yapışmaz, amma bu bişərəfə dil verənlərin boyuna biçilmiş əskikliklərdir." Bu, o dövr üçün misilsiz bir cəsarət idi. Bu, DTK-ya qarşı üsyan idi. Bu, Göyçə türklərinin əməl birliyinin, milli təəssübkeşliyinin nümayişkaranə ifadəsi idi. Bu cəsarəti nümayiş etdirənsə Basarkeçər nahiyəsinin Böyük Məzrə kəndindən Nəbi Abbasov idi. Ən qəribəsi odur ki, bu qədər səs-küylü bir qalmaqaldan sonra Yunis Rzayev Nəbi Abbasovu elə bir səviyyədə müdafiə edib ki, onu nəinki cəzalandıra bilməyiblər, hətta Yunis Rzayevdən sonra rayonun faktiki rəhbəri o olub. Ona qarşı təqiblər yalnız Yunis Qəhrəmanov Azərbaycana köçəndən sonra başladı... O plenumdan sonra isə Ermənistan rəsmiləri heç olmasa Martunini türk nüfuzundan xilas etməyin qayğısına qaldılar və rayonları təzədən müstəqil ərazi vahidlərinə çevirdilər. Yunis Rzayevin ermənilərlə açıq döyüş müsətəvisinə çıxması Basarkeçər rayonunun adının dəyişdirilməsi məsələsi gündəliyə gətiriləndə oldu. İş o yerə çatdı ki, erməni millətçilərinin xaç atalarından sayılan Ermənistan Elmlər Akademiyasının prezidenti Viktor Hambartsumyan rəsmi çıxışlarının birində Yunis Rzayevin Basarkeçərə rəhbərliyini "Basarkeçər ermənilərinin Rza paşanın zülmü altında inləməsi" kimi xarakterizə etdi. Bu bölgə ilə bağlı planlarını Yunis Rzayevin rəhbərliyi dövründə heç cür reallaşdıra bilməyəcəklərini dərk edən Ermənistan rəhbərləri növbəti manevrə əl atdılar: Yunis Rzayev respublika miqyaslı işə dəvət olunmaq- Dövlət Meşə Təsərrüfatı Komitəsinin sədr

müavini təyin edilmək bəhanəsi ilə Göyçədən uzaqlaşdırıldı. Və bundan sonra Basarkeçərdə türklərin birinci şəxs olması ənənəsinə son qoyuldu. Yunis Rzayevin rayondan uzaqlaşdırılmasından cəmi bir ay sonra Basarkeçərin adının dəyişdirilməsi haqqında saxta bir müraciət tərtib olundu və 1969-cu il iyunun 11-də Ermənistan SSR Ali Soveti müvafiq qərar qəbul edərək bir neçə minillik tarixi olan Basarkeçər toponimini "Vardenis" kəlməsi ilə əvəzlədi. Bu kontekstdə Yunis Qəhrəman oğlu ilə o zaman Ermənistan KP MK-nın birinci katibi olan Koçinyan arasında başlayan ədavət o həddə çatdı ki, məsələyə SSRİ rəhbərliyi səviyyəsində baxıldı. Təbii ki, adi bir adam olsaydı Yunis Rzayevi çox asanlıqla susdurardılar. Amma 19 yaşında könüllü olaraq müharibəyə getmiş, universitet təhsili almış, Bakı və Moskva Ali Partiya Məktəblərini müvəffəqiyyətlə bitirmiş, iki çağırış SSRİ, üç çağırış Ermənistan SSR Ali Sovetinin deputatı, respublika parlamentinin sədr müavini, 15 il ərzində Mərkəzi Komitənin üzvü olmuş bir şəxs öz mövqeyini müdafiə etməyi bacarırdı; ən əsası, sovet DTK-sı onun bölgədəki türklər arasında nüfuzundan xəbərsiz deyildi.

Odur ki, rəsmi Moskva məsələnin millətlərarası münasibətlərlə bağlı məcraya düşərək beynəlxalq qalmaqala çevrilməsini əngəlləmək üçün Yunis Qəhrəman oğlunun Azərbaycana işə göndərilməsi barədə göstəriş verdi. Beləliklə də, 1970-ci ildən edibarən Yunis Qəhrəman oğlu öz tükənməz enerjisini Azərbaycan Respublikasnın iqtisadi cəhətdən qüdrətlənməsinə sərf etdi: bir neçə il Şamaxı rayon Partiya Komitəsinin birinci katibi, sonra isə ömrünün sonuna - 1985-ci ildə dünyasını dəyişənədək Azərbaycan SSR Üzümçülük və Şərabçılıq Komitəsinin sədri işlədi. Onun ölüm xəbəri istisnasız olaraq Göyçənin bütün kəndlərində dərin hüznlə qarşılandı, ümummahal matəminə çevrildi...Başqa cür olması mümkün də deyildi, çünki o, sözün həqiqi mənasında Göyçənin yad nəfəsdən qorunması kimi tarixi bir missiyanı ləyaqətlə həyata keçirmiş bir el ağsaqqalı, o dağların havasıyla nəfəs alan məğrur bir qartal idi. O qartalın qoşa qanadları isə millətsevər birinci katibə öz ağsaqqal təmkini ilə həmişə hər yerdə yardımçı olan İman Hüseynov və öz gənclik enerjisi ilə Yunis müəlliminin irimiqyaslı planlarının həyata keçməsini təmin edən Qəşəm Aslanov idilər.

## İMAN HÜSEYNOV

Böyük Qaraqoyunlunun əsasını qoymuş Ağaməmmədlilər soyundan idi. Qardaşı Süleyman, deyilənlərə görə zəmanəsinin saz-söz ustalarından olub. Alman- rus müharibəsindən "itkin düşdü" xəbəri gəlib. Amma qeyri-rəsmi xəbərlərə görə, Göyçə haqq dərvişlərinin sonuncu nümayəndəsi olan Aşıq Əsədlə dostluq edən Süleyman Gülalı oğlu bir sıra mətləblərdən hali oldu-

ğu üçün müharibənin ilk günündəncə iki yadellinin savaşında iştirak etməyi özünə rəva görməyib, hansı yollarlasa İrana keçib və ötən əsrin 60-cı illərinin sonuna qədər Urmiya ellərində gəzib-dolaşıb. İman Hüseynovsa müharibədən çoxsaylı qəlpələrlə qayıtmış və doğma kəndinin tərəqqisi naminə var qüvvəsini əsirgəməmişdi. Onun zəhmətsevərliyi, mərdanəliyi, sözünə bütövlüyü Yunis Rzayevin diqqətindən yayınmamışdı və məhz birinci katibin təşəbbüsü ilə, o, rayonun aparıcı kadrlarından biri səviyyəsinə çıxmışdı. Və İman Hüseynov Yunis Qəhrəmaoğlunun bu etimadını layiqincə doğrultdu. Göyçənin taleyi ilə bağlı prinsipial məsələlərdə həmişə mübariz mövqedə dayandı, əsl kişilik örnəyi sərgilədi. Hələ 1964-cü ildə, ermənilər ilk dəfə Basarkeçərin adını dəyişmək təşəbbüsü ilə çıxış edəndə və bu reallıqdan qaynaqlanan münaqişə zəminində Yunis Rzayevi ləkələmək istəyəndə, İman Hüseynov elin arxa-dayağı olan gənc katibi repressiyalardan qorumaq üçün, iki çağırış dalbadal SSRİ Ali Sovetinə deputat seçilmiş şəxs kimi, bütün məsuliyyəti öz üzərinə götürdü, addəyişmə təşəbbüsünün qarşısını Moskvanın əli ilə almağa müvəffəq oldu. Amma tale yurdcanlı bu insana tez qıydı: 1966-cı ildə onun qəfil vəfatıyla Yunis Rzayev sanki bir qanadını itirdi. Bundan sonra ermənilərlə mübarizədə onun yeganə dayağı

## QƏŞƏM ASLANOV

idi. 1935-ci ildə Kəsəmən kəndində anadan olmuşdu Qəşəm Novruz oğlu. Xanlarda Pedoqoji Məktəbi, Bakıda Universiteti bitirmişdi. Şair təbiətindən, aristokrat tərbiyəsindən irəli gələn sadəliyi ilk baxışda onun haqqında mülayim adam təəssüratı oyatsa da, milli məsələlərdə Qəşəm müəllimin prinsipial xarakteri tam mənada açılırdı. Elə bu qətiyyətin nəticəsiydi ki, XX əsrin ortalarında Göyçənin rəhbər kadrları arasında qeyrətli türk gənclərinin çəkisinin artımına xüsusi diqqət yetirən Tapdıq Əmiraslanovun, Yunis Rzayevin, İman Hüseynovun, Bilal Məmmədovun birgə israrlı səyləri sayəsində Basarkeçər rayon Komsomol Komitəsinin birinci katibi seçiləndə Qəşəm Aslanovun cəmi 24 yaşı vardı. 27 yaşında isə o artıq Yunis Rzayevin ideoloci işlər üzrə müavini idi. Göyçədə toponimlərin erməniləşdirilməsi əleyhinə mübarizənin əsas təşkilatçısı da məhz Qəşəm müəllim idi. 60-cı illərdə ermənilər ideoloci cəbhədə üstünlüyü əldə etmək üçün istisnasız olaraq bütün rayonlarda partiya qəzetlərinin redaktoru vəzifəsinə erməniləri təyin edirdilər. Bu işi təkcə Basarkeçərdə həyata keçirə bilmədilər. Qəşəm Aslanov ermənilərin bu planını əngəlləmək üçün, sözün həqiqi mənasında döyüşə çıxdı və təbiətinə uyğun prinsipiallıqla bu döyüşü də qalibiyyətlə başa vurdu. Təbii ki, ermənilər onun bu millətçi mövqeyini də unutmadılar və elə o vaxtdan etibarən Qəşəm Aslanova dövlət səviyyəsində müharibə elan olundu. Yunis Rzayev

rəhbər vəzifəyə çəkilmək adıyla rayondan uzaqlaşdırılan kimi ilk zərbələr Qəşəm Aslanova tuşlandı. Amma Yunis Rzayev gənc millətçi dostunu darda qoymadı və 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçilmiş H.Əliyevin köməyi ilə onun Azərbaycan Mərkəzi Komitəsində işlə təmin olunmasına nail oldu. Az sonra o "Azərbaycan gəncləri"nə redaktor təyin ediləndə ermənilər təzə kadra himayədarlığın arxasında Qəşəm müəllimin türkçü-millətçi ruhunun durduğunu anladılar və ona qarşı qəsdlərin aktivliyi xeyli dərəcədə artdı. Onu H.Əliyevin gözündən salmaq üçün hər cür iyrəncliyə əl atılırdı. Amma Q.Aslanov ermənilərlə uzunmüddətli iş təcrübəsi nəticəsində onların xislətinə dərindən bələd olduğundan, ehtiyatı əldən vermirdi. Geniş ictimaiyyətin müzakirəsinə çıxmayan bu gizli döyüşün bir epizodunu 1994-cü ildə, Qəşəm müəllimin ölümünün 10 illiyi ilə bağlı hazırladığım "Bu gedən eldən gedir..." verilişində, vaxtilə "Azərbaycan gəncləri"ndə Qəşəm müəllimlə çiyin- çiyinə çalışmış şair dostu, Məmməd Aslan açıqladı:

...1972-ci ilin yazında Qəşəm Aslanov dövlət nümayəndə heyətinin tərkibində xaricə getməli imiş. Təyyarənin gecə uçacağını nəzərə alan Qəşəm müəllim adəti üzrə redaktor vəzifəsini icra edir və çapa imzaladığı səhifələrin son variantını seyfində gizləyir. Səhəri gün Q.Aslanov artıq xaricdə olanda Bakıda bomba partlayır. Gənclər qəzetinin birinci səhifəsində böyük şriftlərlə "böyük rəhbər" təhqir olunmuşdu. "Vladimir İliç"in əvəzinə "Vladimir İtiç", yəni "İlya oğlu" əvəzinə "İt oğlu" yazılmışdı. O dövrün qayda-qanunları ilə bu ciddi "ÇP", yəni fövqəladə vəziyyət sayılırdı...Mərkəzi Komitədəki ermənilər və erməni havadarları məsələni hələ Qəşəm Aslanov xaricdən qayıtmamış həll etmək, onun vəzifədə qalıb-qalmaması məsələsini müzakirəyə çıxarmaq istəyirdilər. Qəzetin rəsmi sahibi olan Komsomolun Mərkəzi Komitəsi buna artıq hazır idi. Amma Heydər Əliyev tələsməməyi tövsiyyə edir. Qəşəm Aslanova kimsə ilə görüşməyə imkan vermədən aeroportdan birbaşa Heydər Əliyevin yanına gətirirlər. DTK rəsmilərinin də iştirak etdiyi o görüşdə məsələ ən xırda detallara qədər aydınlaşdırılır, redaktorun seyfindəki səhifələr gətiriləndən sonra məlum olur ki, burada "ciddi siyasi təxribat niyyəti" yox, Qəşəm müəllimə quyu qazmaq kimi cılız məqsəd olub. Və Heydər Əliyev təxminən 4 saatlıq araşdırmadan sonra DTK rəsmilərinə "işin qalanı sizlikdir" şəkilli tapşırıq verərək onları buraxır. Qəşəm Aslanovu isə saxlayır. Təxminən bir saatlıq təkbətək söhbətdən sonra Qəşəm Aslanov birbaşa oradan Şuşaya aparılır və MK nümayəndəsinin təqdimatı ilə Şuşa rayon Partiya Komitəsinin birinci katibi təyin edilir.

O təkbətək görüşdə H.Əliyevin Qəşəm müəllimə hansı tapşırıqlar ver-

diyi barədə heç vaxt heç bir yerdə açıqlama olmayıb. Amma Q.Aslanovun Şuşada işlədiyi 3 il ərzində DQMV rəhbərliyindəki qiyamçı birləşmənin aşkarlanması, rəhbərlikdə ciddi dəyişikliklər edilməsi onun Qarabağdakı missiyasının nədən ibarət olduğunu tam mənada təsəvvür etməyə imkan verir. Erməni dilini, erməni psixologiyasını dərindən bilən bir şəxs kimi onun tarixi missiyası Dağlıq Qarabağdakı antiazərbaycan əhvallı ekstremist dairələrin aşkarlanaraq məhv edilməsi, bu qədim türk yurdunda Azərbaycanın real hakimiyyətinin bərpa olunmasını təmin etmək idi. Və Qəşəm Aslanov bu tarixi missiyanı ləyaqətlə yerinə yetirirdi, amma...Nə yazıq ki, ermənilərin onun əleyhinə mübarizəsində xeyli sayda "azərbaycanlı" da var idi. Bu nə qədər sərt bir ittiham, nə qədər utandırıcı bir etiraf olsa da, təəssüf ki, faktdır. 1974-cü ildə Qəşəm Aslanov Şuşanın baş planını tərtib etdirmişdi və o plana əsasən indi erməni katalikosunun Qarabağ rezidensiyası kimi məhşur olan kilsənin yerində stadion tikilməliydi. Qəşəm müəllim bu işə başlamışdı da. Ermənilər Moskvanı bir- birinə vurdular. Raykom katibindən şikayətə gedən Şuşa sakinləri arasında bir neçə "azərbaycanlı ziyalı" da vardı və məhz onlar Qəşəm Aslanovu "Şuşanın tarixi-mənəvi irsinə qənim kəsilmiş ermənistanlı" kimi xarakterizə edirdilər. O "qeyrətli Şuşa ziyalılıarı"ndan biri 1992-ci ildə Azərbaycan televiziyası ilə çıxış edərək, ermənilərin Şuşanın tarixi abidələrini dağıtdığından danışırdı...

Ermənilərin ittifaq miqyaslı hay - küyündən sonra Qəşəm Aslanovu Qarabağda saxlamaq sadəcə mümkün deyildi. Hətta bir çoxları onun karyerasına son qoyulduğunu zənn edirdilər. Amma Heydər Əliyev onu fədakarcasına müdafiə edərək, ermənilərin kompakt məskunlaşdığı başqa bir rayona-İsmayıllıya rəhbər təyin etdi. Burada da mübarizə tam şiddəti ilə gedirdi: ermənilər hər gün Moskvaya şikayətlər göndərir, Qəşəm müəllim isə heç nə olmayıbmış kimi öz işini görür, Ermənistanda təqiblərə məruz qalaraq Azərbaycana pənah gətirmiş mütəxəssisləri sorğu-sualsız erməni kəndlərinə yerləşdirirdi. İşə yenə Moskva qarışdı. Heydər Əliyev "erməni qənimi olan katibi" yenə də müdafiə etdi; bacarıqlı kadr, prinsipial rəhbər kimi onu ermənilərin kompakt şəkildə məskunlaşdığı başqa bir rayona- Abşerona göndərdi. Qəşəm müəllim öz işindəydi, ermənilər də öz işində. Sürücüsü erməni idi. Dəfələrlə onu dəyişməyi xahiş etmişdi. Amma kiminsə zəhmi sürücünün dəyişdirilməsinə imkan vermirdi. Qəşəm Aslanov artıq hiss etmişdi ki, bu adi sürücü məsələsi deyil. Hətta ölümündən bir neçə gün qabaq dövlət işlərindən vaxt tapıb dostları ilə görüşəndə qayğılı halda deyibmiş ki, bu gədə mənim başımı yeyəcək. Sonra da təbiətinə xas incə yumorla əlavə edib ki, " bunun sifətindəki əzrayıl xofu məni elə qaralayıb ki, ka-

tibəyə -o gədəni çağır, maşını gətirsin əvəzinə, başımı gətirsin,- deyirəm". Yanılmamışdı Qəşəm Aslanov. Bütün nurlu insanlar kimi, Göyçənin haqq dərvişləri kimi başına gələcək qəzanı duymuşdu, amma bir erməninin qarşısından qaçmağı qeyrətinə sığışdırmadı. O, kişi kimi, mərd-mərdanə hücum gözləyirdi, ermənilər isə öz xislətlərinə uyğun hərəkət etdilər. Qəşəm müəllimin arxada gündəlik mətbuatla tanış olduğu bir məqamda Xırdalan-Bakı şosesi ilə şütüyən xidməti maşın kəskin sıçrayışla əks yola çıxaraq, məhz Qəşəm müəllim əyləşdiyi səmtdən ağır yük maşınının altına soxuldu. Maşınların hər ikisinin sürücüsünün erməni olması faktı, nədənsə heç kimdə şübhə oyatmadı, hətta o zamankı respublika rəhbərləri dəfndə ziyalıların çıxış etməsinə, nəyə görəsə (???) imkan vermədilər. Onda 1985- ci il idi. Qarabağda erməni üsyanına lap az qalırdı. Təəssüf ki, Qəşəm Aslanovun ölümünün erməni terrorunun açıq müstəviyə keçməsinin başlanğıcı olduğu həqiqətini duyan olmadı. Başa düşə bilmədilər ki, Qəşəm Aslanov təsadüfi qəzanın qurbanı olmuş adi bir təsərrüfat rəhbəri yox, erməni terrorunun qurbanı olmuş dövlət xadimi, MÜQƏDDƏS ŞƏHİDdir. Bu gün məhz o anlamazlığın bəlasını çəkirik...Qəşəm müəllimin Azərbaycan üçün kim olduğunu əyani şəkildə dərk etmək üçün onun dəfn günü Məmməd Aslanın qələmindən süzülən ağını oxumaq kifayətdir:

*Dünyayla yaşıddı əlli yaşında,*
*Təpədən dırnağa ağıldı, getdi...*
*Xalqın taleyindən gedir bu gedən,*
*Elimə, obama oğuldu, getdi...*

*Qönçə arzularla üzüldü ərzdən,*
*Getdi...Qəlbimizə qar yağdı dizdən.*
*Elə müsibətlə ayrıldı bizdən-*
*Dərdi sinəmizdə dağ oldu, getdi...*

*Bizim gözümüzdə Göyçə dağıydı,*
*Polad mədəniydi, zər yatağıydı...*
*Vətənin yeriyən nur torpağıydı,*
*Qəflətən o zirvə dağıldı, getdi...*

*Zirvəyə çatmağa tale göz yumur,*
*Nuru azaldıqca torpaq nur umur,*
*O nurlu təbəssüm, o nurlu yumor,*
*O nurlu gülüşlər yox oldu, getdi...*

*Əkdiyi gülləri olmasın həşəm,*
*Amalı gur işıq, eşqi möhtəşəm!*
*Getməyib...yaşayır Göyçəli Qəşəm*
*Gedən əfsanəydi, nağıldı...getdi...*

İman Hüseynovun vaxtsız ölümündən, Yunis Rzayevin və onun prinsipial davamçıları olan Qəşəm Aslanovla Nəbi Abbasovun rayondan uzaqlaşdırılmasından sonra Basarkeçərdə erməni repressiyalarının zərbəsini dəf etmək missiyası təhsil şöbəsinin müdiri Tapdıq Əmiraslanovun və Basarkeçər XDS İcraiyyə Komitəsinin sədri Zərbəli Qurbanovun üzərinə düşmüşdü. Və ziyalılıq baxımından bir-birini sözün həqiqi mənasında tamamlayan bu iki şəxsiyyət bu missiyanı ləyaqətlə həyata keçirirdilər. Tapdıq Əmiraslanovun qəfil ölümündən sonra isə




ZƏRBƏLİ QURBANOV meydanda, demək olar ki, tək qaldı. Amma əsla dəyanətini itirmədi. Dövlət səviyyəsində gedən siyasi oyunlarda ona havadar duracaq bir nəfər belə olmasa da, Yunis Rzayevin, Qəşəm Aslanovun, Səfiyar Musayevin, Həbib Həsənovun timsalında Azərbaycandan aldığı mənəvi dəstək sayəsində ziyalıların, kənd ağsaqqallarının, mahalın mərd kişilərinin gücünü birləşdirməyə müvəffəq oldu.

1934-cü ildə Hüseynquluağalıda (Nərimanlı) anadan olmuş, Naxçıvan Pedoqoji Məktəbini, Kənd Təsərrüfatı İnstitutunu, Universiteti, Ali Partiya Məktəbini bitirmiş, 1954-cü ildən 1989-cu ildə Azərbaycana köçənə qədər fasiləsiz olaraq rəhbər vəzifələrdə çalışmışdı: məktəb direktoru, kolxoz sədri, Basarkeçər rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, Amasiya rayon Partiya Komitəsinin birinci katibi, Ermənistan KP Mərkəzi Komitəsinin üzvü, Ermənistan KP MK-nın orqanı olan "Sovet Ermənistanı" qəzetinin baş redaktoru, Ali Sovetin deputatı, Ali Sovet sədrinin müavini olmuşdu Zərbəli Qasım oğlu Qurbanov. Amma bütün bunlar onun örnək

ömür yolunun rəsmi xronologiyasından qeyri bir şey deyildi. Onun ömrünün qayəsini rəsmi məlumatlarda heç vaxt öz əksini tapmayan mübarizələr təşkil edirdi. Və Zərbəli müəllim təhsilindən, tərbiyəsindən irəli gələn təvazökarlıqla heç vaxt əməlləri ilə öyünmədiyi üçün onun Göyçə naminə, göyçəlilər naminə etdiklərindən ictimai rəy həmişə xəbərsiz olub. Onun bu yönlü fəaliyyəti isə həqiqətən çoxşaxəli idi...

Zərbəli Qurbanovun ermənilərlə ilk açıq toqquşması həmkəndliləri-Hacıalılar tayfasının cavanları milli münasibətlər zəminində dava zamanı bir nəfər Norakert ermənisini qətlə yetirərkən oldu: o bütün rayon rəhbərliyi ilə açıq qarşıdurmaya gedərək, həmin gənclərin ən ağır cəzaya məhkum edilməsi planlarını pozdu. Bundan sonra isə, mütləq mənada ermənilərdən təşkil olunmuş hüquq mühafizə orqanlarının türklər əleyhinə fəaliyyətinə sipər çəkmək onun başlıca vəzifəsinə çevrildi. Bu yolda Zərbəli müəllim taleyini, karyerasını risqə qoymaqdan çəkinmirdi. Bu qəbil fəaliyyətinə görə dəfələrlə hədəyə, hətta sui-qəsdə məruz qalmışdı da. Amma milli mənafe məsələlərində Zərbəli müəllimi heç nə ilə qorxutmaq mümkün deyildi. Və bu fədakarlığı ona çox baha başa gəldi. Mərdanə mübarizədə onunla bacara bilməyənlər böyük oğlu Xəqaniyə qəsd etdilər. Amma Zərbəli müəllimin millətçi prinsipiallığına xələl gətirə bilmədilər. Yeganə çıxış yolu kimi onun yüksək vəzifəyə irəli çəkilməsini gördülər və Amasiya rayonunun birinci katibi təyin etməklə onun Göyçə ilə əlaqələrini, qismən də olsa, məhdudlaşdırmağa müyəssər oldular. Amasiyada səlahiyyətləri daha geniş olduğu üçün onun millətçi-türkçü mahiyyəti daha qabarıq hiss olundu. Bu dəfə onu daha yüksək vəzifəyə təyin etməklə daha ağır cəzaya məhkum etdilər: Mərkəzi Komitənin qəzetinin redaktoru olsa da, iş recimінə görə azərbaycanlı əhali ilə görüşmək imkanları olduqca məhdud idi. Bununla belə, Zərbəli Qurbanov soydaşları ilə görüş fürsətlərindən maksimum istifadə edirdi. Hər bir azərbaycanlının üstündə öz doğması kimi əsirdi. 1988-ci ildə ermənilərin türkləri son nəfərinə qədər qırmaq planları tam çılpaqlığı ilə ortaya çıxanda İrəvanda işləyən 20-25 nəfər jurnalistin bir nəfərinə belə sədəmə toxunmaması da onun fədakarlığının bəhrəsi idi. O, öz işçilərinin toxunulmazlığı məsələsini dövlət səviyyəsində müzakirəyə çıxarmış, buna təminat almışdı da. Təhlükə isə hər an gözlənilirdi və hamıdan çox onun özü hədəfdəydi. Hətta iş o yerə çatmışdı ki, Opera meydanındakı mitinqlərin birində "Sovet Ermənistanı" qəzeti ilə haqq-hesab çəkmək təklif olunmuş, mitinqçilər redaksiyanın yerləşdiyi binanı mühasirəyə almışdılar. Zərbəli Qurbanovun binadan çıxarılaraq onların mühakiməsinə verilməsini tələb edirdilər. Həmin gün təxminən axşam saat 8-də "spesnaz" mi-

tinqçiləri dağıdana qədər redaksiyanın 20 nəfərə yaxın əməkdaşı girov vəziyyətində idi. Amma bununla belə heç kimin köçüb getməsinə qəlbən razı deyildi o. Hətta o dəhşətli günlərdə, imkan olduqca, redaksiya əməkdaşlarını həm real vəziyyəti öyrənmək, həm də təbliğat aparmaq məqsədi ilə türklərin kompakt yaşadığı ərazilərə ezam edirdi. Ürəyi isə həmişə əməkdaşların yanında olardı.

1988-ci il aprelin 24-də "Krunk"çular İrəvanda Əzizbəyovun heykəlini təhqir etmişdilər. Bakıya məlumatları çatdıran yeganə mənbə kimi redaksiyamızın telefonları, o cümlədən Zərbəli müəllimin hökumət telefonları kəsilmişdi. Zərbəli müəllim "Partiya həyatı" şöbəsinin müdiri, sonradan Azərbaycan Respublikasının ilk parlamentində ermənistanlı qaçqınların yeganə təmsilçisi olan Eldar Səfərova və mənə Naxçıvana gedərək, bu barədə Bakıya xəbər çatdırmağı tapşırdı. Onu da dedi ki, yollar təhlükəli olsa qayıtmayın. Tapşırığa əməl etdik, hətta o zaman Şərurun birinci katibi olan Tahir Əliyevin qətiyyəti sayəsində bizi Sov.İKP katibi Liqaçovla calaşdırdılar və Eldar Sabiroğlu ermənilərə qəzəbini onun üstünə tökdü. Yeri gəlmişkən. Tahir Əliyevin o gün göstərdiyi qətiyyəti minnətdarlıqla xatırlamamaq mümkün deyil. Moskva ilə əlaqə saxlamazdan öncə Bakıdakı rəsmi şəxs israrla bizim kimliyimizlə maraqlanırdı və bu istəyini onunla "əsaslandırırdı" ki, "Moskvaya ötürülən məlumatın mötəbər mənbəyi olmalıdır, xəbər təxribat xarakterli də ola bilər". Tahir Əliyev qəzəblənmiş halda həmin rəsmi adama bəyan etdi ki, "adlarını desəm, gərək onlar İrəvana qayıtmayalar. Çünki onca dəqiqə sonra onların kimliyi barədə erməni KQB-sinə məlumat çatmayacağına təminat yoxdur. Onlar isə bizə burda yox, orada lazımdırlar. Xəbərə görə məsuliyyəti isə, mən öz üzərimə götürürəm". Həmin gün biz İrəvana qayıdanda çox gec idi. Zərbəli müəllimsə redaksiyada tək-tənha oturub bizi gözləyirdi...

Sumqayıt qırğınlarından sonra Novruz bayramı ərəfəsi azərbaycanlılara qarşı münasibət xeyli kəskinləşmişdi. Hər yerdən həyəcanlı xəbərlər gəlirdi. Mərkəzi Komitə hər şeyi ört-basdır etmək tapşırığı versə də, Zərbəli müəllim, qeyri-rəsmi də olsa, bizi ezamiyyətə göndərir, ezamiyyə xərclərini də qonorarların şişirdilməsi, yaxud redaktor fondundan mükafatlarla kompensasiya edirdi. Belə gizli ezamiyyətlərdən birində, indi Azərbaycan televiziyasında çalışan həmkarım Bəxtiyar Səttaroğlu Cermukda, mən isə Əzizbəyov rayonunun ən ucqar kəndlərində vəziyyəti öyrənmək tapşırığı almışdıq. Hava şəraitinə görə rayon mərkəzinə çox gec döndüm. Elə rayon rəhbərliyinə məxsus inzibati binanın qapısı ağzındaca raykomun təlimatçısı Mail müəllimlə rastlaşanda, təəccübümü gizlədə bilmədim. Sən demə, bizim geri dönməməyimizdən narahat olan

Zərbəli müəllim axtarıb Mail müəllimi öz kəndlərində taparaq, bizim taleyimizlə maraqlanmağı xahiş edibmiş...

İrəvanda məscid yandırılan gün iş yoldaşımız Tariyel Əkbər oğlu Babayev bu dəhşətli cinayəti fotoaparatın yaddaşına köçürmüşdü və bundan Ermənistan DTK-sı xəbər tutmuşdu. Məqsədləri lentləri müsadirə edərək, bu cinayət barədə məlumatı ictimaiyyətdən gizlətmək olan DTK əməkdaşlarını Zərbəli müəllimin necə ustalıqla ələ salması, mahir diplomat səriştəsi ilə Tariyelin üzərindən şübhələri götürməsi isə, sözün həqiqi mənasında bir tarixi ibrət səhnəsiydi...

Bax belə, ilk baxışda olduqca sakit, milli məsələlərdə son dərəcə amansız; bir rəhbər olaraq olduqca tələbkar-sərt, bir insan kimi son dərəcə həlim-yanımcıl bir şəxsiyyət idi Zərbəli Qurbanov. Vətənin, millətin taleyi ilə bağlı məsələlərdə heç kimə güzəştə getməzdi o. 1989-cu il yanvar ayının 22-də sonuncu dəfə yol yoldaşlığımız oldu Zərbəli müəllimlə... Türklərsiz Ermənistanın həm xalsız, həm xansız, həm də xalqsız qalmış paytaxtı İrəvana uçurduq. Bakıdan İrəvana erməni qaçqınları daşımaq üçün ayrılmış xüsusi təyyarədə qeyri millət nümayəndəsi ikimiz idik. Təxminən bir saatlıq yolçuluğumuz zamanı Zərbəli müəllim mənim nəzərimdə, həqiqi mənada layiq olduğu müqəddəslik zirvəsinə ucaldı. O zaman Azərbaycana rəhbərlik edən Ə. Vəzirovla iki gün öncə görüşmüşdü və son dərəcə qəzəbliydi. Elə o görüşün təəssüratı ilə proqnoz verərək dedi ki, “bu bambılı torpaqları artıq satıb, üstəlik xalqı da qırğına verəcək”. Bu, siyasi manevrlərin nəticələrini ən xırda detallara qədər hesablamağı bacaran bir dövlət xadiminin proqnozu idi və tarix Zərbəli Qurbanovun proqnozlarını təsdiqlədi. Elə o görüş Ə. Vəzirovda Zərbəli müəllim haqqında necə bir təəssürat oyatmışdısa, o və ondan sonrakı recimlər Zərbəli müəllimi ictimai həyatdan təcrid etməyi özləri üçün başlıca vəzifə bildilər, çünki qanı və ruhuyla türkçü olan insanlar o recimlərə sərf etmirdilər.

1993- cü ildə Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra isə Zərbəli Qurbanov Azərbaycan Respublikası Prezidentinin Aparatında çalışdı və ömrünün sonuna qədər xalqına, dövlətinə ləyaqətlə xidmət etdi.

Zərbəli Qurbanov vəzifəcə irəli çəkilmək bəhanəsi ilə Göyçədən uzaqlaşdırıldıqdan sonra ermənilər daha ehtiyatlı davranaraq, milli təəssübkeşliyi ilə seçilən, siyasi prosesləri ayıq düşüncə ilə dəyərləndirməyi bacaran şəxsiyyətlərin rayon rəhbərliyində təmsil olunmasına imkan verməməyə çalışırdılar.Və nə qədər ağır olsa da, etiraf olunmalıdır ki, Zərbəli müəllimdən sonra Basarkeçərdə hakimiyyətin bir qoluna rəhbərliyə gətirilənlərin heç biri nə savadına, nə də mübarizlik keyfiyyətlərinə görə

oğuz türklərinin təmsilçiliyinə yaramırdılar. Bu o demək deyildi ki, Göyçədə bu missiyaya çiyin verə biləcək şəxsiyyətlər yox idi. Əksinə! Böyük Məzrədən Telman Muradov, rayon prokurorunun müavini Mansur Mirzəyev, Zərzibildən Cəmşid Hənifəyev, Qanlıdan Həmid Nağıyev, Şişqayadan Mikayıl Bayryamov və Tapdıq Cəfərov, Göysudan Qurban Əzizov və onlarca digərləri bu tarixi missiyanı daşımağa qadir insanlar idilər. Amma Yunis Rzayev, Talıb Musayev, Qəşəm Aslanov, Nəbi Abbasov, Zərbəli Qurbanov timsalında ermənilər üçün acı təcrübələr olduğundan, onlar milli məsələlərdə qətiyyəti ilə seçilən, göyçəlilərin nəzərində mərd kişi imici ilə tanınan savadlı, bacarıqlı insanları heç bir halda rayon rəhbərliyi səviyyəsinə yaxın buraxmırdılar. Son dövrlərdə onların yalnız bircə belə səhvi olmuşdu: Rasim Qəhrəmanov rayon komsomol komitəsinin birinci katibi seçiləndə onu yaxşı tanımamışdılar və savadlı, qabiliyyətli bir türk gəncini irəli buraxdıqlarını özlərinə bağışlaya bilmirdilər. Çünki bu həkim-komsòmol qapısı uzun illər azərbaycanlı gənclərin üzünə bağlı olan bu siyasi təşkilatı çox qısa müddətdə aktivləşdirməyə, türk gənclərinin enerjisini bu mərkəzdə birləşdirməyə müvəffəq olmuşdu. Və ermənilər bu "səhv"lərini tez düzəltdilər: 1988-ci il repressiyaları zamanı "Krunk"un ilk hədəflərindən biri də Rasim Qəhrəmanov oldu...

# MÜQƏDDƏS ŞƏHİDLİK ZİRVƏSİNƏ "AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANI" KİMİ YÜKSƏLMİŞ GÖYÇƏ İGİDLƏRİ



**MEHMAN QƏZƏNFƏR oğlu SƏYYADOV.** 1972-ci ildə Basarkeçər nahiyəsindəki Canəhməd kəndində anadan olub, 1992-ci ildə Şuşanın müdafiəsində şəhidlik zirvəsinə yüksəlib. Azərbaycan Respublikası Prezidentinin 07. VI. 1992-ci il fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.



**ŞÖVQİYAR CƏMİL oğlu ABDULLAYEV.** 1969 - cu il aprelin 13-də Basarkeçər nahiyəsinin Hüseynquluağalı kəndində anadan olub, 1992-ci il avqustun 28-də Qarabağda müqəddəs şəhidlik məqamına yetişib. Azərbaycan Respublikası Prezidentinin 5.II.1993-cü il tarixli fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.



**RÖVŞƏN NƏRİMAN oğlu ƏLİYEV.** Əslən Basarkeçər nahiyəsindəki Yarpızlı kəndindən olan bu cəsur insan1972-ci il avqustun 7-də anadan olub, 1992-ci il iyunun 14-də Dəhraz kəndi uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Azərbaycan Respublikası Prezidentinin 7.XII. 1992-ci il tarixli fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.



**ETİBAR FİRİDUN oğlu HACIYEV.** 1971-ci ildə Basarkeçər nahiyəsindəki Zod kəndində anadan olub, 1992-ci il iyun ayının 15-də Goranboy cəbhəsində şəhidlik zirvəsinə yüksəlib. Azərbaycan Respublikası Prezidentinin 23.VI.1992-ci il tarixli fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

# GÖYÇƏNİN ÜNLÜ TARİXİ ŞƏXSİYYƏTLƏRİ, MƏSUL VƏZİFƏLƏR TUTMUŞ DÖVLƏT XADİMLƏRİ və İCTİMAİ-SİYASİ SİMALARI

**OĞUZ XAN.** Xivəli Əbülqazi Xan özünün "Şəcəreyi-tərakimə" əsərində göstərir ki, Oğuz Xan Məhəmməd Peyğəmbərdən 4000 il əvvəl yaşamış real tarixi şəxsiyyətdir və qədim Şərqin ən qüdrətli hökmdarlarından biri kimi səciyyələndirilən BAYANDUR XAN onun nəslindəndir. Əbubəkr Tehraninin "Kitabi Diyarbəkriyyə" əsərində isə "dünyanı fəth edən padşah Bayandur xan"ın qurultaylar çağırdığı doğma yurdunun adı birmənalı şəkildə qeyd olunur: GÖYÇƏ. Məxəzlərdə təsbitlənmiş bu tarixi məlumatlar Oğuz Elinin ulusu OĞUX XANın doğma yurdunun məhz Göyçə mahalı olması barədə elmi mülahizələrə əsas verir.

**GÖYXAN.** Oğuz xanın oğullarından biri.

**DƏNİZ ALP.** Oğuz xanın kiçik oğlu.

**SUNQUR.** Ağqoyunlu hökmdarları nəsil şəcərələrində özlərini Oğuz xanın altmışıncı nəsil törəmələri kimi təsnifləyirlər və bu şəcərəyə görə VI-VII əsrlərdə Göyçədə kəffarla vuruşan Sunqur bəy Uzun Həsənin ulu babasıdır.

**BAYANDUR XAN.** Oğuz xanın törəmələrindən biri, Göyçə-Oğuz Xanədanının padşahı.

**DƏDƏ QORQUD.** Eramızdan əvvəlki I minilliyin ortalarında yaşamış real tarixi şəxsiyyət; Göyçə ozan-dərviş ordeninin və SAF AĞ ELMİnin, səfəviyyə təliminin banisi.

**XAN QAZAN.** Göyçə-Oğuz Xanədanının sonuncu padşahı.

**DƏLİKDAŞLI QARACA.** X-XI əsrlərdə yaşamış el qəhrəmanı.

**AĞZIBİRLİ QARA YAQUB.** Göyçənin el yaddaşından gələn bilgilərə əsasən "Qara Toxmaq" ləqəbi ilə tanınan bu el qəhrəmanı Dəliqardaşlı Aşıq Rəhimin müasiri olub, yəni təxminən XIV əsrin sonlarında anadan olub və XV əsrin ortalarına qədər yaşayıb.

**AĞQALALI DİV HEYDƏR.** XIV əsrin sonlarında, XV əsrin əvvəllərində yaşamış el qəhrəmanı.

**DƏLİQARDAŞLI AŞIQ RƏHİM.** XV əsrdə yaşamış bu şəxsiyyət sufi təliminin kamil bilicilərindən və Şah İsmayılın atası ŞEYX HEYDƏRin müridlərindən biri olub.

**AĞA MƏHƏMMƏD MİRZƏ QARAQOYUNLU.** Qaraqoyunlu

hökmdarı Cahan şahın oğlu olan bu tarixi şəxsiyyət XV əsrin sonlarında Göyçədə məskunlaşıb və Cahanşah kəndinin (sonradan Yengicə, XIX əsrdən etibarən isə Böyük Qaraqoyunlu adlanan kənd) əsasını qoyub.

**MİSKİN ABDAL.** Təxminən 1420-1425-ci illər aralığında anadan olaraq 1525-1530-cu illərə qədər ömür sürmüş bu insanın əsil adı Hüseyndir. Göyçənin Siyaqut kəndindən (sonralar Sarıyaqut, Sarıyal, ən nəhayət Sarıyaqub adlanan kənd) olan bu tarixi şəxsiyyət zəmanəsinin ən nurlu ziyalılarından, sufi təliminin kamil bilicilərindən biri kimi tanınıb; mahir diplomat kimi şöhrət qazanıb. Şah İsmayılın fərmanı ilə Göyçənin Seyyidi, indiki anlamla şahın Göyçə mahalı üzrə səlahiyyətli nümayəndəsi təyin edilib.

**AĞ AŞIQ.** Qüdrətli söz ustası, sufi təliminin kamil bilicisi olan bu şəxsiyyət XVIII əsrin sonu, XIX əsrin əvvəllərində Göyçə ozan-dərviş ordeninə rəhbərlik edib.

**DƏDƏ ALI.** 1801-ci ildə Göyçənin Qızılvəng kəndində doğulan bu qüdrətli el sənətkarı sufi təliminin kamil bilicisi olub, XIX əsrdə Göyçə ozan-dərviş ordeninin inkişafı yönündə müstəsna xidmətlər göstərib.

**DƏDƏ ƏLƏSGƏR.** 1821-ci ildə Göyçənin Ağkilsə kəndində anadan olan bu kamil şəxsiyyət Göyçə ozan-dərviş ordeninin ən qüdrətli müridlərindən biri kimi səciyyələnir. Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri olmuş bu qüdrətli filosof bir neçə şer canrının yaradıcısıdır.

**ATAXANLI QARA YUNUS.** 1830-1850-ci illərdə Göyçədə ermənilərə və rus hakimiyyətinə qarşı mübarizənin lideri, el qəhrəmanı.

**ƏLİQIRIXLI QAÇAQ MUSTAFA.** XIX əsrdə yaşamış və ermənilərə qarşı döyüşləri ilə şöhrətlənmiş el qəhrəmanı.

**QARAQOYUNLU BAYRAM RZA OĞLU.** XIX əsrin sonlarında Göyçədə rus hakimiyyəti əleyhinə mübarizəsi ilə şöhrətlənmiş el qəhrəmanı.

**MƏŞƏDİ MİRMAHMUD SEYİD HÜSEYN OĞLU.** 1867-ci ildə Əyrivəng kəndində anadan olan bu nurlu insan zəmanəsinin ən mötəbər ziyalılarından biri idi. 1912-1918-ci illərdə Göyçə mahalını Qazilər Şurasına rəhbərlik edib. 1939-cu ildə Çənbərək nahiyəsinin Ağbulaq kəndində vəfat edib.

**ŞİŞQAYALI KOR TANRIVERDİ.** Mükəmməl gimnaziya təhsili alan bu şəxsiyyət çar ordusunda hərbi xidmətdən sonra Göyçə mahalının Basarkeçər nahiyəsi üzrə hərbi müvəkkil olub.

**ZODLU MİRZƏ BƏYLƏR.** Şair, filosof kimi şöhrətlənmiş bu nurlu şəxsiyyət XIX əsrin ən görkəmli maarifpərvərlərindən biri idi; ana dilindən başqa 5 dili mükəmməl bilirdi.

**ZODLU HACI ƏLİŞ AĞA.** XIX əsrin ən görkəmli maarif xadimlərin-

dən biri olan bu nurlu şəxsiyyət həm də xeyriyyəçi-messenat kimi tanınıb.

**ZODLU SƏMƏND AĞA.** 1868-ci ildə anadan olan bu tarixi şəxsiyyət rəsmən ağa titulu daşısa da, daha çox maarifpərvərliyi və xeyriyyəçiliyi ilə şöhrətlənib. 1885-ci ildə öz vəsaiti ilə müasir tipli məktəb açıb, istedadlı həmyerlilərinin Rusiyada təhsil almasının məsrəflərini ödəyib. 1918-ci ildə ermənilərə qarşı müqavimət hərəkatının təşkilatçısı və lideri olub. 1919-cu ildə xəyanətlə qətlə yetirilib.

**TOXLUCALI TOPAL ORUC.** 1918-1920-ci illərdə Çənbərək nahiyəsində ermənilərə qarşı müqavimət hərəkatının lideri.

**TOXLUCALI CIĞAL MƏMMƏD.** 1918-1920-ci illərdə ermənilərə qarşı döyüşlərdə misilsiz rəşadət göstərmiş el qəhrəmanı.

**AĞBULAQLI DƏLİ İSMAYIL.** 1918-1920-ci illərdə ermənilərə qarşı döyüşlərdə ad çıxarmış el qəhrəmanı.

**QAÇAQ CƏMİL.** 1894-cü ildə Bala Qaraqoyunluda anadan olub, 1919-cu ildə Zod yaxınlığında ermənilərə qarşı tarixi döyüşdə- "Göy körpü savaşı"nda misilsiz rəşadət göstərib, Səmənd Ağanın qətlindən sonra müqavimət hərəkatının lideri olub. 1922-1930-cu illərdə Basarkeçər İnqilab Komitəsinin sədri- "revkom" vəzifəsi daşıyıb. 1931-ci ildən 1934-cü ilə qədər Göyçədə sovet hakimiyyəti əleyhinə silahlı qiyama başçılıq edib.

**TALIB MUSAYEV.** 1908-ci ildə Hüseynquluağalı kəndində anadan olub, Basarkeçər rayon Komsomol Komitəsinin rəhbəri, Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, Partiya Komitəsinin I katibi, Qarabağlar rayon Partiya Komitəsinin I katibi, Ermənistan SSR Ali Sovetinin deputatı olub. 2005-ci ildə Bakıda vəfat edib.

**AYDIN MƏMMƏDOV.** 1909-cu ildə Basarkeçər nahiyəsinin Böyük Qaraqoyunlu kəndində doğulub, 10 il SSRİ Ali Sovetinin, bir çağırış Ermənistan SSR Ali Sovetinin deputatı olub. Milli təəssübkeşliyi və milli məsələlərdə prinsipiallığı ilə şöhrətlənib. 1994-cü ildə Bakıda vəfat edib.

**BİLAL MƏMMƏDOV.** 1914-cü ildə Basarkeçər nahiyəsinin Ağkilsə kəndində doğulub, Basarkeçər rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, Krasnoselo rayon Partiya Komitəsinin I katibi olub.

**YUNİS RZAYEV.** 1924-cü ildə Basarkeçər nahiyəsinin Şişqaya kəndində anadan olub. Basarkeçər rayon XDS İK-nin sədri, Basarkeçər rayon PK-nin I katibi, Ermənistan SSR Meşə Təsərrüfatı Komitəsi sədrinin I müavini, Azərbaycan KP Şamaxı Rayon Komitəsinin I katibi, Azərbaycan SSR Üzümçülük və Şərabçılıq Komitəsinin sədri vəzifələrində çalışıb; 1 çağırış SSRİ, 3 çağırış Ermənistan SSR, 2 çağırış Azərbaycan SSR Ali Sovetlərinin deputatı olub. 1985-ci ildə Bakıda vəfat edib.

**İMAN HÜSEYNOV.** Basarkeçər nahiyəsindəki Böyük Qaraqoyunlu kəndində doğulub, 10 il SSRİ Ai Sovetinin, bir çağırış Ermənistan SSR Ali Sovetinin deputatı olub. 1967-ci ildə Moskvada Kreml xəstəxanasında vəfat edib, doğma kəndində dəfn olunub.

**ƏLİ HƏSƏNOV.** 1920-ci ildə Qaranlıq nahiyəsinin Mədinə kəndində doğulub, Krasnoselo rayon Partiya Komitəsinin I katibi, Ermənistan KP MK-nın şöbə müdiri, Erəmnistan SSR Ali Soveti sədrinin müavini olub. 1977-ci ildə Bakıda vəfat edib.

**HƏBİB HƏSƏNOV.** Kəvər nahiyəsinin Ağzıbir kəndində anadan olub, Amasiya rayon Partiya Komitəşinin I katibi, "Sovet Ermənistanı" qəzetinin redaktoru,Ermənistan SSR Ali Soveti sədrinin müavini işləyib. 1971-ci ildə ermənilərin qardaşına qarşı sui-qəsdinə etiraz kimi tutduğu vəzifələrdən istefa verərək, Azərbaycana köçüb, Qazax rayon Partiya Komitəsinin I katibi, Azərbaycan SSR Aqrar Sənaye Komitəsi sədrinin müavini vəzifələrində çalışıb.

**QƏŞƏM ASLANOV.** 1934-cü ildə Basarkeçər nahiyəsindəki Kəsəmən kəndində anadan olub, Basarkeçər rayon Komsomol Komitəsinə rəhbərlik edib, "Azərbaycan gəncləri" qəzetinin baş redaktoru, Şuşa, İsmayıllı, Abşeron rayonlarında Partiya Komitəsinin I katibi vəzifələrində işləyib, Azərbaycan SSR Ali Sovetinin deputatı olub. 1984-cü ildə ermənilərin hazırladığı sui-qəsd nəticəsində həlak olub.

**NƏBİ ABBASOV.** Basarkeçər nahiyəsindəki Böyük Məzrə kəndində anadan olub, Basarkeçər rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri işləyib.

**ZƏRBƏLİ QURBANOV.** Basarkeçər nahiyəsindəki Hüseynquluağalı kəndində anadan olub, Basarkeçər rayon XDS İK-nin sədri, Amasiya rayon Partiya Komitəsinin I katibi, "Sovet Ermənistanı" qəzetinin redaktoru, Ermənistan SSR Ali Soveti sədrinin müavini vəzifələrində çalışıb; deportasiyadan sonra Azərbaycan Respublikası Prezidentinin Aparatında işləyib. 2003-cü ildə Bakıda vəfat edib.

**İSGƏNDƏR ZEYNALOV.** 1926-cı ildə Çənbərək nahiyəsindəki Ağbulaq kəndində anadan olub, Krasnoselo rayon Xalq Deputatları Soveti İcraiyyyyə Komitəsinin sədri vəzifəsində çalışıb.

**ABBAS MAZANOV.** 1929-cu ildə Çənbərək nahiyəsinin Cil kəndində anadan olub, 1975-1983-cü illərdə Krasnoselo rayon XDS İcraiyyə Komitəsinə rəhbərlik edib.

**MAHAL ƏLİYEV.** 1948-ci ildə Çənbərək nahiyəsinin Ağbulaq kəndində doğulub, Krasnoselo rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, Bakının Nərimanov rayonunda XDS İK sədrinin müavini,

Nərimanov rayon təhsil şöbəsinin müdiri işləyib. Hazırda Bakının Nizami rayonunun təhsil şöbəsinə rəhbərlik edir.

**MÜSEYİB İMAMƏLİYEV.** Basarkeçər nahiyəsindəki Kərkibaş kəndində doğulub, Basarkeçər rayon Partiya Komitəsinin III katibi, rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, Azarbaycan SSR Qaçqınlar və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsi sədrinin müavini vəzifələrində çalışıb.

**NURƏDDİN MUSTAFAYEV.** Əslən Basarkeçər nahiyəsindəki Qaraiman kəndindəndir. Azərbaycanın tanınmış dövlət xadimlərindən biri, Naxçıvan MSSR KP MK-nın I katibi, bir neçə çağırış Azərbaycan Ali Sovetinin deputatı olub.

**SƏFİYAR MUSAYEV.** Basarkeçər nahiyəsinin Hüseynquluağalı kəndində anadan olub, 1989-1993-cü illərdə Azərbaycanın dövlət müstəqilliyinin qorunması yönündə müstəsna xidmətlər göstərib; Müstəqil Azərbaycan Respublikasının ilk parlamentində "İnsan huquqları daimi komissiyası"nın sədri, Müstəqil Dövlətlər Birliyi Parlament Assambleyasında "İnsan hüquqları komitəsi" sədrinin müavini kimi məsul vəzifələr daşıyıb.

**MAKSİM MUSAYEV.** Basarkeçər nahiyəsindəki Hüseynquluağalı kəndində doğulub, Qax və Xızı rayon Partiya Komitələrinin I katibi, Azərbaycan Respublikası Qaçqınlar və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsi sədrinin müavini vəzifələrində çalışıb, 15 il Azərbaycan parlamentinin üzvü olub.

**MURAD AŞUROV.** Basarkeçər nahiyəsindəki Zod kəndində doğulub, Xanlar və Yevlax rayonlarında Partiya Komitəsinin I katibi, rayon sovetinin sədri işləyib, Azərbaycan SSR Ali Sovetinin deputatı olub.

**NƏRİMAN İMRANOV.** Basarkeçər nahiyəsindəki Şişqaya kəndində doğulub, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Naziri olub.

**QABİL HÜSEYNLİ.** Əslən Basarkeçər nahiyəsindəki Qaraiman kəndindəndir, 1993-1996-cı illərdə Azərbaycan Respublikasının Dövlət müşaviri olub.

**İLHAM İSMAYILOV.** Əslən Qaranlıx nahiyəsinin Mollalı kəndindəndir. Salyan rayon İcra Hakimiyyəti başçısının müavini, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin idarə rəisi vəzifələrində çalışıb.

**SƏRDAR KƏRİMOV.** 1954-cü ildə Basarkeçər nahiyəsindəki Kəsəmən kəndində doğulub, Azərbaycan Respublikası Səhiyyə Nazirinin birinci müavini olub, 2003-cü ildə Bakıda vəfat edib.

**ƏLİ ƏHMƏDOV.** Basarkeçər nahiyəsindəki Dərə kəndində doğulub, Azərbaycan Respublikası Prezidentinin aparatında şöbə müdirinin müavini, Xətai rayon İcra Hakimiyyətinin başçısı vəzifələrində çalışıb; Yeni

Azərbaycan Partiyasının icraçı katibi, Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır.

**VAQİF HÜSEYNOV.** 1947-ci ildə Çənbərək nahiyəsindəki Ağbulaq kəndində anadan olub; 1997- 2005- ci illərdə Azərbaycan Respublikası "Kənd təsərrüfatında nümunəvi özəl təsərrüfatların formalaşmasına yardım" layihəsini həyata keçirən Mərkəzi İşçi Orqana rəhbərlik edib.Hazırda Saatlı rayon İcra Hakimiyyətinin başçısıdır.

**ZİYAD ABBASƏLİYEV.** 1950-ci ildə Çənbərək nahiyəsindəki Ağbulaq kəndində anadan olub, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavinidir.

**XƏLƏF XƏLƏFOV.** 1959-cu ildə Çənbərək nahiyəsindəki Cil kəndində anadan olub, Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavinidir.

**ƏVƏZ ƏLƏKBƏROV.** Çənbərək nahiyəsindəki Cil kəndində anadan olub, Azərbaycan Respublikasının Maliyyə naziridir.

**AKİF HÜMBƏTOV.** Basarkeçər nahiyəsinin Yuxarı Zağalı kəndində anadan olub. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin işlər idarəsinin müdiridir.

**VİLYAM HACIYEV.** Basarkeçər nahiyəsindəki Zod kəndində anadan olub, Xanlar rayon İcra Hakimiyyətinin başçısıdır.

**NAZİM VEYİSOV.** Basarkeçər nahiyəsindəki Böyük Məzrə kəndində anadan olub, Xanlar rayon İcra Hakimiyyəti başçısının müavini, Gədəbəy rayon İcra Hakimiyyətinin başçısı vəzifələrində çalışıb. Hazırda Şəmkir rayon İcra Hakimiyyətinin başçısıdır.

**EYVAZ BABAYEV.** Basarkeçər nahiyəsindəki Böyük Qaraqoyunlu kəndindəndir, Gəncə şəhər İcra Hakimiyyətinin başçısı olub.

**RÜSTƏM RÜSTƏMOV.** Basarkeçər nahiyəsindəki Böyük Məzrə kəndindəndir, Bakının Səbail rayonunun İcra Hakimiyyətinin başçısı olub.

**ƏHLİMAN TAĞIYEV.** Basarkeçər nahiyəsindəki Sətənağac kəndindəndir, Azərbaycan Respublikası Prezidentinin Aparatında işləyib, İsmayıllı rayon İcra Hakimiyyətinin başçısı olub.

# HAQQ İŞIĞI

Göyçə əzəli-əbədi yaradıcılıq mühitidir! Saz-söz yaradıcılığı Göyçə üçün sadəcə maraqlı bir fəaliyyət sahəsi yox, sözün mütləq anlamında həyat norması, yaşam tərzi olub. Eramızın V-VI əsrlərində artıq mükəmməl sənət abidəsi- "Kitabi Dədəm Qorqud ala-lisani taifei oğuzan" adlı mükəmməl tarixi əsər yaratmış bir toplumun özgə cür yaşamasını təsəvvür etmək də sadəcə mümkünsüzdür. "Kitabi Dədə Qorqud" dilindəki heyrətamiz poetiklik, əslində hadisələrin cərəyan etdiyi məkanda ünsiyyətin ali forması olan dilin ən yüksək səviyyədə inkişaf etdiyini təsdiqləyən amil kimi çıxış edir. Bu baxımdan şeriyyətin, yəni fikrin ən yığcam, ən lakonik, eyni zamanda başa düşülən şəkildə ifadəsinin sadəcə fərd istəyinin, yaxud fərd kamilliyinin nümunəsi kimi qəbul edilməsi kökündən yanlış bir yanaşmadır. Bəşəri təkamülün inkişaf qanunauyğunluqları da bunu təsdiq edir. Belə ki, dünya tarixində müxtəlif millətlərin, xalqların yaradıcılığının məhsulu olan yüzlərlə, minlərlə sənət nümunəsi var. Amma bunların əksəriyyəti fikrin adi ifadə formasında təzahür edib. Təbii ki, forma adiliyi o şah abidələrin məzmun dəyərini əsla azaltmır. Bununla belə, fikrin ifadə formasının həmin fikrin ünvanlandığı kütlənin şüur səviyyəsinə uyğun seçilməsi qaçılmaz və sübutuna ehtiyac olmayan aksiomadır. Bu mənada "Kitabi Dədə Qorqud" dastanlarının poetik ifadə tərzinin də məhz oğuz elinin yüksək şüurundan qaynaqlandığını söyləmək nəinki mümkündür, hətta zəruridir. Çünki çağdaş dünyaya bəlli olan saysız-hesabsız yazılı və şifahi fikir əmanətlərinin, qədim əsərlərin sırasında yalnız səmavi kitabələrin poetik dillə ifadəsi diqqəti çəkir. Başqa sözlə, ən təkmil ali şüurdan ən kamil seçkinə, yəni Allahdan peyğəmbərlərə göndərilən fikirlərin mütləq poetikliyi özlüyündə maraq doğuran faktdır. Eyni zamanda müxtəlif din, təriqət və cərəyanların, istisnasız olaraq hamısında haqqa, yəni İlahi sehrinə qovuşmanın yolu sayılan rituallar zamanı fikrin mütləq poetik şəkildə ifadə olunması da təkzibimümkünsüz faktdır. Bu reallıqlar fonunda türk boylarında fikrin poetik ifadə formasının ən qədim qatlardan qaynaqlanması təsadüf kimi dəyərləndirilməməlidir, dəyərləndərilə bilməz də. Haqqa qovuşmanın sirli yolu sayılan şaman duaları, hindu ritualları, dərviş ilahiləri də hələ üç-dörd min il bundan öncə ali yetkinlik səviyyəsinə çatmış türk idrakının zaman-zaman üzə çıxmış və günümüzə qədər öz dəyərini itirməmiş nümunələridir.

Kamil sözlə ecazkar səsin vəhdəti haqq yolçuluğunun mütləq şərtidir. Bu fikir bir çox hallarda mexaniki şəkildə qəbul edilir və yaxud inadkarlıqla rədd olunur. Əslində isə, türk fəlsəfi düşüncəsindən qaynaqlanan bu hikmət özündə çox geniş anlamları, həqiqətləri ehtiva edir. Kamil söz söyləmək yalnız kamil dünyagörüşün, yəni elmin bütün qollarından xəbərdar olan insanın nəsibidir. Ecazkar səs isə mütləq mənada təmiz nəfəsdən, yəni fiziki baxımdan tam sağlam olan bətndən qaynaqlanır. Deməli, haqq yolu mənən, ruhən və cismən kamillikdən keçir. Ulu şamanların, müqəddəs hindu kahinlərinin, ilahi dərvişlərin, haqq aşığı olan ozanların yaddaşlarda yaşayan obrazlarının bu gün bizə mifik görünməsinin səbəblərini də məhz bu reallıqda axtarmaq gərəkdir. Belə ki, çağdaş statistik insanı çaşdıran məqam eyni bir obraza aid olan məlumatların müxtəlif əsrlərə uyğun gələn tarixi hadisələrlə bağlılığıdır.

Təbii ki, məsələyə sırf zaman koordinatında yanaşdıqda eyni bir şəxsin üç, bəzən hətta dörd əsrdə yaşaması o qədər də inandırıcı təsir bağışlamır; xüsusən də bugünkü orta statistik ömür müddəti baxımından qeyri-real görünür. Amma bu zaman İlahi dərvişliyin, haqq aşıqlığının, şamanlığın təməl prinsiplərindən olan fiziki hazırlıq faktoru nədənsə nəzərə alınmır. Əslində isə 120 illik dövr ərzində Osmanlı imperiyasının vəziri olmuş və bu müddətdə piyada səyyah qismində Tibetdən Misirə qədər sonsuz səfərlər reallaşdırmış Çələbinin də, Türküstandan Anadoluya cəmi bir həftə ərzində piyada yürüş etmiş Yəsəvi dərvişlərinin də, Altaydan Amerikaya möcüzəvi köç etmiş türk şamanlarının da, nağıl dili ilə bir göz qırpımında məkan dəyişmiş oğuz haqq aşiqlərinin də ömür salnaməsində qeyri-adi heç nə olmayıb. Bu qeyri-adi qabiliyyətlər mükəmməl təlimin bəhrəsidir. Bu cür mükəmməl fiziki hazırlığı və həyat tərzi olan insanın uzunömürlülüyünə də əsla şübhə yoxdur. O məktəbin ən son nümayəndələri olan Ağ Aşığın, Dədə Alının, Dədə Ələsgərin uzunömürlüyünün, heyrətamiz səyyahlıqlarının sirrini də məhz bu məqamda axtarmaq gərəkdir. Bu kamillik məktəbinin sirli-sehirli qalmasının səbəbini isə onun başlıca prinsipində - "Öyünmək haqqdan deyil" hikmətinə söykənən mütləq zəruri şərtdə axtarmaq gərəkdir. Yəni SAF AĞ ELMİnə yiyələnən Oğuz müridləri heç bir halda öz fiziki imkanlarını nümayiş etdirməyərək, o imkanlardan yeganə məqsədin- bəşər övladının mənəvi kamilliyə qovuşması kimi ali məqsədin reallaşmasında vasitə kimi yararlanıblar. Bu prinsip haqq aşiqləri ordenlərinin bütün təkamül tarixi boyunca, hətta SAF AĞ ELMİnin islam dəyərləri ilə qovuşmasından sonra təşəkkül tapmış sufizm təlimində də dəyişməz qalıb. Bunun epizodik nümunələrini Oğuz haqq elminin ən kamil bilicilərindən olan Göyçə haqq

aşiqlərinin ömürlüklərində açıq-aşkar görmək mümkündür və haqqında ayrı-ayrılıqda söhbət açacağımız o məqamlar ilahi SAF AĞ elminin daşıyıcıları olan insanların sadəcə şer yazan, yaxud el şənliklərində saz çalıb-oxuyan insanlarla eyniləşdirilməməsini mütləq şərt kimi önə çıxarır. Başqa sözlə, bu gün daha çox Göyçə əbədi mühitinin qaynağı kimi dəyərləndirilən Miskin Abdal, Ağ Aşıq, Dədə Alı, Dədə Ələsgər kimi dahilər öz ədəbi əsərlərinə görə şair, fəaliyyət prinsiplərinə görə aşıq kimi qəbul edilsələr də, əslində onların yaradıcılığı Oğuz fəlsəfi fikrinin dinamik hərəkətdə olan qolu kimi təqdim edilməli, mükəmməl fəlsəfi sistem kimi öyrənilməlidir. Bunun mütləq zəruri tələb olduğunu tam aydınlığı ilə dərk etmək üçünsə, bu ilahi qüdrət sahiblərinin ömürlüklərindən bəzi məqamlara diqqət yetirmək kifayətdir. Beləliklə, Oğuz elinin SAF AĞ elminin Göyçə mühitində yetirdiyi sufi - dərvişlər kimlər idi?

Oğuz zamanında ümumən Göyçə mahalı mədəniyyət mərkəzi, mənəvi kamillik məktəbi kimi fəaliyyət göstərdiyi üçün təbii ki, burada xüsusiləşmiş qaydada kiminsə mürşid, yaxud mürid kimi seçilməsi mümkün deyildi. İslamın və dini dəyərlər müstəvisində çəkişmələrin vüsət aldığı VIII-X əsrlərdən sonra isə Oğuzun SAF AĞ elminin sirlərinin qorunması zərurəti bu təlimin ümumilikdən fərdiləşməyə keçməsi prosesini sürətləndirib. X əsrdən sonrakı dövrə dair məxəzlərdə ən çox izinə rast gəlinən ocaqlar Əyrivəng, Ağqala, Mədinə, Qızılvəng, Siyaqut kəndlərindəki ocaqlardır ki, onların nümayəndələrinin bu və ya digər formadakı möcüzəvi əməlləri barədə söhbətlər Göyçədə son deportasiyaya qədər yaşarı idi. Ən qəribəsi isə odur ki, XIX əsrdən sonra xalq arasında seyid ocaqları kimi təsniflənən bu ocaqların öz nümayəndələri nəsil şəcərələrindən danışarkən, babalarını seyidlər kimi yox, məhz "şıxlar" kimi xarakterizə edirdilər. XIV əsrin sonlarından XV əsrin ortalarına qədər uzun və qaynar bir yaradıcılıq yolu keçmiş Dəliqardaşlı Rəhim Göyçə aşıq məktəbinin ilk adıbəlli nümayəndələrindən və bəsirət sahiblərindən biri kimi səciyyələndirilir. Amma... Onun öz etiraflarına görə, ustadı Ağqala Şıxlarından biri olub. Nə deyir bu məqam? Deyir ki, Göyçə haqq aşıqları da, Göyçə seyidləri də eyni bir məktəbdən, eyni bir təlimdən bəhrələniblər. Göyçə haqq aşıqları məktəbinin qüdrətli yetirmələrindən sayılan Dədə Heydər haqqında məlumatlar nisbətən müfəssəldir və yuxarıda səslənmiş qənaəti tam mənada təsdiqləyir. Belə ki, Dəliqardaşlı aşıq Rəhimin öz sonbeşiyinə məhz Şeyx Heydərin şərəfinə Heydər adı verməsi tarixi gerçəklikdir və istər-istəməz məntiqi sual doğurur: bu gün geridə qalmış əyalət kimi təsvir edilən XV əsr Göyçəsinin ucqar bir kəndində yaşayan bir el sənətkarı Şeyx Heydər həqiqətlərini hardan bilirdi? Təbii ki, bunu

adi məlumatın ayağına yazmaq da olar. Amma burada söhbətin adi maraqdan yox, ilahi sevginin təzahüründən getdiyi təsdiqə ehtiyacı olmayan həqiqət kimi qabarır ki, bu da səfəviyyə təliminin daşıyıcıları olan Ərdəbil şeyxləri ocağı ilə Göyçə haqq aşıqları ordeni arasında mükəmməl əlaqələr, sirli bağlılıqlar barədə mülahizə yürütməyə əsas verir. Dəliqardaşlı Rəhimin müasiri olmuş

### MİSKİN ABDAL

təxəllüslü tarixi şəxsiyyətlə səfəviyyə təliminin kamillik zirvəsi sayılan Şah İsmayıl Xətainin münasibətləri isə bu mülahizənin birbaşa təsdiqləyicisidir.

1420-1425-ci illər aralığında Göyçə mahalının Siyaqut kəndində (sonradan bu tarixi adı modernləşdirərək "Sarıyaqub" etdilər) anadan olan Miskin Abdalın əsl adı Hüseyndir. Onun mahir saz ustası olmasını təsdiqləyən tarixi məlumatlar olmadığı halda, yaddaşlarda məhz aşıq kimi yaşaması ilk baxışda paradoksal görünsə də, əslində elə Miskin Abdalın tarixi missiyasının mahiyyəti də bu paradoksdadır. Hüseynin saz sənətinin sirlərinə vaqif, eyni zamanda bədahətən şer demək qədər yüksək istedad sahibi olduğu şəksizdir; amma onun məclislər yola saldığı barədə Göyçənin söz yaddaşında heç bir məlumat yoxdur. Deməli, Miskin Abdalın fəaliyyətində bu yön ümumiyyətlə olmayıb; olsaydı bu məqam südəmər körpəsindən ixtiyar qocasınadək hər kəsin şair olduğu bir məkanın söz yaddaşında mütləq bir iz buraxardı. Buradan isə belə bir qənaət hasil olur ki, Miskin Abdalın aşıqlığı bugünkü anlamdakı aşıq sənəti yox, Oğuz haqq aşiqləri məktəbinin özəyi olan bir dərvişlikdir. Şah İsmayılın öz tarixi yürüşünün hərbi mərhələsindən öncə məhz onu ziyarət etməsi də, bu qənaəti təsdiqləyən amillərdən biridir.

Zəruri bir haşiyə.Bəzi "müasir tarix"çilər Şah İsmayılın Göyçə səfərinin Şirvandan qayıdarkən baş tutduğunu və güya sadə maraq mahiyyəti daşıdığını qeyd etsələr də, Şah İsmayılın Ərdəbil-Ərzincan yürüşünün trayektoriyasından aydınca görünür ki, bu yol Həkəri çayı boyunca dağ silsilələrindən keçməklə məhz Göyçənin cənubu ilə Ərzincana doğru uzanıb. Və bunca aydın bir tarixi faktı cılız bir maraq, öz kəndlərinin adını tarixi olayla bağlamaq kimi cılız istək naminə təhrif edərək, Xətainin güya Gəncəyə, oradan hansısa kəndə gəlməsini iddia etmək təxəyyül şikəstliyindən, tarixi təhrif yönündə ermənilərin dəyirmanına su tökməkdən qeyri bir şey deyil.

Bəli, Xətai Göyçəyə gəlib, amma o səfər Səfəvi dövlətinin təşəkkülündən sonrakı dövrə yox, Şah İsmayılın zəfər yürüşləri öncəsinə təsadüf edərək, hansısa hərbi-strateci mahiyyət daşımayıb. Səfərin konkret məqsədi o zaman artıq Oğuz haqq aşiqi dərvişliyinin ənənələrinə uyğun olaraq müvafiq titul- Miskin Abdal təxəllüsü qazanmış kamil mürşid-

lə məsləhətləşmə olub. Məhz o görüşdə Xətai heç bir dini və rəsmi titulu olmayan Miskin Abdaldan onun səlahiyyətli elçisi qismində Dərbənd qalasına getməyi və danışıqlar aparmağı xahiş edib. Miskin Abdalın bu missiyanı uğurla reallaşdırdığı da tam təsdiqini tapmış həqiqətlər sırasındadır. Ümumən Göyçə hövzəsinin, o cümlədən Dərbənd də Dərbənd qalasının Şah İsmayıl Xətainin qanlı döyüşlərinin əhatə dairəsinə düşməməsinə görə, bir millət olaraq, məhz Miskin Abdala borcluyuq. Xətai isə minnətdarlığını elə öz zamanında əyani şəkildə ifadə edib, ixtiyar sahibi olan kimi xidmətlərini layiqincə qiymətləndirərək Miskin Abdalı "Göyçənin seyyidi" təyin edib və Siyaqut kəndini barat olaraq ona bağışlayıb. Şah İsmayıl cismində öz ali zirvəsinə yüksəlmiş Oğuz SAF AĞ ELMİnə sevgi Miskin Abdal təfəkküründə o qədər əhəmiyyətli olmuşdur ki, Şah İsmayılın ölüm xəbəri onun üçün də ölüm hökmü rolunu oynamışdır. 1524-cü ildə Şah İsmayılın ölüm xəbərindən sonra

*"Şıx oğlu İsmayıl, Ulu Yadigar*
*Bir də düşməz ələ, cənnətə getdi!"* -

deyə haray çəkən Miskin dərviş az sonra, təxminən 1525-1530-cu illər aralığında 105 yaşında dünyasını dəyişir. Miskin Abdalın son yadigarı olan bu beytdəki "Şıx oğlu" və "Ulu Yadigar" ifadələri maraq doğurmaya bilməz. Söhbət hansı "Ulu Yadigar"dan gedə bilərdi. Təbii ki, burada söhbətin nəslin fiziki davamından getdiyini söyləmək yersizdir. Çünki sufi təlimində fiziki davamiyyət, heç bir halda ali məqam kimi qəbul edilməyib və Xətainin nəsil davamçıları kifayət qədər çox olduğu üçün, fiziki ölüm haqq aşığını bunca sarsıda bilməzdi.

Miskin Abdalın yuxarıda haqqında söhbət açdığımız kamillik məktəbinin yetirməsi olmasını, yəni fiziki və mənəvi hazırlığın yüksək zirvəsinə qovuşduğunu təsdiqləyən digər məqamlar da var. Xətai ilə görüşərkən Miskin Abdalın təxminən 80 yaşı olub. Bununla belə, o, diplomatik danışıqlar aparmaq, gecəli-gündüzlü işləmək iqtidarındaymış. Qeyri-adi güc sahibi olduğunu, o özü də təsdiqləyib:

*Zimistandır hər gələn yaz*
*Dünya uzun, ömür nə az...*
*Dilimdə söz, əlimdə saz...*
*Gözümdə yaş qocalıram.*

*Miskin Abdal- bəlli adım.*
*Pərvazlandı qol-qanadım.*
*Qayaları oynadardım...*
*Tərpənmir daş, qocalıram.*

Diqqət yetirin!!! 105-110 il ömür sürmüş, 80 yaşında sülh danışıqları aparmış və bu danışıqları ilə bəlkə də tarixdə ilk Azərbaycan dövlətinin yaranması üçün real zəmin hazırlamış adam ömrün azlığından gileylənir. Bu cür kamil təfəkkür sahibi orta insan ömrünün o zamankı həddindən, təbii ki, xəbərsiz deyildi. Amma məsələ ondadır ki, Miskin Abdalın ölçü meyarı orta statistik ömür həddi yox, Oğuz dərvişliyinin təlqin etdiyi ömür idi. Miskin Abdalın bu şerindəki "gözümdə yaş" ifadəsini də yozmalamaq təşəbbüsləri çoxdur: kimisi bunu Xətainin ölümünün, kimisi oğlunun ölümünün kədəri kimi təsnifləyir. Əslində isə Miskin Abdal sufi təliminə xas olan incə eyhamla öz dərvişliyinə işarə edirdi. Bunun məhz bu cür olduğunu dərk etmək üçünsə sufi dərvişliyinin təməl prinsiplərini ehtiva edən bir bəndə diqqət yetirmək kifayətdir:

*Dərviş olan baş gərək,*
*Gözü dolu yaş gərək,*
*Qoyunnan yavaş gərək*
*Sən dərviş olamazsan...*

Yəni sufi dərvişi elmdə hamıdan yüksək, tələskənliyə yol verməyən, özgə faciələrinin ağrısını yaşamağı və yaşatmağı bacaran insan olmalıdır.

Ən nəhayət. Miskin Abdal hər şeydən öncə kamil təbib, zəmanəsinin xarakterik xəstəliklərinin müalicə üsullarını bilən şəxsiyyət kimi məşhur olub. Bu hikmətlərdən bixəbər kütlənin Miskin Abdalın qüdrətini möcüzə kimi dəyərləndirməsi təbii idi. Miskin Abdal isə öz möcüzəsinin hardan qaynaqlandığını bilməmiş deyildi. Bu da ozan-dərviş məktəbinin təlimləri sırasından olan bir özəllik idi ki, onun anoloci izləri Sibir şamanlarında da, Yəsəvi dərvişlərində də, Urmiya aşıqlarında da, Ərdəbil sufi müridlərində də açıq-aydın görünür. SAF AĞ ELMİndə loğmanlıq başlıca şərt kimi dəyərləndirilirdi. Bu da təbiidir, çünki onilliklərin, əsrlərin yolçuluğuna hazırlanan Oğuz haqq aşiqləri- dərvişlər bu yolda yalnız özlərinə güvənməli idilər. Bu qəbil məsuliyyətli missiyaların həyata keçirilməsində yüksək əqli və fiziki hazırlıqla yanaşı mükəmməl loğmanlığın əhəmiyyəti danılmazdır. Məhz sonuncu amil Oğuz dərvişlərinin, haqq aşığı kimi tanınan işıqlı, nurlu insanların - ŞIXların uzunmüddətli səfərlər boyunca gümrahlığının, eyni zamanda getdikləri yerlərdə ilahi qüdrətli insan kimi qəbul edilmələrinin təminatçısı rolunu oynayıb. Bu gerçəkliyin doğurduğu real həyat tərzi Göyçədə

## AĞ AŞIQ

kimi tanınan digər Oğuz ozanının ömürlüyündə də silinməz izlər qoyub. Müasir "tədqiqat"çılar bu tarixi şəxsiyyətin həyat və yaradıcılığını da öz-

lərinə məxsus şəkildə araşdıraraq, ən asan qənaətə rəvac veriblər. Güya bu insanın saçları anadangəlmə ağ olduğu üçün ona bu cür ad verilib. Bəli, anadangəlmə ağsaçlı insanların olması yenilik deyil, bu qəbil doğuşlar kütləvi xarakterli olmasa da, hər halda təbabət onu mütləq şəkildə istisna da etmir. Amma nə qədim türk qaynaqlarında, nə də sonrakı dövrlərdə saçlarının və qaşlarının ağlığına görə təsnifləmə halına rast gəlinmir. Dilində "kürən pəhləvan", "buğdayı şair", "sarışın şah" deyilən bircə görənək ifadəyə belə təsadüf edilməyən bir millətin bəsirətli, mükəmməl təhsilli, loğman kimi ad-san çıxarmış bir saz-söz ustasını bu cür ayamalamasını düşünmək ən azı dilimizin müqəddəsliyinə, xalqın milli-mənəvi dəyərlərinə, ənənələrinə təhqirdir.

"Ağ" ifadəsi qədim Oğuz ağzında təmizlik, haqqa vaqiflik, ucalıq və saflıq anlamına gəlib ki, AĞ ŞIX da əslində bu məziyyətlərlə xarakterizə edilib, seçilib. O da təxminən 115-130-il ömür sürüb və kamil müridlər yetişdirməyi ilə tarixləşib ki, o müridlərin də ən məşhur nümayəndəsi

## DƏDƏ ALI

kimi tanınan Qızılvəngli Alıdır. 1801-ci ildə anadan olan Alı Mirzə oğlu da zəmanəsinin ən görkəmli təbib-loğmanı, səyyahı kimi ad-san çıxarmışdı. Onun Anadoluya çoxsaylı səfərlərindən soraq verən "Alının Türkiyə səfəri" dastanı öz dəst-xəttinə və üslubuna görə sufi məktəbi ənənələrinin yaradıcı təbliği kimi dəyərləndirilə bilər. Bütün bünlarla yanaşı Alı ömrünün də qayəsini müridlər yetişdirmək təşkil edib ki, o müridlərdən biri-

## DƏDƏ ƏLƏSGƏR

Göyçə sufi-dərvişlər ordeninin kamillik zirvəsi, Göyçə- Oğuz fəlsəfi fikir dünyasının şahı sayılır. Azərbaycan dilinin ən mükəmməl şer nümunələrini yaratmış Ələsgər həm də sufi şer məktəbinin yaradıcı nümayəndəsi kimi xarakterizə olunur. Əsasını özü qoyduğu dodaqdəyməz, diltərpənməz, cığalı təcnis kimi şer formalarında Dədə Ələsgərin gözəlliyi vəsfdən çox, fəlsəfi yüklü fikirləri ifadə etməsi misilsiz bir yaradıcılıq uğuru olmaqla yanaşı, Göyçə- Oğuz dərvişliyinin yüksələn xətlə inkişafından xəbər verən fakt kimi dəyərlidir. Zəmanəsində daha çox ustad aşıq kimi qəbul edilsə də, onun Təbrizə, Anadoluya, Dərbəndə çoxsaylı səfərləri Dədə Ələsgər şəxsiyyətinə də başqa yöndən- ilahi dərviş missiyasını həyata keçirən mürşid kimi yanaşılmasını zəruriləşdirir. O da öz mürşidləri kimi güclü intellektə, ilahi fəhmə, qeyri-adi fiziki gücə malik olub. Bu barədə çox danışılmasa da, hər halda yaddaşlarda onun izləri qalıb:

...Günlərin birində Göyçədən Kəlbəcərə gedən dəstəyə qoşulmuş Dədə Ələsgərgilin yolunun üstünə əngəl çıxır. Hansı təbii qüvvənin təsirin-

dənsə yerindən qopub yola düşmüş qaya dar gədikdən keçidi mümkünsüz edir. Dəstədəki 20-30-nəfər nə qədər güc versələr də, qayanı yerindən tərpədə bilmirlər. Əlacsız qalan Dədə Ələsgər yol yoldaşlarına burada gördüklərini heç yerdə söyləməyəcəkləri barədə and içdirdikdən sonra "Ya haqqın Tanqrısı" nidasıyla təkbaşına qayaya güc verib və onu çox asanlıqla yoldan çıxararaq dərəyə diyirləyib. Ələsgərin tez-tez cəzvə düşdüyü və bu zaman ilahi fəhmlə haradasa uzaqlardan, yaxud gələcəkdən xəbər verməsi barədə də çoxsaylı hekayətlər mövcuddur. Onun bu qeyri-adi məziyyətləri isə 105 il ömür sürmüş haqq aşığının ən sevimli şəyirdlərində, Göyçə- Oğuz sufi dərvişliyinin son ünvanları sayılan

**QUL NƏCƏF və NÖVRƏS İMAN**

kimi haqq aşiqlərində zühur edibmiş. Hər ikisi qeyri-adi idrakı, möcüzəvi zehn aydınlığı ilə seçilən bu haqq aşiqləri erməni fitnəsi ilə üzləşdikdən sonra Göyçə haqq aşiqliyi də batil olub. Belə ki, Qul Nəcəf dünyada misli görünməmiş vəhşiliklə qətlə yetirildikdən sonra Növrəs İman müəmmalı şəkildə qeybə çəkilib. Yarı real, yarı mifik məlumatlara görə, sonuncu dəfə Urmiya ellərində görünən Növrəs İmanın sonrakı taleyindən heç bir soraq yoxdur. Hələ 14-15 yaşlarında Dədə Ələsgər kimi qüdrətli haqq aşiqinin diqqətini cəlb edən Növrəs İman kimi bir insanın sonradan başqa təxəllüslə yaşayıb-yaratmasını, yaxud öz dəst-xəttini büruzə verməməsini düşünmək sadəlövhlük olardı. Kamil sufi müridinin dünyəvi haqsızlığa etiraz olaraq haqq yolundan dönməsi də ehtimal olunan məsələ deyil. Ən çox güman olunan variant Növrəs İmanın oğuz dərvişliyi təliminə uyğun olaraq müqəddəs sirləri yad nəfəs toxunmuş, yəni erməni nəfəsi dəymiş ocaqdan uzaqlaşdıraraq digər bir müqəddəs ocağa aparması və o sirlərin yaşarılığı naminə aşkar üsyankar təbliğ yox, gizli təlim yolu tutmasıdır. Analoci hal sufi dərvişlərinin digər bir ordenində- Fəzlullah Nəimi dərvişliyində də müşahidə olunduğu, yəni Nəsiminin edamı ilə "Ənəlhəqq" fəlsəfi fikir cərəyanının çevik manevrlə dünyəvi fəthdən əqli fəthə keçid təcrübəsi olduğu üçün, Göyçə dərviş ordeninin də eyni taktiki gedişə əl atdığı istisna deyil. Hər halda bu günümüzə qədər olan reallıq, Göyçə- Oğuz dərvişlər ocağının son 100 illik dövrü aşıqlığın dünyəvi tərənnüm, mərasim tərənnümçüsü kimi vizual görüntüsü ilə xarakterizə olunur. Bununla belə,

**GÖYÇƏ AŞIQ MƏKTƏBİ**

nümayəndələrinin Azərbaycan aşıq sənətinin inkişafındakı misilsiz rolu danılmazdır. Aşıq Şirin, Aşıq Məhəmməd Qurbanoğlu, Alçalı Məhərrəm, Aqil, Aşıq Ağayar, Aşıq Yunus, Aşıq Əsəd, Aşıq İslam (Yusifov), Aşıq Müseyib (Nəsibov), Aşıq Məhərrəm (Hacıyev), Aşıq Qədir, Aşıq Oruc, Aşıq İmran

(Həsənov), Aşıq Mahmud (Məmmədov), Aşıq Ədalət (Nəsibov), Aşıq Fətullah (Əliyev), Aşıq Cahad (Nağıyev), Aşıq Səlim (Abdullayev) Göyçə aşıq məktəbinin ənənələrinin yaşadılmasında müstəsna rol oynamışlar.

Göyçə ədəbi mühitinin xüsusi diqqət çəkən digər bir özəlliyi də var. Göyçədə aşıq sənətinin yaşarılığı təkcə bu işlə peşəkarcasına məşğul olanların xidmətlərinin bəhrəsi kimi yox, ilk növbədə aşıq sənətinin kamil bilicisi olaraq şerin aşıq havalarına uyğar canrlarda mükəmməl nümunələr yaratmış, amma heç zaman nə aşıqlığı, nə də şairliyi ilə öyünməyən, bir çox hallarda adını gizli saxlayan el sənətkarlarının xidmətləri kimi dəyərləndirilməlidir ki, bu sırada Kəsəmənli Musanın, Bəhmən Göyçəlinin, Ağkilsəli İsmixan Didərginin adları xüsusi olaraq anılmalıdır. Amma bu şərəfli siyahı təkcə onlarla məhdudlaşmır: Göyçədə rəhbər işçilərdən tutmuş adi çobana qədər müxtəlif peşə sahibləri arasında mükəmməl qoşmalar, təcnislər, gəraylılar yaradan insanlar olub. Məsələn, Eloğlu təxəllüsü ilə şerlər yazan Qəşəm Aslanovun şerlərindəki məzmun tutumu, daxili harmoniya, lirizm, fəlsəfi yük eyni dərəcədə Nərimanlı Şahmalının da, Ağkilsəli çoban Məşədinin də, Qaraqoyunlu İbrahim Köçkünün də yaradıcılığına xasdır. Bəli, Göyçədə hər kəs folklorun, xalq yaradıcılığının mükəmməl bilicisi, fikrin kamil poetik ifadəçisi, öyrənib-öyrətmək həvəslisiydi ki, bu fenomen də yalnız və yalnız Göyçədə minilliklər boyunca mütləq mənada hakim mövqedə dayanmış yaradıcı təfəkkürün yaşam tərzi kimi diqtə etdiyi

## MAARİFÇİLİK

ənənələrinin yaşarılığı ilə izah oluna bilər. Bu mülahizəni əsaslandırmaq üçün əvvəlki fəsillərdə haqqında söhbət açılmış tarixi məxəzlərə istinadən saysız-hesabsız ehtimallar, mülahizələr yürütmək olar. Amma indiki halda bu qəbil yanaşmaya əsla ehtiyac duyulmur. Ən azı ona görə ki, hətta ayrı-ayrılıqda götürülmüş bir neçə kəndin- Ataxan, Bitikçi, Əyrivəng, Ağqala, Ağzıbir, Mədinə, Cil, Ərdanuc, Zod kəndlərinin timsalında Göyçə maarifçilik ənənələrinin azı min illik tarixindən söhbət açmaq mümkündür. Bəli,Göyçə maarifçilik ənənələrinin yaşarılığında Kəvər nahiyəsindəki Ağqala və Əyrivəng, Qaranlıq nahiyəsindəki Ağzıbir və Mədinə, Basarkeçər nahiyəsindəki Zod, Çənbərək nahiyəsindəki Cil kəndlərinin rolu bütün tarixi mərhələlərdən qırmızı xəttlə keçən reallıqdır. Göyçədə ilk təlim mərkəzi Əyrivəngdə, ilk rəsmi təhsil ocağı isə I Təhmasib zamanında Mədinədə fəaliyyət göstərib. Göyçədə ilk rus gimnaziyası 1872-ci ildə Ağzıbirdə açılıb və bu gimnaziyanın ilk müəllimi də uzun müddət Əyrivəngdəki ibtidai məktəbdə müəllimlik etmiş Ağqalalı Seyid Hüseynin oğlu Mirəli olub. Sovet dövrünə uyğun alimlik dərəcəsi

alan ilk Göyçəli alimlərdən biri- filologiya elmləri namizədi Mirəli Mahmudov da bu ocağın- Ağqala seyidlərinin nümayəndəsidir.

Ağqala dağıldıqdan sonra əsasən Göyçənin Basarkeçər nahiyəsində məskunlaşan bu nəslin nümayəndələrinin əksər qisminin müəllimliklə məşğul olması da əslində bu ənənələrin təzahürü kimi dəyərləndirilməlidir. Belə ki, sovet dövrünün təhsil müəssisələrində bir gün belə dərs almayan Ağqala və Əyrivəng şıxlarının Basarkeçərin əksər kəndlərinin ilk sovet müəllimləri olduğu tarixi faktdır. Rəsmi təhsilləri barədə heç bir sənəd olmayan həmin müəllimlərin riyaziyyatdan, tarixdən, fizikadan, astronomiyadan dərs vermələri, özü də ən mükəmməl səviyyədə dərs vermələri, maraq doğurmaya bilməz. 1935-47-ci illərdə Böyük Qaraqoyunlu kəndində o şıxlardan (el təsnifində seyidlərdən) birinin şagirdi olmuş ağsaqqallar 30 il sonra öz müəllimlərindən öyrəndikləri elə mətləblərdən söz açırdılar ki, XX əsrin 60-70-ci illərinin şagirdləri o mətləblərdən yalnız ali məktəblərdə xəbər tuturdular. O nurlu şəxsiyyət Mirələkbər Mirməcid oğlu idi. Əslən Ağqala seyidlərindən olan Mirməcid kişi Kəvər nahiyəsinin Əyrivəng kəndində müəllimlik edirmiş və Mirələkbər də 1896-cı ildə elə o kənddə dünyaya gəlib. Atasının yolu ilə gedən Mirələkbər Kəvər gimnaziyasını bitirdikdən sonra elə o nahiyənin bir sıra kəndlərində müəllimlik etmiş, 1918-ci ildə ermənilər Kəvər nahiyəsindəki türk kəndlərini yandırdıqdan sonra Göyçə gölünün digər sahilində yerləşən Toxluca kəndinə köçmüşdür. Qısa müddət Şəmkirdə sığınacaq tapan Mirələkbər Mirməcid oğlu 30-cu ildə yenidən Göyçəyə qayıdaraq, Basarkeçərin əksər kəndlərində müəllimlik etmişdir. Göyçənin fəxri olan insanlardan bir çoxu, o cümlədən Yunis Rzayev, Həbib Həsənov, Tapdıq Əmiraslanov Mirələkbər müəllimin şagirdləri olmuşlar. Daşkənd və Böyük Qraqoyunlu kəndlərində məktəblərin təşkilinə xeyli əmək sərf etmiş Mirələkbər Mirməcid oğlu 1935-ci ildə Böyük Qaraqoyunluda məskunlaşmış və 1947-ci ildə Gədəbəy rayonunun Qaramurad kəndinə köçənə qədər bu kənddə məktəb direktoru olmuşdur. Təhsil sahəsindəki xidmətləri "Qırmızı əmək bayrağı" ordeni ilə qiymətləndirilən Mirələkbər Seyidov 1971-ci ildə Gəncə şəhərində vəfat etmişdir.

Bir haşiyə. O nəslin "rəsmi diplomu" olmayan nümayəndələrindən birinin-Qasım Məmmədovun şagirdi olmaq xoşbəxtliyi bu sətirlərin müəllifinə də nəsib olub. Bu günün özündə də o insanın heyrətamiz təmkini, heyrətamiz mənəvi təmizliyi; heç vaxt institut üzü görmədən əməkdar müəllim səviyyəsinə yüksəlməsinin, nümunəvi pedaqoq kimi fəxri mükafatlara, medallara layiq görülməsinin sirri mənim üçün müəmma olaraq qalır. Bu cür kompleks kamilliyin insana hansı daxili güc bahasına müyəs-

sər olmasını təsəvvür etmək çətin deyil, amma bu cür daxili enerji müqabilində iddiasızlıq, sadəlik, təvazökarlıq, nəfs təmizliyi kimi ali məziyyətləri qoruyub saxlamağın hansı fəlsəfi təlimin nəticəsi olduğunu aydınlaşdırmaq sovet və kapitalist şüurunun alt qatındakı impulslarla uyğunlaşmır.

Ümumən Göyçənin maarifçilik ənənələrindən söhbət düşəndə beş dildə sərbəst danışan, mükəmməl qəzəlləri, rübailəri ilə tanınan Mirzə Bəylər və Göyçədə daha çox Şair Hacı kimi məhşur olan, əslində isə rəsmən ağa statusu daşıyan, Peterburqda təhsil aldıqdan sonra həm də mükəmməl dini biliyə yiyələnmiş Hacı Əliş Ağa kimi tarixi şəxsiyyətləri xatırlamamaq mümkün deyil. Məhz onların və Səmənd ağanın təşəbbüsü, şəxsi fədakarlığı sayəsində Göyçənin ucqar kəndlərinin yeniyetmələri üçün 1885-ci ildə Zod rus-tatar məktəbi açılmış, bu məktəbdə müvəffəqiyyətlə təhsil alan onlarca gənc Peterburqun ali təhsil ocaqlarına göndərilmiş, həmin gənclərin bütün təhsil məsrəfləri ödənilmişdi. "Molla Nəsrəddin" dərgisinin Göyçədə yayılmasının təşəbbüskarı da məhz bu nurlu insanlar olmuşlar ki, onların əsasını qoyduğu maarifçilik ənənələri sonradan kütləvi xarakter almış, Göyçə mühitinin özündəcə yüzlərlə, minlərlə maarif fədaisinin yetişməsini stimullaşdırmışdı. Göyçə maarifçilik ənənələrini sovet dövrünün qadağa-məhrumiyyətlərindən, xüsusən də bolşevik-daşnak təcavüzündən şərəfətlə qorumuş o ziyalılar ordusunun önündə isə qeyd-şərtsiz

## TAPDIQ MUXTAR OĞLU ƏMİRASLANOV

dayanır. O, cəmi 58 il yaşadı, amma ömrünün 39 ilini doğma xalqının maariflənməsinə həsr etdi: Göyçənin ucqar kəndlərinin bir çoxunun ilk müəllimi, ilk direktoru oldu. Rayon partiya komitəsinin ikinci katibi olduğu illərdə təhsil sisteminin təkmilləşməsi üçün mümkün olan hər şeyi etdi və bu yöndəki xidmətləri nəzərə alınaraq, Tapdıq müəllim təhsil şöbəsinin müdiri təyin olundu. Bu vəzifədə olduğu 17 il ərzində Tapdıq müəllimin Basarkeçər rayonunun azərbaycanlı məktəblərinin inkişafına sərf etdiyi əməyin real bəhrəsini adi statistika belə tam mənada əks etdirir: 1959-1977-ci illər ərzində Basarkeçər rayonunun orta məktəblərini bitirən azərbaycanlı gənclərin hər ikisindən biri SSRİ-nin ali və orta ixtisas məktəblərinə qəbul olub, o gənclərin 100 nəfərindən çoxu alimlik dərəcəsi alıb, 1000 nəfərə qədəri öz peşələrinə uyğun sahələrdə uğur qazanaraq, müxtəlif dövrlərdə müxtəlif regionlarda rəhbər vəzifələrə irəli çəkiliblər. Ən ümdəsi o idi ki, məhz Tapdıq müəllimin prinsipiallığı sayəsində həmin illərin məzunları yurda bağlılıq ruhunda tərbiyə olunurdular və ali təhsildən sonra onların böyük əksəriyyəti, erməni repressiyalarına məhəl qoymadan, doğma yurda qayıdırdılar. Bir sözlə, XX əsrin 60-70-ci illərində Göyçə ziyalı mühitinin yüksək vətənpərvərlik, milli təəssübkeşlik, er-

məni təcavüzünə qarşı döyüşkənlik ruhunda formalaşması ilk növbədə Tapdıq Əmiraslanovun müstəsna xidmətlərinin bəhrəsi idi.

Yeri gəlmişkən. Tapdıq müəllimi üzbəüz görmək, səsini eşitmək xoşbəxtliyi mənə bir dəfə nəsib olub... 1972-ci ildə atam Qəşəm Aslanovun dəvəti ilə Şuşa rayon təhsil şöbəsində çalışdığından, biz də ailəlikcə Şuşada yaşayırdıq. Tətillərin birində Göyçəyə gələndə hansısa bir arayış üçünsə anamla birlikdə Basarkeçər təhsil şöbəsinə getdik. Bir erməni mühasibin hazırladığı arayışı təsdiqlətmək üçün Tapdıq müəllimin qəbulunda olduq. Əvvəl çox yüksək mədəniyyətlə hal-əhval tutdu, atamın işləri ilə maraqlandı. Bu anda sifəti elə nurlu idi ki... Arayışa diqqət yetirəndə isə onu sanki ildırım vurdu...Arayışı hazırlayanı çağırıb, sənədi niyə erməni dilində hazırladıqlarını soruşdu. Erməni də həyasızcasına cavab verdi ki, nə fərqi var, onsuz da Dağlıq Qarabağda hamı erməni dilini bilir. Tapdıq müəllim özü boyda alova dönüb zəbanə çəkdi: “Ay axmaq, Qarabağ Azərbaycandır, Azərbaycanın dövlət dili isə Azərbaycan dilidir. Orada hansı itinsə hansısa dili başa düşüb-düşməməsinin məsələyə dəxli yoxdur!” Sonra o işçinin başına nələr gəldiyini, o anda dediyi sözlərə görə Tapdıq müəllimin başının nə müsübətlər çəkdiyini bilmirəm. Təkcə onu bilirəm ki, bizim bir millət olaraq 1988-ci ildən sonra yaşadığımız faciələr fonunda dərk etdiyimiz həqiqətləri Tapdıq Əmiraslanov hələ XX əsrin 60-cı illərində dərk etmişdi və bizdən fərqli olaraq, o heç vaxt arxayınlaşmırdı, Azərbaycanın tarixi haqqı uğrunda, Azərbaycan dilinin müqəddəsliyi uğrunda daim mübarizə aparırdı.

Tapdıq müəllimin qəfil və son dərəcə müəmmalı ölümündən sonra ermənilər Basarkeçər rayonunun təhsil sistemində türk ruhunun qarşısına sipər çəkməyə müvəffəq oldular. Amma Göyçənin maarifçilik ənənələrinə xələl gətirə bilmədilər. Çünki bu tarixi missiyanı- Göyçənin maarifçilik ənənələrini qorumaq kimi ağır və son dərəcə şərəfli missiyanı Göyçənin başqa bir qüdrətli oğlu-

## SƏFİYAR BƏYLƏR OĞLU MUSAYEV

öz üzərinə götürdü və ləyaqətlə yerinə yetirdi. O, sözün həqiqi mənasında Tapdıq müəllimdən sonra Göyçə təhsil sistemindəki mənəvi boşluğu-arxasızlıq, köməksizlik kimi təəssüratların doğurduğu ruh düşkünlüyü sindromunu ağlasığmaz iradə, təmkin və qeyri-adi zəhmət sayəsində aradan qaldırmağa müvəffəq oldu. Tapdıq Əmiraslanovdan sonrakı dövrlərdə ali təhsil üçün Bakıya üz tutan göyçəli tələbələrin, demək olar hamısı, xüsusən də Bakı Dövlət Universitetində oxuyanlar güclü bir əlin himayəsini daim hiss edirdilər öz üzərlərində. Çoxları heç üzdən onu tanımırdılar da; amma naqis niyyətli müəllimlər məhz Səfiyar Musayevə görə

göyçəli tələbələri haqsız yerə incitməyə cəsarət etməzdilər, qabiliyyətli tələbələr heç özləri də güman etmədən Səfiyar Musayevin şəxsində arxa-dayaq tapardılar, onun təmənnasız yardımı sayəsində daha geniş arenalara çıxmaq imkanı qazanardılar. İmkansız, amma qabiliyyətli tələbələrlə son qəpiyini belə bölməkdən çəkinməzdi Səfiyar müəllim. Ən əsası: Səfiyar Musayev sözün həqiqi mənasında MÜƏLLİM oldu göyçəli tələbələrə, onları yurda bağlılıq, el-obaya yararlılıq ruhunda, erməni repressiyalarına qarşı mübarizə ruhunda tərbiyə etdi. Yuzlərlə gəncin ali təhsildən sonra yurda qətiyyətlə dönüşünü Səfiyar müəllimin bu fədakar vətəndaşlıq mövqeyi stimullaşdırdı.

1935-ci il iyul ayının 17-də Basarkeçər nahiyəsinin Hüseynquluağalı (Nərimanlı) kəndində dünyaya göz açmışdı Səfiyar Musayev. 1953-cü ildə Böyük Məzrə kənd orta məktəbini qızıl medalla, 1958-ci ildə ADU-nun tarix fakultəsini fərqlənmə diplomu ilə bitirdikdən sonra doğma yurda dönərək, Çaxırlı kəndində müəllimlik etmiş; "Sovet Ermənistanı" qəzetinin Göyçə mahalı üzrə müxbiri olmuşdu. 1962-ci ildən isə taleyini elmə bağlamışdı Səfiyar müəllim. ADU-nun siyasi tarix kafedrasının müəllimi, dosenti, professoru, kafedra müdiri vəzifələrində işlədi; MÜSTƏQİL AZƏRBAYCAN uğrunda mübarizlərdən biri kimi müstəqil Azərbaycan Respublikasının ilk parlamentinə deputat da seçildi (1995-ci il), AR Milli Məclisinin, həmçinin MDB Dövlətlərarası Parlament Assambleyasının İnsan Hüquqları daimi komissiyalarının sədri də oldu o. Bir sözlə, həyatının son dəqiqəsinədək- 1999-cu il yanvar ayının 6-da həyatla vidalaşanadək, sözün həqiqi mənasında Azərbaycan dövlətinə, Azərbaycan xalqına, bu xalqın, bu dövlətin bir hissəsi olmaqla yanaşı, həm də təməl sütunlarından olan Ulular Yurdu GÖYÇƏyə, Göyçə maarifçilik ənənələrinə ləyaqətlə xidmət etdi Səfiyar Musayev. Bu xidmətləri müqabilində o çoxsaylı diplomlara, fəxri fərmanlara, medallara layiq görülmüşdü. O mükafatlar sırasında bir fəxri titul Səfiyar müəllimə hər şeydən doğma idi: o fəxri titulu heç bir qurum rəsmiləşdirməmişdi, o fəxri titulu el vermişdi. Göyçənin 5000 illik tarixində bu ada layiq insanlar çox olub. Amma Göyçə öz didərginlik taleyini yaşadığı ən ağır dövrdə- son 17 ildə bu titulu daşıyan tək bircə nəfər vardı. Və yəqin ki, "Bizim Səfiyar müəllim" titulundan yüksək titulu yox idi və heç bundan yüksək titul tanımırdı da, tanımaq istəmirdi də Səfiyar Musayev. Çünki onun tarixi missiyası məhz vətənin bütövlüyü naminə çarpışmaq, Vətənin təməldaşı olan bir bölgənin maarifçilik ənənələrini yaşatmaq idi.

Əsası Oğuz xanədanının ən parlaq dövrlərində qoyulmuş və Tapdıq Əmiraslanovla Səfyar Musayevin şəxsində öz zirvə məqamına yetmiş Göy-

çə maarifçilər məktəbinin tarixi ənənələrinin yaşarılığında xidməti olmuş insanlarsa saysız-hesabsızdır. Amma təəssüflər olsun ki, bu şərəfli xidmətlərinə görə xatırlanmaq haqqı olanların tam siyahısını tərtib etmək indinin reallıqları- müvafiq arxivlərin ermənilər tərəfindən məhv edilməsi; o ərazilərdən deportasiya olunmuş insanların olduqca geniş bir arealda səpələnməsi; Göyçənin söz yaddaşının əvəzsiz daşıyıcısı olan yaşlı nəslin böyük əksəriyyətinin coğrafi şəraitin kəskin dəyişkənliyi səbəbi ilə qısa bir zamanda dünyasını dəyişməsi kimi obyektiv səbəblərlə şərtlənən reallıq baxımından sadəcə mümkün deyil. Bununla belə, Göyçənin maarifpərvər insanları, yüzlərlə gəncin təhsil almasında müstəsna rolu olmuş milli ruhlu müəllimlər barədə əldə olan məlumatları gələcək nəsillərə çatdırmaq vacibdir (anılmaq haqqı olub, amma barəsində məlumat əldə edə bilmədiyimiz nurlu Göyçə ziyalılarınınsa ruhu bağışlasın bizi).

Bu sırada anılmaq haqqı olanlardan biri, bəlkə də birincisi

## ŞƏHİD ALİM - MÜƏLLİM

**Mehdi Rəhim oğlu Həsənovdur.** 1935-ci il oktyabrın 23-də Kəvər nahiyəsinin Ağzıbır kəndində anadan olmuşdu o. Hələ 1905-ci il qırğınlarında başı müsibətlər çəkmiş bu kəndin bütün övladları kimi Mehdi Rəhim oğlu da təhsilini öz kəndlərində yox, qaçqın həyatı yaşayan bütün binəsib taleli ailələrin uşaqları kimi müxtəlif yerlərdə almışdı. Bununla belə o, ali təhsil almağa da, aspiranturanı müvəffəqiyyətlə bitirərək dissertasiyasını ləyaqətlə müdafiə etməyə də özündə güc tapmışdı. 27 yaşında Mehdi Həsənov artıq filologiya elmləri namizədi və İrəvan Pedoqoji İnstitutunun müəllimi, iki kitab müəllifi olan yazıçı idi. Ən əsası, XX əsrin 60-cı illərində İrəvan Pedoqoji İnstitutunda təhsil alan azərbaycanlı tələbələrin sevimlisi, arxa-dayağı idi o. Onun millətçi mövqeyi, İrəvandakı türklər arasında günü-gündən artan nüfuzu erməniləri əndişələndirməyə bilməzdi. Və erməni xisləti həmişə olduğu kim bu dəfə də tam həyasızlığı ilə çıxdı üzə. Mehdi Həsənov ömründə ilk dəfə müraciət etdiyi xəstəxanadan, Mərkəzi Komitənin "leçkomissiya"sından geri qayıtmadı. Adi kor bağırsaq əməliyyatından təxminən iki gün sonra dəhşətli ağrılar içində dünyasını dəyişdi. Sən demə, "təcrübəli həkim" yaranı bağlayarkən əməliyyat zamanı istifadə edilmiş çirkli pambıq topasını və qayçını xəstənin qarın nahiyəsindən götürməyi "unudubmuş". Beləcə, nurlu bir sima, gözəl bir ziyalı, maarifpərvər bir alim də erməni qəsdinin qurbanı kimi düşdü şəhidlərin sırasına...

Mehdi Rəhim oğlunun böyük qardaşı

## HƏBİB HƏSƏNOV

bilavasitə müəllimlik etməsə də, Göyçədə və ümumən Ermənistanda maarifçilik ənənələrinin qorunub saxlanmasında, təhsil sisteminin tərəqqi-

sində onun da müstəsna xidmətləri olmuşdur. Ağzıbir kəndində dünyaya göz açan Həbib müəllim uzun illər partiya və sovet orqanlarında məsul vəzifələrdə işlədikdən sonra "Sovet Ermənistanı" qəzetinin baş redaktoru, Ermənistan SSR Ali Soveti sədrinin müavini olmuş, "Respublikanın Əməkdar jurnalisti" fəxri adına layiq görülmüşdü. Qardaşına namərdcəsinə qəsd edildikdən az müddət sonra, bu cinayətə etiraz əlaməti olaraq bütün vəzifələrdən istefa verən Həbib müəllim ömrünün qalan hissəsini Azərbaycan Respublikasının tərəqqisinə həsr etdi.

Göyçədə təhsilin inkişafı, azərbaycanlı şagirdlərin təhsil səviyyəsinin yüksəldilməsi yönündə xüsusi xidmətləri ilə fərqlənərək "Əməkdar müəllim" fəxri adına layiq olan şəxsiyyətlər çox idi. Amma erməni qısqanclığı ucbatından bu nurlu insanlardan cəmi 12 nəfəri bu fəxri ada rəsmən layiq görülüb:

**Əliyev Mədəd Ağamalı oğlu.** Basarkeçər nahiyəsindəki Böyük Məzrə kəndində dünyaya göz açan bu ləyaqətli müəllim doğma rayonunun bütün kəndlərində məktəblərin təşkili yönündə müstəsna xidmətlər göstərib və Ermənistan SSR Ali Sovetinin 1940-cı il 22 noyabr tarixli fərmanı ilə "Əməkdar müəllim" adına layiq görülən ilk sovet müəllimlərindən biri olub.

**Məhərrəmov Hüseyn İmaməli oğlu.** Basarkeçər nahiyəsindəki Kərkibaş kəndindən olan Hüseyn Məhərrəmov da "Əməkdar müəllim" adına layiq görülən sovet müəllimlərinin ilk sırasındadır. Bu fəxri ada layiq görülərkən öz kəndlərində məktəb direktoru olan Hüseyn müəllim sonradan partiya və sovet orqanlarında işə cəlb olunmuş, ömrünün sonlarına qədər doğma rayonunda bir sıra məsul vəzifələrdə işləmişdir.

**Hacıyev İsgəndər Qurban oğlu.** Uzun illər Basarkeçər rayonundakı Kəsəmən kənd orta məktəbinə rəhbərlik edən İsgəndər müəllimin yetirmələri arasından onlarca alim və ləyaqətli dövlət xadimləri çıxmışdır. Bu sıradan təkcə Qəşəm Aslanovun adını çəkmək kifayətdir ki, İsgəndər müəllimin kim olduğunu tam mənada dərk edəsən. İsgəndər Hacıyevin əməyi 1950-ci il, noyabr ayının 22-də qiymətləndirilmişdir.

**Hacıyev Mahmud Qəhrəman oğlu.** Ermənistan SSR Ali Sovetinin 22.XI.1950-ci il tarixli fərmanı ilə "Əməkdar müəllim" adına layiq görüləndə Mahmud müəllim Böyük Məzrə kənd orta məktəbinin direktoru və bu ada layiq görülənlərin ən gənci idi. Bundan sonra da sonuncu deportasiyaya qədərki 38 il ərzində doğma məktəbindən ayrılmadı.

**Həsənov Ələkbər Kazım oğlu.** O əməkdar müəllim adına 1951-ci il dekabr ayının 4-də, Basarkeçər rayonundakı Şişqaya kənd orta məktəbinin dərs hissə müdiri işləyərkən layiq görülmüşdü. Sonradan partiya orqanlarında işə cəlb edilən Ələkbər Həsənli həm də mahir söz ustası, qəlb

oxşayan şerlər müəllifi idi.

**Həsənov İbrahim Əziz oğlu.** Uzun illər Basarkeçər rayonundakı azərbaycanlı məktəblərində çalışıb. 1962-ci il avqustun 31-də "Əməkdar müəllim" adına layiq görüləndə Bala Məzrə kənd orta məktəbinin direktoru olan İbrahim müəllim sonradan Qazax rayonunda məskunlaşmış və məhz burada onun müəllimlik istedadı, təşkilatçılıq qabiliyyəti tam mənada üzə çıxmış, Qazaxda təhsil sisteminin inkişafı yönündə müstəsna xidmətləri olmuşdur.

**Əmiraslanov Tapdıq Muxtar oğlu.** Ermənistan SSR Ali Sovetinin 11 noyabr 1963-cü il tarixli fərmanı ilə "Əməkdar müəllim" fəxri adına layiq görüləndə Tapdıq Əmiraslanov Basarkeçər rayon xalq maarif şöbəsinin müdiri idi.

**Aslanov Əvəz Musa oğlu.** Əmək fəaliyyətinə Basarkeçər rayonundakı Nərimanlı kənd orta məktəbinin müəllimi kimi başlayan Əvəz Aslanov 1957-cı ildən ömrünün son gününə qədər Basarkeçər rayon xalq maarif şöbəsinin inspektoru işləyib. Təhsilin yüksəlişi yönündəki xidmətlərinə görə 1965-ci il oktyabrın 10-da "Əməkdar müəllim" adına layiq görülüb.

**Əliyev Kazım Əsgər oğlu.** Çəmbərək rayonunda (Krasnoselo) azərbaycanlı məktəblərinin inkişafı yönündə müstəsna xidmətləri olan bu ləyaqətli insan Ermənistan SSR Ali Sovetinin 08 oktyabr 1965-ci il tarixli fərmanı ilə "Əməkdar müəllim" adına layiq görüləndə Krasnoselo rayonundakı Ardanış kənd orta məktəbinin direktoru işləyirdi.

**Orucova Zəhra Əli qızı.** Göyçənin ilk qadın müəllimlərindən olan Zəhra Əli qızının uzun illik məhsuldar fəaliyyətinə layiqli qiymət 1967-ci il sentyabr ayının 30-da verilib. "Əməkdar müəllim" adına layiq görüləndə, o, Basarkeçər rayonundakı Pəmbək kənd məktəbinin müəllimi idi.

**İbrahimov Adil Abbas oğlu.** Ermənistan SSR Ali Sovetinin 24 yanvar 1978-ci il fərmanı ilə fəxri ada layiq görülən Adil Abbas oğlu Basarkeçərdəki Şişqaya kənd orta məktəbinin müəllimi olub.

**İbrahimov Məcnun Səyyad oğlu.** Sətənağac kəndində anadan olub, Universiteti və Ali Partiya Məktəbini bitirib, partiya və sovet orqanlarında bir sıra məsul vəzifələr tutub. "Əməkdar müəllim" adına Ermənistan SSR Ali Sovetinin 07 mart 1978-ci il tarixli fərmanı ilə layiq görülüb. O zaman Məcnun İbrahimov Basarkeçər rayonundakı M.P.Vaqif adına Bala Məzrə kənd qiyabi məktəbinin direktoru idi.

Göyçənin zəngin maarifçilik ənənələrindən qaynaqlanan bir sıra nurlu şəxsiyyətlər isə ümumən Azərbaycan maarifçilik ənənələrinin öyrənilməsinə və zənginləşdirilməsinə layiqli töhfələr vermişlər ki, bu sırada ilk yerdə akademik Hüseyn Əhmədovun adı gəlir. 1926-cı il iyulun 17-də

Çəmbərək nahiyəsindəki Toxluca kəndində anadan olan

### HÜSEYN MUSTAFA OĞLU ƏHMƏDOV

1943-cü ildə, yeddiillik təhsilini başa vurduqdan sonra öz kəndlərində müəllimlik etmişdir. 1947-ci ildə Gəncə Pedoqoji Texnikumunu, 1951-ci ildə Gəncə Pedoqoji İnstitutunu, 1955-ci ildə Pedoqoji elmlər üzrə aspiranturanı bitirən Hüseyn müəllim elə həmin il namizədlik dissertasiyasını da müvəffəqiyyətlə müdafiə etmişdir. 1972-ci ildə "XIX əsrdə Azərbaycanda təhsilin inkişaf tarixi" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək ADPU-nun ümumi pedaqogika kafedrasının professoru seçilən bu işgüzar alim 1977-ci ildən etibarən fasiləsiz olaraq həmin kafedranın müdiridir. Bu illər ərzində o Azərbaycan pedaqogika elminin yüksəlişinə birbaşa təsir edən sanballı elmi əsərlər yazmış, 40 nəfər alim-pedaqoq yetişdirmişdir. Bu xidmətlərinə görə Azərbaycanın "Qabaqcıl Maarif Xadimi", "Əməkdar Ali Məktəb İşçisi" fəxri adlarına, "SSRİ-nin Maarif Əlaçısı" döş nişanına layiq görülən Hüseyn Əhmədov SSRİ Pedaqoci Elmlər Akademiyasının müxbir, Azərbaycan Milli Yaradıcılıq Akademiyasının və Azərbaycan MEA-nın həqiqi üzvü; Beynəlxalq Pedoqoji Elmlər Akademiyasının akademiki və "Böyük qızıl medalı"nın laureatıdır.

Göyçə maarifçilik ənənələrinin öyrənilməsi, yaşadılması və Azərbaycan maarifçilik ənənələrinin üzvi tərkib hissəsi kimi inkişafı yönündə müstəsna xidmətlər göstərmiş nurlu şəxsiyyətlərdən biri də professor

### ABUZƏR ALI OĞLU XƏLƏFOV

olmuşdur. 1931-ci il dekabr ayının 25-də Çəmbərək nahiyəsindəki Cil kəndində anadan olan Abuzər müəllim Azərbaycanda ali kitabxanaçılıq təhsilinin təşkilatçılarından biridir. O kitabxanaçılıq fakultəsinin yaradılmasına gərgin əmək sərf etmişdir. Azərbaycanda kitabxanaşünaslığa dair ilk fundamental tətqiqatın da müəllifi Abuzər Xələfovdur. SSRİ-də kitabxanaşünaslıq sahəsində ilk elmlər doktorlarından biri olan Abuzər Xələfov 12 monoqrafiyanın, 120 elmi məqalənin müəllifidir. O eyni zamanda 16 elmlər namizədinin elmi rəhbəri, 2 nəfər elmlər doktorunun rəsmi məsləhətçisi olmuşdur. Görkəmli maarifpərvər alimin zəhməti 6 medalla və "SSRİ-nin Ali Məktəb Əlaçısı", "Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət İşçisi" fəxri adları ilə qiymətləndirilmişdir.

Bu mahalın müqəddəs ruhlar, nurlu zəkalar yurdu, oğuz türkünü haqqa qovuşdurmaq kimi ilahi bir missiya daşıyan haqq dərvişlərinin təlim mərkəzi olduğunu təsdiqləyən amillərdəni biri də

### GÖYÇƏ LOĞMANLAR MƏKTƏBİ

və onun əbədiyaşar ənənələridir. Hələ iki min il öncə mükəmməl poeziya

nümunələrinin, hətta mədənçilik kimi ciddi texniki və riyazi biliklər tələb edən bir sahənin inkişaf etdiyi bir mahalda elmə, təhsilə marağın güclü olması təbiidir. Göyçədə oğuz ozan məktəbinin, haqq dərvişləri ordeninin mövcudluğu heç kimdə şübhə doğurmur. Amma nə xoşdur ki, Göyçənin bəşəri şüurun təkamülündəki rolu təkcə poeziya ilə, haqqa qovuşmanın sirli təlimi olan fəlsəfi düşüncə ilə məhdudlaşmır. Haqq dərvişliyinin ilahi missiyası- yaradıcı düşüncəni dünyanın aparıcı qüvvəsinə çevirmək kimi ağır və məsuliyyətli missiya bu işə çiyin verən insanları- haqq dərvişlərini eyni zamanda öz sağlamlıqlarının qeydinə qalmaq məcburiyyəti ilə üz-üzə qoyurdu. Və məhz bu reallıq Göyçədə təbabət elminin- loğmanlıq məktəbinin inkişafını stimullaşdıran amil kimi çıxış edirdi.

Son deportasiyaya qədər xalqın qan və söz yaddaşında qalmış məlumatlardan aydınca görünür ki, Göyçə loğmanlarının fəaliyyəti ilə orta əsr Ərdəbil şəfaxanalarının fəaliyyəti arasında müəyyən oxşarlıqlar olub. Təbii ki, bu heç də Göyçə və Ərdəbil təbibləri arasında hər hansı bağlılıq olduğu barədə qəti söz söyləmək üçün əsas ola bilməz. Yəni, biz Göyçə təbiblər məktəbinin Ərdəbil şəfaxanaları ilə hər hansı bağlılığını, yaxud birinin digəri üçün baza rolu oynadığını iddia etmək fikrindən çox-çox uzağıq. Amma hər halda, bu, diqqətəlayiq bir məqam, araşdırılmasına ehtiyac duyulan bir məsələdir. Hələlik isə bu yönlü rəsmi tarixi faktların naməlumluğu səbəbiylə Göyçə və Ərdəbil loğmanlarının fəaliyyət prinsiplərindəki oxşarlığı sadəcə tarixi reallıqlardan qaynaqlanan zəruri şərtlərin, zaman və məkan fərqindən asılı olmayaraq, hər yerdə diqtə etdiyi məcburi normativlər kimi də dəyərlindirmək olar. Ən əsası isə odur ki, bütün bu subyektiv mülahizə və ehtimallara baxmayaraq, özünəməxsus ənənələri formalaşmış Göyçə loğmanlar məktəbinin mövcudluğu tarixi reallıqdır, inkarolunmaz gerçəklikdir və... Və bilavasitə o məktəbin ən son nümayəndələrindən olub, XIX əsrin son qərinəsi ilə XX əsrin ilk qərinəsini əhatə edən uzun bir zaman ərzində Göyçə camaatına, ümumən oğuz türkünə təmənnasız xidmət etmiş, tarixin yaddaşında

LOĞMAN HACI NAĞI

kimi əbədiləşmiş müdrik şəxsiyyətin fəaliyyəti bu məktəbin ənənələrinin tədqiqi, bu məktəbin ümumən təbabət elminin inkişafındakı rolunun öyrənilməsi baxımından olduqca önəmlidir...

Çamırlı kəndində doğulub böyümüş Nağının tibb təhsili aldığı barədə heç bir rəsmi məlumat yoxdur. Heç o özü də nə vaxtsa hansısa bir uzaq diyarda təhsil aldığı barədə söhbət açmayıb. Amma ən gərgin anlarda öz ustadlarını xatırladığı, el-obanın taleyi ilə bağlı həlledici məqamlarda ustadlarından iqtibas etməsi həmkəndlilərinin və onun əlləriylə şəfa tapmış

insanların xatirələrindən el yaddaşına köçmüş həqiqətdir. Loğman Nağının müalicə üsullarında yalnız Göyçə mühitinə və coğrafi imkanlarına məxsus dərman bitkilərindən istifadə olunması onun peşəkarlığının mütləq mənada Göyçədə mövcud olmuş təbabət ənənələrindən qaynaqlandığına, Hacı Nağının məhz bu məktəbdə təlim gördüyünə dəlalət edən fakt kimi qəbul edilə bilər. Eyni zamanda loğman Nağının peşəkarlıq səviyyəsi də Göyçə təbiblər məktəbinin yüksək səviyyəsi, geniş profilliyi barədə mülahizə yürütməyə imkan verir. Hacı Nağının hələ XIX əsrin sonlarında müvəffəqiyyətli cərrahi müdaxilələri barədə əfsanəvi söhbətlər Göyçənin el yaddaşında bu günə qədər yaşarıdır. Deyilənlərə görə, Hacı Nağı xüsusi qızıl borunun vasitəsi ilə, heç bir lüzumsuz kəsiyə ehtiyac duymadan kor bağırsaqdakı iltihabı bədəndən xaric edər, sonrakı mərhələdə bitkilərdən hazırlanmış məlhəmin köməyi ilə bu iltihab ocağını tam qurudarmış. Bu mahir loğmanın, əhalisi əsasən heyvandarlıqla məşğul olan Göyçə mühitində tez-tez rastlanan burselyoz xəstəliyini tam və fəsadsız aradan qaldırması, "sarılıq" xəstəliyini cəmi bir həftəlik yataq recimi müddətində dəf etməsi hətta bu günün geniş laborator imkanları baxımından olduqca möcüzəvi təsir bağışlayır. Hələ XIX əsrin sonlarında bu qəbil mükəmməllik səviyyəsində olan bir məktəbin yetkinləşmə dövrü isə heç şübhəsiz ki, bir il, br qərinə, bir əsr deyildi; bu təkmilliyin əsrlərlə, min illərlə davam edən bir prosesin məntiqi yekunu olduğu şəksizdir.

Hacı Nağını mükəmməl loğman kimi yetişdirən insanların konkret adları bəlli olmasa da, hər halda Göyçədə mükəmməl xalq təbabəti məktəbinin olduğunu təsdiqləyən tarixi məlumatlar var. Belə ki, Göyçə səfəri zamanı yüksək dağ şəraitində qan təzyiqinin kəskin artımı səbəbiylə Şah İsmayılın səhhətində ciddi problemlər yarandığı tarixin yaddaşında iz salmış faktdır. O da faktdır ki, Mədinə kəndində əhvalı pisləşmiş gələcək şaha ilk tibbi yardımı ziyarətinə gəlmiş müridlərindən biri- Ağqala dərvişlərindən olan Əli adlı loğman göstərmişdir və qızılbaşlırın hakimiyyəti təmin edildikdən sonra, gənc Şah minnətdarlıq əlaməti olaraq Ağqalalı Loğman Əliyə "seyyidlik" rütbəsi vermiş və Ağqalanı barat olaraq ona bağışlamışdır. Bu barədə Şah İsmayılın imzaladığı fərmanın 1905-ci ilə- Ağqala kəndi ilk dəfə ermənilər tərəfindən yandırılan günə qədər qaldığı Ağqala seyidlərinin son nümayəndələrinin yaddaşındakı ən ağrılı xatirədir. Yeri gəlmişkən. Şah İsmayıl dövründə "seyyidlik" rütbəsi bir növ təltif səciyyəsi daşıyaraq bu titula layiq görülmüş şəxsin şahın səlahiyyətli nümayəndəsi olduğunu təsdiqləsə də; bir neçə nəsil sonra bu rütbələr dini təyinatlarla eyniləşdirilərək həmin şəxslərin ocaqlarının ziyarətgaha çevrilməsinə səbəb olub. Eyni aqibətlə Miskin Abdalın ocağı da, Loğman Əlinin ocağı da üzləşib.

Bəli, Loğman Hacı Nağı məhz belə bir məktəbin- mükəmməl xalq təbabəti akademiyasının yetirməsiydi...Bəli, Hacı Nağı tarixi min illərlə ölçülən oğuz təbabətinə sevginin zirvə məqamına yetmiş loğman idi...Bəli, Hacı Nağı Göyçə xalq təbabəti məktəbinin ən kamil bilicisiydi, amma...Amma sonuncusu deyildi. Ola da bilməzdi. Çünki təbabətə sevgi, Göyçə loğmanlar məktəbinin ənənələrinə sadiqlik göyçəlilərin qanınaiiliyinə hopmuş bir möcüzəvi fenomen- irsi sindromdur. Və bu sevgi, bu sədaqət Göyçənin nurlu- ziyalı övladlarının əməyində, əməlində zühur edərək o elə, o obaya baş ucalığı gətirib...Öz loğmanlıq səriştəsi, öz təbiblik qüdrəti ilə Göyçəyə fəxarət qazandırmış o nurlu şəxsiyyətlərin önündə dayananlardan birinin adı isə bu gün təkcə Azərbaycanın yox, ümumən dünyanın elmi ictimaiyyətinə yaxşı tanışdır:

## AKADEMİK ƏHLİMAN ƏMİRASLANOV

XX əsr Azərbaycan təbabət elminin ən görkəmli simaları və dünyanın ən məhşur onkoloqları sırasında yer almış bu qütrəli loğman dünyaya 1948-ci il noyabrın 17-də Göyçənin ən iri və ən qədim yaşayış məskənlərindən olan Zod kəndində göz açıb. 1965-ci ildə Zod kənd orta məktəbini qızıl medalla, 1971-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirdikdən sonra Ümumittifaq Onkoloci Mərkəzinin aspiranturasına daxil olmuş və namizədlik dissertasiyasını vaxtından əvvəl müdafiə edərək, tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. 1984-cü ildə "Ostogen sarkomalı xəstələrin kompleks müalicə metodları" mövzusunda doktorluq dissertasiyası müdafiə edən Ə.Əmiraslanov elmi nəaliyyətlərinə görə 1985-ci ildə N.N.Petrov adına mükafata, 1986-cı ildə isə SSRİ Dövlət mükafatına layiq görülmüşdür.12 monoqrafiyanın, 15 ixtiranın, 300-ə yaxın elmi məqalənin müəllifi olan bu böyük loğman Azərbaycan Milli Elmlər, Polşa Tibb Elmləri və Rusiya Təbiət Elmləri Akademiyalarının, həmçinin Amerika, Çexiya, Macarıstan, Yunanıstan onkoloqlar cəmiyyətlərinin həqiqi üzvü; Amerika Biblioqrafik İnstitutunun "Qızıl heykəl" mükafatınının və Polşa Tibb Elmləri Akademiyasının "Qızıl medal"ının laureatı, Azərbaycanın əməkdar elm xadimidir. Azərbaycan tibb elminin inkişafı yönündəki xidmətlərinə görə Azərbaycan Respublikasının "ŞÖHRƏT" ordeni ilə təltif edilmişdir. Onun rəhbərliyi altında 12 namizədlik, 5 doktorluq dissertasiyası müdafiə olunub. Dünyanın ən adlı-sanlı universitetlərində mühazirələr oxumuş, ondan çox beynəlxalq simpoziumda ən aktual mövzularda çıxışlar etmiş bu dünya miqyaslı təbib 1992-ci ildən Azərbaycan Dövlət Tibb Universitetinə rəhbərlik edir.

Ən ümdəsi isə odur ki, Göyçə loğmanlar məktəbinin tarixi ənənələrini yaradıcılıqla yaşadanların sırası təkcə kəmiyyət baxımından yox, həm də keyfiyyət- təbabətin əksər qollarını əhatə etmək baxımından çoxşaxəlidir, genişdir. Bunun məhz belə olduğunu isə göyçəli təbiblər barədə ən qısa ensiklopedik məlumatlar belə təsdiqləyir.

**Quliyev Nəsib Cəfər oğlu.** Basarkeçər nahiyəsinin Aşağı Şorca kəndində anadan olub. Orta məktəbi qızıl medallla, Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirib. Tibb elmləri doktoru, Azərbaycan Respublikası Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, Azərbaycan Tibb Universitetinin professorudur. 2000-ci ildə "Azərbaycanın əməkdar elm xadimi" fəxri adına layiq görülüb.

**Bayramov Nuru Yusif oğlu.** Basarkeçər nahiyəsindəki Hüseynquluağalı kəndində anadan olmuş, Türkiyədə təhsil almışdır. Tibb elmləri doktoru, AR Səhiyyə Nazirliyinin Mərkəzi Klinik Xəstəxanasının əməkdaşıdır.

**Canbaxışov Qələndər Surxay oğlu.** Basarkeçər nahiyəsindəki Daşkənd kəndində anadan olub. Azərbaycan Tibb İnstitutunu fərqlənmə ilə bitirdikdən sonra təhsilini Moskvada davam etdirib. Tibb elmləri doktoru, Azərbaycan Tibb Universitetinin professoru, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Travmatologiya və Ortopediya İnstitutunun direktorudur. 2000-ci ildə "Azərbaycanın əməkdar həkimi" fəxri adına layiq görülüb.

**Cahangirov Məhəmməd Şamil oğlu.** Basarkeçər nahiyəsindəki Şişqaya kəndində anadan olmuşdur, tibb elmləri doktoru, professordur.

**Cəfərov Vaqif Tapdıq oğlu.** Basarkeçər nahiyəsindəki Şişqaya kəndində anadan olub. Tibb İnstitutunu fərqlənmə ilə bitirdikdən sonra müxtəlif klinikalarda çalışıb. Uzun illər M.Topçubaşov adına ET Klinik Təbabət İnstitutunun və Akademik M. Mirqasımov adına Respublika Klinik Xəstəxanasının baş həkimi olub. 2000-ci idə "Azərbaycanın əməkdar həkimi" fəxri adına layiq görülüb. Hazırda Bakının Yasamal rayonunun səhiyyə şöbəsinin müdiridir.

**Qəhrəmanov İsmixan İsmayıl oğlu.** Basarkeçər nahiyəsindəki Böyük Məzrə kəndində anadan olub. Tibb elmləri doktoru, professordur.

**Qəhrəmanov Rasim.** Basarkeçər nahiyəsindəki Məzrə kəndində anadan olub. Azərbaycan Tibb İnstitutunu fərqlənmə ilə bitirdikdən sonra doğma mahalında işləyib. 1985-88-ci illərdə Basarkeçər rayon Komsomol Komitəsinin birinci katibi olub. 1988-ci il deportasiyasından sonra əmək fəaliyyətini Bakıda poliklinika həkimi kimi davam etdirən R. Qəhrəmanov paralel olaraq elmi fəaliyyətlə də məşğul olub. Bir müddət M.Topçubaşov adına ET Klinik Təbabət İnstitutunda baş həkim işlədikdən sonra xaricdə diaqnostika üzrə xüsusi kurs keçib. Tibb elm-

ləri namizədi, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Nüvə-Maqnit Rezonans Mərkəzinin direktorudur.

**Hacıyev Qəhrəman Mahmud oğlu.** Basarkeçər nahiyəsindəki Böyük Məzrə kəndində anadan olmuşdur. Tibb elmləri doktorudur.

**İbrahimov Sahib Məcnun oğlu.** Basarkeçər nahiyəsindəki Sətənağac kəndində anadan olub. Tibb elmləri doktorudur.

**Hənifəyev Şahbaz Cəmşid oğlu.** Basarkeçər nahiyəsindəki Zərzibil kəndində anadan olub. Tibb elmləri doktoru, AR Səhiyyə Nazirliyinin Onkoloci Mərkəzinin baş həkimidir.

...Və min-min şükürlər olsun ki, Göyçə loğmanlarının sırası müasir Azərbaycan tibb elminin korifeyləri səviyyəsinə yüksəlmiş bu alimlərlə məhdudlaşmır. Əsası minilliklərin o tayından başlayan, Hacı Nağının qüdrətiylə özünün şöhrət zirvəsinə yüksələn Göyçə loğmanlar məktəbinin ənənələri **infeksionist Namiq Nəbiyev, kardioloq Abbasəli Abbasəliyev, onkoloq Ramiz Bayramov, diaqnost Rasim Bayramov, plastik cərrah Vaqif Qələndər** kimi yüzlərlə gənc və perspektivli göyçəli həkim- alimin timsalında yaşayır və zənginləşir...

Şair təbiətli bir loğman oğlu da vardı Göyçənin. Elə bir oğul ki, təkcə həkimlərdən danışanda yox, ümumən Göyçədən danışanda onu anmamaq, onun haqqında ayrıca söhbət açmamaq günahdır. **KƏRİMOV SƏRDAR İSA OĞLU** idi o nurlu ziyalı. 1954-cü ildə Göyçə mahalının Basarkeçər nahiyəsinin Kəsəmən kəndində anadan olmuşdu. Azərbaycan Tibb İnstitutunu fərqlənmə ilə qurtardıqdan sonra fəal ictimaiyyətçi kimi siyasi işə cəlb olunmuş, komsomolda, partiya orqanlarında çalışmışdı. Ə.Vəzirov Azərbaycan KP MK-nın birinci katibi təyin ediləndən sonra Ermənistan əsilli kadrlara qarşı repressiyalar başlayanda, ilk zərbə alanlardan biri də Sərdar Kərimov oldu, onu Nəsimi rayon Partiya Komitəsində tutduğu məsul vəzifədən uzaqlaşdırdılar. Bir müddət işsiz qaldıqdan sonra səhiyyə sisteminə qayıtdı və... Sərdar Kərimov nəyə qadir olduğunu, yüksək təşkilatçılıq bacarığını, yüksək peşəkarlığını qısa müddətdə təsdiqləməyi bacardı. Azərbaycan Respublikası Səhiyyə Nazirinin birinci müavini vəzifəsinə qədər yüksəldi. 2000-ci ildə "Azərbaycanın əməkdar həkimi" fəxri adına layiq görüldü. İstəkli insanların tale qisməti də oxşar olur...Qəşəm Aslanov sağlığında ən çox sayğı göstərdiyi insanlardan biri də Sərdar Kərimov idi. Qəşəm müəllim doğma bacısı oğlu Sərdarı, sözün həqiqi mənasında çox istəyir, ona böyük ümidlər bəsləyirmiş. 1993-cü ildə Qəşəm müəllim haqqında veriliş hazırlayarkən, onun Moskvadan Sərdara yazdığı məktublarla tanış olduğum zaman yəqin etmişdim bu sevgini. Sərdar Kərimov həqiqətən layiq

idi bu sevgiyə...Dayısının ümidlərini də ləyaqətlə doğrultdu... Onun yolu ilə getdi: həyatını başabaş doğma vətənin tərəqqisinə, el-obaya gərəkli olmağa sərf etdi və... Nə qədər qəribə olsa da, eynən Qəşəm Aslanov kimi ömrün əllinci zirvəsini keçmədi... 2003-cü ilin soyuq dekabrında onun şair qəlbi dayandı, ruhu Vətən həsrətiylə çırpınan müqəddəs ruhların karvanına qoşuldu...

# GÖYÇƏNİN ALİM ÖVLADLARI

**Abdullayev Malik Qurban oğlu.** Basarkeçər nahiyəsinin Hüseynquluağalı kəndində anadan olmuşdur. Texniki elmlər namizədidir.

**Abdullayev Vaqif İdris oğlu.** Basarkeçər nahiyəsinin Yuxarı Şorca kəndində anadan olmuşdur. Siyasi elmlər doktoru,-AR Milli Məclisinin deputatıdır.

**Abdullayev Əbdüləli Yaqub oğlu.** Basarkeçər nahiyəsinin Böyük Məzrə kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri doktoru, professordur.

**Abbasov Ziyad Mehralı oğlu.** Basarkeçər nahiyəsinin Kəsəmən kəndində anadan olmuşdur. Texniki elmlər doktorudur.

**Abbasov Müzəffər Zeynalabdin oğlu.** Basarkeçər nahiyəsinin Qoşabulaq kəndində anadan olmuşdur. Kənd təsərrüfatı elmləri namizədidir.

**Abbasov Telman Salman oğlu.** Basarkeçər nahiyəsinin Bala Məzrə kəndində anadan olmuşdur. Kimya elmləri namizədidir.

**Abbasov Telman Fərman oğlu.** Basarkeçər nahiyəsinin Bala Məzrə kəndində anadan olmuşdur. Kənd təsərrüfatı elmləri namizədidir.

**Avılov Bəhram Salman oğlu.** Basarkeçər nahiyəsinin Qanlı Allahverdi kəndində anadan olmuşdur. Siyasi elmlər doktoru, professordur.

**Axundov İbrahim Sarı oğlu.** Basarkeçər nahiyəsinin Kəsəmən kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri doktorudur.

**Axundov Məmmədəli Əbdüləzim oğlu.** Çənbərək nahiyəsinin Ardanış kəndində anadan olmuşdur. Biokimya elmləri doktoru, 40-a yaxın elmi əsərin müəllifidir.

**Allahverdiyev Əli Qulu oğlu.** Çənbərək nahiyəsinin Cil kəndində anadan olmuşdur. İqtisadi elmlər doktorudur.

**Abbasəliyev Elbrus Abbasəli oğlu.** Çənbərək nahiyəsinin Ağbulaq kəndində anadan olmuşdur. Tibb elmləri namizədi, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Qospitalının əməkdaşıdır.

**Alıyev Abbas İsmayıl oğlu.** Qaranlıq nahiyəsinin Mollalı kəndində anadan olmuşdur. İqtisad elmləri namizədi, Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının dosenti, otuzdan çox elmi əsərin müəllifidir.Ərəb, yunan, ingilis və rus dillərini bilir. 1988-ci ildə Həcc ziyarətində olmuşdur.

**Babayev Eyvaz İlyas oğlu.** Əslən Basarkeçər nahiyəsinin Böyük Qaraqoyunlu kəndindəndir. Texniki elmlər namizədidir.

**Bayramov Qurban Balı oğlu.** Basarkeçər nahiyəsinin Hüseynquluağ-

alı kəndində anadan olmuşdu. Fəlsəfə elmləri doktoru, 400-ə qədər elmi məqalənin, 3 elmi-kütləvi kitabın, bir dərs vəsaitinin müəllifidir. 1956-cı ildən ömrünün sonuna-1996-cı ilə qədər Azərbaycan Tibb Universitetində çalışmışdır.

**Bayramov Nuru Yusif oğlu.** Basarkeçər nahiyəsinin Hüseynquluağalı kəndində anadan olmuşdur. Tibb elmləri doktoru, AR Səhiyyə Nazirliyinin Mərkəzi Klinik Xəstəxanasının əməkdaşıdır.

**Bayramov Şahin Qəmbər oğlu.** Basarkeçər nahiyəsinin Hüseynquluağalı kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri namizədidir.

**Bayramov Ramiz Bəxtiyar oğlu.** Basarkeçər nahiyəsinin Zərzibil kəndində anadan olmuşdur. Tibb elmləri namizədi, Azərbaycan Respublikası baş cərrahının müavinidir.

**Bayramov Mahir Fərman oğlu.** Basarkeçər nahiyəsinin Hüseynquluağalı kəndində anadan olmuşdur. Fəlsəfə elmləri namizədidir.

**Bəylərov Müslüm Balakişi oğlu.** Basarkeçər nahiyəsinin Qayabaşı kəndində anadan olmuşdur. Filologiya elmləri namizədidir.

**Binnətov Ələddin Məmmədhüseyn oğlu.** Basarkeçər nahiyəsinin Kəsəmən kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri namizədidir.

**Bayramlı Abbas Əli oğlu.** Çənbərək nahiyəsinin Ardanış kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri namizədidir.

**Bayramov İbrahim Məmməd oğlu.** Çənbərək nahiyəsinin Toxluca kəndində anadan olmuşdur. Filologiya elmləri namizədidir.

**Bayramov Həsən Bayram oğlu.** Çənbərək nahiyəsinin Toxluca kəndində anadan olmuşdur. Pedoqoji elmlər namizədi, N.Tusi adına ADPU-nun dosenti, Azərbaycan Beynəlxalq Universitetinin prorektoru; 100-dən çox elmi məqalənin, bir neçə elmi-metodik proqramın, bir dərs vəsaitinin müəllifidir.

**Binnətova Almaz Qasım qızı.** Basarkeçər nahiyəsinin Kəsəmən kəndində anadan olmuşdur. Filologiya elmləri namizədidir.

**Cabbarov Ramiz Məmmədrza oğlu.** Çəmbərək nahiyəsinin Şorca kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri doktorudur.

**Canbaxışov Qələndər Surxay oğlu.** Basarkeçər nahiyəsinin Daşkənd kəndində anadan olmuşdur. Tibb elmləri doktoru, professor, Azərbaycan Respublikasının əməkdar həkimi, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Travmatologiya və Ortopediya İnstitutunun direktorudur.

**Cahangirov Məhəmməd Şamil oğlu.** Basarkeçər nahiyəsinin Şişqaya kəndində anadan olmuşdur. Tibb elmləri doktoru, professordur.

**Cəlilov Maqsud Fərhad oğlu.** Basarkeçər nahiyəsinin Hüseynquluağalı kəndində anadan olmuşdur. Fəlsəfə elmləri doktoru, professordur.

**Cəfərov Elbrus Mahmud oğlu.** Basarkeçər nahiyəsinin Şəfəq kən-

dində anadan olmuşdur. Texniki elmlər doktoru, professordur.

**Cəfərov Sayəddin Cəfər oğlu.** Basarkeçər nahiyəsinin Zod kəndində anadan olmuşdur. Texniki elmlər doktoru, professordur.

**Cabbarov İsrafil Məhəmməd oğlu.** Basarkeçər nahiyəsinin Kəsəmən kəndində anadan olmuşdur.Texniki elmlər namizədidir.

**Cabbarov Mübariz Səyyad oğlu.** Basarkeçər nahiyəsinin Hüseynquluağalı kəndində anadan olmuşdur. Texniki elmlər namizədidir.

**Camalov Yadigar Tapdıq oğlu.** Basarkeçər nahiyəsinin Sətənağac kəndində anadan olmuşdur.Filologiya elmləri namizədidir.

**Cəliliov Ədalət Bilal oğlu.** Basarkeçər nahiyəsinin Sətənağac kəndində anadan olmuşdur. Pedoqoji elmlər namizədidir.

**Cəlilov Ənvər Yusif oğlu.** Basarkeçər nahiyəsinin Qayabaşı kəndində anadan olmuşdur. Biologiya elmləri namizədidir.

**Cəlilov Mahmud Fərhad oğlu.** Basarkeçər nahiyəsinin Hüseynquluağalı kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri namizədidir.

**Cəfərov Nəriman Pənah oğlu.** Basarkeçər nahiyəsinin Zod kəndində anadan olmuşdur. Fəlsəfə elmləri namizədidir.

**Cavadov Mirhəsən Miryaqub oğlu.** Çənbərək nahiyəsinin Ağbulaq kəndində anadan olmuşdur. Kimya elmləri namizədidir.

**Veyisov Kamil Veyis oğlu.** Basarkeçər nahiyəsinin Böyük Məzrə kəndində anadan olmuşdur. Geologiya-minerologiya elmləri namizədidir.

**Vəliyev Sabir Yadigar oğlu.** Basarkeçər nahiyəsinin Yuxarı Zağalı kəndində anadan olmuşdur. Biologiya elmləri namizədidir.

**Qafarov Məmmədhəsən Şıxalı oğlu.** Basarkeçər nahiyəsinin Kəsəmən kəndində anadan olmuşdur. Biologiya elmləri doktoru, professor, əməkdar elm xadimidir.

**Qəhrəmanov İsmixan İsmayıl oğlu.** Basarkeçər nahiyəsinin Böyük Məzrə kəndində anadan olmuşdur. Tibb elmləri doktoru, professordur.

**Qəhrəmanov Rasim.** Basarkeçər nahiyəsinin Böyük Məzrə kəndində anadan olmuşdur. Tibb elmləri namizədi, AR Səhiyyə Nazirliyinin Maqnit-Nüvə Rezonans Mərkəzinin baş həkimidir.

**Quliyev Nəsib Cəfər oğlu.** Basarkeçər nahiyəsinin Aşağı Şorca kəndində anadan olmuşdur. Tibb elmləri doktoru, professor, Azərbaycan Respublikasının əməkdar elm xadimi və əməkdar həkimi, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Pediatriya İnstitutunun direktorudur.

**Qurbanov Pənah Abdulla oğlu.** Basarkeçər nahiyəsinin Ağkilsə kəndində anadan olmuşdur. Kimya elmləri doktoru, professordur.

**Qurbanov İsa Əli oğlu.** Çənbərək nahiyəsinin Cil kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri doktorudur.

**Qurbanov Azad İsa oğlu.** Çənbərək nahiyəsinin Cil kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri namizədidir.

**Qurbanov Nazim Əli oğlu.** Əslən Basarkeçər nahiyəsinin Ağkilsə kəndindəndir. Moskvada yaşayıb, çalışır. Texniki elmlər namizədidir.

**Quliyev Zülfüqar Mustafa oğlu.** Basarkeçər nahiyəsinin Kəsəmən kəndində anadan olmuşdur. Biologiya elmləri namizədidir.

**Quliyev Mübariz Səyyad oğlu.** Basarkeçər nahiyəsinin Hüseynquluağalı kəndində anadan olmuşdur. Texniki elmlər namizədidir.

**Quliyev Telman Dadaş oğlu.** Basarkeçər nahiyəsinin Böyük Məzrə kəndində anadan olmuşdur. Kimya elmləri namizədidir.

**Quliyev Həsən Musa oğlu.** Basarkeçər nahiyəsinin Çaxırlı kəndində anadan olmuşdur. Texniki elmlər doktorudur.

**Qurbanov Qurban Həvil oğlu.** Basarkeçər nahiyəsinin Böyük Məzrə kəndində anadan olmuşdur. Tarix elmləri namizədidir.

**Qurbanov Sultan Baxşəli oğlu.** Basarkeçər nahiyəsinin Sətənağac kəndində anadan olmuşdur. Kimya elmləri namizədidir.

**Elyazov İsrail Şükür oğlu.** Çəmbərək nahiyəsinin Cil kəndində anadan olmuşdur. Texniki elmlər namizədidir.

**Əliyev İlyas İslam oğlu.** Çənbərək nahiyəsinin Ardanış kəndində anadan olmuşdur. Texniki elmlər namizədidir.

**Əliyev Telman İsmayıl oğlu.** Çənbərək nahiyəsinin Ağbulaq kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri namizədidir.

**Əhmədov Akif Həbullah oğlu.** Çənbərək nahiyəsinin Toxluca kəndində anadan olmuşdur. Coğrafiya elmləri namizədidir.

**Əhmədov Hüseyn Mustafa oğlu.** Çənbərək nahiyəsinin Toxluca kəndində anadan olmuşdur. Pedoqoji elmlər doktoru, akademik, əməkdar elm xadimidir.

**Əhmədov Hümeyir Hüseyn oğlu.** Çənbərək nahiyəsinin Toxluca kəndində anadan olmuşdur. Pedoqoji elmlər doktorudur.

**Əhmədov Şövqi Həbullah oğlu.** Çənbərək nahiyəsinin Toxluca kəndində anadan olmuşdur. Tarix elmləri namizədidir.

**Ələkbərov Qaçay İsmayıl oğlu.** Basarkeçər nahiyəsinin Qoşabulaq kəndində anadan olmuşdur. Biologiya elmləri namizədidir.

**Ələkbərov Əziz Həmid oğlu.** Basarkeçər nahiyəsinin Kəsəmən kəndində anadan olmuşdur. İqtisad elmləri namizədidir.

**Əliyev Əli Adil oğlu.** Basarkeçər nahiyəsinin Zod kəndində anadan olmuşdur. Biologiya elmləri doktoru, professor, əməkdar elm xadimidir.

**Əhmədov Əli Cavad oğlu.** Basarkeçər nahiyəsinin Dərə kəndində anadan olmuşdur. Siyasi elmlər namizədi, Yeni Azərbaycan Partiyasının

icraçı katibi, Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır.

**Əhmədov Ələddin İslam oğlu.** Basarkeçər nahiyəsinin Böyük Məzrə kəndində anadan olmuşdur. Kimya elmləri doktoru, professor, əməkdar elm xadimidir.

**Əmiraslanov Azər Əhliman oğlu.** Əslən Basarkeçər nahiyəsindəki Zod kəndindəndir. Tibb elmləri namizədidir.

**Əmiraslanov Əhliman Tapdıq oğlu.** Basarkeçər nahiyəsinin Zod kəndində anadan olmuşdur. Tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikasının əməkdar elm xadimi və əməkdar həkimi; Azərbaycan Tibb Universitetinin rektorudur.

**Əmiraslanov Surxay Tapdıq oğlu.** Basarkeçər nahiyəsinin Zod kəndində anadan olmuşdur. Tarix elmləri namizədi, N.Tusi adına Azərbaycan Pedoqoji Universitetinin dosenti idi.

**Əmiraslanov Vaqif Tapdıq oğlu.** Basarkeçər nahiyəsinin Zod kəndində anadan olmuşdur. Tarix elmləri namizədi, Yasamal rayon təhsil şöbəsinin müdiridir.

**Əmiraslanov Tapdıq Əhliman oğlu.** Əslən Basarkeçər nahiyəsindəki Zod kəndindəndir. ABŞ-da Hyuston Universitetində təhsil alıb. İqtisadi elmlər doktorudur.

**Əliyev Rəşid Ələs oğlu.** Çənbərək nahiyəsinin Ardanış kəndində anadan olmuşdur. Fəlsəfə elmləri doktoru, professor, əməkdar elm xadimidir.

**Əhmədov Bəhrəm Həsən oğlu.** Basarkeçər nahiyəsinin Dərə kəndində anadan olmuşdur. Biologiya elmləri namizədidir.

**Əhmədov Saday İsaq oğlu.** Basarkeçər nahiyəsinin Subatan kəndində anadan olmuşdur. Tibb elmləri namizədidir.

**Ələkbərov Fariz Xalıqverdi oğlu.** Basarkeçər nahiyəsinin Qoşabulaq kəndində anadan olmuşdur. Texniki elmlər namizədidir.

**Ələsgərov İslam Talıb oğlu.** Basarkeçər nahiyəsinin Ağkilsə kəndində anadan olmuşdur. Filologiya elmləri namizədidir.

**Əliyev Bayram Zeynal oğlu.** Basarkeçər nahiyəsinin Bala Məzrə kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri namizədidir.

**Əliyev Əlif İmanverdi oğlu.** Basarkeçər nahiyəsinin Çaxırlı kəndində anadan olmuşdur.Tibb elmləri namizədidir.

**Əliyev Məmməd İbrahim oğlu.** Basarkeçər nahiyəsinin Qaraiman kəndində anadan olmuşdur. Tarix elmləri namizədidir.

**Əliyev Mübariz İsgəndər oğlu.** Basarkeçər nahiyəsinin Kəsəmən kəndində anadan olmuşdur. Biologiya elmləri namizədidir.

**Əliyev Nağı Ağaməli oğlu.** Basarkeçər nahiyəsinin Böyük Məzrə kəndində anadan olmuşdur. Kənd təsərrüfatı elmləri namizədidir.

**Əliyev Yusif Qəmət oğlu.** Çənbərək nahiyəsinin Toxluca kəndində anadan olmuşdur. Tibb elmləri namizədidir.

**Hacıyev İmamverdi Kəlbabbas oğlu.** Çənbərək nahiyəsinin Ardanış kəndində anadan olmuşdur. Tarix elmləri namizədidir.

**Hacıyev Səhman Yusif oğlu.** Basarkeçər nahiyəsinin Böyük Qaraqoyunlu kəndində anadan olmuşdur. Baytarlıq elmləri namizədidir.

**Hacıyev Aydın Əli oğlu.** Basarkeçər nahiyəsinin Böyük Məzrə kəndində anadan olmuşdur. Biologiya elmləri namizədidir.

**Hacıyev Arif Şahmalı oğlu.** Basarkeçər nahiyəsinin Nərimanlı kəndində anadan olmuşdur. Geologiya elmləri namizədidir.

**Hacıyev Vidadi Əbdüləli oğlu.** Basarkeçər nahiyəsinin Böyük Məzrə kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri doktorudur.

**Hacıyev Qəhrəman Mahmud oğlu.** Basarkeçər nahiyəsinin Böyük Məzrə kəndində anadan olmuşdur. Tibb elmləri doktorudur.

**Hacıyev Kərəm İsmayıl oğlu.** Çənbərək nahiyəsinin Ağbulaq kəndində anadan olmuşdur. Texniki elmlər namizədidir.

**Hacıyev Oruc Ələs oğlu.** Çənbərək nahiyəsinin Ardanış kəndində anadan olmuşdur. Texniki elmlər namizədidir.

**Hacıyev Zahid İsmayıl oğlu.** Basarkeçər nahiyəsinin Böyük Məzrə kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri namizədidir.

**Hacıyev Saleh İsgəndər oğlu.** Basarkeçər nahiyəsinin Bala Məzrə kəndində anadan olmuşdur. Texniki elmlər namizədidir.

**Hacıyev Tofiq Pənah oğlu.** Basarkeçər nahiyəsinin Hüseynquluağalı kəndində anadan olmuşdur. Kimya elmləri namizədidir.

**Hacıyev Faiq Şıxəli oğlu.** Basarkeçər nahiyəsinin Böyük Məzrə kəndində anadan olmuşdur. Texniki elmlər namizədidir.

**Hacıyev Fərhad Şıxəli oğlu.** Basarkeçər nahiyəsinin Böyük Məzrə kəndində anadan olmuşdur.Texniki elmlər namizədidir.

**Hacıyev Firdovsi Bədəl oğlu.** Basarkeçər nahiyəsinin Zod kəndində anadan olmuşdur. Fizika -riyaziyyat elmləri namizədidir.

**Hacıyev Hafiz Ələmdar oğlu.** Basarkeçər nahiyəsinin Zod Kəndində anadan olmuşdur. Kənd təsərrüfatı elmləri namizədidir.

**Hacıyev Cəmil Əli oğlu.** Basarkeçər nahiyəsinin Böyük Məzrə kəndində anadan olmuşdur. Biologiya elmləri namizədidir.

**Həsənov Vaqif Səməd oğlu.** Çənbərək nahiyəsinin Toxluca kəndində anadan olmuşdur. Kimya elmləri namizədidir.

**Həsənov Eldar Məhəmməd oğlu.** Çənbərək nahiyəsinin Ardanış kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri namizədidir.

**Həsənov Mehdi Rəhim oğlu.** Kəvər nahiyəsinin Ağzıbıir kəndində

anadan olmuşdur. Filologiya elmləri namizədi idi.

**Həsənov Nyuton Aslan oğlu.** Çənbərək nahiyəsinin Ağbulaq kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri namizədidir.

**Həsənov Qəhrəman Hüseyn oğlu.** Basarkeçər nahiyəsinin Yuxarı Zağalı kəndində anadan olmuşdur. Kimya elmləri namizədidir.

**Həmzəyev Xanlar Çoban oğlu.** Basarkeçər nahiyəsinin Aşağı Şorca kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri namizədidir.

**Hənifəyev Şahbaz Cəmşid oğlu.** Basarkeçər nahiyəsinin Zərzibil kəndində anadan olmuşdur.Tibb elmləri doktoru, professordur.

**Hənifəyev İsmayıl Cəmşid oğlu.** Basarkeçər nahiyəsinin Zərzibil kəndində anadan olmuşdur. Baytarlıq elmləri namizədidir.

**Hüseynov Allahyar Məhəmmədəli oğlu.** Çənbərək nahiyəsinin Ağbulaq kəndində anadan olmuşdur. Pedoqoji elmlər namizədidir.

**Hüseynov Cavanşir Aslan oğlu.** Çənbərək nahiyəsinin Ağbulaq kəndində anadan olmuşdur. İqtisad elmləri namizədidir.

**Hüseynov Əli Həsən oğlu.** Çənbərək nahiyəsinin Şorca kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri namizədidir.

**Hüseynov Məhəmməd Bayram oğlu.** Çənbərək nahiyəsinin Ağbulaq kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri namizədidir.

**Hüseynov Məhəmməd Əliməsim oğlu.** Çənbərək nahiyəsinin Ağbulaq kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri namizədidir.

**Hüseynov Rəhim Məmmədəli oğlu.** Çənbərək nahiyəsinin Ağbulaq kəndində anadan olmuşdur. İqtisadi elmlər namizədidir.

**Hüseynov Şahbaz Çoban oğlu.** Basarkeçər nahiyəsinin Aşağı Şorca kəndində anadan olmuşdur. Tarix elmləri namizədidir.

**Hüseynov Məhərrəm Abbasəli oğlu.** Çənbərək nahiyəsinin Şorca kəndində anadan olmuşdur. Filologiya elmləri doktorudur.

**Hüseynov Rüstəm Zaman oğlu.** Basarkeçər nahiyəsinin Ağkilsə kəndində anadan olmuşdur. İqtisadi elmlər doktorudur.

**Hümbətov Ellər Qulu oğlu.** Basarkeçər nahiyəsinin Aşağı Şorca kəndində anadan olmuşdur. Kimya elmləri namizədidir.

**Hümbətov Lətif Cəfər oğlu.** Basarkeçər nahiyəsinin Aşağı Şorca kəndində anadan olmuşdur. Tibb elmləri namizədidir.

**Xələfov Abuzər Alı oğlu.** Çənbərək nahiyəsinin Cil kəndində anadan olmuşdur. Tarix elmləri doktoru, professor, əməkdar elm xadimi, əməkdar mədəniyyət işçisidir.

**Xələfov Eyvaz Alı oğlu.** Çənbərək nahiyəsinin Cil kəndində anadan olmuşdur. Fizika- riyaziyyat elmləri doktorudur.

**İbrahimov Sahib Məcnun oğlu.** Basarkeçər nahiyəsinin Sətənağac

kəndində anadan olmuşdur. Tibb elmləri doktorudur.

**İbrahimov Tahir Oruc oğlu.** Çənbərək nahiyəsinin Cil kəndində anadan olmuşdur. Coğrafiya elmləri namizədidir.

**İsgəndərov Ramiz Əziz oğlu.** Çənbərək nahiyəsinin Cil kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri namizədidir.

**İsgəndərov Bayram Firudin oğlu.** Basarkeçər nahiyəsinin Zod kəndində anadan olmuşdur. Biologiya elmləri namizədidir.

**İsmayılov Abbas Məhəmməd oğlu.** Çənbərək nahiyəsinin Ardanış kəndində anadan olmuşdur. Pedoqoji elmlər doktoru, professordur.

**İsmayılov Ələddin Oruc oğlu.** Basarkeçər nahiyəsinin Kəsəmən kəndində anadan olmuşdur. Kənd təsərrüfatı elmləri namizədidir.

**İsmayılov Ənvər Rza oğlu.** Basarkeçər nahiyəsinin Bala Məzrə kəndində anadan olmuşdur. Texniki elmlər namizədidir.

**İsmayılov Qaçay Köçəri oğlu.** Basarkeçər nahiyəsinin Dərə kəndində anadan olmuşdur. Biologiya elmləri namizədidir.

**İsmayılov Mehman Mehdi oğlu.** Basarkeçər nahiyəsinin Böyük Qaraqoyunlu kəndində anadan olmuşdur. Kənd təsərrüfatı elmləri namizədidir.

**İsmayılova Mirvari Abbas qızı.** Çənbərək nahiyəsinin Ardanış kənqdində anadan olmuşdur. Filologiya elmləri namizədidir.

**İsmayılov Hüseyn Ələsgər oğlu.** Çənbərək nahiyəsinin Ağbulaq kəndində anadan olmuşdur. Filologiya elmləri doktoru, professor, Folklor İnstitutunun direktorudur.

**İsmayılova Yaqut İsrafil qızı.** Basarkeçər nahiyəsinin İnəkdağı kəndində anadan olmuşdur. Tarix elmləri namizədidir.

**Kərimov Əlif Hüseyn oğlu.** Basarkeçər nahiyəsinin Daşkənd kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri namizədidir.

**Kərimov Əbdüləli İsmayıl oğlu.** Çənbərək nahiyəsinin Ardanış kəndində anadan olmuşdur. Filologiya elmləri namizədidir.

**Mazanov İlham Abbas oğlu.** Çənbərək nahiyəsinin Cil kəndində anadan olmuşdur. Tarix elmləri namizədidır.

**Mahmudov Mirəli Mirhüseyn oğlu.** Kəvər nahiyəsinin Ağqala kəndində anadan olmuşdu. Filologiya elmləri namizədi idi.

**Mahmudov Suliddin Abuzər oğlu.** Basarkeçər nahiyəsinin Böyük Məzrə kəndində anadan olmuşdur. Kənd təsərrüfatı elmləri namizədidir.

**Məmmədov Əhməd Ramazan oğlu.** Basarkeçər nahiyəsinin Qayabaşı kəndində anadan olmuşdu. Kənd təsərrüfatı elmləri namizədi, Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının dosenti idi.

**Məmmədov İlham Bilal oğlu.** Basarkeçər nahiyəsinin Ağkilsə kəndində anadan olmuşdur. Baytarlıq elmləri namizədidir.

**Məmmədov İsmayıl Oruc oğlu.** Basarkeçər nahiyəsinin Sətənağac kəndində anadan olmuşdur. Filologiya elmləri namizədidir.

**Məmmədov Qoşqar Məhərrəm oğlu.** Çənbərək nahiyəsinin Ardanış kəndində anadan olmuşdur. Kənd təsərrüfatı elmləri namizədidir.

**Məmmədov Nurəddin Nəcəf oğlu.** Basarkeçər nahiyəsinin Yuxarı Zağalı kəndində anadan olmuşdur. Texniki elmlər namizədidir.

**Məmmədov Rasim Qara oğlu.** Basarkeçər nahiyəsinin Hüseynquluağalı kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri doktorudur.

**Məmmədov Tapdıq Əli oğlu.** Çənbərək nahiyəsinin Ardanış kəndində anadan olmuşdur. Pedoğoji elmlər namizədidir.

**Məmmədov Yunis Qəzənfər oğlu.** Basarkeçər nahiyəsinin Yuxarı Zağalı kəndində anadan olmuşdur. Filologiya elmləri doktoru, professordur.

**Məmmədov Şahmar Məhəmmədəli oğlu.** Basarkeçər nahiyəsinin Qayabaşı kəndində anadan olmuşdur. Kənd təsərrüfatı elmləri namizədidir.

**Məmmədəliyev Zakir Qurban oğlu.** Çənbərək nahiyəsinin Toxluca kəndində anadan olmuşdur. Fəlsəfə elmləri namizədidir.

**Məsimov Məcid Oruc oğlu.** Çənbərək nahiyəsinin Şorca kəndində anadan olmuşdur. Tibb elmləri namizədidir.

**Məhərrəmov Əliyənnağı Məhəmmədtağı oğlu.** Çənbərək nahiyəsinin Toxluca kəndində anadan olmuşdur. Pedoğoji elmlər namizədidir.

**Məhərrəmov Əyyub Vəli oğlu.** Basarkeçər nahiyəsinin Kərkibaş kəndində anadan olmuşdur. Kimya elmləri namizədidir.

**Məhərrəmov Ziyəddin Həmid oğlu.** Basarkeçər nahiyəsinin Qoşabulaq kəndində anadan olmuşdur. Filologiya elmləri namizədidir.

**Musayev Səfiyar Bəylər oğlu.** Basarkeçər nahiyəsinin Hüseynquluağalı kəndində anadan olmuşdu. Tarix elmləri doktoru, Bakı Dövlət Universitetinin professoru və kafedra müdiri, Azərbaycan Respublikasının ilk parlamentində “İnsan hüquqları” daimi komissiyasının sədri idi.

**Musayev Vidadi Həsən oğlu.** Basarkeçər nahiyəsinin Hüseynquluağalı kəndində anadan olmuşdur. Texniki elmlər namizədidir.

**Musayev Maksim Talıb oğlu.** Basarkeçər nahiyəsinin Hüseynquluağalı kəndində anadan olmuşdur. Kənd təsərrüfatı elmləri namizədidir.

**Musayev Məhərrəm Aslan oğlu.** Basarkeçər nahiyəsinin Şişqaya kəndində anadan olmuşdur.Texniki elmlər namizədidir.

**Musayev Zakir Səməd oğlu.** Çənbərək nahiyəsinin Ardanış kənqdində anadan olmuşdur. Texniki elmlər namizədidir.

**Mustafayev Əhliman Əşrəf oğlu.** Basarkeçər nahiyəsinin Qaraiman kəndində anadan olmuşdur. Texniki elmlər namizədidir.

**Mustafayev İbrahim Məmmədəli oğlu.** Basarkeçər nahiyəsinin Sa-

rıyaqub kənqdində anadan olmuşdur. Tibb elmləri namizədidir.

**Namazov Tufan Namaz oğlu.** Basarkeçər nahiyəsinin Pəmbək kəndində anadan olmuşdur. Kənd təsərrüfatı elmləri namizədidir.

**Nəbiyev Namiq Xanəli oğlu.** Basarkeçər nahiyəsinin Zərzibil kəndində anadan olmuşdur. Tibb elmləri namizədidir.

**Nəcəfov Fəxrəddin İbrahim oğlu.** Basarkeçər nahiyəsinin Böyük Qaraqoyunlu kəndində anadan olmuşdu. Texniki elmlər namizədi, yol inşaatı maşınları konstruktoru idi.

**Nəsibov Famil Nəsir oğlu.** Basarkeçər nahiyəsinin Böyük Qaraqoyunlu kəndində anadan olmuşdur. Kənd təsərrüfatı elmləri doktorudur.

**Novruzov Salman Əzim oğlu.** Basarkeçər nahiyəsinin Bala Məzrə kəndində anadan olmuşdur.Geologiya elmləri namizədidir.

**Paşayev Vəli Əli oğlu.** Çənbərək nahiyəsinin Ardanış kəndində anadan olmuşdur. Fəlsəfə elmləri doktoru, professor, əməkdar elm xadimidir.

**Paşayev Məhəmməd Əli oğlu.** Çənbərək nahiyəsinin Ardanış kəndində anadan olmuşdur. Fəlsəfə elmləri namizədidir.

**Rəhimov Cavanşir Əli oğlu.** Çənbərək nahiyəsinin Cil kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri namizədidir.

**Rəsulov Aydın İslam oğlu.** Basarkeçər nahiyəsinin Bala Məzrə kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri namizədidir.

**Rəsulov Safalan Xanlar oğlu.** Basarkeçər nahiyəsinin Daşkənd kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri namizədidir.

**Rüstəmov Fərrux Abbas oğlu.** Çənbərək nahiyəsinin Cil kəndində anadan olmuşdur. Pedoqoji elmlər namizədidir.

**Sadıqov Xalıqverdi Allahverdi oğlu.** Çənbərək nahiyəsinin Cil kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri doktorudur.

**Sadıqov Misrəddin Allahverdi oğlu.** Çənbərək nahiyəsinin Cil kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri doktorudur.

**Sadıqova Səyalı Allahverdi qızı.** Çənbərək nahiyəsinin Cil kəndində anadan olmuşdur. Filologiya elmləri doktorudur.

**Səfərov Naxçıvan Yusif oğlu.** Basarkeçər nahiyəsinin Bala Məzrə kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri doktorudur.

**Seyidov Ziyad Mirəziz oğlu.** Çənbərək nahiyəsinin Ağbulaq kəndində anadan olmuşdur. İqtisad elmləri namizədidir.

**Şabanov Rafiq Mirzəli oğlu.** Basarkeçər nahiyəsinin Qayabaşı kəndində anadan olmuşdur. Filologiya elmləri namizədidir.

**Şamilov Əli Hüseyn oğlu.** Basarkeçər nahiyəsinin İnəkdağı kəndində anadan olmuşdur. Filologiya elmləri namizədidir.

**Şəbəndiyev Dağıstan Zeynalabdin oğlu.** Basarkeçər nahiyəsinin

Pəmbək kəndində anadan olmuşdur. Kənd təsərrüfatı elmləri namizədidir.

**Tağıyev Zübeyit Haqverdi oğlu.** Çənbərək nahiyəsinin Cil kəndində anadan olmuşdur. Fizika-riyaziyyat elmləri doktoru, Azərbaycan Tİbb Universitetinin professorudur.

**Yusifov Əli Puta oğlu.** Basarkeçər nahiyəsinin Dərə kəndində anadan olmuşdur. Geologiya-minerologiya elmləri namizədidir.

**Zamanov Nurəddin Dostmalı oğlu**. Basarkeçər nahiyəsinin Böyük Məzrə kəndində anadan olmuşdur. Coğrafiya elmləri namizədidir.

**Zeynalov Novruz İslam oğlu.** Çənbərək nahiyəsinin Ağbulaq kəndində anadan olmuşdur. İqtisadi elmlər namizədidir.

**P.S.** *Siyahıdakı alimlərin hər biri haqqında ətraflı məlumatlar doğulduqları kəndlərə müvafiq bölümlərdə verilmişdir.*

# GÖYÇƏNİN NURLU QƏLƏM SAHİBLƏRİ

**ABBAS GÖYÇƏ** - şair, hüquqşünas. Valideynləri Göyçə mahalının Kəvər nahiyəsindəki Abbasgölü kəndindəndirlər; 1918-ci ildə daşnak-quldur qoşunlarının törətdikləri qətliamlar zamanı bu kənd yerlə-yeksan edildiyindən Türkiyənin Qars vilayətinə köçmüşlər. Abbas da 1927-ci ilin may ayında burada- Arpaçayın sahilindəki Meydancıq kəndində anadan olmuşdur. Orta və litsey təhsilini Qarsda, ali təhsilini Ankara Universitetinin hüquq fakultəsindlə almışdır. Əmək fəaliyyətinə vəkil kimi başlamış, sonradan Erçiş və Onyedə məhkəmə hakimi, Danıştayda yardımçı və başyardımçı vəzifələri tütmüş, Qarsdan millət vəkili seçilmiş, Türkiyə Böyük Millət Məclisində Anayasa Komissiyasının üzvü olmuşdur. Hüquqa dair bir sıra elmi-nəzəri kitabların və "Namus bəlası" adlı şerlər toplusunun müəllifidir. Əbədi təxəllüsü Göyçədir və sonradan bu təxəllüsü rəsmən soyad qəbul etmişdir.

**ABBAS VƏFADAĞLI.** Abbas Əli oğlu Mazanov. 1929-cu il martın 19-da Çənbərək nahiyəsinin Cil kəndində anadan olmuş, Qazax Pedoqoji Texnikumunu və Bakı Ali Partiya Məktəbini bitirmişdir. Ermənistan SSR LKGİ Krasnoselo rayon komitəsinin katibi, Cil sovxozunun direktoru, Krasnoselo rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, Azərbaycan Respublikası Xanlar rayon Şəhriyar kənd sovetinin sədri, Çaykənd sovxozunun direktoru, Şəhriyar kəndində sovxoz direktoru, Xanlar rayon Kənd Təsərrüfatı İstehsalat İdarəsinin rəis müavini işləmişdir. Respublika əhəmiyyətli fərdi təqaüdçüdür. Mətbuatda 1965-ci ildən çıxış edir. "Göyçə adlı intizarda elim var" adlı şerlər toplusunun müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**AQİL İMAN.** Hacıyev İman Həsən oğlu. 1958-ci il mayın 4-də Basarkeçər nahiyəsinin Daşkənd kəndində anadan olmuş, Azərbaycan Dövlət Sənaye İnstitutunu bitirmişdi. 1992-ci ildə könüllü olaraq Qarabağ uğrunda döyüşlərə qatılmış, 1994-cü ildə Ağdərədə ağır yaralandıqdan sonra ordudan tərxis edilmişdir. 2 kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvü idi. 1996-cı il avqustun 28-də qəfil ürəktutmasından vəfat etmişdir.

**ALQAYIT.** Xəlilov Alqayıt Bayram oğlu. 1939-cu il noyabrın 28-də Basarkeçər nahiyəsinin Daşkənd kəndində anadan olmuş, Azərbaycan Dövlət Pedoqoji İnstitutunu bitirmişdir. Folklorşünas tarixçi, filosof şair,

Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**ALMAZ ÜLVİ.** Binnətova Almaz Qasım qızı. 1960-cı il avqustun 8-də Basarkeçər nahiyəsinin Kəsəmən kəndində anadan olmuş, Bakı Dövlət Universitetinin filologiya fakultəsini və Azərbaycan Xarici Dillər İnstitutunun fars dili şöbəsini bitirmişdir. Filologiya elmləri namizədi; "Poeziyada milli azadlıq duyğuları", "Ülviləşən Ülvim", "Ədəbiyyat ömrü yaşayan ədəbiyyat memarı" kitablarının müəllifi, onlarca kitabın tərtibçisidir.

**AŞIQ BƏHMƏN GÖYÇƏLİ.** Qarayev Bəhmən İbrahim oğlu. 1901-ci il mayın 1-də Basarkeçər nahiyəsinin Hüsenquluağalı kəndində anadan olmuşdur. Şerləri "Sovet Ermənistanı", "Azərbaycan gəncləri" qəzetlərində, "Kirpi" curnalında dərc olunmuşdur. "Vətən, küsmə məndən" adlı şerlər toplusunun müəllifidir.1976-cı il noyabrın 13-də vəfat etmişdir.

**AŞIQ ƏLƏSGƏR.** Ələsgər Alməmməd oğlu. 1821-ci ildə Basarkeçər nahiyəsinin Ağkilsə kəndində anadan olmuş, 1926-cı ildə dünyasını dəyişmişdir. Azərbaycan şerinin bir çox canrlarının yaradıcısıdır. Əsərlərindən ibarət ikicildliyi nəşr olunmuşdur.

**AŞIQ ƏSƏD.** Rzayev Əsəd Əhməd oğlu. 1874-cü ildə Basarkeçər nahiyəsinin Böyük Qaraqoyunlu kəndində anadan olmuşdur. Birinci Aşıqlar Qurultayında ona "Azərbaycanın ustad aşığı" fəxri titulu verilmiş, 1939-cu ildə Azərbaycan Yazıçılar Birliyinə üzv seçilmiş, "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. 1951-cı il aprelin 27-də Tovuz şəhərində vəfat etmişdir.

**AŞIQ İDRİS.** Məhərrəmov İdris Şirin oğlu. 1894-cü ildə Basarkeçər nahiyəsinin Zərzibil kəndində anadan olmuşdur. 1944-cü ildə II Dünya müharibəsində alman faşizminə qarşı döyüşlərdə itkin düşmüşdür. Zəngin irsi var.

**AŞIQ İSLAM.** Yusifov İslam Qara oğlu. 1893-cü ilin baharında Basarkeçər nahiyəsinin Hüseynquluağalı kəndində anadan olmuşdur. Şerləri "Kommunist", "Ədəbiyyat və incəsənət", "Azərbaycan gəncləri" qəzetlərində çap olunmuşdur. 150 mahnı-qəzəl yaratmış, Gəncədə 25 nəfərdən ibarət aşıqlar ansablı təşkil etmişdir. Xidmətlərinə görə medala və "Azərbaycan SSR-in Əməkdar Mədəniyyət İşçisi" fəxri adına layiq görülmüş, 1954-cü ildə Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul edilmişdir. 1968-ci ildə Gəncə şəhərində vəfat etmişdir.

**AŞIQ ORUC.** Əhmədov Oruc Vəli oğlu. 1922-ci il martın 19-da Basarkeçər nahiyəsinin Yarpızlı kəndində anadan olmuşdur. 1953-cü ildə doğma kəndləri elliklə deportasiyaya məruz qaldıqdan sonra Gədəbəy rayonunda məskunlaşmışdır. Şerləri mütəmadi olaraq "Sovet Ermənistanı", "Ədəbiyyat və incəsənət", "Kommunist", "Sovet kəndi" qəzetlərində çap olunmuşdur. Azərbaycan radiosunun Qızıl Fondunda lent yazıları var. Xidmətlərinə görə medallarla təltif olunmuş, "Azərbaycan SSR-in

Əməkdar Mədəniyyət İşçisi" fəxri adına layiq görülmüş, Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilmişdir. 1976-cı il iyulun 19-da Gədəbəy rayonunun Zəhmət kəndində dünyasını dəyişmişdir.

**AŞIQ ŞİRİN.** İsmayılov Şirin Məhərrəm oğlu. 1874-ci ilin baharında Basarkeçər nahiyəsinin Zərzibil kəndində anadan olmuşdur. 1937-ci ildə doğma kəndlərində dünyasını dəyişmişdir.

**AŞIQ TALIB.** Talıb Ələsgər oğlu. 1877-ci ilin baharında Basarkeçər nahiyəsinin Ağkilsə kəndində anadan olmuşdur. 1979-cu il may ayının 21-də doğma kəndlərində vəfat etmiş, atası Aşıq Ələsgərin abidə kompleksinin yanında dəfn olunmuşdur.

**AYDIN MUROVDAĞ.** Hacıyev Aydın Bəndalı oğlu. 1963-cü il mayın 22-də Basarkeçər nahiyəsinin Zod kəndində anadan olmuşdur. Orta təhsilini Daşkəsən rayonunun Qazaxyolçular kəndində, ali təhsilini Gəncə Dövlət Pedoqoji İnstitutunda almışdır. Müxtəlif məktəblərdə direktor, Xanlar rayon təhsil şöbəsində inspektor, Xanlar rayon İcra Hakimiyyətində şöbə müdiri işləmişdir. İlk kitabı "Qızıl güllər tonqalı" adı ilə nəşr olunmuşdur. 1992-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**ELDAR HƏSƏNLİ.** Həsənli Eldar Həsən oğlu. 1960-cı il aprelin 28-də Basarkeçər nahiyəsinin Daşkənd kəndində el sənətkarı Həsən Xəyalın ocağında dünyaya gəlmişdir. 8 kitab müəllifidir. 1990-cı ildən Azərbaycan Yazıçılar Birliyinin, 1991-ci ildən Azərbaycan jurnalistlər Birliyinin üzvüdür. Bərdədə yaşayıb-yaradır.

**ELDAR İSMAYIL.** İsmayılov Eldar Ələsgər oğlu. 1942-ci il martın 10-da Çənbərək nahiyəsinin Ağbulaq kəndində anadan olmuş, Azərbaycan Dövlət Universitetini bitirmişdir. 17 kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl qələm" və "Araz Ali Ədəbi Mükafatı" laureatı, "Təbib" qəzetinin baş redaktorudur.

**ƏHMƏD PAŞA.** Paşayev Əhməd Əli oğlu. 1927-ci il yanvarın 14-də Çənbərək nahiyəsinin Ardanış kəndində anadan olmuş, Azərbaycan Dövlət Pedoqoji İnstitutunu və Bakı Ali Partiya Məktəbini bitirmişdir. 3 kitab müəllifi, 1996-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü idi. 1997-ci il sentyabrın 3-də Bakıda vəfat etmişdir.

**ƏLİ QURBAN DASTANÇI.** Qurbanov Əli Abdulla oğlu. 1928-ci il mayın 14-də Basarkeçər nahiyəsinin Ağkilsə kəndində anadan olmuş, H.Zərdabi adına Gəncə Pedoqoji İnstitutunu bitirdikdən sonra təyinatla Kəlbəcər rayonuna göndərilmiş və 1993-cü il aprelin 1-də Kəlbəcər işğal olunana qədər burada yaşayıb-yaratmışdır. 1993-cü ildə Gəncədə məskunlaşmışdı.15 kitabın müəllifi, 1993-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü idi. 2004-cü il martın 27-də Bakıda vəfat etmişdir.

**ƏLİ VƏKİL.** Səfiyev Əli Vəkil oğlu. 1938-ci il iyulun 10-da Basarkeçər nahiyəsinin Yuxarı Şorca kəndində anadan olmuş, İrəvan Pedoqoji İnstitutunun fizika-riyaziyyat fakultəsini bitirmişdir. 13 kitab müəllifi, 1968-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin, 1972-ci ildən Azərbaycan Yazıçılar İttifaqının üzvüdür.

**FÜZULİ SABİROĞLU.** Eyvazov Füzuli Sabir oğlu. 1964-cü il noyabrın 20-də Basarkeçər nahiyəsinin Kiçik Məzrə kəndində anadan olmuş, Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. Qarabağ savaşı əlilidir. "Göydən yerə göz qoyan var" adlı şerlər toplusu kütləvi tiracla nəşr edilib.1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**HƏSƏN GÖYÇƏLİ.** Kərimov Həsən Səməd oğlu. 1937-ci il mayın 24-də Basarkeçər nahiyəsinin İnəkdağı kəndində anadan olmuşdur. 1988-ci ildə Ermənistan dövlətinin türklərə qarşı yeritdiyi deportasiya siyasətindən sonra Goranboy rayonunun Veyisli kəndində məskunlaşmışdır. "Göyçə həsrəti" və "Göyçə mənim ürəyimdə" şer toplularının müəllifi, 1999-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**HƏSƏN HƏSƏNLİ.** Həsənov Həsən Zal oğlu. 1954-cü il avqustun 30-da Çənbərək nahiyəsinin Ardanış kəndində anadan olmuş; Azərbaycan Dövlət Universitetini, Ümumittifaq Mətbuat İnstitutunu, Azərbaycan Dövlət Xarici Dillər İnstitutunu, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını bitirmiş, bir sıra qəzetlərdə məsul vəzifələr tutmuş, Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədr müavini işləmişdir. 2002-ci ildən "Xalq" qəzetinin baş redaktorudur.

**HƏSƏN XƏYALLI** - şair. 1885-ci il martın 20-də Basarkeçər nahiyəsinin Daşkənd kəndində anadan olmuş, dayısı Hacı Rəhimdən dini, Aşıq Nəcəfdən aşıqlıq dərsi almışdır. 1966-cı il aprelin 10-da doğma kəndində vəfat etmiş, zəngin irsi qalmışdır.

**XASAY HACIYEV.** Hacıyev Xasay Oruc oğlu. 1925-ci il aprelin 28-də Basarkeçər nahiyəsinin Daşkənd kəndində anadan olmuş, Bakı Dövlət Universitetinin fizika-riyaziyyat fakultəsini bitirmişdi.1948-1953-cü il deportasiyaları zamanı Bərdə rayonunda məskunlaşmışdı. 1962-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü idi. 1977-ci il aprelin 11-də Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat edib.

**XƏSTƏ BAYRAMƏLİ.** Xudiyev Bayraməli Abbasəli oğlu. 1898-cii ilin yayında Basarkeçər nahiyəsinin Hüsenquluağalı kəndində anadan olub. Sovet hakimiyyəti illərində dövrü mətbuatda müntəzəm çıxış edib, II Dünya savaşında faşizmə qarşı döyüşlərin iştirakçısı olub. "Mənim Göyçəm" adlı şerlər və poemalar toplusu 1987-ci ildə "Yazıçı" nəşriyyatında 14.000 nüsxə tiracla nəşr edilib.

**İBRAHİM KÖÇKÜN.** Qurbanov İbrahim İsgəndər oğlu. Basarkeçər nahiyəsinin Bala Qaraqoyunlu kəndində anadan olmuş, sonradan kəndləri dağıdıldığı üçün ailəsi ilə birlikdə Zod kəndində məskunlaşmışdır. Azərbaycan Pedoqoji İnstitutunu və M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutunu bitirmişdir. Bədii yaradıcılığa hələ tələbəlik illərində başlamış, dövrü mətbuatda müntəzəm çıxış etmişdir. 1988-ci il deportasiyasından sonra əvvəl Xanlar, sonra isə Abşeron rayonunda məskunlaşmışdır. İki kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**İDRİS ZAMANLI.** Zamaov İdris Abbasəli oğlu. 1930-cu il martın 22-də Çənbərək nahiyəsinin Cil kəndində anadan olmuş, Azərbaycan Dövlət Universitetini bitirmişdir. "Sovet Ermənistanı" qəzetində, "Elm və həyat" curnalında şöbə müdiri vəzifəsində çalışmış; Moskvada nəşr olunan "Nedelya" qəzetinin Azərbaycan üzrə xüsusi müxbiri olmuşdur. 4 kitab müəllifi, 1989-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü idi, əsərləri bir neçə dilə tərcümə edilmişdi. 1994-cü il iyunun 2-də Bakıda vəfat etmişdir.

**İSLAM ƏLƏSGƏR.** Ələsgərov İslam Talıb oğlu. 1925-ci ildə Basarkeçər nahiyəsinin Ağkilsə kəndində anadan olmuş, Bakı Dövlət Universitetini bitirmişdir. Filologiya elmləri namizədi, 5 kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşmışdır. Nizami adına Ədəbiyyat İnstitutunun folklor şöbəsinin elmi işçisidir.

**İSMİXAN DİDƏRGİN.** Məmmədov İsmixan Müseyib oğlu. 1930-cu ildə Basarkeçər nahiyəsinin Ağkilsə kəndində anadan olmuş; 9 yaşında atasını, 15 yaşında anasını itirdiyindən böyük bir ailənin qayğılarına qatlaşmaq məcburiyyətində qalmış və bu səbəbdən də ali təhsilini Azərbaycan Dövlət Pedoqoji İnstitutunun qiyabi şöbəsində almış, ədəbi yaradıcılığa 50-ci illərdə "Sovet Ermənistanı" qəzetində başlamış, 1988-ci il deportasiyasından sonra Daşkəsən rayonunda məskunlaşmışdı. 1994-cü il iyunun 6-da Daşkəsən rayonunun Bayan kəndində vəfat etmiş, "Ayırdılar qucağından Göyçənin" adlı şerlər toplusu ölümündən sonra 20.000 tiracla nəşr edilmişdir.

**QAÇAY BƏHMƏNOĞLU.** Qarayev Qaçay Bəhmən oğlu. 1956-cı il oktyabrın 2-də Basarkeçər nahiyəsinin Hüseynquluağalı kəndində anadan olmuş, Bakı Energetika Texnikumunu bitirmişdir. Bədii yaradıcılığa orta məktəb illərindən başlamışdır. Şer və poemalardan ibarət "O yerlərin yönü bəri" kitabının müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**QƏDİR ASLAN.** Aslanov Qədir Təyyar oğlu. 1944-cü il mayın 18-də Basarkeçər nahiyəsinin Hüseynquluağalı kəndində anadan olmuş, Bakı

Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmiş, uzun illər "Vardenis" qəzetinin məsul katibi vəzifəsində işləmişdir.1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşmış, müxtəlif qəzet və nəşriyyatlarda məsul vəzifələrdə çalışmışdır. 2000-ci ildən "Respublika" qəzetinin şöbə müdiridir. 5 kitab müəllifi, Azərbaycan Jurnalistlər və Yazıçılar Birliklərinin üzvü, Az.KVİHİ-nin "Qızıl qələm" və "Simurq" Milli Mükafat Fondunun "Peşəkar qələm" mükafatlarının laureatıdır.

**QƏDİR BABAYEV.** Babayev Qədir İbrahim oğlu. 1937-ci il martın16-da Kəvər nahiyəsinin Ağzıbir kəndində anadan olmuş, Qazax Pedoğoji Texnikumunu, Xarkov Avtomobil Yol İnstitutunu bitirmiş, "Elm" qəzetinin yaradıcılarından biri olmuşdur. Hazırda "Bakinskiy raboçiy" qəzetinin əməkdaşıdır. Əsasən rus dilində yazıb-yaradan Qədir Babayev iki povestin və bir neçə hekayələr kitabının müəllifi, Azərbaycan Yazıçılar və jurnalistlər birliklərinin üzvüdür.

**MAHİR BAYRAM.** Bayramov Mahir Fərman oğlu. 1959-cu il dekabrın 20-də Basarkeçər nahiyəsinin Hüseynquluağalı kəndində anadan olmuş, Pedoqoji İnstitutun "Azərbaycan dili və ədəbiyyatı" fakültəsini, sonradan isə həmin ali təhsil ocağının fəlsəfə tarixi kafedrasının aspiranturasını bitirmişdir. "Məhv edilmiş vüqar" kitabının müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**MAŞALLAH XUDUBƏYLİ.** Xudiyev Maşallah Bayraməli oğlu. 1952-ci il fevralın 21-də Basarkeçər nahiyəsinin Hüseynquluağalı kəndində anadan olmuş, Gəncə şəhər 32 saylı orta məktəbini və Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. Bədii yaradıcılığa XX əsrin 70-ci illərindən başlamış, şerləri dövrü mətbuatda müntəzəm dərc olunmuşdur. Elmi-publisistik tədqiqatlarının bir qismi "Mənim sazlı-sözlü dünyam" kitabında toplanmışdır. Uzun illərdir ki, Azərbaycan Dövlət Radiosunun baş proqram direktorunun müavini vəzifəsində çalışır.

**MEHDİ HƏSƏNOV.** Həsənov Mehdi Rəhim oğlu. 1935-ci il oktyabrın 23-də Kəvər nahiyəsinin Ağzıbir kəndində anadan olmuş, qonşu Hacı Muğan kənd orta məktəbini, İrəvan Dövlət Pedoqoji İnstitutunu, Bakı Dövlət Universitetinin aspiranturasını bitirmiş, 1969-cu ildə filologiya elmləri namizədi alimlik dərəcəsi almışdı. İlk bədii yazı nümunəsi 1959-cu ildə "Sovet Ermənistanı" qəzetində dərc olunmuş; "Dağlar qoynunda" və "Maral əfsanəsi" adlı iki kitabı kütləvi tiracla yayılmışdı. 1964-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü idi. 1971-ci il fevralın 5-də İrəvanda, Ermənistan KP MK-ya məxsus xüsusi xəstəxanada- "leçkomissiya"da erməni cərrahları tərəfindən qətlə yetirilmiş, Ağstafa şəhər qəbristanlığında dəfn edilmişdir.

**MƏCNUN GÖYÇƏLİ.** İbrahimov Məcnun Səməd oğlu. 1949-cu il iyunun 2-də Basarkeçər nahiyəsinin Bala Məzrə kəndində anadan olmuş, Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakultəsini bitirmişdir. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşmış, Azərbaycan Aşıqlar Birliyi sədrinin müavini, "Ozan" qəzetinin redaktoru, Müasir Müsavat Partiyası sədrinin ictimai əlaqələr üzrə müavini işləmişdir. Şerləri 1960-cı ildən başlayaraq dövrü mətbuatda müntəzəm dərc olunur. 4 kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Aşıqlar Birliyi İdarə Heyətinin üzvüdür.

**MÖHSÜM QƏDİROĞLU.** Aslanov Möhsüm Qədir oğlu. 1970-ci il aprelin 20-də Basarkeçər nahiyəsinin Hüsenquluağalı kəndində anadan olmuş, 1988-ci il deportasiyasından sonra ailəsi ilə birlikdə Bakıda məskunlaşmış, Futrologiya İnstitutunu və Bakı Dövlət Universitetini bitirmişdir. İlk şerləri hələ orta məktəbdə oxuyarkən "Vardenis" qəzetində dərc edilmiş, bundan sonra dövrü mətbuatda müntəzəm çıxış etmişdir. Az.Kİ-VİHİ-nin "Qızıl qələm" və "Simurq" Milli Mükafat Fondunun "2003-cü ilin ən peşəkar jurnalisti" mükafatlarının laureatı, Azərbaycan jurnalistlər Birliyinin üzvüdür. Hazırda Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin Ukrayna və Qərbi Avropa ölkələri üzrə xüsusi müxbiri, həmçinin Kiyevdə rus, ukrain və Azərbaycan dillərində nəşr olunan "Azərbaycanın səsi" qəzetinin baş redaktorudur.

**NÖVRƏS İMAN.** İman Məşədi Saleh oğlu. 1903-cü ilin mayında Basarkeçər nahiyəsinin Ağkilsə kəndində, Aşıq Ələsgərin qardaşı Məşədi Salehin ocağında dünyaya göz açmış, Hüseynquluağalı mədrəsəsində dini təhsil, Aşıq Ələsgərdən sufi-ozan təlimi almışdır. 1932-ci ildə "qeybə çəkilmişdir". Qəzəl, qəsidə, münəcat, nət, qoşma və gəraylılardan ibarət zəngin irsi qalıb.

**NURU BAYRAM.** Verdiyev Nuru Bayram oğlu. 1939-cu ildə Basarkeçər nahiyəsinin Ardanış kəndində anadan olmuş, 1948-ci il deportasiyaları zamanı ailəsi ilə birlikdə Xanlar rayonunun Qızılca kəndində məskunlaşmış, Azərbaycan Pedoqoji İnstitutunun fizika-riyaziyyat fakultəsini bitirmişdir.1973-cü ildən Bakıda yaşayıb-yaradır. Ədəbi yaradıcılığa 1958-ci ildən başlamış və dövrü mətbuatda müniəzəm çıxış etmişdir. "Zaman və xilaskar" adlı kitabı 1988-ci il müsibətlərinə həsr olunmuşdur.

**SALMAN ƏLİ** - şair, dramaturq, folklorşünas. 1929-cu il mayın 24-də Kəvər nahiyəsindəki Ağqala kəndində anadan olmuş, İrəvan Pedoqoji Texnikumunu və H.Zərdabi adına Gəncə Pedoqoji İnstitutunu bitirmişdir. Altı pyesi xalq teatrlarında səhnələşdirilmiş, topladığı 4 dastan çapdan çıxmışdır. "Qaravəlli və nağıllar" kitabının müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**ŞİRUYƏ HƏSƏNOĞLU.** Hacıyev Şiruyə Həsən oğlu. 1942-ci il sentyabrın 11-də Basarkeçər nahiyəsinin Daşkənd kəndində anadan olmuş, 1953-cü il repressiyalarından sonra ailəsi ilə birlikdə Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmış, atasından dini təhsil almış, Azərbaycan Pedoqoji İnstitutunu bitirmişdir. 5 kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**ÜLVİ BÜNYADZƏ.** Bünyadzadə Ülvi Yusif oğlu. 1969-cu il sentyabrın 23-də Basarkeçər nahiyəsinin Kəsəmən kəndində anadan olmuş, sonradan ailəsi Daşkəsən rayonunda məskunlaşdığından orta məktəbi burada bitirmiş, hərbi qulluqdan sonra Azərbaycan Dövlət Pedoqoji Xarici Dillər Universitetində təhsil almışdır. Azərbaycanın azadlığı uğrunda mübarizəyə qalxmış vətənpərvərlərin ön sırasında dayanmış, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə rus qoşunlarının Bakıya hərbi müdaxiləsi zamanı paytaxtın şimal qapısındakı milli müqavimət dəstəsinə rəhbərlik etmiş və elə həmin döyüşlərdə şəhid olmuşdur. Ölümündən sonra iki kitabı çandan çıxıb.

**YUSİF İLDIRIM.** 1928-ci ildə Türkiyənin İqdır bölgəsinin Başburun nahiyəsində anadan olmuş, İqdır rəssamlıq litseyini və Ərzurumdakı Atatürk Universitetini bitirmişdir. 1918-1920-ci illərdə ermənilərin Göyçədə törətdikləri qətliamlar zamanı yerlə-yeksan edilmiş Küzəcik kəndindən olan valideynlərinin vətən həsrəti onun ruhuna hopmuş və Yusif hələ gənc yaşlarından Azərbaycanı və Göyçəni tərənnüm edən şerlər yazmış, mahnılar bəstələmişdir. Üzünü görmədiyi dədə- baba yurduna həsr etdıyi şerlərdən, mühacir həyatının nisgilli nəğmələrindən ibarət 4 kitabın müəllifidir. 1975-ci ildə Kütahyada vəfat etmişdir.

**ZƏKİ İSLAM.** Yusifov Zəki İslam oğlu. 1939-cu il avqustun 10-da Çəmbərək nahiyəsinin Cil kəndində anadan olmuş, Basarkeçər nahiyəsindəki Şişqaya kənd orta məktəbini, H.Zərdabi adına Gəncə Pedoqoji İnstitutunu, S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını, Kənd Təsərrüfatı Elmi-Tədqiqat İnstitutunun aspiranturasını bitirmiş, doğma Cil kəndində sovxoz direktoru işləmişdir. 1988-ci il deportasiyasından sonra Bakının Binəqədi rayonunda məskunlaşmışdır. İlk şeri 1954-cü ildə çap ediləndən sonra dövrü mətbuatda müntəzəm çıxış etmişdir. 7 kitab müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl qələm" mükafatı laureatıdır.

# ORDA BİR KƏND VAR, UZAQDA...

*...Getməsək də, görməsək də,*
*O kənd- bizim kəndimizdir...*

**O kənd - Böyük Qaraqoyunludur...**

Göyçədən danışıb ondan söhbət açmamağım o kəndin çörəyinə, suyuna xəyanət; məni böyüdüb ərsəyə yetirən, mənim əziyyətimi çəkən doğmalarımın ruhuna dönüklük; hər qayğıma qatlaşmaqdan yorulmayan müəllimlərimin zəhmətini itirmək olardı. Ən azı ona görə ki, Göyçəyə bağlılığımın mayasında o oba durur; içimdəki Göyçə sevgisi o kəndə olan sevgidən, ruhuma zərrə-zərrə hopdurulan sevgidən qaynaqlanıb. O kəndi xatırlamamağım sadəcə mümkün deyil: mənim üçün həyat, Göyçə, VƏTƏN o kənddən, o kəndin girəcəyindəki "Topdaş" deyilən bir ərazidə, nisbətən çökək bir yerdə tikilmiş evdən, o evin qarşısındakı təndir damından- nənəmin təndirindən başlayır. Və bu gün, həyatda nəyim varsa hamısına görə, məni Göyçəni unutmağa qoymayan müqəddəs hisslərə görə o təndirə, o evə, o məhəlləyə, o kəndə, o kəndin məni qəlbən sevən nurlu insanlarına, hətta məni sevməyən, amma öz gizli və aşkar nifrətləriylə məni həyat mübarizəsinə təhrik edən insanlara belə borcluyam. Ən əsası, mənim istəyib-istəməməyimdən asılı olmayaraq, o kəndin xatırlanmaq haqqı var.

Ən azı ona görə ki, tarixi GÖYÇƏ - OĞUZ xanədanının tarixi qədər qədim olmasa da, Qaraqoyunlu sülaləsinin Göyçə hövzəsində və ona yaxın ərazilərdə məskunlaşmasını şərtləndirən ictimai-siyasi reallıqların öyrənilməsi baxımından bu kəndin tarixi xüsusi əhəmiyyət daşıyır.

Ən azı ona görə ki, ümumən Göyçənin taleyinə təsir edən tarixi proseslərin episentrində olmasa belə, sovetlərə qarşı silahlı qiyamın mərkəzində dayanmış bu kəndin tarixinin mükəmməl şəkildə araşdırılması ümumilikdə XX əsr Azərbaycan tarixindəki ağ ləkələrin aradan qaldırılması və Göyçədə erməni - türk mübarizəsinin həqiqi mənzərəsinin aşkarlanması, o mübarizəni şərtləndirən amillərin aydınlaşdırılması yönündə əhəmiyyətli rol oynaya bilər.

Göyçə hövzəsinin şərqində, sovetlər dövründə erməniləşdirilərək rayon mərkəzinə çevrilmiş Basarkeçər qəsəbəsindən 12 kilometr şimal - şərqdə, Çalmalı dağın ətəyində, dəniz səviyyəsindən 2100 metr yüksəklikdə qərar tutmuşdu Böyük Qaraqoyunlu. Kəndin bünövrəsinin qoyulma tarixi ilə bağlı konret mənbələrdə konkret məlumatlar olmasa da, o

obanın söz yaddaşından süzülüb bu günümüzə çatmış hekayətlərin real tarixi faktlara istinadən analizi yolu ilə bir sıra nəticələr əldə etmək mümkündür.

Böyük Qaraqoyunlunun bünövrəsini sonuncu Qaraqoyunlu hökmdarı Cahan Şahın oğlu Məhəmməd Mirzə və ona yaxın olan insanlar qoyub. Bu binələşmə təxminən XV əsrin sonlarına təsadüf edir. Tarixdən bəllidir ki, Cahan Şahın ağqoyunlulara məğlubiyyətindən sonra onun tərəfdarları təqiblərdən yaxa qurtarmaq üçün kompakt şəkildə strateji baxımdan əlverişlı olan dərədə- indiki İcevan şəhəri yaxınlığından başlayaraq, sovetlər dövründə Krasnoselo rayonunun inzibati mərkəzi kimi təsniflənən Çənbərək qəsəbəsinə qədər geniş bir coğrafi ərazini əhatə edən, sonradan elə bu tarixi olayla bağlı olaraq "Qaraqoyunlu dərəsi" adını almış dərədə məskunlaşıblar. Amma az müddət sonra sülalənin daxilində tarixi reallıqlardan qaynaqlanan fikir ayrılığı başlayıb: Ağa Məhəmməd Mirzə azsaylı tərəfdarları ilə birlikdə elatdan ayrılaraq, Göyçənin ən ucqar guşəsində məskunlaşıb və yeni binələşdirdiyi obaya CAHANŞAH adı verib. Qızılbaşların hakimiyyəti bərqərar olduqdan sonra belə bütün XVI əsr ərzində və XVII əsrin birinci qərinəsində "Cahanşah" adı yaşarı olub. 1574-cü ildə bu yerlərə nəzarət imkanı qazanmış Osmanlı Sultanı III Muradın təriqət zəminində səpdiyi ədavət toxumundan sonra isə Cahanşah adı müəyyən mənada narahatlıqlara səbəb olub. 1640- cı ildə Səfəvilər Göyçəyə nəzarət haqlarını bərpa etdikdən sonra bu narahatlıqlardan sığortalanmaq üçün kənd "Yengicə", yəni təzə yurd yeri kimi təsniflənib.

Elə həmin zamanlarda Məhəmməd Mirzənin törəmələri arasında təriqətlərə münasibət müstəvisində növbəti fikir ayrılığı yaranıb ki, bu da kəndin iki yerə bölünməsi ilə nəticələnib. Şiəliyi qəbul edənlər öz yurdlarında qalıblar, şiəlikdən kəskinliklə imtina edənlər isə kəndin cənub səmtindəki dağın o biri üzündə məskunlaşaraq, öz obalarını "Bala Yengicə" adlandırıblar. Əsrlər sonra, artıq bu yurd yeni nəsillər üçün təzə olmayanda, öz kimliklərini xatırlamaq və xatırlatmaq üçün obaların hər ikisinin nümayəndələri özlərini kökdən gələn adları ilə nişan veriblər. Beləliklə də obalar el yaddaşında Böyük Qaraqoyunlu və Bala Qaraqoyunlu kəndləri kimi əbədiləşib. Nə nəticə hasil etmək mümkündür el yaddaşında daşlaşmış bu hekayətlərdən? Bu suala cavab vermək üçün XV-XVI əsr Azərbaycan tarixinə qısa bir ekskurs etməyə ehtiyac duyulur.

1453-1467-ci illərdə Qaraqoyunlu dövlətinin hökmdarı olmuş Cahan Şah Çuxur-Sədd ovalığında, indiki İrəvan şəhəri yaxınlığındakı döyüşdə ağqoyunlulara məğlub olduqdan sonra onun törəmələrinin uzun müddət- həm Ağqoyunlu hakimiyyəti, həm Şah İsmayıl hakimiyyəti, həm də

müəyyən fasilələrlə Səfəvi dövlətinin bütün tarixi ərzində təqiblərlə üzləşməsi tarixi mənbələrdə izi qalmış gerçəklikdir. Tarixi məxəzlərdə Cahan Şahın Hüseyn, Həsən (bir sıra mənbələrə görə Həsənəli), Pirbudaq (bəzi mənbələrə görə sadəcə Budaq), Yusif Mirzə və Məhəmməd Mirzə adlı beş oğlu olduğu barədə məlumatlar öz əksini tapıb. Qaraqoyunlu dövlətinin süqutundan sonra şahzadələrin öz silahlı dəstələri ilə birgə Qaraqoyunlu dərəsində məskunlaşaraq ağqoyunlulara tabe olmadıqları, sonradan isə siyasi baxışlarının (hansı hökmdara pənah aparmaq dilemmasına münasibətlərinə görə) haçalanması səbəbiylə ayrıldıqları da bəllidir. Topqapı Sarayı Muzeyinin arxivindəki 9658 saylı sənədə əsasən təxmini müəyyən etmək olar ki, bu fikir ayrılığından sonra Cahan Şahın böyük oğlu Hüseynin törəmələri öz talelərini Şirvanşaha etibar edərək, onun himayəsinə sığınmışlar. Belə ki, 1512-1520-ci illərdə Osmanlı İmperiyasına başçılıq etmiş I Səlimə ünvanlanmış həmin məktubda Cahan Şahın oğlu Hüseynin oğlu Soltan Əli Şirvana gələnə kimi üzləşdiyi müsibətlərdən söhbət açır və qızılbaşlara qarşı mübarizədə I Səlimə öz köməyini təklif edirdi. Qaraqoyunlu dərəsində son deportasiyaya qədər ən böyük nəsillərdən biri kimi tanınan nəslin "Budaqlılar nəsli" olmasına əsasən isə güman etmək olar ki, Pirbudaq və törəmələri heç kimin hakimiyyətini qəbul etməyərək, müstəqil yaşamağa üstünlük vermiş, həm ağqoyunlulara, həm də səfəvilərə qarşı mübarizə aparmışlar. Həmin ərazidə və coğrafi baxımdan Qaraqoyunlu dərəsinə yaxın olan bölgələrdə, o cümlədən Qazaxda şiəliyin geniş yayılmaması gerçəkliyi də bu ehtimalı təsdiqləyən amillərdən biri kimi dəyərləndirilə bilər. Cahan Şahın kiçik oğlu Məhəmməd Mirzənin isə ağqoyunluların hakimiyyətinə qarşı hər hansı şəkildə mübarizə aparması barədə heç bir rəsmi məlumat yoxdur. Amma onun Ərdəbildə təhsil aldığı məlum tarixi həqiqətlər sırasındadır və bu tarixi reallıqlar, Qaraqoyunlu dərəsini tərk edərək Göyçədə məskunlaşmış şəxslərin məhz Cahan Şahın kiçik oğlu Məhəmməd Mirzənin tərəfdarları olduğu qənaətinin təsdiqləyici amilləri kimi səciyyələnir. Və bu məqamla bağlı iki məsələyə diqqət yetirmək lazım gəlir:

1. *Qaraqoyunluların Yengicə adlandırdıqları yeni yurd yeri (indiki Böyük Qaraqoyunlu kəndi) Ərdəbil haqq dərvişləri ordeninin ən kamil müridlərindən olan Miskin Abdalın dədə-baba yurdu Siyaqutun (indiki Sarıyaqub kəndinin) cəmi 2 kilometrliyindədir. Buradan isə belə nəticəyə gəlmək mümkündür ki, Məhəmməd Mirzənin sufi təliminin əsl mahiyyətindən xəbəri olduğu üçün o tayfa müharibələri yolunu yox, vahid Azərbaycan dövlətinə xidmət yolunu tutub və Qaraqoyunlular arasında fikir ayrılığının əsas səbəbi də bu olub.*

*2. Yengicənin iki yerə bölündüyü, Böyük Qaraqoyunlu və Bala Qaraqoyunlu kəndləri olaraq ötən əsrin 50-ci illərinə qədər müstəqil ərazi vahidləri kimi yaşaması həmkəndlilərimin hər birinə bəlli həqiqətdir. O kənddə yaşayanlara o da sirr deyildi ki, qan qohumları olan hər iki kəndin sakinlərinin ayrılığına səbəb dini faktor idi. Böyük Qaraqoyunluda şiəliyi qəbul edənlər, Bala Qaraqoyunluda isə ondan kəskinliklə imtina edənlər məskunlaşmışdılar. Buna baxmayaraq, təriqətçilik zəminindəki bu ayrılıq heç bir bölgədəki qədər ağrılı nəticələr verməmiş, bu iki kənd arasında qohumluq əlaqələri zəncirvari xarakterli olmuşdur.*

Bu cür paradoksu yalnız və yalnız qan qohumlarının hər hansı prinsipial məsələdə umu-küsüsünün ali məqsədlərə mane olmaması kimi psixoloji amillə izahlamaq mümkündür.

Bütün bu deyilənləri:

- Ağaməhəmmədlilərin bu kəndin əsasını qoyması barədə fikirlərin kəndin ən qədim tayfalarının ağsaqqalları tərəfindən qeyd-şərtsiz qəbul edilməsini;
- Qaraqoyunluların indiki Ermənistanın İcevan-Krasnoselo rayonlarını əhatə edən dərəyə sığınmasının 1468-ci ildən sonrakı dövrə təsadüf etməsi reallığını;
- Cahan Şahın oğlanları arasında fikir ayrılığının Şah İsmayılın hakimiyyətindən əvvəl, yəni 1501-ci ildən öncə baş verdiyini təsdiqləyən rəsmi sənədləri;
- Kəndin şiəliyin qəbulu ilə bağlı zəmində ikiyə bölünməsi reallığını;
- Kəndin əsasını qoymuş tayfada Qaraqoyunlu sülaləsinə məxsus tarixi adların - Cahan, Budaq, Hüseyn, Məhəmməd, Yusif adlarının zaman-zaman təkrarlanaraq, nəsildən-nəsilə keçməsi və günümüzə qədər yaşarı olması gerçəkliyini nəzərə alaraq qəti şəkildə söyləmək olar ki: **Böyük Qaraqoyunlu kəndinin əsası XV əsrin sonlarında sonuncu Qaraqoyunlu hökmdarı Cahan Şahın kiçik oğlu Məhəmməd Mirzənin tərəfdarları tərəfindən qoyulub** və ilkinliyində kənd Cahanşah adlandırılıb.

1555-ci ilə dair sənədlərdə və xəritələrdə Cahanşah kəndi Səfəvi Azərbaycan dövlətinin Qarabağ (Gəncə) bəylərbəyliyinin inzibati vahidlərindən biri kimi səciyyələnir. Məhz elə o zamanlar Səfəvi dövlətinin sürətli inkişafı osmanlıların qısqanclığına səbəb olmuşdu və bu qısqanclıq Sultan III Muradın qızılbaşlara "patoloji nifrət"inin uzunmüddətli qanlı müharibələrə çevrilməsi ilə nəticələndi. 1578-ci ildə Göyçə hövzəsinin şərq hissəsindəki kəndlərin bir qismi, o cümlədən Zod, Zərzibil, Ağkilsə, Cahanşah, Salaməleyk, Siyaqut, Qayadibi, Daşkənd kəndləri osmanlıların

nəzarətinə keçdi ki, bu tarixi reallıq da 1590-cı ildə tərtib olunmuş "İrəvan əyalətinin müfəssəl dəftəri"nin 328-ci səhifəsindəki qeydlərdə əksini tapıb. Həmin qeydlərdən bəlli olur ki, o zaman osmanlıların tətbiq etdiyi struktur bölgüsünə əsasən, yuxarıda adları çəkilən Göyçə kəndlərinin hamısı İrəvan əyalətinin Ordubad qəzasının Zar nahiyəsinin inzibati vahidləri kimi təsnifl ənirmiş. Osmanlıların bu yerlərə ilk nəzarəti təxminən 50 il davam edib. 1595-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"ndəki müvafiq qeydlərdən bəlli olur ki, həmin dövrdə Cahanşah kəndi timar şəklində, yəni dövlət səlahiyyətlilərinin gəlirlərini təmin edən vergi ödəyicisi qismində **Nahar İsrayıl oğlu, Səfər İlyas oğlu, İbrahim İlyas oğlu və Dürri İskəndər oğlu** adlı şəxslərin mülkiyyətinə verilibmiş. XVII əsrin əvvəllərində osmanlılar bu ərazilərə nəzarəti itirdikdən sonra kənd yenidən Səfəvi Azərbaycan dövlətinin Qarabağ bəylərbəyliyinin inzibati vahidləri sırasına daxil edilib və bu dövrdən etibarən şiəliyin Qaraqoyunlu ənənələrinə düşmənçiliyindən qaynaqlanan narahatlıqları aradan qaldırmaq üçün Böyük Yengicə adlandırılıb ki, bu reallıq da məxəzlərdə əks olunub. Belə ki, 1723-cü ildə osmanlılar bütövlükdə Göyçə hövzəsini ələ keçirən zaman bu yurd yeri rəsmi sənədlərdə "başqa bir adı Cahanşah olan Böyük Yengicə kəndi" kimi təqdim olunurdu. 1728-ci il aprelin 12-də Əhməd şah Mehmet xan oğlu tərəfindən təsdiqlənərək tuğralanmış "İrəvan əyalətinin icmal dəftəri"nin 15-ci səhifəsindəki qeydlərdən bəlli olur ki, həmin vaxt kənd inzibati baxımdan İrəvan əyalətinin Məzrəə nahiyəsinin ərazisinə daxil imiş və onun sultan xəzinəsinə illik ödənci 4582 ağça həcmində müəyyənləşdirilibmiş.

Kəndin adının uzun zaman- təxminən iki əsr boyunca Yengicə, yəni təzə yurd kimi hallandırılmasını isə qızılbaşlarla qarqoyunluların ideoloji zəmində fikir ayrılıqlarından qaynaqlanan təhlükədən sığortalanmaq, mənasız itkilərdən qaçmaq istəyi ilə izahlamaq olar. XVIII əsrin sonlarına, yəni Səfəvi xanədanının tarix səhnəsindən tam silinməsi əminliyi yarananadək bütün rəsmi sənədlərdə Yengicə kimi təsniflənən bir kəndin adının qəflətən dəyişdirilərək Qaraqoyunlu toponimi ilə əvəzlənməsinin, o dövrün tarixi reallıqları baxımından, başqa bir izahını vermək sadəcə mümkün deyil.

Kəndin inkişaf tarixinin sxematik xronologiyasını müəyyənləşdirməyə imkan verən rəsmi sənədlər olmasa da, ağsaqqalların söhbətləri əsasında belə qənaətə gəlmək mümkündür ki, ağaməmmədlilər və onlarla eyni soydan olub sonradan Bala Qaraqoyunluda məskunlaşaraq, özlərini elə "balaqaraqoyunlular" kimi təqdlim edənlər bu kəndin əsasını qoyan tayfalardır. XX əsrin sonlarında Böyük Qaraqoyunluda mövcud olan di-

gər tayfaların bu kənddə məskunlaşma tarixi baxımından ardıcıllığı isə belədir: "Nağılar", "Seyidlər", "Alaboğazlılar", "Kazımlılar", "Şıxlar", "Nəsiblilər", "Kalva Çobanlar", "İmirzəlilər" (Rzalılar: Aşıq Əsəd bu nəslə mənsub idi), "Məşədi Hüseynalılar". Böyük Qaraqoyunluda məskunlaşan sonuncu ən böyük tayfa isə "İrəvanlılar" adlanırdı ki, onların da əsasını 1905-1920-ci illər aralığında ermənilər tərəfindən dağıdılmış Kəvər- Martuni nahiyələrindəki türk kəndlərindən gələnlər təşkil edirdi. Bundan başqa Böyük Qaraqoyunluda say tərkibi etibarı ilə çox da geniş olmayan nəsillər də vardı ki, onları da ya özlərinin təqdim etdikləri şəkildə, yaxud da yerli dialektə uyğun şəkildə camaatın qoyduğu adla təsnifləyirdilər: "İmamalılar", "Ədillər", "Petoslar", "Xaçdar" və s.

Beləliklə, yazılı rəsmi mənbələrdəki məlumatların təhlilindən aydın olur ki, XVI əsrin ortalarından etibarən Böyük Qaraqoyunlu, müəyyən fasilələrlə Səfəvi Azərbaycan dövlətinin Qarabağ bəylərbəyliyinin inzibati idarəçiliyində olub. Təxmini məlumatlara və ağammədlilərdən Qəzənfər Cahanovun 1930-cu illərdən etibarən ağsaqqallardan eşitdikləri əsasında tərtib etdiyi şəcərəyə görə, məskunluq tarixinin əvvəlindən XIX əsrin ortalarına qədər Böyük Qaraqoyunlunu **Ağa Məhəmməd, Qara Hüseyn (Hüsən), Cahan, Gödək Alı, Budaq, Yusif, Qara Məhəmməd, Həsən (Hasan), Soltan Əli (Sultanəli), Mustafa, Məşədi Qəhrəman** idarə ediblər.

1826-1829-cu illər İran-Rusiya, Türkiyə-Rusiya müharibələri zamanı Göyçə kəndlərinin böyük əksəriyyəti kimi Böyük Qaraqoyunlu da yerlə-yeksan edilib. Bu müharibələrin qasırğasından Böyük Qaraqoyunluya yaxın kəndlərdən yalnız Göyçə Yellicəsi, Zərzibil, Tatul Qışlağı və Zod salamat çıxmışdı ki, bu tarixi reallıq da rəsmi sənədlərlə təsbitlənir. Belə ki, XIX əsrin əvvəllərində Rusiyanın istəyi və diqtəsi ilə yeni yaradılan erməni vilayətinin idarəçiliyinə verilmiş Göyçə mahalında o zaman yaşayış üçün yararlı sayılan 59 kəndin (ermənilərin tətbiq etdiyi bölgüyə əsasən Göyçə hövzəsi kəndlərinin bir qismi Dərəçiçək mahalının inzibati hüdudlarına daxil edilmişdi və bu səbəbdən də onlar bu siyahıya düşməyiblər) İ. Şopen tərəfindən tərtib olunmuş siyahısında 42-ci sırada Yellicə (Göyçə Yellicəsi), 45-ci sırada Tatul Qışlağı, 46-cı sırada Zərzibil, 47-ci sırada Zod kəndlərinin adı yer alıb. Bu zaman dağıdılmış kəndlərin əhalisinin mütləq əksəriyyəti Göyçə Yellicəsinə sığınsa da, az sonra, yəni XIX əsrin ortalarında onların hamısı öz doğma ocaqlarına qayıdaraq, dədə - baba yurdlarını bərpa etmişlər. Paralel olaraq ermənilər də məqsədləri yönündə fəallıq göstəriblər; Göyçə Yellicəsinin hərbi - strateji əhəmiyyətini, kritik məqamlarda Basarkeçər nahiyəsinin şərq səmtindəki bütün

kəndlərin əhalisi üçün təbii səngər - qalaya çevrilməsi reallığını nəzərə alaraq, onun bir inzibati vahid kimi ləğvinə nail olublar. Bu reallıq da rəsmi sənədlərdə əksini tapıb. Belə ki, 1831- ci ilə dair siyahılarda Böyük Qaraqoyunlu, Hüseynquluağalı, Siyaqut, Salaməleyk, Ağkilsə kəndləri "adları unudulmuş ölü kəndlər" qrafasında ümumiləşdirildiyi və yalnız Göyçə Yellicəsi yaşayış üçün yararlı kənd kimi təsnifləndiyi halda; 1831-ci ildəki "ölü kəndlər"in hamısı 1873- cü ilin statistik hesabatlarına "diri kəndlər" kimi daxil olub, Göyçə Yellicəsi isə heç bir siyahıya düşməyib.

XIX əsrin 30- cu illərindən etibarən, yəni Göyçə hövzəsi Rusiyanın yaratdığı "Erməni vilayəti"nin idarəçiliyinə verildikdən sonra, təbii ki, bütün rəhbərlər, o cümlədən Böyük Qaraqoyunlunu idarə edən şəxslər də hökumət tərəfindən müəyyənləşdirilib. Böyük Qaraqoyunlu XIX əsrin ortalarında yenidən bərpa edildikdən sonra kəndin rusların tətbiq etdiyi qaydalara əsasən təyin edilmiş ilk rəsmi rəhbəri buraya XVI əsrdə Qara Nağının başçılığı ilə gəlmiş "Nağılar tayfası"nın ağsaqqallarından və o vaxt üçün artıq kəndin ən varlı adamı olan **Hacı Nağı** təyin edilib. Hacı Nağının vəfatındani sonra isə bu vəzifəni həm mükəmməl dini, həm də gimnaziya təhsili olan ağaməmmədli **Soltan Əli**, ağaməmmədli **Cahan Məşədi Qəhrəman oğlu**, onun qardaşı **Molla Nəcəf** və seyidlər tayfasından **Kalva** (Kərbalayi) **Cəfər** daşıyıblar.

1918-1920-ci illərdə ermənilərə qarşı mübarizədə kəndin müqavimət hərakatına ümumi rəhbərlik bütün tayfaların ağsaqqallarının yekdil rəyi ilə **Alaboğazlardan Haxoy kişi**yə həvalə olunub. Səmənd Ağanın Sulikova qarşı döyüşündə də Qaraqoyunlu tayfalarının birləşmiş bölüyünün rəhbəri Alaboğazların Haxoyu olub və o tarixi döyüşdə Qaçaq Cəmillə Aşıq Əsəd şücaətləri ilə seçilərək, Səmənd Ağanın mükafatlarına layiq görülüblər. Ümumilikdə isə **Alaboğaz Haxoy** zəmanəsinin ən adlı-sanlı igidlərindən biri olub və onun ermənilərə qarşı mübarizə tarixçəsi təkcə Göyçə ilə məhdudlaşmayaraq, indi Ermənistan deyilən əzəli-əbədi türk torpaqlarının az qala bütün bölgələrini əhatə edib. Belə ki, Səmənd Ağa ilə şəxsi dostluğu olan Haxoy onun doğma bacısı oğlu - Vedibasar müqavimət hərəkatının təşkilatçılarından biri olan Abbasqulu Ağa Şadlınski , eləcə də silahdaşları Qəmlo, Pənah və qeyriləri ilə də mütəmadi əlaqə saxlayırmış. 1930-cu illərdə, kolxozlaşma pərdəsi altında, türklərə qarşı terror kampaniyası başlayanda Kərbalayi İsmayılın dəstəsi ilə Qaçaq Cəmilin Göyçə qaçaqlarının fəaliyyətinin uzlaşdırılması kimi son dərəcə çətin və təhlükəli bir missiyanı da məhz Alaboğaz Haxoy həyata keçirib. Bir növ kəşfiyyatçılıq mahiyyəti daşıdığı üçün rəsmi dairələr bu kontekstdə Haxoy kişiyə heç nəyi sübut edə bilməyiblər və təbii ki, ona qarşı hər

hansı bir ittiham irəli sürməyə də əllərində əsas olmayıb. Bununla belə, Haxoyun özü ilə yanaşı onun tayfasından olanlar da ciddi təqiblərə məruz qalıblar və bu səbəbdən də alaboğazların böyük qismi Qaraqoyunlunu tərk edərək, müəyyən müddət Daşkəsəndə və Bərdədə məskunlaşmağa məcbur olublar. Sonradan isə onların çox az bir qismi dönüb kəndə.

1918-ci il mayın 27-də Tiflisdəki Azərbaycan parlamentarları İrəvan xanlığının tarixi ərazisini Ararat Respublikasına peşkəş etdikdən sonra belə Göyçənin bir qismi - Göyçə gölünün şimal və şimal-şərq ətrafındakı kəndlər, o cümlədən Böyük Qaraqoyunlu da Azərbaycan Demokratik Cümhuriyyətinin tabeçiliyində olub. Amma nə yazıq ki, Azərbaycan Cümhuriyyətinin o zamankı rəhbərləri Göyçənin müdafiəsi barədə əsla düşünməyiblər. 1919-cu ilin aprelində Göyçənin şimal-şərq, şərq və cənub səmtindəki kəndlərin hamısı, o sırada Böyük Qaraqoyunlu da dağıdılıb; əhalinin sağ qalan hissəsi müvəqqəti olaraq Cavanşir qəzasının dağlıq zolağında məskunlaşmaq məcburiyyətində qalıb. Göyçə hövzəsinin, 1918-ci il razılaşmasına görə, Azərbaycanın tabeçiliyində olan kəndləri 1920- ci ilin noyabrında "Ermənistanda Sovet Respublikası qurulmasının şərəfinə" növbəti torpaq payı qismində ermənilərə bağışlandı.

Sovet hakimiyyətinin ilk dövründə Qaçaq Cəmil revkom sədri (Basarkeçər nahiyəsi üzrə inqilab komitəsinin sədri) olduğu üçün kəndlərdə revkomun nümayəndələri də, təbii şəkildə, ona yaxın adamlar sırasından seçilirdi. O cümlədən, Böyük Qaraqoyunlunun sovetlər dövründəki ilk rəsmi rəhbəri, sonradan Qaçaq Cəmilin sovet hakimiyyəti əleyhinə silahlı qiyamında xüsusi fəallıq göstərmiş Rəsul olub. Qaçaq Cəmilin silahlı qiyamından sonra Nağılar tayfası "sovetlər üçün etibarsız nəsil" siyahısına düşdüyündən, bu nəsli sıxmağa - boğmaya salmaq üçün, Böyük Qaraqoyunlunun sovet sədri vəzifəsinə müəyyən münaqişələr səbəbindən Nağılar tayfası ilə ədavət aparan **Xaç Abbas** ("Xaçdar"ın Abbası) təyin edilir. O rayon miqyaslı işə cəlb olunduqdan sonra isə, bu vəzifəni bir müddət **Xaç Qulu** ( "Xaçdar"ın Qulusu) icra edib. Qaçaq Cəmilin qiyamı yatırıldıqdan sonra, yəni 1935-ci ildə Böyük Qaraqoyunluda müstəqil kəndli deputatları sovetliyi ləğv edilib. Böyük Qaraqoyunlu, Bala Qaraqoyunlu və Nərimanlı (Hüseynquluağalı) kəndlərinin üçü bir sovetlikdə birləşdirildiyi və sovetliyin qərargahı Nərimanlı kəndində olduğu üçün, bundan sonrakı bütün dövrlərdə soveliyin sədri, bir qayda olaraq, həmişə Nərimanlı kəndinin sakinləri sırasından seçilib.

Kolxoz quruculuğunun ilk illəri Qaçaq Cəmilin qiyamı dövrünə təsadüf etdiyindən, Böyük Qaraqoyunludan kiminsə qabağa düşüb kollektiv təsərrüfata rəhbərlik etməsi sadəcə müşkül idi. Xüsusən də kəndin varlı

adamlarının mütləq əksəriyyətinin qaçaqlıq etdiyi bir zamanda, o kənddən kiminsə qabağa düşərək qaçaqlara məxsus əmlaka toxunmağa cəsarəti çatmazdı. Bu reallığı nəzərə alaraq, rayon partiya komitəsi Böyük Qaraqoyunluda kolxozun təşkil edilməsini "köhnə bolşevik"lərdən sayılan **Qoşabulaqlı Zeynalabdinə** tapşırmışdı. Zeynalabdin kişi təsərrüfatı təşkil etməklə yanaşı, yeni dövrün tələblərinə cavab verən kadrların hazırlanmasına da xüsusi diqqət yetirirmiş.



A.Qəhrəmanov II Dünya Müharibəsindən qayıtdığı gün. Həyat yoldaşı Göycə, anası Zəhra və övladları.

Məhz Qoşabulaqlı Zeynalabdin kişinin təkidi ilə köməkçisi **Abbasəli Salman oğlu Qəhrəmanov** İrəvana hesabdarlıq kursuna göndərilir və beləliklə də Qaraqoyunlunun ilk "diplomlu sovet mütəxəssisi" olur. Sonradan Abbasəli Qəhrəmanov Sovet Ordusu sıralarına çağırılan ilk qaraqoyunlulardan biri kimi Finlandiya-Rusiya, Almaniya-Rusiya, Rusiya-Yaponiya müharibələrində iştirak edərək, 2 orden, 14 medalla təltif olunmuş, müharibədən sonrakı dövrlərdə Zərzibil, Sarıyaqub kolxozlarının sədri, Kəlbəcər rayon istehlak idarəsinin baş mühasibi işləmişdi. Onun prinsipiallığı və mətinliyi də elə Kəlbəcərdə işləyərkən tam mənada üzə çıxıb. Aşkarlanmış bir korrupsiya faktını araşdırmaq üçün Kəlbəcərə şəxsən təşrif buyurmuş Mir Cəfər Bağırov bütün rayon rəhbərliyini uzun illər davam edən bu faktı görməməkdə suçlayaraq, hərəni özü bildiyi kim təhqir edirmiş. Növbə Abbasəli Qəhrəmanova çatanda, o, təhqirə təhqirlə cavab verib və nəinki rayon rəhbərləri, elə Mir Cəfərin özü də şoka düşüb. Amma... Qəzəbli birinci katib onun kim olduğunu dəqiqləşdirdikdən- müharibədəki xidmətlərini və məlum cinayətin üstünün məhz onun tərəfindən açıldığını öyrəndikdən sonra məsələni vəzifə müstəvisindən çıxararaq, kişilik müstəvisində həll edib. Bütün əsabələrinə və rayon rəhbərlərinə Abbasəli Qəhrəmanova toxunmamağı tapşırsa da; özünü şəxsən qəbul edərək, respublikadan çıxmağı "məsləhət" görüb...O da "qəzəbli birincinin tövsiyyəsinə əməl edib". Ye-

nidən Ermənistana qayıdıb və ömrünün sonuna - 1985-ci ilin iyununa qədər Basarkeçər rayonunun müxtəlif təsərrüfatlarında məsul vəzifələrdə çalışıb.

Qaçaq Cəmilin silahlı qiyamı yatırıldıqdan sonra kolxoz sədri **İmamalı kişi** (Babayev) seçilir və savadsız olmasına rəğmən, işgüzarlığı və təşkilatçılıq qabiliyyəti sayəsində ona göstərilmiş etimadı layiqincə doğruldur. İmamalı kişidən sonra kolxoz sədri vəzifəsinə **İbrahim Məmmədov** təyin edilir. Amma onun rəhbərliyi uzun çəkmir: xırmanın taxılı vaxtında anbarlara daşınmadığından qəfil gecə leysanı kəndin bir illik ruzisini yuyub aparır. Bu məsələnin araşdırılması başa çatmamış, kolxoz sədrinin səriştəsizliyi ucbatından daha bir xəta üz verir. Yayın qızmarında tərləmiş atların dincəlməsinə çox vaxt sərf olunmaması üçün, sədr atları "Anqutlu göl"də sərinlətmək barədə göstəriş verir və tərli ilxıdan bir at belə göldən çıxmır, buz suda qançır olub qırılırlar. Bu xəta sədrin taleyini həll edir. II Dünya müharibəsi başlayan kimi ordu sıralarına çağırılaraq, ön cəbhəyə yola salınan İbrahim kişi alman - sovet müharibəsindən geri dönmədi. Onun haqqında nəinki kəndimizdə doğulan son nəsil uşaqların, bəlkə heç orta yaşlı insanların da böyük əksəriyyətinin məlumatı yoxdur. Amma oğlunu hər kəs yaxşı tanıyırdı: **traktorçu İsax**. Nəvəsi **İfadə İsax qızı** isə XX əsrin 80-ci illərində Ermənistan SSR Ali Sovetinin deputatı oldu. İbrahim kişinin həyat yoldaşı **Nadel xala**nı isə Qaraqoyunlu məktəbində bir il belə oxuyan hər kəs tanıyır: o, uzun illər məktəbdə xadimə işlədi. Və mən kəndimizdə məşhur olan bir deyimin, "yoldaş Mamedov, xörəyin soyuyur" bəzəməsinin onu necə hirsləndirməsini görəndə təəccübümdən donmuşdum. Sinif yoldaşımız Altay Məmmədov elə uşaqlıqdan çoxbilmiş və dəcəl idi. Hansı bir səbəbdənsə Nadel xalanın da onu görmyə gözü yox idi. Və növbəti dəfə Hadel xala ona hirsləndə Altay xüsusi bir əda ilə o bəzəməni dilə gətirdi. Arvada elə bil od vurdular. Təbii ki, bu hikkə Altayın Qasım müəllim tərəfindən əzişdirilməsi ilə nəticələndi və məhz ondan sonra öyrəndim ki, bu deyim Nadel xalanın gənclik illərinin, əri İbrahim kolxoz sədri olduğu dövrlərin xatirəsiymiş. O hər gün çıxıb ərini bu sözlərlə nahara dəvət edərmiş. Nəhayət, bir gün İbrahimin tay-tuşları o "soyuyan xörəyin" nə olduğunu dəqiqləşdirmək qərarına gəlirlər və kolxoz sədri ilə dabanbasaraq içəri girəndə, süfrədə qatıqdan savayı bir şey görmürlər. Sən demə, Nadel xala kolxoz sədrinin kasıb yaşadığını büruzə verməmək üçün "diplomatik gedişlər" edirmiş...

İbrahim Məmmədovdan sonra Böyük Qaraqoyunlu kolxozuna 14 il **Aydın Məmmədov** başçılıq edib. 10 il SSRİ Ali Sovetinin, 5 il Ermənistan SSR Ali Sovetinin deputatı olmuş bu tarixi şəxsiyyətin rəhbərliyi döv-



Kəndin ən mötəbər qonaqlarını el ağsaqqalı Aydın Məmmədovun iştirakı ilə qarşılamaq müqəddəs bir ənənəyə çevrilmişdi.

ründə Böyük Qaraqoyunlu kolxozu, sözün həqiqi mənasında rekord göstəricilərə imza atıb. Ən əsası, bu uğurlar təkcə təsərrüfat göstəriciləri ilə məhdudlaşmayaraq, həm də sosial sahəni əhatə edib. Basarkeçər rayonunun kəndləri arasında ilk ictimai hamam, ilk klub məhz Aydın Məmmədovun təşəbbüsü ilə Böyük Qaraqoyunluda tikilib.

Sonradan müasir standartlara cavab verən təzə hamam da kəndlər arasında ilk dəfə Böyük Qaraqoyunluda İman Hüseynovun sədrliyi dövründə tikildi. Aydın Məmmədovun 40-cı illərdə tikdirdiyi hamam son vaxtlara qədər, uçuq-sökük halda olsa da, qalırdı. Qərib kişinin evi ilə üzbəüz olan o qəribə tikilini sonradan usta Nəsib sökərək ərazisini öz həyətyanı təsərrüfat sahəsinə qatdı. Aydın Məmmədovun o ağır müharibə illərində min bir zəhmətlə tikdirdiyi su dəyirmanının qalıqları da son illərə qədər qalırdı... Bir sözlə, Aydın Məmmədovun sədr olduğu dövrdə Qaraqoyunlu kolxozunda işə düzəlmək kasıblığın daşını atmaq demək imiş. Aydın kişinin əmək gününə təkcə pul yox, eyni zamanda taxıl, pendir, yağ verdiyi günləri yaşlılar hər il kolxozda əmək günü bölgüsü zamanı minnətdarlıqla xatırlayar,- "getdi o günlər",- deyə ah çəkərdilər.

Aydın Məmmədovdan sonra qısa bir müddət təsərrüfata nərimanlı kənd sakini **Şahmalı Qurbanov** rəhbərlik edib. Ondan estafeti iki çağırış SSRİ Ali Sovetinin deputatı olmuş **İman Hüseynov** qəbul edib və 10 il

ərzində təsərrüfata ittifaq miqyaslı uğurlar qazandırıb. İman Hüseynov Kreml xəstəxanasında dünyasını dəyişəndən sonra Böyük Qaraqoyunlu kolxozunun sədri vəzifəsində çox qısa müddətlərdə nərimanlılı **Səfər Aslanov** (Azərbaycan Respublikasının ilk müstəqil parlamentinin komissiya sədri olmuş professor Səfiyar Musayevin qardaşı), nərimanlılı **Şahmalı Qurbanov** ("Sovet Ermənistanı" qəzetinin baş redaktoru, Ermənistan SSR Ali Sovetinin sədr müavini olmuş Zərbəli Qurbanovun böyük qardaşı), şişqayalı **Tapdıq Cəfərov** (hazırda Bakının Yasamal rayonunun səhiyyə şöbəsinin müdiri olan Vaqif Cəfərovun atası) olublar.

1970-1976-cı illərdə isə Böyük Qaraqoyunlu kolxozunun sədri 30-cu illərdə bu vəzifədə işləmiş İmamalı kişinin oğlu **İsrafil Babayev** oldu. Onun sədrliyi dövründə, rəsmi statistikaya görə, kolxozun göstəriciləri çox yüksək olmasına, hətta qoyunçuluq fermasının müdiri **Talıb Həsənov**un "Lenin ordeni"nə layiq görülməsinə baxmayaraq, nəticədə məlum oldu ki, yaxın sayaraq maddi məsul işlərə qoyduğu "dostları" ona xəyanət ediblər. Onun bir neçə dəfə müalicədə olmasının ağır nəticəlri elə ilk yoxlamadaca üzə çıxdı. Və mən onda ilk dəfə olaraq elin gücünü həqiqi mənada dərk etdim. Müəyyən mülahizələrlə onun vəzifədən getməsinə çalışanlar belə, son anda məsələnin hüquq - mühafizə orqanları səviyyəsinə qalxmasına imkan verməmək üçün, **İsrafil Babayev**ə arxa durdular. Bütün kənd işə qarışdı, amma sədrin işinin məhkəməyə düşməsinə imkan vermədilər. Bu, Böyük Qaranoyunlu camaatının el-oba təəssübkeşliyinin ifadəsi idi. Bu, İsrafil Babayevin kişilik qüruruna, mərdanəliyə verilən qiymət idi: İsrafil Babayev necə bir təsərrüfat rəhbəri olmasından asılı olmayaraq, sözün həqiqi mənasında şəxsiyyət idı, mərd kişi idi. Ola bilərdi ki, iş əsnasında kiminləsə düşnüşsün, ola bilərdi ki, kiminləsə əlbəyaxa döyüşə çıxsın; amma heç vaxt heç kimə hökumət əliylə zərbə vurmazdı. Kiminləsə vəzifə səlahiyyətləri çərçivəsində haqq-hesab çəkməzdi. O, elinə bağlı, yurdunu sevən, mütləq mənada yalnız kişilik qanunlarına tapınan sanballı Göyçə kişilərindən biri idi. Hazırda Gəncə şəhərində yaşayır.


İsrafil Babayev

İsrafil Babayevdən sonra 10 il müddətində təsərrüfatın rəhbəri **Köçəri Məcid oğlu Nəsibov** oldu. Mənim xatırladığım, o, kəndimizin ən gənc kolxoz sədri idi və bu vəzifəyə təyin olunmazdan əvvəl komsomol komitəsinin, partiya özək təşkilatının katibi işləmişdi. Və insafən ilk illər əsl



Köçəri Nəsirov

komsomolçu fəallığı nümayiş etdirirdi. Sonradan o rayon mərkəzində hansısa bir işə göndərildi və çox qısa müddətdən sonra Şəmkirə köçdü. O da el-obasını sevən, kəndin ziyalılarını lazımınca dəyərləndirməyi bacaran bir insan idi və bu yüksək insani keyfiyyətini kənddən köçəndən sonra da qədərincə nümayiş etdirdi. Xüsusən də son deportasiya zamanı. 1988-ci ildə Böyük Qaraqoyunlu, Göyçənin bütün digər kəndləri kimi, məchulluqla üzüzə qalanda, o, Şəmkirdəki Ağkənd adlı erməni kəndi ilə Böyük Qaraqoyunlunun dəyişdirilməsi təşəbbüsü ilə çıxış etdi və bu məsələnin qismən uğurlu həllinə nail oldu. Hər halda bu gün Şəmkirdə qaraqoyunluların kompakt şəkildə yaşadığı bir kənd var və Qaraqoyunlu adlanan o kəndin varlığına görə, Köçəri Nəsibova minnətdar olmalıyıq.

Böyük Qaraqoyunlunun sonuncu kolxoz sədri isə Daşkənd sakini **Vaqif Rüstəmov** idi. Kəndə sədr təyin olunandan öncə raykomda təlimatçı işləmiş bu şəxsin təsərrüfatın inkişafı naminə hansısa bir ciddi təşəbbüsdə olduğu barədə mənim məlumatım yoxdur. O vaxtlar mən "Sovet Ermənistanı" qəzetində kənd təsərrüfatı şöbəsinə rəhbərlik edirdim və kəndə, demək olar ki, hər həftə baş çəkirdim. Amma Vaqif müəllimlə şəxsi tanışlığımız olmadı. Onu qiyabi olaraq sürücüsü Abbasın söhbətlərindən tanıyırdım: mənim həmyaşıdım olan Abbasın incə yumorlu baməzə söhbətlərindən bilirdim ki, gənc sədrimiz "canlara dəyən oğlandır".

Böyük Qaraqoyunlu təkcə kənd təsərrüfatındakı nəaliyyətləri ilə məhşur deyildi. Burada təhsilə diqqət xüsusi önəm daşıyırdı. Vəzifəsindən, ictimai mənşəyindən, savad səviyyəsindən asılı olmayaraq hər bir valideyin məktəbə müqəddəs ocağa sitayiş edən kimi sitayiş edərdi; körpələri birinci sinfə gətirdikləri gündən müəllimlərə onların taleyini həll etmək üçün təsəvvürəgəlməz səlahiyyətlər verərdilər. Ümumilikdə Böyük Qaraqoyunluda ilk məktəb qeyri-rəsmi qaydada təxminən 1890-cı ildən etibarən, İraqı-Əcəmdə mükəmməl təhsil almış Soltan Əlinin təşəbbüsü ilə fəaliyyət göstərib. Dini yönümlü bu məktəbin sonrakı könüllü müəllimi isə **Molla Nəcəf** olub. İlk sovet məktəbi də məhz Molla Nəcəfin evində açılıb. O zaman kənddə yeganə kürsülü, pəncərəli bina olan birotaqlı evini Molla Nəcəf məktəb üçün könüllü vermişdi və bu sovet məktəbinin ilk müəllimi Nərimanlı kənd sakini **Heydərəli müəllim** (XX əsrin 50-ci illərinin sonu 60-cı illərinin əvvəllərində Nərimanlı kənd məktəbinin di-



Mirələkbər Seyidov



Tapdıq Əmiraslanov



Əhməd Hacıyev



Qafar Əliyev

rektoru işləmiş Müzəffər müəllimin atası) olub. Ararat Respublikasının tarixi cinayətləri nəticəsində yurd-yuvasından didərgin düşənlərin bir qismi 20-ci illərin sonlarında Göyçəyə qayıdanda Kəvər nahiyəsindəki Ağqala və Əyrivəng seyidlərindən bir neçə ailə də Böyük Qaraqoyunluya gəlib və vaxtilə mükəmməl gimnaziya təhsili almış bu şəxslər məktəbin yeni müəllimləri olublar, o cümlədən **Mirələkbər Mirməcid oğlu Seyidov** 15 ilə yaxın, 1947-ci ildə Gədəbəy rayonunun Qaramurad kəndinə köçənə qədər məktəbin direktoru işləyib. Onun oğlu Nəsrəddin Məcidov uzun illər Bakının Yasamal rayonunda xalq məhkəməsinin sədri olub, Bakı şəhərinin Birinci Dövlət Notariat kontorunun baş dövlət notariusu vəzifəsində çalışıb. Mirələkbər müəllimdən estafeti **Tapdıq Əmiraslanov** qəbul edib və qısa müddətdə ciddi irəliləyişlərə nail olaraq, rayon rəhbərliyinin diqqətini çəkdiyindən partiya komitəsində işə cəlb edilib. Tapdıq müəllimdən sonra Böyük Qaraqoyunlu məktəbinin direktoru olmuş Nərimanlı kənd sakini **Əhməd Hacıyev** sonradan 20 ilə yaxın bir müddətdə öz kəndlərinin məktəb direktoru oldu.

Əhməd Hacıyevi bu vəzifədə əvəzləyən həmkəndlisi **Qafar Əliyev**in Böyük Qaraqoyunludakı ilk direktorluğu uzunmüddətli olmasa da, 1970-ci ildə o, bu vəzifəyə təkrarən qayıtdı və 6 il bu vəzifəni uğurla həyata keçirdi. Qafar müəllim müharibə veteranı idi, "Şərəf" ordeninin iki dərəcəsinə layiq görülmüşdü. Bu, sözün həqiqi mənasında çox böyük mənsəb idi; o dövrün qayda-qanunlarına görə bu ordenin hər 3 dərəcəsinə layiq görülənlər "Sovet İttifaqı Qəhrəmanı" ilə eyni status əldə edirdilər. Bu ordenin iki dərəcəsinə layiq görülən azərbaycanlıları barmaqla saymaq olardı. Və tələbəlik illərimdə Bakıda adi veteranların, xüsusən də qeyri millətdən olan veteranların meydan suladıqlarının şahidi olanda, Qafar müəllimin necə yüksək mədəniyyət sahibi olduğunu dərk etdim. O, sözün həqiqi mənasında iddiasız, könül toxluğu ilə seçilən bir insan idi. Təmki-



Göyçəli müəllimlər Gəncədəki 36 saylı məktəbə
Aşıq Ələsgərin adının verilməsini bayram edirlər. 1989-cu il

nini hərə bir yerə yozardı: kimi savadlı olmaması ilə izah edər, kimi zəif eşitməsi ilə əlaqələndirərdi. Mənim zənnimcə isə, Qafar müəllim odun-alovun içindən çıxmış, erkən gəncliyində ölümlə dəfələrlə üz-üzə dayanmış bir insan kimi adi məişət söz - söhbətlərinin həyati əhəmiyyət daşımadığı həqiqətini dərk etmişdi və gəncliyində qəbul etdiyi bu mütləq həqiqət onu xırdalıqların, nahaq dünyanın ürəkbulandıran cılızlıqlarının fövqünə yüksəltmişdi.

Birinci direktorluq müddətindən sonra Qafar Əliyevi bu vəzifədə **Vilayət Abbasəli oğlu Salmanov** əvəzləyib. O, Böyük Qaraqoyunlu məktəbinə direktorluq edən ilk kənd sakini idi. Sonradan Vilayət müəllim Şuşa şəhərində xüsusi internat məktəbin direktor müavini, Şuşa rayon təhsil şöbəsində metodkabinetin müdiri, Gəncə şəhər Kəpəz rayon İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini oldu. Gəncədəki A.Şirvanzadə adına "beynəlmiləl" orta məktəbin adının dəyişdirilərək, Aşıq Ələsgər adına azərbaycanlı orta məktəbinə çevrilməsində də Vilayət müəllimin müstəsna xidmətləri olub və 2004-cü ildə təqaüdə çıxana qədər bu məktəbdə tədris hissə müdiri işləyib.

Vilayət Salmanovdan sonra Böyük Qaraqoyunlu məktəbinə Məzrə kənd sakini **Cəmşid Xəlilov** rəhbərlik edib. Yol uzaq olduğundan o çox vaxt elə məktəbin emalatxanasındaca gecələyərdi. Amma bu son dərəcə

ciddi məişət problemi onun peşəkar fəaliyyətinə əsla mane olmurdu. Bununla belə üzücü yol, görünür onu çox tez bezdirdi və o, vəzifəsini könüllü təhvil verərək, öz kəndlərinə qayıtdı.

Qafar Əliyevin ikinci direktorluq müddətindən sonra Böyük Qaraqoyunlu məktəbinə rəhbərlik kənd sakini, o zaman artıq rayon qəzetinin məsul katibi olan **Xosrov Abdulhüseyn oğlu Hüseynova** həvalə edildi. Xosrov müəllim ixtisasca jurnalist olsa da, əvvəllər də kənddə müəllim işləmişdi və insafən kollektivlə problemi olmayan tək-tək şəxslərdən idi. Ümumiyyətlə isə Xosrov müəllim mütləq mənada ziyalı etalonu sayıla biləcək qədər sakit, davranışında nümunəvi bir insan idi. Onun uşaqlıq məhəbbətinə sədaqəti barədə hekayətləri mən ilk dəfə tələbəlik illərimdə, Xosrov müəllimin qardaşı Bəylərdən eşitmişdim və o hekayəti özlüyümdə "Böyük Qaraqoyunlunun Leyli-Məcnun dastanı" kimi təsnifləmişdim. Onda 1980-ci il idi. Bəylər müəllim Bakı Dövlət Universitetində qiyabi təhsil alan bacısı qızı Zivəri sessiyaya gətirmişdi. Kənd mühitində biz nə qədər uzaq adamlar olsaq da, Bakıda artıq doğma insanlar idik. Və mənim müəllimim olmuş Bəylər, aramızdakı böyuk yaş fərqinə baxmayaraq, Bakıda olduğu bütün müddətdə yalnız mənimlə yoldaşlıq edərdi. Kənddəki qonşumuz **Eynullah kişinin qızı Tamara** xala ilə Xosrov müəllimin dəlicəsinə sevgisi barədə hekayət də o yoldaşlıq çərçivəsindəki məclislərdən birinin xoş ovqatından qaynaqlanmışdı. Və o hekayəti dinləyə-dinləyə, Xosrov müəllimi Məcnuna, Tamara xalanı Leyliyə bənzədəndə, heç ağlıma da gəlməzdi ki, Bəylər müəllim çox erkən yaşlarında avtomobil qəzasında həlak olacaq... Heç ağlıma da gəlməzdi ki, 17 yaşları olarkən ailə qurmuş və kəndin ideal nümunəvi ailəsi kimi tanınmış Xosrov - Tamara cütlüyünün taleyi də, qismən Leyli - Məcnun taleyinə bənzəyəcək. Hər halda mənə elə gəlir ki, Tamara xanımın vaxtsız ölümü Xosrov müəllim üçün ölçüyəgəlməz itkidir... Göyçədən öz müqəddəs məhəbbəti ilə birgə didərgin düşmüş Xosrov müəllim indi Xanlarda ən hörmətli ziyalılardan biridir. Nə dolanışıq sarıdan, nə övladları sarıdan nigarançılığı yoxdur, çatışmayan təkcə o müqəddəs məhəbbətdir...


Xosrov Hüseynov

Böyük Qaraqoyunlu məktəbinin sonuncu direktoru isə **Əli Zülfi oğlu Həsənov** oldu. Kənddə hamımız onu Zahid müəllim deyə çağırırdıq. Hət-



Əli Həsənov

ta direktor olanda belə. O müəllimliyə qiyabi təhsilinin ilk ilindən başlamışdı və ilk şagirdlərindən biri də mən olmuşam. Amma nədənsə onunla bağlı xatirələrimin ilkinliyində məktəbə dair hər hansı bir əhvalat yox, Zahid müəllimin toyu durur... Və ümumiyyətlə, Zahid müəllim mənim nəzərimdə müəllimliyindən daha çox situasiyanı çevik qiymətləndirən, təşkilatçılıq qabiliyyəti ilə seçilən bir bacarıqlı insan kimi əbədiləşib. İndi o Gəncədə yaşayır və 10 ildən çoxdur ki, Aşıq Ələsgər adına 36 saylı orta məktəbin direktorudur.

Direktoru bu qəbil sanballı şəxsiyyətlər olmuş bir məktəbin öz ənənələrinin formalaşması, müəllim kontingentində sağlam bir rəqabətin mövcudluğu təbii idi. Tapdıq Əmiraslanov direktor olandan sonra Böyük Qaraqoyunlu məktəbində ibtidai təhsilli insanların müəllimlik etmə praktikasına mərhələ-mərhələ son qoyulub. Məhz onun təkidi ilə ilk dəfə məktəbə peşəkar rus dili müəllimi gətirilib. Sonradan burada ailə quraraq taleyini Göyçə ilə bağlayan, Böyük Qaraqoyunluda



Jenya müəllimin ilk şagirdləri. XX əsrin 50-ci illərinin sonu



Yevgeniya Popova

uşaqdan - böyüyə hamının Jenya müəllim kimi tanıdığı **Yevgeniya Popova** əslən çar tərəfindən Qafqaza sürgün edilərək, indiki Ermənistanın Kalinino rayonunun ərazisi sayılan Dağ Borçalıda məskunlaşmış malakanlardan idi. Texnikum təhsilli olsa da, sözün həqiqi mənasında peşəsinin vurğunu idi. Tale ona övlad nəsib etməmişdi. Amma o Böyük Qaraqoyunlu uşaqlarının üstündə doğma ana kimi əsirdi... Hər halda, o kənddən çıxaraq Rusiyanın müxtəlif şəhərlərində təhsil almış, SSRİ-nin müxtəlif re-

gionlarında məskunlaşmış, sovet dövründə vəzifə pillələri ilə sürətlə irəliləmiş insanların üzərində Jenya müəllimin haqq-sayı olduqca böyükdür. Çünki o zamanlar rus dilini bilmədən bu işlərin heç birini görmək, ümumiyyətlə həyatda heç nəyə nail olmaq mümkün deyildi. Bu imkanı bizə Jenya müəllim vermişdi...Köçkünlükdən sonra Xanlarda məskunlaşmış, əziyyətini çəkdiyi sevimli şagirdləri tərəfindən belə xatırlanmayan Jenya müəllim...

Böyük Qaraqoyunlunun ən qocaman müəllimləri isə Qasım Məmmədov, İlyas Nağıyev və Yusif Qəhrəmanov idilər. **Qasım Məmmədov** 1918-ci il erməni vəhşilikləri nəticəsində doğma ocağından didərgin düşmüş Ağqala seyidlərindən idi. Müəllim kimi fəaliyyətə əmisi oğlu Mirələkbər Böyük Qaraqoyunlu məktəbinin direktoru olarkən başlamışdı. Sonradan bütün qohumları Azərbaycana köçsə də, o, taleyini Göyçə ilə bağladı və bütün ömrünü Böyük Qaraqoyunlu övladlarının maariflənməsinə sərf etdi. Könlü tox, təmənnasız, iddiasız, son dərəcə zəhmətkeş bir insan idi o. Kimsəni incitməzdi, kimsənin də ona həqarətinə dözməzdi. Sakit təbiəti ilə yanaşı üsyankar ruhlu bir şəxsiyyət, sözün həqiqi mənasında gendən gəlmə bir ziyalılıq mücəssəməsi idi Qasım Məmmədov. 1988-ci il deportasiyasından sonra Şəmkir rayonunun Çənlibel kəndində məskunlaşmışdı... Göyçə nisgilli qərib ruhu o kəndin qəbristanlığında dolaşır...

**İlyas Nağıyev** isə sürgündən qayıdandan sonra başlamışdı müəllimlik fəaliyyətinə. Ümumiyyətlə qəribə taleli bir insan idi o. Üzdə "İlyas müəllim" deyə çağrılsa da, hamı onu avtoritetlərə məxsus kliçkası ilə - **"Paxan"** ləqəbi ilə tanıyırdı. İkinci dünya müharibəsi başlayanda İlyas Nağıyev İrəvan Pedoqoji Məktəbinin sonuncu kursunda oxuyurmuş. Və yəqin ki, müharibəyə aparılanda heç ağlına da gəlməzmiş ki, kəndə dönüşü 20 il çəkəcək. Müharibənin ilk günlərində əsir düşdükdən sonra, o, müsəlman əsirlər üçün nəzərdə tutulmuş konslagerdə- hərbi əsir düşərgəsində katiblik edib. Güclü yaddaşı sayəsində alman dilini qısa müddətdə öyrənməsi ona əsir düşərgəsinin rəisinin şəxsi tərcüməçisi olmaq imkanı verib. Və məhz bu mövqeyi sayəsində, o, əsir düşmüş yüzlərlə azərbaycanlını, o cümlədən həmkəndlilərini ölümün, aclığın, əzablı işlərin cəngindən qurtarmağa müvəffəq olub. Amma müharibədən sonra konslagerin sənədləri sovet hərbi tribunalının əlinə keçdiyindən, öz canını qurtara bilməyib: Maqadanda sürgün həyatı yaşamağa məcbur olub. Burada da savadı, diribaşlığı köməyinə gəlib. Fiziki cəhətdən olduqca cılız bir insan olan İlyas müəllim pəhləvan cüssəli oğlanların ömrünün son dayanacağı olan Maqadandan da sağ - salamat qayıdıb; həm də kəndə xeyli külçə qızılla, üstəlik 2 oğul və bir qızı ilə gəlib. "Paxan" titulu da onun həyatının

Maqadan dövrünün ümumiləşmiş əksi idi, amma o titulu necə qazandığı barədə heç vaxt söhbət açmazdı. O, ilk təəssüratda olduqca fağır bir adam təsiri bağışlayardı. Bununla belə, müharibə zamanı alman əsirliyində olmuş insanların onunla münasibətdə olduqca ehtiyatlı davranmaları açıq-aşkar sezilirdi. 1988-ci il deportasiyasından sonra o da Şəmkirin Çənlibel kəndində məskunlaşdı.



Yusif Qəhrəmanov

**Yusif Salman oğlu Qəhrəmanov** da müharibənin alovlarından keçmiş insan idi. Müharibədən sonra isə bir neçə il Çelyabinskdə hərbi xidmətdə olmuş, Bala Qaraqoyunlu ibtidai məktəbinin direktoru, Kəlbəcər rayon hərbi komissarlığının şöbə rəisi işləmişdi. Son dərəcə işgüzar və çılğın bir adam idi. 1988-ci il deportasiyasından sonra Xanlar rayonunun Əbləh kəndində məskunlaşmışdı. Eyni işgüzarlıqla çalışır, eyni mübarizliklə yaşayır, Göyçəyə dönüşü səbirsizliklə, ümidlə gözləyirdi. Son beşiyi Məzahimin Xanlar cəbhəsində şəhid olması ümidlərini, yaşamaq eşqini öləzitdi... Qərib ruhu elə Məzahimin uyuduğu məzarlıqda- Xanlar şəhər qəbristanlığında uyuyur.



Elbəyi Cahanov doğmaları ilə

Böyük Qaraqoyunlunun sovetlər dövründə ali təhsil almış ilk övladı **Elbəyi Aval oğlu Cahanov** idi. Kəndin orta yaşlı insanlarının bir çoxu, yəqin ki, onu tanımırdı. Çünki Elbəyi Aval oğlu kənddə çox qısa müddət müəllimlik etdikdən sonra Azərbaycana köçərək, Neftçalada məskunlaşmışdı və bu rayonda kifayət qədər nüfuz qazanmağa müvəffəq olmuşdu. Neftçala rayon Partiya Komitəsində təlimatçı, müxtəlif illərdə müxtəlif məktəblərin direktoru, bir neçə il Neftçala rayon təhsil şöbəsinin müdiri işləmiş Elbəyi müəllim kəndə çox gec-gec gəlirdi. Amma o qısa müddətli səfərləri zamanı, imkan daxilində, bütün qohumları ziyarət etməyə çalışırdı...Elbəyi müəllimi, müəyyən mənada, Böyük Qaraqoyunluda müəllim peşəsinə marağın stimullaşdırıcısı kimi də səciyyələndirmək olar. Onun başla-

dığı bu yoldan yüzlərlə qaraqoyunlulu keçdi; son illər hətta elə bir vəziyyət yaranmışdı ki, ali təhsilli müəllimlərin bir çoxu kolxoz təsərrüfatının müxtəlif sahələrində işləyə- işləyə, məktəbdə vakant yerlərin açılmasını gözləmək məcburiyyətində qalmışdılar...



Ətlaz Abbasova

Böyük Qaraqoyunlunun ilk ali təhsilli qadın müəllimi isə **Ətlaz Məhi qızı Abbasova** idi. 1936- cı ildə Ellər (Abovyan) rayonunun Göykilsə (Kaputan) kəndində anadan olan bu həlim təbiətli insan, gəlin gəldiyi Böyük Qaraqoyunlu kəndinin sevimlisinə çevrilməyə müyəssər olmuş, kiçikdən- böyüyə hər kəsin hörmətini qazanmışdı. XX əsrin 60-70- ci illərində Böyük Qaraqoyunlu məktəbində oxumuş insanların mütləq əksəriyyətinə qələm tutmağı öyrətmiş bu təcrübəli pedoqoq, sözün həqiqi mənasında, peşəsinin vurğunu idi. Deportasiyadan sonra, təqaüdə çıxmasına və ağır xəstəliklərdən əziyyət çəkməsinə baxmayaraq, uzun illər Gəncədəki Aşıq Ələsgər adına orta məktəbdə çalışaraq, yüzlərlə körpə göyçəli qaçqının həyata hazırlanmasında müstəsna xidmətlər göstərən bu nurlu insan 2004- cü ilin noyabrında Bakıda dünyasını dəyişdi. Qərib ruhu Qaraçuxur qəsəbə qəbristanlığında uyuyur.

Böyük Qaraqoyunlunun ilk ali təhsilli kənd təsərrüfatı mütəxəssisi isə **Mehman İsmayılov** olub. Sonradan aspiranturanı da müvəffəqiyyətlə bitirən Mehman İsmayılov qısa bir müddət kənddə işlədikdən sonra Abşeron rayonunun Mehdiabad qəsəbəsində məskunlaşıb və uzun illər bu rayonda məsul vəzifələrdə çalışıb.



Miryusif Məmmədov
qardaşları Musa və Mirsəlimlə.

Böyük Qaraqoyunlunun ilk ali texniki təhsilli övladı isə **Miryusif Hadı oğlu Məmmədov** oldu. Miryusif müəllim Böyük Qaraqoyunluda 1828-ci ildən sonra məskunlaşmış müqəddəs bir nəslin - əslən Ərdəbildən olan Seyidlər tayfasının nümayəndəsi idi. Onun babası Kərbalayi Cəfər zəmanəsinin ən nüfuzlu ziyalılarından, sayılıb- seçilən din xadimlərindən biri idi. Ümumiyyətlə bu nəsilin bir çox nümayəndələri Göyçənin taleyində bu və ya digər dərəcədə müsbət xidmətləri olmuş insan-

Seyidlər ocağının nümayəndələri


Mir Talıb


Seyid Sənəm


Mirəli

lar idilər. Hadı kişi 1918-1920-ci il savaşlarında fərqlənmiş igidlərdən biri idi və qaraqoyunluların xatirində elə dəli - dolu comərd kimi də yaşayırdı. Bu nahaq dünyadan 1965-ci ildə köç edən Mir Talıb kişi isə ömrünün sonuna qədər üzərinə düşən müqəddəs missiyanı şərəflə yerinə yetirdi; sovetlərin qadağalarına rəğmən yurddaşlarına mənəvi dayaq oldu, dini mərasimlərin qayda-qanuna uyğun keçirilməsi yönündə mümkün olan hər şeyi etdi. Seyid Abbasəlinin ocağı isə son ana qədər müqəddəs ziyarətgah kimi tanınırdı. Bu nəsilin digər nümayəndələri - Mirsəlim Məmmədov da, Musa Məmmədov da, Mir Talıbın övladları Səyyaf və Şəmistan da kəndin sayılan insanları idilər. 1945 - ci ildə anadan olmuş Miryusif müəllimsə təkcə bu nəslin yox, ümumən Böyük Qaraqoyunlunun və Göyçənin fəxri olan insanlar sırasına yükçəlmiş ziyalılarımızdandı. Azərbaycan Dövlət Neft - Kimya İnstitutunu bitirdikdən onra, o, Bakıda məskunlaşmışdı və çox qısa bir zamanda öz qabiliyyəti sayəsində misilsiz uğurlar qazanmağa müvəffəq oldu: Ali Partiya Məktəbini bitirdi, ölkənin ən iri partiya təşkilatlarından birinə rəhbərldik etdi. Qəlbən və ruhən türkçü, islamçı olan bir adamın sovetlər dövründə bu qəbil uğurlara imza atmasını ali insani keyfiyyətlər və işgüzarlıq şərtləndirirdi. Onu ümumən millətin dəyərli övladları sırasına yüksəldən məziyyət isə yurdsevərliyi və vətənpərvərliyi idi. 1988-ci ildə milli- azadlıq hərəkatı başlayanda bir çoxları karyera naminə ruspərəst mövqedə dayananda, Miryusif müəllim bütün həyatı ilə risk edərək, azadlıq carçılarının ön cərgəsində durdu. Azərbaycan Milli Hərəkat Partiyasının yaradıcılarından biri oldu...Və bütün bu gərginliklər onun ömür yolunu zərrə-zərrə qısaltdı... 2003-cü ildə dünyasını dəyişdi.

Böyük Qaraqoyunlunun tibb təhsili almış ilk sakini **"xaçdarın Nuridi-**

**ni", Nuriddin Xanlarov** olub. Texnikum təhsili aldıqdan sonra kənddəki feldşer məntəqəsində fəaliyyətə başlayan Nuriddin Xanlarovu mənim yaşıdlarım da, sonrakı nəsillər də gözlərini açıb həkim kimi tanıyıblar və insafən, kənd didərgin taleyi ilə üzləşənə qədər, o, öz "Hippokrat andı"na sadiq qaldı. Sözün həqiqi mənasında mükəmməl və universal bir həkim idi Nuriddin Xanlarov. Ən ciddi xəstəliklərə belə onun qoyduğu diaqnozların sonradan Bakıda, Moskvada professorlar, akademiklər tərəfindən təsdiqləndiyinin bütün kənd şahidi idi. Ən əsası o idi ki, Nuriddin həkim el-obaya qaynayıb-qarışmışdı: o, istisnasız olaraq bütün evlərin yaxını-doğması idi. Gecə yarısı belə qapısını döyənləri, bir dəfə də olsun, naümid qaytarmamışdı...



Sayad nənə

Qaraqoyunlunun ilk tibb bacısı isə **Anya Aydın qızı Məmmədova** idi. Bakıda tibb təhsili aldıqdan sonra kənddə mama-ginekoloq kimi fəaliyyət göstərdi və bununla da Sayad nənədən sonra mamalıq sahəsində yaranmış boşluğu aradan qaldırmış oldu. **Sayad nənə** əslən Kəlbəcərdən idi. Ağaməmmədlilərin ağsaqqalı Cahan kişinin oğlu Avala (əsl adı Abdulmütəllim) ərə gəlmişdi. Və o tarixi məqamı Aşıq Əsəd əbədiləşdirmişdi:

*Nəcəf bir gəlin gətirib,*
*Alvızın tərlanı kimi...*

Sayad nənə, həqiqətən də, olduqca gözəl bir qadın idi. Mən onu görəndə yəqin ki, 70 yaşı haqlamışdı, amma gənclik təravətini hələ itirməmişdi. Türkəçarənin ustasıydı. Uzun illər kəndin həm həkimi, həm də mamaçası olmuşdu. 1972- ci ildə rayon xəstəxanasında cərrahiyyə əməliyyatı zamanı dünyasını dəyişdi...

Qaraqoyunlunun ilk ali təhsilli həkimi isə SSRİ Ali Sovetinin deputatı İman Hüseynovun böyük oğlu **Hüseyn Hüseynov** oldu. Ali təhsilini başa vurduqdan sonra, o vaxt Bakıda şəxsi mənzili olmasına baxmayaraq, kəndə döndü və 1988-ci il müsübətlərinə qədər göyçəlilərin sağlamlığının keşiyində durdu. Şişqaya, Zod xəstəxanalarının, Nərimanlıdakı sahə poliklinikasının baş həkimi kimi fəaliyyət göstərən doktor Hüseyn, sözün həqiqi mənasında olduqca savadlı bir həkim idi və onun əllərindən minlərlə göyçəli şəfa tapıb. Hazırda Gəncə şəhərində yaşayır.



Hüseyn Hüseynov


Oruc Zeynalov


Zakir Zeynalov

Qaraqoyunlunun fəxri olan həkimlərdən biri də kənddə "topal Oruc" kimi tanınan **Oruc Zeynalovun** böyük oğlu **Zakir** idi. Barmaqlarını 41-45 müharibəsində qəlpə aparmış Oruc kişi yüksək təhsili olmasa da, mütərəqqi baxışları ilə seçilən, ensiklopedik məlumatlı bir ziyalı idi və məhz bu reallıq övladlarının hamısının ali təhsil almasını şərtləndirdi. Zakir isə yaxşı oxuması ilə təkcə onun yox, bütün kəndin sevimlilərindən biri idi. Təhsilini başa vurduqdan sonra Kəlbəcərə təyinat götürmüşdü ki, kəndə, el- obaya yaxın olsun. Hər həftə kəndə baş çəkir, ona ehtiyacı olanlardan köməyini əsirgəmirdi... Amma, görünür "Ulu Yaradan istəkli bəndələrinin ruhunu özünə qovuşdurmağa tələsir" deyimində də bir həqiqət var. Zakiri çox erkən apardı Ulu Yaradan öz dərgahına...

Zakirdən sonra tibb institutu sanki dəbə mindi Böyük Qaraqoyunluda. İndi qaraqoyunlulu həkimlərin sayını yəqin ki, heç kim dəqiq deyə bilməz. Dəqiq olan odur ki, Böyük Qaraqoyunlunun həkim övladlarının fəaliyyət dairəsi Azərbaycanın hüdudlarını aşıb. Rusiyadan, Orta Asiyadan onların xoş sorağı gəlir. Ağaməmmədli İmamqulunun oğlu **Gəncəvi Hacıyev** isə uzun illərdir İsraildə yaşayır və oradakı aparıcı klinikalardan birində çalışır.

Böyük Qaraqoyunlunun ilk alim övladı isə **Fəxrəddin İbrahim oğlu Nəcəfov** olub. Onun atası İbrahim kişi zəmanəsinin savadlı adamlarından biri imiş; həm mükəmməl dini, həm də gimnaziya təhsili alıbmış. Fəxrəddin Nəcəfovun özü isə əvvəlcə İrəvan Kənd Təsərrüfatı Texnikumunu, sonra isə Bakıda Politexnik İnstitunu bitirdikdən sonra Leninqradda aspirant olmuşdu. Bu gün nəinki həmkəndlilərinin, ümumən azərbaycanlıların böyük əksəriyyətinin onun elmi fəaliyyətindən müfəssəl məlumatları yoxdur. Əslində isə onun elmi uğurları qururgətirici səviyyədə idi. O, bu gün hamının qreyder kimi tanıdığı yol tikinti maşınının sonuncu təkmil modelinin həmmüəllif - konstruktorlarından biri idi. Amma uzun illik gərgin elmi işlərini daim müşaiyət edən maddi sıxıntılar onun səhhətində ciddi problemlər yaratdı, əsəbləri pozuldu. Bir neçə il kənddə yaşayıb mütəmadi müalicə kursları keçən Fəxrəddin Nəcəfov 1984-cü ildə dünyasını dəyişdi. Övladları Polad və Sevinc hazırda Bakıda yaşayırlar.

Hüquq mühafizə sistemində xidmət etmiş ilk qaraqoyunlulu isə SSRİ

Ali Sovetinin deputatı Aydın Məmmədovun böyük oğlu **Bəylər Abdullayev** olub. Uzun illər ərzində Bakının SƏDM (Sovetlər dönəmində "OBeXeeS" kimi məşhur olan bu idarə alverçilərin və korrupsionerlərin qənimi sayılırdı.) idarəsinə rəhbərlik etmiş Bəylər müəllim milis polkovniki rütbəsinə qədər yüksəlməyə müvəffəq olmuşdu. Onun əsasını qoyduğu yolla addımlayan qaraqoyunluların sayı kifayət qədərdir. Moskavada və Rusiyanın müxtəlif regionlarında xidmət edənlər barədə səhih məlumatım olmadığından, onları bir-bir təqdim etmyə də lüzum görmədim. Azərbaycanın hüquq mühafizə orqanlarında xidmət edən Böyük Qaraqoyunluları isə bircə kəlmə ilə xarakterizə etmək mümkündür: onlar doğulub böyüdükləri kəndə şərəf gətirirlər.

Böyük Qaraqoyunlunun saz-söz dünyasının da özünəməxsus ənənələri vardı. O kəndin yetirdiyi ən böyük sənətkar heç şübhəsiz ki, OĞUZ ozan-dərviş məktəbinin kamil müridlərindən biri olan **Aşıq Əsəd** idi. Aşıq Əsəd olan yerdə təbii ki, kimsə saz götürməz, qoşma, gəraylı, təcnis deməyə cəsarət etməzdi. Bununla belə, saz-söz Böyük Qaraqoyunlunun havasını udmuş, suyunu içmiş hər kəsin qanında idi. Ağaməmmədlilərdən **Bayraməli Qəhrəmanov** heç vaxt peşəkar səviyyədə aşıqlıq edib, məclislər aparmasa da, sözün həqiqi mənasında sazın sirrlərinə vaqif idi. O "Misri", "Qəhrəmani" kimi son dərəcə ağır, gur səs, coşğun təb, tükənməz nəfəs tələb edən havaları, hətta 80 yaşı olarkən, o qədər məharətlə ifa edərdi ki, özündən razı gəncləri belə mat qoyardı. Bayraməli Qəhrəmanovun şerləri də təbiilik, lirizm, xəlqilik baxımından ciddi sənət nümunələri sayıla bilər. Kənddə hamı onu elə belə də qəbul edirdi: şair Bayraməli kimi. Amma o ömründə bircə dəfə olsun belə redaksiya qapılarını döymədi, çap olunmadı. O sadəcə öz qaraqoyunlulu taleyini yaşadı. Niyə? Bu suala o heç vaxt cavab vermədi. Amma hər kəsə bəlli idi ki, Bayraməli Qəhrəmanovun şair taleyinin də, riyaziyyatçı karyerasının da üstündən müharibə xətt çəkib və o da bütün dözümlü insanlar kimi taleyin amansız əsintilərinə sinə gərərək, şair-müəllim taleyi əvəzinə zəhmətkeş bir ata teleyi yaşamaq qisməti ilə barışıb.1941-ci ildə müharibə başlayanda Bayraməli Qəhrəmanov İrəvan Pedoqoji Texniku-



**Bayraməli Qəhrəmanov həyat yoldaşı Bəsti xanımla**

munda təhsil alırmış. O vaxt İrəvanda nəşr olunan "Qızıl Şəfəq" qəzetində şerləri, hekayələri də dərc olunubmuş. Gələcək üçün xeyli planları varmış. Amma əsirlikdə olması hər şeyi alt-üst etdi... Elə o günlərdə, faşist konslagerinin tikanlı məftillərindən bir az kənarda bir lalə görüb qəlbi qübar eyləmiş şair Bayraməlinin bədahətən dediyi bir şer indi bütün qaraqoyunluların dilinin əzbəridir, dərdlərinə güzgü tutan nisgilli ağıdır:

*Görürsənmi qismətimi?!.*
*Oldum əsir-kölə, lalə...*
*Həmdərd yox ki, həsrətimi*
*tən yarıya bölə, lalə...*

*Göyçəmizə apar xəbər:*
*deynən, ömrüm onsuz hədər.*
*Tutub məni qəza-qədər,*
*dönəmmirəm elə, lalə...*

*Sal yurduma güzarımı,*
*qurtar candan azarımı...*
*Göyçəmdə qaz məzarımı,*
*dön üstümdə telə, lalə...*

*Yetsin dada Həzrət Əli,*
*qüssədən olmuşam dəli...*
*Qorxuram ki, Bayraməli*
*qürbət eldə ölə, lalə...*

Həzrət Əli yetdi onun dadına. Yolu faşist əsir düşərgələrindən, sovet təcridxanalarından keçsə də, Göyçəsinə döndü. Amma əsirlik damğası ona öz həqiqi taleyini yaşamaq imkanı vermədi. Ömrü boyu dəmirçi işləməli oldu. Elmə, təhsilə olan marağını övladlarına yönəltdi: 8 uşağından yeddisi ali təhsil aldı. Bir də... Bir də qorxusu çin oldu şair Bayraməlinin... Qürbətdə dəyişdi dünyasını... Göyçəsinə toxum kimi əkilmək arzusu baş tutmadı... Qərib ruhu Xanlar qəbristanlığında uyuyur... Uyuyurmu?!.

Şair **Aslan Şıx Ələkbər oğlu Hüseynov**un yaradıcılığı da xüsusi diqqətə layiq bir irs idi. Az qala 20 il ərzində sovetliyin katibi işlədiyi və bu səbəbdən də kəndə güzarı düşən yazı-pozu əhli ilə ünsiyyət imkanları olduğu halda sağlığında bir dəfə olsun belə redaksiya qapılarını döymədi. Bir şerini belə yazılı şəkildə kimsəyə təqdim etmədi. Sadəcə təbi gələndə dedi və o şerlər o qədər axıcı oldular ki, şifahi olaraq dildən-dilə, ağızdan-ağıza keçib məclislər dolaşdılar.

**İbrahim Köçkün** (Qurbanov İbrahim İsgəndər oğlu) adlı el şairi isə paytaxt şairlərini kölgədə qoyacaq qədər məhsuldar idi. Elə bir yığncaq,

elə bir məclis olmazdı ki, onun fəlsəfi yüklü təzə bir şeri səslənməsin. Amma bu məhsuldarlığın müqabilində o çap iddiasından çox-çox uzaq idi. Yalnız deportasiyadan sonra övladlarının sponsorluğu sayəsində iki kitabı nəşr olunub.



İbrahim Köçkün

Saz-söz vurğunu olan Böyük Qaraqoyunlu sakinləri arasında öz istedadını lazımınca büruzə verən **Aşıq Cahad (Nağıyev)** olub. Gəncliyində Dədə Şəmşir, Səməd Vurğun kimi azman sənətkarlarla dostluq etmiş Cahad kişi Dərbənd ellərindən tutmuş Borçalıya qədər bütün türk obalarını qarış-qarış gəzmiş, zəmanəsinin adlı-sanlı aşıqları ilı deyişmişdi. O qədər kamil bir sənətkar idi ki, istənilən havanın hər hansı bir yerində aşığın ən elementar yanlışlıqlarını həmin andaca tutar və yerindəcə tənbeh etməkdən çəkinməzdi. O, sözün həqiqi mənasında qüdrətli bir səs sahibi idi və bu ilahi vergini heç vaxt dəyərsiz işlərə sərf etmədi. O sənəti duymayanlar üçün bircə hava belə ifa etməzdi, sənətə qiymət verməyi bacaranlarla isə saatlarla, günlərlə söhbətləşməkdən, mübahisə aparmaqdan yorulmazdı. O, qüdrətli ustad sənətkarlardan dərs almışdı və onların ruhunu ömrü boyu incitmədi: onlarla gəncin kamil sənətkar kimi yetişməsində Aşıq Cahad Nağıyevin müstəsna xidmətləri oldu. Deportasiyadan sonra Şəmkirin Çənlibel kəndində məskunlaşan Aşıq Cahadın ustad barmaqları bu gün də ULU SAZın tellərinə sığal çəkir. Sonrakı nəsillər sırasında saza-sözə mehir salanlar çox olsa da, bu işlə peşəkar səviyyədə yalnız **Səlim Nəsrəddin oğlu Abdullayev** məşğul oldu. Amma bu sətirlərin müəllifinin uşaqlıq xatirələrimndə bir səs yaşayır ki, o səs sahibinin adının peşəkar səhnədən eşidilməməsinə təəssüflənməmək sadəcə mümkün deyil. Mirzəlilərdən **Qəzənfərin oğlu Xəlil**in səsi idi o səs. "Yanıq Kərəmi" üstündə oxuyardı həmişə, yana-yana oxuyardı...

Səbəbi mənim üçün sirr olan məqamlardan biri də, hansı nəslə, hansı tayfaya mənsub olmasından asılı olmayaraq, Böyük Qaraqoyunlu övladlarının, istisnasız olaraq hamısının, zəhmətsevərliyidir. İndinin reallığından baxanda hərdən elə qənaətə gəlirəm ki, o kəndin sakinləri heç vaxt normal yuxu yatmayıblar; gecə-gündüz çalışıblar. SSRİ Ali Sovetində Ermənistan türklərinin təmsilçisi hüququnun 20 il, Basarkeçər türklərini Ermənistan Ali Sovetində təmsil etmək hüququnun 40 il ərzində bu kəndin sakinlərinə verilməsi əslində elə Böyük Qaraqoyunlu camaatının zəhmətsevərliyinə, işgüzarlığına verilən qiymət idi. Əmək rəşadətlərinə görə keçmiş SSRİ-nin orden və medallarına layiq görülən qaraqoyunluların sa-

yı kifayət qədər çox olduğundan onların hamısı haqqında məlumat verməyə nə imkan, nə də ehtiyac var. Ferma müdiri **Talıb Həsənov**un 1971-ci ildə SSRİ-nin ali mükafatı sayılan "Lenin ordeni"nə layiq görülməsi faktı qaraqoyunluların əməksevərliyinin miqyasını təsəvvür etmək üçün kifayətdir...Amma bu mövzudan söhbət düşərkən bəzi məqamlara xüsusi diqqət yetirməmək, kazımlıların çoban Yunusundan - Yunus Müseyib oğlu İsmayılovdan, çoban Ənvərdən - Ənvər Gülməmməd oğlu Məmmədovdan, kalvaçovanlılar tayfasının ağsaqqalı İbrahim Balakişi oğlu Çobanovdan, hesabdar Nəsirdən (nəsiblilər tayfasından Nəsir Nəsibov), xaçdarın Furuşundan (Firudin Xanlarov), balaqaraqoyunlu "doxdur Zeynal"dan (Zeynal Zeynalov), traktorçu Nərimandan, kəndimizdə "petosdaın Allahverdisi" kimi tanınan çoban Allahverdi Ələsgərovdan danışmamaq, onları xatırlamamaq bağışlanmaz günah olardı.

**Yunis İsmayılov** təhsil almamışdı, amma sözün həqiqi mənasında ziyalı bir insan idi. Heydər Əliyevlə şəxsən görüşən ilk qaraqoyunlulu da o idi. Onda çoban işləyirdi. 1969-cu ildə kolxozçuların ümumittifaq qurultayında görüşmüşdü o zaman Azərbaycan KP Mərkəzi Komitəsinə təzəcə birinci katib seçilmiş Heydər Əliyevlə. Daha doğrusu, Heydər Əliyev Ermənistandan olan türk əsilli qurultay nümayəndələri ilə görüşərək, onların problemləri ilə maraqlanmışdı. Yunis Müseyib oğlu o görüşlə bağlı xatirələrini ən qiymətli əmanət kimi saxlayardı yaddaşında...



Zəhmətsevərliyi qədər də prinsipiallığı vardı onun. 70-ci illərdə Lenin ordeninə təqdim edildiyi barədə hardansa ona məlumat çatmışdı. Amma ordenə başqası layiq görüldü. Və Yunis kişi bütün rayon rəhbərliyi ilə cəngə çıxaraq, öz haqqının müdafiəsinə qalxdı. Riyakar bir sistemlə bacarmayacağını hiss edəndə isə haqqını tapdayan adamlarla işləməyəcəyini bildirdi və o vaxtdan son deportasiyaya qədər- təxminən 15 il Rusiyada, Qazaxıstanda işlədi. Bu müddətdə rayonda çox rəhbərlər, kənddə çox sədrlər dəyişdi, amma heç kim Yunis kişinin qərarını dəyişə bilmədi. Bu prinsipiallığı ilə yanaşı güclü hafizəsi, qibtəediləcək məntiqi vardı Yunis İsmayılovun. Təkəm-seyrək görüşlərimiz zamanı, adətən kənddən söz salardı. Çox nadir hallarda siyasi mövzuya toxunardıq və Yunis kişi elə ağıllı mühakimələr aparar, elə dəqiq proqnozlar verərdi ki, mən özlüyümdə onu "oxumamış professor" adlandırardım. Onun ali təhsil almadığına inanmaq sadəcə mümkün deyildi. Amma bu fakt idi ki, o heç tam orta təhsil də almamışdı. Əvəzində həyat akademiyası keçmişdi, həyatda yaşamağın, mübarizə aparmağın qanunlarını mükəmməl mənimsəmişdi. Və məhz bunun sayəsində Yunis kişi 15 il kənddən aralı düşməsinə baxmayaraq öz alın təri ilə övladlarına, çox-çox professorların bacarmadığı həddə şərait, gün-güzəran təmin etdi. Deportasiyadan sonra Binəqədi kəndində məskunlaşmışdı Yunis İsmayılov...Amansız xəstəlik də vətən həsrətinə hopub onu elə burada yaxaladı. Qərib ruhu indi Mehdiabad kənd qəbristanlığında uyuyur...

**Nəriman** və **Furuş**dan isə ayrılıqda söz açmaq günah olar. Hər ikisi traktorçu idi. "Belorus" markalı təkərli traktorları kəndimizdə ilk dəfə onlar işlətmişdilər. Kolxoz işlərindən sonra bütün kəndin işlərinə də əl atardılar; özü də təmannasız - filansız. Gecəli - gündüzlü zəhmət bahasına gözəl ev-eşik salmışdılar. Qaraqoyunluya ilk "Jiquli"ni də Nəriman Alməmmədov alıb gətirmişdi...Bəlkə də bəxtəvərliyə düşdü, bəlkə də gözə gəldi. Hər halda yetimliklə böyümüş adi bir traktorçunun bu qədər cah-cəlal sahibi olmasına heç də hamı sevinmirdi, amma...1975-ci ilin payızında Nərimanın qatarın altına düşüb həlak olması onun xoş gününə qibtə edənləri belə qəlbən yandırdı, çünki Nəriman sözün həqiqi mənasında el-obasına yarıyan insan idi. Nərimanı yetimlklə böyütmüş Moruq nənə onun övladlarının da qayğısına qatlaşmalı oldu və bu missiyasını da dünyada heç bir nənənin görə bilməyəcəyi səviyyədə həyata keçirdi. İndi Nərimanın övladları Gəncədə məskunlaşıblar və onların xoş güzəranına ən çox sevinən, yəqin ki, elə Moruq nənənin qərib ruhudu...

**Furuş (Firudin Xanlarov)** isə Nərimandan sonra çox yaşadı və...çox müsibətlər gördü. Kənddə min bir zillətlə tikdiyi ev - eşiyində ürək dolu-

su sevinməmiş qaçqın düşdü. Nəhayət iki ildən sonra Yeni Yaşmada məskunlaşdı. O qumsallıqda da cah-cəlal düzəldirdi...Oğlunun şəhid olması əlini hər şeydən soyutdu; yaşamaq eşqini öləzitdi...

Bala Qaraqoyunluların **Zeynalı (Zeynal Zeynalov)** İrəvanda baytarlıq kursu qurtarmışdı, amma nədənsə ona bütün kənd "doxdur Zeynal" deyirdi. Başıaşağı, sakit təbiətli bir insan idi. Kimin ona işi düşürdüsə can-başla kömək edirdi. Ailəsi kifayət qədər böyük olduğundan, kolxoz işindən daha çox şəxsi təsərrüfata meyl salırdı. Bu səbəbdən özü də, övladları da gecəni-gündüzə qatıb işləmək məcburiyyətindəydilər. Bu reallıq Böyük Qaraqoyunlunun öz tərzində incə eyhamlara da səbəb olurdu. Amma Zeynal kişi kimsəyə məhəl qoymadan uşaqlarını özü bildiyi şəkildə tərbiyə edirdi və bu günün reallığı onun nə qədər düz yol tutduğunu təsdiqləyir; övladları ali təhsil də aldılar, zəhmətkeşlikləri müqabilində qaneedici mövqe sahibi də oldular...

**Çoban Allahverdi**nin də ailəsi kifayət qədər böyük idi. O da uşaqlarını zəhmətə alışdırmaqla həll edirdi problemlərini. Kimsəyə ehtiyacları olmazdı. Mənim nəzərimdə onu yüksəldən isə tamam başqa bir xüsusiyyət idi: son dərəcə qürurlu bir insan idi o. Kasıb dolansa da, çoban işləsə də, kimsədən söz götürməzdi, hərdən qoluna güc verməyi də vardı...Və nədənsə onun obrazı mənim yaddaşımda bir uşaqlıq xatirəsi ilə daşlaşıb: sinif yoldaşım, həm də atamın dayısı oğlu Elbanın kiçik toy mərasimi idi. Kəndin yazılmamış qanununa görə, toya istisnasız olaraq hamı, dost da, düşmən də dəvət olunardı. Hamı da gəlmişdi. Təbii ki, çoban Allahverdi də. Məclissə başlamaq bilmirdi. Az sonra məlum oldu ki, masabəyi funksiyasını kolxoz sədrinə həvalə etmək istəyən məclis sahibi onun gəlişini gözləyir. Bunu eşidincə çoban Allahverdinin hirsi vurdu başına. Boyu balaca olduğu üçün hamı onu eşitsin deyə çıxdı stolun üstünə və hirsini tökdü, nə tökdü: "Ə, yekə kişisiz, sabaha hərənin min bir dərdi var, gecə yarıdan keçir, sizsə gör kimi gözləyirsiniz! Nə olsun sədrdi, burda ondan qat-qat ciyərli kişilər oturub!" Sonra nələr olduğunu xatırlamıram...Sədrin qohum-əqrabasının hay-küyü aləmi qatdı bir-birinə...

**Balakişi oğlu İbrahim və hesabdar Nəsir** isə mənim xatirimdə tamam başqa yöndən qalıblar. Nə vaxtsa, 20-25 il öncə "Palıd kökləri"ni mütaliə edəndə belə bir fikirlə rastlaşmışdım ki, ingilis kübarlarının düşüncəsinə "mənim evim- mənim qalamdır" prinsipi hakimdir... Evə, ailənin sığınacağına bu mühafizəkar münasibətlə tanışlığımdan sonrakı illər ərzində kəndə nə vaxt getmişəmsə, hesabdar Nəsirin və Balakişi oğlu İbrahimin evlərini görəndə "Palıd kökləri" əsəri düşüb yadıma... Və sözün həqiqi mənasında, hər ikisi ev - ailə məsələlərində olduqca mühafizəkar

insanlar idilər. Onların heç birini imkansız adamlar kateqoriyasına şamil etmək mümkün deyildi, amma buna baxmayaraq uşaqları il boyu işləyərdilər. Və məhz o tələbkarlığın, zəhmətə alışqanlığın nəticəsidir ki, bu gün onların övladlarının nə təhsil, nə də həyat mübarizəsi kontekstində problemləri yoxdur... Ümumiyyətlə, Qaraqoyunlu övladlarının zəhmətə alışqanlıqla bağlı problemləri, deməli tənbəli, məzlumu yox idi...Bu obada dünyaya göz açan hər ərən YURDA ÇIRAQ ola biləcək qədər dəyanətli, mərd, sözünə bütöv idi. Bunun məhz belə olduğunu əyani şəkildə dərk etmək üçünsə bu obanın comərdlərindən bir neçəsinin ömürlüyünə ötəri diqqət yetirmək kifayətdir.

**Bayram** adlı bir igid olub bu kənddə. Gənc nəsil bəlkə də artıq o adı unudub... Amma Arzuman kişini demək olar ki, hamı tanıyırdı. Bayram onun babası olub. Göyçədə rəsmi rus hökuməti qurulub, rəhbərlik birmənalı şəkildə ermənilərə verilən dövrlərdə, o, Kəvər nahiyəsinin erməni pristavının yuxusunu ərşə çəkib. Elə gün olmazmış ki, Bayram ermənilərə bir zərər toxundurmasın. Təxminən 20 illik qaçaqlığı dövründə o cəmi bircə dəfə ehtiyatsızlıq edib və erməni-kazak birləşməsi onu yaxalayaraq Yeni Bəyazid qalasına gətirib. Həmin gün pristav sevindiyindən nəzir-niyaz paylayırmış. Bayramın taleyi də həll edilibmiş: uzaq Sibirə sürgünə göndərilməliymiş. Amma... Bayram həmin gecə qaladan qaçıb. Özü də pristavın atı ilə...

Böyük Qaraqoyunluda rus-erməni hökumətinin diqtəsinə boyun əyməyən kişilərin sırası isə Qaçaq Cəmillə, Haxoyla, Bayramla məhdudlaşmır. Kazımlılardan **Ayıboğan Məhəmməd**in, **Qara Qərib Qara Əşrəf oğlu**nun (Qərib Əşrəf oğlu İsmayılov), seyidlərdən **Hadı**nın, ağammədlilərdən **Hasan kişi**nin, **Hümbət kişi**nin adları yaşlı nəslin yaddaşında kişilik rəmzi kimi yaşayırdı. Son dövrlərdə isə hamının fağır bir insan kimi dəyərləndirdiyi **Məhəmmədəli Bəxtiyaroğlu**, kənddə hamının **"dəli Mədəd"** deyə çağırdığı Mədət Həsənov, **"keçəl Şahmar"** kimi tanınan Şahmar Abbasəli oğlu Abbasov, ağaməmmədli **Azadxan Teymur oğlu Hacıyev** sovet qanunlarının fövqündə dayanan comərdlər kimi xarakterizə olunurdular.

**Məhəmmədəli Bəxtiyaroğlu**nun həyatı öyrənilməyə layiq bir fenomen idi. Atasını xalq düşməni, qolçomaq kim aradan götürmüşdülər. Amma o bu qisası yerdə qoymamış, atasını çuğullayan adamı necə qeybə çəkmişdisə, sovet hökuməti mövcud olduğu 70 il ərzində o cinayətin nə izini, nə də sübut üçün dəlillər tapdı. Baxmayaraq ki, Məhəmmədəli kişi o cinayəti törətdiyini heç vaxt gizlətmirdi. II dünya müharibəsində isə o alman ordusunda xidmət edib və konslagerdəki şahidlərin ifadələrinə görə kom-

munistlərə, xüsusəndə rus və erməni millətindən olanlara qarşı xüsusi amansızlığı ilə seçilib. Müharibədən sonra kəndə orden - medallarla dönən ilk "döyüşçü" də məhz o olub. NKVD onun əməlləri barədə xəbər tutanda isə Məhəmmədəli Bəxtiyaroğluna heç nəyi sübut edə bilməyiblər. O rəsmi sənədlərlə kəşfiyyatçı olduğunu sübuta yetirib. Mən onu görəndə yaşı yetmişi haqlamışdı. Amma at belində cavanların qibtə edəcəyi qıvraqlıq nümayiş etdirirdi. Sovet hökuməti quş tüfəngi gəzdirməyi belə qadağan edəndə, onun "mauzeri" həmişə kəmərinin qaşında olardı. Ömrü boyu təhsil görməsə də, alman, erməni, rus dillərində sərbəst danışırdı. Sorağı gah Orta Asiyadan, gah Moskvadan, gah Çelyabinskidən gələrdi. 1988-ci il deportasiyası zamanı, o, kənddə olmamışdı. Amma bir il sonra gecə ikən kəndə getmiş, yatarını - qızıllarını və saxlancdakı pullarını gətirmişdi. Gəncədə yaşayanda da hansı qəribə üsullarlasa milyonlarla pul qazanardı. Sovet hökuməti pulları dəyişəndə bir döşək içi "100" və"50" manatlıq əskinasları yanmışdı, amma o bunu özünə dərd eləmirdi... Ömrünün son illəri Gəncədə keçdi. Heç o zamanlar da ötkəmliyindən qalmadı. Sanki müasir dünyanın ona bir dəxli yox idi. Lap qədimi kişilər kimi geyinər, başına buxara papaq qoyar, çuxasının altında "mauzer" gəzdirərdi...

**Mədət kişi** üçün də hökumət qanunu deyilən bir şey yox idi. O yalnız bir qanun tanıyırdı - kişilik qanunu. Ömrü boyu da beləcə yaşadı. Didərginlikdən sonra Xanlar rayonunda məskunlaşanda yaşı səksəni ötsə də, elə əvvəlki tərzdə də yaşadı.



Azadxan Hacıyev

**Azadxan Teymur oğlu Hacıyev** də ömrü boyu rəsmi dairələrin diqtəsinə boyun əymədi. Həbs edidi də, təqiblərə məruz qaldı da, amma kişilik qanunlarından başqa heç bir qanuna məhəl qoymadı. Elə indi də eyni qanunlara tapınır...

**"Keçəl Şahmar"- Şahmar Abbasəli oğlu Abbasov** isə ayrı bir aləm idi. Sovet hökumətinin kəsəkəs vaxtlarında, camaat bir velosiped almağa qorxanda, o, qapısında 6-7 maşın saxlayardı. Hətta nömrəsiz yük maşını da vardı. "ZİM" maşınlar ilk dəfə istifadəyə buraxılanda Ermənistana cəmi iki ədəd gətirilibmiş: biri Mərkəzi Komitənin birinci katibi Y. Zarobyan üçün xidməti, biri də heç bir yerdə işləməyən qaraqoyunlulu Şahmar Abbasov üçün şəxsi. Dost-tanış sarıdan da bir xiffəti yox idi onun. Mərkəzi Komitə katiblərindən tutmuş çobana qədər hər cür dostu vardı. Ən yaxın sirdaşlarından biri isə sonradan Azərbaycanın daxili işlər naziri olmuş İsgəndər Həmidovun atası Kolanı Məcid idi. Şahmar kişinin gəncliyi haqqında bəzi

"əfsanələri" eşitsəm də, sözün açığı o qədər də inanmırdım. Amma... "Sovet Ermənistanı"nda işlədiyim dövrlərdə şahidi olduğum iki əhvalat onun haqqında təsəvvürlərimi tamam dəyişdi. Bir gün həmkarım Vidadi Quliyevlə Basarkeçərə ezamiyyətə getmişdik. Növbəti şikayət məktubunu araşdırmaq üçün ermənilərin yaşadığı bir kəndə gecə getməli idik. Şahmar dayı öz "Volqa"sını gətirdi və təkid etdi ki, məhz onunla gedək. Yola düşmək ərəfəsində əyilib sakitcə pıçıldadı ki, "qabaq oturacağın altında tapança da var, bir paçka yüzlük də. Ehtiyac olmasın, olsa çəkinmə! Bu hökumətinki belədi: canını qurtar, sonra pul hər şeyi həll edir."


Şahmar Abbasov

Bir gün də eşitdik ki, Şahmar kişini həbs etmək istəyirlər. Səbəb? Rayon mərkəzindən qayıdarkən "Göy körpü" deyilən yerdə qələbəlik olduğunu görən Şahmar kişi maşını əyləyib nə hadisə baş verdiyi ilə maraqlanır. Məlum olur ki, Ermənistan Komsomolu Mərkəzi Komitəsinin katibi xanım Hakopyan bir qrup azərbaycanlını suçlayaraq, dövlətə xəyanətdə ittiham edir. Təbii ki, onu müşaiyət edən Vardenis rayon rəhbərləri də mərkəzdən gəlmiş xanımın səsinə səs verirlər. Söhbətin bir məqamında xanım Hakopyan açıq təhqirə keçərək, türkləri eşşək adlandırır və...Qəfil şillədən Komsomolun Mərkəzi Komitəsinin katibi müvazinətini itirərək yıxılır. Bu, o dövrlər üçün fövqəladə vəziyyət demək idi... Təcili olaraq cinayət işi başlandı. Amma Şahmar Abbasov bu tələyə düşmədi. Heç bircə gün belə həbsxanada yatmadı. Necə? Bax bu sirri ondan savayı kimsə bilmədi...

Beləcə, Böyük Qaraqoyunlunun dizli-dirəkli övladları öz sözlərini həmişə ləyaqətlə dedilər. Hətta doğma ocaqdan uzaqda olanda da, o yurddan pərən düşəndən sonra da...Və söhbətin bu məqamında, harada olmasından-harada işləməsindən asılı olmayaraq Böyük Qaraqoyunluya baş ucalığı gətirmiş dəyərli insanlar haqqında, qısaca da olsa, məlumat verməmək haqdan, insafdan olmazdı. Çünki Böyük Qarqoyunlunun adı çəkiləndə xatırlanmaq haqqını onlar öz əməlləri ilə, ürəklərində gəzdirdikləri yurd sevgiləri ilə qazanıblar. Mənim də borcum böyükdən - kiçiyə onların hər birini yada salmaqdır. Beləliklə, HƏRƏSİ ÖZÜ BOYDA QARAQOYUNLU OLAN QEYRƏTLİ VƏTƏN ÖVLADLARI barədə yaddaş xülasəsi:


Məşədi Mirismayıl Ağa

**Məşədi Mirismayıl Ağa Seyid Məhəmməd**

**Ağa oğlu.** Böyük Qraqoyunludakı sınanılmış ocağın, Seyid Abbasəli ocağının nurlu nümayəndəsidir. Hazırda Gəncə şəhərində yaşayır.

**Nağıyev Eyvaz Hilal oğlu.** 1942-ci ildə anadan olub, Aktyubinsk Politexnik İnstitutunu və Krasnoyarsk Dövlət Universitetinin hüquq fakultəsini bitirib. Uzun illər Qazaxıstan Respublikasının yol inşaatı müəssisələrində məsul vəzifələr tutub, rayon və vilayət Xalq Deputatları Sovetlərinin üzvü olub. Hazırda Aktyubinsk vilayətində yaşayır.

**Babayev Eyvaz İlyas oğlu.** 1947-ci ildə anadan olmuş, Moskva Neft-Kimya və Qaz Sənayesi İnstitutunu bitirmiş, 1988-ci ildə dissertasiyasını Sankt-Peterburqda müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. 1990-2000-ci illərdə Gəncə Çini Qablar Zavodunun baş direktoru, 2000-2004-cü illərdə Gəncə şəhər İcra Hakimiyyətinin başçısı olmuşdur.

**Hüseynov Əbülfəz Ərzəni oğlu.**1947-ci ildə anadan olub. Pedoqoji İnstitutu bitirdikdən sonra təyinatla Şəki şəhərinə göndərilib, gənclərlə iş sahəsində Azərbaycanın ən ünlü pedaqoqlarından biri kimi tanınıb, təcrübəsi Təhsil Nazirliyinin xətti ilə yayılıb.

**Quliyev Tapdıq Fərhad oğlu.** 1958-ci ildə anadan olub. 1988-ci ildə başlayan milli-azadlıq hərəkatının fəallarından və "Azadlıq" qəzetinin yaradıcılarından biridir. 1992-1993-cü illərdə Azərbaycan Respublikası Prezidentinin Aparatında, 1993-2002-ci illərdə "Turan" informasiya agentliyində çalışıb. Tədqiqatçı-jurnalist, "Amerikanın səsi" radiosunun əməkdaşıdır.

**Hüseynov Abbasəli Şücaət oğlu.** Gəncə Texnologiya İnstitutunu bitirib.1988-ci ildə başlayan milli-azadlıq hərəkatının fəallarından biridir. 1993-1994-cü illərdə Azərbaycan Respublikasının Nazirlər Kabinetində məsul vəzifə tutub.


Mustafayev Arif

**Mustafayev Arif Bayraməli oğlu.** 1948-ci ildə anadan olub, Azərbaycan Politexnik İnstitutunu bitirib, uzun illər aqro-emal sənayesində çalışıb, bir sıra məsul vəzifələr tutub. Hazırda Bakı şəhərində müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğuldur.

**Əsgərov Eldar İmran oğlu.** 1949-cu ildə anadan olub, Azərbaycan Politexnik İnstitutunu fərqlənmə diplomu ilə bitirib, uzun illər Azərbaycan nəqliyyat sistemində çalışıb, bir sıra məsul vəzifələr tutub, Gəncə avtomobil təsərrüfatına rəhbərlik edib.

**Ələsgərov Cəmşid Gəray oğlu.** 1949-cu ildə anadan olub, Azərbaycan Politexnik İnstitutunu bitirib, uzun illər üzümçülük sənayesi sahəsində çalışıb, Gəndob çaxır zavodunun direktoru olub. Hazırda Bakı şəhərin-

də sahibkarlıq fəaliyyəti ilə məşğuldur.

**Hüseynov Azər Abdulhüseyn oğlu.** Bakı Dövlət Universitetini bitirib, uzun illərdir ki, Xanlar rayonunda çalışır, məktəb direktorudur.



Qəhrəmanov Nadir

**Qəhrəmanov Nadir Bayraməli oğlu.** İrəvan Kənd Təsərrüfatı Texnikumunu və Bakı Dövlət Universitetini bitirib. Hazırda Gəncə şəhərinin ən nüfuzlu kimya-biologiya müəllimlərindən biridir.

**Əsgərov Dilqəm Ağa oğlu.** İxtisasca rabitəçidir. Uzun illər Rabitə Nazirliyinin Tikinti Trestində çalışıb, Gəncə Regional Mexanikləşdirilmiş Səyyar Tikinti İdarəsinin rəisi olub. Hazırda müstəqil sahibkarlıq fəalliyyəti ilə məşğuldur, xeyriyyəçi kimi tanınır.

**Bayramov Əlifxan Ələkbər oğlu.** 1944-cü ildə anadan olub. Uzun illər Uzaq Şərqdə yaşayıb, yüksək ixtisaslı sənətkar kimi püxtələşib. 1982-ci ildən Çeçenistanda, Qroznı şəhərində yaşayır.

**Nağıyev Şamil İlyas oğlu.** 1953-cü ildə anadan olub. Musiqişünasdır, Azərbaycan mədəniyyətini dünyanın bir çox ölkələrində təmsil edib. Dağıstan Respublikasının Xasavyurd şəhərində yaşayır.



Allahverdiyev Novruz

**Allahverdiyev Novruz Hətəm oğlu.** 1955-ci ildə anadan olub. SSRİ-də 1985-ci ildə başlamış kooperativ hərəkatının öndərlərindən biridir. Hazırda Bakıda yaşayır, müstəqil sahibkar, "Dahi" qəzetinin təsisçisi və redaktorudur, daha çox xeyriyyəçi kimi tanınır.

**Məmmədov Əhliman Aydın oğlu.** Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu və Milis Akademiyasını bitirib, uzun illər Azərbaycanın hüquq mühafizə orqanlarında işləyib, Bakının Nərimanov rayonunun ədliyyə polisinin ilk rəisi olub. Hazırda Bayıl istintaq təcridxanasında çalışır, ədliyyə polkovnikidir.

**Məmmədov Yaşar Xanbaba oğlu.** 1954-cü ildə anadan olub, İqtisad Universitetini və Milis Akademiyasını bitirib. Uzun illər Azərbaycan Respublikasının hüquq mühafizə orqanlarında çalışıb. Polis polkovnikidir.



Qəhrəmanov Mustafa

**Qəhrəmanov Mustafa Bayraməli oğlu.** 1954-cü ildə anadan olub, Bakı Dövlət Universitetini bitirdikdən sonra uzun illər Sabirabad şəhərindəki S.Vurğun adına orta məktəbdə çalışıb. Hazırda Xətai rayonunun aparıcı riyaziyyat müəllimlərindən biridir.

**Məmmədov Cəlal Çirkin oğlu.** 1954-cü ildə ana-

dan olub, Azərbaycan Neft-Kimya İnstitutunu bitirib, müxtəlif sahələrdə məsul vəzifələr tutub, Xızı rayonunun təşkilində müstəsna xidmətləri olub.

**Cahanov Ramiz Qəzənfər oğlu.** Azərbaycan Politexnik İnstitutunu bitirdikdən sonra uzun illər Bakı Soyuducular Zavodunda məsul vəzifələr tutub. Hazırda müstəqil sahibkarlıq fəaliyyyəti ilə məşğuldur.



Cahanov Ramiz

**Rəhimov Adil Eynullah oğlu.** Azərbaycan Pedoqoji İnstitutunu bitirdikdən sonra uzun illər doğma kəndində işləyib. 1988-ci ildən sonra Xanlar rayonunun Azad kəndində məskunlaşıb.

**Kərimov Cavanşir Kərəm oğlu.** Gəncə Pedoqoji İnstitutunu bitirib. Hazırda Xanlar rayonunun Əbləh kəndində yaşayır, rayonun sayılan ziyalılarından biridir.

**Hacıyev Rəhman Azadxan oğlu.** 1960-cı ildə anadan olub, Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirib, uzun illər Azərbaycan Respublikasının aqrar sektorunda məsul vəzifələrdə çalışıb. Hazırda Moskva şəhərində müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğuldur.



Hacıyev Rəhman

**Cahanov Kazım Qəzənfər oğlu.** 1960-cı ildə anadan olub, Azərbaycan Politexnik İnstitutunu bitirdikdən sonra təyinatla göndərildiyi Qorki Avtomobil Zavodunda bir sıra məsul vəzifələr tutub. Hazırda Qorkidə yaşayır, müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğuldur.

**Həsənov Binyam Göyüş oğlu.** 1954-cü ildə anadan olub. İxtisasca maliyyəçidir. Hazırda Bakı şəhərində müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğuldur.



Cahanov Kazım

**Məmmədov Nazim Hümbət oğlu.** 1956-cı ildə anadan olub. Gəncə Pedoqoji İnstitutunu bitirib. Deportasiyadan sonra Xızı rayonunun Yeni Yaşma kəndində məskunlaşıb. Sosial-təminat sistemində çalışır.

**Cahangirov Cahangir Əli oğlu.** 1958-ci ildə anadan olub, Gəncə Pedoqoji İnstitutunu bitirib. Deportasiyadan sonra elə həmin şəhərdə məskunlaşıb. Gəncənin ictimai-siyasi həyatında fəal iştirak edir, təhsil sistemində xüsusi nüfuzu olan ziyalılardan biridir.



Qəhrəmanov Qəhrəman

**Qəhrəmanov Qəhrəman Bayraməli oğlu.** 1958-ci ildə anadan olub, Azərbaycan İnşaat Mühəndisləri İnstitunu bitirib. Uzun illər Azərbaycan SSR Daxili İşlər Nazirliyinin tikinti trestində məsul vəzifələr tutub. Hazırda müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğuldur.

**Nəsibov Rafiq Məcid oğlu.** 1957-ci ildə anadan olub, Gəncə Pedoqoji İnstitutunu bitirib. Hazırda Şəmkir rayonundakı Qaraqoyunlu (Ağkənd) kənd orta məktəbinin direktorudur.


Zeynalov Şakir

**Zeynalov Şakir Oruc oğlu.** 1960-cı ildə anadan olub, Gəncə Texnologiya İnstitutunu bitirib. Hazırda Moskva şəhərinin sənaye müəssisələrinin birində aparıcı texnoloq-mühəndisdir.

**Nəsibov Famil Nəsir oğlu.** 1960-cı ildə anadan olub, Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirib, Rusiyada elmi fəaliyyətlə məşğul olub. Hazırda Gəncə Kənd Təsərrüfatı Akademiyasında çalışır, kənd təsərrüfatı elmləri doktorudur.

**Məmmədov Altay Qasım oğlu.** 1960-cı ildə anadan olub, Gəncə Texnologiya İnstitutunu bitirdikdən sonra uzun illər Basarkeçər Xalça Fabrikində məsul vəzifələr tutub. Hazırda Özbəkistan Respublikasında müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğuldur.

**Nəcəfov İbrahim Ələstan oğlu.** 1963-cü ildə anadan olub, Azərbaycan Pedoqoji İnstitutunun hərbi hazırlıq fakultəsini bitirib. Hazırda Özbəkistan respublikasında yaşayır, müstəqil sahibkardır.


Bayramov Səhman

**Bayramov Səhman Yusif oğlu.** 1967-ci ildə anadan olub, Gəncə Kənd Təsərrüfatı İnstitutunu bitirib. Baytarlıq elmləri namizədi, Azərbaycan Respublikası Baytarlıq Elmi- Tədqiqat İnstitutunun aparıcı elmi işçisidir.

**Qurbanov Müzamil Əvəz oğlu.** 1966-cı ildə anadan olub, Gəncə Pedoqoji İnstitutunu bitirib. Hazırda Xanlar rayonundakı Çaykənd məktəbinin direktorudur.

**Zeynalov Saday Zeynal oğlu.** 1959-cu ildə anadan olub. Gəncə Pedoqoji İnstitutunu bitirib. Hazırda Gəncə şəhərində müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğuldur.

**Çobanov Salman İbrahim oğlu.** 1957-ci ildə anadan olub, Gəncə Pedoqoji İnstitutunu bitirib. 1988-ci il deportasiyasından sonra Xanlar rayonunun Hacıməlik kəndində məskunlaşıb, rayonun təhsil sistemində xüsusi nüfuzu olan ziyalılardandır.

**Babayev Kamil Rəcəb oğlu.** 1954-cü ildə anadan olub.Gəncə Pedoqoji İnstitutunu və Daşkənd Milis Məktəbini bitirib. Uzun illər Özbəkistanın hüquq-mühafizə orqanlarında çalışıb. Hazırda Bakıda yaşayır. Müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğuldur, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edir. AMİP Nərimanov rayon təşkilatının və "Ağ-

rıdağ" xeyriyyə cəmiyyətinin yaradıcılarından biri olub.

**Abbasov Elba İbrahim oğlu.** 1960-cı ildə anadan olub, Bakı Dövlət Universitetini bitirdikdən sonra təyinatla göndərildiyi Balakən rayonunun təhsil sistemində bir sıra məsul vəzifələr tutub. Hazırda Balakən rayonunda yaşayır.


Nəcəfova Sahibə

**Nəcəfova Sahibə Şiraslan qızı.** 1960-cı ildə anadan olub. Bakı Dövlət Universitetini fərqlənmə ilə bitirib, hazırda Tərtər rayonundakı Bəyim Sarov kənd orta məktəbinin direktorudur.

**Kərimov Mahir Kərim oğlu.** 1963-cü ildə anadan olub, Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirib. Bakıda tikinti biznesi ilə məşğul olur, xeyriyyəçi kimi tanınır.

**Namazov Cəbrayıl Həvil oğlu.** 1961-ci ildə anadan olub, Böyük Qaraqoyunluda Həmkarlar İttifaqı Komitəsinin sədri idi. Hazırda Goranboy rayonunun Qaradağlı kəndində sahibkarlıq fəaliyyəti ilə məşğul olur.

**Babayev Firuz Rəcəb oğlu.** 1962-ci ildə anadan olub. Uzun illərdir Özbəkistanda yaşayır. Müstəqil sahibkardır, xeyriyyəçi kimi tanınır.

**İsmayılov Musa Bəhmən oğlu.** 1956-cı ildə anadan olub. Moskvada Qorki adına Rus Dili və Ədəbiyyatı İnstitutunu bitirib. Şairdir.

**Əsgərov Xankişi Sayad oğlu.** 1961-ci ildə anadan olub, Gəncə Kənd Təsərrüfatı İnstitutunu bitirib.1988-ci ildən sonra Gəncədə məskunlaşıb, Kəpəz rayon Dövlət Sığorta İdarəsinin rəisidir.


İsmayılov Şahvələd

**Əsədov Adil Bəhmən oğlu.** 1961-ci ildə anadan olub. Uzun illər Moskvanın hüquq-mühafizə orqanlarında çalışıb. Hazırda müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğuldur.

**Bayramov Yəhya Kamrəddin oğlu.** 1961-ci ildə anadan olub. Arxangelsk vilayətində sahibkarlıq fəaliyyəti ilə məşğuldur.

**İsmayılov Şahvələd Bəhmən oğlu.** 1962-ci ildə anadan olub, Azərbaycan Tibb Universitetini bitirib. 1988-ci ildə başlayan milli-azadlıq hərəkatının fəallarından biridir. Hazırda Mehdiabad qəsəbəsində hakim işləyir.


İsmayılov Bəşir

**İsmayılov Bəşir Yunis oğlu.** 1959-cu ildə anadan olub. Hazırda Abşeron rayonunun Mehdiabad kəndində yaşayır. Müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğuldur.

**Nağıyev Tofiq Yəvər oğlu.** 1955-ci ildə anadan olub, Gəncə Pedoqoji İnstitutunu bitirdikdən sonra doğma kən-

dində çalışıb. Hazırda Bakı şəhərində yaşayır, ən nüfuzlu kimya-biologiya müəllimlərindən biri kimi tanınır.

**Kərimov Tofiq Kərim oğlu.**1964-cü ildə anadan olmuş, Azərbaycan Dövlət Pedoqoji İnstitutunu bitirdikdən sonra Azərbaycanın müxtəlif bölgələrində müəllimlik etmiş, 1988-ci il deportasiyasından sonra qaçqınlar üçün məktəblərin təşkilində müstəsna xidmətlər göstərmişdi. 1990-cı ildən ömrünün sonuna, 2004-cü ilin iyun ayına qədər Xanlar rayonundakı Qarabulaq kənd məktəbinin direktoru olub.

**İmanov Canpolad Teyyub oğlu.** 1962-ci ildə anadan olub, Azərbaycan Tibb Universitetini bitirib. Məşhur ekstrasensdir, hazırda Bakıda özəl tibbi fəaliyyətlə məşğuldur.

**İsmayılov Fikrət Mehman oğlu.** Polis mayorudur, Abşeron rayon Daxili İşlər İdarəsində çalışır.

**Məmmədov Zamin Kamran oğlu.** Bakı Ali Polis Məktəbini bitirib, polis leytenantıdır.

**Nəcəfov Hafiz Hidayət oğlu.** 1965-ci ildə anadan olub, Azərbaycan Politexnik İnstitutunu bitirdikdən sonra təyinatla göndərildiyi Tolyatti Avtomobil Zavodunda bir sıra məsul vəzifələr tutub. HazırdaTolyatti şəhərində müstəqil sahibkarlıq fəaliyyəti lə məşğuldur.


Həsənov Elmar

**Həsənov Elmar Göyüş oğlu.** 1969-cu ildə anadan olub, Azərbaycan Tibb Universitetini bitirib. Hazırda Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşıdır.

Xatırlanmaq haqqı olan, amma mənim yaddaş xətam səbəbiylə adı çəkilməyənlərin hamısından üzr istəyirəm! Adını çəkdiyim bu insanların hər biri isə harada olmasından, harada yaşamasından asılı olmayaraq Böyük Qaraqoyunlu sevgisinə tapınıblar, öz əməlləriylə o yurd yerini şərəfləndiriblər. Və şükürlər olsun ki, Böyük Qaraqoyunlunu təkcə xatirələrində yox, əməllərində yaşadan bu kamil insanların davamçıları da az deyil. O yurdun üzünü belə görməyən, əslən Böyük Qaraqoyunludan olub 1988-ci il deportasiyasından sonra Bakıda doğulub-böyüyən gənclərin bir çoxu elə o yurdun ab-havasına bələniblər və onların- Bakı Dövlət Universitetinin tələbəsi **Samir Mustafa oğlu Qəhrəmanov**un, Türkiyə Respublikası Polis Akademiyasının tələbəsi **Emin Tapdıq oğlu Quliyev**in, Yekaterinburq İdman Akademiyasının tələbəsi **İlqar Rəşid oğlu Qəhrəmanov**un, Azərbaycan İqtisad Universitetinin tələbəsi **Emil Xeyrəddin oğlu Ələsgərov**un, gənc hüquqşünas **İlkin Dilqəm oğlu Əsgərov**un, Azərbaycan Memarlıq Universitetinin aspirantı və Tələbə Həmkarlar İttifaqı Ko-

mitəsinin sədr müavini **Aqşin Kərim oğlu Kərimov**un timsalında bütün Böyük Qaraqoyunlu gənclərinin o qədim-qayım yurd yerimizin izlərinin tarixdən silinməməsi naminə mümkün olan və olmayan hər şeyi edəcəklərinə mənim əsla şübhəm yoxdur. Şübhəm yoxdur ona görə ki, onların hər birinin həm tarixdən dərs, həm də elə onların yaşında vətənə çıraq olmağı bacaran həmkəndlilərindən nümunə götürmək şansları var...

1988-ci il deportasiyasından sonra ermənilərin Azərbaycan torpaqlarını işğal etmək planları açıq müstəviyə çıxanda Vətən torpaqlarının müdafiəsinə qalxan könüllülər sırasına Böyük Qaraqoyunlunun da onlarca mərd oğlu qoşuldu. Böyük Qaraqoyunlunun sinəsini vətənə sipər edərək, şəhidlik zirvəsinə ucalan ilk övladı isə **Daşdəmir Teyyub oğlu İmanov** oldu. Özünəməxsus qəribə taleyi vardı Daşdəmirin. Hələ lap körpəlikdən tay-tuşları arasında tərsliyi, dəcəlliyi ilə seçilirdi. Onun hərbi xidməti də macəralarsız ötüşmədi. Sovet Ordusunun tərkibində Monqolustana göndərilən Daşdəmir müsəlmanları təhqir edən komandirini şil-küt edərək həbsxanaya düşdü. İrəvanda cəzasını çəkib azadlığa çıxdığı gün, sırf təsadüfdən, bir gecəni onunla birlikdə keçirdik.

İlahi, nə qədər od-alov, enerji vardı bu insanın içində. Elə o od-alovunun da qurbanı oldu. Erməni quldurlarının Çaykənddə yuva saldığı zamanlarda o ətrafa bir quş belə səkməyəndə, Daşdəmir hər gün o yollarla Qarabulağa, Quşçuya gedirdi. Hamı təhlükənin reallığını başa düşürdü. Amma Daşdəmiri erməni xofu ilə yolundan çəkindirmək heç kimə müyəssər olmadı... Və Daşdəmir iki körpə övladını bu Vətənə əmanət qoyub şəhidlik məqamını taleyin xoş qisməti kimi qəbul etdi.



Mumuş kişi həyat yoldaşı Kifayət xanımla

Daşdəmirdən sonra bu yolu **Mumuş kişi** keçdi. Özü də tək yox, ailəlikcə... O dövrdə Ermənistandan deportasiya edilmiş türkləri Qarabağa buraxmamaq haqda Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirovun rəsmi göstərişi olmasına baxmayaraq, Mumuş kişi bütün maneələri keçdi və Xocalıda məskunlaşdı. Niyə? Bu sualın ən dürüst cavabını ondan savayı kimsə bilmirdi, bilməyəcək də. Amma Mumuş kişinin yaxşı mənada prinsipiallığı kənddə hamıya bəlli olduğundan, hər kəs bilirdi onun məhz

Qarabağda məskunlaşmağının əsl səbəbini. O, qəddar düşmənlə açıq mübarizə ümidi ilə getmişdi Xocalıya. Mumuş kişi kənddən lap erkən yaşlarında çıxmış, yurda qırx yaşı ötəndən sonra dönmüşdü. Çoxları onun tezliklə yenə çıxıb gedəcəyini güman etsə də, o qaldı da, ailə qurdu da, təzə ev-eşik saldı da. Zod qızıl mədənlərində çalışırdı. Və bir gün bütün mahal eşitdi ki, bir qrup azərbaycanlı fəhlə mədənin direktoru Qoryun Hakopyanın milli ayrı-seçkilik salmasına qarşı mübarizəyə başlayıb: "üsyançılar"ın önündə isə zodlu Nəriman Qocayev və qaraqoyunlulu Mumuş kişi dayanırdı. Onlar mübarizələrini sona qədər apardılar və azərbaycanlı fəhlələrin hüquqlarının bərpasına nail oldular. Sonra isə... Ömrün ixtiyar çağında böyütdüyü iki oğlundan biri faciəli şəkildə həlak olan Mumuş kişi dağıdılmış ev-eşiyinin, yurd-yuvasının qisasını almaq üçün Xocalıya yollandı. Yaşı o zaman altmışı haqlasa da, hər gecə Xocalı könüllülərinin yanına gedər, öz snayper məharətini nümayiş etdirərdi. Hələ Xocalının mühasirəsindən xeyli əvvəl "Krunk" ona qiyabi olaraq ölüm hökmü çıxarmışdı. Elə o zamanlardı- 1991-ci ilin sentyabr ayında hansı bir işlə bağlısa Bakıya gəlmişdi. Qaçqınlar Cəmiyyətində görüşdük. "Deyirlər quş əvəzinə erməni ovlayırsan", - dedim. Gülə-gülə, "Qardaşoğlu, hələ bu harasıdır. Bəhramın toyuna qədər gərək bu alçaqları qırıb qurtaram. Bəhrama Göyçə qaydası ilə elə bir toy çaldıracağam ki, ermənilər Xankəndindən də qaçacaqlar. Toya mütləq gələrsən, ha", - dedi. O toyda mütləq iştirak edəcəyimə söz verdim, amma...Ermənilər Xocalının qətliam planını cızanda Mumuş kişinin evinə xüsusi diqqət yetirildi və... Mumuş kişi də, arvadı Kifayət xanım da, oğlu Bəhram da həmin gecə Xocalı qurbanlarının cərgəsində şəhidlik zirvəsinə ucaldılar... Amma bu müsibət də Böyük Qaraqoyunlu övladlarının Vətən sevgisinə kölgə sala bilmədi. Cəbhəyə yollanıb yaralananların sayı-hesabı artıq itmişdi. Bununla belə vətən torpaqları uğrunda savaş qaraqoyunlular üçün müqəddəs iş olaraq qalırdı. Qaraqoyunlunun şair oğlu İbrahim Köçkün o günlərdə Çıldıran döyüşündə yaralanmış oğlu Firdovsiyə üz tutaraq bütün yurddaşlarına deyirdi:

*Köçkünəm, bir daha köçkün olmayaq!*
*Taledən, qismətdən küskün olmayaq!*
*Onsuz da dünyaya gəlmişik qonaq...*
*Şəhidlik-müqəddəs bəxşişdi, oğlum!*
*Vətəni qorumaq haqq işdi, oğlum!*

Beləcə, Vətənin dar günündə Böyük Qaraqoyunlunun böyükləri kiçiklərini döyüşə ruhlandırırdılar; küncdə-bucaqda gizlətmirdilər. Və bir gün eşitdik ki, **Eynullah kişinin oğlu Rəhim** Murovdağda itkin düşüb... Eşit-


Elimdar


Elizbar


Qurban

dik ki, Mədət oğlu Əli övlad müsibəti yaşayıb... 1992-ci il oktyabrın 19-da Qubadlıdan xəbər gəldi ki, **Qurban Əvəz oğlu Qurbanov** şəhidlik zirvəsinə ucalıb. Eloba "partkom Əvəz"ə təsəlli verməyə imkan tapmamış qara xəbər "doxdur Nuridin"in qapısını döydü: 21 yaşlı **Elimdar Nuridin oğlu Xanlarov** Sədərəkdə, Mil-təpə deyilən yüksəklik uğrunda döyüşlərdə həlak oldu. Az sonra doxdur Nuridinin qardaşı Firudin də oğul itkisinin müsibətini yaşadı: əmisi oğlu Elimdarla eyni ildə anadan olmuş **Elizbar Firudin oğlu Xanlarov** 1994-cü il yanvarın 3-də qanını Vətən torpaqlarının yarasına məlhəm etdi.

Şəhidlərin sayı günbəgün artdıqca, sorağı cəbhə bölgələrindən gələn Böyük Qaraqoyunlu igidlərinin də sayı çoxalırdı. Usta Nəsibin oğlanları Dağbəyi və Əli, Seyid Mirəlinin uşaqları, Nərimanın oğlu Elçin, Yunisin oğlu İlham, kapitan Maksim Yusif oğlu Qəhrəmanov, Qurban Oruc oğlu Zeynalov. Daha kimlər, kimlər...Körpələr orta məktəbi qurtaran kimi Bakı Ali Hərbi Məktəbinə üz tuturdular. O körpələrdən biri də **Elşad Qoşqar oğlu Həmidov** idi. Hələ 18 yaşı olanda, 1992-ci ildə kursant yoldaşları ilə birgə Ağdərə uğrunda döyüşlərdə iştirak etmiş, mühasirəyə düşmüşdü. Ölümün cəngindən qurtarıb gələndə valideyinlərinə deyirmiş ki, "narahat olmayın mən ölüm üçün doğulmamışam". 1993-cü ilin payız hərbi kampaniyası zamanı isə o artıq bölük komandiri idi. Elə o vaxt hansısa bir xidməti iş üçünsə Bakıya ezam olunubmuş. Ezamiyyət vaxtı hələ bitməsə də, hərbi hissəyə qayıdıb. Böyük qardaşı Eyvaz hələ vaxtının olması səbəbiylə bir gün qonaq qalmasını xahiş edəndə deyib ki, "yaxınlarda irimiqyaslı əməliyyatımız olacaq. Mən orda olmasam uşaqlar elə düşünərlər ki, komandirləri qorxaqdı"...Heç kim onu inadından döndərə bilməyib. Döyüşdə iştirak etməyə tələsib və...Elə həmin döyüşdə də toxum kim əkildi Vətən torpağına. Ondan cəmi bir neçə gün sonra 19 yaşlı əsgər **Məzahim Yusif oğlu Qəhrəmanov** Xanlarda, atasının yenicə məskunlaşdığı Əbləh kəndinin bir neçə kilometrliyində özünü qurban verdi Azərbaycana...

Böyük Qaraqoyunlunun hələlik sonuncu şəhidi isə Vətən uğrunda döyüşlərə hamıdan əvvəl atılmış nurlu bir ziyalı, qeyrətli bir türk ərəni olan **kapitan Nuru Çobanovdur**. Dünyaya 1959-cu ildə Qaraqoyunluda, çoban Şurunun ailəsində göz açan Nuru elə uşaqlığından istiqanlılığı, yanımcıl-

lığı ilə seçilirdi. Dost dediyi adamın yolunda qurban getməyə belə hazır idi. Və bu xasiyyəti az qala fanatiklik həddinə qədər yüksəlmişdi... İrəvan Dövlət Pedoqoji İnstitutunda təhsil aldığı zamanlar əynindən, boğazından qəpik-qəpik kəsdiyi pulları yola xərclər, Bakıya dostlarını görməyə gələrdi...Təhsildən sonra bir müddət Ermənistanın Axta (indiki Razdan) rayonunun Təkəli kəndində işlədi və elə oradan da könüllü olaraq hərbi xidmətə getdi. Hərbi xidmətdən sonra kəndimizə, doğma ocağa dönərək özünün oxuduğu məktəbin aparıcı müəllimlərindən oldu. 1988-ci il deportasiyasından sonra Şəmkirin Günəş kəndində məskunlaşmışdı. İlk vaxtlar dərdini şerlərlə ovudur, yurd nisgilli bayatıları bir-birinə calayırdı. Şair qəlbi dünyanın haqsızlığına üsyan edirdi...Nəhayət, 20 Yanvar qırğınlarından sonra xalqın qəzəbindən qorxan Azərbaycan hökuməti özünümüdafiə batolyonlarının yaradılmasına alakönül də olsa icazə verəndə, Nuru könüllülərin ilk sırasında idi... Sonra rəsmi hərbi hissələrdə xidmətə başladı. Döyüş yolu Tərtərdən, Murovdan keçdi. Gədəbəyin müdafiəsində dayandı. 1993-cü ilin hərbi qiyamı zamanı hadisələrdən bixəbər halda Gəncəyə gəlibmiş ki, qarnizon qərargahında ailəsinin mənzil məsələsini həll etsin. "Surətçilər" onun "cəbhəçi" komandirlərdən biri olduğunu güman edərək, Nurunu da "həbs edib" qərargahın zirzəmisində saxlamış, hətta ölümlə hədələmişdilər. Bəli, bu da müasir Azərbaycan tarixinin bir paradoksu idi: Gəncədə, Bakıda hansı qoçularınsa himayəsində olub silahdan əyləncə məqsədi ilə istifadə edənlər Vətəni qoruyanlarla istədikləri kimi davrana bilirdilər... Nuru o təhlükədən də ağlının köməyi ilə qurtardı. Bəlkə də bu ulu Tanrının iradəsiydi...Hər halda ömrünün üç ili səngərlərdə keçmiş bir zabitin hansısa bir tüfeylinin, müharibəni vətən torpaqlarının alqı-satqısı kim qavrayan bir küçə uşağının axmaq gülləsinə qurban getməsi dünyanın ən böyük ədalətsizliyi olardı. Nurunun belə bir ucuz ölümə tuş gəlməsinə qıymadı Ulu Yaradan! Amma o hadisə Nurunun taleyindən izsiz də ötüşmədi...Keçirdiyi əsəb gərginliyi nəticəsində ağır dərdə mübtəla oldu. Bununla belə xəstəliyə təslim olmadı kapitan Nuru Çobanov. Ömrünün son anına qədər Vətən sərhədlərinin keşiyində durdu...



Nuru Çobanov

...Bir şəhidi də var Böyük Qaraqoyunlunun...Elə bir şəhid ki, onun haqqında ayrıca danışmamaq sadəcə günahdır. Göyçənin ən müqəddəs

ziyarətgahlarından olan Seyid Abbasəli ocağının nümayəndəsi, **Məşədi Mirismayıl Ağanın oğlu MİRƏLƏM**dir o şəhid. Mirələm sözün həqiqi mənasında sınaqlı bir ocağın bəsirətli övladı idi. Lap uşaqlığından öz qeyri-adiliyi ilə hər kəsi inandırmışdı bəsirətli olduğuna. Hərdən görərdin ki, kiminsə ürəyində tutduğu bir niyyətini üzünə oxuyub,-"mətləbin hasil olub, bəs niyə nəzirini vermirsən?",- deyərdi və qarşısındakı adamı təəccüb içində qoyub yoluna davam edərdi. Onun bu qəbil qəfil peyda olmalarını kiminsə dilindən eşitsəydim, bəlkə mən də şəkk edərdim. Amma, görünür, Mirələm bu şəkk ehtimalını qeyri-adi fəhmlə duyduğundan şəxsən bir neçə dəfə də məni heyrətli uzaqgörmələri ilə şoka salmışdı...Həqiqətən də möcüzəvi bir insan idi o. Təsəvvür edin ki, nə rus, nə də erməni dilini bilmədən, o, Ermənistan bir yana, Rusiyanı sərbəstcə gəzib-dolaşır; uşaq olmasına baxmayaraq, hətta dilini belə bilmədiyi böyüklərlə rahatca ünsiyyət yarada bilirdi. Və bütün bunları Mirələm hələ həddi-buluğa çatmamış edirdi. Nəhayət, 18 yaşı tamam oldu və o da bütün həmyaşıdları kim hərbi xidmətə yollandı...Yollandı və cəmi 40 gündən sonra Seyid Abbasəli ocağına şəhid kimi döndü. Uzaq Şərq hərbi dairəsində qulluq edən MİRƏLƏM elə ilk gündəncə müsəlmanlara donuz əti yedirdilməsi əleyhinə qiyam qaldırmış, cəmi bir həftə ərzində ümumən qarnizondakı bütün müsəlmanların sitayiş yerinə çevrilmişdi. Müsəlmanların tapdanan mənəviyyatı uğrunda haqq mübarizəsi isə MİRƏLƏM üçün şəxsi faciəyə çevrildi, hələ hərbi and içməmiş "əsgər" xristian komandirinin qızıl gülləsinə tuş gəldi...Onda hələ 1986-cı il idi. Onda Qırmızı Sovet İmperiyası hələ öz mahiyyətini tam açmamışdı. Onda hələ Azərbaycana, SSRİ-də yaşayan türklərə qarşı təxribatlar açıq müstəviyə çıxmamışdı. MİRƏLƏM isə görünür bütün bunları ilahi fəhmiylə duyurmuş və olacaqlara qarşı üsyan edirmiş. Etdi də, MÜQƏDDƏS ŞƏHİDlik zirvəsinə hamıdan tez ucalmağı bacardı da...

Bir də bir qəlbisınığı vardı o kəndin- **AFAYAT NƏNƏ**. Ondan söhbət açmamağı nə Allah bağışlamaz, nə tarix. Ondan söhbət açmağımın bir özəl səbəbi də var: müharibənin dəhşətlərinin canlı görkü olan o qəlbisınıq ana mənim qələm tutmağımın səbəbkarıdır. İlk dəfə 1975-ci ildə, faşizm üzərində qələbənin 30 illiyi ilə bağlı şagirdlər arasında müsabiqəyə qatılmaq üçün qələmə almışdım onun taleyini. Sonra da yazdım onun nisgilindən. Bu gün o qəlbisınıq ananı xatırlayan tək insan da, bəlkə elə mənəm. Onunsa xatırlanmaq haqqı var... Böyük Qaraqoyunludan ikinci dünya müharibəsində iştirak edənlər saysız-hesabsız olub. O vaxt üçün cəmi 100-110 evdən ibarət olan bir kənddən müharibəyə 200-dən çox adam aparıblar. İsmixan kişi kimi, Zeynalabdin Kərimov kimi şikəst olub

qayıdanları da; İlyas müəllim, şair Bayraməli kimi alman əsir düşərgələrindən, sovet məhbəslərindən keçib dönənləri də; Abbasəli Qəhrəmanov, İman Hüseynov kimi saysız orden-medallarla qayıdanları da; Şiraslan Kərimov, Məhəmmədəli Bəxtiyaroğlu, Bəhram Sarı oğlu kimi alman ordusunda yüksək rütbələr qazanaraq, sonradan sovet hökumətini barmağına dolayanları da; Nəcəf kişinin oğlu Məhəmməd, İbrahim kişinin oğlu Müzəffər, Gülalının oğlu Süleyman kimi sovetlərdən imtina edərək, talelərini qürbətə bağlayanları da oldu. Amma heç bir tale Afayat nənənin oğullarının taleyinə bənzəmədi, heç kimin müsübəti Afayat nənənin müsibəti kimi ağrılı olmadı. Beş oğul anası olub Afayat nənə...Dördünü müharibə aldı əlindən. Sonbeşiyi Cəmşidi də müharibə qurbanları sırasına yazmaq olar. Müharibənin aclığından sonra pozulmuş səhhəti düzəlmədi. Son məqama, son nəfəsə qədər Afayat nənə oğullarının şəhidliyinə inanmadı. Kimi gördüsə, - "yuxumda Bəhramla Azadı görmüşəm, gələcəklər", - dedi. Yadların çiynində getmək istəmirdi qəbir evinə beş oğul anası. Sübh tezdən duran kimi nəyisə bəhanə edib "Cala körpüsü" tərəfə gedər, kəndə gələn yollara baxardı... Amma gəlmədilər oğullar. Səbri tükənib həyatla vidalaşanda isə vəsiyyət etdi ki, onu elə bir yerdə basdırsınlar ki, oradan o yol, o körpü görünsün...

...İnsanları qaynayıb-qarışmış, bir-birinə alışmış, sevincli anları və kədərli məqamları elliklə yaşayan bir oba vardı Göyçədə -Böyük Qaraqoyunlu... Tarixin əsintilərinə 500 il mərdliklə sinə gərən, bircə həftənin içində isə Azərbaycan rəhbərliyinin tarixi xəyanətinin, erməni cəlladlarının tarixi cinayətinin qurbanı olub şəhid düşən bir oba...İndi Böyük Qaraqoyunlunun övladları dünyaya səpələnib. Şəmkir, Xanlar, Goranboy, Bərdə, İsmayıllı, Oğuz, Şəki, Samux, Xızı, Abşeron rayonlarının üst-üstə 60 kəndinə, Gəncəyə, Mingəçevirə, Bakıya səpələnib Böyük Qaraqoyunlunun didərgin övladları... Rusiya Federasiyasının Moskva, Yekaterinburq, Krasnodar, Çelyabinsk, Qorki, Tolyatti, Qazaxıstan Respublikasının Aktyubinsk, Özbəkistanın Daşkənd vilayətlərində, İspaniyada, Türkiyədə, İsraildə didərginlik taleyi, yurdsuzluq ağrı-acısı yaşayırlar Böyük Qaraqoyunlu övladları... Bu həsrətlərə son qoyulacağına, o insanların o yurda dönəcəklərinə isə hələlik bir ümid, bir güman yoxdur...

***Sızqa bulaq, çağla yenə, ax yenə !***
***Dağ şimşəyi, gurla yenə, çax yenə !***
***Şəhid yurdum! Bax!...Yollara bax yenə...***
***Durna köçü görən nə vaxt qayıdar?!.***



*Böyük Qaraqoyunludan bir görüntü...*



*XX əsrin 40-cı illəri Böyük Qaraqoyunlu kolxozunun ən qaynar dövrləri idi ...*







**Nakam taleli həmyaşıdlarım:** *İsfəndiyar Azadxanoğlu, İlqar Qaytaranoğlu və Lütvəli İmanquluoğlu*



*Göyçə qədər doğma GÖYCƏ nənəm...*



**Qaçaq Cəmilin silahdaşı Bəylərin oğlu hesabdar İmran və Mirtalıb**



**Böyük Qaraqoyunlu məktəbinin müəllimləri qarlı bir qış günündə. 1969**



*Göyçəlilərin Bakıdakı toyları o yurddakı toylara heç bənzəmir...*





*Aşıq Ələsgərin məzarı Göyçədən kənarda yaşayan göyçəlilərin övladları üçün müqəddəs ziyarətgah idi...*

*Ən kasıb zamanlarda belə məktəb Qaraqoyunlu övladları üçün ən müqəddəs məkan idi... XX əsrin 50-ci illərindən bir görüntü*



## Yurd həsrətli oxucularıma müraciət!

Göyçə nisgilli ruhlara ithaf olunmuş bu yaddaş ağısında qədim - qayım bir yurd yerimizin tarixinə, gerçək yaşantılarına güzgü tutmağa çalışdım. Nə dərəcədə müyəssər oldum buna?!. Bilmirəm. Bircə onu bilirəm ki, bir qələm sahibinin imkanları daxilində olan hər şeyi etməyə çalışdım, bu yolda heç nəyimi əsirgəmədim. Amma bəri başdan etiraf edim ki, Göyçəyə layiq bir yaddaş abidəsi yaratdığıma əmin deyiləm. Deyiləsi çox söz, aydınlaşdırılası çox mətləb var. Və bu işi görmək - Göyçə barədə sanballı bir əsər ərsəyə gətirmək üçün hər birinizin köməyinizə ehtiyacım var. Sizin öz kəndləriniz haqqında, o yurd yerlərindəki toponimlər, o yurdların dəyərli insanları barədə verəcəyiniz məlumatlar, şəxsi arxivlərinizdə saxladığınız fotoşəkillər növbəti nəşrin daha fundamental olmasını təmin edə bilər. Odur ki, üzümü hər birinizə tutaraq, xahiş edirəm: təklif və iradlarınızı, əlinizdə olan və dərcini zəruri saydığınız məlumatları "Spektr" jürnalının redaksiyasına çatdırın (**əlaqə telefonu: 050 641-20-09**). Mən sizin hər birinizlə görüşməyə, hər birinizi dinləməyə həmişə hazıram. **Təki Göyçə barədə əsil həqiqətləri gələcək nəsillərə layiqincə çatdıra bilək.**

## Kitabın içindəkilər

İçimdən göyərən dərdimdi Göyçə... 3
Dünyanın sinəsinə həkk olunmuş əbədi izlər 13
Ulu yurdun "tarixçi"lər yozumundakı "tarixi" və reallıqlar 62
Göyçədə tarixən mövcud olmuş kəndlər haqqında ensklopedik məlumat 116

Abbasgölü
Abdalağalı
Adaqala
Adatəpə
Adıyaman
Ağapənahlı
Ağbulaq
Ağcaqala
Ağçıraq
I Ağkilsə
Ağkilsə
Ağqala
Ağtala
Ağtəpə
Ağparax
Ağyoxuş
Ağzıbir
Axsaxtovuz
Allahverdibəyli
Alparus
Altundağ
Ardanış
Aşağı Adıyaman
Aşağı Alçalı
Aşağı Altuntaxt
Aşağı Gözəldərə
Aşağı Qaranlıq
Aşağı Şorca
Aşağı Zağalı
Ataxan
Atdaş
Babacan
Bala Qaraqoyunlu
Bala Məzrə
Basarkeçər
Baş Gözəldərə
Başkənd
Baş Keyti
Bədkal
Bığlı Hüseyn
Böyük Ağa
Böyük Qaraqoyunlu
Böyük Məzrə
Buğatəpəsi
Buzxana
Cacaklı
Canəhməd
Cil
Çaxırlı
Çamırlı
Çubuxlu
Daş Keyti
Daşkənd
Dəli Ağacan
Dəlikdaş
Dəliqardaş
Dəmirçiobası
Dərbənd
Dərə
Əbulkəndi
Əfəndi
Əhmədli
Əlikəndı
Əliqırıx
Əmiryar
Ərgişcə
Əyricə həqıqətlərı
Əyrivəng
Gödəkbulaq
Göl
Gör
Göyçə həqiqətləri
Göysu
Göytəpə
Hacı Muğan
Harunlu
Hasansu
Heyranlı
Hərbənd
Hüseynbəyli
Hüseynquluağalı
Xancığazoğlu
Xartlıq
Xatunkənd
İlanlı
İməkdağı
İrəkənd
İynədir
Kamilli
Karca
I Karvansaray
II Karvansaray
Kələqıran
I Kərimkəndi
II Kərimkəndi
Kərkibaş
Kəsəmən
Kəsikbaş
Kəvər
Kolanı
Kosaməmməd
Kuzəcik
Qamışlı
Qanlı Allahverdi
Qaraiman
Qaramurad
Qaraörən
Qarasaqqalqışlağı
Qasımbaşı
Qayabaşı
Qazançı
Qəmasar
Qırxbulaq
Qışlaq
Qızılbulaq
Qızılcıq
Qızılxaraba
Qızılvəng
Qorqudus
Qoşabulaq
Quləli
Quşçu
Mədinə
Mollalı
Nərədüzü
Nuhdanı
Ördəkli həqiqətləri
Örkülü
Paşakəndi
Pəmbək
Rəhmankəndi
Sarıyaqub
Seyıdlər
Sətənağac
Subatan
Sultanəliqışlağı
Şahaqçı
Şahnəzər
Şəhriz
Şəraba
Şışqaya
Şorca
Taxca
Tatul Qışlağı
Taya Qaya
Təzəkənd
Toxluca
Tüstülü
Uzunxaç
Uçtəpə
Vəli Ağalı
Vəlikənd
Yanıx
Yarpızlı
Yaycı
Yuxarı Adyaman
Yuxarı Altuntaxt
Yuxarı Qaranlıx
Yuxarı Şorca
Yuxarı Zağalı
Zar
Zeynalağalı
Zərzibil
Zod
Zolağac

Yaranışdan şəhidliyə qədər 384
Ömrünü yurda çıraq etmiş dağdan ağır kişilər 392
Müqəddəs şəhidlik zirvəsinə "Azərbaycanın Milli Qəhrəmanı" kimi yüksəlmiş Göyçə igidləri 414
Göyçənin ünlü tarixi şəxsiyyətləri 415
Haqq işığı 421
Göyçənin alim övladları 444
Göyçənin nurlu qələm sahibləri 455
Orda bir kənd var, uzaqda... 463
Son söz əvəzi 510

Salman Vilayətoğlu
**Oğuz Elinin müqəddəs ocağı: GÖYÇƏ**
*(Azərbaycan dilində)*

**Kitab "Konsul" MMC-nin bilgisayar mərkəzində yığılıb, səhifələnmişdir.**

**Redaktor:** Şıxlar VƏLİYEV
**Kompüter tərtibatçısı:** Vəfadar FARİZOĞLU
**Korrektor:** Elcan SALMANQIZI

Çapa imzalanmışdır: 16.03.2006
Kağız formatı 60x84 1/16
Həcmi 32 ç.v. Sayı 100. Sifariş71

"TS"mətbəəsində çap olunmuşdur.
*Ünvan: İ.Məmmədov küçəsi, 1059;*
*Tel.:418-68-25*